

Azərbaycan Respublikası
Xarici İşlər Nazirliyi

AZƏRBAYCANIN XARİCİ SİYASƏTİ

Sənədlər məcmuəsi

2006

Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

Bakı
2008

Redaksiya kollegiyasının sədri:
Xarici işlər naziri Elmar M.Məmmədyarov

Redaksiya kollegiyasının məsul katibi:
Bayram K.Həsənov

Azərbaycanin xarici siyasəti: Sənədlər məcmuəsi. 2006
Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi.
Bakı, "GARİSMA" MMC, 2008-ci il, – 848 səh.

ISBN 978-9952-8129-0-9

Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi "Azərbaycanın xarici siyasəti" adlı sənədlər məcmuəsinin silsilə nəşrini davam edir. Məcmuənin ikinci buraxılışı 2006-cı ildə Azərbaycan diplomatiyası və xarici siyasətinin ən vacib sənədlərini əhatə edir.

Buraxılışda çox hissəsi AzərTAc və digər mənbələrdə nəşr edilmiş rəsmi sənəd və materiallar vardır. Onların bir nəşrdə cəmləşdirilməsi Azərbaycanın bu dövrdəki xarici siyasətini daha dolğun göstərməyə imkan verir.

Bir sıra materiallar ilk dəfə olaraq təqdim edilir. Sənədlər xronoloji ardıcıllıqla nəşr edilmişdir.

Məcmuə beynəlxalq münasibətlər sahəsində praktiki və elmi işçilərə, həmçinin diplomatiya, xarici siyasət və beynəlxalq hüquq tarixi ilə maraqlanan şəxslər üçün faydalı ola bilər.

Məcmuə Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Tarix-Arxiv İdarəsinin əməkdaşları tərəfindən hazırlanmışdır.

© Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi

MÜQƏDDİMƏ

Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi "Azərbaycanın xarici siyasəti" adlı sənədlər məcmuəsinin silsilə nəşrini davam edir. Məcmuənin ikinci buraxılışı 2006-cı ildə Azərbaycan diplomatiyası və xarici siyasətinin ən vacib sənədlərini əhatə edir.

2006-cı ildə öz beynəlxalq nüfuzunu və regiondakı liderlik mövqeyini davamlı şəkildə möhkəmləndirən Azərbaycan Respublikasının xarici siyasət fəaliyyəti nəzərəçarpacaq dərəcədə fəallaşmışdır.

Ölkə Prezidenti İlham Əliyev 2006-cı il avqust ayının 14-də Azərbaycan Respublikasının xaricdəki Diplomatik nümayəndəlik və Konsulluqlarının rəhbərlərinin 2-ci müşavirəsindəki çıxışında diplomatik xidmət orqanlarının işinə qiymət vermiş və milli təhlükəsizliyin təmin edilməsi, ölkə vətəndaşlarının maraqlarının davamlı olaraq müdafiəsi və inkişaf etdirilməsi istiqamətində xarici siyasət orqanının gələcək məqsəd və vəzifələrini müəyyən etmişdir.

2006-cı il ərzində Azərbaycan XİN-in fəaliyyəti, müasir dövrün geosiyasi xüsusiyyətlərini, təhlükə və çağırışlarını nəzərə alaraq, ölkənin milli maraqlarına əsaslanırdı.

Ermənistan və Azərbaycan arasındakı silahlı münaqişənin Azərbaycan Respublikasının suverenliyi, ərazi bütövlüyü və beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığına hörmət əsasında nizamlanması ölkənin xarici siyasətində prioritet yer tutmaqda davam etmişdir. Bu istiqamətdə göstərilmiş səylərin nəticəsi beynəlxalq ictimaiyyətin Azərbaycanın strategiyası və konstruktiv yanaşmasının dəstəklənməsinə əsaslanan mövqeyinin möhkəmlənməsi olmuşdur.

Öz xarici siyasətində Azərbaycan separatizm təhlükəsi və onunla bağlı olan terrorizm, transmilli mütəşəkkil cinayətkarlıq, narkotiklərin qanunsuz dövriyyəsi və digər qanuna zidd fəaliyyətlərin aşkar edilməsi və onlara qarşı mübarizə məsələsinə xüsusi diqqət yetirməkdə davam etmişdir.

Avropa İttifaqı ilə əməkdaşlığın möhkəmlənməsi və Avropa Qonşuluğu siyasəti çərçivəsində Fəaliyyət Planının qəbulu ilə ikitərəfli dialoqun keyfiyyətcə yeni səviyyəsi üçün əlavə impuls alınmışdır. Prezident İlham Əliyevin Brüsselə səfəri zamanı Azərbaycan və Avropa İttifaqı arasında Avropanın enerji təhlükəsizliyinin təminatına yardım məqsədilə strateji əməkdaşlıq çərçivəsində anlaşma haqqında imzalanan memorandum Azərbaycanın enerji infrastrukturunun təkmilləşdirilməsi və inkişafı sahəsində fəal xarici siyasi fəaliyyətin birbaşa nəticəsi idi. Ölkə Prezidentinin NATO-nun baş qərargahına da səfəri Azərbaycanın xarici siyasətində mühüm hadisə olmuşdur.

Azərbaycan İslam Konfransı Təşkilatının fəaliyyətində iştirakına böyük diqqət yetirməyə davam etmişdir. 19-21 iyun 2006-cı il tarixində Bakıda keçirilmiş İKT Xarici İşlər Nazirlərinin Konfransının 33-cü sessiyasında Azərbaycan xarici siyasət orqanının rəhbəri bir il müddətinə Konfransın sədri seçilmişdir.

Xarici iqtisadi sahədə dövlətin maraqlarının irəli aparılması qlobal və regional beynəlxalq təşkilatlar çərçivəsində fəaliyyətin prioritet istiqamətlərindən biri olaraq qalmışdır "Azərbaycan Respublikasının Ümumdünya Ticarət Təşkilatına üzv olması prosesi ilə əlaqədar qanunvericiliyin Ümumdünya Ticarət Təşkilatının tələblərinə uyğunlaşdırıl-

ması üzrə Tədbirlər Planı"nın təsdiq edilməsi barədə ölkə prezidentinin sərəncamı bu mənada mühüm hadisə olmuşdur. 2006-cı ildə Azərbaycanın İqtisadi Əməkdaşlıq Təşkilatında sədrliyi çərçivəsində Bakıda İƏT üzv ölkələrinin Xarici İşlər Nazirlərinin 9-cu zirvə toplantısı və 16-cı iclası keçirilmişdir. Azərbaycanın paytaxtı həmçinin beynəlxalq və regional təşkilatlar tərəfindən həyata keçirilən bir sıra tədbirlərin mərkəzi olmuşdur.

Azərbaycanın diplomatik xidmət orqanları Azərbaycan qaçqınları və məcburi köçkünlərinin ağır vəziyyətlərinin yüngülləşdirilməsi istiqamətində səylərini davam etdirmişlər. Bununla əlaqədar olaraq BMT-nin Qaçqınlarla İş Üzrə Ali Komisarının, Beynəlxalq Qırmızı Xaç Komitəsi Prezidentinin, BMT Ümumdünya Ərzaq Proqramının icraçı direktorunun və Qadın maraqlarının inkişafı üzrə BMT fondu icraçı direktorunun Azərbaycana səfərlərini qeyd etmək olar.

Miqrasiya və bununla bağlı miqrasiya prosseslərinin dövlət tərəfindən idarə edilməsi potensialının gücləndirilməsi məqsədi ilə beynəlxalq təşkilatlarla əməkdaşlıq məsələləri Miqrasiya üzrə Beynəlxalq Təşkilatın Baş Direktorunun Azərbaycana səfərinin və bu sahədə hökumətin Beynəlxalq Miqrasiya Təşkilatı ilə birlikdə həyata keçirilən müxtəlif layihələr diqqət mərkəzində olmuşdur.

GUAM ölkələri arasında əməkdaşlığın genişləndirilməsi və dərinləşməsi xarici siyasi fəaliyyətin regional istiqamətinin əsas tərkib hissəsi olaraq qalmışdır. 2006-cı ildə Kiyev şəhərində keçirilmiş Sammitin yekunu olaraq 4 dövlət başçısı "Demokratiya və iqtisadi inkişaf uğrunda təşkilat - GUAM" adlı beynəlxalq qurumun yaradılmasına dair sənədləri imzalamışlar.

2006-cı ilin iyun ayında Almatıda Azərbaycan Prezidenti İlham Əliyevin iştirak etdiyi "Asiyada qarşılıqlı fəaliyyətə və etimad tədbirlərinə dair müşavirə"nin II Sammiti regionda təhlükəsizlik tədbirlərini gücləndirmək, habelə səmərəli iqtisadi əməkdaşlığı qaydaya salmaq işində mühüm hadisə olmuşdur.

Azərbaycanın Avropa ilə Asiya arasında körpü rolunun həyata keçirməsi nəticələrindən biri Qazaxıstan neftinin Bakı-Tbilisi-Ceyhan neft kəməri vasitəsi ilə dünya bazarlarına çatdırılmasına yardım edilməsi və lazımı şəraitin yaradılması üçün Qazaxıstanla əldə edilmiş razılaşma, Bakı-Tbilisi-Ərzurum qaz kəməri layihəsinin başa çatdırılması və bizim Orta Asiyalı tərəfdaşlarımızın bu layihəyə cəlb edilməsi olmuşdur. Xəzər və Aralıq dənizlərini birləşdirən nəqliyyat dəhlizinin yaradılması kimi strateji cəhətdən vacib layihənin inkişaf etdirilməsi çərçivəsində Qars-Axalkalaki-Tbilisi-Bakı dəmir yolunun tikintisi məsələlərinin razılaşdırılması son mərhələyə qədəmlənmişdir.

2006-cı il, həmçinin ikitərəfli münasibətlərin möhkəmləndirilməsi ilə yadda qalmışdır. Prezident İlham Əliyevin xarici dövlətlərə çoxsaylı səfərləri bu prosesdə xüsusi rol oynamışdır. Dövlətimizin başçısı tərəfindən elan edilmiş Azərbaycanın dünyanın aparıcı dövlətləri ilə ikitərəfli tərəfdaşlıq münasibətlərinin inkişaf etdirilməsi və möhkəmləndirilməsi istiqamətinə uyğun olaraq, Prezident ABŞ, Rusiya, Yaponiya, Avropa ölkələrinə səfərlər etmişdir.

Xarici İşlər Nazirinin intensiv səfərləri və apardığı danışıqlar xarici siyasətin tərkib hissəsi olan ikitərəfli münasibətlərin gələcək inkişafına öz töhfəsini vermişdir. Çoxsaylı qarşılıqlı səfərlər, birgə hökumətlərarası komissiyaların və işçi qrupların iclasları və müqavilə-hüquq bazasının genişləndirilməsi ikitərəfli əməkdaşlığın dərinləşməsinə yardım etmişlər. İl ərzində Xəzər dənizinin hüquqi statusu üzrə konvensiyanın layihəsinə dair iş davam etdirilmişdir.

2006-cı ildə Azərbaycanın diplomatik təmsilçiliyi genişləndirilmiş və bu ildə Belarus, Malayziya, Mərakeş və Koreya Respublikasında səfirliklər açılmışdır.

Azərbaycan diplomatik xidmətinin normativ-hüquqi bazası möhkəmləndirilmişdir Dövlət başçısının fərmanları ilə Azərbaycan Respublikasının Səfirliyi və beynəlxalq təşkilat yanında Daimi Nümayəndəliyi haqqında Əsasnamələr, həmçinin Xarici İşlər Nazirliyinin Diplomatik Akademiyasının Nizamnaməsi təsdiq edilmişdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN DÜNYA AZƏRBAYCANLILARININ HƏMRƏYLİYİ GÜNÜ VƏ YENİ İL MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINA TƏBRİKİ

-Hörmətli xanımlar və cənablar!

Mən sizi Yeni il münasibətilə ürəkdən təbrik edirəm.

2005-ci il arxada qaldı. Ölkəmiz üçün 2005-ci il uğurlu il olubdur. 2005-ci ildə qarşımızda duran bütün vəzifələr, bütün planlar həyatda öz əksini tapıbdır. Azərbaycan daha da inkişaf etdi. Azərbaycanda iqtisadi islahatlar, siyasi islahatlar uğurla davam etdirildi. Beynəlxalq əlaqələrimiz gücləndi, Azərbaycan dünyadakı mövqelərini daha da möhkəmləndirə bilmişdir. İkitərəfli və çoxtərəfli müstəvidə bütün ölkələrlə, dost ölkələrlə çox səmərəli əlaqələr qura bilmişdir. Bu əlaqələr bizə imkan verir ki, Azərbaycan dünyadakı mövqelərini daha da möhkəmləndirə bilsin və dünya birliyində öz yerini daha da gücləndirə bilsin.

Bizim üçün ən ağrılı, ən çətin problem Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi və bunun həlli yollarıdır. Bu istiqamətdə də müsbətə doğru addımlar atılmışdır. 2005-ci ildə Birləşmiş Millətlər Təşkilatı bu məsələni öz gündəliyinə salmışdır. Eyni zamanda, Avropa Şurası 2005-ci ilin əvvəlində bu məsələyə dair çox dəyərli qətnamə qəbul etmişdir və bu qətnaməyə əsasən, Ermənistan işğalçı dövlət kimi tanındı. ATƏT öz faktaraşdırıcı missiyasını işğal olunmuş ərazilərə göndərmişdir və missiya orada ermənilərin qanunsuz məskunlaşmasını aşkar etmişdir. Eyni zamanda, Avropa İttifaqı və digər beynəlxalq təşkilatlar bu məsələ ilə bağlı öz işlərini daha da fəallaşdırmışlar. Bütün bunlar deməyə əsas verir ki, ədalətli sülh razılaşmasına biz yalnız və yalnız beynəlxalq hüquq normaları əsasında yaxınlaşa bilərik.

Bildiyiniz kimi, indi danışıqlar Praqa prosesi çərçivəsində aparılır və Praqa prosesi mərhələli həll deməkdir. Azərbaycanın mövqeyi bütün zamanlarda ondan ibarət olmuşdur ki, bu məsələ yalnız və yalnız mərhələli həll çərçivəsində öz həllini tapa bilər və Azərbaycanın ərazi bütövlüyü danışıqlar mövzusu deyil və heç vaxt olmayacaqdır. Bu, bizim prinsipial mövqeyimizdir və danışıqlar yalnız və yalnız bu amillər üzərində qurulubdur. Bizim işimiz haqq işidir. Azərbaycan bu münaqişəyə dair öz mövqeyindən dönməyəcəkdir. Biz bu məsələnin beynəlxalq hüquq normalarına əsasən həll edilməsinin tərəfdarıyıq və ümid edirəm ki, buna nail olacağıq.

Eyni zamanda, Azərbaycan öz ordu potensialını da gücləndirməlidir. Bildiyiniz kimi, bu mənim siyasətimin prioritet istiqamətlərindən biri olmuşdur və bu gün də belədir. Bizim ordumuzun maddi-texniki bazası möhkəmlənir. 2005-ci ildə ordunun xərcləri 2004-cü ilə nisbətən 70 faiz artmışdır. 2006-cı ildə isə 2005-ci ilə nisbətən 100 faiz artacaqdır. Bizim hərbi xərclərimiz 2006-cı ildə 600 milyon dollar səviyyəsinə çatacaqdır və bu da son həddi deyildir. Bizim iqtisadi potensialımız gücləndikcə, əlbəttə ki, orduya ayrılan xərclər daha da böyük olacaqdır. Biz müharibə şəraitində yaşayırıq. Bizim torpaqlarımız işğal altındadır və belə olan halda, orduya diqqət və qayğı hər bir vətəndaşın prioritet məsələsi olmalıdır. Ölkənin Prezidenti və Silahlı Qüvvələrin Ali baş komandanı kimi mən bu vəzifəni öz üzərimə götürmüşəm və gələcəkdə ordumuzun hazırlığı, maddi-texniki bazasının möhkəmlənməsi sahəsində öz səylərimi əsirgəməyəcəyəm.

Biz hamımız yaxşı bilirik ki, hər bir ölkənin hərtərəfli inkişafı üçün, milli maraqlarının maksimum dərəcədə qorunması üçün onun iqtisadi potensialı mühüm rol oynayır. 2005-ci ildə biz bu sahəyə də böyük diqqət göstərmişik. 2003-cü ildən başlanmış Azərbaycanın yeni iqtisadi strategiyası həyata keçirilir. Bu strategiya bizə qısa müddət ərzində Azərbaycanda iqtisadi sahədə çox böyük nailiyyətlər əldə edilməsinə imkan verib-dir.

2005-ci ildə Azərbaycanın iqtisadiyyatı 26 faiz artmışdır. Yəni ümumi daxili məhsulun artımı 26 faiz təşkil etmişdir. Bu, dünyada analoqu olmayan bir göstəricidir və Azərbaycan bu göstəriciyə görə dünyada birinci ölkədir. Müqayisə üçün deyə bilərəm ki, inkişaf etmiş ölkələrdə ümumi daxili məhsul təxminən 2-3 faiz artır, MDB ölkələrində bu, orta hesabla 7 faiz, Azərbaycanda isə 26 faizdir. Sənaye istehsalı 33 faiz artıbdır. Əhalinin pul gəlirləri təxminən 30 faiz artıbdır. Azərbaycanda orta aylıq əmək haqqı artıq 140 dollara gəlib çatıbdır. Son iki il ərzində Azərbaycanda 340 min yeni iş yeri açılmışdır ki, bu da bir daha onu göstərir ki, bizim bütün planlarımız, bəyan etdiyimiz proqramlar reallığa söykənir və uğurla icra edilir.

Azərbaycanda bizi narahat edən problemlərdən biri də yoxsulluqdur. Əgər 2004-cü ilin əvvəlində yoxsulluq şəraitində yaşayanların sayı 49 faiz idisə, 2005-ci ilin əvvəlində bu, 40 faizə düşmüşdür və 2006-cı ilin əvvəlində 29 faiz təşkil edəcəkdir. Əlbəttə, 29 faiz də çoxdur. Mən istəyirəm ki, Azərbaycanda yoxsulluq şəraitində yaşayan bir nəfər də olmasın. Amma bu gözəl dinamika onu göstərir ki, biz düz yoldayıq. Azərbaycanın iqtisadiyyatı inkişaf edir, möhkəmlənir və gələcəkdə daha da böyük sürətlə inkişaf edəcəkdir.

Xalqımızın ümummilli lideri Heydər Əliyevin adını daşıyan və onun təşəbbüsü ilə inşa edilən Bakı-Tbilisi-Ceyhan neft kəməri 2006-çı ildə işə düşəcəkdir. Bakı-Tbilisi-Ərzurum qaz kəməri işə düşəcəkdir. Bu, ölkəmizə böyük miqdarda əlavə maddi vəsaitin daxil olmasına gətirib çıxaracaqdır. Belə olan halda, Azərbaycanda bütün sosial məsələlər də daha da sürətlə öz həllini tapacaqdır.

Bilirsiniz ki, sosial problemlərin həlli bizim üçün başlıca vəzifədir və büdcəmiz də sosial yönümlüdür. Onu da qeyd etməliyəm ki, 2006-cı ildə büdcə xərcləri 2005-ci ilə nisbətən 70 faiz artacaqdır və bütövlükdə, büdcəmiz 4 milyard dollar təşkil edəcəkdir. Ona görə sosial məsələlərə ayrılan xərclər təbii ki, artmalıdır. 2005-ci ildə Azərbaycanda 130 ümumtəhsil məktəbi tikilmişdir. Bu da keçmişdə heç vaxt görünməmiş bir göstəricidir. İndi bölgələrdə və Bakıda yeni məktəblər tikilir, yeni müalicə-diaqnostika mərkəzləri tikilir, yeni yollar salınır, elektrik stansiyaları tikilir, su kəmərləri, qaz xətləri çəkilir. Bütün bunlar inkişafın əlamətidir, inkişafın təzahürüdür. Bütün bunların nəticəsində, görülən işlərin nəticəsində Azərbaycan xalqı yaxşı yaşayacaq, Azərbaycan daha da möhkəmlənəcək və Azərbaycanın hər bir vətəndaşı müsbət dəyişiklikləri öz gündəlik həyatında görməlidir və görəcəkdir. Bizim əsas məqsədimiz bundan ibarətdir. Mənim göstərdiyim rəqəmlər, makroiqtisadi vəziyyəti əks etdirən rəqəmlər, əlbəttə, hər bir vətəndaşın həyatında öz əksini tapmalıdır, hər bir vətəndaş bunu hiss etməlidir. Mənim məqsədim bundan ibarətdir.

Mən hesab edirəm ki, 2006-cı ildə biz bu siyasəti davam etdirməliyik. Azərbaycanda bu siyasətə alternativ siyasət yoxdur və şübhə etmirəm ki, qısa müddət ərzində Azərbay-

can zəngin dövlətə çevriləcəkdir.

2005-ci ildə Azərbaycanda ictimai-siyasi sahədə də müsbət meyillər daha da güclənmişdir. Azərbaycanda sabitlik qorunub saxlanılmışdır, ictimai-siyasi asayiş qorunub saxlanılmışdır. 2005-ci ildə Azərbaycanın gələcəyi üçün mühüm rol oynayan parlament seçkiləri keçirilmişdir. Parlament seçkiləri bir daha göstərdi ki, Azərbaycan xalqı öz seçiminə sadiqdir. Müxtəlif qüvvələr, müxtəlif dairələr bu seçkilərdən, bu hadisədən istifadə edib öz məqsədlərini təmin etmək üçün səylər göstərmişlər. Ancaq Azərbaycan iqtidarı xalqın dəstəyinə arxalanaraq, Azərbaycanın milli maraqlarını maksimum dərəcədə qorudu və möhkəmləndirdi. Parlament seçkilərinin nəticələri tam şəkildə Azərbaycan xalqının iradəsini əks etdirir və bir daha bizim siyasətimizə nə qədər böyük dəstək verilməsindən xəbər verir.

Mən ümid edirəm ki, Azərbaycanda 2006-cı ildə və ondan sonrakı illərdə də ictimai-siyasi vəziyyət müsbət olacaqdır, xalqla iqtidar arasında olan birlik, vəhdət daha da möhkəmlənəcəkdir. Hər bir ölkənin inkişafı üçün bu, çox mühüm bir məsələdir. Harada iqtidarla xalq arasında birlik, vəhdət var, o ölkələrdə inkişaf da var. Harada ki, bu yoxdur, o ölkələr çətin vəziyyətə düşürlər. Bölgədə yerləşən ölkələrin yaxın tarixi onu göstərir ki, harada uçurum var, orada inkişafdan söhbət gedə bilməz, sabitlikdən söhbət gedə bilməz. Azərbaycanda xalqla iqtidar arasında inam var, məhəbbət var, birlik var, vəhdət var.

Mən 2003-cü ildə xalqın dəstəyi ilə prezident vəzifəsinə seçilmişəm. O vaxt bəyan etmişdim ki, mən öz həyatımı doğma xalqıma həsr edəcəyəm. O vaxtdan bu günə qədər öz əməyimlə, öz işimlə çalışmışam və çalışacağam ki, doğma xalqıma ləyaqətlə xidmət edim, Azərbaycanı möhkəmləndirək, Azərbaycanı gücləndirək, Azərbaycanın dövlət müstəqilliyini əbədi, dönməz edək. Azərbaycanın milli maraqlarını daha da möhkəmləndirək. Bütün bu istiqamətlərdə uğurlar var.

Mən qürur hissi ilə deyə bilərəm ki, bu gün Azərbaycan sözün əsil mənasında müstəqil siyasət aparır. Bu siyasət Azərbaycan xalqının milli maraqlarına cavab verir. Bu siyasət Azərbaycanı regionda lider dövlətə çevirir. Bu siyasət gənc, müstəqil ölkə kimi Azərbaycanı dünyada tanıdır. Ümid edirəm ki, görülən bütün işlər və görüləcək işlər bizim gücümüzü daha da artıracaqdır. Azərbaycan öz dövlət müstəqilliyini möhkəmləndirəcək, Azərbaycan regionda daha da möhkəm yerini tutacaq və Azərbaycan xalqı, Azərbaycan vətəndaşları daha da yaxşı, rahat yaşayacaqlar, sülh, əmin-amanlıq, firavanlıq şəraitində yaşayacaqlar. Mənim məqsədim budur. Mənim başqa amalım yoxdur. Mən xalq üçün işləyirəm, xalq üçün çalışıram, xalqa xidmət edirəm. Dəfələrlə demişəm ki, Prezident başda olmaqla, bütün məmurlar xalqın xidmətçiləridir. Bizim vəzifəmiz ondan ibarətdir ki, xalqa xidmət edək, xalqla birlikdə olaq, xalqın qayğıları ilə yaşayaq. Mən buna çalışmışam, bundan sonra da çalışacağam, heç kim və heç nə məni bu yoldan döndərə bilməz.

Əziz dostlar!

Əziz bacılar və qardaşlar!

Bu gün eyni zamanda, Dünya azərbaycanlılarının həmrəyliyi günüdür. Mən bu münasibətlə də sizi ürəkdən təbrik edirəm. Dünyada yaşayan bütün azərbaycanlılara xoş-

bəxtlik, səadət arzulayıram, onları birliyə, həmrəyliyə dəvət edirəm.

Əziz dostlar!

Sizi Yeni il münasibətilə bir daha ürəkdən təbrik edirəm. Sizə cansağlığı, uğurlar, xoşbəxtlik arzulayıram. Sağ olun.

XARİCİ İŞLƏR NAZİRİ ELMAR MƏMMƏDYAROV BƏHREYN KRALLIĞINDA SƏFƏRDƏDİR

Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov yanvarın 3-də Bəhreyn Krallığına ikigünlük rəsmi səfərə yola düşmüşdür.

Xarici siyasət idarəsinin başçısı E.Məmmədyarovu Bəhreyn hava limanında bu ölkənin xarici işlər naziri Xalid bin Əhməd bin Məhəmməd Əl Xəlifə qarşılamışdır. Elə həmin gün Bəhreyn XİN adından nazir E.Məmmədyarovun şərəfinə nahar verilmişdir. Ziyafətdə Bəhreyn XİN-in rəsmi nümayəndələri, parlamentin və hökumətin üzvləri iştirak etmişlər.

Nazir E.Məmmədyarov yanvarın 4-də bəhreynli həmkarı ilə görüşmüşdür. Görüş zamanı ölkələrimiz arasındakı siyasi əlaqələrin yüksək səviyyədə olduğu qeyd edilmiş, iqtisadi və humanitar sahələrdə əlaqələrin daha da genişləndirilməsi və bu əməkdaşlığın hüquq-müqavilə bazasının daha da gücləndirilməsi məsələləri ilə bağlı müzakirələr aparılmışdır. Bəhreynin xarici işlər naziri Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə toxunaraq, ölkəsinin Azərbaycanın haqq işini daim dəstəklədiyini və Ermənistanın ölkəmizə təcavüzünü qətiyyətlə pislədiyini bəyan etmişdir. Nazir E.Məmmədyarov Azərbaycanın ədalətli mövqeyini dəstəklədiyinə görə Bəhreyn Krallığına minnətdarlığını bildirmişdir.

Görüşdə ölkələrimizin xarici işlər nazirlikləri arasında anlaşma memorandumu imzalanmışdır.

Sonra Nazir E.Məmmədyarovu Bəhreyn Krallığının vəliəhdi, Silahlı Qüvvələr Baş Qərargahının rəisi Salman bin Həməd Əl Xəlifə qəbul etmişdir. Nazir səmimi qəbula görə minnətdarlığını bildirərək, Azərbaycan Prezidenti İlham Əliyevin Kral Həməd bin İsa Əl Xəlifəyə ünvanlanmış məktubunu vəliəhdə təqdim etmişdir. Görüşdə qarşılıqlı maraq doğuran bir sıra mühüm məsələlər müzakirə edilmişdir.

Nazir E.Məmmədyarov Bəhreynin kral divanı işləri naziri Əl bin İsa Əl Xəlifə və müdafiə naziri Xəlifə bin Əhməd Əl Xəlifə ilə də görüşmüşdür.

Bəhreynin Ticarət-Sənaye Palatasının sədri İsam Abdulla Fəxri ilə görüşdə ikitərəfli iqtisadi əlaqələrin inkişaf perspektivləri, neft, energetika, turizm, bank sistemi, kənd təsərrüfatı sahələrində əməkdaşlığın inkişaf etdirilməsi və təcrübə mübadiləsi aparılması məsələləri müzakirə edilmişdir. Tərəflər Azərbaycanla Bəhreyn arasında mövcud mal dövriyyəsinin, iqtisadi əlaqələrin genişləndirilməsi məqsədi ilə Müştərək İqtisadi Komissiyanın yaradılmasının vacibliyini vurğulamışlar. Nazir E.Məmmədyarov Azərbaycanın regionun bir çox sosial-iqtisadi inkişaf layihələrində yaxından iştirak etdiyini bildirmiş, ölkəmizin son 10 ildə neft və energetika sahəsində qazandığı uğurlar barədə məlumat vermişdir.

AZƏRBAYCAN NÜMAYƏNDƏ HEYƏTİ BİRLƏŞMİŞ ƏRƏB ƏMİRLİKLƏRİNİN VİTSE-PREZİDENTİNİN DƏFN MƏRASİMİNDƏ İŞTİRAK ETMİŞDİR

Yanvarın 5-də Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) vitse-prezidenti, Baş naziri, Dubay Əmirliyinin Hökmdarı Şeyx Məktum bin Rəşid Al Məktumun dəfn mərasimi keçirilmişdir. Nazir Elmar Məmmədyarovun başçılığı ilə nümayəndə heyəti dəfn mərasimində iştirak etmişdir.

Azərbaycan nümayəndə heyəti Prezident İlham Əliyevin başsağlığını Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti şeyx Xəlifə bin Zaid Al Nəhyana və Dubay Əmirliyinin yeni təyin olunmuş hökmdarı Şeyx Məhəmməd bin Rəşid Al Məktuma çatdırmışlar. Qarşı tərəf hörmət və sayğıya görə ehtiramını bildirmişdir.

Dəfn mərasimində İordaniya kralı II Abdulla, Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğan, Pakistanın Baş naziri Şövkət Əziz və digər xarici ölkələrin rəsmi nümayəndələri iştirak etmişlər.

Elə həmin gün nazir E.Məmmədyarov Abu Dabi Əmirliyinin vəliəhdi, BƏƏ Silahlı Qüvvələri Baş komandanının müavini şeyx Məhəmməd bin Zaid Al Nəhyan, Baş nazirin müavini, xarici işlər üzrə dövlət naziri şeyx Həmdan bin Zaid Al Nəhyan, informasiya və mədəniyyət naziri şeyx Abdulla bin Zaid Al Nəhyan, Ali Şuranın üzvləri, digər əmirliklərin hökmdarları ilə görüşmüşdür. Görüşlərdə ölkələrimiz arasında münasibətlərin inkişaf perspektivləri və qarşılıqlı maraq doğuran digər məsələlər müzakirə edilmişdir.

ARTUR RASİZADƏ İRANIN XARİCİ İŞLƏR NAZİRİ İLƏ GÖRÜŞMÜŞDÜR

Qazaxıstan Prezidenti Nursultan Nazarbayevin andiçmə mərasimində iştirak etmək üçün Astanada səfərdə olan Azərbaycanın Baş naziri Artur Rasizadə yanvarın 11-də İranın xarici işlər naziri Mənuçehr Mottəki ilə görüşmüşdür.

Görüşdə Azərbaycan ilə İran arasında bütün sahələrdə əlaqələrin dərinləşdirilməsi ilə bağlı fikir mübadiləsi aparılmış, nəqliyyat, kommunikasiya, energetika sahələrində əməkdaşlığın genişləndirilməsinin vacibliyi vurğulanmışdır. İran naziri bildirmişdir ki, Azərbaycan Prezidenti İlham Əliyevin Tehrana rəsmi səfəri əməkdaşlığımızın dərinləşdirilməsinə təkan vermişdir. Çox şadam ki, İran ərazisi ilə Naxçıvan Muxtar Respublikasına qazın nəqlinə başlanmışdır və əminəm ki, bu sahədə əlaqələrimiz daha da inkişaf edəcəkdir.

Artur Rasizadə naziri Qurban bayramı münasibətilə təbrik etmiş və bildirmişdir ki, Azərbaycan və İran dost və qardaş ölkələrdir. Blokada şəraitində yaşayan Naxçıvana İran vasitəsilə təbii qaz verilməsi əlaqələrin inkişafı istiqamətində daha bir addımdır.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli məsələsindən danışan Baş nazir demişdir ki, hələ ki, Ermənistan öz işğalçılıq iddialarından əl çəkmir. Lakin bu problemlə bağlı danışıqlar davam etdirilir.

Artur Rasizadə Xəzərin hüquqi statusu məsələsinə də toxunaraq demişdir ki, bu məsələdə Azərbaycan, Rusiya və Qazaxıstanın mövqeyi üst-üstə düşür. Biz üçtərəfli və ikitərəfli müqavilələr bağlamışıq. Arzu edirəm ki, yaxın vaxtlarda İran və Türkmənistan da bu istiqamətdə addımlar atsın və problem öz həllini tapsın.

QAZAXISTANIN VƏ AZƏRBAYCANIN BAŞ NAZİRLƏRİNİN GÖRÜŞÜ OLMUŞDUR

Qazaxıstan Prezidenti Nursultan Nazarbayevin andiçmə mərasimində iştirak etmək üçün Astanaya gəlmiş Azərbaycanın Baş naziri Artur Rasizadə Baş nazir Danial Əhmədov ilə görüşmüşdür.

İki ölkə arasında əlaqələrin dərinləşdirilməsi istiqamətində geniş fikir mübadiləsinin aparıldığı görüşdə Danial Əhmədov bildirmişdir ki, Qazaxıstanın Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinə qoşulması üçün hökumətlərarası saziş artıq hazırdır və yəqin ki, ən yaxın vaxtlarda imzalanacaqdır.

Aktau limanında infrastrukturun genişləndirilməsindən danışan Danial Əhmədov demişdir ki, buradan Bakıya neft daşınması üçün artıq 4 tanker alınmışdır, 2 tanker də yaxın zamanlarda gətiriləcəkdir.

Baş nazir Artur Rasizadə Qurban bayramı münasibətilə öz həmkarını təbrik etmiş, ölkələrimiz arasında əməkdaşlığın daha da inkişaf etdirilməsinin vacibliyinə toxunmuşdur O, Bakıdan Aktauya dənizin dibi ilə optik rabitə xəttinin çəkilməsi, qarşılıqlı surətdə aviaxətlərin artırılması məsələlərini ön plana çəkmişdir.

Tərəflər Azərbaycan-Qazaxıstan hökumətlərarası birgə iqtisadi komissiyasının iclaslarının ildə iki dəfə keçirilməsini qərara almışlar.

XARİCİ İŞLƏR NAZİRLİYİNİN MƏTBUAT MƏRKƏZİNİN MƏLUMATI

9-12 yanvar 2006-cı ildə Azərbaycan Respublikasının Maliyyə naziri Əvəz Ələkbərovun rəhbərlik etdiyi nümayəndə heyəti Hindistan Respublikası Maliyyə Nazirliyinin dəvəti ilə bu ölkəyə rəsmi səfər etmişdir. Səfərin məqsədi iki ölkə arasında maliyyə və bank sahələrində əməkdaşlıq məsələlərinin müzakirə edilməsindən ibarət olmuşdur.

Səfər çərçivəsində Azərbaycan nümayəndə heyəti Hindistanın Maliyyə naziri P.Çidambaram, Hindistanın Ticarət və Sənaye üzrə Dövlət naziri E.V.K.S.Elanqovan, Hindistan Ehtiyat Bankı, Hindistan İdxal-İxrac Bankı və digər bankların rəhbərləri ilə görüşlər keçirmişdir.

Səfər çərçivəsində keçirilmiş görüşlər zamanı iki ölkə arasında maliyyə sahəsində müzakirə mərhələsində olan saziş layihələrinə dair fikir mübadiləsi aparılmış, Azərbaycan və Hindistanın maliyyə və bank qurumları arasında əməkdaşlıq əlaqələrinin perspektivləri müzakirə edilmişdir.

Səfər zamanı nümayəndə heyəti həmçinin Azərbaycan Respublikasının Hindistan Respublikasındakı Səfirliyinin təşəbbüsü ilə Nyu Dehli şəhərində yaradılmış Azərbaycan-Hindistan İnformasiya və Mədəniyyət Fonduna gələrək, onun fəaliyyəti ilə də tanış olmuşdur.

17 yanvar 2006-cı il

XARİCİ İŞLƏR NAZİRLİYİNDƏ BRİFİNQ KEÇİRİLMİŞDİR

TEMATİK BRİFİNQ

Əlimirzamin Əsgərov, Xarici İşlər Nazirinin İnsan Hüquqları, Demokratikləşdirmə və Humanitar Problemlər idarəsinin rəisi

Tahir Tağızadə, Xarici İşlər Nazirliyinin Mətbuat və İnformasiya Siyasəti idarəsinin rəisi

Bakı, Azərbaycan

18 yanvar 2006-cı il

İÇİNDƏKİLƏR

Xarici İşlər Nazirliyinə test üsulu ilə qəbul imtahanların keçirilməsinə dair

STENOQRAM

15:00

Xarici İşlər Nazirliyinin Mətbuat və İnformasiya Siyasəti idarəsinin rəisi Tahir Tağızadə:

Salam. Bir daha sizin hamınızı salamlayıram. Xarici İşlər Nazirliyində növbəti brifinqə xoş gəlmişsiniz. Bugünkü bizim qonağımız, məruzəçimiz Əlimirzamin Əsgərovdur. Ə.Əsgərov nazirliyimizin idarə rəisidir və həmçinin müsabiqə üzrə qəbul komissiyasının məsul katibidir. Bugünkü brifinqin mövzusu XİN-ə qəbul olunma, müsabiqə ilə bağlıdır. Buyurun Əlimirzamin müəllim.

Xarici İşlər Nazirinin İnsan Hüquqları, Demokratikləşdirmə və Humanitar Problemlər idarəsinin rəisi Əlimirzamin Əsgərov:

Xoş gördük bir daha hamınızı. Artıq elan edildiyi kimi, yanvar ayının 23-dən fevral ayının 15-ə qədər nazirlikdə staj keçmə yolu ilə işə qəbul olmaq üçün artıq sənədlərin qəbuluna başlanıbdır. Bu barədə biz elan vermişik, artıq elanlarımız "Xalq" qəzetində, "Bakinski Raboçi" qəzetinin dünənki nömrələrində dərc olunub və İctimai Televiziya vasitəsilə də bu elan yayımlanmışdır.

Biz nazirliyin internet saytında da elanı, işə qəbul qaydalarını, daha doğrusu, imtahan qaydalarını və həmçinin proqramını nazirliyin saytında yerləşdirmişik. Keçən ilki qaydalarla siz yəqin ki, tanışsız. Bu il bu qaydalara müəyyən dəyişikliklər olunub, o cümlədən, yaş həddi 1 yaş artırılmışdır. Qaydalar sizə məlum olduğu kimi, "Diplomatik Xidmət Haqqında" Azərbaycan Respublikasının Qanunun, "Dövlət Qulluğu Haqqında" Azərbaycan Respublikasının Qanunun və AR Prezidentinin 566 saylı, 3 sentyabr 2001-ci il tarixli Fərmanı ilə təsdiq edilmiş "Dövlət orqanlarına Dövlət qulluğuna müsabiqə vasitəsilə qəbul Qaydaları"nın müddəalarını nəzərə alaraq hazırlanmışdır və AR XİN-də vakant diplomatik vəzifələrə işə qəbul olmaq üçün namizədlərlə müsabiqənin keçirilməsini müəyyən edir.

Müsabiqə Nazirlikdə yalnız vakant diplomatik vəzifələr olduqda elan edilir. Şübhəsiz, sadalanmış qanunlara uyğun hazırlanmış bu sənəd müsabiqədə iştirak edən namizədlərin sənədlərinin qəbulu qaydalarını, müsabiqənin ümumi qaydalarını, eyni zamanda müsabiqədə iştirak edən şəxslərə qarşı tələbləri, müsabiqənin neçə mərhələdən keçməsini və işə qəbul olma şərtlərini müəyyənləşdirir.

Müsabiqə 3 mərhələdən ibarət olacaq. Müsabiqənin birinci mərhələsi TQDK-da keçiriləcəkdir. Son iki mərhələ isə, yəni inşa və müsahibə XİN-də keçiriləcəkdir. Sənədlərin qəbulu yanvar ayının 23-də başlayır, fevral ayının 15-dək qəbul davam edəcək. Ərizələr Nazirlikdə saxlanılmır. Sənədlər ya hər gün, ya da günaşırı, qəbul olunmuş sənədlərin həcmindən asılı olaraq, təhvil veriləcək TQDK-na.

Test imtahanında 120 sual olacaq və bu imtahan suallarına görə 80 bal keçid balı sayılır. Ballar belə ümumiləşdirilir: 80 imtahan sualı daxil olunur Azərbaycan tarixindən, Azərbaycan coğrafiyasından, mədəniyyətindən, AR Konstitusiyası üzrə 10 sual, beynəlxalq münasibətlər üzrə 20 sual, beynəlxalq hüquq üzrə 20 sual, beynəlxalq iqtisadi münasibətlər üzrə 20 sual, xarici dil üzrə 10 sual. Bu suallara verilən hər düzgün cavab 1 balla qiymətləndiriləcəkdir. Namizədlərin məntiqi və intellektual səviyyəsini yoxlamaq üçün cavab kartına 40 sual daxil olunub. Bu psixometrik suallardır. Bu suallara verilən hər düzgün cavab 0,5 bal ilə qiymətləndirilir. Yəni keçənilki qaydalardan, burada fərq ondan ibarətdir ki, keçən il bu son söylədiyim 40 suala cavablar qiymətləndirilmirdi. Bu il isə hər psixometrik suala cavab 0,5 bal ilə qiymətləndiriləcəkdir. Test imtahanlarının nəticələri həmin gün elan olunacaq. Test imtahanının yekunlarına görə 80 və daha artıq bal toplamış namizəd inşaların yazılmasına buraxılır. İnşaların yazılması test imtahanından sonra 5 iş günü ərzində həyata keçirilir. İnşalar müəyyən olunmuş mövzular üzrə Azərbaycan və xarici dildə yazılır. Hər inşanın yazılması 1 saat ərzində fasilə verilmədən aparılır.

Onu da qeyd edim ki, test imtahanı zamanı bu imtahan 3 saat çəkir, heç bir fasilə verilmədən bu birinci imtahan TQDK-da keçirilir. İnşalar müəyyən olunmuş mövzular üzrə Azərbaycan və xarici dildə yazılır. Hər inşanın yazılması 1 saat müddətində fasilə verilmədən aparılır. İnşa onun məzmunu və dil səviyyəsi üzrə qiymətləndirilir, yəni məzmun üzrə 10 bal, dil səviyyəsi üzrə 10 bal. İnşaların nəticələri inşalar yazıldıqdan sonra 3 iş günü ərzində elan olunur. İnşanın məzmunu və dil səviyyəsi hər birinə görə 6 və daha artıq bal toplamış namizəd müsahibəyə buraxılır, yəni müsabiqənin son mərhələsinə.

Müsahibə inşaların nəticələri elan olunduqdan sonra 3 iş günü ərzində keçirilir.

Müsahibə hər bir namizədlə fərdi qaydada və 45 dəqiqədən çox olmamaq şərti ilə aparılır. Şəffaflığın təmin edilməsi məqsədilə, müsahibənin videoyazısı aparılır. Namizədin müsahibənin qiymətləndirilməsi ilə bağlı müraciətin araşdırılması zamanı namizədə müvafiq videoyazıdan istifadə olunmaqla cavab verilə bilər. Müsahibə də 10 bal ilə qiymətləndirilir. Müsahibənin də nəticələri həmin gün elan olunur. Müsahibədə 6 və daha artıq bal toplamış namizəd tibbi müayinəyə buraxılır. Müsahibəni keçmiş namizəd Nazirliyin göndərişi ilə müəyyən olunmuş tibb müəssisəsində tibbi müayinədən keçir.

Tibbi müayinə zamanı namizəddə diplomatik xidmətdə işləmək üçün sağlamlıq baxımından məhdudiyyətin olub olmadığı yoxlanılır. Tibbi müayinədən keçmək məqsədilə namizəd indi sadalayacağım sənədləri tibb müəssisəsinə təqdim etməlidir: vərəm dispanserindən arayış; ruhi-əsəb dispanserindən arayış; narkoloji dispanserdən arayış; dəri-zöhrəvi dispanserdən arayış; yaşayış yeri üzrə poliklinikadan xəstəliklə əlaqədar müraciətlər haqqında arayış. Tibbi müayinədən müvəffəqiyyətlə keçmiş namizəd dövlət təhlükəsizliyi baxımından onun diplomatik xidmətdə işləməsinin mümkün olub olmadığını müəyyənləşdirmək üçün qanunvericilikdə müəyyən olunmuş qaydada yoxlanılır

Namizəd bu yoxlamadan keçdikdən sonra Komissiya test imtahanının, inşaların və müsahibənin nəticələri əsasında müsabiqənin yekunları haqqında müvafiq qərar qəbul edir. Bu qərar həmin gün elan olunur və Nazirliyin internet səhifəsində yerləşdirilir. Namizədin müraciəti əsasında Nazirlik tərəfindən test imtahanı, inşalar və müsahibə zamanı topladığı ballar haqqında ona müvafiq arayış verilə bilər.

İşə qəbul olunmaq şərtləri isə aşağıdakılardan ibarətdir:

Müsabiqəni müvəffəqiyyətlə keçmiş namizəd Nazirin əmri ilə stajçı kimi 6 ay müddətinə Nazirliyə işə qəbul olunur. Qeyd etmək istəyirəm ki, keçən dəfəki qaydalarda 1 il staj müddəti müəyyənləşdirilmişdi, bu ilki qaydalarda isə bu 6 ay ixtisara salınır. Staj müddətində stajçı diplomatik xidmətə aid xüsusi bilikləri və təcrübələri əldə etməlidir. Staj müddəti başa çatdıqdan sonra Nazirliyin müvafiq struktur bölmələri stajçının diplomatik xidmətə işə qəbul olunmasının məqsədəuyğun olub-olmadığı barədə Nazirə tövsiyələr təqdim edir. Tövsiyələr müsbət olarsa, stajçı əmək müqaviləsi bağlamaq yolu ilə Nazirin əmri ilə diplomatik vəzifəyə təyin olunur. Diqqətinizə görə təşəkkür edirəm.

T.Tağızadə: Buyurun. İndi suallar. Xahiş edirəm, sualları bir-bir soruşun, həm də ki, mövzuya aid olsun. Buyurun.

Sual: Siz dediniz ki, 6 baldan çox toplayanlar tibbi müəssisələrə göndərilir. O nəyə görə göndərilir tibbi müəssisələrə?

Ə.Əsgərov: 6 baldan yox. Söhbət gedir müsahibədən. Müsahibə bu müsabiqənin son mərhələsidir. Yəni əvvəlki iki mərhələni keçdikdən sonra namizəd müsahibəyə buraxılır və 10 baldan 6 bal toplayanda artıq bu bütün bu mərhələləri uğurla başa vurmuş namizəd sayılır.

Sual: Yəni stajçı qəbul oluna bilərlər...

Ə.Əsgərov: Xeyr. Qəbul olunma üçün bir sıra məsələlər həll olunmalıdır, o cümlədən namizəd tibbi müayinədən keçməlidir, çünki diplomatlar xaricdə, müxtəlif iqlim şərtləri olan ölkələrdə işləyirlər. Ona görə də bunların tibbi müayinədən başqa dediyim kimi, eyni zamanda dövlət təhlükəsizlik baxımından həmin namizədlər daha bir yoxlamadan keçməlidir.

Sual: Keçən il stajçı kimi qəbul olunmuş şəxslər neçə nəfərdir?

Ə.Əsgərov: Onların 8 nəfəri artıq burada stajçı kimi fəaliyyət göstərirlər və səhv etmirəmsə, bu zalda onlar təmsil olunurlar.

Sual: İmtahan hansı gün olacaq? Təyin olunubmu?

Ə.Əsgərov: Test imtahanı, yəni birinci imtahan, çox güman ki, olacaq fevral ayının 26-da.

Sual: Bəs bütün bu prosedur nə qədər vaxt aparacaq?

Ə.Əsgərov: Bütün bu prosedur sənədlərin qəbulu 24 gün səhv etmirəmsə əhatə edir. Ondan sonra 10 gün sonra qanunvericiliyə görə birinci imtahan başlamalıdır. Birinci imtahan da bizdə test imtahanıdır 25-nə düşür. Sadəcə olaraq hamı iştirak edə bilsin deyə bazar gününə salınıb. Bazar günü də ayın 26-dır.

Sual: (Ekspress) Sualım şərtlərlə bağlıdır. Belə başa düşüldü ki, burada yalnız yaş məsə-

ləsində bir qədər dəyişikliklər var, başqa bir dəyişiklik yoxdur şərtlərdə. Amma ötən il kənarda qalanlar bu il də kənarda qalacaq, çünki ötən il 27 yaşı olan bu il artıq bir yaş böyüyüb... Sualım belədir keçən il nəticələr bir az acınacaqlı olub. XİN-də də bunu etiraf elədilər ki, biz gözləmədiyimiz nəticələr aldıq, bal həddi aşağı olub. İndi bu il həmin o nəticələrlə üzləşməmək üçün hansısa bir keçid qaydalarında fərqlənən dəyişiklik olacaqmı?

Ə.Əsgərov: Bəli. Bu yaş həddi 1 il artırılıb. Bu da dəyişiklikdir. Bundan da başqa bu şərtlərdə də dəyişiklik var, o biri şərtlərdə də. Keçən il, söylədiyim kimi, bu intellektual səviyyə, psixoloji, daha doğrusu psixologiya üzrə suallar balla qiymətləndirilmirdi. Bu il isə bu sualların, yəni 40 sualın hər biri 0,5 balla qiymətləndirilir. Yəni əgər bu 40 suala müsbət cavab verilərsə onda artıq 20 bal toplanmış olur. Qalır yerdə 60 bal. Onu da nəzərə alsaq ki, 10 balını toplamaq olar Azərbaycan üzrə biliklərdən və 10 balını dildən toplamaq olar, o biri sahələr üzrə qalır cəmi 40 bal.

Sual: Nazirlikdə indi vakant yerlər varmı?

Ə.Əsgərov: Bilirsiniz, söhbət ondadır ki, bu vakant yerlər ola bilsin 1 ay ərzində də əmələ gəlsin. XİN-də ştat bir az bəzən ölçüsüz olur. Ona görə ki, bir səfirlik açılır, bir konsulluq açılır, rotasiya aparılır, ona görə də bunu bu gün demək imkanım yoxdur.

Sual: Komissiyanın üzvləri kimlərdir?

Ə.Əsgərov: Müsabiqə komissiyasının sədri Xarici İşlər Naziri cənab Elmar Məmmədyarovdur. Müsabiqə komissiyasının sədr müavini nazir müavini cənab Vaqif Sadıqov təyin olunub. Digər nazir müavinləri müsabiqə komissiyasının üzvləridir. Kadrlar idarəsinin rəisi komissiya üzvlərinin tərkibinə salınıb, bir də bəndeyi-həqiriniz məsul katibdir.

Sual: Mənim iki sualım var. Birincisi ondan ibarətdir ki, göstərilən tələblər, hansı ki, sənədlər qəbulunda ..., onların biri olmadıqda sənədlər qəbul oluna bilərmi?

Bir də bu inşalarda dil səviyyəsi ...?

Ə.Əsgərov: Yəni inşalar iki dildə yazılır. Yazılır xarici dildə, kimin hansı xarici dili var. Ola bilər yazılsın ingilis dilində, ola bilər yazılsın, məsələn biri ingilis dilini öyrənib, biri fransız dilini keçib. Yəni namizədin xarici dili bilməsindən asılıdır. Rus dili xarici dil sayılmır.

T.Tağızadə: Bir məsələ də var. Burada sual səsləndirilmişdir ki, bu qaydalara hansı dəyişikliklər nazirlik tərəfindən olunmuşdur. Misal üçün dəyişikliklərin biri elə məhz inşanın yazılması ilə bağlıdır. Keçən il inşaları biz 5 bal sistemi ilə qiymətləndirmişik, indi 10 bal sistemi ilə qiymətləndirilir. Yəni, o da bir qədər "flexibility", bir qədər müəyyən çeviklik üçün imkan verir həm imtahanı yoxlayanlara, həm də ki namizədlərə. Bu da bir amildir.

Ə.Əsgərov: Bəli, tamamilə doğrudur. Bir də onu demək istəyirdim ki, bayaq sizin o sualınızla bağlı, ümumiyyətlə bu müsabiqə Nazirlikdə vakant yerlər müəyyənləşdikcə, hər dəfə vakant yerlər olduqca, yəni buna ehtiyac olduqda aparılacaq. Yəni bu heç də o demək deyil ki, hər il 2 dəfə, 3 dəfə aparılacaq.

Sual: Sualın birinci hissəsi ilə bağlı.

Ə.Əsgərov: Sənədlər yalnız bu göstərilən şərtlər tam olduqda qəbul olunur. Yəni, tuta-

lım bu qaydaların mən hamısını oxumaq istəməzdim sizin üçün, çünki bu çox vaxt apara bilər. Bu qaydalar yerləşdirilmişdir bizim nazirliyin internet saytında və indi mən bildiyimə görə bu qaydalar sizə burada paylanıla bilər və bu qaydalarla tanış ola bilərsiniz. Qaydalarda bütün şərtlər göstərilir.

T.Tağızadə: Buyurun növbəti sual... Çox sağ olun, minnətdarıq sizə.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ABŞ AVROPA KOMANDANLIĞININ KOMANDAN MÜAVİNİ GENERAL ÇARLZ UOLDUN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 19-da Prezident sarayında ABŞ Avropa Komandanlığının Komandan müavini general Çarlz Uoldun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Dövlətimizin başçısı nümayəndə heyətinin Azərbaycanda bir sıra səmərəli görüşlər keçirdiyi barədə məlumatı olduğunu qeyd etdi. O, bu səfərin ölkələrimiz arasında hərbi sahədə əməkdaşlığa öz töhfəsini verəcəyinə ümidvar olduğunu bildirdi.

General Çarlz Uold Azərbaycanda hərbi sahədə əldə edilmiş nailiyyətlərin, habelə Azərbaycan Respublikası Ərazilərinin Minalardan Təmizlənməsi üzrə Milli Agentliyin fəaliyyətinin nümayəndə heyətində böyük təəssürat yaratdığını bildirdi və Agentlik tərəfindən həyata keçirilən işlərin digər ölkələr üçün yaxşı nümunə olduğunu vurğuladı.

General Çarlz Uold Azərbaycanda keçirilmiş parlament seçkiləri ilə əlaqədar Prezident İlham Əliyevə təbriklərini çatdırdı.

XARİCİ İŞLƏR NAZİRİ ELMAR MƏMMƏDYAROV STRASBURQDA SƏFƏRDƏDİR

E.Məmmədyarov yanvarın 20-də Avropa Şurasının baş katibi Terri Devislə görüşmüşdür. Görüşdə Azərbaycanın bu təşkilatla əməkdaşlığının inkişaf perspektivləri, regionda mövcud münaqişələr, o cümlədən Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi müzakirə olunmuşdur.

Səfər müddətində E.Məmmədyarovun Avropa Şurası Parlament Assambleyasının sədri Rene van der Linden və baş katib Bruno Hallerlə görüşləri nəzərdə tutulmuşdur.

XARİCİ İŞLƏR NAZİRLİYİNİN MƏTBUAT MƏRKƏZİNİN MƏLUMATI

2006-cı ililn 19 yanvar tarixində Cenevrədə BMT-nin Uşaq hüquqları üzrə Komitəsinin 41-sessiyası çərçivəsində Azərbaycan Respublikası Hökumətinin "BMT-nin Uşaq hüquqları haqqında Konvensiyası" üzrə ikinci dövri hesabatına baxılmışdır.

Nümayəndə heyətinin başçısı Azərbaycan Respublikasının xarici işlər nazirinin müavini Xələf Xələfov iclas zamanı açılış çıxışı edərək Azərbaycanda insan hüquqlarının və əsas azadlıqlarının təmin edilməsinin dövlətin əsas məqsədlərindən olduğunu qeyd etmişdir.

Bildirmişdir ki, Azərbaycanda bütövlükdə insan hüquqları, xüsusilə də uşaq hüquqlarının təşviqi və qorunmasına yönəlmiş müvafiq tədbirlər həyata keçirilir, o cümlədən yeni proqramlar və qanunvericilik aktları qəbul edilir.

Eyni zamanda, nümayəndə heyətinin başçısı Azərbaycan Respublikasında qısa müddət ərzində nail olunmuş irəliləyişləri vurğulamış, müvafiq problemlərin mövcud olduğunu və onların aradan qaldırılması üçün müvafiq işlərin aparılmasının davam etdirilməsinin vacibliyini bildirmişdir.

Nazir müavini X.Xələfov Komitə ilə açıq dialoqun aparılmasına və səmərəli əməkdaşlığın davam etdirilməsinə əmin olduğunu diqqətə çatdırmışdır.

Komitənin eksperti və Sədri, həmçinin Azərbaycan üzrə məruzəçisi Yakob Eqbert Doek Azərbaycanın müqayisəli gənc ölkə olduğunu və iki əsas problemlə - bazar iqtisadiyyatına keçid və Azərbaycanın Dağlıq Qarabağ regionundakı problemlərlə üzləşdiyini qeyd etmişdir. Buna baxmayaraq, c-b Y.E.Doek ölkədə uşaq hüquqlarının təşviqi ilə bağlı görülən səyləri yüksək qiymətləndirmişdir.

Eyni zamanda, Komitənin digər üzvləri öz suallarını ünvanlanmış və Azərbaycan Respublikası Hökumətinin nümayəndə heyətinin üzvləri onları ətraflı cavablandırmışlar.

Komitənin Sədri Azərbaycan Respublikası Hökumətinin nümayəndə heyətinə canlı dialoqa görə təşəkkürünü bildirmiş, uşaq hüquqlarının qorunması və təmin edilməsində əldə olunmuş proqresi vurğulamış, bu sahədə problemlərin həll edilməsinə ölkənin yanaşmasını təqdirəlayiq hesab etmiş, dövlətin doğru yolda olduğunu bildirmiş, habelə uşaqların tərbiyələndirilməsi işində irəliləyişləri qeyd etmişdir.

Vurğulamışdır ki, göstərilən davamlı səylər, xüsusilə köçkün uşaqların və küçə uşaqlarının problemlərinin həllinə yönəlmiş tədbirlər və bu istiqamətdə həyata keçirilən layihə və proqramlar təqdirəlayiqdir.

Səfər çərçivəsində xarici işlər nazirinin müavini X.Xələfov Bern şəhərində İsveçrənin Federal Xarici İşlər Departamentinin Dövlət Katibi M.Ambühl ilə görüş keçirmişdir.

Görüşdə Azərbaycan-İsveçrə əlaqələrinin hazırkı vəziyyətinə və əməkdaşlığın gələcək istiqamətlərinə dair geniş fikir mübadiləsi aparılmışdır.

Tərəflər İsveçrənin xarici işlər nazirinin Azərbaycana səfəri, Bern şəhərində 2006-cı ilin ilk rübündə Azərbaycan-İsveçrə Birgə İqtisadi Komissiyasının iclasının keçirilməsi və razılaşdırılmış "İki ölkənin XİN-ləri arasında miqrasiyaya dair Birgə Bəyanat", "İnvestisiyaların təşviqi və qarşılıqlı qorunması haqqında Saziş", "Gəlirlərə və əmlaka görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması haqqında Saziş" və "Texniki, maliyyə və humanitar əməkdaşlıq üzrə Saziş" layihələrinin yaxın gələcəkdə imzalanması məsələlərini müzakirə etmişlər.

Görüş zamanı Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi, təhlükəsizlik, dövlət sərhədlərinin mühafizəsi və digər məsələlərə toxunulmuşdur. Eyni zamanda, tərəflər iqtisadi-ticarət, kənd təsərrüfatı, turizm, ətraf mühit, təhsil, mədəniyyət və digər sahələrdə əməkdaşlığın inkişaf etdirilməsində maraqlı olduqlarını bildirmişlər. Həmçinin, iki ölkənin beynəlxalq və regional təşkilatlarda əməkdaşlıq imkanları nəzərdən keçirilmiş və birgə səylərin göstərilməsi müzakirə edilmişdir.

İşlər İdarəsi

Həmçinin Tərəflər hazırda davam etməkdə olan BMT islahatları, o cümlədən, xüsusilə aktual xarakter daşıyan BMT Təhlükəsizlik Şurası və İnsan Hüquqları Komissiyasının islahatları, beynəlxalq və regional əməkdaşlıq məsələləri üzrə fikir mübadiləsi aparmışlar.

Bundan başqa, nazir müavini Xələf Xələfov İsveçrəyə səfəri zamanı Beynəlxalq Qırmızı Xaç Komitəsinin Prezidenti C.Kellenberqer, Beynəlxalq Miqrasiya Təşkilatının Baş Direktoru B.Makkinli, BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının Avropa Regional Bürosunun Direktorunun köməkçisi D.Lambo və BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarının müavini xanım M.Vilyams ilə görüşlər keçirmişdir.

Görüşlər zamanı humanitar hüququn inkişafı, qaçqın, məcburi köçkün və itkin düşmüş şəxslər, o cümlədən miqrasiya məsələləri, insan hüquqlarının inkişafı və möhkəmləndirilməsi müzakirə olunmuşdur.

Eyni zamanda, Azərbaycan Respublikasının Hökuməti ilə BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarlığı arasındakı əməkdaşlığın inkişafından məmnunluq vurğulanmışdır.

21 yanvar 2006-cı il

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV MACARISTAN XARİCİ İŞLƏR NAZİRLİYİNİN SİYASİ MƏSƏLƏLƏR ÜZRƏ DÖVLƏT KATİBİ ANDRAŞ BARŞONİNİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 23-də Prezident sarayında Macarıstan Xarici İşlər Nazirliyinin siyasi məsələlər üzrə dövlət katibi Andraş Barşoninin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Dövlətimizin başçısı Azərbaycanın Macarıstanla ikitərəfli əlaqələrin inkişafına böyük əhəmiyyət verdiyini və ölkəmizin Budapeştdə səfirliyinin açılmasının bunun yaxşı nümunəsi olduğunu qeyd etdi. O, siyasi, iqtisadi, mədəni və digər sahələrdə əlaqələrimizin bundan sonra da inkişaf etdirilməsinin zəruriliyini vurğulayaraq, bu səfərin ikitərəfli münasibətlərimizin inkişaf etdirilməsi işinə öz töhfəsini verəcəyinə əminliyini bildirdi. Prezident İlham Əliyev cənab Barşoni ilə Avropa Şurasındakı birgə fəaliyyətini məmnunluqla xatırlayaraq, Azərbaycanın Avropaya inteqrasiya siyasətinin böyük önəm daşıdığını vurğuladı.

Andraş Barşoni ölkəsinin Azərbaycan ilə ikitərəfli əlaqələrini genişləndirmək arzusunu ifadə edərək, səfərinin bu istiqamətdə atılan mühüm addım olduğunu qeyd etdi. Qonaq Azərbaycanın Macarıstanda səfirliyinin açılmasının iki ölkə arasında əlaqələrin inkişaf etdirilməsi üçün yaxşı imkanlar yaratdığını bildirdi. O, Budapeştdə Azərbaycanın biznes adamlarının iştirakı ilə seminarın keçirildiyini xatırlatdı və belə bir tədbirin bu ilin sonuna qədər Bakıda da keçiriləcəyini diqqətə çatdırdı.

XARİCİ İŞLƏR NAZİRLİYİNDƏ BRİFİNQ KEÇİRİLMİŞDİR

Yanvarın 23-də xarici işlər nazirinin müavini Araz Əzimov Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə aradan qaldırılması ilə bağlı Azərbaycan və Ermənistanın xarici işlər nazirləri Elmar Məmmədyarov və Vardan Oskanyan arasında Londonda keçirilmiş görüşün yekunlarına dair brifinq keçirmişdir.

ATƏT-in Minsk qrupunun həmsədrlərinin təşəbbüsü ilə keçirilən görüşün gündəliyinin Praqa prosesi çərçivəsində müzakirə edilən məsələlərdən ibarət olduğunu diqqətə çatdıran nazir müavini, görüşü vacib və faydalı adlandırmışdır. O, danışıqlarda münaqişənin həlli istiqamətində ətraflı müzakirələr aparıldığını bildirmişdir.

A.Əzimov vurğulamışdır ki, münaqişənin həlli istiqamətində Azərbaycanın müzakirə etdiyi variantlar ölkəmizin qanunvericiliyinə, beynəlxalq hüquq normaları və prinsiplərinə söykənir. Dağlıq Qarabağın gələcək statusu Azərbaycanın ərazi bütövlüyü və beynəlxalq hüquq prinsipləri çərçivəsində, demokratik əsaslarla Dağlıq Qarabağın erməni və azərbaycanlı əhalisi tərəfindən birgə müəyyənləşdirilməlidir. Bu məsələdə başqa variantlar qəbul edilə bilməz.

Azərbaycanın münaqişənin həllini təkcə torpaqların qaytarılmasında görmədiyini söyləyən nazir müavini, buraya, eyni zamanda, Dağlıq Qarabağın erməni mənşəli Azərbaycan vətəndaşları ilə azərbaycanlı əhalinin sülh, əmin-amanlıq və əməkdaşlıq şəraitində normal yaşaması, hər iki icmanın təmsil ediləcəyi birgə idarəetmə sistemi yaradılmasının daxil olduğunu açıqlamışdır.

Ermənistan mətbuatında Dağlıq Qarabağın statusunu müəyyənləşdirmək üçün referendum keçirilməsi barədə razılıq əldə edilməsi ilə bağlı səslənən fikirlərə münasibətini bildirən A.Əzimov, sözügedən məsələnin, Dağlıq Qarabağ da daxil olmaqla, Azərbaycanın beynəlxalq səviyyədə tanınmış bütün ərazisinə şamil edilən Azərbaycan Respublikası Konstitusiyasının müddəalarına əsasən, qeyri-mümkünlüyünü nəzərə çarpdırmışdır. Belə ki, əsas qanunumuzda qeyd edilən müvafiq məsələlərə aid referendum yalnız Azərbaycanın bütün ərazisində, ümummilli səviyyədə keçirilə bilər. Azərbaycan n ərazisində başqa cür referendum keçirilə bilməz.

A.Əzimov London görüşündə Azərbaycan və Ermənistan prezidentlərinin növbəti görüşü üçün prezidentlərə təklif verilməsinin qərara alındığını bildirmişdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV RUSİYA HÖKUMƏTİ SƏDRİNİN MÜAVİNİ, MÜDAFİƏ NAZİRİ SERGEY İVANOVUN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 24-də Prezident sarayında Rusiya Federasiyası hökuməti sədrinin müavini, müdafiə naziri Sergey İvanovun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Dövlətimizin başçısı Azərbaycan ilə Rusiya arasında siyasi, iqtisadi, o cümlədən hərbi və hərbi-texniki sahələrdə əlaqələrin inkişafından məmnun olduğunu bildirdi. Ölkələrimiz arasındakı münasibətlərin mehriban qonşuluq və dostluq prinsiplərinə əsaslandı-

ğını vurğulayan Prezident İlham Əliyev ötən il Rusiyada Azərbaycan ilinin uğurla keçirildiyini qeyd etdi və bu il Azərbaycanda da Rusiya ilinin müvəffəqiyyətlə keçiriləcəyinə əminliyini ifadə etdi. Dövlətimizin başçısı ümidvar olduğunu bildirdi ki, ölkələrimiz arasında müxtəlif sahələrdə, o cümlədən hərbi qurumlar arasında mövcud olan ikitərəfli münasibətlər bundan sonra da inkişaf etdiriləcəkdir.

Sergey İvanov Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin salamlarını dövlətimizin başçısına çatdıraraq dedi ki, artıq Rusiya rəhbərinin Azərbaycana növbəti səfərinə hazırlıq işləri getməkdədir. 2000-ci ildə Rusiya Federasiyası Təhlükəsizlik Şurasının sədri kimi Bakıya səfər etdiyini nəzərə çatdıran qonaq həmin səfər zamanı xalqımızın ümummilli lideri Heydər Əliyev ilə görüşünü məmnunluqla xatırladı. S.İvanov ölkələrimiz arasında müxtəlif sahələrdə, o cümlədən hərbi və hərbi-texniki sahələrdə əlaqələrin bundan sonra da inkişaf etdiriləcəyinə əminliyini ifadə etdi.

Prezident İlham Əliyev Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin salamlarına görə minnətdarlığını bildirdi və onun da salamlarını Rusiyanın dövlət başçısına çatdırmağı xahiş etdi.

XARİCİ İŞLƏR NAZİRİ RUSİYA FEDERASİYASI XARİCİ İŞLƏR NAZİRİNİN MÜAVİNİ QƏBUL ETMİŞDİR

2006-cı ilin yanvar ayının 24-də Azərbaycan Respublikası Xarici İşlər Naziri Elmar Məmmədyarov Rusiya Federasiyası Xarici İşlər Nazirinin müavini Qriqori Karasini qəbul etmişdir.

Nazir E.Məmmədyarov qonağı səmimi salamlayaraq iki ölkə arasında münasibətləri yüksək qiymətləndirmiş və bu əlaqələrin daha da genişlənməsinə tərəfdar olduğunu bildirmişdir. O, Rusiyanın Azərbaycan üçün siyasi, ticarət-iqtisadi, humanitar sahələrdə əsas tərəfdaşlarından olduğunu vurğulamışdır.

Öz növbəsində Nazir müavini Q.Karasin səmimi qəbula görə təşəkkürünü ifadə etmiş, Rusiya ilə Azərbaycan arasında bir çox əlaqələrin, o cümlədən iqtisadi, mədəni və s. sahələrdə son illər ərzində intensivləşdiyini və keyfiyyətcə yeni mərhələyə çıxdığını bildirmişdir. O, bu səpkidə cari ildə Azərbaycanda Rusiya İlinin qeyd edilməsini önə çəkmiş və onun açılışında Rusiya Prezidenti Vladimir Putinin iştirak edəcəyini söyləmişdir.

Sonra Nazir E.Məmmədyarov qonağın xahişi ilə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində görülən işlər, ölkəmizdəki mövcud ictimai-siyasi vəziyyət, aparılmış islahatlar, Bakı-Tbilisi-Ceyhan neft kəməri, qeyri-neft sektorunun inkişaf etdirilməsi və digər məsələlər ilə bağlı məlumat vermişdir.

Görüşdə həmçinin regionda baş verən proseslər, Xəzərin hüquqi statusunun müəyyənləşdirilməsi ilə bağlı danışıqlar, Rusiya ilə Azərbaycan arasında sərhədlərin delimitasiyası, MDB-nin səmərəliyinin artırılması və digər qarşılıqlı maraq kəsb edən məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.

XARİCİ İŞLƏR NAZİRLİYİNİN MƏTBUAT MƏRKƏZİNİN MƏLUMATI

Cənab Şon MakKormak

ABŞ Dövlət Departamentinin Sözçüsü

Hörmətli cənab MakKormak,

Yanvar ayının 23-də keçirilmiş press-brifinqdə Sizin Cənubi Qafqaz bölgəsində yaranmış enerji böhranına dair fikirlərinizlə bağlı cavab yazıram. Bu həqiqətdir ki, Rusiyadan təbii qazın ötürülməsinin kəsilməsi ilə əlaqədar Azərbaycan öz qonşusu və strateji tərəfdaşı olan Gürcüstana bu nəticələrin aradan qaldırılmasında köməklik göstərir. Artıq böyük həcmdə Azərbaycan qazı göndərilmiş və Gürcüstan Prezidenti Mixail Saakaşvili Prezident İlham Əliyevə zəng edərək Azərbaycan tərəfinin onun ölkəsini qısa bir zamanda enerji resursları ilə təmin etdiyinə görə öz minnətdarlığını bildirmişdir.

Eyni zamanda, Sizə olan hörmətimlə "Azərbaycan qazının Ermənistana göndərilməsi" bəyanatınızla razılaşa bilmərəm. Yəqin ki, bilirsiniz, Ermənistanın mənim ölkəmə qarşı hələ də davam edən silahlı təcavüzü nəticəsində Azərbaycanın 20% ərazisinin hərbi işğala məruz qalmasının nəticəsidir ki, mənim Hökumətim bu ölkə ilə nə ticarət, nə də iqtisadi əlaqələri saxlamır. Bu, həmişə Azərbaycan tərəfinin mövqeyi kimi hər bir beynəlxalq sənədə müvafiq olaraq, müqavilə öhdəliklərində əks olunur.

Xahiş edirəm ki, bu qeyd Azərbaycan Respublikasının rəsmi mövqeyi kimi qəbul edilsin və həmçinin gələcəkdə mətbuat tədbirləri zamanı nəzərə alınsın.

Səmimiyyətlə,

Tahir Tağızadə

Mətbuat və İnformasiya Siyasəti idarəsinin rəisi

Azərbaycan Xarici İşlər Nazirliyi

Bakı şəhəri

24 yanvar 2006-cı il

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AVSTRİYANIN DÖVLƏTİN QORUNMASI VƏ TERRORİZMƏ QARŞI MÜBARİZƏ ÜZRƏ FEDERAL AGENTLİYİNİN DİREKTORU GERT-RENE POLLİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 25-də Prezident sarayında Avstriyanın Dövlətin Qorunması və Terrorizmə Qarşı Mübarizə üzrə Federal Agentliyinin direktoru Gert-Rene Pollini qəbul etmişdir.

Dövlətimizin başçısı Azərbaycan ilə Avstriya arasındakı münasibətlərin yüksək səviyyədə olduğunu qeyd etdi. Avstriyanın hazırda Avropa İttifaqında sədrlik etdiyini vurğulayan Prezident İlham Əliyev Azərbaycanın bu qurum ilə yaxından əməkdaşlıq etdiyini, ölkəmizin "Yeni qonşuluq siyasəti"nin fəal iştirakçısı olduğunu bildirdi. Dövlətimizin başçısı hazırda terror təhlükəsinin qlobal xarakter daşıdığını diqqətə çatdıraraq, Azərbaycanın terrorizmlə mübarizədə çox fəal iştirak etdiyini, regionda və dünyada sülhün, təhlükəsizliyin təmin edilməsi işinə öz töhfəsini verdiyini vurğuladı. Prezident İlham

Əliyev ölkələrimiz arasındakı əməkdaşlığın bundan sonra da inkişaf edəcəyinə əminliyini bildirdi.

Gert-Rene Polli terrorizm ilə mübarizədə Azərbaycanın önəmli rol oynadığını vurğulayaraq, bu sahədə ölkəmizlə əməkdaşlığın Avstriya üçün böyük əhəmiyyətə malik olduğunu diqqətə çatdırdı. O, Azərbaycanın geosiyasi baxımdan çox mühüm mövqedə yerləşdiyini qeyd edərək, ölkəmizin Avropa İttifaqına inteqrasiyası üçün yaxşı imkanlar olduğunu bildirdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ATƏT-İN FƏALİYYƏTDƏ OLAN SƏDRİ, BELÇİKA KRALLIĞININ XARİCİ İŞLƏR NAZİRİ KAREL DE QUXTUN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 25-də Prezident sarayında ATƏT-in fəaliyyətdə olan sədri, Belçika Krallığının xarici işlər naziri Karel de Quxtun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Görüş zamanı Azərbaycan-ATƏT əməkdaşlığı, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı aparılan danışıqlar, münaqişənin nizama salınmasının perspektivləri və qarşılıqlı maraq doğuran bir sıra digər məsələlər də müzakirə edilmişdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AVROPA İTTİFAQININ CƏNUBİ QAFQAZ ÜZRƏ NÜMAYƏNDƏSİ HEYKİ TALVİTİYENİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 26-da Prezident sarayında Avropa İttifaqının Cənubi Qafqaz üzrə nümayəndəsi Heyki Talvitiyeni qəbul etmişdir.

Heyki Talvitiye Avropa İttifaqının Cənubi Qafqaz üzrə nümayəndəsi kimi Azərbaycana sonuncu dəfə səfər etdiyini bildirdi. O, Azərbaycana əvvəllər həyata keçirdiyi səfərləri zamanı xalqımızın ümummilli lideri Heydər Əliyev ilə keçirdiyi görüşləri məmnunluqla xatırladı. Qonaq fəaliyyətə başladığı vaxtdan keçən dövr ərzində Azərbaycanda həqiqi bir inkişafın şahidi olduğunu və Azərbaycana olan diqqətin durmadan artdığını bildirdi. Heyki Talvitiye Azərbaycanla Avropa İttifaqı arasındakı əlaqələrin daim genişləndiyini qeyd edərək, qarşılıqlı səfərlərin əhəmiyyətini vurğuladı. O, Prezident İlham Əliyevin Avropa ölkələrinə, o cümlədən Brüsselə səfərlərinin uğurla keçdiyini bildirərək, bu səfərlərin ölkəmizin Avropaya inteqrasiyası işində mühüm rol oynadığını diqqətə çatdırdı.

Dövlətimizin başçısı Avropa İttifaqının Cənubi Qafqaz üzrə nümayəndəsi qismində həyata keçirdiyi fəaliyyətə, Azərbaycan ilə Avropa İttifaqı arasındakı əməkdaşlığın inkişafına verdiyi töhfəsinə görə Heyki Talvitiyeyə təşəkkürünü bildirdi. Prezident İlham Əliyev Heyki Talvitiyenin ölkəmizə səfərləri zamanı onunla daim səmərəli danışıqların aparıldığını qeyd etdi. O, Azərbaycan ilə Avropa İttifaqı arasındakı əlaqələrin bundan sonrada inkişaf edəcəyinə əminliyini ifadə etdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV UKRAYNANIN MİLLİ TƏHLÜKƏSİZLİK VƏ MÜDAFİƏ ŞURASININ KATİBİ ANATOLİ KİNAXIN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 1-də Prezident sarayında Ukraynanın Milli Təhlükəsizlik və Müdafiə Şurasının katibi Anatoli Kinaxın rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Dövlətimizin başçısı Azərbaycan ilə Ukrayna arasındakı münasibətlərin durmadan inkişaf etdiyini vurğulayaraq, ölkələrimizin ikitərəfli səviyyədə və beynəlxalq təşkilatlar çərçivəsində fəal əməkdaşlığının həyata keçirildiyini qeyd etdi. Prezident İlham Əliyev ölkələrimiz arasındakı münasibətlərin bundan sonra da genişlənəcəyinə və bu səfərin əlaqələrimizin inkişafına öz töhfəsini verəcəyinə ümidvar olduğunu bildirdi.

Anatoli Kinax əlaqələrimizin uğurla inkişaf etdiyini və 2005-ci ildə ölkələrimiz arasındakı ticarət dövriyyəsinin artdığını qeyd etdi. O, Ukrayna ilə Azərbaycan arasında bərabər hüquqluluq və qarşılıqlı hörmət prinsiplərinə əsaslanan münasibətlərin yeni inkişaf mərhələsinə qədəm qoyduğunu bildirdi. Qonaq iki ölkə arasındakı əlaqələrin bundan sonra da inkişaf edəcəyinə əminliyini ifadə etdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ATƏT-İN MİNSK QRUPUNUN HƏMSƏDRLƏRİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 1-də Prezident sarayında ATƏT-in Minsk qrupunun həmsədrlərini qəbul etmişdir.

Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması ilə bağlı aparılan danışıqlar prosesinin hazırkı vəziyyəti, perspektivləri və qarşılıqlı maraq doğuran bir sıra digər məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV GÜRCÜSTAN PARLAMENTİ SƏDRİNİN MÜAVİNİ, TİCARƏT-SƏNAYE PALATASININ PREZİDENTİ CEMAL İNAİŞVİLİNİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 2-də Prezident sarayında Gürcüstan Parlamenti sədrinin müavini, Ticarət-Sənaye Palatasının prezidenti Cemal İnaişvilinin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Dövlətimizin başçısı Azərbaycan-Gürcüstan münasibətlərinin bütün sahələrdə, o cümlədən parlamentlər səviyyəsində uğurla inkişaf etdiyini vurğuladı. Prezident İlham Əliyev hökumətlər səviyyəsində də əməkdaşlığın genişləndiyini, birgə iqtisadi komissiyanın bir çox məsələləri müvəffəqiyyətlə həll etdiyini qeyd etdi. O, ölkələrimiz arasındakı münasibətlərin bundan sonra da inkişaf edəcəyinə ümidvar olduğunu bildirdi.

Cemal İnaişvili Gürcüstan Prezidenti Mixail Saakaşvilinin salamlarını və Gürcüstandakı enerji böhranı zamanı Azərbaycan rəhbərliyinin onun ölkəsinə göstərdiyi dəstək ilə

bağlı minnətdarlığını şəxsən Prezident İlham Əliyevə çatdırdı. Qonaq bütün sahələrdə, o cümlədən parlamentlərimiz arasında əlaqələrin uğurla inkişaf etdiyini qeyd etdi.

Prezident İlham Əliyev Gürcüstan Prezidenti Mixail Saakaşvilinin salamlarına görə minnətdarlığını bildirdi və onun da salamlarını Gürcüstanın dövlət başçısına çatdırmağı xahiş etdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ÜMUMDÜNYA GÖMRÜK TƏŞKİLATI AVROPA REGİONU GÖMRÜK XİDMƏTİ RƏHBƏRLƏRİ BEYNƏLXALQ KONFRANSININ İŞTİRAKÇILARINI QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 2-də Prezident sarayında Ümumdünya Gömrük Təşkilatı Avropa regionu gömrük xidməti rəhbərlərinin Bakıda keçirilən beynəlxalq konfransının iştirakçılarını qəbul etmişdir.

Dövlətimizin başçısı Avropa regionu gömrük xidməti rəhbərlərinin konfransının Bakıda keçirilməsini əlamətdar hadisə kimi səciyyələndirdi, bunu Azərbaycanın beynəlxalq aləmdə qazandığı nüfuzla və ölkəmizin gömrük orqanlarının kifayət qədər təcrübə toplaması ilə əlaqələndirdi.

Prezident İlham Əliyev qonaqlara Azərbaycanın sosial-iqtisadi inkişaf dinamikası barədə məlumat verərək dedi ki, təkcə ötən il ümumi daxili məhsulun həcmi 26 faizdən çox, sənaye məhsulu istehsalı isə 33 faizdən çox artmışdır. Bazar iqtisadiyyatının qanunlarına uyğun olaraq, sahibkarlığın inkişafına dövlət qayğısının səmərəli nəticələrindən söhbət açan Azərbaycan Prezidenti ötən il ümumi daxili məhsulda özəl bölmənin payının 75 faiz olduğunu bildirdi. Bu iqtisadi nailiyyətlərin 2006-cı ildə də davam etdiriləcəyini vurğulayan dövlətimizin başçısı dedi ki, iqtisadiyyatın belə sürətli inkişafı gömrük orqanlarının işinin daha da gücləndirilməsini həyati zərurətə çeviribdir. Bu mənada gömrük orqanları öz işlərini daha yüksək səviyyədə qurmalıdır. Bundan əlavə, ölkəmiz keçid dövrünü yaşayır və sosial problemlərin heç də hamısı öz həllini tapmayıbdır. Bu isə gömrük orqanlarının öz işinə daha məsuliyyətli və yaradıcılıqla yanaşmasını tələb edir.

Prezident İlham Əliyev ölkəmizdə uğurla həyata keçirilən neft və qaz layihələri reallaşdıqca, xüsusilə Bakı-Tbilisi-Ceyhan neft və Bakı-Tbilisi-Ərzurum qaz kəmərləri istismara verildikdən sonra gömrük orqanlarının üzərinə düşən vəzifələrdən də danışdı.

Dövlətimizin başçısı Azərbaycanın gömrük orqanlarının tarixini də xatırladaraq bildirdi ki, müstəqillik əldə etdikdən sonra Azərbaycanda gömrük sistemi öz işinə sıfırdan başlayıbdır. Müstəqillik dövründə dövlət üçün yeni olan bu qurum qısa vaxtda kifayət qədər təcrübə toplayıb və Ümumdünya Gömrük Təşkilatı ailəsində özünəməxsus yer tutubdur. Prezident İlham Əliyev bu irəliləyişdə Ümumdünya Gömrük Təşkilatının müntəzəm olaraq verdiyi məsləhət və tövsiyələrə, habelə gömrük orqanlarına xidmət edən infrastrukturların qurulmasına göstərdiyi yardımlara görə Ümumdünya Gömrük Təşkilatına və onun Baş katibi Mişel Daneyə təşəkkürünü bildirdi.

Dövlətimizin başçısı konfransın işinə uğurlar arzuladı.

Ümumdünya Gömrük Təşkilatının baş katibi Mişel Dane vaxt tapıb konfrans iştirakçılarını qəbul etdiyinə və xoş sözlərə görə Azərbaycan Prezidentinə minnətdarlıq etdi. 40

ölkədən nümayəndənin, o cümlədən 25 ölkənin gömrük xidməti rəhbərinin iştirak etdiyi Bakı konfransının çox böyük əhəmiyyəti olduğunu vurğulayan cənab Mişel Danc dedi ki, konfrans iki mövzu ətrafında davam etdirilir. Birincisi, kommersiya mübadilələrinin təhlükəsizlik şəraitində aparılması, ikincisi isə, gömrük orqanlarının mövcud imkanlarını genişləndirməklə onların əlaqələrini daha da fəallaşdırmaqdan ibarətdir. Avropa Komissiyasının və İnterpolun nümayəndələrinin konfransda iştirakı bu tədbirə verilən əhəmiyyətin daha bir nümunəsidir.

Ümumdünya Gömrük Təşkilatının baş katibi Azərbaycanda gömrük orqanlarının yaranması və formalaşmasında dünya şöhrətli siyasi xadim Heydər Əliyevin əvəzsiz xidmətlərini xüsusi vurğuladı, sonrakı illərdə Azərbaycanın gömrük orqanlarının işinin daha da təkmilləşməsinə Prezident İlham Əliyevin göstərdiyi diqqət və qayğını yüksək dəyərləndirdi. Cənab Mişel Dane indiki konfransın Azərbaycanda keçirilməsini dəstəklədiyinə və tədbirin yüksək səviyyədə təşkilinə görə Prezident İlham Əliyevə iştirakçılar adından minnətdarlığını çatdırdı, dövlətimizin başçısına xatirə hədiyyəsi təqdim etdi.

Macarıstanın gömrük xidmətinin rəhbəri Yanoş Nac Avropa ölkələrindən olan həmkarları ilə təcrübə mübadiləsi aparmaq, qabaqcıl təcrübəni öyrənmək baxımından Bakıda keçirilən tədbirin əhəmiyyətli cəhətlərindən danışdı. Rusiya Federal Gömrük Xidmətinin rəhbəri Aleksandr Jerixov Azərbaycan Prezidentinə məlumat verdi ki, iki həftə əvvəl Sankt-Peterburqda MDB ölkələri gömrük xidməti rəhbərlərinin görüşü olmuşdur. Həmin görüşdə Ümumdünya Gömrük Təşkilatının ötən il keçirilmiş sessiyasında bazar iqtisadiyyatı şəraitində gömrük işinin təhlükəsizliyi və səmərəli təşkili ilə bağlı qəbul olunmuş qərar müzakirə edilmişdir. Bakı konfransında həmin müzakirələr ümumiləşdiriləcəkdir. Aleksandr Jerixov Azərbaycanla Rusiya arasında əməkdaşlığın bütün sahələrdə genişləndiyini xatırlatdı, prezidentlər İlham Əliyevin və Vladimir Putinin ölkələrimizin əlaqələrinin möhkəmlənməsinə verdiyi töhfələrdən danışdı. Eyni zamanda, gömrük orqanlarının bu əlaqələrin inkişafına yardım etməyə borclu olduğunu vurğuladı.

Prezident İlham Əliyev ölkəmizdə gömrük işinin təkmilləşdirilməsində və Dövlət Gömrük Komitəsinin beynəlxalq əlaqələrinin inkişaf etdirilməsində Ümumdünya Gömrük Təşkilatının rolunu nəzərə alaraq təşkilatın baş katibi Mişel Danenin "Şöhrət" ordeni ilə təltif edilməsi barədə Sərəncam imzaladığını bildirdi və Azərbaycanın yüksək mükafatını ona təqdim etdi.

Azərbaycan Dövlət Gömrük Komitəsinin sədri Kəmaləddin Heydərov Prezident İlham Əliyevə "Gömrükdə beynəlxalq əməkdaşlığa görə" döş nişanını təqdim etdi.

Dövlətimizin başçısı görüş iştirakçıları ilə xatirə şəkli çəkdirdi.

AZƏRBAYCAN XİN-İN RƏSMİ MÖVQEYİ

Azərbaycan dinlərarası dialoqu daim dəstəkləmiş və təşviq etmiş, bu dialoqu dinlər arasında qarşılıqlı hörmət və anlaşmanın gücləndirilməsi üçün zəruri hesab etmişdir.

Müxtəlif dinlərin nümayəndələrinin əsrlərlə birgə yaşadığı bir ölkə kimi Azərbaycan dünyəvi dövlət olması ilə bərabər, eyni zamanda, əhalisinin böyük əksəriyyətinin müsəlman olduğunu nəzərə alaraq, son zamanlar bəzi Avropa kütləvi informasiya vasitələrində İslama münasibətdə meydana çıxmış mənfi təzahürləri insanların heysiyyətinə to-

xunan insanların dini etiqadına hörmətsizlik kimi qiymətləndirir və belə hərəkətləri pisləyir.

Azərbaycan Respublikası bəşəriyyətin üzləşdiyi təhlükə və təhdidlərin birgə səylərlə ünvanlanmasının vacibliyini vurğulayaraq, adı çəkilən problemin konstruktiv dialoq vasitəsilə aradan qaldırılmasının tərəfdarıdır.

Bakı, 07 fevral 2006-cı il

MİLLİ MƏCLİSİN NÜMAYƏNDƏ HEYƏTİ TÜRKİYƏYƏ SƏFƏRİ

Milli Məclisin sədri Oqtay Əsədovun başçılığı ilə parlament nümayəndə heyəti Türkiyə Böyük Millət Məclisinin sədri Büləndd Arınçın dəvəti ilə fevralın 8-də Türkiyəyə rəsmi səfərə gəlmişdir.

Fevralın 8-də Ankaranın Esenboğa hava limanında nümayəndə heyətimizi Türkiyə Böyük Millət Məclisinin sədr müavini Sadik Yakut, Azərbaycanın Türkiyədəki səfiri Zakir Həşimov və digər rəsmi şəxslər qarşılamışlar.

Nümayəndə heyətinin səfəri Türkiyə Respublikasının banisi Mustafa Kamal Atatürkün dəfn olunduğu məqbərəni - Anıtqəbiri ziyarətlə başladı. Azərbaycan Respublikası Milli Məclisi sədrinin adından məzarın önünə əklil qoyuldu. Milli Məclisin sədri Oqtay Əsədov xatirə kitabına ürək sözlərini yazdıqdan sonra parlament nümayəndə heyətinin üzvləri Atatürk və Qurtuluş Savaşı muzeyi ilə tanış oldular.

Sonra nümayəndə heyəti Türkiyə Böyük Millət Məclisinə gəldi. Burada nümayəndə heyətinin Türkiyə Böyük Millət Məclisinin sədri Büləndd Arınçla görüşü oldu.

Milli Məclisin sədri Oqtay Əsədovu səmimi salamlayan Büləndd Arınç onun dəvətini qəbul etdiyinə və ilk xarici səfərinə Türkiyədən başladığına görə parlamentimizin başçısına minnətdarlığını bildirdi. O qeyd etdi ki, iki dahi şəxsiyyətin - Mustafa Kamal Atatürkün və Heydər Əliyevin dediyi kimi, biz iki qardaş dövlətlərik. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2004-cü ildə Türkiyəyə səfəri əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş dostluq və qardaşlıq münasibətlərinə yeni təkan verdi. Bu gün ölkələrimiz siyasi, iqtisadi, elm, təhsil, mədəni və digər sahələrdə, o cümlədən parlamentlər səviyyəsində sıx əməkdaşlıq edir. Biz sevinirik ki, 2005-ci il noyabrın 6-da Azərbaycanda parlament seçkiləri yüksək səviyyədə keçirildi. Türkiyə bu seçkiləri yaxından müşahidə etdi və alqışladı.

Görüşdə qeyd olundu ki, Türkiyə beynəlxalq səviyyədə də daim Azərbaycanı dəstəkləyir və Azərbaycanın ərazi bütövlüyünün bərpası üçün iş görür. İnanırıq ki, bu əməkdaşlıq bundan sonra daha da güclənəcək, Türkiyə-Azərbaycan dostluğunun möhkəmlənməsinə xidmət edəcəkdir.

Milli Məclisin sədri Oqtay Əsədov nümayəndə heyətini öz ölkəsinə dəvət etdiyinə və səmimi qəbula görə minnətdarlıq edərək, parlamentin başçısı kimi ilk olaraq Türkiyəni ziyarətdən qürur duyduğunu dedi. Milli Məclisin sədri bildirdi ki, biz həmişə bütün sahələrdə, o cümlədən Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində Türkiyənin dəstəyini və köməyini hiss etməkdəyik. Ölkələrimiz bir sıra beynəlxalq təşkilatlarda, həmçinin Avropa Şurası Parlament Assambleyasında yaxından

əməkdaşlıq edir. Bununla yanaşı, Türkiyə və Azərbaycan parlament dostluq qrupları daha fəal olmalı, qarşılıqlı səfərlərin sayı artırılmalıdır. Bu, parlamentlərarası münasibətlərin inkişafına, qarşılıqlı təcrübə mübadiləsinin daha da intensivləşməsinə kömək edəcəkdir.

Görüşdə ölkələrimizin parlamentləri arasında işbirliyi barədə protokolun imzalanmasının və birgə seminarların, konfransların keçirilməsinin vacibliyi vurğulandı.

Sonra parlament sədrləri birgə mətbuat konfransı keçirdilər. Türkiyənin tanınmış kütləvi informasiya vasitələri nümayəndələrinin sualları cavablandırıldı, ölkələrimiz arasında siyasi, iqtisadi, parlamentlərarası əlaqələrin perspektivləri barədə ətraflı məlumat verildi.

Mətbuat konfransından sonra Azərbaycan parlamentinin nümayəndə heyəti Türkiyə Böyük Millət Məclisinin iclasında iştirak etdi.

Azərbaycan Respublikası Milli Məclisinin sədri Oqtay Əsədovun başçılığı ilə Türkiyədə rəsmi səfərdə olan parlament nümayəndə heyəti fevralın 10-da Ankaradan İstanbula yola düşmüşdür.

Ankaranın Esenboğa hava limanında Milli Məclisin sədrini və onu müşayiət edən şəxsləri Türkiyə Böyük Millət Məclisinin üzvləri və Azərbaycan səfirliyinin əməkdaşları yola saldılar.

Azərbaycan nümayəndə heyətinin üzvləri həmin gün İstanbulun ən məşhur tarixi yerlərindən biri - Kapalıçarşı ilə tanış oldular.

Həmin gün Milli Məclisin nümayəndə heyətinin İstanbul valisi Müəmmər Gülərlə görüşü oldu.

Azərbaycan parlamentinin nümayəndələrini Türkiyədə görməkdən məmnunluğunu söyləyən və onların keçirdikləri görüşləri televiziya kanallarında izlədiklərini bildirən İstanbulun valisi Azərbaycana, onun rəhbərliyinə xüsusi rəğbət bəslədiklərini, qardaş ölkəyə həmişə güvəndiklərini vurğuladı.

Səmimi sözlər üçün təşəkkür edən Milli Məclisin sədri 2004-cü ildə İstanbulda ümummilli liderimiz Heydər Əliyevin adını daşıyan parkın salınmasının və büstünün qoyulmasının Azərbaycanda yüksək qiymətləndirildiyini dedi. Parlamentin sədri Azərbaycanın İstanbuldakı Baş konsulluğunun uydurma "erməni soyqırımı", Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi, Xocalı faciəsi və digər mühüm məsələlərlə bağlı keçirdiyi tədbirlərdə yaxından iştirakına görə minnətdarlığını söylədi. Azərbaycana və onun üzləşdiyi problemlərə həssaslıqla yanaşılmasının ölkəmizin rəhbərliyi və ictimaiyyəti tərəfindən razılıqla qarşılandığını bildirdi.

Sonra Mərmərə Qrupu Strateji və Qlobal Araşdırmalar Vəqfinin sədri Akkan Suverin adından Azərbaycan nümayəndə heyətinin şərəfinə axşam yeməyi verildi.

Milli Məclisin sədri Oqtay Əsədovun başçılığı ilə parlament nümayəndə heyəti Türkiyəyə rəsmi səfərini başa vuraraq fevralın 12-də Vətənə qayıtmışdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN FRANSAYA SƏFƏRİ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 9-da Fransaya səfərə gəlmişdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV "TOTAL" ŞİRKƏTİNİN PREZİDENTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 9-da Parisdə, onun üçün ayrılmış iqamətgahda Fransanın "Total" şirkətinin prezidenti De Mareni qəbul etmişdir.

Görüşdə energetika sahəsində əməkdaşlığın səviyyəsindən razılıq ifadə olundu, şirkətin Azərbaycandakı fəaliyyətindən söhbət açıldı, işbirliyinin bundan sonra da inkişaf edəcəyinə əminlik vurğulandı. "Total" şirkətinin "Şahdəniz" layihəsində iştirakı da qeyd olundu.

Şirkətin prezidenti Azərbaycanın beynəlxalq enerji daşıyıcıları tranziti layihəsində iştirakını xüsusi vurğuladı və gələcəkdə də ölkəmizin belə layihələrə fəal qoşulacağına əminliyini bildirdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ ERMƏNİSTAN PREZİDENTİ ROBERT KOÇARYANIN ATƏT-İN MİNSK QRUPU HƏMSƏDRLƏRİNİN İŞTİRAKI İLƏ GÖRÜŞÜ

Fevralın 10-da Paris yaxınlığındakı Rambuye sarayında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Ermənistan Respublikasının Prezidenti Robert Koçaryanın ATƏT-in Minsk qrupu həmsədrlərinin iştirakı ilə görüşü olmuşdur.

Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllinə dair müzakirələr aparıldı.

Sonra Azərbaycan və Ermənistan prezidentləri arasında təkbətək görüş keçirildi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ FRANSA PREZİDENTİ JAK ŞİRAKIN TƏKBƏTƏK GÖRÜŞÜ

Fevralın 10-da Parisin Yelisey sarayında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Fransa Respublikasının Prezidenti Jak Şirakın təkbətək görüşü olmuşdur.

Prezident Jak Şirak xalqımızın ümummilli lideri Heydər Əliyev ilə görüşlərini, gözəl münasibətlərini məmnunluqla xatırladı, o cümlədən Yelisey sarayında onunla dəfələrlə görüşdüyünü vurğuladı.

Prezident İlham Əliyev xoş sözlərdən məmnunluğunu ifadə edərək bildirdi ki, iki dahi siyasətçi və dövlət başçısı arasında olmuş dostluqdan iftixar duyur və bunu özü üçün gözəl nümunə hesab edir.

Dövlət başçıları Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli perspektivləri ətrafında geniş fikir mübadiləsi apardılar. Prezidentlər vurğuladılar ki, münaqişənin həlli üçün konkret addım atmağın vaxtı çatmışdır.

Görüş başa çatdıqdan sonra Fransa Prezidenti Jak Şirak Azərbaycan Prezidenti İlham Əliyevi Yelisey sarayının qarşısında böyük hörmət və ehtiramla avtomobilədək yola saldı.

PREZİDENTİN MƏTBUAT XİDMƏTİNİN MƏLUMATI

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 11-də Paris yaxınlığındakı Rambuye sarayında ATƏT-in Minsk qrupunun həmsədrləri və ATƏT sədrinin xüsusi nümayəndəsi ilə görüşmüşdür.

Sonra Azərbaycan Prezidenti İlham Əliyev ilə Ermənistan Prezidenti Robert Koçaryan arasında təkbətək görüş olmuşdur.

Prezidentlər Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin Praqa prosesi əsasında nizama salınması ilə bağlı məsələləri müzakirə etmişlər.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN FRANSAYA SƏFƏRİ BAŞA ÇATMIŞDIR

Azərbaycan Prezidenti İlham Əliyev Fransaya səfərini başa çatdıraraq fevralın 12-də Paris şəhərindən Vətənə yola düşdü.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ABŞ-IN APARICI YƏHUDİ TƏŞKİLATLARI SƏDRLƏRİ KONFRANSININ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 13-də Prezident sarayında ABŞ-ın aparıcı Yəhudi Təşkilatları Sədrləri Konfransının ölkəmizdə səfərdə olan nümayəndə heyətini qəbul etmişdir.

Nümayəndə heyətinin rəhbəri Harold Tanner Azərbaycana səfərdən məmnun olduqlarını söylədi, səfərin yüksək səviyyədə təşkilinə görə minnətdarlığını bildirdi. O, Azərbaycanda tolerantlığın daim təmin edildiyini vurğulayaraq dedi ki, bu ölkədə bütün millətlərin nümayəndələri üçün, o cümlədən dini icmalar üçün çox yaxşı birgə yaşayış şəraiti yaradılmışdır. Bu baxımdan qonaq yəhudi icması üçün yaradılan şəraitdən məmnun qaldıqlarını söylədi. H.Tanner Azərbaycanda böyük iqtisadi inkişafın şahidi olduqlarını da bildirdi.

Prezident İlham Əliyev bu cür səfərlərin əhəmiyyətini vurğuladı və belə böyük tərkibdə nümayəndə heyətinin Azərbaycana gəlməsini yüksək qiymətləndirdi. Dövlətimizin başçısı dedi ki, Azərbaycanda birgə yaşayış üçün çox yaxşı şərait var və bütün millətlərin nümayəndələri ölkəmizin bərabərhüquqlu vətəndaşları kimi dostluq şəraitində yaşayırlar.

Prezident İlham Əliyev nümayəndə heyətinin tərkibində olan nüfuzlu təşkilatların təmsilçilərinin Azərbaycanda gedən iqtisadi inkişafın, cəmiyyətin demokratikləşmə prose-

sində əldə etdiyi uğurların şahidi olmalarından məmnunluğunu bildirdi.

Sonra dövlətimizin başçısı nümayəndə heyətinin geniş tərkibdə üzvləri ilə görüşdü. Harold Tanner Prezident İlham Əliyevə qəbula görə təşəkkür etdi və səfərin əsas məqsədlərini açıqladı. O dedi ki, Azərbaycan dünyanın digər dövlətləri üçün strateji əhəmiyyətə malik olan bir ölkədir və Amerika Birləşmiş Ştatları ilə onun dostluq münasibətləri mövcuddur. Bununla yanaşı, Azərbaycan böyük neft ehtiyatları olan və iqtisadi cəhətdən inkişaf edən ölkədir. Azərbaycan bütün xalqa, o cümlədən milli azlıqlara göstərilən münasibət baxımından gözəl ölkədir. Əhalisinin əksəriyyəti müsəlman olan bir ölkədə yəhudi icmasına göstərilən münasibətlə bağlı təəssüratımız çox yüksəkdir. Səfərimiz çox gözəl keçdi və həyatımızın əvvəlki illəri ilə müqayisədə, indi daha çox təəssürat aldıq.

Buraya gəlməzdən əvvəl Vaşinqtonda dövlət katibi Kondoliza Rays ilə görüşümüz oldu. O, səfərlə əlaqədar Azərbaycanla bağlı eyni fikirlərə və ehtirama şərik çıxdı. Eyni zamanda, buraya gəlməzdən əvvəl İsrail Prezidenti Katsav ilə görüşdük və o, öz məktubunu Sizə çatdırmağı xahiş etdi.

Qonaq məktubu Prezident İlham Əliyevə təqdim etdi və onun qısa məzmununu xatırlatdı. Məktubda deyilir ki, Amerika Birləşmiş Ştatlarının aparıcı Yəhudi Təşkilatları Sədrləri Konfransının üzvlərinin Azərbaycana səfəri və Sizinlə keçirəcəyi görüş fürsətindən istifadə edərək, özümün və İsrail xalqının salamlarını Sizə çatdırıram. Məktubda Azərbaycan və yəhudi xalqlarının dostluq münasibətləri, birgə tarixə bağlılığı vurğulanır və belə bir inam ifadə olunur ki, ölkələrimiz arasındakı münasibətlər hər iki xalqın mənafeyi naminə bundan sonra da inkişaf edəcəkdir.

Prezident İlham Əliyev məktuba görə təşəkkür etdi. Dövlətimizin başçısı qonaqların bu səfərini yüksək qiymətləndirdi və onun Azərbaycan ilə Amerika Birləşmiş Ştatları arasındakı əlaqələrə töhfə verəcəyini bildirərək dedi ki, ABŞ ilə Azərbaycan müttəfiq dövlətlərdir, beynəlxalq və regional məsələlərdə tərəfdaş kimi çıxış edirlər. Bu səfər şərait yaradır ki, nümayəndə heyəti Azərbaycanda gedən inkişafı və demokratik cəmiyyət quruculuğunu öz gözləri ilə görsün. Azərbaycan mühüm strateji mövqedə yerləşir və onun böyük təbii ehtiyatları var. Bu, xalqımızın rifah halının yüksəlməsinə xidmət edir. Azərbaycanda müxtəlif dinlərə mənsub olan insanlar vahid bir ailə kimi yaşayırlar. Bu, bizim ən böyük sərvətimizdir və xalqımızın gündəlik həyatıdır.

Prezident İlham Əliyev müstəqillik əldə etdikdən sonra Azərbaycanın bir çox siyasi problemlərlə üzləşdiyini, torpaqlarımızın Ermənistan tərəfindən işğal olunduğunu xatırlatdı. Bildirdi ki, bütün bu problemlərə baxmayaraq, Azərbaycan öz dövlət müstəqilliyini qoruyub saxlaya bilmiş, gələcək üçün siyasi və iqtisadi inkişafın möhkəm özülünü yaratmışdır. Biz fəxr edirik ki, Azərbaycanda müxtəlif millətlərdən olan insanlar arasında qarşılıqlı anlaşma mövcuddur. Başqa dövlətlər Azərbaycanın bu təcrübəsindən faydalana bilərlər. Ölkəmizdə Azərbaycan xalqı ilə yəhudi xalqı arasında münasibətlər daim səmimi və dostcasına olub, hətta sovetlər dövründə də, müstəqillik dövründə də bu, davam etmiş və ölkəmizin rəsmi siyasətinə çevrilmişdir. Yəhidilər əsrlərlə Azərbaycanın müxtəlif rayonlarında, o cümlədən Qubada yaşamışlar. Dövlətimizin başçısı hər il onlarla görüşdüyünü və onların firavan həyat sürmələrindən çox məmnun olduğunu bildirdi. Ölkəmizdə yəhudi məktəbinin fəaliyyət göstərdiyi də vurğulandı.

Nümayəndə heyətinin üzvü, Avrasiya Yəhudi Komitəsinin sədri Aleksandr Maçkevir Azərbaycanda yəhudi icması üçün yaradılmış şəraitdən məmnun qaldığını bildirdi. O, bütün dünya yəhudiləri adından Prezident İlham Əliyevə təşəkkürünü çatdırdı və dövlətimizin başçısına xatirə hədiyyəsi təqdim etdi.

Digər çıxış edənlər də bu səfərdən, Azərbaycanda yəhudilər üçün yaradılan şəraitdən məmnun qaldıqlarını bildirdilər, dostluq münasibətlərinin daha da inkişaf edəcəyinə əminliklərini söylədilər.

Qonaqlar adından dövlətimizin başçısına xatirə hədiyyəsi təqdim edildi. Azərbaycan Prezidenti qonaqları maraqlandıran suallara cavab verdi.

Görüşdən sonra dövlətimizin başçısı Prezident sarayının qarşısında qonaqlarla xatirə şəkli çəkdirdi.

AZƏRBAYCAN BƏLƏDİYYƏLƏRİ AVROPA ÖLKƏLƏRİNİN BƏLƏDİYYƏLƏRİ İLƏ BİRBAŞA ƏLAQƏLƏR YARATMAQDA MARAQLIDIR

Xarici İşlər Naziri Elmar Məmmədyarov fevralın 13-də Azərbaycanda səfərdə olan Avropa Şurası Yerli və Regional Hakimiyyətlər Konqresinin sədri Covanni Di Stazının başçılıq etdiyi nümayəndə heyəti ilə görüşmüşdür.

Nazir Elmar Məmmədyarov ölkəmizin Avropa Şurası ilə hərtərəfli əməkdaşlığa önəm verdiyini, münasibətlərin inkişaf etdirilməsində maraqlı olduğunu bildirmişdir. Avropa Şurasının üzvü olan dövlətlərin bələdiyyələri ilə Azərbaycan bələdiyyələri arasında birbaşa əlaqələrin yaradılmasının vacibliyini vurğulayan nazir, bələdiyyələrlə bağlı seminar-məşğələlərin keçirilməsinin, təcrübə mübadiləsi aparılmasının əhəmiyyətini diqqətə çatdırmışdır.

Avropa Şurası Yerli və Regional Hakimiyyətlər Konqresinin sədri Covanni Di Stazı Azərbaycana səfərdən məmnun qaldıqlarını söyləmiş, respublikamızda bələdiyyələrin işinin təkmilləşdirilməsi və beynəlxalq standartlara uyğunlaşdırılması üçün əməkdaşlığın davam etdirilməsinə tərəfdar olduğunu bildirmiş, ölkəmizin Qara dəniz Avroregionu təşəbbüsü çərçivəsindəki layihələrə maraq göstərməsini yüksək qiymətləndirmişdir. Qonaq, həmçinin Avropa Şurası Yerli və Regional Hakimiyyətlər Konqresinin və Norveç Yerli və Regional Hakimiyyətlər Assosiasiyasının Azərbaycanda Ümummilli Bələdiyyə Assosiasiyasının yaradılması üzrə layihəsinin ölkəmiz tərəfindən dəstəklənməsini və həmin layihənin rəhbər komitəsinin II iclasının Bakıda keçirilməsini əməkdaşlıq sahəsində əhəmiyyətli addımlar hesab etmişdir.

Nazir E.Məmmədyarov Qara dəniz Avroregionu çərçivəsində həmin layihənin reallaşdırılmasının konkret şərtlərinin müzakirəsi ilə bağlı Konstanta şəhərində keçiriləcək konfransa Azərbaycanın da dəvət aldığını nəzərə çarpdırmış, respublikamızın Avropa Şurası ilə yardım proqramı çərçivəsində əməkdaşlığa bundan sonra da hazır olduğunu bildirmişdir.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər də müzakirə edilmişdir.

2005-Cİ İL NOYABRIN 10-DA QAHİRƏ ŞƏHƏRİNDƏ İMZALANMIŞ "AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ İLƏ MİSİR ƏRƏB RESPUBLİKASI HÖKUMƏTİ ARASINDA MƏDƏNİYYƏT SAHƏSİNDƏ ƏMƏKDAŞLIĞA DAİR SAZIŞ"İN TƏSDİQ EDİLMƏSİ BARƏDƏ AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

1. 2005-ci il noyabrın 10-da Qahirə şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti ilə Misir Ərəb Respublikası Hökuməti arasında mədəniyyət sahəsində əməkdaşlığa dair Saziş" təsdiq edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişin həyata keçirilməsi üçün zəruri tədbirlər görsün.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Misir Ərəb Respublikası Hökumətini xəbərdar etsin.

İlham Əliyev

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 13 fevral 2006-cı il

2005-Cİ İL NOYABRIN 29-DA MOSKVA ŞƏHƏRİNDƏ İMZALANMIŞ "AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİ VƏ QIRĞIZ RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİ ARASINDA QIRĞIZ RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN HƏRBİ QULLUQÇULARININ AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN HƏRBİ TƏHSİL MÜƏSSİSƏLƏRİNDƏ TƏHSİL ALMASI HAQQINDA SAZİŞ"İN TƏSDİQ EDİLMƏSİ BARƏDƏ AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

1. 2005-ci il noyabrın 29-da Moskva şəhərində imzalanmış "Azərbaycan Respublikası Müdafiə Nazirliyi və Qırğız Respublikası Müdafiə Nazirliyi arasında Qırğız Respublikası Müdafiə Nazirliyinin hərbi qulluqçularının Azərbaycan Respublikası Müdafiə Nazirliyinin hərbi təhsil müəssisələrində təhsil alması haqqında Saziş" təsdiq edilsin.

2. Azərbaycan Respublikasının Müdafiə Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişin həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Qırğız Respublikasının Müdafiə Nazirliyini xəbərdar etsin.

İlham Əliyev

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 13 fevral 2006-cı il

AZƏRBAYCAN RESPUBLİKASI İLƏ LATVİYA RESPUBLİKASI ARASINDA 2005-Cİ İL OKTYABRIN 3-DƏ BAKI ŞƏHƏRİNDƏ İMZALANMIŞ SƏNƏDLƏR HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

1. Azərbaycan Respublikası ilə Latviya Respublikası arasında 2005-ci il oktyabrın 3-də Bakı şəhərində imzalanmış aşağıdakı sənədlər təsdiq edilsin:

1.1. Azərbaycan Respublikası Hökuməti ilə Latviya Respublikası Hökuməti arasında iqtisadi, elmi-texniki və mədəni əməkdaşlıq haqqında Saziş;

1.2. Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi ilə Latviya Respublikasının Mədəniyyət Nazirliyi arasında mədəniyyət sahəsində əməkdaşlıq haqqında Saziş.

2. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, bu Sərəncamın 1.1-ci və 1.2-ci bəndlərində göstərilən Sazişlərin həyata keçirilməsi üçün lazımi tədbirlər görsün.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1.1-ci və 1.2-ci bəndlərində göstərilən Sazişlərin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Latviya Respublikası tərəfini xəbərdar etsin.

İlham Əliyev

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 13 fevral 2006-cı il

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV QARA DƏNİZ İQTİSADİ ƏMƏKDAŞLIQ TƏŞKİLATININ BAŞ KATİBİ TEDO CAPARİDZENİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 14-də Prezident sarayında Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının Baş katibi Tedo Caparidzeni qəbul etmişdir.

Görüşdə Azərbaycan ilə Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı arasında əlaqələrin hazırkı vəziyyəti və perspektivləri ilə bağlı fikir mübadiləsi aparılmışdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV "UKRAYNA" FONDUNUN SƏDRİ LEONİD KUÇMA İLƏ GÖRÜŞMÜŞ VƏ QONAQLA BİRLİKDƏ HEYDƏR ƏLİYEV FONDUNDA OLMUŞDUR

Fevralın 14-də Azərbaycan Prezidenti İlham Əliyev Prezident sarayında "Ukrayna" Fondunun sədri Leonid Kuçma ilə görüşmüşdür.

Görüşdən sonra Prezident İlham Əliyev və Leonid Kuçma Heydər Əliyev Fonduna gəldilər.

"Ukrayna" Fondunun sədrinə və xanımına Azərbaycan xalqının ümummilli liderinin

xatirəsinə hörmət əlaməti olaraq yaradılmış Fond və onun məqsədləri haqqında da məlumat verildi.

Ukraynalı qonaqlar Heydər Əliyevin şəxsi arxivindən götürülmüş və onun fəaliyyətinin müxtəlif dövrlərini əhatə edən eksponatlarla, o cümlədən ulu öndərin həyatının ayrı-ayrı məqamlarını əks etdirən və Azərbaycan tarixinin bütöv bir dövrü barədə geniş təsəvvür yaradan çoxsaylı fotoşəkillərlə, xalqımızın görkəmli oğluna həsr edilmiş kitablarla tanış oldular. Dahi liderin şəxsi əşyaları nadir və qiymətli eksponatlar kimi qonaqlarda böyük maraq doğurdu.

Fondun ekspozisiyası ilə tanışlıqdan sonra Azərbaycan Prezidenti İlham Əliyev, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyeva, "Ukrayna" Fondunun sədri Leonid Kuçma və xanımı xatirə şəkli çəkdirdilər.

Leonid Kuçma Fondun Xatirə kitabına ürək sözlərini yazdı: "Bu dahi insanın, Ukraynanın böyük dostunun xatirəsinin qarşısında baş əyirəm. Onun məni özünə dost saymasından həmişə qürur duymuşam. Onun işləri gözəl ölkədə - Azərbaycanda davam etdirilir".

Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva Leonid Kuçmaya xatirə hədiyyəsi təqdim etdi.

VYANADA HƏRBİ DOKTRİNALAR ÜZRƏ ATƏT-İN YÜKSƏK SƏVİYYƏLİ SEMİNARI KEÇİRİLMİŞDİR

Fevralın 14-15-də Vyanada ATƏT-in Hərbi doktrinalar üzrə Yüksək Səviyyəli seminarı keçirilmişdir. Seminarda Azərbaycan Xarici İşlər nazirinin müavini Araz Əzimovun başçılığı ilə nümayəndə heyəti iştirak etmişdir.

Tədbirdə doktrina və texnoloji dəyişikliklərin hərbi struktur və fəaliyyətlərdə rolu, ATƏT regionunda münaqişələr və bu kontekstdə hərbi-siyasi vasitələrin mümkün faydası, texnoloji inkişafın hərbi doktrinalara təsiri və s. məsələlər müzakirə olunmuşdur. Azərbaycan xarici işlər nazirinin müavini A. Əzimov seminarın "Doktrinal dəyişiklik" adlı birinci sessiyasında ATƏT regionunda dəyişən təhlükələr və münaqişələr və onların öhdəsindən gəlməkdə hərbi-siyasi üsulların töhfəsi mövzusunda aparılan müzakirələr zamanı çıxış etmişdir.

Vyanaya səfəri müddətində cənab A. Əzimov Avstriyanın Xarici İşlər Nazirliyi Siyasi Departamentinin rəisi T. Mayr-Hartinq, Cənubi Qafqaz və Mərkəzi Asiya İdarəsinin rəisi H. Porias və Avstriyanın Azərbaycandakı səfiri H.Gürer ilə görüşmüşdür.

Görüşlər zamanı Azərbaycan və Avstriya arasında mövcud ikitərəfli münasibətlərin siyasi aspektləri, bu münasibətlərin daha da inkişaf etdirilməsi yolları, Azərbaycanın Avropa İttifaqının qonşuluq siyasətində iştirakı, Azərbaycan xarici siyasətinin prioritetləri barədə məlumat verildi. Xarici İşlər nazirinin müavini A.Əzimov Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin nizamlanması prosesinə dair son vəziyyət barədə Avstriya tərəfini məlumatlandırdı. Bundan əlavə, Azərbaycan tərəfi Cənubi Qafqaz və qonşu dövlətlərlə münasibətlərə, Cənubi Qafqaz bölgəsində irimiqyaslı qaz, neft və

nəqliyyat layihələrinin həyata keçirilmə prosesi haqqında danışdı.

Səfər zamanı o, həmçinin ATƏT-in Baş Katibi M. P. Brişambo, hazırda ATƏT-də sədrlik edən Belçikanın ATƏT-dəki Daimi Nümayəndəsi B. Krombrüqqe, Türkiyənin, Fransanın və Rumıniyanın ATƏT-dəki Daimi Nümayəndələri ilə görüşlər keçirmiş və qarşılıqlı maraq kəsb edən məsələləri müzakirə etmişdir.

Bundan əlavə, nazir müavini Avstriyanın Beynəlxalq Siyasət üzrə İstitutunda "Avropa İttifaqının Cənubi Qafqazdakı təhlükəsizlik proseslərində rolu" mövzusunda mühazirə demişdir. Mühaziréni giriş sözü ilə Avstriyanın Azərbaycandakı Səfiri xanım H. Gürer açmışdır. Mühazirədə müxtəlif ölkələrin ATƏT-də akkreditə olunmuş nümayəndələri, professorlar, tələbələr, Avstriyanın müxtəlif kütləvi informasiya vasitələrini təmsil edən jurnalistlər və Avstriyadakı Azərbaycan icmasının nümayəndələri də iştirak etmişlər.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AVROPA KOMİSSİYASININ ÜZVÜ, AVROPA KOMİSSİYASININ XARİCİ ƏLAQƏLƏR VƏ AVROPA QONŞULUQ SİYASƏTİ ÜZRƏ KOMİSSARI XANIM BENİTA FERRERO VALDNERİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 16-da Prezident sarayında Avropa Komissiyasının üzvü, Avropa Komissiyasının Xarici Əlaqələr və Avropa Qonşuluq Siyasəti üzrə komissarı xanım Benita Ferrero Valdneri qəbul etmişdir.

Görüş zamanı Azərbaycan-Avropa İttifaqı əməkdaşlığının müxtəlif sahələri ilə bağlı fikir mübadiləsi aparılmışdır.

AZƏRBAYCAN XİN-İN RƏSMİ MÖVQEYİ

Əsrlər boyu etnik müxtəlifliyi ilə seçilən Azərbaycan Respublikası bu rəngarəngliyi daim inkişaf etdirmək məramını nümayiş etdirmiş və ölkəmizdə 3,5 milyona yaxın maddi-tarixi abidə dövlət himayəsi altına götürülmüşdür.

Azərbaycan bu sahədə fəaliyyət göstərən bütün beynəlxalq təşkilatlarla həmişə şəffaf və konstruktiv tərzdə əməkdaşlıq etmiş və bu istiqamətdə beynəlxalq miqyasda tanınmış müsbət nailiyyətlər əldə etmişdir.

Eyni zamanda, cari il fevral ayının 16-da Avropa Parlamentində erməni diasporasının radikal dairələrinin təzyiqi altında irəli sürülmüş "Azərbaycanda mədəni irs" adlı qətnamənin qəbul edilməsi böyük təəssüf hissi doğurur. Bu, xüsusilə də Ermənistan tərəfindən öz ərazisində və Azərbaycanın işğal olunmuş ərazilərində Azərbaycan xalqına məxsus mədəni-tarixi abidələrin davamlı olaraq məhv edilməsi fonunda qərəzli və yersiz addım kimi qiymətləndirilməlidir.

Beynəlxalq ictimaiyyət Azərbaycanın işğal olunmuş ərazilərində bütün mədəni və tarixi dəyərlərin Ermənistan tərəfindən talan edildiyini tanıdığı bir dövrdə, Avropa Parlamenti kimi nüfuzlu bir qurumun belə bir qətnaməni qəbul etməsi təəccüb doğurur.

Bakı, 16 fevral 2006-cı il

RUSİYA FEDERASİYASININ PREZİDENTİ VLADİMİR PUTİNİN AZƏRBAYCANA İŞGÜZAR SƏFƏRİ

Azərbaycanda Rusiya İlinin təntənəli açılış mərasimində iştirak etmək üçün Rusiya Federasiyasının Prezidenti Vladimir Putin fevralın 21-də Bakıya işgüzar səfərə gəlmişdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ RUSİYA PREZİDENTİ VLADİMİR PUTİNİN GÖRÜŞÜ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Rusiya Federasiyasının Prezidenti Vladimir Putin fevralın 21-də Heydər Əliyev adına Sarayda, ölkəmizdə Rusiya İlinin açılışı mərasimindən əvvəl təkbətək görüş keçirmişlər.

Dövlət başçıları Rusiyada Azərbaycan İlinin uğurla keçdiyini, çoxlu tədbirlər və hadisələrlə əlamətdar olduğunu vurğuladılar və Azərbaycanda Rusiya İlinin də eyni müvəffəqiyyətlə başa çatacağına əminliklərini ifadə etdilər. Bildirildi ki, belə tədbirlərin keçirilməsi siyasi, iqtisadi və humanitar sahələrdə əlaqələrin inkişafına təkan verəcək, ölkələrimizi, xalqlarımızı daha da yaxınlaşdıracaqdır.

RUSİYA FEDERASİYASININ PREZİDENTİNƏ ŞEYXÜLİSLAM ORDENİ TƏQDİM EDİLMİŞDİR

Fevralın 21-də "Ulduz" iqamətgahında Rusiya Federasiyasının Prezidenti Vladimir Putinə Şeyxülislam ordeni təqdim edilmişdir. Bu münasibətlə təşkil olunmuş mərasimi Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam hacı ALLAHŞÜKÜR PAŞAZADƏ açaraq dedi:

- Bismillahir-rəhmanir-rəhim!

Zati-aliləri Rusiya Federasiyasının Prezidenti möhtərəm Vladimir Vladimiroviç Putin həzrətləri!

Siz bu gün bütün Azərbaycan xalqının ən dəyərli və ehtiramlı qonağısınız. Bu xalqın övladı kimi mən zati-alilərinizi Azərbaycan torpağında səmimi qəlbdən salamlayır və Allaha dua edir, həm bu səfərinizdə, həm də, ümumiyyətlə, xalqımızın əmin-amanlığı, xoşbəxt gələcəyi, rifahı naminə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev ilə gələcək işbirliyinizdə böyük uğur və nailiyyətlər diləyirəm.

Müdriklik göstərərək Sizlər öz fəaliyyətinizlə belə bir həqiqəti sübut etmisiniz ki, yalnız birgə səylər və qarşılıqlı xeyirxah niyyətlər cari problemlərin həllinə, rifaha nail olunmasına və xalqlarımız üçün layiqli həyatın təminində aparır.

Rusiya fövqəldövlətdir və ona bəslənən ümidlər də böyükdür. Bunu deyərək, biz xalqımızın ən ağrılı problemi olan Qarabağ düyününün açılmasında oynaya biləcək rolu nəzərdə tuturuq. Bu məsələdə Azərbaycan xalqı Rusiyadan əsil dost dəstəyi umur və onun ədaləti üstün tutacağına inanır.

Biz din xadimləri üçün xüsusi önəm kəsb edən budur ki, Rusiyada zati-alilərinizi, Azərbaycanda isə cənab İlham Əliyev dövlətin, bəlkə də, ən əsas vəzifələrindən biri olaraq,

elə bir vətəndaş cəmiyyətinin qurulmasına çalışırsınız ki, burada dini, milli mənsubiyyətindən asılı olmayaraq, hər bir insan özünü cəmiyyətin tam hüquqlu vətəndaşı kimi hiss edə bilsin. Bu sahədə Sizin səyləriniz olduqca təqdirəlayiqdir və həm müsəlmanlar, həm də xristianlar tərəfindən böyük rəğbətlə qarşılanır.

Sizin son olaylarla, əziz Peyğəmbərimiz Həzrəti-Məhəmməd Salavatullahın təhqir edilməsi ilə bağlı qətiyyətli mövqe nümayiş etdirməyinizi, belə halları birmənalı şəkildə pisləməyinizi məhz tolerantlığa, dini dəyərlərə verdiyiniz yüksək qiymətin və böyük önəmin parlaq təzahürü kimi qiymətləndiririk.

Mən Sizin dini dəyərlərə necə ehtiramla yanaşmağınızın şəxsən şahidi olmuşam. Bu isə təbii ki, həyatda öz bəhrələrini göstərir, nəticə etibarilə cəmiyyətin, xalqın, ayrı-ayrılıqda hər bir dindarın maraqlarına cavab verir. Bütün bunları nəzərə alaraq, Qafqaz Müsəlmanları İdarəsinin Qazılar və Elmi-Dini Şuraları yekdilliklə qərara qəbul ediblər. İcazənizlə bu qərarla Sizi tanış etmək istəyərdim.

- Bismillahir-rəhmanir-rəhim!

Bir olan Allahın adı ilə! Qafqaz Müsəlmanları İdarəsinin Qazılar Şurası və Elmi-Dini Şurası qərara alır:

"Xalqlar arasında sülhə və həmrəyliyə nail olmağa, xalqlar arasında tolerantlığın dövlət siyasəti səviyyəsinə qaldırılmasına, müxtəlif millətlərdən və dini etiqadlardan olan adamları yaxınlaşdırmağa kömək edən ümumbəşəri mənəvi dəyərlərin bərqərar edilməsinə yönəldilmiş səmərəli fəaliyyətinə görə Rusiya Federasiyasının Prezidenti Vladimir Vladimiroviç Putin Şeyxülislam ordeni ilə təltif edilsin.

Bakı şəhəri, 20 fevral 2006-cı il".

Qafqaz Müsəlmanları İdarəsinin başçısı ordeni və vəsiqəni Prezident Vladimir Putinə təqdim etdi.

Sonra Rusiya Prezidenti VLADİMİR PUTİN çıxış edərək dedi:

- Zati-müqəddəsləri!

Əziz dostlar!

Mən yüksək mükafatı - Şeyxülislam ordenini minnətdarlıqla qəbul edirəm. Bunu müxtəlif dinlər arasında və ən müxtəlif dinlərə etiqad edən insanlar arasında münasibətlər yaradılması işində Rusiyanın yüksək rolunun tanınması kimi, mədəniyyətlərin dialoquna və Cənubi Qafqaz regionunda sabitliyin möhkəmlənməsinə kömək göstərilməsində Rusiyanın yüksək rolunun tanınması kimi qiymətləndirirəm.

Rusiya Federasiyası dünyəvi dövlətdir. Burada əsrlərdən bəri ən müxtəlif millətlərə və dinlərə mənsub adamlar yaşayırlar, həmrəylik şəraitində yaşayır və bir-birinin əqidələrinə hörmət edirlər. Rusiyada biz dinə hörmət və ən müxtəlif dini əqidə və baxışları olan adamlara tolerant münasibət ənənələrinə rəğbət bəsləyirik. Belə yanaşmanı təkcə daxili siyasi işlərdə deyil, həm də xarici aləmdə, xüsusən də tarixi irsin mürəkkəb, bəzən dramatik yükündən dini və xalqlararası münaqişələrin qızışdırılması üçün istifadə edildiyi regionlardan söhbət getdikdə son dərəcə mühüm sayırıq.

Bununla əlaqədar biz regionda konfessiyalararası əməkdaşlıq ab-havası yaradılması sa-

həsində Azərbaycan Respublikası rəhbərliyinin səylərini və müsəlman liderlərinin çox çətin işini yüksək qiymətləndiririk. Biz dini ekstremizm və terrorizm təzahürlərinə qarşı qəti mövqe tutulmasını qiymətləndiririk.

Bilirsiniz ki, Rusiya indi bu məsələdə tərəfdaşlarla, o cümlədən bir çox müsəlman ölkələri ilə beynəlxalq aləmdə, ölkəmizin daimi əsasda müşahidəçi qismində yekdilliklə qəbul olunduğu İslam Konfransı Təşkilatı çərçivəsində aktiv qarşılıqlı fəaliyyət göstərir. Müasir dövrdə bütün konfessiyalar üçün ümumi olan əxlaqi və mənəvi dəyərlərin möhkəmləndirilməsini vacib sayıram. Yaxşılığa və haqq-ədalətə inam, mərhəmət və sülhsevərlik bütün böyük dünya dinlərinin baza postulatlarını təşkil edir. Odur ki, biz dinlərarası və millətlərarası dialoqun möhkəmlənməsinə yönəldilmiş siyasəti hər vasitə ilə dəstəkləyirik.

Bu baxımdan Rusiya Pravoslav Kilsəsinin başçısı II Aleksinin din liderlərinin Ümumdünya zirvə toplantısını cari il iyulun 4-5-də Moskvada keçirmək təşəbbüsünü də alqışlayırıq. Məlumdur ki, bütün dinlər başqa dini etiqadlardan olan xalqlarla qarşılıqlı anlaşmaya istiqamətlər verir. Müqəddəs Quran isə xeyir və nəciblikdə əməkdaşlıq etməyə, şərə və düşmənçiliyə kömək etməməyə bilavasitə çağırır.

Ona görə də dindarların hisslərinin hər hansı şəkildə təhqir olunmasını yolverilməz, hüquqazidd hesab edirik. Bu son dərəcə həssas məsələlərdə çox diqqətli olmaq, nəinki əməllərin, hətta düşünülməmiş sözlərin nə kimi ağır nəticələrə gətirib çıxara biləcəyini əvvəlcədən proqnozlaşdırmağı bacarmaq lazımdır. Mən hələ dövlət orqanlarının işini demirəm, onların hərəkətləri üçqat məsuliyyətli olmalıdır. Bunu Azərbaycanın tanınmış ümummilli lideri Heydər Əliyeviç Əliyev yaxşı bilirdi. Ən münaqişəli dövrlərdə məhz onun sayəsində dini dözümlülük prinsipi Azərbaycanın siyasətində təməl daşı olaraq qalmışdır. Düşünürəm ki, buna, habelə əsası Heydər Əliyeviç Əliyev tərəfindən qoyulmuş digər prinsiplərə sadiqlik, qəti əməl olunması bu gün, indiki şəraitdə də Azərbaycana səmərəli surətdə inkişaf etməyə və irəliləməyə kömək edən əsaslardan biridir.

Sonda bir daha vurğulamaq istəyirəm ki, regionda bir çox vəzifələrin həllinin açarı məhz dinlərarası dialoqda, onun dinlərin zəngin sülhyaratma potensialına əsaslanan müvəffəqiyyətindədir. Ona görə də biz müsəlman ruhanilərinin nüfuzlu nümayəndələrinin, Azərbaycanda, ümumiyyətlə, regionda fəaliyyət göstərən və işləyən digər konfessiyaların nümayəndələrinin köməyinə çox ümid bəsləyirik. Bu regionun xalqları qarşısında duran bütün mürəkkəb məsələlərin həllində sizin dəstəyinizə çox ümid bəsləyirik.

Göstərdiyiniz şərəfə görə çox sağ olun.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV VƏ RUSİYA PREZİDENTİ VLADİMİR PUTİN RUSİYA MİLLİ SƏRGİSİNDƏ OLMUŞLAR

Fevralın 21-də Azərbaycan Prezidenti İlham Əliyev və Rusiya Prezidenti Vladimir Putin Heydər Əliyev adına İdman-Sərgi Kompleksində "Rusiya və Azərbaycan: strateji tərəfdaşlıq" devizi ilə keçirilən Rusiya milli sərgisində olmuşlar.

Azərbaycan dövlətinin başçısı İlham Əliyev Rusiya Prezidenti Vladimir Putini

kompleksin girişində səmimiyyətlə və mehribanlıqla qarşıladı.

Milli geyimli qızlar dövlət başçılarına tatar milli şirniyyatı - çakçak təqdim etdilər.

RF İqtisadi İnkişaf və Ticarət Nazirliyi və Ticarət-Sənaye Palatası tərəfindən təşkil olunmuş sərgidə ölkənin regionlarının, o cümlədən Moskva, Sankt-Peterburq, Tatarıstan Respublikası, Kabarda-Balkariya Respublikası, Mordva Respublikası, Stavropol diyarı, Omsk, Ulyanovsk, Sverdlovsk, Həştərxan, Kurqan, Penza, Saratov və Çelyabinsk vilayətlərinin, digər regionların 12 kollektiv ekspozisiyası nümayiş etdirilir. Rusiya Fövqəladə Hallar Nazirliyi ayrıca stenddə təmsil olunmuşdur.

Ekspozisiyada neft-mədən avadanlığı və texnoloji avadanlıq, qara metallar prokatı və armaturlar, borular, elektrotexnika avadanlığı, kimya və meşə sənayesi məhsulları, tikinti avadanlığı, tibb texnikası, yeyinti sənayesi məhsulları, nəqliyyat (minik avtomobilləri, maşın və mexanizmlər), aqrar-sənaye texnologiyaları göstərilir.

Prezidentlər ölkəmizdə başlanan Rusiya İli çərçivəsində açılmış sərginin ekspozisiyasına baxdılar. "Ümumrusiya Sərgi Mərkəzi" ASC-nin baş direktoru Məhəmməd Musayev dövlət başçılarına Rusiya müəssisələrinin sərgidə nümayiş etdirilən məhsulları barədə ətraflı məlumat verdi. O bildirdi ki, istər sərginin, istərsə də onun işgüzar proqramının hazırlanması prosesində Rusiya biznesindən ikitərəfli münasibətlərin inkişafına, Azərbaycanda diler əlaqələri yaradılmasına dair bir çox maraqlı təkliflər alınmışdır. Təşkilatçıların fikrincə, sərgi danışıqlar aparılması və gələcək əməkdaşlığın perspektivlərinin müəyyənləşdirilməsi üçün yaxşı imkan olacaqdır.

Rusiya işgüzar dairələrinin sərgidə iştirak edən nümayəndələri arasında həmvətənlərimiz də var. Məsələn, "Ulyanovsk motor zavodu" Ticarət Evi" MMC-nin məhsulunu müəssisənin baş direktorunun müavini, Ulyanovskdakı Azərbaycan diasporunun rəhbəri Şakir Göyüşov təqdim etdi.

Prezidentlər sərgidə Moskva hökuməti tərəfindən təqdim olunmuş və 18 müəssisənin məhsulunun nümayiş etdirildiyi ən böyük bölməyə də baxdılar.

HEYDƏR ƏLİYEV ADINA SARAYDA AZƏRBAYCANDA RUSİYA İLİNİN TƏNTƏNƏLİ AÇILIŞ MƏRASİMİ

Fevralın 21-də Heydər Əliyev adına Sarayda Azərbaycanda Rusiya İlinin təntənəli açılış mərasimi olmuşdur. Mərasimdə Azərbaycan Prezidenti İlham Əliyev və Rusiya Prezidenti Vladimir Putin iştirak etmişlər.

Salona toplaşanlar dövlət başçılarını hərarətlə qarşıladılar.

Rusiyanın və Azərbaycanın dövlət himnləri səsləndi.

Prezidentlər mərasimdə nitq söylədilər.

RUSİYA PREZİDENTİ VLADİMİR PUTİNİN NİTQİ

- Hörmətli İlham Heydəroviç!

Hörmətli xanımlar və cənablar!

Əziz dostlar!

Biz dövlətlərarası münasibətlərin, Azərbaycan və Rusiya Federasiyası arasında münasibətlərin inkişafının müasir mərhələsi üçün həqiqətən, əlamətdar və çox mühüm olan hadisənin iştirakçılarıyıq. Bu gün biz Azərbaycan Respublikasında Rusiyanın milli İlinə start veririk. O, Rusiyanın müasir, ən yeni nailiyyətlərinə sadəcə baxış olmayıb, tarixən yaxın dövlətlərin və xalqların bərabərhüquqlu və qarşılıqlı surətdə faydalı əməkdaşlığına yeni təkan verməlidir. Elə xalqların ki, onlar əsrlər boyu münasibətlərində olan yaxşı varisliyi qayğı ilə qoruyub saxlayaraq, bu ənənələri nəsildən-nəslə ötürmüşlər.

Şübhəsiz, İlin proqramı Rusiya Federasiyasında Azərbaycan İlindən heç də az populyar və önəmsiz olmayacaqdır. Rusiyada Azərbaycan İli isə göstərmişdir ki, xalqlarımızın taleləri nə dərəcədə sıx tellərlə bağlanmış və onların sülh, əmin-amanlıq şəraitində yaşamağa, əlbir qarşılıqlı inkişafa, bir-birini zənginləşdirməyə kömək etməyə çalışmaq əzmi nə qədər güclüdür. Burada təəccüblü heç nə yoxdur. Axı, epoxalar boyu ruslar və azərbaycanlılar bir-birini anlamaq üçün böyük qabiliyyətə, bu dərəcədə özgür mədəniyyətlərin mənəvi dəyərlərini əxz etməyə, milli və konfessiyalararası münasibətlərdə misilsiz qarşılıqlı hörmət və dözümlülük təcrübəsini qoruyub saxlamağa qadir olduqlarını göstərmişlər.

Biz vüsətli iqtisadi vəzifələrin birlikdə həllində də çox nailiyyətlər əldə etmişik. Bu, həm də Xəzərdə neft mədənlərinin yaradılması və Sibir yataqlarının işlənilməsidir. Vaxtilə Rusiya geoloqu İvan Mixayloviç Qubkinin elmi axtarışları Azərbaycanda yeni "qara qızıl" yataqları kəşf etməyə imkan vermişdir. Bakının neft universitetləri isə yüz minlərlə rusiyalı mütəxəssis hazırlamışdır və onlar indi də bu sahədə işləyirlər.

Böyük Vətən müharibəsi illərindəki döyüş qardaşlığımız xalqların dünya tarixində görünməmiş birliyinin nümunəsi olmuşdur. Fürsətdən istifadə edərək, nasizm üzərində Böyük Qələbənin 60 illiyi şərəfinə genişmiqyaslı tədbirlərin hazırlanması və keçirilməsində həmrəyliyə görə Azərbaycan Respublikasının Prezidentinə, Azərbaycanın bütün veteranlarına təşəkkürümü bildirmək istəyirəm.

Əməkdaşlığın belə əsaslı, zamanın sınağından çıxmış bünövrəsi, ümumi tarixə hörmət Rusiya və Azərbaycan xalqlarını yeni şəraitdə də birləşdirir. Bu gün dövlətlərimizin quruculuq sahəsində nümayiş etdirdikləri uğurlar isə elə bir perspektivli bazadır ki, biz müasir tərəfdaşlığımızı onun üzərində qururuq. Onu da unutmaq olmaz ki, bizim münasibətlərimizin müsbət xarakteri bütün regionda coğrafi-siyasi sabitlik amilidir. Burada biz kooperasiyanın yeni, səmərəli modellərini hələ axtarmalı və birlikdə həyata keçirməli, təkcə ikitərəfli imkanlardan deyil, həm də postsovet məkanındakı inteqrasiya proseslərindən tam dolğunluğu ilə istifadə etməliyik.

Əziz dostlar!

Rusiya və Azərbaycanın bir çox vətəndaşları ümumi işlə, möhkəm ailə və dostluq telləri ilə bağlıdırlar. Odur ki, biz hamımız vahid humanitar məkanın qorunub saxlanması və

möhkəmlənməsində, mədəni əlaqələrin, gənclər mübadiləsinin inkişafında, elm və təhsil sahəsində təmaslarımızın genişlənməsində bilavasitə maraqlıyıq. MDB dövlətlərinin humanitar əməkdaşlıq haqqında Kazanda imzalanmış Sazişi də məhz buna yönəlmişdir. Əminəm ki, humanitar əməkdaşlığın çoxtərəfli formatı bu sahədə ikitərəfli əlaqələrin imkanlarını tamamlayır və genişləndirir.

Bax, buna görə də həmin sazişin ideyasına tələbat olmuş və Birlik ölkələrinin yaradıcı və elmi ziyalıları onu dəstəkləmişlər. Onlar artıq bu ilin yazında Moskvada özlərinin ilk forumunu keçirməyi təklif etmişlər. Əminəm ki, belə qeyri-adi, məzmunlu tədbir birgə humanitar layihələr üçün, MDB məkanında ümumi, təzələnmiş bazarlar - təhsil, elmi, mədəni xidmətlər bazarlarının açılması üçün, Birliyin bütün ölkələrində insan kapitalının inkişafı üçün çıxış nöqtəsi olacaqdır.

Əziz dostlar!

Azərbaycanda rus dilinin necə geniş yayıldığını, rus ədəbiyyatına necə böyük maraq olduğunu yaxşı bilirəm. Düşünürəm ki, Bakıda tezliklə keçiriləcək rus kitabı birinci beynəlxalq festivalı Azərbaycanda Rusiya İlinin ən əlamətdar hadisələrindən birinə çevriləcəkdir. Bununla əlaqədar görkəmli Rusiya filoloqu və maarifçisi, bu il 100 illiyini qeyd edəcəyimiz Dmitri Sergeyeviç Lixaçovun sözlərini misal gətirmək yerinə düşərdi. O, millətlərin mənəvi və əxlaqi əsaslarını möhkəmlədən öz keçmişinə müraciətin vacibliyindən danışarkən vurğulamışdır ki, "əgər keçmişə belə müraciət digər xalqlardan və onların mədəni təcrübəsindən təcrid olunmaq kimi məhdud niyyətdən irəli gəlibsə, bu müraciət səmərə verə bilməz". Milli mədəniyyətləri zənginləşdirən və genişləndirən bu açıqlıq ideyası Azərbaycanda Rusiya İlinin ruhu ilə tam ahəngdar səslənir.

Bu gün onun başlandığını təntənəli surətdə elan edərək, bu bayramın bütün rusiyalı və azərbaycanlı iştirakçılarına uğurlar diləmək və ən xoş arzularımı bildirmək istəyirəm.

Diqqətinizə görə çox sağ olun.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ

- Hörmətli Vladimir Vladimiroviç!

Hörmətli qonaqlar!

Əziz dostlar!

Bu gün biz Azərbaycanda Rusiya İlini açırıq. Mən bu əlamətdar hadisə münasibətilə hamımızı səmimi qəlbdən təbrik etmək istəyirəm. Əminəm ki, Azərbaycanda Rusiya İli uğurla keçəcəkdir. Bu il ərzində ölkələrimiz və xalqlarımız daha da yaxınlaşacaq, bir-birimizi daha yaxşı tanıyacaq, müxtəlif istiqamətlərdə daha fəal əməkdaşlıq edəcəyik. Beləliklə, çalışacağıq ki, həm Rusiya, həm də Azərbaycan gələcəkdə də yaxşı qonşular, xeyirxah dostlar və tərəfdaşlar olaraq qalsınlar. Bu, bizim mənafelərimizə uyğundur.

Ölkələrimizi və xalqlarımızı ümumi tarix birləşdirir və ənənəvi dostluq, mehriban qonşuluq və qardaşlıq münasibətləri indi davam edir, inkişaf edir və dərinləşir.

Siyasi səpkidə ölkələrimiz arasında həm regional əməkdaşlıq məsələlərində, həm də beynəlxalq məsələlərdə çox aktiv qarşılıqlı fəaliyyət mövcuddur. Biz müxtəlif beynəl-

xalq təşkilatlarda fəal əməkdaşlıq edir və bir-birimizi dəstəkləyirik. Əlbəttə, ikitərəfli əsasda da əməkdaşlığın çox möhkəm bazası var.

Biz bu fəal siyasi dialoqun davam etdirilməsini istəyirik. Bu birgə səylərin nəticəsidir ki, indi biz Rusiya ilə Azərbaycan arasında münasibətlərdən strateji tərəfdaşlıq münasibətləri kimi danışırıq. Bax, siyasi münasibətlərin belə möhkəm bazası bütün digər sahələrdə də əlaqələrin inkişafına təkan verir.

Bu gün bu salona gəlməzdən əvvəl biz Vladimir Vladimiroviçlə birlikdə Rusiya istehsalçılarının Azərbaycanda açılmış sərgisinə getdik. Səmərəli iqtisadi əməkdaşlığın potensialının nə qədər böyük olduğunu bir daha yəqin etdik. Sərgidə nümayiş etdirilən mallar və xidmətlər Rusiya istehsalçılarının potensialının səviyyəsini göstərir. Eyni zamanda göstərir ki, bu mallar və xidmətlərdən istifadə etmək üçün Azərbaycanda artıq möhkəm iqtisadi baza mövcuddur. Təsadüfi deyil ki, indi ölkələrimiz arasında əmtəə dövriyyəsi çox yüksək sürətlə inkişaf edir. Hamımızın yadındadı, iki il əvvəl Rusiyaya rəsmi səfərim zamanı biz Vladimir Vladimiroviçlə əmtəə dövriyyəsinin iki dəfə artırılması proqramını müəyyənləşdirdik. Lakin o vaxt biz yəqin güman etməzdik ki, bu, belə tez baş verəcəkdir. Cəmi iki ildə ölkələrimiz arasında əmtəə dövriyyəsi iki dəfə artmış və indi bir milyard dolları keçmişdir. Bu gün ölkələrimizin iqtisadi imkanlarını, iqtisadiyyatın artım, sənayenin inkişaf sürətini qiymətləndirərkən inamla demək olar ki, bu, son həddeyildir. Ona görə də iqtisadi münasibətlərin daha da artmasına çalışacağıq.

Bütün bunlar əməkdaşlıq üçün gözəl şərait yaradır. Vladimir Vladimirovçin bir az öncə dediyi humanitar sahədə əməkdaşlıq bizim üçün həmişə çox mühüm və yaxın olmuşdur. Bu əməkdaşlıq səmimi tələbatdan irəli gəlmişdir, yuxarıdan göndərilməmişdir, bu, yerinə yetirilməli olan direktiv deyil, cəmiyyətin normal vəziyyətidir.

Azərbaycanda rus mədəniyyətinə və dilinə böyük məhəbbət və hörmətlə yanaşırlar. Demək istəyirəm ki, Azərbaycanda rus dilində təhsil elə Sovet İttifaqı dövründəki həcmdə həyata keçirilir. Burada bir məktəb də belə bağlanmamış, ölkəmizin, əslində, bütün dövlət ali təhsil müəssisələrində rus dilində tədris mövcuddur. Başqa sözlə, bu, Azərbaycan dövlətinin prinsipial və ardıcıl siyasəti olmaqla yanaşı, həm də sosial və ictimai sifarişdir. Ona görə də ölkəmizdə bu siyasəti həyata keçirmək çox asandır.

Azərbaycan həmişə dözümlülüyü ilə fərqlənmişdir. Rusiya kimi, Azərbaycan da çoxmillətli ölkədir. Burada bir çox xalqların nümayəndələri bir ailə kimi yaşayırlar. Bu, dini etiqad azadlığı baxımından da belədir. Azərbaycan bir çox dinlərin nümayəndələrinin sülh, qardaşlıq və həmrəylik şəraitində yaşamasına yaxşı nümunədir. Hazırda dünyada təhlükəli meyilləri gördüyümüz bir zamanda bu, xüsusilə vacibdir. Bir tərəfdən, sivilizasiyalararası dialoqdan danışılır, digər tərəfdən, dini zəmində yaradılan ziddiyyətlər bəzən süni surətdə qızışdırılır. Biz qəti mübarizəmizi, habelə fəaliyyətimizi buna qarşı qoymalıyıq. Öz nümunəmizlə göstərməliyik ki, dünya tamamilə başqa istiqamətdə inkişaf etməlidir.

Azərbaycanda çoxlu rus, Rusiyada isə olduqca çox azərbaycanlı yaşayır. Bu da dövlətlərimiz arasındakı münasibətlərdə mühüm amillərdəndir. Əminəm ki, Azərbaycanda Rusiya İli ilə başladığımız bu il çox uğurlu olacaq, bizə daha fəal əməkdaşlıq imkanı verəcək və biz daha da yaxınlaşacağıq. Biz qonşularıq və Rusiya ilə Azərbaycan arasında mehriban qonşuluq münasibətləri çox möhkəmdir. Onlar məhz mehriban qonşuluğun

fundamental prinsiplərinə - səmimiliyə, etibarlılığa və dostluğa əsaslanır. Zənnimcə, razılaşarsınız ki, bütün bu amillər ölkələrimiz arasındakı münasibətləri şərtləndirir.

Bu imkandan istifadə edib, ölkəmizə gəldiyi və Azərbaycanda Rusiya İlinin açılışında şəxsən iştirak etdiyi üçün Rusiya Prezidentinə təşəkkür etmək istəyirəm. Bu kürsüdən iqtisadi sahədə çox fəal əməkdaşlıq etdiyimiz Rusiya regionları rəhbərlərini salamlamaq istəyirəm. Rusiya regionlarının nümayəndə heyətləri ölkəmizə tez-tez səfər edirlər və bu gün də onlarla görüşdük.

Rusiyadan gəlmiş bütün qonaqları salamlamaq istəyirəm. Azərbaycana xoş gəlmisiniz, Azərbaycanda Rusiya İlinə uğurlar arzulayıram.

Diqqətinizə görə təşəkkür edirəm.

[redacted]

Sonra Rusiya Federasiyası incəsənət ustalarının böyük konserti oldu. Azərbaycan tamaşaçıları Rusiyanın əməkdar incəsənət xadimi, professor Aleksandra Permyakovanın rəhbərliyi ilə Pyatnitski adına Dövlət Akademik Rus Xalq Xorunun, P.İ.Çaykovski adına XI Beynəlxalq müsabiqənin qalibi pianoçu Denis Matsuyevin, "Terem-Kvartet"in və Sergey Jilinin rəhbərliyi ilə "Fonoqraf-Caz-Bənd" musiqi kollektivlərinin, estrada müğənnisi Nikolay Noskovun çıxışlarını alqışlarla qarşıladılar.

[redacted]

Heydər Əliyev adına Sarayın foyesində "Azərbaycan: 100 il İTAR-TASS-in obyektivində" fotosərgisi təşkil edilmişdi. Sərgiyə Rusiyanın qocaman informasiya agentliyinin ən yaxşı fotoustalarının 100-dək işi təqdim olunmuşdu. Fotoşəkillər XX əsrin əvvəllərində neft sahəsində ilk böyük canlanmadan başlayaraq, Azərbaycanın indiki reallıqlarınadək ölkəmizin tarixinin bir əsrdən artıq dövrünü əks etdirir.

Şəkillərdə həm sovet dövründə, həm də müstəqillik illərində Azərbaycan-Rusiya münasibətlərinin mühüm mərhələləri öz əksini tapmışdır.

Ekspozisiyada Rusiyada başa çatmış Azərbaycan İlinə, hər iki ölkənin faşist Almaniyası üzərində Qələbəyə töhfəsinə həsr olunmuş fotoşəkillər də geniş yer tutur.

Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyeva İTAR-TASS agentliyinin Baş direktoru Vitali İqnatenkonun müşayiəti ilə sərginin ekspozisiyasına baxmışdır.

RUSİYA PREZİDENTİNİN ŞƏRƏFİNƏ

Azərbaycan Prezidenti İlham Əliyevin adından fevralın 21-də "Gülüstan" sarayında Rusiya Prezidenti Vladimir Putinin şərəfinə qəbul təşkil edilmişdir.

Salona toplaşanlar Azərbaycan və Rusiya rəhbərlərini alqışlarla qarşıladılar. Prezidentlər İlham Əliyev və Vladimir Putin qəbulda nitq söylədilər.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ

- Hörmətli Vladimir Vladimiroviç!

Əziz dostlar, xanımlar və cənablar!

Sizi Azərbaycanda bir daha səmimi qəlbdən salamlamaq, hamınıza firavanlıq, sağlamlıq, sizə və ailələrinizə xoşbəxtlik arzulamaq istəyirəm.

Bu gün Azərbaycanda Rusiya İlinin açılışı günüdür. Biz onu bir qədər əvvəl təntənəli şəraitdə qeyd etdik. Bu, ölkələrimiz arasında bütün istiqamətlərdə gələcək əməkdaşlıq üçün çox yaxşı perspektivlər açır. Biz Rusiyanın və Azərbaycanın əməkdaşlığına çox böyük əhəmiyyət verir və onu konkret məzmunla dolğunlaşdırmağa çalışırıq. Azərbaycanın müstəqillik əldə etdiyi vaxtdan bəri ölkələrimiz arasında münasibətlər bir neçə dövrdən keçmişdir. Onları 2000-ci ilədək olan dövrə və 2000-ci ildən sonrakı dövrə ayırmaq olar. Münasibətlərin dinamikası, konkret işlər, razılaşmalar, qarşılıqlı fəaliyyətin səviyyəsi üzrə izləsək, əlbəttə, böyük fərq olduğunu görərik.

Rusiya ilə Azərbaycan arasında münasibətlər məhz 2000-ci ildən başlayaraq tamamilə yeni məzmun kəsb etmişdir. Bunun əsasını Rusiya Prezidenti Vladimir Putinin 2001-ci ilin əvvəllərində Azərbaycana rəsmi səfəri qoymuşdur. Bu, Rusiya Prezidentinin Azərbaycana ilk səfəri idi. Həmin vaxtdan bu günədək biz münasibətlərimizdə ancaq müsbət hallar görürük. Gah anlaşılmazlıq, gah da hansısa problemlər doğuran bütün məsələlər tənzimlənmişdir. Biz regional formatda fəal əməkdaşlıq edirik. Xəzər problemi, regional təhlükəsizlik barədə, Qafqazda təhlükəsizlik barədə baxışlarımız tam uyğun gəlir. Bunun əsasını iki prezident - Vladimir Putin və Heydər Əliyev qoymuşlar. Onların dostluğu, münasibətləri, müdrikliyi Rusiya ilə Azərbaycanın stratreji tərəfdaşlar olmasını və əməkdaşlığımızın daha da dərinləşməsi üzərində fəal işləməsini öncədən müəyyənləşdirmişdir.

Azərbaycanda hamı Heydər Əliyev ilə Sizin şəxsi münasibətlərinizi xatırlayır. Əsil dost kimi məhz Siz ən ağır vaxtda dostluq əli uzatdınız, ağır anda, xəstəlik anında da diqqət göstərdiniz. İnanın, Azərbaycanda bunu xatırlayır və yüksək qiymətləndirirlər.

Münasibətlərimizin indiki mərhələsi 2000-ci ildə başlanmış mərhələnin davamıdır. Biz əlaqələrimizə yeni formalar verilməsi üzərində fəal işləyirik. Həyat bir yerdə dayanmır. Qarşımıza yeni vəzifələr, yeni tələblər çıxır, biz onları həll etməyə hazır olmalıyıq. Biz bunu birlikdə etdikdə, bir çox məsələlərdə səylərimizi əlaqələndirdikdə, əlbəttə, uğurlar qazanırıq. Sülh olmadan, sabitlik olmadan inkişaf mümkün deyildir. Bu, sübut tələb etməyən aksiomadır. Ona görə də Rusiya və Azərbaycan Qafqazda sülh, əmin-amanlıq olmasında, qan tökülməməsində, evlərdə firavanlıq və rahatlıq olmasında maraqlıdır.

Azərbaycan öz tarixinin ağır məqamlarını yaşamışdır, torpaqlarımızın bir hissəsinin işğal altında olmasından indiyədək əziyyət çəkməkdədir. Ümidvarıq ki, qonşumuz kimi, böyük dövlət kimi, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması üzrə ATƏT-in Minsk qrupunun həmsədri kimi Rusiya bu münaqişənin sülh yolu ilə həlli üçün bundan sonra da səy göstərəcəkdir.

Biz qeyri-adi heç nə, beynəlxalq hüququn, yaxud da insan məntiqinin normal çərçivəsindən kənara çıxan heç nə tələb etmirik. Biz yalnız onu tələb edirik ki, torpaqlarımız işğaldan azad olunsun, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi yalnız və

yalnız beynəlxalq hüquq prinsipləri əsasında nizama salınsın. Onda qaçqın-köçkünlərimiz öz evlərinə qayıdarlar. Onda sülh olar, regionda sülh təmin edilər.

Bu gün Azərbaycanda Rusiya İlinin açılışı çərçivəsində sərgi də açıldı, Rusiya istehsalçılarının potensialı bizə bir daha təqdim olundu. Rusiya-Azərbaycan geniş biznes forumunun keçirilməsi də nəzərdə tutulur. Forumda biznes nümayəndələri iştirak edəcəklər. Ümid edirik ki, bu istiqamətdə əlaqələrimiz fəal surətdə genişlənəcəkdir. Bunu demək üçün əsaslar var. Ölkələrimiz arasında əmtəə dövriyyəsinin necə dinamik inkişaf etməsi iqtisadi əlaqələrimizin uğurla inkişaf etdiyinə ən yaxşı sübutdur.

Başqa sözlə desək, münasibətlərimiz, onların bütün istiqamətlərdə inkişafı, dərinləşməsi milli mənafelərimizə cavab verir, düşüncələrimizə cavab verir, əhval-ruhiyyəmizə cavab verir.

Mən bu badəni Rusiya ilə Azərbaycan arasında münasibətlərin daha da möhkəmlənməsi şərəfinə qaldırıram. Rusiyanın tərəqqisi, Rusiya xalqının firavanlığı şərəfinə və Rusiya Prezidenti Vladimir Vladimiroviç Putinin sağlığına badə qaldırıram.

RUSİYA PREZİDENTİ VLADİMİR PUTİNİN NİTQİ

- Əziz dostlar!

İlk növbədə, ölkənizə gəlmək və Azərbaycanda Rusiya İlinin açılışında iştirak etmək imkanına görə Azərbaycan Prezidentinə və onun xanımına minnətdarlığımı bildirmək istəyirəm.

Rusiya-Azərbaycan münasibətləri müharibədən sonrakı bütün illər ərzində görünməmiş yüksək səviyyədədir. Şübhəsiz, bu, ilk növbədə, Heydər Əliyeviç Əliyevin xidmətidir. Ona görə ki, məhz o, Rusiya-Azərbaycan münasibətlərinin əhəmiyyətini dərindən bildiyinə görə, Azərbaycan üçün ən ağır illərdə və Rusiya-Azərbaycan münasibətlərinin çox mürəkkəb dövründə həmin münasibətlərin normal məcraya qayıdışı üçün imkanın çox mürəkkəb dövründə həmin münasibətlərin normal məcraya qayıdışı üçün imkanı qoruyub saxladı. Məhz o, bizə normal dövlətlərarası münasibətlərə qayıtmaq imkanı verdi.

Mən bu gün fəaliyyətdə olan Prezidentə demişəm, biz son illər Heydər Əliyevlə tez-tez ünsiyyətdə olurduq. Mən onunla ünsiyyətə alışmışdım. O, çox dərin və müdrik insan idi. Mən hətta bu gün də onun yoxluğunu hiss edirəm. Tədbirə gedəndə həmişə təəssüflə fikirləşirəm ki, o, bu tədbirlərdə olmayacaqdır. Lakin əsası ata tərəfindən qoyulan işləri oğul davam etdirir. Biz bunu görürük, Azərbaycanın necə və hansı sürətlə inkişaf etdiyinə sevinirik. ÜDM-in artım sürəti dünyada ən yüksək göstəricilərdəndir. Bu, Rusiya üçün də həsəd aparılmalı mövzudur. Bu, onu göstərir ki, Azərbaycan rəhbərliyi öz ölkəsinin inkişafı üçün təkcə xarici siyasətdə deyil, həm də iqtisadiyyatda düşünülmüş şəkildə doğru inkişaf yolu seçmişdir. Bu isə başlıca məsələdir, gələcək tərəqqinin əsasıdır.

Bizim mənəvi əlaqələrimiz həmişə yüksək səviyyədə olmuşdur. Rusiyada ölkənizin çox böyük sayda vətəndaşı yaşayır. Mən hələ Rusiya Federasiyasının Azərbaycan əsilli vətəndaşlarını demirəm. Mən Rusiya Federasiyası ərazisində müvəqqəti yaşayıb-işləyən, burada qazandığı vəsaitlə ailələrini saxlayan bir milyondan çox Azərbaycan vətəndaşını nəzərdə tuturam. Hesab edirəm ki, bu, dövlətlərimiz arasında çox yaxşı qarşılıqlı

fəaliyyət, qarşılıqlı əlaqə körpüsüdür. Çünki bu, adamlar arasında canlı qarşılıqlı əlaqədir.

Biz çox şadıq ki, münasibətlərimiz keyfiyyətcə yeni səviyyəyə çıxır. Prezidentin dediyi kimi, ticarət dövriyyəmiz bir milyard ABŞ dollarına çatmışdır. Lakin məsələ hətta bunda da deyildir. Məsələ ondadır ki, əmtəə dövriyyəmizin keyfiyyəti bir çox dövlətlərlə olan əmtəə dövriyyəsinin həcmlərindən daha yaxşı, sərfəli olması ilə fərqlənir. Hətta bu həcm bəzən daha böyük olsa da. Keyfiyyət isə ondan ibarətdir ki, sənayenin payı daim artır. O, ötən il gəmiqayırma üzrə iki dəfə, maşınqayırma üzrə bir dəfə yarım artmışdır. Bu, ölkələrimizin iqtisadiyyatlarının bir-birini tamamladığının və bir-biri üçün gərəkli olduğunun çox yaxşı keyfiyyət göstəricisidir. Rusiya bu qarşılıqlı iqtisadi əlaqələrin inkişaf sürətini hər vasitə ilə dəstəkləyəcəkdir.

Əlbəttə, başa düşürük ki, Azərbaycan çox mürəkkəb beynəlxalq problemlər qarşısında durur, onlardan ən başlıcası Qarabağ münaqişəsinin həlli problemidir. Bu, Azərbaycan və Ermənistan xalqlarının üzərinə ağır yük kimi düşür və əlbəttə, hər iki ölkənin rəhbərliyi qarşısında, ilk baxışdan, sadəcə, həlledilməz vəzifələr qoyur. Lakin əminəm ki, xoş məram olarsa, nizamasalma variantları tapıla bilər. Demək istəyirəm ki, hər iki tərəfin xoş məramı olarsa və Rusiya kimi dövlətlərin və nizamasalmada iştirak edən digər ölkələrin vasitəçiliyi olarsa, tapıla bilər. Biz hər iki dövlət üçün bu zəruri qərarların axtarışına dair birgə işə şərait yaradılmasına bundan sonra da çalışacağıq.

Çox səmimi və həqiqətən dostcasına qəbula görə Sizə təşəkkür etmək istəyirəm. Qorxuram səhv edəm, lakin yadımdadırsa, Azərbaycan atalar sözlərindən biri belədir ki, özünüz yaxşı yaşamaq istəyirsinizsə, çalışın ki, qonşunuz yaxşı yaşasın. Biz hər vasitə ilə çalışacağıq ki, strateji tərəfdaşımız olan Azərbaycan son illərdə götürdüyü belə yüksək sürətlə inkişaf etsin.

Münasibətlərimizin inkişafı şərəfinə badə qaldırmağı təklif edirəm.

Prezidentin və onun xanımının sağlığına!

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ RUSİYA PREZİDENTİ VLADİMİR PUTİNİN TƏKBƏTƏK GÖRÜŞÜ

Fevralın 22-də Prezident sarayında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin təkbətək görüşü keçirilmişdir.

Azərbaycan Prezidenti İlham Əliyev ölkəmizdə işgüzar səfərdə olan Rusiya Prezidenti Vladimir Putini Prezident sarayında səmimiyyətlə qarşıladı.

Sonra dövlət başçılarının təkbətək görüşü balandı. Prezident İlham Əliyev Azərbaycanda Rusiya İlinin açılışının uğurla keçdiyini və təqdim olunan qala-konsertin də yüksək səviyyədə təşkil edildiyini vurğuladı. Azərbaycanda Rusiya İlinin bütün il boyu bu cür davam edəcəyinə ümidvar olduğunu bildirən dövlətimizin başçısı ölkələrimiz arasında dostluq, mehriban qonşuluq, səmərəli əməkdaşlıq münasibətlərinin bundan sonra daha da möhkəmlənəcəyinə əminliyini söylədi.

Prezident Vladimir Putin də ölkəsinin incəsənət ustalarının Azərbaycanda Rusiya İlinin açılışı mərasimi iştirakçılarına təqdim etdikləri rəngarəng konsert proqramının sevinc doğurduğunu söylədi. Ölkələrimiz arasında bütün sahələrdə əməkdaşlığın bu cür yük-

sək səviyyədə davam etməsi üçün potensial imkanların olduğunu vurğulayan Rusiyanın dövlət başçısı uğurla başlayan İlin elə bu cür də başa çatacağına əminliyini bildirdi.

Görüşdə tərəfləri maraqlandıran məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

AZƏRBAYCAN VƏ RUSİYA PREZİDENTLƏRİNİN GENİŞ TƏRKİBDƏ GÖRÜŞÜ

Fevralın 22-də Prezident sarayında Azərbaycan Prezidenti İlham Əliyev ilə Rusiya Prezidenti Vladimir Putin arasında təkbətək görüş başa çatdıqdan sonra dövlət başçılarının nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü keçirilmişdir.

Prezident İLHAM ƏLİYEV görüşdə çıxış edərək dedi:

- Hörmətli Vladimir Vladimiroviç!

Sizi Azərbaycanda bir daha səmimi qəlbdən salamlayıram. Azərbaycanda Rusiya İli çox uğurla başlandı. Dünən biz gözəl bir konsertdə olduq və bu gün işimizi davam etdiririk. İkitərəfli münasibətlərə dair məsələlər, regional məsələlər barədə geniş fikir mübadiləsi apardıq və mövqelərimizin uyğun gəlməsi, əlbəttə, bir daha sübut edir ki, strateji tərəfdaşlıq səviyyəsində olan münasibətlərimiz getdikcə möhkəmlənir. Biz buna - həm siyasi sahədə əməkdaşlığa və məsləhətləşmələrə, həm də iqtisadiyyatda fəal əməkdaşlığa çox böyük əhəmiyyət veririk.

Məlum olduğu kimi, bu gün Rusiya-Azərbaycan biznes forumu başlanmışdır. Ümidvaram ki, bu forum çərçivəsində biznesmenlərimiz bir-birini daha yaxşı tanıyacaq, getdikcə genişlənən imkanları qiymətləndirəcəklər.

Rusiyanın da, Azərbaycanın da iqtisadiyyatları çox dinamik inkişaf edir, iqtisadi sahədə əməkdaşlığın yeni perspektiv istiqamətləri açılır. Əlbəttə ki, bu, bütün digər sahələrdə də daha fəal əməkdaşlığa kömək edəcəkdir.

Əlbəttə, biz humanitar sahədən də danışdıq. Burada biz bir müsbət hal görürük. Başqa sözlə, mən əsla şübhə etmirəm ki, Sizin səfərinizdən sonra münasibətlərimiz daha da möhkəmlənəcəkdir, bu isə milli mənafelərimizə uyğundur.

Bir daha "Xoş gəlmisiniz!" deyirəm.

Sonra Rusiya Prezidenti VLADİMİR PUTİN çıxış edərək dedi:

- Dəvətə görə də, danışıqlarımızın keçdiyi çox xeyirxahlıq mühitinə görə də Sizə təşəkkür edirəm. Dünən axşam evinizə dəvətə görə çox sağ olun. Biz mürəkkəb beynəlxalq məsələlərə dair danışıqlara, əslində, artıq dünən başladıq. Dünən neytral şəraitdə Qarabağ barədə də danışa bildik. Bu gün səhərki söhbətimiz də çox məzmunlu oldu. Biz gündəliyin, əslində, bütün məsələlərinə, ikitərəfli münasibətlərimizin bütün cəhətlərinə toxunduq.

Sevindirici haldır ki, iqtisadi əməkdaşlıq ardıcıl surətdə inkişaf edir. Dünən Hökumətlərarası komissiya işinə başladı. Biz iki il əvvəl müəyyənləşdirdiyimiz səviyyəyə çıxmışıq və bunu gözlənildiyindən daha tez etmişik. Əmtəə dövriyyəsinin həcmi bir milyard dolları keçmişdir, inkişafın sürətinin 40 faizdən yuxarı olması göstərir ki, biz düzgün yoldayıq.

AZƏRBAYCAN-RUSİYA SƏNƏDLƏRİNİN İMZALANMASI MƏRASİMİ

Fevralın 22-də Prezident sarayında geniş tərkibdə görüşdən sonra Azərbaycan-Rusiya sənədlərinin imzalanması mərasimi olmuşdur.

Dövlət başçıları Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin birgə bəyanatını imzaladılar.

Sverdlovsk vilayəti hökuməti ilə Azərbaycan Respublikası hökuməti arasında ticarət-iqtisadi, elmi-texniki və mədəni əməkdaşlıq haqqında sazişi Sverdlovsk vilayətinin qubernatoru Eduard Rossel və Azərbaycan Baş nazirinin birinci müavini Abbas Abbasov imzaladılar.

AZƏRBAYCAN VƏ RUSİYA PREZİDENTLƏRİNİN BİRGƏ MƏTBUAT KONFRANSI

Fevralın 22-də Prezident sarayında Azərbaycan-Rusiya sənədləri imzalandıqdan sonra prezidentlər İlham Əliyevin və Vladimir Putinin birgə mətbuat konfransı keçirilmişdir.

Dövlət başçıları əvvəlcə bəyanatla çıxış etdilər.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN BƏYANATI

-Hörmətli Vladimir Vladimiroviç!

Hörmətli qonaqlar!

Əziz dostlar!

Hörmətli Vladimir Vladimiroviç, Sizin Azərbaycana səfəriniz başa çatır. Bu vaxt ərzində biz ikitərəfli, regional əməkdaşlığa dair çox geniş məsələləri müzakirə edə bildik. Rusiya ilə Azərbaycan arasında münasibətlərin bugünkü inkişafını səciyyələndirən bir çox məsələlər haqqında, habelə regionun və dünya siyasətinin məsələləri barədə baxışlarımız uyğun gəlir.

Dünən Azərbaycanda Rusiya İli uğurla açıldı. Əminik ki, bu il ərzində ölkələrimiz və xalqlarımız daha da yaxın olacaq, siyasi müstəvidə də fəal əməkdaşlıq edəcəyik, ticarətin dövriyyəsini artıracaq və humanitar sahənin inkişafında bundan sonra da əməkdaşlıq edəcəyik. Başqa sözlə, biz əməkdaşlığımızın bütün istiqamətlərində son 5-6 ildə formalaşmış müsbət meyllərin davam etdiriləcəyinə və möhkəmləndiriləcəyinə ümid bəsləyirik.

Hesab edirəm ki, bu gün Rusiya ilə Azərbaycan arasında münasibətlər qonşular arasında münasibətlərə nümunə ola bilər. Həqiqətən, münasibətlərimiz mehriban qonşuluq, səmimi, dostluq münasibətləridir. Bu, iqtisadiyyatlarımızı fəal inkişaf etdirməyə, bütün istiqamətlərdə fəal əməkdaşlıq etməyə imkan verir, habelə iri sərmayə layihələrindən ötrü, ölkələrimiz arasında iqtisadi münasibətlər üçün çox yaxşı zəmin yaradır.

Bu gün çox böyük sayda rusiyalı sahibkarların iştirakı ilə Azərbaycan-Rusiya biznes forumu işinə başladı. Ümidvaram ki, bu forumun nəticələri çox tezliklə özünü konkret layihələrdə, konkret qərarlarda göstərəcəkdir. Beləliklə, əmtəə dövriyyəsinin iki ildə na-

il olduğumuz ikiqat artımı ölkələrimiz arasında uzunmüddətli fəal iqtisadi əməkdaşlığın inkişafının, yəqin ki, yalnız bir mərhələsi olacaqdır.

Bunun üçün potensial var, ölkələrimizin iqtisadiyyatları dinamik inkişaf edir. Rusiya Azərbaycanın əmtəə dövriyyəsində birinci yeri tutur. Ancaq biz əməkdaşlığın daha da genişlənməsinə ümid bəsləyirik. Əlbəttə ki, Rusiya Prezidenti ilə görüşlərimiz və danışıqlarımız çərçivəsində regional məsələlər, regional təhlükəsizlik, Qafqazda və regionda sabitlik məsələləri geniş səpkidə müzakirə olundu.

Biz Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması məsələsini və bu münaqişənin həllinin mümkün yollarını çox ətraflı müzakirə etdik. Bu münaqişənin beynəlxalq hüquq prinsipləri və normalarına müvafiq surətdə ədalətlə nizama salınması işində qonşumuz kimi, böyük dövlət kimi, ATƏT-in Minsk qrupunda həmsədr ölkə kimi Rusiyanın fəal roluna bundan sonra da ümid bəsləyirik.

Ümidvarıq ki, gələcəkdə ölkələrimiz arasında əməkdaşlığın bütün istiqamətlərində daha böyük tərəqqiyə, səylərimizin daha çox fəallaşmasına nail olacağıq. Bunun üçün hər cür zəmin - rəhbərlərin siyasi iradəsi, hökumət üzvlərinin fəallığı var. Hökumətlərarası komissiyamız çox səmərəli işləyir. Bunu lazımınca qiymətləndirmək lazımdır. İki ildə əmtəə dövriyyəsini iki dəfə artırmağa nail olmağımızda məhz bu, çox böyük rol oynamışdır.

Ümidvarıq ki, bu il ərzində Azərbaycana Rusiyadan çoxlu qonaq gələcəkdir. Biz qonaqların, xüsusən də Rusiyadan, bizim üçün dost ölkədən qonaqların gəlməsinə çox şadıq. Yəqin ki, olduqca çox yaradıcılıq kollektivləri gələcək, köhnə, səmimi dostların görüşləri çox olacaqdır. Əlbəttə ki, bütün bunlar bizi daha da yaxınlaşdıracaqdır. Biz buna çox ümid bəsləyirik. Fürsətdən istifadə edərək, ölkəmizə səfərinə görə, Azərbaycanda Rusiya İlini açmağa gəldiyinə görə Rusiya Prezidentinə bir daha təşəkkür etmək, qonaqlarımız olan Rusiya respublikaları və vilayətlərinin bütün rəhbərlərinə təşəkkür etmək istəyirəm.

Xoş gəlmisiniz!

Diqqətinizə görə təşəkkür edirəm.

RUSİYA PREZİDENTİ VLADİMİR PUTİNİN BƏYANATI

- Öz tərəfimdən, ilk növbədə, dəvətə görə və danışıqlarımızın çox səmimi şəraitdə keçdiyinə görə Azərbaycan Respublikasının Prezidentinə təşəkkür etmək istəyirəm.

Danışıqlar həmişəki kimi çox açıq və səmərəli oldu. Rusiya nümayəndə heyəti qeyd edir ki, hazırda Rusiya-Azərbaycan münasibətləri çox yüksək səviyyədədir və özündə ciddi müsbət inkişaf dinamikası vardır. Bu, həm qarşılıqlı fəaliyyətimizin siyasi sahəsinə, həm iqtisadiyyata, həm də humanitar əlaqələr sahəsinə aiddir. Sonuncuya gəldikdə, dünən sizin çoxunuz Azərbaycanda Rusiya İlinin açılışını gördünüz. Əminəm ki, bu, humanitar əlaqələr sahəsində münasibətlərimizin inkişafına daha bir ciddi təkan olacaqdır. Ümidvaram ki, Azərbaycanda Rusiya İli çərçivəsində planlaşdırılmış tədbirlər böyük maraqla, diqqətlə qarşılanacaqdır və bilirəm, Rusiya incəsənətinə, Rusiya ifaçılarına, Rusiyanın teatr xadimlərinə böyük maraq göstərən Azərbaycan tamaşaçılarının yə-

qin etməyə imkanı olacaq ki, bu baxımdan Rusiya bir yerdə dayanmır, Rusiya inkişafdadır. Azərbaycan tamaşaçıları və dinləyiciləri nəinki artıq çoxdan məşhur olan şöhrətli kollektivlərimizi, həm də yeni ifaçıları görəcək və Rusiya incəsənətinin nümayəndələri ilə ünsiyyətdən böyük zövq alacaqlar.

O ki qaldı siyasi əlaqələrə, qarşılıqlı siyasi fəaliyyətə, onlar, həqiqətən, çox yüksək səviyyədədir. Biz Azərbaycan və Rusiyanın xarici işlər nazirlikləri, hökumətləri səviyyəsində, mənim də, həmkarımın da müəyyən etdiyi bütün istiqamətlər üzrə qarşılıqlı əlaqələri həyata keçirən və ya bu işə rəhbərlik edən, demək olar, bütün idarələr səviyyəsində daim ünsiyyət saxlayırıq.

Elə bir sahə var ki, o, diqqətimizi xüsusi cəlb edir - bu, iqtisadi əməkdaşlıq sahəsidir. Biz nəinki qarşıya qoyulmuş səviyyəyə çıxmışıq, həm də əməkdaşlığın bizim üçün son dərəcə mühüm və həssas sahələrində çox yaxşı inkişaf sürəti götürmüşük. Bu, həm energetikadır, həm maşınqayırma, nəqliyyat, rabitə, kənd təsərrüfatı, metallurgiya sənayesidir, həm də elə bir sahədir ki, onsuz biznesi inkişaf etdirmək, ümumiyyətlə, mümkün deyildir. Mən maliyyə sahəsini nəzərdə tuturam.

Çox ümid edirəm ki, biznes nümayəndələri və regionların nümayəndələri arasında olan geniş əlaqələr lap yaxın vaxtda öz səmərəsini verəcəkdir.

Əlbəttə, həm ikitərəfli münasibətlər üçün, həm də bütün region üçün çox mürəkkəb və mühüm məsələni - Dağlıq Qarabağla bağlı məsələni də diqqətdən kənarda qoya bilmərəm. Mən Azərbaycan Prezidentinin belə bir fikri ilə razıyam ki, məsələnin bütün mürəkkəbliyinə baxmayaraq, hər iki tərəf - Azərbaycan da, Ermənistan da qarşılıqlı surətdə məqbul qərar tapa bilər. Rusiya özündən asılı olan hər şeyi edəcək ki, danışıqların nəticələri müsbət olsun. Mən öz tərəfimdən Azərbaycan Prezidentinə söz verdim ki, biz ermənistanlı tərəfdaşlarımızla əlavə məsləhətləşmələr keçirilməsi təşəbbüsünü irəli sürəcək və bu məsləhətləşmələri aparacağıq. Yaxın vaxtlarda Ermənistan Prezidenti ilə əlaqə saxlamaq, bu problem barəsində yeni məsləhətləşmələr aparmaq üçün onu Moskvaya dəvət etmək niyyətindəyəm.

Rusiya nümayəndə heyəti aparılmış danışıqları çox səmərəli danışıqlar kimi qiymətləndirir və biz birgə işimizin təşkilinə görə azərbaycanlı tərəfdaşlarımızın hamısına təşəkkür edirik.

Diqqətinizə görə çox sağ olun.

Sonra dövlət başçıları jurnalistlərin suallarına cavab verdilər.

SUAL: Mənim sualım Rusiya Prezidentinədir. Bilmək istərdim ki, Gürcüstan ilə münasibətlər niyə belə kəskinləşmişdir? İkincisi. Dünən Moskvada İran nümayəndə heyəti ilə danışıqlar aparılmışdır. Bu barədə informasiya, demək olar, yoxdur. Bu danışıqların nəticələri necədir?

VLADİMİR PUTİN: Mən sualınızın ikinci hissəsindən - iranlı tərəfdaşlarımızla danışıqlardan başlayacağam. Deməliyəm ki, biz bu gün azərbaycanlı həmkarlarımızla danışıqların gedişində də, əlbəttə, İranın nüvə probleminin nizama salınması mövzusuna, ümumiyyətlə, İranla münasibətlərimizə toxunduq. Çünki bütün bunların bizim üçün praktik əhəmiyyəti var. Bu, bizim regiondur. Üstəlik, bizim üçtərəfli əməkdaşlıq istiqamətimiz də var. Məsələn, elektroenergetika sahəsində bir müddət bundan əvvəl üçtə-

rəfli komissiya yaradılmışdır. Komissiya elektroenergetika sahəsində üçtərəfli formatda münasibətlərin sahmanlanması ilə məşğul olur. Ona görə də İran ətrafında baş verən bütün hadisələr bizim üçün son dərəcə mühümdür.

Moskvada İranın nüvə probleminə dair danışıqlara gəldikdə, deyə bilərəm ki, bu danışıqlar heç də asan getmir. Lakin biz ümidvarıq ki, müsbət nəticələrə nail ola bilərik. Biz nikbinliyimizi itirmirik. İran nümayəndələri öz siyasi rəhbərliyi ilə məsləhətləşə bilməsi üçün hazırda danışıqlar prosesində fasilə götürülmüşdür. Biz güman edirik ki, böhrandan çıxmağın Rusiya tərəfindən təklif olunmuş variantı - uranın saflaşdırılması üçün Rusiya ərazisində müştərək müəssisə yaradılması ilə bağlı variant iranlı tərəfdaşlarımız üçün tamamilə məqbuldur və ondan bu problemin həlli üçün bir vasitə kimi istifadə edilə bilər.

Təkrar edirəm, biz İran nümayəndələrinin son reaksiyasını gözləyirik və müsbət nəticə olacağına ümid bəsləyirik. Biz bu prosesin bütün iştirakçıları ilə daim əlaqə saxlayırıq. Mən həm avropalı, həm də amerikalı həmkarlarımızı nəzərdə tuturam. Bu məsələ barədə daha heç nə əlavə edə bilmərəm.

Rusiya-Gürcüstan münasibətlərinə gəldikdə, gürcülərin halına çox acıyıram, çox. Onlar çox gözəl və bizə yaxın xalqdır, indi ağır vəziyyətdədir, çünki Gürcüstan böyük iqtisadi çətinliklər keçirir. Sosial sahədə olduqca böyük problemlər var, əhalinin həyat səviyyəsi çox aşağıdır. Halbuki Sovet İttifaqı dövründə Gürcüstanda yaşayanların maddi rifah halı ölkə üzrə olduğundan, orta hesabla, yüksək idi. Əlbəttə, bu gün belə tənəzzül, şübhəsiz, çətinliklə yaşanır, həm də sadəcə, adamlar əziyyət çəkirlər, əhalinin böyük hissəsi ciddi çətinliklər içindədir. Əlbəttə, bu, təkcə ölkənin özündə deyil, ümumən regionda da vəziyyətin sabitliyini pozur. Əgər kimsə düşünürsə ki, bu cür məsələləri öz xalqının diqqətini ancaq xarici düşmənlər axtarmağa yönəltməklə həll etmək olar, zənnimcə, bu, səhv yoldur. Əlbəttə, diqqəti bir müddətə yayındırmaq olar, amma iqtisadi, sosial xarakterli problemləri həll etmək lazım gələcəkdir. Əlbəttə, bunu öz qonşuları ilə təkcə dialoqun gedişində deyil, həm də, məsələn, Rusiya-Azərbaycan timsalında baş verdiyi kimi, müsbət əməkdaşlığın gedişində etmək daha yaxşıdır.

Bütün mürəkkəbliklərə baxmayaraq, biz tamamilə nikbinik, güman edirik ki, keçmiş Sovet İttifaqından miras qalan problemlər çətin olsa da, onları həll etmək mümkündür. Biz bu birgə işdə iştirak etməyə hazırıq. Lakin keçmiş Sovet İttifaqını onda nə vaxtsa baş vermiş hadisələrə görə tənqid edərkən, bəlkə də haqlı tənqid edərkən, gərək özün də belə səhvlərə yol verməyəsən. Bir vaxtlar Rusiyanı xalqların həbsxanası adlandırırdılar. Postsovet məkanında yaradılmış dövlət qurumları, dövlətlər gərək Sovet İttifaqının taleyini təkrar etməsinlər və vaxtilə Sovet İttifaqının yaşadığı mənfi təcrübəni təkrarlamağa çalışmasınlar. Razılığa gəlməyi və kompromisləri axtarmağı bacarmaq lazımdır. Bu, mürəkkəb prosesdir, lakin problemlərin həllinin başqa yolu yoxdur.

O ki qaldı Rusiya-Gürcüstan münasibətlərinə, son dövrün bütün çətinliklərinə baxmayaraq, müsbət meyllər çoxdur. Biz görürük ki, Gürcüstanda, o cümlədən Gürcüstan rəhbərliyində Rusiya ilə münasibətləri inkişaf etdirmək istəyən qüvvələr var. Mən Prezident Mixail Nikolayeviç Saakaşvilini də nəzərdə tuturam. Ümid edirik ki, bu müsbət meyllər üstün gələcəkdir.

SUAL: Mənim sualım Rusiya Prezidentinədir. Ermənistan-Azərbaycan, Dağlıq Qara-

bağ münaqişəsi həm Azərbaycan, həm də bütün region üçün ən ağrılı məsələ olaraq qalır. Cənubi Qafqazda sülh və sabitlik yaranması Rusiyanın da xeyrinədir. Rusiya bu münaqişənin həllini necə tezləşdirə bilər?

VLADİMİR PUTİN: Mən bu suala Gürcüstanla münasibətlərimiz baxımından cavab verməyə çalışdım. Yenə də deyə bilərəm, Rusiya, həqiqətən çox istəyir ki, postsovet məkanındakı bütün münaqişələr həll edilsin. Əgər kimsə deyirsə ki, bu, belə deyil, o, ya yanılır, yaxud da xalqlarımızı aldatmağa çalışır. Bizim Azərbaycanla əmtəə dövriyyəmiz iki il ərzində ikiqat artaraq, 1 milyard dollara çatmışdır. Dağlıq Qarabağ münaqişəsi olmasaydı, yəqin ki, bu rəqəm 5 milyard dollara çatardı. Postsovet məkanındakı münaqişələr bunun qarşısını alır. Bizim əməkdaşlıq istiqamətlərimiz saysız-hesabsızdır - energetika, özü də təkcə qaz və neft, elektroenergetika deyil, həm də nəqliyyat, rabitə, maşınqayırma, kənd təsərrüfatı, təhlükəsizlik sahəsində məsələlərin birgə həlli. Qarşılıqlı əlaqələrin bizim üçün olduqca vacib və zəruri olan çox istiqamətləri var. Münaqişələr qarşımızı kəsir, buna görə də çox istəyirik ki, onlar həll olunsun. Lakin biz razılığa gəlməyə çalışan tərəflərdən kiməsə hər hansı təzyiq göstərməyi özümüz üçün tamamilə istisna edirik. Biz yalnız vasitəçi və əldə olunmuş razılaşmaların təminatçısı rolunu yerinə yetirə bilərik. Biz bu gün Azərbaycan Prezidenti ilə və dünən onun evində bu problem barədə kifayət qədər çox və ətraflı danışdıq. Bir daha təkrar etmək istəyirəm ki, zənnimcə, o haqlıdır - bütün çətinliklərə baxmayaraq, bu problemi həll etmək imkanları var. Biz hər cür kömək göstərəcəyik ki, bu münaqişə həll olunsun və keçmişdə qalsın. Deyəsən, mümkün olan hər şeyi dedim, çünki təfərrüata varmaq hələ tezdir.

SUAL: Mənim sualım hər iki liderədir. Ticarət-iqtisadi münasibətlərin, ilk növbədə, energetika sahəsində əməkdaşlığın perspektivlərini necə qiymətləndirirsiniz?

İLHAM ƏLİYEV: Bütövlükdə iqtisadi müstəvidə əlaqələrimiz çox dinamik inkişaf edir və bu rəqəm dəfələrlə səslənmişdir. Biz iki il ərzində əmtəə dövriyyəsini ikiqat artırmağa nail olmuşuq. Ölkələrimiz arasında iqtisadi münasibətlərin indiki vəziyyəti göstərir ki, əlbəttə bu, son həddi deyildir. Bu, yalnız başlanğıcdır, birinci mərhələdir.

Zənnimcə, bu gün işə başlayan Rusiya-Azərbaycan biznes forumu əməkdaşlıq üçün yeni perspektivlər açacaqdır. Əminəm ki, bu əməkdaşlıq çoxplanlı olacaqdır. Rusiya şirkətlərinin sərmayə layihələrinin perspektivlərini böyük ümidlə izləyirik. Eyni zamanda, hazırda dünyada yaxşı nüfuzu olan və rəqabətədavamlı məhsul istehsal edən Rusiya şirkətləri, yəqin ki, Azərbaycanda öz məhsullarını satacaq tərəfdaşlar, şirkətlər kimi daha geniş təmsil olunacaqdır. Artıq deyildiyi kimi, ölkələrimizin iqtisadi potensialı çox sürətlə artır. Azərbaycanın ödəniş qabiliyyəti bu gün heç kimdə şübhə doğurmur. Əlbəttə, gələcəkdə iqtisadi islahatlarımız dərinləşdikcə, Azərbaycan Rusiya istehsalı olan yüksək keyfiyyətli məhsulları daha böyük həcmdə alacaqdır.

Energetika sahəsində əməkdaşlığımız ənənəvi xarakter daşıyır. Yəqin ki, əməkdaşlığımız elə bu sahədən başlanmışdır. Hazırda Azərbaycan Rusiyadan 4,5 milyard kubmetr qaz alır, Rusiya ərazisi ilə ildə 3 milyon tondan çox neft nəql edir. Rusiya Prezidentinin dediyi kimi, enerji sistemlərimiz paralel rejimdə işləyir və elektrik enerjisinin qarşılıqlı nəqli bu gün təsərrüfat məsələlərini çox operativ həll etməyə kömək edir. Gələcəkdə bu sahəyə daha böyük diqqət yetirmək planlaşdırılır, çünki elektrik enerjisi axınını operativ tənzimləmək imkanları vəsaitə qənaət etmək üçün böyük üstünlüklər verir. Ona

görə də bu istiqamətdə əməkdaşlıq ənənəvi, etibarlı, uzunmüddətlidir ki, bu da vacibdir.

Biz bütün istiqamətlərdə münasibətləri elə qurmağa çalışırıq ki, bunun uzunmüddətli perspektivləri olsun. Bu münasibətlər uzunmüddətli olduqda, sərmayədarlar da, həmin layihələrin potensial iştirakçıları da özlərini daha rahat hiss edirlər. Bu, bizim vəzifəmizdir. Biznesin ölkəyə gəlməsi üçün sərmayədarlarda əminlik olmalıdır ki, bu biznes müdafiə olunacaq, yaxşı fayda verəcəkdir. Belə olan halda hamı bundan qazanacaqdır.

Bu gün biz iqtisadi əməkdaşlığın çox geniş dairəsini müzakirə etdik. Əgər 5-6 il əvvəl iqtisadi əməkdaşlıqdan danışanda neft-qaz sənayesi nəzərdə tutulurdusa, hazırda bu əməkdaşlığın dairəsi çox genişdir. Ona görə də şübhə etmirəm ki, ölkələrimiz arasında iqtisadi əməkdaşlığı fəal inkişaf etdirəcəyik. Bu gün biz ikiqat artırılmış əmtəə dövriyyəsini yaxın gələcəkdə də ikiqat artırmaq imkanlarını yanzarafat-yarıgerçək müzakirə etmişik.

VLADİMİR PUTİN: Mən iqtisadi sahədə qarşılıqlı fəaliyyətimizin perspektivlərinə verilən qiymətlə tam razıyam. İlk növbədə, əlbəttə, inkişaf sürətinə, dünyada ən yüksək sürətinə görə, ikincisi isə iqtisadiyyatının bütün potensialına görə Azərbaycan Rusiya üçün bu sahədə ən öncül, ən maraqlı tərəfdaşlardan biridir. Artıq dediyim kimi, biz bir sıra istiqamətlərdə əməkdaşlıq edirik. Əgər energetikadan başlasam, deyə bilərəm ki, biz Azərbaycana xeyli elektrik enerjisi satırıq, ancaq ondan da elektrik enerjisi alırıq. Çünki bəzi regionlarda bu cür mübadilə iqtisadi cəhətdən ölkə daxilindəki istehlakdan daha səmərəlidir.

Biz üçtərəfli formatda İranla bu məsələləri həll edirik. Düşünürəm ki, burada yaxşı perspektivlər var. Energetika sahəsinə Rusiyanın sərmayələri baxımından biz iki istiqamət görürük. Birincisi, Azərbaycandakı mövcud energetika obyektlərinin bərpası, ikincisi, yenilərinin, - o cümlədən Sumqayıt rayonunda, - tikintisi.

Neft və qaza gəldikdə isə, biz Azərbaycana xeyli miqdarda qaz satırıq. Gələcəkdə Azərbaycan üçün zəruri olan karbohidrogen məhsullarının satışı sahəsində əməkdaşlığın davam etdiriləcəyini istisna etmirik. Biz nəzərə alırıq ki, birgə fəaliyyətimizi davam etdirəcəyik və bəzi şirkətlərimiz artıq Azərbaycan bazarında təmsil olunmuşdur. Mən hazırda iki yerdə işləyən "LUKoyl"u nəzərdə tuturam. Əlbəttə ki, o, öz fəaliyyətini genişləndirmək istəyir və hiss edirik ki, azərbaycanlı tərəfdaşlar bizim sahibkarların biznes təşəbbüslərini dəstəkləyirlər. Biz gələcəkdə də bu dəstəyə ümid bəsləyirik. Digər şirkətlər də burada baş verənləri diqqətlə izləyir. Əlbəttə, bizi xeyli dərəcədə ölkədəki iqtisadi, siyasi sabitlik cəlb edir.

Lakin energetika bizi maraqlandıran yeganə fəaliyyət sahəsi deyildir. Siz yəqin ki, "Rusal" şirkətinin burada metallurgiya sahəsinə iri sərmayələr qoymaq cəhdlərindən xəbərdarsınız. Əminəm ki, bu, təkcə ikitərəfli əməkdaşlığın inkişafına deyil, həm də Azərbaycan iqtisadiyyatının yüksəlişinə kömək edəcək perspektivli, maraqlı və miqyaslı layihələrdən biridir. Nəqliyyat, kənd təsərrüfatı, ümumən maşınqayırma sahələri perspektivlidir. Azərbaycanlı tərəfdaşlar bizim bir sıra gəmiqayırma müəssisələrinə yaxşı sifarişlər vermişlər. Əminəm ki, onlar kifayət qədər səmərəli olacaqdır. Lakin maşınqayırma ilə bağlı digər istiqamətlərdə də çoxlu perspektivli məqsədlər var və biz təkbaşına deyil, birgə işləsək, bunlara daha səmərəli nail ola bilərik.

Artıq dediyim kimi, biz maliyyə sahəsində əməkdaşlığı vacib hesab edirik. Hazırda bəzi banklarımız Azərbaycanda fəaliyyəti genişləndirməklə bağlı azərbaycanlı tərəfdaşları ilə danışıqlar aparırlar. Bütün bunlar strateji tərəfdaşlıq adlandırdığımız məsələləri həyata keçirmək üçün yaxşı və möhkəm baza yaradacaqdır.

SUAL: Mənim sualım hər iki prezidentədir. Ölkələrimizdə yaşayan diasporlara Azərbaycan-Rusiya münasibətlərinin daha da möhkəmlənməsi yolunda nə kimi rol verilir və siz Azərbaycandakı rusların və Rusiyadakı azərbaycanlıların vəziyyətini necə qiymətləndirirsiniz?

İLHAM ƏLİYEV: Əlbəttə ki, bu məsələ danışıqlarımız çərçivəsində müzakirə olundu və məmnuniyyətlə qeyd etdik ki, bu sahədəki vəziyyət, əlbəttə, bizi sevindirir. Diasporlar da ikitərəfli münasibətlərin mühüm amillərindən biridir. Əlbəttə ki, dövlətlərarası münasibətlərin ümumi fonu Azərbaycanda rusların və Rusiyada azərbaycanlıların özlərini nə dərəcədə rahat və yaxşı hiss etməsindən də asılıdır. Deməliyəm ki, bu istiqamətdə bizim aramızda tam qarşılıqlı anlaşma var. Biz ölkələrimizin ictimai-siyasi, iqtisadi həyatına diasporların fəal cəlb edilməsini Rusiya ilə Azərbaycan arasında daha sıx inteqrasiyanın mühüm amili kimi qiymətləndiririk. Rusiyada çoxlu azərbaycanlı yaşayır və hesab edirik ki, bu, normal haldır, çünki dünyada sərhədlərin açıldığı, hərəkət sərbəstliyi bizim hamımız üçün anlaşıqlı və ümumbəşəri dəyərlərin, insan hüquqlarının çox mühüm tərkib hissəsi olduğu indiki vaxtda bu amil, əlbəttə, çox mühüm rol oynayır. Mən həmişə deyirəm ki, Rusiyada azərbaycanlıların vəziyyəti pis olsaydı, onlar orada yaşamazdılar. Əgər onlar orada yaşayır, işləyirlərsə, deməli, vəziyyətləri yaxşıdır. Deməli, bu, indiki mərhələdə onları qane edir.

Hələ 1970-ci illərdə Azərbaycanın rəhbəri Heydər Əliyev hər il məqsədyönlü şəkildə min nəfərədək gənc azərbaycanlını oxumaq üçün Sovet İttifaqının aparıcı ali məktəblərinə göndərirdi. Əlbəttə, bunlar, əsasən, Moskvanın, Sankt-Peterburqun və digər Rusiya şəhərlərinin ali məktəbləri idi. İndi bu adamlar Azərbaycanın inkişafı naminə çox fəal işləyirlər, yəni, bu biliklər, təcrübə, erudisiya, əlbəttə ki, əlaqələr çox işlərdə kömək edir. Eyni hal bu gün də baş verir. Azərbaycandan bir çox gənclər Rusiya ali məktəblərinə təhsil almağa gedirlər, çoxları oraya işləməyə gedir. Bu, normal prosesdir, normal haldır. Əlbəttə ki, ölkələrimizin müvafiq orqanları bu prosesin tənzimlənməsini dəqiq izləməlidirlər ki, hamı özünü yaxşı və rahat hiss etsin.

Bu, ölkəmizdəki ruslara və rusdilli əhaliyə də aiddir. Onlar cəmiyyətimizin, dövlətimizin bir hissəsidir. Azərbaycanda bu adamlara həmişə böyük hörmət və diqqətlə yanaşmışlar. Biz bu gün də iftixarla deyə bilərik ki, Azərbaycanda milli ədavətin, - xüsusən də insanlara milli və ya dini əlamətə görə münasibətdə, - heç bir hətta ən kiçik təzahürü belə yoxdur.

Bizi etnik və dini dözümlülük fərqləndirir. Bu, bizim sərvətimizdir, bizim gücümüz bundadır. Çünki bu, dünyəvi Azərbaycanın inkişafı üçün daha möhkəm təməl yaradır. Biz bununla fəxr edirik. Milliyyətindən, dinindən asılı olmayaraq hər bir vətəndaşın, yerli əhali ilə bərabər hüquqları var. Həm işlə təmin olunmaq baxımından, həm də təhsil baxımından. Azərbaycanda, demək olar ki, bütün dövlət ali təhsil müəssisələrində rus dilində tədris var. Yəni bu, ona görə qorunub saxlanmışdır ki, Azərbaycan dilini bilməyən və ya yaxşı bilməyən insanlar əziyyət çəkməsinlər. Ona görə də hamı üçün eyni

şərait yaradılmışdır və bunu qiymətləndirmək lazımdır. Biz bunu qiymətləndiririk. Rusiya bunu qiymətləndirir, odur ki, bu amil dövlətlərarası münasibətlərdə çox vacibdir, insanlar ölkələrimiz arasında baş verən proseslərə çox həssaslıqla yanaşırlar.

1990-cı illərdə, Rusiya ilə Azərbaycan arasında münasibətlər bir çox amillər üzündən pisləşdiyi vaxt diasporların buna necə dəqiq və həssaslıqla münasibət bildirdiyini biz Azərbaycanda çox yaxşı xatırlayırıq. Nə qədər narahatlıq var idi. Ölkədən çıxıb getmək kimi arzuolunmaz meyllər başlanmışdı. Hazırda bu, yoxdur. 1990-cı illərin ortalarında gedənlər indi Azərbaycana qayıdırlar. Özü də yerli millətdən olmayan adamlar. İkitərəfli münasibətlərimizin indiki səviyyəsi həm də diasporların rahat yaşamasına kömək edir. Bura onların evidir, onların Vətənidir. Odur ki, bu amillər bir-birindən asılıdır. Bir tərəfdən, ikitərəfli münasibətlərin inkişafı, onların keyfiyyətcə yeni səviyyəsi insanların yaşaması üçün yaxşı şərait yaradır. Digər tərəfdən, azərbaycanlıların Rusiyada və rusların Azərbaycanda normal həyatı ikitərəfli əlaqələrə təsir göstərir. Biz bunu qiymətləndiririk və hesab edirik ki, bu, ikitərəfli əlaqələrimizin uğurlu inkişafının çox mühüm amilidir.

VLADİMİR PUTİN: Biz bu və ya digər ölkədə Rusiyaya, ruslara, rusdilli əhaliyə münasibət barədə mühakimə yürüdərkən əsas götürdüyümüz ən mühüm amillərdən biri rus dilinə münasibətdir. İndi biz belə hesab edirik və əminəm ki, perspektivdə də belə olacaqdır. Çünki məhz rus dilinə münasibət bu və ya digər ölkənin tarixi perspektivdə Rusiyaya münasibətinin mahiyyətini müəyyən edir.

Müəyyənləşdirilir ki, strateji tərəfdaşlıqda bu element var, yaxud yoxdur? Yoxsa, münasibətlərimiz cari vəzifələrin həlli üçün nəzərdə tutulan hansısa faktik, ötəri xarakter daşıyır? Azərbaycanla münasibətlər barəsində məmnunluqla demək istəyirəm ki, biz hesab edirik, burada rus dilinə münasibət dövlət səviyyəsindədir, çox yaxşıdır. Burada rus dili məktəblərdə, məişətdə, ümumən, humanitar sahələrdə dəstəklənir və çox ümidvarıq ki, Heydər Əliyeviç Əliyevin formalaşdırdığı və onun oğlunun, Azərbaycan Respublikasının indiki Prezidentinin həyata keçirdiyi bu siyasət saxlanılacaqdır.

Rusiyadakı Azərbaycan diasporuna gəldikdə, o, olduqca çoxsaylıdır. Yəqin ki, ən böyük diaspordur. Bizim hesablamalarımıza görə, əgər indi Azərbaycanda 200 min nəfərədək rus varsa, Rusiyada 2,5 milyon azərbaycanlı yaşayır. Onların təxminən 620 min nəfəri Rusiya Federasiyasının vətəndaşıdır, qalanları isə Azərbaycan vətəndaşlarıdır. Əlbəttə, bu, dövlətlərimiz arasında qarşılıqlı əlaqənin canlı körpüsüdür. Çünki indi Rusiyada yaşayan adamlar Azərbaycandakı ailələri və yaxınları ilə birbaşa və sıx əlaqə saxlayırlar. Onlar Rusiyada işləyərək və Rusiya iqtisadiyyatının inkişafına öz töhfəsini verərək, Azərbaycandakı yaxın adamlarına, öz ailələrinə kömək edirlər, ilk növbədə, maddi cəhətdən. Biz yaxşı başa düşür və onu əsas tuturuq ki, bütünlükdə dövlətlərarası əlaqələrin inkişafı, zənnimizcə, indiki şəraitdə mütərəqqi rol oynayan bu amili nəzərə almaya bilməz. Biz buna gələcəkdə də belə yanaşacağıq.

RUSİYA PREZİDENTİ VLADİMİR PUTİN HEYDƏR ƏLİYEV FONDUNDA OLMUŞDUR

Azərbaycan Prezidenti İlham Əliyev və Rusiya Federasiyasının Prezidenti Vladimir Putin fevralın 22-də, birgə mətbuat konfransından sonra Heydər Əliyev Fonduna gəldilər.

Fondun prezidenti, YUNESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyeva Rusiya rəhbərini səmimiyyətlə qarşıladı.

Prezident Vladimir Putinə Azərbaycan xalqının ümummilli liderinin xatirəsinə ehtiram əlaməti olaraq yaradılmış Fondun məqsədləri barədə məlumat verildi. Bildirildi ki, Fondun əsas məqsədləri Prezident Heydər Əliyevin zəngin irsini öyrənmək və təbliğ etməkdən, onun Azərbaycanın sosial-iqtisadi, mədəni tərəqqisinə yönəlmiş genişmiqyaslı fəaliyyəti barədə gələcək nəsillərdə, qonaqlarda əyani təsəvvür yaratmaqdan, dahi şəxsiyyətin müəllifi olduğu beynəlxalq layihələrin həyata keçirilməsini dəstəkləməkdən, Azərbaycan mədəniyyətinin və ölkəmizin tarixinin geniş təbliği ilə əlaqədar aparılan işlərə kömək göstərməkdən ibarətdir.

Prezident İlham Əliyev ali qonağa ümummilli liderimizin şəxsi arxivindən götürülmüş və onun fəaliyyətinin ayrı-ayrı dövrlərini əhatə edən eksponatlar barədə ətraflı söhbət açdı.

Rusiyanın dövlət başçısı fenomen şəxsiyyət Heydər Əliyevin həyatının ən müxtəlif məqamlarını əks etdirən və Azərbaycan tarixinin bütöv bir dövrü barədə geniş təsəvvür yaradan çoxlu fotoşəkillərlə, dünyanın tanınmış siyasi xadimlərinin bəxş etdikləri hədiyyələrlə, ulu öndərimiz haqqında kitablarla tanış oldu, dövlət təhlükəsizliyi orqanlarında, Moskvada yüksək dövlət vəzifəsində işləyərkən çəkilmiş şəkillərinə, ailə albomuna xüsusi diqqət yetirdi. Vladimir Putin dünyanın nüfuzlu siyasi, elm, mədəniyyət və incəsənət xadimlərinin Azərbaycan dövlətinin qurucusu haqqında fikirləri ilə tanış oldu, ümummilli liderimizlə müxtəlif görüşlərdə birgə çəkdirdikləri fotoşəkillərə, habelə onun Avropa, Asiya ölkələrinin liderləri ilə şəkillərinə böyük maraqla baxdı.

Rusiya Prezidenti sonra Xatirə kitabına ürək sözlərini yazdı:

Heydər Əliyev Fondunun fəaliyyəti ilə böyük maraqla tanış oldum. Fond Azərbaycan xalqının görkəmli oğlunun xatirəsini nəinki yaşadır, həm də mühüm istiqamətlərdən birində onun işini davam etdirir, insanlara ən müxtəlif humanitar sahələrdə - təhsil, səhiyyə və s. sahələrdə kömək göstərir.

Sizə uğurlar diləyirəm!

Vladimir Putin

22.02.2006"

Mehriban xanım Əliyeva Prezident Vladimir Putinə xatirə hədiyyələri təqdim etdi.

Sonra xatirə şəkli çəkildi.

Ali qonaq Fonddan xoş təəssüratla ayrıldığını bildirdi.

SƏFƏR BAŞA ÇATDI

Bakıda işgüzar səfərdə olan Rusiya Federasiyasının Prezidenti Vladimir Putin fevralın 22-də vətənə yola düşmüşdür.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV RUSİYA FEDERASİYASININ ULYANOVSK VİLAYƏTİNİN QUBERNATORU SERGEY MOROZOVUN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 23-də Prezident sarayında Rusiya Federasiyasının Ulyanovsk vilayətinin qubernatoru Sergey Morozovun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Dövlətimizin başçısı Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin Azərbaycana səfərinin uğurla keçdiyini, bu səfər zamanı qarşılıqlı maraq doğuran məsələlərin geniş müzakirə olunduğunu vurğuladı. Prezident İlham Əliyev ölkəmizin Rusiyanın ayrı-ayrı regionları ilə əlaqələrinin inkişafının Azərbaycan-Rusiya ikitərəfli münasibətlərinə öz töhfəsini verdiyini qeyd etdi. O, Ulyanovsk vilayəti ilə əməkdaşlığın bundan sonra da fəal surətdə həyata keçiriləcəyinə ümidvar olduğunu bildirdi.

Sergey Morozov hələ 1970-ci ildə Ulyanovsk vilayətində Azərbaycanın mədəniyyət günlərinin keçirildiyini, xalqımızın ümummilli lideri Heydər Əliyevin bu tədbirdə iştirak etdiyini məmnunluqla xatırlatdı. Qonaq hazırda Ulyanovsk vilayətində 37 min azərbaycanlının yaşadığını bildirdi və Azərbaycan ilə əlaqələrin bundan sonra da genişlənəcəyinə əminliyini vurğuladı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İSVEÇRƏNİN FEDERAL XARİCİ İŞLƏR NAZİRİ MİŞLİN KALMİ-REYİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 23-də Prezident sarayında İsveçrənin federal xarici işlər naziri Mişlin Kalmi-Reyin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Dövlətimizin başçısı Azərbaycan ilə İsveçrə arasında münasibətlərin uğurla inkişaf etdiyini qeyd etdi. O, Azərbaycan Respublikasının İsveçrədə səfirliyinin fəaliyyət göstərməsinin ikitərəfli əlaqələrimizə verilən önəmin göstəricisi olduğunu vurğuladı. Prezident İlham Əliyev iki dövlət arasında müxtəlif sahələrdə əməkdaşlığın bundan sonra da inkişaf edəcəyinə ümidvar olduğunu bildirdi.

Mişlin Kalmi-Rey Azərbaycana ilk dəfə səfər etdiyini və bu səfər zamanı ölkələrimiz arasında bir sıra sənədlərin imzalanacağını xatırlatdı. O, İsveçrə ilə Azərbaycan arasındakı əlaqələrin son zamanlar genişləndiyini bildirərək, əməkdaşlığımızın bundan sonra da inkişaf etdiriləcəyinə əminliyini ifadə etdi.

AZƏRBAYCAN XİN-İN RƏSMİ MÖVQEYİ

Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi İraqda baş vermiş son hadisələr ilə bağlı öz narahatlığını ifadə edərək, terrorun bütün forma və təzahürləri qətiyyətlə pisləyir və gələcəkdə belə halların baş verməməsi arzusunu ifadə edir.

Şiə və sünni müsəlmanların və digər dinlərin əsrlər boyu bir biri ilə yanaşı yaşadığı ölkə olan Azərbaycan, beynəlxalq ictimaiyyəti demokratik vahid İraqın gələcəyinin təmin edilməsində lazımi tədbirlərin görülməsinə səsləyir.

İraqda sülh və sabitliyin bərqərar olunması naminə koalisiyanın üzvü olan ölkəmiz onların pozulmasına yönələn hər hansı bir addımın əleyhinə çıxır, İraq xalqını səbirli və təmkinli olmağa çağırır.

Bakı, 23 fevral 2006-cı il

"DİPLOMATİYA ALƏMİ" JURNALININ XOCALI FACİƏSİNİN ON DÖRDÜNCÜ İLDÖNÜMÜNƏ HƏSR OLUNMUŞ XÜSUSİ BURAXILIŞININ TƏQDİMAT MƏRASİMİ KEÇİRİLMİŞDİR

2006-cı ilin fevral ayının 24-də Xarici İşlər Nazirliyinin Təlim-Tədris Mərkəzində XİN-in "Diplomatiya Aləmi" jurnalının Xocalı faciəsinin on dördüncü ildönümünə həsr olunmuş xüsusi buraxılışının təqdimat mərasimi keçirilmişdir.

Jurnalın qeyd olunan xüsusi buraxılışı Xocalı faciəsi haqqında xarici kütləvi informasiya vasitələrinin yaydığı məlumatlar, beynəlxalq qeyri-hökumət təşkilatları və ayrı-ayn tanınmış şəxsiyyətlərin fikir və rəyləri, eləcə də Xocalı hadisələri üzrə başlanmış cinayət işinin məhkəmə-tibbi ekspertizalarının nəticələri və ifadələrindən çıxarışlar əsasında hazırlanmışdır.

Təqdimat mərasimində Bakıdakı diplomatik korpus nümayəndələri, müvafiq dövlət orqanları və kütləvi informasiya vasitələrinin təmsilçiləri iştirak etmişdir. Tədbirdə XİN-in idarə rəisi Tofiq Musayev, Azərbaycan Respublikası Hərbi prokurorunun birinci müavini, Baş Prokurorluq, Daxili İşlər və Milli Təhlükəsizlik Nazirliklərinin birgə istintaq-əməliyyat qrupunun rəhbəri, ədliyyə polkovniki İlham Məmmədov, Milli Məclis Aparatının *Hərbi və inzibati qanunvericilik* şöbəsinin müdiri Nizami Səfərov, Şuşa rayonu İcra Hakimiyyətinin başçısı, Dağlıq Qarabağın azərbaycanlı icmasının rəhbəri Nizami Bəhmənov və Milli Məclisin üzvü, Qeyri-Hökumət Təşkilatları Forumunun prezidenti Azay Quliyev çıxış etmişlər.

Təqdimat mərasiminin sonunda Mehriban Ələkbərzadənin müəllifi olduğu "Khojaly massacre in Azerbaijan" (Azərbaycanda Xocalı qırğını) adlı film nümayiş etdirilmişdir.

Tədbir zamanı "Diplomatiya Aləmi" jurnalının Xocalı faciəsinin on dördüncü ildönümünə həsr olunmuş xüsusi buraxılışının nüsxələri iştirakçılara paylanmışdır.

XARİCİ İŞLƏR NAZİRLİYİNƏ DİPLOMATİK XİDMƏTƏ İŞƏ QƏBUL ETMƏK MƏQSƏDİLƏ NÖVBƏTİ MÜSABİQƏNİN 1-Cİ MƏRHƏLƏSİ KEÇİRİLMİŞDİR

2006-cı il fevral ayının 26 -da Azərbaycan Respublikası Prezidentinin 566 saylı, 3 sentyabr 2001-ci il tarixli Fərmanı ilə təsdiq edilmiş "Dövlət orqanlarında dövlət qulluğuna müsabiqə vasitəsi ilə qəbul qaydaları"nın müddəalarına uyğun olaraq, Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə diplomatik xidmətə işə qəbul etmək məqsədilə növbəti müsabiqənin 1-ci (test imtahanları) mərhələsi keçirilmişdir.

Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə işə qəbul olunmaq üçün namizədlərlə müsabiqənin keçirilməsi qaydalarına uyğun olaraq, test imtahanının yekunlarına görə 80 və daha artıq bal toplamış və aşağıda siyahısı verilmiş 7 namizəd (6 nəfər Bakı şəhərində, 1 nəfər Naxçıvan şəhərində) mart ayının 2-də keçiriləcək 2-ci (inşaların yazılması) mərhələyə buraxılış hüququ qazanmışlar.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV MƏRMƏRƏ QRUPU VƏQFİNİN SƏDRİ AKKAN SUVERİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 27-də Prezident sarayında Mərmərə Qrupu Strateji və Sosial Araşdırmalar Vəqfinin sədri Akkan Suveri qəbul etmişdir.

Görüşdə Azərbaycanla Türkiyə arasında dostluq və qardaşlıq əlaqələrinin bütün sahələrdə uğurla inkişaf etdiyi vurğulanmış, ölkələrimizin müxtəlif qurumları arasında əməkdaşlığın bu münasibətlərin möhkəmlənməsinə öz töhfəsini verdiyi qeyd olunmuşdur.

XARİCİ İŞLƏR NAZİRİ AVROPA ÜÇÜN LİBERALLAR VƏ DEMOKRATLAR ALYANSI QRUPUNUN RƏHBƏRİ QRAHAM VATSONUN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

2006-cı il fevral ayının 27-də Azərbaycan Respublikasının Xarici İşlər Naziri Elmar Məmmədyarov Avropa üçün Liberallar və Demokratlar Alyansı Qrupunun rəhbəri Qraham Vatsonun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Qonaqları səmimi salamlayan Nazir Azərbaycan - Avropa İttifaqı münasibətlərinin hazırkı durumu barədə onlarla geniş fikir mübadiləsi aparmışdır. Ölkəmizin Avropa İttifaqının Qonşuluq Siyasətinə cəlb edildiyini diqqətə çatdıran Nazir Məmmədyarov əməkdaşlıq üzrə fəaliyyət planı çərçivəsində müzakirələrin aparılması və bu müzakirələrin mart ayının 7-də Brüsseldə ekspertlər səviyyəsində keçiriləcək görüş zamanı davam etdiriləcəyi barədə qonaqlara ətraflı məlumat vermişdir. Avropa və Avro-atlantik strukturlara inteqrasiya siyasətinin xarici siyasətimizin başlıca istiqaməti olduğunu diqqətə çatdıran Nazir ölkəmizdə aparılan iqtisadi, siyasi, qanunvericilik və s. sahələrdə islahatların Avropa standartlarına uyğunlaşdırılması istiqamətində görülmüş işlərdən söz açmışdır.

Öz növbəsində Avropada Cənubi Qafqazın hər üç ölkəsi ilə əlaqələrə xüsusi önəm verildiyini diqqətə çatdıran qonaqlar, regionda sabitlik, demokratiya və qanunun aliliyinin bərqərar olmasının belə əlaqələrin inkişaf etdirilməsi istiqamətində vacib amil olduğunu diqqətə çatdırmışlar.

Nazir Məmmədyarov Azərbaycan ərazilərinin Ermənistan silahlı qüvvələri tərəfindən işğalı faktının təkcə inteqrasiya prosesləri deyil, bütövlükdə regionumuzun sosial-iqtisadi inkişafı baxımından yaratdığı mənfi təzahürləri qonaqların diqqətinə çatdırmışdır. O, qeyd etmişdir ki, 21-ci əsrdə ərazilərin işğalı, sərhədlərin silah gücünə dəyişdirilməsi faktı qəbuledilməzdir və Ermənistan özünü Avropa dəyərlərinə sadiq olan dövlət kimi göstərmək istəyirsə bu siyasətdən əl çəkməlidir. Işğal edilmiş ərazilərin boşaldılması, qaçqın və məcburi köçkünlərin öz doğma yurdlarına qaytarılması, iqtisadi, ticarət, kommunikasiya əlaqələrinin bərpası, insanların yanaşı və sülh şəraitində yaşaması və bir sıra digər amillərin də daxil olduğu sülh sazişinə qədərki münbit şəraitin formalaşdırılması ilə bağlı Azərbaycan tərəfinin irəli sürdüyü təkliflərə münasibətdə Ermənistan tərəfinin tutduğu qeyri-konstruktiv mövqeni qonaqların diqqətinə çatdıran Nazir qeyd etmişdir ki, Azərbaycan tərəfi münaqişənin beynəlxalq hüquq norma və prinsiplərinə uyğun olaraq, ölkəmizin konstitusiyası əsasında və ərazi bütövlüyü prinsipi çərçivəsində həllində israrlıdır.

Görüş zamanı həmçinin ölkəmizdə gedən sosial-iqtisadi inkişaf, demokratik islahatlar, irimiqyaslı regional iqtisadi layihələr barədə də qonaqlara ətraflı məlumat verilmişdir.

Sonra Nazir Məmmədyarov narkotik qaçaqmalçılıq, insan alverinə qarşı mübarizə, ölkəmizin ictimai-siyasi həyatında qadınların rolu, regional dövlətlərlə münasibətlər, nüvə təhlükəsizliyi problemləri və s. barədə qonaqları maraqlandıran suallara cavab vermişdir.

Görüş zamanı qarşılıqlı maraq kəsb edən bir sıra digər məsələlər ətrafında da fikir mübadiləsi aparılmışdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İSLAM KONFRANSI TƏŞKİLATININ BAŞ KATİBİ EKMƏLƏDDİN İHSANOĞLUNUN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 28-də Prezident sarayında İslam Konfransı Təşkilatının baş katibi Ekmələddin İhsanoğlunun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Görüş zamanı Azərbaycan-İKT əməkdaşlığının hazırkı vəziyyəti və perspektivləri ilə bağlı fikir mübadiləsi aparılmışdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BMT-NİN İNSAN HÜQUQLARI KOMİSSİYASININ DİN VƏ ƏQİDƏ AZADLIĞI ÜZRƏ XÜSUSİ MƏRUZƏÇİSİ XANIM ASMA CAHANGİRİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 28-də Prezident sarayında BMT-nin İnsan Hüquqları Komissiyasının din və əqidə azadlığı üzrə xüsusi məruzəçisi xanım Asma Cahangiri qəbul etmişdir.

Görüşdə Azərbaycanda din və əqidə azadlığının təmin olunması istiqamətində həyata keçirilən işlər, Azərbaycanın BMT-nin İnsan Hüquqları Komissiyası ilə əməkdaşlığının müxtəlif sahələri ilə bağlı məsələlər müzakirə edilmişdir.

XARİCİ İŞLƏR NAZİRİ KÜVEYTİN İSLAM İŞLƏR VƏ VƏQFLƏR NAZİRİNİN MÜAVİNİ ADİL ƏL FƏLANI QƏBUL ETMİŞDİR

2006-cı il mart ayının 2-də Azərbaycan Respublikası Xarici İşlər Naziri Elmar Məmmədyarov Küveytin İslam İşlər və Vəqflər Nazirinin müavini Adil Əl Fəlanı qəbul etmişdir.

Qonağı səmimi salamlayan Nazir Azərbaycan və Küveyt arasında geniş əlaqələrin olduğunu vurğulayaraq, bu yaxınlarda Küveytin parlament nümayəndə heyətinin Bakıya səfərini xatırlamışdır. Eyni zamanda, Nazir cari ilin iyun ayında Bakıda keçiriləcək İKT Xarici İşlər Nazirlərinin Konfransında Küveytin də yüksək səviyyəli nümayəndə heyəti ilə təmsil olunacağını ümid etdiyini bildirmişdir. E.Məmmədyarov həmçinin BMT-də Azərbaycan-Ermənistan Dağlıq Qarabağ münaqişəsinin müzakirələrində Küveyt tərəfinin verdiyi dəstəyə görə öz minnətdarlığını bildirmişdir.

İkitərəfli münasibətlərin humanitar və mədəni aspektlərinə toxunan Nazir bu sahədə də geniş imkanların olduğunu nəzərə çatdırmışdır. Misirdə Azərbaycan mədəniyyət günlərinin keçirildiyini, Bəhreyndə isə yeni opera teatrında islam dünyasında ilk opera olan "Leyli və Məcnun" operasının qoyulacağını qeyd edərək, o, belə bir tədbirlərin Küveytdə də keçirilməsinin vacibliyini bildirmişdir.

Qəbula görə minnatdarlığını bildirən qonaq ilk öncə, ümummilli lider H.Əliyevlə şəxsi əlaqələrini vurğulamış, Azərbaycanda sabitliyin bərqərar olmasında onun rolunu yüksək qiymətləndirmişdir. Həmçinin hazırda H.Əliyev haqqında kitab hazırladığını, bu yaxınlarda həmin kitabın nəşr olunaraq bütün ərəb ölkələrində yayılacağını bildirmişdir.

Digər tərəfdən, Azərbaycanın siyasi, ictimai, iqtisadi həyatına dair dörd sənədli filmin çəkildiyini və bu filmlərin ərəb dünyasının aparıcı KİV-nə göndəriləcəyini qeyd etmişdir. Qonaq həm də tezliklə Bakıda Küveyt Mədəniyyət Mərkəzinin açılacağını bildirərək, əlaqələrin daha da inkişaf etdirilməsi üçün bir sıra təkliflər, o cümlədən Bakı-Küveyt birbaşa hava əlaqələrinin yaradılması, sərmayə qoyuluşunun artırılması imkanlarının öyrənilməsini irəli sürmüşdür.

E.Məmmədyarov qonağın təkliflərini dəstəkləyərək, iki ölkənin iş adamlarının qatılacağı biznes forumun təşkil edilməsinin mümkünlüyünü qeyd etmiş, Küveyt hökumətinin də Bakıda səfirlik açmaq haqda qərarının ikitərəfli münasibətlərin inkişafı üçün

önəmli olacağını bildirmişdir.

Görüşdə hər iki tərəf üçün maraq doğuran bir sıra məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.

AZƏRBAYCAN RESPUBLİKASI XARİCİ İŞLƏR NAZİRLİYİNİN RƏSMİSİNİN BƏYANATI

Tayvan Administrasiyasının "Milli Birləşmə Şurası" və "Milli Birləşmə Proqramı"nın fəaliyyətinin dayandırması barədə qəbul etdiyi qərarla bağlı Azərbaycan Respublikası bildirir ki, Azərbaycan Respublikası ÇXR-in ərazi bütövlüyünü dəstəkləyir və vahid Çin prinsipindən çıxış edir.

Azərbaycan Respublikası separatçılığın bütün forma və təzahürlərinə qarşı çıxaraq, Çinin Tayvan boğazı rayonunda sülh və sabitliyin təmin edilməsində səylərini dəstəkləyir.

Bakı, 02 mart 2006-cı il

AZƏRBAYCAN RESPUBLİKASI XARİCİ İŞLƏR NAZİRLİYİNİN BƏYANATI

1992-ci ilin fevral ayının 26-ı müasir Azərbaycan tarixinə faciəli və dəhşətli səhifələrdən biri kimi daxil olmuşdur. Məhz həmin gün Azərbaycanın erməni separatçılarının nəzarəti altında olan Dağlıq Qarabağ regionundakı hissələri azərbaycanlılardan ibarət Xocalı şəhərinin dinc əhalisinə qarşı xüsusi amansızlıqla kütləvi teror aktı həyata keçirmiş və nəticədə şəhər tamamilə yandırılmış, mülki əhali isə amansız vəhşiliklə məhv edilmişdir.

Hələ ötən əsrin əvvəllərində ermənilərin soyqırım siyasətinin hədəfinə çevrilmiş Azərbaycan xalqı 1918-ci ilin mart ayında Bakıda, Şamaxıda, Qarabağda, Naxçıvanda, Zəngəzurda və Azərbaycanın başqa əyalətlərində törədilmiş qırğınların, qanlı faciələrin qurbanı olmuşdur.

1992-ci il, fevralın 25-dən 26-a keçən gecə isə erməni silahlı birləşmələri, keçmiş SSRİ-yə məxsus olan və o dövrdə Dağlıq Qarabağın Xankəndi (Stepanakert) şəhərində yerləşən 366-cı alayın bilavasitə iştirakı ilə yeddi min nəfərə qədər azərbaycanlı əhalinin yaşadığı Xocalı şəhərinə beş istiqamətdən hücum etdilər. Ermənilər 366-cı alaya məxsus ağır hərbi texnikanın köməyilə Xocalı şəhərini yerlə-yeksan etdilər. Dinc mülki əhali-qadınlar, uşaqlar, qocalar və xəstələr ağlasığmaz vəhşiliklə qətlə yetirildi. Ermənilər XX əsrin ən dəhşətli tarixi cinayətlərindən biri olan Xocalı soyqırımı törətdilər.

Onların Azərbaycan xalqına qarşı törətdikləri bu növbəti soyqırım aktı nəticəsində 613 nəfər mülki əhali məhv edilmiş, 1275 nəfər girov götürülmüşdür. Faciə nəticəsində mindən artıq dinc sakin müxtəlif dərəcəli güllə yarası alaraq şikəst olmuşdur. Qətlə yetirənlərin 106 nəfəri qadın, 83 nəfəri azyaşlı uşaq, 70 nəfəri ahıl qocalar olmuşdur.

XX əsrin sonunda sivil dünyanın insan hüquqlarının aliliyinin qorunduğu bir vaxtda erməni vəhşiliyinin nəticəsi olan Xocalı soyqırımına dünya ictimaiyyətinin və beynəlxalq

təşkilatların diqqətini cəlb etmək istiqamətində Azərbaycan Respublikasının Xarici Siyasət İdarəsi və səfirlikləri tərəfindən də mütəmadi olaraq tədbirlər həyata keçirilir.

Ik növbədə, aparılan işlər nəticəsində beynəlxalq ictimaiyyət Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi və ermənilərin törətdikləri vəhşiliklər barədə daha geniş məlumatlandırılmışdır. Ölkəmizin xarici dövlətlərdə yerləşən bütün səfirlikləri tərəfindən Xocalı soyqırımının dəhşətlərini həmin ölkələrin ictimaiyyətinə çatdırılması istiqamətində bir sıra təbliğat xarakterli tədbirlər həyata keçirilmişdir. Eyni zamanda, dünyanın müxtəlif şəhərlərində məskunlaşmış azərbaycanlı icmaları da bu mühüm əhəmiyyət kəsb edən təbliğat işlərinə fəal qoşulmuş, bir sıra təşəbbüslər həyata keçirmişlər. Bu növ tədbirlərin həyata keçirilməsində əsas məqsəd isə, cəzalandırılmamış cinayət aktlarının yeni cinayətlərə yol açdığını nəzərə alaraq, Azərbaycan xalqına qarşı törədilmiş bu qırğınların təkrar olunmasının qarşısını almaqdır.

Bakı, 02 mart 2006-cı il

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ÜMUMDÜNYA ƏQLİ MÜLKİYYƏT TƏŞKİLATININ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 3-də Prezident sarayında Ümumdünya Əqli Mülkiyyət Təşkilatının nümayəndə heyətini qəbul etmişdir.

Dövlətimizin başçısı Azərbaycan hökuməti ilə Ümumdünya Əqli Mülkiyyət Təşkilatı arasında əməkdaşlıq haqqında yenicə imzalanan razılaşmanı münasibətlərimizdə ciddi bir addım kimi dəyərləndirdi. Prezident İlham Əliyev dedi ki, ölkəmiz uzun illər başqa sistemdə yaşayıb və ümumilikdə mülkiyyət qiymətləndirilməyib, ancaq dövlət mülkiyyəti olub və hər şey dövlətə tabe idi. Hazırda isə Azərbaycan müstəqildir, bazar iqtisadiyyatı prinsipləri əsasında inkişaf edir.

Ümumdünya Əqli Mülkiyyət Təşkilatının baş direktoru Kamil İdris dedi ki, imzalanan sənəddə nəzərdə tutulanları elə yerinə yetirməliyik ki, ölkənin, xalqın və hökumətin mənafeyinə xidmət etsin.

Dövlətimizin başçısı bu sənədin təşkilatla əməkdaşlığımızın möhkəm hüquqi çərçivədə davam etməsinə xidmət göstərəcəyinə əminliyini vurğuladı.

AZƏRBAYCAN RESPUBLİKASI XARİCİ İŞLƏR NAZİRLİYİNİN DİPLOMATİK AKADEMİYASININ YARADILMASI HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin və digər dövlət orqanlarının beynəlxalq münasibətlər sahəsində fəaliyyət göstərən struktur bölmələrini xüsusi ixtisaslı kadrlarla təmin etmək və beynəlxalq münasibətlər sahəsində elmi-tədqiqatların aparılmasını təşkil etmək məqsədi ilə qərara alıram:

1. Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Diplomatik Akademiyası yaradılsın.

2. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, bir ay müddətində:

2.1. Akademiyanın fəaliyyətinin maliyyələşdirilməsi ilə əlaqədar 2006-cı il üçün dövlət büdcəsindən və 2007-ci il və növbəti illər üçün dövlət büdcəsi layihələrində vəsaitin ayrılmasını nəzərdə tutsun;

2.2. Akademiyanın bina ilə təmin olunması üçün zəruri tədbirləri görsün;

2.3. bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, Akademiyanın Nizamnaməsinin və strukturunun layihəsini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

4. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

İlham Əliyev

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 6 mart 2006-cı il.

AZƏRBAYCAN RESPUBLİKASI XARİCİ İŞLƏR NAZİRLİYİNİN RƏSMİSİ "EKSPRESS" QƏZETİNİN SUALINI CAVABLANDIRMIŞDIR

Bildiyiniz kimi, Səfir Jerar Ştudman, tanınmış İsveçrə diplomatı bir neçə il ATƏT-in Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosuna (DTİHB) rəhbərlik etmişdir. Öz səlahiyyətləri çərçivəsində Azərbaycanda demokratik islahatların sürətləndirilməsinə yardım məqsədi ilə ölkəmizə bir çox səfərlər etmiş və vətəndaş cəmiyyətlərinin nümayəndələri ilə yanaşı hökumət rəsmiləri ilə də sıx ünsiyyətdə olmuşdur. Onun Azərbaycanda demokratiyanın inkişafı sahəsində malik olduğu bacarığı və bu sahəyə verdiyi töhfə Hökumətimiz tərəfindən daim bəyənilmişdir.

Hal-hazırda Səfir Ştudman təhlükəsizlik sahəsində Azərbaycanla ikitərəfli əlaqələr qurmuş İsveçrə QHT-də fəaliyyət göstərir. Beləliklə, Azərbaycanda demokratiyanın inkişafına aid və Səfirin tutduğu keçmiş vəzifəsi ilə əlaqələndirilən hər hansı bir fikrə istinad tamamilə əsassızdır.

Xarici İşlər Nazirliyi öz tərəfindən cənab Səfir Ştudmana təhlükəsizlik sahəsində Azərbaycanla əməkdaşlıq etdiyinə görə öz minnətdarlığını bildirir və Nazirliyin yuxarıda qeyd olunmuş və ya oxşar məsələlərdən uzaq olduğunu vurğulayır.

Bakı, 07 mart 2006-cı il

AVROPA QONŞULUQ SİYASƏTİ ÇƏRÇİVƏSİNDƏ FƏALİYYƏT PLANI ÜZRƏ BRÜSSELDƏ DANIŞIQLAR KEÇİRİLMİŞDİR

2006-cı ilin martın 7-də Brüsseldə Avropa Qonşuluq Siyasəti çərçivəsində Fəaliyyət Planı üzrə Azərbaycan-Avropa Birliyi danışıqların növbəti raundu keçirilmişdir.

Danışıqlarda Xarici İşlər nazirinin müavini M. Məmməd-Quliyevin başçılıq etdiyi nümayəndə heyətinə İqtisadi İnkişaf nazirinin müavini M. Cabbarov, Azərbaycanın Avropa Birliyi yanında Nümayəndəliyinin başçısı A. Məmmədov və Azərbaycan Respublikasının müxtəlif dövlət qurumlarının nümayəndələri daxil olmuşlar. Danışıqlarda

AB-nin Cənubi Qafqaz üzrə Xüsusi Nümayəndəsi cənab P. Semnebi, Avropa Komissiyasının Azərbaycan üzrə Xüsusi Elçisi cənab A. Vaddams və Avropa Komissiyasının Xarici Əlaqələr üzrə Baş Direktorluğunun şöbə müdiri cənab Yuulun başçılıq etdiyi ekspertlər qrupu iştirak etmişlər.

İlk olaraq beş illik müddət üçün nəzərdə tutulan Fəaliyyət Planı siyasi və təhlükəsizlik dialoqu, iqtisadi, sosial, hüquqi, ticarət, mədəni və s. sahələrə dair ikitərəfli əməkdaşlığı əhatə edir. Fəaliyyət Planının uğurla həyata keçirilməsi Azərbaycana Avropa Birliyinin daxili bazarına giriş, müxtəlif proqramlarda iştirak hüququ verəcəkdir.

İclas ərzində tərəflər AQS Fəaliyyət Planının mətnini bənd-bənd müzakirə etmişlər. Danışıqlar zamanı Azərbaycan nümayəndə heyətinin üzvləri Fəaliyyət Planının müvafiq hissələrinə dair təkliflərini təqdim etmiş, Avropa Komissiyasının təmsilçiləri ilə müvafiq müzakirələr aparmışlar. Ekspertlər arasında razılaşdırılacaq Fəaliyyət Planı AB-nin 25 üzv ölkəsi tərəfindən təsdiq edilməli və bu ilin sentyabr ayında keçirilməli olan AB-Azərbaycan Əməkdaşlıq Şurasının iclası zamanı qəbul edilməsi nəzərdə tutulmuşdur.

Müxtəlif sahələr üzrə əməkdaşlıq prioritetləri barədə razılığa gəlinmiş, üzərində işlənilməsi müəyyən vaxt tələb edən bəzi məsələlər barədə daha ətraflı müzakirə aparılması qərar alınmışdır. Danışıqların növbəti raundu çox güman ki, Bakıda may ayında nəzərdə tutulur.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV YAPONİYAYA RƏSMİ SƏFƏRİ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 6-da Yaponiyaya rəsmi səfərə yola düşmüşdür.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AZƏRBAYCAN-YAPONİYA İQTİSADİ FORUMDA İŞTİRAK ETMİŞDİR

Martın 8-də Tokionun "İmperial" mehmanxanasında Azərbaycan-Yaponiya iqtisadi forumu keçirilmişdir.

Forumun iştirakçıları Azərbaycan Prezidenti İlham Əliyevi hərarətli alqışlarla qarşıldılar.

Müxtəlif sahələri təmsil edən Azərbaycandan 30-dək, Yaponiyadan isə 100-ə yaxın şirkətin nümayəndələrinin iştirak etdikləri forumda çıxış edən Yaponiya İnvestisiyalarının Təşviqi Agentliyinin (JETRO) vitse-prezidenti Yoşitada Takahaşi dedi ki, 1991-ci ildə Azərbaycan dövlət müstəqilliyini əldə etdikdən sonra bu dost ölkə ilə yaxşı münasibətlərimiz qurulmuşdur və bir çox istiqamətlərdə, o cümlədən iqtisadi sahədə əməkdaşlıq uğurla həyata keçirilir. Azərbaycanda qeyri-neft sektorunun inkişafı sahəsində müxtəlif proqramların həyata keçirilməsində Yaponiya şirkətləri də iştirak edirlər. JETRO Azərbaycanın iqtisadi potensialı ilə bağlı araşdırmalar aparmaq, seminarlar keçirmək və öz mütəxəssislərini göndərmək niyyətindədir.

Sonra Azərbaycan Prezidenti İlham Əliyev forumda nitq söylədi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ

- Hörmətli xanımlar və cənablar!

Əziz dostlar!

Mən ilk növbədə sizin hamınızı salamlamaq istəyirəm. Ümidvar olduğumu bildirmək istəyirəm ki, bu biznes forumu gələcəkdə ikitərəfli münasibətlərimizin inkişafı üçün çox faydalı olacaqdır. Biz Azərbaycan ilə Yaponiya arasındakı münasibətlərə olduqca böyük diqqət yetiririk. Azərbaycan müstəqillik qazandıqdan sonra ölkələrimiz arasındakı əlaqələr çox uğurla inkişaf etmişdir. Biz müxtəlif sahələrdə əməkdaşlıq edirik, çox güclü siyasi münasibətlərimiz var. Ölkələrimiz arasındakı iqtisadi əməkdaşlıq münasibətlərimizin rəvan inkişafında mühüm rol oynayır.

Azərbaycan böyük tarixə, zəngin adət-ənənələrə, mədəniyyətə malik olan ölkədir. Lakin Azərbaycan müstəqil ölkə kimi, inkişafa 15 il bundan əvvəl qədəm qoymuşdur. Müstəqilliyimizin ilk illərində biz böyük çətinliklərlə üzləşmişdik. İqtisadi böhran, sənaye istehsalının aşağı düşməsi ölkədə gərgin vəziyyət yaratmışdı. Aparılan siyasi və iqtisadi islahatlar nəticəsində hazırda Azərbaycanda iqtisadi baxımdan sürətli inkişaf üçün əsas yaranmışdır. Azərbaycanın iqtisadiyyatı ötən il dünyada ən sürətlə inkişaf edən iqtisadiyyat olmuşdur. Bütün bunlar bizim üçün yeni imkanlar açır və daha faydalı ikitərəfli əməkdaşlıq edə bilərik.

Yaponiya ilə əməkdaşlığımızın ilk sahəsi əlbəttə ki, enerji sahəsidir. Neft və qaz hasilatı sahəsidir və Yaponiya şirkətləri Azərbaycanın enerji sektoruna yüz milyonlarla dollar sərmayə qoymuşlar. Bu əməkdaşlıq çox səmərəlidir və qarşılıqlı fayda gətirir. Yaponiya şirkətləri Xəzərin karbohidrogen ehtiyatlarının kəşfiyyatı, hasilatı və nəql olunmasında iştirak edirlər.

Lakin mən hesab edirəm ki, münasibətlərimizin inkişafının indiki mərhələsində və Azərbaycanın hazırkı iqtisadi vəziyyətində iqtisadi əlaqələrimizin şaxələndirilməsi üçün böyük imkanlar vardır. Ümumiyyətlə, Azərbaycanın iqtisadi vəziyyətinə nəzər salsaq, göstəricilər çox uğurludur. Ötən il iqtisadi artım 26 faizdən çox olmuşdur. Sənaye istehsalı 33 faizdən çox artmışdır. Hazırda biz diqqətimizi əsasən infrastruktur sahəsinə, regional inkişaf proqramlarına və yeni iş yerlərinin açılmasına yönəldirik. Bütün bunlar Yaponiya şirkətləri üçün yeni imkanlar açır və onlar iqtisadiyyatın qeyri-neft sektorunda iştirak edə bilərlər. Hazırda bu, bizim üçün prioritet xarakter daşıyır. Çünki Azərbaycanda enerji sektorunda əsas məsələ artıq həll olunmuşdur. Yəni bu sahə milyardlarla dollar həcmində birbaşa xarici sərmayələri cəlb edə bilmişdir. Hazırda Azərbaycanda adambaşına düşən xarici sərmayələrin həcmi regionda ən böyük göstəricidir.

Biz çox mühüm nəqliyyat infrastrukturunun yaradılmasına nail olduq. Bu il neft və qaz boru kəmərləri istismara veriləcəkdir. Əlbəttə ki, biz bu imkanlardan istifadə edərək, təbii sərvətlərdən, önəmli coğrafi mövqeyimizdən istifadə edərək, karbohidrogen ehtiyatlarımızı dünya bazarlarına çıxara biləcəyik. Əminəm ki, gələn illər ərzində bu sahələr sərmayələr üçün çox cəlbedici olacaqdır.

Bütün bu sahələrlə yanaşı, biz diqqətimizi digər sahələrə də yönəldə bilərik. Həmin sahələrdə imkanları qiymətləndirmək, öyrənmək məqsədi ilə hökumət rəsmiləri ilə işgüzar dairələr arasındakı birbaşa əlaqələr çox faydalıdır. Mən əminəm ki, bu gün iştirak etdiyimiz Yaponiya-Azərbaycan biznes forumu bu imkanların araşdırılması üçün əhəmiyyətli olacaqdır. Əlbəttə ki, gələn illər ərzində potensial sərmayələr üçün yeni sahələr açılacaq və bu, əməkdaşlıq üçün əlavə imkanlar yaradacaqdır. Bu, gələcəkdə hər iki tərəfin iqtisadi inkişafı üçün yaxşı perspektivlər açır.

İlk növbədə, Azərbaycana birbaşa xarici sərmayələr yüksək dəyərləndirilir. Bizdə çox yaxşı sərmayə mühiti var. Mən artıq bildirdim ki, Azərbaycana birbaşa xarici sərmayə formasında milyardlarla dollar vəsait qoyulmuşdur. Bütün bunlar onu göstərir ki, potensial sərmayədarlar ölkəmizin iqtisadiyyatına sərmayə qoyduqda özlərini rahat hiss edə bilərlər. Beləliklə, əlverişli biznes mühiti çox yaxşı imkanlar açır. Eyni zamanda, indi iqtisadi inkişaf üçün yeni sahələr çox cəlbedici olacaqdır və yapon şirkətləri burada həmçinin podratçılar qismində, xidmət göstərən şirkətlər kimi işləyə bilərlər. Çünki artıq öz sərvətlərindən istifadə edən ölkədə bir çox işlər görülə bilər.

Azərbaycanın xarici sərmayələrdən asılı olduğu dövr artıq başa çatır. İndi bizim özümüzün sərmayə proqramlarımız artır və onlar həyata keçirilir. Bu il büdcə ötən illə müqayisədə 70 faiz artmışdır. İqtisadi islahatlar, maliyyə əsaslarının gücləndirilməsi və yeni imkanların araşdırılması ölkədə yeni vəziyyət yaradır. Başqa sözlə desək, gələn illər ərzində regional iqtisadi inkişaf proqramları, sosial inkişaf proqramları, enerji proqramları, yolların tikintisi proqramları bizimlə birgə işləyən şirkətlər üçün yeni imkanlar açacaqdır. Əlbəttə ki, biz Yaponiya şirkətlərinin bu sahələrdə iştirakını yüksək dəyərləndirəcəyik. Çünki bir-birimizi artıq uzun illərdir tanıyırıq. Keçmişdə çox yaxşı əməkdaşlıq etmişik. Yaponiya şirkətləri ilə əməkdaşlığımız bütün sahələrdə qarşılıqlı etimad prinsiplərinə və yaxşı iradəyə, qarşılıqlı hörmətə, dostluğa əsaslanır. Biz artıq 10 il ərzində birgə işləmək sahəsində kifayət qədər təcrübə toplamışıq. Sizin şirkətlər ən yüksək texnologiyalara malikdir və bu, bizə lazımdır. Biz ölkəmizi müasirləşdirməliyik. Ölkəmizə yeni texnologiyaları gətirməliyik. Bunu edə bilsək, müxtəlif sahələri müasirləşdirə biləcəyik: infrastruktur, yolların çəkilməsi, kommunikasiyalar, sosial infrastruktur, məktəblərin tikilməsi, səhiyyə sahəsi, əlbəttə ki, nəqliyyat sahəsi. Azərbaycan çox mühüm coğrafi mövqedə yerləşir. Azərbaycanın dəniz, hava limanları var, şoseləri var. Mən əminəm ki, Yaponiya şirkətləri bütün sahələrdə öz yerlərini tutacaqlar.

Biz bilirik ki, gələcəkdə nə baş verəcəkdir. İqtisadi siyasətimizi konkret inkişaf proqramlarına əsaslanmaqla həyata keçiririk. Həmin proqramlar bu yaxınlarda qəbul edilmişdir və uğurla həyata keçirilir. Kənd təsərrüfatı, regional inkişaf, yolların tikintisi, enerji sahəsi, təhsil, səhiyyə sahəsi - bütün bunlar inkişafın əsas elementləridir. Bütün sektorlar, bütün layihələrimiz və planlarımız konkret proqramlara əsaslanır. Əlbəttə ki, bu proqramlar, əsasən, öz potensialımıza, özümüzün maliyyə resurslarına arxalanır. Lakin eyni zamanda, biz xarici şirkətlərin və sərmayədarların iştirakını da yüksək dəyərləndirərdik.

Mən artıq dedim ki, bu ildən başlayaraq biz maliyyə vəsaitlərimizdən istifadə edərək, birgə sərmayə proqramlarına başlamışıq. Biz bu işi xarici maliyyə təsisatları və yaxud şirkətlərlə birgə aparırıq. Öz sərmayə proqramlarımız var, bu da büdcədə nəzərdə tutulub və rəqəmlər ildən-ilə artır. 2006-cı ildə müxtəlif sahələrə yatırmaq üçün milyonlarla dollar ayrılmışdır. Hesab edirik ki, özümüzün vəsaitlərindən istifadə edilməsi potensial sərmayədarlar üçün də etimad yaradır. Ona görə də Azərbaycan hökuməti ölkənin in-

kişafı üçün layihələrdə potensial sərmayədarlarla birgə sərmayədar kimi iştirak etməyə hazırdır.

Mən hesab edirəm ki, bu, Yaponiya şirkətlərinin özləri üçün də maraqlı olardı. Çünki əgər layihədə hökumətin özü iştirak edirsə və ya müəyyən bir struktur hökumət adından iştirak edirsə, şübhəsiz ki, potensial sərmayədar tam əmin ola bilər ki, bu layihə uğurla həyata keçiriləcəkdir.

Biz hazırda çox ciddi sənaye inkişafı proqramları üzərində işləyirik. Çünki biz neçə illər gələcəyi görməliyik. Neft, qaz - bu sərvətlər bir gün tükənəcək və ona görə də biz həmin o vaxt çərçivəsinə uyğun işləməliyik. Yəni iqtisadiyyatımız gələcəkdə nəyə əsaslanacaq? Ona görə də qarşıdakı on il ərzində ölkədə güclü sənaye potensialı yaradılmalıdır ki, Azərbaycan gələcəkdə yalnız neft və qazdan, onların qiymətlərindən asılı olmasın. Ona görə biz bu istiqamətdə də iş aparırıq. Hesab edirəm ki, bu sahələrdə də birgə əməkdaşlıq üçün imkanlar olacaqdır.

Başqa sözlə desək, gələcəkdə Azərbaycana nəyin lazım olacağını, yəni hansı proqramların həyata keçiriləcəyini, onların necə olacağını bilirik. Büdcəmizin artımı onu göstərir ki, bütün planlarımız və proqramlarımız çox uğurla həyata keçiriləcəkdir. Son üç il ərzində büdcənin həcmini üç dəfə artıra bildik və bu, yalnız başlanğıcdır. Böyük iqtisadi inkişafın yalnız başlanğıcıdır və bu, insanların həyatını daha da yaxşılaşdıracaq, daha yaxşı infrastruktur yaradacaq, yüzlərlə yeni iş yeri açılacaq və Azərbaycan daha güclü iqtisadiyyata malik olacaqdır.

Mən eyni zamanda bildirmək istəyirəm ki, hazırda həyata keçirdiyimiz regional inkişaf proqramları iki il yarım müddət ərzində 340 mindən artıq yeni iş yerinin açılmasına imkan yaratmışdır. Bu, bir daha aydın şəkildə göstərir ki, ölkəmiz əməli nəticələri hiss edir, həmin nəticələr ümumi daxili məhsulun artımına, yoxsulluğun azaldılmasına dair rəqəmlərdə əks olunubdur. Misal üçün, son iki il ərzində yoxsulluğun səviyyəsi 49 faizdən 29 faizə düşmüşdür. Əlbəttə ki, bu irəliləyiş yeni iş yerlərinin açılmasında da özünü büruzə verir.

Bir sözlə, biz Yaponiya ilə Azərbaycan arasında bütün sahələrdə əməkdaşlığa ürəkdən sadiqik. Bu, bütün iqtisadi sektorlara aiddir. Bizim çox yaxşı birgə əməkdaşlıq tariximiz var, aramızda yaxşı anlaşma var. Beynəlxalq təşkilatlar çərçivəsində yaxşı əməkdaşlıq edirik. Bir çox beynəlxalq hadisələrə eyni baxışlarımız var və Azərbaycanla Yaponiya arasında olan siyasi münasibətlər yaxşı səviyyədədir. Siyasi münasibətlərimizin inkişafı baxımından götürsək, mənim Yaponiyaya rəsmi səfərim bu münasibətləri daha da gücləndirəcəkdir. Ona görə də mən hesab edirəm ki, bütün sahələrdə əməkdaşlıq etməyimiz üçün heç bir maneə yoxdur.

Mən eyni zamanda Azərbaycanın işgüzar adamlarının burada olmasından çox şadam. Onlar biznes mühitinin yaradılmasına olduqca böyük diqqət yetirirlər. Azərbaycanda kiçik və orta müəssisələr çox yüksək sürətlə inkişaf edir. Biznes əlaqələrimiz konkret layihələrə və daha yaxşı anlaşmaya imkan yaradacaqdır. Ümumiyyətlə götürsək, bu anlaşma çox yüksək səviyyədədir. Lakin əlaqələrimiz nə qədər geniş olsa, bir-birimizi daha çox tanıyacağıq.

Artıq dediyim kimi, hazırda Azərbaycan böyük iqtisadi inkişafın ərəfəsindədir və bu in-

kişaf hər bir sektorda lazımdır. Biz səhiyyə, təhsil, infrastruktur sahələrini, elektrik stansiyalarını, su təchizatı və kommunikasiya sahələrini, qaz qurğularını, kənd təsərrüfatı sahəsini yaxşılaşdırmalıyıq. Çünki biz müasir ölkə qurmalıyıq, müasir və səmərəli iqtisadiyyat qurmalıyıq. Bu məqsədlə bizə yaxşı məsləhət, yaxşı biliklər lazımdır. Bizim yaxşı tanınmış şirkətlərə, tərəfdaşlara ehtiyacımız var.

Bildiyiniz kimi, biz uzun illər ərzində Yaponiya hökumətindən müxtəlif təşkilatlar vasitəsilə, Yaponiyanın qurumları vasitəsilə texniki, maliyyə yardımı almışıq. Bunlar da iqtisadiyyatımızın müxtəlif sektorlarının inkişafına əsas yaradır. İndi isə artıq fəal əməkdaşlıq vaxtı yetişibdir. Biz böyük istəklə bu əməkdaşlığı bütün iqtisadi sektorlarda genişləndirmək əzmindəyik. Bu bizim əsas prioritetimizdir. Biz iqtisadiyyatımızı şaxələndirməliyik və güclü qeyri-neft sektoru yaratmalıyıq.

Ümidvaram ki, məqsədlərimizə nail olacağıq. Çünki qəbul etdiyimiz proqramların hamısı uğurla həyata keçirilir və xarici tərəfdaşlarımızla bütün əməkdaşlığımız çox yaxşı nəticələr verir. Xüsusən də Yaponiya şirkətləri ilə müxtəlif sahələrdə əməkdaşlıq yaxşı nəticələr verir və ümidvaram ki, mənim səfərim, keçirilən bu biznes forumu birgə işin aparılması üçün yeni imkanlar açacaqdır.

Mən hamınızı bir daha salamlamaq istərdim və sizə gələcəkdə uğurlar arzulayıram. Bütün yapon dostlarımızı Azərbaycana dəvət edirəm və gələcəkdə bizimlə işləməyi arzulayıram.

Çox sağ olun.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV YAPONİYA BEYNƏLXALQ ƏMƏKDAŞLIQ AGENTLİYİNİN PREZİDENTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 8-də Tokioda, onun üçün ayrılmış iqamətgahda Yaponiya Beynəlxalq Əməkdaşlıq Agentliyinin (JİCA) prezidenti xanım Sadako Oqatanı qəbul etmişdir.

Dövlətimizin başçısını səmimiyyətlə salamlayan Sadako Oqata Azərbaycan Prezidentinin Yaponiyaya ilk səfərinin çox uğurlu olacağına və ölkələrimiz arasında əməkdaşlığın inkişafında yeni mərhələ açacağına əminliyini söylədi.

Yaponiyanın Azərbaycanla bütün sahələrdə əlaqələrin daha da inkişafına xüsusi maraq göstərdiyini, Yaponiya şirkətlərinin Azərbaycanda bir sıra mühüm layihələrə sərmayə qoyduğunu və ölkəmizə kreditlər ayrıldığını xatırladan xanım Sadako Oqata dedi ki, biz Azərbaycanla əməkdaşlığı genişləndirmək istəyirik. Azərbaycan Qafqazda elə bir ölkədir ki, onun iqtisadiyyatının inkişafına qoyulan istənilən sərmayə gələcəkdə bəhrəsini verəcək və dinamik inkişafa səbəb olacaqdır.

Prezident İlham Əliyev Yaponiyaya ilk səfərinin ölkələrimiz arasında bütün sahələrdə əməkdaşlığın daha da möhkəmlənməsi və genişlənməsində yeni mərhələ açacağına ümidvar olduğunu vurğuladı. Yaponiya Beynəlxalq Əməkdaşlıq Agentliyi ilə Azərbaycan arasında yaranmış əlaqələrdən razılığını ifadə edən dövlətimizin başçısı bildirdi ki, ölkələrimizin əməkdaşlığının genişləndirilməsi üçün yaxşı imkanlar və perspektivlər vardır.

Söhbət zamanı Azərbaycanla JİCA arasında əməkdaşlığın perspektivləri barədə geniş fikir mübadiləsi aparıldı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ YAPONİYANIN İMPERATORU AKİHİTONUN TƏKBƏTƏK GÖRÜŞÜ

Martın 8-də Tokioda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Yaponiyanın İmperatoru Akihitonun təkbətək görüşü olmuşdur.

Əlahəzrət Akihito və imperatriçə Miçiko Prezident İlham Əliyevi və xanımı Mehriban Əliyevanı İmperator sarayının qarşısında böyük hörmət və ehtiramla salamladı.

Sonra dövlətimizin başçısı İlham Əliyev ilə İmperator Akihito arasında təkbətək görüş oldu.

Prezident İlham Əliyevi bir daha səmimiyyətlə salamlayan və onun Yaponiyaya rəsmi səfərini yüksək qiymətləndirən Əlahəzrət Akihito, ölkələrimiz arasındakı əlaqələrin daha da inkişaf etdirilməsinin faydalı olduğunu bildirdi. Xalqlarımız arasındakı tarixi dostluq əlaqələrindən söhbət açan İmperator, Azərbaycan ilə münasibətlərin möhkəmləndirilməsinə Yaponiya dövlətinin xüsusi maraq göstərdiyini vurğuladı. O, xalqımızın ümummilli lideri Heydər Əliyevin 1998-ci ilin fevralında Yaponiyaya səfərini məmnunluqla yada saldı və onun görüşü ilə bağlı xoş xatirələrini danışdı. Əlahəzrət Akihito dedi ki, məhz Heydər Əliyevin səyləri və qətiyyəti sayəsində uğurlu islahatlar aparan Azərbaycan dünyanın inkişaf etmiş ölkələrindən birinə çevrilmək yolunda inamla irəliləmişdir və bu gün həmin siyasətin Azərbaycanda davam etdirilməsi üz bəhrəsini verir.

Xoş sözlərə, göstərilən qonaqpərvərliyə görə Əlahəzrət Akihitoya təşəkkürünü bildirən Prezident İlham Əliyev Yaponiyaya ilk rəsmi səfər etməsindən çox məmnun olduğunu söylədi, ölkəmizdə hüquqi, demokratik, dünyəvi dövlət quruculuğu sahəsində görülmüş işlərdən danışdı.

Dövlətimizin başçısı dedi ki, müstəqil Azərbaycan Respublikası Yaponiya ilə əməkdaşlığın daha da inkişaf etdirilməsi və möhkəmləndirilməsinə böyük maraq göstərir və indiki səfər ikitərəfli münasibətlərdə yeni mərhələ açacaqdır.

Prezident İlham Əliyev bildirdi ki, Azərbaycan dünya ölkələri ilə bütün sahələrdə qarşılıqlı surətdə faydalı əməkdaşlığın inkişaf etdirilməsinə daim diqqət yetirir. Bu baxımdan Yaponiya ilə əlaqələrə xüsusi önəm verilir. Azərbaycanın qapıları dünya ölkələrinin iş adamlarının üzünə açıqdır. Ölkəmizdə ictimai-siyasi sabitlik mövcuddur, sərmayələrin qorunması, xarici iş adamlarının tam sərbəst fəaliyyəti üçün hər cür şərait yaradılmışdır.

Xəzərin Azərbaycan sektorundakı yataqların birgə işlənilməsi sahəsində görülən işlərə toxunan Prezident İlham Əliyev Yaponiyanın "İtoçu" şirkətinin layihələrdə böyük paya malik olduğunu vurğuladı. Dövlətimizin başçısı Yaponiyanın Azərbaycan ilə bütün sahələrdə əməkdaşlığın genişləndirilməsinə maraq göstərməsini yüksək qiymətləndirdi.

Söhbət zamanı Azərbaycan-Yaponiya əməkdaşlığının inkişaf perspektivləri, bölgədə vəziyyət, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə aradan qaldırılması və digər məsələlər barədə də geniş fikir mübadiləsi aparıldı.

BEYNƏLXALQ MÜNASİBƏTLƏR İNSTİTUTUNDA GÖRÜŞ

Martın 8-də Yaponiya Beynəlxalq Münasibətlər İnstitutunda Azərbaycan Prezidenti İlham Əliyev ilə görüş keçirilmişdir.

Görüşdə Yaponiyanın təhsil və elm naziri, ölkənin sabiq baş naziri, sabiq xarici işlər naziri, tanınmış elm xadimləri, nüfuzlu diplomatlar, səfirlər, iş adamları, hərbçilər, Yaponiyanın Bakıdakı keçmiş səfiri, hazırda Yaponiya Xarici Əlaqələr İnstitutunun idarəedici direktoru olan Toşiyuki Fucivara, Yaponiya ictimaiyyətinin, kütləvi informasiya vasitələrinin nümayəndələri iştirak edirdilər. Ümumiyyətlə, görüşə 120 nəfər dəvət olunsa da, 150-dən çox adam gəlmişdi.

İnstitutun prezidenti Yukio Yato Azərbaycan Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyevanı böyük hörmət və ehtiramla salamladı.

Salona toplaşanlar dövlətimizin başçısını hərarətlə qarşıladılar.

Cənab Yukio Yato Azərbaycan Prezidentinin tərcümeyi-halı barədə qısa məlumat verdi.

Prezident İlham Əliyev görüş iştirakçıları qarşısında geniş mühazirə ilə çıxış etdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ÇIXIŞI

- Hörmətli xanımlar və cənablar!

- Hörmətli dostlar!

İlk növbədə, burada çıxış etmək üçün mənə verdiyiniz gözəl imkana görə sizə minnətdarlığımı bildirirəm. Mən regional vəziyyət haqqında, ikitərəfli münasibətlər və ümumiyyətlə, ölkəmizin ümumi inkişafı haqqında öz fikirlərimi sizinlə bölüşəcəyəm.

Bildiyiniz kimi, mən Yaponiyada rəsmi səfərdəyəm. Bu səhər mənim səfərim başlayıb və bu, çox uğurla keçən bir səfərdir. Mənim çox gərgin iş proqramım var və bu səfər çərçivəsində çalışacağam ki, ikitərəfli münasibətlərimizin bütün sahələrinə toxunum. Biz bu münasibətlərin səviyyəsindən çox məmnunuq. Azərbaycan öz müstəqilliyini bərpa etdikdən sonra Yaponiya dərhal onun müstəqilliyini tanıyıb və bizimlə münasibətlər quran ilk ölkələrdən biridir. Həmin vaxtdan etibarən ölkələrimiz arasında çox fəal və səmərəli əməkdaşlıq yaranmışdır. Bu əməkdaşlıq qarşılıqlı hörmətə, marağa və qarşılıqlı dostluq hisslərinə əsaslanır.

İki ölkə arasındakı münasibətlərin inkişafında Azərbaycanın keçmiş Prezidenti Heydər Əliyevin Yaponiyaya 1998-ci ildəki səfəri mühüm rol oynamışdır. Statistikaya nəzər salsaq görərik ki, ölkələrimiz arasındakı əlaqələr daha sürətlə inkişaf etmiş, yapon şirkətləri, tərəfdaşlar, sərmayədarlar Azərbaycanın iqtisadiyyatına yüz milyonlarla dollar sərmayə qoymuşlar. Bu, ikitərəfli münasibətlərin bizim üçün nə dərəcədə vacib olduğunu aydın şəkildə nümayiş etdirir. Biz ikitərəfli münasibətlər sahəsində, eyni zamanda beynəlxalq təşkilatlar çərçivəsində fəal əməkdaşlıq edirik, bir-birimizi dəstəkləyirik və qarşılıqlı maraq doğuran məsələlər üzərində işləyirik. Regional əməkdaşlıq məsələlərində işbirliyi qurmuşuq. Azərbaycan regional səviyyədə mühüm ölkələrdən biridir. Biz inkişaf proqramlarını həyata keçiririk və hətta bəzi hallarda regional inkişafın əsas təşəbbüskarlarından biriyik.

Azərbaycanın müstəqillik qazanmasından sonra çox qısa müddət keçmişdir. Söhbət cəmi 15 ildən gedir. Lakin biz çətin anları da yaşamışıq, böhranlarla üzləşmişik, vətəndaş müharibəsini keçmişik. Hazırda isə Azərbaycan sürətlə inkişaf edən ölkəyə çevrilibdir. Azərbaycanda çox ciddi siyasi və iqtisadi islahatlar gedir. Nail olduğumuz inkişaf sürəti apardığımız bu islahatların uğurunun nəticəsidir.

1996-cı ildən etibarən ölkədə siyasi və iqtisadi vəziyyət sabitləşmişdir. Bundan əvvəl bizdə çox böyük iqtisadi çətinliklər yaranmışdı. 1996-cı ildən bəri iqtisadiyyatımız çox sürətlə inkişaf edir. Əvvəlcə il ərzində ümumi daxili məhsulun artımı orta hesabla 10 faiz idi. Lakin son illər, xüsusən də ötən il artım çox yüksəkdir. 2005-ci ildə Azərbaycanda ümumi daxili məhsulun artımı 26 faizdən çox olmuşdur. Ümid edirik ki, bu il həmin artım sürəti eyni səviyyədə saxlanılacaqdır. 2005-ci ildə sənaye istehsalı 33 faiz artmışdır ki, bu da dünyada rekord göstəricidir. Beləliklə, ümumi daxili məhsulun və sənaye istehsalının artımına görə Azərbaycan dünyada öncül yerlərdən birini tutur və təbii ki, biz bundan fərəhlənirik. Bütün bu nailiyyətlər Heydər Əliyevin çox düşünülmüş və müdrik iqtisadi siyasətinin nəticəsidir. Bu siyasət davam etdirilir və bunun nəticəsində Azərbaycan güclü iqtisadiyyata malik olan, tərəqqi edən ölkəyə çevriləcəkdir.

Bildiyiniz kimi, iqtisadiyyat hər bir inkişafın təməl daşıdır. Əgər güclü iqtisadiyyat yoxdursa, sosial proqramları və eyni zamanda, müstəqil xarici siyasəti həyata keçirmək mümkün deyildir. Xüsusən də bu, beynəlxalq ictimaiyyət üçün yeni olan ölkədən ötrü olduqca vacibdir. Ölkəmiz vətəndaş müharibəsindən əziyyət çəkmişdir və indi də erməni təcavüzündən əziyyət çəkməkdədir. Şübhəsiz ki, müstəqil xarici siyasətin davam etdirilməsi o qədər də asan iş deyildir. Lakin Azərbaycan buna nail olmuşdur. Bizim siyasətimiz çox şəffaf, açıq və səmimidir və milli maraqlarımıza, tərəfdaşlarımız və dostlarımızla səmimi münasibətlərə əsaslanır. İqtisadi islahatlar siyasətimiz, Azərbaycanın beynəlxalq işlərdə rolu və regional səviyyədəki rolu - bunlar bir-biri ilə bağlı olan məsələlərdir. Ona görə də mən demək istəyirəm ki, biz bütün istiqamətlərdə nəticələrdən fərəhlənə bilərik.

Artıq bildirdiyim kimi, iqtisadi göstəricilərimiz yüksəkdir. 1994-cü ildən biz Azərbaycanda yeni neft strategiyasının həyata keçirilməsinə başladıq. Bu strategiya Prezident Heydər Əliyev tərəfindən müəyyən edilmişdir və hazırda çox müsbət nəticələr verir. Azərbaycan iqtisadiyyatına milyardlarla dollar qoyulmuş və biz adambaşına düşən birbaşa xarici sərmayələrin həcminə görə regionda hələ də birinci yerdəyik. Biz çox əlverişli biznes mühitinin yaradılmasına nail olduq və sərmayədarlar ölkəmizdə özlərini çox rahat hiss edirlər.

Beləliklə, neft strategiyası region səviyyəsində Azərbaycanın əhəmiyyətini daha da artırdı. Bu strategiya bizim milli sərvətlərimizdən istifadə etməyə imkan yaradır. Bununla yanaşı, regional əməkdaşlıq proqramlarında təşəbbüskar ölkə kimi çıxış etməyə imkan verir və Xəzərin karbohidrogen ehtiyatlarının dünya bazarlarına çıxarılması, habelə mühüm sosial proqramların həyata keçirilməsi üçün imkanlar açır. Çünki biz hökumət olaraq xalq üçün işləyir, xalqın həyat tərzinin yaxşılaşdırılması üçün çalışırıq. Ona görə də Azərbaycanın müasir tarixində bizim neft siyasətimizin xüsusi yeri var. Yəni enerji siyasəti, iqtisadi siyasət və ümumi siyasət arasında fərq qoymaq mümkün deyildir. Bunların hamısı bir-biri ilə bağlıdır və Azərbaycanda biz bütün bu məsələlərə kompleks şəkildə baxırıq.

Regionda təkcə yaxşı mövqeyə və yaxud karbohidrogen yataqlarına malik olmaq hələ tam kifayət deyildir. Çünki biz bilirik ki, neft və qazla zəngin olan ölkələrin heç də hamısı uğur əldə edə bilməmişdir. Ona görə qarşımızda duran vəzifələrdən biri artıq buraxılmış səhvləri təkrarlamamaqdan ibarət olmalıdır. Bu məqsədlə Neft Fondu yaradılmışdır. O, çox şəffaf bir qurumdur. Açıq və beynəlxalq səviyyədə auditdən keçən təsisatdır və onun əsas məqsədi insanların rifahına və daha çox sosial proqramlara yardım etməkdən ibarətdir.

Regional vəziyyətə gəldikdə, bildiyiniz kimi, bu, o qədər də sadə deyildir. Regionda keçmişdə hərbi əməliyyatlar olmuşdur və münaqişələr hələ də mövcuddur və burada yerləşən bütün ölkələr bunu hiss edir. Lakin Azərbaycan sabitlik məkanıdır. Ölkəmizdə siyasi, sosial və iqtisadi sabitlik mövcuddur. Qonşu ölkələrlə çox yaxşı münasibətlərimiz var, onlarla heç bir problemimiz yoxdur. Biz beynəlxalq təşkilatlarda fəal iştirak edirik. Eyni zamanda, regional təşkilatlarda fəaliyyət göstəririk. Azərbaycan həmin təşkilatlarda mühüm rol oynayır.

Artıq qeyd etdiyim kimi, biz siyasətimizi, ilk növbədə, milli maraqlarımıza uyğun müəyyənləşdirir və həyata keçiririk. Məmnunluq hissi ili bildirmək istəyirəm ki, biz bütün əsas problemləri, bəlkə o qədər də ciddi olmayan, lakin həllini gözləyən, keçmişdə olan problemlərin hamısını qonşularımızla həll edə bilmişik. Regional sabitlik, regional sülh və əməkdaşlıq inkişaf üçün ən mühüm ilkin şərtlərdən biridir.

Azərbaycan cəlbedici bir ölkədir. Azərbaycanın əlverişli coğrafi mövqeyi, zəngin təbii sərvətləri var və biz buna xüsusi diqqət yetiririk. Müxtəlif ölkələr və təşkilatların Azərbaycana diqqəti artır. Bəzi hallarda, Azərbaycana aid olan məsələlərdə maraqlar hətta toqquşur. Lakin bizim əsas məqsədimiz rəqabət yox, əməkdaşlıq ruhunun yaradılmasıdır. Dostluq ruhunun tam bərqərar olunmasıdır. Biz istəmirik ki, Azərbaycan digər ölkələrin mübarizəsi yerinə çevrilsin. Azərbaycan elə bir ölkədir ki, orada şirkətlər və dostlar əməkdaşlıq edə bilər və bu, qarşılıqlı fayda üçün edilməlidir. Əgər əməkdaşlıq ruhunda fəaliyyət göstərilsə, hamı bundan bəhrələnəcəkdir. Əgər biz diqqətimizi əsasən öz məsələlərimizə yönəltsək, digər ölkənin, qonşunun daxili işlərinə müdaxilə etməsək, daha təhlükəsiz şəraitdə yaşayacağıq. Bu, bizim fəlsəfəmizdir. Bu, bizim siyasətimizin əsasını təşkil edir və düzgün yoldur. Çünki bizim təcrübəmiz onu göstərir ki, əgər yaxşı əməkdaşlıq və dostluq ruhunda işləyiriksə, ciddi yanaşma ilə işləyiriksə və digərlərinin işlərinə müdaxilə etmiriksə, çox yaxşı nəticələrimiz olur. Bu, özünü iqtisadi əməkdaşlıqda, iqtisadi göstəricilərdə, sosial sabitliyin bərqərar olunmasında və regional təhlükəsizlik məsələlərində göstərir. Çünki regional sülh və təhlükəsizlik bizim üçün çox vacib olan məsələdir. Bu, sadəcə, beynəlxalq həyata aid olan məsələ deyildir. Eyni zamanda, bu, bizim həyatımızın, təhlükəsizliyimizin əsasını təşkil edir. Ona görə də mən əminəm ki, gələn illər ərzində bu ənənə davam edəcək və Azərbaycan bu istiqamətdə daha da fəal olacaqdır.

İqtisadi inkişaf, siyasi inkişaf, cəmiyyətin demokratikləşməsi prosesi - bunlar hamısı paralel getməlidir. Digər məsələləri yaddan çıxararaq, yalnız bir məsələ üzərində işləmək olmaz. Yalnız paralel olaraq işləməklə məsələləri irəliyə doğru aparmaq lazımdır. Xüsusən də əgər Azərbaycandan söhbət gedirsə, uzun illər ərzində o, dövlətçilik imkanlarından məhrum olmuşdu, digər dövlətin bir hissəsi idi və tamamilə fərqli bir vəziyyətdə

və ölkədə yaşamışdır. Totalitar rejim hökm sürürdü. Ona görə də totalitarizmdən demokratiyaya keçid bizim gələcəyimiz üçün sınaqdır.

Biz hazırda çox mühüm mərhələni keçməkdəyik. Bu, Azərbaycanın gələcəyinə yönəlibdir. Sovet İttifaqı dağıldıqdan sonra Azərbaycanın müstəqil ölkə kimi yaşamağa başlamasından cəmi 15 il keçib və biz indi tamamilə fərqli bir vəziyyətdəyik. Sovet İttifaqı dağıldıqdan sonra bütün keçmiş sovet respublikaları oxşar vəziyyətə düşdü və onlar özlərinin iqtisadi siyasətini uğurla həyata keçirməyə çalışırdılar. Son illər ərzində iqtisadi potensialımız bərpa edilmişdir. Azərbaycanda indiki iqtisadi potensial 1990-cı illərdə müşahidə olunmuşdur. O vaxt hələ Sovet İttifaqı mövcud idi. Lakin siyasi baxımdan biz indi tamamilə başqa bir cəmiyyətdə yaşayırıq. Cəmiyyətimiz azaddır, öz taleyimizi özümüz həll edirik. Beynəlxalq birliyin, beynəlxalq təşkilatların üzvüyük və müstəqilliyimiz bizim üçün ən böyük sərvətdir.

Ona görə də biz özümüzü qorumalıyıq, həm siyasi, həm də iqtisadi cəhətdən güclənməliyik, xarici siyasət vasitəsilə, ənənəvi tərəfdaşlarımızla və dostlarımızla münasibətlərin gücləndirilməsi siyasəti vasitəsilə möhkəmlənməliyik. Gələcəkdə bu meyl daha da güclənəcəkdir. Ölkə daha güclü olacaq, xalqımız daha yaxşı yaşayacaqdır. Bu, bizim iqtisadi siyasətimizin əsas məqsədlərindən biridir. Yoxsulluğun aradan qaldırılması və işsizliyin qəbul olunan səviyyəyə qədər aşağı salınması vacib məqsəddir. Biz bu istiqamətlərdə irəliləyişə nail olmuşuq. Son iki il ərzində Azərbaycanda 340 min yeni iş yeri açmışıq. Bu da bizim apardığımız siyasətin uğurundan xəbər verir. Eyni zamanda, yoxsulluq şəraitində yaşayan insanların sayı sürətlə aşağı düşməyə başlamışdır. Belə bir şəraitdə biz uğurlarımızdan istifadə edərək, sosial inkişaf proqramlarını həyata keçirməkdəyik. Bu baxımdan bizi narahat edən ən mühüm məsələ qaçqınların və məcburi köçkünlərin vəziyyətidir.

Bildiyiniz kimi, Azərbaycan uzun illərdir ki, qonşu Ermənistanın təcavüzünə məruz qalmışdır. Ermənistan indi də ərazimizin 20 faizini işğal altında saxlayır. Onlar işğal olunmuş ərazimizdə etnik təmizləmə siyasəti aparmışlar və bunun nəticəsində 1 milyondan çox azərbaycanlı qaçqın və məcburi köçkün vəziyyətinə düşmüşdür. Azərbaycan hökuməti bu məsələni nəzarətdə saxlayır və çalışır ki, həmin insanlara yardım göstərsin. Biz çox ciddi sosial proqramlar həyata keçiririk ki, həmin insanların həyatı yaxşılaşsın. Lakin bu, asan iş deyildir. Ola bilsin ki, dünyada ən böyük sayda qaçqınlar və məcburi köçkünlər bizim ölkədədir. Bunların sayı 1 milyondan çoxdur. Bu, çox böyük iqtisadi və sosial gərginlik yaradır, eyni zamanda, ciddi siyasi problemdir. Biz çalışırıq ki, bu məsələni həll edək. Baxmayaraq ki, az qala 20 ildir münaqişə həll olunmayıbdır.

Biz sülh prosesinə sadiqik. Hələ də ümid edirik ki, bu məsələni beynəlxalq hüququn norma və prinsiplərinə uyğun olaraq həll edə bilərik. Bu, Azərbaycan üçün ən əsas məsələdir və ona görə də Azərbaycan danışıqlarda iştirak edir. Bu danışıqlar ATƏT-in Minsk qrupu vasitəsilə həyata keçirilir. Bu qrupun həmsədrləri Fransa, Amerika və Rusiyadır. Bu problemin əsası separatizmdir. Yəni, Azərbaycanın ərazisini ondan qoparıb Ermənistana birləşdirmək istəyirlər. 1980-ci illərin sonları - 1990-cı illərin əvvəllərində Ermənistan silahlı qüvvələri Azərbaycanın ərazisini işğal etmişdir. Biz əminik ki, siyasi, hüquqi və tarixi nöqteyi-nəzərdən həqiqət, ədalət bərpa olunacaqdır. Çünki tarixi baxımdan Dağlıq Qarabağ heç vaxt Ermənistanın ərazisi olmamışdır. Ermənilər o yer-

lərdə yaşamamışlar, çar Rusiyasının qərarı ilə oraya köçürülmüşlər. Bu, XIX əsrin birinci yarısında baş vermişdir. Hətta həmin yerin toponimlərinə nəzər salsanız, orada ermənilərin heç bir izini tapa bilməzsiniz.

Dağlıq Qarabağın mərkəzi Xankəndi adlanan şəhərdir. Bu, "xanın kəndi" deməkdir. Sovetlər vaxtında həmin şəhərin adını dəyişdirib Stepanakert qoymuşlar, bolşevik Stepan Şaumyanın adını daşıyan bir şəhər olmuşdur. O da ermənidir. Yenə deyirəm, tarixi baxımdan bu yer heç vaxt Ermənistana məxsus olmamış və ermənilər burada yaşamamışlar. Onlar buraya köçürülmüşlər və sonralar yerlərin, tarixi abidələrin adını dəyişmişlər. Daha sonra, onlar çoxluq təşkil etdikdən sonra separatizmə can atdılar. Bu separatizm meyilləri Sovet İttifaqının digər yerlərində də baş vermişdir. Gürcüstanda, Moldovada da eyni səbəbdən belə bir münaqişələr yaranmışdır. Cənubi Osetiya, Abxaziya və Dnestryanı bölgə münaqişələrinin də eyni səbəbləri var, onlar eyni qüvvələr tərəfindən, separatçı qüvvələr tərəfindən dəstəklənir. Bunun nəticəsində yerli əhaliyə qarşı etnik təmizləmə aparılmış, ölkələrin ərazi bütövlüyü pozulmuş və nəticədə torpağı işğal olunmuşdur. Bu, məsələnin tarixi tərəfidir.

Yaxın tarixə nəzərə salsaq, gəlin, ona hüquq nöqteyi-nəzərdən baxaq. Azərbaycanın ərazi bütövlüyü bütün təşkilatlar tərəfindən tanınıbdır. Azərbaycan Birləşmiş Millətlər Təşkilatına ümumi bir ölkə kimi, Dağlıq Qarabağ da daxil olmaqla qəbul edilmişdir. BMT də Azərbaycanın ərazi bütövlüyünü tanımışdır. Bizim ölkənin ərazi bütövlüyünü tanımayan yeganə ölkə Ermənistandır. Yəni, hüquqi nöqteyi-nəzərdən Dağlıq Qarabağın Azərbaycanın bir hissəsi olması heç cür şübhə altına alına bilməz və münaqişə yalnız bu əsaslarla həll edilməlidir. Beləliklə, Azərbaycanın ərazi bütövlüyü bərpa olunmalıdır. Biz Dağlıq Qarabağda yaşayan ermənilərə mümkün olan ən yüksək muxtariyyət statusu verməyə hazırıq.

Siz bilirsiniz, dünya təcrübəsi, Avropada olan təcrübə onu göstərir ki, muxtariyyətlər var, milli azlıqlar mövcuddur. Ancaq milli azlıqlar varsa, bu, o demək deyil ki, onların bir ölkənin torpağını qoparıb həmin ölkənin ərazi bütövlüyünü pozmaq hüququ var. Muxtariyyətlə bağlı çox yaxşı təcrübə mövcuddur, milli azlıqlar var və biz eyni həll yolunu təklif edirik. Bu muxtariyyəti Dağlıq Qarabağda yaşayan ermənilər üçün də nəzərdə tuturuq. Lakin Ermənistanın məntiqinə varsaq, o, hesab edir ki, Dağlıq Qarabağda olan ermənilər öz müqəddəratını təyin etmək istəyirlər. Prinsip etibarilə millətlərin öz müqəddəratını təyin etmək hüququ düzdür. Lakin bu halda həmin yanaşma düzgün deyildir. Çünki ermənilər bir xalq kimi artıq öz müqəddəratını təyin ediblər. Yəni erməni dövləti mövcuddur. Təsəvvür edin ki, əgər ermənilər istədikləri yerlərdə, yaşadıqları yerlərdə, dünyanın müxtəlif guşələrində bu hüquqdan istifadə edərək, öz müqəddəratını təyin etsələr nələr baş verər? Hətta Minsk qrupunun həmsədrləri olan ölkələrdə - Fransada, Birləşmiş Ştatlarda, Rusiyada ermənilər yaşayırlar, onlar Yaxın Şərqdə, Qafqazda, digər ölkələrdə də yaşayırlar. Əgər onlar bu cür qərar versələr ki, istədikləri yerlərdə öz müqəddəratını təyin etmək istəyirlər, onda nələr baş verər?! Bu, heç cür qəbuledilməzdir və Azərbaycan heç vaxt buna razılıq verməyəcəkdir.

Mən artıq Azərbaycanın razılaşacağı məsələlər haqqında danışdım. Yəni bizim mövqeyimiz dəyişməz olaraq qalır. Azərbaycanın ərazi bütövlüyü danışıqlar mövzusu ola bilməz. Azərbaycanın zəbt olunmuş torpaqları danışıqlar yolu ilə azad edilməli, bir milyon

azərbaycanlı qaçqın və məcburi köçkün öz doğma yurd-yuvasına qayıtmalıdır. Biz Dağlıq Qarabağ bölgəsində yaşayan ermənilərin və oraya qayıdacaq azərbaycanlıların təhlükəsizliyinə zəmanət verə və Dağlıq Qarabağın statusunu Azərbaycanın ərazi bütövlüyü çərçivəsində müəyyən edə bilərik. Məhz bu mövqeyə əsaslanaraq, mən prezidentlərin görüşlərində iştirak etdim və xarici işlər nazirlərinin də görüşləri davam edir. Lakin əfsuslar olsun ki, heç bir nəticə yoxdur. Ona görə də biz bir-birimizdən soruşmalıyıq: bu danışıqlar nəticəsiz olaraq nə qədər davam edə bilər? Yəni, hər bir prosesin sonu olmalıdır, dünyada hər bir şeyin sonu var. Biz sülh yolu ilə nizamlanmaya sadiqik. Lakin biz əlavə beş il, on il gözləyə bilmərik ki, nizamlanma yolu tapılsın. Biz aydın şəkildə bilməliyik ki, vəziyyət nə yerdədir. Yəni vəziyyəti aydınlaşdırmalıyıq və bizim hansı vəziyyətdə olduğumuzu dünya ictimaiyyətinə çatdırmalıyıq. Əgər biz sülh yolu ilə, beynəlxalq prinsiplərə əsaslanaraq nizamlanmanı istəyiriksə, çalışmalıyıq ki, bütün imkanlardan istifadə edilməklə bu istiqamətdə nəticələr əldə olunsun. Əgər bu istiqamətdə nəticə əldə edə bilməsək, onda biz siyasətimizi və strategiyamızı yenidən nəzərdən keçirib yeni yanaşmalar axtarmalıyıq.

Qafqazda münaqişələr məsələsi, o cümlədən Ermənistan ilə Azərbaycan arasında olan münaqişə elə məsələdir ki, bu, regional sabitlik, regional inkişaf üçün təhlükədir. Regionda normal və firavan həyat üçün ən böyük maneədir. Biz bunu aradan qaldırmalıyıq. Bütün bu münaqişələr keçmişdən qalan mirasdır. Sovet İttifaqı dağıldıqdan sonra biz hamımız müstəqil olduq. Lakin bu münaqişələr qaldı. Bu münaqişələr öz həllini tapmalıdır. Həll olunmamış münaqişələr gələcəkdə də qalsa, işlər çətin olacaqdır. Artıq biz XXI əsrdə yaşayırıq. Ona görə də əlbəttə ki, beynəlxalq ictimaiyyət bu sahədə daha fəal rol oynamalıdır. Bəzən bizə deyirlər ki, gəlin, iki ölkə öz aranızda razılaşın. Yox, bu yol işləmir. Biz məsələyə dəqiq aydınlıq gətirməliyik - nə baş verib, təcavüzə birinci kim başlayıb, kim kimin ərazisini zəbt edib, kim etnik təmizləmə siyasəti aparıbdır. Sonra isə çox aydın şəkildə nəticəni nəzərə alaraq, münaqişənin beynəlxalq prinsiplər əsasında həllinin yolunu tapmalıyıq. Mən hesab edirəm ki, biz bu yolla irəliyə gedə bilərik.

Regional inkişaf və əməkdaşlığa gəldikdə, bu, hazırda beynəlxalq birlik üçün də vacib bir məsələyə çevrilir. Xəzər hövzəsi, Xəzərin təbii sərvətləri, daha geniş regionda olan proseslər - bütün bunlar dünyada ümumi vəziyyətə təsir göstərir. Hazırda biz çox həssas və həlledici mərhələyə yaxınlaşırıq ki, regionda və dünyada gələcək meylləri müəyyən edə bilək. Bir daha deyirəm ki, Azərbaycan regional əməkdaşlığa sadiqdir və bu əməkdaşlığın möhkəmləndirilməsi üçün çox yaxşı imkanlar vardır.

Biz nəhəng transmilli, çoxmilyonlu dollarlıq layihələrin həyata keçirilməsi ilə məşğuluq. Bunlar enerji ilə bağlıdır. Azərbaycanın Xəzərdəki sektorundan neft və qazın dünya bazarlarına nəql edilməsini nəzərdə tutur və artıq bu, reallığa çevrilir. İki il bundan əvvəl insanlar bəzən buna bir əfsanə kimi baxırdılar. Hazırda isə bu, reallığa çevrilməkdədir. Boru kəmərləri beynəlxalq tərəfdaşlar vasitəsilə tikilir və bu yaxınlarda bizim sərvətlərimiz dünya bazarlarına çatdırılacaqdır. Eyni zamanda, Xəzərin şərq sahilində yerləşən qonşular, Azərbaycan və Avropa ölkələri arasında əməkdaşlığa zəmin yaradacaqdır. Azərbaycan Asiya və Avropa arasında körpüdür. Biz tarixi İpək Yolunun mərkəzində yerləşirik və çox mühüm nəqliyyat infrastrukturumuz var. Biz bunu daha da müasirləşdirməliyik. Azərbaycandan keçən nəqliyyat dəhlizi vasitəsilə nəinki karbohidrogen-

lərin, eyni zamanda, bütün malların daşınmasını mümkün etməliyik. Bu, iqtisadi baxımdan fayda gətirən bir layihədir.

Bildiyiniz kimi, regionda və eyni zamanda Avropa ölkələrində qazla bağlı müəyyən problemlər yaranmışdı. Biz bu sahədə də çox böyük təchizatçıya çevrilə bilərik. Azərbaycan 1 trilyon kubmetrə yaxın ehtiyatı olan yataqlardan hasil ediləcək qazı dünya bazarlarına çıxarmaq iqtidarında olacaqdır. Bu da regionda qaz boru kəməri məsələsini vacib edir. Enerji, təhlükəsizlik, nəqliyyat, regional əməkdaşlıq məsələləri - bütün bunlar, Azərbaycanın iştirak etdiyi sahələrdir və Azərbaycan bu baxımdan mühüm, hətta müəyyən hallarda təşəbbüsü irəli sürən ölkədir. Bu sahələrdəki fəaliyyətimiz onu göstərir ki, işlərimiz və son nəticələr uğurlu olacaqdır. Bu, ölkəmizin daha da yaxşı tanınmasına, ölkəmizin iqtisadi inkişafına və regionda siyasi sabitliyin bərqərar olunmasına xidmət edir.

Biz hansı istiqamətdə addımlayırıq, gələcəkdə ölkəmizi necə görmək istəyirik? Şübhəsiz ki, bizim bir çox planlarımız var. Biz ölkəmizi möhkəmləndirməliyik, onun iqtisadiyyatını gücləndirməliyik. Bunun üçün bütün imkanlar var, təbii sərvətlərimiz var. Biz bunu dünya bazarlarına çıxara bilərik. Azərbaycan artıq xeyli maliyyə resurslarına malikdir. Ölkəmizin bir çox böyük problemlərini həll edə bildik. Eyni zamanda, təhlükəsizlik və sabitlik üçün çox vacib rol oynayırıq, dünyada bir sıra sülhyaratma əməliyyatlarında iştirak edirik. Biz terrorizmə qarşı mübarizədə fəalıq. Regionda təhlükəsizlik məsələlərində yaxından iştirak edirik.

Siyasi münasibətlərə gəldikdə, Azərbaycanın əhəmiyyəti get-gedə daha da artacaqdır. Artıq qeyd etdiyim kimi, bizim yaxşı münasibətlərimiz var. Biz beynəlxalq təşkilatlarda yaxşı mövqelərə malikik. Avropa təşkilatlarında, regional təşkilatlarda, müsəlman dünyasının təşkilatlarında özümüzə məxsus yerimiz var, biz tanınırıq, bizə etimad göstərilir və hörmət edilir.

Gələcəkdə, eyni zamanda, dini dözümlülük baxımından da ölkənin əhəmiyyəti artacaqdır. Çünki Azərbaycan elə bir ölkədir ki, burada bütün dinlərin nümayəndələri sülh şəraitində yaşayırlar. Biz sivilizasiyaların dialoqu haqqında da danışa bilərik. Çünki bəzi hallarda dini zəmində təxribatlar da törədilir. Lakin Azərbaycan dini dözümlülük, etnik dözümlülük baxımından yaxşı nümunədir. Azərbaycan çoxmillətli ölkədir, burada bütün millətlərin nümayəndələri sülh şəraitində yaşayırlar. Bu, beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığımızın da yaxşı bir elementidir.

Siz bilirsiniz ki, biz sosial inkişaf baxımından nəyi planlaşdırırıq. Çox müasir, təfərrüatlı sosial-iqtisadi inkişaf proqramları tərtib edirik, infrastrukturun inkişafını planlaşdırırıq. Biz proqramları çox dəqiq formada həyata keçiririk. Hər bir proqramın özünün məzmunu, cədvəli var və heç bir yubanma olmadan həyata keçirilir. Dediyim kimi, ötən il ümumi daxili məhsulun artımı 26 faizdən çox, sənaye istehsalının artımı 33 faiz olmuş, əhalinin gəlirləri 27 faiz səviyyəsində artmışdır. Orta aylıq əmək haqqının səviyyəsi yüksəlmişdir. Bütün bunlar yaxşı nəticələrdir və real şəkildə təsirini göstərir. Əgər hər hansı bir işə başlayırıqsa, buna müəyyən müddət lazımdır. Bu, proqramın, işin miqyasından asılıdır. Ona görə vaxt artıq yetişib ki, biz iqtisadi siyasətimizin, siyasi baxışlarımızın faydasını görək. Azərbaycan buna nail olubdur.

Əgər biz gələcəyə baxsaq görərik ki, Azərbaycan beynəlxalq birliyə tam inteqrasiya

olunubdur. Azərbaycan demokratik ölkədir, bütün azadlıqlar təmin edilibdir. Ölkəmiz siyasi, iqtisadi cəhətdən güclüdür. Biz regional işlərdə - həm iqtisadi əməkdaşlıq baxımından, həm təhlükəsizlik baxımından, həm də sosial sahədə güclüyük. Ölkə dostları ilə özünün səmərəli əməkdaşlığını davam etdirmək istəyir.

Mən bir daha bildirmək istəyirəm ki, Yaponiya ilə Azərbaycan arasındakı münasibətlərin çox yaxşı tarixi vardır. Artıq bildirdiyim kimi, Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra, xüsusən də son on il ərzində biz çox yaxşı, geniş münasibətlər qura bilmişik. Siyasi münasibətlərimiz çox yüksək səviyyədədir. İqtisadi əlaqələrimiz də güclənir. Yaponiya Azərbaycana kreditlər ayıran ölkədir. 700 milyon dollar səviyyəsində kredit ayırmışdır. 70 milyon dollar səviyyəsində qrantlar ayırmışdır. Yaponiya Azərbaycanda ən böyük sərmayədarlardan biridir. Yapon şirkətləri Azərbaycanın müxtəlif sektorlarında işləyir.

Bu gün səhər Azərbaycan-Yaponiya iqtisadi forumunda iştirak etdik. Orada hər iki ölkənin biznes dairələri mövcud olan yeni imkanları araşdırdılar. Gördülər ki, bütün sahələrdə işlər artmaqdadır. Hər bir sahə inkişaf mərhələsindədir. Ona görə də gələcək əməkdaşlıq üçün çox yaxşı imkanlar var. Bizim üçün çox yaxşı olardı ki, Yaponiya şirkətləri ilə sıx əməkdaşlıq edək. Çünki biz bir-birimizi tanıyırıq, bir-birimizə etimad göstəririk. Eyni zamanda bildirmək istəyirəm ki, dünyanın bir çox yerlərindən şirkətlər Azərbaycana gəlib fəaliyyət göstərirlər. Deyə bilərik ki, Yaponiya şirkətləri də gəlib cəmiyyətimizə çox yaxşı qovuşmuşlar və çox yaxşı mövqelərə malikdirlər. Bizim aramızda, yaponlar və azərbaycanlılar arasında çox yaxşı anlaşma var. Bizim zəngin adət-ənənələrimiz var. Hər iki xalq yaşlı nəslə hörmətlə yanaşır. Bizim bir-birimizə qarşı səmimi hisslərimiz var. Bu da özlüyündə bizi bir-birimizə daha da yaxınlaşdırır. Ümid edirəm ki, mənim səfərim, keçirdiyim görüşlər, apardığım müzakirələr gələcək əməkdaşlığa xidmət edəcəkdir. Azərbaycan Yaponiyanın etibarlı dostu olacaq və biz gələcəkdə hər iki ölkənin xalqı üçün çalışacağıq.

Çox sağ olun.

[redacted]

YUKİO YATO: Mühazirə başa çatdı, indi suallarınızı verə bilərsiniz. Xahiş edirik, sualınızı verməzdən əvvəl özünüzü təqdim edin.

OSAKA KENCİ: Mənim adım Osaka Kencidir. İndi hörmətli Prezidentin nitqini dinlədim. Çox dərin mənalı nitq idi. Cənab Prezident, Sizin fəaliyyətiniz haqqında məlumatımız var. Biz bilirik ki, Siz dünyada sülhün bərqərar olunması yolunda fəaliyyət göstərirsiniz. Bundan başqa, biz bilirik ki, ölkənin, xalqın lideri kimi iki il bundan əvvəl Prezident seçilmisiniz. Ölkənin mövcud olan problemlərinin tam aradan qaldırılması üçün yorulmaz fəaliyyət göstərirsiniz. Ölkə daxilindəki hər hansı çətinliklərin həlli üçün öz gücünüzü əsirgəmirsiniz. Bilirik ki, fəaliyyətinizin çox hissəsini məhz Azərbaycan xalqının rifahının daha da yaxşılaşmasına yönəldirsiniz. Biz bilirik ki, bu, o qədər də asan iş deyildir. Onu da bilirik ki, Yaponiyanın korporasiyaları və şirkətləri ölkənizdə fəaliyyət göstərir. Bu haqda məlumatımız var. Azərbaycan ilə Yaponiya arasındakı əlaqələrin daha da yaxşılaşdırılmasına dair fikirlərinizi eşitməkdən çox məmnunuq.

Səkkiz il bundan əvvəl Yaponiyada keçirilmiş Olimpiya oyunları zamanı mən Sizin atanız Prezident Heydər Əliyevlə görüşməyə nail oldum. O vaxt Prezident mənə Azərbaycanın mədəniyyəti, Azərbaycanla Yaponiya arasındakı oxşarlıqlar haqqında danışdı. Mən də Azərbaycan-Yaponiya əlaqələrinin daha da inkişafını dəstəkləyirəm.

SUAL: Mənim adım Araitodur. Biz bilirik ki, Azərbaycan öz potensialı, gücü və təbii sərvətləri hesabına dövlətçiliyin möhkəmlənməsi sahəsində böyük nailiyyətlər əldə edə bilmişdir. Eyni zamanda, biz bilirik ki, Azərbaycan hazırda çox nəhəng enerji layihəsinin başa çatdırılması ərəfəsindədir. Bilirik ki, dünyada ən uzun hesab olunan boru kəməri çəkilməkdədir. Bu boru kəməri Azərbaycanın yataqlarından hasil olunan enerji daşıyıcılarını dünya bazarlarına çıxaracaqdır. Bu, Azərbaycanın uğurunun, əldə etdiyi nailiyyətlərin bariz nümunəsidir.

Müstəqilliyini bərpa etdikdən sonra Azərbaycan dövlətçilik yolunda böyük uğurlar əldə etmişdir. Amma bizi narahat edən digər bir məsələ də var ki, 1988-ci ildən 1994-cü ilə qədər Azərbaycan olduqca böyük problemlərlə üzləşmişdir. Hazırda Azərbaycan torpaqlarının 20 faizi Ermənistanın işğalı altındadır. Bu problem danışıqlar yolu ilə həll olunmalıdır. Mənim sualım ondan ibarətdir ki, əgər bu məsələ sülh yolu ilə öz həllini tapmasa, cənab Prezident, Siz bunun üçün digər yeni bir strategiya seçə bilərsinizmi?

İLHAM ƏLİYEV: Sizin sualınızın birinci hissəsinə gəldikdə, onu demək istəyirəm ki, boru kəmərlərinin tikintisində bizim əsas məqsədimiz hansısa ölkənin ərazisindən kənar keçməkdən ibarət deyildi. Bizim əsas məqsədimiz öz neftimizi dünya bazarlarına çıxarmaqdan ibarət idi. Əvvəl bizim iki boru kəmərimiz var idi. Onların hər ikisi Qara dənizə gedirdi. Biri Rusiyanın ərazisindən, digəri isə Gürcüstan ərazisindən keçir. İstədiyimiz qədər nefti ixrac etmək məqsədi ilə biz üçüncü boru kəmərinin tikintisinə qərar verdik ki, bu da Aralıq dənizinə çıxışı təmin edir. Bu, bizim üçün çox vacib olan bir layihədir.

Mən bilirəm, mətbuatda bəzi müəyyən məqalələr yazılır, məlumatlar gedir, bu məsələyə daha çox siyasi məna verməyə çalışırlar. Yox, biz bu məsələni siyasiləşdirmək istəmirik. Bu, bizim üçün iqtisadi layihədir, kommersiya xarakteri daşıyan layihədir, xarici şirkətlər bu layihəyə milyardlarla dollar qoyublar. Azərbaycanın özü sərmayə kimi təqribən 1 milyard dollar qoyubdur. Bu layihə Azərbaycan xalqına xidmət edəcək və sərmayədarlar da bunun bəhrəsini görəcəklər. Eyni zamanda, artıq dediyim kimi, bu, bizim üçün çox böyük bir məsələ idi. Çünki bu, dünyada nadir bir layihədir ki, özünə milyardlarla dollar cəlb edib, üç ölkəni və iki dənizi birləşdirən transmilli layihədir. Mühüm geosiyasi məkandan, müxtəlif coğrafi ərazilərdən keçir. Bu, tarixi bir hadisədir.

O ki qaldı Dağlıq Qarabağ məsələsinə, mən artıq qeyd etdiyim kimi, danışıqlar daim davam edə bilməz. Bunun sonu olmalıdır. Bu günə qədər mərhələlər və elə dövrlər olmuşdur ki, müxtəlif seçimlər masa üzərində idi. Əgər biz danışıqların tarixçəsinə nəzər salsaq görərik ki, 1994-cü ildə atəşkəs əldə olunandan sonra danışıqlar təqribən iki-üç il aparıldı. Bundan sonra Ermənistanın rəhbərliyi reallığı başa düşdü. Keçmiş illərin reallığını və günün reallığını anladı.

Sonra Ermənistanın keçmiş Prezidenti bir bəyanatla çıxış etdi və məqalə yazdı ki, biz vəziyyəti anlamalıyıq. Biz bunun başa çatdırılmasının, yəni işğala son qoyulmasının vacibliyini başa düşməliyik. Bu, Ermənistan xalqının maraqlarına da uyğun idi. Lakin millətçi qruplar Ermənistanda dövlət çevrilişi etdilər və Prezidenti devirdilər.

Sonra 1999-cü ildə hər iki tərəf müəyyən bir paket üzərində işləyirdi və elə görünürdü ki, biz artıq həll mərhələsinə yaxınlaşırıq. Sonra isə Ermənistan parlamentində terror aktı törədildi, Ermənistanın spikeri, baş naziri və parlamentin digər üzvləri qətlə yetirildi. Bu da Ermənistan parlamentində terror aktı idi. Daha sonra, əgər belə demək olarsa, bu, Ermənistan tərəfinin istifadə etdiyi bir dəlil oldu ki, onlar danışıqları dayandırsınlar. Bir az vaxt keçdi.

İndi isə biz danışıqların yeni mərhələsindəyik. Praqa prosesi çərçivəsində biz münaqişənin mərhələli həllinə çalışırıq. Praqa prosesi Azərbaycan tərəfindən dəstəklənir, Praqa prosesi ATƏT-in Minsk qrupu tərəfindən dəstəklənir və bizə belə gəlirdi ki, Ermənistan da bunu dəstəkləyir. Belə olmasaydı, Ermənistan bu prosesdə iştirak etməzdi. Lakin, əgər belə demək olarsa, müəyyən bir mərhələyə yaxınlaşdıqca, fikirləşirdik ki, Praqa prosesi müəyyən nəticələr verər. Ancaq bundan sonra yeni bir şey baş verdi. Bu yaxınlarda Fransada keçirilmiş görüş Ermənistan tərəfindən tam heçə çıxarılmışdır. Yəni bu, bir daha nümayiş etdirir ki, bu ölkə ya beynəlxalq ictimaiyyəti aldatmaq, ya vaxt udmaq, yaxud məsələni yubatmaq və digər bir məsələyə nail olmaq istəyir. Bu, onların tamamilə qeyri-konstruktiv mövqeyini göstərdi. Əgər onlar sülh yolu ilə həll yolunu istəmirsə, biz bunu onlardan xahiş etməyəcəyik. Biz bunu xahiş etməli deyilik. Bu, bizim hüququmuzdur, bizim haqlı mövqeyimizdir. Bizim digər ölkəyə qarşı heç bir iddiamız yoxdur. Bizim torpağımız zəbt olunubdur. Əgər bu danışıqlar prosesi rəsmən başa çatdırılsa, ondan sonra biz öz addımlarımızı yenidən nəzərdən keçirməliyik. Biz bunu Azərbaycanda geniş ictimai səviyyədə müzakirə edəcəyik və qərar qəbul edəcəyik.

SUAL: Qafqazda ən çətin problemlərdən biri Dağlıq Qarabağ problemidir. Biz bilirik ki, hələ də bu problemlə yaşayan Azərbaycan bütün çətinliklərə baxmayaraq, iqtisadi tərəqqiyə doğru addımlayır və bu iqtisadi tərəqqiyə doğru Sizin rəhbərliyiniz altında gedir. Mən Sizinlə şəxsən görüşməyimə çox şadam.

Sualım iki hissədən ibarətdir. Birincisi, Azərbaycan hazırda dünyada İslam aləminin fəaliyyətinə necə yanaşır? İkincisi, Orta Asiya, eləcə də Qafqaz ölkələrində demokratiya hansı vəziyyətdədir və necə qurulur? Bu, əsas mövzulardan biridir. Bir tərəfdən iqtisadi inkişaf, digər tərəfdən, demokratik sistemin qurulması bir-biri ilə necə uzlaşır? Demokratiya ölkənizdə hansı formada bərqərar olubdur?

İLHAM ƏLİYEV: Mən öz çıxışımda qeyd etdim ki, Azərbaycanda bizim çox dözümlüyü ilə fərqlənən cəmiyyətimiz var. Bütün dinlərin nümayəndələri burada sülh şəraitində yaşayırlar. Dini və yaxud etnik zəmində burada heç bir problem olmamışdır. Bu, bir daha sübut edir ki, Ermənistanın Dağlıq Qarabağla bağlı təbliğatı, yəni bu münaqişənin guya dini və etnik zəmində olması barədə təbliğatı düzgün deyildir. Çünki Azərbaycanda müxtəlif dinlərin və etnik azlıqların nümayəndələri çox sülh şəraitində yaşayırlar. Ona görə də Azərbaycanda heç vaxt dini problemlər olmamışdır. İndi də Azərbaycanın siyasəti çox aydındır. Bu gün dünyanın müxtəlif yerlərində cərəyan edən, çox xoşagəlməz hadisələrin təsiri altına düşmək bizi olduqca narahat edir. Bu günə qədər bizdə heç vaxt belə bir şey olmamışdır və əminəm ki, olmayacaqdır. Çünki bu, bizim nəinki siyasətimiz, həm də gündəlik həyatımızdır. İslam aləminə aid olan ölkələrin daxilində müəyyən fərqlər var, bölünmələr var. Bu, yaxşı meyil deyildir. Azərbaycan bundan tam azaddır.

Mən qeyd etdim ki, bizim təcrübəmiz öyrənilə bilər. Biz təcrübəmizi bölüşə bilərik ki, bütün millətlərin, bütün dinlərin nümayəndələri bir ailədə necə yaşaya bilərlər. Biz ölkəmizdə heç vaxt heç kimi təqib etməmişik, heç vaxt öz iradəmizi məcburi qaydada digər etnik qruplara qəbul etdirməmişik.

Məsələn, bizdə rus icması var, rus dilində qəzetlər var, televiziya kanalları yayımlanır, məktəblər var. Azərbaycanda digər millətlərin nümayəndələri yaşayır və bizim heç vaxt problemimiz olmayıbdır. Etnik problemlər yalnız o vaxt özünü büruzə verir ki, siz təqib edirsiniz, təzyiq göstərirsiniz ki, öz iradənizi, ideyalarınızı digərlərinə tələqin edəsiniz. Əgər hər hansı bir şəxs qanunlara uyğun yaşayırsa, heç bir problem yoxdur. Ona görə yaxşıdır ki, bizdə belə bir problem yoxdur və əminəm ki, olmayacaqdır.

Demokratikləşmə məsələsinə gəldikdə isə, bu da vacib bir məsələdir. Xüsusən də keçmişdə tamamilə fərqli bir sistemdə yaşamış ölkələrdən söhbət gedəndə. Biz - yaşlı nəsil və yaxud mənim həmyaşıdlarım tamamilə fərqli bir sosial mühitdə formalaşmışıq. İndi isə keçid prosesi gedir və özü də sürətlə gedir. Lakin bu, kiminsə məsləhəti və yaxud da kiminsə istəyi əsasında ola bilməz. Çünki bu proses təkamül, inkişaf yolu ilə getməlidir. Əgər cəmiyyətdə yoxsulluq varsa, demokratiyanın səviyyəsi heç vaxt zəngin şəraitdə yaşayan cəmiyyətdəki kimi ola bilməz. Yəni əgər xalq yoxsuldursa, onların sosial problemləri ciddidirsə, demokratiya onları düşündürən ən son məsələdir. Onlar iş haqqında, ərzaq haqqında, uşaqlarına necə çörək tapmaq haqqında fikirləşirlər və belə şəraitdə onlar azad ola bilmirlər. Ona görə də biz azad sahibkarlığın inkişafına yüksək diqqət yetiririk. Belə şəraitdə insan azad olur. Onlar özəl bizneslə məşğul olanda, dövlət qurumlarından asılı olmurlar. Beləliklə, onların həyatdakı davranışı da dəyişilir.

Eyni sözləri siyasi təsisatlara da aid etmək olar. Azərbaycanda biz istənilən Qərb ölkəsində mövcud olan siyasi təsisatlar kimi, bütün təsisatları yaratmışıq. Lakin bu, o demək deyil ki, Azərbaycanda demokratiyanın səviyyəsi həmin ölkələrdəki kimidir. Əlbəttə ki, yox. Bunun baş verməsini gözləmək tamamilə sadəlövhlük olardı. Əfsuslar olsun, müəyyən qərar qəbul edən dairələr, təsisatlar hesab edirlər ki, bu, çox asandır. Bu və ya digər yerdə gəlib demokratiyanı elan etmək, yaxud onu bayraqla, dəyənəklə gətirmək və demək ki, sabah siz demokrat olmalısınız, bu, tamamilə anormaldır, qəbuledilməzdir. Həyat göstərir ki, bu cür yanaşma, bu üsul işləmir. Demokratiyanın ixracı işləmir. Bu, təkamül, keçid prosesi olmalıdır. Əlbəttə ki, hökumət, tərəfdaşlar, beynəlxalq təşkilatlar, qeyri-hökumət təşkilatları fəal olmalıdırlar. Biz deyə bilmərik ki, müstəqilsiniz, gəncsiniz, elə belə də yaşayın. Yox, biz işləməliyik və cəmiyyətdəki reallıqdan çıxış etməliyik. Demokratiya kənardan gətirilirsə, ixrac olunursa və yaxud məcburən tətbiq edilirsə, bunun heç bir faydası olmur. Bu, sadəcə sosial, siyasi problemlərin yaranmasına, sabitliyin pozulmasına gətirib çıxarır, mənfi nəticələr doğurur.

Biz öz ölkəmizdə yaşayırıq, öz ölkəmizi tanıyırıq. Necə inkişaf etməyi, necə yaşamağı özümüz həll edirik. Ona görə demokratiya məsələsində çox diqqətli olmaq lazımdır. Buna avtomatik şəkildə, təkcə istək əsasında nail olmaq mümkün deyildir. Ona görə biz beynəlxalq təşkilatların üzvüyük, çox qabaqcıl qanunvericilik qəbul etmişik. Lakin, eyni zamanda, hər şey öz vaxtında olmalıdır. Cəmiyyət də insan orqanizmi kimi canlıdır. Yəni əgər siz su içmək istəyirsinizsə, içirsiniz. İçmək istəmirsinizsə, içməyirsiniz. Elə bir şey ola bilməz ki, kənardan kimsə gəlsin, bu suyu sizə məcburən içirtsin. Onda sizin prob-

lemləriniz olar. Ona görə biz rasional, praqmatik və düşünülmüş yanaşmanın tərəfdarıyıq. Hesab edirəm ki, bizim göstəricilər, siyasi sabitlik, real iqtisadi inkişaf, sosial proqramlar - bütün bunlar onu göstərir ki, bu yanaşma uğurludur.

YUKİO YATO: Suallar üçün vaxt başa çatdı. Bu, sonuncu sual idi. Ona görə də hörmətli qonaqlar, hörmətli iştirakçılar, sizin adınızdan mən cənab Prezidentə minnətdarlığımızı bildirirəm. Gəldiyinizə görə çox sağ olun.

Cənab Yukio Yato görüşdən xatirə olaraq, Prezident İlham Əliyevə institutun adından hədiyyə təqdim etdi.

Görüşdən sonra iştirakçılar Prezident İlham Əliyevə yaxınlaşaraq səmimi görüşüb söhbət etdilər, dərin məzmunlu mühazirəsinə görə təşəkkürlərini bildirdilər.

AZƏRBAYCAN PREZİDENTİNİN ŞƏRƏFİNƏ

Həmin gün, martın 8-də Tokionun "İmperial" mehmanxanasında Azərbaycan-Yaponiya hökumətlərarası komissiyası adından Azərbaycan Prezidenti İlham Əliyevin şərəfinə şam yeməyi təşkil edildi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV YAPONİYANIN XARİCİ İŞLƏR NAZİRİ TARO ASONU QƏBUL ETMİŞDİR

Azərbaycan Prezidenti İlham Əliyev martın 9-da Tokioda, onun üçün ayrılmış iqamətgahda Yaponiyanın xarici işlər naziri Taro Asonu qəbul etmişdir.

Dövlətimizin başçısını böyük ehtiramla salamlayan nazir Prezident İlham Əliyevin Yaponiyaya ilk rəsmi səfərini yüksək qiymətləndirdi və əmin olduğunu bildirdi ki, bu, ölkələrimiz arasında münasibətlərin daha sürətlə inkişaf etməsində mühüm rol oynayacaqdır. Azərbaycanın strateji cəhətdən çox mühüm ərazidə yerləşdiyini vurğulayan cənab Taro Aso ölkəmizlə əməkdaşlığın daha da genişləndirilməsinə Yaponiyanın xüsusi diqqət yetirdiyini söylədi. Xalqımızın ümummilli lideri Heydər Əliyevin 1998-ci ildə Yaponiyaya səfərini xatırladan nazir ölkələrimiz arasında əlaqələrin həmin dövrdən başlayaraq inkişaf etdiyini bildirdi və dedi ki, Prezident İlham Əliyevin indiki səfəri ikitərəfli əməkdaşlıqda yeni mərhələ açacaqdır. Yaponiya Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyir və bundan sonra da müxtəlif tədbirlərdə ölkənizi dəstəkləyəcəkdir.

Prezident İlham Əliyev Azərbaycan-Yaponiya əməkdaşlığının ardıcıl surətdə inkişaf etdirilməsi, qarşılıqlı münasibətlərin daha da yaxşılaşdırılması istiqamətində mühüm işlər görüldüyünü bildirdi və hər iki tərəfi maraqlandıran bir sıra məsələlər barədə fikir və mülahizələrini söylədi. Yaponiyaya bu səfərinin ikitərəfli münasibətlərin inkişafında yeni mərhələ açacağına əminliyini vurğulayan dövlətimizin başçısı keçirdiyi çoxsaylı görüşlərin qarşılıqlı surətdə faydalı əməkdaşlığın daha da genişləndirilməsi baxımından çox uğurlu olduğunu bildirdi.

Söhbət zamanı Xəzərin Azərbaycan sektorunda neft yataqlarının birgə işlənilməsində

Yaponiya şirkətlərinin yaxından iştirak etməsi və eləcə də bu ölkənin iş adamlarının digər layihələrə maraq göstərməsi və gələcəkdə Azərbaycana sərmayə qoymaq istəyən şirkətlərin fəaliyyəti üçün gözəl şəraitin yaradılacağı da vurğulandı.

Görüşdə ölkəmiz üçün ən ağrılı problem olan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi barədə də ətraflı söhbət getdi. Prezident İlham Əliyev bu sahədə hazırkı vəziyyət haqqında danışdı, münaqişənin həlli məsələsində ölkəmizin mövqeyini açıqladı.

PREZİDENT İLHAM ƏLİYEV YAPONİYA XARİCİ ƏLAQƏLƏR İNSTİTUTUNUN İDARƏEDİCİ DİREKTORU TOŞİYUKİ FUCİVARANI VƏ FSAS ŞİRKƏTİNİN NÜMAYƏNDƏLƏRİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Prezidenti İlham Əliyev martın 9-da, onun üçün ayrılmış iqamətgahda Yaponiya Xarici Əlaqələr İnstitutunun idarəedici direktoru, bu ölkənin Bakıdakı keçmiş səfiri Toşiyuki Fucivaranı və FSAS şirkətinin nümayəndələrini qəbul etmişdir.

Cənab Toşiyuki Fucivara dövlətimizin başçısı ilə yenidən görüşməyindən şərəf duyduğunu söylədi. O, Prezident İlham Əliyevin Beynəlxalq Əlaqələr İnstitutundakı mühazirəsinin böyük məmnunluqla qarşılandığını bildirərək dedi ki, biz onun əhəmiyyətini nəzərə alaraq, yapon dilinə tərcümə etmişik. Mühazirənizin mətni artıq internetdə yerləşdirilib ki, bütün xalqımız Azərbaycan haqqında əsil həqiqətlər barədə dolğun məlumat əldə edə bilsin.

Prezident İlham Əliyev xoş sözlərə görə cənab Fucivaraya təşəkkür etdi və keçmiş səfir kimi onun Azərbaycanla bağlı fəaliyyətini yüksək qiymətləndirdi.

Toşiyuki Fucivara FSAS şirkətinin nümayəndələrini dövlətimizin başçısına təqdim edərək dedi ki, bu şirkətin fəaliyyəti, əsasən, kompyuter texnologiyaları ilə bağlıdır və beş min işçisi vardır. Əməkdaşlardan iki nəfəri azərbaycanlıdır və onlar da Sizi görməkdən məmnundurlar. Bu iki gənc Bakı Dövlət Universitetinin məzunlarıdır və xüsusi seçim əsasında işə qəbul olunmuşlar. Yapon dilini də yaxşı öyrənmişlər.

Azərbaycan Prezidenti şirkətin fəaliyyətini yüksək qiymətləndirdi və yeni uğurlar arzuladı.

YAPONİYA XARİCİ TİCARƏT TƏŞKİLATININ SƏDRİ OSAMU VATANABE İLƏ GÖRÜŞ

Azərbaycan Prezidenti İlham Əliyev martın 9-da Tokioda, onun üçün ayrılmış iqamətgahda Yaponiya Xarici Ticarət Təşkilatının (JETRO) sədri Osamu Vatanabeni qəbul etmişdir.

Dövlətimizin başçısını Yaponiyada görməkdən böyük şərəf duyduğunu bildirən cənab Osamu Vatanabe Tokioda Azərbaycan-Yaponiya iqtisadi forumunun keçirilməsini yüksək qiymətləndirdi, Prezident İlham Əliyevi martın 8-də Beynəlxalq Münasibətlər İnstitutundakı çıxışı münasibətilə təbrik etdi.

JETRO-nun sədri sonra rəhbərlik etdiyi təşkilatın tarixi barədə məlumat verdi. O xatırlatdı ki, Azərbaycan müstəqillik əldə etdikdən sonra ölkələrimiz arasında birbaşa əlaqə-

lər yaranmışdır və inkişaf edir. İlham Əliyevin prezident seçilməsindən sonra həyata keçirilən islahatlar Azərbaycanın daha sürətlə inkişafına imkan yaratmışdır.

Osamu Vatanabe 2001-ci ildə JETRO-nun xətti ilə Azərbaycanda və digər Qafqaz ölkələrində keçirilən sərgilərin böyük rəğbətlə qarşılandığını bildirdi. O dedi ki, 1958-ci ildə yaradılmış JETRO qeyri-kommersiya təşkilatıdır və hökumətin himayəsi altında fəaliyyət göstərir. Onun əsas vəzifəsi beynəlxalq ticarətin sürətli inkişafına nail olunması üçün xarici ölkələrlə əlaqələri möhkəmləndirməkdir.

Prezident İlham Əliyev JETRO-nun fəaliyyətindən xəbərdar olduğunu bildirdi və bu təşkilatla əməkdaşlığın Azərbaycan-Yaponiya əlaqələrinin inkişaf etdirilməsi üçün yeni imkanların açа biləcəyini vurğuladı.

Dövlətimizin başçısı Azərbaycanın potensial iqtisadi imkanları haqqında da danışdı və Yaponiya şirkətlərinin ölkəmizdə bir çox layihələrdə iştirak etdiklərini xatırlatdı. Prezident İlham Əliyev beynəlxalq ticarətin inkişafı üçün tranzit yolların əhəmiyyətini vurğulayaraq, Böyük İpək yolunun bərpasına da toxundu, Azərbaycanın bu beynəlxalq layihəyə üstünlük verdiyini bildirdi və bununla əlaqədar Bakıda vaxtilə beynəlxalq konfrans da keçirildiyini xatırlatdı.

PREZİDENT İLHAM ƏLİYEV YAPONİYA TELEVİZİYASINA MÜSAHİBƏ VERMİŞDİR

Azərbaycan Prezidenti İlham Əliyev martın 9-da Tokioda, onun üçün ayrılmış iqamətgahda - Yaponiya Radioteleviziya Korporasiyasının (NHK) müxbirinə müsahibə vermişdir.

- Cənab Prezident, ilk sualım enerji ilə bağlıdır. İxrac neftinin Bakıdan Ceyhan limanına Bakı-Tbilisi-Ceyhan boru kəməri ilə nəqli bir neçə aydan sonra mümkün olacaqdır. Bu əməliyyatın başlanılmasını Siz necə qiymətləndirirsiniz?

- Bu, təbii ki, çox mühüm beynəlxalq hadisəyə çevriləcəkdir. Çünki Bakı-Tbilisi-Ceyhan boru kəməri iki dənizi və üç ölkəni birləşdirən transmilli çoxmilyardlıq layihədir. Bu, nəhəng və hazırda dünyada ən böyük enerji layihəsidir. Boru kəmərinin tikintisi başa çatdıqdan sonra Azərbaycan gündə ən azı bir milyon barrel nefti dünya bazarlarına ixrac etmək iqtidarında olacaqdır. Gələcəkdə, bəlkə bundan da çox olacaqdır. Əlbəttə ki, bu nailiyyət iqtisadiyyatımızı gücləndirəcək və Azərbaycanın beynəlxalq və regional səviyyədə əhəmiyyətini artıracaqdır. Nəhayət, regionda sülhə və təzlükəsizliyə xidmət edəcəkdir.

- Nəinki Sizin ölkəniz Azərbaycan, eləcə də digər ölkələr, misal üçün, Qazaxıstan neft və təbii qazın hasilat həcmini artırmaqdadır. Siz milli enerji strategiyasını necə təsvir edərdiniz?

- Bizim strategiyamız əsasən milli maraqlarımızın qorunmasına yönəlibdir. Təbii ki, hasilat həcminin artırılması, dünyanın əsas xarici şirkətləri ilə qurulmuş çox səmərəli əməkdaşlıq və eyni zamanda, beynəlxalq və regional sahədə Azərbaycanın mövqeyinin möhkəmləndirilməsi həmin strategiyanın bir hissəsidir. Zəngin təbii sərvətləri, əlverişli coğrafi mövqeyi ilə, artıq mövcud olan çox güclü və müasir nəqliyyat infrastrukturu

vasitəsilə Azərbaycan regionda aparıcı ölkəyə çevrilir. Biz yaxın zamanda Avropaya təbii qaz nəql edəcəyik. Eyni zamanda Xəzər dənizindən nefti Aralıq dənizinə çatdıracaq boru kəmərimiz olacaqdır. Bu, Xəzəryanı dövlətlərin tarixində ilk belə hadisə olacaqdır. Əlbəttə ki, gələcəkdə digər ölkələr həmin boru kəmərinə qoşula bilər. Onlar bizim sistem vasitəsilə özlərinin hasilatı artan enerji daşıyıcılarını nəql edə bilər. Azərbaycan isə bundan həm siyasi, həm də iqtisadi baxımdan yalnız bəhrələnəcəkdir.

- Geosiyasi məntiqlə danışsaq, hazırda Azərbaycanın Rusiya ilə münasibətlərinin olduqca böyük əhəmiyyəti var. Bir sıra təhlilçilər hesab edirlər ki, Bakı-Tbilisi-Ceyhan boru kəməri Rusiya ərazisindən kənar keçmək məqsədini daşıyır. Yəni belə çıxır ki, Azərbaycan bu cür geosiyasi əhəmiyyət daşıyan boru kəmərinin Rusiyadan keçməsini arzu etmir. Siz belə analitik qiymətə necə yanaşırsınız?

- İlk növbədə, onu deyim ki, bizim bütün qonşu ölkələrlə çox yaxşı münasibətlərimiz var. Hesab edirəm ki, bu amil regionun sabit inkişafı üçün, o cümlədən regionda dostluq və əməkdaşlıq naminə olduqca vacibdir. Azərbaycanın qonşu ölkələrlə əməkdaşlığının genişləndirilməsi üçün öz işimizi davam etdiririk.

Bakı-Tbilisi-Ceyhan boru kəmərinə gəldikdə isə, burada reallıqdan uzaq çoxlu spekulyativ, şayiələr və fərziyyələr yayılmışdır. Bizim məqsədimiz kəmərin hansısa ölkənin ərazisindən kənar keçməsindən ibarət olmamışdır. Siz artıq bilirsiniz ki, bu gün neftimizi Qara dənizə Rusiya vasitəsilə nəql edən boru kəməri mövcuddur. Digər marşrutla biz nefti Qara dənizə Gürcüstan vasitəsilə çıxarırıq. Bizim üçün əsas məqsəd Aralıq dənizinə çıxışı təmin etməkdən ibarət olmuşdur. Bu, dünya bazarına çıxış deməkdir və Aralıq dənizinə aparan yol Gürcüstan və Türkiyədən keçir. Buna görə də biz Bakı-Tbilisi-Ceyhan boru kəmərinin çəkilməsi üzərində işləyərkən, heç bir siyasi məqsəd güdmürdük. Məqsədimiz güclü buraxıcılıq qabiliyyətinə malik üçüncü boru kəmərinin tikilməsindən ibarət idi. Bu kəmərdən istifadə edərək, biz nə qədər istəsək neft hasil edəcəyik və istədiyimiz qədər də nəql edəcəyik. Çünki Azərbaycan gələn iki-üç il ərzində gündə bir milyon barreldən çox neft hasil edə biləcəkdir. Qara dənizə çıxan mövcud iki boru kəmərinin belə imkanları yoxdur. Bu, birincisi.

İkincisi, həmin kəmərlər beynəlxalq bazara çıxışı təmin etmir. Bazar Qara dəniz regionu ilə məhdudlaşır. Eyni zamanda, bildiyiniz kimi, Bosfor boğazı məsələsi var. Bu, çox ciddi məsələdir. Ona görə də Bakı-Tbilisi-Ceyhan boru kəməri bizim üçün kommersiya və iqtisadi xarakter daşıyan layihədir. Aydındır ki, müəyyən qüvvələr həmin layihəyə siyasi məna verməyə çalışırlar. Lakin mən hesab etmirəm ki, bu mövqe düzdür.

- Siz Putinin rəhbərlik etdiyi Rusiya ilə konstruktiv münasibətləri necə qurmusunuz?

- Bizim çox yaxşı münasibətlərimiz var. Mən Prezident Putin ilə dəfələrlə görüşmüşəm. O, bu yaxınlarda Azərbaycana səfər etmişdir və onunla çox uzun və səmərəli müzakirələrimiz oldu. Biz keçmişdə mövcud olmuş və öz həllini gözləyən bütün məsələləri aradan qaldıra bilmişik. İndi Azərbaycan ilə Rusiya arasında həll olunmamış heç bir məsələ yoxdur. Biz yaxşı qonşuluq edirik. Son iki il ərzində ticarət dövriyyəsini iki dəfə artırıb. Biz yaxşı qonşuluq edirik. Son iki il ərzində ticarət dövriyyəsini iki dəfə artırıb yoxdur

- Birləşmiş Ştatlara gəldikdə, bəzən deyilir ki, bu ölkə Azərbaycanda hərbi bazalar yaratmağa hazırlaşır. Eyni zamanda, biz Sizin rəsmi mövqeyinizlə tanışıq ki, ərazinizdə heç bir Amerika hərbi bazasının yaranmasını istəmirsiniz. Siz Birləşmiş Ştatlarla münasibətlərinizi necə qurursunuz? Biz bilirik ki, ABŞ strateji baxımdan mühüm olan bu regiona böyük maraq göstərir?

- Bizim ABŞ-la uzun müddətdir gözəl münasibətlərimiz var. Müstəqilliyimizi qazandıqdan bəri həmin münasibətlər get-gedə daha çox sahələri əhatə edir. Misal üçün sizə deyə bilərəm ki, Bakı-Tbilisi-Ceyhan boru kəmərinin çəkilməsində ABŞ hökumətinin oynadığı rol çox mühüm idi. Bildiyiniz kimi, Bakı-Tbilisi-Ceyhan boru kəməri beynəlxalq maliyyə təsisatlarının ayırdığı kreditlər hesabına tikilmişdir. Layihənin 70 faizi kredit hesabına, qalan 30 faizi isə payçıların vəsaiti hesabına həyata keçirilmişdir. Ona görə də Birləşmiş Ştatların siyasi və əməli dəstəyi bizim enerji layihələrimiz üçün həlledici olmuşdur.

Eyni zamanda, biz müxtəlif iqtisadi sahələrdə də əməkdaşlıq edirik. Terrorizmə qarşı əməliyyatlarda da çox yaxşı əməkdaşlıq aparırıq. Bildiyiniz kimi, Azərbaycan antiterror koalisiyasının üzvüdür və bizim əsgərlər Amerika qoşunları ilə birgə dünyanın müxtəlif yerlərində sülhməramlı əməliyyatların həyata keçirilməsində iştirak edirlər. Bir sözlə, əlaqələrimizin çox möhkəm bünövrəsi var və biz bundan çox məmnunuq.

O ki qaldı, xarici hərbi bazalar məsələsinə, bildiyiniz kimi, biz dəfələrlə tamamilə aydın şəkildə bəyan etmişik və Amerika rəsmiləri də bildiriblər ki, bu məsələni müzakirə etmirik. Buna ehtiyac yoxdur. Azərbaycanda heç bir ölkənin hərbi qüvvəsi yoxdur.

- Azərbaycanın Qərb ilə Şərq arasında yerləşməsini, bir tərəfdən Birləşmiş Ştatlar və Avropa ölkələrinin, digər tərəfdən isə Rusiyanın olmasını nəzərə alsaq, bu vəziyyətdə Siz tarazlığı necə qoruyub saxlayırsınız və Azərbaycanın beynəlxalq aləmdə mövqeyini necə görürsünüz?

- Bilirsiniz, mən tamamilə əminəm ki, ölkənin və xalqın maraqlarını tam əks etdirən uğurlu siyasəti həyata keçirmək üçün aparılan siyasətin özü düzgün olmalıdır. Çox səmimi, açıq və ürəkli olmaq lazımdır. Biz ikitərəfli münasibətlərimizə aid olan hər hansı çox ciddi məsələni bir çox ölkələrlə müzakirə etməkdən çəkinmirik. Ona görə də bu baxımdan spekulyasiya üçün yer yoxdur. Eyni zamanda, digər vacib məsələ var və Azərbaycan buna çox sadiqdir. Həmin məsələ müstəqil siyasətin aparılmasından ibarətdir. Azərbaycan müstəqil ölkədir və hər hansı qarşıdurma üçün yer deyildir. Bu baxımdan, mənim apardığım siyasət olduqca açıq siyasətdir. Mən tərəfdaşlarımızı və dostlarımızı bizimlə əməkdaşlıq etmək, işbirliyi qurmaq məqsədi ilə Azərbaycana dəvət edirəm. Biz qarşıdurmadan uzaq olmalıyıq. Fikrimcə, ölkənin uğurlu inkişafı da məhz bu mövqeyə əsaslanır. Çünki bizim müxtəlif hallarda bir-biri ilə qarşıdurmada olan ölkələrlə çox düzgün, açıq və səmimi münasibətlərimiz var.

- Birləşmiş Ştatlarla Rusiya arasındakı əlaqələr son bir-iki il ərzində o qədər də rəvan deyildir. Siz bu iki ölkə arasındakı münasibətləri necə təhlil edirsiniz?

- Siyasətimizin mühüm elementlərindən biri də ondan ibarətdir ki, biz digər ölkələrin daxili işlərinə qarışmırıq. Eyni zamanda, biz hər hansı qüvvənin bizim işlərimizə müdaxilə etməsini görəndə və ya hiss edəndə, buna çox həssas yanaşırıq. Bu səbəbə görə də

həmin məsələ siyasətimizin mühüm meyarlarından biridir. Biz digər ölkələr arasındakı əlaqələrə müdaxilə etməyə yox, onlarla yaxşı münasibətlərdə olmağa, əməkdaşlıq etməyə çalışırıq. ABŞ-la Rusiya arasında olan münasibətlər onların hökumətlərinin və xalqlarının işidir. Biz əməkdaşlıq məsələsinə öz töhfəmizi vermək istəyirik.

Mən sizə deyə bilərəm, Azərbaycan regionda nadir ölkələrdən biridir ki, orada həmin iki ölkədən olan şirkətlər çox sıx və uğurlu əməkdaşlıq edirlər. Əgər biz bu əməkdaşlığa töhfə verə bilsək, bundan çox şad olardıq. Zənnimcə, ən yaxşı iş məhz əməkdaşlıq yollarının tapılmasıdır. Diqqəti mübahisələrə yönəltməkdənsə, yaxşı olardı ki, əməkdaşlıq naminə işləyək.

- Siz regionunuzda sabitliyin bərqərar olunmasındakı rolunuzu necə görürsünüz? Sabitlik üçün hansı işləri görə bilərsiniz?

- Sabitliyin yaradılmasında vacib olan elementlər əməkdaşlıq və iqtisadi təkanlardır. Çünki regionda və ümumən, dünyada bir çox problemlər yoxsulluq, işsizlik, ağır iqtisadi vəziyyət və sərvətlərin qeyri-düzgün bölüşdürülməsi ilə bağlıdır. Ona görə də əminəm ki, real xeyir gətirən iqtisadi inkişaf, uğurlu əməkdaşlıq sabitlik və sülhə yaxşı töhfə verə bilər. Əgər biz Azərbaycanın öz sərvətlərinin ixracçısı və tranzit ölkə kimi rolunu götürsək görərik ki, bu rol tərəfdaşlarımızın iqtisadiyyatının möhkəmlənməsinə xidmət edir.

Məsələn, bizimlə əməkdaşlıq edən ölkələr sərfəli qiymətlə enerji daşıyıcılarını ala biləcək və Xəzərin şərq hissəsində yerləşən ölkələri götürsək, onlar beynəlxalq bazarlara çıxış əldə edəcək, bizim ərazimizlə malların daşınmasına nail olacaqlar. Əgər siz Şərq-Qərb kommunikasiyalarını, İpək yolunu nəzərdə tutursunuzsa, Azərbaycandan yan keçə bilməzsiniz. Şərq-Qərb nəqliyyat dəhlizini götürsək, burada da Azərbaycanın öz yeri var və heç kim bizdən yan keçə bilməz.

Bir sözlə, bura strateji yerdir, önəmli coğrafi mövqeyi, yaxşı resursları və nəqliyyat xətti var. Bizim yaxşı və bərabər tərəfdaş olmağa hazırlığımızı da nəzərə alsaq, bütün bunlar sabitliyə əlavə dəstək verə bilər.

- İranda çoxlu azərbaycanlı yaşayır. Hazırda isə İran nüvə məsələsinin əsas səbəbkarına çevrilmişdir. Bu məsələnin həllində Siz hansı rol oynaya bilərsiniz? Sizin fikrinizcə, nizamlanma üçün nə isə edə bilərsinizmi?

- Bilirsiniz, mən bir daha təkrar etmək istəyirəm, biz müxtəlif ölkələrə öz iradəmizi qəbul etdirmək və ya hər hansı nizamlanmada xidmətimizi təklif etmək fikrində deyilik. Bu, bizim işimiz deyildir. Əgər müxtəlif ölkələr arasında daha yaxşı anlaşmanın qurulmasında Azərbaycanın iştirakına ehtiyac duyularsa, biz bunu etməyə hazırıq. Mən hesab edirəm ki, Azərbaycan prinsip etibarilə bu sahədə rol oynaya bilər. Çünki mən əvvəldə qeyd etdiyim kimi və sizin də dediyiniz kimi, bizim bütün qonşularımızla, o cümlədən tərəfdaşlarımızla yaxşı əlaqələrimiz var. Bizim müxtəlif beynəlxalq təşkilatlarda, Avropa və İslam dünyasına aid qurumlarda yaxşı mövqelərimiz var. Ona görə də töhfə verməyə hazır və əməkdaşlığa açıq olan ölkə kimi Azərbaycan, əgər lazım gələrsə, öz rolunu oynaya bilər. Əgər bizdən xahiş etsələr və ya bizə müraciət etsələr, müəyyən işi görə bilərik. Lakin öz təşəbbüsümüzlə çıxış etmək, zənnimcə, bu, münasib ideya deyildir.

- Son zamanlar biz keçmiş sovet respublikalarında böyük siyasi dəyişikliklərin şahidi ol-

duq. Ukraynada "narıncı inqilab" baş verdi. Mərkəzi Asiya ölkələrində hadisələr oldu. Azərbaycan da keçmiş sovet respublikası olduğundan, Siz bu cür siyasi fenomeni, yəni inqilabları necə qiymətləndirirsiniz?

- Hər bir ölkənin özünün yolu, keçmişi və gələcəyi var. Sovet İttifaqı dağıldıqda hər bir keçmiş sovet respublikasının eyni şansları və imkanları var idi. Lakin bir neçə ölkə uğura nail oldu, digərləri yox. Azərbaycana gəldikdə isə, biz görürük ki, müstəqillik qazandıqdan sonra ölkəmiz bütün sahələrdə çox böyük nailiyyətlər əldə etmişdir. Həm siyasi sahədə, həm də iqtisadi inkişaf sahəsində irəliləyiş müşahidə olunmuşdur. Hazırda bizim iqtisadiyyatımız dünyada ən sürətlə inkişaf edən iqtisadiyyatdır. Ötən il ərzində ölkəmizdə ÜDM-in artımı 26 faizdən çox olmuş, sənaye istehsalı 33 faiz, əhalinin gəlirləri 27 faiz artmışdır. Bütün bunlar uğurlu iqtisadi siyasətin əyani sübutudur. Bizim ölkəmizdə siyasi sabitlik çox yüksək səviyyədədir. Xalq ilə hökumət arasında birlik mövcuddur. Siyasətimiz əhalinin əksəriyyəti tərəfindən dəstəklənir. Bizim regionda çox yaxşı əlaqələrimiz var.

Bir sözlə, Azərbaycanın taleyi çox uğurlu olmuşdur. Müəyyən ölkələr bu uğura nail ola bilmədilər, onlar bundan kənar düşdülər və ona görə də, həmin ölkələrdə baş vermiş dramatik dəyişikliklər, ola bilsin, müstəqillik tarixi ilə bağlıdır. Sovet respublikaları müstəqil olandan sonra hamının imkanları eyni olmuşdur. Biz siyasətimizi və taleyimizi müəyyən etməliydik. Müəyyən ölkələr buna nail oldu, digərləri isə bunun öhdəsindən gələ bilmədi. Bilirsiniz, bəzi insanların arasında yayılmış səhv təsəvvür ondan ibarət idi ki, əgər müəyyən bir ölkədə inqilab baş verirsə, demək, digər ölkədə də bu baş verməlidir. Bu, düz deyil.

- Elə bil ki, domino effektidir...

- Misal üçün, mən bilirəm ki, Azərbaycanda parlament seçkilərindən öncə müəyyən dairələr, təşkilatlar və siyasətçilər inqilabın baş verməsini gözləyirdilər. Lakin regiondakı vəziyyətə yaxşı bələd olan hər kəs bilirdi ki, bu cür hadisə mümkün deyildir. Bunun üçün əsas yoxdur. Çünki inqilabın baş verməsi üçün ilkin şərtlər, səbəblər mövcud olmalıdır. Əgər buna səbəb yoxdursa, həmin hadisə süni şəkildə baş verə bilməz. Azərbaycana inqilabın ixrac edilməsinə çalışan müəyyən dairələrin istəyindən asılı olmayaraq, həmin səylər əbəs idi. Ona görə də bu gün müstəqilliyimizin artıq 15-ci ilini yaşadıqda, keçmiş sovet respublikalarına eyni prizmadan baxmaq düzgün olmazdı. İndi vəziyyət tamamilə başqadır, ölkələr fərqlidir.

- Sizin ölkənizdə seçkilərin nəticəsinə gəldikdə, nəinki ölkədaxili müəyyən qruplar, ATƏT kimi bir sıra beynəlxalq təşkilatlarda seçki prosesində müəyyən pozuntuların olmasını qeyd etmişlər. Eyni zamanda, biz bilirik ki, Siz 10 seçki dairəsində təkrar seçkilər keçirəcəksiniz. Belə çıxır ki, Azərbaycan seçkinin nəticələrindən şikayətlənən qurumların narahatlığını aradan qaldırmaq üçün müəyyən addımlar atmalıdır. Siz təkrar seçkiləri necə keçirəcəksiniz?

- Hətta demokratiya yaxşı inkişaf etmiş ölkələrdə də siz seçkilərdə bəzən problemlərin yaranmasını görürsünüz. Bu, təbiidir. Bizim seçkilərə gəldikdə isə, bu dəfə seçki pozuntularından qorunmaq üçün bir çox mexanizmlər işə salınmışdır. Qəsdən seçki qanununun pozulmasını mümkünsüz edən bir sıra yeni tədbirlər də görülmüşdür. Onlardan biri "exit-poll" idi və Azərbaycanda həmin onu ABŞ Dövlət Departamenti tərəfindən

seçilmiş şirkət aparmışdır. Bu, bizim tərəfimizdən seçilmiş şirkət deyildi və "exit-poll"un nəticələri ilə rəsmi nəticələr 90 faizdən çox hallarda üst-üstə düşmüşdür, tamamilə uyğun gəlmişdir. Yalnız müəyyən hallarda fərqlər çox cüzi, yəni 1 və ya 2 faiz olmuşdur.

Əlbəttə ki, biz tədbirlər gördük. Hər hansı pozuntu üzə çıxdığı təqdirdə, bir sıra dairələrdə seçkilərin nəticələri ləğv edilmişdir. Bu səbəbdən biz həmin 10 dairədə təkrar seçkilər keçirəcəyik. Yəni 125 dairədən yalnız 10-da bunu edəcəyik. Bu, böyük nisbət deyildir.

Ümumiyyətlə, Azərbaycan xalqının iradəsi seçkilərin nəticələrində tam əks olunmuşdur. Biz seçki təcrübəsinin yaxşılaşdırılması məqsədi ilə beynəlxalq təşkilatlarla birgə işləmək istəyimizi ifadə etdik. Lakin seçkilərin yaxşı şəraitdə keçirilməsi şübhə altına alına bilməz və seçkilərdə xalqın iradəsi tam əks olunmuşdur.

Dediyim kimi, 10 dairədə təkrar seçkilər keçiriləcəkdir. Ona görə də mən bütün beynəlxalq təşkilatları, o cümlədən ATƏT-i, "exit-poll" ilə məşğul olan şirkətləri bir daha ölkəmizə dəvət edirəm. Onlar gəlsinlər və monitorinq keçirsinlər. Bilirsiniz, xüsusən regionda gəzən inqilabi əhval-ruhiyyəni götürsək, Azərbaycandakı parlament seçkiləri beynəlxalq təşkilatların olduqca ciddi nəzarəti altında keçirilmişdir. Ölkəmizə minə yaxın müşahidəçi gəlmişdi. Onların sayını eşidəndə, rəqəm inanılmaz gəlir. Bu cür şəraitdə əgər hər hansı bir şəxs seçki prosesinə müdaxilə etmək istəyirdisə, bunu gizlətmək mümkün olmazdı. Ona görə də 10 dairədə seçkilər ləğv edilmiş, pozuntulara yol vermiş seçki rəsmiləri ya həbs edilmiş, ya da tutduğu vəzifədən uzaqlaşdırılmışlar. Bununla biz seçki prosesinə müdaxilə edənləri cəzalandırmaq iradəmizi nümayiş etdirdik.

- Siz Buş administrasiyasının demokratiyanı genişləndirmək siyasətini necə qiymətləndirirsiniz? Bir çox İslam ölkələri bu siyasətdən məyus qalmışlar. Siz buna necə yanaşırsınız?

- Bilirsiniz, demokratiya bir prosesdir və biz demokratikləşmə prosesini keçməkdəyik. 15 il bundan əvvəl biz tamamilə başqa şəraitdə yaşamışıq. Yəni Sovet İttifaqında, totalitar rejim altında yaşamışıq. Hazırda müstəqil bir ölkə kimi demokratiyaya keçid çox sürətlə gedir. Misal üçün, son on beş ildə Azərbaycanın keçdiyi yolu digər ölkələr bəlkə də 100 ilə keçmişlər. Hazırda biz bütün siyasi təsisatları qurmuşuq, ölkəmizdə mətbuat və söz azadlığı var. Bütün siyasi partiyalar fəaliyyət göstərir. Avropa Şurasına qəbul olunduqdan sonra Avropa standartlarına əsaslanan yeni qanunlar qəbul edilmişdir.

Bir sözlə, Azərbaycanda bu proses çox fəal gedir. Əlbəttə ki, biz həmin prosesi daha da sürətləndirmək istərdik. Lakin təkamül yolu ilə inkişafın öz qaydaları var. Buna müdaxilə etmək olmaz. Heç kim bunu edə bilməz. Bəlkə cəhd göstərirlər, lakin bu, uğur gətirməyəcəkdir. Eynilə, normal siyasi prosesə də müdaxilə edilə bilməz. Yəni ölkəyə yad olan meyarları məcburi tətbiq etmək və ya onu daha da sürətləndirmək mümkün deyildir. Ona görə də hər bir vəziyyətə aid xüsusi yanaşmadan istifadə olunmalıdır. Ölkəyə nəyin lazım olacağını ən yaxşı kim bilir? Əlbəttə ki, həmin ölkədə yaşayanların özləri və xalqın seçdiyi liderlər. Ona görə də bu bizim öz iradəmiz, qərarımız və baxışlarımızdır. Onlar üstünlük təşkil edir və bu, belə də olmalıdır. Bütün bunlar nəzərə alınmalıdır.

Mən yenə də hesab edirəm ki, bir sıra keçmiş sovet respublikalarında baş verənlər haq-

qında səhv təsəvvür yaranmışdır. Həmin ölkələrdə baş vermiş hadisələri təfərrüatlı şəkildə təhlil etsəniz görərsiniz ki, onların tarixçəsi tamamilə fərqli idi. Mən burada detallara varmaq istəmirəm.

Mən onların hər birində baş vermiş hadisələr haqqında kifayət dərəcədə məlumatlıyam. Hər şey eyni deyildi. Yəni bunu götürüb avtomatik qaydada tamamilə fərqli inkişaf səviyyəsində olan ölkəyə tətbiq etmək olmaz. Biz birgə çalışmalıyıq. Daha yaxşı həyat tərzini təmin etmək üçün daha yaxşı həll yollarını tapmalıyıq. Biz sabitlik və təhlükəsizliyi uçuruma aparmalı yox, ona töhfə verməliyik. Bu, bizim ölkədir. Mən Azərbaycanın seçilmiş Prezidentiyəm və ölkənin bu günü və gələcəyi, Azərbaycan xalqının rifahı və təhlükəsizliyi üçün məsuliyyət daşıyıram. Bu, olduqca aydın şəkildə başa düşülməlidir. Biz yaratmaq naminə birgə çalışmalıyıq və yaxşı şəraiti təmin etməliyik.

- Siz addımlarınızı hansı istiqamətdə davam etdirmək istəyirsiniz? Gələcəkdə Türkiyə kimi Avropa İttifaqının üzvü olmaq istəyirsiniz, yoxsa Qərb ilə Şərq arasında orta mövqedə qalmaq fikrindəsiniz? Siz hansı siyasi niyyəti həyata keçirmək istəyirsiniz?

- Bilirsiniz, biz realist olmalıyıq. Əgər burada sizə desəm ki, biz Avropa İttifaqının üzvü olmaq istəyirik, bu söz heç nəyi dəyişməyəcəkdir. Yəni bu sözdən iş sürətlənməyəcəkdir. Biz ölkəmizdəki və Avropa İttifaqındakı vəziyyəti düzgün qiymətləndirməliyik. Avropa İttifaqının yaşadığı problemləri və duyduğu narahatlığı nəzərə almalıyıq. Biz elə bir mövqedə olmalıyıq ki, o, bizi Avropa İttifaqına daha da yaxınlaşdırsın. Hazırda biz Avropa İttifaqı ilə "Yeni qonşuluq siyasəti" çərçivəsində əməkdaşlıq edirik. Biz bu proqramların tezliklə yerinə yetirilməsinə başlayırıq. Çünki fikrimizcə, həmin addımlar ölkənin daha da inkişaf etdirilməsi, onun demokratikləşməsi və iqtisadiyyatı, Qərblə əməkdaşlığı üçün yaxşı şərait yaradacaqdır. Lakin, eyni zamanda, biz həddindən artıq həvəsə düşməməliyik. Biz addımlarımızı real vəziyyətə, realist ssenariyə əsaslanaraq atmalıyıq. Bu, birincisi.

İkincisi, mən sizə demək istəyirəm ki, Azərbaycan özünə arxalanan ölkədir. Apardığımız tam müstəqil xarici siyasətin də əsasını məhz bu amil təşkil edir. Biz heç kimdən asılı deyilik. Vaxt keçdikcə müstəqilliyimiz və gücümüz daha da artacaqdır. Müstəqillik təkcə rəmzlər, bayraq və milli himn demək deyildir. Əsil müstəqillik yalnız ölkənin milli maraqlarına əsaslanan müstəqil siyasətin aparılmasıdır. Yəni hər hansı digər ölkəyə bağlı olmamaq, kiminsə arxasınca addımlamamaq, ondan asılı olmamaq deməkdir. Özünü dəyişməmək və xalqla birlikdə öz gələcəyini müəyyən etmək gərəkdir. Ona görə də Azərbaycan öz işini asanlıqla davam etdirərək yaşayacaqdır. Onun tutduğu yol, o cümlədən tərəfdaşlara və qonşularına münasibətdə mövqeyi olduqca konstruktiv və düzgündür.

Azərbaycan digər ölkələrlə ikitərəfli səviyyədə, eləcə də beynəlxalq təşkilatlar çərçivəsində iş aparmalıdır. Əgər beynəlxalq təşkilatlarda bizə ehtiyac duyularsa, əlbəttə ki, biz bu məqsədlə fəal işləyəcəyik. Əgər kimsə bunu istəmirsə, biz də istəmərik. Bilirsiniz, belə şayiələr də gəzirdi ki, guya Azərbaycanda parlament seçkilərindən sonra ölkəmizə qarşı Avropa Şurası tərəfindən sanksiyalar tətbiq ediləcək və yaxud Azərbaycan təcrid olunacaqdır. Azərbaycanı təcrid etmək mümkün deyildir. Belə bir hadisənin baş verəcəyini zənn etmək də mümkün deyildir. Yəni müəyyən təşkilat Azərbaycanı istəməsə, onda Azərbaycan da onu istəməyəcəkdir. Biz elə bir vəziyyətdə deyilik ki, yalvaraq və yaxud mərhəmətli bir addımı gözləyək. Biz möhkəm mövqeyə malik ölkəyik, yaxşı nailiyyətlərə nail olmuşuq və əməkdaşlıq üçün açığıq.

- İqtisadiyyata gəldikdə, bilirik ki, o, çox sürətlə inkişaf edir. ÜDM-in artımı 26 faizdən çoxdur. Eyni zamanda, əfsuslar ki, Sizin ölkədə əhalinin təbəqələri arasında fərqlər var. Siz cəmiyyətdə olan bu fərqləri hansı yolla aradan qaldırmaq fikrindəsiniz?

- Bu, hazırda olduqca böyük iqtisadi artım müşahidə edilən və keçid dövrünü yaşayan ölkə üçün təbiidir. Bu, sona çatacaqdır. Məqsədimiz yoxsulluğun və işsizliyin azaldılmasını sürətləndirməkdir. Sizə deyə bilərəm ki, bu sahədə uğur əldə etmişik. İki il öncə, rəsmi statistikaya görə, yoxsulluq şəraitində yaşayan insanların sayı 49 faiz təşkil edirdi. Həmin rəqəm indi 29 faizdir, lakin bu da çoxdur. İki il ərzində 20 faiz azalmışdır. Bu o deməkdir ki, iki il bundan əvvəl yoxsul yaşayan həmin 20 faiz indi artıq belə şəraitdə yaşamır. Eyni zamanda, son iki il yarım ərzində Azərbaycanda 340 min iş yeri açılmışdır. Bu amil cəmiyyətdə ədalətin bərqərar olunmasına əsas yaradacaqdır.

Biz Neft Fondunun vəsaitlərini yoxsulluqda yaşayan insanlara, qaçqınlara və Ermənistanın təcavüzündən əziyyət çəkmiş şəxslərə yardım etmək üçün istifadə edirik. Hökumətin sosial siyasəti çox fəaldır. İqtisadiyyatımız bazar iqtisadiyyatı prinsiplərinə əsaslanır. Lakin siz bizim büdcəmizə nəzər salsanız görərsiniz ki, o, sosialyönümlüdür. Büdcənin əsas hissəsi əməkhaqları və pensiyaların ödənilməsinə, təqaüdlərin verilməsinə sərf edilir. Biz özəl sektoru dəstəkləmək, daha çox iş yerləri yaratmaq məqsədi ilə özəlləşdirmə prosesini daha da sürətləndirməliyik ki, insanlar yaxşı yaşasın və əmək fəaliyyəti ilə məşğul ola bilsinlər. Əgər onların işi olsa, artıq yoxsul hesab edilməzlər. Biz diqqətimizi bu sahələrə yönəldirik. Əlbəttə ki, bütün enerji layihələrimiz gəlir verəndən sonra, yəni boru kəmərləri işə düşəndən sonra bizim bir çox maliyyə mənbələrimiz olacaq. Azərbaycana milyardlarla dollar daxil olacaqdır. Həmin vəsaitlərin düzgün bölüşdürülməsi ən vacib məsələyə çevriləcəkdir.

- Yaponiya ilə Azərbaycan arasında heç bir siyasi problem mövcud deyildir. Siyasi münasibətlərimiz yaxşı səviyyədədir. Həmin siyasi münasibətlərə əsaslanaraq, gələcəkdə Siz Yaponiya ilə əlaqələri necə inkişaf etdirmək istərdiniz?

- Biz ölkələrimiz arasındakı münasibətlərin səviyyəsindən çox razıyıq. Həmin əlaqələr uzun illər boyu olduqca müsbət olmuşdur. Mənim ölkənizə rəsmi səfərim buna daha bir sübutdur və əminəm ki, bu səfər münasibətlərin inkişafında əlavə təkan olacaqdır. Bildiyiniz kimi, səfərim çərçivəsində biz yapon və azərbaycanlı iş adamlarının iştirakı ilə Yaponiya-Azərbaycan iqtisadi forumunu da təşkil etmişik. Bu tədbir biznes dairələrinin işbirliyi üçün daha yaxşı şərait yaradacaqdır. Eyni zamanda, mən dünən Azərbaycan-Yaponiya Birgə İqtisadi Komitəsinin nümayəndələri ilə də görüş keçirdim və Azərbaycana gələcəkdə lazım olacaq bir çox praktiki layihələri müzakirə etdim. Gələn illər ərzində ölkəmiz get-gedə kreditlərdən tam azad olacaqdır. Çünki bizim özümüzün vəsaitlərimiz yaranacaqdır. Bizə müasir texnologiya, yaxşı məsləhət və etibarlı tərəfdaşlar lazımdır. Ona görə də Azərbaycan bazarı yapon şirkətləri üçün açıqdır. Biz onları uzun illər boyu tanımışıq və alqışlayırıq. Münasibətlərimiz hər zaman yaxşı olubdur.

Azərbaycanın inkişafının hazırkı mərhələsində bir çox yaxşılaşdırılma işləri görülməlidir. İnfrastruktur layihələri, səhiyyə və təhsil proqramları həyata keçirilməli, energetika sistemi, su təchizatı və mühəndis kommunikasiyaları yaxşılaşdırılmalıdır. Gələn illər

ərzində bütün bu sahələrə milyardlarla dollar sərmayə yatırmaq fikrindəyik. Ona görə də biz öz texnologiyası və bilikləri ilə ölkəmizə gələn yapon şirkətlərini səmimiyyətlə alqışlayırıq. Mən hesab edirəm ki, münasibətlərimizin bu iqtisadi komponenti çox vacib rol oynayacaqdır. Ümumiyyətlə, bu amil istənilən digər sahədə əlaqələrin daha da yaxşılaşdırılmasına səbəb olacaqdır.

MÜXBİR: Müsahibəyə görə çox sağ olun.

İLHAM ƏLİYEV: Sağ olun.

AZƏRBAYCANIN YAPONİYADAKI SƏFİRLİYİ İLƏ TANIŞLIQ

Azərbaycan Prezidenti İlham Əliyev martın 9-da ölkəmizin Yaponiyadakı səfirliyi ilə tanış olmuşdur.

Prezident İlham Əliyevi səfir Azər Hüseynov və səfirliyin əməkdaşları böyük hörmətlə qarşıladılar və bina barədə məlumat verdilər.

Ötən ilin oktyabrından fəaliyyətə başlayan səfirlik Tokionun mərkəzi hissəsində yerləşir və diplomatik fəaliyyət üçün burada hər cür şərait vardır.

Dövlətimizin başçısı əməkdaşların iş otaqları ilə tanış oldu, müasir tələblərə cavab verən avadanlıqla təmin edilmiş səfirlikdə yaradılan şəraitdən razılığını bildirdi, müvafiq tövsiyə və tapşırıqlarını verdi.

Prezident İlham Əliyev yadigar olaraq səfirliyə Bakının mənzərəsi təsvir edilmiş rəsm əsəri təqdim etdi və əməkdaşlarla xatirə şəkli çəkdirdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ YAPONİYANIN BAŞ NAZİRİ DZÜNİTİRO KOİDZUMİNİN GÖRÜŞÜ

Azərbaycan Prezidenti İlham Əliyev martın 10-da, Yaponiyaya rəsmi səfəri çərçivəsində ölkənin Baş naziri Dzünitiro Koidzumi ilə görüşmüşdür.

Cənab Koidzumi Prezident İlham Əliyevi Yaponiya hökuməti başçısının rəsmi iqamətgahında böyük ehtiramla, dostcasına qarşıladı.

Sonra Azərbaycan Prezidenti ilə Yaponiyanın Baş naziri arasında görüş oldu.

Yaponiyaya rəsmi səfərinə görə respublikamızın rəhbərinə minnətdarlığını bildirən cənab Koidzumi ölkələrimiz arasındakı əlaqələrin qədim tarixini xatırlatdı. Prezident İlham Əliyevin bu səfərini olduqca əhəmiyyətli hadisə adlandıran Baş nazir dedi ki, o, Azərbaycana xüsusi maraq göstərir. Yaponiya coğrafi-siyasi cəhətdən çox mühüm bölgədə yerləşən Azərbaycanla əməkdaşlığın daha da inkişaf etdirilməsinə böyük əhəmiyyət verir. Azərbaycanda aparılan uğurlu iqtisadi islahatların və onların nəticələrinin Yaponiya hökuməti və ictimaiyyəti tərəfindən yüksək qiymətləndirildiyini və maraqla qarşılandığını söyləyən Baş nazir ölkəmizin iqtisadi inkişafından məmnunluğunu bildirdi.

Səfər günlərində ona və nümayəndə heyətinə göstərilən qonaqpərvərliyə görə minnətdarlığını bildirən Prezident İlham Əliyev dünyanın ən inkişaf etmiş ölkələrindən biri olan Yaponiya ilə bütün sahələrdə əməkdaşlığın daha da dərinləşdirilməsi və genişləndirilməsində bu səfərin yeni mərhələ olacağını söylədi.

Dövlətimizin başçısı Azərbaycandakı mövcud ictimai-siyasi vəziyyət, islahatların həyata keçirilməsi nəticəsində əldə olunmuş uğurlar barədə danışdı. Eyni zamanda, ölkəmizin ən əsas problemi olan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə aradan qaldırılması istiqamətində görülən işlərdən ətraflı söhbət açdı, beynəlxalq təşkilatlarda və toplantılarda Azərbaycanın haqq işini dəstəkləməsinə görə Yaponiya tərəfinə minnətdarlığını bildirdi.

Cənab Koidzumi bir daha vurğuladı ki, Yaponiya Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyir və münaqişənin sülh yolu ilə aradan qaldırılmasına ümid edir.

Prezident İlham Əliyevin Yaponiyaya səfərinin ölkələrimizin münasibətlərində yeni mərhələ açacağını bildirən Baş nazir imzalanacaq sənədlərin əməkdaşlığın daha da genişlənməsi üçün yaxşı baza yaradacağını vurğuladı. O dedi ki, Yaponiya Azərbaycanı özünə dost ölkə, layiqli tərəfdaş hesab edir və onunla bütün sahələrdə əməkdaşlığın inkişafına böyük maraq göstərir.

SƏNƏDLƏRİN İMZALANMA MƏRASİMİ

Martın 10-da Yaponiya Baş nazirinin iqamətgahında ikitərəfli sənədlərin imzalanma mərasimi oldu.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Yaponiyanın Baş naziri Dzünitiro Koidzumi "Azərbaycan Respublikası və Yaponiya arasında dostluq və əməkdaşlığın gələcək inkişafı haqqında birgə Bəyannamə" imzaladılar.

Sonra Azərbaycanın iqtisadi inkişaf naziri Heydər Babayev və Yaponiyanın ölkəmizdəki səfiri Tadahiro Abe "Azərbaycan Respublikasının Hökuməti və Yaponiya Hökuməti arasında texniki əməkdaşlıq haqqında saziş"i, Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov və səfir Tadahiro Abe "Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi və Yaponiya Xarici İşlər Nazirliyi arasında əməkdaşlıq proqramı"nı imzaladılar.

Sənədlərin imzalanma mərasimindən sonra Yaponiyanın Baş naziri Dzünitiro Koidzumi və Azərbaycan Prezidenti İlham Əliyev jurnalistlər qarşısında qısa bəyanatlarla çıxış etdilər.

YAPONİYANIN BAŞ NAZİRİ DZÜNİTİRO KOİDZUMİNİN BƏYANATI

- Bu gün mən Azərbaycan Respublikasının Prezidenti zati-alilləri cənab İlham Əliyevlə görüşməkdən və iki ölkə arasında münasibətlərin daha da yaxşılaşdırılmasına dair birgə bəyannamənin və ölkələrimiz arasında iqtisadi əlaqələri daha da möhkəmləndirəcək texniki əməkdaşlıq sazişlərinin imzalanmasından olduqca məmnunam.

Mən səfərdə olan Prezident Əliyevi səmimi qəlbdən salamlayıram. Bu, Azərbaycan Respublikasının Prezidenti kimi cənab İlham Əliyevin Yaponiyaya ilk rəsmi səfəridir. Mən tamamilə ümidvaram ki, onun hazırkı səfəri ölkələrimiz arasında əlaqələrin daha da genişlənməsinə və ölkələrimizin iqtisadi inkişafına xidmət edəcəkdir.

Yaponiya şirkətləri və iş adamlarının Azərbaycana maraqları gündən-günə artır. Prezidentlə keçirdiyim indiki görüş zamanı Azərbaycanın iqtisadi artımının 26 faiz səviyyəsində olmasını eşitməkdən çox məmnun oldum və bu rəqəm Yaponiyanın göstəricisindən on dəfə artıqdır. Ümidvaram ki, Azərbaycanda ticarət və sərmayələr üçün mühitin daha da yaxşılaşdırılması Yaponiyanın iştirakını genişləndirəcək və Azərbaycan ilə iqtisadi əlaqələrin inkişafına töhfə verəcəkdir.

Beynəlxalq məsələlərə gəldikdə, Azərbaycan Yaponiyanın BMT Təhlükəsizlik Şurasında daimi üzvlüyü məsələsini tam dəstəkləyir və bu dəstəyə görə biz Azərbaycana dərin minnətdarlığımızı bildirir, BMT-nin islahatı sahəsində səylərin gələcəkdə davamını arzulayırıq.

Prezident Əliyev Ermənistanla münaqişədən irəli gələn çətin vəziyyət barədə mənə məlumat verdi və biz bu problemin sülh yolu ilə aradan qaldırılmasını səmimiyyətlə arzulayırıq.

Bu gün Prezident Əliyevlə təmaslarımızı nahar zamanı davam etdirməkdən məmnunam. Mən Prezident Əliyevi bəyanatla çıxış etməyə dəvət edirəm.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN BƏYANATI

- İlk növbədə, Yaponiyaya səfərim zamanı mənə və nümayəndə heyətimizə göstərilmiş qonaqpərvərliyə görə Yaponiyanın Baş naziri Dzünitiro Koidzumiyə minnətdarlığımı bildirmək istəyirəm.

Azərbaycanda biz ikitərəfli münasibətlərin inkişafına böyük əhəmiyyət veririk və ümidvaram ki, Yaponiyaya rəsmi səfərim ölkələrimiz arasında əlaqələrin inkişaf etdirilməsi üçün yeni imkanlar açacaqdır.

Bizim siyasi münasibətlərimiz çox yüksək səviyyədədir və beynəlxalq təşkilatlar çərçivəsində bir-birimizi dəstəkləyirik. Baş nazirin qeyd etdiyi kimi, biz keçirdiyimiz görüş zamanı regional sabitlik və təhlükəsizlik, o cümlədən Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi məsələlərini müzakirə etdik.

Mənim Yaponiyaya səfərim zamanı yapon və azərbaycanlı iş adamlarının iştirakı ilə Azərbaycan-Yaponiya biznes forumu keçirilmiş və vacib iqtisadi məsələlər müzakirə olunmuşdur. Əminəm ki, bu təmaslardan sonra görüşlərin praktik nəticələri olacaqdır. Mənim Yaponiya şirkətlərinin rəhbərləri, bank və digər maliyyə təsisatlarının nümayəndələri ilə görüşlərim zamanı iqtisadi əməkdaşlığımıza və Azərbaycanın sənaye inkişafına dair müxtəlif məsələləri nəzərdən keçirdik.

Ölkələrimizin iqtisadi inkişafı ilə bağlı bizim çox böyük planlarımız var. Onların həyata keçirilməsi üçün bizim maliyyə resurslarımız mövcuddur. Bizə yaxşı tərəfdaşlar, müasir texnologiyalara, bilik və bacarığa malik şirkətlər lazımdır və siz bilirsiniz ki, Yaponiya bu sahədə dünyada aparıcı ölkədir.

Göstərdiyi qonaqpərvərliyə və nümayəndə heyətimizi səmimiliklə qəbul etdiyinə görə mən bir daha Yaponiya hökumətinə və xalqına dərin minnətdarlığımı bildirmək istəyirəm. Əminəm ki, bütün sahələrdə apardığımız əməkdaşlıq gələcəkdə daha da möhkəmlənəcəkdir.

PREZİDENT İLHAM ƏLİYEV "İNPEKS" ŞİRKƏTİNİN SƏDRİNİ QƏBUL ETMİŞDİR

Martın 10-da Azərbaycan Prezidenti İlham Əliyev Tokioda, onun üçün ayrılmış iqamətgahda "İNPEKS" şirkətinin sədri Kunihiko Matsuonu qəbul etmişdir.

Şirkətin sədri Prezident İlham Əliyevlə görüşündən şərəf duyduğunu bildirdi və onunla iki il əvvəl olmuş görüşünü də xatırlatdı. Cənab Kunihiko Matsuo dedi ki, Azərbaycan siyasi, iqtisadi, sosial sahədə sürətlə inkişaf edir, ölkə tərəqqi yolundadır və biz bundan məmnunuq. Azərbaycan-Yaponiya iqtisadi forumu çox yüksək səviyyədə keçdi. Sizin nitqinizdə Azərbaycanın qonşularla, o cümlədən Xəzəryanı dövlətlərlə münasibətlərinə dair söylədiyiniz strategiya bizdə xüsusi təəssürat yaratmışdır və bunu düzgün siyasət hesab edirik. Yaponiya isə Azərbaycanla yaxın qonşu olmasa da, qəlbən qonşudur. Keçən il Tokioda Azərbaycan səfirliyinin açılması ikitərəfli əlaqələrə yeni təkan vermişdir.

Prezident İlham Əliyev Tokioda keçirdiyi görüşlərin, apardığı danışıqların Yaponiya ilə Azərbaycan arasındakı mövcud əməkdaşlığın daha da genişlənməsində mühüm rol oynayacağını bildirdi. Dövlətimizin başçısı dedi ki, biz Yaponiya ilə tərəfdaşlığa xüsusi əhəmiyyət veririk. Yaponiya şirkətlərinin Azərbaycandakı fəaliyyəti ölkələrimiz arasında münasibətlərin daha da inkişafına kömək edir.

Görüşdə bir sıra konkret layihələrin həyata keçirilməsi, bölgədə vəziyyət və qarşılıqlı maraq doğuran bir sıra məsələlər barədə geniş fikir mübadiləsi aparıldı.

"İTOÇU" ŞİRKƏTİNİN SƏDRİ İLƏ GÖRÜŞ

Azərbaycan Prezidenti İlham Əliyev martın 10-da Tokioda, onun üçün ayrılmış iqamətgahda "İtoçu" şirkətinin sədri Uçihiro Nivanı qəbul etmişdir.

Azərbaycan Prezidentini Yaponiyada görməkdən şərəf duyduğunu bildirən "İtoçu" şirkətinin sədri dövlətimizin başçısının səfərinin ölkələrimiz arasında əlaqələrin inkişafına təkan verəcəyini vurğuladı, eyni zamanda, 1998-ci ildə onunla Naqano Qış Olimpiya Oyunları zamanı olan görüşünü xatırlatdı. Uçihiro Niva bildirdi ki, Prezident Heydər Əliyevin 1998-ci ildə Yaponiyaya tarixi səfərinin ölkələrimiz arasında münasibətlərin inkişafında xüsusi rolu olmuşdur. Yaponiya biznesi Azərbaycanla əlaqələr qurmağa xüsusi əhəmiyyət verir.

Xoş sözlərə görə təşəkkür edən Prezident İlham Əliyev Naqano Olimpiadasından əvvəl də, 1996-cı ildə Yaponiyada olduğunu xatırlatdı. Dövlətimizin başçısı Azərbaycanda yapon şirkətlərinin fəaliyyəti üçün hər cür şəraitin yaradıldığını və bunun ölkələrimizin arasında əlaqələrin inkişafına təkan verəcəyini bildirdi.

AZƏRBAYCAN PREZİDENTİNİN ŞƏRƏFİNƏ

Martın 10-da Yaponiyanın Baş naziri Dzünitiro Koidzuminin adından Azərbaycan Prezidenti İlham Əliyevin şərəfinə ziyafət verildi.

SƏFƏR BAŞA ÇATDI

Azərbaycan Prezidenti İlham Əliyev Yaponiyaya ilk rəsmi səfərini başa çatdıraraq martın 10-da axşam Vətənə yola düşdü.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ATƏT-İN MİNSK QRUPUNUN AMERİKALI HƏMSƏDRİ STİVEN MƏNNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 13-də Prezident sarayında ATƏT-in Minsk qrupunun amerikalı həmsədri Stiven Mənni qəbul etmişdir.

Görüş zamanı Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması ilə bağlı aparılan danışıqlar prosesinin hazırkı vəziyyəti ilə bağlı məsələlər müzakirə olunmuşdur.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ABŞ DÖVLƏT KATİBİNİN AVROPA VƏ AVRASİYA MƏSƏLƏLƏRİ ÜZRƏ MÜAVİNİ DANİEL FRİDİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 14-də Prezident sarayında ABŞ dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə müavini Daniel Fridi qəbul etmişdir.

Görüş zamanı Azərbaycan-ABŞ ikitərəfli münasibətlərinin müxtəlif sahələri ilə bağlı fikir mübadiləsi aparılmışdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV RUMİNİYANIN MİLLİ MÜDAFİƏ NAZİRİ TEODOR ATANASİUNUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 14-də Prezident sarayında Rumıniyanın milli müdafiə naziri Teodor Atanasiunun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Dövlətimizin başçısı Rumıniyanın Azərbaycanın müstəqilliyini tanımış ilk dövlətlərdən biri olduğunu və ölkələrimiz arasında əməkdaşlığın uğurla həyata keçirildiyini vurğuladı. O, Rumıniyaya rəsmi səfərini məmnunluqla xatırlayaraq, bu səfər zamanı bir sıra mühüm ikitərəfli sənədlərin imzalandığını qeyd etdi. Prezident İlham Əliyev Rumıniyanın milli müdafiə nazirinin bu səfərinin ölkələrimiz arasında hərbi sahədə əlaqələrin genişlənməsinə töhfə verəcəyinə ümidvar olduğunu bildirdi.

Teodor Atanasiu ölkəmizə səfəri zamanı səmərəli görüşlər keçirdiyini və iki ölkə arasında hərbi əməkdaşlıq sahəsində bir sıra sənədlərin imzalandığını qeyd etdi. Qonaq ölkələrimizin əlaqələrinin bundan sonra da inkişaf edəcəyinə əminliyini vurğuladı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV TÜRKİYƏ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 15-də Prezident sarayında Dünya azərbaycanlılarının II qurultayında iştirak etmək üçün ölkəmizə gələn Türkiyə nümayəndə heyətinin üzvlərindən bir qrupunu qəbul etmişdir.

Dövlətimizin başçısı İLHAM ƏLİYEV qonaqlara müraciətlə dedi:

- Əziz dostlar, xoş gəlmisiniz! Mən sizin hamınızı Azərbaycanda ürəkdən salamlayıram. Bizim dəvətimizi qəbul edib sabahkı qurultayda iştirak etmək üçün Azərbaycana gəlmisiniz. Bu da məni çox sevindirir. Hər dəfə biz görüşəndə çox gözəl söhbətlər edirik, səmimi fikir mübadiləsi aparılır. Belə görüşlər nə qədər çox olsa, bizim əlaqələrimiz də bir o qədər möhkəm olacaqdır. Bizim aramızda olan dostluq, qardaşlıq münasibətləri çox yüksək səviyyədədir və dinamik şəkildə davam edir. Türkiyə və Azərbaycanın birliyi həm ölkələrimiz, həm xalqlarımız, həm də bütün bölgə üçün böyük əhəmiyyət kəsb edir.

Sabah Dünya azərbaycanlılarının II qurultayı keçiriləcəkdir. Bu, çox böyük hadisədir, bizi birləşdirən hadisədir. Türkiyədən belə böyük heyətin buraya gəlməsi, qurultayda iştirak etməsi bizim aramızda olan dostluq, qardaşlıq münasibətlərini bir daha göstərir, bunu açıq şəkildə ifadə edir. Ona görə mən sizin hamınızı ürəkdən salamlayıram və bir daha demək istəyirəm ki, sizi görməyimə çox şadam. Sizinlə çoxlu görüşlərimiz olubdur və görüşlər nə qədər çox olsa, bizim birliyimiz də bir o qədər möhkəm olacaqdır. Bir daha xoş gəlmisiniz!

Türkiyə-Azərbaycan parlamentlərarası dostluq qrupunun sədri HALUK İPƏK görüşdə çıxış edərək dedi:

- Hörmətli Prezident, Sizi xoş gördük. Əvvəlcə Türkiyə Böyük Millət Məclisinin üzvləri adından hörmət və sevgimizi bildiririk. Sizin üçün çox önəmli olan qurultaya biz dəvət olunanda buna çox böyük heyətlə qatılmaq qərarına gəldik. Burada olmaqdan hamımız çox məmnunuq.

Milli Məclisinizin sədri Türkiyə Böyük Millət Məclisimizi ziyarət etdi, dostluq qrupunun yeni sədri ilə həmkarlarımız tanış oldular və parlamentlərimiz arasında əməkdaşlığı daha yaxşı səviyyədə əlaqələndirmək üçün razılığa gəldik. Hətta hər altı aydan bir hər iki ölkənin parlament nümayəndələrinin qarşılıqlı səfərləri barədə də anlaşdıq. Dostluq qrupu olaraq Xocalı qırğını ilə bağlı son bir il ərzində Türkiyə Böyük Millət Məclisində xeyli işlər gördük, orada fotosərgi açdıq. Biz Azərbaycanın sürətli inkişafını, dünya azərbaycanlılarının qurultayda bir araya gəlmələrini çox yüksək qiymətləndirir və Azərbaycana gələcəkdə uğurlar diləyirik.

Sonra çıxış edən Türkiyə Böyük Millət Məclisinin deputatı YÜCEL ARTANTAŞ dedi:

- Hörmətli Cümhurbaşqanım, azəri millət vəkili olaraq söyləyirəm ki, Azərbaycan üçün çox önəmli olan dünya azərbaycanlılarının qurultayında həmkarlarımın da iştirak etməsi mənim üçün qürurverici bir hadisədir. Həqiqətən, Türkiyədə Azərbaycanla bağlı hər bir məsələ qəlbən duyulur, hamı Azərbaycan dövlətini ürəkdən dəstəkləyir və bundan sonra da dəstəkləyəcəkdir. Bu, türk xalqının ürəyində var və yaşayır. Türk xalqı öz dəstəyi-

ni Azərbaycandan heç vaxt əsirgəmədi və bundan sonra da əsirgəməyəcəkdir. Xüsusilə sizin bu qurultayınız dünyadakı azərbaycanlılar üçün, həqiqətən, böyük bir mənəvi dəstək olur, onlara böyük bir mənəvi, psixoloji güc verir. Bu, Azərbaycan diasporunun ikinci qurultayıdır və dünyadakı Azərbaycan qurumlarının fəaliyyətinə yeni güc verir. Ona görə cənab Prezident, Sizi və dostlarımızı təbrik edirəm. Ciddi fəaliyyət göstərirlər. Qarşıda daha yaxşı işlər olacaqdır. Təşəkkür edirəm.

Türkiyə Böyük Millət Məclisinin deputatı, Ədalət və İnkişaf Partiyası sədrinin müavini ŞABAN DİŞLİ dövlətimizin başçısına müraciətlə dedi:

- Hörmətli Cümhurbaşqanım, mən də səmimi dəvətiniz üçün Sizə və Komitə sədriniz Nazim İbrahimova çox təşəkkür edirəm. Mən buraya Ədalət və İnkişaf Partiyası sədrinin əvəzinə gəlmişəm. Sizə hörmətli Baş nazirimizin salamını gətirmişəm. Türkiyədə martın 18-i Çanaqqala döyüşünün ildönümü olduğu üçün hörmətli Baş nazirimiz tədbirlərdə iştirak edəcəyindən özü gələ bilmədi. Dünya azərbaycanlılarının II qurultayının uğurlu keçməsini arzulayırıq və belə olacağını da bilirik. Ümid edirəm ki, gələcəkdə Türkiyədə və daha sonra Azərbaycanda, Bakıda Dünya türk qurultayı da keçirə bilərik. Hörmətli komitə sədri və Yeni Azərbaycan Partiyası ilə belə bir düşüncəmiz var. Buna Sizin də dəstək verməyinizi istərdik.

Hörmətli Cümhurbaşqanım, icazənizlə, Sizə bir hədiyyəmiz var, onu təqdim etmək istərdik.

Azərbaycan Prezidenti İlham Əliyevə xatirə hədiyyəsi təqdim olundu.

Türkiyə Böyük Millət Məclisinin İğdırdan olan deputatı DURSUN AKDƏMİR dedi:

- Cənab Prezident, mən Ana Vətən Partiyasını təmsil edirəm. İğdır Naxçıvanla qonşudur və Türkiyənin Azərbaycana açılan bir qapısıdır. Bizim əlaqələrimiz çox möhkəmdir. Türkiyə Azərbaycanın bölgədə ən önəmli bir qardaş dövlət olmasından fəxr edir. "Bir millət, iki dövlət" fəlsəfəsini hamımız yaxşı dərk edirik. Azərbaycanın dərdi hər zaman bizim də dərdimiz olmuşdur.

Eyni zamanda, Ermənistanın əsassız soyqırımı iddiası, Ermənistanın Qarabağı işğal etməsindən irəli gələn narahatlıq hamımızı düşündürür. Azərbaycan-Türkiyə dostluq qrupunun üzvü olaraq, keçən il və bu il Türkiyə Böyük Millət Məclisində Xocalı soyqırımının ildönümü ilə əlaqədar tədbirlər keçirmişik. Sizin bu soyqırımla bağlı çıxışlarınız məsələnin bütün dünyaya çatdırılması üçün çox faydalıdır. Biz hər zaman Sizin yanınızdayıq. Türkiyə-Azərbaycan qardaşlığının bütün türk dünyasına böyük güc verəcəyinə ümid edir və Sizə təşəkkürümü bildirirəm.

İLHAM ƏLİYEV: Sağ olun. Mən də sizə təşəkkür edirəm. İlk növbədə, sizdən rica edirəm ki, mənim səmimi salamlarımı hörmətli Baş nazirə çatdırasınız. Bizim aramızda çox gözəl münasibətlər var. Türkiyə və Azərbaycan arasında, o cümlədən də rəhbərlik səviyyəsində münasibətlər çox yüksəkdir. Bu yaxınlarda Türkiyə Prezidenti bizim ölkəmizə səfər edəcəkdir. Səfər daha öncə nəzərdə tutulmuşdu, ancaq hava şəraitinin yaxşı olmaması buna imkan vermədi. Amma onu bu yaxınlarda gözləyirik.

Çox şadam ki, Türkiyənin bütün bölgələrini təmsil edən millət vəkilləri bizimlə bərabərdirlər. Bu, bir daha onu göstərir ki, bizim aramızda olan münasibətlər hərtərəflidir. Türkiyənin hər bir bölgəsi ilə də bizim tarixi, mədəni köklərimiz var. Bu gün demək

olar ki, burada bütün Türkiyə təmsil olunur. Çünki hər bir bölgədən xalq tərəfindən seçilmiş millət vəkilləri bu gün buradadırlar. Bu, çox böyük əhəmiyyətə malik hadisədir.

Siz qeyd etdiniz və mən də bunu tam dəstəkləyirəm ki, gələcəkdə dünya türklərinin qurultayı da keçirilməlidir. Bütün türkdilli dövlətlərin nümayəndələri də iştirak etməlidirlər. Biz çox istəyirik ki, türkdilli dövlətlər arasında olan əlaqələr daha da möhkəmlənsin, əlaqələr daha da mütəmadi, sıx olsun. Türkiyə ilə Azərbaycan arasında əlaqələr ən yüksək səviyyədədir. Lazımdır ki, bütün türkdilli dövlətlər daha da səmərəli işləsinlər. Çünki bizim məqsədlərimiz birdir, niyyətimiz birdir, problemlərimiz də bənzər problemlərdir.

Hörmətli millət vəkili qeyd etdi ki, ərazi bütövlüyümüzün pozulması, torpaqlarımızın işğal altında qalması bizim üçün ən böyük problemdir. Azərbaycan indi çox sürətlə inkişaf edir. Siyasi proseslər müsbət istiqamətdə inkişaf edir, iqtisadiyyat yüksəlir, ölkədə mövcud olan sosial problemlər öz həllini tapır.

Ümid edirəm ki, bizim gələcəkdə o qədər də böyük, ciddi problemimiz olmayacaqdır. Ancaq torpaqlarımızın işğal altında olması ən böyük problemdir. Bunun da səbəbi ondadır ki, Ermənistanın təcavüzkar siyasəti buna gətirib çıxarıbdır. Azərbaycanın torpaqları işğal altındadır, bir milyondan artıq insan qaçqın-köçkün vəziyyətində yaşayır və əlbəttə, bu, bütün bölgədə gedən proseslərə mənfi təsir göstərir.

Biz heç bir fövqəladə iddiada deyilik. Sadəcə, onu tələb edirik ki, bizim torpaqlarımız işğaldan azad olunsun. Ermənistanın işğalçı qüvvələri bu torpaqlardan çıxsın. Ondan sonra biz qonşu kimi yaşayaq. Bizim problemimiz bundan ibarətdir. Əgər Ermənistanın rəhbərliyi Türkiyəyə qarşı torpaq iddiasını kənara qoysa, qondarma "soyqırımın" tanınmasına çalışmağa son qoysa, əlbəttə, Türkiyə-Ermənistan münasibətləri normallaşa bilər. Əgər onlar bizim torpaqlarımızdan çıxarlarsa, onda Ermənistan-Azərbaycan münasibətləri də normallaşa bilər. Biz bu bölgədə yaşayırıq, qonşuyuq və qonşuluqda yaşamağa məhkumuq. Ancaq o şərtlə ki, separatizmə son qoyulsun, etnik təmizləmə siyasətinin nəticələri aradan qaldırılsın, Azərbaycan vətəndaşları öz dədə-baba torpaqlarına qayıda bilsinlər və əlbəttə ki, Türkiyə və Azərbaycana olan əsassız torpaq iddialarına son qoyulsun. Bunlar təbii tələblərdir və biz də bu tələblərdə çox israrlıyıq.

Əlbəttə, bölgədə gedən proseslər, Türkiyənin, Azərbaycanın möhkəmlənməsi bizim mövqelərimizi daha da gücləndirir. Mən bilirəm ki, son illər ərzində Türkiyədə iqtisadiyyat çox sürətlə artır. Bir neçə il bundan əvvəl yaşanan iqtisadi böhran aradan qaldırılıbdır. İndi iqtisadiyyat sürətlə irəliyə gedir. O cümlədən Azərbaycanda da indi iqtisadiyyatda müsbət proseslər gedir, yeni iş yerləri açılır, iqtisadi artım var. Bu yaxınlarda açılışında iştirak edəcəyimiz Bakı-Tbilisi-Ceyhan neft kəmərinin tikintisi başa çatır. Eyni zamanda, "Şahdəniz" yatağından çıxarılan qaz artıq bu il Türkiyəyə nəql ediləcəkdir. Bütün bunlar həm iqtisadi, həm də siyasi hadisələrdir və bizim mövqeyimizi daha da möhkəmləndirəcəkdir. Azərbaycan Türkiyə vasitəsilə öz enerji daşıyıcılarını Avropaya nəql edəcəkdir. Bildiyiniz kimi, Avropada qaz məsələsi çox qabarıq şəkildə ortaya çıxıbdır. Yəni bölgədə gedən proseslər, bizim regional əməkdaşlığımız bizim mövqelərimizi möhkəmləndirir. Əlbəttə, bizi bağlayan çox dərin tarixi köklərdir, bizim milli mənsubiyyətimizdir, mədəniyyətimiz, tariximiz, qardaşlığımızdır. Bütün bunlar çox möhkəm təməldir. Ancaq bunlarla yanaşı, bölgədə gedən proseslər indi daha çox bizim birli-

yimizdən asılıdır. Biz nə qədər bir yerdə olsaq, siyasətimizi nə qədər əlaqələndirilmiş şəkildə aparsaq, o qədər də bölgədə istədiyimizə nail olacağıq.

Bu gün Türkiyədən, yaxud da Azərbaycandan yan keçməklə bölgədə heç bir - istər siyasi, istər iqtisadi layihə, istər nəqliyyat layihəsi, istərsə də hər hansı başqa layihə baş tuta bilməz. Bu, bizim önəmimizi artırır və biz birlikdə əlbəttə, həm bölgədə gedən proseslərə, həm də geniş mənada qitədə gedən proseslərə təsir mexanizmlərimizi daha da gücləndiririk. O cümlədən buna görə çox sıx əməkdaşlıq olmalıdır.

Siz qeyd etdiniz ki, bizim Milli Məclisin nümayəndə heyəti Türkiyəyə səfər etmişdir. Onlar da çox razı qayıtmışlar, onlara çox böyük hörmət göstərmişlər. Bu əlaqələr hər bir səviyyədə - dövlətlərarası, hökumətlərarası, millət vəkilləri, iş adamları, sənət adamları arasında əlaqələr - möhkəmlənməlidir. Biz bunu görürük və bu, bizim siyasətimizdir. Prezident kimi mən çox çalışıram ki, bu birlik daha da möhkəm olsun və biz bu məqsədlərə nail olaq.

Sizi bir daha ürəkdən salamlayıram. Siz doğma ölkənizdəsiniz, qardaşlar arasındasınız. Əminəm ki, burada keçirdiyiniz günlər xatirənizdə uzun illər qalacaqdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV QIRĞIZISTANIN DÖVLƏT KATİBİ DASTAN SARIQULOVU QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 15-də Prezident sarayında Qırğızıstanın dövlət katibi Dastan Sarıqulovu qəbul etmişdir.

Görüş zamanı Azərbaycan-Qırğızıstan ikitərəfli münasibətlərinin müxtəlif sahələri ilə bağlı məsələlər müzakirə edilmişdir.

Qırğızıstanın dövlət katibi ölkəsinin Prezidenti Kurmanbek Bakiyevin ehtiramını və salamlarını dövlətimizin başçısına çatdırmış, Qırğızıstan Prezidentinin məktubunu Prezident İlham Əliyevə təqdim etmişdir.

Qırğızıstan Prezidenti Dünya azərbaycanlılarının II qurultayının keçirilməsi münasibətilə dövlətimizin başçısını təbrik etmişdir.

Məktubda Azərbaycan Respublikasının milli maraqlarının müdafiə olunması ilə bağlı həyata keçirilən tarazlaşdırılmış dövlət siyasətinin əsasının xalqımızın ümummilli lideri Heydər Əliyev tərəfindən qoyulduğu vurğulanmış, müasir tariximizdə Azərbaycanın üzləşdiyi çətin anlarda, o cümlədən 20 Yanvar hadisələri zamanı məhz Heydər Əliyevin xalqımızın tarixi məsuliyyətinin müstəsna daşıyıcısı kimi siyasi iradəsini irəli sürmüş milli lider olduğu qeyd edilmişdir.

Daha sonra məktubda qardaş Azərbaycanın qırğız xalqı üçün müasir inkişaf istiqamətinin mühüm mənbələrindən biri olduğu vurğulanmışdır.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi və onun da salamını Qırğızıstan Prezidentinə çatdırmağı xahiş etdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ÇEXİYA VƏ AVROPA PARLAMENTLƏRİNİN ÜZVÜ JAN BREZİNANI QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 15-də Prezident sarayında Çexiya və Avropa parlamentlərinin üzvü Jan Brezinanı qəbul etmişdir.

Görüşdə Azərbaycan ilə Çexiya arasında əməkdaşlıq məsələləri barədə fikir mübadiləsi aparılmışdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV LİTVA PREZİDENTİNİN MÜŞAVİRİ XANIM HALİNA KOBESKAYTENİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 15-də Prezident sarayında Litva Prezidentinin müşaviri xanım Halina Kobeskayteni qəbul etmişdir.

Görüş zamanı Azərbaycan ilə Litva arasında müxtəlif sahələrdə əlaqələrin uğurla inkişaf etdiyi vurğulandı, Azərbaycan diasporunun Litvanın iqtisadi, ictimai həyatında fəal iştirakı bildirildi.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ VƏ İSVEÇRƏ KONFEDERASİYASININ FEDERAL ŞURASI ARASINDA TİCARƏT VƏ İQTİSADI ƏMƏKDAŞLIQ ÜZRƏ BİRGƏ KOMİSSİYASININ İKİNCİ İCLASI KEÇİRİLMİŞDİR

15 mart 2006-cı il tarixində Azərbaycan Respublikası Hökuməti və İsveçrə Konfederasiyasının Federal Şurası arasında ticarət və iqtisadi əməkdaşlıq üzrə Birgə Komissiyasının ikinci iclası Bern şəhərində keçirilmişdir. Azərbaycan nümayəndə heyətinə Azərbaycan Respublikasının İqtisadi İnkişaf Naziri Heydər Babayev rəhbərlik etmişdir.

İclas zamanı aparılmış müzakirələrin nəticəsi olaraq iqtisadi əməkdaşlıq, ticarət, investisiyalar, banklar, kənd təsərrüfatı, turizm, ətraf mühit, nəqliyyat sahələrində əməkdaşlığa dair tərəflər arasında Protokol imzalanmışdır. Həmin gün Nazir H.Babayev, həmçinin iki ölkə arasında əməkdaşlıq məsələlərinin müzakirəsi məqsədilə İsveçrənin Maliyyə Naziri Hans-Rudolfo Merts ilə görüş keçirmişdir.

16 mart tarixində Nazir H.Babayevin və Azərbaycanda fəaliyyət göstərmək və sərmayələr qoymaq marağında olan iri İsveçrə şirkətlərinin iştirakı ilə Sürix şəhərində investisiya seminarı keçirilmişdir. Tədbir İsveçrənin Sərmayələrin Asanlaşdırılması Təşkilatı (SOFİ), Azərbaycanda İxracın Təşviqi və İnvestisiya Fondu (AZPROMO) və Azərbaycan Respublikasının İsveçrədəki Səfirliyinin dəstəyi ilə təşkil olunmuşdur. İnvestisiya seminarında kənd təsərrüfatı, turizm və bank sahələrini təmsil edən şirkətlərin nümayəndələri iştirak etmişdirlər. Tədbirdə Nazir H.Babayev və AZPROMO-nun İcraçı Direktoru E.Məcidov çıxış edərək, Azərbaycan iqtisadiyyatının inkişafı və iş adamları üçün əlverişli şəraitlər və imkanlar barədə məlumat vermiş və iştirakçıları maraqlandıran suallara cavab vermişdirlər. Tədbir çərçivəsində İsveçrənin SOFİ və AZPROMO təşkilatları arasında əməkdaşlıq memorandumu imzalanmışdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV LATVİYANIN CƏMİYYƏTİN İNTEQRASİYASI MƏSƏLƏLƏRİNDƏ XÜSUSİ TAPŞIRIQLAR ÜZRƏ NAZİRİ AYNARS LATKOVSKİSİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 17-də Prezident sarayında Latviyanın cəmiyyətin inteqrasiyası məsələlərində xüsusi tapşırıqlar üzrə naziri Aynars Latkovskisin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Dövlətimizin başçısı Dünya azərbaycanlılarının II qurultayında Latviya nümayəndə heyətinin geniş tərkibdə iştirakından məmnunluğunu ifadə etdi. Prezident İlham Əliyev ölkələrimiz arasındakı münasibətlərin uğurla inkişaf etdiyini vurğuladı. O, Latviya Prezidentinin Azərbaycana səfərini və bu səfər çərçivəsində biznes forumun təşkil edildiyini məmnunluqla xatırladı. Dövlətimizin başçısı ölkələrimiz arasındakı münasibətlərin bundan sonra da inkişaf edəcəyinə ümidvar olduğunu bildirdi.

Aynars Latkovskis Dünya azərbaycanlılarının II qurultayına dəvət olunduqları üçün dövlətimizin başçısına təşəkkürünü bildirdi. Qonaq Latviyada yaşayan azərbaycanlıların ölkənin ictimai, iqtisadi həyatında və digər sahələrdə fəal iştirak etdiyini söylədi. O, ölkələrimiz arasındakı əlaqələrin bundan sonra da genişlənəcəyinə əminliyini vurğuladı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AVROPA İTTİFAQININ CƏNUBİ QAFQAZ ÜZRƏ XÜSUSİ NÜMAYƏNDƏSİ PETER SEMNEBEYİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 17-də Prezident sarayında Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Peter Semnebeyin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Dövlətimizin başçısı Peter Semnebeyi Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi vəzifəsinə təyin edilməsi münasibətilə təbrik etdi və ona bu fəaliyyətində müvəffəqiyyətlər arzuladı. Prezident İlham Əliyev Azərbaycan ilə Avropa İttifaqı arasındakı münasibətlərin uğurla inkişaf etdiyini vurğuladı və bu münasibətlərin bundan sonra da möhkəmlənəcəyinə ümidvar olduğunu bildirdi. O, iki il öncə Brüsselə etdiyi səfəri və Avropa İttifaqının sabiq sədrinin Azərbaycana səfərini məmnunluqla xatırladaraq, qarşılıqlı səfərlərin əlaqələrimizin inkişafına dəyərli töhfə verdiyini qeyd etdi. Dövlətimizin başçısı Avropa İttifaqının "Yeni qonşuluq siyasəti"nin həyata keçirilməsi, enerji məsələləri, Cənubi Qafqazdakı münaqişələrin həlli məsələlərində fəal iştirak etdiyini vurğuladı.

Peter Semnebey yeni vəzifəyə təyin olunduqdan sonra regiona ilk səfərini Azərbaycana etdiyini bildirdi. Qonaq Avropa İttifaqının Cənubi Qafqaz regionuna marağının getdikcə artdığını qeyd etdi. O, təmsil etdiyi qurum ilə Azərbaycan arasındakı münasibətlərin bundan sonra da inkişaf etdiriləcəyinə əminliyini vurğuladı.

İRAN İSLAM RESPUBLİKASININ BAKIDAKI SƏFİRLİYİNİN NOTASI İLƏ BAĞLI AZƏRBAYCAN RESPUBLİKASI XARİCİ İŞLƏR NAZİRLİYİNİN RƏSMİSİNİN AÇIQLAMASI

İran İslam Respublikasının Bakıdakı Səfirliyinin 17 mart 2006-cı il tarixli notası ilə əlaqədar Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinin mətbuat üzrə nümayəndəsi aşağıdakıları bildirir:

"Notadan göründüyü kimi, İran tərəfini Bakıda keçirilmiş Dünya Azərbaycanlılarının ikinci qurultayı zamanı nümayəndələrin çıxışlarında səslənmiş bəzi fikirlər narahat edib. Bununla bağlı bildirirəm ki, ictimai təşkilatların nümayəndələrinin qurultayı olan bu tədbirdə səslənmiş fikirlər onların şəxsi fikirləridir.

İİR ilə Azərbaycan Respublikası arasında dostluq və əməkdaşlıq, mehriban qonşuluq münasibətləri vardır. Bu münasibətlərin əsasını təşkil edən prinsiplər dövlətlərimizin rəhbərlərinin imzaladıqları sənədlərdə öz əksini tapıb və dəyişməz olaraq qalır.

Eyni zamanda qeyd edilməlidir ki, diplomatik nümayəndəliklərin fəaliyyət göstərdikləri ölkələrdə səfirlərin emosional çıxış və bəyanatları bu prinsiplərin əsasında qurulmuş əməkdaşlığa xələl gətirə bilər.

Ölkələrimiz arasında ikitərəfli əlaqələrin bütün sahələrdə genişlənməsini qeyd edərək bildirirəm ki, şəxsi fikirlər Azərbaycan - İran dostluq, əməkdaşlıq və mehriban qonşuluq münasibətlərinə təsir etməməlidir.

Bakı, 18 mart 2006-cı il

AZƏRBAYCAN NÜMAYƏNDƏ HEYƏTİ NARKOTİK VASİTƏLƏR ÜZRƏ BMT KOMİSSİYASININ 49-CU SESSİYASINDA İŞTİRAK ETMİŞDİR

Cari ilin 13-20 mart tarixlərində BMT-nin Vyana Şöbəsində keçirilmiş Narkotik Vasitələr üzrə BMT Komissiyasının 49-cu ümümdünya sessiyasında Azərbaycan Respublikasının BMT (Vyana) yanında Daimi Nümayəndəliyi, AR-nın Narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə üzrə Dövlət Komissiyası, Daxili İşlər, Milli Təhlükəsizlik və Xarici İşlər nazirliklərinin məsul əməkdaşlarından ibarət olan nümayəndə heyəti iştirak etmişdir.

Sessiyanın əsas məqsədi Narkotiklərə qarşı qlobal mübarizənin gücləndirilməsi, hökumətlər tərəfindən aparılan iş və keçirilmiş fəaliyyətin qiymətləndirilməsi, həmçinin yeni strateji istiqamətlərin müzakirə edilməsi olmuşdur.

Sessiyada AR nümayəndə heyəti gündəliyin bir neçə bəndlərinə dair milli qismdə, həmçinin GUAM ölkələri adından bəyanata qoşulmuşdur. Çıxışlarda Azərbaycanda narkotiklərə qarşı mübarizə sahəsində son dövr ərzində görülmüş işlər, o cümlədən müvafiq hüquqi bazanın yaradılması, bu sahədə aparılmış hüquq-mühafizə tədbirləri və mövcud olan problemlər haqda bildirilmişdir. Bütün çıxışlarda Ermənistan tərəfindən Azərbaycanın işqal edilmiş nəzarətsiz əraziləri probleminə xüsusilə toxunulmuşdur. Belə bir vəziyyətin narkotiklər, cinayətkarlıqla mübarizə və ümumiyyətlə bölgədə təhlükəsizliyə çox mənfi təsiri haqda sessiya iştirakçılarının nəzərinə çatdırılmışdır.

120-dən çox ölkənin nümayəndələrinin iştirakı ilə keçirilən 49-cu sessiyada AR məruzəsi böyük maraqla qarşılanmışdır. Sessiya zamanı 2005-ci ilin 12-16 sentyabr tarixlərində Bakıda keçirilmiş BMT-nin Yaxın və Orta Şərqdə Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsi üzrə Yardımçı Komissiyasının 40-cı sessiyasının yüksək səviyyədə təşkil olunması və uğurla keçirilməsi vurğulanmış, AR nümayəndə heyətinin səyləri nəticəsində yekun məruzədə öz əksini tapmışdır. Sessiya zamanı ən böyük nailiyyət olaraq AR Hökumətinin təşəbbüsü ilə irəli sürülmüş "Baki Razılaşması II" adlı qətnamənin qəbul olunması olmuşdur. Komissiya qətnaməni BMT İqtisadi və Sosial Şurası tərəfindən qəbul edilməsi üçün tövsiyə etmişdir.

Sessiya çərçivəsində AR nümayəndə heyəti Narkotiklərə Beynəlxalq Nəzarət Komitəsinin Prezidenti Həmid Gudsi, BMT-nin Narkotiklər və Cinayətkarlıq üzrə Təşkilatının İcraçı Direktorunun müavini Sumru Noyan, həmçinin təşkilatın bir sıra digər vəzifəli şəxsləri ilə görüşmüşdür. Görüşlər zamanı əsasən AR ilə BMNCİ-nin əməkdaşlığının istiqamətləri, regionda narkotiklərin qeyri-qanuni dövriyyəsi və mütəşəkkil cinayətkarlığa mübarizə yolları müzakirə edilmişdir.

Keçirilmiş görüşlərdə Azərbaycanın Avstriyadakı səfiri Fuad İsmayılov iştirak etmişdir.

AZƏRBAYCAN RESPUBLİKASI VƏ OPEK BEYNƏLXALQ İNKİŞAF FONDU ARASINDA SAZİŞ İMZALANMIŞDIR

Cari ilin 21 mart tarixində dəyəri 8 milyon ABŞ dolları olan "Azərbaycan Respublikası və OPEK Beynəlxalq İnkişaf Fondu arasında Samur-Apşeron irriqasiya sistemi layihəsi üzrə Kredit Sazişi" imzalanmışdır.

Sazişə uyğun olaraq verilən kredit Vəlvələçay-Taxtakörpü Kanalının tikilməsini maliyyələşdirəcək. Bu layihə suyun həm irriqasiya, həm daxili məqsəd üçün istifadə imkanlarının təkmilləşdiriləcəyinə yönələcəkdir.

Layihə həyata keçirildikdən sonra mövcud 150.000 hektar torpaq sahəsinin su təchizatının təkmilləşdirilməsi və daha 34.000 hektar torpaq sahəsinin irriqasiyası (suvarılması) mümkün olacaqdır. Bu kənd təsərrüfatının potensialını artırmaqla bərabər mənfəət imkanlarının yaradılmasına və həmçinin, sudan istifadə edilməsi imkanından bəhrələnəcək yerli əhalinin yaşayış səviyyəsinin yüksəldilməsinə xidmət edəcək.

Bu OPEK Beynəlxalq İnkişaf Fondu tərəfindən Azərbaycana ayrılan ikinci kreditdir. Birinci kredit avtomobil yollarının çəkilməsinə yönəlmişdir.

Kredit sazişi Azərbaycan Respublikası adından AR Avstriyadakı Səfiri Fuad İsmayılov və OPEK Fondu adından Fondun İdarə Heyətinin Sədri Camal Nasser Lutah tərəfindən imzalanmışdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AŞPA-NIN HÜQUQİ MƏSƏLƏLƏR VƏ İNSAN HÜQUQLARI KOMİTƏSİ SƏDRİNİN MÜAVİNİ EDUARD LİNTNERİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 22-də Prezident sarayında Avropa Şurası Parlament Assambleyasının Hüquqi məsələlər və insan hüquqları komitəsi sədrinin müavini, AŞPA-nın Monitorinq komitəsinin üzvü Eduard Lintnerin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Prezident İlham Əliyev cənab Eduard Lintner ilə Bakıda və Strasburqda əvvəllər keçirdiyi görüşləri məmnunluqla xatırladı. Dövlətimizin başçısı Azərbaycan ilə Avropa Şurası arasındakı əlaqələrin yaxşı səviyyədə olduğunu vurğuladı və əməkdaşlığın bundan sonra da inkişaf edəcəyinə əminliyini bildirdi.

Eduard Lintner Prezident İlham Əliyevin Avropa Şurası Parlament Assambleyasındakı fəaliyyətini məmnunluqla xatırlayaraq, onun təşkilat ilə əlaqələrə verdiyi əhəmiyyəti yüksək qiymətləndirdi. Qonaq Avropa Şurası ilə Azərbaycan arasındakı mövcud əməkdaşlığın daha da genişləndiriləcəyinə əminliyini ifadə etdi.

XARİCİ İŞLƏR NAZİRLİYİNDƏ GÖRÜŞ

Martın 28-də Xarici İşlər naziri Elmar Məmmədyarov Deniel Staynın başçılıq etdiyi ABŞ Ticarət və İnkişaf Agentliyinin nümayəndə heyəti ilə görüşmüşdür.

Transxəzər qaz layihəsi barədə fikirlərini bölüşən D.Stayn bu layihənin əhəmiyyətini, yeni qaz ixracı marşrutunun enerji təhlükəsizliyi və alternativ enerji mənbələrinin əldə olunması baxımından Avropa üçün önəmini vurğulamış, yeni layihənin Qazaxıstan qazının Xəzər dənizi vasitəsilə ixracına və Avropaya qazın alternativ marşrutla nəqlinə şərait yaradacağını bildirmişdir.

Nazir E.Məmmədyarov bu layihədə Azərbaycanın da maraqlı olduğunu söyləmiş, onun enerji təhlükəsizliyi cəhətdən əhəmiyyətini nəzərə çarpdırmışdır. O, enerji təhlükəsizliyinə dair bu yaxınlarda Bakıda konfransın keçirildiyini də xatırlatmışdır.

E.Məmmədyarov Azərbaycanın təkcə istehsalçı deyil, həm də tranzit ölkə kimi imkanlarının geniş olduğunu bildirmişdir. Nazir layihənin həyata keçirilməsi üçün bir sıra məsələlərin, o cümlədən texniki-iqtisadi əsaslandırmanın, bu işdə özəl şirkətlərin rolunun araşdırılmasına ehtiyac olduğunu, ABŞ Ticarət və İnkişaf Agentliyinin, habelə Dövlət Departamentinin bu sahədə əməkdaşlığının zəruriliyini diqqətə çatdırmışdır.

Tərəflər Azərbaycanda qeyri-neft sektorunun inkişafının zəruriliyini və bu sahədə əməkdaşlığın genişləndirilməsinin əhəmiyyətini xüsusi vurğulamışlar.

Görüşdə iştirak edən Lark-Horton Qlobal Konsaltinq və Ticarət və İnvestisiya İmkanlarının İnkişafı üzrə Beynəlxalq Fondun prezidenti və icraçı direktoru xanım Şeron Friman Azərbaycanda yaradılan Diplomatiya Akademiyası ilə bağlı fikirlərini bölüşmüşdür.

E.Məmmədyarov nazirliyə işə qəbul qaydaları barədə danışmışdır. Akademiyada Azərbaycanın siyasi, iqtisadi, ictimai həyatında, beynəlxalq aləmdə baş verən mühüm hadi-

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BEYNƏLXALQ QIRMIZI XAÇ KOMİTƏSİNİN PREZİDENTİ YAKOB KELLENBERGERİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 3-də Prezident sarayında Beynəlxalq Qırmızı Xaç Komitəsinin prezidenti Yakob Kellenbergerin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Dövlətimizin başçısı bu səfərin Azərbaycanda gedən proseslərlə, xüsusilə Ermənistanın ölkəmizə qarşı təcavüzü nəticəsində doğma yurdlarından qaçqın və məcburi köçkün düşmüş soydaşlarımızın vəziyyəti, üzləşdikləri çətinliklər və bunların aradan qaldırılması istiqamətində ölkəmiz tərəfindən atılmış addımlarla yaxından tanış olmaq baxımından əhəmiyyətli olduğunu qeyd etdi. Qaçqın və məcburi köçkünlərin vəziyyətinin ölkədə başlıca sosial problem olduğunu vurğulayan Prezident İlham Əliyev bu problemin həll edilməsi üçün hökumət tərəfindən zəruri tədbirlərin görüldüyünü bildirdi. O, Azərbaycanın sürətlə inkişaf edən iqtisadiyyatının ölkədəki bütün sosial problemlərin həllinə kömək göstərəcəyinə əminliyini söylədi.

Yakob Kellenberger Azərbaycana ilk dəfə 1995-ci ildə İsveçrənin xarici işlər üzrə dövlət katibi kimi səfər etdiyini və o vaxt xalqımızın ümummilli lideri Heydər Əliyev ilə görüşdüyünü məmnunluqla xatırladı. O, həmin dövrdən bəri ölkəmizdə böyük dəyişikliklərin baş verdiyini, iqtisadiyyatın uğurla inkişaf etdiyini bildirdi. Qonaq qaçqın və məcburi köçkünlərin problemlərinin həll edilməsi üçün Azərbaycan hökuməti tərəfindən görülmüş tədbirlərin, xüsusilə onların müvəqqəti olaraq çadırlardan yeni yaşayış yerlərinə köçürülmələrinin əhəmiyyətli olduğunu vurğuladı.

TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ ƏHMƏD NECDƏT SEZƏRİN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin dəvəti ilə Türkiyə Respublikasının Prezidenti Əhməd Necdət Sezər aprelin 4-də Bakıya ikigünlük rəsmi səfərə gəlmişdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ TÜRKİYƏ PREZİDENTİ ƏHMƏD NECDƏT SEZƏRİN TƏKBƏTƏK GÖRÜŞÜ

Aprelin 4-də Prezident sarayında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Türkiyə Respublikasının Prezidenti Əhməd Necdət Sezərin təkbətək görüşü olmuşdur.

Azərbaycanın Prezidenti Türkiyənin dövlət başçısının Bakıya rəsmi səfərini yüksək qiymətləndirdi, bu səfərin dost və qardaş ölkələrimiz arasında siyasi, iqtisadi, mədəni və digər sahələrdə əlaqələrin daha da möhkəmlənməsinə yeni təkan verəcəyini vurğuladı. Prezident İlham Əliyev Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli məsələsində Türkiyənin tutduğu mövqeyə və Azərbaycana verdiyi dəstəyə görə təşəkkürünü bildirdi.

Prezident Əhməd Necdət Sezər Azərbaycanla bütün sahələrdə ikitərəfli əlaqələrin inkişafından məmnunluğunu söylədi, beynəlxalq təşkilatlarda mövcud əməkdaşlığın gələcəkdə də davam edəcəyini və Azərbaycanın ədalətli mövqeyini bundan sonra da dəstəkləyəcəklərini xüsusi vurğuladı.

Görüşdə ikitərəfli münasibətlər, regional və beynəlxalq layihələr, qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında geniş fikir mübadiləsi aparıldı.

AZƏRBAYCAN VƏ TÜRKİYƏ PREZİDENTLƏRİNİN GENİŞ TƏRKİBDƏ GÖRÜŞÜ

Aprelin 4-də Prezident sarayında, təkbətək görüşdən sonra Azərbaycan Prezidenti İlham Əliyevin və Türkiyə Prezidenti Əhməd Necdət Sezərin nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü keçirilmişdir.

Prezident İlham Əliyev Türkiyə Prezidenti Əhməd Necdət Sezəri və səfərdə onu müşayiət edən nümayəndə heyətinin üzvlərini bir daha salamlayaraq, bu səfərə çox böyük əhəmiyyət verdiyini, iki qardaş ölkənin həmişə birlikdə olduğunu vurğuladı. Dövlətimizin başçısı dedi ki, bizim birliyimiz həm ölkələrimiz üçün, həm də bölgə üçün önəmli amildir. Bizi birləşdirən tarixi əlaqələr, mədəni əlaqələr indiki zəmanədə çox mühüm rol oynayır. Eyni zamanda, siyasi əlaqələrimiz də çox yüksək səviyyədədir. Türkiyə ilə Azərbaycanın əlaqələri dünya üçün ən önəmli sahələrdən biri olan enerji sektorunu da əhatə edir. Bu sahədəki irimiqyaslı layihələr bizi daha da sıx birləşdirir. Mən əminəm ki, Sizin səfəriniz və buradakı görüşləriniz bizim birliyimizi daha da gücləndirəcək, Türkiyə-Azərbaycan, iki qardaş ölkə bir-biri ilə daha da sıx bağlı olacaqdır.

Bildiyiniz kimi, bizim aramızda çox fəal siyasi dialoq aparılır. Bütün məsələlər fəal şəkildə müzakirə olunur, ticarət əlaqələrimiz də inkişaf edir. Bütün sahələrdə olduğu kimi, mədəni, humanitar sahələrdə də çox böyük nailiyyətlər, birgə proqramlar var və onlar uğurla icra edilir. Mən əminəm ki, bu səfər də ikitərəfli əlaqələrin inkişafında mühüm rol oynayacaq və çox uğurlu olacaqdır.

Türkiyə Prezidenti Əhməd Necdət Sezər ona və nümayəndə heyətinə göstərilən qonaqpərvərliyə görə Azərbaycan Prezidentinə və xalqına dərin təşəkkürünü bildirdi, qardaş ölkəyə beşinci dəfə gəlməsindən və burada keçirilən görüşlərdən məmnunluğunu söylədi. O, xalqlarımız arasında tarixi və mədəni əlaqələrin sağlam təməllər üzərində qurulduğunu vurğulayaraq dedi ki, Türkiyə ilə Azərbaycan arasında heç bir siyasi problem olmamışdır. Bütün sahələrdə, o cümlədən enerji sektorunda işbirliyimiz davam edir. Ticarət əlaqələri çox uğurla inkişaf etməkdədir. 2004-cü ildə 550 milyon dollar həcmində olan ticarət dövriyyəsi 2005-ci ildə 795 milyon dollara çatmışdır və bu il 1 milyard dolları keçəcəkdir. Düşünürük ki, bunun daha da artırılması üçün yetərincə imkanlarımız vardır.

Prezident Əhməd Necdət Sezər Türkiyənin iş adamlarının Azərbaycana marağının böyük olduğunu vurğulayaraq dedi ki, onların Azərbaycana qoyduqları sərmayə 2,2 milyard dollara çatmışdır və inanırıq ki, bu, gələcək illərdə daha da artacaqdır. Qarşıdakı illərdə enerji sektorunda, xüsusilə neft sahəsində "Türk Petrolları" şirkəti tərəfindən görüləcək işlərin həcmi 4,5 milyard dollar həcmində olacaqdır.

Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli, regional və beynəlxalq layihələr barədə də söhbət getdi.

AZƏRBAYCAN VƏ TÜRKİYƏ PREZİDENTLƏRİNİN MƏTBUAT ÜÇÜN BƏYANATLARI

Aprelin 4-də Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Əhməd Necdət Sezər Prezident sarayında aparılan danışıqların nəticəsinə dair mətbuat üçün bəyanatlarla çıxış etdilər.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN BƏYANATI

- Hörmətli cənab Prezident!

Əziz qardaşım!

Hörmətli qonaqlar, xanımlar və cənablar!

Mən sizin hamınızı ürəkdən salamlayıram, bir daha "Azərbaycana xoş gəlmisiniz!" deyirəm.

Biz Türkiyə Cümhuriyyətinin Prezidenti Əhməd Necdət Sezərin Azərbaycana rəsmi səfərinə çox böyük əhəmiyyət, böyük önəm veririk. Bu səfər bizim aramızda olan əlaqələrə yeni təkan verəcəkdir.

Bildiyiniz kimi, Azərbaycanla Türkiyə arasındakı münasibətlər ən yüksək səviyyədədir və Azərbaycan öz dövlət müstəqilliyini bərpa etdikdən sonra daim Türkiyənin dəstəyini, köməyini hiss edirdi. Biz bunu bu gün də hiss edirik. Bütün sahələrdə əməkdaşlıq çox uğurludur və bu gün biz onun əsas istiqamətlərini müzakirə etdik, gələcək perspektivlər haqqında fikir mübadiləsi apardıq. Həm siyasi, həm iqtisadi, həm də humanitar sahələrdə münasibətlərimiz ən yüksək zirvədədir.

Bu gün eyni zamanda, beynəlxalq layihələr haqqında söhbət açılmış, regional əməkdaşlıq məsələləri müzakirə edilmişdir. Türkiyə və Azərbaycan dünya üçün çox önəmli, əhəmiyyətli enerji layihələrini həyata keçirirlər. Bizim birgə fəaliyyətimiz, uğurlu işbirliyimiz bu layihələri irəliyə aparır. Bakı-Tbilisi-Ceyhan və Bakı-Tbilisi-Ərzurum neft və qaz kəmərləri uğurla inşa edilir və bu il biz onların istismarına nail olacağıq. Əlbəttə, açılan bu enerji dəhlizi yeni imkanlar yaradacaqdır. Bu, bizi daha da sıx birləşdirəcək və ölkələrimizin əhəmiyyətini artıracaqdır.

Bu gün biz başqa bir layihə - Qars-Tbilisi-Bakı dəmir yolunun tikintisi haqqında da danışdıq. Bu məsələdə də bizim aramızda heç bir fikir ayrılığı yoxdur. Türkiyə, Azərbaycan və Gürcüstan bu layihədə də fəal iştirak etmək əzmindədirlər. Mən əminəm ki, biz bu layihədə də uğura nail olacağıq.

Təbii ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli məsələsi də müzakirə olundu. Türkiyə bu məsələdə daim Azərbaycanın yanındadır, bizi dəstəkləyir və bu, bizim üçün çox önəmlidir. Biz bu dəstəyə görə minnətdarıq. Münaqişənin həlli məsələsində Azərbaycanın mövqeyi dəyişməz olaraq qalır. Bu məsələ yalnız beynəlxalq hüquq normaları əsasında öz həllini tapa bilər. Azərbaycanın ərazi bütövlüyü bərpa olunmalıdır. Bu işğala son qoyulmalı, Ermənistanın azərbaycanlılara qarşı etnik təmizləmə siyasəti nəticəsində yurd-yuvasından didərgin düşmüş soydaşlarımız öz doğma torpaqlarına qayıtmalıdırlar. Bu prinsiplər həm reallığı, ədaləti əks etdirir, eyni zamanda, beynəlxalq hüquq normalarına da uyğundur. Türkiyənin bu məsələyə dair mövqeyi ədalətlidir və biz buna görə çox minnətdarıq.

Ölkələrimiz arasında ticarət əlaqələri də yüksək sürətlə inkişaf edir. Bu onu göstərir ki, həm Türkiyədə, həm də Azərbaycanda müşahidə olunan iqtisadi artım yeni imkanlar açır. Azərbaycanda son il iqtisadiyyat çox yüksək sürətlə inkişaf edib, iqtisadi artım 26 faizdən çox olubdur. Bu il həmin rəqəm daha da böyük olacaqdır. İqtisadiyyat artdıqca, əlbəttə, qarşılıqlı ticarət əlaqələrinin inkişafı üçün də yaxşı imkan yaranır. İş adamları bu gözəl imkanlardan səmərəli istifadə etməlidirlər. Ancaq bununla yanaşı, əlbəttə, iqtisadi əlaqələrin, ticarət dövriyyəsinin indiki səviyyəsi bizim potensialımızı tam əks etdirmir. Bizim imkanlarımız daha da genişdir.

Bir sözlə, ikitərəfli münasibətləri ehtiva edən bütün məsələlər bu gün müzakirə olundu. Mən çox məmnunam ki, danışıqlar çox səmərəli keçdi. Şübhə etmirəm ki, bu səfərdən sonra bizim əlaqələrimiz daha yüksək zirvəyə qalxacaqdır. Təşəkkür edirəm.

TÜRKİYƏ PREZİDENTİ ƏHMƏD NECDƏT SEZƏRİN BƏYANATI

- Dəyərli mətbuat nümayəndələri!

Cümhurbaşqanı hörmətli İlham Əliyevin dəvəti ilə dost və qardaş Azərbaycanı bir daha ziyarət etməkdən məmnunluq duyuram. Bizə göstərilən qardaşlıq münasibətinə və qonaqpərvərliyə görə təşəkkür edirəm.

Cümhurbaşqanı hörmətli Əliyevlə təkbətək və nümayəndə heyətlərinin iştirakı ilə faydalı görüşlərimiz oldu. Görüşlərimizdə siyasi və iqtisadi sahələr başda olmaqla ikitərəfli əlaqələrimizin bütün dairəsini nəzərdən keçirdik. Heç bir problemsiz davam edən çoxşaxəli əlaqələrimizin hər sahədə daha da dərinləşdirilməsinin zəruriliyini bildirdik.

Türkiyə-Azərbaycan əlaqələrinin qarşılıqlı istək və sarsılmaz təməllər əsasında davam etdirilməsində qərarlı olduğumuzu bir daha vurğuladıq. Qardaş ölkə Azərbaycanla əlaqələrimiz ortaq tarix və mədəniyyətlə yanaşı, bu gün hər sahədə inkişaf edən güclü bir işbirliyinə söykənir. Türkiyə Azərbaycanın təhlükəsizlik, əmin-amanlıq və inkişaf yolundakı bütün hədəflərini paylaşır və dəstəkləyir.

Görüşlərimizdə ölkələrimizi yaxından maraqlandıran regional sahələrə aid məsələləri də müzakirə etdik. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin və Cənubi Qafqaz bölgəsindəki digər problemlərin sülh yolu ilə çözülməsi üçün ata biləcəyimiz qarşılıqlı addımları vurğuladıq. Dağlıq Qarabağ məsələsinin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində, beynəlxalq hüquq normalarına uyğun olaraq sülh yolu ilə aradan qaldırılmasını istəyir, bu sahədəki fəaliyyəti dəstəkləyirik. Bu mövqeyimizi və Cənubi Qafqazda əsaslı sülhün yaranması və qorunması üçün əlimizdən gələni etməyə hazır olduğumuzu azərbaycanlı qardaşlarımıza bir daha çatdırdıq.

Cənubi Qafqazda sülh, sabitlik və əmin-amanlıq əsasında işbirliyinin qurulması sahəsində hörmətli Əliyev ilə eyni fikirdə olduğumu görməkdən məmnunluq duyuram. Kipr türklərinin beynəlxalq təcriddən qurtarması sahəsində Azərbaycanın verdiyi dəstəkdən duyduğumuz məmnunluğu bir daha vurğuladım.

Türkiyə və Azərbaycan arasındakı həmrəylik və işbirliyi bütün bölgə ölkələrinə örnək-

dir. Bu həmrəyliyin xalqlarımızın müştərək inkişafına təsiri önümüzdəki aylarda istismara veriləcək Bakı-Tbilisi-Ceyhan neft kəməri kimi layihələrlə yanaşı, həyata keçirilməkdə olan yeni layihələrlə daha da artacaqdır. Bu fürsətdən istifadə edərək, cümhurbaşqanı hörmətli Əliyevi Bakı-Tbilisi-Ceyhan boru kəməri ilə nəql ediləcək neftin ilk tankerə yüklənməsi münasibətilə Ceyhanda keçiriləcək mərasimə dəvət etdim.

Görüşlərimizdə ölkələrimizi strateji baxımdan daha da yaxınlaşdıracaq Bakı-Tbilisi-Ərzurum qaz kəmərinin bir müddət sonra istismara verilməsi və Bakı-Tbilisi-Axalkalaki-Qars dəmir yolu xəttinin çəkilməsində qərarlı olduğumuzu bir daha vurğuladıq.

Səfərimin Türkiyə ilə Azərbaycan arasındakı qardaşlıq əlaqələrinin inkişafında konkret rol oynayacağına və münasibətlərimizin bütün sahələrdə daha da genişlənməsinə təkan verəcəyinə inanır, hamınızı ən xoş diləklərlə salamlayıram.

ALİ QONAĞIN ŞƏRƏFİNƏ

Aprelin 4-də Bakı Əyləncə Mərkəzində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin adından Türkiyə Respublikasının Prezidenti Əhməd Necdət Sezərin şərəfinə rəsmi ziyafət verilmişdir.

Salona toplaşanlar dövlət başçılarını və onların xanımlarını hərarətlə qarşıladılar.

Prezident İlham Əliyev və Prezident Əhməd Necdət Sezər qəbulda nitq söylədilər.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ

- Türkiyə Cümhuriyyətinin Prezidenti, əziz qardaşım Əhməd Necdət Sezər!

Hörmətli Səmra xanım!

Xanımlar və cənablar!

Əziz qonaqlar!

Mən sizi Azərbaycanda bir daha ürəkdən salamlayıram, sizə "Xoş gəlmisiniz!" deyirəm.

Biz bu səfərə çox böyük əhəmiyyət veririk. Çünki bu səfər ikitərəfli əlaqələrimizin inkişafına güclü təkan verəcəkdir. Türkiyə ilə Azərbaycan arasında əlaqələr dostluq, qardaşlıq zəminində qurulubdur. Bizim xalqlarımız bir-birinə daim çox bağlı olmuşlar. Ancaq dövlətlərarası münasibətlər Azərbaycan müstəqilliyə qovuşduqdan sonra başladı və o gündən bu günə qədər bu münasibətlər çox sürətlə inkişaf etmişdir. Türkiyə Azərbaycanın müstəqilliyini tanıyan ilk ölkə olmuşdur və biz Türkiyədən daim dəstək və kömək hiss edirik. Bu dəstəyə və köməyə görə sizə çox minnətdarıq.

Bizim münasibətlərimizi müəyyən edən təməl prinsipləri vardır. Böyük öndər Mustafa Kamal Atatürkün "Azərbaycanın kədəri bizim kədərimiz, sevinci bizim sevincimizdir!", Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin "Türkiyə və Azərbaycan bir millət, iki dövlətdir!" prinsipləri bizim bugünkü münasibətlərimizi müəyyən edir və əminəm ki, gələcəkdə bu münasibətlər daha da möhkəmlənəcəkdir.

Azərbaycan ilə Türkiyə arasında olan işbirliyi, əlaqələr təkcə ölkələrimiz, xalqlarımız üçün deyil, bütün bölgə üçün böyük əhəmiyyət daşıyır. Xüsusilə indiki zamanda Türkiyə və Azərbaycan bölgədə və dünyada öz mövqelərini möhkəmləndirirlər. Bizi birləşdirən nəhəng enerji layihələrinin həm bölgənin inkişafı üçün, bölgədə sülhün, təhlükəsizliyin möhkəmlənməsi üçün, eyni zamanda, dünya üçün çox böyük əhəmiyyəti vardır. Bu il Bakı-Tbilisi-Ceyhan neft kəməri işə düşməlidir, eyni zamanda, Bakı-Tbilisi-Ərzurum qaz kəməri istifadəyə verilməlidir. Bunlar dünyamiqyaslı layihələrdir və ilk növbədə, dövlətlərimizi möhkəmləndirəcək, eyni zamanda, bizim önəmimizi də artıracaqdır. Azərbaycan və Türkiyə Xəzər dənizinin təbii ehtiyatlarını dünya və Avropa bazarlarına çıxarılması üçün çox önəmli ölkələrə çevrilir.

Bununla yanaşı, dəmir yolunun birləşməsi məsələsi də çox böyük əhəmiyyət daşıyır və Bakı-Tbilisi-Qars dəmir yolu layihəsi də artıq gündəlikdədir. Bu gün bu barədə də söhbət açılmış, fikir mübadiləsi aparılmışdır. Əminəm ki, bu layihə də həyata keçiriləcək və beləliklə, Orta Asiyanı, Azərbaycanı Türkiyə ilə birləşdirən dəmir yolu da istismara veriləcəkdir. Bir vaxtlar bəziləri Bakı-Tbilisi-Ceyhan neft kəmərinə də əfsanə kimi yanaşırdılar. Ancaq bizim birgə səylərimiz, uğurlu fəaliyyətimiz, regional əməkdaşlıq bu əfsanəni gerçəkliyə çevirdi. Şübhə etmirəm ki, gələcəkdə həyata keçiriləcək layihələr də uğurlu olacaqdır.

Bu gün eyni zamanda, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli yolları da müzakirə edilmişdir. Bildiyiniz kimi, Türkiyə bu məsələ ilə bağlı daim Azərbaycanın yanındadır. Biz daim bu dəstəyi hiss edirik və bu, bizim üçün çox önəmlidir, Azərbaycanın mövqelərini möhkəmləndirən bir amildir. Azərbaycan bu münaqişəni yalnız beynəlxalq hüquq əsasında həll etmək əzmindədir. Beynəlxalq hüquq normaları hər yerdə tətbiq olunmalıdır. Beynəlxalq normalara riayət edilməlidir və davranış qaydaları da hamı üçün eyni olmalıdır. Biz bu dünyada yaşayırıq, dünyanın bir hissəsiyik və dünyada, beynəlxalq təşkilatlarda qəbul edilmiş normalar bütün ölkələr üçün əsas olmalıdır. Azərbaycanın mövqeyi də məhz bundan ibarətdir ki, ölkəmizin dünya tərəfindən, Birləşmiş Millətlər Təşkilatı tərəfindən tanınmış ərazi bütövlüyü bərpa olunmalıdır. Azərbaycanın suverenliyi bərpa edilməli, zəbt olunmuş torpaqlar işğalçı qüvvələrdən təmizlənməlidir və Ermənistanın azərbaycanlılara qarşı etdiyi etnik təmizləmə siyasətinin nəticələri aradan qaldırılmalıdır. Bizim bu mövqeyimiz dəyişməz olaraq qalır və münaqişə yalnız bu prinsiplər əsasında öz həllini tapa bilər. Türkiyənin Azərbaycana dəstəyi, bu məsələ ilə bağlı bəyanatları, təklifləri bizim üçün çox önəmlidir və münaqişənin həlli üçün böyük rol oynayır.

Bizim iqtisadi əlaqələrimiz də sürətlə inkişaf edir. Son il ərzində ticarət dövriyyəsi çox böyük sürətlə artıbdır. Bu, onu göstərir ki, iqtisadi əlaqələrimiz də yeni mərhələyə qədəm qoyubdur. Bu, bizi çox sevindirir, çünki iqtisadi əlaqələrimiz nə qədər güclü olsa, bu, bütün başqa sahələrə də təsir göstərəcəkdir. İndi Türkiyənin və Azərbaycanın iqtisadi uğurları göz qabağındadır. Türkiyənin iqtisadiyyatı artır və sürətlə inkişaf edir. Kəsadi uğurları göz qabağındadır. Türkiyənin iqtisadiyyatı artır və sürətlə inkişaf edir. Keçən il Azərbaycanda iqtisadi artım 26,4 faiz təşkil etmişdir. Bu il isə həmin rəqəm daha da böyük olacaqdır. Yeni imkanlar açılır, yeni layihələr həyata keçiriləcəkdir. Biz Azərbaycanda fəaliyyət göstərən türk iş adamlarını da bu əməkdaşlığa dəvət edirik. Artıq Azərbaycanda Türkiyədən gəlmiş və burada yaşayan minlərlə iş adamı fəaliyyət göstərir. Biz də çalışırıq ki, onlara daim diqqət, kömək göstərək. İnvestisiya mühitini sağlamlaşdırmaq üçün müvafiq tədbirlər də görülür. İqtisadi əlaqələr nə qədər güclü olsa, təbii ki, bütün başqa əlaqələr də güclənəcəkdir.

sələr barədə analitik materialların hazırlanacağını, digər ali məktəblərlə tələbə və müəllim mübadiləsinin nəzərdə tutulduğunu bildirən nazir yeni təhsil ocağına təkcə xarici siyasət idarəsi əməkdaşlarının deyil, digər hökumət qurumları işçilərinin də cəlb olunacağını söyləmişdir.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da müzakirələr aparılmışdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İTALİYANIN ƏDLİYYƏ NAZİRİ, SENATOR ROBERTO KASTELLİNİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 30-da Prezident sarayında İtaliyanın ədliyyə naziri, senator Roberto Kastellinin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Dövlətimizin başçısı Azərbaycan ilə İtaliya arasındakı münasibətlərin uğurla inkişaf etdiyini vurğuladı. O, keçən il İtaliyaya etdiyi rəsmi səfəri məmnunluqla xatırlayaraq, səfər zamanı ikitərəfli əlaqələrimizin müxtəlif sahələri üzrə əməkdaşlıq məsələlərinin geniş müzakirə olunduğunu qeyd etdi. Prezident İlham Əliyev Azərbaycan ilə İtaliya arasında müxtəlif səviyyələrdə intensiv dialoqun aparıldığını vurğuladı və nazirin bu səfərinin ölkələrimiz arasındakı əlaqələrin inkişafına töhfə verəcəyinə ümidvar olduğunu bildirdi.

Roberto Kastelli İtaliya ilə Azərbaycan arasındakı münasibətləri çox yüksək qiymətləndirdi və əlaqələrimizin daha da inkişaf etdiriləcəyinə əmin olduğunu bildirdi. O, Prezident İlham Əliyevin keçən il İtaliyaya rəsmi səfərinin uğurla keçdiyini vurğuladı və bu səfərin əlaqələrimizin daha da inkişaf etdirilməsi baxımından böyük əhəmiyyət daşıdığını qeyd etdi.

Sonra Roberto Kastelli İtaliya Nazirlər Şurasının sədri Silvio Berluskoninin məktubunu dövlətimizin başçısına təqdim etdi. Məktubda Silvio Berluskoni Prezident İlham Əliyevin 2005-ci ilin fevralında İtaliyaya səfəri zamanı onunla Romada keçirdiyi görüşü daim xatırladığını qeyd etmiş və bu səfərin ölkələrimiz arasındakı əlaqələrin inkişafına böyük təkan verdiyini vurğulamışdır. O, Bakı-Tbilisi-Ceyhan əsas neft ixracı kəmərinin açılışının Azərbaycanın həm siyasi, həm də iqtisadi həyatında, xüsusilə italyan şirkətlərinin də iştirak etdiyi energetika sahəsində müsbət inkişafının daha bir təsdiqi olduğunu bildirmişdir.

Silvio Berluskoni Azərbaycanın Avropaya tam inteqrasiyası yolunda demokratik, iqtisadi və sosial inkişafı baxımından daha yüksək nailiyyətlər əldə etməsi barədə özünün və bütün İtaliya xalqının arzularını ölkəmizin başçısına çatdırmış, İtaliyanın bu məsələdə Azərbaycana hər cür yardım göstərməyə daim hazır olduğunu bildirmişdir.

İtaliya Nazirlər Şurasının sədri İtaliya biznesinin Azərbaycanın gələcəyinə böyük ümidlər bəslədiyini qeyd etmiş və çoxsaylı italyan şirkətlərinin ölkəmizə investisiya qoymaq marağında olduğunu vurğulamışdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BİRLƏŞMİŞ ƏRƏB ƏMİRLİKLƏRİNİN RAS ƏL-XEYMƏ ƏMİRLİYİ HÖKMDARININ MÜAVİNİ VƏ VƏLİƏHDİ ŞEYX SƏUD BİN SAQR ƏL-QASİMİNİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 31-də Prezident sarayında Birləşmiş Ərəb Əmirliklərinin Ras əl-Xeymə Əmirliyi Hökmdarının müavini və Vəliəhdi Şeyx Səud bin Saqr əl-Qasiminin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Dövlətimizin başçısı Azərbaycan ilə Birləşmiş Ərəb Əmirlikləri arasındakı münasibətlərin yaxşı səviyyədə olduğunu, ölkələrimizin müxtəlif sahələrdə sıx əməkdaşlıq etdiyini vurğuladı. Prezident İlham Əliyev bu səfərin ikitərəfli münasibətlərimizin bundan sonra da inkişaf etməsinə töhfə verəcəyinə ümidvar olduğunu bildirdi.

Şeyx Səud bin Saqr əl-Qasimi Azərbaycanda baş vermiş böyük dəyişikliklərin onda xoş təəssürat yaratdığını söylədi. Qonaq Birləşmiş Ərəb Əmirlikləri ilə Azərbaycan arasındakı əlaqələrin strateji tərəfdaşlıq xarakteri daşımasında ölkəsinin maraqlı olduğunu bildirdi və münasibətlərimizin bundan sonra da inkişaf edəcəyinə əminliyini vurğuladı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ABŞ-IN DÖVLƏT KATİBİ YANINDA DÖVLƏT PLANLAŞDIRMASI ÜZRƏ DİREKTOR STEFEN KRAZNERİ VƏ DÖVLƏT KATİBİNİN AVROPA VƏ AVRASİYA MƏSƏLƏLƏRİ ÜZRƏ MÜŞAVİRİ MƏTYU BRAYZANI QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 3-də Prezident sarayında ABŞ-ın dövlət katibi yanında dövlət planlaşdırması üzrə direktor Stefen Krazneri və dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə müşaviri Mətyu Brayzanı qəbul etmişdir.

Dövlətimizin başçısı Azərbaycan ilə ABŞ arasındakı əməkdaşlığın müxtəlif sahələrdə uğurla inkişaf etdiyini vurğuladı. O, iki ölkə arasındakı tərəfdaşlığın regionun inkişafı üçün vacib amil olduğunu qeyd etdi. Bu görüşün ikitərəfli əlaqələrin, qarşılıqlı maraq doğuran məsələlərin müzakirə edilməsi üçün yaxşı imkan yaratdığını vurğulayan Prezident İlham Əliyev Azərbaycan ilə ABŞ arasında əməkdaşlığın gələcəkdə də genişlənəcəyinə ümidvar olduğunu bildirdi.

Stefen Krazner Əfqanıstanda, Kosovoda və dünyanın digər qaynar nöqtələrində terror əleyhinə mübarizədə Azərbaycanın dəstəyinin ölkəsi tərəfindən yüksək qiymətləndirildiyini vurğuladı. O, iki ölkə arasındakı münasibətlərin mühüm xarakter daşıdığını qeyd etdi və əlaqələrimizin bir çox sahələrdə uğurla inkişaf etməsindən məmnun olduğunu bildirdi.

Yenə də demək istəyirəm ki, bizi birləşdirən tarixi köklər, müştərək tariximiz, ənənələrimiz, dinimiz, dilimiz, mədəniyyətimizdir. İki qardaş ölkə - Türkiyə və Azərbaycan bu gözəl və möhkəm təməl üzərində öz münasibətlərini möhkəmləndirir, yeni layihələr üzərində işləyirlər. Ölkələrimiz üçün, bölgə üçün, dünya üçün önəmli olan məsələlər indi Ankarada və Bakıda həll olunur və bu da həqiqətdir. Mən şübhə etmirəm ki, gələcəkdə bizim mövqelərimiz daha da möhkəmlənəcəkdir. Türkiyə-Azərbaycan birliyi bizim uğurlu inkişafımız üçün başlıca şərtdir.

Əziz qardaşım, hörmətli Cümhurbaşqanı, Sizi Bakıda bir daha salamlayıram. Bu badəni Türkiyənin Cümhurbaşqanı, əziz qardaşım Əhməd Necdət Sezərin şərəfinə, Səmra xanımın şərəfinə, bütün qardaş türk xalqının şərəfinə, Türkiyə Cümhuriyyətinin şərəfinə qaldırıram.

Sağ olun.

TÜRKİYƏ PREZİDENTİ ƏHMƏD NECDƏT SEZƏRİN NİTQİ

- Hörmətli Cümhurbaşqanı!

Çox hörmətli xanım Əliyeva!

Dəyərli qonaqlar!

Qardaş Azərbaycanı ziyarət etməkdən böyük məmnunluq duyuram. Bakıya gəlişimizdən başlayaraq, bizlərə göstərilən yaxın münasibət və səmimi qonaqpərvərlik üçün sizə təşəkkür edirəm.

Səfər zamanı müstəqillik qazanmasından sonra çox qısa bir müddət ərzində Azərbaycanın nail olduğu böyük irəliləyişi və hər sahədə gerçəkləşdirdiyi işləri bir daha görmək imkanı qazandıq.

Türkiyə-Azərbaycan qardaşlığının çoxşaxəli işbirliyi ilə dərinləşdiyini, gücləndiyini görməkdən məmnunluq hissi keçiririk.

Türkiyə-Azərbaycan qardaşlığı və həmrəyliyi öz xüsusiyyətlərinə görə xüsusilə fərqlənir. Bu münasibətlərin banisi, dəyərli dostum, böyük öndər Prezident Heydər Əliyevin məşhur deyimi ilə ifadə etsək, "Türkiyə və Azərbaycan *bir millət, iki dövlətdir*". Biz iki qardaş ölkə arasındakı nümunəvi münasibətlərin daha da inkişaf etdirilməsini arzulayırıq. Bu gün keçirdiyimiz danışıqlar zamanı Azərbaycanın da bizimlə eyni fikirdə olduğunu məmnunluq hissi ilə müşahidə etdik.

Ölkələrimiz arasındakı əməkdaşlığın digər bir ortaq məqsədi bölgəmizdə sülh, əmin-amanlıq, təhlükəsizlik, rifah və sabitliyə töhfə verməkdir. Bu ortaq məqsədə yönəlmiş Bakı-Tbilisi-Ceyhan neft boru kəmərinin qarşıdakı aylarda istismara verilməsi strateji əhəmiyyətə malik bir əməkdaşlıq layihəsinin həyata keçirilməsi olacaqdır. Ötən *il may ayının sonunda Bakıda təşkil edilən* mərasimdə hamımızın birlikdə Türkiyəyə nəql etməyə başladığımız neft tezliklə Ceyhana çatacaq və Xəzər nefti bu yolla bütün dünyaya ötürüləcəkdir. Cənubi Qafqaz ilə Orta Asiya ölkələrinin, hətta Çinin Avropaya, Aralıq dənizi və Atlantik okeanı hövzəsinə çıxması baxımından Bakı-Tbilisi-Ceyhan neft kəməri kimi mühüm funksiyaları yerinə yetirəcək digər layihələrin də reallaşmasını istəyirik. Bu çətin, lakin həyata keçirilməsi mümkün olan məqsədə çatmaq üçün

digər bölgə ölkələrini də bu layihələrdə iştirak etməyə həvəsləndirmək lazımdır.

Möhtərəm Prezident!

Əziz qonaqlar!

Gənc Azərbaycan dövləti öz müstəqilliyini əldə etdikdən sonra labüd olan keçid dövrünü artıq arxada qoymuşdur. Bu gün Azərbaycan beynəlxalq birliyin hörmətli bir üzvü, böyük perspektivlərə malik ölkədir. Bölgəsində sülh, əməkdaşlıq və tərəqqidən başqa bir arzusu olmayan bir ölkənin torpaqlarının hələ də işğal altında olması hüquqa, ədalətə və insan haqlarına dəyər verən cəmiyyətlər tərəfindən qəbul edilə bilməz. Bölgədə əməkdaşlıq və sabitlik mühiti yaratmağa, bölgə xalqlarının rifah halının yüksəlməsinə mane olan bu işğala dərhal son qoymaq lazımdır. Hər sahədə olduğu kimi, Dağlıq Qarabağ probleminin həllində də Türkiyə Azərbaycanı tamamilə dəstəkləyir. Bu münaqişə Azərbaycanın ərazi bütövlüyü çərçivəsində və azərbaycanlı qardaşlarımızın qəbul edə biləcəyi şərtlərlə həll edilməlidir. Türkiyə bu sahədə üzərinə düşən hər şeyi sonadək yerinə yetirəcəkdir.

Hörmətli Prezident!

Azərbaycanın Qərbin demokratik dəyərlərini mənimsəmək, Avratlantik qurumlarına inteqrasiya arzusunu var qüvvəmizlə dəstəkləyirik. Bu sahədə Azərbaycanın qət etdiyi məsafə onun dostlarını sevindirir. *Ölkələrimizin yerləşdiyi mürəkkəb coğrafi məkanda* sabitlik, şübhəsiz ki, böyük əhəmiyyət daşıyır. Biz inanırıq ki, demokratikləşmə daimi sabitliyin təminatçısıdır. Demokratikləşmə prosesində həm iqtidarı, həm də müxalifəti ilə birlikdə qüvvətli iradə göstərən hər bir millət bütün problemlərin öhdəsindən gələ bilər. Bu mühitin yaradılmasında iqtidar qədər müxalifətin də üzərinə müəyyən məsuliyyət düşür. Biz ürəkdən inanırıq ki, Sizin rəhbərliyiniz altında Azərbaycan bu məqsədə yetişəcəkdir. Biz Sizin bu sahədəki addımlarınızı ürəkdən dəstəkləyirik.

Möhtərəm Prezident, əziz qardaşım!

Möhtərəm xanım Əliyeva!

Bu gün bir daha Azərbaycanı öz evimiz, azərbaycanlı qardaşlarımızı isə öz ailə üzvlərimiz kimi hiss etdik. Bu duyğu və düşüncələrlə bu badəni Sizin və möhtərəm xanım Əliyevanın cansağlığı və xoşbəxtliyi, Türkiyə və Azərbaycanın rifah və əmin-amanlıq dolu gələcəyi naminə qaldırıram.

TÜRKİYƏ PREZİDENTİ ƏHMƏD NECDƏT SEZƏR HEYDƏR ƏLİYEV FONDUNDA OLMUŞDUR

Türkiyə Prezidenti Əhməd Necdət Sezər aprelin 5-də Heydər Əliyev Fondunda olmuşdur.

Azərbaycan Prezidenti İlham Əliyev və Fondun prezidenti, YUNESKO-nun xoşməramlı səfiri Mehriban Əliyeva Türkiyənin dövlət başçısını və onun xanımı Səmra Sezəri böyük səmimiyyətlə qarşıladılar.

Mehriban xanım Əliyeva Türkiyə Prezidentinə Azərbaycan xalqının ümummilli liderinin xatirəsinə ehtiram əlaməti olaraq yaradılmış Fondun məqsədləri barədə məlumat verdi. Bildirildi ki, Fondun əsas məqsədləri Prezident Heydər Əliyevin zəngin irsini öy-

rənmək və təbliğ etməkdən, onun Azərbaycanın sosial-iqtisadi, mədəni tərəqqisinə yönəlmiş genişmiqyaslı fəaliyyəti barədə gələcək nəsillərdə, qonaqlarda əyani təsəvvür yaratmaqdan, dahi şəxsiyyətin müəllifi olduğu beynəlxalq layihələrin həyata keçirilməsini dəstəkləməkdən, Azərbaycan mədəniyyəti və tarixinin geniş təbliği ilə əlaqədar aparılan işlərə kömək göstərməkdən ibarətdir.

Prezident İlham Əliyev ali qonağa ümummilli liderimizin şəxsi arxivindən götürülmüş və onun fəaliyyətinin ayrı-ayrı dövrlərini əhatə edən eksponatlar barədə ətraflı məlumat verdi.

Türkiyə dövlətinin başçısı fenomen şəxsiyyət Heydər Əliyevin həyatının ən müxtəlif məqamlarını əks etdirən və Azərbaycan tarixinin bütöv bir dövrü barədə geniş təsəvvür yaradan çoxlu sənədlərlə, dünyanın tanınmış siyasi xadimlərinin bəxş etdikləri hədiyyələrlə, ulu öndərimiz haqqında kitablarla, dünyanın nüfuzlu siyasi, elm, mədəniyyət və incəsənət xadimlərinin Azərbaycan dövlətinin qurucusu haqqında fikirləri ilə tanış oldu, müxtəlif ölkələrin liderləri ilə görüşlərdə çəkilmiş şəkillərə böyük maraqla baxdı.

Türk dünyasının böyük öndəri Heydər Əliyevin qardaş ölkəyə səfərlərini, eləcə də Türkiyə Cümhuriyyətinin dövlət və hökumət rəhbərlərinin Azərbaycana səfərlərini, birgə görüşləri əks etdirən fotolar qonaqlarda xüsusi maraq doğurdu.

Prezident Əhməd Necdət Sezər Fondla tanışlıqdan sonra Xatirə kitabına öz ürək sözlərini yazdı: "Azərbaycanın böyük öndəri, əziz dostum, mərhum Cümhurbaşqanı Heydər Əliyevin adına qurulan bu önəmli məbədgahı ziyarətimdən məmnunam.

Azərbaycan dövlətinin dünyada öz layiqli yerini tutması üçün atdığı addımlar onu həmişə yaşadacaqdır.

Çağdaş Azərbaycanın indi mühüm inkişafa nail olduğunu görməkdən qürur duyuram.

Bu nailiyyətlərin əldə edilməsində Heydər Əliyev Fondunun və onun rəhbəri Mehriban xanım Əliyevanın apardığı böyük işlərdə uğurlar diləyirəm."

Sonra Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Əhməd Necdət Sezər Fondun binasının eyvanından Bakının, Xəzərin mənzərəsini, qədim İçərişəhəri seyr etdilər.

Azərbaycan və Türkiyənin dövlət başçıları və xanımları sonra çay süfrəsi arxasında səmimi söhbət etdilər.

Qardaş ölkənin Prezidentinə üzərində onun portreti toxunmuş nəfis xalça və Fondun layihələri olan kitablar, musiqi albomları hədiyyə edildi.

Prezident Əhməd Necdət Sezər Türkiyənin İznik vilayətinin ustaları tərəfindən xüsusi olaraq hazırlanmış nəfis çini qabı Mehriban xanıma təqdim etdi.

Azərbaycan və Türkiyə prezidentləri və xanımları birlikdə xatirə şəkilləri çəkdirdilər.

Ali qonaq Fonddan xoş və zəngin təəssüratla ayrıldığını bildirdi.

Fondun binası qarşısına toplaşmış yüzlərlə şəhər sakini prezidentlər İlham Əliyevi və Əhməd Necdət Sezəri hərarətlə salamladılar.

SƏFƏR BAŞA ÇATDI

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin dəvəti ilə ölkəmizdə ikigünlük rəsmi səfərdə olan Türkiyə Respublikasının Prezidenti Əhməd Necdət Sezər aprelin 5-də vətənə yola düşmüşdür.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BÖYÜK BRİTANİYANIN MİLLİ AUDİT OFİSİNİN BAŞ MÜFƏTTİŞİ VƏ AUDİTORU SER CON BOURNUN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 5-də Prezident sarayında Böyük Britaniyanın Milli Audit Ofisinin baş müfəttişi və auditoru ser Con Bournun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Dövlətimizin başçısı Böyük Britaniyanın Milli Audit Ofisinin Azərbaycan Respublikasının Hesablama Palatası ilə əməkdaşlığının əhəmiyyətini vurğuladı. Azərbaycanda Hesablama Palatasının nisbətən yeni təsisat olduğunu xatırladan Prezident İlham Əliyev bu sahədə dünya dövlətlərinin müvafiq strukturlarının, o cümlədən Böyük Britaniyanın Milli Audit Ofisinin təcrübəsindən faydalanmağın vacibliyini bildirdi.

Ser Con Bourn Böyük Britaniyanın Milli Audit Ofisi ilə Azərbaycan Respublikasının Hesablama Palatası arasında əməkdaşlığa dair anlaşma memorandumunun olduğunu bildirdi. O, səfəri zamanı iki ölkənin müvafiq strukturları arasında əlaqələrin daha da dərinləşdirilməsi yolları haqqında geniş müzakirələrin aparıldığını qeyd etdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV POLŞANIN İQTİSADİYYAT NAZİRİ PYOTR VOZNYAKIN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 6-da Prezident sarayında Polşanın iqtisadiyyat naziri Pyotr Voznyakın rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Dövlətimizin başçısı Azərbaycan ilə Polşa arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə uğurla inkişaf etdiyini vurğuladı. Prezident İlham Əliyev Polşaya rəsmi səfərini və o vaxt Varşava şəhərinin meri vəzifəsində çalışan Polşanın hazırkı Prezidenti ilə keçirdiyi görüşü məmnunluqla xatırladı. O, Polşanın iqtisadiyyat nazirinin səfərinin iki ölkə arasında iqtisadi əməkdaşlığın bundan sonra da inkişaf etdirilməsi üçün əhəmiyyətli olduğunu bildirdi.

Pyotr Voznyak Polşa Prezidentinin salamlarını Azərbaycanın dövlət başçısına çatdırdı. Qonaq Bakıya səfərinin siyasi və iqtisadi baxımdan önəmini vurğuladı, ölkələrimiz arasında iqtisadi əlaqələrin daha da inkişaf etməsi üçün yaxşı imkanların olduğunu qeyd etdi.

Prezident İlham Əliyev Polşa Prezidentinin salamlarına görə minnətdarlığını bildirdi və onun da salamlarını Polşanın dövlət başçısına çatdırmağı xahiş etdi.

BERLİNDƏ AZƏRBAYCAN VƏ ALMANİYA XARİCİ İŞLƏR NAZİRLİKLƏRİ ARASINDA SİYASİ MƏSLƏHƏTLƏŞMƏLƏR KEÇİRİLMİŞDİR

Azərbaycan və Almaniya Xarici İşlər nazirlikləri arasında siyasi məsləhətləşmələrin aparılması məqsədi ilə xarici işlər nazirinin müavini Xələf Xələfovun rəhbərlik etdiyi nümayəndə heyəti aprelin 4-5-də Almaniyada işgüzar səfərdə olmuşdur.

X.Xələfov Almaniya federal kanslerinin xarici siyasət və təhlükəsizlik məsələləri üzrə müşaviri Kristof Hoysqenlə və Almaniya Xarici İşlər Nazirliyinin Cənubi Qafqaz və Mərkəzi Asiya regionu üzrə xüsusi tapşırıqlar səfiri Norbert Baas ilə görüşmüşdür. Görüşlərdə ölkələrimiz arasında siyasi, iqtisadi və humanitar münasibətlərin səviyyəsindən razılıq ifadə edilmiş, bu əlaqələrin daha da genişləndirilməsi ətrafında fikir mübadiləsi aparılmışdır.

Görüşlərdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində aparılan danışıqlara, Cənubi Qafqazdakı vəziyyətə, Azərbaycanın Avropa Qonşuluq Siyasətinə qoşulmasına, enerji sahəsində əməkdaşlıq imkanlarına, regionda həyata keçirilən irimiqyaslı layihələr və digər məsələlərə dair fikir mübadiləsi aparılmışdır.

X.Xələfovun Bundestaqın xarici əlaqələr komissiyasının sədri Rupxert Potensin başçılıq etdiyi parlament nümayəndə heyəti ilə görüşündə parlamentdə təmsil olunan partiyaların xarici siyasət məsələləri uzrə səlahiyyətli nümayəndələri iştirak etmişlər. Söhbət zamanı ikitərəfli münasibətlərin möhkəmləndirilməsi, o cümlədən parlamentlərarası əməkdaşlığın intensivləşdirilməsi, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi, Cənubi Qafqazdakı vəziyyət və bir sıra beynəlxalq məsələlər müzakirə edilmişdir.

Səfər müddətində nazir müavini Almaniyadakı Azərbaycan diasporunun fəalları ilə görüşmüş, yerli jurnalistlər üçün mətbuat konfransı keçirmişdir. X.Xələfov, Almaniyadan bütün dünyaya yayımlanan Türk-Alman Televiziyası TDG-yə, Almaniyanın rusdilli televiziya kanalı RTVG-yə və bu ölkədə nəşr edilən "Vostok" jurnalına müsahibələr vermişdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AVROPA KOMİSSİYASININ XARİCİ ƏLAQƏLƏR ÜZRƏ BAŞ DİREKTORUNUN MÜAVİNİ FOKİON FOTİADİSİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 7-də Prezident sarayında Avropa Komissiyasının xarici əlaqələr üzrə baş direktorunun müavini Fokion Fotiadisi qəbul etmişdir.

Söhbət zamanı Azərbaycanla Avropa Komissiyası arasında əməkdaşlığın perspektivləri ilə bağlı fikir mübadiləsi aparılmışdır.

XARİCİ İŞLƏR NAZİRİ ELMAR MƏMMƏDYAROVUN ABŞ-A İŞGÜZAR SƏFƏRİ

Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov aprelin 6-da ABŞ-a ikigünlük işgüzar səfərə gəlmişdir.

Nazir həmin gün Vaşinqtonda ABŞ Helsinki Komissiyasının sədri senator Sem Braunbək, dövlət katibinin sabiq birinci müavini Riçard Armitac, Konqresdə Azərbaycan üzrə işçi qrupunun sədri Solomon Ortis və bu qrupun üzvü konqresmen Silvester Reyeslə görüşlər keçirmişdir. Görüşlərdə ABŞ-Azərbaycan münasibətlərinin hazırkı səviyyəsi və inkişaf perspektivləri, bölgəmizdə vəziyyət, Xəzər hövzəsində enerji təhlükəsizliyi məsələləri, ölkələrimiz arasında iqtisadi əlaqələrin genişləndirilməsi, Azərbaycanla ABŞ Konqresi arasında təmasların artırılması və qarşılıqlı maraq doğuran bir sıra digər mövzular diqqət mərkəzində olmuşdur.

Günün sonunda Azərbaycan xarici işlər nazirinin şərəfinə nahar verilmişdir. Naharda Heritec Fondu, Hadson İnstitutu, Con Hopkins Universitetinin Mərkəzi Asiya və Qafqaz Araşdırmaları İnstitutu kimi nüfuzlu təhlil mərkəzlərinin nümayəndələri, Dövlət Departamentinin və Ağ evin təmsilçiləri, ABŞ-Azərbaycan Ticarət Palatasının üzvləri iştirak etmişlər.

Elmar Məmmədyarov aprelin 7-də Vaşinqtona işgüzar səfəri çərçivəsində ABŞ-ın yüksək vəzifəli rəsmiləri ilə bir sıra görüşlər keçirmişdir.

Dövlət katibi Kondoliza Rayslə görüşdə ABŞ-Azərbaycan münasibətləri, Xəzər hövzəsində enerji təhlükəsizliyi, bölgədə vəziyyət, Azərbaycanda demokratikləşmə və vətəndaş cəmiyyəti qurulması istiqamətində aparılan islahatlar barədə söhbət getmişdir. Dövlət katibi vurğulamışdır ki, Birləşmiş Ştatlar Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllinin tərəfdarıdır və bu istiqamətdə səylərini artıracaqdır. Elmar Məmmədyarov münaqişənin həlli məsələsində ABŞ-ın Azərbaycanın ərazi bütövlüyünü tanıyan davamlı mövqeyinə görə Kondoliza Raysa minnətdarlığını bildirmişdir. Xanım Rays Azərbaycanın demokratik islahatlara yönəlmiş siyasətini dəstəklədiyini və Prezident İlham Əliyevin Vaşinqtona səfəri zamanı Buş hökumətinin Azərbaycan tərəfi ilə strateji əlaqələrin genişlənməsi üzrə dialoqunun davam edəcəyinə ümidvar olduğunu vurğulamışdır.

Həmin gün nazir Dövlət Departamentində ATƏT-in amerikalı həmsədri Stiven Mənn, dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə müavini Daniel Frid, Ağ evdə isə ABŞ Prezidentinin milli təhlükəsizlik üzrə köməkçisi Stiven Hedli ilə görüşmüşdür.

Elmar Məmmədyarov aprelin 7-də Vaşinqtondakı nüfuzlu Heritec Fondunda məruzə ilə çıxış etmişdir. Ölkəmizin xarici siyasət prioritetləri haqqında danışan nazir vurğulamışdır ki, Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra tədricən ABŞ üçün "maraq doğuran ölkədən strateji müttəfiqə çevrilmişdir". Məruzədə Azərbaycanda aparılan demokratik və iqtisadi islahatlar, mühüm enerji layihələri barədə ətraflı bəhs olunmuşdur. Azərbaycanın antiterror koalisiyasında rolundan danışan Elmar Məmmədyarov bildirmişdir ki, hərbçilərimiz Kosovo, Əfqanıstan və İraqda xidmət edirlər. Bölgədə lider olan Azərbaycan üzərinə düşən məsuliyyəti anlayır.

Auditoriyanın çoxsaylı suallarına cavab verən xarici işlər naziri ən çox maraq doğuran mövzu barədə - Dağlıq Qarabağ münaqişəsi məsələsində Azərbaycanın mövqeyini bir daha açıqlamışdır. Bildirmişdir ki, ölkəmizin siyasi və iqtisadi inkişafına ən böyük maneə olan Ermənistan-Azərbaycan münaqişəsinin həllinə dair danışıqlar irəliləməsə də, səylər artırılmalıdır. Bu gün XX əsrin təfəkkürü ilə yaşamaq olmaz. 1945-ci ilin Yalta fenomeni daha işləmir, sərhədlər güclə dəyişilmir. İndi dövlətlərarası münasibətlər

başqa səviyyədədir. Elmar Məmmədyarov vurğulamışdır ki, münaqişənin uzunmüddətli həllinin yeganə yolu beynəlxalq hüquq normalarına əsaslanmalıdır. "Dağlıq Qarabağ Azərbaycanın bir hissəsidir. Bizim ərazi bütövlüyümüzü heç bir vasitə ilə dəyişmək mümkün olmayacaqdır".

AZƏRBAYCAN RESPUBLİKASI İLƏ RUSİYA FEDERASİYASI ARASINDA DÖVLƏT SƏRHƏDİNİN DELİMİTASİYASI ÜZRƏ İKİ ÖLKƏNİN DÖVLƏT KOMİSSİYALARININ 11-Cİ BİRGƏ İCLASI KEÇİRİLMİŞDİR

2006-cı ilin 5-7 aprel tarixində Dərbənd şəhərində Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında dövlət sərhədinin delimitasiyası üzrə iki ölkənin Dövlət Komissiyalarının 11-ci birgə iclası keçirilmişdir.

Azərbaycan Respublikası xarici işlər nazirinin müavini X.Xələfovun və Rusiya Federasiyasının Xarici İşlər Nazirliyinin xüsusi tapşırıqlar üzrə səfiri A.Yakovenkonun rəhbərlik etdiyi Dövlət Komissiyalarının birgə iclasının işində iki ölkənin Dövlət Komissiyalarının üzvləri, əlaqədar dövlət orqanlarının nümayəndələri və ekspertləri, həmçinin sərhəd rayonlarının rəhbərləri iştirak etmişdirlər.

İclasda razılaşdırılmamış sahələrdə dövlət sərhəd xəttinin keçməsi məsələlərinə baxılmış, habelə dövlət sərhədinin delimitasiyası üzrə əlavə normativ-hüquqi sənədlər, torpaq quruluşuna və istifadəsinə aid kartoqrafik materiallar araşdırılmış və müzakirə edilmişdir. Tərəflər Komissiyalar çərçivəsində daha sonra öyrənilməsi və baxılması məqsədilə müvafiq sənədləri mübadilə etmişlər. Bununla yanaşı, Dövlət Komissiyalarının üzvləri və ekspertləri sərhəd rayonlarının rəhbərləri ilə birlikdə razılaşdırılmamış sahələrdə naturada baxış keçirmişdirlər.

Tərəflər arasında aparılmış müzakirələrin nəticələrinə dair müvafiq protokol imzalanmışdır.

Dövlət Komissiyaları çərçivəsində razılaşdırılmamış sahələrə aid olan materialların araşdırılmasının davam etdirilməsi qərara alınmışdır. Tərəflər növbəti birgə iclasın Azərbaycan Respublikasında keçirilməsi barədə razılığa gəlmişdirlər. Həmin iclasın tarixi diplomatik kanallar vasitəsilə razılaşdırılacaqdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV NATO BAŞ KATİBİNİN CƏNUBİ QAFQAZ VƏ ORTA ASİYA ÜZRƏ XÜSUSİ NÜMAYƏNDƏSİ ROBERT SİMMONSUN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 10-da Prezident sarayında NATO baş katibinin Cənubi Qafqaz və Orta Asiya üzrə xüsusi nümayəndəsi Robert Simmonsun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Görüşdə Azərbaycan-NATO əməkdaşlığının hazırkı vəziyyəti və perspektivləri ilə bağlı fikir mübadiləsi aparılmışdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AVROPA YENİDƏNQURMA VƏ İNKİŞAF BANKININ PREZİDENTİ JAN LEMYERİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 10-da Prezident sarayında Avropa Yenidənqurma və İnkişaf Bankının prezidenti Jan Lemyerin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Görüşdə Azərbaycan iqtisadiyyatının çox sürətlə inkişaf etdiyi vurğulanmış, ölkəmizdə iqtisadiyyatın müxtəlif sahələrində, o cümlədən enerji sahəsində qlobal layihələrin həyata keçirilməsi istiqamətində böyük nailiyyətlərin əldə edildiyi qeyd olunmuşdur. Azərbaycanla Avropa Yenidənqurma və İnkişaf Bankı arasında əməkdaşlığın qarşılıqlı surətdə faydalı şəkildə genişlənməsindən məmnunluq ifadə edilmiş və bu əməkdaşlığın gələcəkdə də davam etdirilməsinin əhəmiyyətli olduğu bildirilmişdir.

Görüş zamanı qarşılıqlı maraq doğuran bir sıra digər məsələlər də müzakirə edilmişdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV TÜRKİYƏ MİLLİ TƏHLÜKƏSİZLİK TƏŞKİLATININ RƏİSİ EMRE TANERİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 11-də Prezident sarayında Türkiyə Respublikası Milli Təhlükəsizlik Təşkilatının rəisi Emre Taneri qəbul etmişdir.

Dövlətimizin başçısı Azərbaycan ilə Türkiyə arasında münasibətlərin çox yüksək səviyyədə olduğunu vurğuladı. Azərbaycan-Türkiyə əməkdaşlığının bütün region üçün əhəmiyyətli olduğunu bildirən Prezident İlham Əliyev həyata keçirilən qlobal enerji layihələrinin və mövcud nəqliyyat dəhlizlərinin ölkələrimizin önəmini daha da artırdığını qeyd etdi. O, iki ölkənin bütün qurumları arasında sıx əlaqələrin yaradılmasının vacibliyini vurğuladı və indiki səfərin təhlükəsizlik orqanları arasında əməkdaşlığın bundan sonra da inkişafına töhfə verəcəyinə əmin olduğunu bildirdi.

Emre Taner Türkiyə Respublikası Prezidentinin salamlarını Azərbaycanın dövlət başçısına çatdırdı. O, Türkiyə-Azərbaycan əlaqələrinin region üçün önəmini vurğuladı və qarşılıqlı səfərlərin əməkdaşlığın inkişafına töhfə verdiyini bildirdi. Qonaq iki ölkənin təhlükəsizlik orqanları arasında anlaşmanın çox yüksək səviyyədə olduğunu qeyd etdi.

Prezident İlham Əliyev Türkiyə Respublikası Prezidentinin salamlarına görə minnətdarlığını bildirdi və onun da salamlarını Türkiyənin dövlət başçısına çatdırmağı xahiş etdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ATƏT-İN MİNSK QRUPUNUN FRANSALI HƏMSƏDRİ BERNARD FASYENİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 11-də Prezident sarayında ATƏT-in Minsk qrupunun fransalı həmsədri Bernard Fasyeni qəbul etmişdir.

Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması ilə əlaqədar danışıqlarla bağlı bir sıra məsələlər müzakirə olunmuşdur.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV MDB ÖLKƏLƏRİNİN YƏHUDİ İCMALARI FEDERASİYASININ PREZİDENTİ LEV LEVAYEVİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 11-də Prezident sarayında MDB ölkələrinin Yəhudi İcmaları Federasiyasının prezidenti Lev Levayevin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Görüşdə Azərbaycanda müxtəlif millətlərin nümayəndələri, o cümlədən yəhudi icmasının azad, sərbəst yaşaması üçün hər cür şəraitin mövcud olduğu vurğulanmış, ölkə rəhbərliyi tərəfindən bu istiqamətdə həyata keçirilən tədbirlər yüksək qiymətləndirilmişdir.

XARİCİ İŞLƏR NAZİRLİYİNDƏ BRİFİNQ KEÇİRİLMİŞDİR

TEMATİK BRİFİNQ

Araz Əzimov, Xarici İşlər Nazirinin müavini

R.Simmons, NATO-nun Baş Katibinin müavini və Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi

Bakı, Azərbaycan

11 aprel 2006-cı il

İÇİNDƏKİLƏR

NATO-nun Baş Katibinin müavini və Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi cənab R.Simmonsun Bakıya səfərinin nəticələrinə dair

STENOQRAM

16:00

T.Tağızadə: Xanımlar və cənablar, Xarici İşlər Nazirliyinə növbəti mətbuat konfransımıza xoş gəlmişsiniz. Bugünkü bizim qonaqlarımız NATO-nun Baş Katibinin müavini və Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi cənab R.Simmons və Xarici İşlər Nazirinin müavini cənab A.Əzimovdur.

Araz Əzimov: Əziz media nümayəndələri, bugünkü mətbuat konfransımız cənab R.Simmonsun Bakıya ikigünlük səfərinin nəticələrinə həsr olunub. Beləliklə bu iki gün ərzində cənab R.Simmons və onu müşayiət edən NATO-nun ekspert qrupu Bakıda yüksək səviyyəli görüşlər keçiriblər. Respublika Prezidenti tərəfindən qəbul ediliblər. Eyni zamanda bir sıra nazirlər ilə görüşlər keçirilib və nazir müavinləri səviyyəsində fəaliyyət göstərən NATO ilə əməkdaşlığa dair işçi qrupu ilə görüş keçirildi. Bu görüşlər zamanı NATO ilə əməkdaşlıq müzakirə edildi, Fərdi Tərəfdaşlıq Əməliyyat Planının yerinə yetirilməsinə dair bu yaxın vaxtlarda NATO-da keçirdiyimiz görüşlərin yekunları ... NATO tərəfindən həyata keçirildiyi dəyərləndirilmə məruzəsi də nəzərdən keçirildi və bütövlükdə gələcək addımlar müzakirə edildi. Bu səfərin nəticəsində Azərbaycan tərəfi Fərdi Tərəfdaşlıq Əməliyyat Planının növbəti mərhələsinə təklifləri verəcəkdir. Bu təkliflər və fikirlər cənab R.Simmonsla və ona dəstək verən ekspertləri ilə baxılacaq,

müzakirə ediləcək və haradasa bir yaxın vaxtlarda Fərdi Tərəfdaşlıq Əməliyyat Planının sənədinə daxil ediləcəkdir, əlbəttə ki dövlətin rəhbərliyinin razılığı ilə müvafiq prosedur tətbiq edilməsi nəticəsində. Bu qədər. Cənab R.Simmons.

R.Simmons: Mən də sizin hamınızı salamlamaq istəyirəm. Hər zaman Bakıya qayıtmaq əlbəttə ki, çox böyük məmnunluq verən bir hissdir, çox böyük məmnuniyyətlə biz hər zaman Bakıya geri qayıdırıq. Azərbaycanda bu görüşlərin xüsusilə böyük əhəmiyyəti vardır, çünki bildiyiniz kimi Fərdi Tərəfdaşlıq Əməliyyat Planının yerinə yetirilməsinin birinci ili başa çatdırılmışdır və cənab A.Əzimovun da qeyd etdiyi kimi təqribən iki həftə bundan əvvəl NATO-nun baş iqamətgahında görüşlər keçirildiyi zaman biz həmin birinci ilin nəticələrini müzakirə etmişik. Ümumi olaraq bu əməliyyat planının yerinə yetirilməsi müvəffəqiyyətli kimi qiymətləndirilmişdir. Plana daxil olunan bütün dörd sahədə əməliyyatların yerinə yetirilməsi bir qayda olaraq müvəffəqiyyətli olaraq qiymətləndirilmişdir, baxmayaraq ki, müəyyən sahələr vardır ki, onlarda işi davam etdirmək hələ də lazımdır, müəyyən məqamlar ətrafında. Bundan əlavə sənədin daima canlı olaraq davam etdirilməsini, həyata keçirilməsini təmin etmək üçün sənədə durmadan dəyişiklərin əlavə edilməsi də labüddür və eyni zamanda biz müəyyən təkliflərin əldə olunaraq növbəti il üçün planın hazırlanmasında nəzərdən keçiririk.

Azərbaycan aparıcı rol oynayan ölkələrdən biridir NATO ilə əməkdaşlıqda, tərəfdaşlar ölkələr arasında və Azərbaycanın planı yerinə yetirilməsi nöqteyi-nəzərdən bir daha nümayiş etdirmişdir ki, bu Fərdi Tərəfdaşlıq Əməliyyat Planının yerinə yetirilməsi həm NATO-nun maraqlarına, eləcədə Azərbaycanın maraqlarına cavab verən bir prosesdir və bu prosesin çox böyük əhəmiyyəti vardır. İndi isə cənab Nazir müavini məncə sualları cavablandıra bilərik.

ATV: Mənim sualım cənab R.Simmonsadır. Cənab R.Simmons, Dağlıq Qarabağ münaqişəsi Azərbaycanın, Ermənistanda isə üçüncü ölkənin hərbi bazalarının mövcudluğu, ümumiyyətlə Cənubi Qafqazın Şimali Atlantika Alyansına inteqrasiyasına nə dərəcədə manea olur?

R.Simmons: Əslində Cənubi Qafqazda mövcud olan bütün münaqişələr əlbəttə ki, NATO-nun diqqət mərkəzindədir və NATO-nu olduqca narahat edir və nəyə görə biz bu proseslərdə yaxından bilavasitə iştirak etmirik biz artıq bu prosesin getdiyini bilirik və tərəflərin öz aralarında razılığa gələcəyinə ümid bəsləyirik. Mən düşünmürəm ki, üç ölkə ilə ayrılıqda keçirilən proqramların həyata keçirilməsinə bölgədə mövcud olan konfliktlər hansısa bir dayandırıcı və ya bu surəti aşağa salan bir təsir göstərir. Amma bu münaqişələr nəticəsində nə baş verir bu ölkələr arasında əməkdaşlıq daha sıx şəkildə və ümumiyyətlə bu əməkdaşlıq olmur ki, bu da əlbəttə ki, narahat edən məsələlərdən biridir, yəni belə münaqişələrin aradan qaldırılması bu əməkdaşlığın artırılmasına, bu ölkələrdəki proseslərin sürətləndirilməsinə kömək edə bilər.

Dağlıq Qarabağ ətrafında NATO-nun mövqeyinə gəldikdə isə, bizim mövqeyimiz ATƏT-in mövqeyi ilə eynidir və bu mövqe ondan ibarətdir ki, hər hansı bir ölkənin silahlı qüvvələri digər ölkənin ərazisində yerləşdirilirsə buna ölkələrin mütləq razılığı olmalıdır. Məsələn, Gürcüstan və Rusiya arasında belə bir hadisə baş vermişdir və biz çox böyük məmnuniyyət hissi ilə qarşıladık ki, yəni Gürcüstan istəmədiyinə görə Rusiya öz silahlı qüvvələrini geri çəkmiş oldu. Ermənistanda olan rus silahlı qüvvələrinə gəldikdə

isə Ermənistan hökumətinin buna razılığı olduğuna görə NATO-nun heç bir şəkildə buna qarşı çıxması nəzərdə tutulmur. Belə ki, biz hər hansı bir ölkə ilə münasibətlər uğrunda üçüncü bir ölkə ilə, məsələn Rusiya olsun, hansısa bir rəqabət aparmırıq, yəni əgər bu münasibətlər mövcuddursa bunlar bizim əməkdaşlığa təsir göstərmirsə buna qarşı biz çıxmırıq.

ATV: Azərbaycan ordusunun NATO standartlarına ... cənab R.Simmonsu qane edirmi?

R.Simmons: Ayrı-ayrı hərbi hissələr müəyyən təkmilləşmələr aparmışlar öz tərkiblərində və mən bilirəm ki, Müdafiə Nazirliyində bu iş davam etməkdədir. Amma sözümün əvvəlində dediyim kimi, biz inanırıq ki, Nazirlik öz işini genişləndirməklə, ümumiyyətlə bu təkmilləşdirmə proseslərini daha genişləndirə və dərinləşdirə bilər və bu nöqteyi-nəzərdən, əlbəttə, gələcək ilin planını hazırladığımız zaman biz məhz həmin aspektlərə fikir verməyə çalışacayıq ki, NATO tərəfindən bu lazımi yardım göstərilmiş olunsun və bu təkmilləşmələr, bu yaxşılaşmalar getdikcə davam etsin gələcəkdə.

Ekspress: Sualım təbii ki, qonağadır, amma istərdim ki, A.Əzimovda ona cavab versin. Cənab R.Simmons dekabr ayında Moskvada olarkən belə bir bəyanat vermişdir ki, NATO sülh sazişindən sonra Dağlıq Qarabağa xüsusi sülhməramlı qüvvələr yerləşdirməyə düşünür. Hərçənd ki, bir ay qabaq Bakıda olarkən o bu fikirləri rədd etmişdir.

İkinci sualım - Azərbaycan rəsmiləri açıq şəkildə bildirirlər ki, biz hazırda NATO-ya üzv yox, tərəfdaşlığı qarşımıza məqsəd qoyuruq. Bu mövqe NATO-nu qane edirmi, yoxsa daha yaxşı ola bilər?

R.Simmons: Birinci sualınıza cavabı ondan başlamaq istəyirəm ki, mən xatırlamıram ki, ictimaiyyət qarşısında və ya hansısa bir özəl görüş zamanı mən bildirmişəm ki, NATO-nun Dağlıq Qarabağda xüsusi sülhməramlı qüvvələr yerləşdirmək məramı və fikri vardır. Nəyi mən bildirmişəm, ondan ibarətdir ki, baxmayaraq ki, biz bilavasitə danışıqlar prosesində iştirak etmirik, biz onları çox yaxından izləyirik və bu danışıqlar prosesi nəticəsində sülh və razılıq əldə ediləcəyinə ümid bəsləyirik. Sülhməramlı qüvvələrin yerləşdirilməsi məsələsinə gəldikdə isə bu barədə qərar bir qayda olaraq münaqişəyə cəlb olunmuş tərəflər arasında əldə olunan razılıq əsasında həyata keçirilir və bu onların arasında müzakirəsi tələb olunan bir məsələdir. Əgər müzakirələrin sonunda onlar belə qüvvələrin yerləşdirilməsi haqqında qərar qəbul edərlərsə biz bu məsələnin onlarla müzakirə etməyə hazırıq.

Əməkdaşlığın qənaətbəxş olub-olmaması məsələsinə gəldikdə isə, artıq qeyd etdiyim kimi, Azərbaycanla olan əməkdaşlıq əlaqələri ümumilikdə bizi qane edir, amma yenə də mən bildirdiyim kimi bu Fərdi Tərəfdaşlıq Əməliyyat Planı daima yenilənməsi tələb olunan canlı bir sənəd olduğuna görə biz hər il buraya öz əlavələrimizi etməliyik və bu əməkdaşlığın daha da təkmilləşdirilməsinə, daha da yaxşılaşdırılmasına və irəli addım atmağa çalışmalıyıq. Mən indi elan etsəm ki, bəli, tərəfdaşlıq əlaqələrimiz tamamilə məni qane edir, bu o deməkdir ki, irəliyə hansısa bir addım atmağa, irəliyə doğru getməyə, təkmilləşməyə heç bir ehtiyac yoxdur. Bu isə belə deyildir. Biz durmadan bu əməkdaşlığı yeniləşdirmək bizim maraqlarımızdadır. Ona görə də bu məhz belə bir şəkildə də nəzərdə tutulur, ildən ilə bu əməkdaşlığın təkmilləşdirilməsi nəzərdə tutulur.

A.Əzimov: Burada bir neçə məqam var. Birincisi, əlbəttə ki, NATO-nun Cənubi Qaf-

qazla bağlı mövqeyi heç də sadə formalaşmayıb və onun inkişafı bir neçə faktorlardan asılıdır. Bu proses asan olsaydı çoxdan məsələlər öz məntiqi yekununa çatardı. İkinci, burada çoxlu geo-siyasi elementlər var ki, bu barədə daha ətraflı danışmaq üçün imkan olsa danışmaq olardı. Üçüncü, Azərbaycan öz NATO ilə əməkdaşlığını kiminsə xatirinə və yaxud kiminsə narahatçılığına görə inkişaf etmir və qurmur. Azərbaycan durduğu mövqe dəfələrlə bildirilibdir. Birincisi Azərbaycan öz milli təhlükəsizlik maraqlarından irəli gələrək NATO ilə inteqrasiya yolunda addım atmaqdadır. İnteqrasiya prosesi geniş və vaxt tələb edən bir prosesdir və bu istiqamətdə hər dəfə yeni mərhələlər açılır və yeni, belə deyək, mənzillərə çatanda daha növbəti addımların atılması üçün əsas yaradılmış olur. Əgər nəzər salsaq keçmişə, 1992-ci ildən başlayaraq Azərbaycan NATO ilə Şimali Atlantika Tərəfdaşlıq Şurası çərçivəsində ilk təmasları qurmağa başlamışdırsa, 1994-cü ildə ilk ölkələr sırasında "Sülh Naminə Tərəfdaşlıq" proqramına qoşulubdur, 1997-ci ildə yenə də ilk ölkələr sırasında planlaşma və təhlil prosesinə qoşulmuşdur və 2005-ci ildə ilk ölkələr sırasında və demək olar ki, ilk iki ölkə Azərbaycan və Gürcüstan Fərdi Tərəfdaşlıq Əməliyyat Planına qoşulmuşdurlar. Biz, əvvəla adi tərəfdaş deyilik, biz çox fəal, etibarlı və eyni zamanda NATO-ya münasibətimiz düzgün əsaslarda qoyulan bir tərəfdaş ölkəyik. Eyni zamanda eyni münasibəti NATO-dan hiss edirik və bu tərəfdaşlıq, bu əlaqələr sağlam bir əsaslarda qurulubdur. Beləliklə biz nə Ermənistana, nə digər ölkələrə burada istinad etmirik və onların planlarına görə öz planlarımızı qurmuruq. O biri tərəfdən Ermənistanın NATO ilə əməkdaşlığı, yenə də formal olaraq heç bir cəhətdən məhdudlaşmır. Yəni Ermənistan azad nə qədər irəli getmək istəyirsə irəli getsin, lakin bildiyiniz müxtəlif geo-siyasi faktorlar var ki, bu regionda özünü biruzə verməkdədir, NATO-nun bilavasitə irəliləməsini bu faktorlar mürəkkəbləşdirir. Bunu anlamaq üçün sadəcə təsəvvür edin ki, Azərbaycanla Ermənistan arasında münaqişə mövcud deyil və bir təsəvvür edin ki, nə kimi addımlar atıla bilərdi. Beləliklə verilən sual ki, münaqişənin hansısa təsiri varmı, ya yox əlbəttə ki, belə cavablandırıla bilinər ki, münaqişənin təsiri var, lakin getdikcə Azərbaycan öz tərəfdaşlıq əlaqələrini daha yüksək zirvələrə çatdırmaqdadır. Barış qüvvələrin istifadəsi ilə bağlı verilən suala belə deyim ki, hələlik münaqişə zonasında istifadə edilməli və yaxud edilə bilən qüvvələrin məhz ATƏT tərəfindən ayrılması qərar olaraq qəbul edilmişdir və bu qərar 1994-cü ildən qüvvədədir. Başqa bir opsiyalar mümkündür BMT-dən başlayaraq NATO-ya qədər, lakin bu opsiyalar, bu imkanlar hələ ki, müzakirə edilməyibdir. Beləliklə cənab R.Simmonsun mövqeyi yalnız haradasa nəzəri şəkildə deyilə bilər, praktiki səviyyədə hələlik bu barədə danışıq olmayıbdır və mən razıyam ki, bütün imkanlar baxıla bilər, effektivlik və siyasi məqsədə uyğunluğu əsas götürülməlidir.

Fərdi Tərəfdaşlıq Əməliyyat Planının əhəmiyyətindən və onun Azərbaycana və digər ölkələrdə etdiyi təsirdən söhbət etsək, yenə də bizim planlarımız müxtəlifdir. Ermənistan yalnız son vaxtlarda əməliyyat planı ilə məşğul olmağa başlayıbdır və mən sözün dütən yalnız son vaxtlarda əməliyyat planı ilə məşğul olmağa başlayıbdır və mən sözün düzü onların planını bizim planımızla müqayisə etməmişəm və müqayisə etmək də yenə də hansısa bir praktiki nəticə verməyəcəkdir, çünki hər bir ölkənin öz milli maraqları var. Azərbaycan, yenə də qeyd etdiyim kimi, milli təhlükəsizliyə yönəldiyi risklər və hədələri nəzərə alaraq, maraqlarından irəli gələrək NATO ilə, nə qədər NATO uzağa getməyə hazırdırsa o qədər də Azərbaycan hazırdır prinsipini əsas götürərək əməkdaşlığı inkişaf etdirir.

XARİCİ İŞLƏR NAZİRLİYİNDƏ GÖRÜŞ

Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov aprelin 12-də Avstriya Ali Məhkəməsinin sədri İohann Jeşut ilə görüşmüşdür.

E. Məmmədyarov Azərbaycan ilə Avstriya arasında siyasi və iqtisadi sahələrdə qarşılıqlı münasibətlərin əhəmiyyətini qeyd etmiş, mövcud əlaqələrin daha da inkişaf etdirilməsinə Azərbaycan tərəfinin böyük önəm verdiyini vurğulamışdır.

Cənab İ.Jeşut Avstriyanın məhkəmə sistemi, bu sahədə mövcud problemlər və keçiriləcək islahatlar haqqında vermişdir. O, Avstriya və Azərbaycanın ali məhkəmələri arasında təcrübə mübadiləsi aparılmasının vacibliyini söyləmişdir.

E.Məmmədyarov bu sahədə əməkdaşlığın Azərbaycan üçün də zəruri olduğunu vurğulamışdır. Avstriyalı qonağa Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllinə yönəlmiş sülh danışıqlarının gedişi barədə də məlumat verən nazir münaqişənin Azərbaycanda hər bir sahənin inkişafına mənfi təsir göstərdiyini bildirmişdir.

Görüşdə qarşılıqlı maraq doğuran məsələlər ətrafında da fikir mübadiləsi aparılmışdır.

XARİCİ İŞLƏR NAZİRLİYİNDƏ ABŞ KONQRESMENİ İLƏ GÖRÜŞ

Xarici İşlər naziri Elmar Məmmədyarov aprelin 13-də Birləşmiş Ştatlar Konqresinin Arizona ştatından olan üzvü, Konqresin xarici əməliyyatlar üzrə alt komitəsinin sədri Ceyms Kolbenin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşmüşdür.

Azərbaycanın terrorizmə qarşı mübarizədə Birləşmiş Ştatlara dəstəyini yüksək qiymətləndirən konqresmen, ABŞ dövləti adından dərin minnətdarlığını bildirmişdir.

Nazir E.Məmmədyarov qonağa regional məsələlər barədə ətraflı məlumat vermiş, Xəzər dənizi regionundakı proseslər və region dövlətləri ilə münasibətlərə toxunmuşdur.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi istiqamətində aparılan danışıqların mövcud durumu haqqında məlumat verərən nazir, münaqişənin həllinin yalnız Azərbaycanın ərazi bütövlüyü əsasında mümkünlüyünü vurğulamışdır. Nazir, həmçinin münaqişənin həlli prinsipinin elementlərini açıqlayaraq, ilk növbədə işğal olunmuş torpaqlardan Ermənistan silahlı qüvvələrinin çıxarılmasının, qaçqın və məcburi köçkünlərin doğma yurdlarına qayıtmasının vacibliyini qeyd etmişdir.

Terrorun beynəlxalq ictimaiyyət üçün təhlükə olduğunu vurğulayan nazir, dünyanı lərzəyə salan bu təhdidə qarşı birgə mübarizənin zəruriliyini qeyd etmişdir. Nazir demişdir ki, Azərbaycanın Avratlantika strukturlarına inteqrasiyası getdikcə dərinləşəcək, Tərəfdaşlığın Fərdi Əməliyyat Planı üzrə işlər sürətləndiriləcək, enerji təhlükəsizliyi sahəsində əməkdaşlıq genişləndiriləcəkdir.

Region dövlətləri ilə əməkdaşlıq məsələsinə toxunan nazir E.Məmmədyarov, Azərbaycanın həyata keçirdiyi və Gürcüstanın da qoşulduğu beynəlxalq əhəmiyyətli enerji və nəqliyyat layihələri barədə məlumat vermiş, bu layihələrin ikitərəfli əməkdaşlığın inkişafına bariz nümunə olduğunu söyləmiş, regiondakı münaqişələrin sabitliyə və tərəqqiyə əngəl olduğunu vurğulamışdır.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da fikir mübadiləsi aparılmışdır.

AZƏRBAYCAN RESPUBLİKASI VƏ POLŞA RESPUBLİKASI ARASINDA İQTİSADİ ƏMƏKDAŞLIQ ÜZRƏ HÖKUMƏTLƏRARASI KOMİSSİYANIN AZƏRBAYCAN RESPUBLİKASI TƏRƏFİNDƏN TƏRKİBİ HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Hökuməti və Polşa Respublikası Hökuməti arasında iqtisadi əməkdaşlıq haqqında Sazişin icrasını və iki ölkə arasında əlaqələrin daha da genişlənməsini təmin etmək məqsədi ilə qərara alıram:

1. Azərbaycan Respublikası və Polşa Respublikası arasında iqtisadi əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın Azərbaycan Respublikası tərəfindən aşağıdakı tərkibi təsdiq edilsin:

Komissiyanın həmsədri:

Heydər Babayev - Azərbaycan Respublikasının iqtisadi inkişaf naziri

Komissiyanın üzvləri:

Xələf Xələfov - Azərbaycan Respublikası xarici işlər nazirinin müavini

Azər Bayramov - Azərbaycan Respublikası maliyyə nazirinin müavini

Teymur Mehdiyev - Azərbaycan Respublikası mədəniyyət və turizm nazirinin müavini

Sənan Kərimov - Azərbaycan Respublikası səhiyyə nazirinin müavini

Bəhram Əliyev - Azərbaycan Respublikası kənd təsərrüfatı nazirinin müavini

Rüfət Aslanlı - Azərbaycan Respublikası Milli Bankının İdarə Heyətinin üzvü, kredit təşkilatlarının fəaliyyətinə nəzarət departamentinin direktoru

İdris Rzabəyov - Azərbaycan Respublikası Sənaye və Energetika Nazirliyinin yanacaq-energetika əməliyyatları şöbəsinin müdiri.

2. Bu Sərəncamın 1-ci bəndində göstərilən Komissiyanın Azərbaycan Respublikası tərəfindən tərkibinə tapşırılsın ki, Azərbaycan Respublikası və Polşa Respublikası arasında iqtisadi əməkdaşlıq əlaqələrinin tənzimlənməsi və onların daha da genişlənməsi istiqamətində müvafiq tədbirləri həyata keçirsin.

3. Bu Sərəncam dərc edildiyi gündən qüvvəyə minir.

İlham Əliyev

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 17 aprel 2006-cı il

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV TÜRKİYƏNİN DAXİLİ İŞLƏR NAZİRİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 19-da Prezident sarayında Türkiyənin daxili işlər naziri Əbdülqədir Aksunun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Dövlətimizin başçısı dost və qardaş ölkənin nazirinin Azərbaycana növbəti səfərindən şad olduğunu vurğulayaraq dedi ki, bilirəm, çox zəngin proqramınız var, maraqlı görüşlər keçirəcəksiniz. Əminəm ki, bu səfərdən razı qalacaqsınız. Bu yaxınlarda Türkiyənin hörmətli Cümhurbaşqanı Azərbaycanda səfərdə idi. Ondan əvvəl Baş nazir gəlmişdi və may ayında onun səfərini yenidən gözləyirik. Bütövlükdə hər bir səviyyədə görüşlər, danışıqlar aparılır, müştərək işlər görülür. Sizin də səfəriniz çox önəmlidir.

Prezident İlham Əliyev ölkələrimiz arasında əlaqələrin ən yüksək zirvədə olduğunu və bunun davam etməsinin, bölgədə gedən proseslərin, narahatlıq doğuran məsələlərin müzakirəsinin və ciddi əlaqələndirmənin olmasının vacibliyini vurğuladı.

Nazir Əbdülqədir Aksu görüş üçün vaxt ayırdığına və qonaqpərvərliyə görə minnətdarlığını bildirdi və Türkiyə Prezidentinin və Baş nazirinin salamlarını Azərbaycan Prezidentinə çatdırdı. O dedi ki, Azərbaycan və Türkiyə arasında strateji xarakter daşıyan, möhkəm, sağlam qardaşlıq münasibətləri günbəgün daha da möhkəmlənir. Türkiyə hər sahədə Azərbaycanın yanındadır və bu, davam edəcəkdir. Ümumi əlaqələrimiz çərçivəsində terrorizm və mütəşəkkil cinayətkarlıqla, qaçaqmalçılıqla mübarizədə uğurlu əməkdaşlığımızı davam etdirmək istəyirik.

Nazir daha sonra dedi ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə, Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həlli məsələsində Türkiyə ölkəmizi bundan sonra da dəstəkləyəcəkdir. O, Azərbaycanda, Bakıda baş verən inkişafı yüksək qiymətləndirərək dedi ki, böyük dövlət adamı Heydər Əliyevin başladığı yolun sizin tərəfinizdən çox uğurla davam etdirilməsini görməkdən xoşbəxtəm. Yeni göydələnlər, geniş inşaat işləri çox böyük inkişafdan xəbər verir. Eyni zamanda, Azərbaycanda sabitliyin yüksək səviyyədə qorunduğunun şahidi oldum.

Prezident İlham Əliyev ölkələrimizin bütün nazirlikləri arasında sıx əlaqələrin olduğunu vurğulayaraq dedi ki, bu, ümumi işimizə xidmət edir. Daxili işlər orqanları arasında olan əməkdaşlıq da çox əhəmiyyətlidir.

Dövlətimizin başçısı Türkiyə Prezidentinə və Baş nazirinə onun ən səmimi salamlarını çatdırmağı xahiş etdi və dedi ki, bizim aramızda da əlaqələr çox yüksək səviyyədədir, qardaşlıq münasibətləridir. Bizi birləşdirən böyük layihələr ölkələrimizin mövqeyini daha da möhkəmləndirir. Türkiyə-Azərbaycan birliyi həm bizim xalqlarımız üçün lazımdır, eyni zamanda, bölgədə sülhün, təhlükəsizliyin təmin olunmasına, regional işbirliyinin möhkəmlənməsinə və bütövlükdə regionun inkişafına xidmət edir. Bizim münasibətlərimiz, birgə həyata keçirdiyimiz layihələr getdikcə artıq regional müstəvidən çıxıb dünya səviyyəli əhəmiyyət kəsb edir. Biz bu gözəl fürsətdən çox səmərəli istifadə etməli, işbirliyini daha da möhkəmləndirməliyik. Azərbaycanın təbii ehtiyatlarını xarici bazarlara çatdıracaq neft və qaz kəmərləri istismara verildikdən sonra regionda vəziyyət daha da yaxşılaşmalıdır. Ancaq eyni zamanda, biz regionda gedən proseslərə, yeni yaranan təhlükələrə, qaçaqmalçılıq və digər xoşagəlməz hallarla mübarizəyə çox böyük diqqət yetirməliyik. Tarix göstərir ki, indi heç bir inkişaf etmiş ölkə özünü tam şəkildə müdafiə olunmuş hesab edə bilməz.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İORDANİYA HAŞİMİLƏR KRALLIĞININ ŞAHZADƏSİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 19-da Prezident sarayında İordaniya Haşimilər Krallığının Şahzadəsi Əl-Həsən bin Talalı qəbul etmişdir.

Dövlətimizin başçısı qonağın ölkəmizə gəlməsindən məmnunluğunu bildirdi.

Əl-Həsən bin Talal təşəkkür edərək dedi ki, Azərbaycana ikinci dəfə səfər edir, beş il bundan əvvəl buraya qaçqın-köçkünlərin vəziyyəti ilə tanış olmaq üçün gəlmişdim. O zaman mənə Prezident Heydər Əliyevlə görüşmək şərəfi nəsib olmuşdu.

Prezident İlham Əliyev qaçqın-köçkün probleminin hələ də Azərbaycan üçün əsas problem olduğunu vurğuladı və onlar üçün yeni qəsəbələrin salındığını söylədi. Bu baxımdan qarşıdakı günlərdə keçiriləcək konfrans xüsusi əhəmiyyətə malikdir.

İordaniya Şahzadəsi mayın 1-də Türkiyənin xarici işlər naziri Abdullah Gülün dəvəti ilə bu ölkədə keçiriləcək konfransda Roma klubunun ilk asiyalı sədri kimi iştirak edəcəyini və orada bu regionun əhəmiyyəti ilə bağlı müzakirələr aparmaq niyyətində olduğunu bildirdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV LATIN MƏDƏNİYYƏTİ AKADEMİYASININ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 19-da Prezident sarayında Bakıda keçirilən "Azərbaycan: sivilizasiyalararası dialoqun keçmişi və bu günü" mövzusunda XIII beynəlxalq konfransda iştirak edən Latın Mədəniyyəti Akademiyasının nümayəndə heyətini qəbul etmişdir.

Dövlətimizin başçısı qonaqları görməkdən çox şad olduğunu söylədi, beynəlxalq tədbiri məhz Bakıda keçirdiklərinə görə onlara minnətdarlığını bildirərək dedi ki, zənnimcə, konfransın burada təşkili bir-birimizi tanımaq üçün və ölkələrimizin daha da yaxınlaşmasından ötrü yeni imkanlar açacaq və sizin ideyalar regionda daha yaxşı şəkildə təşviq olunacaqdır. Azərbaycan çox mühüm bir məkanda yerləşir, müstəqil dövlət kimi gəncdir. Biz cəmi 15 ildir ki, müstəqil ölkə kimi yaşayırıq. Lakin bizim tariximiz olduqca böyükdür və genişdir, zəngin adət-ənənələrimiz var. Əsrlər boyu müxtəlif millətlərin, dinlərin nümayəndələri Azərbaycanda sülh və dostluq şəraitində yaşamışlar. Buna görə konfransın mövzusu, yəni, sivilizasiyalar arasında dialoq bizə yaxşı məlum olan mövzudur. Azərbaycan regionda nadir yerlərdən biridir ki, biz burada qarşılıqlı hörmət, ehtiram, anlaşma müşahidə edirik. Bütün dinlər arasında anlaşma var. Azərbaycanda tarix boyu dinlərarası heç bir münaqişə və yaxud toqquşma olmamışdır və mən əminəm ki, bu dostluq və qardaşlıq ruhu gələcəkdə daha da möhkəmlənəcəkdir. Mən hesab edirəm ki, ölkəmizin bu sahədəki təcrübəsi dünyanın müxtəlif guşələrində də öyrənilə bilər. Əgər millətlər sülh şəraitində yaşayırlarsa, ölkənin sürətli inkişafı da təmin edilir. Biz çoxmillətli ölkəyik, burada bir çox xalqların nümayəndələri yaşayır və onlar özlərini təhlükəsiz və rahat hiss edirlər.

Prezident İlham Əliyev daha sonra dedi ki, dünyanın hazırkı inkişaf mərhələsində biz sivilizasiyalar arasında dialoqdan danışırıq. Lakin bəzi hallarda reallıqda biz təhlükəli

meyllər, toqquşmalar, təcridolunma və digər hallar görürük və bunları dini mənsubiyyətlə bağlayırlar. Bu, çox təhlükəli meyllərdir. Çünki bunun çox gözlənilməyən nəticələri olur. Mən hesab edirəm ki, dünyanın aparıcı intellektual dairələri - alimlər, qabaqcıl insanlar birgəyaşayış prinsiplərinin, dinlər arasında, xalqlar, millətlər arasında anlaşmanın təşviq olunmasında rol oynaya bilərlər. Beləliklə, təcridolunmanın qarşısını alarlar və bütün millətlərin nümayəndələri yan-yana yaşaya bilərlər. Hesab edirəm ki, bu konfransın keçirilməsi ideyası və orada müzakirə olunan məsələlər bütün bəşəriyyət üçün vacibdir. Əgər biz xalqlar arasında sülhün bərqərar edilməsinə nail ola bilsək, onda ölkələr, əsasən, özlərinin gündəlik problemlərinə daha çox diqqət ayıra biləcəkdir. Belə olsa, dünyada təhlükələrin sayı da azalacaqdır.

İndi Azərbaycan bu istiqamətdə inkişaf etməyə çalışır. Qonşularımızla çox yaxşı münasibətlərimiz var, çünki biz bu regionda yaşayırıq. Regional inkişaf və regional təhlükəsizlik bizim üçün vacibdir və bunun bizə praktik təsiri var. Bildiyiniz kimi, Azərbaycan dünya birliyinə fəal inteqrasiya olunur. Biz Avropa İttifaqının "Yeni qonşuluq siyasəti"nə qoşulmuşuq. Sülh olmadan siyasi, iqtisadi inkişaf baş verə bilməz. Eyni zamanda, ölkədə yaşayan xalqlar arasında problemlər olsa, biz buna nail ola bilmərik.

Bir sözlə, sizin keçirdiyiniz çox yaxşı konfransdır, yaxşı gündəliyi var. Konfransı keçirmək üçün çox müdrik olaraq, məhz bizim ölkəmizi seçmisiniz. Buna görə də sizə minnətdaram. Sizdən xahiş edirəm ki, vaxtınızı konfransa sərf etməklə yanaşı, boş vaxt tapıb Bakının tarixi yerlərini də gəzin, insanlarımızla görüşlər keçirin və Azərbaycanın bugünkü həyatı ilə daha yaxından tanış olun.

Sizi bir daha salamlayır və sizə uğurlar arzulayıram. Sağ olun.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İRANIN MÜDAFİƏ VƏ SİLAHLI QÜVVƏLƏRƏ DƏSTƏK NAZİRİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 20-də Prezident sarayında İran İslam Respublikasının müdafiə və silahlı qüvvələrə dəstək naziri, general-mayor Mustafa Məhəmməd Nəccarın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Dövlətimizin başçısı ölkələrimiz arasında siyasi, iqtisadi, energetika və bütün başqa sahələrdə əməkdaşlığın inkişaf etdiyini, imzalanmış sənədlərin bu əlaqələri yeni səviyyəyə qaldırdığını bildirdi.

Cənab Mahmud Əhmədincjadla görüşlərini xatırlayan Prezident İlham Əliyev İqtisadi Əməkdaşlıq Təşkilatının may ayında Bakıda keçiriləcək toplantısında bir daha görüşəcəklərini vurğuladı, onun salamlarını İran Prezidentinə çatdırmağı xahiş etdi.

Nazir Mustafa Məhəmməd Nəccar İran Prezidentinin salamlarını və İƏT-in qarşıdakı zirvə toplantısına dəvətə görə təşəkkürünü Azərbaycan Prezidentinə çatdırdı.

İranda baş vermiş zəlzələ ilə əlaqədar göstərilən humanitar yardıma görə dövlətimizin başçısına minnətdarlığını bildirən nazir təbii fəlakətin nəticələrinin aradan qaldırılması üçün görülən işlər barədə məlumat verdi.

Dahi şəxsiyyət Heydər Əliyevin Azərbaycan-İran münasibətlərinin inkişafı üçün çox

böyük işlər gördüyünü məmnunluqla xatırladan qonaq Prezident İlham Əliyevin bu xətti davam etdirməsinin təqdirəlayiq olduğunu bildirdi və dedi ki, İran dost və qonşu Azərbaycanın ərazi bütövlüyünü həmişə dəstəkləmiş, bundan sonra da dəstəkləyəcəkdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ATƏT-İN MİNSK QRUPUNUN AMERİKALI HƏMSƏDRİ STİVEN MƏNNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 21-də Prezident sarayında ATƏT-in Minsk qrupunun amerikalı həmsədri, səfir Stiven Mənni qəbul etmişdir.

Görüş zamanı Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllinə dair aparılan danışıqlar prosesinin hazırkı vəziyyəti barədə fikir mübadiləsi aparılmışdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AVROPA İTTİFAQI "ÜÇLÜYÜ"NÜN NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 21-də Prezident sarayında Avropa İttifaqı "Üçlüyü"nün nümayəndə heyətini qəbul etmişdir.

Dövlətimizin başçısı nümayəndə heyətinin Cənubi Qafqaz regionuna səfərinin böyük əhəmiyyət daşıdığını vurğuladı. Prezident İlham Əliyev dedi ki, bu səfər Azərbaycan ilə Avropa İttifaqı arasında əməkdaşlığın inkişafı baxımından əhəmiyyətlidir və ümid edirəm ki, əlaqələrimiz gələcəkdə daha da genişlənəcəkdir.

Nümayəndə heyətinin başçısı, Avstriya Xarici İşlər Nazirliyinin dövlət katibi Hans Vinkler bildirdi ki, Bakıya səfərdən məqsəd Avropa İttifaqı ilə Azərbaycan arasında münasibətləri daha da möhkəmləndirməkdən ibarətdir. Avropa İttifaqı Cənubi Qafqaz ölkələri ilə əlaqələrin genişləndirilməsinə böyük əhəmiyyət verir.

Prezident İlham Əliyev əmin olduğunu vurğuladı ki, Avropa İttifaqı ilə əməkdaşlığın genişləndirilməsi regionun inkişafına müsbət təsir göstərəcəkdir.

MOSKVADA MDB XARİCİ İŞLƏR NAZİRLƏRİ ŞURASININ İCLASI OLMUŞDUR

Aprelin 21-də Moskvada MDB Xarici İşlər Nazirləri Şurasının iclası keçirilmişdir. İclasda 17-dək məsələ müzakirə olunmuşdur.

Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov, xarici işlər nazirinin müavini Xələf Xələfov, ölkəmizin Rusiyadakı səfiri Polad Bülbüloğlu iclasda iştirak etmişlər.

Nazirlər əvvəlcə məhdud tərkibdə qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparmışlar. Daha sonra görüş Rusiyanın xarici işlər naziri Sergey Lavrovun və MDB İcraiyyə Komitəsinin icraçı katibi Vladimir Ruşaylonun sədrliyi ilə geniş tərkibdə davam etdirilmişdir.

İclasda xarici işlər nazirləri humanitar əməkdaşlıq üzrə Şuranın yaradılması haqqında saziş layihəsini bəyənərək təsdiqləmişlər. Bundan əlavə, MDB çərçivəsində XİN-lərə-

rası çoxsəviyyəli məsləhətləşmələrin planı, MDB dövlətləri başçılarının Birlik orqanlarının təkmilləşdirilməsi və yenidən qurulması haqqında qərarlarının yerinə yetirilməsinin gedişi haqqında məsələlər nəzərdən keçirilmişdir.

Xarici işlər naziri Elmar Məmmədyarov iclasdan sonra bildirmişdir ki, MDB çərçivəsində əməkdaşlığın perspektivləri haqqında bir çox məsələlər barədə geniş fikir mübadiləsi aparılmışdır. Birliyin yenidən qurulması məsələsi qızğın müzakirə mövzusuna çevrilmişdir. Ukrayna tərəfi məsələlərin geniş siyahısını, o cümlədən MDB ölkələri arasında dövlət sərhədlərini müqavilə-hüquq baxımından rəsmiləşdirmək, vətəndaşların pensiya hüquqlarının təmin olunmasına zəmanət vermək, vahid tarif siyasəti olan Mərkəzi, Cənubi və Qərbi Avropa dövlətlərinə enerji daşıyıcılarının nəqli üçün dəhlizlər yaratmaq, habelə Azərbaycan, Gürcüstan və Moldovanın dəstəklədikləri MDB dövlətləri arasında azad ticarət zonasının fəaliyyəti mexanizmi kimi məsələlərin müzakirəsini təklif etmişdir. Azərbaycanın mövqeyincə, Birliyin hər hansı dövləti bu və ya digər məsələnin müzakirəsi ideyasını irəli sürürsə, onda həmin məsələ bu və ya digər formatda da müzakirə olunmalıdır.

Respublika xarici siyasət idarəsinin başçısı təəssüfləndiyini bildirmişdir ki, postsovet məkanındakı dondurulmuş münaqişələrin müzakirə olunması təşəbbüsü dəstəklənməmişdir. Onun dediyinə görə, Ukrayna tərəfi ötən əsrin 30-cu illərinin faciəli Qolodomor hadisələrinin Birlik dövlətləri tərəfindən pislənməsi haqqında məsələni müzakirəyə çıxarmışdır. Azərbaycan müzakirə ideyasının özünü bəyənmişdir və bu hadisələri pisləyir. Nazir demişdir: "Əslində, bu, insan tələfatı ilə nəticələnən dəhşətli cinayət idi. Bundan əlavə, həmin mövzu BMT-də müzakirə olunmuş və hətta BMT Baş Məclisi Qolodomorun pislənməsi məsələsinə dair müvafiq qətnamə də qəbul etmişdir".

Aprelin 21-də Moskvada MDB ölkələri Xarici İşlər Nazirləri Şurasının iclası çərçivəsində Azərbaycanın və Ukraynanın xarici siyasət idarələrinin başçıları Elmar Məmmədyarov və Boris Tarasyuk GUAM-ın mayda Kiyevdə keçiriləcək zirvə toplantısına hazırlıq barədə fikir mübadiləsi aparmışlar.

Görüşdə nazirlər ikitərəfli əməkdaşlığın dərinləşdirilməsinə qarşılıqlı səy göstərildiyini təsdiqləmiş və Ukrayna Prezidenti Viktor Yuşşenkonun Azərbaycana səfəri ilə bağlı məsələni müzakirə etmişlər.

Ticarət-iqtisadi münasibətlərin inkişaf etdirilməsi ilə əlaqədar əsas diqqət iqtisadi əməkdaşlıq məsələləri üzrə hökumətlərarası birgə komissiyanın növbəti iclasını keçirməyin vacibliyinə yönəldilmişdir.

E.Məmmədyarov elə həmin gün ATƏT-in Minsk qrupunun rusiyalı həmsədri Yuri Merzlyakovla da görüşmüşdür. Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli perspektivləri müzakirə olunmuşdur.

E.MƏMMƏDYAROV: ABŞ-DA ƏMƏKDAŞLIQ MƏSƏLƏLƏRİ GENİŞ SƏPKİDƏ MÜZAKİRƏ OLUNACAQ

Moskvada MDB Xarici İşlər Nazirləri Şurasının iclasında iştirak edən Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov Rusiya və Azərbaycan kütləvi informasiya vasitələrinin nümayəndələri ilə görüşündə ölkəmizin daxili və xarici siyasətinin bəzi mühüm

məsələlərinə dair mövqeyinə aydınlıq gətirmişdir.

Nazir bildirmişdir ki, dövlətimizin başçısı İlham Əliyevin ABŞ-a səfəri və Prezident Corc Buşla görüşü zamanı ikitərəfli əməkdaşlıq məsələlərinin geniş dairəsi, habelə beynəlxalq və regional səviyyəli məsələlər müzakirə olunacaqdır. E.Məmmədyarovun sözlərinə görə, danışıqların vacib mövzularından biri Qafqazda münaqişələrin həlli yollarıdır. Enerji təhlükəsizliyinin təmin edilməsi, beynəlxalq terrorizmlə mübarizə, o cümlədən Azərbaycanın terror əleyhinə koalisiyada iştirakı məsələləri də müzakirə olunacaqdır.

E.Məmmədyarov ABŞ-da İran məsələsinin müzakirə olunub-olunmayacağı sualına cavabında demişdir: "İran mövzusu regional siyasət baxımından səslənə bilər. Bizim qonşu İranla problemimiz yoxdur. Ümumi sərhədimiz var. Ermənistanla münaqişə nəticəsində blokada vəziyyətinə düşmüş Naxçıvana yükləri çatdırmaq üçün yeganə yol buradan keçir. İran yaxın qonşumuzdur. Bizi iqtisadi və mədəni, tarix və din baxımından bir çox cəhətlər birləşdirir, İranda çoxlu azərbaycanlı yaşayır. İran regional ölkə, regional liderdir. Biz hesab edirik ki, məsələlərin diplomatik yolla həlli imkanları tükənməyib və hər bir dövlət Beynəlxalq Atom Enerjisi Agentliyinin nəzarəti altında atom energetikasını dinc məqsədlərlə inkişaf etdirmək hüququna malikdir".

Respublika XİN-in başçısı onu da bildirmişdir ki, Vaşinqton danışıqları çərçivəsində Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə dair yeni təkliflər gözləmək çətindir. O demişdir: "Azərbaycanın 15 il ərzindəki dəyişməz mövqeyi elə dəyişməz olaraq qalır. Biz məsələnin beynəlxalq hüquq normaları və prinsiplərinə, BMT Təhlükəsizlik Şurasının məlum qətnamələrinə, ATƏT-in qərarlarına müvafiq həlli yoluna həmişə tərəfdar olmuşuq və indi də tərəfdarıq. Əgər münaqişəyə real surətdə son qoymaq istəyiriksə, şübhəsiz, onun vaxtaşırı qızışmasına yol verməmək üçün qərar sırf qanunilik əsaslanmalıdır. Vasitəçilər tərəflərin mövqelərini yaxınlaşdırmaq üçün təmas nöqtələri axtarmağa çalışırlar. "Öz müqəddəratını təyin etmək" anlayışına gəldikdə isə, beynəlxalq hüquq prinsiplərinə görə, bu anlayış ərazi bütövlüyünün pozulmasını nəzərdə tutmur. Xalq, yaxud milli azlıq müqəddəratını ərazi bütövlüyü əsasında təyin edir və Azərbaycan öz tərəfindən erməni milli azlığına Dağlıq Qarabağ çərçivəsində ən yüksək muxtariyyət verməyə hazırdır. Bu nümunə hamıya tanışdır və dünyada, Avropada geniş tətbiq olunur".

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV QAZAXISTAN XARİCİ İŞLƏR NAZİRİNİN MÜAVİNİ NURLAN ONJANOVU QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 24-də Prezident sarayında Qazaxıstan xarici işlər nazirinin müavini Nurlan Onjanovu qəbul etmişdir.

Cənab Onjanov Qazaxıstan Prezidenti Nursultan Nazarbayevin Azərbaycan Prezidenti İlham Əliyevə bu il iyunun 17-də Almatı şəhərində keçiriləcək Asiyada qarşılıqlı fəaliyyət və etimad tədbirləri üzrə II zirvə görüşünə dəvətini çatdırdı.

Dəvətə görə minnətdarlığını bildirən dövlətimizin başçısı Prezident Nursultan Nazarbayevin ötən il Azərbaycana səfərini, onunla keçirdiyi görüşləri, apardığı danışıqları məmnunluqla xatırladı. Prezident İlham Əliyev qeyd etdi ki, Azərbaycanla Qazaxıstan

arasında əlaqələr bütün sahələrdə uğurla inkişaf edir, birgə planlar həyata keçirilir.

Azərbaycan və Qazaxıstanın strateji tərəfdaşlar olduğunu söyləyən Nurlan Onjanov ölkələrimiz arasında iqtisadi əlaqələrin səviyyəsini xüsusilə vurğulayaraq bildirdi ki, qarşılıqlı maraq doğuran layihələr məhz Azərbaycan Prezidentinin ardıcıl səyləri sayəsində öz həllini tapır və əməkdaşlığımız getdikcə möhkəmlənir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV DÜNYA SƏHİYYƏ TƏŞKİLATININ BAŞ DİREKTORU Lİ YONQ VUKUN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 25-də Prezident sarayında Dünya Səhiyyə Təşkilatının baş direktoru Li Yonq Vukun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Görüş zamanı Azərbaycanın Dünya Səhiyyə Təşkilatı ilə əməkdaşlığının hazırkı vəziyyəti və perspektivləri, ölkəmizdə son dövrdə səhiyyə sahəsində həyata keçirilən islahatlar və digər məsələlərlə bağlı fikir mübadiləsi aparılmışdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ABŞ-A SƏFƏRİ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 25-də Amerika Birləşmiş Ştatlarına səfərə yola düşmüşdür.

BEYNƏLXALQ MÜNASİBƏTLƏR ŞURASINDA GÖRÜŞ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin ABŞ-a səfəri çərçivəsində aprelin 26-da ilk görüşü Vaşinqtonda Beynəlxalq Münasibətlər Şurasında olmuşdur.

Görüşü ABŞ-ın keçmiş Prezidentinin milli təhlükəsizlik üzrə köməkçisi general BRENT SKOUKROFT açaraq dedi:

- Sabahınız xeyir. Beynəlxalq Münasibətlər Şurasının bugünkü görüşünə xoş gəlmişsiniz. Bu görüş xüsusi əhəmiyyət daşıyır.

Bu gün mənim hörmətli qonağım, Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevdir. Sizi burada salamlamaq böyük şərəfdir. Bu, Vaşinqton səfəri çərçivəsində ilk görüşdür. Ona görə hörmətli qonağın ölkəmizdə ilk sözünü biz dinləyəcəyik. Bu gün keçirəcəyimiz görüşün prosedurası adi görüşlərdən fərqli olacaqdır. Mənim qonağım 2003-cü ilin oktyabrında Azərbaycanın Prezidenti seçilmişdir. O, Bakıda anadan olub və Azərbaycanda orta məktəbi bitirdikdən sonra Moskvanın Dövlət Beynəlxalq Münasibətlər İnstitutuna daxil olmuşdur. 1982-ci ildə həmin institutu bitirdikdən sonra aspiranturaya qəbul olunub və 1990-cı illərə qədər orada dərs deyibdir. 1994-cü ilin may ayında o, Azərbaycan Dövlət Neft Şirkətinin birinci vitse-prezidenti təyin olunmuşdur. Həmin müddət ərzində, o, Azərbaycanın neft yataqlarının işlənilməsi sahəsində geniş fəaliyyət göstərmişdir. 1995-2003-cü illərdə, o, Azərbaycan parlamentinin deputatı olmuşdur. 2003-cü ilin yanvarında İlham Əliyev Avropa Şurası Parla-

ment Assambleyası sədrinin müavini vəzifəsinə seçilmişdir. Həmin ilin avqust ayında, o, Azərbaycanın Baş naziri təyin edilmiş və daha sonra, mən artıq bunu dedim, 2003-cü ildə oktyabrın 15-də Azərbaycan Respublikasının Prezidenti seçilmişdir.

Artıq qeyd etdiyim kimi, buradakı prosedura fərqli olacaqdır. Bu səhər cənab Prezident öz arzusunu bildirmişdir ki, formal çıxış etmək əvəzinə, o, görüşü söhbət formasında qursun. Suallar verilsin və onları cavablandırsın. Mən birinci sualı verəcəyəm, sonra isə, sizin suallarınıza keçəcəyik. Xahiş edirik, sual verərkən mikrofonu gözləyin, ayağa qalxın, özünüzü təqdim edin və iş sahəniz haqqında məlumat verin.

Siz hamınız bilirsiniz ki, Azərbaycan ABŞ-ın vacib tərəfdaşıdır, onun çox strateji mövqeyi var. Zəngin enerji resurslarına malikdir və sərt qonşuları var. Qafqaz mürəkkəb və həssas regiondur, Azərbaycanın şimalda və cənubda iki çox güclü qonşusu var: Rusiya və İran. Onlar bu ölkəyə möhkəm marağını nümayiş etdirirlər. O, qərbdə yerləşən qonşusu Ermənistanla müharibə vəziyyətindədir və həmin ölkə hazırda Azərbaycan ərazisinin böyük bir hissəsini işğal altında saxlayır.

Cənab Prezident, Sizi ölkənizlə bağlı ən çox narahat edən məsələlər hansılardır?

İLHAM ƏLİYEV: Giriş sözünüzə görə çox sağ olun. İlk növbədə, demək istəyirəm ki, burada olmağıma çox şadam. Beynəlxalq Münasibətlər Şurasında fikir mübadiləsi aparmaq mənim üçün böyük şərəfdir. Mən Vaşinqtona rəsmi səfərimi bu görüşlə başlayıram. Bu, mənim ilk görüşümdür. Qarşılıqlı maraq doğuran bütün məsələlər keçiriləcək görüşlər zamanı müzakirə olunacaqdır. Azərbaycan yeni müstəqillik qazanmış ölkə hesab edilir, baxmayaraq ki, müstəqilliyimizin artıq 15-ci ilini yaşayırıq. Lakin bununla belə, inkişaf prosesləri hələ də gedir. Müstəqilliyin ilk illərində biz çətinliklərlə üzləşmişdik, Azərbaycanın gələcəyi sual altında idi - vətəndaş müharibəsi, Ermənistanın təcavüzü. Ölkədə digər çətin problemlər, o cümlədən tam iqtisadi böhran özünü büruzə vermişdi. Əslində, Azərbaycanın müstəqil ölkə kimi mövcudluğu sual altında idi. Lakin bu gün Azərbaycan regionda güclü mövqeyə malik olan ölkədir, xarici sərmayələrin cəlb edilməsi məqsədi ilə çox uğurlu strategiyanı həyata keçirmişdir. Biz çox uğurlu iqtisadi islahatlar aparmışıq. Bu baxımdan ölkəmiz sürətlə inkişaf edir. Hazırda Azərbaycan beynəlxalq birliyə yaxşı inteqrasiya olunmuşdur. Biz çox vacib beynəlxalq və Avropa təşkilatlarının üzvüyük və siyasi demokratik islahatlar ölkədə paralel olaraq aparılır. Birləşmiş Ştatlarla münasibətlərimizi yüksək qiymətləndiririk, bu əlaqələr bizim üçün strateji əhəmiyyət daşıyır və fikrimcə, ölkələrimiz arasında əlaqələrin gələcək inkişafı burada keçirəcəyim görüşlərin və aparacağım müzakirələrin əsas mövzusu olacaqdır. Biz müxtəlif sahələrdə əməkdaşlıq edirik. Bu, 1994-cü ildə enerji məsələlərindən başlamış, sonra isə təhlükəsizlik sahəsinə, iqtisadi əməkdaşlığa, antiterror koalisiyasında iştiraka keçmişdir. Əlbəttə, əməkdaşlıq Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli, ölkədəki siyasi və iqtisadi islahatlar və regional problemlər kimi sahələr də də olmuşdur. Bu, əməkdaşlığımızın əsas sahələridir. Bütün bu sahələrdə biz qarşılıqlı anlaşmanın və hörmətin şahidiyik. Əminəm ki, səfərim bütün bu müsbət nailiyyətləri və meylləri daha da möhkəmləndirəcəkdir.

Ölkənin üzləşdiyi əsas çətinliklərə gəldikdə isə, təbii ki, bu, Ermənistanın Azərbaycan torpaqlarını davamlı işğalıdır. Bunu istisna etməklə, bizim heç bir ciddi problemimiz yoxdur, çünki iqtisadi inkişaf baxımından göstəricilərimiz əladır. Ötən il ərzində Azər-

baycanda ÜDM-in artım həcmi 26 faiz olmuşdur. Bu il ondan da çox olacaqdır. Prezident olduğum son iki il yarım ərzində Azərbaycanda 380 mindən çox yeni iş yeri açılmışdır. Onların əksəriyyəti qeyri-neft sektoruna aiddir. Büdcəmiz dörd dəfə artmışdır. Əlbəttə ki, bizim enerji və nəqletmə layihələrimiz çox möhkəm iqtisadi əsaslar yaradacaqdır.

Bununla belə, ən böyük təhdid, təhlükə və maneə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsidir. Biz həmin münaqişəni on ildən çoxdur ki, həll etməyə çalışırıq. Lakin əfsuslar olsun, bu səylər hələ ki, heç bir uğur gətirməmişdir. Ümid edirik ki, hazırkı danışıqların çərçivəsi beynəlxalq hüququn normalarına əsaslanan ədalətli və uzunmüddətli sülhün bərqərar olunması üçün imkanlar yaradacaqdır. Əminəm ki, dünyanın aparıcı dövləti və ATƏT-in Minsk qrupunun həmsədri kimi Birləşmiş Ştatlar münaqişənin həllinə töhfə verəcək və beləliklə, sülh ölkəmizdə və regionda öz yerini tutacaqdır.

BRENT SKOUKROFT: Çox sağ olun, cənab Prezident. Dağlıq Qarabağ haqqında bir az ətraflı danışmağınızı xahiş edirik. Ermənistanın apardığı hərbi əməliyyat və təcavüz dayandırıldıqdan sonra müəyyən irəliləyiş əldə edilmişdir. Lakin bundan sonra Birləşmiş Ştatların sanksiyaları Ermənistana yox, Azərbaycana qarşı tətbiq olundu. O vaxtdan bəri uzun yol keçilibdir. Lakin hər iki tərəfin emosional çıxışlarının intensivliyi baxımından, Siz problemin bu yaxınlarda həllini gözləyirsinizmi?

İLHAM ƏLİYEV: Siz burada Birləşmiş Ştatların sanksiyasını xatırlatdınız. Əlbəttə, bu, bizə qarşı çox ədalətsiz addım idi. Lakin sanksiyanın tətbiq olunduğu vaxtı yadımıza salsaq görərik ki, həmin vaxt Azərbaycanı Vaşinqtonda ümumiyyətlə tanımırdılar. Müstəqilliyin ilk illəri diplomatiya çox zəif idi. Əksinə, buradakı erməni lobbisi olduqca fəal çalışırdı və onlar rəsmiləri, Konqresi və digər təsisatları Azərbaycanın təcavüzün qurbanı yox, təcavüzkar olması fikrinə inandıra bildilər. Beləliklə, 907-ci düzəliş qəbul edilmişdir. Əlbəttə, sonrakı illər ərzində bu qərar qüvvədə idi və bu düzəlişin qüvvəsinin dayandırılması müəyyən vaxt apardı. Lakin biz hamımız o vaxtkı şəraiti xatırlayırıq. Danışıqlar təkcə bir tərəfdən asılı deyildir. Bu elə bir məsələ deyil ki, Azərbaycan onu birtərəfli qaydada həll etsin. Danışıqlarda iki tərəf iştirak edir. Bu səbəbdən, əgər biz sülh yolu ilə nizamlanmadan danışırıqsa, onda hər iki tərəf münaqişənin həllinə doğru addımlar atmalıdır. Bizim mövqeyimiz olduqca aydındır və mən hesab edirəm ki, ədalətlidir və beynəlxalq hüquq prinsiplərinə əsaslanır.

Hər hansı münaqişənin həlli üçün müəyyən çərçivələr mövcud olmalıdır. Bu baxımdan, beynəlxalq hüququn lazımi qaydada müəyyən edilmiş normaları mövcuddur. Azərbaycanın ərazi bütövlüyü danışıqlar mövzusu deyildir. Azərbaycanın ərazi bütövlüyü bütün ölkələr, o cümlədən Birləşmiş Ştatlar tərəfindən tanınmışdır. Azərbaycanın ərazi bütövlüyünü tanımayan yeganə ölkə Ermənistandır. Bizim ərazi bütövlüyümüz Birləşmiş Millətlər Təşkilatı tərəfindən tanınıb və Azərbaycan bu təşkilata üzv kimi qəbul olunduqda, bütöv ölkə kimi, Azərbaycanın tarixi torpağı Dağlıq Qarabağ daxil olmaqla qəbul edilibdir. Buna görə də münaqişə həmin prinsiplər əsasında öz həllini tapa bilər. Dağlıq Qarabağda yaşayan təqribən 60 min ermənıyə Azərbaycanın ərazi bütövlüyü çərçivəsində yüksək dərəcəli muxtariyyət verilə bilər. Biz belə misalları bir çox yerlərdə, o cümlədən Avropada görmüşük. Avropada muxtariyyətin bir çox yaxşı nümunələri mövcuddur və orada milli azlıqlar dinc şəraitdə, heç bir problemsiz yaşayırlar.

Biz onlara bölgədə sülhün daim qorunacağı barədə çox güclü siyasi zəmanət verə bilərik. Sayı bir milyon olan qaçqınlarımız, o cümlədən 700 min məcburi köçkün öz evlərinə qayıtmaq hüququna malikdir. Onlar Ermənistan hökuməti tərəfindən həyata keçirilmiş etnik təmizləmə siyasəti nəticəsində öz yurdlarından qovulmuşlar. Onlar artıq on ildən çoxdur ki, dözülməz şəraitdə yaşayırlar. Bu, böyük humanitar faciədir və bütün dünya buna diqqət yetirməlidir. Biz yenə də münaqişənin beynəlxalq hüquq normaları əsasında dinc yolla həllinin tərəfdarıyıq və ümid edirik ki, danışıqlar konstruktiv istiqamətdə davam edəcəkdir. Lakin eyni zamanda, hər hansı proqnoz vermək çətindir, çünki bu, elə bir məsələdir ki, yalnız bizim qərar və ya istəyimizdən asılı deyildir.

BRENT SKOUKROFT: Sağ olun, cənab Prezident. İndi isə, yerlərdən verilən suallara keçək. Kiminsə sualı varmı?

SUAL: Mən hazırda Corc Vaşinqton Universitetində işləyirəm. Keçmişdə Milli Təhlükəsizlik Şurasında çalışmışam, atanız və Prezident Koçaryan arasında Dağlıq Qarabağ üzrə Ki Uest sülh danışıqlarında Ağ evin nümayəndəsi olmuşam. Bildiyiniz kimi, hər hansı danışıqlarda hər iki tərəfin güzəştlərə getməsi lazımdır. Mən hesab edirəm ki, bu halda ən çətin şey digər tərəfin təklifinə uyğun güzəştə getməkdir. Əgər nəzərə alsaq ki, Sizin ölkə daha zəngindir və daha yaxşı uzunmüddətli perspektivləri var, fikrinizcə, Siz hazırda çətin vəziyyətdə olan Ermənistana hansı stimulu verə bilərsiniz? Onlar müharibədə qalib gəliblər. Udduqları heç nəyi geriyə qaytarmaq istəmirlər, çünki uzun müddətdə onları çətin perspektivlər gözləyir. Ona görə, əgər Siz Ermənistanın yerində olsaydınız, Sizcə, onlara hansı stimul lazımdır ki, onlar da güzəştə gedə bilsin və məsələ öz həllini tapsın? Sağ olun.

İLHAM ƏLİYEV: Əvvəlcə onu demək istəyirəm ki, ermənilər müharibəni udmayıblar. Ola bilsin, ermənilər digər ölkələrin güclü himayəsi altında birinci müharibədə müəyyən üstünlük qazana biliblər. Hamıya məlumdur ki, Rusiya ordusunun güclü yardımı olmadan, ermənilər heç vaxt bizim torpaqları ələ keçirə bilməzdilər. Bu cür yardım həmin vaxt həlledici rol oynadı. Buna görə də müharibə hələ başa çatmayıbdır. Mən hesab edirəm ki, beynəlxalq münasibətlərdə real və konstruktiv danışıqları artıq baş vermiş fakt əsasında aparmaq düzgün hesab edilmir. Əgər biz beynəlxalq prosesdən və problemin müəyyən prinsiplərə əsaslanan dinc yolla həllindən danışırıqsa, bir tərəfin müvəqqəti üstün vəziyyəti nəzərə alınmamalıdır.

Hesab edirəm ki, Ermənistan rəhbərliyi üçün qərar qəbul etmək vaxtı artıq yetişibdir. Biz hamımız gələcəyi fikirləşməliyik və dövlət xadimi ilə siyasətçi arasında olan fərq ondan ibarətdir ki, siyasətçilər yalnız özlərinin siyasi taleyi haqqında düşünürlər. Dövlət xadimləri isə xalqın taleyi haqqında fikirləşirlər. Fikrimcə, Ermənistan rəhbərliyinin qərar qəbul etmək vaxtı çatıbdır. Onlar beş, on və on beş ildən sonra münaqişənin həll olunmayacağı təqdirdə nəyin baş verəcəyi haqqında düşünməlidirlər.

Azərbaycan xalqının səbrinin hüdudları var. Bizim heç bir qeyri-adi tələbimiz yoxdur. Biz özümüzə məxsus olmayan torpağı tələb etmirik. Tələbimiz odur ki, ermənilər işğal etdikləri rayonları könüllü şəkildə, dinc yolla qaytarsınlar və beləliklə, azərbaycanlılar doğma yerlərinə qayıda bilsin və orada yaşasınlar. Danışıqlar bu istiqamətdə getməlidir. Beynəlxalq səviyyədə tanınmış normalara normal münasibət göstərilməlidir. Münaqişə dinc yolla öz həllini tapdıqda nə baş verəcək? Zənnimcə, belə olsa, regionda bütün və-

ziyyət dəyişə bilər. İlk növbədə, bütün kommunikasiyalar açılacaqdır. Beləliklə, Ermənistan özü üçün vacib olan Rusiyaya gedən dəmir yolundan istifadə edə biləcəkdir. Daha sonra, gələcəkdə Ermənistan müxtəlif regional inkişaf layihələrinə qoşula bilər. Bu ölkə hazırda belə imkanlardan tam məhrumdur, çünki biz torpaqlarımızı işğal etmiş ölkə ilə heç vaxt əməkdaşlıq etməyəcəyik və Azərbaycanın iştirakı olmadan heç bir regional layihənin həyata keçirilməsi mümkün deyildir.

Dağlıq Qarabağ ermənilərı qorxu olmadan, sülh şəraitində yaşaya biləcəklər. Onlar qanuni qaydada yaşayacaqlar. Bu gün Dağlıq Qarabağ qeyri-qanuni qurumdur. Bu, tanınmamış və özü-özünü elan etmiş kriminal rejimdir. Dağlıq Qarabağ hazırda bundan ibarətdir. Dağlıq Qarabağ ilə keçmiş sovet məkanında yerləşən digər oxşar "respublikalar" arasında heç bir fərq yoxdur. Bildiyiniz kimi, Abxaziya, Dnestryanı bölgə, Cənubi Osetiya və Dağlıq Qarabağ keçmiş SSRİ ərazisində dörd tanınmamış və özü-özünü elan etmiş "respublikadır". Onların hamısının eyni münaqişə kökləri var - separatizm və bunun nəticəsində ölkələrin ərazi bütövlüyünün pozulması. Eyni ideyalar mövcuddur - separatizm və etnik təmizləmə siyasəti. Ona görə də, Qafqazda sülh bərqərar olunsa, hamı bundan bəhrələnəcəkdir. Regional inkişaf proqramları, iqtisadi inkişaf olacaqdır. Ermənistan bundan sonra hazırda digər iki Cənubi Qafqaz ölkəsinin keçdiyi Avratlantik inteqrasiya proseslərinə daha fəal formada qoşula bilər. Mən inanıram ki, Azərbaycanın gələcəyi tam aydındır. Azərbaycan möhkəm cəmiyyəti və iqtisadiyyatı olan güclü, çiçəklənən ölkəyə çevriləcəkdir və ən yaxşısı, belə bir qonşu ilə dost olmaqdır.

SUAL: Cənab Prezident, mətbuat səhifələrində şayiələr gəzir ki, Sizin səfəriniz İran məsələsi ilə bağlıdır. Burada mətbuat yazır ki, Siz Prezident Buşla ABŞ-ın İrana qarşı mümkün hərbi əməliyyatına yardım etməyinizi müzakirə edəcəksiniz. Bu haqda şərhinizi verə bilərsinizmi? Bu məsələ Ağ evdə Sizin tərəfinizdən müzakirə olunacaqmı? Sağ olun.

İLHAM ƏLİYEV: Qısa giriş sözümdə mən əməkdaşlığımızın əsas elementlərini qeyd etdim. Bu ölkəyə səfərimin məqsədi həmin məsələlərin müzakirəsidir. Burada əsasən ikitərəfli münasibətlər, Qafqazdakı vəziyyət, enerji və təhlükəsizlik məsələləri və əvvəldə qeyd etdiyim digər məsələlər nəzərdə tutulur. Əgər regional təhlükəsizlik məsələsi qaldırılsa, təbii ki, biz sizin dediyiniz mövzunu da istənilən digər məsələ kimi müzakirə edəcəyik. Mən mətbuatla tanış oldum və gördüm ki, bu aspektə xüsusi diqqət yetirilir, lakin fikrimcə, bu məsələ əməkdaşlığımızın və müzakirələrimizin əsas mövzusu olmayacaqdır.

SUAL: 1990-cı illərin əvvəllərində və ortalarında Azərbaycan Bakı-Tbilisi-Ceyhan boru kəmərinin çəkilməsi və TRASEKA layihəsinin həyata keçirilməsi məqsədi ilə ABŞ və Avropa ilə çox sıx çalışırdı. Onlardan hər ikisi Azərbaycandan Qərbə kommunikasiyalar və nəqliyyat yollarının çəkilməsini nəzərdə tuturdu. Həmin iki təşəbbüsün hazırda Xəzər dənizinin digər sahilinə, şərqə doğru genişlənməsi imkanları necədir? Bu cür səylərdə Azərbaycan hansı rəhbər mövqeyi tuta bilər?

İLHAM ƏLİYEV: Bildiyiniz kimi, Azərbaycan Xəzərin neft və qaz yataqlarında bizimlə birgə işləmək məqsədi ilə əsas xarici şirkətləri dəvət edən ilk ölkə oldu. Ondan əvvəl həmin yataqlarda heç bir digər ölkə və ya şirkət işləmirdi. Mənim rəhmətlik atamın, Prezident Heydər Əliyevin neft strategiyası uğurlu olmuşdur və bu gün biz həmin strate-

giyanın həyata keçirilməsinin nəticələrini görürük. Biz neft və qaz layihələrinin inkişaf etdirilməsinin müxtəlif mərhələlərindəyik: kəşfiyyat və hasilatdan başlamış daşınmaya qədər mərhələlər nəzərdə tutulur. Bizlərdən çoxu hesab edirdi ki, Ceyhana gedən neft boru kəməri və Ərzuruma gedən qaz kəməri kimi nəhəng enerji layihələrini həyata keçirməklə, gələcəkdə yalnız bu istiqamətdə işlərin davam etdirilməsi ilə məşğul olacağıq. Lakin bu gün Avropadakı istehlakçılarla bağlı yeni çağırışlar, yeni tələblər və yeni vəziyyət mövcuddur.

Xəzər dənizi regionunda yeni inkişaf müşahidə olunur. Ona görə də Azərbaycan, keçmişdə olduğu kimi, bu prosesi irəliyə aparmaqda və energetika sahəsindəki əməkdaşlıq və layihələr üçün yeni çərçivənin yaradılmasında çox fəal işləməyə hazırdır. Əgər Xəzərin şərq sahilində yerləşən ölkələr bizim infrastruktura qoşulmaq istəsələr, əlbəttə, bunu alqışlayarıq və nəticədə regionda tamamilə yeni vəziyyət yarana bilər. Bakı-Tbilisi-Ceyhan və Bakı-Tbilisi-Ərzurum neft və qaz boru kəmərləri regional xarakter daşıyır və bu, üç ölkə - Azərbaycan, Gürcüstan və Türkiyə arasındakı regional əməkdaşlıqdır. Biz ABŞ hökumətinin verdiyi dəstəyi yüksək qiymətləndiririk və mən bir daha qeyd etmək istəyirəm ki, ABŞ-ın dəstəyi olmadan bu layihələrdən heç biri reallığa çevrilə bilməzdi. Həmin layihələr nəticəsində Azərbaycan öz resurslarını regional və beynəlxalq bazarlara çatdırmaq imkanı əldə edəcəkdir.

Hazırda neft və qaz layihələrinin inkişafı ilə bağlı yeni vəziyyət lazımi qaydada nəzərdən keçirilməlidir. Mənə elə gəlir ki, bunlar dünya və Avropa əhəmiyyətli layihələrdir və bu halda, bütün maraqlı tərəflər müvafiq qaydada həmin layihələrdə iştirak edə bilər. Azərbaycanda bizimlə işləyən şirkətlərlə yanaşı, Avropa İttifaqı, ABŞ və təbii ki, qonşu ölkələr də işləyə bilər. Biz yeni vəziyyəti lazımi qaydada nəzərdə keçirməliyik və düzgün qərar qəbul etməliyik.

SUAL: Ötən il Sizin ölkədə parlament seçkiləri keçirildi. Bir sıra beynəlxalq mətbuat orqanları Ukrayna və Gürcüstandakı kimi növbəti "narıncı" inqilabdan yazırdılar. Lakin bu gün nazirləriniz arasında bir sıra gənc şəxsləri gördükdə, mənə elə gəlir ki, Siz fərqli daxili strategiya seçmisiniz. Siz izah edə bilərsinizmi, Prezident İlham Əliyevin daxili strategiyası necədir? Sizin qeyri-neft sektoru ilə bağlı fikirləriniz necədir?

İLHAM ƏLİYEV: Əlbəttə, daxili siyasəti xarici siyasətdən ayırmaq olmaz. Bunlar bir-biri ilə bağlıdır. Əlbəttə ki, hər bir lider və ya siyasətçi, ilk növbədə, daxili məsələlərə daha çox diqqət ayırmağa çalışır. Lakin məqsədlərimizə nail olmaq və layihələrimizi həyata keçirmək üçün biz regionda sülhə nail olmalıyıq. Bizim qonşular və tərəfdaşlarla yaxşı münasibətlərimiz olmalıdır. Fikrimcə, Azərbaycanın təcrübəsi göstərir ki, bu məsələ mümkündür. Elə münasibətlər qurmaq olar ki, bu, sizin ölkəniz üçün münasib olsun və sizin milli maraqlarınızı mümkün qədər lazımi qaydada qorusun və eyni zamanda tərəfdaş və dost saydığınız bütün ölkələr və şirkətlərlə daha geniş əməkdaşlığın yaradılması mümkün olsun.

Prezidentliyimin ilk günlərindən mən bəyan etmişəm ki, Azərbaycan qarşıdurma zonasına çevrilməyəcəkdir. Azərbaycan əməkdaşlıq ölkəsi olacaqdır. Son iki il yarım müddətin təcrübəsi göstərir ki, biz həmin məqsədə doğru addımlayırıq. Ölkə daxilində işlərimiz lazımi qaydada gedir. Çox uğurlu iqtisadi göstəricilərə nail olmuşuq. Sosial problemlərin həllinə və işsizliyin azaldılmasına yönəlmiş çox güclü siyasətimiz var. Mən ar-

tıq qeyd etdim ki, iki il yarım ərzində 380 mindən çox yeni iş yeri açılmışdır. Bu, qeyri-adi nailiyyətdir. Azərbaycanda iki il ərzində yoxsulluğun səviyyəsi 49 faizdən 29 faizə düşmüşdür. Güman edilir ki, cari il ərzində həmin göstərici bir az da aşağı düşəcəkdir. Ölkəmizdə sosial sabitlik mövcuddur. Monoetnik sayılan Ermənistandan fərqli olaraq, Azərbaycan çoxmillətli ölkədir. Bəlkə də Ermənistan bütün dünyada, ada ölkələri istisna edilməklə, yeganə monoetnik ölkədir.

Ölkəmizdə müxtəlif millətlərin və dinlərin nümayəndələri var. Dini və etnik dözümlülük ən yüksək səviyyədədir. Azərbaycan dünyəvi dövlətdir. Bu, təkcə Konstitusiyada yazılmayıb, bu, bizim həyat tərzimizdir. Ona görə də, göstərdiyim bütün səylər xalqın həyat tərzinin daha da yaxşılaşdırılmasına, Azərbaycanın daha da möhkəmləndirilməsinə, regionda daha yaxşı mövqeyin qazanılmasına və mürəkkəb qonşuluq şəraitində sülh, təhlükəsizlik və sabitliyin qorunmasına yönəlibdir. Əvvəldə qeyd edildiyi kimi, əgər siz xəritədə Bakıdan digər istiqamətlərə baxsanız, mövcud olan və ya potensial müharibələri, münaqişələri və hərbi əməliyyatları görəcəksiniz. Belə şəraitdə Azərbaycan sabitlik və inkişaf adasıdır. Bu, bizim nailiyyətimizdir. Bu, bizim sərvətimizdir. Biz bunun qorunması və möhkəmləndirilməsi üçün bütün səyləri göstərməliyik.

Siz burada "narıncı" inqilabı xatırladınız. Bu məsələni məndən parlament seçkiləri öncəsi dəfələrlə soruşublar və tam səmimiyyətlə bildirmişəm ki, Azərbaycanda bu inqilab baş verməyəcək, çünki bunun üçün əsas yoxdur. Bu, insanların hökumətdən narazı olduğu zaman baş verir. Hökumət ilə xalq arasında boşluğun olduğu zaman yaranır. Bu, böyük disproporsiya olduqda və sərvətlərin qeyri-ədalətli formada paylanılması təqdirində baş verir. Bu, iqtisadi tənəzzül olanda baş verir. Bütün bu sahələrdə bizim nailiyyətlərimiz var. Zənnimcə, yaxşı nailiyyətlərimiz var. Bəli, problemlərimiz də var və biz onları gizlətmirik.

SUAL: Mənim verəcəyim sual Qara dəniz regionu ilə Xəzər dənizi regionu arasında əməkdaşlıqla bağlıdır. Mən bilmək istərdim, vaxt keçdikcə bu sahədə vəziyyət necə dəyişəcək? Sizcə, daha geniş Qara dəniz regionu konsepsiyasının gələcəkdə inkişaf etdirilməsi və əməkdaşlığın genişləndirilməsi sahəsində əsas çətinliklər nədən ibarətdir?

İLHAM ƏLİYEV: Biz bu prosesdə çox fəal şəkildə iştirak edirik. Qara dəniz regionu ilə Xəzər dənizi regionu arasında əməkdaşlığı dəstəkləyirik. Azərbaycan GUAM təşkilatının həmtəsisçisidir. Həmin təşkilat ölkəmizi digər üç Qara dəniz ölkəsi ilə birləşdirir. Bir sözlə, bizim bütün Qara dəniz dövlətləri ilə ikitərəfli səviyyədə yaxşı əlaqələrimiz var və mən həmin region ölkələrinə səfərlər etmişəm. Eyni zamanda, həmin ölkələrin başçıları ölkəmizə səfər ediblər. Biz bu istiqamətdə uğurlu və çox yaxşı sürətlə irəliləyirik.

Bizim Avratlantik məkanına inteqrasiya siyasətimiz olduqca aydındır. Bu, artıq elan edilib və dəyişməz olaraq qalır. Biz NATO ilə "Fərdi tərəfdaşlığın fəaliyyət planı" çərçivəsində işləyirik. Ümid edirik ki, Avropa İttifaqının "Yeni qonşuluq siyasəti"nin təzə mərhələsi bu yaxınlarda təqdim olunacaqdır. Azərbaycan "Yeni qonşuluq" strategiyasının bir hissəsidir. Avropa İttifaqının hüdudları get-gedə bizim sərhədlərə daha da yaxınlaşır. Buna görə də biz lap yaxınlarda artıq qonşu olacağıq. Biz bu sahədə çalışmalıyıq və yaxşı qonşuluq naminə əməkdaşlığın yaxşı səviyyəsinə nail olmalıyıq. Bir sözlə, biz bütün həmin istiqamətlərdə lazımi səviyyədə uğurlu əməkdaşlıq həyata keçirəcək və ümid edirəm ki, belə də davam edəcəyik.

SUAL: Mən başa düşürəm ki, Sizin burada qeyd etdiyinizə görə, Ağ evdə keçirəcəyiniz danışıqlar zamanı, əsasən, ikitərəfli münasibətlərə aid məsələləri müzakirə edəcəksiniz. Lakin İran məsələsi gündəliyə gətirilsə, Sizin İranın nüvə proqramı ilə bağlı mövqeyiniz varmı? Çünki hazırda bu məsələ ilə bağlı ABŞ-la İran arasında qarşıdurma get-gedə artır və İran Sizin qonşunuzdur.

İLHAM ƏLİYEV: Bilirsiniz, öz problemlərimizə qayıtsaq, uzun illər ərzində, artıq on ildən çoxdur ki, biz yalnız Ermənistan-Azərbaycan münaqişəsi ilə məşğul olmuşuq. Biz hesab edirik ki, mürəkkəb məsələlər sülh yolu ilə öz həllini tapmalıdır. Çünki Azərbaycanın yerləşdiyi məkanı nəzərə alsaq, əgər regiondakı həssas sülhə zərbə vurularsa, biz bundan əziyyət çəkəcəyik və bunun gözlənilməz nəticələri olacaqdır. Ona görə də mən məsələlərin dinc yolla nizamlanmasına üstünlük verirəm. Yenə qeyd etmək istəyirəm, on ildən çoxdur ki, bizim torpaqlarımız qaytarılmır. Hesab edirəm ki, daha böyük təhlükəsizlik məsələlərinə gəldikdə, biz sülhü, sabitliyi və təhlükəsizliyi qoruyub saxlamağa çalışmalıyıq. Fikrimcə, narahatlığa səbəb olan məsələlərin aradan qaldırılmasında ən yaxşı üsul diplomatik vasitələrdən istifadədir.

Biz, xüsusi regionda yerləşirik. Həmin məsələ bizim üçün elə bir məsələ deyil ki, onu yalnız televiziyada seyr edək və xoşumuza gəlməsə, digər kanalı çevirək. Bu, bizim təhlükəsizliyimizlə bağlı olan məsələdir. Təbii ki, biz də bundan narahatıq. Əgər bunun bizi narahat etmədiyini desək, sadəlövhlük olardı. Lakin hazırkı mərhələdə, biz İranın nüvə proqramı məsələsini danışıqlar yolu ilə həll etməyə çalışmalıyıq. Belə olarsa, həmin proqramın səbəb ola biləcəyi təhlükə azaldılacaq və məsələ öz diplomatik həllini tapacaqdır.

SUAL: Cənab Prezident, mən daxili məsələlərə qayıtmaq istəyirəm. Siz bir neçə dəfə sülh, təhlükəsizlik və iqtisadi inkişafı qeyd etdiniz. Bəlkə mən səhv edirəm, lakin bu gün səhər siz bir sözü qeyd etmədiniz: o da demokratiyadır. Sizin rejim seçkilərin keçirilməsi ilə bağlı beynəlxalq səviyyədə tənqid edilmişdir və seçkilərdən sonra müxalifət qruplarına təzyiqlər haqqında danışılmışdır. Siz Azərbaycanda demokratiya ilə bağlı konsepsiyanız haqqında danışa bilərsinizmi? Bu, sülh, təhlükəsizlik və sabitlik planına necə uyğun gəlir?

İLHAM ƏLİYEV: Əgər yadınızdadırsa, təklif olundu ki, görüşün formatı əsasən sual-cavab şəklində qurulsun. Ona görə də mən yalnız verilən suallara cavab verirəm. Bu, birincisi. Mən bizim daxili siyasətimizin vacib elementini yadımıza saldığınıza görə Sizə minnətdaram. Söhbətin əvvəlində mən artıq qeyd etdim ki, bizim ölkədə siyasi və iqtisadi islahatlar paralel olaraq həyata keçirilir. Mən qəti surətdə inanıram və tam əminəm ki, siyasi və iqtisadi inkişaf paralel getməsə, onda iqtisadi islahatlar və demokratikləşmə prosesi uğurlu olmayacaqdır. İqtisadi islahatlarsız siyasi islahatlar uğursuzluqla nəticələnəcəkdir. Əgər Sovet İttifaqının və digər ölkələrin tarixinə nəzər salsaq, biz bunun şahidi olacağıq. Siyasi islahatlar və cəmiyyətin demokratikləşməsi olmadan bütün iqtisadi islahatlar gələcəkdə ciddi problemlərin yaranmasına səbəb olacaqdır. Ona görə də, mən hesab edirəm ki, biz Azərbaycanda hər iki istiqamətdə uğurla addımlayırıq. Zənnimcə, son iki il yarım ərzində böyük nailiyyətlər qazanılmışdır. Azərbaycan daha açıq, demokratik və azad ölkəyə çevrilmişdir. Beynəlxalq təşkilatlar tərəfindən qaldırılmış əsas məsələlər nəzərdən keçirilmiş və həll edilmişdir.

Misal üçün, siyasi məhbuslar kimi məsələlər. Bizim ölkədə heç bir siyasi məhbus yoxdur. Ölkəmizdə bütün əsas azadlıqlar bərqərar olunubdur. Söz və fikir azadlığı mövcuddur. Bizim siyasi təsisatlarımız var. Bəli, onlar zəifdir, lakin bu bizim günahımız deyildir. Bizim hökumətimizin səhvi deyil ki, siyasi təsisatlar və ya siyasi partiyalar zəifdir. Bu, ola bilsin ki, keçid dövrü ilə bağlıdır. Lakin bununla belə, biz normal siyasi mühit yaratmağa çalışırıq. Hesab edirəm ki, Azərbaycandakı siyasi münasibətlər hələ ki, normal müstəvidə deyildir. İfratçılıq xalq tərəfindən dəstəklənmir və daha davakar və ifratçı olan partiyalar öz populyarlığını itirir və keçirilmiş son parlament seçkiləri bunu göstərdi.

Parlament seçkilərinə gəldikdə isə, bildiyiniz kimi, bir çox şayiələr gəzirdi və müəyyən dairələr fikirləşirdi ki, Azərbaycan növbəti "narıncı" inqilab ölkəsi olacaqdır. Lakin bu, belə olmadı. Ona görə yox ki, hökumət xüsusi təzyiq metodlarından istifadə etdi. Onları xalq dəstəkləmədi, əgər xalq dəstəkləmirsə, bu və ya digər partiyanın işi və yaxud ideyası baş tutmayacaqdır. Siz Azərbaycanı rejim adlandırdınız, mən bu sözlə razılaşmıram. Bəlkə siz bunu ölkəmizə öz münasibətinizi bildirmək üçün deyirsiniz. Azərbaycan - ölkədir və mən bu ölkənin demokratik qaydada seçilmiş Prezidentiyəm. Hesab edirəm ki, rejim kimi sözlərlə ölkələri fərqləndirmək düzgün deyildir. Kim müəyyən edir ki, demokratiya harada var, harada isə yoxdur?! Qonşuluqda olan ölkələrə nəzər yetirin. Mən hesab etmirəm ki, Azərbaycanda demokratiyanın səviyyəsi istənilən digər qonşu ölkədəki demokratiyanın səviyyəsindən aşağıdır. Burada reallıq və onun qavranılması var. Qavranılmaya gəldikdə, bəzən o, əsil reallığı əks etdirməyən informasiyaya əsaslanır. Əgər siz ölkəni görsəniz, onun necə inkişaf etdiyini öyrənsəniz və xalqın rəyi ilə tanış olsanız, bəlkə başqa cür düşünərsiniz. Mən əhalinin mütləq əksəriyyəti tərəfindən dəstəklənən Prezidentəm.

BRENT SKOUKROFT: Çox sağ olun, cənab Prezident. Verdiyiniz cavab bizə olduqca böyük təəssürat bağışladı. Orada, arxada sual verən var.

SUAL: Cənab Prezident, İranda 20 milyondan çox azərbaycanlı yaşayır. Azərbaycanın Cənubi Azərbaycana münasibəti necədir?

İLHAM ƏLİYEV: Azərbaycanlılar bir çox ölkələrdə yaşayırlar. Bu yaxınlarda biz Dünya azərbaycanlılarının II Qurultayını keçirdik. Bizim hesablamalarımıza görə, bu gün dünyanın müxtəlif yerlərində 50 milyondan çox azərbaycanlı yaşayır, o cümlədən İranda xeyli sayda etnik azərbaycanlı yaşayır. Təbii ki, onların hamısının taleyi bizim üçün çox vacibdir. Müxtəlif ölkələrə səfər etdikdə mən həmişə Azərbaycan icmasının nümayəndələri ilə görüşlər keçirirəm, çünki qeyd etdiyim kimi, azərbaycanlılar bir çox ölkələrdə yaşayırlar. Biz çalışırıq ki, onların tələbatlarını nəzərə alaq. Biz azərbaycanlıların yaşadıqları ölkələrlə yaxşı münasibətdə olmağa çalışırıq ki, onların həyatı yaxşılaşsın. Burada həmçinin İranda yaşayan azərbaycanlılar da nəzərdə tutulur.

Mən ötən il İrana rəsmi səfər etmişəm və həmin səfər zamanı Təbrizdə Azərbaycanın konsulluğu açılmışdır. Bu, ikitərəfli münasibətlər sahəsində atılan vacib addım idi və İranla Azərbaycan arasında əlaqələrin mühüm elementinə çevrildi. Fikrimcə, qeyd etdiyim kimi, hər bir ölkə dünyanın digər yerlərində olan öz həmvətənlərinə qayğı ilə yanaşmağa çalışır. Azərbaycan da bu baxımdan istisna deyildir. Ona görə də, başqa ölkələrdəki azərbaycanlıların daha yaxşı yaşaması bizim üçün əsas prioritetlərdən biridir.

SUAL: Bir çoxları hesab edir ki, Vaşinqtonun xoş münasibətini qazanmaq üçün Rusiya-

ya soyuq münasibət göstərmək kifayətdir. ABŞ-la Rusiya arasında keçmiş sovet məkanında müəyyən mənada yeni yarışma var. Sizin bu məsələyə münasibətiniz necədir? Sağ olun.

İLHAM ƏLİYEV: Hesab edirəm ki, həyata keçirdiyimiz siyasət tamamilə aydındır və göz qabağındadır. Onun əsasını bizim dostlarımız və tərəfdaşlarımızla yaxşı, qarşılıqlı surətdə faydalı münasibətlərin qurulması təşkil edir. Münasibətlər qarşılıqlı hörmət, bir-birinin daxili işlərinə müdaxilə etməmək, siyasi dialoqun və iqtisadi əməkdaşlığın təşviq olunması kimi prinsiplərə əsaslanır. Bizim Rusiya ilə olan əlaqələrimiz heç bir xarici amildən asılı deyildir. Azərbaycan buna çox sadiqdir. Rusiya ilə Azərbaycan arasında çox yüksək səviyyədə siyasi dialoq mövcuddur.

Mənim Rusiyaya bir çox səfərlərim olub, onlardan biri rəsmi səfər idi. Prezident Putin bu yaxınlarda Azərbaycanda olmuşdur. Biz vaxtaşırı olaraq görüşlər keçiririk və ikitərəfli münasibətlərin müxtəlif aspektlərinə dair müzakirələr aparırıq. Yeri gəlmişkən deyim ki, prezidentliyim dövründə Rusiya ilə Azərbaycan arasındakı ticarət dövriyyəsi iki dəfə artmışdır. Bütün bunlar yaxşı əməkdaşlığı və anlaşmanı nümayiş etdirir. Buraya iqtisadi inkişaf məsələsini də şamil etmək olar.

Bir sözlə, münasibətlərimizin heç bir digər formatı və yaxud çərçivəsi yoxdur və onlar bizim Birləşmiş Ştatlarla yaxşı əlaqələrimizdən asılı deyildir. Mən artıq qeyd etdim ki, Azərbaycan qarşıdurma zonası deyildir. Əgər siz qeyd etdiyiniz kimi, Rusiya ilə ABŞ hər hansı bir problemin həllini istəyirsə, dünyada digər bir yeri seçə bilərlər. Gəlin, Azərbaycanda hamımız bir-birimizə dost olaq.

SUAL: Sabahınız xeyir, cənab Prezident. Qeyri-neft sektorunun inkişaf etdirilməsi haqqında şərhlərinizi eşitmək istərdim. Qeyri-neft sektorunda inkişaf prioritetləri hansılardır? Bu inkişafa necə başlamaq istəyirsiniz?

İLHAM ƏLİYEV: İmkanlar çoxdur və bu baxımdan bizim çoxlu planlarımız var. Azərbaycanda fəaliyyət göstərən şirkətlər bu yaxınlarda ölkənin qeyri-neft sektoruna 100 milyon dollar sərmayə qoymuşdur. Bu, əsasən qeyri-neft sektorunun inkişaf etdirilməsinə sərf olunacaqdır. Biz bu imkanlardan istifadə edərək, potensial sərmayədarları cəlb etməyə çalışacağıq və beləliklə, Azərbaycanda yeni sərmayələr üçün əlavə sahələr açılacaqdır. Eyni zamanda, biz özəl sektordakı iş adamları üçün büdcəmizdən 100 milyon ABŞ dolları həcmində kreditlərin verilməsini nəzərdə tutmuşuq. Həmin kreditlər çox güzəştli şərtlərlə verilir ki, sərmayələr əsasən qeyri-neft sektoruna yönəldilsin. Bu, qeyri-neft sektorunun inkişafı üçün iki əsas elementi təşkil edir və sərmayədarların bu baxımdan tələblərinə cavab verir. Həmin sektorda prioritetlərə gəldikdə isə, bunlar müxtəlif ola bilər. Lakin bizim üçün iqtisadi və sosial inkişaf sahələrinin uzlaşması vacibdir. Azərbaycan əhalisinin yarısının kənd yerlərində yaşadığını nəzərə alsaq, təbii ki, bizim üçün prioritet sahə kənd təsərrüfatıdır.

Ölkəmizin əlverişli iqlimi var. Dünyada olan 11 iqlim qurşağından 9-u Azərbaycanda mövcuddur. Münbit torpaqlar bütün növ kənd təsərrüfatı məhsullarının becərilməsinə imkan yaradır. Dediyim kimi, əhalinin yarısı kənd yerlərində yaşayır. Kənd təsərrüfatı sahəsində çox böyük potensial var. Bununla belə, əsas istehlak mallarına, yəni kənd təsərrüfatı məhsullarına gəldikdə, hələ də idxaldan asılıyıq. Biz bu sahəni elə inkişaf etdirmək istəyirik ki, hətta ixrac da edə bilək. Bundan başqa, təbii ki, söhbət tikinti, tu-

rizm, neft kimyası və digər sahələrdən gedə bilər. Lakin kənd təsərrüfatı bizim üçün bir nömrəli sahə kimi qalır.

SUAL: Cənab Prezident, gəlirlərin birdən-birə artması nəinki xoşbəxtlik, həmçinin bədbəxtlik də gətirə bilər. Siz neft və qaz gəlirlərinin artması nəticəsində ölkənizin vacib kənd təsərrüfatı imkanlarını boşa çıxaran idxal olunan ucuz kənd təsərrüfatı məhsullarının və inflyasiyanın güclənməsinin qarşısını almaq məqsədi ilə hansı tədbirləri görürsünüz?

İLHAM ƏLİYEV: Bu, bizi narahat edən əsas problemlərdən biridir. Çünki əvvəllər bizi maraqlandıran məsələ tezliklə neft və qaz layihələrinə başlamaq və neft sektorundan gəlirlər əldə etmək idi. Bu gün isə bizim üçün vacib məsələ makroiqtisadi sabitliyin qorunub saxlanılmasıdır. Çünki ötən illərlə müqayisədə, son il bizdə ilk dəfə olaraq inflyasiya təxminən 9 faiz təşkil etmişdir və bu il təqribən eyni səviyyədə olacaqdır. Əhalinin gəlirləri təqribən 30 faiz artmışdır. Lakin bu da inflyasiya ilə gəlirlər arasındakı böyük fərqdir. Bununla belə, biz xərclər sahəsində son dərəcə ehtiyatlı olmalıyıq. Bəzən biz makroiqtisadi sabitliyi pozmamaq üçün xərcləri dayandırmağa məcbur oluruq.

Bizə yardım edəcək elementlərdən biri odur ki, bütün gəlirləri Neft Fondunda cəmləşdiririk. Bu, çox şəffaf strukturdur və ona beynəlxalq ictimaiyyət tərəfindən lazımi etimad göstərilir. O, beynəlxalq təşkilatların auditindən keçir və biz Beynəlxalq Valyuta Fondu, Dünya Bankı və digər beynəlxalq təsisatlar ilə sıx işləyirik. Bütün gəlirlər Fonda yığılır. Azərbaycanın hər bir vətəndaşı bilir ki, orada nə qədər vəsait cəmləşir. Bununla belə, Fonddan edilən hər hansı xərclər ümumiləşdirilmiş büdcə ilə razılaşdırılmış qaydada olur. Başqa sözlə, Azərbaycanın hər bir vətəndaşı özünün parlamentdəki nümayəndəsi vasitəsilə paylanma prosesində iştirak edə bilər. Lakin gələn illər ərzində Azərbaycanın maliyyə gəlirlərinin həcmi gözəçarpan dərəcədə artacaqdır. Ölkənin böyük tələbatları var. Biz infrastrukturumuzu təkmilləşdirməliyik, bizə yeni yollar, yeni su kəmərləri, qazpaylayıcı sistemlər, elektrik stansiyaları, məktəblər, xəstəxanalar lazımdır. Bütün bunlar ölkə üçün lazımdır. Lakin eyni zamanda biz çox ehtiyatlı olmalıyıq ki, iqtisadiyyata həddindən artıq vəsait sərf etməyək. Ölkədə hiperinflyasiya yaranarsa, bütün iqtisadi nailiyyətlərimiz sual altında olacaqdır.

SUAL: Cənab Prezident, ölkənizin Birləşmiş Ştatlar ilə hərbi sahədəki münasibətlərinin səviyyəsini təsvir edə bilərsinizmi? ABŞ qüvvələri Əfqanıstandakı əməliyyatları üçün Azərbaycan ərazisindən nə dərəcədə istifadə edir? Özbəkistanda hərbi bazanın bağlanmasından sonra həmin münasibətlər gözəçarpan dərəcədə artıbmı? Azərbaycan ərazisinin ABŞ qüvvələri tərəfindən İran üzərində kəşfiyyat uçuşları və ya quruda hərbi əməliyyatların aparılması məqsədi ilə istifadəsi mümkündürmü? Çox sağ olun.

İLHAM ƏLİYEV: İlk günlərdən etibarən Azərbaycan antiterror koalisiyasına qoşularaq, öz hava məkanını açdı. Həmin vaxtdan etibarən biz regionda təhlükəsizlik və antiterror əməliyyatları sahəsində Birləşmiş Ştatlarla fəal şəkildə əməkdaşlıq edirik. Biz lap əvvəldən qoşunlarımızı Kosovo və Əfqanıstana göndərdik və Ermənistandan fərqli olaraq, bizim orada sürücülərimiz yox, əsgərlərimiz var. Biz onları digər tərəf kimi yalnız orada olmağı nümayiş etdirmək xatirinə sonradan yox, lap ilk günlərdən göndərdik. Birləşmiş Ştatlarla münasibətlərə gəldikdə, aramızda çox yüksək səviyyədə etimad və inam var və biz hərbi əməkdaşlığımızı davam etdirəcəyik, çünki bu, hər iki ölkənin xeyrinədir.

Eyni zamanda, Azərbaycan, əlbəttə, İrana qarşı mümkün ola biləcək heç bir potensial əməliyyata qatılmayacaqdır. Mən və bizim rəsmilərimiz əvvəllər çox aydın şəkildə bunu bildirmişik. Hesab edirəm ki, bu məsələdə spekulyasiyaları dayandırmaq lazımdır. Bizim İranla ikitərəfli sazişimiz var. Həmin sazişdə deyilir ki, ölkələrimizin ərazisi bir-birimizə qarşı hər hansı hərbi əməliyyatların aparılması üçün istifadə oluna bilməz. Buna görə də bizim münasibətlərimiz beynəlxalq sazişlərlə tənzimlənir. Lakin eyni zamanda, əgər Əfqanıstanda sülhə nail olmaq, yaxud İraqda sülhü möhkəmləndirmək üçün əlavə addımların atılması zəruri hesab edilərsə, əlbəttə, Azərbaycan lap əvvəldə olduğu kimi, ABŞ-la çiyin-çiyinə durmaq üçün əlindən gələni edəcəkdir.

SUAL: Hazırda İran haqqında enerji millətçiliyi məsələsi hallandırılır. Bir sıra ölkələr, xüsusən də Rusiya keçirdiyi konfranslar zamanı yeni millətçilik hisslərini enerji təchizatı məsələsinə şamil edir. Sizdən fərqli olaraq, həmin ölkələr, zənnimcə, qeyri-enerji sahələrinin inkişaf etdirilməsi üçün çox iş görmür. Enerji millətçiliyi kimi məsələyə, yəni millətçiliyə əsaslanan enerji təchizatına Sizin münasibətiniz necədir?

İLHAM ƏLİYEV: Bu, mənim üçün yeni bir şeydir. Əvvəllər mən heç vaxt belə məsələ haqqında eşitməmişəm. Azərbaycanda enerji beynəlmiləlçiliyi var, çünki bizim ölkədə Birləşmiş Ştatlar, Böyük Britaniya və digər Avropa ölkələrindən bir çox nümayəndələr işləyir. Onlar 1994-cü ildən bəri bizimlə yaxşı məramla və dostluq ruhunda işləyirlər. Bu cür əməkdaşlığın nəticəsində biz neft və qaz sektoruna təqribən 70 milyard ABŞ dolları yatırılmasını və ümumi hesabla, son 12 il ərzində 28 milyard ABŞ dollarını sərmayə kimi cəlb edə bilmişik. Təbii ki, neft və qaz sektoruna qoyulan sərmayələr digər sektorlara da sərmayələrin cəlb olunmasına xidmət etmişdir. Həmin sektorlar xidmət sahəsini, infrastrukturu, təhsil və sairəni əhatə edir.

Biz apardığımız əməkdaşlıqdan olduqca məmnunuq. Azərbaycanda on minlərlə əcnəbi yaşayır, müxtəlif şirkətlər üçün işləyir və özlərini rahat hiss edirlər. Çünki Azərbaycan çox qonaqpərvər ölkədir. Ölkədə çox yaxşı şərait mövcuddur və digər ölkələrin nümayəndələrinə münasibət hər zaman müsbət olmuşdur. Lakin Avropadakı müəyyən qaz məsələlərinə gəldikdə, bununla bağlı bir daha bildirmək istəyirəm ki, biz öz qaz layihəmizi başlayanda, zənn edilən bazarımız Türkiyə idi. Bununla bağlı bizim Türkiyə və Gürcüstan ilə müvafiq sazişlərimiz var. Biz heç vaxt Avropanı qazımız üçün potensial bazar hesab etməmişik. Bizim qaz hasilatı elə planlaşdırılır ki, özümüzün tələbatını, Türkiyə və Gürcüstanın tələbatını ödəsin.

Hazırda isə Avropa İttifaqının təmsilçiləri deyirlər ki, qazın gələcəkdə Avropaya nəql olunması sahəsində əməkdaşlıq qurmaq olar. Lakin, bu, bizim üçün yeni məsələdir. Biz onu heç vaxt ciddi şəkildə nəzərdən keçirməmişik, heç vaxt planlaşdırmamışıq. Ona görə də, əgər bu məsələ gələcəkdə üzə çıxarsa, biz - Azərbaycan, qaz hasilatı sahəsində işləyən şirkətlər, Avropa İttifaqı onu nəzərdən keçirəcəyik. Biz çox şad olardıq ki, Birləşmiş Ştatlar da iştirak etsin. Çünki Birləşmiş Ştatlar Bakı-Tbilisi-Ceyhan və "Şahdəniz" layihələrində aparıcı rol oynayır. Belə halda, biz özümüzün inkişaf və hasilat proqramlarımıza düzəlişlər edəcəyik. Yəni əlavə sərmayələr qoyulacaq və səylər göstəriləcəkdir. Belə çıxır ki, bu məsələ Avropa üçün təcili xarakter daşıyır. Əgər bu məsələ mümkün qədər qısa müddətdə qaldırılmalıdırsa, bizə xahişlər olarsa və lazım gələrsə, müzakirələrə hazırıq. Bu halda, əlbəttə ki, biz keçmişdə olduğu kimi əməkdaşlıq edəcəyik.

BRENT SKOUKROFT: Cənab Prezident, bu gün burada bizimlə olduğunuza görə Sizə minnətdarlığımızı bildirmək istəyirəm. Söhbətiniz əsnasında nümayiş etdirdiyiniz səmimiliyi, açıqlığı və əhatəli fikirlərinizi yüksək qiymətləndiririk. Vaşinqtonda keçirəcəyiniz görüşlərinizdə, habelə, rejim yox, Azərbaycandakı administrasiyanız üçün uğurlar arzulayırıq.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ABŞ-IN YƏHUDİ TƏŞKİLATLARININ NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞMÜŞDÜR

Azərbaycan Prezidenti İlham Əliyev aprelin 26-da, onun üçün ayrılmış iqamətgahda ABŞ-ın yəhudi təşkilatlarının nümayəndələri ilə görüşmüşdür.

Dövlətimizin başçısı yəhudi təşkilatlarının təmsilçiləri ilə yenidən görüşməkdən şad olduğunu bildirərək dedi ki, ABŞ-a səfərim uğurlu keçir, çox mühüm görüşlərim olubdur. Sizin çoxunuzla Bakıda da görüşmüşük, yaxşı əlaqələrimiz var. Azərbaycanı həmişə dəstəkləmisiniz və ona görə sizə minnətdaram.

Prezident İlham Əliyev bu təşkilatların ölkəmizlə yaxşı tanış olduğunu xatırladaraq dedi ki, Azərbaycanda insanlar bir-biri ilə əmin-amanlıq şəraitində yaşayırlar, tolerantlıq mövcuddur. Əminəm ki, Azərbaycan bütün insanların bir ailə kimi yaşadığı ölkə nümunəsi ola bilər. Azərbaycandakı yəhudi icması cəmiyyətimizdə, ölkənin inkişafında mühüm rol oynayır.

Görüş iştirakçıları adından çıxış edən keçmiş sovet respublikaları üzrə Yəhudi təşkilatının sədri Mark Levin Azərbaycan Prezidenti İlham Əliyevin ABŞ-a səfərini yüksək qiymətləndirdi və onun əhəmiyyətli olacağını vurğuladı. O dedi ki, biz Bakıda Dünya azərbaycanlılarının II qurultayında iştirak etmişik və oradan çox yaxşı təəssüratla qayıtmışıq. Bizə böyük qonaqpərvərlik göstərilmişdir.

Görüşdə qarşılıqlı maraq doğuran bir sıra məsələlər barədə fikir mübadiləsi aparıldı.

ABŞ-IN KEÇMİŞ PREZİDENTİNİN MİLLİ TƏHLÜKƏSİZLİK ÜZRƏ KÖMƏKÇİSİ GENERAL BRENT SKOUKROFT İLƏ GÖRÜŞ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 26-da, onun üçün ayrılmış iqamətgahda ABŞ-ın keçmiş Prezidentinin milli təhlükəsizlik üzrə köməkçisi general Brent Skoukroft ilə görüşmüşdür.

Brent Skoukroft dövlətimizin başçısının Amerika Birləşmiş Ştatlarına səfərinə bu ölkədə xüsusi əhəmiyyət verildiyini vurğuladı, ölkələrimiz arasında strateji əməkdaşlığın uğurla davam etdirilməsindən məmnunluğunu bildirdi.

Görüşdə qarşılıqlı maraq doğuran məsələlər barədə ətraflı fikir mübadiləsi oldu.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ABŞ-IN NÜMAYƏNDƏLƏR PALATASININ ENERGETİKA VƏ BEYNƏLXALQ ƏLAQƏLƏR KOMİTƏLƏRİNİN BİR QRUP ÜZVLƏRİ İLƏ GÖRÜŞÜ

Aprelin 26-da Azərbaycan Prezidenti İlham Əliyev ABŞ Konqresində Nümayəndələr palatasının energetika və beynəlxalq əlaqələr komitələrinin bir qrup üzvü ilə görüşmüşdür.

Konqresin Azərbaycan üzrə işçi qrupunun üzvü KURT UELDON görüşü açaraq dedi:

- Bugünkü qonağımız ABŞ üçün böyük strateji əhəmiyyətə malik olan bir ölkənin, Azərbaycanın Prezidenti cənab İlham Əliyevdir. ABŞ ilə Azərbaycan arasında yaxşı dostluq münasibətləri vardır. Mən Konqres ilə Azərbaycanın Milli Məclisi arasında əlaqələrin yaradılmasının təşəbbüskarı olmuşam. Azərbaycan parlamenti ilə fikir mübadiləsi aparırıq. Bu isə iqtisadiyyat, texnologiya sahələrində əlaqələrin yaradılmasına kömək edir.

Cənab Prezident, bu tədbirin iştirakçıları ABŞ-ın dörd ştatını təmsil edən biznes və elm adamlarıdır. Onlar Azərbaycan, Ukrayna, Moldova, Gürcüstan və Xəzər dənizi ətrafında olan digər dövlətlərlə bağlı məsələlərə maraq göstərirlər. Keçən il texnologiya məsələləri üzrə Azərbaycanla videokörpü vasitəsilə konfrans keçirilirdi. Mən bu tədbirdə iştirak edirdim. Bakıdan bu videokörpüyə Azərbaycanın rabitə və informasiya texnologiyaları naziri qoşulmuşdu. Bu tədbir son dərəcə faydalı oldu.

Cənab Prezident, Sizinlə görüşdə ölkənizə sərmayə qoyan insanlar da iştirak edirlər. Onlar Sizin burada olmağınızdan çox məmnundurlar.

Azərbaycan Prezidenti barədə qeyd edə bilərəm ki, o, gözəl şəxsiyyətdir, beş dildə sərbəst danışır. O, son dərəcə gözəl bir insandır. Biz bir sıra görüşlər keçirmişik və bunlar məndə güclü təəssürat yaratmışdır. Belə hesab edirəm ki, Azərbaycanla əlaqələri möhkəmləndirmək çox böyük əhəmiyyət kəsb edir. Bu görüş Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həll edilməsi ilə bağlı gedən mürəkkəb proses barədə məlumat almağa da imkan verəcəkdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ÇIXIŞI

-Təşəkkür edirəm, sizinlə görüşməyə çox şadam. Prezident kimi bu, mənim Vaşinqtona ilk səfərimdir. Lakin 1994-cü ildən 2003-cü ilə qədər ABŞ-a çox səfərlər etmişəm. Demək olar ki, ildə iki dəfə ABŞ-a səfər edirdim. Bu səfərlər zamanı müxtəlif konfranslarda iştirak etmiş, Konqresdə, Ağ evdə görüşlər keçirmişəm. Hazırda mən Prezident kimi ABŞ-a səfər edirəm və əminəm ki, münasibətlərimiz bundan sonra da genişlənəcəkdir.

Hazırda iki dövlət arasındakı münasibətlər çox uğurla inkişaf edir. Bu münasibətlərin güclü tarixi kökləri vardır. Ölkəmizin cəmi on beş il əvvəl müstəqillik qazanmasına baxmayaraq, bu dövr ərzində Azərbaycan ilə ABŞ arasındakı münasibətlər sürətlə inkişaf etmişdir.

Vaşinqtona səfərimi bu səhər başlamışam. Konqresdə olmağımdan və burada ikitərəfli münasibətlərə dair məsələləri müzakirə etməkdən çox məmnunam. Enerji məsələləri, iqtisadi inkişaf, təhlükəsizlik, nəqliyyat məsələləri ilə bağlı iki ölkə arasında çox gözəl

münasibətlər mövcuddur. Əlbəttə, Cənubi Qafqazdakı münaqişələrin həlli daim bizim diqqət mərkəzimizdə olmuşdur. Hesab edirəm ki, səfərim bu nöqteyi-nəzərdən böyük əhəmiyyət kəsb edəcəkdir. Bizim nailiyyətlərimizi bir daha nəzərdən keçirmək və diqqətimizi gələcək munasibətlərimizin aspektləri üzərində cəmləşdirmək imkanımız olacaqdır.

Azərbaycan son illərdə enerji sektorunda çox mühüm rol oynamağa başlamışdır. İri həcmli neft və qaz ehtiyatlarımız dünya və Avropa bazarlarına nəql olunmaq ərəfəsindədir. Azərbaycanda neft və qaz ehtiyatı gələcək illərdə əhəmiyyətli dərəcədə artacaqdır. Gündə 1 milyon barrel həcmində neft, bir neçə milyard kubmetr qaz hasil olunacaqdır. Bu, bizim üçün, qonşularımız və region üçün əhəmiyyətli bir hadisədir və regionda vəziyyəti daha da yaxşılaşdıracaqdır.

Regional təhlükəsizlik, regional sabitlik daim diqqət tələb edən məsələlərdir. Bu baxımdan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi regionun normal davamlı inkişafı qarşısında duran başlıca maneədir. Ümid edirəm ki, sülh danışıqları münaqişənin beynəlxalq hüquq normaları və prinsipləri əsasında həll olunması ilə nəticələnəcək və regionda yaşayan insanlar bundan faydalanacaqlar. Biz sülhün bərpa edilməsini istəyirik. Azərbaycan müstəqilliyini əldə etdikdən sonra işğaldan, təcavüzdən çox əziyyət çəkmişdir. Bir milyon azərbaycanlı öz torpaqlarında qaçqın və məcburi köçkün vəziyyətində yaşayırlar. Bu, böyük humanitar fəlakətdir. ABŞ dünyada gedən proseslərə təsir edən bir ölkə və münaqişənin həllində iki ölkə arasında vasitəçi rolunu oynamaq səlahiyyətinə malik olan Minsk qrupunun həmsədri kimi bu münaqişənin həllində mühüm rol oynayır. Bu günə kimi aparılan danışıqlar bir nəticə verməmişdir. Lakin ümid edirəm ki, biz sülhə nail olacağıq.

Burada mən regional əməkdaşlığa, GUAM təşkilatına dair bəzi cədvəlləri görürəm. Ümid edirəm ki, Azərbaycanın həmtəsisçilərindən biri olduğu GUAM təşkilatı gələcəkdə daha mühüm rol oynayacaqdır. Xəzər və Qara dəniz ölkələri arasındakı əməkdaşlıq regionda tamamilə yeni bir vəziyyət yaradacaqdır. Avropa İttifaqının regionun sərhədlərinə yaxınlaşdığını və tezliklə regiona qonşu olacağını nəzərə alsaq, görərik ki, bunlar regionumuzda tam yeni bir vəziyyət yaradacaqdır.

Hazırda nəqliyyat dəhlizləri mühüm rol oynayır və Azərbaycanın coğrafi mövqeyi eladir ki, Asiyadan Avropaya bütün nəqliyyat dəhlizləri, eləcə də şimaldan cənuba nəqliyyat dəhlizi Azərbaycandan keçir. Xəzər dənizi və Qara dəniz ilə bağlı nə enerji, nə də nəqliyyat dəhlizlərində Azərbaycandan yan keçmək mümkün deyildir. Bu sahədə ölkəmizin rolu daha da artır.

Əlbəttə, regiondakı siyasi proseslər də böyük əhəmiyyət kəsb edir. Demokratikləşmə, siyasi islahatların aparılması, Avratlantik qurumlarına inteqrasiya bizim strateji xəttimizdir. Bütün bu sahələrdə Vaşinqton ilə Bakı arasında hökumət strukturları və icra orqanları səviyyəsində yaxşı anlaşma mövcuddur.

Hesab edirəm ki, qanunvericilik orqanları səviyyəsində də müəyyən işlər görülməlidir. Zənnimcə, ABŞ Konqresində Azərbaycan üzrə işçi qrupunun yaradılması tarixi bir hadisədir. Əməkdaşlığımızın imkanları və faydalarından istifadə etmək vaxtı gəlib çatmışdır. Mən bu məsələləri müzakirə etmək üçün Vaşinqtona gəlmişəm və ümid edirəm ki, səfər zamanı çox gözəl nəticələr əldə olunacaqdır.

Dövlətimizin başçısı sonra suala cavab verdi.

-Sual ölkənizin hərbi büdcəsinin artması ilə bağlıdır. Bununla əlaqədar problemlər ortaya çıxa bilərmi?

-Bilirsiniz, bu məsələ ümumi kontekstdən çıxarıldıqda suallar yarana bilər. Lakin biz daim deyirik ki, ölkəmizin hərbi büdcəsinin artması ümumi iqtisadi artım ilə bağlıdır. Ötən üç il ərzində ümumi büdcəmiz dörd dəfə artaraq, 1 milyard dollardan 4 milyard dollara çatmışdır. Büdcəmiz 1 milyard dollar olan zaman hərbi xərclərimiz 150 milyon dollar təşkil edirdi. İndi büdcəmiz 4 milyard dollar, hərbi xərclərimiz 600 milyon dollardır. Bu artım ümumi inkişafa uyğundur. Bundan əlavə, adambaşına düşən hərbi xərclərə baxsanız, bu rəqəm Ermənistanda daha artıqdır. Bizim iqtisadiyyatımız inkişaf edir. Neft gəlirlərimiz daha da artacaqdır. Buna uyğun olaraq, bütün sahələrdə xərclər artır.

Misal üçün, səhiyyə üzrə xərclər 50 faiz artmışdır, eyni zamanda təhsil, infrastruktur ilə bağlı xərclər də artır. Biz münaqişənin dinc yolla həll olunmasını istəyirik. Bu istiqamətdə danışıqlar aparılır. Ümid edirik ki, münaqişənin dinc yolla həllinə nail olacağıq.

Təşəkkür edirəm.

ABŞ parlamentinin üzvləri ilə görüşlərdən sonra Prezident İlham Əliyev Konqresin Fəxri qonaqlar kitabına ürək sözlərini yazdı:

"Vaşinqtona səfərim ərzində Konqresin dəyərli üzvləri ilə görüşməyimdən çox məmnunam. Ümid edirəm ki, ABŞ-Azərbaycan əlaqələri inkişaf edərək, ölkələrimizə və xalqlarımıza fayda gətirəcəkdir.

Azərbaycan Respublikasının Prezidenti

İlham Əliyev

26 aprel 2006-cı il".

ABŞ KONQRESİ NÜMAYƏNDƏLƏR PALATASININ SƏDRİ DENNİS HASTERT İLƏ GÖRÜŞ

Azərbaycan Prezidenti İlham Əliyev aprelin 26-da Konqresin binasında Nümayəndələr palatasının sədri Dennis Hastert ilə görüşmüşdür.

Ali qonağı böyük hörmətlə qarşılayan cənab Hastert bu səfərin onlarda yeni təəssürat yaratdığını, ABŞ-da Azərbaycana olan marağın daha da artdığını vurğulayaraq bildirdi ki, ölkələrimiz arasında qanunvericilik sahəsində də əməkdaşlığın inkişafı vacibdir və bu istiqamətdə səylər davam etdirilməlidir.

Prezident İlham Əliyev Birləşmiş Ştatlara səfərinin böyük əhəmiyyət daşıdığını, ikitərəfli münasibətlərin daha da genişləndirilməsi baxımından mühüm işlərin görülməsində yeni mərhələ olacağına əminliyini bildirdi.

Görüşdə Azərbaycanla ABŞ arasında əməkdaşlığın bir çox sahələri, qlobal enerji layihələri, regional təhlükəsizlik və digər məsələlər barədə fikir mübadiləsi oldu.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ABŞ-IN TİCARƏT NAZİRİ KARLOS QUTYERRES İLƏ GÖRÜŞÜ

Aprelin 27-də Azərbaycan Prezidenti İlham Əliyev onun üçün ayrılmış iqamətgahda ABŞ-ın ticarət naziri Karlos Qutyerres ilə görüşmüşdür.

Dövlətimizin başçısı ilə görüşmək imkanından şərəf duyduğunu bildirən nazir Azərbaycan Prezidentinin Vaşinqtona səfərini yüksək qiymətləndirərək dedi ki, ABŞ müstəqil Azərbaycanın uğurlarını maraqla izləyir. O, qlobal əhəmiyyətə malik Bakı-Tbilisi-Ceyhan layihəsinin hazırlanıb həyata keçirilməsini şəxsən Heydər Əliyevin və Prezident İlham Əliyevin böyük uğuru kimi dəyərləndirdi.

Dövlətimizin başçısı Xəzərin Azərbaycan sektorunda zəngin neft yataqlarının birgə işlənilməsinə dair müxtəlif ölkələrin, o cümlədən ABŞ-ın aparıcı şirkətləri ilə sazişlərin imzalanmasında, habelə əsas ixrac boru kəməri layihəsinin reallaşdırılmasında Birləşmiş Ştatlar hökumətinin xüsusi rolunu vurğuladı, bütün bu işlərdə müstəqil Azərbaycan dövlətinin böyük qətiyyət və iradə nümayiş etdirdiyini xatırlatdı. Prezident İlham Əliyev dedi ki, Bakı-Tbilisi-Ceyhan layihəsinin tam başa çatdırılmasında heç bir problem yoxdur və bu il ərzində kəmər istismara hazır olacaqdır.

Cənab Qutyerres bildirdi ki, Azərbaycanın dünya iqtisadiyyatına daha sıx inteqrasiya olunmaq sahəsində gördüyü işləri ABŞ hökuməti və ölkənin işgüzar dairələrinin nümayəndələri yüksək qiymətləndirirlər. Birləşmiş Ştatlar əsas ixrac boru kəmərini Xəzər regionunu dünya iqtisadiyyatına qovuşduran mühüm vasitə hesab edir və bu sahədə Azərbaycanı hər cəhətdən dəstəkləyir. ABŞ Azərbaycanla həm neft-qaz sektorunda, həm də digər sahələrdə əməkdaşlığı genişləndirəcəkdir. ABŞ-ın xarici siyasətdə, xüsusən iqtisadi-ticarət əlaqələrində Azərbaycana böyük əhəmiyyət verdiyini vurğulayan nazir bu sahədə Prezident İlham Əliyevin ardıcıl və məqsədyönlü siyasətini yüksək qiymətləndirdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ABŞ-IN ENERGETİKA NAZİRİ SAMUEL BODMAN İLƏ GÖRÜŞÜ

Azərbaycan Prezidenti İlham Əliyev aprelin 27-də Vaşinqtonda, onun üçün ayrılmış iqamətgahda ABŞ-ın energetika naziri Samuel Bodman ilə görüşmüşdür.

Samuel Bodman dövlətimizin başçısı ilə görüşündən məmnunluğunu bildirdi, onun bütün sahələrdə fəaliyyətini yüksək qiymətləndirdi.

Prezident İlham Əliyev xoş sözlərə görə təşəkkür etdi, Bakı-Tbilisi-Ceyhan neft kəmərinin yaxın zamanlarda istifadəyə veriləcəyini və beləliklə, Azərbaycanın enerji sektorunun yeni mərhələyə qədəm qoyacağını söylədi.

ABŞ-ın energetika naziri kəmərin istifadəyə verilməsinin, ümumiyyətlə, energetika sahəsində perspektivlərin Azərbaycanın bölgədə və beynəlxalq aləmdə rolunun daha da artmasına xidmət edəcəyini xüsusi vurğuladı.

Dövlətimizin başçısı Azərbaycanda həyata keçirilən sosial-iqtisadi proqramlardan, energetika sahəsində, qeyri-neft sektorunda görülən işlərdən danışdı.

Görüşdə Azərbaycan Prezidentinin ABŞ-a səfərinin əhəmiyyəti bir daha vurğulanaraq bildirildi ki, bu səfər həm ikitərəfli münasibətlərə, həm də energetika sahəsində əməkdaşlığa yeni təkan verəcək, gələcəkdə əlaqələrin daha da genişlənməsinə imkan yaradacaqdır.

ABŞ-IN DÖVLƏT KATİBİNİN MÜAVİNLƏRİ İLƏ GÖRÜŞ

Azərbaycan Prezidenti İlham Əliyev aprelin 27-də Vaşinqtonda, onun üçün ayrılmış iqamətgahda ABŞ dövlət katibinin birinci müavini Robert Zollik və xarici siyasət idarəsinin başçısının müavini xanım Karen Hyuz ilə görüşmüşdür.

Söhbət zamanı ikitərəfli əlaqələr, dövlətimizin başçısının Vaşinqtona səfərinin əhəmiyyəti, müxtəlif sahələrdə əməkdaşlığın genişləndirilməsi, enerji, təhlükəsizlik və Azərbaycanın antiterror koalisiyasında fəal iştirakı məsələləri müzakirə olundu.

Cənab Robert Zollik vaxtilə Prezident Heydər Əliyevlə Bakıdakı görüşünü xatırlatdı. O, Azərbaycan-ABŞ əlaqələrinin səviyyəsindən məmnunluğunu bildirərək dedi ki, əməkdaşlığımız uğurla inkişaf edir.

DÖVLƏTİMİZİN BAŞÇISI VAŞİNQTONDA "ABŞ-AZƏRBAYCAN STRATEJİ ƏLAQƏLƏRİ: SİYASİ VƏ İQTİSADİ PRİORİTETLƏR" MÖVZUSUNDA KONFRANSDA İŞTİRAK ETMİŞDİR

Aprelin 27-də Vaşinqtonda, "Four Seasons" hotelində Amerika-Azərbaycan Ticarət Palatasının (AATP) təşkil etdiyi "ABŞ-Azərbaycan strateji əlaqələri: siyasi və iqtisadi prioritetlər" mövzusunda 6-cı biznes və sərmayə konfransı keçirilmişdir.

Azərbaycan Prezidenti İlham Əliyev konfransda iştirak etmişdir.

Hər iki ölkənin hökumət rəsmilərinin və iş adamlarının iştirak etdikləri konfransı AATP-nin həmsədri CEREMİ BEYKER açaraq dedi:

- Sabahınız xeyir, xanımlar və cənablar! Mənim adım Ceremi Beykerdir. Mən "Baker Botts" şirkətinin Vaşinqtondakı idarəedici tərəfdaşıyam və eyni zamanda, Amerika-Azərbaycan Ticarət Palatasının həmsədriyəm. Mən bu gün palatamız tərəfindən təşkil olunmuş konfransa gəlmiş bütün şəxsləri salamlayıram. Bu gün ticarət palatasının on illiyi qeyd olunur və mən əminəm ki, siz hamınız palata üzvlərini bu münasibətlə təbriklərimə qoşulursunuz.

Son il ərzində Azərbaycan ilə Birləşmiş Ştatlar arasındakı münasibətlər konkret sahələrdən genişmiqyaslı dostluq və əməkdaşlığa yüksəlmişdir. Biz bu nailiyyətin əldə olunmasında ticarət palatasının da oynadığı rolu fərəh hissi ilə qeyd edirik. Mən palatanın fəxri həmsədri kimi onun fəaliyyətinə töhfə verməkdən şərəf hissi duyuram və İdarə heyəti ilə yanaşı, onun işinə uğurlar arzulayıram.

Bugünkü konfrans "ABŞ-Azərbaycan strateji əlaqələri: siyasi və iqtisadi prioritetlər" adlanır. Onun məqsədi Azərbaycanda gedən siyasi və iqtisadi inkişaf məsələlərini yüksək səviyyədə müzakirə etməkdən ibarətdir. Burada regiondakı digər ölkələrin rolu barədə də fikir mübadiləsi aparılacaqdır. Biz bu konfransda Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin ABŞ və Azərbaycan hökumətlərinin yüksək rütbəli

rəsmiləri və iki ölkənin iş adamları ilə birgə iştirakından olduqca məmnunuq. Bu gün biz Prezident Əliyevin, o cümlədən hökumət üzvlərinin və iş adamlarının iqtisadi inkişaf sahəsindəki gələcək perspektivlər, iqtisadi şaxələndirmə məsələləri barədə fikirlərini dinləyəcəyik.

Beləliklə, biz Azərbaycanda və Xəzər dənizi regionunda biznes imkanları barədə ABŞ-ın işgüzar dairələrinə məlumat verməyə çalışacağıq. Hazırkı konfrans Azərbaycan iqtisadiyyatının müxtəlif sahələri üzrə çıxışlar edilməsini nəzərdə tutur.

Bildiyiniz kimi, 2005-ci ildə Bakı-Tbilisi-Ceyhan neft boru kəmərinə ilk neftin doldurulmasına başlandı və Cənubi Qafqaz qaz boru kəmərinin çəkilməsi üçün aparılan işlər başa çatmaq üzrədir və bu ilin sonunda həmin boru kəmərinin istismara verilməsi gözlənilir. Azərbaycanda 2004-2005-ci illərdəki yüksək iqtisadi inkişafla yanaşı, 2006-cı ildə ÜDM-in təqribən 30 faiz səviyyəsində artımı gözlənilir. Son on il ərzində Azərbaycan iqtisadiyyatına yatırılan birbaşa xarici sərmayələrin həcmi 25 milyard ABŞ dollarından çox olmuşdur. Uğurlu enerji strategiyasının inkişaf etdirilməsi, nəqliyyat infrastrukturunun yaradılması və şəffaf Dövlət Neft Fondunun təsis olunması son illər ərzində hökumətin əldə etdiyi nailiyyətlərin yalnız müəyyən hissəsini təşkil edir. Bununla yanaşı, iqtisadiyyatı şaxələndirərək, qeyri-neft sektorunda istehsalın həcminin artırılması, regionlarda yerli sahibkarlığın inkişafı, işsizliyin və yoxsulluğun azaldılması kimi məsələlər Prezident Əliyevin rəhbərlik etdiyi hökumətin fəaliyyətinin prioritetləridir.

Sonda onu bildirmək istəyirəm ki, gələn illər ərzində Azərbaycanda daha böyük iqtisadi inkişaf gözlənilir və Amerika-Azərbaycan Ticarət Palatası ölkə iqtisadiyyatına əlavə sərmayələrin cəlb edilməsinə öz töhfəsini verməkdən, o cümlədən Azərbaycanda biznes fəaliyyəti ilə məşğul olmaqda Amerika şirkətlərinə yardım göstərməkdən və Azərbaycanın iqtisadi potensialını ABŞ-da təşviq etməkdən olduqca məmnundur. Biz istənilən formada yardım göstərməyə hazırıq.

Mən fürsətdən istifadə edərək, konfransın lazımi səviyyədə keçirilməsinə görə təşkilatçılara öz minnətdarlığımı bildirmək istəyirəm. Palatanın işçilərinin əməyi sayəsində bu tədbir baş tutmuşdur. Biz eyni zamanda, sərf etdikləri vaxta və konfransın sponsorlarına göstərdikləri yardıma görə bu görüşün iştirakçılarına dərin minnətdarlığımızı bildiririk.

İndi isə mən böyük şərəf hissi ilə bildirmək istəyirəm ki, Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyev konfransda nəinki iştirak edəcək, həmçinin Azərbaycanın siyasi və iqtisadi prioritetləri mövzusunda mühüm nitq söyləyəcəkdir.

Mən Prezident Əliyevlə ilk dəfə on il bundan əvvəl tanış olmuşam. Həmin vaxt, o, Dövlət Neft Şirkətinin birinci vitse-prezidenti idi. Mən isə BTC boru kəməri üzrə hüquqşünas işləyirdim. Bu gün, on ildən sonra o, artıq Azərbaycanın Prezidentidir, mən isə yenə də Vaşinqtonda hüquqşünas işləyirəm. Görürsünüz, mənim perspektivdəki planlarım daha kiçik oldu. Zənnimcə, Prezidentin zəngin tərcümeyi-halı ilə tanış ola bilərsiniz. Sizə paylanılmış materiallara bu haqda lazımi məlumat əlavə edilmişdir. Bu vəzifəyə seçilməzdən əvvəl, o, hökumətdə mühüm işlərlə məşğul olmuşdur. Bundan başqa, o, palatamızın İdarə heyətinin üzvüdür və on il əvvəl palata yarandığı vaxtdan bizi həmişə güclü şəkildə dəstəkləmişdir. Respublika Prezidenti seçildikdən sonra onun Vaşinqtona ilk səfərini nəzərə alaraq, mən böyük şərəf hissi ilə sözü Azərbaycan Prezidenti cənab İlham Əliyevə vermək istəyirəm.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ

- Hörmətli dostlar!

Hörmətli xanımlar və cənablar!

İlk növbədə, hamınızı salamlayır, bu gün burada olmağımdan və Amerika-Azərbaycan Ticarət Palatası tərəfindən təşkil olunmuş konfransda yenidən iştirak etməyimdən son dərəcə məmnunluğumu bildirmək istəyirəm. Artıq qeyd edildi ki, indi palata Birləşmiş Ştatlarla Azərbaycan arasında münasibətlərin bütün sahələrdə inkişaf etdirilməsində çox mühüm rol oynamışdır. Həmin əlaqələr hazırda strateji tərəfdaşlıq münasibətləri hesab olunur. Palata yaradılanda və ilk konfrans keçiriləndə o, bəlkə də Azərbaycanın Vaşinqtondakı, ümumiyyətlə, Amerikadakı yeganə səsi idi. Bizim lobbimiz yox idi. Həmin vaxt böyük, güclü nümayəndəliyimiz yox idi. Palata bizim mesajımızı, fikirlərimizi və baxışlarımızı çatdırmaq, habelə problemlərimiz haqqında danışmaq və ölkələrimiz arasında güclü tərəfdaşlığın qurulması üçün bir vasitə oldu.

Müstəqilliyin ilk illərindən Birləşmiş Ştatlarla münasibətlər Azərbaycan üçün prioritet xarakter daşıyırdı və bu, indi də belə olaraq qalır. Əminəm ki, Vaşinqtona indiki səfərimdən sonra bu əlaqələr daha çox sahələri əhatə edəcəkdir. Mən palata tərəfindən təşkil edilmiş bir çox tədbirlərdə və konfranslarda şəxsən iştirak etmişəm və açıq deyə bilərəm ki, Azərbaycanın enerji inkişafı sahəsində palatanın oynadığı rol çox mühüm olmuşdur. Çünki bir çox vacib şəxslər - siyasətçilər, iş adamları, özəl şirkətlərin nümayəndələri palatanın seminar və konfranslarında iştirak etmişlər. Həmin tədbirlər zamanı onlar Azərbaycanı daha yaxşı tanımaq, ölkəmizdəki sərmayə imkanları barədə məlumat almaq və uzun perspektivdə fəaliyyət göstərmək imkanı əldə etmişlər. Bu gün bizim yüksək səviyyədə münasibətlərimiz və iqtisadi əməkdaşlığımız var. Əlbəttə, bu, energetika sahəsindən başlamışdır.

1994-1995-ci illərdə Azərbaycandan beynəlxalq bazarlara potensial marşrut yollarını araşdırdığımız zaman bu, sadəcə müzakirə xarakteri daşıyırdı. Bunun bir gün reallığa çevriləcəyinə müəyyən dairələr inanırdı, digərləri isə yox. Bu gün isə biz birgə səylərimizin və işimizin nəticələrini görürük. Mən ona görə "birgə" sözünü işlədirəm ki, çünki ABŞ hökumətinin və ölkənizdəki müxtəlif təsisatların dəstəyi və yardımı olmadan Xəzərdəki neft və qaz yataqlarında kəşfiyyat və hasilatdan tutmuş daşınma əməliyyatlarına qədər məsələləri əhatə edən layihələr, sadəcə, gözəl layihə kimi qalardı. İndi isə bu, artıq reallıqdır və biz Xəzər dənizindəki layihələrin hazırkı mərhələdə olmasından çox şadıq.

Əsas nailiyyətlər artıq əldə olunmuşdur. Bu yaxınlarda biz Bakı-Tbilisi-Ceyhan boru kəmərinin açılışında iştirak edəcəyik və ilin sonunda bizim nəhəng qaz yatağımız "Şahdəniz"də hasilata başlanacaqdır. Azərbaycan neft və qazı Avropa və dünya bazarlarına çıxara biləcəkdir. Beləliklə, biz Azərbaycanın enerji inkişafının əsas ilkin mərhələsini başa çatdıracağıq. Lakin bu hələ son deyildir. Eyni zamanda, başlanğıc da deyildir. Biz orta mərhələni keçməkdəyik və yeni inkişafın ərəfəsindəyik. Hesab edirəm ki, həmin əməkdaşlıq bu yaxınlarda Xəzər dənizi regionunun digər ölkələrinə də şamil olunacaq və beləliklə, BTC kəmərinin və qaz boru kəmərinin regional xarakterini dəyişərək, onun vacibliyini Avropa səviyyəsinə və beynəlxalq səviyyəyə qaldıracaqdır.

Azərbaycanın Xəzər dənizindəki sektoru çərçivəsindəki enerji inkişafı iqtisadi və enerji məsələləri hüdudlarından kənara çıxır. Həmin layihələr siyasi və demokratik inkişafla, o cümlədən Azərbaycanda aparılan siyasi islahatlarla, Avratlantik strukturlarına güclü inteqrasiyamızla bağlıdır. Çünki daşınma marşrutları ölkəmizin və regionun ümumi inkişafının meyllərini birmənalı olaraq əvvəlcədən müəyyən edəcəkdir. Hesab edirəm ki, gələn illər ərzində digər ölkələr və şirkətlər bizim təhlükəsiz, etibarlı və iqtisadi baxımdan səmərəli infrastrukturumuza qoşula bilər. Sonra isə vəziyyət tamamilə dəyişəcəkdir. Burada dünya əhəmiyyətli layihələr çərçivəsində daha böyük beynəlxalq əməkdaşlıq aparılacaqdır. Neft və qaz məsələlərinin get-gedə daha da ciddiləşməsini və bununla bağlı keçmişdə müşahidə etmədiyimiz müəyyən narahatlıqların ortaya çıxmasını nəzərə alaraq, həmin məsələlərin daim diqqət mərkəzində qalması vacibdir. Digər ölkələr üçün etibarlı təchizatçı və daşınma mənbəyi kimi Azərbaycanın oynadığı rol da artacaqdır. Çox məmnunuq ki, bu gün bizim tərəfdaşımız - Birləşmiş Ştatlarla çox yüksək səviyyədə ikitərəfli münasibətlərimiz var və bu, regionun uğurlu siyasi və iqtisadi inkişafının çox vacib elementidir.

Bir sözlə, gələcəkdə enerji, daşınma və şaxələndirməyə dair planlar və Birləşmiş Ştatların bu prosesdəki rolu barədə olduqca ciddi müzakirələr aparıla bilər. Dünən keçirdiyim görüşlər zamanı bu cür məsələlərə Birləşmiş Ştatların daimi diqqətinin vacib olduğunu qeyd etmişik.

Artıq qeyd etdiyim kimi, Bakı-Tbilisi-Ceyhan boru kəmərinin çəkilməsi bizim məramımızın sonu deyildir. Bu, yalnız başlanğıcdır, bəlkə də, daha həlledici və çətin mərhələ yaxınlaşır. Bu mərhələdə digər şirkətlər və ölkələr də iştirak edəcəkdir. Lakin eyni zamanda, bugünkü konfransın gündəliyi Azərbaycanın inkişafının digər aspektlərini əhatə edəcəkdir. Artıq qeyd edildiyi kimi, qeyri-neft sektorunun inkişaf etdirilməsi hazırda bizim üçün prioritet əhəmiyyət daşıyır. Neft və qaz layihələrinə gəldikdə, artıq bizim nailiyyətlərimiz vardır. Lakin qeyri-neft sektorunun şaxələndirilməsi, onun şəffaf olması və xarici sərmayələrin cəlb edilməsi bizim gündəliyimizdə vacib məsələlərdir. Hesab edirəm ki, Azərbaycan rəsmiləri ilə keçirəcəyiniz müzakirələr vəziyyəti çox aydın təsvir edəcək, nailiyyətlərimizi, problemlərimizi, çatışmazlıqlarımızı üzə çıxaracaqdır.

Biz iqtisadi siyasətimizi dövlət proqramları əsasında aparırıq və onların müəyyən mərhələləri var. Hazırda onlar infrastrukturun və onun inkişaf etdirilməsinin vacib aspektlərini əhatə edir. Artıq iki ildən çoxdur ki, biz regional inkişaf proqramlarını həyata keçiririk. Çox fərəh hissi ilə qeyd edirik ki, iki il yarım ərzində biz 380 min yeni iş yeri açmışıq və onların əksəriyyəti qeyri-neft sektoru sahəsindədir. Hazırda biz sahibkarlar üçün bərabər şəraitin yaradılmasına çalışır və özəl sektora güzəştli kreditlərin verilməsini həyata keçiririk. Əsasən fermerlər üçün 100 milyon dollar həcmində kreditlər ayrılmasını nəzərdə tuturuq. Bu məqsədlə Azərbaycanda 100 milyon ABŞ dolları kapitalı olan dövlət şirkəti yaradılmışdır. Həmin şirkətin əsas fəaliyyəti Azərbaycanda sənaye potensialının qiymətləndirilməsi, bazarın qiymətləndirilməsi və yeni sənaye sektorlarının müəyyən edilməsidir. Biz hazırda bu sahədə ilkin mərhələni keçməkdəyik. Beləliklə, sərmayədar özü üçün potensial sahələri müəyyən edə bilər və bunlar əsasən qeyri-neft sektoruna aid olacaqdır.

Biz neft sektoruna sərmayələrin cəlb edilməsi mərhələsini keçəndə o qədər çətinliklə-

rimiz olmamışdır. Çünki neft sektoru tarixən ölkəmizdə olmuşdur və cəlbedici sahə olaraq qalır. Lakin qeyri-neft sektorunda biz daha çox iş görməliyik ki, potensial sərmayədarların etimadını qazanaq və onlara hüquqi sahədə, vergi sahəsində və iqtisadi şərait haqqında kifayət qədər məlumatın çatdırılmasına çalışaq. Beləliklə, hökumət həm sərmayəçi olaraq əlavə təkan yarada bilər və sərmayədarlar həmin 100 milyon dollar kreditdən istifadə edərək müəyyən vəsait qoya bilərlər.

Azərbaycanda potensial sərmayələr üçün sahələr artıq aydındır və onlar müxtəlifdir. Müasir infrastrukturun yaradılması, yolların çəkilməsi, elektrik stansiyalarının tikilməsi kimi layihələrimiz iqtisadiyyatın, o cümlədən kənd təsərrüfatının, turizmin inkişafı üçün şərait yaradacaqdır. Hazırda ölkəmizdə ümumi gücü 1000 meqavat olan 6 elektrik stansiyası tikilməkdədir. Onlar gələcəkdə ölkənin enerji tələbatını tam ödəməyə imkan verəcəkdir.

Neft və qaz hasilatı ilə məşğul olan ölkə kimi bizim həmin elektrik stansiyalarına və sənaye obyektlərinə, zavodlara yanacağın çatdırılmasında heç bir problemimiz yoxdur. Bizim neftin ixracından milyonlarla dollar gəlir əldə edəcəyik. Ümummilli liderimiz Heydər Əliyevin neft strategiyası 1994-cü ildə qəbul olunmuşdur və hazırda o, öz nəticələrini verir. Bir sözlə, biz bu sahələrdə çox fəal işləyirik və bütün dünya üçün ən yaxşı nümunə ola bilərik. Bizim iqtisadi nailiyyətlərimiz çox müsbətdir. Bu il ərzində ÜDM-in artımı ötən ildəki 26 faizlik artımla müqayisədə təqribən 40 faiz olacaqdır. Bizim sənaye istehsalının artımı 47 faiz olacaqdır.

Eyni zamanda, biz bir çox sosial proqramlar həyata keçiririk. Çünki neftdən əldə olunan gəlirlər Azərbaycan əhalisinə sərf edilməlidir. Biz bu gəlirlər hesabına ötən il ərzində 300-dən çox orta məktəb binası tikmişik. Azərbaycanda 10-dan çox müasir xəstəxana tikilməkdədir. Bir sözlə, biz iqtisadi inkişafımızı əsasən bazar iqtisadiyyatı prinsiplərinə uyğun qururuq. Biz güclü sosial siyasət həyata keçiririk. Bütün bunlar vacib elementlərdir. Əgər biz diqqəti yalnız azad bazar iqtisadiyyatı prinsiplərinə yönəltsək və sosial proqramları həyata keçirməsək, ölkəmizdə sosial ədalət olmayacaqdır. Beləliklə, neft gəlirlərinin ədalətli paylanılması mümkün olmayacaqdır. Buna görə də əgər siz ölkəmizdə ÜDM-in strukturuna nəzər salsanız görərsiniz ki, özəl sektorun payı təqribən 75 faizdir. İqtisadiyyatın əsasını neft sənayesi təşkil edən ölkə üçün bu, kifayət qədər böyük göstəricidir. Neft hasilatı dövlətin inhisarındadır və qeyri-neft sektorları tamamilə özəlləşdirilibdir.

Bizim büdcə artımımızın əsas bir hissəsi sosial problemlərə - maaşların, pensiyaların artırılmasına sərf olunur. Misal üçün, Ermənistanın təcavüzü nəticəsində öz yurd-yuvalarından qovulmuş qaçqınların yeni yerlərə köçürülməsi üçün sərf edilir. Bu il biz ən sonuncu çadır şəhərciyini ləğv edəcəyik və erməni təcavüzündən əziyyət çəkmiş on minnərlə qaçqın və məcburi köçkün ailələri üçün yeni evlər tikəcəyik. Onları elektrik enerjisi ilə təchiz edəcəyik, yeni xəstəxanalar, məktəblər tikəcəyik. Həmin insanlar Ermənistanın təcavüzündən əziyyət çəkmişlər və öz yurd-yuvalarına qayıdana qədər müvəqqəti olaraq normal şəraitdə yaşayacaqlar.

İşlərin bu cür qurulması cəmiyyətin möhkəmlənməsinə xidmət edir. Çünki biz bilirik ki, neft hasil edən zəngin ölkələrdə bəzən işlər o qədər də yaxşı aparılmır. Bu baxımdan Azərbaycanda biz fərəh hissi ilə deyə bilərik ki, bir neçə il bundan əvvəl hasilat sənaye-

sində şəffaflıq təşəbbüsünə qoşulmuşuq. Bu, əsasən neft və qaz sektoruna aiddir.

Neft və qaz yataqları ilə zəngin olan ölkədə uğur əldə etmək üçün biz bu sərvətlərdən gələn gəlirləri bərabər qaydada paylamalıyıq. Adi insanlar öz gündəlik həyatının yaxşılaşmasını hiss etməlidirlər. Yəni sırf makroiqtisadi göstəricilərin olması kifayət deyildir. Əgər siz soruşsanız ki, ÜDM-in artımı 26 faizdirmi, onlar bu suala cavab verməyəcəklər. Onlar bunu özlərinin gündəlik həyatında hiss etməlidirlər. Onlar yaxşı yollar, su təchizatı, səhiyyə xidməti olmasını və uşaqlarının kompyuterlərlə təchiz edilmiş müasir məktəblərə getməsini istəyirlər. Onlar cəmiyyətdə sosial ədalətin şahidi olmalıdırlar. Çünki bu, sovet dövründən miras qalmış ən böyük problemlərdən biridir.

Azərbaycanda siyasi və iqtisadi islahatlar paralel olaraq aparılır. Bir sözlə, bu üsul uğurun əldə edilməsinə, vətəndaş cəmiyyətinin saxlanılmasına və ölkə daxilində əmin-amanlığın bərqərar olunmasına aparan yeganə yoldur. Ölkəmiz çox möhkəmdir, hökumətlə xalq arasında güclü əlaqələr var. Bu, ölkədə liberal islahatların aparılması üçün imkan yaradan sabit vəziyyətin əsasını təşkil edir. Çünki bəzən islahatlar çətin də olur. Bəli, bir tərəfdən, onların insanların həyatının yaxşılaşdırılmasına yönəldilməsi aydındır. Lakin digər tərəfdən, islahat prosesi özlüyündə mürəkkəb bir prosesdir. Biz həmin dövrü qısaltmağa çalışmalıyıq və xalqın gözlədiyi nəticələrin təmin olunması məqsədi ilə fəal işləməliyik.

Mən fərəh hissi ilə demək istəyirəm ki, 2003-cü ildə keçirilmiş prezident seçkiləri ərəfəsində söz verdiyim bütün məsələlər öz həllini tapmaqdadır. Onlar hətta vəd edildiyi vaxtdan da tez həll olunur.

Biz dünyada gedən enerji proseslərində artıq çox fəal iştirak edirik və dünyanın ən böyük enerji layihəsi məhz Azərbaycanda həyata keçirilmişdir. Hazırda biz nəqliyyat infrastrukturuna daha çox diqqət yetiririk. Çünki bizim yerləşdiyimiz məkan təbiətin bizə bəxş etdiyi hədiyyədir. Biz bundan yaxşı istifadə etməliyik. Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizindəki tammiqyaslı əməliyyatlarda öz infrastrukturumuzdan istifadə etməliyik.

Hazırda biz Azərbaycanda bir sıra hava limanları tikməkdəyik. Yolların salınmasına diqqət yetiririk. Malların daşınması üçün nəqliyyat vasitələri alırıq. Bir sözlə, biz çox möhkəm infrastruktur yaradırıq və bunun məqsədi iqtisadi inkişafdır. Bundan istifadə edərkən Azərbaycanın iqtisadi siyasəti olduqca aydındır. Bu, müəyyən ölkələrin impulsiv addımlarına bənzəmir. Biz bilirik ki, 2-3 və ya 5 ildən sonra nəyimiz olacaqdır. Əlbəttə ki, bu, dünyada neftin qiymətlərindən asılıdır. Lakin biz iqtisadi potensialımızı bilirik. Azərbaycanın siyasi əhəmiyyəti get-gedə artacaqdır. Çünki hazırda enerji məsələləri siyasi məsələlərlə çox sıx əlaqəlidir. Bu, təkcə bizim regionda yox, bütün dünyada belədir. Enerji məsələsi və geosiyasi məsələlər regionda böyük təsirə malikdir və digər məsələlərlə bağlıdır. Bu baxımdan Azərbaycan enerji təchizatının və daşınmanın etibarlı mənbəyidir. Bu əməliyyatlar bütün istiqamətlərdə aparıla bilər.

Əlbəttə, biz Avropa və dünya məsələlərində öz töhfəmizi verə bilərik. Bütün bunlar ölkəmiz üçün daha yaxşı şəraitin yaradılmasına zəmin doğurur və digər ölkələr də buna diqqət yetirir. Sərmayələr çox yüksək səviyyədədir. Müəyyən mənada bəzi problemlər sərmayələrin daha fəal yatırılmasını əngəlləyir. Lakin biz çalışırıq ki, narahatlıq doğuran bütün bu məsələləri aradan qaldıraq. Hazırda bu məqsədlə hökumət daxilində təcrü-

bəli və bacarıqlı əməkdaşlar çalışırlar ki, bütün iqtisadi islahatlar tam yerinə yetirilsin.

Bizim tərəfdaşlarımızla çox yaxşı münasibətlərimiz var. Bu da iqtisadiyyatın və təhlükəsizliyin çox vacib elementidir. Hesab edirəm ki, bütün nöqteyi-nəzərdən Azərbaycan sərmayələr üçün çox yaxşı bir yerdir. Burada sabit vəziyyət mövcuddur. Ölkəmizdə bu sabitliyin gələn illər ərzində də qorunacağına zəmanət verilir. Mən fürsətdən istifadə edərək, Azərbaycanı tanıyan, vəziyyətlə tanış olan və yaxud hələ məlumatı olmayan bütün şəxsləri, sərmayədarları bir daha ölkəmizə dəvət edirəm.

Hesab edirəm ki, bu konfrans enerji sektorunun inkişafına, qeyri-neft sektoruna, şəffaflığa, bank sektoruna və sənayenin digər sahələrinin inkişafı planlarımıza aid məsələləri aydınlaşdıracaqdır. Əlbəttə ki, digər şəxslərlə müqayisədə, sərmayədarlar vəziyyəti daha yaxşı bilərlər. Lakin eyni zamanda, burada hökumətin də siyasəti olmalıdır. Misal üçün, sərmayədarların müəyyən bir ölkəyə və Azərbaycana dair öz prioritetləri, hökumətin isə digər prioritetləri ola bilər. Bunlar hamısı tarazlı şəkildə aparılmalıdır ki, sərmayələr bərabər yatırılsın. Ona görə də bu, bizim inkişafımızın yeni bir elementidir. Çünki əvvəllər sərmayələr belə bir qaydada yatırılırdı: tutaq ki, müəyyən bir şirkət sərmayədar qismində ölkəyə gəlməyi qərara alırdı və burada imkan tapıb sərmayə qoyurdu. İndi isə bununla yanaşı, biz də öz tərəfimizdən sərmayədarlar üçün bələdçi rolunu oynamağa çalışırıq və onlara yaxşı gəlirlər gətirəcək sahələri təsvir edirik.

Beləliklə, yoxsulluğun, işsizliyin azaldılması üçün çalışırıq. Çünki bunlar hələ də Azərbaycanda problem olaraq qalır. İki il ərzində yoxsulluğun səviyyəsi 49 faizdən 29 faizə düşmüşdür. Lakin hələ ki, bu, böyük rəqəmdir. Hesab edirəm ki, Azərbaycan bir neçə ildən sonra, gündə bir milyon barreldən çox neft hasil edəndən sonra imkanlarımız daha da artacaqdır. Yoxsulluğun tam aradan qaldırılması bizim maksimum məqsədimiz və proqramımızdır. Eyni zamanda, işsizliyin tamamilə aradan qaldırılmasına çalışacağıq. Əlbəttə, digər ölkələrdəki kimi, bizdə də elə insanlar var ki, ümumiyyətlə işləmək istəmirlər. Lakin işləmək istəyən insanlar işlə təmin olunmalıdır.

Bu baxımdan hesab edirəm ki, konfrans bələdçi rolunu oynayaraq Azərbaycanın, onun hökumətinin planlaşdırdığı məsələlər haqqında məlumat verəcəkdir. Bizim gələn beşillikdə görəcəyimiz işlər barədə burada məlumat veriləcəkdir. Ona görə də mən sizi çox fəal olmağa çağırıram. Eyni zamanda, bu fürsətdən istifadə edərək, Azərbaycana hələ səfər etməmiş şəxsləri ölkəmizə dəvət edirəm.

Mən bir daha bildirmək istəyirəm ki, Vaşinqtonda olmağıma çox şadam. Vaşinqtona bir çox səfərlər etmişəm. Bu gün səhər bu barədə fikirləşirdim: 1994-cü ildən 2003-cü ilə qədər, demək olar ki, il ərzində bəlkə iki dəfə ölkənizə səfər etmişdim, müxtəlif konfranslarda və eyni zamanda Amerika-Azərbaycan Ticarət Palatasının tədbirlərində iştirak edirdim. İndi mən Prezident kimi buradayam və bundan çox şadam. Əminəm ki, bu səfər iqtisadi sahədəki əməkdaşlıq üçün yeni imkanlar açacaqdır. Hazırda Birləşmiş Ştatlar və Azərbaycan arasında olan əməkdaşlıq daha geniş sahələrə şamil ediləcəkdir. ABŞ və Azərbaycan iki tərəfdaş ölkədir, regional və beynəlxalq miqyaslı məsələlər üzrə əməkdaşlıq edir. Əminəm ki, gələcəkdə bizim burada və Bakıda daha çox görüşlərimiz olacaqdır.

Mən sizə və konfransın işinə uğurlar arzulayıram. Çox sağ olun.

AZƏRBAYCAN PREZİDENTİNİN ŞƏRƏFİNƏ

Aprelin 27-də Vaşinqtonda "Baker Boats" şirkəti adından Azərbaycan Prezidenti İlham Əliyevin şərəfinə nahar verilmişdir. Süfrə arxasında səmimilik və dostluq şəraitində söhbət zamanı regional tərəfdaş kimi Azərbaycanın əhəmiyyətinin artması vurğulandı, iqtisadi əməkdaşlıq məsələləri barədə fikir mübadiləsi aparıldı.

Naharda ABŞ Milli İstehsalçılar Assosiasiyasının prezidenti, Miçiqan ştatının keçmiş qubernatoru Con Enqler, ABŞ-ın keçmiş energetika naziri Spenser Abraham, "Boinq" şirkətinin vitse-prezidenti və Avropa üzrə meneceri Qreq Conston, "Bektel" şirkətinin prezidenti Karlos Agila, "Beker Boks" şirkətinin nümayəndəsi Cey Kold, "Ceneral Elektrik" şirkətinin vitse-prezidenti Nensi Dorm, "Şevron-Xəzər" şirkətinin prezidenti Devid Minemyer, "Omni Communiteyşn" şirkətinin prezidenti Dərya Yavalar, "Motorola" şirkətinin vitse-prezidenti Dohktan Bulafqa, "Procter & Gembl" şirkətinin vitse-prezidenti Karolin Prehm, "Conoco-Philips" şirkətinin vitse-prezidenti Bill Berri və digər nüfuzlu şirkətlərin nümayəndələri iştirak edirdilər.

Amerika-Azərbaycan Ticarət Palatasının həmsədri Ceremi Beyker çıxış edərək, Prezident İlham Əliyevin Amerika Birləşmiş Ştatlarına səfərinin uğurlarından danışdı.

ABŞ-ın ölkəmizdəki keçmiş səfiri Rino Harniş, Azərbaycanın Vaşinqtondakı səfiri Hafiz Paşayev Amerika-Azərbaycan əməkdaşlığından bəhs etdilər.

Qəbulda Xarici Özəl İnvestisiyalar Şirkətinin prezidenti Rob Mosbeyker çıxış edərək *bildirdi ki*, ABŞ ilə Azərbaycan arasında münasibətlər günbəgün genişlənir. Azərbaycan terrorizmə qarşı mübarizədə etibarlı tərəfdaşdır. Eyni zamanda, Azərbaycan Xəzərin enerji ehtiyatlarının tranziti baxımından vacib ölkədir. Amerika Azərbaycana böyük imkanları olan bir ölkə kimi baxır. Azərbaycan Prezidenti İlham Əliyev enerji sektoruna xarici sərmayələrin cəlb olunması üçün böyük işlər görmüş və nəticədə ölkəsinin bugünkü və gələcək inkişafının əsasını qoymuşdur. R.Mosbeyker dedi ki, cənab İlham Əliyev Prezidentliyindən əvvəl, parlamentin deputatı və Baş nazir olarkən də xalqına sədaqətlə xidmət etmişdir.

Prezident İlham Əliyev qəbulda nitq söylədi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ

- Əziz dostlar, xanımlar və cənablar!

Sizi yenidən salamlayır və ABŞ-a səfərim ilə bağlı dərin məmnunluğumu bir daha ifadə edirəm.

Səfər artıq başa çatmaq üzrədir. Sabah ABŞ-ın Prezidenti, vitse-prezidenti və müdafiə naziri ilə görüşlərim olacaqdır. Lakin artıq indidən deyə bilərəm ki, səfər çox uğurlu keçmişdir. Bu səfər qarşılıqlı maraq doğuran məsələlər üzrə fikir mübadiləsi aparmaq, ikitərəfli münasibətlərə yenidən nəzər salmaq, münasibətlərimizin gələcək perspektivləri barədə danışmaq üçün gözəl imkanlar yaratdı. Əminəm ki, indi strateji əhəmiyyətə malik olan ABŞ-Azərbaycan münasibətləri bundan sonra da inkişaf edəcək və həyatımızın, əməkdaşlığımızın bütün sahələrini əhatə edəcəkdir.

Bu səhər Amerika-Azərbaycan Ticarət Palatasının təşkil etdiyi konfransın açılışında olarkən mən keçmiş və gələcək barədə düşünürdüm. Keçən dövr ərzində böyük nailiyyətlər əldə edilmişdir. Ticarət palatasının on illik fəaliyyəti dövründə ABŞ və Azərbaycan iki müttəfiqə, dosta, regional və dünya əhəmiyyətli çox mühüm layihələrin həyata keçirilməsi üçün birgə çalışan ölkələrə çevrilmişlər.

Ümid edirəm ki, əməkdaşlığımız gələcəkdə də bu səviyyədə davam etdiriləcəkdir. Çünki əldə olunan nailiyyətlər yalnız başlanğıcdır. Bizim nəhəng enerji inkişafının, sadəcə, ilk mərhələsi gedir. Ölkələrimiz regional və qlobal təhlükəsizlik məsələləri, terrorizmlə mübarizə, Azərbaycanda iqtisadi və siyasi islahatların həyata keçirilməsi, regionumuzu daha təhlükəsiz və sabit etmək sahəsində əməkdaşlıq edir.

Xəzər hövzəsində enerji təhlükəsizliyi və enerji inkişafı məsələlərində ABŞ hökumətinin oynadığı rol həlledici olmuşdur. Ümid edirəm ki, bu rol gələcəkdə də davam etdiriləcəkdir. Belə ki, bu, bütün planlarımızın və ideyalarımızın həyata keçirilməsi üçün zəruridir. Bu planlar, ideyalar ilk baxışdan real görünməyə *bilərdi. On il bundan qabaq bir* çox insanlar Bakı-Tbilisi-Ceyhan boru kəmərinin reallığa çevriləcəyinə, Azərbaycanın "Şahdəniz" yatağından hasil ediləcək qazın Avropa istehlakçıları üçün əhəmiyyət kəsb edəcəyinə inanmırdılar. Bunları əvvəlcədən görmək çox çətin idi. Lakin bizim qarşımızda duran məqsədlərimiz var idi və bu məqsədlərə doğru birgə hərəkət edirdik. Əminəm ki, Azərbaycan və ABŞ-ın, tərəfdaşlarımız və müttəfiqlərimizin birgə səyləri regionda tamamilə fərqli bir vəziyyətin yaranmasına gətirib çıxaracaq, regionun ümumi inkişafına təsir göstərəcək, geniş siyasi islahatların həyata keçirilməsinə kömək edəcəkdir. ABŞ hökuməti bu məsələlərə böyük diqqət yetirir.

Eyni zamanda, Azərbaycanda da bu məsələlərə önəm verilir. Biz bunların həyata keçirilməsi üçün birlikdə çalışmalıyıq. Siyasi və iqtisadi islahatlar, enerji inkişafı sahəsində layihələr, regionu daha təhlükəsiz və sabit etmək istiqamətindəki birgə səylərimiz ikitərəfli əlaqələrimizin, regional sabitliyin və inkişafın elementləridir. Bütün bu məsələlərdə Azərbaycanın rolu getdikcə artır. Xəzər dənizinə xarici sərmayələrin cəlb edilməsi sahəsində öncül bir ölkə kimi Azərbaycanın fəaliyyəti regionda tamamilə yeni bir vəziyyətin yaranmasına gətirib çıxarmışdır.

Təsəvvür edin ki, 1994-cü ildə "Əsrin müqaviləsi" bağlanmasaydı və sonrakı dövrdə enerji layihələrinin inkişafında uğur əldə edilməsəydi, nə baş verə bilərdi?! Regiondakı bütün vəziyyət tamamilə fərqli olardı. Bu gün biz birgə səylərin nəticələrindən faydalanırıq. Biz xalqlarımız üçün daha yaxşı həyat şəraiti, bütün regionda sabitlik və firavanlıq yaratmaq naminə səylərimizi davam etdirmək əzmindəyik.

Cənubi Qafqaz regionu illər, əsrlər boyu müharibələrdən, hərbi əməliyyatlardan, münaqişələrdən əziyyət çəkmişdir. Bizim böyük mədəniyyətimiz, tariximiz, ənənələrimiz var, lakin əsrlər boyu müstəqilliyimizdən məhrum edilmişdik. Müstəqillik bizim üçün böyük məna kəsb edir. Bu, Azərbaycan xalqı üçün ən böyük dəyərdir. Bu müstəqilliyi necə dönməz və güclü etmək, ölkənin mövqeyini necə gücləndirmək olar? Bu məsələlərlə gündəlik məşğul olmalıyıq.

Tarixdən alınan dərslər bizim üçün önəmlidir. Ona görə də biz güclü dövlət qurmaq, insanların həyat səviyyəsini daha da yaxşılaşdırmaq, qanunun aliliyinə, bütün siyasi azadlıqlara və geniş demokratiyaya malik tam sərbəst cəmiyyətə nail olmaq üçün çox çalış-

malı, dostlarımız və müttəfiqlərimiz ilə daim təmasda olmalıyıq. Bu baxımdan Ticarət palatasının rolu çox önəmli olmuşdur. Onun fəaliyyəti bizə ABŞ-la əlaqələri yaxşılaşdırmaq, sözlərimizi çatdırmaq, ölkənin problemləri, istəklərimiz barədə məlumat vermək, birgə əməkdaşlıq imkanlarından istifadə etmək fürsəti vermişdir.

Mən Ticarət palatası tərəfindən təşkil edilmiş bir çox konfranslarda iştirak etmişəm. Hər dəfə qarşımızda fərqli məsələlər dururdu. Lakin ümumi meyil heç zaman dəyişməmişdir: məqsəd ABŞ ilə Azərbaycan arasında ikitərəfli münasibətlərin inkişaf etdirilməsi, əməkdaşlıq üçün yeni əsasların yaradılması olmuşdur. İndi münasibətlərimizin necə inkişaf etdiyini görürük. On il bundan əvvəl gündəlikdə bir məsələ dururdusa, indi əməkdaşlığımız geniş aspektdə həyata keçirilərək energetika, təhlükəsizlik, siyasi və demokratik islahatlar, iqtisadiyyat, regional təhlükəsizlik sahələrini əhatə edir. Bütün bu məsələlərə dair bu gün ABŞ və Azərbaycan arasında açıq, səmimi və dostcasına müzakirələr aparılır və bizim fikirlərimiz üst-üstə düşür.

Ona görə də fürsətdən istifadə edərək, Ticarət palatasının rəhbərliyini, palatanın işində fəal iştirak etmiş bütün insanları, onun tədbirlərini dəstəkləmiş və indi də dəstəkləyən bütün şirkətləri təbrik etmək istəyirəm. Bu, böyük nailiyyətdir. Bunu ona görə demirəm ki, palatanın yubileyidir və yaxşı sözlər söyləmək lazımdır. Bu, bir reallıqdır. Mən palatanın ABŞ-Azərbaycan ikitərəfli münasibətlərinə böyük töhfəsinin daim şahidi olmuşam.

ABŞ-la ikitərəfli münasibətlər Azərbaycan üçün prioritet xarakter daşıyır. Ölkəmizin mövqeyi çox açıq və səmimidir. Bu mövqeyə hər hansı bir təsir göstərmək və ya onu dəyişdirmək mümkün deyildir.

Biz siyasətimizi milli maraqlarımıza uyğun, əsil müstəqil dövlət kimi həyata keçiririk. Özünü müstəqil hesab etmək üçün, sadəcə, milli himnə və bayrağa malik olmaq kifayət deyildir. Elə ölkələr var ki, müstəqilliyin bu atributlarına malik olsalar da, müstəqil siyasət həyata keçirə bilmir. Biz sözün həqiqi mənasında müstəqil olduğumuz üçün çox xoşbəxtik və bundan qürur duyuruq. Bu istiqamətdə Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin əməyi böyük olmuşdur. Onun səylərinin nəticəsidir ki, indi Azərbaycan öz milli maraqlarına uyğun siyasət həyata keçirə bilir. Bu siyasətin məqsədi ABŞ və Qərbdəki digər müttəfiqlərimiz ilə əlaqələri gücləndirməkdən ibarətdir. Biz əməkdaşlıq üçün açığıq, ölkəmizdə ən böyük sərmayədarlar olan ABŞ şirkətləri ilə yaxşı iqtisadi əməkdaşlıq göstəricilərimiz mövcuddur.

Hazırda Azərbaycanda daha yaxşı sərmayə mühiti yaratmaq istəyirik və əminik ki, bu gün keçirilmiş konfrans bu istiqamətdə mühüm rol oynayacaqdır. Konfransda iqtisadi və siyasi əməkdaşlığın müxtəlif aspektləri müzakirə edilmişdir və nəticələr çox müsbətdir. Hesab edirəm ki, bir neçə aydan sonra konfransın real nəticələrini görəcəyik.

Son on ildə Ticarət palatası ilə müxtəlif qismlərdə, hazırda isə suveren dövlətin Prezidenti kimi birgə fəaliyyət göstərməkdən şərəf duyuram. Nailiyyətlərin əldə olunması üçün birgə çalışdığımız dostlarımızı burada görməkdən çox məmnunam. Bir zamanlar xülya, əfsanə kimi görünən əməkdaşlıq səviyyəsi və layihələrimiz bu gün reallıqdır. Bu, o deməkdir ki, hər şeyə nail olmaq mümkündür. Xüsusilə çox mürəkkəb yerlərdə də həyata keçirilməsi qeyri-real, qeyri-mümkün hesab olunan layihələr gerçəkləşdirilə bilər. Bunun üçün sadəcə iradə, qətiyyət, cəsarət və əməkdaşlıq olmalıdır. Bütün bu cəhətlər bizdə var və münasibətlərimizi gələcəkdə də inkişaf etdirmək əzmindəyik.

Ümid edirəm ki, ABŞ ilə Azərbaycan arasında mövcud olan strateji tərəfdaşlıq yalnız xalqımıza deyil, bütün regiona fayda gətirəcəkdir. Region daha təhlükəsiz, daha sabit olacaq, nəhayət, ölkəmizdə və bütövlükdə regionda sülh bərqərar ediləcəkdir. Bu yubiley münasibətilə sizi bir daha təbrik edir, sizə xoşbəxtlik və uğurlar arzulayıram.

Çox sağ olun.

[redacted]

Amerika-Azərbaycan Ticarət Palatasının həmsədri Ceremi Beyker dəyərli və uzaqgörən fikirlərə görə Azərbaycan Prezidentinə minnətdarlıq etdi. O, "Görkəmli rəhbərlik" adlı xüsusi mükafatı Prezident İlham Əliyevə təqdim edərək bildirdi ki, bu mükafat yalnız bir dəfə, palatanın fəaliyyətinin ilk ilində Prezident Heydər Əliyevə təqdim edilmişdir. İndi isə palata onun işinə verdiyi dəstəyə və Azərbaycana etdiyi gözəl rəhbərliyə görə Prezident İlham Əliyevi bu mükafata layiq görmüşdür.

Prezident İlham Əliyev mükafata görə təşəkkür edərək dedi ki, bu, mənim üçün çox dəyərli mükafatdır. Söz verirəm ki, gələcək fəaliyyətimdə də palatanı dəstəkləmək üçün əlimdən gələni edəcəyəm, Vaşinqtonda, ABŞ-ın digər şəhərlərində, bəlkə də Bakıda daha çox konfranslar keçiriləcək, sizinlə daha tez-tez görüşəcəyəm.

AZƏRBAYCAN İCMASININ ÜZVLƏRİ İLƏ GÖRÜŞ

Azərbaycan Prezidenti İlham Əliyev aprelin 27-də Vaşinqtonda, onun üçün ayrılmış iqamətgahda ABŞ-dakı Azərbaycan icmasının üzvləri ilə görüşmüşdür.

Ölkəmizin ABŞ-dakı səfiri Hafiz Paşayev görüşü açaraq, ulu öndər Heydər Əliyevin Azərbaycan diasporuna daim diqqət və qayğı göstərdiyini, xarici səfərləri zamanı onun təmsilçiləri ilə müntəzəm görüşlərin əsasını qoyduğunu xatırlatdı. Hazırda Azərbaycan dövlətinin diasporla əlaqələrə xüsusi önəm verdiyini bildirən səfir, görüşdə iştirakına görə Prezident İlham Əliyevə təşəkkür edərək dedi ki, soydaşlarımızda Sizinlə görüşə maraq çox böyükdür. H.Paşayev Amerikadakı Azərbaycan icmasının son iki ildə xeyli fəallaşdığını, onun təmsilçilərinin Bakıda Dünya azərbaycanlılarının II qurultayında iştirak etdiklərini, ABŞ-da gözəçarpan tədbirlər, o cümlədən Xocalı soyqırımı ilə bağlı etiraz aksiyaları keçirdiklərini vurğuladı.

Prezident İlham Əliyev görüşdə nitq söylədi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ

- Mən sizinlə görüşməyimə çox şadam. Mən demək olar ki, səfər etdiyim bütün ölkələrdə olarkən orada yaşayan Azərbaycan icmasının nümayəndələri ilə görüşürəm. Azərbaycanlılar dünyanın müxtəlif ölkələrində yaşayırlar və onların taleyi, əlbəttə, bizi həmişə maraqlandırır. O cümlədən Amerikada yaşayan azərbaycanlılar da bizim üçün çox əzizdir. Bu yaxınlarda Bakıda keçirilmiş Dünya azərbaycanlılarının II qurultayında da Amerikadan gəlmiş qonaqlar bizim tərəfimizdən xüsusi diqqətlə qarşılanmışlar.

Bizim ölkəmiz, Azərbaycan sürətlə inkişaf edir. Əlbəttə, müxtəlif ölkələrlə olan münasibətlərimiz də inkişaf edir. Bu münasibətlərin inkişafında müvafiq ölkələrdə yaşayan azərbaycanlılar da, əlbəttə ki, mühüm rol oynayırlar və oynamalıdırlar.

Bildiyiniz kimi, Amerika ilə bizim çox səmərəli, işgüzar əməkdaşlığımız var. Biz uzun illərdir ki, tərəfdaş kimi fəaliyyət göstəririk. Bizim əməkdaşlığımız çoxşaxəlidir, həm iqtisadi, həm enerji, eyni zamanda siyasi, təhlükəsizlik sahəsində Amerika-Azərbaycan münasibətləri çox yüksək sürətlə inkişaf edir. Şübhəsiz ki, mənim buraya rəsmi səfərim də bu istiqamətdə atılan mühüm addımdır. Əminəm ki, səfərdən sonra əlaqələrimiz daha da möhkəmlənəcəkdir.

Ancaq ölkənin maraqlarını təmin etmək üçün onun daxilində gedən proseslər kifayət etmir. Biz nə qədər çalışsaq, öz diplomatik səylərimizi nə qədər artırsaq da, yenə də diasporun köməyinə, dəstəyinə böyük ehtiyac vardır. Çünki siz burada yaşayırsınız, Amerika vətəndaşlarısınız. Siz öz səsinizi ucaldanda yəqin ki, bu, daha da yaxşı eşidilir, nəinki biz hansısa məsələni qaldıranda. Ona görə gərək biz hamımız bu imkanlardan səmərəli istifadə edək. Azərbaycan nə qədər güclü olsa, yəqin ki, sizin üçün də bir o qədər yaxşı olar. Azərbaycanın dünyadakı mövqeyi, hörməti artdıqca, əlbəttə, hər bir azərbaycanlı bundan qürur hissi duyur, vətənpərvər insanlar kimi siz bununla fəxr edirsiniz. Eyni zamanda, sizin buradakı mövqeyiniz nə qədər möhkəm olsa, Azərbaycanın maraqları da bir o qədər təmin ediləcəkdir.

Əlbəttə, mən müqayisə aparmaq istəmirəm. Amma, şübhəsiz ki, əgər ermənilərin güclü lobbisi olmasaydı, bu gün Ermənistanın vəziyyəti tamamilə başqa ola bilərdi. Yəni Ermənistanı bir dövlət kimi saxlayan ən vacib amil və vasitə onların dünyadakı mövqeləridir. Əgər fərz eləsək ki, bunu ümumi kontekstdən çıxaraq, onda görərik ki, Ermənistan bir dövlət kimi formalaşmır, yəni uğur əldə etmir. Ancaq onların güclü imkanları, maliyyə imkanları, siyasi dayaqları, müvafiq qurumlarla əlaqələri, əlbəttə ki, Ermənistanın da mövqelərini möhkəmləndirir. Baxmayaraq, bütün dünya bilir ki, Ermənistan Azərbaycana təcavüz edibdir, bu təcavüz nəticəsində torpaqlarımızın 20 faizi işğal altındadır. Etnik təmizləmə siyasəti nəticəsində 1 milyondan artıq azərbaycanlı öz doğma torpaqlarından didərgin düşübdür. Bunlar açıq bəlli olduğuna baxmayaraq, Ermənistana, onun işğalçı siyasətinə hələ ki, lazımi qiymət verilmir.

Ona görə biz də bu istiqamətdə öz fəaliyyətimizi gücləndirməliyik. Bir neçə il ərzində fəaliyyət göstərən Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsi də artıq daha səmərəli işləyir. Azərbaycanın müvafiq icmaları daha da fəallaşıblar. Azərbaycanın ümumi inkişafı, əlbəttə ki, sizi də ruhlandırır. Siz görəndə ki, ölkəmiz həm iqtisadi, həm siyasi cəhətdən, həm də beynəlxalq qurumlara inteqrasiya baxımından liderlik mövqelərinə sahib olur, əlbəttə, bu, sizə də qol-qanad verir, sizi də möhkəmləndirir. Ona görə, gərək biz bu məsələlərə geniş kontekstdə baxaq.

Azərbaycan dövləti və hökuməti öz tərəfindən əlindən gələni edəcək ki, diasporun təşkilatlanması və möhkəmlənməsində səylərini göstərsin. Sizi də maraqlandıran, narahat edən məsələlər, problemlər də vaxtlı-vaxtında bizə bəlli olmalıdır. İndi həm maliyyə baxımından, həm də təsir baxımından Azərbaycanın imkanları artır. Ona görə siz Azərbaycanın bu imkanlarından da səmərəli istifadə etməlisiniz. Yəni burada çox səmərəli, davamlı və mütəmadi xarakter daşıyan əlaqə mexanizmi qurulmalıdır. Yəqin ki, bu var, amma istərdim, daha da səmərəli olsun.

Biz fəal olmalıyıq, qabaqlayıcı addımlar atmalıyıq. İnformasiya müharibəsində hücum etməliyik. Mən təxminən ilyarım bundan əvvəl Xarici İşlər Nazirliyində xaricdə fəaliyyət göstərən səfirlərlə görüş keçirmişdim. Orada da qarşıya qoyduğum məsələlərdən biri də o idi ki, biz gərək Azərbaycan mövzusunu dünya ictimaiyyətinə çatdıraq.

Dünən Konqresdə olarkən yenə o "məşhur" 907-ci düzəliş haqqında söhbət aparırdım. O düzəlişin qəbul edilməsində də obyektiv səbəblər olub, Azərbaycan haqqında məlumat olmayıb, yaxud da ancaq mənfi məlumat olubdur. Haradasa, 1990-cı illərin ortalarına qədər təkcə burada deyil, eyni zamanda, Avropa ölkələrində də Azərbaycan haqqında ya mənfi məlumat yayılırdı, yaxud da ümumiyyətlə, məlumat yayılmırdı. Bizim haqqımızda mənfi rəy yaradan əsas qüvvə erməni lobbisidir. Çünki onların əsasən məqsədi Azərbaycanı ləkələmək, antidemokratik dövlət kimi təqdim etmək və beləliklə, sübut etməyə çalışmaqdır ki, demokratiya inkişaf etməmiş belə bir ölkədə ermənilər azlıq kimi yaşaya bilməzlər. Guya onların rahat yaşaması təhlükə altındadır. Ona görə Azərbaycana qarşı çox ciddi kampaniya gedir.

Biz öz səsimizi ucaldırıq. Azərbaycan çalışır ki, özü haqqında həqiqətləri dünya birliyinə çatdırsın. Məhz bu sahədə diasporun fəaliyyəti müstəsna xarakter daşıyır.

Mən keçmişdə də Amerikada tez-tez olurdum. 1994-cü ildən başlamış 2003-cü ilə qədər, demək olar, ildə iki dəfə gəlirdim, müxtəlif tədbirlərdə iştirak edirdim. Görürdüm ki, əgər biz öz həqiqətlərimizi düzgün, dolğun şəkildə çatdıra biliriksə, o zaman münasibət də dəyişir, rəy də dəyişir. Gərək bu iş mütəmadi qaydada aparılsın. Əlbəttə ki, bunda səfirliyin çox böyük rolu var. Çünki səfirlik burada Azərbaycanın rəsmi nümayəndəliyidir və müvafiq qurumlarla əlaqə saxlamaq, əməkdaşlıq etmək imkanları genişdir. Ancaq Azərbaycan diasporunun da öz imkanları var. Məsələn, mən eşidəndə çox şad oldum ki, burada artıq fəaliyyətin yeni formaları da tətbiq olunur, etiraz aksiyaları keçirilir. Azərbaycan haqqında həqiqətləri çatdırmaq üçün müvafiq tədbirlər, görüşlər keçirilir. Bütün bunlar Amerika cəmiyyətinin adət etdiyi formalardır. Sadəcə olaraq, gərək biz bunlardan daha da səmərəli istifadə edək.

Azərbaycan haqqında məlumat gərək operativ qaydada sizə çatdırılsın. İndi Azərbaycanda çoxlu yeni kitablar çapdan çıxır. Mən də elmi ictimaiyyət qarşısında müvafiq vəzifələr qoymuşam ki, biz Azərbaycan həqiqətləri barədə kitabları müxtəlif dillərə tərcümə edib yaymalıyıq. Bizim alimlərimiz tarixə aid məsələlərlə bağlı çox gözəl tədqiqatlar aparır, kitablar yazırlar, onlar Azərbaycan dilində çıxır və özümüz oxuyuruq. Amma başqa ölkələrdə heç kim onları oxumur. Biz bütün bu həqiqətləri internet vasitəsilə, tərcümə vasitəsilə dünyaya çatdırmalıyıq.

Erməni təbliğatı nəticəsində indiyə qədər təkcə burada deyil, başqa ölkələrdə də hələ də belə bir yanlış rəy qalır ki, guya Dağlıq Qarabağ tarixi baxımdan erməni torpağıdır. Amma bu, tamamilə yanlış bir məlumatdır. Bu, Azərbaycanın əzəli torpağıdır. Onun bütün toponimləri, tarixi Azərbaycanla bağlıdır. Ermənilərin oraya gəlməsi ancaq XIX-cu əsrin əvvəlində başlamışdır. Onlar başqa ölkələrdən oraya köçürülmüşlər. Bunu əks etdirən, ermənilər tərəfindən 1978-ci ildə ucaldılmış abidə də var idi ki, onu vurdular dağıtdılar. Yəni bu, həqiqətdir. Bunu dünya birliyinə çatdırmaq üçün gərək məlumat olsun, gərək bunu deyən olsun, yazan olsun, tərcümə edən olsun. İndi biz bu işləri görürük. Azərbaycanda yeni ensiklopediyanın nəşri ilə bağlı qərar verilibdir. O ensiklopediya sonra internetə salınacaq, müxtəlif dillərə tərcümə olunacaqdır. Orada Azərbaycanın tarixi, mədəniyyəti, ənənələri, keçmişi haqqında tam, müfəssəl məlumat veriləcəkdir.

Yəni bu sizin fəaliyyətinizə də bir dəstək olacaqdır. Çünki bu məsələləri dünyaya çatdırmaq üçün gərək tarixi əsaslar, sənədlər olsun.

Bir sözlə, bir halda ki, ölkəmiz siyasi cəhətdən bölgədəki mövqelərini möhkəmləndirir, iqtisadi baxımdan Azərbaycan dünyada ən sürətlə inkişaf edən ölkədir, biz ideoloji işlərimizi də gərək mütləq indiki zəmanəyə uyğun şəkildə quraq. Ermənistandan fərqli olaraq, bizim təbliğatımız yalan, böhtan üzərində yox, həqiqətlər üzərində qurulubdur. Bizim təbliğatımız reallığı, tariximizi, bu günümüzü əks etdirir və təbii ki, bu həqiqətlər gərək dünya birliyinə tam geniş şəkildə çatsın. Bu işdə kifayət qədər nailiyyətlər olsa da hələ ki, vəziyyət məni tam şəkildə qane etmir. Biz Azərbaycanda bu sahəyə daha da böyük diqqət göstərməliyik, və şübhəsiz ki, müxtəlif ölkələrdə yaşayan azərbaycanlılar da bu işlərdə fəal olmalıdırlar.

Hesab edirəm ki, bu, çox vacib görüşdür. Siz həmişə hiss etməlisiniz ki, müstəqil Azərbaycan dövləti sizinlədir, sizin Vətəninizdir, doğulduğumuz yerdən asılı olmayaraq, bizim hamımızın Vətənidir. Dünya azərbaycanlılarının II qurultayı bir daha onu göstərdi ki, biz böyük xalqıq. 50 milyonluq Azərbaycan xalqı dünya miqyasında böyük xalqdır, istedadlı xalqdır. Alimlərimiz, yazıçılarımız, şairlərimiz, sərkərdələrimiz bizim tarixi sərvətimizdir. Gərək bunu hamı bilsin. Bütün dünya bunu bilməlidir və biz də gərək bir olaq.

Mən bilmirəm, Amerikada necədir, amma başqa ölkələrdə bizim diasporlarımızın müxtəlif dərnəkləri, yaxud təşkilatları var, ancaq onların arasında əlaqələndirmə işləri o qədər də güclü deyildir. Amma o da əsas amildir ki, biz bir olmalıyıq. Xüsusilə xaricdə yaşayan azərbaycanlılar təşkilatlanma prosesində ən qabaqcıl formaları tətbiq etməlidirlər. Müxtəlif təşkilatlar, cəmiyyətlər, dərnəklər ola bilər, amma onların arasında mütləq əlaqələndirmə olmalıdır. Əlbəttə ki, bunda səfirliklərin çox mühüm rolu var. Çünki səfirliklərdə olan informasiya, imkanlar çox genişdir və fəaliyyət də düşünülmüş proqram çərçivəsində aparılmalıdır.

Yenə də deyirəm, bəzi hallarda diasporların fəaliyyəti epizodik xarakter daşıyır. Yəni hansısa tədbir oldu, keçirildi, orada nəsə deyildi, yaxud da çıxışlar oldu, hansısa başqa aksiyalar keçirildi və ondan sonra bir müddət elə bil ki, ara verilir. Gərək işlər düşünülmüş proqram çərçivəsində aparılsın. Necə ki, dövlət, hökumət birillik, beşillik, onillik çərçivədə, öz konsepsiyasını, fəaliyyət proqramını tərtib edir, eyni şəkildə də bizim ictimai təşkilatlar etməlidir. Hamı bilməlidir ki, nə vaxt, hansı tədbir keçiriləcək, bu tədbirin keçirilməsi üçün nə kimi addımlar atılmalıdır. Bu addımların atılmasına diasporun imkanları çatırmı, ya yox. Əgər çatmırsa, deməli, səfirlik iştirak etməlidir. Səfirliyin də tutaq ki, imkanları məhdud ola bilər. Onda Azərbaycan hökuməti işlərə qoşulmalıdır. Yəni bunlar, çox böyük təşkilati qabiliyyət tələb edən məsələlərdir. Azərbaycan dövləti və hökuməti bu işlərdə fəal iştirak etməyə hazırdır. Sadəcə olaraq, gərək Komitə ilə və hökumət üzvləri ilə, Xarici İşlər Nazirliyi ilə daim güclü əlaqələr olsun, təmaslar möhkəmlənsin ki, biz istəyimizə nail olaq.

Çünki bizim - Azərbaycan dövlətinin, dünyada yaşayan azərbaycanlıların məqsədimiz birdir: dövlətimiz inkişaf etsin, müstəqilliyimiz möhkəmlənsin, əbədi, dönməz olsun, biz heç kimdən asılı olmayaq. Bu gün Azərbaycanın siyasəti məhz bu amillər üzərində qurulubdur. Biz bütün ölkələrlə gözəl münasibətlər yaratmağa çalışırıq. Ancaq o şərtlə ki, bu münasibətlər qarşılıqlı hörmət, ehtiram əsasında qurulsun və Azərbaycanın milli

maraqları təmin olunsun. Ona görə, müstəqil siyasət aparmaq iqtidarında olmaq, əlbəttə, həm böyük cəsarət tələb edir, həm də biz gərək arxayın olaq ki, işlərimiz lazımi səviyyədə dəstəklənir.

Ona görə, məqsədlərimiz birdir: Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsini həll etmək, Azərbaycanın ərazi bütövlüyünü bərpa etmək, ermənilərin etnik təmizləmə siyasətindən əziyyət çəkmiş insanları geri, öz doğma torpaqlarına qaytarmaq; Azərbaycanda sülh, inkişaf olsun, bütün müsbət meyllər daha da möhkəmlənsin, demokratik inkişaf, siyasi, iqtisadi islahatlar daha da sürətlə getsin. Biz bunu istəyirik, siz də bunu istəyirsiniz. Hər bir vətənpərvər azərbaycanlı bunu istəyir. Biz bu istiqamətdə səylərimizi birləşdirməli və vahid mövqedən çıxış etməliyik.

O ölkələrdə ki, təşkilatlar vahid bir konfederasiyada, yaxud federasiyada, ya da konqresdə birləşir, o zaman işlər daha da səmərəli qurulur. Bir təşkilatda birləşmək o demək deyil ki, mövcud olan digər təşkilatlar öz müstəqilliyini itirir, yaxud da kiminsə təsiri altına düşür. Xeyr, bu, sadəcə olaraq, əlaqələndirmə məqsədi daşıyır. Əgər biz bu işləri daha da səmərəli görmək istəyiriksə, onda əlbəttə, əlaqələndirmə işləri də daha sürətlə aparılmalıdır.

Məsələn, burada yaxşı nümunələr var: Azərbaycan Təşkilatları Federasiyası, yaxud Konqresi, yaxud da Əlaqələndirmə Mərkəzi. Əgər bu şəkildə formalaşarsa, bunun təsiri daha da güclü olacaqdır. Əlbəttə ki, bu böyük təşkilat müvafiq ictimai təşkilatlara, dövlət qurumlarına daha da asanlıqla yol tapacaqdır, onunla daha da çox hesablaşacaqlar. Amma görəndə ki, ayrı-ayrı təşkilatlar var, hərəsi haradasa fəaliyyət göstərir, öz aralarında əlaqələr o qədər də yoxdur, təbii ki, münasibət də buna uyğun şəkildə olacaqdır.

Bilirsiniz, müstəqilliyimiz bərpa ediləndən sonra, ondan əvvəlki dövrlərdə Azərbaycanda müxtəlif siyasi proseslər gedirdi. Xaricdə yaşayan azərbaycanlılar 1940-50-ci illərdə müəyyən formada təşkilatlanmışdılar, müxtəlif ölkələrdə diasporlar, təşkilatlar fəaliyyət göstərirdi. Əlbəttə, bu fəaliyyətin əsas məqsədi o idi ki, Azərbaycan müstəqil olsun, müstəqil ölkə kimi yaşasın və xalqımız öz müqəddəratını özü müəyyən etsin.

1991-ci ildə Azərbaycan müstəqil ölkə oldu və o vaxtdan indiyə qədər bizim müstəqilliyimiz möhkəmlənir və güclənir. Yəni o illərdə gündəlikdə olan əsas məramlar, proqramlar 15-16 il bundan əvvəl həyatda öz əksini tapdı. Ona görə, təbii ki, indi fəaliyyətin yeni formaları olmalıdır. Bizim gündəliyimizdə duran məsələlər nədir? Yenə deyirəm, həm Azərbaycan dövlətinin, həm də xaricdə yaşayan azərbaycanlıların məqsədi birdir: ölkəmiz daha da müstəqil olsun, öz siyasətini inamla aparsın və əsas azadlıqlar tam şəkildə təmin edilsin, qanunun aliliyi bərqərar olunsun və müasir, mütərəqqi, hüquqi dövlət formalaşsın. Əminəm ki, bu, bizim hamımızın məqsədidir.

Şübhəsiz ki, fəaliyyət göstərən təşkilatların da müxtəlif istiqamətləri, müxtəlif maraq dairələri ola bilər. Ancaq bununla yanaşı, biz gərək ümumi bir məqsəd, amal əsasında öz səylərimizi birləşdirək. Bəzi təşkilatlar siyasi prinsip əsasında fəaliyyət göstərir. Bəlkə də bu, hansısa mərhələdə labüd idi. Ancaq indiki mərhələdə xüsusilə xaricdə yaşayan azərbaycanlılar siyasi prinsiplərə görə bölünməməlidirlər. Azərbaycanın siyasəti Azərbaycanda həll olunur. Azərbaycanda gedən siyasi proseslər müsbət məcrada inkişaf edir və bu baxımdan Azərbaycan artıq möhkəmlənmiş bir ölkədir. Şübhəsiz ki, hər bir insanın öz siyasi baxışları, əqidəsi, idealları ola bilər. Bu da təbiidir və azad cəmiyyət

üçün xas olan məsələlərdir. Ancaq bununla yanaşı, siyasi baxışlara baxmayaraq, ümumi məsələlərdə biz hamımız birləşməliyik. Çünki ölkənin, millətin maraqları, dəyərləri bütün siyasi proseslərdən üstün olmalıdır, xüsusilə xaricdə.

Məsələn, mən təəssüf edirəm ki, bəzi siyasi dairələrin nümayəndələri xaricdə olarkən Azərbaycan haqqında həqiqətdən çox uzaq olan mənfi informasiyalar yaymaqla ölkəmizin imicinə xələl vururlar. Biz öz daxili məsələlərimizi Azərbaycanda həll etməliyik. Azərbaycanda siyasi mübarizə də aparılmalıdır və aparılır, bəzi hallarda çox kobud formada olur. Yəqin ki, zaman keçdikcə bu, həll olunacaq və Azərbaycanda siyasi proseslər mədəni müstəviyə keçəcəkdir. Ancaq biz xaricdə buna heç cür imkan verə bilmərik ki, siyasi, yaxud ictimai əsaslara görə ölkənin maraqlarına xeyir gətirməyən fikir ayrılığı, məqamlar olsun.

Mən şübhə etmirəm, hamımız bu fikirlə şərikik ki, xaricdə Azərbaycanın məsələsi, Azərbaycan mövzusu daim çox qabarıq şəkildə özünü göstərməlidir. Biz bu təbliğatda, bu işlərdə çox fəal olmalıyıq. Gözləməməliyik ki, kimsə bizə hücum edəcək, biz də onun cavabını verəcəyik. Biz özümüz hücum etməliyik. Bizim silahımız sözümüzdür. Biz heç kimin torpağını zəbt etməmişik, heç kimə qarşı etnik təmizləmə siyasəti aparmamışıq. Heç kimin torpağında gözümüz yoxdur. Biz bu münaqişədə zərər çəkən tərəfik. Bizim silahımız hələlik sözdür, istəyirik ki, bu silahdan maksimum dərəcədə istifadə edək. Görsək ki, artıq bu, işləmir, sülh, barışıq yolu, danışıqlar yolu səmərə vermir, o zaman təbii ki, siyasətə yenidən baxılacaqdır.

Ancaq bilirsiniz, bu məsələlər bir-biri ilə çox bağlıdır. Azərbaycanın sabitliyi, ölkədə gedən iqtisadi islahatlar, bizim bölgədəki nüfuzumuz, rolumuz, Azərbaycanla bağlı olan nəhəng enerji layihələri, Amerika ilə strateji tərəfdaşlıq münasibətlərimiz, Azərbaycanın Avratlantik məkanına inteqrasiya meylləri və səyləri - bütün bunlar Azərbaycanın gələcəyini müəyyən edən amillərdir. Azərbaycan diasporunun bütün bu işlərdə çox fəal rolu olmalıdır. Yəni buna böyük ehtiyac var. Çünki bir də deyirəm ki, siz bu ölkənin vətəndaşlarısınız, vətəndaş kimi bütün hüquqlara maliksiniz. Sizin dediyiniz söz, hansısa məsələyə sizin baxışınız bu ölkənin rəsmiləri üçün bəlkə də daha çox önəm daşıyır, nəinki Azərbaycandan gələn hansısa rəsmi bir bəyanat və yaxud da başqa məlumat.

[redacted]

Amerika Azərbaycanlıları Cəmiyyətinin sədri Tomris Azəri, Amerika-Azərbaycan Şurasının prezidenti Ceyhun Mollazadə, Dünya Azərbaycanlıları Konqresinin Amerika təmsilçisi Rza Seleşur, ABŞ-da fəaliyyət göstərən "GünAz" TV-nin rəhbəri Əhməd Obalı, Amerika Azərbaycanlıları Cəmiyyətinin üzvü Leyla Rzaquliyeva görüşdə çıxış edərək fikir və mülahizələrini bölüşdülər. Onlar Azərbaycan Prezidentinin Vaşinqtona səfəri çərçivəsində keçirilən bu görüşü yüksək qiymətləndirdilər, diasporun problemlərindən və gələcək planlarından danışdılar, Prezidentin dediyi fikirlərin onlar üçün əsas fəaliyyət proqramı olacağını bildirdilər.

TOMRİS AZƏRİ: Amerika Azərbaycanlıları Cəmiyyəti kimi Sizə dayaq olacağımıza, Azərbaycanın adını burada yüksəltmək üçün əlimizdən gələn işləri görəcəyimizə söz veririk.

CEYHUN MOLLAZADƏ: Cənab Prezident, biz əminik ki, bu səfəriniz Amerika-Azərbaycan münasibətlərinə yeni bir təkan verəcək, bu əlaqələr yeni, önəmli bir mərhələyə çıxacaqdır. Biz, burada yaşayan azərbaycanlılar Sizi salamlayırıq. Bakıda keçirilmiş qurultayda da iştirak etmişik. O qurultay bizi çox ruhlandırıb və hesab edirik ki, həm bu görüş, həm də qurultay bizim burada apardığımız fəaliyyəti daha da artırmağa sövq edəcəkdir.

PREZİDENT İLHAM ƏLİYEV "U.S. NEWS & WORLD REPORT" JURNALINA MÜSAHİBƏ VERMİŞDİR

Azərbaycan Prezidenti İlham Əliyev aprelin 27-də Vaşinqtonda, onun üçün ayrılmış iqamətgahda ABŞ-ın ən nüfuzlu nəşrlərindən olan "U.S. News & World Report" həftəlik jurnalına müsahibə vermişdir.

- Bakı-Tbilisi-Ceyhan boru kəmərinin inşasının başa çatması dünyanın neft və qaz bazarlarına necə təsir göstərəcəkdir?

- Bu boru kəmərinin inşasının başa çatması ilə ölkəmiz daha çox neft hasil edərək, onu dünya bazarlarına çıxarmaq imkanı qazanacaqdır. Boru kəməri 5-6 il bundan öncə inşa edilməyə başlayanda, neftin qiyməti bugünkü kimi yüksək deyildi. İndi bu kəmər dünyanın enerji təhlükəsizliyi baxımından daha çox önəm daşımağa başlayır. Bu, nefti Xəzər dənizindən Aralıq dənizinə çatdıracaq və əvvəllər mövcud olmamış yeni bir xətdir.

- Boru kəmərinin bazarlara təsirinin kəmiyyət göstəricisi barədə nə isə deyə bilərsinizmi?

- Boru kəməri vasitəsilə 2008-ci ildə gündə ən azı bir milyon barrel neft nəql ediləcəkdir. Gələcəkdə bu rəqəm daha da artırıla bilər, bu, hasilatın səviyyəsindən asılı olacaqdır. Onun nəhəng potensialı var.

- Bəzilərinin "neft fəlakəti" adlandırdıqları vəziyyəti necə adlayırsınız?

- Biz gələcəkdə neftdən və neftin qiymətindən asılı olmamaq, neft gəlirlərindən istifadə etməklə güclü iqtisadiyyat qurmaq əzmindəyik. Buna nail olmaq üçün neft gəlirlərinin toplanması və xərclənməsi sahəsində yüksək səviyyədə şəffaflıq təmin olunmalıdır. Azərbaycan əsas məqsədi şəffaflığın təmin edilməsi olan Hasilat Sənayelərinin Şəffaflığı Təşəbbüsünün həyata keçirilməsində aparıcı ölkədir.

- Azərbaycanın dünyəvi, demokratik ölkə kimi inkişafını necə görürsünüz? Əhalisinin əksər hissəsi şiə təriqətli olan dünyəvi bir ölkə kimi siz İran üçün nümunə ola bilərsinizmi?

- Gördüyümüz və planlaşdırdığımız işlərdən nümunə kimi istifadə edilməsi bizim məqsədimiz deyildir. Bütün bunlar yalnız Azərbaycan xalqı, ölkəmizin inkişafı üçün edilir. Azərbaycan təkcə Konstitusiyasına görə deyil, öz həyat tərzinə görə də dünyəvi dövlətdir. Burada müxtəlif millətlərə və dini təriqətlərə mənsub olan insanlar sülh və azadlıq şəraitində yaşayırlar. Bu baxımdan ölkəmiz çox yaxşı nümunə ola bilər. Azərbaycanın əhalisinin əksər hissəsini müsəlmanlar təşkil edir, lakin eyni zamanda, burada çoxsaylı xristian və yəhudi icmaları da yaşayır.

- Gələcəkdə ölkənizdə daha hansı demokratik islahatların həyata keçirilməsi gözlənilir?

-Son 5 il ərzində Azərbaycan qanunvericiliyinin böyük bir hissəsini Avropa ölkələrinin standartlarına uyğunlaşdırmışdır. Ölkəmizdə bütün əsas siyasi azadlıqlar təmin olunur.

siyasi təsisatlar getdikcə güclənir. Bununla yanaşı, güclü iqtisadi islahatlar da həyata keçirilməlidir. İnsanlar yoxsul olanda demokratik proseslər barədə deyil, gündəlik ehtiyacları haqqında düşünürlər. Keçən il Azərbaycanda ümumi daxili məhsulun artımı 26 faiz olmuşdur ki, bu da dünyada ən yüksək göstəricidir.

- Ümumi daxili məhsulun artımı, əsasən neft sektorunda müşahidə olunmuşdur?

- 12 faiz qeyri-neft sektorunda, 14 faiz isə neft sektorunda olmuşdur. İndi biz iqtisadiyyatımızı çoxşaxəli etməyə çalışırıq. Neft nə vaxtsa tükənəcəkdir. Buna görə də ölkənin uzunmüddətli inkişafı neftdən asılı olmamalıdır.

- Siz bildirmisiniz ki, ABŞ ilə İran arasındakı böhran diplomatik yolla həll olunmalıdır. Lakin əgər ABŞ İrana qarşı hərbi qüvvədən istifadə etmək qərarına gələrsə, Azərbaycanın buna reaksiyası necə olacaqdır?

- Biz hələ də ümid edirik ki, məsələ diplomatik yolla həll olunacaqdır. Digər seçim regionda fəlakətə səbəb ola, əməkdaşlıq və inkişafla bağlı bütün müsbət meyllərə və perspektivlərə zərər vura bilər. On ildən artıqdır ki, Azərbaycanın ərazisinin bir hissəsi Ermənistanın işğalı altındadır. Bu müddət ərzində aparılmış danışıqların bir nəticə verməməsinə baxmayaraq, Qərb ölkələri daim münaqişənin dinc yolla həllini tövsiyə edirlər. Buna görə biz də hesab edirik ki, bu məsələdə də mümkün qədər təmkinli olmaq, dinc həll yolundan, diplomatik səylərdən istifadə etmək lazımdır.

- Dağlıq Qarabağ münaqişəsinin həll olunacağına ümidləriniz böyükdürmü?

- Bir tərəfdən, 12 ildir ki, atəşkəs rejimi saxlanılır. Müxtəlif dövrlərdə aparılmış danışıqlar heç bir nəticə verməmişdir. Bu isə nikbin olmağa o qədər də imkan vermir. Buna baxmayaraq, digər tərəfdən, ABŞ, Fransa və Rusiya kimi vasitəçilərin son dövrlərdəki fəaliyyəti münaqişənin həlli ilə bağlı ümid yaradır. Münaqişəni həll etmək üçün tərəflər beynəlxalq hüquq normaları və prinsiplərinə əsaslanmalıdırlar. Azərbaycanın işğal edilmiş əraziləri heç bir qeyd-şərt olmadan geri qaytarılmalıdır. Ermənistan rəhbərliyinin həyata keçirdiyi etnik təmizləmə siyasətindən əziyyət çəkən bir milyondan artıq azərbaycanlı öz doğma yurdlarına qayıtmaq hüququna malik olmalıdır.

- Keçən il ABŞ-ın Özbəkistandakı K2 hərbi hava bazasını itirməsi Azərbaycanın terrorizmlə mübarizədə rolunu necə dəyişə bilər?

- ABŞ öz müttəfiqlərini antiterror əməliyyatına dəvət edən kimi Azərbaycan bu əməliyyata qoşuldu. Biz indi də bu sahədə tərəfdaşlıq edirik. Azərbaycan əsgərləri ABŞ əsgərləri ilə birlikdə Kosovo, İraq və Əfqanıstanda xidmət edirlər. Bu siyasət qətiyyən dəyişməmişdir. ABŞ-ın regiondakı müttəfiqi kimi Azərbaycanın rolu mühümdür və bu rolun əhəmiyyəti baş verə biləcək hallardan asılı olaraq dəyişə bilər. Lakin bunun əsasında bizim siyasətimiz dəyişə bilməz.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ ABŞ PREZİDENTİ CORC BUŞUN GÖRÜŞÜ

Aprelin 28-də Vaşinqtonda, Ağ evdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Amerika Birləşmiş Ştatlarının Prezidenti Corc Buşun görüşü olmuşdur.

ABŞ Prezidenti Azərbaycan dövlətinin başçısını böyük hörmət və ehtiramla qarşıladı.

Səmimilik və dostluq şəraitində keçən görüşdə ölkələrimiz arasında ikitərəfli münasibətlər, Bakı-Tbilisi-Ceyhan layihəsinin həyata keçirilməsi vəziyyəti, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə ədalətli həlli, beynəlxalq terrorizmə qarşı birgə mübarizə, eləcə də, regionda və beynəlxalq aləmdə baş verən proseslər haqqında geniş fikir mübadiləsi aparıldı.

Görüşdən sonra dövlət başçıları mətbuat üçün bəyanatlarla çıxış etdilər.

ABŞ PREZİDENTİ CORC BUŞUN BƏYANATI

- Cənab Prezident, xoş gəlmisiniz!

Olduqca maraqlı səfər elə indicə başa çatmaq üzrədir. Biz zəruri məsələlər haqqında fikir mübadiləsi apardıq və vurğuladıq ki, belə müasir müsəlman ölkəsi öz vətəndaşlarının qayğısına qalır və bilir ki, demokratiya gələcəyin əsasını təşkil edir. Cənab Prezident, mən Sizin rəhbərliyinizi yüksək dəyərləndirirəm.

Təbii ki, biz İran haqqında danışdıq. Mən cənab Prezidenti əmin etdim ki, bu problemi diplomatik və dinc yolla həll etmək arzusundayam. Mən onun hökumətinin İraqda yeni demokratiyanın dəstəklənməsi üçün qoşun göndərdiyinə görə çox minnətdaram. Mən bu gün səfirimiz və general Keysi ilə videokonfrans vasitəsilə keçirdiyim görüş haqqında məlumat verdim, çünki orada əldə edilən irəliləyiş barədə öz müttəfiqimizə məlumat verilməsini olduqca vacib hesab edirəm. Mən onunla öz ümidimi bölüşərək qeyd etdim ki, milli birlik hökuməti sülh və demokratiya kimi məqsədimizə nail olmaqda bizə yardım edəcəkdir.

Əlbəttə ki, biz enerji məsələləri haqqında danışıqlar apardıq. Mən bu dünyada istədiyimiz məqsədə - enerji təhlükəsizliyinə nail olmaqda Prezidentin və onun hökumətinin mövqeyinə görə minnətdaram. Azərbaycanın oynayacağı rol olduqca vacibdir. Biz daxili siyasətə, qonşu ölkələrə və həmçinin Ermənistanla olan münasibətlərə aid məsələləri müzakirə etdik.

Mən bu cür müdrik müzakirəni çox yüksək dəyərləndirirəm. Mənimlə fikirləri bölüşdüyünüzə görə minnətdaram. Bizimlə birgə olduğunuza görə minnətdaram. Bir daha "Xoş gəldiniz!" deyirəm.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN BƏYANATI

Çox sağ olun, cənab Prezident. Dəvətə görə çox minnətdaram. Vaşinqtonda olmağıma və ikitərəfli münasibətlərə dair məsələləri Sizinlə müzakirə etmək imkanına görə minnətdaram. Əminəm ki, bizim strateji tərəfdaşlıq münasibətlərimiz gələcəkdə möhkəmlənəcəkdir.

Biz ikitərəfli münasibətlərin bütün aspektlərini əhatə etdik. Biz regionda enerji təhlükəsizliyi məsələlərinin təşviq olunmasında Birləşmiş Ştatların dəstəyinə görə, Xəzər dənizində neft və qaz yataqlarının işlənilməsində və enerji daşıyıcılarının beynəlxalq bazarlara çatdırılmasına imkan verən möhkəm nəqletmə infrastrukturunun yaradılmasında göstərilmiş köməyə görə minnətdarıq.

Biz terrorçuluğa qarşı mübarizədə müttəfiq ölkələrik. Biz ilk günlərdən Birləşmiş Ştat-

larla birgə dünyanın müxtəlif yerlərində çiyin-çiyinə olmuşuq və regionda sülhün və sabitliyin bərqərar olunmasına töhfəmizi davam etdirəcəyik.

Əlbəttə, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli də müzakirələrimizin əsas mövzusunu təşkil etmişdir. Mən cənab Prezidentə danışıqların son vəziyyəti haqqında məlumat verdim və ümidvar olduğumu bildirdim ki, münaqişənin dinc yolla həlli baş tutacaq və bu, bütün regionda sülhün və sabitliyin bərqərar olmasına xidmət edəcəkdir.

Ümumiyyətlə, demək istəyirəm ki, mən səfərimdən çox razıyam və Azərbaycanın gələcəkdə müasir dünyəvi, demokratik ölkə kimi inkişafında bunu mühüm hesab edirəm. Bizim eyni dəyərlərimiz var. Biz siyasi proseslərin, cəmiyyətimizin demokratikləşməsi prosesinin təşviq olunmasında Birləşmiş Ştatların göstərdiyi yardıma görə minnətdarıq və gələcəkdə bu əməkdaşlığın davam etdirilməsinə çox sadiqik.

Çox sağ olun, cənab Prezident.

[redacted]

Prezident CORC BUŞ: Son sözü deyim. Mən cənab Prezidenti və Birinci xanımı onların qızının həftənin sonunda olacaq toy məclisi münasibətilə təbrik etmək istəyirəm. Toy mərasiminə hazırlığın getdiyi vaxtda cənab Prezidentin burada olması əsil qəhrəmanlıqdır. Biz Sizə və Birinci xanıma uğurlar arzulayırıq və ən başlıcası isə, qızınıza böyük səadət diləyirik.

[redacted]

Prezident İLHAM ƏLİYEV: Sağ olun, cənab Prezident.

Prezident CORC BUŞ: Sağ olun.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV JURNALİSTLƏRİN SUALLARINA CAVAB VERMİŞDİR

Azərbaycan Prezidenti İlham Əliyev aprelin 28-də ABŞ Prezidenti Corc Buş ilə görüşdən sonra Ağ evin qarşısında jurnalistlərin suallarına cavab vermişdir.

SUAL: Cənab Prezident, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı müzakirələr oldumu?

CAVAB: Prezident Buşla görüşüm zamanı ikitərəfli münasibətlərə aid məsələləri müzakirə etdik. Biz müxtəlif sahələrdə olan əməkdaşlığımızı müzakirə etdik. Xüsusən də siyasi və iqtisadi islahatlar sahəsinə, enerji təhlükəsizliyi və nəqliyyata, terrorçuluqla mübarizəmizə aid məsələləri və ümumiyyətlə, münasibətlərimizin ümumi gedişatını müzakirə etdik. Bizim münasibətlərimiz dostların, tərəfdaşların münasibətləridir və bizim üçün strateji əhəmiyyət daşıyır və ümumiyyətlə, əlaqələrimizin inkişafı üçün vacibdir. Mən müzakirələrdən çox razıyam.

Əlbəttə, biz Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi məsələsini müzakirə etdik. Dünyanın aparıcı ölkəsi və ATƏT-in Minsk qrupunun həmsədrlərindən biri kimi Birləşmiş Ştatlar bu məsələnin dinc yolla həll olunmasında çox vacib rol oynayır. Biz Birləşmiş Ştatların göstərdiyi səyləri yüksək qiymətləndiririk. Bu səylər sayəsində münaqişə beynəlxalq hüququn norma və prinsipləri əsasında ədalətli həllini tapmalıdır.

Mən hesab edirəm ki, Birləşmiş Ştatlara səfərim ikitərəfli münasibətlərimizin gələcək inkişafı üçün çox mühüm olacaq və ümumiyyətlə, regional inkişaf üçün əhəmiyyətli olacaqdır.

SUAL: Cənab Prezident, İran haqqında danışdınızmı?

CAVAB: Əlbəttə, biz regional təhlükəsizlik məsələlərini müzakirə etdik. Eyni zamanda, qonşu ölkələrlə münasibətlərimizi müzakirə etdik. Çünki biz elə bir regionda yaşayırıq ki, Azərbaycanın qonşu ölkələrlə münasibətləri olduqca vacibdir. Biz bu məsələləri müzakirə etdik və bundan çox razıyıq.

SUAL: Bəs Rusiya haqqında, digər qonşular haqqında danışdınızmı?

CAVAB: O qədər çox yox. Biz, əsasən, ikitərəfli münasibətlərə aid məsələlər haqqında danışdıq. Çünki bizim uzun müddətdir münasibətlərimiz var. Bu münasibətlər 1990-cı illərdən başlanmışdır və əsasən, enerji, nəqliyyat sahələrinə aiddir.

SUAL: Cənab Prezident, enerji inkişafı sahəsində Birləşmiş Ştatların dəstəyi haqqında danışdınızmı?

CAVAB: Bəli, təbii ki, Xəzər dənizində Azərbaycanın enerji inkişafı proqramlarında Birləşmiş Ştatların oynadığı vacib rol tamamilə aydındır və həlledicidir. Artıq Azərbaycan güclü nəqliyyat infrastrukturuna malikdir və bu, Birləşmiş Ştatların dəstəyi sayəsində mümkün olmuşdur.

SUAL: Cənab Prezident, İranla bağlı gərginliyin aradan qaldırılmasına dair ABŞ-ın və Azərbaycanın səylərinin əlaqələndirilməsi məsələsi müzakirə olundumu? Bu gərginliyin aradan qaldırılmasına yönəldilmiş hansısa birgə fəaliyyət planı işlənib hazırlandımı?

CAVAB: Burada birgə planlar haqqında söhbət olmadı. Biz yalnız vəziyyət barədə fikir mübadiləsi etdik. Əlbəttə, vəziyyət narahatlıq doğurur və təbii ki, İranın qonşusu kimi Azərbaycan müəyyən narahatlıq keçirir. Ancaq məsələnin yalnız diplomatik yolla həll edilməsinin zəruriliyi barədə ümumi fikirdə olmağımız ümid verir ki, hər şey dincliklə həllini tapacaqdır.

SUAL: Cənab Prezident, Dağlıq Qarabağ məsələsinin müzakirəsi ilə əlaqədar hansı açıqlamalar verərdiniz?

CAVAB: Münaqişənin nizama salınması ilə əlaqədar geniş söhbət aparılmışdır. Mən cənab Prezidentə danışıqların son mərhələsinin mahiyyətini açıqladım, öz məlumatlarımı verdim. Azərbaycanın mövqeyini bir daha ifadə etdim. Bizim mövqeyimiz dəyişməz olaraq qalır. Bu mövqe bu gün mənim tərəfimdən bir daha ifadə olundu. Bu münaqişə yalnız və yalnız beynəlxalq hüquq normaları əsasında öz həllini tapa bilər. Azərbaycanın ərazi bütövlüyü danışıqlar mövzusu deyil və olmayacaqdır. Ermənistanın işğalçı qüvvələri Azərbaycanın zəbt edilmiş torpaqlarından çıxmalıdır. Dağlıq Qarabağda yaşayan ermənilərin və oraya qayıdacaq azərbaycanlıların təhlükəsizliyinə zəmanət də verilməlidir. Eyni zamanda, oraya sülhməramlı qüvvələrin gətirilməsi məsələsi də müzakirə oluna bilər. Bütövlükdə, bizim mövqeyimizdə heç bir dəyişiklik yoxdur. Amerika Prezidenti öz mövqeyini bildirdi. O bildirdi ki, Amerika çalışır münaqişə sülh yolu ilə həll olunsun və tərəflər razılığa gəlsinlər.

SUAL: Cənab Prezident, Amerika Birləşmiş Ştatlarının Azərbaycana hərbi yardımı artırması gözlənilirmi?

CAVAB: Bilirsiniz ki, biz bu sahədə çox ciddi əməkdaşlıq edirik. Son illər ərzində hərbi sahədə əməkdaşlığımız uğurla inkişaf edir. Amerikanın müdafiə nazirinin, digər vəzifəli şəxslərinin Azərbaycana səfərləri bu əməkdaşlığın inkişafına böyük kömək göstərir. Biz bu məsələyə çox böyük diqqət yetiririk. Hesab edirik ki, Amerika ilə münasibətlərimiz çoxşaxəli və hərtərəfli olmalıdır, biz iqtisadi, siyasi sahələrdə, energetika sahəsində, eyni zamanda, hərbi sahədə əməkdaşlığın inkişafında maraqlıyıq. Qarşılıqlı maraq doğuran bütün məsələlər açıq şəkildə müzakirə olunur. Biz tərəfdaşıq, Amerika ilə bir alyansdayıq və bu mövqedə qalacağıq.

SUAL: Cənab Prezident, Ermənistanın xarici işlər naziri bəyan edib ki, sizin bu səfərinizdən sonra Ermənistan Prezidenti Robert Koçaryan da Amerikaya səfər edəcəkdir. Sizcə, həmin səfərin reallaşması Dağlıq Qarabağ münaqişəsi ilə bağlı danışıqlar prosesinə hansısa təsir göstərə bilərmi?

CAVAB: Mən bu barədə bir şey deyə bilmərəm. Mənim Amerikaya səfərim bilavasitə Qarabağ probleminin nizamlanması ilə əlaqədar deyildi. Bu səfərin səbəbi tam başqadır. Səfər ikitərəfli münasibətlərin inkişafına yönəldilibdir. Qarabağ mövzusu səfərin, aparılan danışıqların sadəcə olaraq tərkib hissəsi idi. Yəni bə səfərin mahiyyəti, səbəbləri tam başqadır. Bizim strateji tərəfdaşlığımız Amerikanı Azərbaycanla birləşdirən siyasi, iqtisadi məsələlər, enerji təhlükəsizliyi, regionda sülhün bərqərar olması, təhlükəsizlik tədbirlərinin gücləndirilməsi - məsələlərin geniş spektrinin müzakirəsi onu göstərir ki, aramızda çox yüksək əməkdaşlıq, qarşılıqlı anlaşma var. Beləliklə, bu bizə ümid verir ki, gələcəkdə strateji tərəfdaşlıq daha da güclənəcəkdir. O ki qaldı, Ermənistan Prezidentinin harasa səfərlərinə, bu məsələ məni maraqlandırmır.

SUAL: Cənab Prezident, tərəflər *regionda sülhün və demokratiyanın* bərqərar olması ilə bağlı hansısa öhdəliklər götürdülərmi?

CAVAB: Bilirsiniz, mən buraya öhdəlik götürmək üçün gəlməmişəm. Mən tam hüquqlu tərəfdaş kimi gəlmişəm, dost kimi gəlmişəm. Əlbəttə ki, söhbət zamanı bölgədə gedən proseslər, o cümlədən demokratik islahatlar müzakirə olundu. Bu baxımdan da, bu sahədə də bizim aramızda fikir ayrılığı yoxdur. Amerika çalışır ki, bölgədə demokratiya daha da geniş vüsət alsın, yayılsın. Bunu biz də istəyirik. Biz də istəyirik ki, bölgədə, o cümlədən Azərbaycanda demokratik proseslər daha da sürətlə getsin. Siyasi münasibətlər mədəni müstəvidə həll olunsun. Bu, əlbəttə, bizim hərtərəfli inkişafımıza böyük dəstək olacaq və bölgədə sülhün, təhlükəsizliyin təmin edilməsində də rol oynayacaqdır. Əlbəttə, bu məsələlər müzakirə olundu və bunlarla bağlı bizim aramızda heç bir fikir ayrılığı yoxdur.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AĞ EVİN FƏXRİ QONAQLAR KİTABINA ÜRƏK SÖZLƏRİNİ YAZMIŞDIR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 28-də Vaşinqtonda Amerika Birləşmiş Ştatlarının Prezidenti Corc Buş ilə görüşü zamanı Ağ evin Fəxri qonaqlar kitabına ürək sözlərini yazmışdır:

"Mən Birləşmiş Ştatlara səfərimdən və ikitərəfli münasibətləri müzakirə etməkdən çox məmnunam. Birləşmiş Ştatlar ilə Azərbaycan arasındakı strateji tərəfdaşlıq ölkələrimizin və xalqlarımızın rifahına xidmət edir və regionumuzda təhlükəsizlik tədbirlərinin

möhkəmləndirilməsində mühüm rol oynayır.

Biz ölkələrimiz arasındakı strateji tərəfdaşlıq münasibətlərini yüksək dəyərləndiririk və ümidvarıq ki, onlar gələcəkdə daha da möhkəmlənəcəkdir.

Mən Birləşmiş Ştatların xalqına sülh, səadət və tərəqqi arzulayıram.

28 aprel 2006-cı il".

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ABŞ-IN VİTSE-PREZİDENTİ RİÇARD ÇEYNİ İLƏ GÖRÜŞÜ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Vaşinqtona səfəri çərçivəsində aprelin 28-də Amerika Birləşmiş Ştatlarının vitse-prezidenti Riçard Çeyni ilə görüşmüşdür.

Cənab Çeyninin iqamətgahında keçirilən görüşdə hər iki ölkəni maraqlandıran çoxsaylı məsələlər, xüsusilə də beynəlxalq antiterror koalisiyasında Azərbaycanın fəal iştirakı, regional təhlükəsizlik, Bakı-Tbilisi-Ceyhan layihəsinin başa çatdırılması, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli barədə fikir mübadiləsi aparıldı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ABŞ-IN MÜDAFİƏ NAZİRİ DONALD RAMSFELD İLƏ GÖRÜŞÜ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 28-də Vaşinqtonda ABŞ-ın müdafiə naziri Donald Ramsfeld ilə görüşmüşdür.

ABŞ-ın müdafiə naziri dövlətimizin başçısının Amerika Birləşmiş Ştatlarına səfərini yüksək qiymətləndirdi və bunun ikitərəfli münasibətlərin inkişafı baxımından əhəmiyyətli olduğunu vurğuladı. O, müxtəlif dövrlərdə Azərbaycana etdiyi səfərləri xatırlatdı, ölkələrimiz arasında əlaqələrin inkişafından, o cümlədən hərbi sahədə əməkdaşlıqdan məmnunluğunu bildirdi, Azərbaycanın antiterror koalisiyasında fəaliyyətini yüksək dəyərləndirdi.

Azərbaycan Prezidenti İlham Əliyev ölkələrimiz arasında müxtəlif sahələrdə, o cümlədən enerji sahəsində əməkdaşlığın inkişaf etdiyini və genişləndiyini söylədi.

Donald Ramsfeld Azərbaycan sülhməramlılarının dünyanın müxtəlif bölgələrində təhlükəsizliyin təmin olunmasında iştirakını, ölkəmizin Fərdi tərəfdaşlığın fəaliyyət proqramı çərçivəsində NATO ilə fəal əməkdaşlığını xüsusi vurğuladı.

Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı aparılan danışıqların hazırkı vəziyyəti, regional əməkdaşlıq və qarşılıqlı maraq doğuran digər məsələlər barədə fikir mübadiləsi edildi.

SƏFƏR BAŞA ÇATDI

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 28-də ABŞ-a səfərini başa çatdıraraq Vətənə yola düşdü.

MİLLİ MƏCLİS SƏDRİNİN BAŞÇILIĞI İLƏ PARLAMENT NÜMAYƏNDƏ HEYƏTİNİN RUSİYA FEDERASİYASINA SƏFƏRİ

Milli Məclisin sədri Oqtay Əsədovun başçılığı ilə parlament nümayəndə heyəti Rusiyada Dövlət Dumasının təsis olunmasının 100 illiyi münasibətilə keçiriləcək yubiley tədbirlərində, beynəlxalq konfransda və MDB Parlamentlərarası Assambleya Şurasının iclasında iştirak etmək üçün aprelin 26-da Sankt-Peterburq şəhərinə gəlmişdir.

Aprelin 27-də Oqtay Əsədov Rusiya Dövlət Dumasının təsis olunmasının 100 illiyi münasibətilə Tavriya sarayında xatirə lövhəsinin və sərginin açılışında iştirak etmişdir.

Milli Məclisin sədri həmin gün Avropa Şurası Parlament Assambleyasının sədri Rene van der Lindenlə görüşmüşdür. Söhbət zamanı Azərbaycanla, o cümlədən Milli Məclislə AŞPA arasındakı əlaqələrin indiki mərhələsindən, bu əlaqələrin daha da genişlənməsi və dərinləşməsi istiqamətində görülən işlərdən danışılmışdır. Görüşdə mayın 13-də Milli Məclisə keçiriləcək təkrar seçkilər və bu seçkilərdə çoxsaylı beynəlxalq müşahidəçilərin iştirakı məsələləri də müzakirə olunmuş, qarşılıqlı maraq doğuran bir sıra digər məsələlər barəsində fikir mübadiləsi aparılmışdır.

Həmin gün Tavriya sarayında Dövlət Dumasının təntənəli iclası keçirilmişdir. Dövlət Dumasının sədri Boris Qrızlov çıxış edərək, Rusiyada parlamentin tarixindən, parlamentarizmin inkişaf mərhələlərindən və Dövlət Dumasının bugünkü əlaqələrindən danışmışdır. İclasda Dövlət Dumasının təsis olunmasının 100 illiyi münasibətilə dünya ölkələrinin parlamentlərinə müraciətin mətni oxunmuşdur.

Yubiley iclasında çıxış edən Milli Məclisin sədri Oqtay Əsədov xatırlatmışdır ki, birinci Dövlət Dumasına Azərbaycanın Bakı, Gəncə və İrəvan quberniyalarından altı deputat seçilmişdi. Dumada Əlimərdan bəy Topçubaşovun sədrliyi ilə 36 deputatdan ibarət müsəlman fraksiyası yaradılmışdı. Həmin fraksiyanın proqramı isə ikinci Dövlət Dumasında qəbul olunmuş, 1907-ci ildə Peterburqda kitabça halında çap edilmişdi. Milli Məclisin sədri parlamentarizmin inkişafından və müasir mərhələdə onun mühüm rolundan da bəhs edərək, beynəlxalq əməkdaşlığın inkişafında milli parlamentlərin artmaqda olan rolunu xüsusi vurğulamışdır. O, parlamentlərarası əlaqələrə toxunaraq, bu sahədə fəaliyyət göstərən beynəlxalq qurumların əhəmiyyətini qeyd etmişdir. Oqtay Əsədov insan hüquqları və azadlıqlarının təmin olunmasında, hüquqi, demokratik dövlət quruculuğunda, müasir dünyanın bir sıra problemlərinin və digər qlobal məsələlərin həllində parlamentlərin rolundan da danışmış, Dövlət Dumasının yubileyi münasibətilə rus xalqını Milli Məclisin adından təbrik etmişdir.

Rusiya Dövlət Dumasının sədri Boris Qrızlov və Federasiya Şurasının sədri Sergey Mironov Oqtay Əsədovu Milli Məclisin sədri seçilməsi münasibətilə Şura adından təbrik etmişlər. Azərbaycan parlamentinin sədri MDB Parlamentlərarası Assambleyasının "Sodrujestvo" ordeni ilə təltif olunmuşdur.

Sankt-Peterburqa səfər çərçivəsində Milli Məclisin sədri Oqtay Əsədov Rusiya Dövlət Dumasının sədri Boris Qrızlovla görüşmüşdür. Görüşdə Azərbaycanla Rusiya arasında tarixi köklərə malik əlaqələrdən, əməkdaşlığın müasir mərhələdə daha yüksək səviyyədə inkişafından bəhs olunmuş, parlamentlərarası münasibətlərə dair geniş fikir mübadiləsi aparılmışdır.

Milli Məclisin sədri Oqtay Əsədovun Rusiya Federasiya Şurasının sədri Sergey Mironovla görüşündə də qarşılıqlı maraq doğuran məsələlər diqqət mərkəzində olmuşdur. Qeyd edilmişdir ki, dövlətlərimiz arasında əməkdaşlığın yüksələn xətti parlamentlərimizin fəaliyyətində də üstün istiqamətlərdən hesab olunur.

Sergey Mironov MDB Parlamentlərarası Assambleyasında Azərbaycan nümayəndə heyətinin fəaliyyətini yüksək qiymətləndirmişdir.

Söhbət zamanı "Demokratiya, parlamentarizmin inkişafı, monitorinqi və vətəndaşların seçki hüququnun təminatı üzrə beynəlxalq institut"un yaradılması məsələsinə də toxunulmuşdur. Müzakirələrdə bu institutun Azərbaycanda filialının yaradılması imkanları da diqqət mərkəzində olmuşdur.

Milli Məclisin sədri Oqtay Əsədovun Sankt-Peterburqa səfəri çərçivəsində Gürcüstan parlamentinin sədri Nino Burcanadze ilə görüşündə qarşılıqlı münasibətlərin bir sıra istiqamətləri ilə yanaşı, parlamentlərarası əlaqələrin perspektivləri barədə də fikir mübadiləsi aparılmışdır. Regionda, eləcə də dünyada böyük əhəmiyyət kəsb edən və beynəlxalq aləmin diqqət mərkəzində olan iri enerji layihələri ilə bağlı məsələlər də söhbətin əsas mövzularından olmuşdur. Nino Burcanadze Gürcüstanda yaranmış enerji böhranları zamanı Azərbaycanın onlara həmişə kömək etdiyinə görə Azərbaycan xalqına və Prezident İlham Əliyevə bir daha minnətdarlığını bildirmişdir.

Azərbaycanın parlament nümayəndə heyəti aprelin 28-də Sankt-Peterburqda "Avropa parlamentarizmi: tarix və müasirlik" mövzusunda beynəlxalq konfransda da iştirak etmişdir.

Səfər zamanı nümayəndə heyətinin üzvləri Sankt-Peterburqun mərkəzində ümummilli lider Heydər Əliyevin xatirə barelyefinin olduğu binanın qarşısına gələrək, tər çiçəklər düzmüşlər. Nümayəndə heyətinin üzvləri dahi Azərbaycan şairi Nizami Gəncəvinin abidəsini də ziyarət etmişlər.

Elə həmin gün Milli Məclisin sədri Oqtay Əsədov Sankt-Peterburqdakı Azərbaycan diasporunun üzvləri ilə görüşmüşdür. Görüşdə diasporun fəaliyyətinin daha da gücləndirilməsi və bu sahədə qarşıda duran vəzifələr müzakirə olunmuşdur.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV NORVEÇİN "STATOYL" ŞİRKƏTİNİN PREZİDENTİ HELQE LUNDUN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 2-də Prezident sarayında Norveçin "Statoyl" neft şirkətinin prezidenti Helqe Lundun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Dövlətimizin başçısı 1994-cü ildən etibarən ölkəmizdə həyata keçirilən neft strategiyasının hazırda gözəl nəticələr verdiyini və Azərbaycanın əhəmiyyətinin getdikcə artdığını vurğuladı. Prezident İlham Əliyev "Statoyl"un ölkəmizin energetika sahəsində fəal iştirakını qeyd etdi və Azərbaycanın şirkətlə əlaqələrinin bundan sonra da genişlənməsinə ümidvar olduğunu bildirdi.

Helqe Lund rəhbərlik etdiyi şirkətin ölkəmizlə əməkdaşlığa böyük əhəmiyyət verdiyini

söylədi. Azərbaycanın energetika sahəsində qazandığı böyük nailiyyətləri vurğulayan qonaq "Statoyl" şirkətinin ölkəmizlə gələcəkdə də əməkdaşlıq edəcəyinə əminliyini bildirdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV OMAN SULTANLIĞININ XÜSUSİ TAPŞIRIQLAR ÜZRƏ SƏFİRİ, SULTANIN ŞƏXSİ MÜŞAVİRİ, OMANIN BMT-DƏKİ SƏFİRİ, YUNESKO-NUN XOŞMƏRAMLI SƏFİRİ ŞEYX QHASAN ŞAKİRİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 2-də Prezident sarayında Oman Sultanlığının xüsusi tapşırıqlar üzrə səfiri, sultanın şəxsi müşaviri, Omanın BMT-dəki səfiri, Böyük Britaniyadakı səfirliyinin səlahiyyətli naziri, YUNESKO-nun xoşməramlı səfiri Şeyx Qhasan Şakiri qəbul etmişdir.

Dövlətimizin başçısı Azərbaycanın YUNESKO ilə əlaqələrə xüsusi önəm verdiyini vurğuladı. Təşkilatın ölkəmizin tarix və mədəniyyət abidələrinin qorunmasına verdiyi töhfəni yüksək qiymətləndirən Prezident İlham Əliyev əməkdaşlığın bundan sonra da davam etdiriləcəyinə ümidvar olduğunu bildirdi.

Şeyx Qhasan Şakir Azərbaycanın YUNESKO-nun fəal üzvlərindən biri olduğunu bildirdi. O, böyük tarixi-mədəni irsə malik olan Azərbaycan ilə təmsil etdiyi təşkilat arasındakı əlaqələrin gələcəkdə də genişlənəcəyinə əminliyini söylədi.

XARİCİ İŞLƏR NAZİRLİYİNDƏ GÖRÜŞ

Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov mayın 3-də Pakistanın xarici işlər naziri Xurşid Mahmud Kasuri ilə görüşmüşdür.

E.Məmmədyarov ölkələrimiz arasında qarşılıqlı münasibətlərin inkişaf etdiyini vurğulamış və bunun xalqlarımızın mənafeyinə xidmət edəcəyinə ümidvar olduğunu söyləmişdir.

Ölkəmizə səfərindən məmnunluğunu bildirən cənab Xurşid Mahmud Kasuri Pakistan və Azərbaycan arasında siyasi, iqtisadi əlaqələrin dinamikasından danışmış, bunun daha da inkişaf etdirilməsinin vacibliyini vurğulamışdır.

E.Məmmədyarov İqtisadi Əməkdaşlıq Təşkilatının Bakıda keçiriləcək 9-cu zirvə toplantısı, habelə İƏT ölkələri Xarici İşlər Nazirləri Şurasının 16-cı iclası barədə söhbət açmış və müzakirə olunacaq məsələlər ətrafında fikir mübadiləsi etmişdir. O, Azərbaycan Prezidenti İlham Əliyevin ABŞ-a səfəri zamanı keçirdiyi görüşləri də xatırlatmış və bu səfərin ölkələrimizin qarşılıqlı münasibətlərində yeni mərhələ olduğunu bildirmişdir.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi məsələsinə toxunan E.Məmmədyarov problemin beynəlxalq hüquq normaları və prinsipləri əsasında, Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həllinin vacibliyini vurğulamışdır.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər barədə də fikir mübadiləsi aparılmışdır.

Həmin gün nazir Elmar Məmmədyarov İqtisadi Əməkdaşlıq Təşkilatının baş katibi Əshət Orazbayın rəhbərlik etdiyi nümayəndə heyəti ilə də görüşmüşdür.

Ə.Orazbay İƏT-in 9-cu zirvə toplantısının təşkili üçün göstərilən köməyə görə Azərbaycan tərəfinə təşəkkürünü bildirmiş, qonaqlar üçün yaradılmış rahat şəraitdən məmnunluğunu söyləmişdir.

Zirvə toplantısının gündəliyinin artıq hazır olduğunu bildirən baş katib digər sənədlərin də yekunlaşdırıldığını qeyd etmişdir.

E.Məmmədyarov da tədbirin təşkili ilə bağlı göstərdiyi səylərə görə təşəkkürünü bildirmiş, İƏT-in zirvə toplantısının Bakıda keçirilməsini ölkəmiz üçün mühüm hadisə kimi qiymətləndirmişdir. O, zirvə toplantısında dövlət və hökumət başçıları ilə yanaşı, beynəlxalq və regional təşkilatlardan nümayəndələrin, müşahidəçilərin, jurnalistlərin də iştirak edəcəyini tədbirə yüksək əhəmiyyət verilməsininin göstəricisi kimi səciyyələndirmişdir.

Söhbət zamanı qarşılıqlı maraq doğuran məsələlər də müzakirə edilmişdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ABŞ DÖVLƏT KATİBİNİN İQTİSADİ MƏSƏLƏLƏRƏ DAİR BAŞ MÜŞAVİRİ FRENK MERMUDU QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 4-də Prezident sarayında ABŞ Dövlət katibinin iqtisadi məsələlərə dair baş müşaviri Frenk Mermudu qəbul etmişdir.

Dövlətimizin başçısı Azərbaycan ilə ABŞ arasındakı münasibətlərin strateji tərəfdaşlıq səviyyəsində olduğunu vurğuladı. Bu yaxınlarda ABŞ-a etdiyi səfər zamanı keçirdiyi səmərəli görüşləri və apardığı danışıqları məmnunluqla xatırlayan Prezident İlham Əliyev bu səfərin ikitərəfli əlaqələrimizin bütün sahələrinə, o cümlədən iqtisadi əməkdaşlığa müsbət təsir göstərəcəyini bildirdi.

Frenk Mermud Prezident İlham Əliyevə müraciətlə dedi: "Siz Azərbaycanın malik ola biləcəyi ən yaxşı dövlət xadimisiniz. Hesab edirik ki, ABŞ-a səfəriniz çox uğurla keçmişdir". Səfər zamanı keçirilmiş görüşlərin böyük əhəmiyyət daşıdığını qeyd edən qonaq Prezident İlham Əliyevin çıxışlarının, o cümlədən ABŞ-ın iş adamları qarşısında söylədiyi nitqin dərin təəssürat yaratdığını bildirdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ƏFQANISTAN PREZİDENTİ HƏMİD KƏRZAİ İLƏ GÖRÜŞÜ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 4-də Prezident sarayında Əfqanıstan İslam Respublikasının Prezidenti Həmid Kərzai və onu müşayiət edən nümayəndə heyəti ilə görüşmüşdür.

Əfqanıstan Prezidenti xalqımızın ümummilli lideri Prezident Heydər Əliyevlə Türkiyədə görüşünü və onunla apardığı danışıqları məmnunluqla xatırlatdı. O, Azərbaycanda

son illərdəki inkişafdan, iqtisadi göstəricilərin yüksək səviyyəyə çatmasından məmnunluğunu söylədi. Əfqanıstanda uzunmüddətli vətəndaş müharibələrinin ağır nəticələrini xatırladan Prezident Kərzai ölkəsinin iqtisadi dirçəlişə nail olmaq üçün görülən bərpa işləri barədə məlumat verdi.

Azərbaycan Prezidenti İlham Əliyev ölkəmizdə iqtisadi inkişaf proseslərindən danışaraq dedi ki, Ermənistanın təcavüzü nəticəsində ərazilərimizin 20 faizi işğal olunsa da, biz iqtisadi inkişafa nail ola bildik. Dövlətimizin başçısı vurğuladı ki, ictimai-siyasi sabitlik iqtisadiyyatın inkişaf etməsi və ölkəyə böyük həcmdə sərmayələrin cəlb olunması üçün vacib şərtdir. Prezident İlham Əliyev ümidvar olduğunu bildirdi ki, Əfqanıstanda da iqtisadi inkişaf və dirçəliş baş verəcəkdir.

Görüşdə Azərbaycan ilə Əfqanıstan arasında mümkün iqtisadi əlaqələrin genişləndirilməsinin perspektivləri, regional iqtisadi əməkdaşlıq məsələləri müzakirə olundu. Əfqanıstan Prezidenti Azərbaycanda neft-qaz sektorunda həyata keçirilən layihələrlə maraqlandı. Dövlətimizin başçısı qlobal layihənin uğurla reallaşdırılması və onun əhəmiyyəti barədə məlumat verdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV QIRĞIZISTAN BAŞ NAZİRİNİN MÜAVİNİ ALMANBET MATUBRAİMOVU QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 4-də Prezident sarayında Qırğızıstan Baş nazirinin müavini Almanbet Matubraimovu qəbul etmişdir.

Görüşdə ölkələrimiz arasında hökumətlərarası iqtisadi komissiyanın yaradılmasının vacibliyi qeyd olundu və bildirildi ki, bu, qarşılıqlı ticarət dövriyyəsinin artırılmasına təkan verəcəkdir. Söhbət zamanı Azərbaycanda və Qırğızıstanda gedən iqtisadi proseslərə də toxunuldu. Prezident İlham Əliyev ümidvar olduğunu söylədi ki, Qırğızıstanda yeni hökumət strukturları möhkəmlənəcək və ölkə inkişaf edəcəkdir.

Dövlətimizin başçısı 1990-cı illərin əvvəllərində Azərbaycanda siyasi vəziyyətin çox ağır olduğunu, iqtisadi tənəzzülün və böhranın mövcudluğunu xatırladaraq dedi ki, bu proseslərdən sonra Azərbaycan inkişaf yoluna qədəm qoydu.

Görüşdə ölkələrimizin müxtəlif strukturları, eləcə də hökumət və parlament üzvləri arasında əlaqələrin artırılmasının vacibliyi qeyd olundu.

Almanbet Matubraimov Qırğızıstanda yaşayan azərbaycanlıların ölkənin ictimai-siyasi həyatında fəal iştirak etdiyini vurğuladı. O, Qırğızıstan Prezidentinin İqtisadi Əməkdaşlıq Təşkilatının Bakıda keçiriləcək zirvə toplantısında iştirak edə bilməməsindən təəssüfləndiyini söylədi və Qırğızıstan rəhbərinin Azərbaycan Prezidenti İlham Əliyevi onun üçün münasib olan vaxtda Bişkekə dəvətini çatdırdı.

Qırğızıstan Baş nazirinin müavini Azərbaycanın iş adamlarının öz ölkəsinə cəlb edilməsində maraqlı olduğunu bildirdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV PAKİSTANIN BAŞ NAZİRİ ŞÖVKƏT ƏZİZİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 4-də Prezident sarayında Pakistan İslam Respublikasının Baş naziri Şövkət Əzizi qəbul etmişdir.

Görüşdə Pakistanla Azərbaycan arasında iqtisadi əməkdaşlığın genişləndirilməsinin, elm və texnologiyalar sahəsində əməkdaşlığın zəruriliyi qeyd olundu.

Pakistanın Baş naziri Şövkət Əziz Azərbaycanın neft və qaz sahəsinin inkişafının Pakistanda çox yaxından izlənildiyini bildirərək dedi ki, indi rəsmi İslamabad bu istiqamətdə işlər aparır. Neft və qaz sahəsində Azərbaycanın təcrübəsini öyrənmək və bundan yararlanmaq bizim üçün çox əhəmiyyətlidir.

Azərbaycan Prezidenti İlham Əliyev ölkəmizin neft-qaz, elm və texnologiyalar sahəsində zəngin təcrübəsindən danışdı, bu sahədə Pakistanla əməkdaşlığın əhəmiyyətini bildirdi.

Pakistanın Baş naziri öz ölkəsində gedən iqtisadi, siyasi proseslərdən danışdı, o cümlədən iqtisadi inkişafın artdığını bildirdi, yoxsulluğun azaldılması istiqamətində hökumətin gördüyü işlərdən söhbət açdı, qonşu ölkələrlə münasibətlər məsələsinə toxundu.

Görüşdə regional əməkdaşlıq, təhlükəsizlik, iqtisadi əməkdaşlıq, bölgədəki vəziyyət barədə geniş fikir mübadiləsi aparıldı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN İRAN PREZİDENTİ MAHMUD ƏHMƏDİNEJAD İLƏ GÖRÜŞÜ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 4-də Prezident sarayında İran İslam Respublikasının Prezidenti Mahmud Əhmədinejad ilə görüşmüşdür.

Prezidentlər ötən ilin dekabrında Naxçıvandakı görüşlərini xatırlatdılar. Ölkələrimiz arasında tarixi köklərin birliyinin, xalqlarımızın bir-biri ilə dostluq əlaqələrinin, regional məsələlər, bölgədə iqtisadiyyat, o cümlədən energetika sahəsində əməkdaşlığın və nümayəndə heyətlərinin qarşılıqlı səfərlərinin əhəmiyyətini vurğuladılar.

Görüşdə qarşılıqlı maraq doğuran məsələlər barədə fikir mübadiləsi aparıldı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV TACİKİSTANIN BAŞ NAZİRİ AKİL AKİLOVU QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 4-də Prezident sarayında Tacikistan Respublikasının Baş naziri Akil Akilovu qəbul etmişdir.

Görüşdə hökumətlərarası komissiyanın yaradılmasının, müxtəlif sahələrdə imkanların öyrənilməsinin zəruriliyi vurğulandı və bildirildi ki, ölkələrimiz arasında iqtisadi əməkdaşlığın genişləndirilməsi hər iki tərəf üçün faydalıdır. Gələcəkdə yüksək səviyyəli qarşılıqlı səfərlər zamanı dostluq və əməkdaşlığın daha da möhkəmləndirilməsinə dair və ayrı-ayrı sahələri əhatə edən sənədlərin imzalanması nəzərdə tutulmuşdur.

Görüşdə hidroenergetika sahəsində əməkdaşlıq, beynəlxalq təşkilatlar çərçivəsində fəaliyyətin davam etdirilməsi və qarşılıqlı maraq doğuran digər məsələlər barədə fikir mübadiləsi aparıldı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ÖZBƏKİSTAN PARLAMENTİNİN QANUNVERİCİLİK PALATASININ SƏDRİ ERKİN XƏLİLOVU QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 4-də Prezident sarayında Özbəkistan Respublikası parlamentinin Qanunvericilik palatasının sədri Erkin Xəlilovu qəbul etmişdir.

Palatanın sədri Özbəkistan Prezidenti İslam Kərimovun səmimi salamlarını Prezident İlham Əliyevə çatdırdı və dedi ki, ölkələrimiz arasında ikitərəfli münasibətlər yüksək səviyyədədir, siyasi, iqtisadi əməkdaşlığı bundan sonra da inkişaf etdirmək zəruridir. Biz beynəlxalq təşkilatlar çərçivəsində səmərəli əməkdaşlıq edirik və bu, gələcəkdə də davam etdiriləcəkdir. Regional əməkdaşlığı inkişaf etdirərək bir-birimizi dəstəkləməliyik.

Azərbaycan Prezidenti İlham Əliyev Prezident İslam Kərimova ölkəmizə səfərə dəvətini çatdırmağı xahiş etdi, iki dövlət arasında yaxın münasibətlərin olduğunu bildirdi, respublikamızda həyata keçirilən islahatlardan danışdı.

Erkin Xəlilov Azərbaycanda son iki il ərzində baş verən iqtisadi yüksəlişi vurğulayaraq dedi ki, biz hamımız sizin uğurlarınızla sevinir və qürur hissi keçiririk.

Görüşdə qarşılıqlı maraq doğuran məsələlər barədə fikir mübadiləsi oldu.

DÖVLƏT VƏ HÖKUMƏT BAŞÇILARININ ŞƏRƏFİNƏ

Azərbaycan Prezidenti İlham Əliyevin adından mayın 4-də "Ulduz" sarayında İqtisadi Əməkdaşlıq Təşkilatının Bakıda keçiriləcək zirvə toplantısında iştirak etmək üçün ölkəmizə gəlmiş dövlət və hökumət başçılarının şərəfinə ziyafət verilmişdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV QAZAXISTANIN BAŞ NAZİRİ DANİAL AXMETOVU QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 5-də Prezident sarayında Qazaxıstan Respublikasının Baş naziri Danial Axmetovu qəbul etmişdir.

Baş nazir ölkəsinin Prezidenti Nursultan Nazarbayevin səmimi salamlarını Prezident İlham Əliyevə çatdırdı və İqtisadi Əməkdaşlıq Təşkilatının 9-cu zirvə toplantısının yüksək səviyyədə təşkilinə və keçirilməsinə görə təşəkkürünü bildirdi.

Görüşdə iqtisadi əlaqələr, energetika, neft-qaz sahəsində əməkdaşlıq, Azərbaycan ilə Qazaxıstan arasında iqtisadi əməkdaşlığın genişləndirilməsi üçün konkret perspektivlər müzakirə olundu.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN TÜRKİYƏNİN BAŞ NAZİRİ RƏCƏB TAYYİB ƏRDOĞAN İLƏ GÖRÜŞÜ

Azərbaycan Prezidenti İlham Əliyev mayın 5-də Prezident sarayında Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğan ilə görüşmüşdür.

Görüşdə ölkələrimiz arasında ikitərəfli münasibətlərin uğurla inkişaf etdiyi, qlobal enerji layihələri, o cümlədən Bakı-Tbilisi-Ceyhan neft kəməri, Bakı-Tbilisi-Ərzurum qaz kəməri layihələri ilə bağlı tədbirlərin nəzərdə tutulan qaydada reallaşdığı vurğulanmışdır. Ölkələrimiz arasında nəqliyyat sahəsində əməkdaşlığın perspektivinin də razılıq doğurduğu, iqtisadi əməkdaşlıq çərçivəsində əlaqələrin daha da genişləndiyi və səmərəli işbirliyi xarakteri daşıdığı bildirilmişdir. Azərbaycanla Türkiyənin beynəlxalq təşkilatlarda əməkdaşlığının uğurla inkişaf etdiyi və xalqlarımızın milli mənafeyinə tam cavab verdiyi razılıqla vurğulanmışdır.

BAKIDA İQTİSADİ ƏMƏKDAŞLIQ TƏŞKİLATININ 9-CU ZİRVƏ TOPLANTISI KEÇİRİLMİŞDİR

Mayın 5-də Bakıda, "Gülüstan" sarayında İqtisadi Əməkdaşlıq Təşkilatının (İƏT) 9-cu zirvə toplantısı keçirilmişdir.

Zirvə toplantısında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Əfqanıstan İslam Respublikasının Prezidenti Həmid Kərzai, İran İslam Respublikasının Prezidenti Mahmud Əhmədinejad, Türkiyə Cümhuriyyətinin Baş naziri Rəcəb Tayyib Ərdoğan, Qazaxıstan Respublikasının Baş naziri Danial Axmetov, Pakistan İslam Respublikasının Baş naziri Şövkət Əziz, Tacikistan Respublikasının Baş naziri Akil Akilov, Özbəkistan Respublikası parlamenti Qanunvericilik palatasının sədri Erkin Xəlilov, Qırğızıstan Respublikası Baş nazirinin müavini Almanbet Matubraimov və Türkmənistan Prezidenti yanında Xəzər dənizi məsələsi üzrə dövlət müəssisəsinin rəhbəri Xoşgəldi Babayev, İƏT-in baş katibi Asxat Orazbay iştirak edirdilər.

Azərbaycanın dövlət himni səsləndi.

Görüşü İƏT-in 8-ci zirvə toplantısında sədrlik etmiş Tacikistan Prezidenti Emoməli Rəhmonovun adından bu ölkənin Baş naziri Akil Akilov açdı.

TACİKİSTANIN BAŞ NAZİRİ AKİL AKİLOVUN ÇIXIŞI

- Azərbaycan Respublikasının Prezidenti zati-aliləri İlham Heydər oğlu Əliyev!

Hörmətli dövlət, hökumət başçıları, nümayəndə heyətlərinin rəhbərləri!

Hörmətli cənab baş katib!

Xanımlar və cənablar!

İcazə verin, Tacikistan Respublikasının Prezidenti zati-aliləri Emoməli Rəhmonovun adından sizin hamınızı - İqtisadi Əməkdaşlıq Təşkilatının üzvü olan ölkələrin dövlət və hökumət başçılarının növbəti, 9-cu zirvə toplantısının iştirakçılarını dost Azərbaycan torpağında səmimiyyətlə salamlayım, habelə qonaqpərvərliyə və işimiz üçün gözəl şə-

rait yaradıldığına görə Azərbaycan rəhbərliyinə və xalqına minnətdarlığımı bildirim.

Şübhə yoxdur ki, bu gün İƏT ölkələrimiz arasında regional əməkdaşlığın inkişafında mühüm yer tutur, ticarət-iqtisadi, sənaye, kənd təsərrüfatı, nəqliyyat, energetika, elmi-texniki və digər sahələrdə qarşılıqlı münasibətlərin sabitliyinə və inkişafına köməyin etibarlı və səmərəli mexanizmidir. Bununla əlaqədar, iki il ərzində görülmüş işlərə görə Təşkilatın katibliyinə, xüsusən onun baş katibi cənab Asxat Orazbaya minnətdarlıq sözlərini ifadə edim və ümidvar olduğumu bildirim ki, İƏT qarşıya qoyulmuş məqsədə çatmaq yolu ilə irəliləyişini davam etdirəcəkdir.

Bu gün, qloballaşma dövründə bizim qarşımızda, İƏT-in üzvü olan ölkələr qarşısında regional əməkdaşlığın daha da dərinləşməsinə, təşkilatımızın səmərəli fəaliyyətinin təmin olunmasına, İƏT çərçivəsində qarşılıqlı münasibətlərin keyfiyyətcə yeni səviyyəyə qaldırılmasına yönəldilmiş mühüm qərarları müzakirə və qəbul etmək kimi ciddi, məsul vəzifə durur.

Ümidvaram ki, qarşıdakı müzakirələr yığılıb qalmış problemlərin həllinə çox kömək edəcək, əməkdaşlığımızın daha da inkişafına, təşkilatımızın potensialından bütün İƏT regionunun iqtisadi tərəqqisi üçün maksimum istifadə olunmasına xidmət edəcəkdir.

Hörmətli nümayəndə heyətlərinin rəhbərləri və üzvləri!

Görüşümüzün gündəliyinin 2-ci bəndinə uyğun olaraq, Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Heydər oğlu Əliyevi İƏT ölkələri dövlət və hökumət başçılarının 9-cu zirvə toplantısının sədri seçilməsini təklif etmək mənim üçün böyük şərəfdir.

Hörmətli dövlət və hökumət başçıları!

Nümayəndə heyətlərinin rəhbərləri, zirvə toplantısının iştirakçıları!

Sizin alqışlarınız Azərbaycan Respublikasının yüksək beynəlxalq nüfuza malik olmasına sübutdur. Toplantımızın işinə rəhbərliyi hörmətli İlham Heydər oğlu Əliyevə verirəm. Əmin olduğumu bildirmək istəyirəm ki, Azərbaycan Respublikası Prezidentinin sədrliyi ilə Təşkilat daha böyük uğurlara nail olacaqdır.

Hörmətli İlham Heydər oğlu, icazə verin, 9-cu zirvə toplantısının sədri kimi Sizi təbrik edim, Sizə ən xoş diləklərimi bildirim və xoşbəxtlik arzulayım.

AZƏRBAYCAN PREZİDENTİ, İƏT-İN 9-CU ZİRVƏ TOPLANTISININ SƏDRİ İLHAM ƏLİYEVİN NİTQİ

- Əziz dostlar, məni İqtisadi Əməkdaşlıq Təşkilatının 9-cu zirvə toplantısının sədri seçdiyinizə görə dərin təşəkkürümü bildirirəm.

Möhtərəm prezidentlər, hörmətli nümayəndə heyətlərinin başçıları, hörmətli baş nazirlər!

Xanımlar və cənablar!

Hər şeydən öncə, fürsətdən istifadə edərək, sizin hamınızı Azərbaycan Respublikasında salamlayır, bugünkü toplantınıza uğurlar və konkret nəticələr əldə etmək arzulayıram. Mən həmçinin İqtisadi Əməkdaşlıq Təşkilatının 8-ci zirvə toplantısında sədrlik etmiş

Tacikistan Respublikasının Prezidenti zati-aliləri Emomәli Rəhmonova minnətdarlığımı bildirirəm. Bundan əlavə, İqtisadi Əməkdaşlıq Təşkilatının baş katibi vəzifəsində öz missiyasını başa çatdırmaq üzrə olan cənab Asxat Orazbaya təşkilatın inkişafına yönəlmiş səylərinə görə minnətdarlığımı bildirirəm. Təşkilatın yeni baş katibi Xurşid Ənvərə bu yüksək vəzifəyə seçilməsi münasibətilə öz səmimi təbriklərimi çatdırır və ona gələcək fəaliyyətində uğurlar arzulayıram.

Bugünkü zirvə toplantısında təşkilatın fəaliyyəti təhlil ediləcək, əldə olunmuş nailiyyətlər haqqında fikir mübadiləsi aparacağıq. Əminəm ki, eyni zamanda, təşkilatın gələcək perspektivləri haqqında çox səmərəli dialoq aparılacaqdır.

Azərbaycan öz dövlət müstəqilliyini bərpa etdikdən sonra biz müxtəlif beynəlxalq təşkilatlara və təşəbbüslərə qoşulmuşuq. O cümlədən İqtisadi Əməkdaşlıq Təşkilatının üzvü olduq və bu təşkilatda fəaliyyətimizə böyük önəm veririk. Təşkilatın üzv dövlətlərini çox dərin tarixi, mədəni tellər bağlayır. Müştərək tariximiz, adət-ənənələrimiz bizi daha da sıx birləşdirir və təşkilatın uğurlu fəaliyyəti üçün çox gözəl zəmin yaradır. Eyni zamanda, regional əməkdaşlıq baxımından İqtisadi Əməkdaşlıq Təşkilatının rolu artmaqdadır. Bildiyiniz kimi, üzv ölkələrin iqtisadi potensialı çox sürətlə artır, bütövlükdə bizim bölgədə, bəlkə də, dünyada müşahidə olunan ən yüksək iqtisadi artım sürəti mövcuddur. Üzv ölkələrin iqtisadi imkanları artmaqdadır və əlbəttə ki, həm ikitərəfli, həm də çoxtərəfli uğurlu əməkdaşlıq üçün yeni imkanlar yaranır.

Azərbaycan regional əməkdaşlıq məsələlərinə çox böyük önəm verir. Biz bir neçə beynəlxalq, regional layihələrin iştirakçısı, təşkilatçısıyıq və çox istəyirik ki, İqtisadi Əməkdaşlıq Təşkilatı çərçivəsində də konkret layihələr daha çox olsun. Biz konkret məsələlər ətrafında diskussiya aparaq və praktik addımların atılması üçün lazım olan bütün tədbirləri görməliyik.

Azərbaycanın iqtisadi inkişafı çox sürətlə davam edir. Keçən il Azərbaycanda iqtisadi artım 26 faiz olubdur. Bu, bizim tariximizdə ən yüksək göstəricidir və imkan verir ki, bütün planlarımızı, ilk növbədə, iqtisadi-sosial məsələlərlə bağlı olan planlarımızı həyata keçirək. Bu ilin birinci rübündə isə Azərbaycanda ümumi daxili məhsulun həcmi təxminən 40 faiz artıbdır və yəqin ki, bütövlükdə il ərzində bu səviyyədə qalacaqdır. Son iki il yarım ərzində Azərbaycanda 380 min yeni iş yerinin açılması həm işsizliyin aradan qaldırılmasına xidmət edir, eyni zamanda, yoxsulluq şəraitində yaşayanların sayını kəskin şəkildə azaldır.

İqtisadi göstəricilər artdıqca, təbii ki, ölkənin imkanları da artır. İkitərəfli və çoxtərəfli əlaqələrin möhkəmlənməsi üçün daha da əlverişli şərait yaranır. Əminəm ki, bizim ölkələrimizi birləşdirən iqtisadi layihələr gələcəkdə səmərə verəcəkdir. Xəzər dənizinin neft-qaz ehtiyatlarının dünya bazarlarına çatdırılması üçün Azərbaycanda və qonşu ölkələrdə çox işlər görülür. Xəzər dənizini Aralıq dənizi ilə birləşdirən Bakı-Tbilisi-Ceyhan neft kəmərinin işə düşməsindən sonra bölgədə iqtisadi vəziyyət və eyni zamanda, təhlükəsizlik tədbirləri daha da güclənməlidir. Biz hesab edirik ki, regional əməkdaşlıq layihələri hər məqsədə xidmət etməlidir. Həm iqtisadi əlaqələrin möhkəmlənməsinə, iqtisadi potensialın artmasına, eyni zamanda, bölgədə sülhün, əmin-amanlığın bərqərar olunmasına müsbət təsir göstərəcəkdir. Bununla yanaşı, Azərbaycan üçün, qonşu ölkələr üçün böyük önəm daşıyan, Azərbaycan qazını Türkiyəyə daşıyacaq və ondan sonra

Avropa ölkələrinə də çıxış imkanına malik olan Bakı-Tbilisi-Ərzurum kəmərinin tikintisi bir neçə aydan sonra başa çatmalıdır. Bu, çox böyük regional iqtisadi layihədir və bir daha onu göstərir ki, iradə, xoş niyyət olan yerdə, səmərəli işgüzar əməkdaşlıq, dostluq, qardaşlıq münasibətləri olan yerdə ən böyük, ən nəhəng iqtisadi və enerji layihəsini həyata keçirmək mümkündür. Biz qonşu ölkələrlə bu böyük layihələri həyata keçirməklə həm öz imkanlarımızı artırırıq, eyni zamanda, əminəm ki, bunun bütün regionun inkişafına çox gözəl təsiri olacaqdır.

Azərbaycanı Türkiyə ilə birləşdirən neft, qaz kəmərləri, eyni zamanda, qonşu İran İslam Respublikası ilə enerji sahəsindəki uğurlu əməkdaşlığımız, qaz və elektrik enerjisi layihələrinin həyata keçirilməsi, mübadilə yolu ilə qarşılıqlı əməkdaşlığın təmin olunmasında çox böyük önəm daşıyır. Deyə bilərəm ki, bütün üzv dövlətlərlə bizim çox gözəl ikitərəfli münasibətlərimiz var və bunları olduqca yüksək qiymətləndiririk.

Nəqliyyat infrastrukturunun möhkəmlənməsi bizim bölgə üçün, ölkələrimiz üçün çox böyük önəm daşıyır. Azərbaycan Şərq-Qərb, Şimal-Cənub nəqliyyat dəhlizlərinin açılmasında öz rolunu oynayır və bunu davam edəcəkdir. Bu layihələr bizi daha da sıx birləşdirəcəkdir. Çünki nəqliyyat infrastrukturunun mövcudluğu bizim iqtisadi imkanlarımızı artırır, iqtisadi əməkdaşlıq üçün yeni gözəl şərait yaradır. Bildiyiniz kimi, Azərbaycan Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizinin fəaliyyət göstərməsində çox maraqlıdır, TRASEKA proqramının iştirakçısıdır. Bununla yanaşı, Avropanı Asiya ilə birləşdirən dəmir yolu layihəsi də çox böyük maraq doğurur. Bakı-Tbilisi-Qars dəmir yolu təkcə bizim ölkələrimiz üçün deyil, bütün bölgə üçün böyük əhəmiyyət daşıyır. Əgər biz bunu həyata keçirə bilsək, - mən buna şübhə etmirəm, - o zaman Asiyanı Avropa ilə qısa yolla birləşdirəcək nəqliyyat infrastrukturu meydana çıxacaqdır. Şübhəsiz ki, tranzit ölkə kimi Azərbaycanın dost ölkələr üçün bütün nəqliyyat infrastrukturunu təmin etməsi məsələləri də öz həllini tapmalıdır.

Bir sözlə, hərtərəfli iqtisadi əməkdaşlıq üçün hər cür şərait var. Bunu daha da dərinləşdirmək üçün, şübhəsiz ki, bölgədə sülh, təhlükəsizlik tədbirləri daha da gücləndirilməlidir. Azərbaycan öz tərəfindən bu məsələlərdə fəal iştirak edir və gələcəkdə də fəaliyyətini davam etdirəcəkdir. Ancaq narahatlıq doğuran məsələlər də az deyildir. İlk növbədə, beynəlxalq terrorizmlə mübarizə məsələləri bütün ölkələri birləşdirməlidir. Bütün dünya öz səylərini birləşdirməlidir. Çünki bu sahədə təkbaşına ciddi nailiyyətlər qazanmaq çox çətin olacaqdır. Bütün terrorist təşkilatlara eyni gözlə baxılmalıdır, heç bir ayrı-seçkilik edilməməlidir. Çünki ancaq bütün səylərin birləşdirilməsi nəticəsində biz bu bəla ilə mübarizə apara bilərik.

Azərbaycan da terrorizmdən əziyyət çəkmiş ölkədir. Erməni terrorist təşkilatları tərəfindən Azərbaycana və azərbaycanlılara qarşı 30-dan çox terror aktı törədilmişdir. Onların nəticəsində 2000-dən çox günahsız insan həlak olmuşdur. Bu gün də regional əməkdaşlığın inkişafına ən böyük maneə, ən böyük əngəl Ermənistanın Azərbaycana qarşı davam edən təcavüzü, azərbaycanlılara qarşı etnik təmizləmə siyasəti, bu siyasət nəticəsində bir milyondan artıq azərbaycanlının öz doğma torpaqlarından didərgin düşməsidir. Biz məsələni sülh yolu ilə həll etmək istəyirik və hesab edirik, hələ ki, buna imkanlar var. Ona görə biz hər bir imkanı sınamalıyıq. Ancaq eyni zamanda, Azərbaycan xalqının səbri tükənməz deyildir. Biz hesab edirik ki, bu məsələ, Ermənistan-Azərbaycan

münaqişəsi ancaq beynəlxalq hüququn prinsipləri əsasında öz həllini tapa bilər. Ermənistanın işğalçı qüvvələri Azərbaycan torpaqlarından çıxmalıdır və azərbaycanlılar öz doğma dədə-baba torpaqlarına qayıtmalıdırlar və beləliklə, ədalət bərpa olunmalıdır. Bunun xaricində hər hansı bir razılaşma mümkün deyil, çünki beynəlxalq hüquq bunu tələb edir. Azərbaycanın ərazi bütövlüyü, Ermənistan istisna olmaqla, bütün dövlətlər tərəfindən tanınmışdır. Birləşmiş Millətlər Təşkilatı tərəfindən tanınıb və əlbəttə ki, danışıqlar mövzusu deyil və ola bilməz. Bu fürsətdən istifadə edərək, bütün üzv dövlətlərə Azərbaycanın mövqeyini dəstəklədiklərinə görə dərin minnətdarlığımı bildirirəm.

Risklərin azaldılması, uğurlu iqtisadi əməkdaşlıq, enerji təhlükəsizliyi - bütün bu məsələlər dünyanın inkişafını təmin edəcəkdir. Biz çox mühüm və çox həssas bölgədə yerləşirik. Bölgədə münaqişələr, təhlükələr, risklər var. Bu şəraitdə, əlbəttə ki, bizim əməkdaşlığımızdan çox şey asılıdır. Mən şübhə etmirəm ki, İqtisadi Əməkdaşlıq Təşkilatı öz üzərinə düşən bu vəzifəni şərəflə yerinə yetirəcək, əməkdaşlığımız daha da möhkəmlənəcək, həm ikitərəfli, həm də çoxtərəfli formatda uğurlu işbirliyimiz bütün bölgəyə çox müsbət təsir göstərəcəkdir.

Əziz dostlar və qonaqlar, sizi Azərbaycanda bir daha salamlayıram və işimizə uğurlar arzulayıram. Sağ olun.

Sonra nümayəndə heyətlərinin başçıları çıxış etdilər.

Əfqanıstan Prezidenti HƏMİD KƏRZAİ təşkilatın növbəti toplantısının Bakıda keçirilməsinin təsadüfi olmadığını vurğulayaraq dedi:

- Mən Azərbaycan Respublikasının Prezidenti zati-aliləri İlham Əliyevə və qardaş Azərbaycan xalqına öz minnətdarlığımı bildirirəm. Onlar bu tədbirin yüksək səviyyədə keçirilməsinə səylərini əsirgəməmişlər. Mən həmçinin bu zirvə toplantısının hazırlanmasına, əməkdaşlığın genişləndirilməsinə göstərdikləri səylərə görə İƏT-in Katibliyinə təşəkkür edirəm. Biz bilirik ki, dünyamız əməkdaşlıq müstəvisinə keçməkdədir, qloballaşma təzahürləri iqtisadi, siyasi, mədəni əlaqələrin gücləndirilməsində özünü bildirir. Mənim fikrimcə, əgər biz qloballaşan dünyadan danışırıqsa, bu zaman vahid coğrafi, mədəni, iqtisadi amilləri birləşdirən regionlar nəzərdə tutulur. İƏT ölkələrini çox qədim tarixi, mədəni əlaqələr birləşdirir. Biz bu əlaqələri və münasibətlərimizi tarixən inkişaf etdirmişik, qədim mədəniyyətin davamçılarıyıq. Bu gün geosiyasi şərait çətinləşir. Ancaq gözlənilməz imkanlar yaranmışdır və bunun sayəsində əlaqələrimizi daha da genişləndirib gücləndirə bilərik.

İƏT ölkələrinin yerləşdiyi region, doğrudan da, dünyanın strateji enerji resursları baxımından ən öndə gedən məkandır. Bu da insanlarımız, böyüyən gənc nəslimiz üçün bir imkandır. Biz kəşf edilməmiş və istismar olunmamış təbii ehtiyatlardan istifadə etməyə başlamalıyıq. Bizim münasibətlərimiz, əməkdaşlığımız iqtisadi və mədəni sahələrdə də özünü büruzə verməkdədir.

Əfqanıstan rəhbəri müharibələrdən ciddi ziyan çəkmiş ölkəsinin dirçəldilməsi üçün İƏT ölkələri ilə daha sıx əlaqələrin yaradılmasına ümid bəslədiyini bildirdi.

İran İslam Respublikasının Prezidenti MAHMUD ƏHMƏDİNEJAD Bakıya gəlişindən sonsuz məmnunluğunu ifadə edərək dedi:

- Mən Azərbaycan hökumətinə və qardaş Azərbaycan xalqına səmimi minnətdarlığımı bildirmək istəyirəm. Ona görə ki, onlar İƏT-in 9-cu zirvə toplantısını yüksək səviyyədə təşkil etmiş, bizə öz qonaqpərvərliklərini əsirgəməmişlər. Mən çox məmnunam ki, doğrudan da gözəl, ecazkar, tarixi şəhər sayılan Bakıya gəlmişəm. Şübhəsiz ki, bu sammitin keçirildiyi mühit iştirakçılar arasında tam şəkildə anlayış, səmimilik əsasında qurulmuşdur. Ona görə də bizim əsas qərarlarımızın qəbul edilməsinə çox gözəl şərait yaradacaqdır. Nəticədə isə regional əməkdaşlığa təkan veriləcək, təşkilat çərçivəsində həyata keçirilən proqram və tədbirlərin reallaşdırılmasına imkan yaranacaqdır. Bilavasitə bunu düşünərək, İran xalqının bir nümayəndəsi kimi mən bütün iştirakçıların əllərini sıxaraq, əmin etmək istərdim ki, bu sammitdən çox gözəl, səmərəli nəticələr gözləyirik.

Cənab Prezident, mötəbər iştirakçılar, bildiyiniz kimi, İƏT üzvlərini vacib dəyərlər birləşdirir. Biz bu dəyərlərin əsasında əməkdaşlığımızı bütün sahələrdə daha da inkişaf etdirməliyik. İlk əvvəl, bizim ümumi tariximiz, mədəniyyətimiz var. Bu da əlaqələrimizin davamlı şəkildə inkişafında mühüm rol oynayır. Bu kimi istəklər, maraqlar xalqlarımızın iradəsini təmin edir. Bizdən tələb olunur ki, siyasi və iqtisadi qərarlar qəbul edək. Bunlar elə şəkildə qəbul edilsin ki, ümumi tarixi, mədəni əlaqələrimizə cavab versin.

İƏT-ə gəldikdə isə, biz iqtisadi təşəbbüsləri irəli sürürük ki, doğrudan da üzv ölkələr arasında tərəqqiyə dəstək verə bilək. Əgər sülhdən, təhlükəsizlikdən danışırıqsa, bunlar doğrudan da çox vacib zəminlərdir.

İƏT çərçivəsində regional əməkdaşlığa gəldikdə, demək istəyirəm ki, qarşımızda olan imkanları daha da genişləndirməyə çalışmalıyıq. Gərək imkanlarımızdan elə istifadə edək ki, təşkilatımız daha da böyüsün. Bilirsiniz ki, İƏT ölkələri 8 milyon kvadratkilometrlik bir ərazini əhatə edir və burada 380 milyon insan yaşayır. Burada çox böyük potensial var və bundan istifadə etmək lazımdır ki, üzv ölkələrin gələcəyi rifahla nəticələnsin.

Qazaxıstanın Baş naziri DANİAL AXMETOV İƏT-in dünyaya inteqrasiyası istiqamətində görülən işləri təqdir etməklə yanaşı, sabitliyi pozmağa çalışan, xüsusilə narkotik maddələrin qeyri-qanuni dövriyyəsi ilə məşğul olan qüvvələrə qarşı üzv ölkələrin səylərini daha da gücləndirmək zərurətindən danışaraq dedi:

- Əziz iştirakçılar, gözəl bilirsiniz ki, dünyada qloballaşma prosesi gedir. Bunu, müasir şəraiti nəzərə almalıyıq. Qarşımızda duran məqsədlərdən biri ondan ibarətdir ki, İƏT ölkələrinin dünya miqyasında inteqrasiyasını təmin edək. Dünyada mövcud olan vəziyyəti nəzərə alaraq, Qazaxıstan və onun Prezidenti Nursultan Nazarbayev çalışır ki, İƏT çərçivəsində yeni inkişafa qədəm qoyaq. İnanırıq ki, Bakıda keçirilən bu zirvə toplantısı regional əməkdaşlığımızın daha da inkişafına və dərinləşdirilməsinə zəmin yaradacaqdır. Bu gün heç kim belə bir faktı şübhəyə almayacaq ki, müasir dünya bir-birindən asılılığı təmin edən bir dünyadır. Görürük ki, qüdrətli ölkələrin iqtisadiyyatı sosialyönümlüdür və onlar çalışırlar ki, xalqlarının maraqlarını təmin etsinlər. Demək istərdim ki, İƏT ölkələrinin bəziləri Dünya Ticarət Təşkilatının üzvüdür və ya üzv olmağa hazırlaşır. Ölkələrimizin hamısı bu təşkilata üzv olduqda bu, bilavasitə regionun potensialına cavab verəcək, regionda əməkdaşlığı pozmayacaqdır. Ona görə çalışacağıq ki, bu təşkilat çərçivəsində tərəfdaşlarımızla əlaqələri daha da inkişaf etdirək. Təşkilatımızın qarşısında duran önəmli layihələr var və bunların həyata keçirilməsi çox vacibdir.

Pakistanın Baş naziri ŞÖVKƏT ƏZİZ təşkilatın fəaliyyətinin genişləndirilməsi baxımından Bakı sammitinin xüsusi əhəmiyyətini vurğulayaraq dedi:

- Biz XXI əsrdə inkişafla bağlı bəzi imkanlardan bəhrələnməliyik. Artıq sərhədlər texnologiyanı və biliyi dayandıran amil deyildir. Çünki xalqlar və dövlətlər inkişaf edirlər. Biz regionda əməkdaşlığımızı inkişaf etdirə bilərik. Bu, insanlar üçün vacib olan amildir. Tranzit nəqliyyatla, ticarətlə, bankla bağlı sənədlər çox vacibdir. Bilirsiniz ki, üzərimizə götürdüyümüz öhdəliklərin siyahısı böyüməkdədir. Gələcəyə olan əminliyimiz də artmaqdadır. İqtisadi əməkdaşlığa gəldikdə, biz heç zaman sosial-iqtisadi miqyasımızı daraltmamalı, əksinə, genişləndirməliyik. Bizim regionda çətin məsələlər, problemlər var. İƏT müsbət təşəbbüslər irəli sürməyə çalışmışdır. Müəyyən qurumlar yaradaraq, üzləşəcəyimiz bəzi təhlükələrin qarşısını səmərəli şəkildə alaq. İnanırıq ki, qarşımızda duran məsələlər ümumiləşdiriləcək, səylərimizi birləşdirəcəyik.

Tacikistanın Baş naziri AKİL AKİLOV təşkilatın xoşməramlı qonşuluq əlaqələrinin möhkəmləndirilməsindəki rolundan danışarkən iqtisadi münasibətlərdə idxal-ixracla kifayətlənməyərək, həyatın bütün sahələrində əməkdaşlığı genişləndirmək zərurətindən bəhs etdi. Bu baxımdan Bakı sammitində qəbul olunacaq qərarlara xüsusi önəm verdiyini bildirərək dedi:

- Biz milli məqsəd və maraqlarımızı qorumalıyıq. İstərdim ki, bu təşkilatda inkişaf, xüsusilə çoxşaxəli əməkdaşlıq baxımından qarşımızda duran maneələri dəf edək. Əməkdaşlığımızı daha yüksək müstəviyə keçirməliyik. İƏT ölkələrinə belə bir imkan yaranıb ki, əlimizdə olan üsul və yollardan istifadə edərək, beynəlxalq əməkdaşlığı inkişaf etdirərək, yerimizi dünya məkanında daha da gücləndirək. Qeyd etdiyim məsələlər Bakı bəyannaməsində əksini tapmışdır. Bu sənəd İƏT ölkələri arasında əməkdaşlığın inkişafı, qarşıya qoyduğumuz məqsədlərə çatmaq baxımından vacibdir. Bu baxımdan sizin hamınıza uğurlar arzulayıram.

Türkiyənin Baş naziri RƏCƏB TAYYİB ƏRDOĞAN enerji ehtiyatları ilə zəngin olan regionda ölkələrarası dialoqun intensivləşdirilməsinin həm iqtisadi tərəqqiyə, həm də kollektiv təhlükəsizliyə təkan verdiyini söylədi, təşkilatın fəaliyyətində özəl sektorun inkişafına diqqət yetirilməsinin üstünlüklərindən danışdı. O dedi:

- Hörmətli sədr, dəyərli dövlət və hökumət başçıları, iştirakçılar, İƏT-in 9-cu zirvə toplantısı ilə əlaqədar Bakıda olmağımdan və burada iştirak etməyimdən məmnunluq duyuram. Prezident cənab İlham Əliyevi sammitin sədri seçilməsi münasibətilə təbrik edirəm, xeyirli olsun.

İƏT-in böyük potensialı vardır. Bölgəmizin zəngin enerji ehtiyatları nəzərə alınarsa, İƏT-in vacibliyi daha yaxşı başa düşüləcəkdir. Avrasiya xarici siyasətimizdə önəmli bir yer tutur. Asiya ölkələri ilə əlaqələrimizi, işbirliyimizi inkişaf etdirmək, Avropanı və Asiyanı enerji dəhlizləri vasitəsilə bir-biri ilə bağlamaq, regional işbirliyi üçün yeni imkanlar qazanmaq əsas məqsədlərdir. İqtisadi işbirliyi və inkişaf ölkələr arasında dialoqu artırmaqdadır. Bu, İƏT-in də hədəfidir. Bu məqsədlə İƏT bölgədə iqtisadi işbirliyinin və inkişafın asanlaşdırılmasında önəmli rol oynayacaqdır. Beləliklə, İƏT-in səmərəliliyi daha aydın bilinəcəkdir. Bu, regional işbirliyinə yeni bir güc verəcəkdir. İƏT-in Ticarət və İnkişaf Bankının yaradılmasının və fəaliyyətə başlamasının önəm daşıdığını dürşünürəm. Bank regional layihələrə, işgüzar əlaqələrin inkişafına kömək edəcəkdir. Bu

zirvə görüşünün regional sülhə, təhlükəsizliyə dəyərli fayda verəcəyinə inanıram. Bu vəsilə ilə dəyərli qardaşım, ev sahibi və Azərbaycanın Prezidenti İlham Əliyevə qarşınızda öz adımdan və nümayəndə heyəti adından bir daha çox təşəkkür edir, sizləri hörmət və ehtiramla salamlayıram.

Özbəkistan Parlamentinin Qanunvericilik palatasının sədri ERKİN XƏLİLOV Bakı görüşünün təşkilata daxil olan ölkələrin sonrakı işbirliyinə təkan verəcəyinə əminliyini söylədi:

- Hazırkı zirvə görüşü ölkələrimiz arasında gələcək əməkdaşlığa gətirib çıxaracaqdır. Bu imkandan istifadə edərək, Azərbaycan hökumətinə, xüsusilə zati-alilər İlham Əliyevə səmimi minnətdarlığımı bildirirəm. Ona görə ki, bu zirvə toplantısını yüksək səviyyədə təşkil etdilər. Bu görüşdə regionda olan ölkələrin inteqrasiyası da daxil olmaqla, bütün prioritet məsələlər müzakirə edilmişdir. Üzv ölkələrin potensialından istifadə edərək, nəqliyyat və digər vasitələrdən yararlanaraq güclü əməkdaşlığa nail ola bilərik. Özbəkistan iqtisadi rifaha nail olmağa çalışır, biz İƏT-in məram və məqsədlərinə sadiqik, bu təşkilat çərçivəsində ölkələrdə rifahın təmin olunmasına, əmin-amanlığın yaradılmasına səy göstəririk.

Hörmətli iştirakçılar, qarşımızda duran əsas prioritet məsələlər enerji, nəqliyyat dəhlizləridir ki, bunları inkişaf etdirməliyik. Nəqliyyatın intensiv inkişafı, malların dünya bazarlarına çıxarılması üçün yeni şəbəkələrin yaradılması regionun inkişafına təkan verəcəkdir. Ona görə Özbəkistan nəqliyyat-tranzit imkanlarından istifadə olunmasına böyük önəm verir. Fikrimizcə, okeana çıxışı olmayan ölkələrin də maraqları nəzərə alınmalıdır.

Biz regional və beynəlxalq təşkilatlarla əməkdaşlığı dəstəkləyirik. Bu, bizim regional əməkdaşlığımıza da zəmin yaradacaq bir amildir. İslahatlar davam etdirildikcə, iqtisadi fəallıq baxımından regionun əhəmiyyəti və rolu daha da artacaqdır.

Qırğızıstan Respublikası Baş nazirinin müavini ALMANBET MATUBRAİMOV təşkilatın gələcək fəaliyyət istiqamətlərinin müəyyən edilməsində 9-cu zirvə toplantısının əhəmiyyətini vurğuladı, ölkəsinin tərəqqisində İqtisadi Əməkdaşlıq Təşkilatının dəstəyinə olan ehtiyacdan danışaraq dedi:

- Qırğızıstan nümayəndə heyətinin adından qardaş Azərbaycan torpağında bizə göstərilən qonaqpərvərliyə və zirvə toplantısının yüksək səviyyədə təşkil edilməsinə görə zati-alilər İlham Əliyevə təşəkkür edirəm. Bizim bugünkü toplantı ümumi əməkdaşlığımızın nəticələrini tam şəkildə müzakirə etmək, qiymətləndirmək və gələcəkdə ölkələrimizin potensialını hansı şəkildə reallaşdırmaq baxımından müzakirələrin aparılmasına zəmin yaradır.

Cənab sədr, biz bilirik ki, İƏT ölkələri Qırğızıstanda baş verən hadisələri diqqətlə izləyir. Demək istərdim ki, Qırğızıstan demokratik inkişaf yoluna tam sadiqdir və biz bilavasitə dərin və müfəssəl bazar iqtisadiyyatı islahatlarının aparılmasına tərəfdarıq.

Hörmətli sədr, hörmətli nümayəndə heyətlərinin başçıları, bu günə qədər İƏT öz qarşısında duran əsas vəzifələri, perspektivləri müəyyən etmişdir. Qarşılıqlı sıx əlaqənin, ticari əməkdaşlığın inkişafı da zəruridir. Əgər bunlara nail ola bilməsək, onda İƏT-in prinsiplərini pozmuş olarıq. Qarşıdakı məqsədlər qəbul etdiyimiz sənəddə öz əksini tapmışdır və bu amallara nail olmalıyıq.

Ölkəmiz İƏT-də iştiraka xüsusi önəm verir. Biz ölkələrdəki real vəziyyəti də nəzərə almalıyıq. Qırğızıstan elə bir vəziyyətdədir ki, beynəlxalq ictimaiyyətin və İƏT-in yardımına ehtiyacı vardır. Zənnimcə, İƏT Qırğızıstanda iqtisadi layihələrin həyata keçirilməsinə kömək etməlidir.

Zirvə toplantısının gündəliyinə daxil olan digər məsələlərin müzakirəsindən sonra Azərbaycanın xarici işlər naziri ELMAR MƏMMƏDYAROV təşkilatın Nazirlər Şurasının bir gün əvvəl keçirilmiş 16-cı iclasının yekunları barədə hesabat verdi.

İqtisadi Əməkdaşlıq Təşkilatının baş katibi ASXAT ORAZBAY Bakı görüşünün nəzərdə tutulan proqramların reallaşmasına yeni təkan verəcəyinə əminliyini bildirərək dedi:

- Hökumət və dövlət başçılarının görüşü bizim proqramlarımızın həyata keçirilməsi istiqamətində göstərilən birgə səylərə xidmət edəcəkdir. Mən öz hesabatımı sizə oxuyaraq, Azərbaycan Respublikasının Prezidentinə öz minnətdarlığımı bildirirəm. O, bu tədbirin baş tutması üçün çox çalışmış və köməyini göstərmişdir. Hazırkı toplantının keçirilməsi keçmiş illər ərzində görülmüş işlərin nəticəsidir. Mən eyni zamanda, Azərbaycan hökumətinə minnətdarlığımı bildirirəm. Onlar bu tədbirin çox gözəl və yüksək səviyyədə keçirilməsinə nail olmuşlar. İƏT-in 9-cu zirvə görüşü məhz burada keçirilmişdir.

Cənab Prezident, biz bu gün bütün bəyanatları, çıxışları dinlədikdən sonra burada səslənmiş fikirlərin gələcək illər ərzində həyata keçirilməsi üçün lazımi səylər göstərəcəyik. Düşənbədə keçirilmiş görüşdən sonra biz bir çox sahələrdə lazımi tərəqqiyə nail ola bilmişik. Lakin bütün sahələrdə aparılmış fəaliyyət ürəyimiz istəyən kimi olmamışdır. Bununla belə, biz kənd təsərrüfatı, ticarət, sərmayə, sənaye, nəqliyyat və infrastruktur sahələrində bir çox işləri görə bilmişik.

Keçirilmiş görüşlərin nəticəsi olaraq, biz müvafiq sahələrdə əməkdaşlığın genişlənməsinə nail olmuşuq. İşlərin lazımi səviyyədə qurulmasına və inkişaf etdirilməsinə zəmin yaranmışdır. Gələcəkdə toplantının keçirilməsi daha vacib işlərin görülməsinə əlavə imkanlar açacaqdır. Biz artıq təşkilat çərçivəsində qəbul olunmuş proqramların həyata keçirilməsinin növbəti mərhələsinə qədəm qoyuruq. İƏT çərçivəsində bu gün ən ümdə məqsədlərimiz məhz ölkələr arasında və daxilində iqtisadi inkişafın davam etdirilməsinə yönəlməlidir və biz bu məqsədlərə nail olmaq üçün əlimizdən gələni edəcəyik.

Mən öz fikrimi yekunlaşdıraraq, qardaş Azərbaycan Respublikasının hökumətinə və xalqına Xarici İşlər Nazirləri Şurasının XVI iclasının və bu cür gözəl zirvə toplantısının Bakıda keçirilməsinə görə minnətdarlığımı bildirir, işimizə çox qiymətli töhfəsinə görə təşəkkür edirəm.

Zirvə toplantısında sədrlik edən Azərbaycan Prezidenti İlham Əliyev iqtisadiyyat, elm, texnologiya, kənd təsərrüfatı, ətraf mühit, tarix, mədəniyyət, ədəbiyyat və təhsil sahəsində səmərəli fəaliyyətlərinə görə Əfqanıstan, Azərbaycan, İran, Pakistan, Qazaxıstan, Özbəkistan, Qırğızıstan və Tacikistanın nümayəndələrinə İƏT-in xüsusi mükafatlarını təqdim etdi. Prezident İLHAM ƏLİYEV dedi:

- Hörmətli qonaqlar, verdiyiniz töhfəyə görə və bu mükafat münasibətilə mən sizin hamınızı bir daha təbrik edirəm. Sizə gələcək fəaliyyətinizdə uğurlar arzulayıram.

Hazırda biz zirvə toplantısı çərçivəsindəki görüşümüzün sonuna çatırıq. Mən Azərbaycana gəlmiş nümayəndə heyətlərinin rəhbərlərinə zirvə toplantısında iştirak etdiklərinə görə bir daha minnətdarlığımı bildirirəm. Bu, bizə qarşılıqlı maraq doğuran məsələlərə dair geniş fikir mübadiləsi aparmağa imkanlar yaratdı. Mən əminəm ki, rəhbərlər həm də ikitərəfli görüşlər keçirmişlər. Mən özüm də nümayəndə heyətlərinin rəhbərləri ilə görüşmüşəm. Hesab edirəm ki, bu, gələcək imkanlarımızı və real əməkdaşlıq məsələlərini müzakirə etmək üçün çox yaxşı bir fürsətdir.

Bizim çox maraqlı müzakirələrimiz, çox yaxşı təqdimatlarımız oldu, iqtisadi fəaliyyətlə və ölkələrimiz arasında iqtisadi əməkdaşlığın perspektivləri ilə bağlı fikir mübadiləsi etdik. Hesab edirəm ki, bu, çox gözəldir və biz bunu yekdil qaydada qeyd etdik. Biz bu müzakirələr zamanı qeyd etdik ki, İƏT-ə üzv olan ölkələrdə təqribən 400 milyon insan yaşayır. Bu, böyük bir təşkilatdır və onun çox parlaq gələcəyi vardır. Şübhəsiz ki, bu təşkilat bizə arxalanır, bizim apardığımız fəaliyyətə, göstərdiyimiz səylərə arxalanır. Biz əməkdaşlığımızın yeni yollarını araşdırmalıyıq. Bizim ölkələr sürətlə inkişaf edir, regiondakı vəziyyətin yaxşılaşmasını müşahidə edirik. Buradakı təhlükəsizlik daha da artır və bütün bunlar daha fəal əməkdaşlığın yaradılmasına imkan verir.

Şübhəsiz ki, burada boru kəmərlərindən söhbət gedir. Eyni zamanda artıq mövcud olan nəqliyyat dəhlizlərindən söhbət gedir və gələcəkdə də bu işlər davam etdiriləcəkdir. Əminəm ki, gələcək əməkdaşlıq perspektivləri çox müsbətdir. Biz gələcəkdə hər hansı bir imkanın araşdırılması üçün bütün səylərimizi əsirgəməyəcəyik.

Hörmətli qonaqlar, icazənizlə, sizin hamınıza minnətdarlığımı bildirmək istəyirəm. Hörmətli iştirakçılar, nümayəndə heyətlərinin rəhbərləri, sizin verdiyiniz bu töhfəyə görə minnətdaram və sizə gələcək işlərinizdə uğurlar, ölkənizə sülh, əmin-amanlıq arzulayıram.

Hörmətli xanımlar və cənablar, bugünkü sammitin gündəliyi artıq başa çatmışdır.

İran İslam Respublikasının Prezidenti MAHMUD ƏHMƏDİNEJAD zirvə toplantısının yüksək səviyyədə təşkilinə və keçirilməsinə görə təşəkkür edərək dedi ki, İƏT-in 9-cu zirvə toplantısı uğurla başa çatmaq üzrədir. İcazə verin, ilk növbədə, cənab İlham Əliyevə müdrik rəhbərliyinə görə minnətdarlığımı bildirim.

Qardaş və dost Azərbaycan bu təşkilatın sədri olarkən, onun rəhbərliyi altında biz bütün sahələrdə ən gözəl tərəqqiyə, nəticələrə nail ola biləcəyik. Hazırda, İƏT yeni proqramlara qədəm qoyduğu bir məqamda bu təşkilatın uğurla idarə edilməsində, nəzərdə tutulmuş məqsədlərə nail olunmasında, regional əməkdaşlıq çərçivəsində bir çox nailiyyətlər əldə edəcəyik. Hesab edirəm ki, biz digər ölkələr və təşkilatlar üçün nümunə ola bilərik. Nümayəndə heyətləri rəhbərlərinin çıxışlarında regional əməkdaşlıq xüsusi vurğulanmışdır. Bütün bu işlərin əsasında üzv ölkələrin siyasi iradəsi dayanır və bu, bizi maraqlandıran bütün sahələrdə əməkdaşlığımızın genişləndirilməsinə xidmət edir.

Mən xoş qonaqpərvərliyə görə öz tərəfimdən və digər nümayəndə heyətləri tərəfindən Azərbaycan xalqına və hökumətinə minnətdarlığımı bildirirəm. Onlar bu sammitin ən yüksək səviyyədə təşkil olunması üçün çox iş görmüş və səylər göstərmişlər. Eyni zamanda, İƏT-in Baş katibinə və əməkdaşlarına sənədlərin hazırlanması və məsələlərin

müəyyən edilməsinə, digər şəxslərə hazırlıq işlərində iştiraklarına görə təşəkkür edirəm. Azərbaycan xalqına uğurlar, sülh və əmin-amanlıq, bütün həmkarlara xoşbəxtlik, möhkəm cansağlığı arzulayıram. Bütün üzv dövlətlərə ulu Tanrıdan uğurlar diləyirəm.

İLHAM ƏLİYEV: Cənab Prezident, xoş sözlərinizə görə çox sağ olun. Bunlar müzakirələrimizin və dostluğumuzun ruhunu tamamilə əks etdirir, ölkələrimiz arasında olan əlaqələrin tarixi ənənələrə, mədəni dəyərlərə əsaslandığını bir daha göstərir. Əlbəttə ki, ölkələrimizin tərəqqisi, eyni zamanda, ikitərəfli münasibətlərin inkişafına da xüsusi töhfəsini verəcək və biz qardaş, dost ölkələrlə münasibətlərimizi inkişaf etdirəcəyik.

İndi isə mən İƏT-in 9-cu zirvə görüşünü bağlı elan edirəm. Bütün nümayəndə heyətlərinin rəhbərlərini rəsmi foto çəkilişinə dəvət edirəm.

İqtisadi Əməkdaşlıq Təşkilatının 9-cu zirvə toplantısında iştirak edən dövlət və hökumət başçıları birgə xatirə şəkli çəkdirdilər.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ İƏT-İN BAŞ KATİBİ ASXAT ORAZBAYIN BİRGƏ MƏTBUAT KONFRANSI

Azərbaycan Prezidenti İlham Əliyev və İqtisadi Əməkdaşlıq Təşkilatının Baş katibi Asxat Orazbay İƏT-in 9-cu zirvə toplantısı başa çatdıqdan sonra birgə mətbuat konfransı keçirdilər.

Azərbaycan Prezidenti İLHAM ƏLİYEV dedi:

- İqtisadi Əməkdaşlıq Təşkilatının 9-cu zirvə toplantısı öz işini başa çatdırdı və ümumi fikir belədir ki, bu görüş çox uğurlu oldu. İlk növbədə bu, bizə imkan yaratdı ki, dost-qardaş ölkələrin dövlət və hökumət başçıları ilə səmimi fikir mübadiləsi aparaq. Eyni zamanda, ikitərəfli görüşlər də oldu və bir daha əmin olduq ki, iqtisadi potensialın artması ümumi inkişafa gətirib çıxarır və əlbəttə, təşkilat çərçivəsində əlaqələrin genişlənməsinə şərait yaradır.

Müzakirə zamanı bir sıra məsələlər ortaya çıxdı. Nümayəndə heyətlərinin başçıları əməkdaşlığın müxtəlif cəhətlərinə toxundular. Təbii ki, bölgədə və ölkələrimizdə sülhün, sabitliyin möhkəmlənməsi məsələləri diqqət mərkəzində idi. Çünki hamımız bilirik ki, biz çox həssas bölgədə yerləşirik və bu bölgədə sülhün saxlanılması bizim ümumi inkişafımızın vacib bir amilidir.

Enerji təhlükəsizliyi də artıq dünyada gündəliyin birinci sıralarına çıxır. Bu məsələ ilə əlaqədar bizim aramızda fikir ayrılığı yoxdur. Bizim ölkələrdə çox böyük neft-qaz yataqları var. Artıq mövcud nəqliyyat infrastrukturu da yaranır və beləliklə, üzv ölkələrin gələcəkdə dünyanın enerji tələbatını ödəmək arzusu gerçəkləşir. Bizi birləşdirən nəqliyyat dəhlizləri - həm Şimal-Cənub, həm də Şərq-Qərb nəqliyyat dəhlizləri artıq işə düşür. Gələcəkdə Asiyanı Avropa ilə birləşdirəcək Bakı-Tbilisi-Qars dəmir yolunun istifadəyə verilməsi də, əlbəttə ki, ümumi əməkdaşlığa ancaq və ancaq müsbət təsir göstərəcəkdir.

Müxtəlif məsələlər müzakirə olundu, o cümlədən, təbii ki, terrorizmə qarşı mübarizə, iqtisadi əməkdaşlıq, iqtisadi potensialdan səmərəli istifadə olunması, müvafiq maliyyə

qurumlarının yaradılması məsələləri. Bütün təkliflərə baxılacaq və əlbəttə, bu görüş zamanı səslənən dəyərli fikirlər təşkilatın fəaliyyətində gələcək əməkdaşlığın əsas bazası kimi qəbul ediləcəkdir.

Şəxsən mən bu zirvə görüşünün Bakıda keçirilməsindən çox məmnunam. Bu, bizə bir daha imkan verdi ki, qardaş, dost ölkələrin dövlət və hökumət başçıları ilə səmərəli danışıqlar aparaq, bir sıra məsələləri müzakirə edək. Eyni zamanda, Azərbaycan təşkilatda daha da fəal rol oynamağa başlayır və bu, bütövlükdə bizim xarici siyasətimizin uğurlu nəticəsidir.

Bir sözlə, zirvə görüşü çox uğurlu keçdi və şübhə etmirəm ki, bu görüşün nəticələri real praktik hadisələrdə öz əksini tapacaqdır.

Diqqətinizə görə təşəkkür edirəm.

- Cənab Prezident, bildiyiniz kimi, Ermənistanın ölkəmizə uzun illər davam edən təcavüzü bölgədə sülhün, sabitliyin təmin olunması, iqtisadi əməkdaşlığın həyata keçirilməsi proseslərinə böyük əngəllər yaradır. Sizcə, İqtisadi Əməkdaşlıq Təşkilatı çərçivəsində əməkdaşlıq regional münaqişələrin həlli işinə töhfə verə bilərmi?

İLHAM ƏLİYEV: Mən hesab edirəm ki, verə bilər. Çünki bilirsiniz, Azərbaycan müxtəlif beynəlxalq təşkilatlarda çox uğurlu fəaliyyət göstərir və demək olar ki, bütün təşkilatlarda bizim mövqeyimiz günü-gündən möhkəmlənir.

Təşkilatda iştirakımız, əlbəttə ki, həm iqtisadi, həm siyasi məna daşıyır. İqtisadi məsələlər haqqında artıq söhbət açıldı. O ki qaldı, siyasi əlaqələrə, bizim bütün üzv ölkələrlə siyasi əlaqələrimiz genişlənməkdədir və çox yüksək səviyyədədir. Belə olan halda, əlbəttə ki, müxtəlif beynəlxalq təşkilatlarda, xüsusilə, Birləşmiş Millətlər Təşkilatında dost, qardaş ölkələrin Azərbaycanın mövqeyini dəstəkləməsi böyük əhəmiyyətə malik bir hadisədir. Mən öz çıxışımda bu dəfə də münaqişə məsələsinə toxundum. Bildirdim ki, bölgədə gedən çox uğurlu əməkdaşlığı əngəlləyə biləcək amillərdən biri də Ermənistanın Azərbaycana qarşı davam edən təcavüzüdür və bunun, etnik təmizləmə siyasəti nəticəsində bir milyon azərbaycanlının qaçqın-köçkün vəziyyətinə düşməsidir. Biz ümid edirik və əminik ki, İqtisadi Əməkdaşlıq Təşkilatına üzv olan dövlətlər bütün beynəlxalq forumlarda, beynəlxalq təşkilatlarda Azərbaycanın mövqeyini bundan sonra da dəstəkləyəcəklər. Beləliklə, geniş beynəlxalq hərəkət formalaşır. Bilirsiniz ki, Avropa təşkilatlarında - Avropa Şurasında, Avropa İttifaqında, habelə MDB-də, İslam Konfransı Təşkilatında, İqtisadi Əməkdaşlıq Təşkilatında, yəni Azərbaycanın üzv olduğu bütün təşkilatlarda biz bu məsələni daim gündəlikdə saxlayırıq və ümid edirəm ki, bu, münaqişənin ədalətli həllinə kömək göstərəcəkdir.

- Şimali Kipr İƏT-in 8-ci zirvə toplantısında türk toplumu kimi deyil, Kipr türk dövləti kimi tanınmışdı. Gələcəkdə Şimali Kiprin İƏT-in fəaliyyətinə real və yaxud felən qoşulması yönündə addımlar atılacaqmı?

İLHAM ƏLİYEV: Deyə bilərəm ki, bugünkü müzakirələr zamanı bu məsələ ətrafında söhbət açılmamışdır. Yəni bu məsələ gündəlikdə deyildi. Amma bütövlükdə, bildiyiniz kimi, həm İqtisadi Əməkdaşlıq Təşkilatında, eyni zamanda İslam Konfransı Təşkilatında Şimali Kipr Türk Cümhuriyyətinin təcriddən çıxması məsələləri müzakirə olunur və biz bunu müsbət hal kimi qiymətləndiririk. Çünki siz də, biz də yaxşı xatırlayırıq ki,

Kiprdə keçirilmiş referendumdan sonra həm Birləşmiş Millətlər Təşkilatı tərəfindən, həm də ayrı-ayrı dövlətlər tərəfindən belə bir fikir söylənmişdir ki, bir halda ki, Kiprdə yaşayan türklər referenduma səs verdilər, gərək onların təcridi aradan qalxsın. Əlbəttə, Türkiyənin üzv olduğu və Türkiyəyə yaxın olan ölkələrin üzv olduğu təşkilatlarda bu məsələyə ilk növbədə baxılmalıdır. Bu istiqamətdə müəyyən addımlar atılır və yəqin ki, atılacaqdır.

- Cənab Prezident, Sizə iki sualım var. Birincisi, ötən həftə rəsmi Bakı amerikalılara Qazaxıstan və Özbəkistanda çıxarılan karbohidrogenlərin dünya bazarlarına göndərilməsi üçün öz ölkəsinin ərazisindən istifadə etməyi təklif etmişdir. Söhbət konkret olaraq hansı sxemdən gedir?

İkincisi, məlum olduğu kimi, Bakı-Tbilisi-Ceyhan boru kəməri mayın axırlarında - iyunun əvvəllərində neftlə doldurulmalıdır. Ekspertlər isə deyirlər ki, Azərbaycan nefti kifayət etməyəcək və bu boru kəmərini doldurmaq üçün Qazaxıstan nefti lazımdır. Lakin "Kaşaqan" yatağının nefti də daxil olmaqla, böyük həcmdə Qazaxıstan nefti Çinə gedən boru kəmərinə yönəldilir. Siz bu vəziyyəti necə qiymətləndirirsiniz?

İLHAM ƏLİYEV: Sualın birinci hissəsi barədə deməliyəm ki, biz nəqliyyat infrastrukturumuzu öz ehtiyatlarımız üçün yaratmışıq və prinsipcə heç kimə heç nə təklif etməmişik. Ona görə də Bakı-Tbilisi-Ceyhan neft kəməri və Bakı-Tbilisi-Ərzurum qaz kəməri lap əvvəldən məhz Azərbaycanın karbohidrogen ehtiyatlarının dünya bazarlarına çıxarılması üçün nəzərdə tutulmuşdur və bu, indi də prioritet olaraq qalır. Odur ki, indiki halda biz daha geniş layihələrin təşəbbüsçüsü deyilik və ola da bilmərik. Belə zərurət yaranarsa və söhbət bundan gedirsə, onda Azərbaycan öz boru kəməri infrastrukturundan Qazaxıstandakı dostlarımızın və tərəfdaşlarımızın da istifadə etməsi məsələsinə baxmağa hazırdır.

O ki qaldı Azərbaycanda neft hasilatının həcminə, bu, ildən-ilə artır. 2008-ci ilədək Azərbaycan neftinin ixrac səviyyəsi 50 milyon ton, yəni Bakı-Tbilisi-Ceyhan boru kəmərinin hazırda nəql edə biləcəyi qədər olacaqdır. Ona görə də neft hasilatı sahəsində öz imkanlarımızı nəzərə alaraq deyə bilərəm ki, boru kəməri 2008-ci ilədək tam tamamilə doldurulacaqdır. Yeri gəlmişkən, yəqin ki, əlavə həcmlər olmayacaqdır. Boru kəməri ilə daşımaların əlavə həcmləri əlavə sərmayələr qoyulması, texniki məqamların təkmilləşdirilməsi yolu ilə yaradıla bilər ki, tələbat olarsa, perspektivdə Qazaxıstandan da neft nəqlinə imkan olsun.

- Cənab Prezident, Siz dediniz ki, beynəlxalq terrorizmlə mübarizə məsələlərini, Dağlıq Qarabağ problemini də müzakirə etdiniz. Kütləvi informasiya vasitələrində məlumat yayılıb ki, qarşıdakı həftə ATƏT-in Minsk qrupunun həmsədrləri yeni təkliflərlə Azərbaycana gələcəklər. Sizdə bu təkliflər barədə hər hansı bir məlumat varmı?

İLHAM ƏLİYEV: Sizə deyə bilərəm ki, ATƏT-in Minsk qrupunun fransalı həmsədri bu gün Azərbaycana gəlir və mənim onunla görüşüm nəzərdə tutulubdur. Bilirsiniz ki, artıq həmsədrlər öz aralarında intensiv məsləhətləşmələr aparırlar, müxtəlif variantları nəzərdən keçirirlər. Ola bilsin ki, hansısa yenilik olsun. Mən bəri başdan deyə bilmərəm. Hər halda, bütün mümkün olan variantlar artıq nəzərdən keçirilibdir. Mən inanmıram ki, məsələnin həllinə yönəlmiş hansısa tamamilə yeni bir təklif irəli sürülsün. Ola bilsin ki, artıq müzakirədə olan təkliflərə müəyyən düzəlişlər edilsin. Bunu mən istisna et-

mirəm və əgər belə olarsa, onda yəqin ki, məsələnin həllinə biz daha da yaxın olacağıq.

Bildiyiniz kimi, bizim mövqeyimiz dəyişməzdir. Bir daha vurğulamaq istəyirəm ki, biz heç bir fövqəladə iddiada deyilik. Biz sadəcə, beynəlxalq hüquq normalarının tətbiq olunmasına tərəfdarıq. Hesab edirik ki, bu məsələdə vahid yanaşma olmalıdır və dünyada mövcud olan hansı mexanizmlər, hansı normalar, hansı davranış qaydaları varsa, onlar da bu münaqişəyə tətbiq edilməlidir. Bu münaqişəni və onun həlli mexanizmlərini dünyada gedən ümumi proseslərdən ayırıb, bunun üçün hansısa ayrı bir formanı tətbiq etmək mümkün deyildir. Biz ona razı ola bilmərik. Dünya praktikası var, beynəlxalq hüquq normaları var. Onlar da birmənalı tələb edir ki, hər bir ölkənin ərazi bütövlüyü toxunulmaz olsun. Bizim ərazi bütövlüyümüz pozulubdur. Ona görə, işğalçı qüvvələr işğal olunmuş torpaqlardan çıxmalıdır və məsələ ancaq Azərbaycanın ərazi bütövlüyü çərçivəsində öz həllini tapa bilər.

Demək olar ki, hər dəfə həmsədrlər buraya gələrkən bu məsələ müzakirə edilir, bizim mövqeyimiz ifadə olunur. Biz bunu Bakıda deyirik, başqa paytaxtlarda deyirik, beynəlxalq təşkilatlarda deyirik. Ümid edirəm ki, əgər məsələ ilə bağlı olan, məşğul olan tərəflər və xüsusilə Ermənistan tərəfi bunu daha yaxından dərk etsə, anlasa, biz məsələni sülh yolu ilə həll edə bilərik.

- Cənab Prezident Əliyev, İranın nüvə proqramı müzakirə olundumu?

İLHAM ƏLİYEV: Yox, bu, müzakirə edilməmişdir. Burada müəyyən bəyanatlar oldu. Bizim mövqeyimiz tamamilə aydındır və bir neçə dəfə ifadə edilmişdir. Mənim müxtəlif ölkələrə rəsmi səfərlərim zamanı bildirilmişdir. Bütün bunlar hamısı beynəlxalq hüquqa əsaslanmalıdır. Əgər beynəlxalq hüquq və normalar, beynəlxalq təşkilatların qaydaları hər hansı bir ölkəyə nüvə enerjisindən istifadə etmək imkanı verirsə, zənnimcə, bununla bağlı heç bir ziddiyyət olmamalıdır. Narahatlıq doğuran və yaxud gərginlik yaradan bütün məsələlər dinc vasitələrlə, diplomatik səylərlə, danışıqlar yolu ilə həll olunmalıdır. Bütün bunlar bu regionda sülhün qorunmasına xidmət etməlidir.

Çox sağ olun.

İQTİSADİ ƏMƏKDAŞLIQ TƏŞKİLATININ ÜZVÜ OLAN ÖLKƏLƏRİN DÖVLƏT VƏ HÖKUMƏT BAŞÇILARI HEYDƏR ƏLİYEV FONDUNDA OLMUŞDUR

İqtisadi Əməkdaşlıq Təşkilatının üzvü olan ölkələrin dövlət və hökumət başçılarının 9-cu zirvə toplantısında iştirak etmək üçün ölkəmizdə səfərdə olan nümayəndə heyətlərinin rəhbərləri Azərbaycan Prezidenti İlham Əliyevlə birlikdə mayın 5-də Heydər Əliyev Fondunda olmuşdur.

Ali qonaqlara xalqımızın ümummilli liderinin xatirəsinə ehtiram əlaməti olaraq, yaradılmış Fondun məqsədləri barədə məlumat verildi. Bildirildi ki, Fondun əsas məqsədləri görkəmli siyasi xadim, müstəqil Azərbaycan dövlətinin qurucusu Heydər Əliyevin zəngin irsini öyrənmək və təbliğ etməkdən, onun Azərbaycanın sosial-iqtisadi, mədəni tərəqqisinə yönəlmiş genişmiqyaslı fəaliyyəti barədə gələcək nəsillərdə əyani təsəvvür yaratmaqdan, dahi şəxsiyyətin müəllifi olduğu beynəlxalq layihələrin həyata keçirilməsini dəstəkləməkdən, Azərbaycan mədəniyyətinin və ölkəmizin tarixinin geniş təbliği ilə əlaqədar aparılan işlərə kömək göstərməkdən ibarətdir.

Prezident İlham Əliyev ali qonaqlara ümummilli liderimizin şəxsi arxivindən götürülmüş və onun fəaliyyətinin ayrı-ayrı dövrlərini əhatə edən eksponatlar barədə söhbət açdı, onları maraqlandıran suallara cavab verdi.

Qonaqlar fenomen şəxsiyyət Heydər Əliyevin həyatının ən müxtəlif məqamlarını əks etdirən və Azərbaycan tarixinin bütöv bir dövrü barədə geniş təsəvvür yaradan çoxlu fotoşəkillərlə, dünyanın tanınmış siyasi xadimlərinin bəxş etdikləri hədiyyələrlə, ulu öndərimiz haqqında kitablarla tanış oldular. Dünyanın nüfuzlu siyasi, elm, mədəniyyət və incəsənət xadimlərinin Azərbaycan dövlətinin qurucusu haqqında fikirləri ilə tanış oldular, ümummilli liderimizlə müxtəlif görüşlərdə çəkdirdikləri fotoşəkillərə böyük maraqla baxdılar. Hələ Sovet İttifaqının rəhbərlərindən biri olarkən onun SSRİ-nin müsəlman respublikalarının, şərq ölkələrinin başçıları ilə mehriban münasibətləri olduğu xüsusi vurğulandı.

Ali qonaqlar Fondun Xatirə kitabına ürək sözlərini yazaraq, görkəmli siyasi xadim Heydər Əliyevə şəxsi hörmət və ehtiramlarını ifadə etdilər.

İƏT-İN ZİRVƏ TOPLANTISI İŞTİRAKÇILARININ ŞƏRƏFİNƏ

Azərbaycan Prezidenti İlham Əliyevin adından mayın 5-də "Yaxt klub"da İqtisadi Əməkdaşlıq Təşkilatının 9-cu zirvə toplantısında iştirak etmiş dövlət və hökumət başçılarının şərəfinə ziyafət verilmişdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ATƏT-İN PARLAMENT ASSAMBLEYASI SƏDRİNİN DAĞLIQ QARABAĞ MÜNAQİŞƏSİ ÜZRƏ XÜSUSİ NÜMAYƏNDƏSİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Prezidenti İlham Əliyev mayın 5-də Prezident sarayında ATƏT-in Parlament Assambleyası sədrinin Dağlıq Qarabağ münaqişəsi üzrə xüsusi nümayəndəsi Qoran Lenmarkeri qəbul etmişdir.

Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı aparılan danışıqlar, Azərbaycanla ATƏT-in Parlamentlərarası Assambleyası arasında əməkdaşlıq və qarşılıqlı maraq doğuran digər məsələlər barədə ətraflı fikir mübadiləsi olmuşdur.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AVROPA ŞURASININ İNSAN HÜQUQLARI ÜZRƏ KOMİSSARI TOMAS HAMMERBERQİ QƏBUL ETMİŞDİR

Azərbaycan Prezidenti İlham Əliyev mayın 5-də Prezident sarayında Avropa Şurasının İnsan Hüquqları üzrə komissarı Tomas Hammerberqi qəbul etmişdir.

Görüşdə Azərbaycanda cəmiyyətin daha da demokratikləşdirilməsi istiqamətində həyata keçirilən işlər, Azərbaycan-Avropa Şurası əməkdaşlığı və qarşılıqlı maraq doğuran digər məsələlər barədə fikir mübadiləsi aparılmışdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ATƏT-İN MİNSK QRUPUNUN FRANSALI HƏMSƏDRİ BERNAR FASYENİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 5-də Prezident sarayında ATƏT-in Minsk qrupunun fransalı həmsədri Bernar Fasyeni qəbul etmişdir.

Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə əlaqədar aparılan danışıqlarla bağlı fikir mübadiləsi olmuşdur.

AZƏRBAYCANIN BAŞ NAZİRİ VİLNÜSDƏ ZİRVƏ TOPLANTISINDA ÇIXIŞ ETMİŞDİR

Mayın 4-də Azərbaycanın Baş naziri Artur Rasizadə Baltik dənizi-Qara dəniz hövzəsi ölkələri dövlət və hökumət başçılarının Vilnüsdə keçirilən zirvə toplantısında iştirak etmişdir.

Zirvə toplantısının keçirilməsinin təşəbbüskarı olan dövlətlərin rəhbərləri - Litva Prezidenti Valdas Adamkus və Polşa Prezidenti Lex Kaçinski iştirakçıları salamlamışlar. Açılışda ABŞ-ın vitse-prezidenti Riçard Çeyninin təbriki də səslənmişdir.

Azərbaycanın Baş naziri Artur Rasizadə zirvə toplantısında çıxış edərək bildirmişdir ki, müstəqillik illərində ölkəmizdə siyasi, iqtisadi və humanitar sahələrdə qlobal dəyişikliklər baş vermişdir. Əsaslı islahatlar nəticəsində demokratik proseslərin inkişafı, qanunların aliliyinin, söz azadlığının və insan hüquqlarının, sərbəst iqtisadiyyat prinsiplərinin təmin edilməsi üçün möhkəm bünövrə yaradılmışdır.

Azərbaycan hökumətinin başçısı demişdir ki, Avropa və Avratlantik strukturlarına ardıcıl, məqsədyönlü inteqrasiya ölkəmizin xarici siyasətinin öncül istiqamətlərindən biridir. Azərbaycan ATƏT, Avropa Şurası, NATO çərçivəsində bütün səviyyələrdə regional əməkdaşlığa böyük əhəmiyyət verir. Bütün bunlar regionda və dünyada sabitliyə, təhlükəsizliyə və etimad tədbirlərinin möhkəmlənməsinə kömək edəcəkdir.

Terrorçuların əməllərindən çox zərər çəkən Azərbaycanın antiterror koalisiyasında iştirakı, terrorizmlə mübarizə tədbirlərinin həyata keçirilməsi üçün ölkəmizin öz texniki və təşkilatı imkanlarını əsirgəmədiyi, terrorizmi beynəlxalq sülhə və təhlükəsizliyə qorxu kimi qiymətləndirdiyi də qeyd olundu.

Artur Rasizadə ümummilli liderimiz Heydər Əliyevin neft strategiyasının uğurla həyata keçirilməsi nəticəsində Xəzər regionunda gerçəkləşdirilən qlobal energetika və nəqliyyat layihələrinə toxunaraq, onların region dövlətlərinin davamlı iqtisadi inkişafı üçün böyük əhəmiyyəti olduğunu vurğuladı. Qeyd olundu ki, bu layihələrin uğurla həyata keçirilməsi üçün regionda sabitlik və təhlükəsizlik təmin edilməlidir.

Hökumət başçısı görüş iştirakçılarının diqqətini Ermənistanın Azərbaycana qarşı 15 ildən çox davam edən təcavüzünə, bunun nəticəsində ərazimizin 20 faizinin işğal olunduğuna və bir milyon soydaşımızın doğma yerlərindən didərgin salındığına yönəltdi. Bildirdi ki, Cənubi Qafqaz regionunda bu cür münaqişələrin olması işğal edilmiş və nəzarətsiz ərazilərdə terrorçu və cinayətkar qruplaşmaların əl-qol açmasına əlverişli zəmin yaradır, zorakılığın və terrorun yeni mərhələlərini meydana gətirir, nəqliyyat kommunikasiyalarına, boru kəmərlərinin təhlükəsizliyinə, iqtisadi layihələrin gerçəkləşdirilməsinə böyük ziyan vurur.

Xüsusi vurğulandı ki, beynəlxalq vasitəçilərin səylərinin hələlik bir nəticəyə gətirib çıxarmamasına baxmayaraq, Azərbaycan münaqişənin həllinin beynəlxalq hüquq normaları və prinsiplərinə, ilk növbədə, ərazi bütövlüyü prinsipinə əsaslanan diplomatik yoluna sadiq qaldığını göstərməkdədir.

[redacted]

Zirvə toplantısının gedişində Azərbaycan hökumətinin başçısı Avropa İttifaqının ümumi xarici siyasət və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi, Avropa İttifaqı Şurasının baş katibi Xavyer Solana ilə görüşmüşdür. Cənab Solana Azərbaycanda demokratiyanın inkişaf səviyyəsini, Avropa strukturlarına inteqrasiya üçün ölkədə gedən prosesləri yüksək qiymətləndirmişdir. Artur Rasizadə Azərbaycanı regionda lider mövqeyinə çıxaran iqtisadi uğurlarımızdan, Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin yaxın vaxtlarda istifadəyə veriləcəyindən danışmışdır. Eyni zamanda demişdir ki, Ermənistan-Azərbaycan münaqişəsinin həll edilməməsi respublikamız üçün başlıca problem olaraq qalır. Azərbaycan xalqının səbri hədsiz deyildir. Xalqımız münaqişənin başqa yolla həll edilməsi hüququnu özündə saxlayır. Bu qərarın dəyişdirilməsi ancaq Ermənistanın konstruktiv mövqeyindən asılı ola bilər.

[redacted]

Mayın 4-də Artur Rasizadə Rumıniya Prezidenti Trayan Besesku ilə də görüşmüşdür. Söhbət zamanı Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın ərazi bütövlüyü prinsipi çərçivəsində həlli məsələsində ölkəmizin ədalətli mövqeyinin Rumıniya tərəfindən beynəlxalq təşkilatlarda dəstəklədiyi vurğulanmışdır. Azərbaycan hökumətinin başçısı demişdir ki, bu münaqişənin həll edilməməsi regionda demokratik proseslərin inkişafını ləngidir. Artur Rasizadə Azərbaycan-Rumıniya əməkdaşlığının genişləndirilməsi perspektivlərindən danışaraq, hökumətlərarası iqtisadi komissiyanın işini fəallaşdırmağın zəruriliyini bildirmişdir.

[redacted]

Azərbaycanın Baş naziri Artur Rasizadə həmin gün ATƏT-in hazırkı sədri, Belçika Krallığının xarici işlər naziri Karel de Quxt ilə də görüşmüşdür. O, ATƏT-in sədrinə Azərbaycanın iqtisadi nailiyyətlərindən, sosial-iqtisadi sahədə aparılan islahatlardan danışmışdır.

Karel de Quxt ümidvar olduğunu bildirmişdir ki, Azərbaycanın neft sənayesinin inkişafından götürülən gəlirdən xalqın rifahı naminə səmərəli istifadə ediləcəkdir. Onun sözlərinə görə, Avropa qurumlarına getdikcə genişlənən inteqrasiya prosesləri Azərbaycana yaxın gələcəkdə Avropa Birliyinin tamhüquqlu üzvü olmağa imkan verəcəkdir.

Görüşdə Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı məsələlər barədə fikir mübadiləsi də aparılmışdır. ATƏT-in sədri onu "postsovet məkanında ən çətin münaqişə" kimi qiymətləndirmişdir. Azərbaycanın Baş naziri ölkəmizin münaqişənin dincliklə həllinə sadiq qaldığını vurğulamaqla yanaşı, bu məsələdə Ermənistanın konstruktiv mövqe tutmadığını da bildirmişdir.

Mayın 4-də Baltik dənizi-Qara dəniz hövzəsi ölkələri dövlət və hökumət başçılarının zirvə toplantısı başa çatmışdır. Onun yekunlarına əsasən rəsmi məlumat qəbul olunmuşdur.

AZƏRBAYCANIN BAŞ NAZİRİ ARTUR RASİZADƏ LİTVA RƏHBƏRLƏRİ İLƏ GÖRÜŞMÜŞDÜR

Vilnüsdə səfərdə olan Azərbaycanın Baş naziri Artur Rasizadə mayın 5-də Litva Prezidenti Valdas Adamkus ilə görüşmüşdür.

Litva dövlətinin başçısı Baltik dənizi-Qara dəniz hövzəsi ölkələri dövlət və hökumət başçılarının Vilnüs zirvə toplantısının işində iştirak etdiyinə görə Azərbaycanın Baş nazirinə təşəkkürünü bildirərək demişdir ki, aparılmış müzakirələr və diskussiyalar Cənubi Qafqazda demokratik proseslərin inkişafına müsbət töhfəsini verəcəkdir. Litvanın Azərbaycanla bütün sahələrdə əməkdaşlığın inkişafına maraq göstərdiyini vurğulayan cənab Valdas Adamkus Prezident İlham Əliyev ilə tezliklə görüşəcəyinə ümid bəslədiyini söyləmişdir.

Artur Rasizadə Azərbaycanda aparılan sosial-iqtisadi islahatlardan, həyata keçirilən qlobal nəqliyyat və energetika layihələrindən, Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin tezliklə istifadəyə veriləcəyindən danışmışdır. O, Azərbaycanın qeyri-neft sektorunun inkişaf dinamikasını vurğulamış, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi barədə də məlumat vermişdir.

Elə həmin gün Artur Rasizadə Litva Seymi sədrinin müavini Çeslavas Yurşenasla görüşmüşdür. Qeyd edilmişdir ki, Litva Cənubi Qafqaz regionunda lider ölkə olan Azərbaycanla münasibətlərini genişləndirmək niyyətindədir. Parlamentlərarası əməkdaşlığı inkişaf etdirməyin zəruriliyi də vurğulanmış və bildirilmişdir ki, bu məqsədlə Bakıda Litva Seyminin nümayəndəliyini açmaq planlaşdırılır.

Azərbaycanın Baş naziri daha sonra litvalı həmkarı Algirdas Brazauskas ilə də görüşmüşdür. Litva hökumətinin başçısı ölkəsinin Avropa İttifaqına daxil olması prosesinin gedişində görülmüş tədbirlər barədə məlumat vermişdir. Görüşdə Litva-Azərbaycan iqtisadi əməkdaşlığını genişləndirmək məsələlərinə dair fikir mübadiləsi aparılmışdır.

Mayın 5-də Artur Rasizadənin növbəti görüşü Litvanın işgüzar dairələrinin nümayəndələri ilə olmuşdur. Litva Sənayeçilər Konfederasiyasının baş direktoru Rimas Varkulyaviçyus çıxışında demişdir ki, Azərbaycan ilə Litva arasında əmtəə dövriyyəsinin səviyyəsi iki ölkənin potensialına cavab vermir. Litva biznesmenləri Azərbaycanın kənd təsərrüfatına, emal sənayesinə və iqtisadiyyatın digər sahələrinə sərmayə yatırmağa, azərbaycanlı istehsalçılarla birbaşa əlaqələr yaratmağa maraq göstərirlər.

Artur Rasizadə görüşün iştirakçılarına Azərbaycan iqtisadiyyatının, o cümlədən qeyri-neft sektorunun inkişafındakı nailiyyətlərdən danışmışdır.

Mayın 5-də Azərbaycanın Baş naziri Vətənə yola düşmüşdür.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV NORVEÇİN DÖVLƏT KATİBİ KJETİL SKOQRANDIN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 8-də Prezident sarayında Norveçin dövlət katibi Kjetil Skoqrandın rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Dövlətimizin başçısı Azərbaycan ilə Norveç arasındakı münasibətlərin uğurla inkişaf etdiyini vurğuladı. Norveçin "Statoyl" şirkətinin Azərbaycanın energetika sahəsində fəal iştirak etdiyini xatırladan Prezident İlham Əliyev iki ölkə arasındakı əlaqələrin bundan sonra da genişlənəcəyinə ümidvar olduğunu bildirdi.

Kjetil Skoqrand Azərbaycanın iqtisadiyyatının sürətlə inkişaf etdiyini qeyd etdi. O, Azərbaycan ilə Norveç arasında bir sıra ümumi cəhətlərin olduğunu, xüsusilə hər iki ölkənin Avropanın energetika sistemi üçün önəm daşıdığını vurğuladı. Qonaq Norveç şirkətlərinin Azərbaycandakı fəaliyyətinə toxunaraq, bunun ikitərəfli əlaqələrin inkişafına töhfə verdiyini bildirdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV PAKİSTAN SENATININ İNSAN HÜQUQLARI DAİMİ KOMİTƏSİNİN SƏDRİ SEYİD MƏHƏMMƏD ZƏFƏRİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 8-də Prezident sarayında Pakistan Senatının İnsan hüquqları daimi komitəsinin sədri, senator Seyid Məhəmməd Zəfərin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Senator SEYİD MƏHƏMMƏD ZƏFƏR Prezident İlham Əliyevə "Ən yaxşı idarə olunan müsəlman dövləti" mükafatını təqdim edərək dedi:

-Zati-aliləri cənab Prezident!

İcazənizlə, ilk növbədə, dünən axşamüstü buraya çatdığımız andan etibarən "Pakistan Observer"in nümayəndə heyətinə göstərdikləri yüksək qonaqpərvərliyə görə azərbaycanlı qardaşlarımıza dərin minnətdarlığımızı ifadə etmək istərdim. Biz burada olmaqdan və Azərbaycan Respublikası Prezidentinin layiq görüldüyü "Ən yaxşı idarəçiliyə malik islam dövləti" adlı nüfuzlu bir mükafatı "Pakistan Observer" qəzeti adından Zati-alinizə təqdim etməkdən böyük şərəf hissi keçiririk.

Möhtərəm cənab Prezident, bu mükafat ötən il, Pakistanda böyük oxucu auditoriyası olan "Pakistan Observer" qəzeti tərəfindən islam dünyasında yaxşı idarəçiliyin inkişaf etdirilməsinə kömək məqsədi ilə 2005-ci ildə təsis olunmuşdur. Çoxsaylı mütəxəssislərin, analitiklərin, tədqiqatçıların və Pakistanın bir sıra digər tanınmış şəxsiyyətlərinin iştirakı ilə keçirilmiş geniş müzakirələr və məsləhətləşmələr nəticəsində "Pakistan Observer" qəzetinin redaksiya heyəti bu mükafatın Zati-alinizə təqdim olunmasını qərara almışdır.

Cənab Prezident, icazənizlə, "Pakistan Observer" barədə bir neçə söz demək istərdim.

"Pakistan Observer" Pakistanda böyük nüfuz qazanmış və çox mötəbər gündəlik qəzetdir. Qəzetin əsası 1988-ci ildə hazırkı baş redaktor cənab Zahid Malik tərəfindən İslamabadda qoyulmuşdur. Hazırda "Pakistan Observer" ölkənin beş müxtəlif şəhərində, eyni zamanda nəşr edilir. Baş redaktor bu mötəbər görüşdə iştirak edə bilmədiyi üçün dərin təəssüf hissləri keçirdiyini Sizə çatdırmağımı xahiş etmişdir. O, 2005-ci ilin aprelində Bakıya səfəri zamanı Sizinlə müsahibədən çox məmnun qalmışdır və Sizə böyük hörmət və rəğbət bəsləyir. Sizin Pakistana səfəriniz zamanı o, yenidən Sizinlə görüşüb söhbət imkanı əldə etmişdi.

"Pakistan Observer" İslam ümmətinin amallarını müdafiə etməklə yanaşı, insan hüquqlarının qorunması, narkotiklərə, terrorizmə, ifratçılığa qarşı mübarizə, sülhün və dinlərarası ahəngdarlığın təmin olunması kimi qlobal məsələlərin işıqlandırılmasını da daim nəzarətdə saxlayır.

Əfsuslar olsun ki, bugünkü İslam aləmi ümumən böyük bir ruh düşkünlüyü və çarəsizlik içərisindədir. Daha acınacaqlısı isə odur ki, İslam dünyasını bürüyən bu ümidsizlik və bədbinlik hissi bir sıra dövlətlərin idarəçilik sistemlərinə də siraət etməkdədir. Bu isə İslam ümmətinin ümumi gələcəyi üçün təhlükə mənbəyidir.

Heç də ürəkaçmayan bu vəziyyəti yaxşı dərk edən "Pakistan Observer" İslam dünyasını canlandırmaq və yeni bir əhval-ruhiyyə yaratmaq məqsədi ilə bir sıra təşəbbüslərlə çıxış etmişdir. Qəzet həm də İslam ümmətində maarifpərvər və yenilikçi rəhbərlik dövrünün başlanğıcının qoyulması ilə əlaqədar həvəsləndirici layihələr də həyata keçirməyi planlaşdırır. Bu təşəbbüslərdən biri də İKT ölkələri rəhbərləri arasında "Ən yaxşı idarəçiliyə malik islam dövləti" adlı mükafat təsis etməklə digər dövlətlər üçün yaxşı idarəçilik nümunəsi təbliğ etməkdir.

Bu mükafat İslam dövlətləri arasında yaxşı idarəçiliyin inkişafına yönəlmişdir. Düzgün idarəçilik insanların daha yaxşı həyat üçün ümid və arzularının gerçəkləşməsi və dünya millətləri sırasında layiqli yer tuta bilmələri üçün ən mühüm amil və vasitə olduğundan, belə bir mükafatın təsis edilməsi zəruri sayılmışdır.

"Pakistan Observer" qəzetinin redaksiya heyəti bu mükafatın, həqiqətən də, layiq dövlətə verilməsini təmin etmək məqsədi ilə İKT dövlətlərinin idarəçilik sistemlərini yaxından izləyir. Beləliklə, milli inkişaf və iqtisadi müasirləşmə sahəsində əldə edilən nailiyyətlər, maliyyə sisteminin lazımi qaydada tənzimlənməsi, təhsildə inkişaf və sair kimi göstəricilərin dəqiq təhlili əsasında yekun qərar qəbul olunur.

İlk mükafat 2005-ci il sentyabrın 26-da Əlcəzairdə keçirilən təqdimat mərasimində bu ölkənin Prezidenti cənab Əbdüləziz Buteflikaya verilmişdir. Bu mükafat ona Əlcəzair cəmiyyətinin bütövlüyü uğrunda apardığı "Bağışla və unut" siyasəti çərçivəsində həyata keçirdiyi sülhpərvər təşəbbüslərinə görə təqdim olunmuşdur.

Cənab Prezident, mən böyük məmnunluq hissi ilə bildirmək istəyirəm ki, builki mükafatın Azərbaycana verilməsi haqqında qərar qəzetin redaksiya heyəti tərəfindən yekdilliklə qəbul edilmişdir. Bütün bunlar Sizin zəhmətinizin bəhrəsidir. Bu qərar Sizin örnək idarəçilik səriştəsi nümayiş etdirərək istər ölkə daxilindəki, istərsə də beynəlxalq aləmdəki yüksək səviyyəli fəaliyyətinizə olan böyük ehtiramımızın bariz təzahürüdür.

Cənab Prezident, Siz daxili siyasətinizdə dövlətin yenidən qurulması kimi nəhəng bir işi

öz öhdənizə götürmüş, demokratik dəyərlərin möhkəmlənməsi və siyasi, iqtisadi və sosial sahələrdə islahatların aparılmasında mühüm uğurlar qazanmısınız. Sizin digər dəyərli xidmətləriniz sırasına xalqın milli maraq doğuran məsələlərdə iştiraka cəlb olunmasını, insanlarda milli iftixar, dözümlülük, maarifçilik və qardaşlıq hisslərinin aşılanmasını aid etmək olar. Məhz Sizin bu addımlarınız sayəsində insanlar arasında hər hansı bir xalqın inkişafı və əmin-amanlığı üçün vacib sayılan birlik hissi yaranmış, sülh və sabitlik bərqərar olmuşdur.

Yenicə yaranan müstəqil Azərbaycan dövlətinə öndərlik etmiş dahi Heydər Əliyevin uzaqgörən siyasəti nəticəsində ölkəniz həm siyasi, iqtisadi, həm də sosial sahələrdə böyük irəliləyişə nail olmuşdur. Keçmiş imperiyadan miras qalmış birpartiyalı dövlət idarəetmə sistemi müasir konstitusiyalı quruluşa söykənən qurum və təsisatlarla əvəzlənmişdir. Çağdaş siyasi, iqtisadi və sosial təşkilatı tələblərə cavab verən icraedici qurumlar, xalq tərəfindən seçilən parlament, müstəqil ədliyyə və güclü təhsil sistemi vətəndaşların ölkədə gedən demokratik proseslərdə iştirakını təmin edən möhkəm sütunlardır. Əzmkar və zəhmətkeş Azərbaycan xalqının köməyinə arxalanan ölkə rəhbərliyi müasir və mütərəqqi bir dövlət qurmaq üçün çevik və müdrik siyasi xətlə hərəkət edir. Zəngin təbii ehtiyatlardan ölkənin mənafeyi və inkişafı naminə istifadə etməyi bacaran Azərbaycan rəhbərliyinin yüksək idarəetmə səriştəsi və peşəkarlıq qabiliyyəti iqtisadi və sosial inkişaf layihələrində özünü göstərir. Neft hasilatı və ixracına qoyulan xarici sərmayə məhz yaxşı idarəçilik sayəsində əldə edilmiş uğurlardır.

Bu gün Azərbaycan müsəlman ölkələri arasında maarifçi liberalizm ideyasının yayılmasına ən parlaq nümunə kimi göstərilə bilər. Azərbaycanda islam, xristianlıq, yəhudilik və digər dinlər arasında mövcud olan dözümlülük heyrətamizdir.

Cənab Prezident, Sizin ən böyük bir nailiyyətiniz də bundan ibarətdir ki, Azərbaycanda ifratçılıq və radikalizm kimi problemlər yoxdur. Bu, gələcəkdə ölkənizi gözləyən əmin-amanlıqdan xəbər verir. Siz ölkənizdə milli birlik yaratmağa nail olmusunuz. Siz ədalətli hökumət adını layiqincə qazanmısınız.

Ona görə də, demokratik, inzibati və maliyyə sahələrində bütün lazımi göstəricilərə malik bir dövlət kimi Azərbaycan "Pakistan Observer" qəzeti tərəfindən bu ilin ən yaxşı idarəçiliyə malik müsəlman dövləti elan olunmuşdur.

Cənab Prezident, biz bu mükafatı Sizə təqdim etməkdən böyük şərəf hissi duyuruq.

Prezident İlham Əliyev mükafata görə minnətdarlığını bildirdi, bu mükafatın qardaş Pakistanın aparıcı mətbuat orqanı tərəfindən verilməsinin xüsusi önəm daşıdığını vurğuladı. O, Pakistanın Azərbaycanın dünyada ən yaxın müttəfiqlərindən biri olduğunu qeyd etdi və ölkələrimiz arasındakı münasibətlərin çox yüksək səviyyəyə çatdığını bildirdi. Prezident İlham Əliyev Ermənistanın ölkəmizə təcavüzü və Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı Pakistanın Azərbaycanın ədalətli mövqeyini tam dəstəkləməsini yüksək qiymətləndirdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV RUSİYA FEDERASİYASININ İNSAN HÜQUQLARI ÜZRƏ MÜVƏKKİLİ VLADİMİR LUKİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 8-də Prezident sarayında Rusiya Federasiyasının İnsan hüquqları üzrə müvəkkili Vladimir Lukini qəbul etmişdir.

Dövlətimizin başçısı Azərbaycan Respublikası ilə Rusiya Federasiyasının müxtəlif strukturları, o cümlədən Ombudsman təsisatları arasında əməkdaşlığın inkişaf etməsindən məmnunluğunu vurğuladı. Prezident İlham Əliyev bu səfərin iki ölkənin müvafiq qurumları arasındakı əlaqələrin bundan sonra da genişlənməsinə töhfə verəcəyinə ümidvar olduğunu bildirdi.

Vladimir Lukin xalqımızın ümummilli lideri Heydər Əliyev ilə keçirdiyi görüşləri məmnunluqla xatırladı. Ölkəmizə ombudsmanların beynəlxalq konfransında iştirak etmək üçün gəldiyini bildirən qonaq Azərbaycanın İnsan hüquqları üzrə müvəkkili təsisatı ilə əməkdaşlığı gələcəkdə də inkişaf etdirəcəklərini vurğuladı.

XARİCİ İŞLƏR NAZİRİ ABŞ MİLLİ MÜDAFİƏ KOLLECİNİN NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞMÜŞDÜR

Xarici işlər naziri Elmar Məmmədyarov mayın 8-də ABŞ Milli Müdafiə Kollecinin (National War College) nümayəndə heyəti ilə görüşmüşdür.

Yüksək rütbəli hərbi zabitlərin və mülki əməkdaşların daxil olduğu nümayəndə heyətinə səfir Maykl Lemmon rəhbərlik edir. Səfər ölkələrimizin münasibətlərinin hərbi və siyasi aspektləri ilə yaxından tanışlıq məqsədi daşıyır.

Nazir qonaqlara dövlətlərarası münasibətlərin hazırkı durumu, ölkəmiz və regionumuzdakı sosial-siyasi, iqtisadi vəziyyət barədə ətraflı məlumat vermişdir.

Azərbaycan Prezidenti İlham Əliyevin ABŞ-a səfərinin ölkələrimiz arasındakı münasibətlərdə yeni mərhələ olduğunu vurğulayan Elmar Məmmədyarov əlaqələrin gələcəkdə daha da inkişaf etdiriləcəyinə ümidvar olduğunu bildirmişdir. O, beynəlxalq terrorizmə qarşı mübarizədə ölkələrimizin yaxından əməkdaşlıq etdiyini vurğulayaraq, Azərbaycan sülhməramlılarının İraq və Əfqanıstanda ABŞ qoşunları ilə əlbir fəaliyyət göstərdiyini söyləmişdir. Hər iki ölkə arasındakı ticarət dövriyyəsinin mövcud potensialdan aşağı olduğunu bildirən nazir ABŞ Konqresində qəbul edilmiş Azadlığa dəstək aktına 907-ci düzəlişin qarşılıqlı münasibətlərin inkişafına mane olduğunu diqqətə çatdırmışdır.

Nazir qonaqları maraqlandıran suallara cavab verərkən ölkəmizin iqtisadi uğurlarından, habelə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi və ATƏT-in Minsk qrupunun hazırkı fəaliyyətindən söhbət açmış, münaqişənin beynəlxalq hüququn norma və prinsiplərinə uyğun olaraq, Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həllinin zəruriliyini vurğulamışdır.

E. Məmmədyarov Bakı-Tbilisi-Ceyhan neft, Bakı-Tbilisi-Ərzurum qaz kəmərləri və Qars-Axalkalaki-Tbilisi-Bakı dəmir yolu kimi irimiqyaslı layihələr, İƏT-in Bakı sam-

mitində müzakirə olunmuş məsələlər, region dövlətləri ilə münasibətlər və dünyada gedən bir sıra proseslərlə bağlı qonaqları maraqlandıran suallara da cavab vermişdir.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da geniş fikir mübadiləsi aparılmışdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ATƏT-İN HAZIRKI SƏDRİNİN XÜSUSİ ELÇİSİ PYER ŞEVALYENİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 11-də Prezident sarayında ATƏT-in hazırkı sədrinin xüsusi elçisi Pyer Şevalyeni qəbul etmişdir.

Görüş zamanı Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması ilə əlaqədar aparılan danışıqlar barədə fikir mübadiləsi olmuşdur.

KOREYA RESPUBLİKASININ PREZİDENTİ ROH MU-HYUNUN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin dəvəti ilə Koreya Respublikasının Prezidenti Roh Mu-hyun mayın 10-da ölkəmizə üçgünlük rəsmi səfərə gəlmişdir.

XARİCİ İŞLƏR NAZİRLİYİNDƏ GÖRÜŞ

Xarici İşlər naziri Elmar Məmmədyarov mayın 10-da Koreya Respublikasının xarici işlər naziri Pan Gi Mun ilə görüşmüşdür.

Koreyalı nazir qarşılıqlı şəkildə diplomatik nümayəndəliklərin təsis olunduğunu, nazir Elmar Məmmədyarovun Seula səfərini məmnuniyyətlə xatırlamış, ölkələrimizin prezidentləri arasında aparılacaq danışıqların uğurla nəticələnəcəyinə və ikitərəfli əlaqələrin daha da fəallaşmasına zəmin yaradacağına əminliyini bildirmişdir.

E. Məmmədyarov Koreya Respublikası Prezidentinin Azərbaycana səfərinin ikitərəfli münasibətlərin daha da genişlənməsinə təkan verəcəyini söyləmişdir.

Pan Gi Mun Azərbaycanın BMT-nin İnsan Hüquqları Şurasına üzv seçilməsi münasibətilə azərbaycanlı həmkarını təbrik etmiş, BMT strukturları daxilində fəaliyyətin əlaqələndirilməsinin zəruriliyini vurğulamışdır. O, enerji, nəqliyyat, tikinti, tibb, informasiya texnologiyaları və digər sahələrdə də ikitərəfli əməkdaşlığın inkişaf etdirilməsinin əhəmiyyətini qeyd etmiş və mövcud geniş potensialdan istifadə olunmasının vacibliyini xatırlatmışdır.

Görüşdə BMT daxilində islahatların keçirilməsi, təşkilatın strukturlarının təkmilləşdirilməsi və qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında geniş fikir mübadiləsi aparılmışdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ KOREYA RESPUBLİKASININ PREZİDENTİ ROH MU-HYUNUN TƏKBƏTƏK GÖRÜŞÜ

Mayın 11-də Prezident sarayında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Koreya Respublikasının Prezidenti Roh Mu-hyunun təkbətək görüşü olmuşdur.

Azərbaycan Prezidenti Koreya Respublikası rəhbərinin Bakıya rəsmi səfərini yüksək qiymətləndirdi, bu səfərin ölkələrimiz arasında siyasi, iqtisadi, mədəni, texnologiya və digər sahələrdə əlaqələrin genişlənməsinə və möhkəmlənməsinə imkan yaradacağını vurğuladı. Prezident İlham Əliyev Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli məsələsində Koreya Respublikasının tutduğu mövqeyi yüksək qiymətləndirdi.

Prezident Roh Mu-hyun Qafqaza ilk dəfə gəldiyini, Azərbaycanda gedən inkişafdan məmnunluğunu bildirdi. Ali qonaq dedi ki, ümummilli liderinizə olan hörmət xalqınızın yüksək keyfiyyətidir və bu, gələcək inkişafınızın yaxşı göstəricisidir. Koreya Respublikasının Prezidenti Azərbaycanla bütün sahələrdə, o cümlədən energetika sahəsində əməkdaşlıq üçün perspektivlərin real olduğunu, Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum neft və qaz kəmərlərinə böyük maraq göstərdiklərini söylədi.

Görüşdə iki ölkənin mövcud potensialından səmərəli istifadə olunmasının, təcrübə mübadiləsinin aparılmasının vacibliyi bildirildi, ikitərəfli münasibətlər, regional və beynəlxalq layihələr, qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında geniş fikir mübadiləsi aparıldı.

AZƏRBAYCAN VƏ KOREYA PREZİDENTLƏRİNİN GENİŞ TƏRKİBDƏ GÖRÜŞÜ

Mayın 11-də Prezident sarayında, təkbətək görüşdən sonra Azərbaycan Prezidenti İlham Əliyevin və Koreya Respublikasının Prezidenti Roh Mu-hyunun nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü keçirilmişdir.

Prezident İlham Əliyev Prezident Roh Mu-hyunu və səfərdə onu müşayiət edən nümayəndə heyətinin üzvlərini bir daha salamlayaraq, bu səfərin ölkələrimiz arasında müxtəlif sahələrdə əlaqələrin inkişafına töhfə verəcəyini söylədi. Dövlətimizin başçısı dedi ki, bu gün və sabah keçirilən görüşlərdə ikitərəfli münasibətlərə aid olan məsələləri müzakirə etmək imkanımız olacaqdır. Mən əminəm ki, bu səfərdən sonra Koreya Respublikası ilə münasibətlərimiz bütün sahələrdə daha da sürətlə inkişaf edəcəkdir.

Koreya Respublikasının Prezidenti Roh Mu-hyun ona və nümayəndə heyətinə göstərilən qonaqpərvərliyə görə Azərbaycan Prezidentinə və xalqına dərin təşəkkürünü bildirdi, Qafqaza ilk rəsmi səfərini məhz Azərbaycana etdiyini, ölkəmizin regionda sürətli iqtisadi inkişafa malik olduğunu vurğuladı.

O dedi ki, mən ölkələrimiz arasında diplomatik münasibətlər qurulduqdan sonra Koreya Respublikasının Azərbaycana rəsmi səfərə gəlmiş ilk Prezidentiyəm. Azərbaycanın bugünkü siyasi və iqtisadi inkişafı əməkdaşlığımızın genişləndirilməsinə əlavə imkanlar yaradır. İki ölkənin mövcud potensialı çox böyükdür və bundan axıra qədər istifadə olunmalıdır. Məhz bu məqsədlə özümlə dörd nazir gətirmişəm. Cənab Prezident, mən

bu fürsətdən istifadə edib, Sizi və nazirlərinizi ölkəmizə dəvət edirəm.

Prezident İlham Əliyev dəvətə görə təşəkkür edərək dedi ki, Siz Azərbaycana böyük nümayəndə heyəti ilə gəlmisiniz. Sizin fikrinizlə şərikəm ki, iki ölkənin böyük iqtisadi potensialı ikitərəfli münasibətlərimizin daha da inkişaf etdirilməsinə xidmət göstərəcəkdir.

Dövlətimizin başçısı artıq Azərbaycanın investisiya qoymaq iqtidarında olduğunu, Koreya Respublikasından sərmayə imkanları ilə yanaşı, bu ölkənin böyük kadr potensialından və iqtisadi sahədə təcrübəsindən yararlanmağın da zəruriliyini vurğuladı.

Prezident Roh Mu-hyun tarixi İpək yolunun bərpasının, digər nəqliyyat dəhlizlərinin Azərbaycan üçün əhəmiyyətindən danışdı və həyata keçirilən qlobal layihələrə, Bakıda səfirliyin açılmasına ölkəsinin böyük maraq göstərdiyini bildirdi.

Görüşdə hər iki ölkədə gedən sürətli iqtisadi inkişafda oxşarlığın olduğu vurğulandı.

Prezident İlham Əliyev Azərbaycanın hazırda yüksək inkişafa malik olan Koreya Respublikası ilə əlaqələrin inkişafı üçün gözəl şəraitin olduğunu söylədi və dedi ki, ölkələrimiz arasında ticarət əlaqələri üçün yaxşı tarazlıq yaratmaq olar. Azərbaycanın zəngin təbii sərvətləri, həyata keçirilən qlobal enerji layihələri, qeyri-neft sektoruna və regional inkişafa verilən diqqət, Koreya Respublikasının yüksək texnologiyaları və böyük təcrübəsi ticarət əlaqələrini tarazlaşdıra bilər. Ticarət əlaqələri bugünkü potensiala cavab vermir və bunu daha da artırmaq üçün böyük imkanlar vardır.

Prezident Roh Mu-hyun beynəlxalq və regional əməkdaşlığın davam etdiriləcəyini, ölkəmizdə hava nəqliyyatı sahəsində, dəniz limanlarının tikilməsində əməkdaşlığa, kimya, maşınqayırma sənayesində yüksək texnologiyaların tətbiqinə hazır olduqlarını diqqətə çatdırdı.

Görüşdə bu səfərin ikitərəfli əlaqələrin inkişafında mühüm rol oynayacağı və çox uğurlu olacağı bir daha vurğulandı, regional və beynəlxalq layihələr barədə söhbət getdi.

SƏNƏDLƏRİN İMZALANMA MƏRASİMİ

Mayın 11-də Prezident sarayında geniş tərkibdə görüşdən sonra Azərbaycan Respublikası ilə Koreya Respublikası arasında sənədlərin imzalanma mərasimi olmuşdur.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Koreya Respublikasının Prezidenti Roh Mu-hyun birgə bəyannamə imzaladılar.

Azərbaycan Dövlət Neft Şirkəti ilə Koreya Respublikasının Milli Neft Şirkəti arasında qarşılıqlı anlaşma və əməkdaşlığa dair memorandumu şirkətlərin rəhbərləri Rövnəq Abdullayev və Hvanq Du Yul, Azərbaycan Respublikasının Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi ilə Koreya Respublikasının İnformasiya və Rabitə Nazirliyi arasında qarşılıqlı anlaşma memorandumunu nazirlər Əli Abbasov və Ro Yun Yonq, Azərbaycan Respublikasının Sənaye və Energetika Nazirliyi ilə Koreya Respublikasının Ticarət, Sənaye və Energetika Nazirliyi arasında qarşılıqlı anlaşma memorandumunu nazirlər Natiq Əliyev və Çon Se Qyun, Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi ilə Koreya Respublikasının Tikinti və Nəqliyyat Nazirliyi arasında qarşılıqlı anlaşma memorandumunu nazirlər Kəmaləddin Heydərov və Çu Byun Çjik, Azərbaycan

Respublikasının Nəqliyyat Nazirliyi ilə Koreya Respublikasının Tikinti və Nəqliyyat Nazirliyi arasında qarşılıqlı anlaşma memorandumunu nazirlər Ziya Məmmədov və Çu Byun Çjik, Azərbaycan Respublikası Hökuməti ilə Koreya Respublikası Hökuməti arasında mədəniyyət sahəsində əməkdaşlığa dair sazişi Azərbaycanın mədəniyyət və turizm naziri Əbülfəs Qarayev və Koreya Respublikasının xarici işlər və xarici ticarət naziri Pan Gi Mun imzaladılar.

Azərbaycan Respublikası Hökuməti ilə Koreya Respublikası Hökuməti arasında hava xidməti sazişini isə Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov və Koreya Respublikasının xarici işlər və xarici ticarət naziri Pan Gi Mun imzaladılar.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ VƏ KOREYA RESPUBLİKASI HÖKUMƏTİ ARASINDA MƏDƏNİYYƏT SAHƏSİNDƏ ƏMƏKDAŞLIQ HAQQINDA SAZİŞ

11 may 2006-cı il

Azərbaycan Respublikası Hökuməti və Koreya Respublikası Hökuməti (bundan sonra "Razılığa gələn Tərəflər" adlandırılan),

iki ölkə arasında hazırda mövcud olan dostluq əlaqələrini daha da inkişaf etdirmək və gücləndirmək arzusunu rəhbər tutaraq, və

Razılığa gələn Tərəflər arasında mədəniyyət sahəsində əməkdaşlığı inkişaf etdirməyi arzulayaraq,

Aşağıdakılar barədə razılığa gəldilər:

MADDƏ 1

Razılığa gələn Tərəflər mədəniyyət sahəsində qarşılıqlı maraq doğuran məsələlərdə əməkdaşlığı həvəsləndirəcəklər və inkişaf etdirəcəklər.

MADDƏ 2

Razılığa gələn Tərəflər xüsusilə teatr, bədii və folklor qrupların, habelə fərdi ifaçıların mübadiləsini, digər Razılığa gələn Tərəfin təşkil etdiyi beynəlxalq film festivallarında iştirak etmək məqsədilə filmlərin mübadiləsi vasitəsilə kino sahəsində əməkdaşlığı və rəsm əsərlərindən ibarət sərgilərinin mübadiləsini həvəsləndirəcəklər.

MADDƏ 3

Razılığa gələn Tərəflər hər iki ölkənin muzeyləri, kitabxanaları və arxivləri arasında məlumat mübadiləsini və əməkdaşlığı həvəsləndirəcəklər

MADDƏ 4

Razılığa gələn Tərəflər digər Razılığa gələn Tərəfin təşkil etdiyi beynəlxalq konfranslar, seminarlar, müsabiqələr və mədəniyyət məsələləri ilə bağlı digər görüşlərdə öz nümayəndələrinin iştirakına kömək edəcəklər.

MADDƏ 5

Razılığa gələn Tərəflər hər bir ölkənin rəssamları arasında görüşləri və mübadiləsi və mədəniyyət sahəsində mütəxəssis və təcrübə mübadiləsini həvəsləndirəcəklər.

MADDƏ 6

Razılığa gələn Tərəflər Koreya Respublikasında "Azərbaycan Mədəniyyəti Günlərinin", Azərbaycan Respublikasında isə "Koreya Mədəniyyəti Günlərinin" keçirilməsi üçün səy göstərəcəklər.

MADDƏ 7

Bu Sazişin həyata keçirilməsi məqsədilə, Razılığa gələn Tərəflər öz nümayəndələrindən ibarət Azərbaycan - Koreya Birgə Komitəsini yaradacaqlar. Birgə Komitə üç ildən bir növbə ilə Bakıda və Seulda görüş keçirəcəkdir. Zərurət olduqda, Razılığa gələn Tərəflər Birgə Komitənin iclasım daha erkən bir tarixdə çağıra bİlərlər. Razılığa gələn Tərəflər Sazişin qüvvəyə minməsindən sonra üç ay ərzində diplomatik kanalları vasitəsilə öz nümayəndələri haqqında bir-birini məlumatlandıracaqlar.

MADDƏ 8

Razılığa gələn Tərəflərin qarşılıqlı razılığı ilə bu Sazişə əlavələr və dəyişikliklər edib bilər. Belə əlavələr və dəyişikliklər bu Sazişin ayrılmaz hissəsi olan ayrı-ayrı protokollar formasında rəsmiləşdiriləcək və bu Sazişin 9-cu maddəsində nəzərdə tutulan qaydada qüvvəyə minəcəkdir

MADDƏ 9

Razılığa gələn Tərəflər bu Sazişin qüvvəyə minməsi üçün tələb olunan daxili prosedurların başa çatması barədə bir-birinə yazılı bildiriş verəcəklər. Saziş sonuncu bildirişin tarixindən qüvvəyə minəcəkdir.

Bu Saziş beş il müddətində qüvvədə olacaqdır və Razılığa gələn Tərəflərdən biri müvafiq müddətin bitməsinə ən azı altı ay qalmış bu Sazişi ləğv etmək niyyəti barədə digər Razılığa gələn Tərəfə yazılı şəkildə bildirməzsə, Saziş avtomatik olaraq növbəti beş illik müddətlərə uzadılacaqdır.

BUNUN TƏSDİQİ OLARAQ, öz Hökumətləri tərəfindən müvafiq qaydada səlahiyyətləndirilmiş aşağıda imza edənlər bu Sazişi imzaladılar.

11 may 2006-cı il tarixdə Bakı şəhərində iki əsl nüsxədə, hər biri Azərbaycan, Koreya və İngilis dillərində imzalanmışdır, bütün mətnlər bərabər autentikdir. Təfsir zamanı fikir ayrılığı meydana çıxdığı təqdirdə İngilis dilində olan mətn üstünlük təşkil edəcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASININ MƏDƏNİYYƏT VƏ TURİZM NAZİRİ

ƏBÜLFƏS QARAYEV

KOREYA RESPUBLİKASININ XARİCİ İŞLƏR VƏ XARİCİ TİCARƏT NAZİRİ

PAN Gİ MUN

AZƏRBAYCAN RESPUBLİKASI VƏ KOREYA RESPUBLİKASI PREZİDENTLƏRİNİN MƏTBUAT ÜÇÜN BƏYANATLARI

Mayın 11-də Azərbaycan Prezidenti İlham Əliyev və Koreya Respublikasının Prezidenti Roh Mu-hyun Prezident sarayında aparılan danışıqların nəticəsinə dair mətbuat üçün bəyanatlarla çıxış etdilər.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN BƏYANATI

- Hörmətli cənab Prezident!

Hörmətli qonaqlar!

Mən sizin hamınızı Azərbaycanda salamlayıram və "Xoş gəlmisiniz!" deyirəm.

Bildiyiniz kimi, ilk dəfədir ki, Koreya Respublikasının Prezidenti Azərbaycana rəsmi səfər edir. Bu onu göstərir ki, bizim aramızda olan əlaqələr çox yüksək səviyyədədir. Mən əminəm ki, bu səfərdən sonra əlaqələrimiz daha da inkişaf edəcək və bütün sahələri əhatə edəcəkdir.

Bu gün biz çox səmərəli danışıqlar apardıq. İkitərəfli əlaqələrin gələcək inkişaf perspektivlərini müzakirə etdik, siyasi, iqtisadi, mədəni sahələrdə əməkdaşlığın perspektivləri geniş müzakirə olundu. Deyə bilərəm ki, müzakirələr çox faydalı keçdi. Əminəm ki, bu səfərdən sonra əlaqələrimizin inkişafı daha da sürətlə gedəcəkdir.

Biz ikitərəfli münasibətlərə böyük əhəmiyyət veririk. Təsadüfi deyil ki, bu yaxınlarda Koreya Respublikasında Azərbaycan səfirliyinin təsis edilməsi haqqında qərar qəbul olunmuşdur. Şübhəsiz, siyasi əlaqələrin yüksək pilləyə qalxması üçün güclü iqtisadi təməl olmalıdır və bu gün imzaladığımız sənədlər bu təməlin yaradılmasına xidmət edəcəkdir. İmzalanmış ikitərəfli sənədlər, demək olar ki, iqtisadi sahənin bütün istiqamətlərini əhatə edir.

Eyni zamanda, bu gün Koreya Respublikasının və Azərbaycanın iş adamlarının görüşü nəzərdə tutulubdur və ümid edirəm ki, bu görüşdən sonra real, artıq konkret layihələr üzərində ciddi işləyəcəyik. Energetika, nəqliyyat, infrastruktur layihələri - bütün bunlar ikitərəfli maraq doğurur və ümid edirəm ki, bu səfərdən sonra bütün bu istiqamətlərdə konkret addımlar atılacaqdır.

Koreya Respublikası iqtisadi cəhətdən dünyanın qabaqcıl ölkələrindən biridir, çox böyük nailiyyətlər qazanmışdır. Ancaq onu da bilirik ki, onun ilkin addımları, ilkin start vəziyyəti o qədər də asan deyildi. Ancaq Koreya Respublikası iqtisadi böhrandan iqtisadi inkişafa keçidin bu yolunu çox müvəffəqiyyətlə başa vurmuşdur və onların təcrübəsi bizim üçün də çox böyük əhəmiyyət kəsb edir.

Azərbaycanın da müasir tarixi buna oxşardır. Bizim keçmişimiz bir-birinə bənzəyir. Azərbaycan da iqtisadi tənəzzüldən, böhrandan çıxaraq, iqtisadi inkişafa qədəm qoyubdur. Belə olan halda, əlbəttə, Koreya Respublikasının təcrübəsi bizim üçün çox maraqlıdır və önəmlidir. Bütün sahələrdə uğurlu əməkdaşlıq etmək üçün hər cür şərait var - siyasi iradə, iqtisadi maraqlar var, real, konkret layihələr ətrafında fikir mübadiləsi aparılır. Əminəm ki, bu səfərdən sonra bizim əlaqələrimiz çox yüksək pilləyə qalxacaqdır. Sağ olun.

KOREYA RESPUBLİKASININ PREZİDENTİ ROH MU-HYUNUN BƏYANATI

-İlk növbədə mən, bizə və nümayəndə heyətimə göstərilmiş yüksək qonaqpərvərliyə görə cənab Prezidentə, sizin xalqınıza və hökumətin üzvlərinə dərin minnətdarlığımı bildirmək istəyirəm.

Biz buraya səfər etməzdən əvvəl Azərbaycan haqqında məlumatımız çox az idi. Lakin cənab Prezidentlə apardığımız danışıqlardan sonra biz gördük ki, burada ikitərəfli münasibətlər üçün imkanlar gözlədiyimizdən daha çoxdur. İndi isə Azərbaycan haqqında təəssüratlarımı Sizinlə bölüşmək istəyirəm.

Ümumiyyətlə, demək istəyirəm ki, Azərbaycanı xoşbəxt ölkə hesab edirəm. Çünki Azərbaycanın bu gün inkişaf üçün çox böyük imkanları vardır. Azərbaycan öz neft və qaz yataqlarından səmərəli istifadə etmək baxımından çox önəmli, mühüm bir coğrafi məkanda yerləşir. Lakin ölkənin bütün sahələrində uğurun qazanılması üçün təkcə bu amillər kifayət deyildir. Eyni zamanda, xalqın birliyi və onun müdrik rəhbərlik tərəfindən idarə olunması vacib hesab edilir.

Biz bilirik ki, Azərbaycanın özü böyük əziyyətlər çəkmiş və çətinliklərdən keçmişdir. Lakin, eyni zamanda, biz qeyd etmək istəyirik ki, Azərbaycan qonşu ölkənin ucbatından müəyyən əziyyətlər çəkmişdir. Ancaq Azərbaycan 1990-cı illərdə qazandığı müstəqilliyi itirməmişdir və bu müstəqilliyin qorunub saxlanmasında məhz Azərbaycanın böyük liderinin rolu var idi. Azərbaycan xalqı həmin böyük liderə inamla, onun addımlarını dəstəkləyərək, özünün möhkəm cəmiyyətini və inkişaf edən iqtisadiyyatını qurmağa nail olmuşdur.

İndi isə biz özümüz üçün Azərbaycan tarixinin növbəti səhifəsini açırıq. Mən Azərbaycana dəvət edildikdən, rəsmi səfərə başladıqdan sonra Azərbaycanın ümummilli lideri Heydər Əliyevin bu ölkə üçün gördüyü işləri öz gözümlə bir daha görmək imkanına nail oldum. Onun gördüyü işlərə, onun sayəsində əldə olunmuş nailiyyətlərə rəğbətlə yanaşıram.

Prezident İlham Əliyevlə apardığım danışıqlara gəldikdə isə, mən Azərbaycanın parlaq gələcəyi ilə bağlı onun fikirlərinə daha da əmin oldum. Azərbaycanın tarixi nailiyyətlərini nəzərə alaraq, bir daha şahidi oldum ki, ölkənizlə əməkdaşlıq sahəsində çox böyük imkanlara malik ola bilərik. Əminəm ki, biz bundan sonra bu imkanlardan istifadə edəcəyik.

Azərbaycandan söhbət gedəndə, hamı ilk növbədə, neft sektoru haqqında düşünür. Lakin Prezident Əliyevlə danışıqlarımız zamanı o, Azərbaycan iqtisadiyyatının digər sahələrində də iri layihələrin başlanmasına xüsusi marağını vurğuladı. Prezident Əliyev xüsusilə infrastruktur, tikinti, yolların çəkilməsi, hava, dəniz limanlarının tikilməsi və digər vacib layihələr haqqında söhbət açdı. Bunları nəzərə alaraq, hesab edirəm ki, Koreya Respublikasının iş adamları, işgüzar dairələri bu imkanlardan tam istifadə etməlidirlər. Düşünürəm ki, onlar qeyri-neft sektorundakı məhz həmin sahələrə xüsusi diqqət yetirməlidirlər. Sadaladığım bütün sahələrdə əməkdaşlıq baş tutarsa, bizim işgüzar dairələr Azərbaycan tərəfini heç vaxt məyus etməyəcəklər. Mən sizi inandıra bilərəm ki, bütün bu sahələrdə konkret işlərin görülməsi üçün bizim kifayət qədər imkanlarımız var.

Ölkəmizin bu yaxınlardakı tarixinə əgər nəzər salsaq, görərik ki, inkişaf, ümumiyyətlə yox idi. İllər keçdikcə, Koreya bu inkişaf sürətinə, nailiyyətinə nail ola bildi və dünyanın digər aparıcı ölkələri ilə bir cərgəyə qoşuldu. Eyni zamanda, bizim təcrübəmizin xüsusiyyətini də qeyd etmək istəyirəm. Digər ölkələr, bəlkə də, özlərinin təbii sərvətlərinə, ehtiyatlarına arxalanaraq inkişafa tez nail ola bildilər. Amma bizim bu cür imkanlarımız yox idi, demək olar, heç nədən, bu cür böyük inkişafa nail ola bildik. Hesab edirəm ki, bizim təcrübəmiz məhz bu baxımdan vacibdir. Hər hansı bir özəl müəssisənin inkişaf etdirilməsi bizim üçün ən vacib məsələdir. Bu sahədə ən təcrübəli insanlar məhz həmin məsələyə xüsusi diqqət yetirməlidirlər.

Azərbaycanın iqlimi Koreyadakı iqlimə oxşardır. Burada baxıram, seyr edirəm, ağaclar Koreyadakı ağaclara oxşardır. Hətta dəniz də anadan olduğum doğma şəhərin yanındakı dənizə oxşardır. Ona görə əminəm ki, Koreya xalqının nümayəndələri, hər hansı bir koreyalı Azərbaycana gəlsə, bundan çox xoşbəxt olacaqdır. Baxmayaraq, ölkələrimiz arasında bu günə qədər aparılmış əmtəə mübadiləsinin səviyyəsi o qədər böyük olmamışdır, amma hesab edirəm ki, real potensial və imkanlar qat-qat yüksəkdir, bundan istifadə edilməlidir.

Digər ölkələrlə müqayisədə, xalqımız indiki inkişaf səviyyəsinə daha tez çatmışdır. Azərbaycana səfər edən koreyalıların sayı bu günə qədər çox olmamışdır. Lakin hesab edirəm, bundan sonra qarşılıqlı səfərlərin sayı artacaqdır. Əgər belə səfərlər baş tutarsa, iki ölkənin xalqları bir-birinə daha da yaxınlaşacaqdır. Əminəm ki, Azərbaycanda olan koreyalıların sayı çoxalacaqdır.

Məni müşayiət edən çoxsaylı nazirlər və eyni zamanda, işgüzar dairələrin nümayəndələri Azərbaycana bu səfərimə xüsusi maraqla yanaşırlar. Onlar məni əmin etdilər ki, bundan sonra Azərbaycan həmkarları ilə işbirliyi qurmaq üçün real imkanlardan istifadə edəcəklər. Ona görə, hesab edirəm ki, ikitərəfli əməkdaşlığımız gələcəkdə konkret forma alacaqdır.

Azərbaycan hökuməti Seulda səfirliyinin təsis olunması ilə bağlı qərar qəbul etmişdir. Bu yaxınlarda səfirlik fəaliyyətə başlayacaqdır. Biz öz tərəfimizdən sizi əmin etmək istəyirik ki, Koreya Respublikasının Azərbaycandakı səfirliyi də artıq cari ildə fəaliyyətə başlayacaqdır.

Prezident Əliyevlə görüşüm zamanı onu ölkəmizə rəsmi səfərə dəvət etdim. Onun bu səfəri ikitərəfli münasibətlərimizin daha da inkişafına və iqtisadi əməkdaşlığımızın daha da genişləndirilməsinə xidmət edəcəkdir.

Cənab Prezident, Siz bugünkü görüşdə mənim dəvətimə cavab vermədiniz. İndi isə xahiş edirəm, cavab verəsiniz.

İLHAM ƏLİYEV: Mən böyük məmnuniyyətlə Sizin ölkəyə səfər edəcəyəm və biz bu gözəl dialoqu Koreyada davam etdirəcəyik. Dəvətə görə çox sağ olun.

AZƏRBAYCAN-KOREYA BİZNES FORUMU

Mayın 11-də "Avropa" hotelində Azərbaycan-Koreya biznes forumu keçirilmişdir.

İqtisadi İnkişaf nazirinin müavini Mikayıl Cabbarov forumu açaraq, ölkələrimiz arasında iqtisadi münasibətlərin tarixindən danışmış və əlaqələrin getdikcə inkişaf etdiyini vurğulamışdır. Bildirilmişdir ki, 2004-cü illə müqayisədə, 2005-ci ildə ölkələrimiz arasında ümumi ticarət dövriyyəsi 53 faiz, o cümlədən idxal əməliyyatlarının həcmi 78,2 faiz artmışdır. BMT-nin Ticarət və İnkişaf Konfransının (UNCTAD) ötən il dərc etdiyi hesabata görə, sərmayə cəlbediciliyi baxımından Azərbaycan dünyada birinci yeri tutur. Azərbaycan hökuməti Koreya Respublikasının iş adamlarına da ölkəmizdə biznesin təşkilində və ya mövcud biznesin genişləndirilməsində kömək göstərməyə hazırdır.

Koreya Ticarət və Sənaye Palatasının sədri Sohn Kyunq Şik çıxışında demişdir ki, ölkələrimiz qarşılıqlı maraq doğuran sahələrdə məhsuldar əməkdaşlıq edirlər. Koreya biznes icmasının əksər hissəsi üçün Azərbaycan Xəzər bölgəsində ən dinamik inkişaf sürətinə nail olan ölkədir və ona görə də böyük maraq doğurur.

Koreya Respublikası İxracın və İnvestisiyaların Təşviqi Agentliyinin (KOTRA) prezidenti Honq Ki Xua ölkəsinin iqtisadi imkanları barədə məlumat vermiş, qarşılıqlı iqtisadi əməkdaşlığın perspektivlərindən danışmışdır. Azərbaycanın MDB məkanında ən dinamik inkişaf edən ölkəyə çevrildiyini vurğulayan qonaq demişdir ki, energetika və informasiya texnologiyaları sahələri iqtsadi əməkdaşlıq üçün çox ümidvericidir.

Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun prezidenti Emil Məcidov Azərbaycanda biznes imkanları və investisiya mühiti, hüquqi qeydiyyat, gömrük rüsumları, vergi tarifləri və sair məsələlər barədə ətraflı məlumat vermişdir.

Sonra Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondu və Koreya Ticarət və Sənaye Palatası arasında anlaşma memorandumu imzalanmışdır. Tərəflər iş adamları arasında birbaşa əlaqələrin dəstəklənməsinə, qarşılıqlı iqtisadi əməkdaşlığın genişlənməsinə yardım göstərilməsinə dair öhdəlik götürmüşlər.

KOREYA RESPUBLİKASI PREZİDENTİNİN İŞ ADAMLARI İLƏ BİRGƏ NAHARI

Mayın 11-də, biznes forumu başa çatdıqdan sonra Koreya Respublikasının Roh Mu-hyunun hər iki ölkənin iş adamları ilə birgə naharı olmuşdur.

Əvvəlcə Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun (AZPROMO) prezidenti Emil Məcidov çıxış edərək, iqtisadi sahədə ikitərəfli münasibətlərin inkişaf perspektivlərindən danışaraq demişdir ki, Koreya Ticarət və Sənaye Palatası ilə imzalanmış memorandum iki ölkənin işgüzar dairələri nümayəndələrinin birbaşa əlaqələr yaratmasına imkan verəcəkdir.

Koreya Ticarət və Sənaye Palatasının sədri Sohn Kyunq Şik öz ölkəsinin biznesmenlərinin Azərbaycan iqtisadiyyatına sərmayə qoymağa böyük maraq göstərdiklərini vurğulayaraq, qarşılıqlı surətdə faydalı əməkdaşlığın gələcəkdə dərinləşəcəyinə əmin olduğunu bildirmişdir.

Sonra Azərbaycanın Baş naziri Artur Rasizadə çıxış etmişdir. O demişdir ki, Koreya Respublikasının Prezidenti Roh Mu-hyunun Azərbaycana səfəri, keçirilmiş görüşlər və aparılmış danışıqlar ikitərəfli əməkdaşlığın daha da inkişaf etməsinə təkan verəcəkdir. Baş nazir dövlət müstəqilliyinə qovuşduqdan sonra ölkəmizin ümummilli lideri Heydər

Əliyevin rəhbərliyi ilə bütün sahələrdə əldə etdiyi uğurlardan danışmış, ulu öndərin Azərbaycan dövlətçiliyinin möhkəmlənməsinə və respublikamızın beynəlxalq aləmdə nüfuzunun yüksəlməsinə yönəldilmiş siyasətinin hazırda Prezident İlham Əliyevin müvəffəqiyyətlə davam etdirdiyini vurğulamışdır. O demişdir ki, biz bir çox ölkələrlə və təbii ki, Koreya Respublikası ilə qarşılıqlı surətdə əməkdaşlığa böyük əhəmiyyət veririk. Ümidvaram, Koreya Respublikası rəhbərinin Azərbaycana rəsmi səfəri zamanı iki ölkənin iş adamları və rəsmi qurumlarının nümayəndələri arasında yaradılmış əlaqələr elə mühüm bünövrəyə çevriləcək ki, bunun əsasında qarşılıqlı surətdə faydalı münasibətlər daha intensiv inkişaf edəcəkdir. Yaxın gələcəkdə biz istər energetika sahəsində, istərsə də qeyri-neft sektorunda mühüm birgə layihələrin gerçəkləşəcəyinin şahidi olacağıq.

Koreya Respublikasının Prezidenti Roh Mu-hyun əvvəlcə Azərbaycana ilk səfəri zamanı gördükləri və milli iqtisadiyyatın yüksək inkişaf dinamikasından xəbər verən uğurlar barədə təəssüratını bölüşmüşdür. Dövlət başçısı öz ölkəsinin kəşməkəşli tarixinin əsas məqamları üzərində dayanaraq, İkinci Dünya müharibəsindən sonra dirçəlmə dövrünü yaşamış Koreya Respublikasının iqtisadi potensialından danışmışdır. O demişdir ki, indiki Koreya Respublikası yüksək inkişaf etmiş toxuculuq və avtomobil sənayesinə malikdir, elektronika, rabitə, yarımkeçiricilər istehsalı sahəsində ciddi göstəricilərə nail olmuşdur. Bundan başqa, ölkə şəhərsalma, təbii ehtiyatların işlənilməsi sahəsində dünyada liderdir. Hökumət yeni inzibati paytaxt yaratmağı planlaşdırır. Burada ən yüksək texnologiyalar, o cümlədən tikinti, ekologiya sahəsində texnologiyalar və informasiya texnologiyaları cəmləşdiriləcəkdir. Ölkədə daha 10 yeni şəhər də salmaq nəzərdə tutulur.

Koreya Respublikasının Prezidenti Azərbaycan dövlətinin başçısı İlham Əliyev ilə səmərəli danışıqlardan söhbət açaraq demişdir ki, ölkəniz tərəqqi etmək üçün hər cür imkanlara və zəngin təbii sərvətlərə malikdir. Koreyada olduğu kimi, Azərbaycanda da milli tarixə, qəhrəmanlara hörmət və ehtiramla yanaşırlar. Şəhidlər xiyabanını ziyarət zamanı bunu yəqin etdim.

Ali qonaq qarşılıqlı iqtisadi əməkdaşlığın perspektivlərindən danışaraq vurğulamışdır ki, onun ölkəsinin iqtisadiyyatı inkişaf etdirmək sahəsində zəngin təcrübəsi var və bu təcrübə Azərbaycana faydalı olardı. O, Azərbaycan biznesmenlərini koreyalı həmkarları ilə daha sıx əlaqələr yaratmağa çağırmış və demişdir ki, hər iki ölkədə səfirliklərin açılması da iqtisadi münasibətlərin inkişafına təkan verəcəkdir.

SƏNGƏÇAL TERMİNALI İLƏ TANIŞLIQ

Koreya Respublikasının Prezidenti Roh Mu-hyun mayın 11-də Səngəçal terminalı ilə tanış olmuşdur.

Dövlət Neft Şirkətinin prezidenti Rövnəq Abdullayev və bp şirkətinin vitse-prezidenti Mayk Tauzent ali qonağa və nümayəndə heyətinin üzvlərinə terminalın tikintisi, genişləndirilməsi proqramı barədə ətraflı məlumat vermişlər. Bildirilmişdir ki, ölkəmizdə həyata keçirilən bu layihənin tikintisinə 2001-ci ilin noyabrından başlanmış, indiyədək burada 25 milyon adam-saatdan çox iş görülmüşdür. Bu, dünya rekordu sayıla biləcək bir hadisədir. Terminalda hər birinin tutumu 880 barrel olan 3 xam neft çəninin, baş nasos stansiyasının, separatorların, idarəetmə məntəqəsinin tikintisi, sahildən 187 kilometr aralıda yerləşən "Mərkəzi Azəri" yatağından terminala qədər sualtı neft və qaz kəmərlərinin, fiber-optik rabitə kabellərinin çəkilişi, birləşdirmə və sınaq işləri tamam başa çatdırılaraq hazır vəziyyətə gətirilmişdir.

Terminalın ərazisini gəzən ali qonaq nəzarət-idarəetmə məntəqəsinin iş sistemi ilə də tanış edilmişdir. Məlumat verilmişdir ki, buradan Bakı-Novorossiysk, Bakı-Supsa və Bakı-Tbilisi-Ceyhan neft boru kəmərlərinin ölkə ərazisindəki hissələrində bütün prosesləri izləmək, hər hansı qəza, nasazlıq barədə dərhal xəbər tutmaq və müvafiq tədbir görmək mümkündür. BTC kəmərinin də tezliklə tam hazır olacağı vurğulanmışdır. Bildirilmişdir ki, kəmərin "qara qızıl"la doldurulmasına ötən ilin 25 mayında başlanmış, bunun üçün tələb olunan 10 milyon barrel xam neftin 8 milyon barreli kəmərə vurulmuşdur. Kəmər vasitəsilə dünya bazarlarına ildə 50 milyon tondan artıq neft ixrac ediləcəkdir.

Qonaqları maraqlandıran suallara da cavab verilmişdir.

Ali qonağa hədiyyə təqdim edilmiş, xatirə şəkli çəkdirilmişdir.

Koreya Respublikasının Prezidenti Roh Mu-hyun dünya səviyyəli terminalla tanışlıqdan və burada görülmüş işlərin səviyyəsindən məmnunluğunu bildirmişdir.

ALİ QONAĞIN ŞƏRƏFİNƏ

Mayın 11-də "Xəzər" qonaq evində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin adından Koreya Respublikasının Prezidenti Roh Mu-hyunun şərəfinə rəsmi qəbul təşkil edilmişdir.

Salona toplaşanlar dövlət başçılarını və onların xanımlarını hərarətlə qarşıladılar.

Prezident İlham Əliyev və Prezident Roh Mu-hyun qəbulda nitq söylədilər.

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ

- Hörmətli cənab Prezident Roh Mu-hyun!

Hörmətli xanım Kvon Yanq Suk!

Əziz qonaqlar!

Xanımlar və cənablar!

İlk növbədə, cənab Prezident, Sizi və rəhbərlik etdiyiniz nümayəndə heyətini Azərbaycanda bir daha səmimiyyətlə salamlayır və "Xoş gəlmisiniz!" deyirəm. Bu, Koreya Respublikası Prezidentinin Azərbaycana ilk rəsmi səfəridir. İnanıram ki, Sizin səfəriniz ölkələrimiz arasında münasibətlərin inkişafında mühüm rol oynayacaqdır. Keçirdiyimiz görüşlər zamanı biz ikitərəfli əməkdaşlıqla bağlı geniş fikir mübadiləsi, danışıqlar apardıq. Əminəm ki, bütün bunlar və eyni zamanda imzalanmış sənədlər, iki ölkənin iş adamlarının təşkil etdiyi biznes forumu əlaqələrimizin inkişafına və genişlənməsinə öz töhfəsini verəcəkdir. Azərbaycanla Koreya Respublikası arasındakı münasibətlərin ta-

rixi kökləri var. Qədim dövrlərdən başlayaraq ölkələri birləşdirən, sivilizasiyaların inkişafına, sülhə xidmət edən Böyük İpək Yolu xalqlarımızın tarixində çox mühüm rol oynamışdır. Mən ölkələrimiz arasında əməkdaşlığın müxtəlif sahələrdə dərinləşməsinin tərəfdarıyam. Bu baxımdan müqavilə hüquq bazasının yaradılması, qarşılıqlı səfərlər, Azərbaycanda və Koreya Respublikasında mədəniyyət günlərinin keçirilməsi yaxşı nümunədir. Eyni zamanda, ölkənizdə səfirlik təsis etmişik. Bakı Dövlət Universitetində Koreya dili şöbəsi fəaliyyət göstərir. İkitərəfli münasibətlərimizdə maraq doğuran neft və neft-kimyası, yanacaq və energetika, tikinti, nəqliyyat, informasiya və kommunikasiya texnologiyaları, mədəniyyət, hava nəqliyyatı və digər sahələrdə qarşılıqlı surətdə faydalı əməkdaşlığımızın yaxşı perspektivləri vardır.

Bu gün Azərbaycan böyük sürətlə inkişaf edən dövlətdir. 2005-ci ildə ölkə iqtisadiyyatı ən yüksək inkişaf tempinə malik olmuş, ümumi daxili məhsulun həcmi 26 faizdən çox artmışdır. Son iki il yarım ərzində ölkədə 380 min yeni iş yeri açılmışdır. Azərbaycan regionda sabitliyin və təhlükəsizliyin möhkəmlənməsinə, iqtisadi inkişafa və inteqrasiyaya təkan verəcək beynəlxalq layihələr həyata keçirir. Bakı-Tbilisi-Ceyhan neft kəməri, Bakı-Tbilisi-Ərzurum qaz kəməri, Bakı-Tbilisi-Qars dəmir yolu layihələri bütün regionun inkişafında mühüm rol oynayacaqdır.

Lakin mövcud münaqişələri aradan qaldırmadan regionda sülhə və təhlükəsizliyə nail olmaq mümkün deyildir. Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü regionda sabitliyi pozan başlıca amildir. Bu təcavüz və etnik təmizləmə siyasəti nəticəsində torpaqlarımızın 20 faizi işğal edilmiş, ölkədə bir milyondan çox qaçqın və məcburi köçkün yaranmışdır. Biz münaqişənin beynəlxalq hüququn normaları və prinsiplərinə uyğun, ölkəmizin ərazi bütövlüyü çərçivəsində, ədalətli şəkildə nizama salınmasını münaqişə ilə bağlı BMT Təhlükəsizlik Şurasının qətnamələrinin, ATƏT-in, Avropa Şurasının və digər beynəlxalq təşkilatların qərarlarının yerinə yetirilməsini tələb edirik.

Hörmətli cənab Prezident!

Azərbaycana rəsmi səfər etməyinizdən məmnun olduğumu bir daha ifadə edir, Sizə cansağlığı, ölkənizə və xalqınıza daim inkişaf və uğurlar arzulayıram.

Cənab Prezident, icazə verin, bu badəni Sizin şərəfinizə, xanım Kvon Yanq Sukun şərəfinə, Azərbaycanla Koreya Respublikası arasında səmimi dostluq və faydalı əməkdaşlıq əlaqələrinin inkişafı şərəfinə qaldırım.

KOREYA RESPUBLİKASININ PREZİDENTİ ROH MU-HYUNUN NİTQİ

- Zati-aliləri Prezident İlham Əliyev!

Birinci xanım Mehriban Əliyeva!

Hörmətli qonaqlar!

Zati-alilərinizin və xanım Əliyevanın nümayəndə heyətinə və mənə göstərdiyi yüksək qonaqpərvərliyə görə dərin minnətdarlığımı bildirirəm. Azərbaycana ilk Koreya Respublikası Prezidenti kimi səfər etməkdən olduqca məmnunam.

Ölkənizə dünən gəlməyimə baxmayaraq, dünyanın Azərbaycana nə üçün bu qədər diq-

qət yetirdiyini dərhal anladım. Mən getdiyim hər yerdə və tanış olduğum hər kəsdə ölkənizin inkişafını duydum. Bu gün günorta Səngəçal neft terminalına səfər etdim. O, sanki Azərbaycanın dünyaya açılan qüdrətinin rəmzinə bənzəyir.

Ötən il ərzində Azərbaycanın 26 faizlik heyrətedici iqtisadi artımı olmuşdur. Ölkə təkcə enerji sektorunda yox, tekstil, tikinti, elektronika və turizm sahələrində də güclü tərəqqiyə nail olmuşdur. Prezident İlham Əliyevin 2008-ci ildə Azərbaycanda ÜDM-in həcmini iki dəfə artırmaq planı qətiyyətlə həqiqətə çevrilməkdədir.

Əminəm ki, Azərbaycan Yeni İpək yolu erasında inkişaf edərək, aparıcı ölkə missiyasını daha da gücləndirəcəkdir. Mən Zati-alilərinizin rəhbərliyinə və Azərbaycan xalqının potensialına böyük rəğbətlə yanaşıram.

Zati-aliləri,

Bu gün keçirdiyimiz yüksək səviyyədə görüş olduqca uğurlu olmuşdur. Şübhə yoxdur ki, bu il ikitərəfli münasibətlərimizin inkişafında yeni dövrün başlanması ilə yadda qalacaqdır.

Bu gün biz Koreya Respublikası ilə Azərbaycan Respublikası arasında münasibətlərin və əməkdaşlığın prinsipləri haqqında Birgə Bəyannaməni, Koreya Respublikası hökuməti ilə Azərbaycan Respublikası hökuməti arasında mədəniyyət sahəsində əməkdaşlıq haqqında saziş və Koreya Respublikası hökuməti ilə Azərbaycan Respublikası hökuməti arasında hava xidmətləri haqqında saziş imzaladıq. Bu sənədlər gələcək inkişafın təməl daşına çevriləcəkdir. Eyni zamanda, Koreya ilə Azərbaycan arasında diplomatik münasibətlərin qurulmasından 14 il sonra ilk dəfə olaraq, bu il hər iki ölkənin daimi səfirlikləri açılacaqdır. Energetika, informasiya texnologiyaları, tikinti və daşımalar sahələrində əməkdaşlıq haqqında bu dəfə imzalanmış sənədlər iki ölkə arasındakı hərtərəfli işbirliyini keyfiyyətcə yeni səviyyəyə qaldıracaqdır.

Son dövrlərdə ölkələrimizin bir-birinə marağı daha da artmışdır. Taekvondo və Koreyanın ənənəvi ot təbabəti Azərbaycanda get-gedə daha da populyar olmuşdur. Ötən il Koreyanın televiziya proqramlarında paytaxtınız Bakı şəhəri haqqında veriliş yayımlanmışdır. Cari il ərzində Seulda Azərbaycan mədəniyyəti həftəsi keçiriləcəkdir.

Koreya Respublikası və Azərbaycan gələcəkdə bu cür mübadilə və əməkdaşlığı genişləndirməkdə davam edərək, bir-birinə arxalana biləcək daha etibarlı dostlara çevriləcəklər.

Hörmətli qonaqlar,

Prezidentin və xanım Əliyevanın şərəfinə, Azərbaycanın tərəqqisi və iki ölkə arasında dostluq naminə qaldırdığım badəyə qoşulmağınızı xahiş edirəm.

Çox sağ olun.

SƏFƏR BAŞA ÇATDI

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin dəvəti ilə ölkəmizdə rəsmi səfərdə olan Koreya Respublikasının Prezidenti Roh Mu-hyun mayın 12-də Bakıdan yola düşmüşdür.

XARİCİ İŞLƏR NAZİRİ KÜVEYT DÖVLƏTİNİN İNFORMASİYA NAZİRİNİN MÜAVİNİ ŞEYX FEYSƏL XƏLİFƏ ƏL-MƏLİK ƏL-SABAHI QƏBUL ETMİŞDİR

2006-cı il may ayının 11-də Azərbaycan Respublikasının Xarici İşlər Naziri Elmar Məmmədyarov Küveyt dövlətinin İnformasiya Nazirinin müavini şeyx Feysəl Xəlifə Əl-Məlik Əl-Sabahı qəbul etmişdir.

Səmimi qəbula görə təşəkkürünü bildirən qonaq Azərbaycan-Küveyt əlaqələrinin hərtərəfli inkişafını və bu sahədə Azərbaycanın Küveytdəki səfirliyinin rolunu yüksək qiymətləndirmişdir.

Öz növbəsində nazir E.Məmmədyarov Küveytin tezliklə Bakıda səfirliyinin açılmasından məmnun olduğunu ifadə etmiş və bu addımın iki ölkə arasında əlaqələrin daha da genişlənməsinə töhfə verəcəyini qeyd etmişdir.

Nazir E.Məmmədyarov, həmçinin cari ilin iyun ayının 19-21-də Bakıda keçiriləcək İKT-nın üzv dövlətlərinin xarici işlər nazirlərinin konfransında Küveytin xarici işlər nazirinin rəhbərlik etdiyi nümayəndə heyəti ilə də görüşəcəyini qeyd edərək, ikitərəfli əməkdaşlıqla bağlı danışıqların aparılacağını vurğulamışdır. Küveyt dövlətinin Azərbaycanın mövqeyini həmişə beynəlxalq təşkilatlarda həmişə dəstəklədiyini nəzərə çatdıraraq, Küveyt tərəfinin Azərbaycanın BMT-nin İnsan Hüquqları Şurasına namizədliyini dəstəklədiyinə görə də öz təşəkkürünü bildirmişdir.

Digər tərəfdən, nazir hər iki ölkənin işğala məruz qaldığını xatırladaraq, Azərbaycanın ərazi bütövlüyünün müzakirə mövzusu olmadığını, erməni milli azlığının Azərbaycanda yaşayan digər milli azlıqlarla yanaşı bu ölkənin vətəndaşları kimi tanındığını diqqətə çatdırmışdır.

Küveyt rəsmisi isə dünyada islamın nüfuzunun möhkəmlənməsi istiqamətində fəaliyyətin gücləndirilməsini və bu məqsədlə həm diplomatik, həm də informasiya sahəsində koordinasiya etməyin vacibliyini önə çəkmişdir.

XARİCİ İŞLƏR NAZİRİ ATƏT-İN FƏALİYYƏTDƏ OLAN SƏDRİNİN XÜSUSİ ELÇİSİ SENATOR PYER ŞEVALYENİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Cari il may ayının 11-də Azərbaycan Respublikasının Xarici İşlər Naziri Elmar Məmmədyarov ATƏT-in Fəaliyyətdə olan Sədrinin Xüsusi Elçisi Senator Pyer Şevalyenin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Səmimi qəbula görə təşəkkür edən qonaq Azərbaycana etdiyi səfərdən məmnun qaldığını bildirmişdir. Görüşdə tərəflər Azərbaycan-ATƏT əməkdaşlığı, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində aparılan sülh danışıqları prosesi, ölkəmizin bir sıra sosial-iqtisadi sahələrini əhatə edən islahatlar, irimiqyaslı enerji layihələri kimi məsələlər ətrafında geniş fikir mübadiləsi aparmışlar.

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə toxunan Nazir E. Məmmədyarov problemin beynəlxalq hüququn norma və prinsipləri çərçivəsində, Azərbaycanın

ərazi bütövlüyü və Konstitusiyası əsasında həll olunmasının vacibliyini vurğulamışdır. Eyni zamanda, cənab Məmmədyarov Ermənistan və Azərbaycanın Xarici İşlər Nazirlərinin may ayının ikinci yarısında Strasburq şəhərində nəzərdə tutulan görüşündə də bu prinsiplərin Azərbaycan tərəfinin prinsipial mövqeyini təşkil edəcəyini qeyd etmişdir.

Öz növbəsində, cənab Şevalye Ermənistanla Azərbaycan arasındakı münaqişənin nizama salınmasında beynəlxalq təşkilatların, xüsusən, ATƏT-in Minsk qrupunun vasitəçiliyi ilə aparılan danışıqların müsbət nəticə verəcəyinə ümidvar olduğunu söyləmişdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV UKRAYNANIN YANACAQ VƏ ENERGETİKA NAZİRİ İVAN PLAÇKOVUN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 16-da Prezident sarayında Ukraynanın yanacaq və energetika naziri İvan Plaçkovun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Dövlətimizin başçısı Azərbaycan ilə Ukrayna arasındakı münasibətlərin inkişaf etdiyini vurğuladı. Bu yaxınlarda Ukrayna Prezidenti ilə telefon vasitəsilə ikitərəfli münasibətlərin müxtəlif aspektləri ətrafında fikir mübadiləsi apardığını qeyd edən Prezident İlham Əliyev tezliklə iki ölkənin rəhbəri arasında Kiyevdə GUAM-ın sammiti çərçivəsində görüşün keçiriləcəyini də bildirdi.

İvan Plaçkov Ukrayna Prezidenti Viktor Yuşşenkonun salamlarını və məktubunu dövlətimizin başçısına çatdırdı. Məktubda Ukrayna Prezidenti ölkəsinin Azərbaycanla əlaqələri hərtərəfli inkişaf etdirməyə hazır olduğunu bildirmişdir. Azərbaycan-Ukrayna münasibətlərinin strateji xarakter daşıdığını vurğulayan Viktor Yuşşenko GUAM ölkələri dövlət başçılarının yaxın vaxtlarda Kiyevdə keçiriləcək sammitində Azərbaycan Prezidentinin iştirakını böyük məmnunluqla gözlədiklərini qeyd etmişdir.

Prezident İlham Əliyev Ukrayna Prezidenti Viktor Yuşşenkonun salamlarına görə minnətdarlığını bildirdi və onun da salamlarını Ukraynanın dövlət başçısına çatdırmağı xahiş etdi.

AZƏRBAYCAN-İSRAİL MÜNASİBƏTLƏRİ ÖLKƏLƏRİMİZİN MİLLİ MƏNAFELƏRİNƏ XİDMƏT EDİR

Mayın 16-da Xarici İşlər naziri Elmar Məmmədyarov İsrail parlamentinin üzvü Yosef Şaqalın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşmüşdür.

Doğma şəhərinə səfərindən məmnunluğunu söyləyən Y. Şaqal ölkələrimiz arasında mövcud əlaqələrin daha da inkişaf etdirilməsinin zəruriliyini vurğulamışdır.

E. Məmmədyarov Azərbaycan ilə İsrail arasında siyasi, iqtisadi və mədəni əlaqələrin ölkələrimizin milli mənafeyinə xidmət etdiyini söyləmişdir.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində aparılan sülh danışıqları prosesinə toxunan nazir demişdir ki, Azərbaycan problemin beynəlxalq hüququn normaları və prinsipləri əsasında, ölkəmizin ərazi bütövlüyü çərçivəsində,

ümumiyyətlə regiondakı bütün münaqişələrin sülh və diplomatik danışıqlar yolu ilə həllinə tərəfdardır.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da geniş fikir mübadiləsi aparılmışdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV "BP" ŞİRKƏTİNİN İCRAÇI VİTSE-PREZİDENTİ ENDRYU İNQLİSİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 17-də Prezident sarayında "bp" şirkətinin icraçı vitse-prezidenti Endryu İnqlisi qəbul etmişdir.

Dövlətimizin başçısı bu il Bakı-Tbilisi-Ceyhan neft və Bakı-Tbilisi-Ərzurum qaz kəmərlərinin fəaliyyətə başlayacağını bildirdi. O, enerji təhlükəsizliyi məsələsinin prioritet xarakter almağa başladığı hazırkı dövrdə bu boru kəmərlərinin yalnız region üçün deyil, dünya üçün əhəmiyyət kəsb etdiyini vurğuladı. Prezident İlham Əliyev "bp" şirkətinin ölkəmizin enerji strategiyasının həyata keçirilməsində rolunu qeyd etdi.

Endryu İnqlis Azərbaycana son səfərindən ötən bir il ərzində ölkəmizdə enerji layihələrinin həyata keçirilməsi istiqamətində böyük tərəqqiyə nail olunduğunu qeyd etdi. O, Azərbaycanın enerji təminatı sahəsində etibarlı tərəfdaşa çevrildiyini bildirdi və bu nailiyyətlərin xalqımızın ümummilli lideri Heydər Əliyevin uzaqgörən siyasəti nəticəsində əldə edildiyini vurğuladı. Qonaq "bp" şirkətinin Azərbaycanla əməkdaşlığı bundan sonra da davam etdirəcəyinə əminliyini söylədi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İRANIN XƏZƏR MƏSƏLƏLƏRİ ÜZRƏ XÜSUSİ NÜMAYƏNDƏSİ MEHDİ SƏFƏRİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 18-də Prezident sarayında İranın Xəzər məsələləri üzrə xüsusi nümayəndəsi Mehdi Səfərini qəbul etmişdir.

Mehdi Səfəri Prezident Mahmud Əhmədinejadın salamlarını dövlətimizin başçısına çatdıraraq qeyd etmişdir ki, İran Prezidenti İƏT-in Azərbaycanda zirvə toplantısının yüksək səviyyədə keçirilməsindən və Prezident İlham Əliyev ilə görüşündən çox məmnun olduğunu bildirmişdir.

Dövlətimizin başçısı salamlara görə minnətdarlığını bildirmiş və onun da salamlarını İran Prezidentinə çatdırmağı xahiş etmişdir.

Görüş zamanı qarşılıqlı maraq doğuran bir sıra digər məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV MUSİQİ XADİMİ, "İPƏK YOLU" LAYİHƏSİNİN RƏHBƏRİ, ABŞ VİOLONÇELÇALANI YO YO MANI QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 19-da Prezident sarayında musiqi xadimi, "İpək Yolu" layihəsinin rəhbəri, ABŞ violonçelçalanı Yo Yo Manı qəbul etmişdir.

Yo Yo Ma Azərbaycana səfərini çox böyük səbirsizliklə gözlədiyini və ölkəmizə gəlişindən dərin məmnunluq keçirdiyini bildirmişdir. O, Azərbaycan mədəniyyətinin bir sıra nümayəndələri ilə bundan öncə görüşdüyünü vurğulayaraq, ölkəmizdə son illər mədəniyyətin inkişafı sahəsində böyük işlər görüldüyünü qeyd etmişdir.

Dövlətimizin başçısı məşhur mədəniyyət xadimi Yo Yo Manın ölkəmizə gəlməsindən məmnunluğunu ifadə etmiş və bu cür səfərlərin Azərbaycan mədəniyyəti haqqında dünyada dolğun məlumatın yayılması işində əhəmiyyətini vurğulamışdır.

XARİCİ İŞLƏR NAZİRİ STRASBURQA SƏFƏRƏ GƏLMİŞDİR

Cari ilin 18 may tarixində Strasburqa səfərə gəlmiş Azərbaycan Respublikasının Xarici İşlər Naziri Elmar Məmmədyarov ATƏT-in Minsk Qrupunun həmsədrləri ilə həm ayrıca formatda, həm də Ermənistanın Xarici İşlər Nazirinin iştirakı ilə görüşlər keçirmişdir. Görüşlər zamanı Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə nizama salınmasının çoxsaylı aspektləri müzakirə edilmişdir.

May ayının 18-də Nazir E.Məmmədyarov, həmçinin Avropa Şurasının Baş Katibi Terri Devis ilə görüş keçirmişdir. Görüşdə tərəflər Cənubi Qafqaz bölgəsində vəziyyət, xüsusilə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli, Azərbaycanda demokratikləşmə prosesinin inkişafı ilə bağlı məlumat mübadiləsi aparmışlar. Azərbaycanın AŞ ilə əməkdaşlığın inkişafına xüsusi diqqət yetirilmişdir. Nazir E.Məmmədyarov ölkəmizin AŞ ilə əməkdaşlığın inkişaf etdirilməsinə xüsusi önəm verdiyini bildirmişdir. AŞ-nın Baş Katibi Azərbaycanda təkrar parlament seçkilərinin təşkili və keçirilməsindən razı qaldığını qeyd etmişdir.

Həmin gün Nazir E.Məmmədyarov AŞPA-nın Baş Katibi Matias Sorinas ilə görüşmüşdür. AŞPA müşahidəçiləri tərəfindən də yüksək qiymətləndirilmiş təkrar parlament seçkilərinin müvəffəqiyyətlə keçirilməsi ilə əlaqədar Baş Katib M.Sorinas Azərbaycan tərəfini təbrik etmişdir. Görüşdə Azərbaycanın AŞPA ilə gələcək əməkdaşlığı müzakirə edilmişdir.

Elə həmin gün Nazir E.Məmmədyarov AŞ-nın Baş Katibi T.Devisin təşəbbüsü ilə Xarici İşlər Nazirlərinin qeyri-rəsmi görüşündə iştirak etmişdir.

May ayının 19-da Nazir E.Məmmədyarov GUAM-a üzv olan ölkələrin Xarici İşlər Nazirləri ilə görüş keçirmiş, bu təşkilata üzv olan ölkələrin dövlət başçılarının Kiyevdə qarşıdakı zirvə toplantısına hazırlıq çərçivəsində və həmçinin, GUAM dövlətləri üçün qarşılıqlı maraq kəsb edən geniş spektrda məsələləri müzakirə etmişdir.

Həmin gün Xarici İşlər Naziri E.Məmmədyarov İnsan Hüquqları üzrə Avropa Konven-

siyasının 14-cü protokolunun Azərbaycan Respublikası tərəfindən ratifikasiya barədə sənədi AŞ-nın Baş Katibi T.Devisə təqdim etmişdir.

Xarici İşlər Naziri E.Məmmədyarov, həmçinin Avropa Şurası Nazirlər Komitəsində çıxış etmişdir.

Nazir çıxışında Varşava sammitində qəbul edilmiş fəaliyyət planının implementasiyasına, Avropa Şurası və Avropa İttifaqı arasında əməkdaşlıq, Avropa İnsan Hüquqları Məhkəməsində islahatlar və digər mövzulara toxunmuşdur. Nazir həmçinin may ayının 13-də Azərbaycan Respublikasının Milli Məclisinə keçirilmiş seçkilər ilə bağlı təşkilati məsələlər barədə də ətraflı məlumat vermişdir.

Nazirin çıxışında əsas yerlərdən birini Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin sülh yolu həllinə yönəlmiş danışıqların inkişafı, münaqişənin regionun ictimai-siyasi, iqtisadi və digər sahələrdə davamlı inkişafına mane olması və s kimi məsələlər tutmuşdur.

Nazirlər Komitəsinin işinin nəticəsi olaraq, Kommunike qəbul edilmişdir. Kommunikedə bir sıra məsələlər ilə yanaşı davam edən münaqişələrlə bağlı Nazirlərin narahatçılığı da öz əksini tapmışdır.

Qəbul edilmiş "Sədrin yekun sənədində" AŞPA tərəfindən Azərbaycanda keçirilmiş Parlament seçkilərinə verilmiş müsbət qiymət xüsusilə qeyd edilmişdir.

Bundan əlavə AR Xarici İşlər Naziri E.Məmmədyarov tərəfindən Sloveniyanın Xarici İşlər Naziri Dmitri Rupel, Gürcüstanın Xarici İşlər Naziri Qela Bejuaşvili, Almaniyanın Səfiri, AQO qrupunun sədri Roland Veqener ilə ikitərəfli görüşlər keçirilmişdir. Görüşlər zamanı qarşılıqlı maraq kəsb edən bir sıra məsələlər ətrafında geniş fikir mübadiləsi aparılmışdır.

Elə həmin gün Nazir vətənə dönmüşdür.

GUAM ÖLKƏLƏRİNİN XARİCİ İŞLƏR NAZİRLƏRİ STRASBURQDA GÖRÜŞMÜŞLƏR

Mayın 22-də Ukrayna XİN-də GUAM ölkələri Xarici İşlər Nazirləri Şurasının iclası keçirilmişdir. İclasda Azərbaycan, Ukrayna, Gürcüstan XİN-lərinin başçıları Elmar Məmmədyarov, Boris Tarasyuk, Gela Bejuaşvili, Moldova xarici işlər nazirinin müavini Valeriu Ostalep iştirak etmişlər.

Görüşdə bildirilmişdir ki, Xarici İşlər Nazirləri Şurasının indiki iclası və GUAM-ın növbəti sammiti bu ölkələrin GUAM formatında əməkdaşlığa başladığı vaxtdan dalbadal 10-cu ildir keçirilir və yubiley tədbirləridir. Bu illər ərzində təşkilatın iştirakçısı olan dövlətlər əməkdaşlığın daha yüksək formasına - GUAM-ın tamhüquqlu beynəlxalq təşkilata çevrilməsi formasına yaxınlaşmışlar. Tərəflər vurğulamışlar ki, bu, özünün varlığı və fəaliyyəti ilə regionda sabitliyin və təhlükəsizliyin möhkəmlənməsinə kömək göstərən qurum kimi GUAM-ın həyat qabiliyyətli və perspektivli olduğunu təsdiqləmişdir.

Nazirlər dövlət başçılarının zirvə görüşünə hazırlığın vəziyyətini müzakirə etmiş, 2006-cı ilin sonunadək GUAM-ın iş proqramını, 2006-cı ildə BMT çərçivəsində GUAM dövlətlərinin fəaliyyət planını, beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq sa-

həsində GUAM dövlətlərinin fəaliyyət planını, ticarətin və nəqletmənin dəstəklənməsi üzrə GUAM layihəsinin rəhbər komitəsinin katibliyi haqqında əsasnamənin təsdiqlənməsinə dair qərarı, habelə diplomatiya sahəsində müəllimlərin hazırlanmasına dair xarici işlər nazirlikləri arasında sazişi razılaşdırmışlar.

Həmin gün Kiyevdə GUAM ölkələrinin iqtisadiyyat, energetika, nəqliyyat nazirləri, gömrük xidmətlərinin, sərhəd idarələrinin rəhbərləri səviyyəsində bir neçə iclas da keçirilmişdir. GUAM ölkələrinin ticarət palatalarının sədrləri və hüquq mühafizə orqanlarının rəhbərləri səviyyəsində də iclaslar olacaqdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV VATİKANIN DÖVLƏTLƏRLƏ ƏLAQƏLƏR ÜZRƏ DÖVLƏT KATİBİ ARXİYEPİSKOP COVANNİ LAYOLONUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 22-də Prezident sarayında Vatikanın dövlətlərlə əlaqələr üzrə dövlət katibi arxiyepiskop Covanni Layolonun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Prezident İlham Əliyevin Vatikan Dövlətinə səfərinin uğurla keçdiyini bildirən arxiyepiskop Covanni Layolo dövlətimizin başçısı ilə görüşünü məmnunluqla xatırlatdı. Qonaq Roma Papası Zati-müqəddəsləri XVI Benediktin salamlarını Prezident İlham Əliyevə çatdırdı.

Dövlətimizin başçısı İlham Əliyev Vatikana səfərinin səmərəli keçdiyini vurğuladı, Zati-müqəddəsləri XVI Benediktin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Roma Papasına çatdırmağı xahiş etdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN UKRAYNAYA SƏFƏRİ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev GUAM-ın üzvü olan ölkələrin dövlət başçılarının Kiyevdə keçiriləcək zirvə görüşündə iştirak etmək üçün mayın 22-də Ukraynaya səfərə gəlmişdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN GÜRCÜSTAN PREZİDENTİ MİXAİL SAAKAŞVİLİ İLƏ GÖRÜŞÜ

Mayın 22-də Kiyevdə "Nasionalnaya" mehmanxanasında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Gürcüstan Prezidenti Mixail Saakaşvilinin görüşü olmuşdur.

Görüşdə Azərbaycan ilə Gürcüstan arasında əlaqələrin inkişafı, ikitərəfli münasibətlərin müxtəlif sahələri, beynəlxalq təşkilatlar, o cümlədən GUAM çərçivəsində əməkdaşlıq və qarşılıqlı maraq doğuran bir sıra digər məsələlər müzakirə edilmişdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN UKRAYNA PREZİDENTİ VİKTOR YUŞŞENKO İLƏ GÖRÜŞÜ

Mayın 23-də Kiyevdə Azərbaycan Prezidenti İlham Əliyevin və Ukrayna Prezidenti Viktor Yuşşenkonun görüşü olmuşdur. Danışıqlarda siyasi, iqtisadi və digər sahələrdə ikitərəfli əlaqələrin vəziyyəti və inkişaf perspektivləri barədə fikir mübadiləsi aparılmışdır.

Görüşdən sonra keçirilən brifinqdə prezidentlər müzakirə edilmiş məsələlər barədə jurnalistlərə məlumat verdilər.

VİKTOR YUŞŞENKO: İndi biz Azərbaycan tərəfi ilə ikitərəfli danışıqlar apardıq. Qeyd etmək istərdim ki, iqtisadiyyat, ticarət və energetika sahələrində qarşılıqlı əlaqələrə aid məsələlər danışıqlarda diqqət mərkəzində idi. Daha doğrusu, bu gün demək olar ki, diskussiyamızın əsas məqsədi həmin sahələrdə, o cümlədən də energetika sahəsində mövcud olan qarşılıqlı imkanları maksimum öyrənməkdir. Biz infrastruktur sistemi, ondan istifadə və enerji bazarının bu və ya digər hissəsinin keyfiyyətcə yeni təşkili naminə infrastrukturdan istifadənin dəyişdirilməsi barədə danışdıq. Biz, ilk növbədə, Ukraynanın energetika bazarından söhbət açdıq. Mən bildirdim ki, Ukrayna tərəfi Odessa rayonunda birgə layihələrdən, terminaldan, Odessa-Brodı neft kəmərindən, Qazaxıstan neftinin Brodıda, tikintisi hazırda nəzərdən keçirilən neftayırma zavodunda dərin emalından tutmuş Azərbaycan tərəfi ilə əməkdaşlığı inkişaf etdirməyə hazırdır. Xam neftin dərin emalı, o cümlədən kimyəvi komponentlər istehsalı üçün təxminən 3 milyard dollar həcmində maliyyələşdirmə nəzərdə tutan beynəlxalq memorandum imzalanmışdır.

Biz Brodı-Qdansk layihəsini gerçəkləşdirməyin perspektivlərindən də danışdıq, Avropa İttifaqının, Avropa Bankının onu maliyyələşdirməyə hazır olduğunu təhlil etdik və bu layihənin həyata keçirilməsinə dair dialoqun davam etdirilməsi barədə razılığa gəldik. Biz digər imkanlardan, o cümlədən də Ukrayna ərazisində Azərbaycan istehsalçılarının mənafelərinin təmsil olunduğu yanacaqdoldurma stansiyaları şəbəkəsinin təşkilindən danışdıq. Razılığa gəldik ki, bununla üç gündən sonra yaradılacaq müvafiq işçi qrupu məşğul olacaqdır. Ekspert səviyyəsində, peşəkar səviyyədə layihələr işlənib hazırlanacaq və bunlar həyata keçirilmək üçün müvafiq surətdə iki ölkənin hökumətlərinə təklif ediləcəkdir.

İLHAM ƏLİYEV: İkitərəfli münasibətlərimizin böyük tarixi var və indi keyfiyyətcə tamamilə yeni səviyyəyə çıxır. Biz ikitərəfli münasibətləri həmişə geniş səpkidə müzakirə edirik. Buraya həm siyasi dialoq, iqtisadi əməkdaşlıq, energetika sahəsində əməkdaşlıq məsələləri, həm də ölkələrimizin şirkətlərinin birgə biznes layihələrində iştirakı daxildir. Hazırda bu sahələrdə daha səmərəli əməkdaşlıq üçün çox yaxşı perspektivlər açılır. Əlbəttə, indi energetika sektoru ilə bağlı məsələlər regionumuzda da, dünyada da ön sıraya keçir. Onlar regional əməkdaşlığın təhlükəsizliyi, dövlətlərimizin müstəqil xəttinin inkişafı və möhkəmləndirilməsi məsələləri ilə sıx bağlıdır. Ona görə də bu məsələlər müzakirələrimizdə, şübhəsiz, diqqət mərkəzində olmuşdur. Əməkdaşlıq üçün artıq yaxşı perspektivlər vardır. Azərbaycan karbohidrogen ehtiyatlarının iri hasilatçısına çevrilir.

Gələn il Azərbaycanda neft hasilatının həcmi 30 milyon tondan artıq olacaq, bizim proqnozlara və beynəlxalq qurumların proqnozlarına görə, 2008-ci il üçün isə Azərbaycanda hər il 60 milyon ton neft hasil ediləcəkdir. "Şahdəniz" yatağından böyük həcmdə qaz hasil ediləcəyi gözlənilir ki, bu da Azərbaycanı həm də qaz ixrac edən ölkəyə çevirəcəkdir. Təbii ki, bu məsələlər bizim görüşümüzdə müzakirə olunmuşdur, qarşılıqlı surətdə faydalı əməkdaşlıq üçün çox yaxşı perspektivlər var. Bilirsiniz ki, Azərbaycandan, ümumən Xəzər regionundan enerji daşıyıcılarının nəqlinin şaxələndirilməsi məsələsi indi geniş müzakirə olunur. Biz bu istiqamətdə müəyyən uğurlar əldə etmişik, Azərbaycandan Qara dənizin, Aralıq dənizinin müxtəlif limanlarına 3 boru kəməri çəkilmişdir. Azərbaycan qazının Gürcüstana və Türkiyəyə, ola bilsin, sonradan Avropanın digər ölkələrinə də nəqli üçün iri qaz kəmərinin inşası başa çatmaqdadır. Ukrayna etibarlı tərəfdaşımızdır və bizi iqtisadi sahədə çox fəal əməkdaşlıq birləşdirir. Energetika və neft-qaz sektorunda əməkdaşlıq məsələləri indi daha real görünür. Biz bu məsələləri çox ətraflı, təfsilatı ilə müzakirə etdik. Əminəm ki, bu yaxınlarda müfəssəl işə başlayacaq ekspertlər qrupu qısa müddət ərzində gələcək mümkün sazişlərin konkret iqtisadi parametrlərini bizə təqdim edəcəkdir. Ümumən demək istəyirəm ki, Ukraynaya səfərimdən çox razı qaldım, GUAM zirvə görüşü çərçivəsində çox mühüm qərarlar qəbul edilmiş, habelə dünən və xüsusilə bu gün səhərdən axşamadək ikitərəfli əlaqələrimizi müzakirə etmək üçün yaxşı imkan var idi, mən bu münasibətləri yüksək qiymətləndirirəm. Ukrayna ilə Azərbaycan arasında münasibətlərin dinamik inkişafı bizdə böyük məmnunluq doğurur. Bu, təkcə bizim xeyrimizə deyil, həm də regional inkişafın çox mühüm sabitləşdirici amilidir.

SUAL: Cənab Əliyev, GUAM-ın üzvü olan ölkələr arasında yalnız Azərbaycan neft hasilatı və neft emalı məhsullarının mümkün ixracçısıdır. GUAM ölkələri üçün hansı həcmdə və müddətdə neft göndəriləcəyinə təminat verə bilərsinizmi?

İLHAM ƏLİYEV: Bu məsələ, əlbəttə, müzakirə olunmuşdur. Deməliyəm ki, artıq indi Azərbaycanın nefti və neft məhsulları dünya bazarlarına, o cümlədən GUAM ölkələrinə göndərilir. Gürcüstan bazarına Azərbaycanın neft məhsulları böyük həcmdə göndərilir, biz Moldova ilə də işləmişik, oraya neft məhsulları göndərmişik. Bir neçə il əvvəl, Ukraynada yanacaqla bağlı böhranlı şərait yarananda bu ölkəyə də neft məhsulları göndərilmişdir. Yəni bu, təzə məsələ deyil, əvvəllər də var idi, sadəcə olaraq, indiki mərhələdə bütün bunlar daha miqyaslı xarakter alır, çünki Azərbaycanda neft hasilatının səviyyəsi ilbəil artır. Dediyim kimi, 2008-ci ildə hasilat 60 milyon ton təşkil edəcəkdir. Əlbəttə, bizim imkanlarımız artacaqdır. Ukrayna bazarına neft göndərilməsi məsələləri tamamilə realdır, onlar hazırda nəzərdən keçirilir və hesab edirəm ki, ekspert qiymətləndirilməsi başa çatan kimi, yaxın vaxtlarda bu istiqamətdə real işə başlaya biləcəyik.

VİKTOR YUŞŞENKO: Biz dedik ki, artıq bu gün Qara dəniz regionunda bir neçə milyon ton sərbəst neft var. Biz təkcə Azərbaycan neftini deyil, ümumən Xəzər neftini nəzərdə tuturuq. Buna görə də Qara dəniz regionunda neftlə bağlı sabit siyasətimizin olub-olmamasından danışsaq, qətiyyətlə deyə bilərəm ki, əlbəttə, var, əlbəttə mövcuddur. Cənab Prezidentin dediyi perspektivlər nəzərə alınmaqla isə, bu fikir daha da möhkəmlənir.

KİYEVDƏ GUAM ÖLKƏLƏRİ DÖVLƏT BAŞÇILARININ ZİRVƏ GÖRÜŞÜ KEÇİRİLMİŞDİR

Mayın 23-də Kiyevdə Prezident sarayında GUAM-ın üzvü olan ölkələrin dövlət başçılarının zirvə görüşü keçirilmişdir. Zirvə görüşünün geniş iclasının gündəliyinə GUAM-ın regional qurumdan beynəlxalq təşkilata çevrilməsinin elan olunması, Nizamnamənin və Birgə bəyannamənin imzalanması, habelə bir sıra digər məsələlərin müzakirəsi daxil idi.

Ukrayna Prezidenti Viktor Yuşşenko zirvə görüşünü açaraq, GUAM ölkələrinin dövlət başçılarını - Azərbaycan Prezidenti İlham Əliyevi, Gürcüstan Prezidenti Mixail Saakaşvilini, Moldova Prezidenti Vladimir Voroninі, habelə qonaqları - Litva Prezidenti Valdas Adamkusu, Bolqarıstanın vitse-prezidenti Angel Marini, Rumıniyanın, ABŞ Dövlət Departamentinin, ATƏT-in nümayəndələrini salamladı. O dedi ki, bu zirvə görüşü gələcək inkişaf üçün böyük əhəmiyyət daşıyır. GUAM-ın beynəlxalq təşkilata çevrilməsi beynəlxalq münasibətlərin keyfiyyətcə yeni sisteminin formalaşmasının ümumi proseslərinin bir hissəsidir. Beynəlxalq təşkilatların və digər ölkələrin nümayəndələrinin bu görüşdə iştirak etməsi GUAM-a olan marağı bir daha nümayiş etdirir. Bu qurumla Avropa İttifaqı arasında əməkdaşlığın genişləndirilməsi GUAM-ın üzvü olan ölkələrin ərazi bütövlüyünün təmin edilməsi, sülh və təhlükəsizliyin möhkəmləndirilməsi üçün də faydalı olacaqdır. GUAM ölkələrinin qarşılaşdıqları münaqişələrə yalnız birgə səylərlə son qoymağın mümkünlüyünü bildirən Ukrayna Prezidenti dedi ki, biz bütün qonşu ölkələri bu münaqişələrin həlli üçün təsirli səylər göstərməyə çağırırıq. O vurğuladı ki, GUAM bu istiqamətdə Avropa İttifaqı, ATƏT, habelə ABŞ və digər dövlətlərlə fəal və konstruktiv qarşılıqlı fəaliyyətə hazır olduqlarını bildirmişlər.

Azərbaycan Prezidenti İlham Əliyev zirvə görüşündə nitq söylədi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ

- *Əziz dostlar!*

- Mən, ilk növbədə, zirvə görüşünün gözəl təşkilinə görə Ukrayna tərəfinə və bizə göstərilən qonaqpərvərliyə görə *Prezident Viktor Andreyeviç Yuşşenkoya* təşəkkürümü bildirmək istərdim. Dünən biz yaxşı bir gecə keçirdik və bu gün fəal iş əhval-ruhiyyəsindəyik.

- Təşkilatımız özünün mövcudluğu illərində bir neçə mərhələ keçmişdir. İndiki mərhələ GUAM-ın bütün atributları, fəaliyyət mexanizmi olan səmərəli beynəlxalq təşkilata çevrilməsi mərhələsidir. Bununla da təşkilatımız keyfiyyətcə tamamilə yeni bir mərhələyə çıxır. GUAM yaradılanda ölkələrimiz müstəqil dövlətlər kimi təşəkkülünün ilk dövrünü yaşayırdılar. Əlbəttə, o illərdə mövcud olmuş problemlər ümumi xarakter daşıyırdı. Ötən 10 il dövlətlərimizin müstəqilliyinin möhkəmlənməsi, demokratik təsisatların möhkəmlənməsi, iqtisadi potensialın artması sahəsində beynəlxalq birliyin üzvləri kimi ölkələrimizin gələcək inkişafı üçün çox mühüm illər olmuşdur. Biz özümüzə və bütün dünyaya sübut etdik ki, fəal şəkildə mövcud olmağa, əməkdaşlıq etməyə, çox iri iqtisadi layihələri, energetika layihələrini həyata keçirməyə qadirik, habelə Avropaya

inteqrasiya siyasəti məsələsində möhkəm əzm nümayiş etdirdik. İndi bizi birləşdirən elementlərdən biri də məhz Avropaya inteqrasiyadır. Ümidvaram ki, dünya işlərində özünü hökmən çox yüksək səviyyədə göstərəcək yeni təşkilat yaradıldıqdan sonra Avropaya inteqrasiya prosesləri daha fəal gedəcəkdir. Ona görə də bu proseslərin daha rəvan və ağrısız keçməsi üçün səylərimizi əlaqələndirmək, mövqelərimizi müəyyən dərəcədə razılaşdırmaq lazımdır.

- Ölkələrimizin yerləşdiyi region son vaxtlar dünya işlərində getdikcə daha mühüm rol oynayır. Regionda, Avropada yaranan şərait nəzərə alınmaqla, ölkələrimizin mövqelərində geosiyasi proseslərin əhəmiyyəti mütləq artacaqdır. Əlbəttə ki, bu, qarşımızda yeni perspektivlər açır. Bizə indiyədək tamamilə məlum olmayan bu perspektivlər üst-üstə düşən mənafelərimizə nail olmağı maksimum təmin etmək üçün çox fəal işləməyi, bütün məsələləri çox müfəssəl araşdırmağı tələb edir.

Biz hamımız beynəlxalq birliyin daha fəal üzvləri olmaq istəyirik. Dünya iqtisadiyyatı proseslərinə, siyasi proseslərə real surətdə inteqrasiya olunmaq istəyirik. Bu baxımdan GUAM-ın Demokratiya və İqtisadi İnkişaf Uğrunda Təşkilata çevrilməsi məntiqi proses olub, regional proseslərin inkişafının bugünkü məntiqi ilə müəyyən edilir. Əsas prioritetlər təşkilatımızın adının özündə ifadə olunmuşdur. Bunlar demokratik təsisatları möhkəmlətmək və eyni zamanda, iqtisadi potensialı möhkəmlətməkdən ibarətdir. Müvəffəqiyyətin əsası yalnız bu iki çox mühüm istiqamətin vəhdətində qoyula bilər. Çünki, bir tərəfdən, iqtisadi cəhətdən geridə qalmış ölkədə, yaxud böyük iqtisadi problemləri olan ölkədə sözün əsil mənasında demokratik dövlət qurmaq çox çətindir. Eləcə də, hətta ciddi iqtisadi inkişaf şəraitində də fəal demokratik təsisatlar yaradılmadan planlarımızın tam şəkildə həyata keçirilməsinə nail olmaq mümkün deyildir. Biz bu prosesləri yalnız paralel surətdə inkişaf etdirməklə müvəffəqiyyətə nail ola bilərik. Hesab edirəm ki, bu baxımdan Azərbaycanın təcrübəsi həmin tezisi müəyyən dərəcədə təsdiqləyir.

Ölkəmizdə cəmiyyətin demokratikləşdirilməsi, hüquqi dövlət yaradılması prosesləri, qanunun aliliyi ideyası coşqun iqtisadi inkişafla, Azərbaycanın dinamik iqtisadi tərəqqisini təmin edən iqtisadi islahatlarla müşayiət olunur. Təkcə bunu demək kifayətdir ki, ötən il Azərbaycanda ümumi daxili məhsulun artımı 26 faiz, bu ilin birinci rübündə isə 39 faiz, sənayenin artımı təxminən 50 faiz təşkil etmişdir. Əminəm ki, siyasi dialoq, iqtisadi əməkdaşlıq məsələlərində də ölkələrimiz arasında inteqrasiyanın olması, növbəti zirvə görüşündən sonra unutduğumuz sadəcə, yaxşı şüarlar, gözəl sözlər yox, həqiqətən həyata keçirilmə mexanizmi olan real iqtisadi layihələr üzərində diqqətin cəmləşdirilməsi təşkilatımıza daha çox hörmət olunmasına kömək edəcək və o, doğrudan da fəal beynəlxalq quruma çevriləcəkdir.

Enerji təhlükəsizliyi məsələləri son vaxtlar ön sıraya keçir. Prinsipcə, onlar sanki həmişə gündəlikdə olmuşdur, regionumuzda siyasi proseslərin inkişafı da enerji təhlükəsizliyinin təmin edilməsi məsələləri ilə qırılmaz surətdə bağlıdır. Sadəcə olaraq, regional proseslərin inkişafının indiki dövründə - ziddiyyətlərin də, köhnə inciklikların də getdikcə daha aşkar təzahür etdiyi dövrdə enerji təhlükəsizliyi problemləri artıq müstəqilliyi möhkəmlətmək xarakteri və müstəqil siyasət aparmaq iqtidarı kəsb edir. Çünki müstəqillik təkcə dövlət atributlarının olması deyil, həm də, ilk növbədə, ölkələrimizin xalqlarının mənafelərini təmin etməyə yönəldilmiş siyasəti real surətdə aparmaq imkanı deməkdir.

Bu mənada Azərbaycan regionun enerji təhlükəsizliyinə dair səmərəli infrastruktur layihələrinin həyata keçirilməsində, dünyada ən iri layihələr sayılan nəqliyyat və kommunikasiya layihələrinin yaradılması sahəsində son 10 ildə kifayət qədər böyük yol qət etmişdir. Yaxın vaxtlarda işə salınacaq Bakı-Tbilisi-Ceyhan neft kəmərini, habelə Bakı-Tbilisi-Ərzurum qaz kəmərini xatırlatmaq kifayətdir. Regional əməkdaşlıq layihələri kimi planlaşdırılmasına, dünya miqyaslı ən iri layihələr olmalarına baxmayaraq, hazırda onlar daha geniş əhəmiyyət kəsb edirlər. İndi onlar qlobal Avropa layihələrinə çevrilir və təkcə ölkələrimizin enerji amilinə deyil, habelə regionumuzda baş verən siyasi proseslərə də xeyli dərəcədə təsir göstərəcəkdir.

İndi belə bir təsəvvür yaranır ki, müstəqilliyimizin möhkəmləndirilməsinin, xəttimizin, region ölkələri ilə, qonşularımızla münasibətlərimizin müəyyənləşdirilməsinin yeni mərhələsini yaşayırıq. Bu baxımdan enerji amilinin üstün yer tutmayacağına və ola bilsin, istəmədiyimiz qərarların qəbuluna hansısa dərəcədə təsir göstərməyəcəyinə tam əmin olmaq, sadəcə, həyati vacib məsələdir. Ona görə də bu baxımdan Azərbaycan hazırda özünün enerji siyasətini yenidən nəzərdən keçirir və bu siyasət artıq regional kontekstdən çıxaraq, qlobal siyasət kontekstinə keçir. Biz bu istiqamətdə GUAM-ın üzvü olan bütün ölkələrlə fəal əməkdaşlıq edirik və həmin əməkdaşlığı gələcəkdə də davam etdirmək niyyətindəyik.

İndi artıq mövcud olan və yaradılmaqda olan nəqliyyat infrastrukturu bizə iqtisadi mənafeyimizi daha yaxşı təmin etmək, habelə Avropa İttifaqı ilə münasibətlərdə mövqeyimizi möhkəmləndirmək və yəqin ki, Avropaya inteqrasiya proseslərini müəyyən dərəcədə tezləşdirmək imkanı verəcəkdir. Çünki Asiyadan Avropaya və geriyə təbii dəhliz məhz bizim ölkələrimizdən keçir və buna görə də onlardan yan ötmək mümkün deyildir. Hazırda yaratdığımız güclü nəqliyyat infrastrukturu sayəsində regionda bir çox iqtisadi və siyasi proseslər daha da sürətlə gedəcəkdir.

Mən artıq iki layihəni - neft və qaz kəmərləri layihələrini qeyd etdim, indi Avropa və Asiyanı dəmir yolu xətti ilə birləşdirəcək Bakı-Tbilisi-Qars marşrutu üzrə dəmir yolu tikintisi də fəal müzakirə mövzusudur. Bu layihə çox geniş müzakirə olunur və Azərbaycan indinin özündə üzərinə iqtisadi öhdəliklər götürməyə və gələcək konsorsiumdakı payını maliyyələşdirməyə hazır olduğunu bildirmişdir və bildirir.

Bizim regionumuzda da terrorizm təhlükəsi, sabitliyin pozulması təhlükəsi var. Ölkələrimiz kifayət qədər həssas regionda yerləşir. Qafqaz, Orta Asiya, Yaxın Şərq - onların hamısı bu gün artıq bizə yaxınlaşmaqda olan Avropa sərhədlərinə də yaxındır. Ona görə də yeni təhdidlərə, xüsusən terrorizm təhlükəsinə qarşı mübarizə çox böyük əhəmiyyət kəsb edir. Terrorizmə ancaq birgə səylərlə qalib gəlmək olar, onu təklikdə dəf etmək olmaz. Yalnız sənin üçün təhlükə törədənləri terrorçu təşkilatlar kimi tanımaqla və qonşunu hədələyənlərə göz yummaqla bu bəla ilə mübarizə aparmaq mümkün deyildir. Bunun səmərəsi olmayacaqdır. Ona görə də terrorçu təşkilatlara vahid yanaşma olmalıdır və dünya birliyi bu bəlanı pisləməlidir və onunla fəal mübarizə aparılmalıdır.

Paralel mövcud olan terrorizm və təcavüzkar separatizm özlüyündə bir bəlanın iki üzüdür. Ölkələrimiz bunlardan zərər çəkmişlər. GUAM-ın üzvü olan 4 ölkədən üçünün ərazi bütövlüyü pozulmuşdur, bu ölkələrdə təcavüzkar separatizm etnik təmizləməyə gətirib çıxarmışdır, bunun nəticəsində Moldova, Gürcüstan və Azərbaycanın ərazi bütövlüyü pozulmuşdur. Beynəlxalq hüququn əsas normaları və prinsipləri pozulmuşdur, onları pozan tərəflər, təəssüf ki, nə beynəlxalq qınağa, nə ictimai qınağa, nə də sanksiyalara məruz qalırlar. Halbuki, görürük ki, dünyanın digər regionlarında buna oxşar proseslər gedir, sanksiyalar tətbiq edilir, dünya birliyi birləşir və təsirli tədbirlər görür. Bizim ölkələrimizdə isə öz torpağında yaşamış insanlar öz yurdlarından qovulmuş, etnik təmizləməyə məruz qalmışlar. Təəssüf ki, biz ərazi bütövlüyümüzün bərpasına nail ola bilmirik.

Bu məsələdə vahid meyarlar, vahid yanaşmalar gərəkdir. Terrorçular kimi, separatçıları da yaxşıya və pisə bölmək olmaz. Separatizm bəladır. Bu bəlanın qarşısı alınmasa, yaxud guya separatizmlə mübarizənin uğurlu təcrübəsi presedentləri yaradılsa, bu, Avropada, dünyada fəlakətli nəticələrə gətirib çıxaracaqdır. Milli azlıqlar Avropanın bütün sivilizasiyalı ölkələrində mövcuddur, onların öz hüquqları, öz muxtariyyətləri var və bizdə də hər şey dövlətlərimizin ərazi bütövlüyü çərçivəsində həll edilməlidir. Çox fərəhli haldır ki, zirvə görüşünün sənədlərində - həm Kiyev Bəyannaməsində, həm də münaqişələrin tənzimlənməsinə dair Bəyannamədə bu məqamlar əksini tapmışdır.

Çıxışımı tamamlayaraq, əmin olduğumu bir daha bildirmək istəyirəm ki, bu gün formalaşan, yeni formalar və yeni məzmun kəsb edən təşkilatımız beynəlxalq aləmdə özünü çox yüksək səviyyədə göstərəcək və regionumuzun mühüm siyasi və iqtisadi problemlərinin həllində təsirli beynəlxalq təşkilat olacaqdır.

Təşəkkür edirəm.

[redacted]

Gürcüstan Prezidenti Mixail Saakaşvili çıxışında MDB-nin nizamnaməsində kollektiv təhlükəsizlik baxımından qarşıya qoyulan məsələlərin yerinə yetirilmədiyini xatırlatdı. Separatizmlə və terrorizmlə mübarizə barədə Prezident İlham Əliyevin fikirlərini yüksək dəyərləndirən Mixail Saakaşvili bütün sahələrdə əməkdaşlığın gücləndirilməsində, neft və qazın dünya bazarlarına çatdırılmasında Azərbaycanın oynadığı rolun əhəmiyyətini vurğuladı. O, enerji daşıyıcılarının Gürcüstan və Qara dəniz vasitəsilə Ukrayna, Moldova ərazilərindən keçməklə nəqlinin həm siyasi, həm də kommersiya baxımından çox faydalı olacağını bildirdi. Gürcüstan Prezidenti Dağlıq Qarabağ, Abxaziya və Dnestryanı münaqişələrin həlli ilə bağlı fikirlərini də açıqladı. GUAM-ın heç bir başqa ölkəyə, birliyə və təşkilata qarşı yaradılmadığını xatırladan Mixail Saakaşvili dedi ki, təşkilatımızın gücləndirilməsi üzv ölkələrin istəyidir və bu istiqamətdə səylər birləşdiriləcəkdir.

Sonra çıxış edən Prezident Vladimir Voronin Moldovanın GUAM-da sədrliyi dövründə görülmüş işlərdən danışdı. Bildirdi ki, bu müddətdə üzv ölkələrin fəal işi sayəsində GUAM beynəlxalq təşkilata çevrilmiş, onun Katibliyi fəaliyyətə başlamışdır. O, "GUAM Ölkələrinin Gənclər Forumu" beynəlxalq təşkilatının yaradılmasını da mühüm hadisə kimi qiymətləndirdi. Prezident Voronin daha sonra vurğuladı ki, bu ilin fevralında Bakıda keçirilmiş görüş energetika sahəsində GUAM ölkələrinin strategiyasının hazırlanmasının zəruriliyini aydın şəkildə müəyyənləşdirməyə imkan vermişdir.

Zirvə görüşündə qonaqlar - Litva Prezidenti Valdas Adamkus, Bolqarıstanın vitse-prezidenti Angel Marin, Rumıniyanın xarici işlər naziri Mixay Rezvan Unquryanu, QİƏT-in

baş katibi Leonidas Xrizantopulos və başqaları çıxış edərək GUAM-ın sağlam təməl üzərində qurulduğunu, bu cür təşkilatlar çərçivəsində əməkdaşlığın demokratik dəyərlərin inkişafı və müxtəlif sahələrdə mühüm nailiyyətlər qazanmaq baxımından fayda gətirəcəyini bildirdilər. Qara dəniz və Xəzər dənizi hövzəsi ölkələrinin iqtisadi inkişafı üçün energetika sahəsində birgə layihənin reallaşdırılmasının günün tələbi olduğunu, regional əməkdaşlığın genişlənməsi istiqamətində səyləri dəstəklədiklərini vurğuladılar.

Sonra dövlət başçılarına xarici işlər nazirlərinin, iqtisadiyyat, energetika, nəqliyyat nazirləri və gömrük xidmətləri rəhbərlərinin, hüquq mühafizə orqanları rəhbərlərinin, sərhəd xidmətləri rəhbərlərinin, ticarət və sənaye palataları rəhbərlərinin birgə iclasları və imzalanacaq sənədlər barədə ətraflı məlumat verildi. Bildirildi ki, həmin sənədlər GUAM ölkələri arasında əlaqələrin, gələcək əməkdaşlığın daha da möhkəmlənməsinə xidmət edəcəkdir.

GUAM-da sədrlik Moldovadan Ukraynaya keçdi. Zirvə görüşündə cari məsələlər barədə də müzakirələr aparıldı.

SƏNƏDLƏRİN İMZALANMASI

Dövlət başçıları zirvə görüşünün yekunu olaraq, "Demokratiya və iqtisadi inkişaf uğrunda təşkilat - GUAM" beynəlxalq qurumunun yaradılması haqqında Kiyev bəyannaməsini, "Demokratiya və iqtisadi inkişaf uğrunda təşkilat - GUAM" beynəlxalq qurumunun Nizamnaməsini, "Demokratiya və iqtisadi inkişaf uğrunda təşkilat - GUAM" beynəlxalq qurumunun üzvü olan ölkələrin rəhbərlərinin münaqişələrin tənzimlənməsi məsələlərinə dair Birgə bəyannaməsini imzaladılar.

DÖVLƏT BAŞÇILARININ BİRGƏ MƏTBUAT KONFRANSI

Sənədlərin imzalanmasından sonra dövlət başçılarının birgə mətbuat konfransı keçirildi. Mətbuat konfransında dövlət başçıları bəyanatlarla çıxış etdilər.

UKRAYNA PREZİDENTİ VİKTOR YUŞŞENKONUN BƏYANATI

- Hörmətli xanımlar və cənablar!

Hörmətli prezidentlər!

Bu gün bizim üçün mühüm gün idi. Bu gün həmkarlarım üçün, mənim üçün, ölkələrimiz üçün xüsusi bir gündür. Doqquz il əvvəl fikrimizdə tutulanı, əslində, bu gün həyata keçirməyə müvəffəq olduq. Biz - Azərbaycan, Gürcüstan, Moldova, Ukrayna prezidentləri beynəlxalq hüququn norma və prinsiplərini, GUAM-ın Yalta Xartiyasının və Kişinyov Bəyannaməsinin müddəalarını rəhbər tutaraq, bu gün, 2006-cı il mayın 23-də Demokratiya və İqtisadi İnkişaf Uğrunda təşkilat - GUAM yaradılması haqqında Bəyannaməni və onun Nizamnaməsini imzaladıq. Bildiyiniz kimi, təşkilatın Katibliyi Kiyevdə yerləşəcəkdir.

Təşkilatımızın adının özü bəyan edir və göstərir ki, onun ümdə məqsədləri demokratiya, təhlükəsizlik, sabit iqtisadi, humanitar və sosial inkişaf, Avrointeqrasiya və Avratlantik inteqrasiyası üçün regional məkan yaratmaqdan ibarətdir.

Bizi ümumi dəyərlər, ümumi məqsədlər, birləşmiş Avropada layiqli yer tutmaq niyyəti birləşdirir. Mən qəti əminəm ki, regionumuzun çox böyük potensialı var və müasir Avropada ən perspektivli regionlardan biri olacaqdır. Bu, təkcə energetika, nəqliyyat layihələrinə deyil, əminəm ki, təhlükəsizlik sahəsində layihələrə də aiddir.

Bu gün biz forumumuzun, birliyimizin təşkilata çevrildiyini təsdiqlədik. Qeyd etmək bəlkə də vacibdir ki, 1997-ci ildə dörd ölkənin konstitusiya forumu yaratmaq təşəbbüsü elan olunmuşdu, 2001-ci ildə o, birliyə çevrildi və artıq bu gün biz beynəlxalq təşkilatın yaradılmasının formal bünövrəsini qoyduq.

Zənnimcə, bu gün GUAM təşkilatının fəaliyyətindən danışarkən demək lazımdır ki, bu, heç də təkcə prezidentlər, hökumətlər, müvafiq idarələr səviyyəsində əməkdaşlıq deyildir. Bu gün vurğulamaq vacibdir ki, Parlament Assambleyası fəaliyyət göstərir. Düşünürəm ki, burada böyük perspektivlər və yaxşı tərəqqi olacaqdır. Qeyd etmək eyni dərəcədə vacibdir ki, biznes sahəsində işgüzar səyləri birləşdirən İşgüzar Şura işləyir. Qeyd etmək vacibdir ki, keçən il siyasi baxımdan çox dinamik olmuşdur. Diplomatiya xətti üzrə fəal əlaqələr təşkil edilmişdir. Bu əlaqələr ona gətirib çıxarmışdır ki, indi təhlükəsizlik sahəsini, sərhəd xidmətini, gömrüyü, ticarətin təşkilini və bir sıra digər sahələri tənzimləyən 20-dək dövlətlərarası saziş var.

Əlbəttə, bugünkü zirvə görüşündə diskussiyaların əsas məqamları iqtisadiyyat, energetika, hüquq mühafizə, sərhəd və gömrük sahələrinə aid layihələr olmuşdur. Biz tranzit potensialından səmərəli istifadə edilməsinin zəruriliyindən danışdıq. Bu sahədə layihələr çoxdur və biz onları konkret məsələlərdə müfəssəl xarakterizə edə bilərdik. Bu məqsədlərə çatmaq üçün bugünkü zirvə görüşü çərçivəsində müvafiq nazirliklər və xidmətlər tərəfindən bir sıra mühüm sənədlər imzalanmışdır. Mən bu sırada Azad ticarət zonası yaradılması haqqında sazişin həyata keçirilməsinə dair protokolun imzalanmasını xüsusi vurğulamaq istərdim. Biz bu sazişə doğru kifayət qədər uzun müddət irəliləmişik. Ancaq indi sizə bəyan etməyə imkanımız var ki, Azərbaycan, Gürcüstan, Moldova və Ukrayna arasında azad ticarət zonası yaradılmışdır. Beləliklə, bu gündən etibarən biz malların, xidmətlərin, işçi qüvvəsinin və kapitalın hərəkəti sahəsində münasibətlərimizin liberallaşdırılmasından formal olaraq danışa bilərik. Əminəm ki, birgə işin növbəti mərhələsi sərhəd, gömrük xidmətlərinin eyniləşdirilməsi sahəsində münasibətlərimizin təşkilindən ibarət olacaqdır. Artıq belə təcrübələr aparılır. Məsələn, artıq bizimlə Moldova arasında bir gömrükxana işləyir. Bir neçə gün əvvəl Vladimir Nikolayeviç Voroninlə belə razılığa gəldik ki, Ukrayna və Moldovanın bütün gömrükxanaları birgə fəaliyyətin analoji prinsipi üzrə işləyəcəkdir. Müvafiq cədvəl yaradılacaq və o, bu iş rejimini eyniləşdirməyə, sərhəddə, gömrük xidmətində qayda-qanun yaratmağa və əslində, müştərilərə xidmətin elektron rejiminə keçməyə imkan verəcəkdir.

Şübhəsiz, hələ çox işlər, o cümlədən boru kəmərlərində, dəmir yolunda, avtomobil nəqliyyatında və digər nəqliyyat növlərində tarif siyasətinin uyğunlaşdırılması məsələləri var. Bu işimiz hələ irəlidədir, lakin bu gün deyə bilərəm ki, dörd prezident bu məsələni də hökümətlərin iştirakı ilə həll etmək əzmindədir. Bu, əslində, Avropaya tam inteqrasiya etmək yoludur. Biz bu yolla qətiyyətlə gedəcəyik.

Ayrıca vurğulamaq istərdim ki, zirvə görüşündə və ikitərəfli danışıqlarda beynəlxalq terrorizm, separatizm, ekstremizm ilə və transmilli mütəşəkkil cinayətkarlıqla bağlı məsələlər nəzərdən keçirilmişdir. Bəri başdan demək istərdim ki, biz bütün bu hədələri demokratik islahatlar və iqtisadi inkişaf yolunda başlıca əngəl hesab edirik. Biz bu əngəllərin aradan qaldırılması işində birgə səylərin artırılmasına tərəfdar çıxdıq, habelə bu istiqamətdə Avropa İttifaqı ilə, Birləşmiş Ştatlarla səmərəli və konstruktiv qarşılıqlı fəaliyyətə hazır olduğumuzu təsdiq etdik. Mən şadam ki, bu baxımdan, iştirakçılar arasında tam qarşılıqlı anlaşma var.

Düşünürəm ki, təhlükəsizlik sahəsində GUAM üzvü olan ölkələrin səylərinin əlaqələndirilməsi üçün mayın 19-da GUAM-ın terrorizmlə, mütəşəkkil cinayətkarlıq və narkotiklərin yayılması ilə mübarizə Mərkəzinin Ukrayna seqmentinin açılmasının böyük əhəmiyyəti var. Bu, artıq yaradılmış nadir, geniş məlumat bazası olan kifayət qədər səmərəli mərkəzdir. Praktik olaraq 4 ölkənin əməliyyat xidmətləri real vaxt rejimində işləyə bilər. Düşünürəm ki, bu, çox mühüm layihədir və biz onun vasitəsilə bu sahədə qarşılıqlı fəaliyyətə başlayırıq.

İndi GUAM yeni keyfiyyətlər kəsb etmiş və qarşısına mürəkkəb, lakin, şübhəsiz, tamamilə yerinə yetirilə bilən vəzifələr qoymuşdur. Bildirmək istəyirəm ki, əvvələr olduğu kimi, təşkilatımız yenə də onun prinsip və məqsədlərinə şərik çıxan bütün ölkələr və təşkilatlarla əməkdaşlıq üçün açıqdır. Ali qonaqların iştirakı da bu cür əməkdaşlığın perspektivlərindən xəbər verir. Burada olduqlarına görə onlara çox minnətdarıq. Bugünkü zirvə görüşündə nümayiş etdirilən konstruktiv mövqeyə və gündəliyin bütün məsələləri üzrə fəal dialoqa görə həmkarlarıma, prezident dostlarıma bir daha təşəkkürümü bildirmək istərdim.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN BƏYANATI

-Hörmətli xanımlar və cənablar!

İlk növbədə, zirvə görüşünün gözəl təşkilinə görə Ukrayna tərəfinə bir daha təşəkkür etmək istərdim. Biz özümüzü çox rahat hiss edirdik, bizə böyük qonaqpərvərlik göstərilmişdir və zirvə görüşünün iştirakçılarına olan diqqətə görə Prezident Viktor Andreyeviç Yuşşenkoya çox minnətdarıq.

Bugünkü zirvə görüşü tarixi hadisədir, çünki təşkilatımız transformasiya olunur və onun fəaliyyətinin tamamilə yeni mərhələsi başlanır - Demokratiya və İqtisadi İnkişaf Uğrunda təşkilat - GUAM. Bu mərhələ ölkələrimizin gələcək inkişafını, regionumuzda inteqrasiya proseslərini, demokratik təsisatların möhkəmləndirilməsi proseslərini də, yəqin ki, xeyli dərəcədə irəlicədən müəyyənləşdirəcəkdir. Başqa sözlə, buraya hər bir ölkənin inkişafını öncədən müəyyən edən bütün istiqamətlər daxildir. Təşkilatın yaranmasından ötən 10 il ərzində ölkələrimiz ağır məqamlar yaşamışdır. Əlbəttə, bu ağır vəziyyətdən ləyaqətlə çıxmağımız bir daha göstərdi ki, ölkələrimiz yetkin, müstəqil dövlətlərdir və öz xalqlarının mənafelərinə əsaslanan müstəqil siyasət aparır, habelə əməkdaşlıq üçün açıqdır. GUAM-ın yeni təşkilata çevrilməsi, - əminəm ki, o, səmərəli beynəlxalq təşkilat olacaq, - əlbəttə ki, GUAM-ın üzvü olan ölkələrin rəhbərliyinin böyük xidmətidir. Əminəm ki, gələcəkdə təşkilatımızın müvəffəqiyyəti həm ikitərəfli əsasda,

həm təşkilat çərçivəsində, həm də digər beynəlxalq təşkilatlarda sıx qarşılıqlı fəaliyyətdən asılı olacaqdır. Mən əminəm ki, indi, təşkilatımızın beynəlxalq təşkilata çevrildiyi vaxtda biz müxtəlif beynəlxalq qurumlarda da vahid mövqelərdən çıxış edəcək, bir-birimizə yardım göstərəcək, bir-birimizi dəstəkləyəcək və fəal əməkdaşlıq edəcəyik.

Bu gün ölkələrimizin həyatının bütün tərəfləri ilə bağlı məsələlərin çox geniş dairəsi müzakirə edildi. Demokratik inkişaf məsələləri də gündəliyin mərkəzində idi, çünki möhkəm demokratik təsisatlar, ictimai nəzarət və azadlıqlar olmasa, heç bir uğurlu iqtisadi nailiyyət uzunmüddətli və davamlı ola bilməz. Əlbəttə, iqtisadiyyat geri qalarsa, ölkələrin uğurlu inkişafı və demokratik proseslərin irəliləməsi də çətinləşəcəkdir. Odur ki, bu proseslərin paralel surətdə inkişafı müvəffəqiyyətin rəhnidir. Bu baxımdan həmin sahədə əlaqələri daha da genişləndirməyin, habelə diqqəti iqtisadiyyatın gələcək inkişafını öncədən müəyyənləşdirə biləcək konkret layihələr üzərində cəmləşdirməyin zəruriliyi məsələsində GUAM-ın bütün iştirakçıları arasında tam anlaşma var.

Ölkələrimizin ərazisi Asiya ilə Avropa arasında, Xəzər hövzəsi ilə Avropa arasında təbii dəhlizdir. Əlbəttə ki, fəal nəqliyyat infrastrukturu yaradılması uğurlu iqtisadi inkişafı, əslində, bir çox illər öncədən müəyyən edəcəkdir. Çünki qloballaşma proseslərinin baş verdiyi, regionda çox güclü iqtisadi fəaliyyət getdiyi, rəqabətin artdığı indiki vaxtda fəal, sabit, səmərəli nəqliyyat kommunikasiyalarının olması müvəffəqiyyətin rəhnidir. Bu baxımdan həmçinin kommunikasiya layihələri olan enerji layihələri GUAM çərçivəsində əməkdaşlığın ümumi fonunu əhəmiyyətli dərəcədə tamamlayır. Azərbaycana gəldikdə, ölkəmizdə həyata keçirilən dünya miqyaslı iri enerji layihələri artıq reallığa çevrilir və təşkilatımız çərçivəsində inteqrasiyanın daha da genişlənməsinə kömək edəcəkdir. İnteqrasiya proseslərini inkişaf etdirmək üçün siyasi iradə var, yaxşı iqtisadi baza var. Ölkələrimizin iqtisadiyyatının inkişaf dinamikasını izləsək, artımın, özü də ikirəqəmli ədədlə ifadə edilən sanballı artımın olduğunu görərik. Artım üçün potensialın olması da göz qabağındadır. Biz bütün mövcud imkanlardan istifadə etməli, inteqrasiya proseslərini təkcə hansısa ayrı-ayrı layihələr çərçivəsində deyil, həm də ümumiyyətlə, maksimum hərəkətə gətirməliyik. Beləliklə də, bütün sahələrdə maksimum səmərəli əməkdaşlığı təmin etməliyik.

Regionda təhlükəsizlik tədbirlərini möhkəmləndirmədən, sabitliyi möhkəmləndirmədən, terrorizmlə, təcavüzkar separatizmlə mübarizəni gücləndirmədən səylərimiz uğurlu olmayacaqdır. Ona görə ki, regionda təhlükə qalmaqdadır, vəziyyətin sabitliyinin pozulması riski qalmaqdadır. Təəssüf ki, ölkələrimiz ərazilərində dondurulmuş münaqişələrin mövcud olduğu dövlətlərdir, ərazilərimizdə heç bir beynəlxalq təşkilatın əsla nəzarət etmədiyi zonalar mövcuddur. Bunlar Avropanın bədənində "qara ləkələrdir". Vəziyyətin sabitliyini pozan separatçı, kriminal rejimlər, əlbəttə ki, ölkələrimizin səmərəli əməkdaşlığı və inkişafı üçün başlıca maneədir.

Bu gün zirvə görüşündə təcavüzkar separatizm və dövlətlərimizin ərazi bütövlüyünün pozulması problemlərinə ölkələrimizin münasibətlərini çox dəqiq müəyyən edən olduqca mühüm sənədlər də imzalandı. Bunlar Kiyev Bəyannaməsi, məhz tənzimlənməmiş münaqişələr haqqında Birgə bəyannamədir. İşğalçı və separatizmi dəstəkləyən ölkələr istisna olmaqla, bütün dünya, bütün dövlətlər ölkələrimizin ərazi bütövlüyünü ta-

nımışdır, Birləşmiş Millətlər Təşkilatı tanımışdır. Odur ki, ölkələrimizin ərazilərindəki münaqişələrin sülh yolu ilə hər hansı şəkildə həlli yalnız ərazi bütövlüyünün bərpa edilməsini nəzərdə tutan beynəlxalq hüquq prinsipləri əsasında mümkündür.

Gürcüstan, Moldova və Azərbaycan ərazilərində separatizmlə bağlı baş vermiş proseslərin mənşəyi, dinamikası və nəticəsi eynidir. Etnik təmizləmə siyasəti ilə müşayiət olunmuş təcavüzkar separatizm ölkələrimizin ərazi bütövlüyünün pozulmasına gətirib çıxarmışdır. Mənim heç bir şübhəm yoxdur ki, ölkələrimizin ərazi bütövlüyü bərpa ediləcəkdir. Əlbəttə, biz istəyirik ki, bu, sülh yolu ilə və beynəlxalq hüquq normaları çərçivəsində baş versin. Əminəm ki, biz buna nail olacağıq.

Biz fəal olmalıyıq, fəal surətdə birləşməliyik, əməkdaşlıq etməliyik və GUAM çərçivəsində bugünkü işbirliyi ruhu əminliklə deməyə imkan verir ki, təşkilatın gələcəyi uğurludur. Bu, ilk növbədə, bizdən, bizim fəallığımızdan, təşkilatın fəaliyyətinin səmərəliliyindən, konkret layihələrlə dolğunlaşdırılmasından asılı olacaqdır. Biz şüarlardan uzağıq və bu gün müzakirələrdə, GUAM-ın üzvü olan ölkələrin dövlət başçılarının və qonaqların çıxışlarında konkretlik olduqca çox idi. Bu, nikbinlik doğurur, çünki indi real işlər, real qərarlar, real layihələr vaxtıdır. Bu layihələri irəlilətmək üçün iradəmiz var, artıq onları həyata keçirmək üçün maliyyə ehtiyatlarımız var, gələcəkdə artıq qlobal enerji layihələrindən danışmağa imkan verən çox güclü nəqliyyat-energetika infrastrukturu yaratmışıq. Hazırda regionda həyata keçirilən bütün layihələr bu və ya digər dərəcədə regional xarakter daşıyır, baxmayaraq ki, sərmayə qoyuluşunun həcminə görə onlar dünya miqyaslı iri enerji layihələridir. İndi isə artıq qlobal dünya enerji layihələrinin perspektivləri açılır. Ölkələrimiz bu layihələrdə fəal iştirak edir və bizim iştirakımız olmadan onlar gerçəkləşə bilməz.

Mən bugünkü müzakirələrin gedişindən, zirvə toplantısı çərçivəsində hökm sürən ab-havadan, mühüm sənədlərin qəbul olunmasından, habelə təşkilatın müstəqil həyata başlamasından məmnunam. Biz hamımız Demokratiya və İqtisadi İnkişaf Uğrunda təşkilata - GUAM-a gələcəkdə uğurlar arzulayırıq.

Diqqətinizə görə təşəkkür edirəm.

GÜRCÜSTAN PREZİDENTİ MİXAİL SAAKAŞVİLİNİN BƏYANATI

- Hesab edirəm ki, bu gün həqiqətən mühüm gündür, çünki biz nəinki iqamətgahı və Katibliyi Ukrayna paytaxtında olacaq yeni beynəlxalq təşkilat yaratdıq, həm də ölkələrimizdə yaranmış yeni reallıqları, son illər ölkələrimiz arasında meydana gəlmiş yeni maraqları əks etdirdik.

Düşünürəm ki, bütün maneələrə baxmayaraq, ölkələrimiz çox dinamik inkişaf edir, maraqlı çox hadisələr baş verir. GUAM-ın üzvü olan ölkələrin beynəlxalq nüfuzu, təsiri son vaxtlar ciddi şəkildə artmış və möhkəmlənmişdir.

İqtisadiyyatımız inkişaf edir. Məsələn, birlikdə götürdükdə, bu il biz Gürcüstanda son 15 ildəkindən daha çox xəstəxana, məktəb, yollar, digər infrastruktur obyektləri tikirik. Qonşumuz Azərbaycanda, GUAM-ın üzvü olan digər ölkələrdə də bu cür proseslər gedir. Təbii ki, bu, yeni qurumlarla möhkəmləndirilməlidir. Çox mühümdür ki, Ukraynaya, Gürcüstana, Moldovaya qarşı iqtisadi sanksiyaların real şəkildə elan olunduğu bir

dövrdə, yeni qadağalar və mancələr dövründə biz ölkələrimiz arasında azad ticarət rejimi tətbiq edilməsinə razılıq verdik. Bu, bütün ölkələrə, bütün vətəndaşlara, bütün istehsalçılara, bütün ixracçılara və idxalçılara sərfəlidir. Düşünürəm ki, bütün bunlar tam konkret nəticəsini verəcəkdir.

Biz beynəlxalq kriminalla, onun yerdəyişmələri, əlaqələri ilə birlikdə mübarizə aparmaq barədə razılığa gəldik. Bunu xatırlamaq kifayətdir ki, Gürcüstan həbsxanalarında bu yaxınlarda baş verən iğtişaşları Ukraynada məskən salmış və burada yerli hakimiyyət orqanları tərəfindən tutulmuş gürcü kriminal ünsürləri təşkil etmişdilər. Ölkələrimiz arasında yaxşı əlaqə yaradılmışdır. Təəssüf ki, heç də bütün ölkələr bu işdə yaxşı iştirak etmirlər. Mən elə ölkə tanıyıram ki, orada hər hansı gürcü kriminal nüfuz sahibi özünü azad-asudə hiss edir, necə ki, XVIII əsrdə amerikalı kriminal şəxslər Kanadaya asanlıqla gedirdilər. Lakin orada hər şey dəyişmişdir. Lakin həmin ölkəyə isə təkcə gürcü kriminalları deyil, ukraynalı və digər kriminallar da gedir və təəssüf ki, orada özlərinə sığınacaq tapa bilirlər.

Lakin biz əməkdaşlıq aparacaq və bu məsələləri həll edəcəyik. Siyasi sahədə əməkdaşlıq etdiyimiz kimi, kriminalla, separatizmlə də mübarizə aparacağımızı bildiririk. Düşünürəm ki, Ukrayna Dnestryanı bölgə ilə sərhəddə xüsusi nəzarət tətbiq olunması haqqında Moldova ilə razılığa gəldikdə, Ukrayna Prezidenti qeyri-adi siyasi cəsarət və dövləti mövqe nümayiş etdirdi. Zənnimcə, bu, həmin məsələnin həllinin rəhnidir, üstəlik, hamımıza ümid verir və belə vəziyyətdə necə hərəkət etməyin vacibliyi barədə digərlərinə nümunə göstərir. Həqiqətən, ilk nəticə, məncə, göz qabağındadır və Dnestryanı bölgə probleminin nizama salınması prosesi "ölü nöqtə"dən çıxıb irəliləməyə başlayır və bu, hamımıza ümid verir.

Biz mürəkkəb vəziyyətdə bir-birinə neçə kömək etmək nümunələri nümayiş etdirdik - Ukrayna öz elektrik enerjisini Moldova ilə bölüşdü, Gürcüstanın enerji sistemlərinə qarşı sabotaj edildikdə Azərbaycan rəhbərliyi qışın çox soyuq günlərində daxili istehlakçılara verilən qazın azaldılması haqqında qərar çıxararaq, qazın bir hissəsini Gürcüstan əhalisi ilə bölüşdü. İnsanlar belə yaxşılıqları heç vaxt unutmurlar, onlar bunu uzun müddət xatırlayacaqlar, ağır gündə kimin bizə kömək əlini uzatdığını, kimlərinsə, təəssüflər olsun, problemlər yaratdığını yadda saxlayacaqlar. Bunlar sanki tək-tək misallardır, ancaq problemlərimizi qat-qat asanlıqla həll etməyə və aradan qaldırmağa imkan verən sistem formalaşdırır.

Mənimlə Ukrayna Prezidentinin imzaladığı Karpat bəyannaməsi, Borjomi bəyannaməsi demokratik əməkdaşlıq ölkələrinin Kiyev görüşü ilə nəticələndi, bu isə öz növbəsində Vilnüs görüşünə gətirib çıxardı. Bu, həqiqətən, tarixi prosesdir. Bir neçə həftə əvvəl Vilnüsdə, həqiqətən, tarixi bəyanatlar verildi və bu, Avropanın yeni xəritəsinin, Avropa qitəsində, regionumuzda yeni reallıqların formalaşmasında bir növ dönüş məqamı idi.

Belə görüşlər ona gətirib çıxarır ki, ölkələrimiz demokratik, inkişaf etmiş, sivilizasiyalı dünyanın, sivilizasiyalı münasibətlərin həmişəlik bir hissəsinə çevrilir. Nə kimi çətinliklər olsa da, - onlar, şübhəsiz, var və olacaq, - bu yol dönməzdir və mütləq uğurla başa çatacaqdır.

Bu mənada biz bu gün baş verənləri alqışlayırıq. Rəmzi haldır ki, bu, Kiyevdə Ukrayna üçün çox gözəl vaxtda baş verir, indi nəinki şabalıd ağacları gül açmışdır, həm də yeni

münasibətlər yaranmışdır və onlar mütləq çiçəklənəcək və uğurlu olacaqdır. Biz Ukraynanın təşəbbüsünü və liderliyini alqışlayırıq, həmçinin başa düşürük ki, ölkələrimizin hər biri öz töhfəsini verməli və özünü maksimum göstərə biləcəyi sahədə lider olmalıdır.

Mən həm də şadam ki, buraya digər dost ölkələrin - Rumıniyanın, Bolqarıstanın, ABŞ-ın, habelə ATƏT-in, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının nümayəndələri də gəlmişlər. Düşünürəm ki, bu gün baş verənlər hamımız üçün böyük yolun başlanğıcıdır.

Təşəkkür edirəm.

MOLDOVA PREZİDENTİ VLADİMİR VORONİNİN BƏYANATI

- Bizim ölkələrin birləşməsi təsadüfi deyildir. Yaxın keçmişdə eyni tariximiz olmuşdur, indi eyni perspektivlərimiz var. Biz hamımız Avropaya inteqrasiya yolunu seçdiyimizi elan etmişik. Siz həmkarlarımın bəyanatlarını eşitdiniz, əslində, bizim problemlərimiz eynidir. Müstəqil dövlət quruculuğu yolu yalnız müstəqillik əldə edildikdən sonra başlanır. Biz artıq əmin olmuşuq ki, bu yolda, demək olar, 15 il ərzində ölkələrimizin hər biri üçün çoxlu maneə, çoxlu problem yaranmışdır.

GUAM təşkilatı uzun müddət özünü doğrultmağa, fəaliyyət göstərməyə çalışmışdır, lakin müxtəlif problemlər yaranmışdır və onlar təşkilatın yetərli, tammiqyaslı inkişafına ya mane olur, ya da, ən azı, kömək etmirdi.

Bu gündən onun beynəlxalq təşkilata çevrilməsi ilə, düşünürəm ki, belə uzunmüddətli və əziyyətli təşəkkül prosesi başa çatmışdır. Üstəlik, beynəlxalq təşkilatın Nizamnaməsinə əsasən, o, digər ölkələrin üzvlüyü üçün də açıqdır. Mən, nədənsə, düşünürəm ki, bu, olacaq, baş verəcəkdir. Moldova ötən il ərzində GUAM-da sədrlik etmişdir və bu gün mən növbəti il üçün sədrliyi Ukraynaya verdim. Ötən il Kişinyovda keçirilmiş zirvə görüşündə sədrliyi qəbul edərkən mən bildirmişdim ki, Moldova GUAM-ın inkişafı məsələlərinə çox ciddi və məsuliyyətlə yanaşmaq niyyətindədir. Mənə xoşdur ki, bu gün biz indiyədək mövcud olan təşkilatda deyil, onun fəaliyyətinin keyfiyyətinin artırılmasına kömək edəcək Katibliyi, qurumları və təsisatları olan beynəlxalq təşkilatda sədrliyi verdik.

Ötən il bu təşkilatın nüfuzunu ciddi surətdə artıran bir sıra tədbirlər keçirilmişdir. Əvvələn, biz GUAM-ın Parlamentlərarası Assambleyasını yaratdıq, onun iclası keçirildi. Biz təhlükəsizlik xidmətləri rəhbərlərinin görüşünü keçirdik, çünki qalan ölkələrdə olan problemlər Moldovada da var. Biz daxili işlər nazirliklərinin rəhbərləri ilə də eyni tədbir keçirdik. GUAM ölkələri gənclərinin forumunu təşkil etdik və onlar katibliyi və digər idarəetmə orqanları olan gənclər təşkilatı yaratmağı qərara aldılar.

Buna görə də düşünürəm ki, perspektivlər çox yaxşı, ciddidir. Üstəlik, biz bir yaxşı işi başqası ilə əvəz etmək istəmirik. Yəni bu təşkilatın fəaliyyətini kiməsə qarşı çevirmək istəmirik. O, bizə ölkələrimizdə mövcud olan məsələləri həll etmək üçün lazımdır. Əlbəttə, bu gün Dnestryanı region probleminin nizama salınması məsələsi ilə bağlı Ukrayna ilə bizim aramızda olan danışıqlar və görülən işlər təşkilatımızın həyat qabiliyyətli olmasına ən əyani misaldır. GUAM-ın üzvü olan dörd ölkədən üçündə ərazi problemləri, indi deyildiyi kimi, "dondurulmuş münaqişələr" mövcuddur. Həm bunlar, həm ener-

getika, həm təhlükəsizlik, həm də demokratik, müstəqil, hərtərəfli güclü dövlət quruculuğu yolunda rast gəldiyimiz problemlər, düşünürəm ki, GUAM-ın diqqət mərkəzində olacaq, lakin hər dəfə öz praktik həllini tapacaqdır.

Sonda demək istəyirəm ki, zənnimcə, biz bu gün Avropa İttifaqı ilə saziş hazırlanması, təşkilatımızın bu çox mühüm Avropa təşkilatı ilə necə əməkdaşlıq edəcəyi barədə qərarımızı düzgün müəyyənləşdirmişik.

Nə etmək niyyətində olduğumuz və nəyin naminə bu gün Kiyevə gəldiyimiz təxminən bunlardan ibarətdir.

Sağ olun.

Sonra dövlət başçıları jurnalistlərin suallarına cavab verdilər.

SUAL: Mənim sualım Azərbaycan və Ukrayna prezidentlərinədir. Hörmətli prezidentlər, GUAM beynəlxalq təşkilat statusu aldı. Sizcə, GUAM beynəlxalq münasibətlər sistemində hansı rolu oynaya bilər?

İLHAM ƏLİYEV: Bu gün biz bu barədə danışdıq. Ümidvarıq ki, təşkilatımız bütün beynəlxalq proseslərin fəal iştirakçısı olacaq, çünki onun keçmişi də, bu günü də, xeyli dərəcədə gələcəyi də bunu nəzərdə tutur.

Hazırda ölkələrimizdə baş verən proseslər artıq regional münasibətlər çərçivəsini aşır və Avropa qitəsində baş verən proseslərə get-gedə daha böyük təsir göstərəcəkdir. Ona görə də ölkələrimizə diqqət artır və bu, təsadüfi deyildir. Bu, onunla bağlıdır ki, ölkələrimizin əhəmiyyəti yüksəlir, beynəlxalq münasibətlər sistemində ölkələrimizin rolu və yeri də möhkəmlənir. Son 10-15 ildə, müstəqillik əldə edildiyi vaxtdan və iqtisadi, siyasi böhranın ilk nəticələrinin aradan qaldırılmağa başlandığı vaxtdan bəri ölkələrimizin inkişaf dinamikasına diqqət yetirsək görərik ki, indi bu, ən dinamik inkişaf edən regiondur. Özü də təkcə ümumi daxili məhsulun və sənaye istehsalının artım sürətinə görə deyil, həm də dünyada baş verən proseslərə təsirinə görə.

Bu gün biz enerji təhlükəsizliyindən danışanda yeni enerji, karbohidrogen mənbələrinin qoşulmasını, onların Xəzər hövzəsindən Avropa və dünya bazarlarına nəqlini, onların mühafizəsini, təhlükəsizliyini nəzərdə tuturuq. Bütün bunlar regional proseslərin inkişafını, yaşadığımız regionda və daha geniş mənada inkişafın hansı istiqamətdə gedəcəyini artıq bu gün müəyyən dərəcədə, gələcəkdə isə daha böyük dərəcədə öncədən təyin edəcəkdir. Öncül istiqamətlər necə olacaq, gündəlikdə nələr olacaq, bu gün nə başlıca, nə ikinci dərəcəli olacaq - bunları təşkilatımız müəyyən edəcəkdir. Biz beynəlxalq birliyin sadəcə passiv üzvü olmayacağıq. Bu, yaxşı adlı və xoş məramlı daha bir təşkilat olmayacaqdır. Xeyr, bizim planlarımız məhz ondan ibarətdir ki, təşkilat, ilk növbədə, milli mənafelərimizin təmin edilməsinin səmərəli mexanizmi olsun, - çünki biz bu təşkilatın üzvləriyik, - habelə regional və beynəlxalq proseslərdə - iqtisadi, siyasi proseslərdə, energetika, nəqliyyat proseslərində, demokratik təsisatların inkişafı və möhkəmlənməsində fəal iştirak etsin. Bütün bunlar bizi birləşdirir, ona görə də təşkilatın 3, 4, 5, yaxud 10 ildən sonra nəyə çevriləcəyini, əlbəttə, qabaqcadan bilmək çətindir. Lakin, bir tərəfdən, dünyada, Avropada gedən proseslərin bugünkü inkişaf meyli, digər tərəfdən ölkələrimizin getdiyimiz yolla irəliləmək əzmi belə deməyə imkan verir ki, təşkilat ki-

fayət qədər səmərəli olacaq, Avropa və qlobal xarakterli mühüm qərarların qəbul edilməsinə təsir göstərmək üçün ciddi vasitələrə malik olacaqdır.

VİKTOR YUŞŞENKO: Mənə elə gəlir ki, ümumi məntəqədən başlamaq olar, bu isə onu göstərir ki, Qafqaz-Qara dəniz regionu yaxın gələcəkdə Avropada ən model region ola bilər. Çünki bu region elə nadir imkanlara malikdir ki, onlar Avropa ölkələrinin mənafeləri üçün ən aktual ola bilər. Biz xəritəyə baxdıqda, təbii dəhlizdən danışırıq. Siyasətçilər və diplomatlar olmasaydı, zənnimcə, bu əlaqə xətləri artıq çoxdan olardı. Səmərəli biznes bu əlaqələri çoxdan sahmanlayardı. Bu gün isə siyasətçilərin vəzifəsi rəsmi mənafeləri formalaşdırmaqdan, iqtisadi layihəyə siyasi dəstəyi təmin etməkdən ibarətdir. Ona görə də biz münasibətlərimizin məzmunundan, onların iqtisadi, ticarət, investisiya və digər cəhətdən dolğunluğundan danışırıq.

Bəli, şübhə yoxdur ki, Azərbaycan nadir neft ehtiyatlarına malikdir. Ukrayna nadir tranzit imkanlarına malikdir. Mən GUAM-da iştirak edən digər ölkələri demirəm - onların ərazilərinin bu və ya digər xüsusiyyətləri var. Bəs, nə üçün bu səyləri birləşdirməyək?! Deyirik ki, əgər bu layihələri əsas tutsaq, onda neftin bugünkü tranzit potensialı daha da səmərəli ola bilər. Bu, təkcə neftə, təkcə qaza aid deyildir. Bu, nəqliyyatla daşımalara, avtomobil və dəmir yollarına da aiddir. Özünə sual vermək olar: yükləri Şərqdən Avropaya necə daşımalı? Siz əsas cavabı asanlıqla taparsınız. GUAM ölkələri olmadan belə layihələri həyata keçirmək mümkün deyildir. Odur ki, biz təşəbbüskar olmalıyıq. Bütün bu layihələri səmərəli layihələr kimi hiss etməliyik.

Mən cənab Prezidentin bu fikri ilə razıyam ki, təşkilat bizi digər beynəlxalq layihələrdən öz praqmatik, səmərəli işi ilə fərqləndirməlidir. Söhbət heç də təkcə bir tərəfə məhsul göndərilməsindən getmir. Düşünürəm ki, Ukraynanın elektrik enerjisi Qafqaza, yaxud Qafqaz vasitəsilə daha uzağa niyə də göndərilməsin. Biz bilmirik indi bu enerjini nə edək. Avropada da, Şərqdə də bazar çox kasaddır. Bir çox digər məsələlər var və onlar göstərir ki, münasibətlərimizi ancaq səmərəlilik baxımından nəzərdən keçirmək lazımdır.

Öz prezidentlik vaxtımı kimlərəsə qarşı planlar cızmağa sərf etməyə heyfim gəlir. Bu, mənim üçün maraqlı deyildir. Bu, milli süfrəyə heç nə gətirmir. Hərçənd başa düşürəm ki, bu və ya digər təşəbbüslərə nə kimi məna verə bilərlər. Biz öz milli mənafelərimizə cavab verən layihələri həyata keçirmək istəyirik. GUAM-ın mahiyyəti və beynəlxalq təşkilat kimi yeni keyfiyyətli GUAM yaradılmasının məğzi məhz bundadır. Mənə elə gəlir ki, GUAM-ı təşkilati cəhətdən möhkəmlətmək lazımdır. Bir daha təkrar edirəm, zənnimcə, ancaq sammitdən sammitə deyil, hər gün işləyən təsisat olmalıdır. GUAM çərçivəsində yüksək səviyyədə görüşlər də ildə bir dəfə deyil, daha tez-tez keçirilməlidir. Biz bu və ya digər məsələləri müzakirə edəcəyik, üstəlik, indi işçi orqanımız olacaq, o, müvafiq təklifləri daha dəqiq və ətraflı formalaşdıracaqdır.

Sağ olun.

SUAL: Mənim sualım bütün prezidentlərədir. Bu on il ərzində MDB ilə əlaqədar sazişlər həyata keçirilməmişdir. Bütün ölkələrin real problemləri, energetika, separatizmin təşviqi, kriminalla əlaqədar Rusiya ilə bağlı problemləri var. Nə üçün bütün bunlara baxmayaraq, bilavasitə tənqid yalnız Gürcüstan Prezidentindən eşidildi? Bu, ona görə baş verdi ki, fikir ayrılığı var, yoxsa bu, sizin Rusiya ilə strateji siyasətinizdir?

VİKTOR YUŞŞENKO: Mən bu barədə təmiz və açıq danışacağam. Siz bilirsiniz, əgər qonşular varsa, münasibətlər də xeyirxah olmalıdır. Bu, təkcə Ukrayna qaydası, ya Moldova, ya Gürcüstan və ya Azərbaycan qaydası deyildir. Bu, təbii hissdir. Biz əmtəə dövriyyəsinin təxminən 21 milyard dollara çatdığı qonşumuz haqqında danışanda onu əsas tuturuq ki, bu əmtəə dövriyyəsini nəinki itirmək lazım deyil, həm də inkişaf etdirmək lazımdır. Çünki əmtəə dövriyyəsinin hər milyon dolları bir neçə min iş yeridir, burada əməkhaqqı, pensiya ödənilir. Başqa sözlə, bu, iqtisadi maraqlardır və onlara görə mübarizə aparmaq, onları möhkəmləndirmək lazımdır. Üstəlik, genişləndirmək, inkişaf etdirmək və sair. Biz deyəndə ki, bu münasibətlər təkcə ikitərəfli əlaqələr xətti ilə deyil, həm də bizim halda olduğu kimi, dörd ölkə arasında da mövcuddur, onda iqtidardakılar qarşısında sual ortaya çıxır. Görünür, burada söhbət təkcə öz-özünə yaranan qeyri-mütəşəkkil münasibətlərdən getmir, onların ahəngdarlığı sistemini qurmaq, hansısa prinsiplər, hansısa qaydalar, proseduralar tətbiq etmək lazımdır. O zaman bu münasibətlər inkişaf edəcəkdir. Prezidentlər kimi, biz bunu etməsək, münasibətlər zəifləyəcəkdir. Milli keyfiyyətlərini, milli maraqlarını, milli perspektivlərini itirəcəklər. Ukrayna bu münasibətlərə belə baxır.

Biz bu münasibətlərdən fayda götürmək istərdik, biz öz milli mənafelərimizi həm də MDB çərçivəsində mövcud olan ərazilərə yaymaq istəyirik. Bu, açıq, aydın siyasətdir. Buna görə deyirik ki, bizə müəyyən normativ bazanı inkişaf etdirmək, formalaşdırmaq lazımdır. Lakin bu barədə danışarkən, eyni zamanda, onu da vurğulayırıq ki, bu münasibətlərin təşkili prinsipləri bizim Avropa İttifaqına və digər beynəlxalq təsisatlara inteqrasiyamızın qarşısını almamalıdır, çünki orada da Ukraynanın marağı var və biz onu reallaşdırmaq istəyirik. Bəlkə də Ukrayna üçün çətinlik ondadır ki, Şərqdə aparılan siyasətdən danışarkən biz bir cür metodlardan istifadə etməliyik, inteqrasiya siyasətindən danışarkən isə klassik metodlardan istifadə etməliyik. Həm siyasətdə, həm iqtisadiyyatda, həm də ticarətdə. Təəssüf ki, onlar heç də həmişə üst-üstə düşmür. Lakin bu, faktdır. Mən şərh vermirəm, bu, sadəcə faktdır, mövcud olan çağırışdır. Əgər sən Prezidentsənsə, bu faktla işləmək olar. Əgər konkret siyasi təsisatdan danışsaq, biz dəfələrlə bəyan etmişik ki, MDB-nin faydalılığında böyük çatışmazlıq var. Mən sonuncu zirvə görüşü haqqında da danışa bilərəm. Ukrayna pensiya təminatı ilə, bir ölkədə işləmiş, indi isə digər ölkədə yaşayan pensiyaçının pensiya ala bilməsi barədə sazişdən tutmuş 5 təkliflə gəlmişdi. Məgər bu, bütün dünyada olduğu kimi normal cavab vermək, prezidentlər və ya hökumətlər üçün vəzifə deyilmi? Yaxud sərhədlərin demarkasiyası və delimitasiyası ilə əlaqədar məsələlər. Biz özümüzü necə dost, qonşu adlandıra bilərik ki, MDB-nin və ya digər beynəlxalq təsisatların tərkibində olan hər bir ölkə ilə sərhəd məsələsi nizama salınmamışdır.

Bu, yaramaz, bu, bizi razı salmır. Biz sərhədlərin demarkasiyası, delimitasiyası haqqında təklif irəli sürürük, lakin bu, başa düşülmür. Mən bəlkə də məxsusi olan, lakin hamı üçün maraqlı ola bilən onlarca məsələ sadalaya bilərəm. Biz saziş barədə danışdıq, hər il Qərb sərhədində və Şərqi Ukrayna sərhədində biz 17 minə yaxın qeyri-leqal saxlayırıq. Hər il orada onlarca qaçqın düşərgəsi yaranır, onlarla nə etməli, onları necə maliyyələşdirməli, onlara bir tikə çörəyi necə verməli. Bu, təkcə Ukrayna üçün çağırış deyil. Özü də bu qaçqınların 80 faizi MDB ərazisindəndir. Biz bu məsələni həll etmək üçün Avropa İttifaqınamı müraciət etməliyik, biz biri-birimizə müraciət etməliyik - hörmətli

prezidentlər, hörmətli baş nazirlər, bu, bizim problemimizdir, bunu biz həll etməliyik. Lakin təəssüf ki, hansısa səbəblərdənsə, bu təklif də keçmədi. Biz bu məsələlərdə öz siyasətimizi qətiyyətlə yeridəcəyik, çünki mən əminəm ki, əgər biz bir yerdə yığışırıqsa, deməli, bizim qərarlarımız praqmatik olmalıdır. Əgər biz belə qərarlar qəbul edə bilmiriksə, onda bu quruma başqa cür yanaşmalıyıq. Belə ki, biz bunu şirin söhbətlər kimi qəbul etməməliyik. Bu, həqiqətən, sadə olmayan mürəkkəb münasibətlərdir. Zənnimcə, siz mənim cavabımı başa düşdünüz.

İLHAM ƏLİYEV: Bu gün bu məsələ zirvə görüşü zamanı müzakirələr çərçivəsində də və mətbuat konfransında da səslənmişdir ki, bizim təşkilatımız qarşıdurma təşkilatı deyildir. O, kiməsə qarşı yönəldilməmişdir. Bəzi kütləvi informasiya vasitələrində tez-tez GUAM-ı əks təşkilat kimi qələmə verməyə cəhd göstərirlər. Biz burada kiməsə qarşı birləşib dostluq etməyə yığışmamışıq. Biz konstruktiv işləmək, əməkdaşlıq etmək, qarşılıqlı surətdə faydalı layihələri irəlilətmək, daxili tələbatımızı, maraqlarımızı maksimal dərəcədə təmin etmək üçün yığışmışıq. Xüsusən də, artıq deyildiyi kimi, təşkilatın təşəkkülünün və inkişafının bugünkü mərhələsi ilkin mərhələdir. Yaranmasından 10 il keçməsinə baxmayaraq, o, real təşkilat kimi bu gün fəaliyyət göstərməyə başlayır, özü də elə bir vaxtda ki, bizim regionda - Xəzər dənizi-Qara dəniz regionunda tamamilə yeni reallıqlar, yeni şərait yaranır. Biz onlara hazır olmalıyıq. Biz təkcə bu proseslərin ardınca getməməli, proseslərə başçılıq etməliyik. Təşəbbüs göstərməli və milli maraqlarımızın təmin olunmasına yönəldilmiş iri layihələrin həyata keçirilməsini təklif etməliyik.

Hər bir dövlət və hər bir Prezident, ilk növbədə, öz ölkəsinin milli maraqlarını maksimum dərəcədə necə təmin etmək barədə düşünməlidir. Xüsusən də müstəqil dövlətlər kimi qısa tarixə malik ölkələrdə. Bizim müstəqilliyimizin cəmi 15 yaşı var. Onun da çox hissəsi ölkələrimizin ərazisindəki münaqişələrin ağırlaşdırdığı iqtisadi böhran, sosial gərginlik şəraitində keçmişdir, yəni müstəqilliyin, iqtisadi potensialın möhkəmləndirilməsi, sabitləşdirilməsi, - bunlarsız müstəqillik sadəcə olaraq xoş niyyətdir, - üçün real işləmək imkanları məhdud idi. Bu gün biz elə bir həddə gəlib çatmışıq ki, iqtisadi, sosial, siyasi böhranların nəticələri, demək olar, aradan qaldırılmışdır. Biz tamamilə yeni səviyyəyə çıxırıq, indi gələcək perspektivlər, planlar barədə düşünməliyik, bu baxımdan əlimizdən gələni etməliyik ki, öz fəaliyyətimizlə, addımlarımızla, qərarlarımızla ölkələrimizə, xalqlarımıza fayda gətirək.

Ona görə də biz Azərbaycanda müxtəlif beynəlxalq təşkilatlara üzvlük məsələsini bu baxımdan nəzərdən keçiririk. Buna görə də düşünürəm ki, GUAM-ın digər regional təşkilatlara qarşı qoyulması heç də düzgün yanaşma deyildir. Rusiya ilə münasibətlərə gəldikdə isə, deməliyəm ki, Azərbaycanın Rusiya ilə münasibətləri konstruktiv şəkildə qurulur, baxmayaraq ki, 1990-cı illər dövrünü xatırlasaq, demək olar ki, bütün 1990-cı illər, bəlkə də, keçmiş sovet məkanındakı ölkələr arasında ən gərgin münasibətlər Rusiya ilə Azərbaycan arasında olan münasibətlər idi. O zaman blokadalar da var idi, ərazimizi işğal etmiş Ermənistana çoxmilyardlıq qanunsuz silah göndərilməsi də var idi və sair. Lakin bu prosesləri yenidən dərk etməyin vaxtı gəldi. Biz 2000-ci illərin əvvəlindən fəaliyyətimizi müsbət cəhətlərə yönəltməyə, yəni müsbət olanları önə çəkməyə və mənfinin müsbətə çevrilməsi üçün onun üzərində işləməyə çalışdıq. Mən sizə bütün məsuliyyəti ilə və tamamilə ciddi deyirəm ki, bu taktika öz nəticəsini verdi. Bu gün Rusiya ilə Azərbaycan arasında qarşılıqlı narazılıq doğura biləcək məsələ qalmamışdır. Son iki il-

də əmtəə dövriyyəsi iki dəfə artmışdır. Biz iqtisadi, regional və energetika sahələrində fəal əməkdaşlıq edirik. Ona görə də düşünürəm ki, bu təcrübə, - hər halda birləşdirən nə varsa, müsbət olan nə varsa, ön plana çəkmək, mənfini isə geri itələmək, - maraqlı ola bilər. Özü də tədricən həll etmək, mənfi azaldıqca, müsbətə keçmək lazımdır. Bəlkə bu, uğur gətirər. Hər halda, bir daha demək istəyirəm ki, biz GUAM-a hansısa başqa funksiyaları olan alət kimi deyil, regionumuzda demokratik proseslərin inkişafında səmərəli siyasi, iqtisadi əməkdaşlıq vasitəsi kimi baxırıq. Bu proseslər qaçılmazdır və biz onları fəal surətdə irəlilətməliyik.

VLADİMİR VORONİN: Əlbəttə, mən bu məsələ ilə bağlı fikirlərini söyləmiş prezidentlərlə razıyam. Ölkələrin münasibətləri beynəlxalq konvensiyalar, sazişlər əsasında qurulur. Lakin bu zaman başlıcası, bu münasibətlərin inkişaf etdirildiyi ölkənin mənafelərinə və hüquqlarına qarşılıqlı hörmətdir. Biz "sovet imperiyası" sindromundan can qurtara bilmirik. Biz, moldovanlar sülhsevər və çox xeyirxah insanlarıq. Lakin buz də daim böyük qardaş, kiçik qardaş və ya bacı prinsipi haqqında danışa bilmərik. Biz o beynəlxalq təşkilatlara gedirik, o təşkilatlarla işləyirik ki, orada ölkəmizin mənafelərinə riayət olunur, orada onun inkişafının öncül istiqamətləri var. Bu, hansısa ictimai problemləri həll edən qeyri-hökumət təşkilatları deyildir. Bu, dövlətin inkişafı məsələləridir, çox ciddi problemlərdir. Bizim aramızda nə isə baş verəndə biz Moldovada məsələni həmişə belə qoyuruq: axı, biz nəyi düz etmədik, niyə belə oldu, ilkin səbəb nədədir, biz ilk növbədə nə etməliyik?

Məsələn, şərab böhranı haqqında. Biz ötən il 360 milyon şüşə şərab istehsal edib satmışıq. Hamımız yaşlı adamlarıq və anlayırıq ki, əlbəttə, bu şüşələrin hansındasa keyfiyyətsiz məhsul ola bilər. Bunu heç kim və heç zaman istisna etmir. İstənilən məhsul, istənilən digər sistem olduğu kimi. Kosmosda da nasazlıq yarana bilər. Burada isə söhbət artmaq və köhnəlmək dinamikası olan aktiv mayedən gedir. Yəni, canlı orqanizm kimi, o da turşuya bilər, onunla da nə istəsən baş verə bilər.

Bəs, bu problemə necə yanaşmalı? Əgər ona buldozerlərlə yanaşılsa, onda bu, bir qərardır, yox, əgər insan kimi yanaşılsa, oturub müzakirə edilərsə, onda kim bunun əleyhinə çıxır, heç kim. Biz özümüz bu problemlə mübarizə aparırıq, lazım olmayan işlərlə, saxtakarlıqlarla məşğul olanları daim qovuruq. Bilirsiniz, saxtalaşdırılmış məhsul problemi heç də təkcə şərabçılıqda olmur. Nəyi istəsələr saxtalaşdırırlar. Müxtəlif yarlıklar yapışdırır və istədiklərini buraxırlar. Lakin bütün bunlar sivil çərçivədə, təhqirə yol verilmədən edilməlidir. Çünki Moldova və ya Gürcüstan şərabının brendini bazara çıxarmaq üçün nə qədər vaxt gərəkdir, sonra da bir gündə onların hamısı buldozerlərin altına atılır. Əlbəttə, burada milli heysiyyətə və dövlət mənafelərinə toxunurlar, hamısına bir yerdə. Odur ki, biz bu məsələlərdə, sadəcə, çox diqqətli olmalıyıq, bir-birimizə qarşılıqlı hörmətlə yanaşmalıyıq. Artıq bu halda bütün ölkələrlə münasibətlərimiz çox gözəl olar, biz məhz buna köklənmişik. Xüsusən də, yüzilliklər ərzində təşəkkül tapmış münasibətlərimiz olan ölkələrlə. Bu yüzilliklər indiki Prezidentə, - onun nə kimi səlahiyyətləri olsa da, - verilməyib ki, onların üstündən buldozerlərlə keçsin.

MİXAİL SAAKAŞVİLİ: Burada çox alovlu nitqlər söylənildi, mən bütün bu məsələləri heç vaxt belə dəqiq əsaslandırmamışam. Həqiqətən, gözəl Moldova şərablarının iri buldozerlərlə Moskva torpağında necə basdırıldığını televizorda gördüm. Çox xoşagəlməz

mənzərə idi. İndi Moskva torpağına Moldova şərabı hopmuş və sındırılmış butılkaların şüşələri basdırılmışdır. İnanmıram ki, bu torpaqda yaxşı nəsə bir şey bitsin. Bizim real problemlərimiz var və hökumətimizə tapşırmışıq hesablasınlar ki, qazandığımız nədir, uduzduğumuz nədir. Biz bir yerdə oturub qalmaq və əlimizi ağdan-qaraya vurmamaq üçün yaşamırıq. Əlbəttə, biz milli mənafelərimizə uyğun olan qərar qəbul edəcəyik. Mən burada deyilənlərin hamısını təsdiq edirəm ki, biz öz görüşlərimizi kimlərəsə qarşı yönəltmirik. Bizim konkret problemlərimiz var. Onları digərləri ilə həll etməyə çalışırıq, hələlik digərləri ilə baş tutmursa, bir-birimizlə həll edirik. Odur ki, bu cür hər hansı hərəkəti kiməsə acıq vermək kimi başa düşmək lazım deyildir. Çünki kiminsə acığına bir iş görərək yaşamaq çox xoşagəlməzdir, yaxşı hal deyil və insana yaraşmaz.

Təbii ki, dövlət də heç vaxt belə hərəkət etməyəcəkdir. Hesab edirəm ki, problem var. Ukraynanın tamamilə əsaslandırılmış təkliflərinə baxılmadığını gördükdə şəxsən özümü təhqir olunmuş hesab etdim. MDB görüşlərində nəinki müzakirəyə çıxarmadılar və dəlillər gətirib rədd etmədilər, sadəcə olaraq, heç müzakirə etmədilər.

Ukrayna meşənin qırağında hansısa ucqar bir kənd deyil, bu Birliyin aparıcı ölkəsidir. Əgər onu belə saya almırlarsa, bu cür sərvətləri, imkanları olmayan kiçik dövlətlərdən heç danışmağa dəyməz. Bir sözlə, bütün bunlar mövcud reallıqlar haqqında düşündürür. Əlbəttə, biz tələm-tələsik qərarlar qəbul etməyəcəyik. Ona görə ki, qəbul edəcəyimiz hər hansı qərarları, indiyədək olduğu kimi, əlaqələndirəcəyik. Biz məsələləri MDB üzrə bütün tərəfdaşlarımızla əlaqələndirəcəyik, həll edəcəyik, ən azı, məsələləri həll etməyə çalışacağıq, qəti qərarları bundan sonra qəbul edəcəyik.

SUAL: Mənim sualım Moldova Prezidenti cənab Vladimir Voroninədir. Cənab Prezident, bu gün Siz çıxışınızda GUAM-ın regionun digər ölkələri üçün açıq olması ilə əlaqədar bu təşkilatın adını dəyişdirməyi təklif etdiniz. Vladimir Nikolayeviç, Siz hansı ölkələri bu təşkilatın potensial yeni üzvləri kimi görürsünüz?

VLADİMİR VORONİN: Bəli, təklif etdim ki, adı dəyişdirib, Avropa Seçimi Birliyi qoyaq. Lakin bu tapşırıq Katibliyə və xarici işlər nazirlərinə göndərildi. İclasımızdan sonra onlar bu təklifə necə yanaşmaq barədə məlumat verəcəklər. Mən bir sıra ölkələri, o cümlədən Avropa İttifaqı ölkələrini, hər halda, yaxın vaxtlarda Aİ-nin üzvləri olacaq ölkələri, məsələn, Rumıniyanı, Bolqarıstanı görürəm. Bu, tamamilə normal haldır, xüsusən, haqqında danışdığımız enerji və yanacaq dəhlizləri çərçivəsində. Onlar çox yaxşı uyğun gəlirlər və bunda özləri də çox ciddi maraqlıdırlar. Məsələ səmərəlilikdədir. Əgər biz münasibətlərimizin səmərəli və keyfiyyətli olduğunu göstərsək, yeni səviyyəyə qalxsaq və bunu hiss etsələr, əlbəttə, təşkilat genişlənəcək və daha dərin inkişaf istiqaməti alacaqdır.

Mətbuat konfransından sonra Azərbaycan, Ukrayna, Moldova və Gürcüstan prezidentləri zirvə görüşü münasibətilə Ukraynanın poçt xidməti tərəfindən buraxılmış yeni poçt markalarının təqdimat mərasimində iştirak etdilər. Dövlət başçıları poçt markalarını imzaladılar və sonra xatirə şəkli çəkdirdilər.

Bununla da GUAM-ın üzvü olan ölkələrin dövlət başçılarının zirvə toplantısı başa çatdı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV MİNSK QRUPUNUN HƏMSƏDRİ OLAN DÖVLƏTLƏRİN NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 24-də Prezident sarayında Rusiya xarici işlər nazirinin müavini Qriqori Karasin, ABŞ dövlət katibinin Avropa məsələləri üzrə müavini Daniel Frid, Fransa Prezidentinin beynəlxalq məsələlərə dair müşaviri Pyer Morel, ATƏT-in Minsk qrupunun həmsədrləri və ATƏT-in hazırkı sədrinin şəxsi nümayəndəsindən ibarət ATƏT-in Minsk qrupunun həmsədri olan dövlətlərin nümayəndə heyətini qəbul etmişdir.

Görüş zamanı Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması ilə əlaqədar aparılan danışıqlarla bağlı fikir mübadiləsi olmuşdur.

"AZƏRBAYCAN RESPUBLİKASININ SƏFİRLİYİ HAQQINDA ƏSASNAMƏ"NİN TƏSDİQ EDİLMƏSİ BARƏDƏ AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

1. "Azərbaycan Respublikasının Səfirliyi haqqında Əsasnamə" təsdiq edilsin (əlavə olunur).

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Fərmandan irəli gələn məsələləri öz səlahiyyətləri daxilində həll etsin.

İlham Əliyev

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 25 may 2006-cı il.

AZƏRBAYCAN RESPUBLİKASININ SƏFİRLİYİ HAQQINDA ƏSASNAMƏ

I. Ümumi müddəalar

1. Azərbaycan Respublikasının Səfirliyi (bundan sonra - Səfirlik) qəbul edən dövlətdə Azərbaycan Respublikasını təmsil edən diplomatik xidmət orqanıdır. Səfirlik Azərbaycan Respublikası Prezidentinin təqdimatı ilə Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən təsis edilir. Səfirlik Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin (bundan sonra - Nazirlik) rəhbərlik etdiyi diplomatik xidmət orqanlarının vahid sisteminə daxildir.
2. Səfirlik öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, "Diplomatik xidmət haqqında" Azərbaycan Respublikasının Qanununu və digər qanunlarını, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını, Diplomatik əlaqələr haqqında Vyana Konvensiyasını və Azərbaycan Respublikasının tərəfdar çıxdığı digər müvafiq beynəlxalq müqavilələri, eləcə də beynəlxalq hüququn digər tətbiq edilə bilən normalarını, Azərbaycan Respublikasının Xarici İşlər Na-

zirliyi haqqında Əsasnaməni, bu Əsasnaməni, Nazirliyin əmr, sərəncam və göstərişlərini rəhbər tutur və qəbul edən dövlətin qanunvericiliyini nəzərə alır.

3. Səfirlik qəbul edən dövlətdə Azərbaycan Respublikasının vahid xarici siyasət xəttinin həyata keçirilməsini öz səlahiyyətləri daxilində təmin edir və bu məqsədlə Azərbaycan Respublikasının dövlət və yerli özünüidarəetmə orqanlarının, idarə, təşkilat və müəssisələrinin nümayəndəliklərinin, nümayəndə heyətlərinin və mütəxəssis qruplarının fəaliyyətini əlaqələndirir və işi üzərində nəzarəti həyata keçirir. Adı çəkilən nümayəndəliklər, nümayəndə heyətləri və mütəxəssis qrupları öz fəaliyyətini Səfirlik ilə razılaşdırmalı və öz fəaliyyəti barədə Səfirliyə məlumat verməlidirlər.
4. Səfirliyin binasında və ya onun ərazisində, Azərbaycan Respublikasının xarici dövlətdəki Fövqəladə və Səlahiyyətli Səfirinin (bundan sonra - Səfir) iqamətgahında Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq Azərbaycan Respublikasının Dövlət bayrağı qaldırılır. Səfirliyin binasında və ya onun ərazisində Azərbaycan Respublikasının Dövlət gerbinin təsviri və Azərbaycan dilində və qəbul edən dövlətin dövlət dilində (dövlət dillərində) "Azərbaycan Respublikasının (qəbul edən dövlətin adı) Səfirliyi" yazısı olan lövhə vurulur. Səfirin nəqliyyat vasitəsi üzərində Azərbaycan Respublikasının Dövlət bayrağı yerləşdirilir. Azərbaycan Respublikasının dövlət rəmzləri qəbul edən dövlətin protokol təcrübəsi nəzərə alınaraq istifadə olunur.
5. Səfirlik, səfirliyin əməkdaşları və onlarla birlikdə yaşayan ailə üzvləri qəbul edən dövlətdə beynəlxalq hüquq normalarına və qəbul edən dövlətin qanunvericiliyinə uyğun olaraq immunitet və imtiyazlardan istifadə edir. Səfirliyin əməkdaşları və onlarla birlikdə yaşayan ailə üzvləri qəbul edən dövlətin qanunvericiliyinə, adət və ənənələrinə hörmət etməli, qəbul edən dövlətin daxili işlərinə qarışmaqdan və daxili işlərinə qarışmaq kimi təfsir oluna bilən hərəkətlərdən çəkinməlidir.
6. Səfirlik Nazirlik tərəfindən təsdiq olunmuş Azərbaycan Respublikasının Dövlət gerbinin təsviri və öz adı həkk olunmuş möhürə, ştamplara, blanklara və bank hesablarına malikdir.
7. Azərbaycan Respublikasının mülkiyyəti olan Səfirliyin torpaq sahələri, binaları, qurğuları və digər əmlakı Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən olunmuş qaydada Səfirliyə təhkim olunur.
8. Səfirlik ona təhkim olunmuş əmlak üzərində sahiblik, istifadə və sərəncam hüququnu Azərbaycan Respublikasının müvafiq qanunvericilik aktları ilə müəyyən edilmiş qaydada həyata keçirir.

II. Səfirliyin əsas vəzifələri

9. Səfirliyin əsas vəzifələri aşağıdakılardır:
   9.1. öz səlahiyyətləri daxilində qəbul edən dövlətdə Azərbaycan Respublikasını təmsil etmək;
   9.2. qəbul edən dövlətdə Azərbaycan Respublikasının vahid xarici siyasət xəttini öz səlahiyyətləri daxilində həyata keçirmək;
   9.3. qəbul edən dövlətdə Azərbaycan Respublikasının milli maraqlarını, o cümlədən suverenliyini, təhlükəsizliyini, ərazi bütövlüyünü, sərhədlərinin toxunulmazlığını, siyasi, iqtisadi və digər maraqlarını diplomatik üsul və vasitələrlə öz səlahiyyətləri daxilində təmin etmək və müdafiə etmək;
   9.4. qəbul edən dövlətdə Azərbaycan Respublikasının, onun vətəndaşlarının və hüquqi şəxslərinin hüquq və maraqlarını öz səlahiyyətləri daxilində müdafiə etmək;
   9.5. qəbul edən dövlətdə Azərbaycan Respublikasının diplomatik və konsul əlaqələrini qanunvericiliklə nəzərdə tutulmuş qaydada həyata keçirmək;
   9.6. qəbul edən dövlətə rəsmi nümayəndə heyətlərinin səfərlərinin hazırlanmasına və həyata keçirilməsinə öz səlahiyyətləri daxilində kömək etmək.

III. Səfirliyin funksiyaları

10. Səfirlik bu Əsasnamə ilə müəyyən edilmiş vəzifələrə uyğun olaraq aşağıdakı funksiyaları həyata keçirir:
   10.1. müəyyən olunmuş qaydada Azərbaycan Respublikasının Prezidentini, Azərbaycan Respublikasının Nazirlər Kabinetini və Nazirliyi qəbul edən dövlətin xarici və daxili siyasət məsələləri üzrə məlumatlandırır;
   10.2. Azərbaycan Respublikasının qəbul edən dövlətlə iqtisadi, sosial, elmi-texniki, mədəni və başqa sahələrdə əməkdaşlığın inkişafına öz səlahiyyətləri daxilində kömək göstərir;
   10.3. Azərbaycan Respublikasının qəbul edən dövlət ilə dostluq münasibətlərini inkişaf etdirir, habelə Azərbaycan Respublikasının həmin bölgədə və bütövlükdə dünyada maraqlarının təmin edilməsinə dair Nazirliyə təkliflər təqdim edir;
   10.4. qəbul edən dövlətdə Azərbaycan Respublikasının xarici və daxili siyasəti, ölkənin iqtisadi, sosial və mədəni həyatı haqqında rəsmi məlumatın yayılmasını təmin edir;
   10.5. Dövlət orqanlarına və zəruri hallarda Azərbaycan Respublikasının qeyri-hökumət təşkilatlarına (ictimai birliklərinə və fondlara) və işgüzar dairələrinin nümayəndəliklərinə həmin dövlətin qeyri-hökumət təşkilatları və işgüzar dairələrinin nümayəndələri ilə əlaqələr qurmasına öz səlahiyyətləri daxilində köməklik göstərir;
   10.6. Azərbaycan Respublikası ilə qəbul edən dövlət arasında beynəlxalq müqavilələrin layihələrinin hazırlanmasında, Azərbaycan Respublikası ilə qəbul edən dövlət arasında müqavilələrin bağlanması, icrası, ləğv edilməsi və qüvvəsinin dayandırılması barədə təkliflərin hazırlanmasında, Azərbaycan Respublikası ilə qəbul edən dövlət arasında beynəlxalq müqavilələrin icrası üzərində ümumi müşahidənin həyata keçirilməsində öz səlahiyyətləri daxilində iştirak edir;
   10.7. qəbul edən dövlətdə Azərbaycan Respublikasının konsulluqlarının fəaliyyəti üzərində ümumi siyasi rəhbərliyi həyata keçirir;
   10.8. qəbul edən dövlətdə Azərbaycan Respublikasına, onun xarici siyasət təşəbbüslərinə münasibətdə müsbət mövqenin təşəkkül tapmasına öz səlahiy-

yətləri daxilində köməklik göstərir;

10.9. qəbul edən dövlətdə Azərbaycan Respublikasının əmlak hüquqlarının və maraqlarının müdafiəsində öz səlahiyyətləri daxilində iştirak edir;

10.10. qəbul edən dövlətin əvvəlcədən razılığı olduğu təqdirdə, qəbul edən dövlətdə akkreditə olunmamış üçüncü dövlətin xahişi ilə həmin üçüncü dövlətin və onun vətəndaşlarının maraqlarını beynəlxalq razılaşmalar əsasında müdafiə edir;

10.11. qəbul edən dövlətdə yaşayan azərbaycanlılarla əlaqələrin qurulmasına və əməkdaşlığın inkişafına öz səlahiyyətləri daxilində yardım edir;

10.12. öz səlahiyyətləri daxilində qəbul edən dövlətin iqtisadi, sosial, elmi-texniki, mədəni və başqa sahələri, habelə xarici və daxili siyasəti haqqında məlumat toplayır, qəbul edən dövlətin beynəlxalq münasibətlər sistemində yerini təhlil edir, həmçinin qəbul edən dövlətin yerləşdiyi bölgədə digər dövlətlərin, beynəlxalq və regional təşkilatların fəaliyyətini öyrənir və bu barədə Nazirliyə mütəmadi olaraq məlumatlar təqdim edir;

10.13. Azərbaycan Respublikası Prezidentinin, Azərbaycan Respublikası Nazirlər Kabinetinin, Nazirliyin tapşırıqlarını yerinə yetirir, həmçinin Nazirliklə razılaşdırılmış Azərbaycan Respublikasının digər dövlət hakimiyyəti orqanlarının müraciətlərinə baxır;

10.14. yerli icra hakimiyyəti və özünüidarəetmə orqanlarının, idarə, təşkilat və müəssisələrinin müraciətlərinə baxır;

10.15. Azərbaycan mallarının və xidmətlərinin beynəlxalq bazarlara çıxarılması sahəsində Azərbaycan Respublikasının aidiyyəti dövlət orqanlarına öz səlahiyyətləri daxilində kömək göstərir;

10.16. Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq digər funksiyaları həyata keçirir.

IV. Səfirliyin hüquqları

11. Səfirlik öz vəzifələrini yerinə yetirmək üçün aşağıdakı hüquqlara malikdir:

11.1. öz səlahiyyətləri daxilində rəsmi nümayəndə heyətlərinin səfərlərinə dair Nazirliyə təkliflər vermək;

11.2. qəbul edən dövlətin dövlət və yerli özünüidarəetmə orqanları, qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar), elmi və mədəni dairələri, kütləvi informasiya vasitələri, qəbul edən dövlətdə fəaliyyət göstərən diplomatik nümayəndəlik, konsulluq və beynəlxalq və regional təşkilatlar ilə işgüzar əlaqələr qurmaq və inkişaf etdirmək;

11.3. Səfirliyin səlahiyyətinə aid olan məsələlərin həll olunması üçün Azərbaycan Respublikasının dövlət orqanlarından, eləcə də yerli icra hakimiyyəti və özünüidarəetmə orqanları, idarə, təşkilat və müəssisələrindən müəyyən olunmuş qaydada sənədləri, məlumat və digər xarakterli materialları almaq;

11.4. öz səlahiyyətləri daxilində qəbul edən dövlətdə Azərbaycan Respublikasının fəxri konsullarının təyin edilməsi barədə təkliflərini Nazirliyə təqdim etmək;

11.5. öz səlahiyyətləri daxilində konfranslar, görüşlər və digər tədbirlər təşkil etmək;

11.6. Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş digər hüquqları həyata keçirmək.

V. Səfirliyin fəaliyyətinin təşkili

12. Səfirliyə akkreditə olunduğu dövlətdə Azərbaycan Respublikasının ən yüksək rəsmi nümayəndəsi olan Səfir başçılıq edir. Səfir Azərbaycan Respublikasının Prezidenti tərəfindən təyin edilir və geri çağırılır. Səfir Azərbaycan Respublikasını təmsil edir.

13. Ali təhsilli və üzərinə qoyulmuş vəzifələri yerinə yetirmək üçün müvafiq işgüzar, mənəvi, peşəkar keyfiyyətlərə və sağlamlıq vəziyyətinə malik olan Azərbaycan Respublikasının vətəndaşı Səfir təyin edilə bilər.

14. Səfir təyin olunmuş şəxsin qəbul edən dövlətdə fasiləsiz iş müddəti, bir qayda olaraq, beş ildir. Bu müddət Azərbaycan Respublikasının Prezidenti tərəfindən uzadıla bilər.
Səfir və ya Səfirliyin digər əməkdaşları Azərbaycan Respublikasının və ya qəbul edən dövlətin qanunvericiliyinə görə məsuliyyət doğuran əməllər törətməkdə təqsirli bilindikdə, habelə Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş digər hallarda vaxtından əvvəl geri çağırıla bilərlər.
Səfir və ya Səfirliyin digər əməkdaşlarının vaxtından əvvəl geri çağırılmasına, onlarla birlikdə yaşayan ailə üzvlərinin yuxarıda göstərilən əməllərin törədilməsində təqsirli bilinməsi də əsas ola bilər.

15. Səfir Səfirliyə həvalə edilmiş vəzifələrin yerinə yetirilməsi üçün şəxsən məsuliyyət daşıyır, göstəriş və tapşırıqların yerinə yetirilməsinə görə Nazirlik qarşısında hesabat verir.

16. Səfir:

16.1. Səfirliyin fəaliyyətini təşkil edir və ona rəhbərlik edir;

16.2. dövlət sirrinin və qanunla mühafizə edilən digər sirlərin qorunmasını öz səlahiyyətləri daxilində təşkil edir;

16.3. Səfirliyə ayrılan dövlət vəsaitinin səmərəli sərf olunması və maliyyə intizamına riayət olunması üzərində nəzarəti öz səlahiyyətləri daxilində həyata keçirir;

16.4. öz səlahiyyətləri daxilində Səfirliyin fəaliyyətinə dair icrası məcburi olan əmrlər, sərəncamlar, göstərişlər verir;

16.5. öz səlahiyyətləri daxilində Səfirlikdə Azərbaycan Respublikasının normativ hüquqi aktlarının və Nazirliyin əmr, sərəncam və göstərişlərinin icrasını təşkil edir və onların yerinə yetirilməsi üzərində nəzarəti həyata keçirir;

16.6. Səfirliyin əməkdaşlarını lazımi iş şəraiti ilə təmin edir, müəyyən olunmuş qaydada səfirliyin fəaliyyəti ilə bağlı Nazirliyə təkliflər irəli sürür;

16.7. Nazirliyin razılığı ilə xidməti ezamiyyətlərə gedir;

16.8. Səfirliyin xüsusi fərqlənmiş əməkdaşlarını Azərbaycan Respublikasının dövlət təltifləri ilə təltif edilməsi üçün, habelə Səfirliyin əməkdaşları barə-

sində həvəsləndirmə və intizam tənbeh tədbirləri görülməsi üçün Nazirliyə təqdimat verir;

16.9. Səfirliyin diplomatik xidmət əməkdaşlarının rütbədə və vəzifədə yüksəldilməsi, Səfirliyin diplomatik xidmət əməkdaşlarının və inzibati-texniki xidmətini həyata keçirən şəxslərinin xaricdəki iş müddətinin "Diplomatik xidmət haqqında" Azərbaycan Respublikasının Qanununa müvafiq olaraq uzadılması haqqında Nazirliyə müəyyən olunmuş qaydada təklif verir;

16.10. Səfirliyin diplomatik və inzibati-texniki əməkdaşlarının məzuniyyətləri və ezamiyyətləri barədə əmrlər verir;

16.11. Səfirliyin ştatdankənar vəzifələrinə Nazirlik ilə razılaşdıraraq işə qəbul edir və işdən azad edir, ştatdankənar vəzifələrdə çalışan əməkdaşların məzuniyyətləri və ezamiyyətləri barədə əmrlər verir;

16.12. Səfirliyin əməkdaşlarının və onlarla birlikdə yaşayan ailə üzvlərinin Azərbaycan Respublikasına və digər ölkələrə səfərləri ilə bağlı məsələləri öz səlahiyyətləri daxilində həll edir;

16.13. öz səlahiyyətləri daxilində Səfirliyin, onun əməkdaşlarının və onlarla birlikdə yaşayan ailə üzvlərinin təhlükəsizliyinin təmin edilməsi üçün lazımi tədbirlər görür, fövqəladə vəziyyət şəraitində qəbul edən dövlətdə Azərbaycan Respublikasının xaricdəki diplomatik xidmət orqanlarının işini və vətəndaşlarının hərəkətlərini müəyyən olunmuş qaydada təşkil edir və onun üzərində rəhbərliyi öz səlahiyyətləri daxilində həyata keçirir;

16.14. beynəlxalq hüquqa və qəbul edən dövlətin qanunvericiliyinə görə Səfirliyə və qəbul edən dövlətdə yerləşən Azərbaycan Respublikasının digər nümayəndəliklərinə, onların əməkdaşlarına və ailə üzvlərinə, diplomatik poçta və onu daşıyan şəxslərə, həmçinin immunitet və imtiyazlara hüququ olan Azərbaycan Respublikasının digər vətəndaşlarına verilən immunitet və imtiyazların təmin olunması məqsədi ilə öz səlahiyyətləri daxilində lazımi tədbirlər görür;

16.15. Səfirliyin və qəbul edən dövlətdə yerləşən Azərbaycan Respublikasının digər qurumlarının heyətinə qəbul edən dövlətdə Azərbaycan Respublikasının maraqlarını layiqli təmsil etmələri, onun qanunvericiliyinə, adət və ənənələrinə hörmət etmələri üçün tövsiyələr verir;

16.16. qəbul edən dövlətlə danışıqlar aparır, beynəlxalq konfranslarda və görüşlərdə iştirak edir, habelə qanunvericiliklə nəzərdə tutulmuş qaydada beynəlxalq müqavilələr imzalayır;

16.17. Azərbaycan Respublikasının dövlət orqanlarının nümayəndə heyətlərinin və mütəxəssis qruplarının qərarları və hərəkətləri Azərbaycan Respublikasının maraqlarına cavab vermədiyi halda Nazirliyə məlumat verir və Nazirlik bu məlumat əsasında həmin dövlət orqanlarının nümayəndə heyətlərinin və mütəxəssis qruplarının işinə vaxtından əvvəl xitam verilməsi məsələsi ilə bağlı həmin dövlət orqanları qarşısında məsələ qaldırır;

16.18. Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq digər səlahiyyətləri həyata keçirir.

17. Səfir vəzifəsi vakant olduqda və ya Səfir öz vəzifəsini icra etmək iqtidarında olmadığı halda onun funksiyalarını Azərbaycan Respublikasının xarici işlər naziri tərəfindən təyin olunan Azərbaycan Respublikasının müvəqqəti işlər vəkili yerinə yetirir.
Müvəqqəti işlər vəkilinin adı Səfir tərəfindən və ya Səfir bunu etmək iqtidarında olmadığı halda Nazirlik tərəfindən qəbul edən dövlətin Xarici İşlər Nazirliyinə bildirilir.
18. Səfirliyin strukturu və ştat cədvəli Nazirlik tərəfindən təsdiq edilir.
19. Səfirliyin maddi-texniki təminatı Nazirlik tərəfindən həyata keçirilir.
20. Səfirliyin əməkdaşlarının hüquq və vəzifələri Azərbaycan Respublikasının qanunvericiliyi, Nazirliyin normativ aktları və vəzifə təlimatları ilə müəyyən olunur. Səfirliyin əməkdaşları Səfirə, Səfir olmadığı halda isə Azərbaycan Respublikasının müvəqqəti işlər vəkilinə tabedirlər və onun əmr və göstərişlərini yerinə yetirməyə borcludurlar.
21. Səfirliyin işi müəyyən olunmuş qaydada Nazirlik tərəfindən təsdiq edilmiş illik iş planı əsasında təşkil olunur.
22. Səfirliyə qanunvericiliklə müəyyən olunmuş qaydada Azərbaycan Respublikasının digər dövlət orqanlarının nümayəndələri ezam oluna bilərlər. Səfirliyə ezam olunmuş Azərbaycan Respublikasının digər dövlət orqanlarının nümayəndələri öz qərarlarını və hərəkətlərini Səfir ilə razılaşdırmalıdırlar.
23. Səfirlikdə Azərbaycan Respublikasının və qəbul edən dövlətin qanunvericiliyinə uyğun olaraq ümumtəhsil məktəbi və məktəbəqədər müəssisə fəaliyyət göstərə bilər.
24. Azərbaycan Respublikasının qanunvericiliyinə müvafiq olaraq həmkarlar ittifaqı istisna olmaqla, Səfirlikdə siyasi partiyaların, dini təşkilatların və qeyri-hökumət təşkilatlarının (ictimai birliklərin və fondların) bölmələri yaradıla bilməz.

2006-CI İL YANVARIN 4-DƏ MANAMA ŞƏHƏRİNDƏ İMZALANMIŞ "AZƏRBAYCAN RESPUBLİKASININ XARİCİ İŞLƏR NAZİRLİYİ VƏ BƏHREYN KRALLIĞININ XARİCİ İŞLƏR NAZİRLİYİ ARASINDA ANLAŞMA MEMORANDUMU"NUN TƏSDİQ EDİLMƏSİ BARƏDƏ AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

1. 2006-cı il yanvarın 4-də Manama şəhərində imzalanmış "Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi və Bəhreyn Krallığının Xarici İşlər Nazirliyi arasında Anlaşma Memorandumu" təsdiq edilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Anlaşma Memorandumunun həyata keçirilməsini təmin etsin.

İlham Əliyev

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 25 may 2006-cı il

2006-CI İL FEVRALIN 22-DƏ BAKI ŞƏHƏRİNDƏ İMZALANMIŞ "AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ VƏ SVERDLOVSK VİLAYƏTİNİN (RUSİYA FEDERASİYASI) HÖKUMƏTİ ARASINDA TİCARƏT-İQTİSADİ, ELMİ-TEXNİKİ VƏ MƏDƏNİ ƏMƏKDAŞLIQ HAQQINDA SAZİŞ"İN TƏSDİQ EDİLMƏSİ BARƏDƏ AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

1. 2006-cı il fevralın 22-də Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti və Sverdlovsk vilayətinin (Rusiya Federasiyası) Hökuməti arasında ticarət-iqtisadi, elmi-texniki və mədəni əməkdaşlıq haqqında Saziş" təsdiq edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişin həyata keçirilməsi üçün lazımi tədbirlər görsün.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili proseduraların yerinə yetirilməsi barədə Sverdlovsk vilayətinin (Rusiya Federasiyası) Hökumətinə müvafiq bildiriş göndərsin.

İlham Əliyev

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 25 may 2006-cı il

"AZƏRBAYCAN RESPUBLİKASI XARİCİ İŞLƏR NAZİRLİYİ VƏ YAPONİYA XARİCİ İŞLƏR NAZİRLİYİ ARASINDA ƏMƏKDAŞLIQ HAQQINDA" MEMORANDUMUN TƏSDİQ EDİLMƏSİ BARƏDƏ AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

1. 2006-cı il martın 10-da Tokio şəhərində imzalanmış "Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi və Yaponiya Xarici İşlər Nazirliyi arasında əməkdaşlıq haqqında" Memorandum təsdiq edilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Memorandumun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili proseduraların yerinə yetirilməsi barədə Yaponiyanın Xarici İşlər Nazirliyini xəbərdar etsin.

İlham Əliyev

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 25 may 2006-cı il

AZƏRBAYCAN RESPUBLİKASI İLƏ MİSİR ƏRƏB RESPUBLİKASI ARASINDA 2005-Cİ İL DEKABRIN 26-DA QAHİRƏ ŞƏHƏRİNDƏ İMZALANMIŞ SƏNƏDLƏR HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

1. 2005-ci il dekabrın 26-da Qahirə şəhərində imzalanmış "Azərbaycan Respublikası ilə Misir Ərəb Respublikası arasında Hökumətlərarası iqtisadi, texniki və elmi əməkdaşlıq üzrə Müştərək Komissiyanın ikinci iclasının Protokolu" nəzərə alınsın.

2. Azərbaycan Respublikası ilə Misir Ərəb Respublikası arasında 2005-ci il dekabrın 26-da Qahirə şəhərində imzalanmış aşağıdakı sənədlər təsdiq edilsin:

2.1. Azərbaycan Respublikası Maliyyə Nazirliyi və Misir Ərəb Respublikası Maliyyə Nazirliyi arasında əməkdaşlıq haqqında Saziş;

2.2. Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyi və Misir Ərəb Respublikasının Xarici Ticarət və Sənaye Nazirliyinin Misir Beynəlxalq Ticarət Mərkəzi arasında Anlaşma Memorandumu;

2.3. Azərbaycan Respublikası Səhiyyə Nazirliyi və Misir Ərəb Respublikası Səhiyyə Nazirliyi arasında səhiyyə və əczaçılıq sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu.

3. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, bu Sərəncamın 1-ci və 2-ci bəndlərində göstərilən sənədlərin həyata keçirilməsi üçün zəruri tədbirlər görsün.

İlham Əliyev

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 25 may 2006-cı il

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BMT-NİN QADINLAR ÜÇÜN İNKİŞAF FONDUNUN İCRAÇI DİREKTORU XANIM NOELİN HEYZERİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 25-də Prezident sarayında BMT-nin qadınlar üçün inkişaf fondunun icraçı direktoru xanım Noelin Heyzeri qəbul etmişdir.

Azərbaycanda səmərəli görüşlər keçirdiyini söyləyən xanım Noelin Heyzer MDB ölkələri arasında ilk dəfə respublikamıza səfər etdiyini bildirdi. Ölkəmizin inkişafının çox vacib bir mərhələsində Bakıya səfərə gəldiyini vurğulayan qonaq, Azərbaycanın sürətlə artan iqtisadi göstəricilərinə görə Prezident İlham Əliyevi təbrik etdi. O, Azərbaycanda əldə olunan gəlirlərin insanların rifahına yönəldilməsini xüsusi vurğuladı.

Dövlətimizin başçısı da bunun çox önəmli bir məsələ olduğunu, Azərbaycanda iqtisadi inkişafın daha çox sosial, humanitar sahələrə istiqamətləndirildiyini bildirdi. Prezident İlham Əliyev ölkəmizdə əhalinin rifah halının yaxşılaşdırılması üzrə bir sıra proqramların - təhsil, səhiyyə, regional inkişaf proqramlarının uğurla həyata keçirildiyini nəzərə çarpdırdı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV "FINANCIAL TIMES" QƏZETİNİN MƏRKƏZİ VƏ ŞƏRQİ AVROPA ÖLKƏLƏRİ ÜZRƏ REDAKTORU STEFAN VEQSTİLƏ MÜSAHİBƏ VERMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 25-də Prezident sarayında Böyük Britaniyanın nüfuzlu nəşrlərindən olan "Financial Times" qəzetinin Mərkəzi və Şərqi Avropa ölkələri üzrə redaktoru Stefan Veqstilə müsahibə vermişdir.

Dövlətimizin başçısı energetika sahəsinin inkişafı, regional və digər məsələlərlə bağlı suallara ətraflı cavab verdi.

XARİCİ İŞLƏR NAZİRİ KUBANIN XARİCİ İŞLƏR NAZİRİNİN MÜAVİNİ EUMİLİO KABALYERONUN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

2006-cı ilin may ayının 25-də Azərbaycan Respublikasının Xarici İşlər Naziri Elmar Məmmədyarov Kubanın Xarici İşlər Nazirinin müavini Eumilio Kabalyeronun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Azərbaycana etdiyi səfərdən məmnun olduğunu bildirən E.Kabalyero, ölkələrimiz arasında qarşılıqlı dostluq və əməkdaşlıq əsasında sosial, iqtisadi, texniki və digər sahələrdə ikitərəfli əlaqələrin inkişaf etdirilməsi üçün geniş imkanlar olduğunu qeyd etmişdir. O, Kuba hökuməti adından Azərbaycan Respublikası Xarici İşlər Nazirinə cari ilin 11-16 sentyabr tarixlərində Havana şəhərində keçiriləcək Qoşulmayan Ölkələr Hərəkatının dövlət və hökumət başçılarının növbəti Konfransına rəsmi dəvətini çatdırmış və Konfrans zamanı iqtisadi, texniki və elmi əməkdaşlıq sahələrində müzakirə olunacaq məsələlər barədə geniş məlumat vermişdir.

Öz növbəsində, Nazir Elmar Məmmədyarov Konfransda iştirak etmək üçün aldığı dəvətə görə qonağa təşəkkür etmiş və Azərbaycanın dünya dövlətləri ilə yaxın dostluq və əməkdaşlıq əsasında geniş əlaqələr qurduğunu və bu münasibətlərin daha da inkişaf etdirilməsinin tərəfdarı olduğunu vurğulamışdır.

Görüş zamanı regiondakı dövlətlərin iqtisadiyyatının inkişafına möhkəm zəmin yaradan və hal-hazırda reallaşmaqda olan bir sıra irimiqyaslı beynəlxalq iqtisadi layihələrin həyata keçirilməsi barədə geniş fikir mübadiləsi aparılmışdır.

Daha sonra Nazir Elmar Məmmədyarov Azərbaycan torpaqlarının Ermənistan tərəfindən işğal olunduğunu və işğal nəticəsində bir milyona yaxın insanın qaçqın və məcburi köçkün vəziyyətinə düşdüyünü, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində görülən işlər barədə danışmışdır.

Kubanın Xarici İşlər Nazirinin müavini E. Kabalyero Nazir Məmmədyarovun görüşdə xatırlatdığı bir sıra elmi və praktiki sahələrdə qarşılıqlı təcrübə mübadiləsi barədə təşəbbüsünü razılıqla qarşılamış və gələcəkdə ölkələrimiz arasında bu kimi əlaqələrin inkişaf etdirilməsinə tərəfdar olduğunu bildirmişdir.

Görüşün sonunda Kuba və Azərbaycanın Xarici İşlər Nazirlikləri arasında məsləhətləşmələr haqqında Protokol imzalanmışdır.

AZƏRBAYCAN RESPUBLİKASI XARİCİ İŞLƏR NAZİRLİYİNİN RƏSMİSİNİN MÖVQEYİ

Biz İraqı İraqlılar üçün, İraqlıların əli və vasitəsi ilə idarə edəcək konstitusion yolla seçilmiş daimi hökumətin formalaşması münasibəti ilə İraq xalqını təbrik edirik. Müvəffəqiyyətlə formalaşmış yeni İraq Kabineti ölkə daxilindəki milli həmrəylik və dialoqa öz töhfəsini verə biləcək. Qarşıdan gələn illərdə yeni hökumət iraqlılara öz tələlərini müəyyən etmək imkanı verəcək.

İraqda sabitlik və təhlükəsizliyə töhfə verən beynəlxalq koalisiyanın tərkib hissəsi olan Azərbaycan İraq cəmiyyətindəki müxtəlifliyi əks etdirən yeni hökuməti dəstəkləməklə, ölkənin daha xoşbəxt gələcəyinin formalaşdırılmasında İraq xalqına yardımçı olmağa hazırdır.

Bakı, 25 may 2006-cı il

AZƏRBAYCANIN BAŞ NAZİRİ MDB HÖKUMƏT BAŞÇILARI ŞURASININ İCLASINDA İŞTİRAK ETMƏK ÜÇÜN DÜŞƏNBƏYƏ GƏLMİŞDİR

Azərbaycanın Baş naziri Artur Rasizadənin rəhbərliyi ilə nümayəndə heyəti MDB Hökumət Başçıları Şurasının mayın 25-də Düşənbədə keçiriləcək iclasında iştirak etmək üçün Tacikistana gəlmişdir.

Həmin gün Baş nazir Artur Rasizadə Gürcüstan tərəfinin xahişi ilə bu ölkənin Baş nazirinin müavini Georgi Baramidze ilə görüşmüşdür.

Görüşdə ikitərəfli münasibətlərin genişləndirilməsi, iqtisadi sahədə əməkdaşlığın dərinləşdirilməsi, Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin tikintisinin başa çatdırılması, regionda sülhün və sabitliyin təmin olunması, Azərbaycan və Gürcüstandakı münaqişələrin ölkələrin ərazi bütövlüyü çərçivəsində həlli və digər məsələlər barədə fikir mübadiləsi aparılmışdır

Mayın 25-də MDB Hökumət Başçıları Şurasının iclası Tacikistanın Baş naziri Akil Akilov açaraq iştirakçıları salamlamış, əməkdaşlığın genişləndirilməsində bu görüşün xüsusi əhəmiyyət kəsb edəcəyini bildirmişdir.

Tədbirdə MDB ölkələri arasında qarşılıqlı fəaliyyətin dərinləşdirilməsi məsələləri ətraflı müzakirə edilmiş, iqtisadi, təhlükəsizlik və humanitar sahələrdə əlaqələrin genişləndirilməsi məsələlərinə xüsusi diqqət yetirilmişdir.

İclasın yekunlarına dair "MDB ölkələrinin büdcəsi hesabına maliyyələşən birlik orqanlarının saxlanılması üçün MDB pay bölgülərinin məbləği və bunun hesablanması qaydaları", " MDB orqanlarının vahid büdcəsindən maliyyələşən birlik orqanlarının vahid əmək ödənişi sisteminə keçməsinə dair", "2006-2010-cu illərdə MDB ölkələrində müharibə veteranları, lokal münaqişələrin və sülhməramlı əməliyyatların iştirakçıları, həmçinin terrorizm qurbanları əmək qabiliyyətini itirdikdə onların həyat səviyyəsinin yaxşılaşdırılması, sosial və tibbi yardımların gücləndirilməsi Konsepsiyası", "MDB ölkələrinin 2010-cu ilə qədər mədəniyyət sahəsində əməkdaşlığın dərinləşdirilməsinə dair tədbirlər planı","Təbii və texnogen xarakterli fövqəladə halların nəticələrinin aradan qaldırılması zamanı MDB-nin qüvvələr korpusunun tərkibinə birlik ölkələrindən

ayrılan hissələrin reyestrinə düzəlişlər edilməsi" və digər məsələlərlə bağlı 22 sənəd imzalanmışdır. Həmin sənədlərin 15-i müzakirə edilmədən qəbul olunmuşdur.

İclas başa çatdıqdan sonra yerli və xarici jurnalistlər üçün mətbuat konfransı keçirilmişdir.

Mayın 25-də Baş nazir Artur Rasizadənin rəhbərliyi ilə nümayəndə heyəti Vətənə yola düşmüşdür.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV "FƏZA QƏZETÇİLİK" ANONİM ŞİRKƏTİ İDARƏ HEYƏTİNİN ÜZVÜ, TÜRKİYƏNİN "ZAMAN" QƏZETİNİN BAŞ REDAKTORU EKREM DUMANLININ RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 26-da Prezident sarayında "Fəza qəzetçilik" Anonim Şirkəti İdarə heyətinin üzvü, Türkiyənin "Zaman" qəzetinin baş redaktoru Ekrem Dumanlının rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Vaxtilə Naxçıvanda ümummilli lider Heydər Əliyev ilə görüşlərini məmnunluqla xatırladan Ekrem Dumanlı Azərbaycanın böyük inkişaf yolunda olduğunu bildirdi. O, Respublika günü münasibətilə Prezident İlham Əliyevi təbrik etdi.

Prezident İlham Əliyev cənab Ekrem Dumanlı ilə əvvəllər keçirdiyi görüşü məmnunluqla xatırlatdı, ölkəmizdə bütün sahələrdə inkişafın əldə olunduğunu, Azərbaycanda həm iqtisadi, həm də siyasi sahələrdə gözəl nəticələr qazanıldığını bildirdi.

AZƏRBAYCAN VƏ UKRAYNA XARİCİ İŞLƏR NAZİRLİKLƏRİ ARASINDA KONSULLUQ MƏSƏLƏLƏRİ ÜZRƏ NÖVBƏTİ MƏSLƏHƏTLƏŞMƏLƏR KEÇİRİLMİŞDİR

Mayın 25-26-da Azərbaycanın və Ukraynanın Xarici İşlər nazirlikləri arasında konsulluq məsələləri üzrə növbəti məsləhətləşmələr keçirilmişdir.

Ukrayna nümayəndə heyətinə Ukrayna Xarici İşlər Nazirliyi Konsulluq Departamentinin direktoru səfir Boris Bazilevski, Azərbaycan Respublikasının nümayəndə heyətinə isə Xarici İşlər Nazirliyi Konsulluq İdarəsinin rəisi səfir Nadir Hüseynov rəhbərlik etmişlər.

Görüşdə ölkələrimiz arasında konsulluq sahəsində müqavilə-hüquq bazası ilə bağlı maraq doğuran cari və perspektiv məsələlər, həmçinin hər iki dövlətin vətəndaşlığından çıxma qaydalarının təkmilləşdirilməsi, aztəminatlı vətəndaşların dövlət rüsumundan azad edilməsi, Azərbaycan Respublikası vətəndaşlarının Ukraynada müvəqqəti qeydiyyatının tənzimlənməsi, Azərbaycanda Ukrayna, Ukraynada Azərbaycan vətəndaşlarının hüquqlarının qorunması, təyyarələrin uçuşlarına diplomatik icazə alınması mexanizmlərinə dair məsələlər müzakirə olunmuşdur.

Məsləhətləşmələrdə Azərbaycanın və Ukraynanın Ədliyyə, Daxili İşlər, Milli Təhlükəsizlik, Əmək və Əhalinin Sosial Müdafiəsi nazirliklərinin və Dövlət Sərhəd xidmətlərinin nümayəndələri iştirak etmişlər.

Görüşün nəticələrinə dair Protokol imzalanmışdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV NATO PARLAMENT ASSAMBLEYASININ YAZ SESSİYASINDA İŞTİRAK ETMƏK ÜÇÜN PARİSƏ SƏFƏRİ

Azərbaycan Prezidenti İlham Əliyev NATO Parlament Assambleyasının yaz sessiyasında iştirak etmək üçün mayın 28-də Parisə gəlmişdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV "EURONEWS" TELEKANALINA MÜSAHİBƏ VERMİŞDİR

NATO Parlament Assambleyasının yaz sessiyasında iştirak etmək üçün Fransada səfərdə olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 29-da, onun üçün ayrılmış iqamətgahda "EuroNews" telekanalına müsahibə vermişdir.

APARICI: "EuroNews" telekanalı Azərbaycan Prezidenti İlham Əliyevlə müsahibəni təqdim edir. Müxbirimiz onunla Parisdə görüşmüşdür. O, burada NATO Parlament Assambleyasının üzvləri qarşısında çıxış etmişdir. Prezident öz çıxışında dünyada təhlükəsizliyin təmin olunması sahəsində Bakının Alyansla əməkdaşlığı barədə danışmışdır. Bununla yanaşı, Bakı Avropa üçün təkcə siyasi baxımdan deyil, həm də enerji baxımından maraq doğurur. Mayın 28-də Azərbaycan neftinin ilk hissəsi Türkiyənin Ceyhan terminalına çatmışdır. Gələcəkdə bu neft dünya bazarlarına da göndəriləcəkdir.

JURNALİST: Cənab Prezident, "EuroNews"ə xoş gəlmisiniz. Bir sıra xəbərlərə görə, Bakı-Tbilisi-Ceyhan neft kəməri artıq sentyabrda işləməyə başlayacaqdır. O, Avropanın və dünyanın energetika xəritəsində nəyi dəyişdirəcək və Azərbaycanın özünə nə kimi fayda gətirəcəkdir?

İLHAM ƏLİYEV: Bu, Azərbaycanın artıq hiss etdiyi çox böyük iqtisadi səmərə, milyardlarla dollarlıq sərmayələr, habelə Azərbaycanın öz neftini dünya bazarlarına nəql etmək imkanı deməkdir.

Bugünədək nəqletmə sistemimiz nefti ancaq Qara dəniz hövzəsinə çatdırmağa imkan verirdi. Xəzər neftinin Aralıq dənizinə çıxması tarixi hadisədir və əlbəttə, regional əməkdaşlığın daha da inkişaf etməsinə, Azərbaycanın iqtisadi, təbii ki, siyasi mövqelərinin möhkəmlənməsinə səbəb olacaq və bir çox illər və onilliklər ərzində ölkəmizin davamlı inkişafını təmin edəcəkdir.

- Bəzi xəbərlərə görə, Amerika Azərbaycanda - Xəzər sahilində hərbi qüvvələrinin olmasını istəyir. Siz bu xəbərləri necə şərh edərdiniz və Vaşinqtonla münasibətləriniz necə inkişaf edir?

- Münasibətlərimiz olduqca dinamik inkişaf edir. ABŞ ilə Azərbaycan arasındakı münasibətlər strateji tərəfdaşlıq münasibətləridir. Biz bir çox sahələrdə əməkdaşlıq edirik. Əlbəttə ki, iqtisadi sahədə, energetika sahəsində, regionda təhlükəsizlik tədbirlərini möhkəmlətmək sisteminin həyata keçirilməsində, ölkəmizdə və regionda demokratikləşmə proseslərinin inkişafında, hərbi sahədə əməkdaşlıq edirik.

O ki qaldı hansısa xarici dövlətin Azərbaycan ərazisində hərbi qüvvələrinin yerləşdirilməsinə, bu məsələ gündəlikdə durmur.

- On iki gün əvvəl, Gürcüstan, Ukrayna, Azərbaycan və Moldovanın daxil olduğu GUAM-ın zirvə toplantısında Siz bəyan etdiniz ki, bu birlik Moskvaya qarşı yönəldilməyibdir. Bu birlik nəyi əks etdirir?

- Əlbəttə ki, hər hansı digər ölkə kimi, biz də müxtəlif beynəlxalq təşkilatlarda iştirakımıza mənafelərimizin maksimum dərəcədə təmin edilməsi baxımından yanaşırıq. Bu mənada GUAM-ın üzvü olan ölkələr çərçivəsində artıq iri regional layihələr mövcuddur və onlar uğurla həyata keçirilir. Ona görə də səylər iqtisadi məsələdə, energetika, nəqliyyat məsələlərində birləşdirilərsə, bundan, əlbəttə ki, hamı qazanacaqdır. Bu təşkilatın kimlərəsə qarşı yönəldildiyi barədə söz-söhbətin heç bir əsası yoxdur. Azərbaycan kimlərəsə qarşı yönəldilən hansısa təşkilatlarda heç vaxt iştirak etməyib və biz bunu gələcəkdə də etmək fikrində deyilik.

Rusiya ilə də həm iqtisadi, həm də siyasi münasibətlərimiz çox uğurla inkişaf edir. Biz bundan çox məmnunuq və hesab edirik ki, bu, ölkələrimizin mənafelərinə tamamilə cavab verir.

- Bəzi icmalçılar deyirlər ki, GUAM ərazi bütövlüyü problemləri olan ölkələri birləşdirir. Bu, Azərbaycan üçün Dağlıq Qarabağ məsələsidir. Siz bu problemin həllini necə görürsünüz?

- Əlbəttə, burada həqiqət var. Çünki postsovet məkanındakı bütün münaqişəli vəziyyətlər məhz GUAM ölkələrinin ərazilərində baş verir. Dağlıq Qarabağ həm tarixi, həm hüquqi baxımdan Azərbaycan ərazisidir. Azərbaycanın ərazi bütövlüyü BMT tərəfindən, ölkəmizə qarşı təcavüz etmiş Ermənistandan savayı, dünyanın bütün ölkələri tərəfindən tanınmışdır. Bu təcavüz və etnik təmizləmələr siyasəti nəticəsində bir milyondan artıq azərbaycanlı qaçqına və məcburi köçkünə çevrilmişdir. Bu, çox böyük humanitar fəlakətdir, bu, özgə ərazisinin yolverilməz işğalı aktıdır. Əlbəttə ki, Azərbaycanın ərazi bütövlüyü heç bir qeyd-şərtsiz bərpa olunmalıdır.

- Keçən ilin sentyabrında Kipr Azərbaycanın "Genişlənən Avropa - yeni qonşular" proqramında iştirakına mane oldu. Bakı ilə Brüssel arasında münasibətlər necə inkişaf edir?

- Avropa İttifaqının, əslində, bütün ölkələri, ilk növbədə iri ölkələri ilə çox yaxşı münasibətlərimiz var.

Azərbaycana mane olmaq cəhdlərinə gəldikdə, bu cəhdlər uğursuzdur. Ölkəmizə mane olmaq qeyri-mümkündür, enerji ehtiyatlarına əngəl törətmək qeyri-mümkündür. Buna lüzum da yoxdur. Ona görə də hesab edirəm ki, ayrı-ayrı ölkələrin heç bir əsası olmayan hansısa fərdi məsələləri əməkdaşlığımıza əngəl törətməməlidir. Bizim Avropa İttifaqı ilə əməkdaşlığımız qarşılıqlı surətdə faydalıdır. Düşünürəm ki, bu əməkdaşlığı genişləndirmək Azərbaycan üçün çox vacibdir, Avropa İttifaqı üçün də Azərbaycanın simasında tərəfdaşa və dosta malik olmaq vacibdir.

JURNALİST: Cənab Prezident, çox sağ olun!

AZƏRBAYCANIN FRANSADAKI SƏFİRLİYİNİN YENİ BİNASININ AÇILIŞ MƏRASİMİ

Mayın 29-da Parisdə Azərbaycanın Fransadakı səfirliyinin yeni binasının açılış mərasimi olmuşdur. Mərasimdə Fransanın yüksək vəzifəli rəsmi şəxsləri, Parisdəki diplomatik korpusun təmsilçiləri, Fransanın məşhur şirkətlərinin, ictimaiyyətin nümayəndələri, bu ölkənin Bakıdakı keçmiş səfirləri, Azərbaycan Milli Məclisinin deputatları, diasporumuzun nümayəndələri iştirak edirdilər.

Açılış mərasiminə toplaşanlar Azərbaycanı Prezident İlham Əliyevi və xanımı Mehriban Əliyevanı səmimiyyətlə qarşıladılar.

Dövlətimizin başçısı "Azərbaycan Respublikasının səfirliyi" sözləri yazılmış lövhənin üzərindən örtüyü götürdü, səfirliyin binası ilə tanış oldu. Foyedə ulu öndər Heydər Əliyevin büstü qoyulmuşdur.

Respublikamızın Fransadakı səfiri Tarik Əliyev Parisin mərkəzində yerləşən, artıq Azərbaycan Respublikasına məxsus olan dördmərtəbəli yaraşıqlı bina barədə ətraflı məlumat verdi və bildirdi ki, burada diplomatlarımızın normal fəaliyyəti üçün hər cür şərait yaradılmışdır.

Prezident İlham Əliyev sonra mərasimdə nitq söylədi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ

-Hörmətli xanımlar və cənablar!

Əziz dostlar!

Bu gün çox gözəl və əlamətdar bir gündür. Biz Fransada Azərbaycan səfirliyinin yeni binasının açılışını birlikdə qeyd edirik. Mən bu gözəl hadisə münasibətilə sizi təbrik edirəm.

Uzun illərdir ki, Fransada Azərbaycan səfirliyi fəaliyyət göstərir. Ancaq artıq bu gündən sonra səfirlik öz fəaliyyətini Azərbaycan dövlətinə məxsus olan binada davam etdirəcəkdir. Bina da çox gözəldir, tarixi binadır və yeri də çox gözəldir. Mən yuxarı mərtəbədə eyvandan baxarkən gördüm ki, sağ tərəfdə Zəfər Tağı, sol tərəfdə isə Eyfel qülləsi görünür. Yəni Parisin iki rəmzi bu binadan görünür. Bu, çox gözəl və əlamətdar bir haldır.

Səfirliyin fəaliyyəti üçün çox gözəl şərait var. Mən əminəm ki, səfirliyin fəaliyyəti bundan sonra da uğurlu olacaq və iki ölkə arasında münasibətlərin inkişafında öz rolunu oynayacaqdır. İki ölkə arasında münasibətlər çox sürətlə inkişaf edir və bizi qane edir. Biz çox razıyıq, məmnunuq ki, Fransa ilə Azərbaycan arasında olan münasibətlər, demək olar ki, həyatımızın bütün sahələrini əhatə edir və günü-gündən möhkəmlənir.

Yəqin siz xatırlayırsınız ki, Heydər Əliyev prezident vəzifəsinə seçildikdən sonra ilk xarici rəsmi səfərini 1993-cü ildə Fransaya etmişdi və 2003-cü ildə mən də prezident seçildikdən sonra ilk rəsmi səfərim Fransaya olmuşdur. Bu, özlüyündə onu göstərir ki, biz ikitərəfli münasibətlərə çox böyük önəm veririk. Əminik ki, gələcəkdə də bu münasibətlər tərəfləri qane edəcək və hər iki tərəf bu münasibətlərin inkişafından maksimum

dərəcədə faydalanacaqdır. Siyasi, iqtisadi, mədəni sahələrdə əməkdaşlığımız çox uğurludur.

Eyni zamanda, Fransa ATƏT-in Minsk qrupunun həmsədr ölkəsidir. Ümid edirik ki, həmsədr ölkələrin fəaliyyəti Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həll olunmasında öz rolunu oynayacaqdır.

Dünən Azərbaycan öz milli bayramını qeyd etmişdir. Respublika günü Azərbaycanın tarixində ən gözəl bayramlardan biridir. Eyni zamanda, bildiyiniz kimi, dünən Azərbaycan nefti Ceyhan terminalına gəlib çatmışdır. Bu iki gözəl hadisə Azərbaycanın güclənən mövqelərini nümayiş etdirir. Azərbaycanın müstəqilliyi möhkəmlənir. Eyni zamanda, səfirliyin belə gözəl binaya köçməsi də onu göstərir ki, bizim müstəqilliyimiz ildən-ilə möhkəmlənir.

Fransada Azərbaycanın dostları çoxdur. Mən bu gün sizi - Azərbaycanın dostlarını, keçmiş səfirləri, millət vəkillərini, digər hörmətli qonaqları görürəm. Sizin hamınızı bir daha ürəkdən salamlayıram, bu gözəl tədbirdə iştirak etdiyiniz üçün sizə öz təşəkkürümü bildirirəm. Sizin hamınızı bu gözəl hadisə münasibətilə bir daha ürəkdən təbrik edirəm.

Sağ olun.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV FRANSANIN İŞ ADAMLARI İLƏ GÖRÜŞMÜŞDÜR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 29-da Parisdə Fransa Müəssisələri Hərəkatının (MEDEF) üzvü olan nüfuzlu şirkətləri təmsil edən iş adamları ilə görüşmüşdür.

Görüşü "Panhart jeneral defans" şirkətinin baş direktoru Kristian Mons açdı.

"PANHART JENERAL DEFANS" ŞİRKƏTİNİN BAŞ DİREKTORU KRİSTİAN MONSUN ÇIXIŞI

- Zati-aliləri cənab Prezident!

Hörmətli nazirlər!

Hörmətli xanımlar və cənablar!

Sizi MEDEF-də, Fransa Müəssisələri Hərəkatı təşkilatında salamlamaqdan böyük şərəf və məmnuniyyət hissi duyuram. Biz artıq ikinci görüşümüzü keçiririk. Bu gün bizimlə görüşə gəlmiş Zati-alilərinizə bir daha minnətdarlığımı bildirmək istəyirəm. Sizin təşkilatımıza 2004-cü ilin yanvar ayında gəlişiniz xatirimizdədir. Bizimlə keçirdiyiniz görüş Azərbaycanın iqtisadi-sosial inkişafında iştirak edə biləcək fransız şirkətlərinə nə dərəcədə böyük əhəmiyyət verdiyinizin nümunəsidir.

Bir təşkilat kimi MEDEF-in məqsədi əldə etdiyiniz iqtisadi tərəqqinin, həyata keçirdiyiniz siyasətin və üstünlük verdiyiniz layihələrin Fransanın işgüzar dairələri tərəfindən daha yaxşı qavranılmasına yardım göstərməkdən ibarətdir. Respublika Prezidenti kimi Sizin Fransaya ilk səfərinizdən əvvəl MEDEF-in Qafqaz və Asiya ölkələri üzrə Beynəl-

xalq Komitəsinin başçılıq etdiyi böyük biznes nümayəndə heyətinin 2002-ci ildə Bakıya səfərindən sonra uzunmüddətli iş aparmışıq.

Fransa ilə Azərbaycan arasında çox gözəl siyasi və iqtisadi münasibətlər mövcuddur. Ölkəmiz Azərbaycanın on üçüncü ticarət tərəfdaşı və beşinci xarici sərmayədarıdır. 2004-cü ildə görüşümüz zamanı Fransa sərmayədarlar arasında yeddinci yeri tuturdu. Bu, o deməkdir ki, apardığımız iş öz konkret nəticələrini verir. 1990-cı illərdən etibarən Fransanın bəzi şirkətləri ölkənizin müxtəlif sahələrində, əsasən neft və qaz, daha sonra isə, infrastruktur, elektronika, ticarət, xidmətlər, səhiyyə, yeyinti, bank işi, məsləhətçi xidmətləri və tikinti sektorlarında fəaliyyət göstərməyə başladı. Həmin şirkətlər tərəfdaşlığı möhkəmləndirərək, yeni sərmayələr yatıraraq və ölkənizin yerli şirkətləri ilə birgə işləyərək, Azərbaycanın iqtisadi inkişafına töhfə vermək arzusundadır.

Dünyanın istənilən ölkəsi, o cümlədən Fransa biznes mühitini tədricən yaxşılaşdıraraq, xarici sərmayədarları cəlb etmək və onlarla işbirliyi qurmaq üçün rəqabət aparır. Bilirəm ki, Siz də bu cür addımlar atırsınız. Azərbaycanın iqtisadi inkişaf göstəriciləri olduqca müsbətdir və bu cür iqtisadi nailiyyətlər, o cümlədən ölkənizdə biznes mühitinin gözəçarpan dərəcədə yaxşılaşması və ölkənizin rəqabətə uyğunlaşması münasibətilə Sizin hökumətinizi və xalqınızı təbrik edirik.

Zati-aliləri, Sizin MEDEF-ə gəlməyinizi çox yüksək qiymətləndiririk. Bizimlə görüşə gəlməyinizə və ölkənizin inkişafı ilə bağlı fikirləriniz, prioritetləriniz və layihələriniz haqqında məlumat verəcəyinizə görə Sizə minnətdarıq. Eyni zamanda, ingilis dilində çıxışa razılıq verdiyinizə görə Sizə sağ olun deyirəm. Biz, adətən, bu dili rus dilindən daha yaxşı anlayırıq.

Prezident İlham Əliyev görüşdə nitq söylədi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ

- Çox sağ olun, dəvətinizə görə minnətdaram.

Mən MEDEF-də yenidən olmağıma çox şadam və ölkələrimiz arasında iqtisadi əməkdaşlıqla bağlı fikir mübadiləsi üçün yaradılmış şəraitə görə minnətdaram.

Qeyd etdiyiniz kimi, mən iki il yarım öncə burada olmuşdum. Həmin görüşümüz mənim Fransaya 2004-cü ilin əvvəlində etdiyim ilk rəsmi səfər zamanı baş tutdu. İkitərəfli münasibətlərimizin sürətlə inkişafının əsas göstəricilərindən biri də odur ki, həmin vaxtdan etibarən mən Fransaya bir neçə səfər etmişəm. bu səfərlər əlaqələrimizin dinamik inkişafından xəbər verir və onların müxtəlif sahələrdə daha da genişləndirilməsi üçün olan çox böyük imkanlar göz qabağındadır.

Axırıncı görüşümüzdən sonra Azərbaycanda iqtisadi artım uğurla davam etmişdir. Biz çox mühüm müxtəlif iqtisadi və sosial proqramlar həyata keçirməyə başladıq. Onların hamısı uğurla davam etdirilir. Regional inkişaf proqramı, işsizliyin və yoxsulluğun azaldılması proqramının, müxtəlif infrastruktur layihələrinin həyata keçirilməsində və təbii ki, ölkə üçün ən vacib olan neft və qaz sənayesinin inkişafında yaxşı nəticələr əldə etmişik. Mən son iki il yarım ərzində əldə olunmuş nailiyyətləri təsəvvür etmək üçün bəzi

rəqəmləri Sizin nəzərinizə çatdırmaq istəyirəm.

Regional inkişaf proqramının həyata keçirilməsi nəticəsində Azərbaycanda təqribən 400 min yeni iş yeri yaradılmışdır. Onların əksəriyyəti qeyri-neft sektorunda və rayonlarda açılmışdır. Ötən il ərzində Azərbaycanda ÜDM-in artımı 26 faiz təşkil etmiş, cari ilin ilk dörd ayı ərzində isə təqribən 40 faizə bərabər olmuşdur. Sənaye istehsalının artımı təxminən 40-45 faiz səviyyəsində olmuşdur. 2005-ci ildə yoxsulluğun səviyyəsi 20 faiz aşağı düşmüş, yəni, yoxsulluq şəraitində yaşayanların sayı 20 faiz azalmışdır. Bizim Azərbaycanda yoxsulluğun tam aradan qaldırılmasına yönəlmiş çox ciddi proqramımız var. Əhalinin gəlirləri, pensiya və təqaüdlər artmaqdadır. Biz infrastrukturun yaradılmasına dair olduqca mühüm proqram həyata keçiririk.

Hazırda Azərbaycanda 6 elektrik enerjisi stansiyası tikilir və onların ümumi gücü 1000 meqavata bərabərdir. Bu cür imkanlarla biz inkişaf edən iqtisadiyyatın artan tələbatını ödəyə biləcəyik. Yolların çəkilməsi proqramı da uğurla yerinə yetirilir. Bu proqramda magistral yollar və ölkənin müxtəlif bölgələrinə aparan yollar nəzərdə tutulur. Çünki biz iqtisadiyyatımızı şaxələndirmək istəyiriksə, onda müasir infrastruktura malik olmalıyıq.

Son illər ərzində iqtisadi inkişaf sahəsində əsas diqqətimiz qeyri-neft sektoruna yönəlmişdir. Neft və qaz layihələrinə gəldikdə, bu sahədə hər şey əladır, işlər cədvələ uyğun gedir və çox böyük nailiyyətlər əldə olunmuşdur. Təbii ki, qarşıdakı illər ərzində neft və qazdan gələn gəlirlər ölkə büdcəsinin məxaxil hissəsinin əsasını təşkil edəcəkdir. Lakin biz, eyni zamanda, gələcək on və ya iyirmi il haqqında düşünməliyik və nəyin baş verəcəyini bilməliyik. Enerji təchizatçısı kimi Azərbaycanın yaxşı imkanlarından istifadə edərək, yüksək texnologiyalara və lazımi avadanlığa malik güclü və müasir sənaye yaratmalıyıq və lazımi satış bazarlarını formalaşdırmalıyıq. Biz bu işi bu gün görməliyik və yubanmaya yol vermək olmaz. Beləliklə, biz iqtisadiyyatımızın birtərəfli inkişafından yan keçəcəyik və neft hasilatından və neftin qiymətlərindən asılılığı tam aradan qaldıracağıq.

Bir sözlə, məqsədimiz güclü qeyri-neft sektoruna, sənayeyə və infrastruktura, eləcə də peşəkar mütəxəssislərə malik müasir ölkənin yaradılmasıdır. Biz kadrların formalaşması işinə çox böyük diqqət yetiririk. Çünki əgər dünyanın müxtəlif ölkələrində uğur gətirmiş nümunələrə nəzər salsaq görərik ki, uğur, tərəqqi və yeni texnologiyalar, yüksək peşəkarlığı ilə seçilən insanlar və mütəxəssislər olduğu təqdirdə qazanılır. Bu səbəbdən də Azərbaycanda təhsil proqramları prioritet xarakter daşıyır. Kadr hazırlığı sahəsinə yatırılan sərmayələr uzunmüddətlidir və onların nəticəsində müasir iqtisadiyyat barədə bilik və bacarığa malik olan çox peşəkar insanlar yetişəcəkdir.

Mən bir daha qeyd edirəm ki, başladığımız bütün işlərdə biz uğurlar əldə etmişik. Bütün proqramlarımızın həyata keçirilməsinin çox dəqiq mexanizmləri var. Burada maliyyələşmə mənbəyi də nəzərdə tutulubdur. Biz əsasən öz resurslarımıza arxalanırıq. Əlbəttə ki, bu gün iqtisadiyyatımızın inkişaf etdiyi və istismara verilən boru kəmərlərinin olduğu şəraitdə, hər hansı böyük krediti, milyard yarım, bir milyard və ya ondan da artıq, - almaq Azərbaycan üçün çətin iş deyildir. Azərbaycana əvvəllər milyardlarla dollar məbləğində kreditlər verilibdir. Bu sahədə ölkəmiz etibarlı tərəfdaşdır. Lakin biz öz resurslarımıza arxalanmağa üstünlük veririk. Bundan da məqsəd ölkənin iri həcmdə borclarının yaranmasına imkan verməməkdir.

Büdcəmiz çox sürətlə artır. Üç il bundan öncəki vəziyyətlə müqayisə etsək, büdcəmiz üç dəfə artmışdır. Lakin gəlirlərin daha da artırılması üçün böyük imkanlarımız var. Maliyyə sahəsində çox güclü intizamın, hesablaşmalar, neft gəlirlərinin toplanması və bölünməsində şəffaflığın təmin olunması çox vacibdir. Azərbaycan hasilat sənayesində şəffaflıq təşəbbüsünə qoşulan ilk ölkələrdən biri olmuşdur. Bu təşəbbüs indi dünyanın müxtəlif ölkələrində yayılır. Proqramın rəhbərliyinin məlumatına görə, Azərbaycan bu təşəbbüsün iştirakçıları içərisində aparıcı ölkədir.

Azərbaycanın Neft Fondu çox şəffaf şəkildə fəaliyyət göstərir. Neft satışından əldə olunan bütün gəlirlər bu Fondda cəmləşir və onun üzərində beynəlxalq audit həyata keçirilir. Neft Fondunun fəaliyyəti barədə məlumatlar müntəzəm olaraq açıq şəkildə dərc olunur. Beləliklə, hər bir vətəndaş Neft Fondunun gəlirləri barədə məlumat əldə edə bilər. Bununla yanaşı, neft gəlirlərinin bölgüsü də şəffaf şəkildə həyata keçirilir. Neft gəlirlərinin birbaşa və ya gizli şəkildə xərclənməsi mümkün deyildir. Bu, yalnız parlament tərəfindən, büdcə vasitəsilə həyata keçirilə bilər. Şəffaflığın təmin edilməsində ilk məqsəd ondan ibarətdir ki, gəlirlərdən sui-istifadənin qarşısı alınsın. Bundan əlavə, insanların gəlirlərin haraya xərclənməsi barədə məlumat almaq və bu məsələ ilə bağlı qərarların qəbul olunmasında iştirak etmək hüququ vardır. Artıq qeyd etdiyim kimi, neft və qaz layihələrinin həyata keçirilməsi iqtisadi artımın təmin olunmasında aparıcı rolu oynamaqda davam edir.

Biz mayın 28-də tarixi bir hadisəni qeyd etdik. Azərbaycan nefti Ceyhan terminalına çatmışdır və artıq onun çənlərə doldurulmasına başlanmışdır. Bir neçə gündən sonra Azərbaycan nefti ilə dolu tanker Ceyhan limanından yola düşəcəkdir. Bu, o deməkdir ki, biz əfsanəni reallığa çevirə bildik. Biz Xəzər dənizi ilə Aralıq dənizini dünyanın ən böyük enerji layihəsi hesab olunan boru kəməri vasitəsilə birləşdirə bildik. Bizim neft hasilatımız get-gedə artmaqdadır. İki il ərzində hasilatı iki dəfə artıracağıq. 2008-ci ildə neft hasilatı gündə ən azı bir milyon barrelə çatacaqdır. Əlbəttə ki, bu, ölkənin bütün tələbatını ödəyəcək və sosial problemlərin, Ermənistanın Azərbaycana təcavüzü nəticəsində qaçqın və məcburi köçkün düşmüş bir milyona yaxın insanın, yoxsulların problemlərinin həllinə kömək edəcəkdir.

Eyni zamanda, Azərbaycanın qaz yatağından hasil ediləcək qazın Türkiyə bazarına və potensial qaydada Avropa bazarlarına nəql olunmasını təmin edəcək enerji layihəsi də həyata keçirilməkdədir. Bu layihə cari ilin payızında başa çatdırılacaqdır. Həmin layihələr Azərbaycan və regionun başlıca enerji layihələridir və bunların dünya ölkələri üçün də əhəmiyyəti var. Bunlar dünya bazarlarının enerji daşıyıcıları ilə təmin olunmasında yeni mənbədir. Həmin layihələr yeni bir vəziyyət yaradır. İlk növbədə, iqtisadi baxımdan, ölkəmiz daha böyük maliyyə vəsaitləri əldə edəcəkdir.

Daha sonra, həmin layihələrin regional əməkdaşlıq üçün də əhəmiyyəti vardır. Biz artıq belə bir əməkdaşlığı sınaqdan keçirmişik. Eyni zamanda, bu layihələrin regionun ümumi inkişafı, buradakı siyasi proseslər, demokratikləşmə prosesi üçün də əhəmiyyəti vardır. Yəni bütün bunlar bir-birilə çox bağlıdır. Ölkənin möhkəm iqtisadi bünövrəsi olmalıdır. İnsanlar özlərini məmurların təsirindən azad hiss etməlidirlər. Bunun üçün isə ölkədə kapital qoyuluşuna əlverişli şərait yaradılmalı, liberal bazar iqtisadiyyatı təmin olunmalıdır.

Azərbaycanda özəl sektorun ÜDM-dəki payı təxminən 75 faiz təşkil edir. Neft sənayesinin dövlət inhisarında olmasını nəzərə alsaq, bu, böyük rəqəmdir. Biz eyni zamanda özəl sahibkarlara kömək göstərməyə çalışırıq və bunun üçün onlara güzəştli kreditlər verilir. Cari ildə büdcəmizdə qeyri-neft sektorunun inkişafı üçün güzəştli kreditlərə 100 milyon ABŞ dolları həcmində vəsait ayrılmışdır. Çünki kapital olmadan sahibkar uğurla fəaliyyət göstərə bilməz. Eyni zamanda, bu yaxınlarda ölkəmizdə dövlətin mülkiyyətində olan Sərmayə Şirkəti yaradılmışdır. Şirkətin ilkin kapitalı 100 milyon ABŞ dollarıdır. Gələcək illərdə bu məbləğin artırılması gözlənilir. Bu şirkətin yaradılmasından əsas məqsəd həyata keçiriləcək müxtəlif sənaye layihələri üçün texniki əsaslandırma hazırlamaq, özəl şirkətlər arasında həmsərmayəçi axtarmaq və digər kommersiya layihələrinin hazırlanmasına kömək etməkdən ibarətdir.

Hesab edirəm ki, bu, potensial sərmayədarların böyük etimadını qazanacaqdır. Belə ki, əgər dövlət şirkəti hər hansı bir layihəyə kapital qoyuluşunun 30-40 faizini təmin edirsə, onda sərmayədar konkret fəaliyyətin aparılmasında özünü daha rahat hiss edəcəkdir. Layihə həyata keçirildikdə, dövlət sərmayə şirkəti öz payını başqa sərmayədara sata bilər. Bu, qeyri-neft sektoruna təkan verilməsinin yollarından biridir. Bu baxımdan, mən potensial sərmayədarları bizimlə işləməyə dəvət edirəm. Bunun üçün çox yaxşı imkanlarımız var. Bir daha demək istəyirəm ki, ölkəmizin iqtisadi imkanları artır.

Bununla yanaşı, Fransanın bir çox şirkətləri Azərbaycanın neft və qaz sənayesində və digər sahələrdə fəaliyyət göstərir. Gələn ildən etibarən Azərbaycana milyardlarla dollar həcmində neft gəlirləri daxil olacaq və bunun əsasında ticarət əməliyyatları daha da genişlənəcəkdir. Beləliklə, Azərbaycan xarici kreditlər olmadan ölkənin əsas infrastruktur layihələrini öz maliyyəsi, vəsaitləri hesabına həyata keçirəcəkdir. Biz ölkənin on ildən sonrakı tələbatını indidən fikirləşməliyik. Gələcək inkişafın özülü indidən qoyulmalıdır. İnşaat, su təchizatı və kanalizasiya şəbəkəsi, elektrik stansiyaları, qazpaylama sistemləri, yolların çəkilməsi, başqa sözlə desək, bütün infrastruktur inkişaf etdirilməlidir. Çünki bütün bunlar bir çox illər öncə, sovet vaxtlarında yaradılmışdır və hazırda köhnəlmişdir.

Biz indi iki mühüm sosial proqram həyata keçiririk. Burada məktəb və xəstəxanaların tikilməsi nəzərdə tutulur. Təkcə ötən il ərzində ölkəmizin müxtəlif regionlarında 300-dən çox orta məktəb binası inşa edilmişdir. Bu ildən başlayaraq, artıq ölkənin müxtəlif bölgələrində 10 yeni xəstəxana tikilməkdədir və bu, yalnız başlanğıcdır. Həmin işlər Azərbaycanın bütün rayonlarında yerinə yetiriləcəkdir. Çünki insanlar daha çox bunlara ehtiyac duyurlar. Bizim lazımi maliyyə imkanlarımız var və bu işlər görürük.

Fransa şirkətləri ölkəmizdə həyata keçirilən bütün layihələrdə iştirak edə bilər. Öz imkanlarını qiymətləndirmək üçün müəyyən məlumatlara çıxışın təmin edilməsi vacibdir. Bu baxımdan Azərbaycan çox açıq ölkədir. Azərbaycanın bütün layihələri məlumdur və planlaşdırılan bütün işlər haqqında məlumat mövcuddur. Əlbəttə ki, sərmayədarlar onları maraqlandıran sahələri seçib orada fəaliyyət göstərə bilərlər. Lakin əgər hökumətin bu sahədə tövsiyəsinə ehtiyac duyularsa, biz buna yardım edə bilərik.

Hesab edirəm ki, Azərbaycan və Fransanın iş adamları arasındakı əməkdaşlıq bu iki yolla,- yəni birbaşa xarici sərmayələr və podratçı qismində işin aparılması,- inkişaf edə bilər. Hər iki variantda biz əməkdaşlığı genişləndirmək istəyirik. Çünki mən bir daha de-

mək istəyirəm ki, Fransa bizim üçün dost ölkədir. Bizim çox yaxşı siyasi münasibətlərimiz var. Fransa müxtəlif sahələrdə Azərbaycanın tərəfdaşıdır. İki ölkə arasındakı ticarət dövriyyəsi artır. Fransanın nəinki enerji, o cümlədən digər sahələrdə çalışan şirkətləri Azərbaycanda get-gedə daha da fəallaşır.

Bir sözlə, hörmətli dostlar, mən sözümü artıq yekunlaşdırır və bir daha bildirmək istəyirəm ki, bizim böyük planlarımız və yaxşı imkanlarımız var. Ən mühüm olanı isə budur ki, biz hazırda proqramları uğurla həyata keçirməkdəyik. İki il yarım ərzində əldə etdiyimiz təcrübə onu göstərir ki, inkişafımız uğurlu olmuşdur və gələcəkdə biz sizinlə işləməkdən çox şad olardıq.

Sağ olun.

Dövlətimizin başçısının nitqi böyük diqqətlə dinlənildi və alqışlarla qarşılandı.

[redacted]

APARICI: Cənab Prezident, sağ olun. Biz bilirik ki, ölkəniz düzgün istiqamətdə addımlayır. Lakin biz yerli sənayeyə yeni təkan verməli, ölkənizə daha çox sərmayə yatırmağa çalışmalı və əməkdaşlığı genişləndirməliyik. Bir sözlə, buraya toplaşmış şəxslər Fransanın işgüzar dairələrini təmsil edirlər. Əminəm ki, onların Sizə bir çox sualları olacaqdır.

Xahiş edirəm, özünüzü təqdim edin.

FİLİP OŞAR ("Gaz de France" şirkətinin vitse-prezidenti): Biz, "Gaz de France" şirkəti Avropada aparıcı qaz şirkətlərindən biriyik. Azərbaycanda təbii qazın hasilatına artıq başlanmışdır.

Cənab Prezident, mən Sizin Avropaya qaz təchizatı ilə bağlı siyasətiniz barəsində məlumat almaq istərdim. Sualımın ikinci hissəsi Transxəzər qaz layihəsinə aiddir. Onun həyata keçirilməsi nə dərəcədə mümkündür?

İLHAM ƏLİYEV: Bəli, siz haqlısınız. Azərbaycan həm də böyük qaz hasilatçısına çevrilməkdədir. 1996-cı ildən etibarən xarici tərəfdaşlarımızla nəhəng "Şahdəniz" qaz layihəsi üzərində işləyirik. Hesablamalarımıza görə, bu yataqda bir trilyon kubmetr həcmində təbii qaz var və orada Fransanın "Technip" şirkəti tərəfindən çox nadir platforma inşa edilmişdir. "TPG-500" platforması buradan istədiyimiz qədər qazın hasilatına imkan yaradacaqdır.

Həmin qazın nəql ediləcəyi bazara gəldikdə isə, etiraf edim ki, layihə başlayanda, Avropa potensial bazar kimi nəzərdə tutulmurdu. Biz Türkiyə və Gürcüstan hökumətləri ilə sazişlər imzalamışıq və qazı yalnız bu ölkələrə ixrac etmək istəyirdik. Lakin görünür ki, Avropanın təbii qaza olan tələbatı get-gedə artır. Ona görə də bu məsələ nəzərdən keçirilməlidir. Əgər Avropanı potensial bazar kimi qəbul etsək, onda biz inkişaf və sərmayə proqramlarımıza dəyişiklik etməliyik. Çünki bizim "Şahdəniz" yatağındakı hasilat potensialı Türkiyə və Gürcüstan bazarları üçün nəzərdə tutulur.

Lakin, əlbəttə ki, siz dediyiniz məsələ də mümkündür. Qaz hasilatımızın həcmi böyük olacaq və o, Avropadakı istehlakçıların tələbatını ödəyə bilər. Bir məsələni də nəzərə almaq lazımdır ki, artıq bu yaxınlarda qazın Avropaya nəqli üçün imkan yaranacaqdır. Belə ki, Bakı-Tbilisi-Ərzurum qaz boru kəmərinin inşası sentyabr-oktyabr aylarında ba-

şa çatdırılacaqdır. Daha sonra isə bu, Türkiyənin qaz paylaşdırıcı sistemi ilə birləşdiriləcəkdir. Həmin sistem isə, öz növbəsində, Yunanıstanın qaz sistemi ilə bağlıdır.

Transxəzər qaz layihəsinə gəldikdə isə, təəssüflər olsun ki, bu layihə həyata keçirilmədi. Bu, bir neçə il bundan əvvəl nəzərdə tutulurdu. Azərbaycan bunu daim dəstəkləyirdi. Həmin layihə Azərbaycana tranzit ölkəyə çevrilmək imkanı yaradacaqdı. Əgər o, təzədən gündəliyə gələrsə, Azərbaycan onu yenidən dəstəkləyəcəkdir. Biz özümüz belə bir təşəbbüslə çıxış etməyəcəyik. Çünki burada söhbət Azərbaycanın qazından getmir. Bu məsələdə biz yalnız tranzit ölkə ola bilərik və öz dəstəyimizi verməyə hazırıq.

PASKAL LÖ MYER ("Veolia" şirkətinin nümayəndəsi): Cənab Prezident, mən "Veolia" qrupunu təmsil edirəm. Siz yəqin bilirsiniz ki, bizim şirkət Fransada su təchizatı və kanalizasiya xidmətləri sahəsində bir nömrəli şirkətdir. Biz Sizin hökumətinizlə Bakı və Bakı ətrafında suyun təmizlənməsi xidmətləri ilə bağlı niyyət protokolu imzalamışıq. Bu sənəd Fransa ilə Azərbaycan arasında gözəl iqtisadi əlaqələrin olmasından xəbər verir. Layihə, əsasən, Fransa şirkəti tərəfindən maliyyələşdirilir.

Mənim sualım belədir: su təchizatı və onun təmizlənməsi məsələsi ölkəniz üçün nə dərəcədə vacibdir? Biz bu sahədə artıq birinci addımı atmışıq. Ətraf mühit və su təchizatı ilə bağlı növbəti planlarınızı da bilmək istərdik.

İLHAM ƏLİYEV: Sağ olun. Bu, bütün ölkələr üçün vacib olan bir məsələdir. Sovet vaxtlarında "ətraf mühit" ifadəsindən ümumiyyətlə istifadə edilmirdi. Bilirsiniz, həmin vaxt bu məsələ heç müzakirə mövzusu da deyildi. Neft və qazın kəşfiyyatı, hasilatı və nəqli ətraf mühitə heç bir diqqət yetirilmədən aparılırdı. Ona görə də hazırda bizim üçün əsas problem Abşeron yarımadasında çirklənmiş zonaların təmizlənməsidir. Eyni zamanda, kanalizasiya şəbəkəsi və suyun təmizlənməsi ilə bağlı proqramlar getdikcə böyük əhəmiyyət kəsb etməyə başlayır.

Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra bu cür proqramlar hər zaman əhəmiyyətli hesab edilmişdir. Lakin onların həyata keçirilməsi üçün bizim kifayət qədər resurslarımız olmayıbdır. Həmin vaxt ölkənin malik olduğu məhdud vəsaitlər yalnız əhalinin tələbatlarının ödənilməsinə sərf edilirdi. Bu gün isə, ölkənin iqtisadi imkanları artdıqca, biz artıq Neft Fondunda və Milli Bankın ehtiyatlarında 2,6 milyard ABŞ dollarının toplanmasına nail olmuşuq. Lakin gələcəkdə həmin vəsaitin həcmi on milyardlarla dollara çatacaqdır. Təbii ki, həmin vəsaitlərin müəyyən hissəsi çirklənmiş zonaların təmizlənməsinə sərf ediləcəkdir. Ona görə də mən ətraf mühitin qorunması ilə bağlı xüsusi proqramın hazırlanması üçün Azərbaycanın Ekologiya və Təbii Sərvətlər Nazirliyinə göstəriş vermişəm. Bu proqram təxirəsalınmaz xarakter daşıyır. Nazirlik çirklənmiş zonaların xəritəsini tərtib etmişdir. Xəritədə göstərilir ki, çirklənmiş zonaların əksəriyyəti Bakının neft hasil olunan ətraf ərazilərində yerləşir. Buna görə də gələcəkdə bir çox oxşar layihələr həyata keçiriləcəkdir və sizin şirkət bu cür layihələrdə iştirak edə bilər.

Mən çox şadam ki, sizin şirkətlə layihə artıq başlanılıbdır. Bu layihə Azərbaycan üçün ayrılmış kredit hesabına həyata keçirilir. Lakin növbəti layihələr birbaşa bizim büdcəmizdən maliyyələşdirilə bilər və biz 2007-ci il üçün büdcəmizdə ətraf mühitin qorunması ilə bağlı gözəçarpan həcmdə vəsait ayıracağıq.

LAN FRANKİ ("Kastel" şirkətinin hüquqi məsələlər üzrə müşaviri): İcazənizlə, mən öz dostlarımıza şirkətimiz və Azərbaycandakı təcrübəmiz haqqında məlumat vermək istəyirəm. Biz ölkənizin qeyri-neft sektorunda ilk sərmayədarlardan biri olmağımızdan çox şadıq. "Kastel" şirkəti Qafqaz və Mərkəzi Asiya regionunda pivə istehsalına böyük sərmayələr qoymuşdur. Hazırda Azərbaycanda pivə bazarının 85 faizi bizim məhsullarla təmin edilir.

Burada əyləşən dostlarımız üçün məlumat vermək istəyirəm ki, biz Azərbaycana ilk dəfə 1999-cu ildə gəlmişik. Fəaliyyətimizin ilk illərində şirkətimiz, əsasən, pivə və alkoqolsuz içkilərin istehsalına sərmayə qoymuşdur. Bakının yaxınlığında yerləşən pivə zavoduna 40 milyon ABŞ dolları həcmində sərmayə qoymuşuq. Biz eyni işləri Özbəkistan və Qırğızıstanda da görmüşük, lakin ən böyük uğuru məhz Azərbaycanda qazandıq. Ötən il "Kastel" şirkəti Azərbaycanın Cəlilabad rayonundakı üzüm bağlarının inkişafına vəsait ayırmışdır və böyük fərəh hissi ilə qeyd edirəm ki, gələn ilin sonunda həmin bağlardan yığılmış üzümdən ilk yüksək keyfiyyətli şərab istehsal edəcək və onu Rusiya bazarlarına çıxaracağıq.

Mən mühüm bir məsələni qeyd etmək istəyirəm. Şirkətin fəaliyyəti zamanı biz müəyyən çətinliklərlə üzləşmişdik. Bu halda məhkəməyə müraciət etdik. Problem vergi orqanları ilə bağlı idi və şirkətimiz bu işi məhkəmədə uddu. Bir hüquqşünas kimi dostlarımıza demək istəyirəm ki, əgər siz öz maraqlarınızı və hüquqlarınızı qorumaq istəyirsinizsə, məhkəməyə müraciət edə, bu yolla problemlərinizi həll edə bilərsiniz. Bu amil xarici sərmayədar üçün vacibdir. Hazırda Bakıdakı nümayəndəliyimizdə 8 Fransa vətəndaşı işləyir. Bundan başqa, heyətimizdə iki alman var. Onlar pivə istehsalı sahəsində peşəkar mütəxəssislərdir. Digər işçilərin isə hamısı azərbaycanlıdır. Onlar çox çalışqandırlar. Bir sözlə, biz Azərbaycandakı fəaliyyətimizdən çox razıyıq. Cənab Prezident, mən bunu xüsusilə qeyd etmək istəyirəm. Çox sağ olun.

İLHAM ƏLİYEV: Söylədiyiniz xoş sözlərə və Azərbaycanda həyata keçirdiyiniz proqramlara görə minnətdaram. Mən çox məmnunam ki, Siz Azərbaycandakı fəaliyyətinizi genişləndirirsiniz və bu, ölkəmizdə lazımi biznes mühitinin olmasının göstəricisidir. Azərbaycan kimi ölkələr sərmayədarları cəlb etmək üçün mümkün olan bütün işləri görməli və əlverişli sərmayə şəraiti yaratmalıdır. Bu baxımdan, məhkəmə sistemi çox vacib rol oynayır. Əgər xarici şirkət ölkənin Vergilər Nazirliyinə qarşı məhkəmə prosesini udursa, bu, ölkə inkişafının mühüm göstəricisidir. Beləliklə, mən bu münasibətlə sizi təbrik edirəm.

APARICI: Bir sözlə, digər şirkətlər problemlərlə üzləşdikdə, sadəcə məhkəməyə müraciət edə bilər.

İLHAM ƏLİYEV: Lakin təəssüflər olsun ki, hər zaman belə olmur. Bunun da səbəbi odur ki, Azərbaycan müstəqil olmazdan əvvəl, buradakı məhkəmələr tamamilə fərqli idi. Sovet İttifaqı dövründə məhkəmələr azad deyildi və onlar hakimiyyətin bir qolu kimi deyil, hansısa nazirliyin bir hissəsi kimi fəaliyyət göstərirdi. Buna görə də, məhkəmə islahatlarının həyata keçirilməsi çox vacibdir. Mən tam əminəm ki, qanunun aliliyi, ictimai nəzarət olmadan, sadəcə, neft ehtiyatları əsasında iqtisadi uğur əldə etmək mümkün deyildir. Biz Azərbaycandan daha çox neft və qaz ehtiyatlarına malik olan ölkələrin təcrübəsi ilə tanışıq. Bu təcrübə heç də həmişə uğurlu olmamışdır. Biz müsbət

təcrübədən istifadə edərək, şəffaf sistem yaratmalıyıq. Bu baxımdan Avropa ölkələrinin təcrübəsi bizim üçün vacibdir. Biz siyasi islahatlar və məhkəmə islahatları ilə bağlı Avropanın müxtəlif təşkilatları ilə əməkdaşlıq edirik. Hazırda Yeni Qonşuluq Siyasəti çərçivəsində Avropa İttifaqı ilə əməkdaşlıq edirik. Avropa İttifaqının sərhədləri regionumuza get-gedə daha da yaxınlaşır.

Biznes ölkənin ümumi inkişafının vacib bir elementidir. Əgər biz müstəqillikdən, siyasi inkişafdan danışırıqsa, ölkə öz maraqlarını müdafiə etmək və müstəqil siyasətini qorumaq üçün kifayət qədər güclü olmalıdır. Azərbaycan əhalisinin yarısı kənd təsərrüfatı sahəsində işləyir. Buna görə də neft sənayesindən sonra kənd təsərrüfatı Azərbaycan üçün ikinci mühüm sahədir, ölkəmizdə fəaliyyət üçün yaxşı imkanlar mövcuddur. Sizin də bu sahədəki işiniz, xüsusilə şərabçılıqda, böyük əhəmiyyət daşıyır. 1970-ci illərdə Azərbaycan Sovet İttifaqının ən böyük şərab istehsalçısı idi. Bu sahədəki fəaliyyətinizə görə sizə təşəkkürümü bildirirəm.

DAVİD SKİLS ("EADS International" şirkətinin vitse-prezidenti): Cənab Prezident, mən "Avropa Aeronavtika və Müdafiə Sistemləri" (EADS International) şirkətinin vitse-prezidentiyəm. İlk növbədə, mən Sizi Azərbaycan neftinin Bakı-Tbilisi-Ceyhan boru kəməri vasitəsilə Ceyhan limanına çatması münasibətilə təbrik edirəm.

Biz Azərbaycanın şimalla cənub, şərqlə qərb və Xəzər dənizi ilə Aralıq dənizi arasında mühüm ərazidə yerləşməsini nəzərə alaraq, ölkənizdə mülki aviasiyanın inkişaf etdirilməsi planları barədə bilmək istərdik.

İLHAM ƏLİYEV: Sağ olun. Ümumiyyətlə, biz bütün nəqliyyat layihələrinə çox böyük diqqət yetiririk. Azərbaycan Avropa ilə Asiya arasında təbii körpü rolunu oynayır. Lakin bu rolun əhəmiyyətini artırmaq üçün güclü infrastruktur yaratmaq lazımdır. Hazırda nəqliyyat sahəsində bir sıra layihələr həyata keçirilməkdədir. İlk növbədə, demək istəyirəm ki, biz hazırda bir neçə yeni neft tankeri almağı planlaşdırırıq. İrihəcmli yeni tankerlər Xəzər dənizinin şərq sahilindən ildə 20 milyon tondan çox xam neft daşımağa imkan yaradacaqdır. Bu gün mövcud olan neft tankerləri ilə böyük həcmdə neft daşımaq imkanlarımız var və gələcək illər ərzində buna tələbat daha da artacaqdır.

Mən artıq öz nitqimdə qeyd etdim ki, biz hazırda əsas diqqətimizi magistralların inşa edilməsinə yönəldirik. Hazırda biz Bakıdan qərb sərhədimizə qədər 500 kilometrlik şose çəkirik və bu işlər qədim İpək Yolunun bərpasının bir hissəsidir. Eyni zamanda, Bakıdan Rusiya və İran sərhədlərinə qədər magistral yollar da çəkilməkdədir. Lakin aviasiya Azərbaycan üçün xüsusi əhəmiyyət daşıyır.

Azərbaycanın əlverişli coğrafi mövqeyini nəzərə alaraq, ölkəmiz regional daşımaların şəbəkəsinə çevrilməkdədir. Avropa və Asiyadan gələn bir çox mallar Bakıdan keçir. Bu məqsədlə bizim yenicə tikilmiş yük terminalından istifadə olunur.

Bildiyiniz kimi, bu yaxınlarda Azərbaycan Fransanın istehsal etdiyi "Aerobus" markalı bir neçə təyyarə almışdır. Biz bundan çox məmnunuq. Eyni zamanda, biz Fransada istehsal olunan bir neçə vertolyot almışıq. Onlar "Eurocopter" adlanır. Yəni biz Fransa texnologiyalarının məhsullarından istifadə edirik. Mən Fransaya səfərim zamanı Tuluza şəhərində yerləşən aviazavodda oldum. Əlbəttə ki, bu əməkdaşlığı biz gələcəkdə də davam etdirəcəyik.

Mən həmçinin demək istəyirəm ki, hazırda Azərbaycanın 3 şəhərində yeni hava limanı tikilməkdədir. Ölkə coğrafi baxımdan böyük deyil, lakin müasir infrastrukturun olması çox vacibdir. Hava limanlarından biri ölkəmizin qərbində yerləşən Gəncədə, cənubda Lənkəranda, şimalda Zaqatalada tikilir. Onların hamısı, ən son nəhəng "Airbus" modeli istisna olmaqla, bütün növ təyyarələri qəbul edə biləcəkdir. Yəni ən böyük yük təyyarələri orada enə bilər. Bu, elə bir infrastrukturdur ki, bütün ölkə gələcəkdə ondan bəhrələnəcəkdir. Mən bir daha demək istəyirəm ki, biz əməkdaşlığımızın səviyyəsindən çox razıyıq və gələcəkdə onu davam etdirəcəyik.

PATRİK ALVARES ("Aclae" şirkətinin Şərq ölkələri üzrə direktoru): Mən "Aclae" şirkətini təmsil edirəm. Şirkətimiz beynəlxalq inkişaf üzrə məsləhətçi xidmətləri göstərir. Mən mart ayında ölkənizə səfər etmişəm. İyun ayında Azərbaycana yenidən səfər etməyi planlaşdırıram. Biz həmin ayda "Sahibkar qadınlar" mövzusunda seminar keçirməyi planlaşdırırıq.

Səfərdən öncə mən ölkəniz haqqında çox oxumuşdum və səfərdən sonra tamamilə fərqli reallığı seyr etdim. Azərbaycanın gözəl ölkə olmasının bir daha şahidi oldum. Mən orada müxtəlif qonaqpərvər adamlarla görüşdüm. Lakin Bakıdan başqa yerlərə - Quba və Şəkiyə getdikdə, gördüm ki, regionlara yardım göstərilməlidir. Biz orada yerli həmkarlarımızla birgə planlarımızı müzakirə etdik və gələcək üçün strategiyanı müəyyənləşdirdik.

Siz rayonların inkişafında Fransa şirkətlərinin iştirakını necə görürsünüz? Mən həm də fürsətdən istifadə edərək, Respublika günü münasibətilə Sizi təbrik edirəm.

İLHAM ƏLİYEV: Təşəkkür edirəm. Müstəqilliyini yenicə qazanmış ölkə olan Azərbaycan kimi dövlətlər özlərini dünyada tanıtmalıdır. Çünki onlar haqqında məlumat çox məhduddur. Bəzən beynəlxalq mətbuat səhifələrində dərc olunan məlumat birtərəfli olur və ölkədəki reallığı əks etdirmir. Təəssüflər olsun ki, heç vaxt Azərbaycanda olmamış insanlar televiziyada və ya mətbu orqanlarında Azərbaycanda yalnız neft, münaqişələr, problemlər və keçid dövrünün olması haqqında danışırlar. Əlbəttə ki, bütün bunlar mövcuddur, lakin bu o demək deyil ki, Azərbaycan yalnız bu amillərdən ibarətdir. Ölkənin yaşadığı həyat başqa cürdür.

Siz söylədiniz ki, paytaxt şəhərdən başqa iki rayona getdiniz və vəziyyəti müqayisə etdiniz. Bizim isə, məqsədimiz həmin fərqin azaldılmasından ibarətdir. 2004-cü ilin fevral ayından həyata keçirilməyə başlamış regionların inkişafı proqramının əsas vəzifəsi Bakı ilə regionlar arasındakı inkişaf fərqinin azaldılmasıdır. Azərbaycanın 8 milyonluq əhalisinin 2 milyonu Bakıda yaşayır. Bu, böyük uyğunsuzluqdur.

Regionların inkişafı proqramının məqsədi həm də rayonlarda yaşayanların Bakıya axınını azaltmaq, insanların həyat tərzini yaxşılaşdırmaqdan ibarətdir. Yeni açılmış 400 min iş yerinin əksəriyyəti regionlarda yaradılmışdır. Bizim çox füsunkar təbiətimiz, gözəl çimərliklərimiz, Xəzər dənizimiz, uca dağlarımız, yaşıl meşələrimiz var. Bakıdan maşınla iki saat getsəniz, özünüzü tamamilə fərqli aləmdə hiss edəcəksiniz. Dünyada mövcud olan 11 iqlim qurşağından 9-u Azərbaycanda var. Lakin bunu təşviq etmək lazımdır. Məqsədimiz ölkəni yalnız biznes imkanları ilə tanıtmaq yox, eyni zamanda, digər sahələri təbliğ etməkdən, Azərbaycanın nailiyyətlərini və problemlərini göstərməkdən ibarətdir. İctimai əlaqələrin əhəmiyyəti bu baxımdan get-gedə artır.

Mən Azərbaycana gələn çoxsaylı xarici qonaqlarla görüşürəm və ölkəmizə birinci dəfə səfər edənlərin ilk sözü ondan ibarət olur ki, "ölkəniz necə də gözəldir, biz bunu başqa cür təsəvvür edirdik". Bunu dövlət başçıları və digər yüksək rütbəli şəxslər də deyirlər. Beləliklə, biz öz ölkəmizi təbliğ etmək üçün çox işlər görməliyik.

Avropada elə insanlar var ki, Azərbaycanın harada yerləşdiyini bilmir. Bu, təbiidir, çünki ölkəmiz müstəqil dövlət kimi dünya xəritəsinə yalnız on beş il bundan öncə düşübdür. Lakin vaxt keçdikdə, daha çox fransız ölkəmizi tanımağa başlayır.

Buraya gəlməzdən öncə Azərbaycanın Fransadakı səfirliyinin yeni binasının açılışı mərasimində iştirak edirdim. Hökumətimiz səfirlik üçün çox gözəl bina almışdır. Mən səhər qeyd etdim ki, səfirliyin eyvanına çıxıb sağ tərəfə baxanda Zəfər Tağını, sol tərəfə baxanda isə Eyfel qülləsini gördüm. Yəni Azərbaycan səfirliyindən Parisin iki rəmzi görünür. Belə bir gözəl və tarixi yerdə səfirlik üçün binanın alınması ölkəmizin inkişafından xəbər verir və müəyyən mənada, reklam xarakteri daşıyır. Lakin hesab edirəm ki, gələcəkdə daha böyük işlər görülməlidir.

NİKOLYA FURNİYE ("LaFarge" şirkətinin Mərkəzi Avropa regionu üzrə prezidenti): Mən dünyada ən böyük sement istehsalçısı sayılan "LaFarge" şirkətini təmsil edirəm. Sizin ölkənizdəki sement bazarı ilə maraqlanıram. Bilmək istəyirəm ki, Siz ölkənizdə artan inşaat şəraitində sementə olan tələbatın ödənilməsini necə görürsünüz?

İLHAM ƏLİYEV: Ölkəmizdə inşaat işlərinin artması ilə əlaqədar sement istehsalı sahəsindəki potensial imkanlar da genişlənir. İndi Bakıda 300-dən çox hündürmərtəbəli bina tikilməkdədir. Burada yaşayış evləri, biznes mərkəzləri, mehmanxanalar nəzərdə tutulur. Bir sözlə, böyük həcmdə inşaat işləri gedir və bu işlər nəinki Bakıda, həm də Azərbaycanın müxtəlif yerlərində görülür. Gələcəkdə yeni binaların tikilməsi daha da sürətlənəcəkdir. Bütün bunlar maliyyə resursları ilə bağlıdır. İlk öncə, dövlət tərəfindən nəzarət olunan və maliyyələşdirilən inşaat işləri aparılacaq və sonra isə əhalinin imkanları artacaq və insanlar yeni, rahat yaşayış mənzilləri almaq iqtidarında olacaqlar.

Bildiyiniz kimi, Azərbaycanda sement istehsalı kifayət qədər deyil və biz xarici ölkələrdən sementi idxal edirik. Ölkəmizdə yeni sement zavodunun tikilməsinə böyük ehtiyac duyulur. Ola bilsin ki, bizim yenicə yaratdığımız Sərmayə Şirkəti gələcəkdə bu sahədə müəyyən layihələr həyata keçirsin. Bunun üçün böyük potensial var və ölkəmizin sementə olan tələbatı getdikcə artır.

ANRİ NEJAD ("Societe Generale" bankının vitse-prezidenti və xarici əlaqələr üzrə baş direktoru): Mən "Societe Generale" bankını təmsil edirəm. Bankımızın Azərbaycanda nümayəndəliyi fəaliyyət göstərir. Ölkənizdə müşahidə olan böyük iqtisadi artım şəraitində hökumətinizin bank işinin inkişafı ilə bağlı strategiyasını necə görürsünüz?

İLHAM ƏLİYEV: Təbii ki, bank sektoru sürətlə inkişaf etməlidir. Əfsuslar olsun ki, ölkəmiz çox güclü bank sisteminə malik deyildir. Yeganə bir bank üstün mövqedədir və bu, keçid dövrü üçün təbii haldır. Əlbəttə, biz istəyirik ki, bir çox banklar, o cümlədən xarici banklar ölkəmizdə fəaliyyət göstərsin. Arzu edirik ki, Azərbaycanda beynəlxalq səviyyədə tanınmış xarici banklar fəaliyyətini genişləndirsin. Gələcək illər ərzində görəcəyimiz işlər çoxdur.

Mən burada qeyd etdim ki, Azərbaycan kimi ölkələr üçün kredit almaq çətin iş deyildir.

Əksinə, biz bir çox hallarda onun şahidi oluruq ki, banklar kredit ayırmaq üçün hətta bir-birilə rəqabətə də girir. Lakin indiki vəziyyət on il öncə mövcud olmuş vəziyyətdən xeyli fərqlənir. On il bundan əvvəl banklar ölkəmizə vəsait ayırmaq istəmirdi. Onlar hökumət zəmanətini tələb edir, əməkdaşlıqda sərt şərtlər qoyurdu. İndi isə vəziyyət tamamilə başqa cürdür. Hazırda banklar bizə kreditləri təklif edir, biz isə həmin təklifləri qiymətləndirir, götür-qoy edirik.

Mən öncə qeyd etdim ki, Azərbaycanın tələbatlarının ödənilməsi öz vəsaitləri hesabına mümkün ola bilər. Biz özümüzə arxalanan ölkəyik və hansı modelə uyğun inkişaf edəcəyimizlə bağlı öz proqram və planlarımız var. Biz öz proqramlarımıza uyğun addımlar atmağa üstünlük veririk. Lakin maliyyə cəhətdən güclü olmaq heç də o demək deyil ki, biz kreditlərdən imtina etməliyik. Hətta milyardlarla dollar ehtiyat vəsaitlərinə malik olan ölkələr də beynəlxalq bankların xidmətlərindən istifadə edir. Bu, təbiidir. Beləliklə, bank sistemi inkişaf etdirilməlidir və biz buna öz köməyimizi göstərməyə çalışırıq. Lakin yaddan çıxarmaq lazım deyil ki, bazar iqtisadiyyatıdır. Biz özəl banklara subsidiya verə bilmərik və onlar üçün süni qaydada yaradılmış güzəştli maliyyə rejimi təmin etməli deyilik.

Orta səviyyəli şirkətlərə kreditlərin ayrılması ilə bağlı vəziyyət yaxşılaşmaqdadır. Biz elə misallar çəkə bilərik ki, özəl şirkətlərimiz beynəlxalq banklardan kreditlər alır. Çünki onların layihələri kommersiya baxımından faydalıdır.

Neft gəlirlərinə gəldikdə, makroiqtisadi sabitlik üçün təhlükəli olan və məni narahat edən ən vacib məsələ inflyasiya ilə bağlıdır. Çünki biz ehtiyatda olan bütün vəsaitləri lazımi layihələrə xərcləsək, böyük problemlərlə üzləşəcəyik. Hazırda biz makroiqtisadi sabitliyin pozulmaması məqsədi ilə ölkə üçün vacib hesab edilən layihələrlə bağlı tələbatların ödənilməsi, əmək haqlarının və pensiyaların artırılması ilə inflyasiyanın normal çərçivədə saxlanılması arasında tarazlığı qoruyub saxlamalıyıq.

JİL REMİ ("CIFAL" qrupunun baş direktoru): "CIFAL" qrupu Azərbaycanda fəaliyyətə başlayan ilk şirkətlərdən biridir. Mən ölkənizin müstəqilliyinin ilk illərində üzləşdiyi çətinlikləri yaxşı bilirəm. Fəxr edirəm ki, hətta həmin çətin anlarda ilk fransız şirkəti olaraq, biz ölkənizə gəldik.

Mən eyni zamanda qeyd etmək istəyirəm ki Azərbaycanda təmsil etdiyim şirkətlərin əksəriyyəti bütün regionda fəaliyyət göstərir. Yəni Rusiyanı, Xəzər dənizi bölgəsi və Mərkəzi Asiya ölkələrini nəzərdə tuturam.

Qonşu ölkələrlə münasibətlərinizin inkişafı barədə nə deyə bilərsiniz?

İLHAM ƏLİYEV: Bizim bütün qonşularla çox yaxşı münasibətlərimiz var. Qonşularla yaxşı münasibətdə olmaq hər bir ölkə üçün vacibdir. Bizim qonşu ölkələrlə müxtəlif iqtisadi layihələrimiz var, onlarla birgə enerji layihələrini həyata keçiririk. Qonşu ölkələrlə ticarət dövriyyəmiz get-gedə artır. Bu regional əməkdaşlığın, sabitlik və təhlükəsizliyin çox vacib elementidir. Çünki Azərbaycan ayrıca bir ada deyil, onun ətrafında qonşular var. Təbii ki, qonşu ölkələrdə baş verən hadisələr Azərbaycana da müəyyən təsir göstərir. Öz növbəsində, ölkəmizdə gedən proseslər qonşu ölkələrdə cərəyan edən proseslərə təsir edir. Bunlar bir-birilə bağlıdır.

Bizim üçün qonşu ölkələrlə dostluq əlaqələrinin inkişafı böyük əhəmiyyət kəsb edir və

Azərbaycan buna nail olubdur. Münasibətlərimiz olmayan yeganə qonşu ölkə Ermənistandır. Çünki bu dövlət azərbaycanlılara qarşı etnik təmizləmə siyasəti aparmışdır, Azərbaycan ərazisinin böyük bir hissəsini işğal altında saxlayır. Lakin digər qonşularımızla əlaqələrimiz yaxşıdır və siyasi, iqtisadi baxımdan, nəqliyyat, kommunikasiya və enerji sahələrində daha da möhkəmlənir. Bu, bizim üçün faydalıdır və əməkdaşlığımızın konkret nəticələri görünür, qonşularımızla heç bir problemlərimiz yoxdur.

NİKOLYA FURNİYE: Cənab Prezident, GUAM ölkələri arasında azad ticarət zonasının yaradılması barədə nə düşünürsünüz?

İLHAM ƏLİYEV: GUAM təşkilatı 10 il bundan öncə yaradılmışdır. Bu yeni bir təşkilat deyil və 1997-ci ildən etibarən fəaliyyət göstərir. Bu qurum müxtəlif sahələrdə, xüsusən də enerji, nəqliyyat, iqtisadi inkişaf sahələrində maraqları üst-üstə düşən bir neçə ölkəni birləşdirir. Azərbaycan GUAM-ın həmtəsisçisidir. Ona görə mən bəzən beynəlxalq mətbuat səhifələrində görəndə ki, GUAM yeni təşkilat kimi təsvir olunur, bunu səhv yanaşma sayıram. GUAM-ın adına müəyyən dəyişikliklər edilib, lakin təşkilatın özü eyni olaraq qalır. Ona görə də hazırda GUAM təşkilatı çərçivəsində xüsusi bir yenilik yoxdur, yəni 5 və ya 10 il öncə mövcud olan təşkilat kimi qalır.

GUAM-a üzv olan ölkələr arasında çox yaxşı münasibətlər, o cümlədən iqtisadi əməkdaşlıq var. Bildiyiniz kimi, son zamanlar enerji daşıyıcıları məsələsi get-gedə daha qabarıq şəkildə özünü büruzə verir. Azərbaycan GUAM çərçivəsində yeganə dövlətdir ki, təkcə özünün enerji daşıyıcılarına tələbatını ödəmir, eyni zamanda, onun ixracı ilə də məşğuldur. Asiyadan Avropaya və əks istiqamətdə malların daşınmasında Azərbaycandan yan keçmək mümkün deyildir. Azərbaycanın iştirakı olmadan heç bir ciddi regional iqtisadi layihə həyata keçirilə bilməz. Biz bütün bu layihələrdə iştirak edirik və onların həyata keçirilməsində aparıcı rol oynayırıq.

GUAM-a daxil olan ölkələrin, demək olar ki, eyni tarixi var və son 15 il ərzində onlar təqribən eyni yolu keçmişlər. Həmin ölkələr beynəlxalq ictimaiyyətə sübut etdilər ki, müstəqil dövlət kimi yaşamağa qadirdirlər. Hazırda iqtisadi əməkdaşlıq və enerji təchizatı məsələsinin əhəmiyyəti artdıqca, Azərbaycanın aparıcı enerji daşıyıcıları təchizatçısı kimi əhəmiyyəti də artır. Bizim xarici siyasətimiz də bu istiqamətə yönəlir.

Son iki il yarım ərzində Azərbaycanın Prezidenti kimi mən BMT Təhlükəsizlik Şurasının daimi üzvü olan bütün beş ölkəyə səfər etmişəm. Azərbaycan böyük dövlət deyil və onun rəhbərinin dünyanın beş aparıcı dövlətinə səfər etməsi ölkəmizin artan əhəmiyyətinin və rolunun göstəricisidir. Oynadığımız rol və tutduğumuz mövqe daha da güclənir. Buna görə Azərbaycanın müxtəlif təşkilatlardakı iştirakı bu qurumların daha da güclənməsinə töhfə verir və güclü iqtisadi əsasını yaradır.

Demək olar ki, hər bir məsələ bu və ya digər mənada iqtisadi imkanlarla bağlıdır. Bu gün mən çox fəxr edirəm ki, Azərbaycan müstəqil siyasət həyata keçirir. Bizim siyasətimizə xarici ölkələr və qüvvələr heç bir təsir göstərmir və bu siyasət çox açıq və səmimidir. Siyasətimizin məqsədi milli maraqların təmin edilməsi, qonşularla mehriban münasibətlərin saxlanılmasıdır. Belə bir siyasətin həyata keçirilməsi iqtisadi imkanlarla şərtlənir. Biz iqtisadi və maliyyə baxımından heç kimdən asılı deyilik. Bu amil bizə imkan verir ki, Azərbaycan xalqının dəstəklədiyi siyasəti yeridək.

Bizim beynəlxalq təşkilatlardakı iştirakımız bu səbəbə görə vacibdir. Ölkəmiz müxtəlif beynəlxalq təşkilatların üzvüdür. Bu təşkilatlar siyahısına İqtisadi Əməkdaşlıq Təşkilatı, Müstəqil Dövlətlər Birliyi, GUAM, Avropa Şurası, İslam Konfransı Təşkilatı və digərləri aiddir. Bir çox beynəlxalq təşkilatlarda Azərbaycanın mövqeyi get-gedə möhkəmlənir.

APARICI: Cənab Prezident, suallarımız artıq başa çatdı. Çox səmimi və açıq müzakirəyə görə Sizə minnətdarlığımızı bildiririk. Arzulayırıq ki, Sizinlə fəaliyyətimizi bundan sonra da davam etdirək. Sağ olun.

Dövlətimizin başçısı görüşdən sonra Frans Press agentliyinin müxbirinə müsahibə verdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV "TOTAL" ŞİRKƏTİNİN KƏŞFİYYAT VƏ HASİLAT ÜZRƏ PREZİDENTİ KRİSTOF DE MORJERİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 29-da Parisdə, onun üçün ayrılmış iqamətgahda Fransanın "Total" şirkətinin kəşfiyyat və hasilat üzrə prezidenti Kristof de Morjerini qəbul etmişdir.

Söhbət zamanı "Total" şirkəti ilə əməkdaşlıq və onun Azərbaycanın neft sənayesində iştirakının perspektivləri barədə fikir mübadiləsi oldu.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV "TEKNİP" QRUPUNUN PREZİDENTİ DANİYEL VALOTU QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 29-da Parisdə, onun üçün ayrılmış iqamətgahda Fransanın "Teknip" qrupunun prezidenti Daniyel Valotu qəbul etmişdir.

Dövlətimizin başçısı "Teknip"in Azərbaycanın neft-qaz sənayesinin inkişafına töhfəsinə görə təşəkkürünü bildirdi.

Cənab D.Valot dedi ki, biz Xəzərdə ən böyük platformanın tikintisinə nail olmuşuq və o, "Şahdəniz" yatağında istismara verilmişdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV "VİNCİ" ŞİRKƏTİNİN PREZİDENTİ PYER BERGERİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 30-da Parisdə, onun üçün ayrılmış iqamətgahda Fransanın "Vinci" şirkətinin prezidenti Pyer Bergeri qəbul etmişdir.

Görüşdə Azərbaycan və şirkət arasında qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

SENATIN SƏDRİ KRİSTİAN PONSÖLE AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ŞƏRƏFİNƏ ZİYAFƏT VERMİŞDİR

Mayın 30-da Fransa Senatının sədri cənab Kristian Ponsöle Azərbaycan Prezidenti İlham Əliyevin şərəfinə ziyafət vermişdir.

Ziyafət zamanı ölkələrimizin parlamentlərinin beynəlxalq təşkilatlar çərçivəsində, o cümlədən Avropa Şurası Parlament Assambleyasında əlaqələrinə, ikitərəfli münasibətlər, xüsusən Fransa və Azərbaycan arasında iqtisadi əməkdaşlıq, Fransa şirkətlərinin Azərbaycanda həyata keçirilən layihələrdə iştirakı məsələlərinə toxunuldu.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV NATO PARLAMENT ASSAMBLEYASININ YAZ SESSİYASINDA ÇIXIŞ ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 30-da NATO Parlament Assambleyasının yaz sessiyasının keçirildiyi Qurultaylar sarayına gəlmişdir.

NATO Parlament Assambleyasının sədri Pyer Leluş və digər rəsmi şəxslər dövlətimizin başçısını hörmət və ehtiramla qarşıladılar.

Cənab PYER LELUŞ dövlətimizin başçısını salamlayaraq dedi:

-Mən böyük məmnuniyyət hissi ilə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevi dəvət edərək, ondan "Cənubi Qafqazda təhlükəsizliyə olan təhdidlər" mövzusunda analitik fikirlərini bizimlə bölüşməyini xahiş edirəm.

Cənab Prezident, Siz bir neçə ay bundan öncə Assambleyamız qarşısında çıxış etməyə razılıq verdiniz və Sizin burada olmağınız bizim üçün çox böyük şərəfdir. Həmkarlarımıza isə bir daha xatırlatmaq istəyirəm ki, atanız Heydər Əliyevin davamçısı olaraq, Siz 2003-cü ilin oktyabr ayında Azərbaycan Respublikasının Prezidenti seçilmisiniz. Siz Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunu bitirmisiniz və mən bildiyimə görə, nəinki rus dilində, o cümlədən ingilis, fransız və türk dillərində də mükəmməl danışırsınız.

Siz Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin birinci vitse-prezidenti olmusunuz. 1995-ci ildə Milli Məclisə seçilmisiniz. 2000-ci ildə hakimiyyətdə olan partiyanın rəhbər vəzifələrindən birinə ucalmısınız. Siz Avropa Şurasının Parlament Assambleyasındakı Azərbaycan nümayəndə heyətinin başçısı olmusunuz və 2003-cü ildə Assambleya bürosu sədrinin müavini vəzifəsinə seçilmisiniz.

Ölkənizin coğrafi mövqeyi onun regionda güclənən strateji əhəmiyyətini artırır. Azərbaycanın üzləşdiyi ən ağır problemlərdən biri həll olunmamış Dağlıq Qarabağ münaqişəsidir.

Ölkənin demokratikləşməsinə yönəlmiş islahatların davam etdirilməsi, enerji daşıyıcılarından əldə olunmuş gəlirlərin düzgün idarə edilməsi, yoxsulluğa qarşı mübarizə kimi məsələlər də böyük əhəmiyyət kəsb edir.

Cənab Prezident, Dağlıq Qarabağ münaqişəsinin aradan qaldırılması məqsədi ilə Minsk qrupu çərçivəsində aparılan danışıqların intensivləşməsi ilə yanaşı, Sizi əmin edirəm ki, Fransa bu sahədə oynadığı vacib rolunu davam etdirəcəkdir.

Bu gün enerji təhlükəsizliyi beynəlxalq münasibətlərin get-gedə aparıcı amilinə çevrilir. Eyni məsələləri, biz elə indicə Gürcüstan Prezidenti cənab Saakaşvili ilə müzakirə etdik.

Qonşunuz İranın nüvə silahı əldə etmək cəhdi ilə bağlı bütün beynəlxalq ictimaiyyətin narahat olduğu bir vaxtda və bu cəhd baş tutduğu təqdirdə regiondakı təhlükəsizlik vəziyyətinin tamamilə dəyişməsi ehtimalı önündə Sizin çıxışınız xüsusi əhəmiyyət daşıyır.

Mən şəxsən 2004-cü ilin sonunda Dağlıq Qarabağda oldum. Orada gördüklərim məni olduqca məyus etdi. Cəbhə xəttinin hər iki tərəfində qazılmış səngərlər, əzab-əziyyət çəkən qaçqınlar və xarabalığa dönmüş kəndlər hələ də gözlərimin qarşısındadır. Sülhə aparan yolun hansı istiqamətdə olacağını əvvəlcədən şərh etmədən, yəni paket və ya mərhələli həll variantlarına varmadan, torpaqların tam və ya qismən azad olunmasına toxunmadan, tamamilə aydındır ki, burada, yəni Assambleyada əyləşən hər bir şəxs dondurulmuş münaqişəyə birdəfəlik son qoymağı və cənab Prezident, bilirəm ki, ürəyinizə yaxın tutduğunuz qaçqın və məcburi köçkünlərin hamı üçün təhlükəsizliyin təmin olunaraq, tezliklə yurd-yuvalarına qayıtmasını arzulayır.

Cənab Prezident, Sizi çox gözlətmək istəmirəm, böyük məmnuniyyətlə sözü Sizə verirəm və bu gün bizimlə olduğunuza görə bir daha minnətdarlığımı bildirirəm.

Azərbaycan Prezidenti İlham Əliyev sessiyada çıxış etdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ÇIXIŞI

-Çox sağ olun.

İlk növbədə, mən Parlament Assambleyasının işində iştirak üçün göndərdiyiniz dəvətə görə Sizə minnətdarlığımı bildirirəm. Hesab edirəm ki, hazırda Assambleyada müzakirə olunan məsələlər Cənubi Qafqaz regionunda təhlükəsizlik, davamlı inkişaf və regional əməkdaşlıq üçün olduqca vacibdir. Bütün bunlar bir-birilə bağlı olan məsələlərdir.

Cənubi Qafqaz ölkəsi olan Azərbaycan regionda təhlükəsizlik tədbirlərinə, sülh və sabitliyin möhkəmlənməsinə öz töhfəsini verir. Avropa İttifaqının sərhədlərinin Cənubi Qafqaz regionuna yaxınlaşması ilə yanaşı, əlbəttə ki, təmasların qurulması, əməkdaşlığın aparılması və yaxşı qonşuluğun saxlanılması ilə bağlı yeni yanaşmalar, çağdaş fikirlər gündəliyimizdə çox mühüm yer tutur.

Avratlantik inteqrasiyaya dair siyasətə gəldikdə, Azərbaycan böyük irəliləyişə nail olmuşdur. Bizim NATO ilə tərəfdaşlığımız sürətlə irəliləyir. Azərbaycan "Sülh naminə tərəfdaşlıq" proqramının ən fəal üzvüdür. İki il əvvəl mən NATO-nun baş katibinə "Fərdi tərəfdaşlığın fəaliyyət planını" təqdim etmişəm. Biz əməkdaşlığın səviyyəsindən çox razıyıq və ümid edirik ki, birgə işlərimiz gələcəkdə uğurla davam edəcəkdir.

Cənubi Qafqazda siyasi və iqtisadi inkişaf, eləcə də enerji təhlükəsizliyi kimi məsələlər bir-birilə sıx bağlıdır. Bu gün Xəzərin böyük enerji ehtiyatları və artıq mövcud olan nəqliyyat marşrutları ilə regionun oynadığı rol, təbii ki, artacaqdır. Burada söhbət nəinki regional, o cümlədən qlobal miqyaslı məsələlər gedir.

Son on il ərzində Azərbaycanın siyasi və iqtisadi inkişafı onu göstərir ki, ölkə uğurla irəliləyir. Siyasi islahatların həyata keçirilməsi möhkəm iqtisadi əsaslara söykənir. Çünki biz ölkə inkişafının həmin iki əsas elementini bir-birindən ayıra bilmərik. Belə olmasa, biz davamlı inkişafa nail ola bilməyəcəyik.

Azərbaycanda cəmiyyətin demokratikləşməsi prosesi, siyasi islahatlar, siyasi təsisatların möhkəmləndirilməsi və eyni zamanda, liberal islahatlar, bazar iqtisadiyyatı prinsipləri və iqtisadi nailiyyətlər kimi vəzifələr bizim daim diqqət mərkəzimizdədir. Biz bütün istiqamətlərdə müsbət nəticələri müşahidə edirik. İqtisadiyyatımız sürətlə inkişaf edir. Ötən il ərzində ÜDM-in artımı 26 faiz olmuşdur. Cari ilin dörd ayı ərzində bu rəqəm təxminən 40 faiz, sənaye istehsalının artımı isə təqribən 50 faiz təşkil etmişdir. Son iki il yarım ərzində Azərbaycanda 400 minə yaxın yeni iş yeri açılmış və onların əksəriyyəti qeyri-neft sektorunda yaradılmışdır. Bizim hazırkı əsas məqsədimiz iqtisadiyyatı şaxələndirməkdir. Əlbəttə ki, neft və qaz layihələri Azərbaycanda uzun müddət ərzində iqtisadiyyatımızın əsas hissəsini təşkil edəcəkdir. Lakin qeyri-neft sektorunun inkişafı da vacibdir.

Bütün bu amillər ölkənin uzunmüddətli, davamlı və uğurlu inkişafının təməlini təşkil edir. Biz digər keçmiş sovet respublikaları ilə birgə 15 il öncə müstəqilliyimizi qazanmışıq. Lakin sözün əsil mənasında güclü və müstəqil siyasət aparmaq üçün biz güclü iqtisadiyyata malik olmalıyıq. Bu, ən zəruri şərtdir. Bu baxımdan, Azərbaycan özünün resurslarına arxalanır. İqtisadi nöqteyi-nəzərdən güclü olmaq, təbii ki, siyasi islahatların təşviqi və regional səviyyədə əməkdaşlıq baxımından bizim üçün yeni imkanlar açır.

İndiki vaxtda sülh, təhlükəsizlik və sabitlik məsələləri enerji təhlükəsizliyi ilə sıx bağlıdır. Azərbaycan bu sahədə öz rolunu oynaya bilər. Neft layihələrimiz çox uğurla davam etdirilir. İki gün öncə, Azərbaycanın qeyd etdiyi 28 May - Respublika günü zamanı Azərbaycan nefti Aralıq dənizindəki Ceyhan limanına çatmışdır və o deməkdir ki, Bakı-Tbilisi-Ceyhan boru kəməri artıq işləyir. Bu, nəinki Azərbaycan, o cümlədən qonşularımız və tərəfdaşlarımız üçün tarixi hadisədir və beynəlxalq bazarlara enerji nəqli yollarının müxtəlifləşdirilməsinə imkan yaradır.

İki ildən sonra Azərbaycanda neft hasilatı gündə bir milyon barreldən çox olacaqdır. Böyük qaz kəmərinin çəkilməsindən sonra isə Azərbaycan qonşu ölkələr üçün qaz təchizatçısına çevriləcəkdir. Dünyada, o cümlədən Avropada enerji təhlükəsizliyi məsələsinin əhəmiyyəti tədricən artır. Azərbaycan dost və tərəfdaş kimi ümumi işə töhfə verməyə hazırdır. Siz yəqin ki, bilirsiniz, Azərbaycanın NATO ilə nəinki adi tərəfdaşlıq münasibətləri var, biz həm də konkret işlər görürük. Bizim hərbçilərimiz NATO-nun üzvü olan ölkələrin əsgərləri ilə dünyanın müxtəlif yerlərində - Kosovo, Əfqanıstan və İraqda sülhyaratma əməliyyatlarında çiyin-çiyinə dayanır. Azərbaycan lap ilk günlərdən etibarən koalisiyanın üzvü olmuş və belə olaraq qalır. NATO-nun üzvü olan ölkələrlə dostluq əlaqələri saxlayan Azərbaycan regional çərçivədə vacib rolunu davam etdirəcəkdir.

Bir sözlə, siyasi inkişafımız uğurludur, iqtisadi göstəricilər davamlı inkişaf üçün möhkəm zəmin yaradır. Lakin regional əməkdaşlığa olan yeganə maneə, yeganə potensial təhlükə Ermənistan ilə Azərbaycan arasındakı həll olunmamış münaqişədir. Ermənistan Azərbaycan torpaqlarını davamlı işğal altında saxlamaqla, özünü ən böyük təhlükə

mənbəyinə çevirir. Ermənistanın Azərbaycana qarşı təcavüzü, eləcə də həmvətənlərimizə qarşı etnik təmizləmə siyasəti nəticəsində ərazimizin təqribən 20 faizi işğal edilmiş, bir milyona yaxın soydaşımız qaçqın və məcburi köçkün vəziyyətində yaşamağa məcbur olmuşdur. Bu, böyük bir humanitar fəlakətdir. 8 milyonluq əhalinin 1 milyonunun qaçqın və məcburi köçkün olması ölkə üçün ağır bir problemdir.

Ümid edirik ki, hazırda aparılan danışıqlar münaqişənin sülh yoluyla həlli ilə nəticələnəcəkdir. Lakin məsələnin həlli beynəlxalq hüququn mövcud olan prinsiplərinə əsaslanmalıdır. Yəni beynəlxalq hüququn norma və prinsiplərinə əsaslanmayan həll variantı mümkün deyildir. Dağlıq Qarabağ hüquqi, tarixi baxımdan Azərbaycan torpağıdır və Dağlıq Qarabağ ərazimizin ayrılmaz hissəsi kimi bütün beynəlxalq birlik, bütün ölkələr, o cümlədən Birləşmiş Millətlər Təşkilatı tərəfindən tanınıbdır. İstisna yalnız Ermənistandır. Bu səbəbə görə məsələnin həlli yalnız Azərbaycan Respublikasının ərazi bütövlüyü çərçivəsində tapıla bilər. Azərbaycanın ərazi bütövlüyü pozulubdur. Hər bir ölkənin ərazi bütövlüyü beynəlxalq hüququn başlıca prinsipidir. Ona görə, Azərbaycan bütün erməni qoşunlarının ərazimizdən çıxarılmasını tələb edir. Azərbaycana qarşı təcavüz edilmiş, etnik təmizləmə siyasəti aparılmış, işğal olunmuş bütün ərazilər dağıdılmışdır.

Bir müddət əvvəl ATƏT işğal olunmuş ərazilərə faktaraşdırıcı missiyasını göndərmişdir. Onların hazırladığı hesabat dəhşətli idi. Hər bir şey məhv edilib, evlər, orta məktəblər, tibb ocaqları, tarixi abidələrimiz, ata-babalarımızın məzarları yerlə-yeksan olunubdur. Bu, böyük humanitar fəlakətdir, region üçün böyük siyasi problemdir.

Hesab edirəm ki, birgə səylərlə və potensial təhdidləri ümumi qaydada anlamaqla, Ermənistan rəhbərliyi başa düşəcək ki, onların yürütdüyü siyasət uğursuzluğa düçardır. Azərbaycan öz torpaqlarının işğalı ilə heç vaxt barışmayacaqdır! Azərbaycan öz ərazisində ikinci erməni dövlətinin yaranmasına heç vaxt imkan verməyəcəkdir! Azərbaycan Dağlıq Qarabağın ondan qoparılmasını heç vaxt qəbul etməyəcəkdir!

Dünyada muxtariyyətin çox gözəl nümunələri var. Onlar Avropada da var. Azərbaycanda milli azlıqların hüquqları qorunur. Monoetnik ölkə olan Ermənistandan fərqli olaraq, Azərbaycan çoxmillətli ölkədir. Bir çox milli azlıqlar, müxtəlif millətlərdən olan və fərqli dini baxışlara malik vətəndaşlar ölkəmizdə bir ailə kimi əmin-amanlıq şəraitində yaşayırlar. Etnik azlıq olmaq o demək deyil ki, həmin insanlar yaşadıqları torpağı ölkədən qoparıb, müstəqil dövlət yarada bilərlər. Ermənilər dünyanın bir çox ölkələrində yaşayırlar. Gəlin təsəvvür edək ki, əgər onlar yaşadıqları müxtəlif yerlərdə öz müqəddəratını tələb etməyə başlasalar, nələr baş verər?! Görün, dünyada nə qədər erməni dövləti yaranar? Ona görə bu cür yanaşma əks-nəticə verir. Bizim yanaşmamız beynəlxalq hüquqa, müvafiq prinsiplərə və yaxşı qonşuluq ruhuna əsaslanır. Ümid edirik ki, sülh danışıqları lazımi nəticələri verəcək və bu münaqişəyə son qoyulacaqdır.

Regionda böyük potensial var. Biz artıq dostlarımızla çox yüksək səviyyəli regional əməkdaşlığa nail olmuşuq. Regionda çoxmilyardlıq enerji layihələrində iştirak edirik. Regionun üç ölkəsi - Azərbaycan, Gürcüstan və Türkiyə sübut etdilər ki, çox mürəkkəb siyasi və iqtisadi mühitdə, texniki çətinliklərə baxmayaraq, onlar regionumuzda dünyanın ən iri enerji layihəsini həyata keçirməyə qadirdirlər. Beləliklə, biz həmin istiqamətdə irəliləyirik. Biz Azərbaycanı bütün hüquq və azadlıqları qoruyan, yüksək səviyyəli

siyasi təsisatlara, demokratikləşmə prosesinə, şəffaflığa və iqtisadi imkanlara malik, qonşularla və beynəlxalq təşkilatlarla yaxşı münasibətləri saxlayan müasir, dünyəvi ölkə kimi görürük. Biz bu məqsədə doğru gedirik.

Cənubi Qafqazda mövcud olan münaqişələr genişmiqyaslı regional əməkdaşlığa olan əsas maneədir və bizim planlarımız, fikirlərimiz və proqramlarımıza qarşı ciddi təhlükədir. Ona görə həmin münaqişələrin həlli nəinki bizim üçün, həm də bütün region üçün vacibdir. Ümidvaram ki, biz öz məqsədlərimizə nail olacağıq.

Mən qarşınızda çıxış etmək üçün yaradılmış imkana görə sizə bir daha öz minnətdarlığımı bildirirəm və sizi maraqlandıran suallara cavab verməyə hazıram. Çox sağ olun.

Azərbaycan Prezidentinin çıxışı diqqətlə dinlənildi və alqışlarla qarşılandı.

* * *

PYER LELUŞ: Cənab Prezident, çox sağ olun. Hesab edirəm ki, söylədiyiniz olduqca səlis analitik fikirləriniz hamının marağına səbəb oldu. Sessiyamızın rəsmi hissəsinin başa çatmasına 20 dəqiqə qalır. Təbii ki, bizim bir neçə sual üçün vaxtımız var.

Beləliklə, mən Hollandiyadan deputat Yars van Qininin sualı ilə başlamaq istəyirəm. Buyurun, söz sizindir.

YARS VAN QİNİ (Hollandiyadan deputat): Cənab sədr, sağ olun. Zənnimcə, biz hamımız Azərbaycan cəmiyyətinin və hökumətinin gözəl iqtisadi göstəricilərindən çox razıyıq.

Cənab Prezident, mən ölkənizin BMT-nin İnsan Hüquqları Şurasına üzv seçilməsi münasibətilə Sizi təbrik etmək istəyirəm. Biz insan hüquqları ilə bağlı bəzi sahələrdə hər hansı çətinliyi müşahidə etməmişik. Digər tərəfdən isə, demokratik proses və insan hüquqlarının qorunması sahəsində pozuntuları təsvir edən bir çox hesabatlar mövcuddur. Mən burada fərdi şikayətləri nəzərdə tutmuram və özümü hakim saymıram. Lakin "Beynəlxalq Amnistiya" təşkilatının hərtərəfli hesabatında, həmin qurumun mayın 25-də verdiyi bəyanatda və Sizin yerli təşkilatlarınızın müxtəlif hesabatlarında düzgün və ədalətli seçki prosesinin olmaması, siyasi səbəblərə görə günahsız vətəndaşların həbsi və saxlama zamanı bəzi işgəncə hallarının baş verməsi və mətbuat azadlığının məhdudlaşdırılması bildirilir.

Cənab Prezident, bütün bu məlumatlar həmin halların ölkənizdəki demokratikləşmə arzuları ilə nə dərəcədə uzlaşması barədə sual doğurur. Onların aradan qaldırılması üçün hansı tədbirləri görməyi planlaşdırırsınız? Sağ olun.

PYER LELUŞ: Sağ olun. İndi isə, mən ikinci suala keçərək, sözü Ermənistan nümayəndə heyətinin rəhbəri Şahgəldiyana verirəm.

ŞAHGƏLDİYAN (Ermənistan nümayəndə heyətinin başçısı): İlk nöbbədə, mən nümayəndə heyətimizə göstərilmiş qonaqpərvərliyə və bu sessiyanın Parisdə təşkilinə görə öz minnətdarlığımı bildirmək istəyirəm. Çox sağ olun.

Cənab Prezident, Siz burada yeni yanaşmanın zəruri olmasından danışdınız və qeyd etdiniz ki, Dağlıq Qarabağ problemi sülhə əsaslanan yanaşma, danışıqlar yolu ilə həll olunmalıdır. Ermənistanın mövqeyi ondan ibarətdir ki, məsələ danışıqlar və qarşılıqlı güzəştlər yolu ilə nizamlanmalıdır. Bu, Ermənistanın rəsmi mövqeyidir. Biz həmin mövqeyi bu günə qədər aparılmış danışıqlar zamanı, o cümlədən beynəlxalq təşkilatlar çərçivəsində və Ermənistan daxilində açıqlamışıq. Problem ondan ibarətdir ki, danışıqlar hər hansı ilkin şərt olmadan aparılmalı və başa çatdırılmalıdır. Çevik mövqeyə əsaslanaraq, danışmaq lazımdır. Bəyanat verəndə gələcəyi nəzərə almaq zəruridir. Bizim yanaşmamız belədir.

Sualım belədir: birincisi, Dağlıq Qarabağ problemi ərazi problemi deyildir. Bu, millətlərin hüququ ilə bağlı olan məsələdir. Yəni söhbət Dağlıq Qarabağda yaşayan insanlardan gedir. Bu, çox vacibdir. Bu baxımdan, həmin insanların hüquqları, onların hüquqlarına aid beynəlxalq normalar nəzərə alınırmı? Bu halda, ilkin şərtlərdən söhbət gedə bilərmi? Burada yalnız bir prinsipdən, yəni ərazi bütövlüyü prinsipindən danışmaq nə dərəcədə münasibdir?

Digər qısa bir məsələ. Əgər söhbət yalnız ərazi bütövlüyü prinsipindən gedirsə, milli azlıqların hüquqları bu baxımdan nə dərəcədə nəzərə alınır? Sağ olun.

PYER LELUŞ: Mən bütün Assambleya qarşısında dəqiqləşdirmək istəyirəm. Mən bu sözləri Prezident Əliyevə yenidən demək arzusundayam. Mən Parisdə sessiyanın təşkili ilə məşğul olduğum zaman Cənubi Qafqazdakı üç ölkənin başçısını, o cümlədən cənab Koçaryanı da dəvət etmək istəyirdim. Əfsuslar olsun ki, Prezident Koçaryan gəlməmək qərarını verdi. Əgər o, gəlmiş olsaydı, onda Prezident Əliyev qarşısında öz mövqeyini bildirə bilərdi. Biz hətta iki ölkə başçısının Parisdə görüşünü də təşkil edə bilərdik. Mən təəssüf edirəm ki, o, bu fürsətdən istifadə etmədi. Beləliklə, mən Prezident Əliyevə yenidən söz verirəm.

İLHAM ƏLİYEV: Verilmiş birinci suala gəldikdə, demək istəyirəm ki, Azərbaycanda siyasi proseslər çox uğurla gedir. Bəzən məlumatın olmaması, səhv məlumatın verilməsi və ya müəyyən maraqlara xidmət edən məlumatın ötürülməsi ümumi işə fayda vermir. Ona görə də hər hansı subyektiv yanaşmaya əsaslanan nəticələri çıxarmaqdansa, həmin məlumatı yoxlamaq və ya onu bilmədikdə, soruşmaq daha yaxşıdır. Mən hesab edirəm ki, Azərbaycan rəsmilərinin müxtəlif beynəlxalq tədbirlərdə tez-tez iştirakı çox vacibdir. Bununla biz özümüzü təqdim edə bilərik və əslində, yalan məlumatlara əsaslanan suallara cavab vermək iqtidarında ola bilərik.

Azərbaycandakı seçkilər Seçki Məcəlləsinə uyğun keçirilmişdir. Noyabr ayındakı seçkilərin rəsmi nəticələri ABŞ hökuməti tərəfindən seçilmiş şirkətin keçirdiyi "exit-poll"un nəticələri ilə 90 faiz üst-üstə düşdü. Seçki pozuntuları baş vermişdir, lakin bizim hökumətimiz ciddi tədbirlər gördü, bir çox rəsmilər cəzalandırıldı, bir neçəsi həbs edildi, bir sıra yerli icra hakimiyyəti başçıları tutduqları vəzifədən azad edildi və biz 10 seçki dairəsində təkrar seçkilərin keçirilməsini bəyan etdik.

Təkrar seçkilər mayın 13-də keçirilmişdir. Bütün monitorinq qurumlarının və müşahidəçilərin rəyinə görə, həmin seçkilər azad və ədalətli olmuşdur. Bu dəfə ABŞ hökuməti yenidən bir şirkət seçdi. Bu qurum Beynəlxalq Respublikaçılar İnstitutu olmuşdur. Nəticədə, 10 seçki dairəsindəki bütün rəsmi nəticələr "exit-poll"un nəticələri ilə uyğun gəldi. Yəni, 100 faiz üst-üstə düşdü. Burada söhbət nəinki həmin dairələrdə qalib gəlmiş namizədlər, o cümlədən ikinci, üçüncü, dördüncü və hətta beşinci yeri tutmuş namizədlərdən söhbət gedir. Bu, sizin sualınıza ən yaxşı cavabdır və Azərbaycanın bugünkü reallığının ən münasib göstəricisidir.

Eyni zamanda, bəlkə də, bilmirsiniz, amma mən sizə məlumat verərəm. Azərbaycanda heç bir siyasi məhbus yoxdur. Avropa Şurası tərəfindən siyasi məhbus kimi hesab olunan bütün şəxslər mənim tərəfimdən əfv edilmişdir. Bu gün, Azərbaycan Avropa İnsan Hüquqları Məhkəməsinin üzvü olduğu halda, prinsip etibarilə, ölkədə heç bir siyasi məhbus ola bilməz. Axı, bu, mümkün deyildir. Biz bu Məhkəmənin üzvüyük. Hər kəs məhkəməyə müraciət etmək hüququna malikdir.

Azərbaycandakı siyasi proseslər müsbət istiqamətdə cərəyan edir. Təbii ki, mən bunlardan istədiyim qədər razı deyiləm, çünki bizim opponentlər bizə düşmən gözü ilə baxırlar. Onlar bizə hücum etməyə, beynəlxalq təşkilatlarda yanlış yanaşmanın yaradılmasına üstünlük verirlər. Onlar müxtəlif ölkələrdə bəzi qrupları tapır və Azərbaycan haqqında tam təhrif olunmuş təsəvvür yaratmaq imkanını əldən buraxmırlar. Bu gün Azərbaycan müasir, dünyəvi və bütün demokratik təsisatlara malik olan ölkədir. Azərbaycan Avratlantik inteqrasiya siyasətini həyata keçirir. Biz dostlarımız üçün açıq ölkəyik. Azərbaycan böyük siyasi proqramlar və iqtisadi layihələri həyata keçirmək iqtidarındadır.

Mən həmçinin Sizin nəzərinizə çatdırmaq istəyirəm. Azərbaycanın hazırkı siyasi vəziyyətini təsvir edərək bildirirəm: Mən artıq iki il yarımdır ki, Azərbaycan Respublikasının Prezidentiyəm. Bu vaxt ərzində, mən BMT Təhlükəsizlik Şurasının daimi üzvü olan bütün beş ölkəyə rəsmi səfərlər etmişəm. Mən Avropanın bütün aparıcı dövlətlərində olmuşam və bizim həmin ölkələrlə çox yaxşı əlaqələrimiz var. Siyasi münasibətlər və ya gərginlik məsələləri bizim üçün keçmişdə qalmış məsələlərdir. Azərbaycanın uğurlu inkişafı və siyasi təsisatlarının formalaşması prosesi olduqca müsbətdir. Ona görə də, mən sizin şərhlərinizi qəbul etmirəm. Mən sizin baxışlarınızı rədd edirəm, bununla razı deyiləm və hesab edirəm ki, sizin dediyiniz düz deyildir.

O ki qaldı, Ermənistan nümayəndəsinin verdiyi suala, mən demək istəyirəm ki, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı tutduğumuz mövqe birmənalı olaraq tamamilə aydındır və beynəlxalq hüquqa əsaslanır. Mövqeyimiz arzular və xülyalardan ibarət deyil, Ermənistanın yanaşmasından fərqli olaraq, arzu olunan nəticələrə söykənmir. Beynəlxalq hüquq nə deyir: Dağlıq Qarabağ Azərbaycanın bir hissəsidir.

Hamıya məlumdur ki, ermənilər Qarabağa ilk dəfə nə vaxt gəliblər. Bu, XIX əsrin əvvəllərində baş vermişdir. Yaxşı, indi onlar orada təqribən 200 il yaşayıblarsa, qoy yaşasınlar. Bizim orada yaşayan insanlarla heç bir problemimiz yoxdur. Bizim separatçı rejimlə problemimiz var. Bu gün qeyri-qanuni zona sayılan Dağlıq Qarabağın beynəlxalq nəzarətdən qaçan və beynəlxalq monitorinqdən canını qurtarmağa çalışan qondarma rejimin özü problemdir. Orada terrorçu qrupların cəmləşməsi, narkotiklərin qanunsuz dövriyyəsi ilə bağlı bizdə kifayət qədər məlumat var. Heç kim bu zonaya nəzarət etmir. Bu, Avropanın qara ləkəsidir. Biz buna son qoymalıyıq.

Azərbaycanın heç bir qeyri-adi tələbi yoxdur. Əgər söhbət güzəştdən gedirsə, hesab edirəm ki, Azərbaycan son on il ərzində sadiq olduğu atəşkəsi saxlamış, torpaqlarının on ildən çoxdur ki, işğal altında olmasına dözmüşdür və bu günədək yenə də sülh prosesinə sadiq olaraq qalır. Biz bu fürsəti əldən buraxmaq istəmirik. Azərbaycan Ermənistana məxsus hər hansı əraziyə malikdirmi? Təbii ki, yox! Biz heç nəyi qaytarmalı deyilik. Biz Ermənistan torpaqlarını işğal etməmişik. Biz etnik təmizləmə siyasəti aparmamışıq

və özümüzü təcavüzkar kimi aparmırıq. Beləliklə, əgər güzəşt haqqında danışırsınızsa, siz anlamalısınız ki, Azərbaycan sizə məxsus olan heç bir şeyi öz əlində saxlamır. Əksinə, Ermənistan bizim əraziləri öz işğalı altında saxlayır. Həmin zonalar tam dağıdılıbdır. Erməni xalqı bundan nə uda bilər axı? Onlar özlərinə məxsus olmayan torpaqda oturmaqla, Azərbaycanın daim artan inkişaf tempindən qorxu içərisində yaşayaraq, həyatlarını yaxşılaşdırdılarmı? Bu, yaxşı mühitin yaradılmasına xidmət edirmi? Fikrimcə, yox! Nəyin baş verdiyini qiymətləndirmək, gələcəyə baxmaq və üç, beş ildən sonra nəyin baş verəcəyini anlamaq vaxtı çoxdan yetişibdir: Azərbaycan hansı səviyyəyə qalxacaq? Ermənistan hansı səviyyədə qalacaq? Enerji layihələrini həyata keçirən və güclü nəqliyyat infrastrukturuna malik olan Azərbaycanın iqtisadi potensialı necə olacaq? Gəlin, Ermənistanın perspektivinə nəzər salaq. Həmin ölkə bütün regional layihələrdən kənarda qalır. Ermənistan hökuməti bunu anlamalı və düzgün qərar qəbul etməlidir.

PYER LELUŞ: Cənab Prezident, sağ olun. Biz artıq reqlamentin sonuna çatdıq. Lakin buna baxmayaraq, son iki suala qısa vaxt qalır. Xahiş edirəm, suallarınızda qısa olun. Əvvəlcə söz Türkiyə nümayəndə heyətinin üzvü cənab Əziz Ağgülə verilir. Buyurun, cənab Ağgül.

ƏZİZ AĞGÜL (Türkiyə nümayəndə heyətinin üzvü): Cənab sədr, çox sağ olun.

Cənab Prezident, ilk növbədə, NATO Parlament Assambleyasının sessiyasına gəldiyinizə görə Sizə minnətdarlığımı bildirirəm. Siz öz çıxışınızda çox aydın şəkildə qeyd etdiniz ki, ərazinizin 20 faizi işğal altındadır və əhalinizin 1 milyonu öz vətənində məcburi köçkün vəziyyətinə düşmüşdür və son 15 il ərzində çətin şəraitdə yaşamışdır.

Cənab Prezident, Siz bu humanitar fəlakətə son qoymaq məqsədi ilə verilən beynəlxalq dəstəkdən razısınızmı?

PYER LELUŞ: Sağ olun, cənab Ağgül. Sonuncu sualı Litva nümayəndə heyətinin başçısı Oli Kaas verəcəkdir. Cənab Kaas, söz sizindir.

OLİ KAAS (Litva nümayəndə heyətinin başçısı): Cənab sədr, sağ olun.

İlk növbədə, mən çox maraqlı çıxışına görə cənab Prezidentə öz minnətdarlığımı bildirmək istəyirəm. Mən ona və ölkəsinə gələcəkdə uğurlar arzulayıram.

NATO-nun Parlament Assambleyası enerji təchizatı və təhlükəsizlik məsələlərini çox müzakirə edir. Hörmətli cənab Prezident, Siz öz çıxışınızda bu məsələyə toxundunuz. Siz NATO ilə əməkdaşlığınız və uğurlu iqtisadi inkişaf haqqında danışdınız. Əminik ki, ölkənizdəki demokratikləşmə prosesi davam edəcəkdir. Enerji təchizatı və təhlükəsizlik məsələlərinə gəldikdə, mən bilmək istəyirəm, Gürcüstan və qonşu ölkələri qazla təchiz edəcək yeni boru kəmərinin çəkilməsinə nə qədər vaxt tələb olunacaq?

Cavabınıza görə çox sağ olun.

PYER LELUŞ: Cənab Prezident, söz Sizindir.

İLHAM ƏLİYEV: Sağ olun. Dağlıq Qarabağ məsələsi ilə bağlı beynəlxalq ictimaiyyətin tutduğu mövqeyə gəldikdə, biz məmnunuq ki, Azərbaycan Respublikasının ərazi bütövlüyü bütün beynəlxalq ictimaiyyət, o cümlədən Birləşmiş Millətlər Təşkilatı tərəfindən tanınıbdır. Eyni zamanda, siz bilirsiniz ki, hazırda ATƏT-in Minsk qrupunun üç həmsədri - Fransa, Birləşmiş Ştatlar və Rusiyanın vasitəçiliyi ilə danışıqlar formatı sax-

lanılır. Onlar məsələnin sülh yolu ilə həll olunmasında bizə yardım göstərməyə çalışırlar.

Mən Minsk qrupunun son illər ərzindəki fəaliyyətinə, məsələyə çox faydalı yanaşmasına və real yardımına görə minnətdarlığımı bildirmək istəyirəm. Ona görə də, bugünkü format məsələnin sülh yolu ilə həlli üçün imkanlar yaradır.

Eyni zamanda, mən bildirmək istəyirəm ki, ötən il Avropa Şurası münaqişə ilə bağlı xüsusi qətnamə qəbul etmişdir. Həmin qətnamədə Ermənistan Azərbaycan ərazisini işğal etmiş ölkə kimi tanındı. Bu, çox vacibdir, çünki hadisələrin qeyri-düzgün təfsir olunması səbəbindən, ermənilər uzun illər ərzində real vəziyyəti beynəlxalq ictimaiyyətdən gizlətməyə nail olmuşlar. Adətən, deyilirdi ki, erməni hərbi birləşmələri torpaqları işğal etmişdir. Lakin heç kim bilmirdi, məhz hansı erməni qoşunlarından söhbət gedir və onlar haradan gəliblər? Avropa Şurasının qətnaməsində isə, aydın şəkildə bildirilir ki, Ermənistan bizim torpaqlarımızı işğal etmişdir. Biz Azərbaycanın üzv olduğu digər beynəlxalq təşkilatların dəstəyini də artıq aldıq.

Bu yaxınlarda, biz GUAM-ın üzvü olan dövlətlərin zirvə görüşünü keçirdik və həmin görüş zamanı GUAM ölkələrində mövcud olan münaqişələrlə bağlı qətnamə qəbul edildi və orada bütün ölkələrin ərazi bütövlüyü dəstəkləndi. Qalan beynəlxalq təşkilatların qətnamələrində və tutduqları mövqedə nəyin baş verdiyi, hansı tərəfin təcavüzkar və hansı tərəfin təcavüzün qurbanı olduğu aydın şəkildə təsvir olunubdur. Bununla belə, bütün nailiyyətlərlə yanaşı, BMT TŞ erməni qoşunlarının Azərbaycanın işğal olunmuş ərazilərindən qeyd-şərtsiz çıxarılması ilə bağlı dörd qətnamə qəbul edibdir. Lakin problem ondan ibarətdir ki, həmin sənədlər və qətnamələr yerinə yetirilmir. Çünki Ermənistanın mövqeyi buna imkan vermir. Onlar beynəlxalq hüquqa heç bir məhəl qoymur, normal beynəlxalq davranışa heç bir hörmət göstərmirlər. Onlar hesab edirlər ki, XXI əsrdə özlərinə məxsus olmayan torpaqda otura bilərlər və heç nə baş verməyəcəkdir. Bu, yolverilməzdir.

Lakin bizi narahat edən digər məsələ ondan ibarətdir ki, bu ay ermənilər Şuşanın guya azad olunmasını qeyd etdilər. Soruşulur: onlar Şuşanı kimdən azad etdilər? Azərbaycanlılardanmı? Şuşada yaşayan insanların 90 faizdən çoxu azərbaycanlılar idi. Ermənilər isə, bunu bayram kimi qeyd edirlər. Beynəlxalq ictimaiyyət buna göz yumur. Problemimiz budur. Problem ondan ibarətdir ki, təşkilatların qətnamələri işləmir. Biz elə bir şərait yaratmalıyıq ki, qəbul olunmuş qərarlar yerinə yetirilsin.

Bu gün əhəmiyyəti get-gedə artan enerji problemlərinə gəldikdə isə, mən demək istəyirəm ki, Azərbaycan qazını Gürcüstan və Türkiyəyə çatdıracaq boru kəməri sentyabr ayında istismara veriləcəkdir. Bunun nəticəsində Azərbaycan nəinki neft, həm də qazı ixrac edən ölkəyə çevriləcəkdir. Azərbaycan öz tərəfdaşları və qonşuları ilə vahid bir heyətdə işləyir.

Hazırda Xəzər enerji layihələrinin qlobal enerji təhlükəsizliyi üçün əhəmiyyəti artır. Azərbaycan dünya və Avropa bazarlarına enerji daşıyıcıları ixrac edən ölkəyə çevriləcəkdir. Biz yeni potensial istehlakçılarla danışıqlar aparmaqdayıq. Fikrimcə, regionda alternativ qaz təchizatı xəttinin olması və Avropaya çıxması qazı hasil və istehlak edənlərin tələbatlarını ödəyəcəkdir. Biz bu sahədə əməkdaşlıq etməyə hazırıq. Uzun illər ərzində apardığımız neft siyasəti özünü doğrultmuşdur. Biz dünyada təkrarolunmaz

nəqliyyat infrastrukturunun yaradılmasına nail olduq və onun nəticəsində Xəzər regionundan qonşu ölkələr, Avropa və dünya bazarları üçün neft və qaz təchizatı çoxşaxəli olacaqdır.

PYER LELUŞ: Cənab Prezident, sağ olun. Parisə səfər etdiyinizə və fikirlərinizi bizimlə bölüşdüyünüzə görə bütün Assambleyamız adından Sizə minnətdarlığımı bildirirəm.

Çox sağ olun.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ FRANSA PREZİDENTİ JAK ŞİRAKIN GÖRÜŞÜ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 30-da Fransa Prezidenti Jak Şirakla görüşmək üçün Yelisey sarayına gəlmişdir.

Sarayın qarşısında dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Fəxri qarovul dəstəsinin rəisi Prezident İlham Əliyevə raport verdi.

Fransa Prezidenti Jak Şirak Azərbaycan Prezidenti İlham Əliyevi sarayın önündə ehtiramla qarşıladı.

Sonra prezidentlərin təkbətək görüşü oldu.

Ölkəmizin milli bayramı - Respublika günü, habelə Azərbaycan neftinin Ceyhan terminalına çatması münasibətilə Prezident İlham Əliyevi təbrik edən Prezident Jak Şirak Parisdə Azərbaycan səfirliyinin yeni binasının açılmasının da mühüm hadisə olduğunu bildirdi.

Səmimilik və dostluq şəraitində keçən söhbət zamanı prezidentlər Azərbaycan ilə Fransa arasındakı hərtərəfli əlaqələrin inkişafını razılıq hissi ilə vurğuladılar.

Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə toxunuldu, ATƏT-in Minsk qrupunun həmsədrlərindən biri kimi Fransanın problemin sülh yolu ilə həlli məsələsində fəaliyyətindən bəhs olundu.

Fransaya əvvəlki səfərlərini xatırladan Prezident İlham Əliyev son zamanlar ölkələrimiz arasındakı əlaqələrin nəzərəçarpacaq dərəcədə inkişaf etdiyini vurğuladı.

Görüş başa çatdıqdan sonra Fransa Prezidenti Jak Şirak Azərbaycan Prezidenti İlham Əliyevi Yelisey sarayının qarşısında böyük hörmət və ehtiramla yola saldı.

PREZİDENT İLHAM ƏLİYEV PARİSİN SƏN-KLU ŞƏHƏR QƏBİRİSTANLIĞINDA ƏLİMƏRDAN BƏY TOPÇUBAŞOVUN VƏ CEYHUN BƏY HACIBƏYLİNİN MƏZARLARINI ZİYARƏT ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 30-da Parisin yaxınlığındakı Sən-Klu şəhərinə gedərək, Azərbaycan Xalq Cümhuriyyətinin banilərindən biri, parlamentin ilk sədri, Paris sülh konfransında Azərbaycan nümayəndə heyətinin rəhbəri Əlimərdan bəy Topçubaşovun və nümayəndə heyətinin müşaviri, "Azərbaycan" (rusca) qəzetinin redaktoru Ceyhun bəy Hacıbəylinin məzarlarını ziyarət etmişdir.

Dövlətimizin başçısını burada Sən-Klu şəhərinin meri Erik Bedoti qarşıladı.

Prezident İlham Əliyev Azərbaycan hökumətinin qayğısı sayəsində Əlimərdan bəy Topçubaşovun qəbrinin yenidən götürülməsi və burada onun büstünün qoyulması ilə bağlı görülən işlərlə tanış oldu.

Milli Məclisin deputatı, parlamentin AŞPA-dakı nümayəndə heyətinin üzvü Rafael Hüseynov dövlətimizin başçısına xalqımızın görkəmli oğlunun məzarının abadlaşdırılması üçün görülən işlər barədə ətraflı məlumat verdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN "FİQARO" QƏZETİNƏ MÜSAHİBƏSİ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 30-da Parisdə, onun üçün ayrılmış iqamətgahda Fransanın ən nüfuzlu nəşrlərindən olan "Fiqaro" qəzetinin müxbiri Pyer Ruslənə müsahibə vermişdir.

MÜXBİR: Azərbaycan Avropaya qaz təchizatının şaxələndirilməsinə nə kimi kömək göstərə bilər?

İLHAM ƏLİYEV: Biz 1996-cı ildə qazla bağlı proqramımıza başlayanda bu, yalnız Türkiyə və Gürcüstan bazarları üçün nəzərdə tutulmuşdu. Biz Avropanın qaz təchizatının şaxələndirilməsini nəzərdə tutmamışdıq. Bu məsələdə biz heç zaman Avropa bazarını nəzərdən keçirməmişdik. Yeni şəraiti öyrənmək və Avropanı qazla təchiz etmək üçün investisiyamızı şəraitə uyğunlaşdırmaq lazım olacaqdır. Texniki cəhətdən bu, cari ilin sentyabr ayında istifadəyə veriləcək Türkiyə istiqamətindəki yeni qaz kəməri vasitəsilə mümkün olacaq, lakin qazın həcmi hələ kifayət deyildir.

- Siz GUAM sammitində Ukrayna, Gürcüstan və Moldova prezidentləri ilə birgə iştirak etmisiniz. Tərəfdaşlarınız bu təşkilatda bəzən antirus cəbhəsi kimi təqdim olunurlar. Siz də özünüzü bu cür hiss edirsiniz?

- 1997-ci ildə biz GUAM-ın əsasını qoymuşuq, bu təşkilatı kiməsə qarşı fəaliyyət göstərən təşkilat kimi hesab etməmişik. Biz qonşu ölkələrlə münasibətlərimizi gərginləşdirmək siyasəti aparmırıq. Bizim üçün daha əhəmiyyətlisi yeganə zəngin təbii ehtiyatları olan GUAM üzvü kimi bu təşkilatda iştirak etməkdir. Avropa və Asiyanın astanasında yerləşdiyimizdən, bu regionda heç bir nəqliyyat layihəsi Azərbaycanın iştirakı olmadan həyata keçirilə bilməz.

- Qonşu İranın nüvə proqramı ilə bağlı ABŞ-la aralarında baş verə biləcək münaqişənin təhlükəsi Sizi narahat edirmi?

- Bəli. Sabitliyin pozulması bütün regiona öz təsirini göstərə bilər. Bu bizim üçün elə bir məsələ deyil ki, ona istədiyimiz vaxt televiziya vasitəsilə baxaq və yaxud da istəməyəndə söndürək. Biz hesab edirik ki, münaqişə diplomatik vasitələrlə, sülh yolu ilə və xoş məramla həll olunmalıdır.

-ABŞ-la hərbi əlaqələri nəzərə alaraq, İrana hərbi müdaxilə zamanı Azərbaycanın mövqeyi necə olacaq?

- Bütün digər sahələrdə olduğu kimi, ABŞ-la hərbi sahədəki əlaqələrimizdən də məmnunuq. İrana gəldikdə isə, Azərbaycan bu ölkəyə qarşı hərbi əməliyyatları dəstəkləməyəcəkdir. Vaşinqton buna anlaşma ilə yanaşır.

- Erməni separatçılarının nəzarətdə saxladıqları, Azərbaycan ərazisi olan Dağlıq Qarabağla bağlı münaqişənin həll olunacağına ümidiniz varmı?

- Dağlıq Qarabağ Azərbaycan ərazisidir. Bu, BMT tərəfindən, eləcə də, Ermənistan istisna olmaqla, bütün beynəlxalq birlik tərəfindən tanınıbdır. Azərbaycanın ərazi bütövlüyü bərpa olunmalıdır, Ermənistan silahlı qüvvələri işğal edilmiş ərazilərdən çıxarılmalı, etnik təmizləməyə məruz qalmış 1 milyon azərbaycanlı öz torpaqlarına qayıda bilməlidir. Azərbaycan çox böyük iqtisadi inkişaf mərhələsindədir. Ermənistan isə bütün regional layihələrdən təcrid olunmuşdur, rəqabətə davam gətirməyəcək və yoxsulluqdan əziyyət çəkəcəkdir. Ermənistan başa düşməlidir ki, işğalçılıq siyasəti ona heç nə verməyəcəkdir.

- Bəziləri belə hesab edir ki, Dağlıq Qarabağ münaqişəsinin həlli üçün ölkəniz neftdən gələn gəlirləri silahlanmaya sərf edərək, Ermənistana təsir edə bilər?

- Bizim hərbi büdcəmiz artır və ordumuzu müasirləşdiririk. Ermənistan bizimlə rəqabət apara bilməz. Dağlıq Qarabağ bizim bir nömrəli problemimizdir və əlbəttə ki, biz öz hərbi qüvvələrimizi müasirləşdiririk. Amma mən qeyd etmək istərdim ki, bu, bizim qonşularımızda qorxu yaratmamalıdır. Heç bir seçim istisna oluna bilməz, lakin xalqımız sülhsevərdir və qonşularımızla sülh şəraitində yaşamaq istəyirik. Biz heç zaman işğalla barışmayacağıq.

- 2003-cü ilin prezident seçkilərində və ötən ilin noyabr ayında keçirilmiş parlament seçkilərində saxtakarlıq halları olmuşdur. Siz Azərbaycanda demokratiya ilə bağlı çatışmazlıqları deyənlərə nə cavab verərdiniz?

- Prezident seçkilərinin nəticələri şübhə altına alınmadı. Mən səslərin 76 faizini qazandım. Bu gün də ən azı həmin nəticəni əldə edə bilərəm. Müxalifət özünü rüsvay etdi. Parlament seçkilərinə gəldikdə isə, 10 seçki dairəsində qanun pozuntularına yol verilmişdi. Cavabdeh şəxslər cəzalandırılmış, təkrar seçkilər keçirilmişdir. Bəzi tənqidlər doğrudur. Bizdə heç də hər şey mükəmməl deyildir. Müstəqilliyimizi yalnız 15 il bundan qabaq qazanmışıq və indi biz sovet sistemindən tamamilə fərqli bir sistemdə yaşayırıq.

Digər tənqidlər qəbulolunmazdır, çünki onlar ədalətsiz və qərəzlidir. Hər kəs başa düşür ki, inqilabın Azərbaycanda gələcəyi yoxdur, çünki xalq onu dəstəkləmir. Mən sizi əmin edirəm ki, bizdə demokratiyanın səviyyəsi elə deyil ki, qonşu ölkələrə həsəd aparaq.

SƏFƏR BAŞA ÇATDI

NATO Parlament Assambleyasının yaz sessiyasında iştirak etmək üçün Fransada səfərdə olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 31-də Vətənə yola düşmüşdür.

NAZİRLƏR KABİNETİNDƏ GÖRÜŞ

Mayın 31-də Azərbaycanın Baş naziri Artur Rasizadə MDB ölkələri Müdafiə Nazirləri Şurasının Bakıda keçirilən 50-ci yubiley iclası iştirakçılarının nümayəndə heyətini qəbul etmişdir.

Baş nazir Birlik çərçivəsində müxtəlif idarələr arasında yaradılmış əlaqələrdən danışaraq, Müdafiə Nazirləri Şurasının fəaliyyətini MDB qurumlarında əməkdaşlığın mühüm amillərindən biri kimi qiymətləndirdi.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsindən söhbət açan Artur Rasizadə problemin həlli məsələsində Ermənistanın qeyri-konstruktiv mövqe tutduğunu vurğuladı. Eyni zamanda bildirdi ki, Azərbaycan bu münaqişənin beynəlxalq hüquq çərçivəsində, ölkəmizin ərazi bütövlüyünün təmin olunması əsasında dincliklə həllinə tərəfdardır.

MDB ölkələri Müdafiə Nazirləri Şurasının sədri, Rusiya hökuməti sədrinin müavini, müdafiə naziri Sergey İvanov iclasın yaxşı təşkilinə görə Azərbaycan tərəfinə təşəkkürünü bildirdi və respublikamızın Baş nazirinə iclasın gündəliyinə çıxarılmış məsələlər, əldə edilən sazişlər, o cümlədən 2007-ci il üçün planlaşdırılan birgə təlimlər barədə məlumat verdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV MDB-NİN İCRAİYYƏ KOMİTƏSİNİN SƏDRİ - İCRAÇI KATİB VLADİMİR RUŞAYLONU QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 1-də Prezident sarayında MDB-nin İcraiyyə Komitəsinin sədri - icraçi katib Vladimir Ruşaylonu qəbul etmişdir.

Görüş zamanı MDB çərçivəsində əməkdaşlığın müxtəlif sahələri ilə bağlı fikir mübadiləsi aparılmışdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV TACİKİSTANIN MÜDAFİƏ NAZİRİ GENERAL-POLKOVNİK ŞİRƏLİ XAYRULLOYEVİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 1-də Prezident sarayında Tacikistanın müdafiə naziri general-polkovnik Şirəli Xayrulloyevi qəbul etmişdir.

Görüşdə ölkələrimizin müxtəlif sahələrdə əlaqələrinin inkişaf etdiyi vurğulandı.

Cənab Şirəli Xayrulloyev Tacikistan Prezidenti Emoməli Rəhmonovun salamlarını Prezident İlham Əliyevə çatdırdı.

Salamlara görə minnətdarlığını bildirən dövlətimizin başçısı onun da salamlarını Tacikistan Prezidentinə çatdırmağı xahiş etdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV SƏUDİYYƏ ƏRƏBİSTANI KRALLIĞI GƏNCLƏRƏ QAYĞI BAŞ SƏDRLİYİNİN BİRİNCİ VİTSE-PREZİDENTİ ŞAHZADƏ ƏMİR NƏVVAF BİN FEYSƏL BİN FƏHD BİN ƏBDÜLƏZİZİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 1-də Prezident sarayında Səudiyyə Ərəbistanı Krallığı Gənclərə Qayğı Baş Sədrliyinin birinci vitse-prezidenti Şahzadə Əmir Nəvvaf bin Feysəl bin Fəhd bin Əbdüləzizi qəbul etmişdir.

Qonaq İki Müqəddəs Məscidin xadimi, Səudiyyə Ərəbistanının Kralı Abdulla bin Əbdüləziz Al Səudun və Vəliəhd Sultan bin Əbdüləziz Al Səudun salamlarını dövlətimizin başçısı İlham Əliyevə çatdırdı. O, Prezident İlham Əliyevin Səudiyyə Ərəbistanına səfərinin ölkələrimiz arasında əlaqələrin inkişafında xüsusi rolunu qeyd etdi.

Azərbaycanda idmanın sürətlə inkişaf etdiyini vurğulayan Şahzadə Əmir Nəvvaf bin Feysəl dövlətimizin başçısı İlham Əliyevin Olimpiya Komitəsinə rəhbərlik etməsinin böyük əhəmiyyəti olduğunu bildirdi. Ölkələrimiz arasında əlaqələrin inkişaf etdiyini vurğulayan qonaq əməkdaşlığın bundan sonra da genişlənəcəyinə əminliyini söylədi.

Səudiyyə Ərəbistanına səfərlərini məmnunluqla xatırladan Prezident İlham Əliyev ölkələrimiz arasında müxtəlif sahələrdə əlaqələrin inkişaf etdiyini bildirdi. Dövlətimizin başçısı Azərbaycan ilə Səudiyyə Ərəbistanının beynəlxalq təşkilatlarda yaxından əməkdaşlıq etdiyini nəzərə çarpdırdı. Prezident İlham Əliyev əmin olduğunu bildirdi ki, ölkələrimizin əlaqələri bundan sonra da genişlənəcəkdir.

Dövlətimizin başçısı Kralın və Vəliəhdin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını İki Müqəddəs Məscidin xadimi, Səudiyyə Ərəbistanının Kralı Abdulla bin Əbdüləziz Al Səuda və Vəliəhd Sultan bin Əbdüləziz Al Səuda çatdırmağı xahiş etdi.

XİN RƏSMİSİNİN İNTERFAKS AZƏRBAYCAN AGENTLİYİNİN SUALINA CAVABI

Sual: Xahiş edirəm, İran İslam Respublikasının nüvə proqramı ətrafında yaranmış vəziyyətin həlli perspektivlərinə ABŞ-ın təklifi fonunda Azərbaycanın münasibətini bildirəsiniz:

Cavab: Nəzərə alaraq ki, BMT-yə üzv olan hər bir dövlət Beynəlxalq Atom Enerjisi Agentliyi ilə əməkdaşlıq çərçivəsində nüvə proqramını sülh məqsədləri üçün inkişaf etdirmək suveren hüququna malikdir, biz, İranın nüvə proqramı ətrafında yaranmış vəziyyətlə əlaqədar davam edən müzakirələrdə məsələnin sülh yolu ilə həllinə Azərbaycanın sadiq qaldığını təsdiq edirik.

Biz məsələnin diplomatik yolla həllinə əlverişli imkan yarada biləcək ABŞ-ın bu yaxınlardakı təklifini alqışlayırıq.

Biz Cənubi Qafqaz və Xəzər regionunda sabitliyin və təhlükəsizliyin möhkəmləndirilməsinin vacibliyini vurğulayır, tərəfləri israrla qarşıdurma yaradan addımlardan çəkinməyə və qarşılıqlı konstruktiv əməkdaşlıq yolu ilə getməyə çağırırıq.

01 iyun, 2006-cı il

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV DÖVLƏTLƏRARASI AVİASİYA KOMİTƏSİNİN SƏDRİ TATYANA ANODİNANI QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 2-də Prezident sarayında Dövlətlərarası Aviasiya Komitəsinin sədri Tatyana Anodinanı qəbul etmişdir.

TATYANA ANODİNA dövlətimizin başçısına müraciət edərək dedi:

- Hörmətli cənab Prezident!

Mənə çox yüksək şərəf - xoş bir vəzifəni yerinə yetirmək və yüksək beynəlxalq mükafatı, aviasiyanın inkişafına xüsusi töhfəyə görə Qızıl medalı və Fəxri diplomu Sizə təqdim etmək nəsib olmuşdur. Xüsusi Beynəlxalq Şuranın qərarı ilə bu mükafatla görkəmli alimlər, ictimai xadimlər, dünya şöhrətli şəxslər təltif edilir. Siz mülki aviasiyanın dinamik, davamlı inkişafının təmin edilməsinə müstəsna şəxsi töhfənizə görə təltif olunmusunuz. Bu töhfəyə görə şəxsən Sizə, Azərbaycan hökumətinə ürəkdən minnətdaram və təşəkkür edirəm. Zənnimcə, hamıya, ilk növbədə, xalqa, hər bir dövlət xadiminə tamamilə məlum və aydındır ki, aviasiya iqtisadiyyatın inkişafının da, bütövlükdə, ölkənin və beynəlxalq əlaqələrin inkişafının da başlıca əsaslarından biri olmuşdur, əsasıdır və olacaqdır. Aviasiya həmişə sülh işinə və xalqların yaxınlaşmasına xidmət etmişdir.

Bu gün Heydər Əliyeviçi, aviasiyanı həmişə sevmiş, həmişə ona xüsusi hörmətlə, çox böyük tələbkarlıqla yanaşmış insanı xatırlamaq istərdik. Biz onun sözlərini yadda saxlayırıq. O, harada, hansı vəzifədə olmasından asılı olmayaraq deyirdi: "Aviasiya, hər şeydən əvvəl, təhlükəsizlik deməkdir". Siz Heydər Əliyeviçin - çox müdrik siyasətçinin, öz xalqına hədsiz dərəcədə sədaqətli olmuş, fəaliyyəti təkcə öz ölkəsinin iqtisadiyyatının inkişafına deyil, həm də beynəlxalq əməkdaşlığın çoxşaxəliliyinə yönəldilmiş insanın xəttini davam etdirirsiniz. O bildirdi ki, hər bir dövlət dünyanın digər ölkələri ilə sülh və həmrəylik şəraitində inkişaf etməlidir. Düşünürəm ki, bu mükafat Sizin xidmətlərinizi göstərən kiçik bir əlamətdir. Rəmzi haldır ki, biz bu mükafatı Sizə məhz aviasiya bayramı günündə təqdim edirik.

Bu gün biz aviatorlar üçün və bütün Azərbaycan xalqı üçün əziz olan və həmişə xatirəmizdə yaşayacaq insanın - Heydər Əliyeviçin məzarı önünə əklil qoyduq. Demək istərdim ki, aviatorlar öz bayramını böyük ruh yüksəkliyi ilə qeyd edirlər. Bu gün Sizin Sərəncamınız dərc olunmuşdur. Ona görə də icazə verin, aviatorların adından Sizə minnətdarlığımızı, təşəkkürümüzü bildirim, çox mürəkkəb, vacib siyasi, dövləti işinizdə uğurlar, bizim sevdiyimiz Azərbaycana və Azərbaycan xalqına isə tərəqqi arzulayım.

Prezident İLHAM ƏLİYEV yüksək mükafata görə minnətdarlıq edərək dedi:

- Əməyimə verilən belə qiymətə görə çox təşəkkür edirəm. Bu mükafatı qəbul etmək mənə çox xoşdur. Həqiqətən, Azərbaycanda aviasiyanın inkişafı üçün bütün istiqamətlərdə - maddi-texniki baza məsələsində də, yeni hava limanlarının tikintisində və yeni təyyarələr alınmasında da çox işlər görülmüşdür. Ümumən, ölkəmizdə nəqliyyat infrastrukturu çox dinamik inkişaf edir.

Ancaq aviatorların bayramı yox idi. Belə təşəbbüs irəli sürüldü. Biz Azərbaycan aviasiyasının əsası qoyulduğu tarixi günü müəyyən etdik - 2 iyun. Cari ildən başlayaraq, bu günü hər il qeyd edəcəyik. İndi aviatorların da öz peşə bayramı var. Dünən mən onlardan bəzilərini dövlət mükafatları ilə təltif etdim. Əlbəttə ki, iqtisadiyyatın gələcək inkişafı bu sektorun inkişafı ilə bilavasitə bağlıdır. İndi biz regionların inkişafı üçün çox fəal siyasət aparırıq. Regionlara normal gediş-gəliş, o cümlədən hava yolu olmadan bu siyasəti həyata keçirmək çətin olacaqdır. Ölkəmiz ərazicə böyük olmasa da, sovet dövründə çoxlu hava limanı vardı, lakin sonra onlar fəaliyyətini dayandırdı. Əslində, cəmi üç hava

limanı - Bakı, Gəncə və Naxçıvan aeroportları qaldı. Onların ikisi, hətta hər üçü yenidən tikildi - aerovağzal binaları da, uçuş-enmə zolaqları da. Biz infrastrukturun bərpasında daha uzağa getdik, onu modernləşdirdik. Hazırda tikilən hava limanları artıq dünya standartları səviyyəsində olacaqdır. Sizinlə əməkdaşlıq bizim üçün də çox vacibdir. Bilirəm ki, biz sizin təşkilatınızla çox səmərəli əməkdaşlıq edirik, siz bizə çox kömək edirsiniz. Buna görə sağ olun.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İRAN İSLAM RESPUBLİKASININ SƏNAYE VƏ MƏDƏN NAZİRİ DOKTOR ƏLİRZA TƏHMASEBİNİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 2-də Prezident sarayında İran İslam Respublikasının sənaye və mədən naziri doktor Əlirza Təhmasebinin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Dövlətimizin başçısı Azərbaycan ilə İran arasındakı əməkdaşlığın müxtəlif sahələrdə uğurla inkişaf etdiyini qeyd etdi. İran Prezidenti Mahmud Əhmədinejad ilə görüşlərini xatırlayan Prezident İlham Əliyev bu görüşlərin əlaqələrimizin genişlənməsində rolunu vurğuladı. Dövlətimizin başçısı İran nazirinin bu səfərinin də ölkələrimiz arasındakı iqtisadi əlaqələrin daha da inkişaf etdirilməsi üçün yaxşı imkanlar yaradacağına ümidvar olduğunu bildirdi.

Doktor Əlirza Təhmasebi İran Prezidenti Mahmud Əhmədinejadın salamlarını Azərbaycanın dövlət başçısına çatdırdı. Qonaq 28 May Respublika günü münasibətilə Azərbaycan Prezidentini və xalqını təbrik etdi. O, Azərbaycanın dövlət müstəqilliyi əldə etdikdən sonra iki ölkə arasındakı münasibətlərin daha da inkişaf etdiyini və İranın daim Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyünü dəstəklədiyini vurğuladı.

Prezident İlham Əliyev İran Prezidentinin salamlarına görə minnətdarlığını bildirdi və onun da salamlarını İranın dövlət başçısına çatdırmağı xahiş etdi.

AZƏRBAYCAN PARLAMENT NÜMAYƏNDƏ HEYƏTİNİN ESTONİYA, FİNLANDİYA VƏ LATVİYAYA SƏFƏRİ

Milli Məclisin sədri Oqtay Əsədovun başçılığı ilə parlament nümayəndə heyəti Avropa Şurası ölkələri parlament sədrlərinin Tallinn sammitində və Finlandiya parlamentinin Helsinkidə keçiriləcək 100 illik yubileyinə həsr olunmuş tədbirlərdə iştirak etmək üçün mayın 29-da Estoniyaya gəlmişdir.

Milli Məclisin mətbuat katibi Akif Nəsirovun verdiyi məlumatda deyilir ki, Tallinn hava limanında Azərbaycan parlament nümayəndə heyətini bu ölkənin rəsmi şəxsləri, Estoniyadakı Azərbaycan diasporunun üzvləri və milli geyimli uşaqlar mehribanlıqla qarşılamışlar.

Elə həmin gün Milli Məclisin sədri Oqtay Əsədov Estoniya Respublikası parlamentinin

sədri Tumas Vareklə görüşmüşdür. Görüşdə Azərbaycan-Estoniya ikitərəfli münasibətlərinin bütün istiqamətlərdə daha da inkişaf etdirilməsi xüsusilə diqqət mərkəzində olmuşdur. Qeyd edilmişdir ki, iki ölkə arasında əlaqələrin daha da genişlənməsi və dərinləşməsi üçün hər cür potensial imkan var və bu imkanlardan səmərəli istifadə olunması Azərbaycan-Estoniya münasibətlərinə böyük töhfə verə bilər. Söhbət zamanı parlamentlərarası əlaqələrin inkişafından, bu işdə hər iki ölkənin parlamentində yaradılmış dostluq qruplarının rolundan və fəaliyyətindən də bəhs olunmuşdur.

Görüşdə Estoniya-Azərbaycan parlament dostluq qrupunun rəhbəri Eldar Əfəndiyev iştirak etmişdir.

Görüşdən sonra Oqtay Əsədov Estoniya milli televiziyasına müsahibə vermiş, jurnalistin Azərbaycan-Estoniya münasibətləri, Azərbaycanın iqtisadi inkişafı, ölkəmizdə həyata keçirilən irimiqyaslı iqtisadi layihələr və Avropa Şurası ölkələri parlament sədrlərinin Tallinn sammiti ilə bağlı suallarını cavablandırmışdır.

Sonra Tallinn şəhər muzeyində Azərbaycanın 28 May - Respublika gününə həsr olunmuş təntənəli mərasim keçirilmişdir. Azərbaycan diasporunun təşkil etdiyi tədbirdə Oqtay Əsədovun başçılığı ilə parlament nümayəndə heyəti də iştirak etmişdir. Tədbir iştirakçıları Respublika gününə həsr olunmuş sərgiyə baxmışlar. Ölkəmizin milli mənəvi tarixini və islami dəyərlərini əks etdirən sərgi iştirakçılar tərəfindən böyük maraqla qarşılanmış və diqqətlə izlənmişdir.

Hər iki ölkənin milli geyimli uşaqları Azərbaycanın və Estoniyanın dövlət himnlərini ifa etmişlər. 28 May - Respublika gününə həsr olunmuş toplantıda Türkiyə Böyük Millət Məclisinin, Türkiyənin Estoniyadakı səfirliyinin, Estoniya ictimaiyyətinin nümayəndələri, bu ölkənin təhsil və mədəniyyət nazirləri də iştirak etmişlər.

Bayram münasibətilə Azərbaycan dövlətinin və xalqımızın ünvanına təbriklər və xoş arzular ifadə olunmuşdur.

Milli Məclisin sədri Oqtay Əsədov mərasimdə çıxış edərək, Şərqdə ilk demokratik dövlətini quran Azərbaycanın keçdiyi şərəfli tarixi yolu bir daha təhlil etmişdir. Azərbaycan parlamentinin rəhbəri ötən əsrin 90-cı illərinin əvvəlində yenidən müstəqilliyinə qovuşmuş ölkəmizin gündən-günə inkişaf edərək, dünya dövlətləri sırasında layiqli yer tutduğunu diqqətə çatdırmış, dövlət müstəqilliyimizin əbədi və dönməzliyinin təminatçısı olan ümummilli lider Heydər Əliyevin daxili və xarici siyasət kursunun bu gün Prezident İlham Əliyev tərəfindən çox uğurla davam etdirildiyini xüsusi vurğulamışdır. Azərbaycan-Estoniya əlaqələrinə toxunan Oqtay Əsədov, tədbirin təşkilatçılarına və iştirakçılarına təşəkkürünü bildirmişdir.

"Estoniya-Azərbaycan icması" kitabının təqdimat mərasimi 28 May - Respublika gününə hədiyyə olmuşdur. Bu kitabda Estoniyadakı Azərbaycan icmasının fəaliyyəti geniş əks olunmuşdur. Təqdimat mərasimində Azərbaycan parlament nümayəndə heyəti də iştirak etmişdir.

Mayın 29-da Türkiyə Böyük Millət Məclisi sədrinin müavini İsmayıl Alptekin və Türkiyə Respublikasının Estoniyadakı səfiri xanım Fatma Sule Soysalın adından Azərbaycan parlament nümayəndə heyətinin şərəfinə ziyafət verilmişdir.

Avropa Şurası ölkələrinin parlament sədrlərinin Tallinn sammiti mayın 30-da öz işinə

başlamışdır. Tədbirdə Milli Məclisin sədri Oqtay Əsədovun başçılıq etdiyi parlament nümayəndə heyəti də iştirak edir.

Milli Məclisin mətbuat katibi Akif Nəsirovun verdiyi məlumatda deyilir ki, tədbiri Estoniya parlamentinin sədri Tumas Varek açmışdır. Sonra Avropa Şurası Parlament Assambleyasının sədri Rene van der Linden çıxış edərək, bu tədbirin əhəmiyyətindən danışmışdır. Avropa Parlamentinin sədri Jozep Borrelin isə təmsil etdiyi qurumun müraciətini səsləndirmişdir.

Sonra "Parlament diplomatiyası vasitəsi ilə əlaqələrin yaradılması" məsələsi müzakirə olunmuş, mövzu ilə bağlı İsveç parlamentinin sədri Byorn von Syudov və Belçika Nümayəndələr Palatasının sədri Herman de Kroonun məruzələri dinlənilmiş, geniş fikir mübadiləsi aparılmışdır.

Həmin gün Milli Məclisin sədri Oqtay Əsədov Rumıniya Senatı sədrinin müavini Teador Meleşkanu ilə görüşmüşdür. Görüşdə Azərbaycan-Rumıniya əlaqələrinin daha da inkişaf etdirilməsi ilə bağlı məsələlər müzakirə olunmuşdur. Qeyd edilmişdir ki, iqtisadi əməkdaşlığın genişləndirilməsi üçün böyük potensial imkanlar vardır və hər iki ölkə bu imkanlardan səmərəli istifadə etməlidir. İndi Azərbaycan Cənubi Qafqazda iqtisadi cəhətdən lider ölkə olmaqla yanaşı, həm də bu regionun təhlükəsizliyinin qarantına çevrilmişdir. Rumıniya isə Azərbaycanda həyata keçirilən iri iqtisadi layihələrə xüsusi maraq göstərir.

Söhbət zamanı parlamentlərarası əlaqələrin daha da inkişaf etdirilməsi, Oqtay Əsədovun Rumıniyaya gözlənilən səfəri və digər vacib məsələlər barədə geniş fikir mübadiləsi aparılmışdır.

Konfransın birinci iş gününün sonunda Estoniya parlamentinin sədri Tumas Varekin adından tədbir iştirakçılarının şərəfinə ziyafət verilmişdir.

Avropa Şurası ölkələri parlament sədrlərinin Tallinn sammiti mayın 31-də öz işini davam etdirmişdir. Milli Məclisin mətbuat katibi Akif Nəsirovun verdiyi məlumata görə, iclasda "Ölkə daxilində və onun hüdudlarından kənarda plüralist demokratiyanın inkişafında parlamentlərin rolu" məsələsi müzakirə olunmuşdur. Yunanıstan Parlamenti Deputatlar Palatasının sədri xanım Anna Psaruda-Benaki və Gürcüstan parlamentinin sədri xanım Nino Burcanadzenin məruzələri dinlənildikdən sonra mövzu ətrafında geniş müzakirələr aparılmışdır.

Milli Məclisin sədri Oqtay Əsədov çıxışında Avropa Şurasının yaranması, onun əhəmiyyəti və müasir mərhələdə böyük mahiyyəti barədə fikirlərini açıqlamış, bu gün demokratiyanın, demokratik idarəçilik sisteminin alternativi olmadığını qeyd etmişdir.

Keçid dövrünü yaşayan ölkələrdə demokratiyanın bərqərar və inkişaf etdirilməsində parlamentlərin müstəsna rol oynadığını bildirən Oqtay Əsədov, Azərbaycanda demokratik hüquqi dövlət quruculuğu prinsiplərinə böyük önəm verildiyini diqqətə çatdırmışdır. O, ölkəmizin qonşu dövlətlərdə də demokratiyanın inkişafında maraqlı olduğunu bildirmişdir.

Milli Məclisin sədri qeyd etmişdir ki, əgər bir ölkənin parlamenti qonşu ölkəyə qarşı ərazi iddiaları barədə qərar qəbul edirsə, o, demokratiyanı deyil, zorakılığı, güc tətbiqini və özbaşınalığı təşviq etmiş olur.

Azərbaycan parlamentinin rəhbəri bir sıra digər vacib məsələlərə də toxunmuş, demişdir ki, tarix boyu Qərblə Şərq arasında körpü rolunu oynamış Azərbaycan bu gün Avropa dəyərlərinin, demokratik ideyaların və baxışların yayılmasında da aparıcı yer tutur.

Elə həmin gün Milli Məclisin sədri Oqtay Əsədov Albaniya parlamentinin sədri Jozefina Topalli ilə görüşmüşdür. Görüşdə ölkələrimiz arasında əlaqələrin inkişaf perspektivləri müzakirə olunmuş, iqtisadi əməkdaşlığın genişləndirilməsinin, bu sahəyə xüsusi diqqət yetirilməsinin vacibliyi qeyd edilmiş, bu məsələlərdə parlamentlərin rolu xüsusi vurğulanmışdır.

Milli Məclisin sədri Oqtay Əsədov Gürcüstan parlamentinin rəhbəri Nino Burcanadze ilə də görüşmüşdür. Bu görüşdə qarşılıqlı maraq doğuran bir sıra vacib məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır. Ölkələrimiz arasındakı münasibətlərin çox yaxşı səviyyədə olduğu bildirilmiş, Azərbaycan neftinin Bakı-Tbilisi-Ceyhan kəməri ilə Ceyhan limanına çatması tarixi hadisə kimi qiymətləndirilmişdir. Səmərəli əməkdaşlığın təkcə ölkələrimiz üçün deyil, bütün region üçün mühüm rol oynadığı xüsusi qeyd edilmişdir.

Oqtay Əsədovun Avropa Şurası Parlament Assambleyasının sədri Rene van der Lindenlə görüşündə ikitərəfli münasibətlərin daha da dərinləşdirilməsinin, əlaqələrin inkişaf etdirilməsinin vacibliyi vurğulanmışdır.

Milli Məclisin sədri Tallinn sammitində iştirak edən digər ölkələrin nümayəndə heyətlərinin rəhbərləri ilə də qısa görüşlər keçirmiş, səmərəli danışıqlar aparmışdır.

Sammit başa çatdıqdan sonra Estoniya Prezidenti Arnold Rüytelin adından iştirakçıların şərəfinə ziyafət verilmişdir. Estoniya dövlətinin başçısı bu cür beynəlxalq tədbirlərin ikitərəfli və çoxtərəfli əlaqələrin inkişafında rolunu yüksək qiymətləndirmişdir.

Milli Məclisin sədri Oqtay Əsədov Estoniya Prezidenti Arnold Rüytell ilə görüşərək Azərbaycan-Estoniya əlaqələrinin inkişaf etdirilməsi ilə bağlı bir sıra məsələləri müzakirə etmişdir. Ölkələrimiz arasında əlaqələrin genişləndirilməsi üçün böyük potensial imkanların olduğu bildirilmiş və bu imkanlardan istifadə edilməsinin zəruriliyi qeyd olunmuşdur.

Görüşdə Estoniyada Azərbaycan diasporunun fəaliyyəti, iqtisadi əməkdaşlığın perspektivləri, parlamentlərin qarşılıqlı münasibətləri və digər məsələlər diqqət mərkəzində olmuşdur.

Avropa Şurası ölkələri parlament sədrlərinin Tallinn sammiti başa çatdıqdan sonra Milli Məclisin sədri Oqtay Əsədovun başçılıq etdiyi nümayəndə heyəti Finlandiya parlamentinin 100 illik yubileyinə həsr edilmiş tədbirlərdə iştirak etmək üçün iyunun 1-də Helsinki şəhərinə gəlmişdir. Azərbaycan nümayəndə heyətini Helsinki hava limanında Finlandiya parlamentinin rəsmi şəxsləri qarşılamışlar.

Həmin gün Finlandiya parlamentinin 100 illik yubileyi münasibətilə keçirilən plenar iclasda Azərbaycan parlamentinin sədri Oqtay Əsədovun başçılıq etdiyi nümayəndə heyəti iştirak etmişdir.

İclas başa çatdıqdan sonra tədbirdə iştirak edən ölkələrin parlament rəhbərləri Prezident sarayında Finlandiya dövlətinin başçısı xanım Tarya Halonenlə görüşmüşlər.

Azərbaycan parlament nümayəndə heyəti Finlandiya parlamentinin 100 illik yubileyi ilə bağlı təşkil olunmuş qeyri-rəsmi tədbirlərdə də iştirak etmişdir.

Finlandiyaya səfər başa çatdıqdan sonra Azərbaycan parlament nümayəndə heyəti iyunun 2-də Latviyaya işgüzar səfərə gəlmişdir. Riqa hava limanında Milli Məclisin sədri Oqtay Əsədov Rusiyanın ORT-1 kanalının Baltika nümayəndəliyinin və Latviyanın nüfuzlu VİA SAT-3+ televiziyasının müxbirlərinə müsahibə vermişdir.

Milli Məclisin sədri jurnalistlərin Azərbaycan-Latviya münasibətlərinin inkişaf perspektivləri, iqtisadi, parlamentlərarası əlaqələrin genişləndirilməsi və digər məsələlərlə bağlı suallarını cavablandırmışdır.

Həmin gün Oqtay Əsədov Latviya parlamentinin sədri xanım İnqrida Udre ilə görüşmüşdür. Görüşdə ölkələrimiz arasındakı münasibətlər, ikitərəfli əlaqələrin inkişaf perspektivləri, iqtisadi, siyasi və mədəni sahələrdə əməkdaşlığın daha da genişləndirilməsi məsələləri müzakirə olunmuşdur. Qeyd edilmişdir ki, Azərbaycan-Latviya əlaqələrinin hərtərəfli inkişafı üçün geniş imkanlar vardır. Bu imkanlardan lazımınca istifadə olunmasında parlamentlərimiz də mühüm rol oynaya bilər.

Görüşdə Latviyanın beynəlxalq təşkilatlarda Azərbaycanın haqq işini dəstəkləməsi yüksək qiymətləndirilmiş, bu cür səfərlərin əhəmiyyəti xüsusi vurğulanmışdır.

Azərbaycan parlament nümayəndə heyətinin Latviya Respublikasına səfəri çərçivəsində yaddaqalan və böyük əhəmiyyət kəsb edən tədbirlərdən biri də Latviya Seymində parlament dostluq qrupunun üzvləri ilə keçirilən görüş oldu. Latviya tərəfdən dostluq qrupunun sədri Oleq Denisov onun ölkəsinin Azərbaycana böyük maraq göstərdiyini bildirdi. Latviya Prezidentinin Azərbaycana səfərini xatırladan Oleq Denisov, bu səfərin ikitərəfli əlaqələrin daha da inkişaf etdirilməsində yeni bir mərhələlər açdığını diqqətə çatdırdı. Azərbaycanda onlara göstərilən səmimi münasibətə və diqqətə görə Prezident İlham Əliyevə minnətdarlığını bildirdi.

Görüşdə latviyalı deputatlar ikitərəfli əlaqələrin daha da inkişaf etdirilməsinin zəruriliyini söylədilər. Onlar Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə münasibət bildirdilər. Deputat Arvinds Ulme ermənilərin Azərbaycan torpaqlarında törətdiyi vəhşilikləri insanlığa qarşı təcavüz adlandırdı, beynəlxalq qurumların bu məsələdə hələ də düzgün, ədalətli mövqe tutmadıqlarını təəssüflə bildirdi.

Milli Məclisin sədri Oqtay Əsədov Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı Azərbaycanın haqq işinə dəstək verdiklərinə görə Latviya dövlətinə və onun parlamentinə təşəkkürünü bildirdi. Oqtay Əsədov Azərbaycan-Latviya əlaqələrinin və parlamentlərarası münasibətlərin dostluq qrupları çərçivəsində, eləcə də hər iki ölkənin qanunvericilik orqanları arasında qarşılıqlı münasibətlərin daha da genişlənməsinin zəruriliyi barədə fikirlərini açıqladı.

Milli Məclis Aparatının rəhbəri Səfa Mirzəyev Azərbaycan və Latviya parlamentlərinin aparatları arasında da əməkdaşlığın qurulmasını vacib saydı.

Milli Məclisin üzvü Gültəkin Hacıyeva Azərbaycan səfirliyinin Baltikyanı ölkələr içərisində ilk dəfə Riqada açılmasını ölkələrimizin bir-birinə olan xüsusi marağının təzahürü olduğunu söylədi.

Görüşdə iqtisadi, siyasi, mədəni, aqrar, turizm və digər sahələrdə əlaqələrin inkişafı üçün potensial imkanların olduğu bildirildi və bu səfərin ikitərəfli əlaqələrə yeni impuls verəcəyinə inam ifadə olundu.

Nümayəndə heyətimizin Latviya parlamentində görüşləri başa çatdıqdan sonra Milli Məclisin sədri Oqtay Əsədov Latviyanın mərkəzi televiziyasına - LTV-1 telekanalına müsahibə verdi. Parlamentimizin sədri müxbirin Latviya-Azərbaycan əlaqələrinin inkişafı, Bakı-Tbilisi-Ceyhan neft kəmərinin fəaliyyəti, ikitərəfli iqtisadi münasibətlər və digər məsələlər barədə suallarını cavablandırdı.

Milli Məclisin sədri Oqtay Əsədovun başçılıq etdiyi parlament nümayəndə heyəti Latviyaya səfəri çərçivəsində bir sıra tədbirlərdə iştirak etdi. Azərbaycanın Latviya Respublikasındakı səfirliyi və Latviya Respublikasının Mədəniyyət Nazirliyi tərəfindən Yurmala şəhərində birgə təşkil edilmiş Latviyada yaşayan əlil uşaqlar üçün xeyriyyə konserti tədbir iştirakçılarının xatirəsində dərin izlər buraxdı. Azərbaycan Respublikası Uşaq Dövlət Filarmoniyası və Latviya Respublikasının Uşaq Musiqi Məktəbinin birgə nümayiş etdirdiyi konsert proqramı mədəni əlaqələrimizin inkişafına əsil töhfə oldu. Konsertə gələn azərbaycanlı və latviyalı qonaqlar bu cür tədbirlərin əhəmiyyətini çox yüksək qiymətləndirdilər.

Milli Məclisin sədri Oqtay Əsədov və nümayəndə heyətinin üzvləri Azərbaycan Respublikasının Latviyadakı səfirliyinə gələrək əməkdaşların iş şəraiti ilə tanış oldular. Milli Məclisin sədri Oqtay Əsədov səfirliyin kollektivinə uğurlar arzuladı, təklif və təvsiyələrini söylədi.

Səfirliyə Bakı mənzərəsini əks etdirən rəsm əsəri hədiyyə olundu.

Beləliklə, Milli Məclisin sədri Oqtay Əsədovun başçılıq etdiyi nümayəndə heyətinin Avropa ölkələri parlament sədrlərinin Tallinn görüşündə iştirak etmək üçün Estoniyaya, Finlandiya parlamentinin 100-cü ildönümünə həsr edilmiş tədbirlərdə iştirak etmək üçün Helsinki şəhərinə və Latviyaya işgüzar səfərləri iyunun 4-də başa çatdı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV RUMİNİYAYA GƏLMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Dialoq və Tərəfdaşlıq Naminə Qara dəniz forumunda iştirak etmək üçün iyunun 4-də Buxarestə gəlmişdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV RUMİNİYANIN SABİQ PREZİDENTİ, SENATOR İON İLİYESKU İLƏ GÖRÜŞMÜŞDÜR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 4-də Buxarestdə, onun üçün ayrılmış iqamətgahda Rumıniyanın keçmiş Prezidenti, senator İon İliyesku ilə görüşmüşdür.

Prezidentliyi dövründə Azərbaycana rəsmi səfərini, xalqımızın ümummilli lideri Heydər Əliyev ilə, habelə Prezident İlham Əliyevlə görüşlərini səmimiyyətlə yada salan İon İliyesku dövlətimizin başçısının Buxarestə indiki səfərinin ölkələrimiz arasında əlaqələrin inkişafına xidmət etdiyini, qarşılıqlı əməkdaşlığın yaxşı səviyyədə olduğunu vurğuladı.

Cənab İliyiesku ilə görüşünü məmnunuluqla xatırladan Prezident İlham Əliyev Azərbaycan-Rumıniya əlaqələrinin müxtəlif sahələrdə uğurla inkişaf etdiyini söylədi və əməkdaşlığın bundan sonra da genişlənəcəyinə əminliyini bildirdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ RUMİNİYA PREZİDENTİ TRAYAN BESESKUNUN GÖRÜŞÜ

İyunun 4-də Buxarestdə, Rumıniya dövlət başçısının sarayında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Rumıniya Respublikasının Prezidenti Trayan Beseskunun görüşü olmuşdur.

Rumıniya rəhbəri Azərbaycan Prezidentini sarayın önündə hörmətlə qarşıladı.

Dövlət başçılarının görüşündə müxtəlif sahələrdə ikitərəfli əlaqələrin uğurla inkişaf etdiyi bildirildi. Trayan Besesku Prezident İlham Əliyevin Dialoq və Tərəfdaşlıq Naminə Qara dəniz Forumunda iştirak etmək üçün Buxarestə gəlməsini yüksək qiymətləndirdi.

Söhbət zamanı Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli məsələsinə də toxunuldu. Prezident İlham Əliyev bildirdi ki, bu məsələdə Azərbaycanın mövqeyi dəyişməzdir və biz münaqişənin yalnız və yalnız ölkəmizin ərazi bütövlüyü çərçivəsində həllinə tərəfdarıq.

Görüşdə qarşılıqlı maraq doğuran bir sıra məsələlər də müzakirə olundu.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN AVROPA ŞURASININ BAŞ KATİBİ TERRİ DEVİS İLƏ GÖRÜŞÜ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 4-də Buxarestdə, onun üçün ayrılmış iqamətgahda Avropa Şurasının baş katibi Terri Devis ilə görüşmüşdür.

Görüşdə Azərbaycan ilə Avropa Şurası arasında əməkdaşlığın müxtəlif sahələrinə dair fikir mübadiləsi aparıldı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ ERMƏNİSTAN PREZİDENTİ ROBERT KOÇARYANIN GÖRÜŞÜ

İyunun 4-də Buxarestdə, Polşanın Rumıniyadakı səfirliyinin binasında Azərbaycan Prezidenti İlham Əliyevin və Ermənistan Prezidenti Robert Koçaryanın görüşü keçirilmişdir.

Görüş iyunun 5-də davam etdirilmişdir.

BUXARESTDƏ "DİALOQ VƏ TƏRƏFDAŞLIQ NAMİNƏ" QARA DƏNİZ FORUMU İŞƏ BAŞLAMIŞDIR

İyunun 5-də Buxarestdə, Rumıniya parlamentinin binasında "Dialoq və əməkdaşlıq naminə" Qara dəniz forumu işə başlamışdır.

Azərbaycan Prezidenti İlham Əliyev forumda iştirak etmişdir.

Rumıniyanın təşəbbüsü ilə təşkil olunmuş forumun səhər keçirilən açılış mərasimində Rumıniyanın xarici işlər naziri Mixay Rezvan Unquryanu çıxış edərək, gündəlik barədə məlumat verdi.

Sonra forumda "Avropa və qlobal kontekstdə geniş Qara dəniz regionu" mövzusunda müzakirələr aparıldı. Çıxışların əksəriyyətində keçmiş sovet respublikalarında mövcud münaqişələrin həllinin zəruriliyi xüsusi vurğulandı, bunun qloballaşan dünya, eləcə də Avropa üçün, regional inkişaf üçün maneə törətdiyi bildirildi. Eyni zamanda, iqtisadi, siyasi, mədəni əməkdaşlığın daha da genişləndirilməsi istiqamətində səylərin birləşdirilməsinin Qara dəniz region ölkələri üçün də əhəmiyyətli olduğu vurğulandı.

Fasilədən sonra forum öz işini Azərbaycan, Rumıniya, Gürcüstan, Ukrayna, Moldova və Ermənistanın dövlət başçılarının, eləcə də Türkiyəni, Bolqarıstanı və 10-dan çox digər ölkəni təmsil edən nümayəndələrin iştirakı ilə davam etdirdi.

"Qara dəniz forumu: yeni fikirlər, öhdəliklər və vasitələr" mövzusunda davam edən iclasda Rumıniya Prezidenti Trayan Besesku çıxış edərək, ali qonaqları və digər iştirakçıları salamladı, Qara dəniz regionuna beynəlxalq ictimaiyyətin diqqətinin artırılması baxımından bu forumun çox faydalı olacağını söylədi. O bildirdi ki, bu tədbir regional əməkdaşlığı, həmrəyliyi, şəffaflığı və demokratiyanı təlqin etmək üçün açıq dialoq platformasını təklif edir. Forumun məqsədi Qara dəniz regionunda sülhün və təhlükəsizliyin təmin olunmasına töhfə verməkdir. Bu məqsədlə foruma altı ölkənin dövlət başçısı, eləcə də Avropa Birliyinin, Avropa Şurasının, NATO-nun və digər beynəlxalq təşkilatların rəhbərləri və 10-dan çox ölkənin nümayəndələri dəvət olunmuşlar. Bu tədbirə 400-dən çox qeyri-hökumət təşkilatı da böyük maraq göstərir və 350-dən çox yerli və xarici kütləvi informasiya vasitələrinin təmsilçiləri onun işini işıqlandırır.

Azərbaycan Prezidenti İlham Əliyev forumda nitq söylədi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ

- Hörmətli Rumıniya Prezidenti cənab Besesku!

Hörmətli xanımlar və cənablar!

İlk növbədə, forumun əla təşkilinə və göstərilən səmimi qonaqpərvərliyə görə rumıniyalı dostlarıma öz təşəkkürümü çatdırmaq istərdim. Yenidən sizin gözəl ölkənizdə olmaqdan çox məmnunam. Dünən Prezident Besesku ilə regional əməkdaşlıqla və ikitərəfli əlaqələrimizlə bağlı məsələləri müzakirə etdik. Bu forum gələcək genişmiqyaslı regional əməkdaşlıq imkanlarını qiymətləndirmək üçün çox gözəl fürsət yaradır. Forum Qara dəniz forumu adlanır, lakin aydındır ki, aramızdakı irimiqyaslı əməkdaşlıq o zaman mümkündür ki, Qara dəniz ilə Xəzər dənizini bağlayan regional layihələri birgə həyata keçirək. İndi, regionumuzdakı yeni reallıqlar və irimiqyaslı regional layihələrin nəticələr verməsi fonunda bu məsələ daha böyük əhəmiyyət kəsb etməyə başlayır.

Azərbaycan öz tərəfdaşları ilə əməkdaşlığa böyük əhəmiyyət verir. Biz irimiqyaslı enerji və nəqliyyat layihələrini həyata keçiririk və bu layihələr artıq regional inkişaf meyillərinə öz təsirini göstərir. Azərbaycan öz enerji strategiyasını uğurla yerinə yetirir. Artıq dünən Xəzər dənizi ilə Aralıq dənizini birləşdirən boru kəməri fəaliyyətə başla-

mışdır və ilk Azərbaycan nefti Ceyhan limanından gəmi ilə yola salınmışdır. Bu, nadir bir infrastrukturdur. Dünyada ilk dəfə olaraq, Xəzər dənizi ilə Aralıq dənizi regionları çox güclü infrastruktur vasitəsilə birləşdirilmişdir. Azərbaycanın nəhəng neft və qaz ehtiyatlarının olmasını nəzərə alsaq, bu hadisə ölkəmizin uğurlu inkişafına imkan yaradacaq, dostlarımız və tərəfdaşlarımıza ümumi fayda gətirəcəkdir.

Ölkəmiz özünün qaz layihəsi üzərində də fəal surətdə çalışır və Azərbaycan qazını Qara dəniz və Aralıq dənizi regionuna nəql edəcək qaz boru kəməri bu ilin sonuna kimi fəaliyyətə başlayacaqdır. Bu gün Xəzər dənizi boru kəmərləri vasitəsilə Qara dəniz və dünya bazarına çıxış hesab olunan Aralıq dənizi ilə birləşir. Bu, yeni imkanlar yaradır. Azərbaycan qonşu dövlətlərə çox etibarlı enerji daşıyıcıları ixracçısına çevrilir və bundan maksimum şəkildə faydalanmaq, eyni zamanda, regionda daha yaxşı şərait yaratmaq üçün əlimizdən gələni edəcəyik. Əminəm ki, bu da öz növbəsində regional əməkdaşlıq, təhlükəsizlik və sülh məsələlərinə töhfəsini verəcəkdir.

Ölkəmiz Avropa ilə Asiyanın qovuşuğunda yerləşir və müəyyən mənada təbii körpü rolunu oynayır. Lakin bu körpünü möhkəmləndirmək üçün biz regionun bütün ölkələri ilə sıx əlaqə şəraitində çalışmalıyıq. Avropaya Azərbaycandan, habelə Azərbaycan vasitəsilə Mərkəzi Asiyadan istiqamətlənən nəqliyyat layihələri daha mühüm xarakter daşımağa başlayır. Tarixi İpək yolunun bərpası, TRASEKA proqramı, Mərkəzi Asiyanı Avropa ilə birləşdirə biləcək və inşasını planlaşdırdığımız Qars-Tbilisi-Bakı dəmir yolu xətti layihələri yalnız niyyət, ideyalar deyildir. Onların böyük əksəriyyəti artıq uğurla başa çatdırılmışdır. Bu layihələrin həyata keçirilməsi üçün milyardlarla dollar investisiya, region ölkələrinin, ABŞ-ın güclü siyasi dəstəyi tələb olunmuşdur. İndi Bakı-Tbilisi-Ceyhan boru kəməri artıq arzu deyil, reallıqdır. Bu isə o deməkdir ki, biz dünya miqyaslı layihələri uğurla həyata keçirə bilərik və hər kəs, bütün dostlarımız bundan faydalanacaqdır.

Hazırda Azərbaycanda iqtisadiyyat çox sürətlə inkişaf edir. Keçən il ölkəmizdə ümumi daxili məhsulun artımı 26 faiz olmuşdur, bu ilin ilk dörd ayı ərzində isə bu rəqəm 39 faiz təşkil etmişdir. Sənaye məhsulunun artımı ötən dörd ay ərzində demək olar ki, 50 faiz olmuşdur. Ötən iki il yarım ərzində Azərbaycanda təxminən 400 min yeni iş yeri açılmışdır. Xalqımız bütün bu müsbət proseslərdən faydalanır və biz bu nailiyyətlərimizi dostlarımız və tərəfdaşlarımız ilə də bölüşə bilərik.

Eyni zamanda, mən qəti inanıram ki, uzunmüddətli iqtisadi inkişafa yalnız o zaman nail olmaq olar ki, ölkədə siyasi təsisatlar güclü olsun, demokratik proseslər inkişaf etsin. Yoxsul ölkədə həqiqi demokratik cəmiyyət qurmaq olmaz. Eyni zamanda, güclü ictimai nəzarət, demokratik təsisatlar olmadan da, sadəcə, böyük enerji ehtiyatları, nəqliyyat dəhlizləri, iqtisadi potensial ilə tam uğur qazanmaq mümkün deyildir. Azərbaycanda siyasi və iqtisadi islahatlar paralel şəkildə həyata keçirilir və bu, özünün uğurlu olmasını göstərir.

Bunlarla yanaşı, region üçün təhlükələr və risklər də mövcuddur. Əlbəttə ki, Azərbaycan, Gürcüstan və Moldovada mövcud olan dondurulmuş münaqişələr regional inkişaf qarşısında duran ən böyük təhlükə və maneələrdir. Hesab edirəm ki, Abxaziya, Cənubi Osetiya, Dnestryanı və Dağlıq Qarabağ münaqişələrinin aradan qaldırılması üçün vahid həll yolu tapılmalıdır. Belə ki, bütün bu münaqişələrin mənşəyi eynidir, onlar separa-

tizm nəticəsində başlanmışdır. Bu münaqişələrin nəticələri də eynidir. Belə ki, münaqişələr nəticəsində Gürcüstan, Moldova və Azərbaycanın ərazi bütövlüyü pozulmuşdur. Bu münaqişələr beynəlxalq hüququn norma və prinsipləri əsasında həll olunmalıdır. Münaqişələr kiminsə ideyaları, arzuları, gözləntiləri və ya planları əsasında həll edilə bilməz. Beynəlxalq normalar mövcuddur və Azərbaycan münaqişələrin bu normalar çərçivəsində həllinə tam sadiqdir.

Azərbaycanın ərazi bütövlüyü bütün beynəlxalq birlik, BMT tərəfindən tanınmışdır. Bizim mövqeyimiz ondan ibarətdir ki, Dağlıq Qarabağ münaqişəsi yalnız və yalnız ölkəmizin ərazi bütövlüyü çərçivəsində həll edilə bilər. Münaqişə nəticəsində on ildən artıqdır ki, Azərbaycan ərazisinin 20 faizi - Dağlıq Qarabağ və onun inzibati sərhədlərindən kənarda yerləşən daha 7 rayon işğal olunmuşdur. Qaçqın və məcburi köçkün vəziyyətinə düşmüş bir milyon azərbaycanlı münaqişənin nəticələrindən əziyyət çəkir. Biz beynəlxalq birliyin münaqişənin həlli ilə bağlı mövqeyini açıq şəkildə bəyan etməsindən məmnunuq.

BMT Təhlükəsizlik Şurasının erməni qoşunlarının Azərbaycan ərazisindən qeyd-şərtsiz çıxarılmasını tələb edən 4 qətnaməsi mövcuddur. Keçən ilin əvvəlində Avropa Şurası tərəfindən münaqişə ilə bağlı qətnamə qəbul edilmişdir və bu qətnamədə açıq şəkildə bildirilir ki, Avropa Şurasının üzvü olan bir dövlət, Ermənistan, digər üzv dövlətin, Azərbaycanın ərazisini işğal etmiş və bu, böyük humanitar fəlakətə səbəb olmuşdur. Biz digər beynəlxalq təşkilatların da mövqeyindən məmnunuq. Bu yaxınlarda GUAM-ın sammiti zamanı həll edilməmiş münaqişələrlə bağlı xüsusi bəyannamə qəbul olunmuşdur və biz bu məsələdə dostlarımızla əlaqə şəraitində çalışmaqdan məmnunuq.

Öz müqəddəratını təyin etmək prinsipi də mövcuddur. Lakin erməni xalqı Ermənistan dövləti çərçivəsində artıq bir dəfə öz müqəddəratını təyin etmişdir. Hesab edirik ki, ermənilərin öz müqəddəratını yenidən Azərbaycan ərazisində təyin etməsi yolverilməzdir. Dünyada çoxlu erməni icmaları var və təsəvvür etmək mümkündür ki, onlar yaşadıqları hər bir dövlətdə öz müqəddəratlarını təyin etsələr, nə baş verə bilər. Bir daha qeyd edirəm ki, biz bu münaqişəni dinc yolla həll etmək istəyirik, ölkəmiz sülh prosesinə sadiqdir. Lakin Azərbaycanın ərazi bütövlüyü müzakirə mövzusu ola bilməz. Bu münaqişənin və regionda olan digər oxşar münaqişələrin dinc yolla həllinə nail olsaq, əminəm ki, region daha təhlükəsiz olacaq, buradakı inteqrasiya prosesləri daha sürətlə gedəcək, daha geniş beynəlxalq əməkdaşlıq həyata keçirə biləcəyik. Azərbaycanın, birlikdə dünya miqyaslı nəqliyyat və enerji layihələrini həyata keçirdiyimiz tərəfdaşlarımızın təcrübəsi göstərir ki, bunu etmək mümkündür və bu, yalnız sülh, sabitlik, gələcək ilə bağlı müəyyənlik və təhlükəsizlik gətirir. Ən əsası da odur ki, insanlar bundan faydalanırlar. İnsanlar "nə müharibə, nə sülh" şəraitində yaşaya bilməzlər. Avropa ərazisində tanınmamış, qeyri-qanuni qurumların mövcudluğuna dözümümüz sonsuz ola bilməz. Buna görə də münaqişələrin dinc yolla həll edilməsi işində bizə kömək etmək üçün beynəlxalq birlik tərəfindən bu məsələ ilə bağlı çox sərt mesaj verilməli, çox güclü əməli tədbirlər həyata keçirilməlidir. Bütün bu məsələlər bir-birilə bağlıdır.

Regionun siyasi inkişafı, demokratik dəyişikliklər, Avropaya inteqrasiya, sülh, təhlükəsizlik, enerji təhlükəsizliyi, nəqliyyat dəhlizləri məsələlərini bir-birindən ayıra, onların birində uğur qazanıb digərində uğursuzluğa düçar ola bilmərik. Bu məsələlərlə eyni vaxtda məşğul olmalıyıq və Azərbaycan bunu etməyə hazırdır. Bir daha qeyd edirəm ki,

biz regional əməkdaşlığın səviyyəsindən olduqca məmnunuq. Ölkəmiz bu regional əməkdaşlığa çox mühüm töhfə verir və bundan çox fayda götürürük. Hesab edirəm ki, bu forum perspektivləri qiymətləndirmək, nailiyyətləri təhlil etmək və gələcək əməkdaşlıq istiqamətlərimizi müəyyənləşdirmək üçün çox gözəl imkandır.

Çox sağ olun.

Forumda Ermənistan, Gürcüstan, Moldova və Ukrayna prezidentləri, habelə Bolqarıstan Baş nazirinin müavini, xarici işlər naziri İvaylo Kalfin, Türkiyənin dövlət naziri Bəşir Atalay və digər nümayəndələr çıxış etdilər. Forumu yüksək qiymətləndirən natiqlər regionun inkişafı üçün bir çox prinsipial məsələlərin həllinin zəruriliyini vurğuladılar.

Yekun olaraq "Dialoq və tərəfdaşlıq naminə" Qara dəniz forumunun Birgə Bəyannaməsi qəbul edildi. Dövlət başçıları və digər iştirakçılar birgə xatirə şəkli çəkdirdilər.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BELÇİKANIN XARİCİ İŞLƏR NAZİRİ, ATƏT-İN HAZIRKI SƏDRİ KAREL DE QUXT İLƏ GÖRÜŞMÜŞDÜR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 5-də Buxarestdə, onun üçün ayrılmış iqamətgahda Belçikanın xarici işlər naziri, ATƏT-in hazırkı sədri Karel de Quxt ilə görüşmüşdür.

Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı aparılan danışıqların hazırkı vəziyyəti və qarşılıqlı maraq doğuran digər məsələlər müzakirə olundu.

Karel de Quxt dövlətimizin başçısını Azərbaycan neftinin Türkiyənin Ceyhan limanına çatması münasibətilə təbrik etdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ABŞ PREZİDENTİNİN MİLLİ TƏHLÜKƏSİZLİK ÜZRƏ KÖMƏKÇİSİNİN MÜAVİNİ CEYMS KROUÇU QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 5-də Buxarestdə, onun üçün ayrılmış iqamətgahda Amerika Birləşmiş Ştatları Prezidentinin milli təhlükəsizlik üzrə köməkçisinin müavini Ceyms Krouçu qəbul etmişdir.

Görüşdə Azərbaycan-ABŞ münasibətlərinin yüksək səviyyəsi, ölkələrimiz arasında əlaqələrin müxtəlif sahələrdə uğurla inkişafı vurğulandı, regional, ikitərəfli əməkdaşlıq məsələlərindən söhbət getdi. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı aparılan danışıqların hazırkı vəziyyətinə də toxunuldu.

Cənab Ceyms Krouç Prezident İlham Əliyevi Azərbaycan neftinin Ceyhan terminalına çatması münasibətilə təbrik etdi.

Görüşdə qarşılıqlı maraq doğuran bir sıra digər məsələlər barədə də fikir mübadiləsi aparıldı.

SƏFƏR BAŞA ÇATDI

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 5-də Rumıniyaya səfərini başa çatdıraraq Vətənə yola düşmüşdür.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ABŞ-IN NBC TELEVİZİYASININ MÜXBİRİ PRESTON MENDENHOLLA MÜSAHİBƏ VERMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 6-da Prezident sarayında ABŞ-ın NBC televiziyasının müxbiri Preston Mendenholla müsahibə vermişdir.

Dövlətimizin başçısı İlham Əliyev ümummilli liderimiz Heydər Əliyevin Azərbaycanın müasir inkişafında xüsusi rolu, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi, ölkəmizdə enerji sahəsində əldə edilmiş nailiyyətlər və digər məsələlər barədə suallara ətraflı cavab vermişdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İSRAİLİN MİLLİ İNFRASTRUKTUR NAZİRİ BENYAMİN BEN-ELİEZERİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 6-da Prezident sarayında İsrailin milli infrastruktur naziri Benyamin Ben-Eliezerin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Cənab Benyamin Ben-Eliezer İsrail Prezidenti Moşe Katsavın və Baş nazir Ehud Olmertin salamlarını Prezident İlham Əliyevə çatdırdı. O, İsrail Prezidenti və Baş nazirinin Azərbaycan xalqına xoş arzularını da yetirdi.

Bakıda keçirilən XIII beynəlxalq Xəzər neft-qaz sərgi və konfransında iştirak etməsindən məmnun olduğunu bildirən qonaq Azərbaycandakı sürətli iqtisadi inkişafın İsraildə böyük maraqla izlənildiyini və bu sahədə ölkəmizdə çox böyük uğurlar əldə edildiyini vurğuladı. O, əmin olduğunu bildirdi ki, Azərbaycan ilə İsrail arasında müxtəlif sahələrdə əlaqələr bundan sonra da davam etdiriləcəkdir.

Prezident İlham Əliyev Azərbaycanda müxtəlif sahələrdə, o cümlədən energetika sahəsində böyük inkişafa nail olunduğunu bildirdi. Bakıda keçirilən XIII beynəlxalq Xəzər neft-qaz sərgi və konfransının əhəmiyyətini qeyd edən dövlətimizin başçısı müxtəlif ölkələrin, o cümlədən İsrailin nümayəndələrinin bu sərgi və konfransda iştirakından məmnunluğunu vurğuladı.

Salamlara görə minnətdarlığını bildirən Prezident İlham Əliyev onun da salamlarını İsrail Prezidenti Moşe Katsava və Baş nazir Ehud Olmertə çatdırmağı xahiş etdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ABŞ-IN DÖVLƏT KATİBİNİN AVROPA VƏ AVRASİYA MƏSƏLƏLƏRİ ÜZRƏ MÜŞAVİRİ MƏTYU BRAYZƏNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 6-da Prezident sarayında ABŞ-ın Dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə müşaviri Mətyu Brayzənin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Görüş zamanı Azərbaycan-ABŞ ikitərəfli münasibətlərinin müxtəlif sahələri, regional əməkdaşlıq və qarşılıqlı maraq doğuran bir sıra digər məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BNP PARİBAS BANKININ PREZİDENTİ MİŞEL PEBERONUN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 6-da Prezident sarayında BNP Paribas bankının prezidenti Mişel Peberonun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Görüşdə Azərbaycanın energetika sektorunda Paribasın iştirak etməsindən, ölkəmizdə energetika sahəsində əldə olunan böyük nailiyyətlərdən bəhs olundu, Azərbaycanın təşəbbüsü və iştirakı ilə qlobal enerji layihələrinin həyata keçirildiyi vurğulandı. Ölkəmizin müvafiq strukturlarının Paribas bankı ilə əməkdaşlığının bundan sonra da davam etdiriləcəyinə əminlik ifadə olundu.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İNGİLTƏRƏ-AZƏRBAYCAN CƏMİYYƏTİNİN PREZİDENTİ LORD FREYZERİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 7-də Prezident sarayında İngiltərə-Azərbaycan Cəmiyyətinin prezidenti lord Freyzerin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Görüşdə Azərbaycan-Böyük Britaniya münasibətlərinin müxtəlif sahələrdə uğurla inkişaf etdiyi, iki ölkənin ayrı-ayrı strukturları arasındakı əməkdaşlığın ikitərəfli əlaqələrin genişləndirilməsi üçün əhəmiyyəti vurğulandı, İngiltərə-Azərbaycan Cəmiyyətinin ölkələrimizin münasibətlərinin inkişafına töhfə verdiyi bildirildi. Söhbət zamanı qarşılıqlı maraq doğuran bir sıra məsələlər də müzakirə edildi.

LİTVA RESPUBLİKASININ PREZİDENTİ VALDAS ADAMKUSUN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ

Litva Respublikasının Prezidenti Valdas Adamkus Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin dəvəti ilə iyunun 8-də Bakıya ikigünlük rəsmi səfərə gəlmişdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ LİTVA PREZİDENTİ VALDAS ADAMKUSUN TƏKBƏTƏK GÖRÜŞÜ

İyunun 8-də rəsmi qarşılanma mərasimindən sonra Prezident sarayında Azərbaycan Prezidenti İlham Əliyevin və Litva Prezidenti Valdas Adamkusun təkbətək görüşü olmuşdur.

Prezident İlham Əliyev və Prezident Valdas Adamkus ölkələrimiz arasında münasibətlərin yüksək səviyyədə olduğunu vurğuladılar. Hər iki ölkənin beynəlxalq sahədə əməkdaşlığından da məmnunluqlarını söyləyən dövlət başçıları qarşılıqlı əlaqələrin genişləndirilməsi üçün böyük potensial imkanların olduğunu bildirdilər.

Söhbət zamanı prezidentlər Azərbaycanın və Litvanın Avratlantik strukturlarına inteqrasiyasının da genişləndiyini və bu baxımdan səmərəli əməkdaşlıq aparıldığını qeyd etdilər.

Görüşdə qarşılıqlı maraq doğuran məsələlər barədə ətraflı fikir mübadiləsi aparıldı.

AZƏRBAYCAN VƏ LİTVA PREZİDENTLƏRİNİN GENİŞ TƏRKİBDƏ GÖRÜŞÜ

İyunun 8-də Prezident sarayında təkbətək görüşdən sonra Azərbaycan Prezidenti İlham Əliyevin və Litva Prezidenti Valdas Adamkusun nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü keçirilmişdir.

Azərbaycan Prezidenti İlham Əliyev Litva Prezidenti Valdas Adamkusu bir daha salamlayaraq xatırlatdı ki, biz bundan əvvəl bir çox beynəlxalq tədbirlər çərçivəsində də görüşmüşük. Mən çox şadam ki, Litva Prezidenti kimi Siz Azərbaycana ilk rəsmi səfərinizi edirsiniz. Bu rəsmi səfər iki ölkə arasındakı münasibətlərin daha da inkişaf etdirilməsi, daha da şaxələndirilməsi üçün yeni imkanlar açır.

Dövlətimizin başçısı Litvanın Avropa İttifaqının üzvü olduğunu xatırladaraq dedi ki, Azərbaycan da Avropa təsisatlarına sürətlə inteqrasiya edir. Bu baxımdan, biz Litvanın təcrübəsindən, dəstəyindən yararlana bilərik.

Ölkələrimiz arasındakı iqtisadi-ticarət əlaqələrinə toxunan Prezident İlham Əliyev bildirdi ki, bu əlaqələr inkişaf etməlidir. Siz Azərbaycana böyük nümayəndə heyəti ilə gəlmisiniz. Nümayəndə heyətinizdə üç nazirdən əlavə, Litvanın iş adamları da var və onlar burada iştirak edirlər. İyunun 9-da biznes forum keçiriləcəkdir. Bütün bunlar ölkələrimiz arasında dostluq və əməkdaşlıq münasibətlərinin yeni inkişaf mərhələsindən xəbər verir. Biz eyni zamanda çoxtərəfli münasibətlər, beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq etməyi və çox mühüm regional layihələrdə Litva ilə birgə işləməyi arzulayırıq.

Azərbaycana ilk dəfə rəsmi səfərindən məmnun qaldığını bildirən Litva Prezidenti Valdas Adamkus bu səfərini tarixi hadisə kimi qiymətləndirdi. Litva rəhbəri vurğuladı ki, ölkələrimiz indiyədək bir çox nailiyyətlər əldə edibdir və biz bundan qürur duyuruq. Bu baxımdan güclü dövlətlərə çevrilən Litvanın və Azərbaycanın beynəlxalq məsələlərdə və dünya birliyində oynadığı rol get-gedə artır.

Litva Prezidenti dedi ki, biz hesab edirik, Azərbaycanın Avropa İttifaqına qoşulması baş tuta bilər. Bunun üçün həmin təşkilata namizəd ölkələr kimi Azərbaycanın da vaxt cədvəli olmalıdır. Təbii ki, burada müəyyən tələblər qoyulur və onların yerinə yetirilməsində bəzi hallarda maneələr olur, lakin biz bu inteqrasiya məsələlərinin həllində Azərbaycana kömək göstərməyə hazırıq. Əgər bu sahədə birgə işləsək, Avropa İttifaqına aparan yolda bizim buraxdığımız səhvləri siz təkrar etməzsiniz.

Azərbaycana çoxlu iş adamları ilə gəldiyini xatırladan Prezident Valdas Adamkus bildirdi ki, keçiriləcək biznes forum zamanı onlar azərbaycanlı həmkarları ilə əməkdaşlıq imkanlarını araşdıracaqlar. Litva rəhbəri ölkəmizlə enerji daşıyıcıları sahəsində də əməkdaşlıq etmək arzusunda olduqlarını söylədi.

Cənab Adamkus Prezident İlham Əliyevə müraciətlə dedi ki, ölkəniz iqtisadi cəhətdən gücləndikcə, siyasi cəhətdən də get-gedə güclənir. Bu da təbiidir. Biz Azərbaycan Prezidentini əmin edirik ki, Litva indiyədək olduğu kimi, bundan sonra da beynəlxalq məsələlərdə, ikitərəfli münasibətlərdə Azərbaycanın etibarlı və güclü müttəfiqi olacaqdır.

Görüşdə hökumətlərarası birgə iqtisadi komissiyanın yaradılması və onun yaxın vaxtlarda işə başlaması barədə razılıq əldə edildi.

SƏNƏDLƏRİN İMZALANMA MƏRASİMİ

İyunun 8-də Prezident sarayında, geniş heyətdə görüş başa çatdıqdan sonra Azərbaycan və Litva arasında sənədlərin imzalanma mərasimi olmuşdur.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Litva Respublikasının Prezidenti Valdas Adamkus Birgə bəyannamə imzaladılar.

Litva Respublikası hökuməti və Azərbaycan Respublikası hökuməti arasında sərmayələrin təşviqi və qorunması haqqında sazişi Litva tərəfindən xarici işlər nazirinin müavini Albinas Yanuşka, Azərbaycan tərəfindən iqtisadi inkişaf naziri Heydər Babayev imzaladılar.

AZƏRBAYCAN VƏ LİTVA PREZİDENTLƏRİ BİRGƏ BƏYANNAMƏ İMZALAMIŞLAR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Litva Respublikasının Prezidenti Valdas Adamkus iyunun 8-də Bakıda Birgə Bəyannamə imzalamışlar.

Bəyannamədə deyilir ki, dövlət başçıları Azərbaycan Respublikası və Litva Respublikası arasında siyasi, iqtisadi və sosial əlaqələrin genişləndirilməsi məqsədi ilə, Azərbaycanın Avropa İttifaqı və NATO ilə gələcək əməkdaşlığının daha da inkişafı niyyəti ilə və Litva Respublikasının Prezidenti cənab Valdas Adamkusun Azərbaycana səfərinin iki ölkə arasında gələcək dostluq və tərəfdaşlığa təkan verəcəyinə əminliklərini bildirərək bəyan edirlər ki, Litva Respublikasının Prezidenti və Azərbaycan Respublikasının Prezidenti ikitərəfli siyasi, iqtisadi və mədəni əlaqələri gələcəkdə inkişaf etdirəcəklərini təsdiqləyirlər. Prezidentlər əlaqələrin qanunun aliliyi, demokratiya, insan hüquqları və bazar iqtisadiyyatı kimi dəyərlər əsasında inkişaf etdirilməsində qətiyyətli olduqları-

nı qeyd edirlər. Litva tərəfi Azərbaycanda davam edən demokratikləşmə, vətəndaş cəmiyyəti və bazar iqtisadiyyatı prinsiplərinin gücləndirilməsinə yönəldilmiş səyləri alqışlayır.

Prezidentlər iki ölkə arasında ticarət, iqtisadi, turizm, səhiyyə, elm, təhsil, mədəniyyət sahəsində əməkdaşlığın və texniki əməkdaşlığın səviyyəsinin dinamik surətdə inkişaf edən bazar iqtisadiyyatının potensialı və imkanlarına tam şəkildə uyğun gəlməsi üçün əlavə tədbirlər həyata keçirilməsini dəstəkləyirlər. Dövlət başçıları iki ölkə arasında səmərəli iqtisadi layihələrin həyata keçirilməsi, dövlət müəssisələri və özəl müəssisələr arasında əməkdaşlıq üçün əlverişli şəraitin təmin edilməsi və onların birliklərinin yaradılması, maliyyə və bank strukturları arasında əlaqələrin inkişaf etdirilməsinə kömək göstərməyə hazır olduqlarını ifadə edirlər.

Prezidentlər Azərbaycan Respublikasının Avropa İttifaqına yaxınlaşmasında Avropa Qonşuluq Siyasətinin müsbət təsirini məmnuniyyətlə vurğulayır və Fəaliyyət Planının yekunlaşmasında maraqlı olduqlarını bəyan edirlər. Tərəflər Azərbaycan Respublikasının Avropa və Avratlantik strukturlarına inteqrasiyasına yardım olunmasına istiqamətlənmiş əlaqələri inkişaf etdirəcəklər. Bu məqsədlə Litva Respublikasının Prezidenti aşağıdakı sahələrdə Litvanın dövlət təsisatlarının Azərbaycan Respublikasının Avropa və Avratlantik strukturlarına inteqrasiyası yolunda öz təcrübələrini bölüşməyə hazır olduqlarını təsdiq edir:

- inzibati strukturun gücləndirilməsi, islahat prosesində təcrübə mübadiləsi, mülki qulluqçuların Avropaya inteqrasiya məsələlərində treninqi;

- Avropaya inteqrasiya məsələlərinə dair birgə məsləhətləşmələrin, konfransların və digər fəaliyyətlərin həyata keçirilməsi;

- qanunvericiliyin Avropa İttifaqının standartlarına uyğunlaşdırılması sahəsində təcrübə mübadiləsi;

- cəmiyyətin Avropa İttifaqı haqqında məlumatlandırılması üçün kommunikasiya strategiyasının inkişafına dair təcrübə mübadiləsi və islahat üçün ictimai dəstəyin artırılması;

- Azərbaycan Respublikası ilə NATO arasında "Fərdi tərəfdaşlığın fəaliyyət planı"nın müvəffəqiyyətlə həyata keçirilməsi;

- birgə görüşlər, məsləhətləşmələr və treninqlər yolu ilə hərbi islahatlara dair təcrübə mübadiləsi;

- təhlükəsizlik sahəsində milli qanunvericiliyin qəbulu və NATO-nun prinsipləri və tələblərinin müdafiəsi;

- müvafiq qeyri-hökumət təşkilatları arasında əməkdaşlığın təşviqi.

Bəyannamədə deyilir ki, Litva tərəfi Azərbaycan Respublikasında aparılan iqtisadi islahatların vacibliyini vurğulayaraq, Azərbaycanın Dünya Ticarət Təşkilatına üzv olmaq təşəbbüsünü dəstəklədiyini bildirir.

Tərəflər BMT Nizamnaməsinin prinsiplərini və ATƏT-in Lissabon Sammitində qəbul edilmiş üç prinsipi tam dəstəkləyərək və onları rəhbər tutaraq, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüququn hamılıqla tanınmış prinsipləri və normaları əsasında, xüsusilə dövlətlərin suverenliyi, ərazi bütövlüyü və sərhədlərinin

toxunulmazlığı prinsipləri əsasında sülh yolu ilə həll edilməsinin vacibliyini bildirirlər. Tərəflər Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli istiqamətində ATƏT çərçivəsində davam edən səylərə, Minsk qrupunun fəaliyyətinə istinad edərək, bu istiqamətdə daha təsirli və qətiyyətli addımlar atılmasının vacibliyini bir daha vurğulayırlar.

Sənəddə daha sonra deyilir ki, Tərəflər mütəşəkkil cinayətkarlıq, korrupsiya, qanunsuz miqrasiya, insan alveri, çirkli pulların yuyulması, narkotik vasitələrin, psixotrop maddələrin və prekursorların, zəhərli kimyəvi maddələrin, silahların, partlayıcı vasitələrin qanunsuz dövriyyəsi, habelə hava quldurluğu ilə və qaçaqmalçılıqla mübarizədə əməkdaşlığın zəruri olduğunu bir daha qeyd edirlər.

Tərəflər Avropada enerji təhlükəsizliyinin artan önəmliliyini vurğulayır və eyni zamanda, Xəzər dənizi regionunun enerji ehtiyatlarını Avropanın enerji şəbəkəsi ilə birləşdirən enerji, nəqliyyat layihələrinin inkişafını dəstəklədiklərini bəyan edirlər. Bu baxımdan Tərəflər Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft boru kəməri, Bakı-Tbilisi-Ərzurum qaz boru kəməri, habelə Bakı-Tbilisi-Axalkalaki-Qars dəmir yolu layihələrinin həyata keçirilməsinin beynəlxalq əhəmiyyətini qeyd edirlər.

Bəyannamədə daha sonra deyilir: Azərbaycan Respublikasının və Litva Respublikasının prezidentləri əmin olduqlarını bildirirlər ki, ikitərəfli və beynəlxalq əməkdaşlıq sülh və təhlükəsizliyin möhkəmləndirilməsinə xidmət edir. Bununla əlaqədar, Tərəflər Baltikyanı dövlətlər və Cənubi Qafqaz ölkələri arasında regional əməkdaşlığın intensivləşdirilməsini xüsusi vurğulayaraq, Baltik və Xəzər dənizləri regionları arasında əməkdaşlığı təşviq edəcəklər.

AZƏRBAYCAN VƏ LİTVA PREZİDENTLƏRİNİN BİRGƏ MƏTBUAT KONFRANSI

İyunun 8-də Prezident sarayında Azərbaycan-Litva sənədləri imzalandıqdan sonra prezidentlər İlham Əliyevin və Valdas Adamkusun birgə mətbuat konfransı olmuşdur.

Dövlət başçıları əvvəlcə bəyanatlarla çıxış etdilər.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN BƏYANATI

- Hörmətli cənab Prezident!

Hörmətli qonaqlar, xanımlar və cənablar!

İlk növbədə, mən sizin hamınızı Azərbaycanda bir daha salamlamaq və Litva Respublikasının Prezidentinin ölkəmizə rəsmi səfərindən məmnunluğumu bildirmək istəyirəm. Biz müxtəlif məsələləri - ikitərəfli münasibətlərə və regional inkişafa aid məsələləri müzakirə etdik. Bütün məsələlərə yanaşmamızda və fikirlərimizdə uyğunluqları müşahidə etdik. Hesab edirik ki, hazırkı səfər siyasi, iqtisadi münasibətlərimizin uğurla inkişafı üçün çox güclü zəmin yaradacaqdır. Eyni zamanda, iqtisadi sahədəki əməkdaşlığımıza xüsusi əhəmiyyət veririk və əminəm ki, sabah keçiriləcək biznes forum çox uğurlu olacaq və birgə sazişlərin imzalanması ilə nəticələnəcəkdir. Biz eyni zamanda, Litvanı

inteqrasiya siyasətimizdə vacib tərəfdaş kimi hesab edirik. Litva Avropa İttifaqının və NATO-nun üzvüdür və o, öz infrastrukturunu, siyasi və iqtisadi sistemini uğurla inkişaf etdirə bilmişdir. Ona görə də, bizim Avropaya inteqrasiya prosesimizdə sizin dəstəyiniz çox vacibdir. Biz bu dəstəyi hiss etdik və buna görə sizə çox minnətdarıq. Ümidvarıq ki, bu sahələrdə gələcək əməkdaşlığımızı davam etdirəcəyik.

Biz enerji təhlükəsizliyi və Xəzər dənizinin enerji daşıyıcılarının nəqli məsələlərini də müzakirə etdik. İndi ölkəmizin dünya bazarlarında mühüm enerji təchizatçısına çevrilməsini nəzərə alaraq, hesab edirik ki, enerji layihələrimiz bu əməkdaşlığın möhkəmləndirilməsinə yönəldilibdir.

Litvadan ölkəmizə gəlmiş çox böyük nümayəndə heyətini görməkdən olduqca şadıq. Bu nümayəndə heyətinə cənab Prezident rəhbərlik edir və əminik ki, onlar qarşılıqlı maraq doğuran məsələləri azərbaycanlı həmkarları ilə müzakirə edəcəklər.

Əfsuslar olsun, regionumuzda hələ ki, sülh yoxdur və Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həll olunmaması normal inkişaf üçün ən başlıca maneədir. Mən cənab Prezidentə bu məsələdə Azərbaycanın mövqeyi ilə bağlı məlumat verdim. Bildirdim ki, bizim mövqeyimiz beynəlxalq hüququn normaları və prinsiplərinə əsaslanır və bunun əsasında ərazi bütövlüyümüz bərpa olunmalıdır.

Sabah daha çox görüşlər keçiriləcək və hesab edirəm ki, cənab Prezident və onun rəhbərlik etdiyi nümayəndə heyəti ölkəmizin inkişafı, onun istəkləri və problemləri haqqında əhatəli məlumat əldə edə biləcəklər. Hesab edirəm ki, bütün bunlar ikitərəfli münasibətlərimizin inkişafı üçün çox mühüm təməl olacaqdır.

Biz eyni zamanda, səfirliklər açmağı planlaşdırırıq. Cari ildə Litvada Azərbaycan səfirliyinin açılması ikitərəfli münasibətlərimizin inkişafında mühüm bir elementə çevriləcəkdir. Ümumiyyətlə, siyasi, enerji, təhlükəsizlik, nəqliyyat və humanitar sahədəki əməkdaşlığımız daha yüksək səviyyəyə qaldırılmalıdır.

Cənab Prezident, bir daha Azərbaycanda Sizi salamlamaq istəyirəm və əminəm ki, səfəriniz uğurlu keçəcəkdir. Sağ olun.

LİTVA PREZİDENTİ VALDAS ADAMKUSUN BƏYANATI

- Sağ olun, cənab Prezident!

Mən demək istəyirəm ki, nümayəndə heyətimizin ölkənizə səfəri regionda gedən siyasətin və proseslərin nə qədər vacib və mühüm olmasına dəlalət edir. Əmin edirəm ki, Sizinlə apardığımız fikir mübadiləsi beynəlxalq məsələlərdə üst-üstə düşən mövqelərimizi daha da möhkəmləndirəcək və eyni zamanda, ikitərəfli münasibətlərə də müsbət təsir göstərəcəkdir. Cənab Prezident, bu fürsətdən istifadə edərək, ölkəmizdə səfirliyinizin açılması qərarına görə Sizə minnətdarlığımı bildirirəm və əminəm ki, parlamentiniz də bu qərarı dəstəkləyəcəkdir. Mən Sizə məlumat vermək istəyirəm ki, bizim hökumət də ölkənizdə səfirliyini açmağı planlaşdırır. Bir sözlə, ölkələrimiz arasında çox gözəl ikitərəfli münasibətlər mövcuddur.

Mən cənab Prezidentin burada qeyd etdiyi məsələləri təkrar etmək istəmirəm. Bildirirəm ki, cənab Prezident bütün məsələləri - ikitərəfli, beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığa dair məsələləri əhatə etdi.

Mən və nümayəndə heyətimiz ölkənizdə olmaqdan çox məmnunuq və biz ikitərəfli münasibətlərin daha da inkişaf etdirilməsi üçün bütün potensialdan istifadə etməliyik.

Bir daha çox sağ olun. Hesab edirəm ki, biz münasibətlərimizin yeni bir səhifəsini açırıq və zənnimcə, dünyanın digər ölkələri üçün nümunə ola bilərik. Hesab edirəm, gələcəkdə daha güclü strateji tərəfdaşlıq edə biləcəyik. Çox sağ olun.

Sonra prezidentlər jurnalistlərin suallarına cavab verdilər.

- Mənim sualım enerji ilə bağlıdır. Birinci sualım cənab Adamkusadır. Siz Azərbaycanın neft və qaz məhsullarının alınması məsələsini müzakirə etdinizmi? İkinci sualım isə cənab Prezident Əliyevədir. Ukrayna kimi ölkələr enerji əməkdaşlığına Avropa İttifaqına və NATO-ya daxil olmaqdan ötrü bir fürsət kimi baxır. Siz öz enerji resurslarınızın Avropa bazarlarına çıxarılmasında qarşınıza hansı məqsədi qoyursunuz?

İLHAM ƏLİYEV: Bizim enerji siyasətimiz çox uğurla həyata keçirilir. Artıq on ildir ki, biz Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən neft və qaz yataqlarında işləyirik. Azərbaycanda həyata keçirilən enerji layihələri bu gün dünyanın ən böyük enerji layihələridir. Bizim çox müasir nəqliyyat infrastrukturumuz var. Hazırda üç neft kəmərimiz var, onlardan ikisi neftimizi Qara dənizə çıxarır və oradan neft Avropa bazarlarına göndərilir. Üçüncüsü isə əsas ixrac boru kəməridir. O, bu yaxınlarda istismara verilmişdir və artıq Azərbaycan neftini Aralıq dənizi vasitəsilə dünya bazarlarına çıxarır. Yəni bizim enerji daşıyıcılarımız artıq Avropaya və beynəlxalq bazarlara daxil olur. Biz eyni zamanda, qaz layihəsi üzərində çalışırıq. Xüsusən də, böyük qaz kəmərinin çəkilməsi sahəsində işləri görürük. Bununla biz Azərbaycan qazını Qara dəniz və Aralıq dənizi regionlarında istehlakçılara çatdıra biləcəyik. Bütün bu layihələr şaxələndirilmiş neft və qaz təchizatı üçün imkanlar yaradır. Azərbaycan artıq dünya və Avropa bazarlarında etibarlı enerji daşıyıcıları təchizatçısına çevrilir.

VALDAS ADAMKUS: Mən aşağıdakı məsələləri qeyd etmək istəyirəm. Təbii ki, biz, cənab Prezidentlə Litvanın Azərbaycan nefti və qazının istifadəçisinə çevrilməsi ehtimalını müzakirə etdik və cənab Prezident artıq onu qeyd etdi. Təbii ki, texniki baxımdan bu, mümkündür. Azərbaycanın bütün Avropa bazarlarına neft və qaz göndərilməsinə dair böyük planları var. Hesab edirəm ki, Azərbaycan bu sahədə bizim üçün də fürsət yaradacaq və bu istiqamətdə bizimlə də işləyəcəkdir. Yəni Azərbaycan indi bu sahədə olan inhisara son qoyaraq, öz məhsullarını dünya və Avropa bazarlarına çıxaracaqdır.

- Mənim sualım Litva Respublikasının Prezidentinədir. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi Ermənistanın Azərbaycana qarşı təcavüzü nəticəsində yaranmışdır. Bu, Cənubi Qafqaz regionunun sosial və iqtisadi inkişafına əsas maneədir və eyni zamanda, regionun sabitliyi üçün təhlükə yaradır. Avratlantik ailəsinə tam inteqrasiya olunmaq yolunu tutmuş ölkənin Prezidenti kimi Siz bu məsələnin həlli yolunu necə görürsünüz?

VALDAS ADAMKUS: Hər hansı münaqişə regionun və dünyanın sabitliyinə təhlükədir. Hesab edirəm ki, burada başqa seçim olmamalıdır. Yəni beynəlxalq ictimaiyyət öz müqəddəratını təyinetmə, suverenlik və hər bir ölkənin özünün qərarlar qəbul etmək

hüququna hörmətlə yanaşmalıdır. Hesab edirəm ki, bu münaqişə hərb yolu ilə yox, saziş və danışıqlar yolu ilə öz həllini tapmalıdır və beynəlxalq ictimaiyyət buna müşahidəçi kimi baxa bilməz. Zənnimcə, Avropa İttifaqı birmənalı olaraq, sülhün bərqərar edilməsində və regional münaqişələrin aradan qaldırılmasında bir vasitəçi kimi fəal şəkildə çıxış etməli və qəbul olunmuş ədalətli qərarları dəstəkləməlidir.

- Cənab Prezident, mənim də eyni sualım var. Sizin fikrinizcə, Dağlıq Qarabağ məsələsi nə vaxt və hansı yolla həll olunacaq?

İLHAM ƏLİYEV: Bilirsiniz, bunun vaxtını demək çətindir. Çünki bu, yalnız bizdən asılı deyildir. Bu, iki tərəfdən asılıdır, yəni danışıqlarda iştirak edən iki tərəfdən asılıdır. Əfsuslar olsun ki, son on il ərzində aparılmış danışıqlar heç bir nəticə verməmişdir. Artıq on ildən çoxdur ki, Azərbaycanın torpaqları Ermənistanın işğalı altındadır. 1980-ci illərin sonunda Azərbaycana qarşı başlanmış təcavüzkar separatizm siyasəti ölkəmizin ərazisinin 20 faizinin işğalı ilə nəticələndi. Burada Dağlıq Qarabağ və onun ətrafındakı yeddi inzibati rayon nəzərdə tutulur. Hazırda onlar Ermənistanın işğalı altındadır. Etnik təmizləmə siyasəti nəticəsində bir milyondan çox azərbaycanlı qaçqın və məcburi köçkün vəziyyətinə düşmüşdür. Bu, böyük bir humanitar fəlakətdir. Bu, çox ədalətsiz bir vəziyyətdir və bunun gözlənilməz nəticələri ola bilər. Azərbaycan məsələnin sülh yolu ilə həllinə çox çalışır. Hesab edirəm ki, məsələnin dinc yolla həlli üçün ən mühüm əsaslar müxtəlif təşkilatlar tərəfindən qəbul edilmiş qərarlar ola bilər. Yəni bu məsələ arzular və ya xülyalar əsasında yox, beynəlxalq hüququn mövcud normaları və prinsipləri əsasında həll olunmalıdır. BMT-nin Təhlükəsizlik Şurasının dörd qətnaməsi mövcuddur. O dörd qətnamədə erməni hərbi qüvvələrinin Azərbaycanın işğal olunmuş ərazisindən qeyd-şərtsiz çıxarılması tələb edilir. Eyni zamanda, Avropa Şurası Ermənistanı təcavüzkar kimi pisləmiş və öz qətnaməsində aydın şəkildə bildirmişdir ki, Avropa Şurasının üzvü olan bir ölkə digər üzv ölkənin ərazisini uzun müddət ərzində, davamlı şəkildə işğal altında saxlaya bilməz və bu, yolverilməzdir. Digər beynəlxaq təşkilatların bu məsələ ilə bağlı vacib bəyanatları var, xüsusən də bu yaxınlarda GUAM təşkilatının keçmiş Sovet İttifaqı ərazisində dondurulmuş münaqişələrlə bağlı qəbul etdiyi qərarı var. Bütün bunlar məsələnin həlli üçün çox güclü hüquqi və siyasi əsas yaradır. Azərbaycanın ərazi bütövlüyü hər hansı bir danışığın mövzusu deyildir. Bizim ərazi bütövlüyümüz bütün ölkələr tərəfindən, Birləşmiş Millətlər Təşkilatı tərəfindən tanınır və Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz bir hissəsidir. Ona görə də hazırda hər bir məsələ Ermənistan tərəfinin yanaşmasından asılı olacaqdır. Əgər onlar özlərini konstruktiv aparsalar, əgər XXI əsrin reallığına uyğun olaraq siyasətlərinə dəyişiklik etsələr, əgər beynəlxalq səviyyədə normal davransalar və digər ölkənin ərazisinin ondan qoparılmasına çalışmasalar, hesab edirəm ki, biz həll yolunu tapa bilərik. Tamamilə aydındır ki, Azərbaycan öz torpaqlarının işğalı ilə heç vaxt barışmayacaq və biz sülh variantının ən son imkanına qədər çalışacağıq.

- Sualım hər iki prezidentədir. Litva Avropa İttifaqının və NATO-nun üzvüdür. Azərbaycan Respublikasının xarici siyasətdə Avratlantik ailəsinə tam inteqrasiyanı prioritet hesab etməsi nəzərə alınmaqla, Siz beynəlxalq təşkilatlar çərçivəsində iki ölkə arasındakı əməkdaşlığın perspektivlərini necə görürsünüz?

VALDAS ADAMKUS: Hesab edirəm ki, verəcəyim cavab çox qısa və aydın olacaqdır.

Hər iki ölkə müəyyən prinsiplərə sadiqdir. Həmin prinsiplər azad dünya, demokratiya, xalqların öz müqəddəratını təyinetmə hüququ prinsipləridir. Hazırda biz dünyada keçirilən bir çox beynəlxalq tədbirlərdə birgə işləyirik və bu əməkdaşlığımıza sadiqik. Biz bu işləri həmin prinsiplərin qorunmasına yönəldirik və mən hesab edirəm ki, bu əməkdaşlıq sözlə verilən hər hansı bəyanatdan daha yaxşı nümunədir.

İLHAM ƏLİYEV: Bildiyiniz kimi, ölkələrimiz beynəlxalq təşkilatlarda müxtəlif məsələlərə dair əməkdaşlıq edir. Hər zaman bir-birimizi dəstəkləyirik və bu, bizim siyasi münasibətlərimizin yüksək səviyyədə olmasından xəbər verir. Bizim çox oxşar tariximiz var. Hər iki ölkə öz müstəqilliyini 15 il bundan əvvəl bərpa etmişdir. Bundan əvvəl hər iki ölkə uzun onilliklər və əsrlər boyu müstəqillikdən məhrum olmuşdur. Hazırda biz beynəlxalq birliyin fəal üzvüyük, siyasi inkişafımız gedir və gələcəkdə əməkdaşlığımızı daha da genişləndirəcəyik. Avratlantik ailəsinə inteqrasiya çox uğurla gedir. Hər iki ölkə çox qısa müddət ərzində siyasi, iqtisadi, sosial sahələrdə sürətlə inkişaf etmişdir və Litva hazırda Avropa İttifaqının və NATO-nun üzvüdür. Buna görə də Litvadan aldığımız dəstək bizim üçün çox vacibdir və bunun üçün Litva tərəfinə çox minnətdarıq. Əminəm ki, cənab Prezidentin səfərindən sonra ölkələrimiz arasındakı münasibətlər, o cümlədən beynəlxalq təşkilatlar çərçivəsində birgə fəaliyyətimiz və əməkdaşlığımız möhkəmlənəcəkdir. Çox sağ olun.

ALİ QONAĞIN ŞƏRƏFİNƏ

İyunun 8-də Azərbaycan Prezidenti İlham Əliyevin və xanımı Mehriban Əliyevanın adından Litva Prezidenti Valdas Adamkusun və onun həyat yoldaşı Alma Adamkienenin şərəfinə Yaxt-klubda rəsmi qəbul təşkil edilmişdir.

Salona toplaşanlar dövlət başçılarını və xanımlarını hərarətlə qarşıladılar.

Prezidentlər qəbulda nitq söylədilər.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ

- Hörmətli cənab Prezident Valdas Adamkus!

Hörmətli xanım Alma Adamkiene!

Əziz qonaqlar, xanımlar və cənablar!

Cənab Prezident, ilk növbədə, Sizi və rəhbərlik etdiyiniz nümayəndə heyətini Azərbaycanda bir daha səmimiyyətlə salamlayır və "Xoş gəlmisiniz!" deyirəm. Bu, Litva Prezidentinin Azərbaycana ilk rəsmi səfəridir. İnanıram ki, Sizin səfəriniz ölkələrimiz arasında münasibətlərin inkişafında mühüm rol oynayacaqdır.

Keçirdiyimiz görüşlər zamanı biz ikitərəfli əməkdaşlıqla bağlı geniş fikir mübadiləsi etdik, danışıqlar apardıq. Əminəm ki, bütün bunlarla bərabər, imzalanmış sənədlər, iki ölkənin iş adamlarının görüşləri əlaqələrimizin inkişafına və genişlənməsinə öz töhfəsini verəcəkdir.

Xalqlarımız arasındakı qarşılıqlı əlaqələrin tarixində XIX-XX əsrlərin mühüm yeri var. Müstəqillik uğrunda mübarizə əzmi ölkələrimizi bir-birinə daha da yaxınlaşdırmışdır.

1918-1920-ci illərdə Litvanın Azərbaycanda diplomatik nümayəndəliyi fəaliyyət göstərmişdir.

Azərbaycan Litva ilə həm ikitərəfli əsasda, həm də Avropaya inteqrasiya proseslərində sıx əməkdaşlığa xüsusi əhəmiyyət verir. Biz bu gün ölkələrimiz arasında əlaqələrin müxtəlif sahələrdə daha da genişlənməsinin tərəfdarıyıq, eyni zamanda, beynəlxalq və regional təşkilatlar, o cümlədən regionlararası əməkdaşlıq çərçivəsində Baltik Dənizi Dövlətləri Şurası ilə əməkdaşlıq etmək istəyirik.

Azərbaycan regionda və dünyada öz mövqelərini möhkəmləndirir. Həyata keçirilən siyasi və iqtisadi islahatlar ölkənin dinamik inkişafına imkan yaradıbdır. 2005-ci ildə Azərbaycan iqtisadiyyatı ən yüksək inkişaf sürətinə malik olmuşdur. Ümumi daxili məhsulun həcmi 26 faizdən çox artmışdır. Son 10 ildə iqtisadiyyatımıza 32 milyard dollar sərmayə qoyulmuşdur. Son iki il yarım ərzində isə ölkədə 380 min yeni iş yeri açılmışdır.

Biz eyni zamanda, regionda sabitliyin və təhlükəsizliyin möhkəmlənməsinə, iqtisadi inkişafa təkan verəcək beynəlxalq layihələr həyata keçiririk. Şərq-Qərb dəhlizinin əsas xətlərindən biri olan Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəməri Azərbaycan neftini bir neçə gün bundan əvvəl dünya bazarlarına çıxardı. Bakı-Tbilisi-Ərzurum qaz kəməri, Bakı-Tbilisi-Qars dəmir yolu layihələrinin həyata keçirilməsi həm Azərbaycanın, həm də regionun inkişafında mühüm rol oynayacaqdır.

Lakin mövcud münaqişələri aradan qaldırmadan regionda sülhə və təhlükəsizliyə nail olmaq mümkün deyildir. Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü regionda sabitliyi pozan başlıca amildir. Bu təcavüz və etnik təmizləmə siyasəti nəticəsində torpaqlarımızın 20 faizi işğal edilmiş, ölkədə bir milyondan çox qaçqın və məcburi köçkün yaranmışdır.

Azərbaycan münaqişənin beynəlxalq hüquqa uyğun, ölkəmizin ərazi bütövlüyü çərçivəsində ədalətli nizama salınmasını, münaqişə ilə bağlı BMT Təhlükəsizlik Şurasının qətnamələrinin, ATƏT, Avropa Şurası və digər beynəlxalq təşkilatların qərarlarının yerinə yetirilməsini tələb edir.

Hörmətli cənab Prezident, Azərbaycana rəsmi səfərinizdən məmnun olduğumu bir daha ifadə edir, Sizə cansağlığı, ölkənizə və xalqınıza daim inkişaf, uğurlar arzulayıram və bu badəni Sizin şərəfinizə, xanım Alma Adamkienenin şərəfinə, Azərbaycan ilə Litva arasında səmimi dostluq və faydalı əməkdaşlıq əlaqələrinin inkişafının şərəfinə qaldırıram.

Sağ olun.

LİTVA PREZİDENTİ VALDAS ADAMKUSUN NİTQİ

- Zati-aliləri cənab Prezident İlham Əliyev!

Hörmətli xanım Mehriban Əliyeva!

Hörmətli xanımlar və cənablar!

Sizin valehedici və ecazkar dost ölkənizdə, xoş bir ünsiyyət şəraitində qonaq olduğu-

muz üçün mən və Litva nümayəndə heyətinin üzvləri böyük məmnunluq hissləri keçiririk. Bütün nümayəndə heyətinə göstərilən qonaqpərvərliyə və diqqətə görə Sizə səmimi qəlbdən təşəkkür edirəm. Cənab Prezident, əminəm ki, Sizinlə daha tez-tez baş verən görüşlərimiz dövlətlərimiz və xalqlarımız arasında, ticarət əlaqələrimizdə daha sürətli şəkildə yeni əməkdaşlıq tarixinin yaranmasına xidmət edir.

Cənab Prezident!

Biz bu gün Bakıda yalnız ticarət əlaqələrimizə, xarici siyasət və təhlükəsizlik sahəsindəki münasibətlərimizə yeni təkan vermək üçün görüşmürük. Belə ki, bizim görüşümüzün gündəliyində həmçinin Baltik və Qafqaz dövlətlərinin regional əməkdaşlığının genişləndirilməsi, Avropa İttifaqı ilə Azərbaycan arasında siyasi, iqtisadi sahələrdə və enerji sahəsində tərəfdaşlıq münasibətləri, Qafqazın həyatına manea olan münaqişələrin sülh yolu ilə həllinin axtarışı kimi mühüm məsələlər durur.

Xüsusilə vacibdir ki, bugünkü dialoqumuzun əsasında nəinki bizi bir-birimizə bağlayan qarşılıqlı etimad və rəğbət hissləri, eləcə də Litva və Qafqaz xalqlarının qədim tarixi əlaqələri durur. Biz hələ 1918-ci ildə, müstəqil dövlətlərimiz yaradılan dövrdə bir-birimizə ciddi şəkildə maraq göstərmiş və hətta diplomatik münasibətlər qurmaq üçün çalışmışıq.

Hələ XX əsrin əvvəllərində, o vaxtlar burada yaşamış və neft sənayesində çalışmış, habelə poçt xidmətində, orduda qulluqda olmuş çoxlu litvalı Azərbaycanın ictimai həyatında fəal iştirak etmişdir. Litva ədəbiyyatının klassiki, yazıçı Vintsas Kreve-Mitskyaviçyus o dövrdə Bakı Universitetinin ilk professorlarından biri olmuş, Bakı Litvalıları Cəmiyyətinin sədri kimi müstəqil Azərbaycan Respublikasının quruculuğu işlərində fəal çalışmış və Litvanın Azərbaycanda ilk konsulu işləmişdir.

Məmnuniyyətlə qeyd edirəm ki, Dirçəliş Hərəkatının - Litva Sayudisinin hələ ilk təşəkkül tapması dövründə, Vilnüsdə Litva Azərbaycanlıları Cəmiyyəti yaradılmışdır və o vaxtdan indiyədək filoloq Mahir Həmzəyevin sədrlik etdiyi bu təşkilat digər milli azlıqlarla bərabər, Litvanın dövlət müstəqilliyinin bərpa olunmasında fəal iştirak etmiş, Litvanın demokratik Avropa dövlətləri ailəsinə qayıtması üçün çox işlər görmüşdür. Dövlətimizə belə loyal münasibət göstərdiklərinə görə biz Sizin soydaşlarınız olan Litvanın azəri vətəndaşlarına minnətdarıq.

Zati-aliləri, bu gün gələcəyimizi birgə qurmaq üçün nadir imkanlarımız vardır. Ölkələrimizdə kifayət qədər istedadlar və yeni ideyalarla çıxış edən insanlar mövcuddur. Biz hökmən onların imkanlarından, demokratik dəyərləri bəsləyə-bəsləyə, müasir Avropa tərəfdaşlığını qurmaq, biri-birimizin ən yaxşı təcrübəsindən bəhrələnmək üçün istifadə etməliyik.

Vilnüsdə və Bakıda səfirliklərin açılması, investisiyaların qoyulması və ticarət əlaqələri üçün yeni yollar açan müqavilələrin imzalanması, əlbəttə ki, vaxtında atılmış addımlardır. Əminəm ki, indi Bakıda səfərdə olan Litva iş adamlarının nümayəndə heyətinin üzvləri burada özlərinə yeni tərəfdaşlar tapacaq və bu, öz növbəsində, hərtərəfli əməkdaşlığımızı gücləndirəcəkdir.

Xalqlarımız arasındakı tarixi paralellərə nəzər yetirərkən görürəm ki, bizim ən böyük sərvətimizi - xalqlarımız və mədəniyyətlərimiz arasındakı əlaqələri genişləndirib möh-

kəmləndirən, asılı olmayan və məhdudiyyətə məruz qalmadan yaratmaq təşəbbüsü göstərən adamlarımız indiyədək heç vaxt bugünkü qədər olmamışdır. Məşhur "Dədə Qorqud" dastanlarının, Nizami, Səməd Vurğun, İlyas Əfəndiyev kimi ədəbi klassiklərin əsərlərinin Litva dilinə tərcüməsi sayəsində ölkənizin mədəniyyəti və xalqınızın müdriklik xəzinəsi bizim üçün daha yaxın və anlaşıqlı olmuşdur.

Münasibətlərimizdə yeni misallar da mövcuddur. Bizim siyasətçilərimiz və diplomatlarımız beynəlxalq təşkilatların iclaslarında birgə iştirak edirlər. Litvalı Rimas Kurtinaytis Azərbaycan basketbolunda ustalığın artması üçün çalışır, azərbaycanlı İdrak Dadaşov isə Vilnüsdə "Penki Kontinentay" ("5 qitə") şirkətinin işinə uğurla rəhbərlik edir. Uşaqlarımızı YUNESKO-nun dəstəyi ilə Qafqaz və Baltik ölkələri xalqları nağıllarının çap olunduğu "Nağıl körpüləri" kitabı birləşdirir.

Biz yeniliklər üçün açıq olmağımızla, dünya xalqlarının işlərində fəal iştirak etməklə və beynəlxalq siyasətin ən ciddi suallarının həllinə qoşulmaq istəyimizlə bir-birimizə bənzəyirik. Əsgərlərimiz İraqda və Əfqanıstanda beynəlxalq əməliyyatlarda iştirak edir, fəal surətdə öz təcrübələrini bölüşürlər. Biz idarəçilik bacarığımızı birgə təkmilləşdirir, hüquqi aktlarımızı uyğunlaşdırırıq. Əminəm ki, bu cür oxşarlıqlara görə biz xoşniyyətli qonşuluq əlaqələri quran yaxın müttəfiqə çevriləcəyik.

Cənab Prezident, bu gün bizim ölkələri səmimi açıqlıq və qarşılıqlı etimad mühiti birləşdirir. İnanıram ki, gün gələcək, ölkələrimizi ticarət yolları və enerji şəbəkələri bir-biri ilə bağlayacaq, xalqlarımızı isə Avratlantik icmasının əlaqələri birləşdirəcəkdir.

Cənab Prezident, çalışqan və səbatlı olduğunuz üçün Sizin liderlik xüsusiyyətləriniz və Azərbaycanın gələcək islahatlarının müvəffəqiyyəti məndə şübhə doğurmur. Sizə və hökumətinizə uğurlar, Azərbaycan əhalisinə isə firavanlıq, sabitlik və çiçəklənən həyat arzu edirəm.

Cənab Prezident, Avratlantik əməkdaşlığı sualları müzakirə olunarkən Siz həmişə mənə dost və strateji tərəfdaş kimi güvənə bilərsiniz.

Nitqimi yekunlaşdıraraq, mən aşağıdakı fikirləri bildirmək istəyirəm. Hətta çox qısa səfərimin hələ ilk günü başa çatdıqdan sonra da Azərbaycanla bağlı baxışlarım olduqca aydındır. Ərazi bütövlüyü və sərhədlərin toxunulmazlığı prinsiplərinə hörmətlə yanaşılmalıdır. Bu, müasir beynəlxalq sistemin əsasını təşkil edir. Biz beynəlxalq sistemin məhv edilməsinə imkan verə bilmərik. Mənim fikrimcə, Dağlıq Qarabağ problemi aşağıdakı kimi həll olunmalıdır:

Birincisi, işğalçı silahlı qüvvələr çıxarılmalı və bu, beynəlxalq müşahidəçilərin nəzarəti altında həyata keçirilməlidir.

İkincisi, bununla yerli əhali üçün sabitlik, təhlükəsizlik təmin ediləcək və Azərbaycanın suverenliyi tədricən bərpa olunacaqdır.

Sonda demək istəyirəm ki, Azərbaycan kimi böyük ölkəyə səfər edərkən, mən öz müqəddəratını təyin etmiş Azərbaycan xalqını Avropanın bir hissəsi kimi görürəm.

Fürsətdən istifadə edərək, bu badəni Sizin sağlığınıza qaldırıram. Sağ olun.

SƏNGƏÇAL TERMİNALI İLƏ TANIŞLIQ

Litva Respublikasının Prezidenti Valdas Adamkus iyunun 9-da Səngəçal terminalı ilə tanış olmuşdur.

Dövlət Neft Şirkətinin birinci vitse-prezidenti Xoşbəxt Yusifzadə və bp şirkətinin vitse-prezidenti Mayk Tauzent ali qonağı hörmətlə qarşıladılar.

Litva Prezidentinə 1994-cü ildən Azərbaycanda ümummilli lider Heydər Əliyevin neft strategiyasının reallaşması istiqamətində həyata keçirilən irimiqyaslı layihələr barədə məlumat verildi. Səngəçal terminalının ölkəmizdə ən iri layihələrdən biri olduğunu və 2001-ci ilin noyabrında tikintisinə başlandığı bildirildi.

Terminalın Xəzər Enerji Mərkəzinin geniş salonunda Azərbaycanda neft strategiyasının uğurlarını əks etdirən film nümayiş etdirildi. Prezident Valdas Adamkusa bu film vasitəsilə Xəzərin karbohidrogen ehtiyatları, "Azəri-Çıraq-Günəşli" yataqlarından Səngəçal terminalına çəkilən boru xətləri, terminalda tikilən irihəcmli neft çənləri, baş nasos stansiyası və digər mühüm əhəmiyyətli işlər barədə məlumat verildi.

ARDNŞ-in birinci vitse-prezidenti Xoşbəxt Yusifzadə Prezident İlham Əliyevin adından ali qonağa Bakı-Tbilisi-Ceyhan boru kəmərinin rəmzi olan xatirə hədiyyəsini təqdim etdi. Prezidentə Səngəçal terminalının Xəzər Enerji Mərkəzi adından da hədiyyə verildi.

Sonra Litva Prezidenti Valdas Adamkus və onu müşayiət edən şəxslər avtobuslarla Səngəçal terminalının ərazisini gəzdilər. Məlumat verildi ki, Səngəçal terminalından Bakı-Tbilisi-Ceyhan, Bakı-Supsa, Bakı-Novorossiysk neft kəmərlərinin ölkə ərazisindəki hissələrində bütün prosesləri izləmək mümkündür və Azərbaycan nefti BTC vasitəsilə Ceyhan terminalına çatdırılmış, tankerlərə yüklənərək dünya bazarına çıxarılmışdır. Bildirildi ki, Bakı-Tbilisi-Ceyhan kəməri vasitəsilə dünya bazarına ildə 50 milyon tondan çox neft ixrac ediləcəkdir.

Litvanın dövlət başçısı buradakı nəzarət-idarəetmə məntəqəsinin iş sistemi ilə də tanış oldu.

Prezident Valdas Adamkus Səngəçal terminalı ilə tanışlıqdan məmnun qaldığını bildirdi.

LİTVA PREZİDENTİNƏ BDU-NUN FƏXRİ DOKTORU DİPLOMU TƏQDİM OLUNMUŞDUR

İyunun 9-da Bakı Dövlət Universitetində Litva Respublikasının Prezidenti Valdas Adamkusa bu ali təhsil ocağının fəxri doktoru adı verilməsinə həsr olunmuş mərasim keçirilmişdir.

Universitetin rektoru, AMEA-nın müxbir üzvü, Milli Məclisin deputatı Abel Məhərrəmov ali qonağı BDU-nun professor-müəllim heyəti və tələbələri adından salamlayaraq, mərasim iştirakçılarına Valdas Adamkusun tərcümeyi-halı və ictimai-siyasi fəaliyyəti barədə məlumat verdi. O, 1919-cu ildə Azərbaycan Xalq Cümhuriyyəti tərəfindən yaradılmış, bu gün ali təhsilimizin flaqmanı olan Bakı Dövlət Universitetinin tarixindən, ölkəmizdə elmin, ictimai fikrin inkişafına verdiyi töhfələrdən, beynəlxalq əlaqələrindən ətraflı söhbət açdı.

Daha sonra Abel Məhərrəmov Valdas Adamkusa universitetin fəxri doktoru adı verilməsi barədə Elmi şuranın qərarını oxudu, fəxri doktor diplomunu və mantiyanı ona təqdim etdi.

Litva Prezidenti Valdas Adamkus ona göstərilən etimada görə minnətdarlığını bildirdi. Ali qonaq Bakıya rəsmi səfərindən, Azərbaycan Prezidenti İlham Əliyevlə görüşündən aldığı yüksək təəssüratları mərasim iştirakçıları ilə bölüşdü və əmin olduğunu vurğuladı ki, bu səfərdən sonra Azərbaycanla bütün sahələrdə, o cümlədən elm və təhsildə də əlaqələr genişlənəcəkdir.

Sonra Litva Prezidentinin portreti universitetin fəxri doktorlarının portretləri sırasına əlavə edildi.

Ali qonaq universitetin müəllimləri ilə xatirə şəkli çəkdirdi.

LİTVA PREZİDENTİ VƏ XANIMI HEYDƏR ƏLİYEV FONDUNDA OLMUŞLAR

Litva Prezidenti Valdas Adamkus və xanımı Alma Adamkiene iyunun 9-da Heydər Əliyev Fondunda olmuşlar.

Azərbaycan Prezidenti İlham Əliyev və Fondun prezidenti, YUNESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyeva Litvanın dövlət başçısını və onun xanımını böyük səmimiyyətlə qarşıladılar.

Ali qonaq və xanımı müstəqil Azərbaycan dövlətinin qurucusu və memarı, ulu öndər Heydər Əliyevin həyatının ən müxtəlif məqamlarını əks etdirən nadir fotoşəkillərlə tanış oldular, ümummilli liderə məxsus əşyalara maraqla tamaşa etdilər.

Litva Prezidentinə Azərbaycan xalqının dahi oğlunun xatirəsinə ehtiram əlaməti olaraq yaradılmış Fondun məqsədləri barədə məlumat verildi. Bildirildi ki, Fondun əsas məqsədləri Prezident Heydər Əliyevin zəngin irsini öyrənmək və təbliğ etməkdən, onun Azərbaycanın sosial-iqtisadi, mədəni tərəqqisinə yönəlmiş genişmiqyaslı fəaliyyəti barədə gələcək nəsillərdə əyani təsəvvür yaratmaqdan, dahi şəxsiyyətin müəllifi olduğu beynəlxalq layihələrin həyata keçirilməsini dəstəkləməkdən, Azərbaycan mədəniyyəti və tarixinin geniş təbliği ilə əlaqədar aparılan işlərə kömək göstərməkdən ibarətdir.

Prezident İlham Əliyev ümummilli liderin müxtəlif dövrlərdəki fəaliyyəti ilə bağlı tarixi fotolar əsasında Litva Prezidentinə məlumat verdi. Sovetlər Birliyi zamanında Azərbaycana rəhbərlik etdiyi, SSRİ rəhbərliyində çalışdığı illər, ən nəhayət, müstəqil Azərbaycanın Prezidenti olduğu tarixi dövr bu fotoşəkillərdə geniş əksini tapmışdır. Dünyanın böyük siyasi və dövlət xadimləri ilə keçirdiyi diplomatik görüşləri yada salan nadir fotolar da böyük maraq doğurdu.

Litva Prezidenti Valdas Adamkus Fondla tanışlıqdan sonra Xatirə kitabına öz ürək sözlərini yazdı.

Fondun prezidenti Mehriban xanım Əliyeva ali qonağa hədiyyə təqdim etdi.

Sonra Azərbaycan Prezidenti İlham Əliyev və Litva Prezidenti Valdas Adamkus və xanımları Fondun binasının eyvanından Bakının mənzərəsini, o cümlədən qədim İçərişəhəri seyr etdilər.

Dövlət başçıları və xanımları sonra çay süfrəsi arxasında səmimi söhbət etdilər.

Prezident İlham Əliyev Prezident Valdas Adamkusa respublikamıza səfəri zamanı keçirdiyi görüşləri əks etdirən fotoalbom təqdim etdi.

Dövlət başçıları və xanımları xatirə şəkli çəkdirdilər.

AZƏRBAYCAN-LİTVA BİZNES FORUMU

İyunun 9-da Bakının "Excelsior" mehmanxanasında Azərbaycan-Litva biznes forumu keçirilmişdir.

Azərbaycan Prezidenti İlham Əliyev və Litva Prezidenti Valdas Adamkus forumda iştirak etmişlər.

Forumun iştirakçıları dövlət başçılarını səmimiyyətlə qarşıladılar.

Azərbaycanın iqtisadi inkişaf naziri Heydər Babayev açılışda çıxış edərək, dövlət başçılarını və forumun iştirakçılarını salamladı, iqtisadi əməkdaşlığın inkişafına maraq göstərən hər iki ölkənin iş adamlarına təşəkkürünü bildirdi. O, Azərbaycanın iqtisadi uğurlarından danışaraq, ümumi daxili məhsulun həcminin ildən-ilə artdığını, dövlətimizi regionda lider ölkəyə çevirən qlobal enerji layihələrinin həyata keçirildiyini qeyd etdi. Nazir bildirdi ki, ölkəmizdə qeyri-neft sektoru fəal inkişaf edir, sosial sahəyə, əhalinin rifahının yüksəlməsinə böyük diqqət yetirilir.

Azərbaycan Avropa qurumlarına inteqrasiya siyasəti aparır, ölkəmiz Avropa İttifaqının "Genişlənən Avropa - yeni qonşular" proqramına qoşulmuşdur.

Heydər Babayev Azərbaycan-Litva iqtisadi əməkdaşlığından danışaraq dedi ki, 2005-ci ildə iki ölkə arasında əmtəə dövriyyəsinin həcmi 7 milyon dollar olmuşdur. O, ümidvar olduğunu söylədi ki, bu forum qarşılıqlı surətdə faydalı əməkdaşlığın genişlənməsində, Azərbaycanın və Litvanın işgüzar dairələrinin nümayəndələri arasında əlaqələr yaradılmasında öz rolunu oynayacaqdır.

Azərbaycan və Litva prezidentləri forumda nitq söylədilər.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ

- Hörmətli cənab Prezident,

Əziz qonaqlar,

Bu gün ölkələrimiz arasında iqtisadi münasibətlərin inkişafı baxımından çox əlamətdar bir gündür. Mən çox şadam ki, Litva Prezidentinin Azərbaycana rəsmi səfəri çərçivəsində işgüzar dairələrimiz bir-biri ilə görüşmək, fikir mübadiləsi aparmaq, hər bir ölkənin imkanlarını qiymətləndirmək və uzunmüddətli iqtisadi əlaqələr qurmaq fürsəti əldə etmişlər.

Təbii ki, yaşadığımız ümumi siyasi sistemdə, sovet vaxtında da müəyyən iqtisadi münasibətlər mövcud olmuşdur. Lakin SSRİ-nin süqutundan sonra, əfsuslar olsun ki, iqtisadi əlaqələrin böyük hissəsi itirilmişdir. Ölkələrimiz keçid dövrünü yaşamışdır. Əlbəttə ki, bir çox iqtisadi və daxili problemlər iqtisadi imkanların qiymətləndirilməsinə imkan verməmişdir.

Bu gün isə Avropa İttifaqının üzvü və çox güclü iqtisadi potensiala və artıma malik olan Litva bir tərəfdən, iqtisadi böhrandan uğurla çıxmış və sürətlə iqtisadi inkişaf edən Azərbaycan digər tərəfdən iqtisadi nailiyyətlərimizin daha da artırılması üçün çox gözəl imkan yaradır. Əminəm ki, qarşılıqlı surətdə faydalı iqtisadi əməkdaşlıq olduqca səmərəli ola bilər. Təbii ki, hökumətlərin oynadığı rol çox əhəmiyyətlidir, lakin eyni zamanda, sizin tərəfinizdən də birgə fəaliyyətin başlanması üçün çox güclü iqtisadi təkanlar olmalıdır.

Azərbaycan öz infrastrukturunu, potensialını, resurslarını və xidmətlərini təklif edə bilər. Təbii ki, Litva da bu işləri görə bilər. Litva Avropa İttifaqının üzvüdür. Azərbaycan tamamilə Avropa standartlarına uyğun olaraq, öz siyasi və iqtisadi sistemini dünya sisteminə qovuşdurmaqdadır. Gələcək illər ərzində Azərbaycanda iqtisadi artım daha sürətli olacaqdır. Həmin artım elə bu gün müşahidə edilir. Yəni burada söhbət təkcə çox gözəl makroiqtisadi göstəricilərdən getmir. Eyni zamanda, bu iqtisadi inkişaf artıq insanların gündəlik həyatında hiss olunur. Misal üçün, inşaat biznesi, enerji inkişafı sahələrinin adı çəkilə bilər. Bütün bunlar bir-birilə bağlıdır.

Azərbaycanın Avropa ilə Asiya arasında təbii körpü rolunu oynaması, mühüm coğrafi-strateji mövqeyi və yaradılan bütün lazımi infrastruktur da çox faydalı ola bilər. Bizim gələcək üçün planlarımız böyükdür. Bir çox layihələrimiz var ki, orada böyük beynəlxalq əməkdaşlıq tələb olunur. Adambaşına düşən birbaşa xarici sərmayələrin həcminə görə Azərbaycan keçmiş sovet respublikaları arasında birinci yeri tutur. Bu, eyni zamanda, ölkədə çox yaxşı biznes mühitinin yaradılmasından xəbər verir. Ona görə də Litvadan olan potensial sərmayədarlar özlərini burada təhlükəsiz və rahat hiss edə bilərlər. Bildiyiniz kimi, bu amil digər ölkədə uğurlu iqtisadi əməkdaşlığın və sərmayə qoyuluşunun əsas şərtlərindəndir.

Hazırda biz iqtisadiyyatımızı şaxələndirməyə çalışırıq. Təbii ki, enerji sektoru bir çox illər ərzində iqtisadiyyatımızın əsasını təşkil edəcəkdir. Yəni bizim görəcəyimiz işlərdən asılı olmayaraq, iqtisadiyyatın heç bir digər sahəsi həmin sektorla müqayisə edilə bilməz. Çünki gələn iki-üç il ərzində ölkəmizdə neft və qaz hasilatının həcmi artacaqdır. Bu səbəbə görə, hazırda bizim əsas diqqətimiz qeyri-neft sektorunun inkişafına yönəlibdir. Yəni kənd təsərrüfatı, xidmətlər sahəsi nəzərdə tutulur və sizin həmin sahələrdə çox yaxşı təcrübəniz var.

Bu gün, görüşə gəlməzdən əvvəl, biz rəsmilərlə fikir mübadiləsi apardıqdan sonra belə bir nəticəyə gəldik ki, artıq çox münasib imkanlar mövcuddur və biznes aparılır. Ümumiyyətlə, iş adamı onun üçün faydalı olan biznes sahəsini rəsmilərdən daha yaxşı müəyyən edir.

Birgə işləmək üçün yaxşı iradəmiz var. Ölkələrimiz dostdur, biz bir-birimizə çox güclü siyasi dəstək veririk. Prezident Valdas Adamkusun Azərbaycana indiki səfəri ölkələrimiz arasında təşəkkül tapmış möhkəm siyasi münasibətlərin bariz nümunəsidir. Bizim potensialımız var. İki tərəf arasında istifadə olunacaq və qarşılıqlı fayda gətirəcək imkanlar var. Bu gün burada hər iki ölkənin çoxsaylı iş adamları əyləşib və onlar potensial əməkdaşlıq imkanlarını müzakirə edəcəklər. Hesab edirəm ki, siz diqqətinizi əsasən praktik məsələlərə yönəltsəniz, çox faydalı olar. Siz qanun normaları, hüquqi sistem, vergi sistemi, sərmayə imkanları, layihələr ilə tanış ola bilərsiniz. Bu yaxınlarda biz

dövlətə məxsus olan sərmayə şirkəti yaratmışıq. Onun ilkin kapitalı 100 milyon ABŞ dollarıdır. Bu, yalnız cari il üçün nəzərdə tutulub və gələn il, bu rəqəm ola bilsin ki, artırılacaqdır. Bu şirkətin məqsədi Azərbaycanda müxtəlif sənaye layihələrinin həyata keçirilməsində həmsərmayəçi olmaqdır. Bu, xarici sərmayədarları ölkəyə cəlb edə bilər.

Biz hökumət tərəfindən təcili qaydada inkişaf etdirilməli və prioritet xarakterli əsas sahələri müəyyən etməliyik. Eyni zamanda, hesab edirəm ki, dövlət sərmayə şirkətinin Azərbaycanda həmin layihələrdəki iştirakı potensial sərmayədarların etimadını artıracaqdır. Yəni əgər onlar dövlət şirkəti ilə hansısa layihədə iştirak etsələr, onun uğuruna tam əmin olacaqlar.

Bütün imkanlar göz qabağındadır. Hesab edirəm ki, əgər işgüzar dairələr həyata keçirilməsini planlaşdırdığımız praktik layihələrə və sizin düşündüyünüz layihələrə diqqət yetirsələr, onda bunun nəticələri olacaqdır.

Mən sizin hamınızı bir daha salamlamaq istəyirəm. Bugünkü tədbiri ikitərəfli münasibətlər üçün çox mühüm hesab edirəm və forum gələcəkdə əlaqələrimizin inkişafında əsas rol oynaya bilər. Mən fəaliyyətinizdə sizə uğurlar arzulayıram.

Çox sağ olun.

LİTVA PREZİDENTİ VALDAS ADAMKUSUN NİTQİ

- Çox sağ olun cənab Prezident!

Xanımlar və cənablar,

Görürəm ki, hörmətli Prezident Əliyev müəyyən edilməli bütün məsələləri, demək olar ki, artıq qeyd etdi. Lakin icazə verin, mən də müəyyən amilləri vurğulayım.

Hesab edirəm ki, bu cür görüşlər hətta diplomatik toplantılardan da vacibdir. Lakin mən sizi əmin etmək istəyirəm ki, ölkələrimizin münasibətləri elə bir yüksək səviyyəyə çatıb ki, mən hətta bu cür gözəl diplomatik münasibətlərin və əməkdaşlığın daha da yaxşılaşdırılmasına ehtiyac belə görmürəm.

Ancaq biznes adamlarımızın qarşısında hələ də istifadə olunmamış böyük imkanlar durur. Mən burada Litva tərəfinin perspektivlərini nəzərdə tuturam. Tamamilə razıyam ki, biz struktur baxımından eyni məkandan, planlı iqtisadiyyatdan çıxmış ölkələrik. O vaxt azad müəssisə, azad təşəbbüs, azad enerji kimi fikirlərə imkan verilmirdi. Lakin on beş il keçdikdən sonra mən hazırda əməkdaşlığımızın formalaşmış yeni konsepsiyasını qəbul edirəm. Fərəh hissi ilə demək istəyirəm ki, bu gün biz əldə etdiyimiz nailiyyətlər, gördüyümüz işlər haqqında nəinki danışa, onu real həyatda duya da bilərik. Bunlar bizim hamımız üçün olduqca yaxşı fürsət yaradır. Mən çox şadam ki, burada bizim çox güclü biznes nümayəndələrimiz əyləşiblər. Onlar müəyyən məsələlər barədə birbaşa fikir mübadiləsi aparmaq, imkanları və əməkdaşlıq yollarını araşdırmaq fürsətinə malik olacaq və daha yaxşı məhsulların istehsalı sahəsində rəqabət yollarını müzakirə edəcəklər. Beləliklə, biznesle məşğul olan həm sizin, həm bizim nümayəndələrimiz üçün təkan - gəlir və faydadır. Yəni burada söhbət ölkəmizə gəlib mavi gözlü gözəl sarışın qızlarla tanış olmaqdan və biznesi buna qurban verməkdən getmir. Buradakı əsas cavab - gəlirdir. Yəni Litva sizin böyük gəlirlər götürməyiniz üçün yaxşı imkanları təmin edən

bir ölkədir. Bizə belə bir əməkdaşlıq lazımdır. Təbii ki, bizim ölkədə sizin təbii sərvətlər kimi resurslarımız yoxdur. Lakin bizim sizin təbii sərvətlərinizə ehtiyacımız var. Bizə enerji daşıyıcıları lazımdır. Yalnız güclü iqtisadiyyat ölkəni siyasi cəhətdən də gücləndirə bilər.

Dünən biz Prezident Əliyevlə ölkələrimizin yeni struktura malik olan Avropadakı yeri barədə danışdıq. Biz qloballaşmanı müzakirə etdik. Bəzi insanlar buna hətta nifrətlə yanaşır, lakin mən demək istəyirəm ki, bu, pis ideya deyildir. Onun nəticəsində dünya sistemində mövcud olan bazarlara çıxış açılır. Biz bunun faydası üçün çalışmalıyıq, birgə işləməliyik. Mən adətən deyirəm ki, bu, həyatımızın ən böyük imkanlarıdır. Əgər biz bunu etməsək və fürsəti əldən qaçırsaq, onda heç kimi yox, özümüzü günahlandırmalıyıq. Beləliklə, Prezident Əliyevin indi dediyi sözləri mən təkrar etməyəcəyəm. Mən sizi bu forum kimi digər tədbirlərə dəvət edir, Litvaya səfər etməyə çağırıram. Bununla siz əldə etdiyimiz tərəqqini özünüz görəcəksiniz, sıfırdan başladığımız işlərlə tanış olacaq və keçmişlə müqayisədə, yeni dəyişiklikləri seyr edəcəksiniz.

Bu fürsət üçün çox minnətdaram və ümid edirəm ki, birgə əməkdaşlıq öz bəhrəsini verəcəkdir.

Çox sağ olun.

Sonra forum işini davam etdirdi. Litvanın təsərrüfat (iqtisadiyyat) nazirinin müavini Anitsemas İqnomas çıxışında ölkəsinin enerji ehtiyatlarından, neft və qaz məhsulları istehsalından, onların maya dəyərindən, ölkə daxilində satışının təşkilindən, bu məhsulların dünya bazarına çıxarılması yollarından, yükdaşımaların təşkilindən, vergi ödənişlərindən və s. danışdı.

Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun prezidenti Emil Məcidov ölkəmizdə özəl bölmənin sürətli inkişafından, Bakı-Tbilisi-Ceyhan ixrac neft kəməri vasitəsilə Azərbaycan neftinin dünya bazarına çatdırılmasından, ölkə büdcəsinin sürətli artımından, əhalinin alıcılıq qabiliyyətinin gündən-günə yüksəlməsindən ətraflı bəhs etdi. O bildirdi ki, gəlirlərin müəyyən hissəsi kənd təsərrüfatı, təhsil, səhiyyə, mədəniyyət və s. sahələrin inkişafına yönəldilir. Hazırda Azərbaycanın xarici kreditlərdən asılılığı yoxdur və ölkəmiz bizimlə işləmək istəyən əcnəbi sərmayəçilər üçün açıqdır.

Litva Sənaye İşçiləri Konfederasiyası xarici əlaqələr departamentinin direktoru Simonas Qirdziyayskas ölkəsinin iqtisadiyyatında üstünlük təşkil edən orta və kiçik biznesin inkişafı sahəsində təmsil etdiyi qurumun fəaliyyəti barədə ətraflı məlumat verdi.

Axırda hər iki ölkənin iş adamları qarşılıqlı iqtisadi əməkdaşlığın inkişaf etdirilməsinə dair danışıqlar apardılar.

SƏFƏR BAŞA ÇATDI

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin dəvəti ilə Bakıda ikigünlük rəsmi səfərdə olan Litva Respublikasının Prezidenti Valdas Adamkus iyunun 9-da vətənə yola düşmüşdür.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV RUSİYA TİBB ELMLƏRİ AKADEMİYASININ HƏQİQİ ÜZVLƏRİ, MƏŞHUR OFTALMOLOQLAR ARKADİ NESTEROVU VƏ ALEVTİNA BROVKİNANI QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 9-da Prezident Sarayında Rusiya Tibb Elmləri Akademiyasının həqiqi üzvləri, məşhur oftalmoloqlar Arkadi Nesterovu və Alevtina Brovkinanı qəbul etmişdir.

Akademik Zərifə xanım Əliyeva adına Azərbaycan Elmi Tədqiqat Göz Xəstəlikləri İnstitutunun yaranmasının 60 illiyi münasibətilə keçirilən tədbirlərdə iştirak etmək üçün Bakıya gəlmiş akademik Arkadi Nesterov və akademik Alevtina Brovkina Azərbaycan Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva ilə görüşlərindən böyük iftixar və məmnunluq hissi keçirdiklərini bildirdilər. Rusiyalı alimlər mərhum akademik Zərifə xanım Əliyeva ilə birgə elmi layihələr, elmi əsərlər üzərində çalışdıqları dövrləri xatırladaraq, onun oftalmologiya elminin inkişafında rolunu xüsusi qeyd etdilər.

Dövlətimizin başçısı Azərbaycanda tibb elminin, o cümlədən oftalmologiyanın inkişafına dövlət qayğısından danışdı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV RUSİYANIN FÖVQƏLADƏ HALLAR NAZİRİ SERGEY ŞOYQUNU QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 9-da Prezident sarayında Rusiya Federasiyasının fövqəladə hallar naziri Sergey Şoyqunu qəbul etmişdir.

Görüşdə ölkələrimiz arasında müxtəlif sahələrdə ikitərəfli əlaqələrin uğurla inkişaf etdiyi vurğulandı, Azərbaycanın və Rusiyanın müvafiq nazirlikləri və strukturları arasında əməkdaşlığın genişləndirilməsindən məmnunluq ifadə olundu.

Azərbaycanda Fövqəladə Hallar Nazirliyinin yenicə yaradılmasına baxmayaraq, dövlət tərəfindən bu sahəyə böyük qayğı, diqqət göstərildiyi və nazirliyin tam yüksək səviyyədə fəaliyyət göstərməsi üçün konkret işlərin görüldüyü vurğulandı. Hər iki ölkənin fövqəladə hallar nazirlikləri arasında əməkdaşlığın Azərbaycan-Rusiya münasibətlərində rol oynadığı bildirildi.

AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN XARİCİ DÖVLƏTLƏRDƏ VƏ BEYNƏLXALQ TƏŞKİLATLARDA NÜMAYƏNDƏLƏRİNİN TƏYİN EDİLMƏSİ VƏ ONLARIN FƏALİYYƏTİNİN TƏMİN OLUNMASI HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Cinayətkarlığa qarşı mübarizə, ictimai qaydanın və ictimai təhlükəsizliyin təmin edilməsi sahəsində Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin müvafiq beynəlxalq təşkilatlarla və xarici ölkələrin hüquq mühafizə orqanları ilə əməkdaşlığının effektivliyinin artırılması və inkişaf etdirilməsi məqsədi ilə qərara alıram:

1. Azərbaycan Respublikasının daxili işlər nazirinə Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla, daxili işlər orqanlarının funksiyalarının həyata keçirilməsinin

təmin edilməsi üçün mühüm əhəmiyyət kəsb edən xarici dövlətlərdə və beynəlxalq təşkilatlarda Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin xarici dövlətlərdə və beynəlxalq təşkilatlarda nümayəndələrinin təyin edilməsi səlahiyyəti verilsin.

2. Müəyyən edilsin ki, Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin xarici dövlətlərdə və beynəlxalq təşkilatlarda nümayəndələri Azərbaycan Respublikasının həmin xarici dövlətlərdəki səfirliklərinə, bu səfirliklərin strukturlarına və ştat cədvəllərinə daxil edilməməsi şərti ilə ezam olunurlar.

3. Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin xarici dövlətlərdə və beynəlxalq təşkilatlarda nümayəndələrinin pul təminatı dövlət büdcəsindən Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyinə ayrılmış vəsait hesabına həyata keçirilir.

4. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin xarici dövlətlərdə və beynəlxalq təşkilatlarda nümayəndələrinin fəaliyyətinin təmin olunması ilə bağlı maliyyə və maddi-texniki təchizat məsələlərini həll etsin.

5. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi öz səlahiyyətləri daxilində bu Fərmandan irəli gələn məsələləri həll etsin.

6. Bu Fərman dərc edildiyi gündən qüvvəyə minir.

İlham Əliyev

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 12 iyun 2006-cı il.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV CORC BUŞ ADMİNİSTRASİYASI APARATININ KEÇMİŞ RƏHBƏRİ CON SUNUNUNU QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 12-də Prezident sarayında ABŞ-ın Nyu-Hempşir ştatının keçmiş qubernatoru, Corc Buş Administrasiyası aparatının sabiq rəhbəri Con Sununu qəbul etmişdir.

Söhbət zamanı Azərbaycan-ABŞ ikitərəfli münasibətləri, regional əməkdaşlıq barədə və qarşılıqlı maraq doğuran bir sıra digər məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV QİƏT-İN BAŞ KATİBİ LEONİDAS XRİZANTOPULOSU QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 12-də Prezident sarayında Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının (QİƏT) baş katibi Leonidas Xrizantopulosu qəbul etmişdir.

QİƏT-in baş katibi Azərbaycanda bir neçə səmərəli görüşlər keçirdiyini, Heydər Əliyev Fondunda olduğunu, onun ölkənin sosial həyatında böyük işlər gördüyünün şahidi olduğunu söylədi. Qonaq dövlətimizin başçısının rəhbərliyi ilə Azərbaycanda iqtisadiyyatın yüksək sürətlə inkişaf etdiyini vurğuladı.

Prezident İlham Əliyev Azərbaycanın müxtəlif beynəlxalq və regional təşkilatlarla, o cümlədən QİƏT-lə əməkdaşlığının daim genişləndiyini bildirdi, iqtisadiyyatın sürətli inkişafı istiqamətində görülən işlərdən danışdı.

Görüşdə Azərbaycanla QİƏT arasında müxtəlif sahələrdə əməkdaşlığa dair fikir mübadiləsi aparıldı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV QARA DƏNİZ TİCARƏT VƏ İNKİŞAF BANKININ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 12-də Prezident sarayında Qara Dəniz Ticarət və İnkişaf Bankının prezidenti Hayrettin Kaplanın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Azərbaycana səfər etmələrindən çox şad olduqlarını bildirən və onlara göstərilən qonaqpərvərliyə görə təşəkkür edən bankın prezidenti dedi ki, çox uğurlu görüşlər keçirmişik və bir sıra birgə layihələrimiz var.

Prezident İlham Əliyev nümayəndə heyəti ilə görüşdən şad olduğunu vurğulayaraq dedi ki, belə görüşlər gələcəkdə əlaqələrimizin daha da inkişaf etməsinə xidmət edir. Bu yaxınlarda Rumıniyada Qara dəniz forumunda iştirak etdik, bir cox məsələlər, xüsusilə Qara dəniz və Xəzər dənizi regionları arasında əməkdaşlıq məsələləri müzakirə olundu. Hazırda regional əməkdaşlıqla bağlı layihələrin, o cümlədən nəqliyyat, enerji layihələrinin xüsusi əhəmiyyəti olduğunu vurğulayan dövlətimizin başçısı bildirdi ki, bunlar bizi daha da yaxınlaşdırır. Deyə bilərik ki, bu əməkdaşlıq uğurla həyata keçirilir, işbirliyimiz əməli xarakter daşıyır. Qara dəniz və Xəzər dənizi regionları artıq vahid region kimi qəbul edilir. Prezident İlham Əliyev vurğuladı ki, şübhəsiz, bu, regionda iqtisadi, siyasi vəziyyətə, təhlükəsizlik və sabitliyə təsir göstərə bilər. Sizin təmsil etdiyiniz xaqlarla gözəl münasibətlərimiz var.

Dövlətimizin başçısı daha sonra dedi ki, Azərbaycanda enerji, nəqliyyat və digər sahələrdə bir sıra layihələrin həyata keçirilməsi uğurla davam edir. Təbii ki, bu cür layihələrin maliyyə dəstəyinə ehtiyacı var. Müxtəlif ölkələr, onların şirkətləri əməkdaşlıqdan mənfəət əldə olunmasını görməlidir.

MİLLİ MƏCLİSDƏ GÖRÜŞ

Milli Məclisin sədri Oqtay Əsədov iyunun 12-də Polşa Senatının Avropa İttifaqı məsələləri üzrə Komissiyasının sədri Karol Karskinin başçılığı ilə ölkəmizdə səfərdə olan nümayəndə heyəti ilə görüşmüşdür.

Oqtay Əsədov ölkələrimiz arasındakı dostluq əlaqələrinin qədim tarixindən danışmış, münasibətlərimizin genişlənməsində dövlətlərimizin başçılarının rolunu xüsusi vurğulamışdır. Bildirmişdir ki, Prezidentlərin qarşılıqlı səfərləri zamanı imzalanmış çoxsaylı sənədlər əlaqələrimizin inkişafı üçün möhkəm hüquqi baza yaratmışdır. Biz istərdik ki, münasibətlərimiz daha da genişlənsin və ümidvarıq ki, bu səfərdən sonra parlamentlərarası əlaqələrimiz daha da möhkəmlənəcək və inkişaf edəcəkdir.

Milli Məclisin sədri Azərbaycanda həyata keçirilən hüquqi, iqtisadi, demokratik islahatlar barədə qonaqlara ətraflı məlumat vermiş, xarici sərmayədarlar üçün əlverişli şərait olduğunu diqqətə çatdırmışdır.

Karol Karski onlara göstərilən qonaqpərvərliyə görə minnətdarlığını bildirmiş, ölkəsinin parlament sədrinin salamlarını Oqtay Əsədova çatdırmışdır. Bildirmişdir ki, onun ölkəsi Azərbaycan ilə əlaqələrin inkişafında maraqlıdır. Səfərdən məqsəd münasibətlərimizi genişləndirmək üçün məsləhətləşmələr aparmaqdır.

Sonra görüşdə qarşılıqlı maraq doğuran digər məsələlərlə bağlı ətraflı fikir mübadiləsi aparılmışdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ABŞ-IN "HALLİBÖRTN" ŞİRKƏTİNİN PREZİDENTİ VƏ BAŞ İCRAÇI DİREKTORU DEVİD LEZARI QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 13-də Prezident sarayında ABŞ-ın "Hallibörtn" şirkətinin prezidenti və baş icraçı direktoru Devid Lezarı qəbul etmişdir.

Qonaq Azərbaycan nefti yüklənmiş ilk tankerin Ceyhan limanından yola salınması münasibətilə Prezident İlham Əliyevi təbrik edərək, bunun çox əlamətdar hadisə olduğunu vurğuladı, eyni zamanda, BTC layihəsinin uğurla həyata keçirilməsində rəhbərlik etdiyi şirkətin iştirakından böyük məmnunluq duyduğunu söylədi. O bildirdi ki, BTC kəmərinin istifadəyə verilməsi Azərbaycanın regional liderliyini nümayiş etdirir və dünya enerji bazarı üçün böyük əhəmiyyət kəsb edir. BTC layihəsinin həqiqətən dünya standartlarına tam cavab verdiyini söyləyən cənab Lezar dedi ki, bu, bizim şirkətin indiyədək iştirak etdiyi ən yüksək səviyyəli layihələrdən biridir.

Prezident İlham Əliyev Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin istifadəyə verilməsini tarixi hadisə adlandıraraq bildirdi ki, uzun illər bu layihə üzərində böyük iş getmiş və onun uğurla həyata keçirilməsinə nail olunmuşdur. İndi Azərbaycan öz neftini Bakı-Supsa, Bakı-Novorossiysk və Bakı-Tbilisi-Ceyhan kəmərləri ilə Avropa və dünya bazarlarına çıxarmaq üçün lazımi imkanlar qazanmışdır. BTC nadir infrastruktura malikdir və üç dənizi - Xəzər, Qara və Aralıq dənizlərini birləşdirir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV "bp-AZƏRBAYCAN" ŞİRKƏTİNİN PREZİDENTİ DEVİD VUDVORDU VƏ "BTC Co." ŞİRKƏTİNİN BAŞ İCRAÇI DİREKTORU MAYKL TAUNZENDİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 13-də Prezident sarayında "bp-Azərbaycan" şirkətinin prezidenti Devid Vudvordu və "BTC Co." şirkətinin baş icraçı direktoru Maykl Taunzendi qəbul etmişdir.

Devid Vudvord cənab Maykl Taunzendin Azərbaycanda fəaliyyətinin başa çatdığını xatırladaraq, Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəməri layihəsinin həyata keçirilməsində onun uğurlu işini vurğuladı.

Prezident İlham Əliyev Maykl Taunzendin xeyli müddətdir Azərbaycanda işlədiyini bildirərək dedi ki, o, möhtəşəm BTC layihəsinin həyata keçirilməsi sahəsində uğurla çalışmışdır. Maykl Taunzend ölkəmizdə gördüyü işlərə və BTC neft kəmərinin çəkilməsi ilə bağlı əldə edilmiş tarixi nailiyyətlərin iştirakçısı olduğuna görə fəxr edə bilər. Əminəm ki, o, Azərbaycanla əlaqələrini bundan sonra da uzun müddət saxlayacaqdır.

Dövlətimizin başçısı BTC layihəsinin həyata keçirilməsində xidmətlərinə görə Maykl Taunzendin "Şöhrət" ordeni ilə təltif olunması barədə Sərəncam imzaladığını bildirdi və ordeni ona təqdim etdi.

Maykl Taunzend yüksək mükafata görə Prezident İlham Əliyevə təşəkkürünü bildirərək dedi: Bu, mənim üçün böyük şərəfdir. Sizin qeyd etdiyiniz kimi, mən Azərbaycanda həyatımın ən gözəl illərini yaşadım və işlədim. Burada keçirdiyim illər xoş xatirə kimi qəlbimdə daim yaşayacaqdır. Cənab Prezident, Sizə bir daha dərin təşəkkürümü ifadə edirəm.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AVROPA ŞURASI NAZİRLƏR KOMİTƏSİNİN "AQO" QRUPUNUN SƏDRİ ROLAND VEGENERİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 13-də Prezident sarayında Avropa Şurası Nazirlər Komitəsinin "Aqo" qrupunun sədri Roland Vegenerin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Roland Vegener Avropa Şurasının Azərbaycanda gedən proseslərə diqqət göstərdiyini vurğuladı. O, ölkəmizə əvvəlki səfərlərini məmnunluqla xatırladaraq, bu səfərlər zamanı olduqca maraqlı görüşlər keçirdiyini bildirdi. Azərbaycanda təkrar parlament seçkilərinə toxunan qonaq bu seçkilərin çox yaxşı səviyyədə keçdiyini qeyd etdi. Qrupun sədri Azərbaycanla Venesiya Komissiyası arasında seçki qanunvericiliyinin təkmilləşdirilməsi ilə bağlı aparılan məsləhətləşmələri alqışladığını bildirdi.

Prezident İlham Əliyev nümayəndə heyətinin Azərbaycana səfərinin əməkdaşlığın hazırkı vəziyyəti və perspektivlərinin müzakirəsi üçün yaxşı imkan yaratdığını vurğuladı.

Görüş zamanı qarşılıqlı maraq doğuran bir sıra məsələlərlə bağlı fikir mübadiləsi aparıldı.

"MÜSTƏQİL DÖVLƏTLƏR BİRLİYİNİN İŞTİRAKÇISI OLAN DÖVLƏTLƏR ARASINDA İNSAN ALVERİNƏ, İNSAN ORQANLARI VƏ TOXUMALARININ QANUNSUZ TİCARƏTİNƏ QARŞI MÜBARİZƏ SAHƏSİNDƏ ƏMƏKDAŞLIQ HAQQINDA SAZİŞ"İN İCRASININ TƏMİN EDİLMƏSİ BARƏDƏ AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

1. "Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlər arasında insan alverinə, insan orqanları və toxumalarının qanunsuz ticarətinə qarşı mübarizə sahəsində əməkdaşlıq haqqında Saziş"in 2-ci maddəsinin 3-cü bəndinə uyğun olaraq, Azərbaycan Respublika-

sı tərəfindən səlahiyyətli orqan kimi Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi təyin edilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişin 2-ci maddəsinin 3-cü bəndinə uyğun olaraq, səlahiyyətli orqan kimi Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyinin təyin edilməsi barədə Müstəqil Dövlətlər Birliyinə müvafiq bildiriş göndərsin.

İlham Əliyev

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 13 iyun 2006-cı il

AZƏRBAYCAN İLƏ CƏNUBİ AFRİKA RESPUBLİKASI ARASINDA ƏMƏKDAŞLIQ ÜÇÜN BÖYÜK İMKANLAR VARDIR

Xarici İşlər naziri Elmar Məmmədyarov Cənubi Afrika Respublikasının (CAR) Qazaxıstan Respublikasındakı səfiri Beki Gilanın rəhbərlik etdiyi CAR Xarici İşlər Nazirliyinin Mərkəzi və Şərqi Asiya İdarəsinin əməkdaşlarından ibarət nümayəndə heyəti ilə görüşmüşdür.

Səfir B.Gilan səfərdən başlıca məqsədin ölkələrimiz arasında müxtəlif sahələr üzrə münasibətlərin inkişafına dair imkanların araşdırılması olduğunu söyləmişdir.

CAR-ın dünyada və BMT sistemində aparıcı ölkələrdən olduğunu bildirən nazir E.Məmmədyarov əməkdaşlıq üçün böyük imkanları qeyd etmişdir.

Tərəflər Azərbaycan ilə CAR arasında siyasi, iqtisadi, turizm və s. sahələrdə əməkdaşlıq imkanlarının öyrənilməsi və inkişaf etdirilməsi məqsədi ilə hər iki ölkənin müvafiq dövlət qurumları arasında məsləhətləşmələrin aparılması, iş adamlarının qarşılıqlı səfərlərinin təşkili barədə razılığa gəlmişlər.

E.Məmmədyarov ölkəmizin siyasi, sosial-iqtisadi vəziyyətinə, respublikamızın regional dövlətlərlə münasibətləri və digər məsələlərə dair qonaqları maraqlandıran suallara cavab vermişdir. Nazir Azərbaycanın təşəbbüsü və rəhbərliyi ilə həyata keçirilən irimiqyaslı enerji və nəqliyyat layihələrindən söz açmış, ötən il ümumi daxili məhsulun 26 faiz, sənaye istehsalının isə təxminən 47 faiz artdığını bildirmişdir.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə toxunan nazir, Azərbaycan ərazilərinin 20 faizinin Ermənistan silahlı qüvvələri tərəfindən işğal edildiyini, bu ərazilərdə etnik təmizləmə siyasətinin həyata keçirildiyini diqqətə çatdırmışdır. Azərbaycan rəhbərliyinin münaqişənin sülh yolu ilə həllinə üstünlük verdiyini bildirən E.Məmmədyarov, işğal edilmiş ərazilərin boşaldılması, qaçqın və məcburi köçkünlərin öz doğma torpaqlarına qaytarılmasının zəruriliyini vurğulamışdır.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da geniş fikir mübadiləsi aparılmışdır.

AZƏRBAYCAN XARİCİ İŞLƏR NAZİRLİYİNİN NÜMAYƏNDƏ HEYƏTİ ANKARADA BİR SIRA SƏMƏRƏLİ GÖRÜŞLƏR KEÇİRMİŞDİR

Xarici işlər nazirinin müavini Xələf Xələfovun başçılıq etdiyi nümayəndə heyəti Türkiyə-Azərbaycan siyasi məsləhətləşmələri çərçivəsində iyunun 13-14-də Ankarada bir sıra səmərəli görüşlər keçirmişdir.

Nümayəndə heyətinin Türkiyə Milli Təhlükəsizlik Şurasının baş katibi Yigit Alpdoğan və Xarici İşlər Nazirliyinin müşaviri Əli Tuyqan ilə keçirdiyi görüşlərdə ikitərəfli münasibətlərin perspektivləri müzakirə olunmuşdur.

İyunun 14-də nümayəndə heyətinin Türkiyə Baş nazirinin müavini, xarici işlər naziri Abdullah Gül ilə görüşü oldu. Onun səmimi salamlarını Prezident İlham Əliyevə və xarici işlər naziri Elmar Məmmədyarova çatdırmağı xahiş edən Abdullah Gül, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin "bir millət, iki dövlət" kəlamına uyğun olaraq, iki qardaş ölkə arasında gündən-günə möhkəmlənən əməkdaşlığın və həmrəyliyin bundan sonra da davam etdirilməsinin zəruriliyini vurğuladı. O, iyunun 19-21-də Bakıda keçiriləcək çox mühüm tədbirdə - İslam Konfransı Təşkilatının üzvü olan ölkələrin xarici işlər nazirlərinin görüşündə iştirak edəcəyini bildirdi. İyulun 13-də Bakı-Tbilisi-Ceyhan neft kəmərinin təntənəli açılış mərasimində Azərbaycan Prezidenti İlham Əliyevin iştirakından şərəf duyacaqlarını vurğulayan Abdullah Gül dedi ki, bu layihənin başa çatması regionda irimiqyaslı layihələrin uğurla həyata keçirilə biləcəyini bir daha sübut etdi. Bu layihələrdən ən çox faydalanan qardaş Azərbaycan olacaqdır. Azərbaycan öz zəngin təbii sərvətlərini dünya bazarlarına çatdıracaq və artıq Ceyhan bir Azərbaycan limanı, habelə Azərbaycanın da sərhədi olmuşdur.

Abdullah Gül Qazaxıstanın da BTC-yə qoşulması ilə bağlı Prezident Nursultan Nazarbayevlə bu yaxınlarda keçirdiyi görüş barədə də məlumat verdi və Qazaxıstan neftinin bir qisminin bu kəmər vasitəsilə nəqlinin üç qardaş ölkənin daha da yaxınlaşmasına xidmət edəcəyini söylədi. Nazir Azərbaycanın iqtisadi, hərbi baxımdan və demokratiyanın inkişafı cəhətindən daha da güclənməsindən məmnunluğunu ifadə etdi.

Dağlıq Qarabağ münaqişəsinin həllində Ermənistanın qeyri-konstruktiv mövqe tutmaqda davam etməsindən təəssüfləndiyini bildirən Abdullah Gül bu məsələdə Türkiyənin qardaş Azərbaycan xalqını daim dəstəkləyəcəyini bir daha vurğuladı.

Azərbaycan xarici işlər nazirinin müavini Xələf Xələfov dedi ki, Türkiyənin son zamanlar qazandığı uğurlar bizi sevindirir və həyata keçirilən birgə irimiqyaslı iqtisadi layihələr qardaş ölkələrimizin dünyada mövqeyini daha da gücləndirir. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ probleminin həllinə dair ölkəmizin mövqeyini hər zaman dəstəklədiyinə görə Türkiyə xalqına və dövlətinə təşəkkürünü bildirən xarici işlər nazirinin müavini ölkəmizin də Türkiyənin problemlərinə, xüsusilə qondarma "erməni soyqırımı" məsələsində rəsmi Ankaranın mövqeyinə həssaslıqla yanaşdığını və bu mövqeyi daim dəstəklədiyini vurğuladı.

AZƏRBAYCAN XARİCİ İŞLƏR NAZİRLİYİNİN NÜMAYƏNDƏ HEYƏTİ TÜRKİYƏNİN AVRASİYA STRATEJİ ARAŞDIRMALAR MƏRKƏZİNDƏ GÖRÜŞ KEÇİRMİŞDİR

Türkiyə-Azərbaycan siyasi məsləhətləşmələrin keçirilməsi çərçivəsində Ankarada səfərdə olan xarici işlər nazirinin müavini Xələf Xələfovun başçılıq etdiyi nümayəndə heyəti iyunun 15-də Avrasiya Strateji Araşdırmalar Mərkəsində (ASAM) görüş keçirmişdir.

Azərbaycanlı diplomatları salamlayan Bəşəriyyətə Qarşı Cinayətlər üzrə Tədqiqat İnstitutunun sədri, keçmiş səfir Ömər Əngin Lütem ASAM-ın fəaliyyəti barədə geniş məlumat verərək bildirmişdir ki, Türkiyənin 1999-cu ildə yaradılmış bu ən böyük siyasi tədqiqatlar mərkəzində Qafqaz regionu, Balkanlar, Yaxın Şərq, Çin və Yaponiya bölmələri fəaliyyət göstərir. Mərkəzdə, həmçinin, Türkiyə ilə Azərbaycanın müştərək problemi olan Dağlıq Qarabağ münaqişəsi və qondarma "erməni soyqırımı" ilə bağlı araşdırmalar da aparılır və onların nəticələri mütəmadi olaraq türk və dünya mətbuatında dərc olunur. Ömər Əngin Lütem Azərbaycanın xarici siyasət və iqtisadiyyat sahələrində əldə etdiyi uğurları yüksək qiymətləndirərək, ASAM-da oktyabrın 9-13-də ölkəmizlə bağlı geniş simpozium keçiriləcəyini diqqətə çatdırmışdır.

Nümayəndə heyətinin başçısı, xarici işlər nazirinin müavini Xələf Xələfov Azərbaycanın xarici siyasətinin əsas istiqamətləri barədə geniş məlumat verərək bildirmişdir ki, xalqımızın ümummilli lideri Heydər Əliyevin əsasını qoyduğu və bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilən diplomatiyamızın öncül prinsiplərindən biri də qonşularımızla konstruktiv və bərabərhüquqlu əməkdaşlıq, böyük Atatürkün kəlamı ilə desək "Yurdda sülh, cahanda sülh" meyarıdır.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizamlanması və problemin həllinə dair ölkəmizin mövqeyindən ətraflı bəhs edən Xələf Xələfov, bu məsələdə Azərbaycanın haqq işini daim dəstəklədiyinə görə Türkiyə xalqına və dövlətinə təşəkkürünü bildirmişdir. O, Türkiyənin problemlərinin Azərbaycanın problemləri olduğunu diqqətə çatdıraraq, xarici siyasət sahəsində əməkdaşlığın yüksək səviyyədə olduğunu vurğulamışdır.

Xələf Xələfov Azərbaycanda gedən iqtisadi tərəqqi, sosial islahatlar, digər məsələlərlə bağlı görüş iştirakçılarını maraqlandıran suallara cavab vermış, ASAM-ın fəxri qonaqlar kitabına ürək sözlərini yazmışdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN QAZAXISTANA SƏFƏRİ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "Asiyada qarşılıqlı fəaliyyətə və etimad tədbirlərinə dair müşavirə"də iştirak etmək üçün iyunun 16-da Qazaxıstanın Almatı şəhərinə gəlmişdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ QAZAXISTAN PREZİDENTİ NURSULTAN NAZARBAYEVİN GÖRÜŞÜ

İyunun 16-da Qazaxıstan Prezidentinin Almatıdakı sarayında Azərbaycan Prezidenti İlham Əliyevin və Qazaxıstan Prezidenti Nursultan Nazarbayevin görüşü olmuşdur.

Dövlət başçıları hər iki ölkənin beynəlxalq imicinin artdığını vurğuladılar.

Prezident İlham Əliyev xalqımızın ümummilli lideri Heydər Əliyevin və Qazaxıstan Prezidenti Nursultan Nazarbayevin birgə səyləri nəticəsində möhkəm bünövrəsi qoyulan Azərbaycan-Qazaxıstan münasibətlərinin uğurla inkişaf etdiyini söylədi. Qazaxıstan Prezidenti Nursultan Nazarbayevin Azərbaycana rəsmi səfərlərinin real töhfələr verdiyini bildirdi.

Prezident Nursultan Nazarbayev əlaqələrin daha da inkişafı üçün böyük potensial imkanlar olduğunu, Azərbaycan iqtisadiyyatının sürətli inkişafına qazaxıstanlıların da sevindiyini vurğuladı. Vaxtilə ulu öndər Heydər Əliyevin ən mühüm məsələlərdə Qazaxıstanı hərtərəfli dəstəklədiyini xüsusi qeyd etdi. Xəzərin statusu məsələsində hər iki ölkənin mövqeyinin üst-üstə düşdüyünü bildirən Nursultan Nazarbayev dedi ki, Xəzərlə bağlı işbirliyi regional əməkdaşlığa da əlverişli imkanlar yaradır. Neft-qaz sektorunu uğurla inkişaf etdirən Qazaxıstan Azərbaycanın bu sahədə zəngin təcrübəsindən bəhrələnməkdə maraqlıdır.

Dövlət başçıları iqtisadi sahədə, o cümlədən kənd təsərrüfatı sahəsində əməkdaşlığın genişləndirilməsi üçün böyük potensial imkanların olduğunu vurğuladılar.

Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli məsələsinə dair də ətraflı fikir mübadiləsi aparıldı.

QAZAXISTANIN BTC-YƏ QOŞULMASI HAQQINDA MÜQAVİLƏNİN İMZALANMASI

Dövlət başçılarının görüşü başa çatdıqdan sonra Prezident sarayında "Azərbaycan Respublikası ilə Qazaxıstan Respublikası arasında neftin Qazaxıstan Respublikasından Xəzər dənizi və Azərbaycan Respublikasının ərazisi ilə Bakı-Tbilisi-Ceyhan sistemi vasitəsilə beynəlxalq bazarlara nəql edilməsinə dəstək verilməsi və şərait yaradılması haqqında" müqavilənin imzalanması mərasimi oldu. Müqaviləni Azərbaycan Prezidenti İlham Əliyev və Qazaxıstan Prezidenti Nursultan Nazarbayev imzaladılar.

Müqavilə imzalandıqdan sonra dövlət başçıları kütləvi informasiya vasitələrinin nümayəndələri üçün brifinq keçirdilər.

Prezidentlər brifinqdə bəyanatlarla çıxış etdilər.

QAZAXISTAN PREZİDENTİ NURSULTAN NAZARBAYEVİN BƏYANATI

- Hörmətli xanımlar və cənablar!

Hörmətli kütləvi informasiya vasitələrinin nümayəndələri!

İndi biz Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevlə çox mühüm, səmimi danışıqlar apardıq. Elə indicə, sizin gözləriniz qarşısında Qazaxıstan neftinin Bakı-Tbilisi-Ceyhan boru kəməri ilə nəqlinə şərait yaradılması haqqında müqavilə imzaladıq. Bu, çox mühüm müqavilədir və biz onu uzun müddət işləyib hazırlamışıq. Mütəxəssislərimiz yaxşı işlədilər və sənədin imzalanmasını mümkün etdilər.

Müqavilənin əhəmiyyətini lazımınca qiymətləndirmək çətindir. Xəzər dənizinin hər iki tərəfindən məhz Qazaxıstan və Azərbaycan Mərkəzi Asiya regionunun dövlətləri ilə ticarət üçün əsas birləşdirici vəsilədir, ən başlıcası isə, neftin nəqli üçün biz Rusiya və Çin istiqamətləri ilə yanaşı, üçüncü yolu da əldə edirik. 2015-ci ilədək Qazaxıstanda neft hasilatının getdikcə artacağı bu yolun da işləməsini zərurətə çevirir. Müqaviləyə uyğun olaraq, 2010-cu ilədək Xəzərin həm Qazaxıstan, həm də Azərbaycan sahilində infrastruktur obyektləri tikiləcək - mən yeni terminalları, tankerlərlə nəqletmə üçün yeni imkanları nəzərdə tuturam. Bütün bunlara müvafiq vəsait qoyulacaqdır. Sonra neftin getdikcə artan həcmdə miqdarı müəyyənləşdiriləcək, neft Qazaxıstan üçün çox vacib olan bu boru kəməri ilə nəql ediləcəkdir.

Hesab edirəm ki, bu, ənənəvi surətdə dost olan, bir-birinə həmişə səmimiyyətlə yanaşan, ümumi kökləri, ümumi mədəniyyəti olan dövlətlərimizin qarşılıqlı münasibətlərində çox mühüm tarixi hadisə, ticarətimizin yüksək sürətlə artması üçün vacib imkandır.

İlham Heydər oğlu, mən Sizi bu müqavilə münasibətilə təbrik edir və salamlayıram, bu müşavirədə iştirak etmək üçün gəldiyinizə görə Sizə təşəkkürümü bildirirəm.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN BƏYANATI

- Hörmətli xanımlar və cənablar!

İlk növbədə, Qazaxıstana dəvətə görə hörmətli Qazaxıstan Prezidenti Nursultan Abişoviç Nazarbayevə təşəkkür etmək istərdim. Bu, mənim üçün çox vacibdir. İkitərəfli münasibətlərə, regional əməkdaşlığa dair məsələlərin olduqca geniş spektri haqqında çox mühüm danışıqlar aparıldı. Enerji təhlükəsizliyi, kommunikasiya, nəqliyyat, regionda təhlükəsizlik tədbirlərinin gücləndirilməsi məsələləri də əlbəttə ki, regionda ölkələrimiz arasında sıx qarşılıqlı fəaliyyətdən asılı olacaqdır.

Qazaxıstan neftinin Bakı-Tbilisi-Ceyhan boru kəməri sistemi ilə nəqli haqqında Qazaxıstan ilə Azərbaycan arasında imzalanmış bugünkü dövlətlərarası müqavilə də ölkələrimizin münasibətlərinin yüksək səviyyədə olduğunu bir daha göstərir. Bu, qardaş xalqlar arasında, bir-birinə həmişə kömək etmiş və bu gün də müttəfiqlik nümunəsi olan ölkələr arasında ənənəvi münasibətlərdir.

Bakı-Tbilisi-Ceyhan boru kəmərinin əhəmiyyəti yəqin ki, sonralar özünü göstərəcəkdir. Biz ona doğru çox uzun müddət irəliləmişik. Bu layihənin həyata keçirilməsi üçün Azərbaycanda çox böyük iş görülmüşdür. Boru kəmərinin Azərbaycanın ulu öndəri Heydər Əliyevin adını daşıması təsadüfi deyil, çünki bu layihə məhz onun təşəbbüsü ilə həyata keçirilməyə başlanmışdır. Çoxları onu qeyri-real, mümkün olmayan, kommersiya baxımından səmərəsiz və sair, və ilaxır layihə kimi qəbul edirdi. Amma həyat göstərdi ki, bu layihəyə inananlar, onu həyata keçirənlər haqlıdırlar. İndi Bakı-Tbilisi-Ceyhan reallıqdır, Xəzəri Aralıq dənizi ilə ilk dəfə birləşdirən və bununla da Xəzərin enerji

ehtiyatlarını dünya bazarlarına çıxarmağa imkan verən nadir nəqliyyat infrastrukturudur. O, ən müasir texnologiyadır və Azərbaycana, Qazaxıstana həmin istiqamətdə milyonlarla ton neft nəql etməyə imkan verəcəkdir. Boru kəmərinin buraxılış gücü hazırda ildə 50 milyon tondur, lakin texniki təkmilləşdirmələr hesabına, bu, demək olar, iki dəfə artırıla bilər.

Beləliklə, o, regionun ən iri neft arteriyası olacaqdır. Boru kəməri işə salındıqdan heç bir ay keçməmiş Qazaxıstanın ona qoşulması da bu layihənin nə dərəcədə vacib olduğuna sübutdur. Boru kəməri bu il mayın 28-də, Azərbaycanın Respublika günündə istismara verildi. İndi o, işləyir, neftlə doldurulur və gələcəkdə xalqlarımız onun fəaliyyətindən həm iqtisadi cəhətdən, həm müstəqil siyasətimizin möhkəmlənməsi baxımından, həm də regional əməkdaşlığın inkişafı baxımından və əlbəttə ki, regionda təhlükəsizlik sisteminin möhkəmlənməsi sarıdan ancaq fayda götürəcəklər.

Mənə çox xoşdur ki, bu tarixi gündə biz regionun dinamik inkişafını, enerji ehtiyatlarının dünya bazarlarına çatdırılmasının alternativ yolunu on illərlə öncədən müəyyənləşdirən bir sənəd imzaladıq.

İndi enerji təhlükəsizliyi məsələləri ön sıraya keçir. Ona görə də Qazaxıstanın və Azərbaycanın səylərini birləşdirmək bizim üçün də, ümumən, regional layihələr üçün də çox vacibdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ RUSİYA PREZİDENTİ VLADİMİR PUTİNİN GÖRÜŞÜ

İyunun 16-da Almatıda, "Almalı" iqamətgahında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin görüşü olmuşdur.

Prezident İlham Əliyevlə Almatıda görüşməyindən məmnunluğunu bildirən Prezident Putin dedi ki, biz nəinki, tez-tez görüşürük, həm də ölkələrimiz arasında ikitərəfli əlaqələr sürətlə inkişaf edir. Bu əlaqələr iqtisadi və humanitar sahələrdə xüsusilə uğurludur. Bütün bunlar Azərbaycan rəhbərliyinin illər boyu tutduğu düzgün istiqamət nəticəsində mümkün olmuşdur. Mən buna görə Sizə minnətdaram. Bizim münasibətlərimizin həcmini nəzərə alsaq, bugünkü görüş çox məhsuldar xarakter daşıyır.

Səmimi sözlərə görə təşəkkür edən Azərbaycan Prezidenti İlham Əliyev Rusiya rəhbəri ilə yenidən görüşməyindən çox şad olduğunu bildirdi. Dövlətimizin başçısı dedi ki, sonuncu dəfə Azərbaycanda Rusiya İlinin açılışı zamanı görüşmüşük və ikitərəfli məsələləri müzakirə etdik. Hazırda Rusiya İli çox uğurla davam edir. Ölkələrimiz arasında əlaqələr müsbət istiqamətdə inkişaf edir və bundan çox məmnunuq. Əlaqələr bütün istiqamətlərdə, o cümlədən siyasi sahədə də inkişaf edir. Ölkələrimiz arasında ticarət dövriyyəsi də iki dəfə artıb və bunun daha da genişləndirilməsi üçün yeni imkanlar var. Humanitar sahədə də çox yaxşı əməkdaşlığın mövcud olduğunu bildirən Prezident İlham Əliyev dedi ki, Rusiya ilə münasibətlər bizim üçün prioritet xarakter daşıyır. Ölkələrimiz arasındakı dinamik inkişafdan məmnunuq. Bu münasibətlər dostluq, qardaşlıq, qonşuluq və tərəfdaşlığa əsaslanır.

Bu mühüm tarixi hadisə münasibətilə Qazaxıstan Prezidenti Nursultan Abişoviç Nazarbayevi, habelə Qazaxıstan və Azərbaycan xalqlarını təbirk etmək istəyirəm.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İSRAİL BAŞ NAZİRİNİN MÜAVİNİ ŞİMON PERESİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 16-da, onun üçün ayrılmış iqamətgahda - "Regent Ankara" mehmanxanasında İsrail Baş nazirinin müavini Şimon Peresi qəbul etmişdir.

Şimon Peres xalqımızın ümummilli lideri Heydər Əliyevlə görüşlərini məmnunluqla xatırlatdı.

Görüşdə qarşılıqlı maraq doğuran bir sıra məsələlər barədə fikir mübadiləsi aparıldı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV FƏLƏSTİN AZADLIQ TƏŞKİLATI İCRAİYYƏ KOMİTƏSİNİN ÜZVÜ MÜHƏMMƏD SƏƏD AUDİYANI QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 16-da, onun üçün ayrılmış iqamətgahda - "Regent Ankara" mehmanxanasında Fələstin Azadlıq Təşkilatı İcraiyyə Komitəsinin üzvü Mühəmməd Səəd Audiyanı qəbul etmişdir.

Görüşdə qarşılıqlı maraq doğuran bir sıra məsələlər barədə ətraflı fikir mübadiləsi oldu.

ALMATIDA "ASİYADA QARŞILIQLI FƏALİYYƏTƏ VƏ ETİMAD TƏDBİRLƏRİNƏ DAİR MÜŞAVİRƏ"NİN II SAMMİTİ KEÇİRİLMİŞDİR

İyunun 17-də Qazaxıstanın Almatı şəhərindəki "Regent Ankara" mehmanxanasında "Asiyada qarşılıqlı fəaliyyətə və etimad tədbirlərinə dair müşavirə"nin (AQFETM) II sammiti keçirilmişdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sammitdə iştirak etmişdir.

AQFETM ideyası 1992-ci ildə BMT Baş Məclisinin 47-ci sessiyasında Qazaxıstan Prezidenti Nursultan Nazarbayev tərəfindən irəli sürülmüşdür. Müşavirənin I sammiti 2002-ci ildə Almatıda keçirilmişdir. İndiyədək AQFETM-in 17 üzvü var idi: Azərbaycan, Əfqanıstan, İran, İsrail, Qazaxıstan, Qırğızıstan, Pakistan, Fələstin, Rusiya, Tacikistan, Tailand, Türkiyə, Özbəkistan, Çin, Monqolustan, Misir və Hindistan. II Sammitin xarici işlər nazirlərinin iştirakı ilə keçirilən iclasında indiyədək müşahidəçi statusuna malik olan Koreya Respublikasının Müşavirəyə qoşulması haqqında sənəd imzalandı. Beləliklə, üzv dövlətlərin sayı 18-ə çatdı. İndoneziya, Yaponiya, Malayziya, Ukrayna, ABŞ, Vyetnam, habelə BMT, ATƏT və Ərəb Dövlətləri Cəmiyyətinin Müşavirədə müşahidəçi statusu vardır.

Sammitin geniş iclasını Qazaxıstan Prezidenti Nursultan Nazarbayev açdı. O, Cənubi Koreyanın Müşavirəyə qoşulmasını AQFETM-in gələcəyinə olan qəti inamın nümunəsi kimi dəyərləndirdi. Qazaxıstan rəhbəri sammitdə iştirak edən Azərbaycan, Rusiya,

Çin, Əfqanıstan, Qırğızıstan, Tacikistan, Özbəkistan və Pakistan prezidentlərini, Türkiyə, Cənubi Koreya, Tailand, İsrail, Monqolustan, İran, Hindistan, Misir, Fələstin nümayəndə heyətlərini və müşahidəçi qismində sammitdə iştirak edən Ukrayna, İndoneziya, Yaponiya, Malayziya, ABŞ və Vyetnamın, BMT-nin, ATƏT-in və Ərəb Dövlətləri Cəmiyyətinin təmsilçilərini salamladı.

Prezident Nazarbayev sammitin gündəliyi barədə məlumat verdi. O dedi ki, AQFETM-in məqsəd və fəaliyyəti dünya ictimaiyyəti tərəfindən daha geniş mənada başa düşülür. Təşkilat region ölkələrinin iqtisadi inkişafının daha da güclənməsinə, genişlənməsinə təkan verəcək mühüm işlər görmək əzmindədir. Dialoqun davam etdirilməsi, təhlükələrin qarşısının alınması, münaqişələrin həll olunması, regional strukturlar çərçivəsində əməkdaşlığın möhkəmləndirilməsi və dərinləşdirilməsi və sabit iqtisadi artım zəruridir. Qazaxıstan AQFETM-də iqtisadi məsələlərə böyük əhəmiyyət verir və bunu iqtisadi təhlükəsizliyin və hərtərəfli əməkdaşlığın mühüm və ayrılmaz tərkib hissəsi hesab edir. Sirr deyil ki, bir sıra regionlarda yoxsulluğun və sosial deqradasiyanın artması yeni təhdidlərin yayılması üçün münbit şərait yaradır. Ona görə də sabit iqtisadi artım və davamlı inkişafın təmin olunması dövlətlərimizin müasir təhdidlərə adekvat cavab vermək qabiliyyətini xeyli dərəcədə müəyyən edir. Ticarət-iqtisadi əməkdaşlığın genişləndirilməsi bu sahədə etimadın möhkəmləndirilməsi işində ilk addım ola bilər. Qazaxıstan Prezidentinin fikrincə, AQFETM-in katibliyi bu işdə təşkiledici rol oynamalıdır.

Sonra Çin Xalq Respublikasının Sədri Xu Szintao, Rusiya Prezidenti Vladimir Putin, Özbəkistan Prezidenti İslam Kərimov, Pakistan Prezdenti Pərviz Müşərrəf, Tacikistan Prezidenti Emoməli Rəhmonov, Əfqanıstan Prezidenti Həmid Kərzai, Qırğızıstan Prezidenti Kurmanbek Bakiyev, Tailandın Baş naziri Taksin Çinavat, Türkiyə Baş nazirinin müavini, xarici işlər naziri Abdulla Gül, İsrail Baş nazirinin müavini Şimon Peres, Monqolustan, İran nümayəndələri və başqaları çıxış etdilər. Onlar sammitin əhəmiyyətindən danışdılar, Asiya regionunda sülhün, təhlükəsizliyin, təmin olunması üçün qarşılqılı fəaliyyətin və etimad tədbirlərinin həyata keçirilməsindən ötrü bütün səylərin birləşdirilməsinin vacibliyini bildirdilər. İqtisadi inkişaf üçün zəmin yaradan amillərdən istifadənin səmərəli nəticələr verəcəyinə əminlik vurğulandı.

Azərbaycan Prezidenti İlham Əliyev sammitdə çıxış etdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ÇIXIŞI

- Hörmətli cənab sədr!

Hörmətli dövlət və hökumət başçıları!

Xanımlar və cənablar!

İlk növbədə, bizə göstərilmiş qonaqpərvərliyə görə və sammitin gözəl təşkilinə görə Nursultan Abişoviç Nazarbayevə təşəkkür etmək istərdim.

Biz "Asiyada qarşılıqlı fəaliyyətə və etimad tədbirlərinə dair müşavirə"nin II sammitini dövlətlərimizin səylərini daha da əlaqələndirmək, regionda təhlükəsizlik tədbirlərini gücləndirmək, habelə səmərəli iqtisadi əməkdaşlığı qaydaya salmaq işində çox mühüm hadisə kimi qiymətləndiririk.

Asiya regionu dünyanın ən dinamik inkişaf edən regionudur. Bu gün və gələcəkdə onun inkişaf perspektivləri bütün sahələrdə daha səmərəli əməkdaşlıq üçün yeni imkanlar açacaqdır. Ölkələrimiz arasında siyasi əlaqələr yüksək səviyyədədir, bizi regional məsələlər bağlayır. İstərdik ki, iqtisadi əməkdaşlıq məsələlərində də böyük nailiyyətlər və irəliləyiş olsun. Bu baxımdan, planlaşdırdığımız mühüm nəqliyyat layihələrinin həyata keçirilməsi regional inkişaf üçün tamamilə yeni şərait yarada bilər. Bu isə regionumuzda təhlükəsizlik və sabitlik tədbirlərini möhkəmləndirməyin mühüm elementidir. Azərbaycan, öz növbəsində, nəqliyyat, kommunikasiya layihələrində mühüm rol oynamağa hazırdır. Biz Şərq-Qərb nəqliyyat dəhlizi layihəsində fəal iştirak edirik. Tarixi İpək yolunun bərpası ilə bağlı məsələlər regional inkişaf üçün, habelə Avropa ilə Asiya arasında əlaqələr üçün böyük maraq doğurur. Hazırda biz Avropa ilə Asiya arasında dəmir yolu əlaqəsi sisteminin möhkəmləndirilməsinə dair mühüm layihə üzərində fəal işləyirik. Bu baxımdan məhz Azərbaycan elə bir ölkədir ki, Asiya ilə Avropa arasında bu təbii körpü buradan keçir. Bizim vəzifəmiz bu strukturu möhkəmlətməkdən, tərəfdaşlarımız üçün sərfəli şərait yaratmaqdan və bununla da ölkələrimizin potensialını tam işə salmaqdan ibarətdir. Biz Şimal-Cənub nəqliyyat dəhlizinə də çox böyük əhəmiyyət veririk. Azərbaycan bunda da kifayət qədər fəal iştirak edir və özünün infrastrukturunu bütünlüklə tərəfdaş ölkələrin sərəncamına verməyə hazırdır.

Hər bir dövlətin inkişafı ancaq sabitlik şəraitində mümkündür. Dövlətlərimizin müsbət nümunəsi göstərir ki, sabitlik olan yerdə, ictimai konsensus olan yerdə inkişaf da var. Ölkələrimizin iqtisadiyyatlarının sürətlə inkişafı buna əyani sübutdur. Lakin regionumuzda böyük təhlükə də var. Bu gün artıq bu barədə danışıldı. Bu, ilk növbədə, beynəlxalq terrorizmdir. O, əslində, bütün planlarımızı alt-üst edə və sonu bəlli olmayan nəticələrə gətirib çıxara bilər. Təcrübə göstərmişdir ki, bu bəla ilə təklikdə mübarizə aparmaq mümkün deyildir. Bu məsələdə bütün dövlətlərin səylərini sıx birləşdirmək lazımdır, vahid yanaşma lazımdır, ikili standartlardan qurtarmaq lazımdır. Terrorizmin milliyyəti yoxdur, dini yoxdur, ona görə də bu məsələyə vahid mövqedən yanaşmaq üçün çox ciddi səylər gərəkdir. Pis terror təşkilatları, bitərəf terror təşkilatları ola bilməz, onların hamısına eyni mövqedən yanaşılmalıdır. Terrorizmdən ziyan çəkən ölkə kimi Azərbaycan terrorizmlə mübarizə ilə bağlı bir çox tədbirlərdə iştirak edir. Biz bu istiqamətdə gələcəkdə də işləyəcəyik. Erməni terror təşkilatları ölkəmizdə 32 terror aktı törətmiş və bunun nəticəsində iki min günahsız vətəndaşımız həlak olmuşdur. Terrorizmin xalqımıza vurduğu ağrı-acılar yaxşı məlumdur. Ona görə də bir daha demək istəyirəm ki, yalnız birgə səylər, vahid yanaşma bu bəlanı aradan qaldırmağa imkan verə bilər.

Regionumuzdakı həll edilməmiş münaqişələr də sabitlik üçün potensial və praktik təhlükə törədir. Azərbaycan Ermənistanın təcavüzü nəticəsində ərazisinin 20 faizi işğal altında olan ölkədir və bu işğal artıq 10 ildən çoxdur davam edir. Azərbaycanlılara qarşı həyata keçirilmiş etnik təmizləmə nəticəsində hazırda bir milyondan çox vətəndaşımız qaçqın və məcburi köçkün vəziyyətindədir. Biz ümid edirik ki, nüfuzlu beynəlxalq təşkilatların Ermənistan-Azərbaycan münaqişəsi ilə bağlı qətnamələri yerinə yetiriləcəkdir. Təəssüf ki, BMT-nin dörd qətnaməsi indiyədək yerinə yetirilməyibdir. Bu qətnamələrdə bütün işğalçı qüvvələrin Azərbaycan ərazisindən qeyd-şərtsiz çıxarılması tələb olunur. Ərazi bütövlüyü və sərhədlərin toxunulmazlığı prinsipi beynəlxalq hüququn hamılıqla qəbul olunmuş prinsipidir və ona dönmədən əməl edilməlidir. O ki qaldı ölkələrimizin ərazilərindəki azlıqların təhlükəsiz yaşaması məsələsinə, onların, demək olar, hər birində milli azlıqlar var. Lakin azlıq olmaq hələ o demək deyil ki, ərazinin azlıq yaşayan hissəsinin ayrılmasını tələb etmək və davakar separatçılıq siyasəti yürütmək lazımdır. Bu gün qəbul ediləcək bəyannamədə bu barədə çox aydın bəhs edilir. Ərazi bütövlüyü, separatçılıqla mübarizə regional inkişafın və təhlükəsizliyin dəyişməz elementləridir. Çünki separatçılıq meyillərinə göz yumulsa, bu məsələdə də ikili standartlardan çıxış edilsə, bir yerdə ərazi bütövlüyünün pozulması mümkün, digər yerdə qeyri-mümkün sayılsa, onda bu, bir çox ölkələr və bütün dünya üçün fəlakətli nəticələrə gətirib çıxaracaqdır. Ona görə də bunun üzərində çox ciddi düşünmək və belə məsələlərin həllinə vahid mövqedən yanaşmaq lazımdır. Dünyada muxtariyyətlərin çox müsbət təcrübəsi mövcuddur. Muxtariyyətlər Asiya regionunda da, Avropa regionunda da var. Odur ki, bu cür hər bir münaqişə yalnız və yalnız beynəlxalq hüquq normaları çərçivəsində, etimad tədbirlərinin möhkəmləndirilməsi şəraitində həll olunmalıdır.

Azərbaycan regional əməkdaşlıq məsələlərində iştirakına özünün xarici siyasətinin çox mühüm elementi kimi baxır. Biz hesab edirik ki, gələcəkdə Asiya regionunda əməkdaşlıq genişlənəcək, inkişaf edəcək, ölkələrimizin həm iqtisadi potensialı, həm də qarşılıqlı siyasi fəaliyyəti buna təkan verəcəkdir. Biz, öz tərəfimizdən, bütün regional layihələrə fəal qoşulmağa hazırıq və bunlarda iştirak etmək niyyətindəyik.

Diqqətinizə görə təşəkkür edirəm.

Nümayəndə heyətləri başçılarının çıxışlarından sonra AQFETM-in icra orqanının - Katibliyin yaradılması haqqında saziş imzalandı. Bu sənədə əsasən, forumun gələcək fəaliyyəti ilə bağlı inzibati, təşkilati və texniki məsələlər Katiblikdən idarə olunacaqdır. Katibliyin iqamətgahı Almatıda yerləşəcək və üzv ölkələr burada nümayəndələri ilə təmsil olunacaqdır. Qazaxıstan XİN-in keçmiş departament rəhbəri Jandos Asanov Katibliyin icraçı direktoru seçildi.

Sonra II sammitin Bəyannaməsi qəbul olundu. Siyasi xarakter daşıyan Bəyannamədə Asiyada və bütün dünyada təhlükəsizlik və əməkdaşlıq problemləri öz əksini tapmışdır. BMT-də islahatların aparılması, terrorizmə, separatizmə qarşı mübarizə, kütləvi qırğın silahlarının yayılmasının qarşısının alınması, regional münaqişələrin həlli, dövlətlər arasında dialoqun inkişaf etdirilməsi və digər məsələlər sənəddə xüsusi vurğulanır.

Yekun sənədində deyilir ki, terrorizmlə mübarizə hərtərəfli, ardıcıl olmalı, ikili standartlara yol verilməməlidir. Separatizm təhlükəsizliyə, sabitliyə və dövlətlərin suverenliyinə başlıca hədələrdən biridir. Müşavirənin üzvü olan dövlətlər digər üzv dövlətin ərazisində heç bir separatçılıq hərəkatını və belə təşkilatı dəstəkləməyəcəklər.

Bəyannamədə bildirilir ki, Müşavirənin III sammitinin 2010-cu ildə keçirilməsi, Qazaxıstan Prezidentinin 1992-ci ildə BMT-nin Baş Məclisində təşəbbüsü irəli sürdüyü günün - 5 oktyabrın AQFETM günü elan olunması qərara alınmışdır.

Qazaxıstan Prezidenti sammitin işinə yekun vuraraq, iştirakçılara bir daha təşəkkür etdi, qəbul olunmuş qərarların gələcək əməkdaşlıq üçün faydalı olacağını bildirdi.

Sammit öz işini başa çatdırdıqdan sonra iştirakçılar birgə xatirə şəkli çəkdirdilər.

Sonra Prezident Nursultan Nazarbayevin adından "Asiyada qarşılıqlı fəaliyyətə və etimad tədbirlərinə dair müşavirə"nin II sammiti iştirakçılarının şərəfinə nahar verildi.

SƏFƏR BAŞA ÇATDI

"Asiyada qarşılıqlı fəaliyyətə və etimad tədbirlərinə dair müşavirə"nin II sammitində iştirak etmək üçün Qazaxıstanda səfərdə olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 17-də Vətənə yola düşmüşdür.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İRAQIN XARİCİ İŞLƏR ÜZRƏ DÖVLƏT NAZİRİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 19-da Prezident sarayında İraqın xarici işlər üzrə dövlət naziri Rafe əl-İssavini qəbul etmişdir.

Görüş zamanı İslam Konfransı Təşkilatının üzvü olan ölkələrin Xarici İşlər Nazirləri Şurasının 33-cü sessiyasının Azərbaycanda uğurla keçdiyi bildirildi, xalqlarımız arasında tarixi köklərin mövcudluğu vurğulandı.

Dövlətimizin başçısı İlham Əliyev tezliklə İraqda sülhün bərqərar olacağına əminliyini bildirdi, İraq xalqına firavanlıq arzularını çatdırdı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ATƏT-İN BAŞ KATİBİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 19-da Prezident sarayında ATƏT-in baş katibi Mark Perrən de Brişambonu qəbul etmişdir.

ATƏT-in baş katibi Prezident İlham Əliyevi İslam Konfransı Təşkilatı kimi nüfuzlu qurumun Xarici İşlər Nazirləri Şurasının növbəti sessiyasının Azərbaycanda keçirilməsi münasibətilə təbrik edərək dedi ki, bu, Azərbaycanın beynəlxalq aləmdə gedən proseslərdə yaxından iştirakını bir daha sübut edir.

Bu yaxınlarda Rumıniyada keçirilmiş "Dialoq və tərəfdaşlıq naminə" Qara dəniz forumunda iştirakını xatırladan Mark Perrən de Brişambo bildirdi ki, Azərbaycan Prezidentinin forumdakı çıxışı iştirakçılarda böyük təəssürat doğurmuşdur.

Prezident İlham Əliyev dedi ki, İslam Konfransı Təşkilatının üzvü olan ölkələrin Xarici İşlər Nazirləri Şurasının 33-cü sessiyasının Bakıda keçirilməsi və bu konfransa Azərbaycanın sədrlik etməsi regional və beynəlxalq əməkdaşlıq baxımından ölkəmiz üçün böyük önəm daşıyır.

Dövlətimizin başçısı Azərbaycanın müxtəlif nüfuzlu beynəlxalq təşkilatlarla yaxından əməkdaşlıq etməsinin əhəmiyyətini vurğuladı, ölkəmizin çoxşaxəli uğurlu xarici siyasət yeritdiyini bildirdi.

Görüş zamanı Azərbaycanın ATƏT ilə əməkdaşlığı və qarşılıqlı maraq doğuran bir sıra digər məsələlər müzakirə edildi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV TAİLANDIN XARİCİ İŞLƏR NAZİRİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 19-da Prezident sarayında Tailand Krallığının xarici işlər naziri Kantathi Suphamonqkonu qəbul etmişdir.

Tailandın xarici siyasət idarəsinin başçısı Azərbaycana ilk dəfə səfər etdiyini və bundan böyük məmnunluq duyduğunu bildirdi. O, İslam Konfransı Təşkilatının üzvü olan ölkələrin Xarici İşlər Nazirləri Şurasının 33-cü sessiyasının Bakıda yüksək səviyyədə keçdiyini və ikitərəfli münasibətlərimizin bundan sonra da genişlənəcəyinə ümidvar olduğunu söylədi.

Azərbaycan Prezidenti İlham Əliyev ölkələrimiz arasında əlaqələrin daha da genişlənməsi üçün böyük potensial imkanların olduğunu bildirdi. Dövlətimizin başçısı əlaqələrimizin müxtəlif sahələrdə inkişaf edəcəyinə əminliyini vurğuladı.

Söhbət zamanı ikitərəfli münasibətlərin müxtəlif sahələrinə dair fikir mübadiləsi aparıldı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İSLAM KONFRANSI TƏŞKİLATININ BAŞ KATİBİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 19-da Prezident sarayında İslam Konfransı Təşkilatının baş katibi İkmaləddin İhsanoğlunu qəbul etmişdir.

İKT-nin baş katibi İslam Konfransı Təşkilatının üzvü olan ölkələrin Xarici İşlər Nazirləri Şurasının 33-cü sessiyasının yüksək səviyyədə təşkilinə və bu tədbirdə dərin məzmunlu nitqinə görə Prezident İlham Əliyevə minnətdarlığını bildirdi. O, xalqımızın ümummilli lideri, görkəmli siyasi xadim Heydər Əliyevin tarixi xidmətlərini və 1998-ci ildə İKT-dəki tarixi çıxışını məmnunluqla xatırlatdı.

Prezident İlham Əliyev belə önəmli tədbirin ölkəmizdə keçirilməsindən şad olduğunu söylədi və dedi ki, mən böyük xidmətlərinizi nəzərə alaraq, bu gün sizi Azərbaycanın yüksək mükafatı - "Şöhrət" ordeni ilə təltif etmişəm.

Dövlətimizin başçısı "Şöhrət" ordenini İkmaləddin İhsanoğluna təqdim etdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İRANIN XARİCİ İŞLƏR NAZİRİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 19-da Prezident sarayında İran İslam Respublikasının xarici işlər naziri Mənuçehr Mottəkini qəbul etmişdir.

Mənuçehr Mottəki İslam Konfransı Təşkilatının üzvü olan ölkələrin Xarici İşlər Nazirləri Şurasının 33-cü sessiyasının Azərbaycanda yüksək səviyyədə təşkil edilməsi və uğurla keçirilməsi münasibətilə dövlətimizin başçısına təbriklərini çatdırdı.

Azərbaycan Prezidenti İlham Əliyev bu tədbirin ölkəmiz üçün böyük əhəmiyyət daşıdığını vurğuladı.

Görüş zamanı Azərbaycan-İran ikitərəfli münasibətləri ilə bağlı bir sıra məsələlər müzakirə olundu.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İORDANİYA KRALLIĞININ XARİCİ İŞLƏR NAZİRİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 19-da Prezident sarayında İordaniya Haşimilər Krallığının xarici işlər naziri Əbdül İlah Əl-Xətibi qəbul etmişdir.

Görüşdə İslam Konfransı Təşkilatının üzvü olan ölkələrin Xarici İşlər Nazirləri Şurasının 33-cü sessiyasının Azərbaycanda keçirilməsinin böyük əhəmiyyət daşıdığı bildirildi, eyni zamanda, bu mötəbər tədbirin Azərbaycan haqqında geniş məlumatın əldə olunması üçün yaxşı imkan yaratdığı vurğulandı.

Söhbət zamanı Azərbaycan ilə İordaniya arasında ikitərəfli münasibətlər barədə fikir mübadiləsi aparıldı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV TÜRKİYƏ BAŞ NAZİRİNİN MÜAVİNİ, XARİCİ İŞLƏR NAZİRİ ABDULLAH GÜLÜN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 19-da Prezident sarayında Türkiyə Respublikası Baş nazirinin müavini, xarici işlər naziri Abdullah Gülün başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Abdullah Gül İslam Konfransı Təşkilatının üzvü olan ölkələrin Xarici İşlər Nazirləri Şurasının 33-cü sessiyasına dost və qardaş Azərbaycanın ev sahibliyi etməsinin böyük əhəmiyyət daşıdığını vurğuladı. O dedi ki, cənab Prezident, Azərbaycana gəlmək, Sizinlə görüşmək, danışmaq bizim üçün hər zaman böyük şərəfdir və bundan məmnunluq duyuruq.

Prezident İlham Əliyev belə bir mötəbər tədbirin Azərbaycanda keçirilməsini yüksək qiymətləndirdi və dedi ki, sessiyada iştirak edən nazirlərin bəziləri Azərbaycana ilk dəfədir gəlmişlər. Bu, ölkəmizi tanımaq baxımından çox önəmlidir. Ümid edirəm, bu tədbir İslam Konfransı Təşkilatının fəaliyyətinə gözəl bir töhfə verəcəkdir. Biz bütün məsələlərdə səylərimizi birləşdirməliyik.

BAKIDA İSLAM KONFRANSI TƏŞKİLATININ ÜZVÜ OLAN ÖLKƏLƏRİN XARİCİ İŞLƏR NAZİRLƏRİ ŞURASININ 33-CÜ SESSİYASI İŞƏ BAŞLAMIŞDIR

İyunun 19-da Bakıda, "Gülüstan" sarayında İslam Konfransı Təşkilatının (İKT) üzvü olan ölkələrin Xarici İşlər Nazirləri Şurasının 33-cü sessiyası işə başlamışdır.

Azərbaycan Prezidenti İlham Əliyev sessiyada iştirak etmişdir.

Sessiyanın açılışından əvvəl müqəddəs Qurani-Kərimdən ayə oxundu.

Şuranın 32-ci sessiyasına sədrlik etmiş Yəmənin xarici işlər naziri Əbubəkr Abdulla əl-Qirbi sessiyanı açaraq, Azərbaycan Prezidentini və iştirakçıları salamladı, bu tədbirin yüksək səviyyədə təşkil olunmasına görə dövlətimizin başçısına dərin minnətdarlığını bildirdi. O, sessiyanın gündəliyi barədə məlumat verərək dedi ki, üç gün davam edəcək

sessiyanın işində 57 ölkənin nümayəndələri iştirak edirlər. Sessiyanın sonunda Bakı Bəyannaməsi qəbul olunacaqdır.

Azərbaycan Prezidenti İlham Əliyev sessiyada nitq söylədi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ

- Hörmətli cənab baş katib, Hörmətli nazirlər, nümayəndə heyətlərinin başçıları,

Əziz qonaqlar!

Mən sizin hamınızı ürəkdən salamlayıram və "Azərbaycana xoş gəlmisiniz!" deyirəm.

Biz İslam Konfransı Təşkilatının üzvü olan ölkələrin Xarici İşlər Nazirləri Şurasının 33-cü sessiyasının Azərbaycanda keçirilməsinə böyük əhəmiyyət veririk. İlk dəfədir ki, Azərbaycanda belə mötəbər görüş keçirilir. Əlbəttə, çox istəyirik ki, sessiya zamanı aparılan müzakirələr, fikir mübadiləsi bizim işimizi daha da təkmilləşdirsin, aramızda olan əlaqələri daha da möhkəmləndirsin. Mən şübhə etmirəm ki, qəbul ediləcək qərarlar, o cümlədən Bakı Bəyannaməsi bizim işimizə çox böyük töhfə verəcəkdir.

İslam Konfransı Təşkilatı öz mövqelərini möhkəmləndirir, dünyada gedən proseslərə təşkilatın təsir imkanları artır və əlbəttə ki, bu, bizi çox sevindirir. Aramızda olan qardaşlıq, dostluq əlaqələri, həmrəylik bizi daha da gücləndirir. Siyasi müstəvidə bizim əlaqələrimiz çox yüksək səviyyədədir. İkitərəfli əlaqələrlə yanaşı, biz çoxtərəfli formatda müxtəlif beynəlxalq tədbirlərdə, müxtəlif regional əməkdaşlıq layihələrində uğurla iştirak edirik. Əlbəttə, çox istərdik ki, bizim aramızda bütün sahələrdə əlaqələr möhkəmlənsin. İlk növbədə, iqtisadi sahədə. Çünki müasir dünyada iqtisadi imkanlar, iqtisadi potensial, əlbəttə ki, ölkənin gücünü müəyyən edir, təsir imkanlarını genişləndirir. Biz öz fəaliyyətimizlə çalışmalıyıq ki, bir-birimizin iqtisadiyyatına dəstək verək, onu gücləndirək. Bunu etmək üçün, şübhəsiz, qarşılıqlı ticarət əlaqələri daha da genişlənməlidir. Mən ümid edirəm ki, bugünkü görüş bu sahədə gələcəkdə görüləcək işlərə çox mühüm təkan verəcək və təşkilatın üzvü olan dövlətlər arasında bütün sahələrdə əməkdaşlıq daha da möhkəmlənəcəkdir.

Eyni zamanda, bu sessiyada bizi narahat edən məsələlər də müzakirə olunacaq və biz öz mövqeyimizi bildirməliyik. Dünyada gedən proseslər bəzi hallarda bizi narahat edir. İlk növbədə, bəzi ölkələrin kütləvi informasiya vasitələrində və müəyyən siyasi dairələr tərəfindən islamı terrorizmlə eyniləşdirmək cəhdləri bizi çox üzür, narahat edir və hiddətləndirir. Biz buna heç cür imkan verə bilmərik. İslamı terrorizmlə eyniləşdirmək olmaz. İslam sülh dinidir, mehribanlıq dinidir, dözümlülük dinidir. Azərbaycan özü terrorun qurbanıdır. Erməni terrorist təşkilatları bizə qarşı 30-dan çox terror aktı törətmişlər. Bu terror aktları nəticəsində 2 mindən artıq azərbaycanlı həlak olmuşdur. Ancaq biz bu terrorist təşkilatları hər hansı bir dinə bağlamırıq. Bu, düzgün deyildir. Terrorizmin nə dini var, nə də milliyyəti. Ona görə biz bu məsələlərə öz etirazımızı daha da inamla bildirməliyik, öz sözümüzü deməliyik. Eyni zamanda, gərək bütün təbliğat imkanlarımızdan istifadə edərək, çox böyük narahatlıq doğuran bu mənfi meyilə münasibətimizi bildirək, öz hərəkətlərimizlə bunun qarşısını alaq.

Bizi narahat edən digər məsələ bəzi ölkələrdə islama nifrət meyillərinin güclənməsidir.

Biz indi sivilizasiyalar arasında dialoqdan çox danışırıq, amma əslində, real həyatda bunun əksini görürük. Onu görürük ki, müxtəlif ölkələrdə dini zəmində ayrı-seçkilik halları artır, islam dininə mənsub olan insanlara münasibət bəzi hallarda lazımi səviyyədə deyil və bu dini ayrı-seçkiliyə heç cür yol verə bilmərik. İndi biz qloballaşmadan söhbət açırıq, sivilizasiyalar arasında dialoqdan söhbət açırıq, demokratik dəyərlərə daha da sürətlə yiyələnirik. Belə olan halda, biz hər hansı bir zəmində - dini, yaxud da ki, milli zəmində ayrı-seçkiliyin olması, yaxud da hansısa dinin nümayəndələrinə mənfi münasibət göstərilməsi ilə heç cür barışa bilmərik. Mən əminəm ki, İslam Konfransı Təşkilatı ölkələrinin birgə səyləri nəticəsində biz bütün bu məsələlərə dair öz mövqeyimizi bildirəcək, öz sözümüzü deyəcəyik. Ümid edirəm ki, birgə fəaliyyətimiz, müştərək işimiz bizi narahat edən bütün məsələlərə aydınlıq gətirəcək və onların qarşısı alınacaqdır.

Biz bu gün Azərbaycanda yığışmışıq. Mən qeyd etdim, bu, bizim üçün çox böyük hadisədir. İlk dəfədir belə mötəbər tədbir Azərbaycanda keçirilir və ümid edirəm ki, siz, eyni zamanda, ölkəmizlə də tanış olmaq imkanından istifadə edəcəksiniz. Azərbaycan çox qədim diyardır, çox tarixi bir yerdir. Ancaq müstəqil dövlət kimi gəncdir. Yalnız 15 il bundan əvvəl Azərbaycan öz dövlət müstəqilliyini bərpa etdi və o gündən bu günə qədər beynəlxalq aləmin üzvü kimi öz mövqelərini möhkəmləndirir. Bizim müstəqil siyasətimiz Azərbaycan xalqının maraqlarına xidmət edir. Biz müxtəlif regional və beynəlxalq layihələrin iştirakçılarıyıq, onların təşəbbüskarıyıq. Azərbaycanda siyasi sabitlik mövcuddur, vətəndaş həmrəyliyi var. Biz öz iqtisadi potensialımızı çox sürətlə möhkəmləndiririk və iqtisadi artım baxımından Azərbaycan indi dünyada lider dövlətlər sırasındadır. Keçən il ümumi daxili məhsulun artımı 26 faiz təşkil etmişdir. Bu ilin beş ayında təxminən 40 faiz olmuşdur. O cümlədən sənaye istehsalının artımı da çox yüksək səviyyədədir. Çoxlu iş yerləri açılır, yoxsulluqla mübarizə çox cəsarətlə və sürətlə aparılır. Bir sözlə, Azərbaycan iqtisadi cəhətdən çox dinamik şəkildə inkişaf edən ölkədir və əlbəttə ki, bu, bizim qarşımızda yeni imkanlar yaradır, yeni üfüqlər açılır. Dünya birliyinin üzvü kimi Azərbaycan bütün beynəlxalq təşkilatlarda çox konstruktiv mövqedən çıxış edir. Birləşmiş Millətlər Təşkilatında, bütün başqa təşkilatlarda biz İslam Konfransı Təşkilatının üzvü olan dövlətlərin mövqelərini həmişə müdafiə etmişik və bu siyasət bundan sonra da davam edəcəkdir.

Eyni zamanda, onu da qeyd etmək istəyirəm ki, müstəqilliyimizi əldə edəndən sonra bu günə qədər biz həmişə İslam Konfransı Təşkilatının üzvü olan dövlətlərdən dəstək, kömək görmüşük. Beynəlxalq təşkilatlarda Azərbaycanın mövqeyinin müdafiə olunmasında İKT dövlətlərinin səylərini çox yüksək qiymətləndiririk və bu fürsətdən istifadə edib mən bütün nümayəndələrə öz təşəkkürümü bildirmək istəyirəm.

Nailiyyətlərlə yanaşı, əlbəttə ki, sosial, iqtisadi problemlər də mövcuddur və biz bunları həll edirik. Amma elə problemlər var ki, biz onları təkbaşına həll edə bilmirik. Onların ən böyüyü, bizim üçün ən başlıca problem Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli məsələsidir. Uzun illərdir ki, Ermənistanın Azərbaycana etdiyi hərbi təcavüz nəticəsində torpaqlarımızın 20 faizi işğal altındadır. Ermənistanın Azərbaycana qarşı etnik təmizləmə siyasəti nəticəsində bir milyondan artıq azərbaycanlı öz doğma dədə-baba torpaqlarından didərgin düşüb və qaçqın-köçkün kimi yaşayır. Ermənistanın hərbi təcavüzü nəticəsində Azərbaycan torpaqlarının 20 faizində bütün binalar, bütün infrastruktur tamamilə dağıdılıbdır. Ulu babalarımızın qəbirləri, məscidlər, tarixi

abidələr, bütün binalar ermənilər tərəfindən yerlə-yeksan edilibdir. Bu, misli görünməmiş vandalizmdir. Azərbaycanın üzləşdiyi bu problem əlbəttə ki, bütün regionda əməkdaşlıq meyillərini azaldır. Biz çalışırıq və ümid edirik, nail olacağıq ki, bu məsələni sülh yolu ilə, danışıqlar yolu ilə həll edək. Biz sülh danışıqlarına sadiqik. Ancaq eyni zamanda, mövcud olan vəziyyətlə də barışa bilmərik. Azərbaycanın ərazi bütövlüyü, Ermənistan istisna olmaqla, bütün dünya tərəfindən tanınır. Birləşmiş Millətlər Təşkilatı bu məsələyə dair dörd qətnamə qəbul edibdir. O qətnamələrdə deyilir ki, erməni silahlı qüvvələri Azərbaycan torpaqlarından qeyd-şərtsiz çıxmalıdır. Fəqət bu qətnamələr icra olunmur. Digər mötəbər beynəlxalq təşkilatların qərarları da bunu tələb edir. O cümlədən İslam Konfransı Təşkilatı, Avropa Şurası, GUAM təşkilatı və bir sıra başqa təşkilatlar bu məsələdə öz açıq, prinsipial mövqeyini ortaya qoyubdur. Ancaq əfsuslar olsun ki, bu qərarların icra mexanizmi yoxdur. Bizi narahat edən ən əsas məsələ odur ki, dünyanın ən mötəbər təşkilatı olan Birləşmiş Millətlər Təşkilatının da qərarların icrası ilə bağlı səmərəli mexanizmi yoxdur. İndi Birləşmiş Millətlər Təşkilatında gedən islahatlar haqqında fikir mübadiləsi aparılır. Hesab edirəm ki, birinci islahat ondan ibarət olmalıdır ki, bütün qəbul edilmiş qərarların icra mexanizmi olsun. Əgər qərar qəbul edilibsə, o, icra olunmalıdır. Əgər o ölkə ki, qərarı icra etmir, ona qarşı müəyyən tədbirlər görülməlidir. Bu, Birləşmiş Millətlər Təşkilatının işini daha da təkmilləşdirəcəkdir.

Azərbaycan öz ərazi bütövlüyünün pozulması ilə heç vaxt barışmayacaqdır. Aparılan danışıqlar yalnız və yalnız o təqdirdə sülh sazişinə gətirib çıxara bilər ki, Azərbaycanın ərazi bütövlüyü bərpa edilsin. Mən ümid edirəm ki, biz buna nail olacağıq.

Tarixi baxımdan Dağlıq Qarabağ Azərbaycan torpağıdır, ermənilər oraya XIX əsrin əvvəllərində gəlmişlər. Hüquqi cəhətdən Azərbaycanın ərazi bütövlüyü tanınır və Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz hissəsidir. Siyasi cəhətdən Azərbaycanın mövqeləri daha da möhkəmlənir və beynəlxalq təşkilatların dəstəyi bizim üçün çox əhəmiyyətlidir. O cümlədən İslam Konfransı Təşkilatının mövqeyi və artan nüfuzu bizim siyasətimizə daha da böyük güc verir. İqtisadi baxımdan Azərbaycan çox sürətlə inkişaf edir. Biz hələ işin əvvəlindəyik, gələcəyimiz çox uğurlu olacaqdır. Bütün hesablamalara görə, Azərbaycanın sürətli iqtisadi inkişafı onu çox zəngin ölkəyə çevirəcəkdir. Bütün bu amillər deməyə əsas verir ki, biz məsələnin həllinə nail olacağıq və mən istəyirəm ki, biz bunu sülh yolu ilə edək. Ancaq eyni zamanda, bütün başqa variantlar da masa üzərində olmalıdır.

Mən fürsətdən istifadə edərək, bizim haqq işimizə dəstək verdiyi üçün İslam Konfransı Təşkilatına bir daha öz dərin minnətdarlığımı, təşəkkürümü bildirirəm.

Əlbəttə ki, biz bölgədə gedən proseslərə öz münasibətimizi bildirməliyik. Ancaq və ancaq sülh, təhlükəsizlik, sabitlik şəraitində hansısa inkişafdan söhbət gedə bilər. Əgər müsbət nümunələrə nəzər salsaq görərik ki, hansı ölkədə bu, təmin olunursa, o ölkədə inkişaf da mövcuddur. Biz bu regionda yaşayırıq. Ona görə regionda gedən proseslər, şübhəsiz ki, bizim siyasətimizi müəyyən dərəcədə müəyyənləşdirir. Eyni zamanda, Azərbaycanın siyasəti regionda gedən proseslərə öz təsirini göstərir. Belə olan halda, hamımız çalışmalıyıq ki, regionda sülh, təhlükəsizlik tam şəkildə bərqərar olunsun, mümkün olan risklər azalsın. Biz yeni risklərin yaranmasına imkan verməməliyik və bütün məsələləri danışıqlar yolu ilə həll etməliyik. Biz bunun tərəfdarıyıq və belə olan

halda, bölgədə risklər daha da azalacaqdır. Biz bunu istəyirik. Biz istəyirik ki, ölkələrimiz inkişaf etsin, insanlarımız daha da yaxşı yaşasınlar, daha da savadlı olsunlar. Bizim qarşımızda duran problemlərin biri də təhsillə bağlıdır. İnsanlarımızın maarifləndirilməsi, yüksək biliyə yiyələnməsi çox önəmli məsələdir və dünyanın gələcəyini müəyyən edir. Bilik, savad, yeni texnologiyaların tətbiq olunması - bütün bunlar bizim üçün önəmli məsələlərdir. Bizim həmrəyliyimiz, bir-birimizi dəstəkləməyimiz, əlbəttə ki, işimizi daha da asanlaşdıracaqdır.

Əziz qonaqlar, bir daha demək istəyirəm: mən çox şadam ki, siz bu gün Azərbaycandasınız, bizə qonaq gəlmisiniz. Bəzilərniz üçün bu, Azərbaycana ilk səfərdir və gözəl fürsətdir ki, Azərbaycanla tanış olasınız. Əminəm ki, İslam Konfransı Təşkilatının üzvü olan dövlətlərlə bundan sonra da əlaqələrimiz daha da möhkəm olacaqdır. Yenə də deyirəm, cəmi 15 ildir ki, Azərbaycan beynəlxalq aləmin üzvüdür. Biz gərək özümüzü tanıdaq, özümüzü təqdim edək, imkanlarımızı təklif edək ki, əməkdaşlıq daha da sürətlə getsin. Azərbaycan İslam Konfransı Təşkilatındakı fəaliyyətini daha da möhkəmləndirmək əzmindədir. Biz hesab edirik ki, təşkilatın çox önəmli rolu var və ümid edirik ki, bu rol artacaqdır. Təşkilat nə qədər möhkəm olsa, bizim mövqeyimiz də bir o qədər güclənəcəkdir.

Mən bir daha sizin hamınızı Azərbaycanda ürəkdən salamlayıram və sessiyanın işinə uğurlar arzulayıram. Sağ olun.

Yəmənin xarici işlər naziri Əbubəkir Abdulla əl Qirbi, Malayziyanın xarici işlər naziri Seyid Həmid Cəfər Albar, İslam Konfransı Təşkilatının baş katibi İkmaləddin İhsanoğlu məruzə etdilər. Onlar bu mötəbər tədbirin yüksək səviyyədə təşkilinə, gözəl şəraitin yaradılmasına, sessiyada iştirak etdiyinə və məzmunlu nitqinə görə Azərbaycan Prezidenti İlham Əliyevə minnətdarlıqlarını bildirdilər, dövlətimizin başçısının ötən il İKT-nin Ciddədə yerləşən baş qərargahını ziyarət etməsini məmnunluqla xatırlatdılar.

Xalqımızın ümummilli liderinin tarixi xidmətlərini xüsusi vurğulayan natiqlər dedilər ki, görkəmli siyasi xadim Heydər Əliyev İslam Konfransı Təşkilatının fəaliyyətinə çox yüksək qiymət verirdi. 1998-ci ildə İKT-nin sessiyasındakı dərin məzmunlu çıxışı bizim üçün nümunədir. Onun təşəbbüsü ilə islam dünyasının həmrəyliyi üçün bir sıra mühüm tədbirlər keçirilmişdir, Qafqazda islam dəyərlərinin qorunması, əmin-amanlığın bərqərar olunması və digər mühüm istiqamətlərdə göstərdiyi səylər heç zaman unudulmayacaqdır.

Məruzəçilər ötən illər ərzində görülən işlərdən danışdılar, bu beynəlxalq təşkilatda praktik islahatların aparılmasının, iqtisadi, siyasi, elmi, mədəni, texnoloji və digər sahələrdə üzv ölkələr arasında əməkdaşlığın daha da genişləndirilməsi və möhkəmləndirilməsinin zəruriliyini bildirdilər.

Müsəlman ölkələrinin üzləşdiyi problemlərdən geniş bəhs edən məruzəçilər Fələstin, İraq, Kəşmir, Kipr problemlərindən, Azərbaycanın ən ağrılı məsələsi olan Dağlıq Qarabağ münaqişəsindən, habelə Somali və Sudanda baş verən hadisələrdən də bəhs etdilər. Xüsusi vurğulandı ki, adı çəkilən münaqişələrin və problemlərin özünəməxsusluğu olsa da, ədalətin bərpası üçün beynəlxalq hüquq normaları əsas şərt olmalıdır. İşğalçı Ermənistan Azərbaycan ərazisinin 20 faizini zəbt etmiş, etnik təmizləmə həyata keçirərək insanları doğma yerlərindən zorla çıxarmış, tarixi-mədəniyyət abidələrini məhv etmişdir. Hər bir ölkənin ərazi bütövlüyü toxunulmazdır və münaqişənin həlli istiqamətində Azərbaycanın tutduğu haqlı mövqe yüksək qiymətləndirilməli və bu sahədə İKT dövlətlərinin səylərinin birləşdirilməsi zəruridir. İKT bütün dünyada sülhün və əmin-amanlığın yaradılmasını arzulayır və bu məqsədlə təşkilatın İraqda nümayəndəliyinin açılması nəzərdə tutulmuşdur.

Məruzələrdə Qərbin bəzi mətbuat orqanlarında Məhəmməd Peyğəmbərə karikaturaların dərc olunması və bununla bağlı yaranmış gərginlik kəskin şəkildə pislənildi. Bildirildi ki, mötəbər təşkilat kimi İKT bütün dinlərə hörmətlə yanaşır və bundan sonra da sivilizasiyalararası dialoqun genişləndirilməsi məqsədi ilə fəaliyyətini davam etdirəcəkdir. İKT-nin üzvü olan ölkələrin iqtisadi-ticarət əlaqələrinin inkişafının zəruriliyi vurğulandı, İKT çərçivəsində həyata keçirilən və müxtəlif sahələri əhatə edən layihələrdən də söhbət açıldı.

İslam Konfransı Təşkilatının baş katibi İkmaləddin İhsanoğlu məlumat verdi ki, ötən il müqəddəs Məkkə şəhərində keçirilən yığıncaqda İKT-nin qarşıdakı on il ərzində görəcəyi işləri əhatə edən proqram xarakterli xüsusi fəaliyyət planı hazırlanmışdır. Burada Ermənistan-Azərbaycan münaqişəsinin, eləcə də digər münaqişələrin aradan qaldırılması, habelə iqtisadi, ticarət əlaqələrini və bütün digər sahələri əhatə edən məsələlərlə bağlı təkliflər, fikirlər öz əksini tapmışdır.

Baş katib həmin fəaliyyət planını Prezident İlham Əliyevə təqdim etdi.

Asiya ölkələri qrupu adından Pakistanın, Afrika ölkələri qrupu adından Qvineyanın, ərəb ölkələri qrupu adından isə Sudanın xarici işlər nazirləri çıxış etdilər, sessiyanın yüksək səviyyədə təşkilinə və keçirilməsinə, göstərilən qonaqpərvərliyə görə dövlətimizin başçısına və Azərbaycan hökumətinə təşəkkürlərini bildirdilər. Onlar qarşılıqlı əməkdaşlığın gücləndirilməsi və dərinləşdirilməsi baxımından sessiyanın üzv ölkələr üçün faydalı və səmərəli olacağını vurğuladılar, bəzi problemlərdən və münaqişələrdən əziyyət çəkən ölkələrə humanitar yardımın göstərilməsi üçün lazımi işlərin görülməsinin vacibliyini söylədilər.

Sonra xarici işlər nazirlərinin 33-cü sessiyasına sədrlik Azərbaycana keçdi.

Sonra çıxış edən Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov sessiyada iştirakına görə Prezident İlham Əliyevə minnətdarlığını bildirdi, sessiyaya sədrliyin Azərbaycana keçməsini böyük etimad və məsuliyyət kimi qiymətləndirdi.

AZƏRBAYCANIN XARİCİ İŞLƏR NAZİRİ İKT ÜZVÜ OLAN ÖLKƏLƏRİN XARİCİ İŞLƏR NAZİRLƏRİ ŞURASININ 33-CÜ SESSİYASI ÇƏRÇİVƏSİNDƏ İKİTƏRƏFLİ GÖRÜŞLƏR KEÇİRMİŞDİR

Xarici İşlər naziri Elmar Məmmədyarov İslam Konfransı Təşkilatının üzvü olan ölkələrin Xarici İşlər Nazirləri Şurasının 33-cü sessiyası çərçivəsində bir sıra ikitərəfli görüşlər keçirmişdir.

Livanın xarici işlər naziri Fauzi Sallux ilə görüşdə siyasi, iqtisadi və digər sahələrdə ikitərəfli əməkdaşlıq imkanlarına, habelə hər iki ölkənin yerləşdiyi bölgələrdəki vəziyyətə dair fikir mübadiləsi aparılmışdır.

E.Məmmədyarov Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi və onun həlli istiqamətində aparılan danışıqlar barədə qonağa ətraflı məlumat vermişdir.

Ölkələrimiz arasında əlaqələrin daha da inkişaf etdirilməsi arzusunu bildirən Fauzi Sallux Livanın Azərbaycan ilə əməkdaşlığa mühüm əhəmiyyət verdiyini söyləmişdir.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə toxunan livanlı nazir ölkəsinin dövlətlərin ərazi bütövlüyü və sərhədlərin toxunulmazlığı prinsipinə sadiq olduğunu diqqətə çatdırmış və Livanın heç vaxt qondarma "Dağlıq Qarabağ Respublikası"nı tanımayacağını xüsusi vurğulamışdır.

[redacted]

Malayziyanın xarici işlər naziri Sayed Hamid Albar ilə görüşdə Azərbaycan ilə Malayziya arasında siyasi, iqtisadi, xüsusilə də turizm sahəsində əməkdaşlıq imkanları barədə geniş fikir mübadiləsi aparılmış, ticarət dövriyyəsinin ölkələrimizin mövcud potensialından aşağı olduğu qeyd edilmişdir.

Ölkələrimiz arasında siyasi sahədə heç bir fikir ayrılığının olmadığını diqqətə çatdıran E.Məmmədyarov tezliklə Azərbaycanın Malayziyada səfirliyinin açılacağına ümidvar olduğunu bildirmişdir.

Görüşdə İKT üzvü olan ölkələrin Xarici İşlər Nazirləri Şurasının Bakı sessiyası zamanı aparılmış müzakirələrə, təşkilat çərçivəsində əməkdaşlıq imkanlarına, regional və beynəlxalq məsələlərə dair geniş fikir mübadiləsi aparılmışdır.

[redacted]

İndoneziyanın xarici işlər naziri Hasan Virayuda ilə görüşdə Elmar Məmmədyarov ölkələrimiz arasında siyasi sahədə əlaqələrin yüksək səviyyəyə çatdığını vurğulamışdır.

H.Virayuda ölkəsində baş vermiş təbii fəlakətlə bağlı Azərbaycan dövləti tərəfindən texniki və maliyyə dəstəyinin göstərilməsinə edilən cəhdə görə təşəkkür etmiş, yaxın gələcəkdə İndoneziyanın Bakıda səfirliyinin açılacağına ümidvar olduğunu bildirmişdir.

Görüşdə, həmçinin İKT çərçivəsində əməkdaşlığın perspektivləri də müzakirə edilmişdir.

[redacted]

Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatının (ATƏT) baş katibi Mark Perrən de Brişambo ilə görüşdə qurumun ATƏT-in Minsk qrupu həmsədrlərinin fəaliyyəti, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllinə dair danışıqlar ətrafında geniş fikir mübadiləsi aparılmışdır.

İşğal edilmiş ərazilərin boşaldılması, qaçqın və məcburi köçkünlərin öz doğma yurdlarına qaytarılmasının münaqişənin sülh yolu ilə həllində başlıca prinsip olduğunu diqqətə çatdıran E.Məmmədyarov, Ermənistan tərəfinin qeyri-konstruktiv mövqeyi ucbatından bu məsələdə razılıq əldə olunmadığını söyləmişdir.

Qaçqın və məcburi köçkünlərin öz doğma yurdlarına qayıtmalarının zəruriliyini vurğulayan Mark Perrən de Brişambo, bunun onların hüququ olduğunu bildirmişdir.

E.Məmmədyarov Ermənistan silahlı birləşmələrinin cəbhə xətti boyunca törətdiyi yan-

ğılar barədə narahatlığını bildirmiş, bu məsələnin ATƏT sədrinin şəxsi nümayəndəsi səviyyəsində araşdırılmasının zəruriliyini vurğulamışdır.

[redacted]

Tailand Krallığının xarici işlər naziri Kantathi Suphamonqkon ilə görüşdə iki ölkə arasındakı mövcud münasibətlərin hazırkı durumu, diplomatik təmsilçilik məsələləri, İKT çərçivəsində əməkdaşlıq imkanları və s. məsələlər ətrafında geniş fikir mübadiləsi aparılmışdır.

Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi ilə Tailand Krallığının Xarici İşlər Nazirliyi arasında əməkdaşlıq haqqında Protokol imzalanmışdır.

[redacted]

Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) xarici işlər üzrə dövlət naziri Məhəmməd Hüseyn Əl-Şaali ilə görüşdə ölkələrimizin siyasi, iqtisadi və digər sahələrdə əməkdaşlığına böyük önəm verildiyi vurğulanmış, münasibətlərin genişləndirilməsinin zəruriliyi qeyd olunmuşdur.

Görüşdə BƏƏ-nin neft siyasəti və azad iqtisadi zonalarla bağlı təcrübəsinə ölkəmizdə xüsusi əhəmiyyət verildiyi vurğulanmış, qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da geniş fikir mübadiləsi aparılmışdır.

[redacted]

Rusiyanın xarici işlər nazirinin müavini Andrey Denisov ilə görüşdə nazir Elmar Məmmədyarov Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı danışıqların davam etdirilməsi üçün görülən işlər barədə ətraflı məlumat vermişdir.

Daha sonra iki ölkə arasında əməkdaşlığın hərtərəfli inkişafı, Cənubi Qafqaz və Xəzər regionunda sabitliyin və təhlükəsizliyin təmin olunması, Azərbaycanda Rusiya İlinin gedişi və qarşılıqlı maraq doğuran bir sıra digər məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.

[redacted]

Xarici işlər naziri Elmar Məmmədyarovun Liviyanın xarici işlər nazirinin müavini Məhəmməd Əl Barani ilə görüşündə ölkələrimiz arasında əlaqələrin hərtərəfli inkişafı, o cümlədən İKT çərçivəsində əməkdaşlığın genişləndirilməsi məsələləri müzakirə edilmişdir.

Görüşdə ikitərəfli siyasi və iqtisadi əlaqələrin daha da intensivləşdirilməsinin vacibliyi qeyd olunmuş, ölkəmizdə gedən ictimai-siyasi və iqtisadi proseslərlə bağlı qonağın sualları cavablandırılmışdır.

[redacted]

Filippin Respublikasının xarici işlər katibi Alberto Ramulo ölkəsinin İKT Xarici İşlər Nazirləri Şurasının 33-cü sessiyasında qonaq qismində iştirakına imkan yaratdığına görə Azərbaycan hökumətinə minnətdarlığını bildirmişdir.

Alberto Ramulo ölkəsində Azərbaycan ilə ticarət əlaqələrinin qurulmasına maraq göstərən çoxlu iş adamının olduğunu söyləmişdir.

Nazir Elmar Məmmədyarov ikitərəfli əlaqələrin genişləndirilməsinin Azərbaycanın maraqlı olduğunu diqqətə çatdıraraq, ölkələrimiz arasında beynəlxalq təşkilatlar çərçivəsində də birgə fəallığın zəruriliyini qeyd etmişdir.

Qonaq nazir Elmar Məmmədyarovu ölkəsinə səfərə dəvət etmişdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BEYNƏLXALQ MİQRASİYA TƏŞKİLATININ BAŞ DİREKTORUNU QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 20-də Prezident sarayında Beynəlxalq Miqrasiya Təşkilatının baş direktoru Brunson MakKinlini qəbul etmişdir.

Brunson MakKinli son illər Azərbaycanda gedən iqtisadi inkişafı xüsusi vurğuladı. O, Bakıya əvvəlki səfərləri zamanı xalqımızın ümummilli lideri Heydər Əliyevlə görüşünü məmnunluqla xatırlayaraq dedi ki, cənab Prezident, o, miqrasiya məsələlərinə xüsusi diqqət yetirirdi. Sizin də bu sahəyə verdiyiniz önəm bizi sevindirir.

Prezident İlham Əliyev ölkəmizin beynəlxalq təşkilatlarla, o cümlədən miqrasiya təşkilatı ilə əməkdaşlığın uğurla inkişaf etdiyini bildirdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV DİALOQ VƏ ƏMƏKDAŞLIĞIN GƏNCLƏR FORUMUNUN PREZİDENTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 20-də Prezident sarayında Dialoq və Əməkdaşlıq Uğrunda İslam Konfransı Gənclər Forumunun prezidenti Əli Sarıqayanı qəbul etmişdir.

Forumun prezidenti İslam Konfransının üzvü olan ölkələrin Xarici İşlər Nazirləri Şurasının 33-cü sessiyasının yüksək səviyyədə təşkil olunduğunu, uğurla davam etdiyini söylədi. O, Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğanın salamlarını dövlətimizin başçısına çatdırdı, təşkilatın yaranması və fəaliyyəti ilə bağlı məlumat verdi.

Prezident İlham Əliyev Rəcəb Tayyib Ərdoğanın salamlarına görə minnətdarlığını bildirdi, özünün salamlarını Baş nazirə çatdırmağı xahiş etdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İSLAM TİCARƏT VƏ SƏNAYE PALATASININ PREZİDENTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 20-də Prezident sarayında İslam Ticarət və Sənaye Palatasının prezidenti şeyx Saleh bin Abdullah Kamalı qəbul etmişdir.

Görüşdə ölkəmizin İslam Ticarət və Sənaye Palatası ilə əməkdaşlığına dair bir sıra məsələlər barədə fikir mübadiləsi aparıldı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İSLAM TƏHSİL, ELM VƏ MƏDƏNİYYƏT TƏŞKİLATININ BAŞ DİREKTORUNU QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 20-də Prezident sarayında İslam Təhsil, Elm və Mədəniyyət Təşkilatının baş direktoru Əbdüləziz əl-Tuveyjrini qəbul etmişdir.

Əbdüləziz əl-Tuveyjri Azərbaycanda keçirilən İslam Konfransı Təşkilatının üzvü olan ölkələrin Xarici İşlər Nazirləri Şurasının 33-cü sessiyasının böyük əhəmiyyəti olduğunu söylədi, təmsil etdiyi təşkilatın fəaliyyəti haqqında məlumat verdi. O, Azərbaycanın müvafiq nazirlikləri və strukturları ilə sıx əlaqə saxladıqlarını, bu əməkdaşlığın bundan sonra daha da genişlənəcəyinə əminliyini bildirdi.

Prezident İlham Əliyev ölkəmizdə keçirilən mötəbər tədbirin əhəmiyyətini vurğulayaraq dedi ki, bu, İslam Konfransı Təşkilatının üzvü olan ölkələrin Bakıya gələn xeyli sayda rəsmi nümayəndələrinin Azərbaycanda gedən inkişaf prosesləri ilə yaxından tanış olması üçün yaxşı şərait yaradır.

Dövlətimizin başçısı əmin olduğunu bildirdi ki, ölkəmizin müvafiq strukturları ilə İslam Təhsil, Elm və Mədəniyyət Təşkilatı arasında əməkdaşlıq bundan sonra da inkişaf edəcəkdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV GÖRKƏMLİ QAZAX ŞAİRİ, ALİM VƏ İCTİMAİ-SİYASİ XADİM OLJAS SÜLEYMENOVU QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 21-də Prezident sarayında görkəmli qazax şairi, alim və ictimai-siyasi xadim Oljas Süleymenovu qəbul etmişdir.

Dövlətimizin başçısı İlham Əliyev bildirdi ki, Azərbaycan və Qazaxıstan respublikaları arasında qarşılıqlı əlaqələrin möhkəmləndirilməsindəki xidmətlərinə görə Oljas Süleymenovu ölkəmizin yüksək mükafatı - "Şöhrət" ordeni ilə təltif etmişdir. Prezident İlham Əliyev ordeni Oljas Süleymenova təqdim edərək dedi ki, siz ölkəmizin ən ağır vaxtlarında Azərbaycan xalqının yanında olmusunuz, Azərbaycanın ərazi bütövlüyü məsələsində daim birmənalı mövqe nümayiş etdirmisiniz. Biz bunu unutmuruq və yüksək qiymətləndiririk. Azərbaycan xalqı sizi sevir, sizin yaradıcılığınız və vətəndaşlıq mövqeyiniz böyük hörmətə layiqdir.

Yüksək mükafata görə təşəkkürünü bildirən Oljas Süleymenov dedi ki, hər dəfə Azərbaycana gələndə sevinirəm, Azərbaycanın dinamik inkişafını görməyimdən çox məmnunam.

Sonra Oljas Süleymenov yenicə çapdan çıxmış kitabını Azərbaycan Prezidenti İlham Əliyevə təqdim etdi.

AZƏRBAYCANIN XARİCİ İŞLƏR NAZİRİ 33-CÜ SESSİYA ÇƏRÇİVƏSİNDƏ İKİTƏRƏFLİ GÖRÜŞLƏR KEÇİRMİŞDİR

Azərbaycan Xarici İşlər naziri Elmar Məmmədyarov iyunun 21-də, İslam Konfransı Təşkilatının üzvü olan ölkələrin Xarici İşlər Nazirləri Şurasının 33-cü sessiyası çərçivəsində bir sıra ikitərəfli görüşlər keçirmişdir.

Qətər Dövləti Baş nazirinin birinci müavini, xarici işlər nazirinin müavini Həməd bin Casim bin Cabir Al Tani 33-cü sessiyanın yüksək səviyyədə keçirilməsinə və qonaqpərvərliyə görə ölkəsinin nümayəndə heyəti adından Azərbaycan hökumətinə təşəkkürünü bidirmişdir.

Görüşdə qarşılıqlı münasibətlərin daha da inkişaf etdirilməsi üçün səylərin artırılmasının vacibliyi vurğulanmışdır.

Nazir E.Məmmədyarov Azərbaycanın Qətərlə diplomatik əlaqələrin möhkəmləndirilməsinə yönəldilmiş səyləri barədə ətraflı məlumat vermişdir.

Həməd bin Casim bin Cabir Al Tani bu ilin sentyabrında Qətərin turizm nazirinin, Qətər Hava Yolları şirkəti başçısının və digər rəsmi şəxslərin Azərbaycana nəzərdə tutulan səfərlərinin ölkələrimiz arasında əlaqələrin inkişafına təkan verəcəyinə ümidvar olduğunu bildirmişdir.

Görüşdə ikitərəfli siyasi və iqtisadi məsələlər, bölgədəki vəziyyət və qarşılıqlı maraq kəsb edən digər məsələlər barədə müzakirələr olmuşdur.

[redacted]

Əfqanıstanın xarici işlər naziri Rangin Dadfar Spanta ilə görüşdə E.Məmmədyarov regiondakı siyasi və iqtisadi vəziyyət haqqında məlumat vermişdir. Əfqanıstan naziri də ölkəsindəki vəziyyətdən danışmışdır.

İkitərəfli əlaqələrin daha da genişləndirilməsi məqsədi ilə səylərin artırılmasına dair razılıq əldə edildiyi görüşdə qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.

[redacted]

Omanın xarici işlər nazirinin müavini Bədr bin Həməd əl-Busəidi sessiyanın yüksək səviyyədə təşkilinə və qonaqpərvərliyə görə ölkəsinin nümayəndə heyəti adından təşəkkürünü bildirmişdir.

Qonağı Bakıda görməyindən məmnun olduğunu bildirən E.Məmmədyarov Azərbaycanın ölkələrimiz arasında əlaqələrin inkişaf etdirilməsinə böyük əhəmiyyət verdiyini vurğulamışdır.

İqtisadi və ticarət sahələrində də əməkdaşlığı genişləndirmək üçün imkanların olduğu bildirilən görüşdə əlaqələrin inkişaf etdirilməsi barədə razılıq əldə olunmuşdur.

Görüşdə Bakıda KİV üzrə konfransın keçirilməsi ilə bağlı təşəbbüs, bölgədəki vəziyyət, qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da müzakirələr aparılmışdır.

[redacted]

Elmar Məmmədyarovun sessiyada qonaq qismində iştirak edən Avropa Şurası (AŞ) baş

katibinin müavini xanım Mod de Bur-Bukikkio ilə görüşündə sessiyadakı müzakirələrə, Azərbaycan-AŞ münasibətlərinin hazırkı durumuna, təkrar parlament seçkiləri və oktyabrda keçiriləcək bələdiyyə seçkilərinə, seçki qanunvericiliyinə və demokratikləşmə məsələlərinə, habelə Dağlıq Qarabağ münaqişəsinə dair fikir mübadiləsi aparılmışdır.

Azərbaycanın Avropa Şurası qarşısında götürdüyü öhdəliklərin uğurla yerinə yetirildiyini bildirən nazir Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllində Ermənistan tərəfinin tutduğu qeyri-konstruktiv mövqeni diqqətə çarpdırmışdır. İşğal edilmiş ərazilərin boşaldılması və məcburi köçkünlərin öz doğma yurdlarına qaytarılmasının münaqişənin sülh yolu ilə həllində başlıca prinsip olduğunu vurğulayan E.Məmmədyarov, bu məsələdə razılıq əldə olunmadığını söyləmişdir.

Nazir qeyd etmişdir ki, müasir dünyada qaçqın və məcburi köçkünləri öz doğma yurdlarına qayıtmaq hüququndan məhrum etmək olmaz və bu məsələnin müsbət həlli beynəlxalq ictimaiyyətin iradəsindən çox asılıdır.

Görüşdə, həmçinin son zamanlar erməni silahlı birləşmələrinin cəbhə xəttində törətdiyi yanğınlarla bağlı narahatlıq ifadə olunmuş, bunun təkcə Azərbaycan üçün deyil, bütövlükdə region üçün fəlakət olduğu qeyd edilmişdir. Nazir yanğınlara məsuliyyətin Ermənistan tərəfinin üzərinə düşdüyünü qonağın diqqətinə çatdırmışdır.

Sessiyada aparılmış müzakirələrlə bağlı söhbət zamanı terrorizmə qarşı qlobal mübarizə, dini dözümlülük, dini və mənəvi dəyərlərə hörmət və bu kontekstdə mətbuatın rolu, eləcə də qarşılıqlı maraq doğuran bir sıra digər məsələlər ətrafında da geniş fikir mübadiləsi aparılmışdır.

[redacted]

Misir Ərəb Respublikasının xarici işlər nazirinin müavini xanım Naila Qabr ilə görüşdə ölkələrimiz arasında iqtisadi, siyasi, humanitar, ticarət və s. sahələrdə əməkdaşlığın genişləndirilməsi imkanları barədə müzakirələr aparılmışdır.

Azərbaycana səfərindən məmnun olduğunu bildirən Naila Qabr, yüksək qonaqpərvərliyə görə minnətdarlıq etmişdir.

Hər iki ölkədə mədəniyyət günlərinin keçirilməsini məmnuniyyətlə xatırladan nazir, bu sahədə əməkdaşlığın gələcəkdə daha da inkişaf etdirilməsinə Azərbaycanda xüsusi əhəmiyyət verildiyini diqqətə çatdırmış, gediş-gəlişi asanlaşdırmaq üçün Misir ilə Azərbaycan arasında birbaşa təyyarə reyslərinin açılmasının zəruriliyini vurğulamışdır.

Görüşdə İKT çərçivəsində əməkdaşlığın möhkəmləndirilməsi, təşkilatın gələcək fəaliyyət imkanlarının və səmərəliliyinin artırılması məqsədi ilə mütəmadi məsləhətləşmələrin aparılması və bir sıra digər məsələlərə dair razılıq əldə edilmişdir.

İKT XARİCİ İŞLƏR NAZİRLƏRİ ŞURASININ 33-CÜ SESSİYASI BAŞA ÇATMIŞDIR

İslam Konfransı Təşkilatının (İKT) üzvü olan ölkələrin Xarici İşlər Nazirləri Şurasının Bakıda keçirilən 33-cü sessiyası iyunun 21-də başa çatmışdır.

Üç gün davam edən sessiyanın işində 50-dək ölkənin nümayəndələri, ATƏT-in, Avropa

Şurasının, YUNESKO-nun, Beynəlxalq Miqrasiya Təşkilatının təmsilçiləri iştirak etmişlər.

Sessiyanın gedişində müsəlman ölkələrini narahat edən məsələlər müzakirə edilmiş, Fələstin, İraq, Kəşmir, Kipr problemlərinə, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə, Somali və Sudanda baş verən hadisələrə, habelə İranın nüvə proqramı ətrafında yaranmış gərginliyə münasibət bildirilmişdir. Məruzələrdə Qərbin bəzi mətbuat orqanlarında Məhəmməd Peyğəmbərə karikaturaların dərc olunması və bununla bağlı yaranmış gərginlik kəskin şəkildə pislənilmişdir.

Bildirilmişdir ki, İKT bütün dinlərə hörmətlə yanaşır və bundan sonra da sivilizasiyalararası dialoqun genişləndirilməsi məqsədi ilə fəaliyyətini davam etdirəcəkdir.

Sessiyada İKT-nin üzvü olan ölkələrin siyasi, iqtisadi-ticarət, mədəni, elmi və digər sahələrdə əlaqələrinin inkişafının zəruriliyi vurğulanmış, İKT çərçivəsində həyata keçirilən layihələrdən də söhbət açılmışdır. İKT-nin qarşıdakı on il ərzində görəcəyi işləri əhatə edən fəaliyyət planı müzakirə edilmiş, qarşılıqlı əməkdaşlığın gücləndirilməsinin vacibliyi vurğulanmışdır.

Sessiyanın sonunda Bakı Bəyannaməsi, yekun rəsmi məlumat və müzakirə edilən məsələlərə dair müxtəlif qərarlar qəbul edilmişdir.

Tədbir başa çatdıqdan sonra Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov və İKT-nin baş katibi İkmaləddin İhsanoğlu mətbuat konfransı keçirmişlər.

E.Məmmədyarov demişdir ki, Bakı Bəyannaməsində müsəlman aləmini, habelə dünyanı narahat edən məsələlərə münasibət bildirilmişdir. Bəyannamədə Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü pislənmiş və işğalçı qüvvələrin dərhal Azərbaycan torpaqlarından çıxarılması tələb edilmişdir. İşğal altındakı ərazilərdə tarix və mədəniyyət abidələrinin dağıdılması, ekologiyanın korlanması pislənmiş, münaqişənin həlli üçün bütün vacib tədbirlərin görülməsi məqsədi ilə beynəlxalq ictimaiyyətə müraciət edilmiş, Azərbaycanın ərazi bütövlüyünün və suverenliyinin bərpası məsələsində İKT-nin üzvü olan ölkələrdən dəstək istənilmişdir.

İKT-nin baş katibi İkmaləddin İhsanoğlu Bakı sessiyasının müzakirə edilən məsələlər və qəbul olunan qərarlar baxımından tarixi əhəmiyyət daşıdığını bildirmişdir.

Gündəlikdə duran məsələlərə dair konstruktiv müzakirələr aparıldığını söyləyən baş katib sessiyanın beynəlxalq təşkilatların diqqət mərkəzində olduğunu vurğulamışdır.

Baş katib sessiyada Azərbaycanın işğal altındakı ərazilərində Ermənistan silahlı birləşmələrinin törətdiyi dağıntıları əks etdirən kadrların və peykdən çəkilmiş fotoşəkillərin nümayiş olunduğunu da bildirmişdir.

İKT-NİN ÜZVÜ OLAN ÖLKƏLƏRİN XARİCİ İŞLƏR NAZİRLƏRİ SƏNGƏÇAL TERMİNALINDA OLMUŞLAR

İslam Konfransı Təşkilatının (İKT) üzvü olan ölkələrin Xarici İşlər Nazirləri Şurasının 33-cü sessiyasında iştirak edən qonaqların bir qrupu iyunun 21-də Səngəçal terminalı ilə tanış olmuşdur.

bp-nin və Dövlət Neft Şirkətinin nümayəndələri qonaqlara Azərbaycanda ümummilli lider Heydər Əliyevin neft strategiyasının reallaşdırılması istiqamətində 1994-cü ildən həyata keçirilən irimiqyaslı layihələr barədə məlumat verdilər. 2001-ci ilin noyabrında tikintisinə başlanmış Səngəçal terminalının dünyada ən iri terminallardan biri olduğu bildirildi.

Terminalın Xəzər Enerji Mərkəzinin geniş salonunda Azərbaycanda neft strategiyasının uğurlarını əks etdirən film nümayiş etdirildi. Qonaqlar bu film vasitəsilə Xəzərin karbohidrogen ehtiyatları, "Azəri-Çıraq-Günəşli" yataqlarından Səngəçal terminalına çəkilən boru xətləri, terminalda tikilən irihəcmli neft çənləri, baş nasos stansiyası və s. barədə dolğun məlumat aldılar.

Sonra qonaqlar avtobuslarla terminalın ərazisini gəzdilər. Nəzarət-idarəetmə məntəqəsinin iş sistemi ilə tanışlıq zamanı məlumat verildi ki, Səngəçal terminalından Bakı-Tbilisi-Ceyhan, Bakı-Supsa, Bakı-Novorossiysk neft kəmərlərinin ölkə ərazisindəki hissələrində bütün prosesləri izləmək mümkündür və Azərbaycan nefti mayın 28-də BTC boru kəməri vasitəsilə Ceyhan terminalına çatdırılmış və oradan tankerlərə yüklənərək dünya bazarına çıxarılmışdır. Kəmərin illik ixrac gücü 50 milyon tondur. Bu yaxınlarda Qazaxıstan da BTC-yə qoşulmuşdur.

Əksəriyyəti neftlə zəngin olan ölkələrin nümayəndələri respublikamızda belə nəhəng bir terminalın tikilib istismara verilməsindən, BTC layihəsinin başa çatmasından məmnun qaldıqlarını bildirdilər.

Xarici diplomatlara hədiyyələr verildi, onlar terminalın kollektivi ilə birgə xatirə şəkli çəkdirdilər.

HEYDƏR ƏLİYEV FONDU İLƏ TANIŞLIQ

İslam Konfransı Təşkilatının (İKT) üzvü olan ölkələrin Xarici İşlər Nazirləri Şurasının 33-cü sessiyasında iştirak edən qonaqların bir qrupu iyunun 21-də Heydər Əliyev Fondunda olmuşdur.

Fondun icraçı direktoru Anar Ələkbərov qonaqlara bildirdi ki, Fond müstəqil Azərbaycan dövlətinin qurucusu Heydər Əliyevin zəngin elmi-nəzəri, siyasi irsinin öyrənilməsi, təbliği, görkəmli dövlət xadiminin ideyalarının həyata keçirilməsinə dəstək verilməsi məqsədi ilə yaradılmışdır. Sessiya iştirakçılarına ümummilli liderimizin arxivindən götürülmüş və onun fəaliyyətinin bir çox dövrlərini əhatə edən fotoşəkillər barədə ətraflı məlumat verildi.

Fondun sərgi və ekspozisiyası ilə tanış olan qonaqlar dahi şəxsiyyət Heydər Əliyevin həyatının müxtəlif məqamlarını əks etdirən və Azərbaycan tarixinin yarım əsrdən artıq bir dövrü barədə geniş təsəvvür yaradan çoxsaylı fotoşəkillərə, dünyanın tanınmış siyasi xadimlərinin ona bəxş etdikləri hədiyyələrə, bu böyük insana həsr olunmuş kitablara, onun müxtəlif ölkələrin liderləri, elm, mədəniyyət və incəsənət xadimləri ilə çəkilmiş şəkillərinə maraqla baxdılar. Onların bir çoxu ötən əsrin 70-80-ci illərində Bakıda və Moskvada, beynəlxalq tədbirlərdə Sovet İttifaqının rəhbərlərindən biri olmuş Heydər Əliyevlə görüşləri barədə unudulmaz təəssüratlarını söylədi.

OMAN AZƏRBAYCANIN ƏDALƏTLİ MÖVQEYİNİ DAİM DƏSTƏKLƏYƏCƏKDİR

İyunun 22-də Azərbaycan Respublikasının və Oman Sultanlığının Xarici İşlər nazirlikləri arasında nazir müavinləri səviyyəsində məsləhətləşmələr keçirilmişdir.

Azərbaycanın xarici işlər nazirinin müavini Xələf Xələfov məsləhətləşmələrin ölkələrimiz arasında siyasi dialoqun davam etdirilməsi baxımından vacib əhəmiyyət daşıdığını vurğulamışdır.

Oman Sultanlığı xarici işlər nazirinin müavini Bədr bin Həməd əl-Buseydi ölkəsinin Azərbaycan ilə bütün sahələrdə əlaqələri inkişaf etdirmək istəyində olduğunu diqqətə çatdıraraq, Dağlıq Qarabağ münaqişəsinin həllində Omanın daim Azərbaycanın ədalətli mövqeyini dəstəkləyəcəyini söyləmişdir.

Ölkələrimiz arasında beynəlxalq təşkilatlar, o cümlədən BMT və İslam Konfransı Təşkilatı çərçivəsində səmərəli əməkdaşlığın inkişaf perspektivləri ətrafında geniş fikir mübadiləsi aparılmışdır. Tərəflər iqtisadi, ticarət, elm, mədəniyyət, turizm, səhiyyə, təhsil və s. sahələrdə əməkdaşlığın inkişaf etdirilməsinin vacibliyini vurğulamış və bu baxımdan hüquq-müqavilə bazasının gücləndirilməsinin mühüm amil olduğunu qeyd etmişlər.

Görüşdə ölkələrimizin müxtəlif regional layihələr, o cümlədən Şimal-Cənub nəqliyyat dəhlizi layihəsi çərçivəsində əməkdaşlığının davam etdirilməsinə dair razılıq əldə olunmuşdur.

Tərəflər siyasi məsləhətləşmələrin ildə bir-iki dəfə olmaqla, Məsqət və Bakıda keçirilməsinin əhəmiyyətini vurğulamışlar.

CƏNUBİ QAFQAZDAKI MÜNAQİŞƏLƏR DÖVLƏTLƏRİN SUVERENLİYİ, ƏRAZİ BÜTÖVLÜYÜ, SƏRHƏDLƏRİN TOXUNULMAZLIĞI PRİNSİPLƏRİ ƏSASINDA HƏLL EDİLMƏLİDİR

Xarici İşlər nazirinin müavini Xələf Xələfov iyunun 22-də Gürcüstan xarici işlər nazirinin birinci müavini V.Çeçelaşvilinin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşmüşdür. Qonaqlar Azərbaycana ölkələrimizin xarici işlər nazirlikləri arasında növbəti siyasi məsləhətləşmələr aparmaq məqsədi ilə gəldiklərini demişlər.

Görüşdə ölkələrimiz arasında müntəzəm surətdə davam edən siyasi dialoqdan məmnunluq ifadə olunmuş, Azərbaycan-Gürcüstan dostluq münasibətləri və strateji tərəfdaşlıq əlaqələri, GUAM çərçivəsində əməkdaşlıq və qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında geniş fikir mübadiləsi aparılmışdır.

Bakı-Tbilisi-Ceyhan neft kəmərinin istismara verilməsinin, yaxın zamanlarda reallaşacaq Bakı-Tbilisi-Ərzurum qaz kəməri və Bakı-Tbilisi-Axalkalaki-Qars dəmir yolu layihələrinin hər iki dövlətin siyasi nüfuzunun və iqtisadi qüdrətinin artmasına xidmət edəcəyi vurğulanmışdır.

Cənubi Qafqazda mövcud münaqişələrin dövlətlərin suverenliyi, ərazi bütövlüyü, sərhədlərin toxunulmazlığı prinsipləri əsasında həll olunmasının vacibliyi bildirilmişdir.

Azərbaycan ilə Gürcüstan arasında ticarət dövriyyəsinin artım dinamikası məmnuniyyətlə qeyd edilmişdir.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər də geniş müzakirə olunmuşdur.

AZƏRBAYCANIN DÜNYA TİCARƏT TƏŞKİLATINA ÜZVLÜYÜ MƏSƏLƏLƏRİ İLƏ ƏLAQƏDAR MÜZAKİRƏLƏR APARILMIŞDIR

BMT-nin İnsan Hüquqları Şurasının iclasında iştirak etmək üçün Cenevrədə səfərdə olan Xarici İşlər nazirinin müavini M.Məmmədquliyev iyunun 19-23-də bir sıra görüşlər keçirmişdir.

İsveçrənin Xarici İşlər üzrə Federal Departamentinin dövlət katibi M.Ambül ilə görüşdə, əsasən ikitərəfli əlaqələrin inkişafı, İsveçrənin Azərbaycanda səfirliyinin açılması, iqtisadi əməkdaşlığın genişləndirilməsi, ölkələrimizin üzv olduğu BMT-nin İnsan Hüquqları Şurasında birgə fəaliyyət, təhlükəsizlik sahəsində əməkdaşlıq imkanları və digər məsələlərə dair fikir mübadiləsi aparılmışdır.

M.Məmmədquliyevin İsveçrənin Dünya Ticarət Təşkilatında (DTT) nümayəndəsi, səfir L.Vaseça ilə görüşündə Azərbaycanın DTT-yə üzv olması ilə bağlı vəziyyət, İsveçrənin ölkəmizə əqli mülkiyyət və standartlaşdırma sahələrində texniki yardım göstərməsi, Azərbaycanın ticarət siyasəti ilə məşğul olan mütəxəssislərinin bu ölkədə keçirilən təkmilləşdirmə kurslarında iştirakı məsələləri müzakirə olunmuşdur.

İsveçrə Əməkdaşlıq və İnkişaf Agentliyinin baş direktoru, səfir V.Fust ilə görüşdə qurumun ölkəmizdə həyata keçirilməsi nəzərdə tutulmuş layihələrindən söhbət açılmışdır.

Bundan əlavə, M.Məmmədquliyev Pakistanın, Omanın, Hindistanın, Koreya Respublikasının və Birləşmiş Ərəb Əmirliklərinin DTT yanındakı nümayəndəliklərinin rəhbərləri ilə, habelə Avropa İttifaqının diplomatları və DTT katibliyinin üzvolma bölməsinin rəhbəri, həmçinin quruma üzvlüyünə qəbul olunma prosesində olan Rusiya nümayəndəsi ilə fikir mübadiləsi aparmışdır. Görüşlərdə, əsasən iki məsələ ətrafında - DTT üzvlüyünə qəbulu üçün Azərbaycanın təklif etdiyi şərtlərin təşkilat üzvləri tərəfindən qəbul edilməsi və bununla da həmin dövlətlərlə ikitərəfli danışıqların yekunlaşdırılması, ikincisi isə Azərbaycanın DTT üzvlüyünə inkişaf etməkdə olan ölkə statusu ilə qəbulunun dəstəklənməsi olmuşdur.

Görüşlərin nəticəsi olaraq, əmtəələr və xidmətlər üzrə bazara girişlə bağlı Azərbaycanın təklif etdiyi şərtlər Oman tərəfi ilə razılaşdırılmışdır. Tərəflər Azərbaycanın DTT üzvlüyünə qəbulu üzrə işçi qrupunun cari ilin payızında keçirilməsi nəzərdə tutulan beşinci görüşündə müvafiq ikitərəfli protokolu imzalamasını qərara almışdır. Beləliklə, Omanla da ikitərəfli danışıqlar uğurla yekunlaşdırılmışdır. İndiyədək Gürcüstan və Moldova ilə ikitərəfli danışıqlar başa çatdırılmışdır.

Adları çəkilən dövlətlərin nümayəndələri Azərbaycanın DTT-yə inkişaf etməkdə olan ölkə statusu ilə üzv qəbul olunmasını dəstəkləyəcəklərinə söz vermişlər. DTT-də bir sıra əhəmiyyətli güzəştlər verən bu status qızğın mübahisələrə səbəb olur.

Nazir müavini İsveçrənin Beynəlxalq Münasibətlər İnstitutunun direktor müavini D. Uornerlə də görüşmüş, Azərbaycan diplomatlarının və mütəxəssislərinin bu institutun

təlimlərində iştirakı, habelə Azərbaycan Xarici İşlər Nazirliyinin Diplomatiya Akademiyasına yardım və əməkdaşlıq məsələləri müzakirə edilmişdir.

BMT-nin İnsan Hüquqları üzrə ali komissarı Luiz Arbur ilə görüşdə M.Məmmədquliyev, qurumun Azərbaycanın dövlət təşkilatlarına göstərdiyi texniki yardıma görə təşəkkürünü bildirmiş və bu istiqamətdə fəaliyyətin genişləndirilməsinin faydalı olacağını vurğulamışdır. Görüşdə əməkdaşlıq məsələləri də müzakirə edilmişdir.

M.Məmmədquliyevin Misir və Paraqvayın DTT yanındakı nümayəndəliklərinin rəhbərləri, ABŞ-ın DTT üzrə diplomatları, habelə BMT-nin Ticarət və İnkişaf üzrə Konfransının (UNCTAD) baş katibi ilə də ikitərəfli görüşlər keçirməsi nəzərdə tutulmuşdur.

"AZƏRBAYCAN RESPUBLİKASININ BEYNƏLXALQ TƏŞKİLAT YANINDA DAİMİ NÜMAYƏNDƏLİYİ HAQQINDA ƏSASNAMƏ"NİN TƏSDİQ EDİLMƏSİ BARƏDƏ AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

1. "Azərbaycan Respublikasının beynəlxalq təşkilat yanında Daimi Nümayəndəliyi haqqında Əsasnamə" təsdiq edilsin (əlavə olunur).

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu fərmandan irəli gələn məsələləri öz səlahiyyətləri daxilində həll etsin.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 22 iyun 2006-cı il

AZƏRBAYCAN RESPUBLİKASININ BEYNƏLXALQ TƏŞKİLAT YANINDA DAİMİ NÜMAYƏNDƏLİYİ HAQQINDA ƏSASNAMƏ

Azərbaycan Respublikası Prezidentinin
2006-cı il 22 iyun tarixli Fərmanı ilə
təsdiq edilmişdir

I. Ümumi müddəalar

1. Azərbaycan Respublikasının beynəlxalq təşkilat yanında Daimi Nümayəndəliyi (bundan sonra - Daimi Nümayəndəlik) beynəlxalq təşkilatda Azərbaycan Respublikasını təmsil edən diplomatik xidmət orqanıdır. Daimi Nümayəndəlik Azərbaycan Respublikası Prezidentinin təqdimatı ilə Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən təsis edilir. Daimi Nümayəndəlik Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin (bundan sonra - Nazirlik) rəhbərlik etdiyi diplomatik xidmət orqanlarının vahid sisteminə daxildir.
2. Daimi Nümayəndəlik öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, "Diplomatik xidmət haqqında" Azərbaycan Respublikasının Qanununu və digər qanunlarını, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını, Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi haqqında Əsasnaməni, bu Əsasnaməni, Nazirliyin əmr, sərəncam və göstərişlərini, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələri, eləcə də beynəlxalq hüququn digər tətbiq edilə bilən normalarını, beynəlxalq təşkilatın qaydalarını, beynəlxalq təşkilatın yerləşmə dövləti ilə (bundan sonra - yerləşmə dövləti) sazişi rəhbər tutur və yerləşmə dövlətinin qanunvericiliyini nəzərə alır.
3. Daimi Nümayəndəlik beynəlxalq təşkilatda Azərbaycan Respublikasının vahid xarici siyasət xəttinin həyata keçirilməsini öz səlahiyyətləri daxilində təmin edir və bu məqsədlə Azərbaycan Respublikasının dövlət və yerli özünüidarə orqanlarının, idarə, təşkilat və müəssisələrinin nümayəndəliklərinin, nümayəndə heyətlərinin və mütəxəssis qruplarının beynəlxalq təşkilatın orqanlarının fəaliyyətində iştirakını əlaqələndirir və işi üzərində nəzarəti həyata keçirir. Adı çəkilən nümayəndəliklər, nümayəndə heyətləri və mütəxəssis qrupları öz fəaliyyətini Daimi Nümayəndəlik ilə razılaşdırmalı və öz fəaliyyəti barədə Daimi Nümayəndəliyə məlumat verməlidirlər.
4. Daimi Nümayəndəliyin binasında və ya onun ərazisində, Daimi Nümayəndənin iqamətgahında Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq, Azərbaycan Respublikasının Dövlət bayrağı qaldırılır. Daimi Nümayəndəliyin binasında və ya onun ərazisində Azərbaycan Respublikasının Dövlət gerbinin təsviri və Azərbaycan dilində və beynəlxalq təşkilatın rəsmi dillərindən birində, habelə yerləşmə dövlətinin dövlət dilində (dövlət dillərində) "Azərbaycan Respublikasının (beynəlxalq təşkilatın adı) yanında Daimi Nümayəndəliyi" yazısı olan lövhə vurulur. Daimi Nümayəndənin nəqliyyat vasitəsi üzərində Azərbaycan Respublikasının Dövlət bayrağı yerləşdirilir. Azərbaycan Respublikasının dövlət rəmzləri beynəlxalq təşkilatın və yerləşmə dövlətinin protokol təcrübəsi nəzərə alınaraq istifadə olunur.
5. Daimi Nümayəndəlik, Daimi Nümayəndəliyin əməkdaşları və onlarla birlikdə yaşayan ailə üzvləri yerləşmə dövlətində beynəlxalq hüquq normalarına və həmin dövlətin qanunvericiliyinə uyğun olaraq, immunitet və imtiyazlardan istifadə edirlər. Daimi Nümayəndəliyin əməkdaşları və onlarla birlikdə yaşayan ailə üzvləri yerləşmə dövlətinin qanunvericiliyinə, adət və ənənələrinə hörmət etməli, yerləşmə dövlətinin daxili işlərinə qarışmaqdan və daxili işlərinə qarışmaq kimi təfsir oluna bilən hərəkətlərdən çəkinməlidirlər.
6. Daimi Nümayəndəlik Nazirlik tərəfindən təsdiq olunmuş Azərbaycan Respublikasının Dövlət gerbinin təsviri və öz adı həkk olunmuş möhürə, ştamplara, blanklara və bank hesablarına malikdir.
7. Azərbaycan Respublikasının mülkiyyəti olan Daimi Nümayəndəliyin torpaq sahələri, binaları, qurğuları və digər əmlakı Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən olunmuş qaydada Daimi Nümayəndəliyə təhkim olunur.
8. Daimi Nümayəndəlik ona təhkim olunmuş əmlak üzərində sahiblik, istifadə və sərəncam hüququnu Azərbaycan Respublikasının müvafiq qanunvericilik aktları ilə müəyyən edilmiş qaydada həyata keçirir.

II. Daimi Nümayəndəliyin əsas vəzifələri

9. Daimi Nümayəndəliyin əsas vəzifələri aşağıdakılardır
   9.1. öz səlahiyyətləri daxilində beynəlxalq təşkilatda Azərbaycan Respublikasını təmsil etmək
   9.2. beynəlxalq təşkilatda Azərbaycan Respublikasının vahid xarici siyasət xəttini öz səlahiyyətləri daxilində həyata keçirmək
   9.3. beynəlxalq təşkilatda Azərbaycan Respublikasının milli maraqlarını, o cümlədən suverenliyini, təhlükəsizliyini, ərazi bütövlüyünü, sərhədlərinin toxunulmazlığını, siyasi, iqtisadi və digər maraqlarını diplomatik üsul və vasitələrlə öz səlahiyyətləri daxilində təmin etmək və müdafiə etmək
   9.4. yerləşmə dövlətində Azərbaycan Respublikasının, onun vətəndaşlarının və hüquqi şəxslərinin hüquq və maraqlarını öz səlahiyyətləri daxilində müdafiə etmək
   9.5. beynəlxalq təşkilatın fəaliyyətində Azərbaycan Respublikasının iştirakını öz səlahiyyətləri daxilində təmin etmək
   9.6. rəsmi nümayəndə heyətlərinin səfərlərinin hazırlanmasına və həyata keçirilməsinə öz səlahiyyətləri daxilində kömək etmək.

III. Daimi Nümayəndəliyin funksiyaları

10. Daimi Nümayəndəlik bu Əsasnamə ilə müəyyən edilmiş vəzifələrə uyğun olaraq aşağıdakı funksiyaları həyata keçirir
   10.1. müəyyən olunmuş qaydada Azərbaycan Respublikasının Prezidentini, Azərbaycan Respublikasının Nazirlər Kabinetini və Nazirliyi beynəlxalq təşkilatın fəaliyyət məsələləri barədə məlumatlandırır
   10.2. beynəlxalq təşkilatda Azərbaycan Respublikasının xarici və daxili siyasəti, ölkənin iqtisadi, sosial və mədəni həyatı haqqında rəsmi məlumatın yayılmasını öz səlahiyyətləri daxilində təmin edir;
   10.3. beynəlxalq təşkilat çərçivəsində beynəlxalq müqavilələrin və beynəlxalq təşkilatın fəaliyyətinə aid olan məsələlərə dair digər sənədlərin layihələrinin hazırlanmasında, beynəlxalq təşkilat çərçivəsində beynəlxalq müqavilələrin bağlanması, icrası, ləğv edilməsi və qüvvəsinin dayandırılması barədə təkliflərin hazırlanmasında öz səlahiyyətləri daxilində iştirak edir;
   10.4. öz səlahiyyətləri daxilində Azərbaycan Respublikası vətəndaşlarının beynəlxalq təşkilatın və ya onun bölmələrinin katibliklərində, eləcə də beynəlxalq təşkilatın digər yerlərdə fəaliyyət göstərən nümayəndəliklərində işə qəbulu ilə bağlı beynəlxalq təşkilat qarşısında məsələ qaldırır və bu məsələnin müsbət həlli üçün kömək göstərir;
   10.5. Azərbaycan Respublikasının üzvü olduğu beynəlxalq təşkilatın məqsəd və prinsiplərinin həyata keçirilməsində, onun qərarlarının və Azərbaycan Respublikasının beynəlxalq təşkilat qarşısında götürdüyü öhdəliklərinin yerinə yetirilməsində, beynəlxalq təşkilat çərçivəsində qəbul edilmiş və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrin icrası üzərində ümumi müşahidənin həyata keçirilməsində öz səlahiyyətləri daxilində iştirak edir;
   10.6. yerləşmə dövlətində yaşayan azərbaycanlılarla əlaqələrin qurulmasına və əməkdaşlığın inkişafına öz səlahiyyətləri daxilində yardım edir;
   10.7. Azərbaycan Respublikasına, onun xarici siyasət təşəbbüslərinə münasibətdə müsbət mövqenin təşəkkül tapmasına öz səlahiyyətləri daxilində kömək göstərir;
   10.8. öz səlahiyyətləri daxilində beynəlxalq təşkilatın fəaliyyətini, beynəlxalq təşkilata üzv dövlətlərin və beynəlxalq təşkilat yanında müşahidəçi missiyaların beynəlxalq təşkilat çərçivəsində əməkdaşlığının səviyyəsini və əsas təmayüllərini müəyyən edir və təhlil edir;
   10.9. Azərbaycan Respublikası Prezidentinin, Azərbaycan Respublikası Nazirlər Kabinetinin, Nazirliyin tapşırıqlarını yerinə yetirir, həmçinin Azərbaycan Respublikasının digər dövlət hakimiyyəti orqanlarının Nazirliklə razılaşdırılmış müraciətlərinə baxır;10.10. yerli icra hakimiyyəti və özünüidarə orqanlarının, idarə, təşkilat və müəssisələrinin müraciətlərinə baxır;
   10.11. beynəlxalq təşkilatda akkreditə olunmamış üçüncü dövlətin xahişi ilə həmin üçüncü dövlətin və onun vətəndaşlarının maraqlarını beynəlxalq razılaşmalar əsasında müdafiə edir;
   10.12. Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq digər funksiyaları həyata keçirir.

IV. Daimi Nümayəndəliyin hüquqları

11. Daimi Nümayəndəlik öz vəzifələrini yerinə yetirmək üçün aşağıdakı hüquqlara malikdir:
   11.1. öz səlahiyyətləri daxilində rəsmi nümayəndə heyətlərinin səfərlərinə dair Nazirliyə təkliflər vermək;
   11.2. beynəlxalq təşkilatın katibliyi, beynəlxalq təşkilata üzv dövlətlərin daimi nümayəndəlikləri və beynəlxalq təşkilat yanında müşahidəçi missiyaları, habelə Daimi Nümayəndəliyin səlahiyyətlərinə aid məsələlər üzrə yerləşmə dövlətinin dövlət və özünüidarə orqanları, qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar), elmi və mədəni dairələri, kütləvi informasiya vasitələri, habelə yerləşmə dövlətində fəaliyyət göstərən diplomatik nümayəndəlik, konsulluq və beynəlxalq və regional təşkilatlar ilə işgüzar əlaqələr qurmaq və inkişaf etdirmək;
   11.3. Daimi Nümayəndəliyin səlahiyyətinə aid olan məsələlərin həll olunması üçün Azərbaycan Respublikasının dövlət orqanlarından, eləcə də yerli icra hakimiyyəti və özünüidarə orqanları, idarə, təşkilat və müəssisələrindən müəyyən olunmuş qaydada sənədləri, məlumat və digər xarakterli materialları almaq;

11.4. öz səlahiyyətləri daxilində konfranslar, görüşlər və digər tədbirlər təşkil etmək;

11.5. Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş digər hüquqları həyata keçirmək.

V. Daimi Nümayəndəliyin fəaliyyətinin təşkili

12. Daimi Nümayəndəliyə Azərbaycan Respublikasının beynəlxalq təşkilat yanında səlahiyyətli nümayəndəsi olan Azərbaycan Respublikasının Daimi Nümayəndəsi başçılıq edir. Daimi Nümayəndə Azərbaycan Respublikasının Prezidenti tərəfindən təyin edilir və geri çağırılır. Daimi Nümayəndə beynəlxalq təşkilatda Azərbaycan Respublikasını təmsil edir.

13. Ali təhsilli və üzərinə qoyulmuş vəzifələri yerinə yetirmək üçün müvafiq işgüzar, mənəvi, peşəkar keyfiyyətlərə və sağlamlıq vəziyyətinə malik olan Azərbaycan Respublikasının vətəndaşı Daimi Nümayəndə təyin edilə bilər.

14. Daimi Nümayəndə təyin olunmuş şəxsin yerləşmə dövlətində fasiləsiz iş müddəti, bir qayda olaraq, beş ildir.
Bu müddət Azərbaycan Respublikasının Prezidenti tərəfindən uzadıla bilər.
Daimi nümayəndənin və ya Daimi nümayəndəliyin digər əməkdaşları Azərbaycan Respublikasının və ya yerləşmə dövlətinin qanunvericiliyinə görə məsuliyyət doğuran əməllər törətməkdə təqsirli bilindikdə, habelə Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş digər hallarda vaxtından əvvəl geri çağırıla bilərlər.
Daimi nümayəndə və ya Daimi nümayəndəliyin digər əməkdaşlarının vaxtından əvvəl geri çağırılmasına, onlarla birlikdə yaşayan ailə üzvlərinin yuxarıda göstərilən əməllərin törədilməsində təqsirli bilinməsi də əsas ola bilər.

15. Daimi Nümayəndə Daimi Nümayəndəliyə həvalə edilmiş vəzifələrin yerinə yetirilməsi üçün şəxsən məsuliyyət daşıyır, göstəriş və tapşırıqların yerinə yetirilməsinə görə Nazirlik qarşısında hesabat verir.

16. Daimi Nümayəndə:

16.1. Daimi Nümayəndəliyin fəaliyyətini təşkil edir və ona rəhbərlik edir;

16.2. dövlət sirrinin və qanunla mühafizə edilən digər sirlərin qorunmasını təşkil edir;

16.3. Daimi Nümayəndəliyə ayrılan dövlət vəsaitinin səmərəli sərf olunması və maliyyə intizamına riayət olunması üzərində nəzarəti öz səlahiyyətləri daxilində həyata keçirir;

16.4. öz səlahiyyətləri daxilində Daimi Nümayəndəliyin fəaliyyətinə dair icrası məcburi olan əmrlər, sərəncamlar, göstərişlər verir;

16.5. öz səlahiyyətləri daxilində Daimi Nümayəndəlikdə Azərbaycan Respublikasının normativ hüquqi aktlarının və Nazirliyin əmr, sərəncam və göstərişlərinin icrasını təşkil edir və onların yerinə yetirilməsi üzərində nəzarəti həyata keçirir;

16.6. Daimi Nümayəndəliyin əməkdaşlarını lazımi iş şəraiti ilə təmin edir, müəyyən olunmuş qaydada Daimi Nümayəndəliyin fəaliyyəti ilə bağlı Nazirliyə təkliflər irəli sürür;

16.7. Nazirliyin razılığı ilə xidməti ezamiyyətlərə gedir;

16.8. Daimi Nümayəndəliyin xüsusi fərqlənmiş əməkdaşlarının Azərbaycan Respublikasının dövlət təltifləri ilə təltif edilməsi üçün, habelə Daimi Nümayəndəliyin əməkdaşları barəsində həvəsləndirmə və intizam tənbeh tədbirləri görülməsi üçün Nazirliyə təqdimat verir;

16.9. Daimi Nümayəndəliyin diplomatik xidmət əməkdaşlarının rütbədə və vəzifədə yüksəldilməsi, Daimi Nümayəndəliyin diplomatik xidmət əməkdaşlarının və inzibati-texniki xidmətini həyata keçirən şəxslərinin xaricdəki iş müddətinin "Diplomatik xidmət haqqında" Azərbaycan Respublikasının Qanununa müvafiq olaraq uzadılması haqqında Nazirliyə müəyyən olunmuş qaydada təklif verir;

16.10. Daimi Nümayəndəliyin diplomatik və inzibati-texniki əməkdaşlarının məzuniyyətləri və ezamiyyətləri barədə əmrlər verir;

16.11. Daimi Nümayəndəliyin ştatdankənar vəzifələrinə Nazirlik ilə razılaşdıraraq işə qəbul edir və işdən azad edir, ştatdankənar vəzifələrdə çalışan əməkdaşların məzuniyyətləri və ezamiyyətləri barədə əmrlər verir;

16.12. Daimi Nümayəndəliyin əməkdaşlarının və onlarla birlikdə yaşayan ailə üzvlərinin Azərbaycan Respublikasına və digər ölkələrə səfərləri ilə bağlı məsələləri öz səlahiyyətləri daxilində həll edir;

16.13. öz səlahiyyətləri daxilində Daimi Nümayəndəliyin, onun əməkdaşlarının və onlarla birlikdə yaşayan ailə üzvlərinin təhlükəsizliyinin təmin edilməsi üçün lazımi tədbirlər görür, fövqəladə vəziyyət şəraitində Daimi nümayəndəliyin işini və yerləşmə dövlətindəki Azərbaycan Respublikasının vətəndaşlarının hərəkətlərini Azərbaycan Respublikasının həmin dövlətdəki Səfirliyi ilə (olduğu halda) əlaqələndirməklə təşkil edir;

16.14. beynəlxalq hüquqa və yerləşmə dövlətinin qanunvericiliyinə görə Daimi Nümayəndəliyə, onların əməkdaşlarına və ailə üzvlərinə, diplomatik poçta və onu daşıyan şəxslərə, həmçinin immunitet və imtiyazlara hüququ olan Azərbaycan Respublikasının digər vətəndaşlarına verilən immunitet və imtiyazların təmin olunması məqsədi ilə öz səlahiyyətləri daxilində lazımi tədbirlər görür;

16.15. Daimi Nümayəndəliyin və yerləşmə dövlətində yerləşən Azərbaycan Respublikasının digər qurumlarının heyətinə beynəlxalq təşkilatda Azərbaycan Respublikasının maraqlarını layiqli təmsil etmələri, eləcə də yerləşmə dövlətinin qanunvericiliyinə, adət və ənənələrinə hörmət etmələri üçün tövsiyələr verir;

16.16. yerləşmə dövlətində keçirilən beynəlxalq konfranslarda və görüşlərdə iştirak edir, habelə qanunvericiliklə nəzərdə tutulmuş qaydada beynəlxalq müqavilələr imzalayır;

16.17. Azərbaycan Respublikasının dövlət orqanlarının nümayəndə heyətlərinin və mütəxəssis qruplarının qərarları və hərəkətləri Azərbaycan Respublikasının maraqlarına cavab vermədiyi halda, Nazirliyə məlumat verir və Nazirlik bu məlumat əsasında həmin dövlət orqanlarının nümayəndə heyətlərinin və mütəxəssis qruplarının işinə vaxtından əvvəl xitam verilməsi məsələsi ilə bağlı həmin dövlət orqanları qarşısında məsələ qaldırır;

16.18. Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq, digər səlahiyyətləri həyata keçirir.

17. Daimi Nümayəndə vəzifəsi vakant olduqda və ya Daimi Nümayəndə öz vəzifələrini icra etmək iqtidarında olmadığı halda, onun funksiyalarını Azərbaycan Respublikasının xarici işlər naziri tərəfindən təyin olunan Daimi Nümayəndənin səlahiyyətlərini icra edən şəxs yerinə yetirir.
Əgər Daimi Nümayəndə eyni zamanda yerləşmə dövlətində Azərbaycan Respublikasının Fövqəladə və Səlahiyyətli Səfiridirsə, Daimi Nümayəndənin funksiyalarını Azərbaycan Respublikasının müvəqqəti işlər vəkili yerinə yetirir.
Müvəqqəti işlər vəkilinin və ya Daimi Nümayəndənin səlahiyyətlərini icra edən şəxsin adı Daimi Nümayəndə tərəfindən və ya Daimi Nümayəndə bunu etmək iqtidarında olmadığı halda, Nazirlik tərəfindən müvafiq beynəlxalq təşkilata bildirilir.

18. Daimi Nümayəndəliyin strukturu və ştat cədvəli Nazirlik tərəfindən təsdiq edilir.

19. Daimi Nümayəndəliyin maddi-texniki təminatı Nazirlik tərəfindən həyata keçirilir.

20. Daimi Nümayəndəliyin əməkdaşlarının hüquq və vəzifələri Azərbaycan Respublikasının qanunvericiliyi, Nazirliyin normativ aktları və vəzifə təlimatları ilə müəyyən olunur. Daimi Nümayəndəliyin əməkdaşları Daimi Nümayəndəyə, o olmadığı halda isə, Azərbaycan Respublikasının müvəqqəti işlər vəkilinə və ya Daimi Nümayəndənin səlahiyyətlərini icra edən şəxsə tabedir və onun əmr və göstərişlərini yerinə yetirməyə borcludurlar.

21. Daimi Nümayəndəliyin işi müəyyən olunmuş qaydada Nazirlik tərəfindən təsdiq edilmiş illik iş planı əsasında təşkil olunur.

22. Daimi Nümayəndəliyə qanunvericiliklə müəyyən olunmuş qaydada Azərbaycan Respublikasının digər dövlət orqanlarının nümayəndələri ezam oluna bilərlər. Daimi Nümayəndəliyə ezam olunmuş Azərbaycan Respublikasının digər dövlət orqanlarının nümayəndələri öz qərarlarını və hərəkətlərini Daimi Nümayəndə ilə razılaşdırmalıdırlar.

23. Daimi Nümayəndəlikdə Azərbaycan Respublikasının və yerləşmə dövlətinin qanunvericiliyinə uyğun olaraq, ümumtəhsil məktəbi və məktəbəqədər müəssisə fəaliyyət göstərə bilər.

24. Azərbaycan Respublikasının qanunvericiliyinə müvafiq olaraq, həmkarlar ittifaqı istisna olmaqla, Daimi Nümayəndəlikdə siyasi partiyaların, dini təşkilatların və qeyri-hökumət təşkilatlarının (ictimai birliklərin və fondların) bölmələri yaradıla bilməz.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BMT-NİN TİCARƏT VƏ İNKİŞAF ÜZRƏ KONFRANSININ BAŞ KATİBİ SUPAÇAY PANİTÇPAKDİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 26-da Prezident sarayında BMT-nin Ticarət və İnkişaf üzrə Konfransının baş katibi Supaçay Panitçpakdini qəbul etmişdir.

Cənab Supaçay Panitçpakdi ölkəmizə səfərindən məmnun olduğunu bildirərək, bu səfərin Azərbaycanda gedən iqtisadi inkişaf prosesləri, o cümlədən qlobal enerji layihələrinin həyata keçirilməsi ilə bağlı aparılan işlərlə yaxından tanış olmaq üçün yaxşı imkan yaratdığını bildirdi.

Dövlətimizin başçısı ölkəmizin iqtisadi sahədə əldə etdiyi uğurlar, dünya miqyaslı enerji layihələrinin müvəffəqiyyətlə həyata keçirilməsi istiqamətində görülən işlərdən danışmışdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BMT-NİN ASİYA VƏ SAKİT OKEAN ÜÇÜN İQTİSADİ VƏ SOSİAL KOMİSSİYASININ İCRAÇI KATİBİ KİM HAK-SUNU QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 27-də Prezident sarayında BMT-nin Asiya və Sakit okean üçün İqtisadi və Sosial Komissiyasının icraçı katibi Kim Hak-Sunu qəbul etmişdir.

Kim Hak-Su BMT-nin Asiya və Sakit okean üçün İqtisadi və Sosial Komissiyasının təşkil etdiyi konfransda iştirak etmək üçün ölkəmizə səfər etdiyini bildirdi. Qonaq Azərbaycanın iqtisadi sahədə əldə etdiyi böyük uğurlarla bağlı Prezident İlham Əliyevi təbrik etdi.

Dövlətimizin başçısı konfransda müzakirə edilən məsələlərin ölkəmiz üçün vacib olduğunu bildirdi. Prezident İlham Əliyev iqtisadiyyatın digər sahələrində olduğu kimi, energetika sahəsində də Azərbaycanın böyük uğurlar qazandığını qeyd edərək, qeyri-neft sektorunun, infrastrukturun inkişafına mühüm diqqət yetirildiyini vurğuladı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV MƏŞHUR MUSİQİÇİ HERBİ HANKOOKU QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 27-də Prezident sarayında məşhur musiqiçi Herbi Hankooku qəbul etmişdir.

Dövlətimizin başçısı Azərbaycanda caz festivalının keçirilməsinin və Herbi Hankookun bu tədbirdə iştirakının ölkəmizin mədəni həyatında mühüm hadisə olduğunu vurğuladı. Prezident İlham Əliyev Azərbaycan mədəniyyətinin böyük ənənələrə malik olduğunu bildirdi və bu sahənin inkişafına daim xüsusi diqqət göstərildiyini qeyd etdi.

Herbi Hankook ölkəmizə ilk dəfə səfər etdiyini bildirdi. Caz festivalının yüksək səviyyədə təşkil edildiyini diqqətə çatdıran qonaq Azərbaycanda mədəniyyətin inkişafına dövlət tərəfindən verilən dəstəyin onda xoş təəssürat yaratdığını qeyd etdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AVROPA YERLİ VƏ REGİONAL HAKİMİYYƏTLƏR KONQRESİNİN SƏDRİ HALVADAN SKARDIN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 27-də Prezident sarayında Avropa Şurasının məsləhətçi orqanı olan Avropa Yerli və Regional Hakimiyyətlər Konqresinin sədri Halvadan Skardın rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Görüş zamanı ölkəmizin müvafiq strukturları ilə Avropa Yerli və Regional Hakimiyyətlər Konqresi arasında əməkdaşlığın müxtəlif sahələri ilə bağlı bir sıra məsələlər müzakirə olunmuşdur.

AZƏRBAYCAN RESPUBLİKASI XARİCİ İŞLƏR NAZİRLİYİNİN BƏYANATI

Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Ermənistan Respublikasının Xarici İşlər Nazirliyinin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması istiqamətində aparılan danışıqlar prosesinin gerçəkliklərinin məqsədyönlü şəkildə davam etməkdə olan ənənəvi təhrif cəhdləri ilə əlaqədar bəyan edir:

Ermənistan XİN-in 2006-cı il 26 iyun tarixli bəyanatı Ermənistan tərəfinin münaqişənin nizama salınması prosesində, təəssüf ki, qeyri-konstruktiv mövqeyində qalmasının daha bir sübutudur.

ATƏT-in Minsk qrupu həmsədrləri, xüsusilə də, ABŞ-dan olan həmsədr Mətyu Brayzə hazırda müzakirə olunan sülh yolu ilə mərhələli nizamasalınmanın təklif olunan sənədin ümumi kontekstinin ayrılmaz hissəsi olan ayrı-ayrı prinsiplərinin yalnız ümumi təsvirlərini göstərmişlər. Bu anlayışların başa düşülməməsi və ya qarışıq salınması üçün, habelə Ermənistan XİN-in bəyanatında əksini tapan spekulyasiya cəhdlərinə zəmin yaradır.

Bununla əlaqədar, Ermənistan Respublikasının işğalçı qoşunlarının bütün zəbt olunmuş ərazilərdən çıxarılması məsələsi münaqişənin nizama salınmasında həlledici komponentlərdən biri olaraq Azərbaycan Respublikasının mövqeyini əks etdirir. Bu kontekstdə Dağlıq Qarabağ regionu əhalisinin Ermənistanla bir tərəfdən, Azərbaycan və Naxçıvan Muxtar Respublikası arasında isə digər tərəfdən gediş-gəlişin yaradılması barədə danışmağa imkan verəcək "dəhliz" mövzusuna daha geniş məna kəsb edən regionda rabitənin bərpa edilməsi problemi çərçivəsində müraciət olunur.

Statusun müəyyən olunması davam edən işğal və etnik təmizləmə şəraitində mümkün deyil və bu səbəbdən, müvafiq beynəlxalq təhlükəsizlik təminatları altında məcburi köçürülmüş Azərbaycan əhalisinin öz daimi yaşayış yerlərinə qayıtmasına şərait yaratmaq üçün Azərbaycanın işğal edilmiş ərazilərinin azad olunmasını və bütün münaqişə zonasının demilitarizasiyası tələb olunur. Bunu Ermənistan rəhbərliyi də etiraf edir.

Azərbaycan tərəfi Azərbaycan Respublikasının qüvvədə olan Konstitusiyası və Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazi bütövlüyü çərçivəsində Dağlıq Qarabağa ən yüksək muxtariyyət verilməsinə hazır olduğu barədə mövqeyini bir daha təsdiq edir.

Daimi nizamlanmaya nail olmaq üçün Konstitusiyaya uyğun belə bir yanaşma mümkün olan yeganə yoldur.

İcmalararası sülh və harmoniyanın və regionun statusunun müəyyən edilməsi məqsədi ilə obyektiv şəraitin bərqərar edilməsi üçün, habelə regionun gələcək inkişafı perspektivini nəzərə alaraq, Azərbaycan dünya praktikasında mövcud olan presedentlərə müvafiq şəkildə Dağlıq Qarabağ əhalisinin münaqişə dövrünün əvvəlində olan etnik tərkibinin bərpa edilməsindən sonra, əhali üçün regionda iqtisadi və digər stimullar kompleksi məsələsinə baxmağa hazır olacaqdır.

Danışıqlar çərçivəsində Azərbaycanın mövqeyi konstruktiv olaraq qalmaqdadır və nəinki bizim çoxmillətli dövlətimizin, bütövlükdə beynəlxalq ictimaiyyətin maraqlarına cavab verir. İşğal edilmiş ərazilərimizi girov və alver elementinə çevirmək taktikasından istifadə etməklə bu mövqenin şantaj və hədələrlə dəyişdirilməsinə yönəldilmiş bütün cəhdlər uğursuzluğa məhkumdur. Azərbaycanın ərazi bütövlüyü danışıqlar mövzusu deyil və ola da bilməz.

Eyni zamanda, Xarici İşlər Nazirliyi Azərbaycan tərəfinin regionda daimi və ədalətli sülhə nail olmaq üçün sülh danışıqlarının davam etdirilməsinə sadiqliyini təsdiq edir. Danışıqlar prosesinin pozulacağı təqdirdə bütün məsuliyyət və bunun nəticələri Ermənistan tərəfinin üzərinə düşür.

Bakı, 27 iyun 2006-cı il

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AMERİKA TÜRK ASSOSİASİYALARI ASSAMBLEYASININ PREZİDENTİ VURAL CENGİZİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 28-də Prezident sarayında Amerika Türk Assosiasiyaları Assambleyasının prezidenti Vural Cengizi qəbul etmişdir.

Vural Cengiz Azərbaycanda keçirdiyi bir sıra görüşlər barədə dövlətimizin başçısına məlumat verdi, ABŞ-dakı Azərbaycan ilə türk diasporları arasında çox gözəl münasibətlərin olduğunu bildirdi.

Dövlətimizin başçısı Amerikadakı Azərbaycan və türk diasporları arasında sıx əməkdaşlığın həyata keçirilməsindən məmnunluğunu vurğulayaraq, bu əlaqələrin Azərbaycan haqqında həqiqətlərin dünyaya daha geniş yayılması işinə xidmət etdiyini bildirdi.

XARİCİ İŞLƏR NAZİRLİYİNDƏ GÖRÜŞ

Azərbaycan xarici işlər naziri Elmar Məmmədyarov iyunun 28-də Gürcüstan Prezidentinin milli təhlükəsizlik məsələləri üzrə köməkçisi, Gürcüstan Milli Təhlükəsizlik Şurasının katibi Konstantin Kemulari ilə görüşmüşdür.

Səmimi qəbula görə təşəkkür edən qonaq, Azərbaycanda olduğundan məmnun qaldığını söyləmişdir. O, xalqlarımız arasında dərin tarixi və mədəni əlaqələrin mövcud olduğunu, bu münasibətlərin hazırda müsbət istiqamətdə inkişaf etdiyini diqqətə çatdırmışdır.

Regiondakı dondurulmuş münaqişələrə toxunan nazir Elmar Məmmədyarov, bu münaqişələrin ölkələrimizin inkişafına və bölgədə beynəlxalq miqyaslı iqtisadi layihələrin həyata keçirilməsinə ciddi əngəl törətdiyini söyləmişdir. O, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizamlanması ilə bağlı danışıqlar prosesindən danışaraq vurğulamışdır ki, bu münaqişə yalnız beynəlxalq hüququn norma və prinsipləri, Azərbaycanın Konstitusiyası əsasında öz həllini tapmalıdır. Nazir E.Məmmədyarov qeyd etmişdir ki, işğal olunmuş ərazilərdən girov amili kimi istifadə etmək yolverilməzdir. Ermənistan işğal etdiyi ərazilərdən hərbi qüvvələrini qeyd-şərtsiz çıxarmalı, məcburi köçkünlər daimi yaşayış yerlərinə qayıtmalıdırlar.

Konstantin Kemulari Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində aparılan danışıqlar prosesində Azərbaycan tərəfinin mövqeyini dəstəklədiyini söyləmişdir. O bildirmişdir ki, Ermənistan işğal altında saxladığı ərazilərdən silahlı qüvvələrini çıxarmadan Dağlıq Qarabağın statusu haqqında fikirlər irəli sürməsi beynəlxalq hüququn norma və prinsiplərinə qətiyyən uyğun gəlmir.

Daha sonra nazir Elmar Məmmədyarov Azərbaycan və Gürcüstanın beynəlxalq əhəmiyyətli layihələrdə birgə iştirakını yüksək qiymətləndirərək, ölkələrimizin ikitərəfli əlaqələrinin xalqlarımızın milli maraqlarına xidmət etdiyini vurğulamışdır.

Görüşdə ölkələrimiz arasında iqtisadi əlaqələrin inkişafını sürətləndirəcək birgə biznes-forumun keçirilməsi təklifi irəli sürülmüş, tərəflər üçün maraq doğuran digər məsələlər ətrafında da geniş fikir mübadiləsi aparılmışdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV TÜRKİYƏ CÜMHURİYYƏTİ SİLAHLI QÜVVƏLƏRİNİN BAŞ QƏRARGAH RƏİSİ ORDU GENERALI HİLMİ ÖZKÖKÜ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 29-da Prezident sarayında Türkiyə Cümhuriyyəti Silahlı Qüvvələrinin Baş Qərargah rəisi ordu generalı Hilmi Özkökü qəbul etmişdir.

Prezident İlham Əliyev hörmətli qonağı səmimiyyətlə salamlayaraq, ən xoş arzularını bildirərək dedi ki, çox şadam ki, siz yenidən Azərbaycandasınız. Sizinlə olan çox gözəl, mehriban görüşlərimizi xatırlayıram. Bizim üçün şərəfdir ki, ölkələrimiz arasında olan münasibətlərə böyük dəstək verirsiniz. Türkiyə ilə Azərbaycan arasında əlaqələr çox yüksək səviyyədədir və günü-gündən möhkəmlənir. Müxtəlif beynəlxalq məsələlərdə birgə fəaliyyət göstəririk. Birgə həyata keçirdiyimiz çox önəmli beynəlxalq layihələr öz həllini tapır. Türkiyə-Azərbaycan dostluğu, birliyi, qardaşlığı bizim mövqelərimizi daha möhkəmləndirir. Bu sahədə silahlı qüvvələrin əməkdaşlığı da böyük əhəmiyyət daşıyır.

Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra ötən bütün dövr ərzində biz həmişə Türkiyə Silahlı Qüvvələrinin dəstəyini hiss etmişik, yardımını görmüşük. Azərbaycanın peşəkar ordusunun formalaşmasında sizin böyük xidmətləriniz olubdur. Azərbaycan xalqı bunu həmişə çox böyük minnətdarlıq hissi ilə qeyd edir. Hörmətli Baş Qərargah rəisi, bu sahədə şəxsən sizin fəaliyyətiniz, xidmətləriniz çox dəyərli olub və biz bunu çox yüksək qiymətləndiririk. Ordu quruculuğu sahəsində Azərbaycanın uğurlarının sə-

bəblərindən biri də türk qardaşlarımızın bizə dəstəyi və yardımıdır. Biz bir neçə gün bundan əvvəl Silahlı Qüvvələr gününü qeyd etmişdik. Orada Azərbaycan pilotları öz məharətlərini göstərdilər. Onlardan bir neçəsi Türkiyənin hərbi məktəblərində təhsil almışdır. Bu, əyani sübutdur ki, bizim əməkdaşlığımız Azərbaycanda ordu quruculuğunun inkişafında çox böyük əhəmiyyətə malikdir. Sizin böyük xidmətlərinizi nəzərə alıb, mən bu gün Sizi Azərbaycan dövlətinin yüksək mükafatı - "Şöhrət" ordeni ilə təltif etmişəm. İstəyirəm ki, bu yüksək mükafatı sizə təqdim edim.

Baş Qərargah rəisi ordu generalı Hilmi Özkök Azərbaycanın "Şöhrət" ordeninə layiq görüldüyü üçün Prezident İlham Əliyevə dərin minnətdarlığını bildirdi və bundan sonra da ölkələrimiz arasında əlaqələrin inkişafında səylərini əsirgəməyəcəyini söylədi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV "CİSCO SYSTEMS" ŞİRKƏTİNİN PREZİDENTİ CON ÇEMBERSİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 29-da Prezident sarayında "Cisco Systems" şirkətinin Prezidenti Con Çembersin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Dövlətimizin başçısı Azərbaycan iqtisadiyyatının sürətlə inkişaf etdiyini, ümumi daxili məhsulun artım sürətinə görə ölkəmizin dünyada aparıcı yer tutduğunu vurğuladı.

Prezident İlham Əliyev iri xarici şirkətlərin, o cümlədən "Cisco Systems" şirkətinin Azərbaycana marağının getdikcə artmasını ölkəmizin uğurlu inkişafının göstəricisi olduğunu nəzərə çatdırdı.

Dövlətimizin başçısı ölkəmizin inkişafının hazırkı mərhələsində yeni texnologiyalara ehtiyac duyulduğunu və bu baxımdan "Cisco Systems" şirkətinin Azərbaycanda fəaliyyətinin uğurlu olacağına ümidvar olduğunu bildirdi.

Con Çembers Azərbaycanın əldə etdiyi uğurlara görə Prezident İlham Əliyevi təbrik etdi. Bu səfərinin ölkəmizlə yaxından tanış olmağa imkan yaratdığını bildirən qonaq "Cisco Systems"in Azərbaycanda fəaliyyət göstərəcək ilk texnologiya şirkəti olmasından məmnunluğunu söylədi. O, rəhbərlik etdiyi şirkətin ölkəmizlə əlaqələrinin daha da genişlənəcəyinə əminliyini vurğuladı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV YORK HERSOQU, ŞAHZADƏ ENDRYUNU QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 30-da Prezident sarayında York hersoqu, şahzadə Endryunu qəbul etmişdir.

Şahzadə Endryu ölkəsinin Azərbaycanla münasibətləri daha da inkişaf etdirmək istəyində olduğunu vurğuladı. Qonaq Bakı-Tbilisi-Ceyhan boru kəməri ilə Ceyhan limanından ilk neftin yola salınması hadisəsinin əhəmiyyətini vurğulayaraq, bu səfərinin qarşıdan gələn illərdə Azərbaycanın inkişaf planlarını daha yaxından öyrənmək üçün yaxşı imkan yaratdığını bildirdi.

Dövlətimizin başçısı ötən il şahzadə Endryunun Azərbaycana səfər etdiyini məmnunluqla xatırladı. Azərbaycanın yeni inkişaf mərhələsinə qədəm qoyduğunu vurğulayan Prezident İlham Əliyev ölkəmizdə qlobal enerji layihələrinin uğurla həyata keçirildiyini bildirdi.

Görüş zamanı qarşılıqlı maraq doğuran bir sıra digər məsələlər ətrafında da fikir mübadiləsi aparıldı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV VƏ BÖYÜK BRİTANİYA KRAL AİLƏSİNİN ÜZVÜ, YORK HERSOQU, ŞAHZADƏ ENDRYU HEYDƏR ƏLİYEV FONDUNDA OLMUŞLAR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və ölkəmizdə səfərdə olan Böyük Britaniya kral ailəsinin üzvü, York hersoqu, şahzadə Endryu iyunun 30-da Heydər Əliyev Fondunda olmuşlar.

Hörmətli qonağa Azərbaycan xalqının ümummilli lideri, ölkəmizin müasir tarixində müstəsna xidmətləri olan ulu öndər Heydər Əliyevin mənalı, ibrətamiz həyat yolu və fəaliyyəti haqqında geniş məlumat verildi.

Prezident İlham Əliyev ümummilli liderin irsinin layiqincə təbliği üçün Heydər Əliyev Fondunun kompleks iş apardığını vurğuladı, Fondun silsilə layihələr həyata keçirdiyini bildirdi.

Xatirə şəkli çəkdirildikdən sonra York hersoqu, şahzadə Endryu Fondun xatirə kitabına ürək sözlərini yazdı. Hörmətli qonağa hədiyyələr təqdim edildi.

Sonda Heydər Əliyev Fondunun çoxşaxəli fəaliyyətindən bəhs edən film göstərildi.

[redacted]

Həmin gün axşam Azərbaycan Prezidenti İlham Əliyevin adından York hersoqu, şahzadə Endryunun şərəfinə "Yaxt klub"da rəsmi ziyafət verildi.

AZƏRBAYCAN VƏ MİSİR XARİCİ İŞLƏR NAZİRLİKLƏRİ ARASINDA NAZİR MÜAVİNLƏRİ SƏVİYYƏSİNDƏ SİYASİ MƏSLƏHƏTLƏŞMƏLƏR KEÇİRİLMİŞDİR

İyunun 30-da Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi ilə Misir Ərəb Respublikası Xarici İşlər Nazirliyi arasında nazir müavinləri səviyyəsində siyasi məsləhətləşmələr keçirilmişdir.

Nazir müavini Xələf Xələfov Bakıda səfərdə olan misirli qonaqları salamlayaraq, hazırkı məsləhətləşmələrin ölkələrimiz arasında siyasi dialoqun davam etdirilməsi baxımından vacib əhəmiyyət daşıdığını vurğulamışdır.

Görüşdə MƏR-in xarici işlər nazirinin müavini xanım Fatma əl-Zəhra ölkəsinin Azərbaycan ilə bütün sahələrdə əlaqələri inkişaf etdirmək niyyətində olduğunu diqqətə çatdıraraq, Bakıya səfərinin məqsədinin Qahirədə başlanmış siyasi məsləhətləşmələrin davam etdirilməsi, ikitərəfli münasibətlərin möhkəmləndirilməsi və əməkdaşlığın inki-

şafı üzrə təklifləri müzakirə etmək olduğunu söyləmişdir.

Müzakirələrdə ölkələrimiz arasında beynəlxalq təşkilatlar, o cümlədən BMT və İKT çərçivəsində səmərəli əməkdaşlığın inkişaf perspektivləri, qarşılıqlı maraq doğuran regional və beynəlxalq məsələlər ətrafında geniş fikir mübadiləsi aparılmış, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllinə dair danışıqlar prosesinə toxunulmuş, Ermənistanın işğalçılıq siyasətindən əl çəkmədiyi və problemin aradan qaldırılması işində qeyri-konstruktiv mövqe tutduğu qeyd edilmişdir.

Tərəflər iqtisadi, ticarət, elm, mədəniyyət, turizm, səhiyyə, təhsil və s sahələrdə əlaqələrin inkişaf etdirilməsinin vacibliyini vurğulamış və bu baxımdan hüquq-müqavilə bazasının gücləndirilməsinin mühüm amil olduğunu bildirmiş, Qahirə və Bakı arasında birbaşa hava əlaqəsinin yaradılması, TRASECA layihəsi çərçivəsində əməkdaşlığın perspektivlərini müzakirə etmişlər. Bundan əlavə, Avropa İttifaqı ilə münasibətlər və əməkdaşlıq məsələsi də müzakirə olunmuşdur.

Görüşdə Misir-Azərbaycan müştərək komissiyasının 2007-ci ilin əvvəlində Bakıda keçirilməsi nəzərdə tutulan iclası barədə də fikir mübadiləsi aparılmışdır.

XARİCİ İŞLƏR NAZİRLİYİNDƏ BRİFİNQ KEÇİRİLMİŞDİR

TEMATİK BRİFİNQ

Vaqif Sadıqov, Xarici İşlər Nazirinin müavini

Bakı, Azərbaycan

30 iyun 2006-cı il

İÇİNDƏKİLƏR

2006-cı ilin iyun ayının 19-21 tarixlərində Bakı şəhərində keçirilmiş İKT Xarici İşlər Nazirlərinin 33-cü Konfransının nəticələrinə dair

STENOQRAM

14:00

V. Sadıqov: Hörmətli mətbuat nümayəndələri, bir daha sizi salamlayıram. Xoş gəlmişsiniz Xarici İşlər Nazirliyinə. Biz həmişəki kimi çox şadıq sizi nazirlikdə görməyə. Bugünkü görüşümüzün də məqsədi, keçən həftə keçirilmiş İslam Konfransı Təşkilatına üzv dövlətlərin Xarici İşlər Nazirlərinin 33-cü konfransının yekunlarına bağlı olan görüşümüzdür. İcazə verin, bu gün bizim bu mətbuat konfransında iştirak edən Azərbaycan Respublikasının İordaniyadakı səfiri Elman müəllim Araslını da sizə təqdim edim və bizim İkinci ərazi idarəsinin rəis müavini Rəşad Əliyarlını. Bunu bəlkə bəziləri bilmir, Elman müəllim bizim əvvəllər Səudiyyə Ərəbistanında Azərbaycan Respublikasının Səfiri olub və eyni zamanda Azərbaycanın İslam Konfransı Təşkilatında ilk daimi nümayəndəsi olub. Ona görə də, nəzərə alaraq ki bu son aya qədər Elman Araslı hələ də Səudiyyə Ərəbistanında öz xidməti borcunu yerinə yetirmişdir, ona görə də biz hesab edirik ki, bu gün ola bilsin o Azərbaycanın bu təşkilata ilk daimi nümayəndəsi kimi də bir-iki kəlmə maraqlı məlumat verə bilər. Əvvəlcədən icazə verin İslam Konfransı Təşkilatı haqqında bir az məlumat verək, sonra da keçərik konfransın özünə.

Bildiyiniz kimi İslam Konfransı Təşkilatı 1979-cu ildə təşkil olunmuş təşkilatdır. Əslində, bir sıra ərəb və digər müsəlman ölkələrinin Xarici İşlər Nazirlərinin ilk görüşü yalnız bir məqsəd güdürdü, o da Ərəb-İsrail münaqişəsi ətrafında yaranmış vəziyyəti müzakirə etmək və Qüds şəhərinin gələcəyini təyin etmək üçün müsəlman aləminin bir sıra addımlarını müzakirə etmək olmuşdur. Yəni məqsəd yalnız bu idi, amma sonradan 3 il keçəndən sonra həmin ölkələrin Xarici İşlər Nazirləri belə qərara gəldilər ki bu səyləri davamlı şəkildə irəliyə aparmaq üçün bir qurum yaratmaq lazımdır və beləliklə qərar qəbul olundu ki, İslam Konfransı Təşkilatı adlanan bir qurum təşkil olunsun. Hal-hazırda İslam Konfransı Təşkilatının üzvü 57 ölkədən ibarətdir, o cümlədən də Azərbaycan. Təşkilatın baş qərargahı Səudiyyə Ərəbistanında Ciddə şəhərində yerləşir. Konfransın nizamnaməsinə əsasən iki əsas qərar qəbul-edici orqanı var, bu da dövlət və hökumət başçılarının İslam Konfransı, bu konfrans 3 ildə bir dəfə keçirilir və Xarici İşlər Nazirlərinin İslam Konfransı. Bu konfrans hər il, ildə bir dəfə keçirilir. Zirvə görüşünə dair, yəni dövlət və hökumət başçılarının görüşünə dair deyə bilərəm ki, sonuncu bu kimi görüş dövlət və hökumət başçıları səviyyəsində 2003-cü ildə Malayziyada keçirilmişdi. Növbəti görüş gərək bu il keçiriləydi Seneqalda, amma keçən ilin sonunda fövqəladə zirvə görüşü Məkkədə olduğuna görə bu növbəti görüşü keçirdilər 2007-ci ilə və bu dəfə bu görüş 2007-ci ildə Seneqalın paytaxtı Dakar şəhərində keçiriləcək. O ki qaldı Xarici İşlər Nazirlərinin görüşlərinə, mən bayaq dediyim kimi, bu görüşlər, bu konfranslar hər il keçirilir. Son görüşlər, məsələn, 2004-cü ildə İstanbulda keçirilmişdi, 2005-ci ildə Yəmənin paytaxtında Sana şəhərində keçirilmişdi, bu il 33-cü konfrans Bakıda keçirilib və növbəti Xarici İşlər Nazirlərinin 34-cü konfransı gələn il Pakistanın paytaxtı İslamabadda keçiriləcək.

Adətən, deməli, Xarici İşlər Nazirlərinin görüşlərinin gündəliyi kifayət qədər uzundur, məsələn, bu ilki konfransda haradasa 100-dən artıq, 103-104 bənddən ibarət gündəlik idi, bir qayda olaraq gündəlikdə olan məsələlər müsəlman ölkələrinin, bütün onların siyasətinin, inkişafının bütün aspektlərini əhatə edir. Orada həm siyasi məsələlər var, həm iqtisadi məsələlər, təhsil məsələləri, müsəlman azlıqların məsələləri, və sairə. Bir çox məsələlər gündəlikdə olur. Adətən, bu konfransların nəticələri bir çox beynəlxalq təşkilatlarda olduğu kimi, bu konfransın sənədləri, qətnamələri və qərarlarıdır.

Bu konfransa gəldikdə mən deyə bilərəm ki, 33-cü konfransın Bakıda keçirilməsi təşəbbüsü 2005-ci ildə Azərbaycanın prezidenti İlham Əliyev tərəfindən irəli sürülmüşdür və 2005-ci ilin birinci yarısında onun İslam Konfransı Təşkilatı Baş Katibi Ekmələddin İhsanoğlu ilə keçirilmiş görüşündə bizim prezident bu haqda təşəbbüs irəli sürdü. Sonradan, keçən ilin May ayında Xarici İşlər Nazirliyi öz niyyəti haqqında, yəni bu konfransın Bakıda keçirilməsi haqqında İKT-nin baş katibliyinə rəsmi nota göndərdi və bu nota İKT-nin üzv dövlətləri arasında yayılmışdı. Və, nəhayət, 2005-ci ilin iyunun sonunda, Yəməndə keçirilmiş 32-ci konfransda bizim, Azərbaycanın bu niyyəti bu işdə rəsmi olaraq təsdiq olunmuşdur və Bakıda konfransın keçirilməsi haqqında qərar artıq bir il bundan əvvəl, yəni bu haqda qərar İslam Konfransı Təşkilatı tərəfindən qəbul olunmuşdur. Keçən ildən başlayaraq bu ilə qədər, bütün təşkilati işləri, bu konfransın keçirilməsi ilə bağlı təşkilati işləri Azərbaycanın təşkilat komitəsi keçirmişdir. Bu təşkilat komitəsinin yaradılması haqqında keçən il Azərbaycan Respublikası prezidentinin xüsusi fərmanı olmuşdur, təşkilat komitəsinin sədri Azərbaycan Respublikasının Baş Naziri Artur Rasi-

zadə idi və təşkilat komitəsinin sədr müavini bizim Xarici İşlər Nazirimiz Elmar Məmmədyarov idi. Və orada bir çox dövlət qurumlarının nümayəndələri bu komitənin işində iştirak ediblər, çünki özünüz başa düşürsünüz ki, bu kimi böyük tədbiri keçirmək üçün tək bir dənə Xarici İşlər Nazirliyinin səyləri kifayət deyil, burda bir çox digər təşkilatların da məsləhətləri çox vacibdir. Və nəhayət, iyunun 19-21-i bildiyiniz kimi 33-cü konfrans Bakıda keçirilib.

Bu konfransın keçirilməsi ilə bağlı bir neçə, yəni onun əhəmiyyətinə dair bir neçə söz demək istəyirəm. Birincisi nəzərə almaq lazımdır ki, Azərbaycan Respublikasında Azərbaycan öz müstəqilliyini bərpa edəndən sonra yəni 1992-ci ildən bəri bu Azərbaycanda keçirilən ən böyük beynəlxalq tədbir olub. Böyük tədbir deyəndə mən onun həm miqyasını nəzərdə tuturam, mən indi sizə bəzi rəqəmləri verərəm, və bir də ona görə bu böyük önəmli tədbirdir ki, bu Azərbaycanda Azərbaycanın üzv olduğu tam miqyaslı, tam hüquqlu beynəlxalq təşkilatlarının iclaslarından, yəni tədbirlərindən birincisi idi. Azərbaycan , bilirsiniz, bir çox təşkilatların üzvüdür, bu hətta ATƏT-dir, Avropa Şurasıdır və sairə və sairə, amma Azərbaycanda onun rəsmi üzv olduğu təşkilatların növbəti tədbiri heç vaxt keçirilməmişdir. Azərbaycanda bu illər ərzində bir çox, məsələn, konfranslardı, sərgilərdi və sairə buna oxşar tədbirlər keçirilib. Azərbaycan özü təşəbbüskarı olmuş tədbirlər keçirilib. Amma bunun əhəmiyyəti ondan ibarətdir ki, Azərbaycanda bu təşkilatın artıq müəyyən olunmuş standartlarına, proseduralarına uyğun olaraq tədbir keçirilir, ya da daha sadə dillə desək məsələn əgər siz özünüz tədbir keçirirsəniz, siz onun sayını, görünüşünü, təşkilini özünüz də müəyyənləşdirə bilərsiniz, öz gücünüzə, imkanınıza uyğun olaraq. Biri də var ki, artıq mövcud olan təşkilatın onun mövcud olan standartlarına, proseduralarına uyğun olaraq siz keçirirsiniz tədbiri. Yəni sizi heç kəs məcbur eləmir əgər sizin belə deyək də, gücünüz çatır bunu bu səviyyədə keçirmək beynəlxalq səviyyədə onda buyurun keçirin, yoxsa əgər gücünüz çatmırsa onda xahiş edirik çəkilin qırağa başqaları da keçirtsinlər. Yəni Azərbaycan bu tədbiri keçirməklə, tədbir isə hər halda bura gələn qonaqların nümayəndə heyətlərinin fikrincə çox yüksək səviyyədə təşkil olunubdu, yəni Azərbaycan həqiqətən də göstərdi ki, baxmayaraq ki, biz yalnız 1992-ci ildən bəri beynəlxalq aləmdə müstəqil dövlət kimi fəaliyyət göstəririk artıq Azərbaycanın bu günkü imkanları onun potensialı, həm maddi potensialı, həm də intellektual potensialı, deməli, tam hüquqlu beynəlxalq təşkilatın tədbirini yüksək səviyyədə keçirməyə imkan verir. Məsələn biz dilimizdə tez-tez işlədilən ATƏT ilə müqayisə eləsək ATƏT-in 55 üzv ölkəsi var, İslam Konfransı Təşkilatında isə 57. Özüdə İslam Konfransı Təşkilatının tarixi ATƏT-dən qat-qat çoxdur. Xüsusən də nəzərə alsaq ki, ATƏT-in tərkibi 1992-ci ildən sonra xeyli artmışdır, SSSR-in və Yuqoslaviyanın dağılmasından sonra əmələ gəlmiş dövlətlərin hesabına. Deməli, bu tədbirin Azərbaycanda keçirilməsinin ilk önəmi bundan ibarətdir ki, bu təşkilati cəhətdən çox böyük tədbir idi. İkinci onu qeyd eləmək lazımdır ki, İslam Konfransı Təşkilatı baxmayaraq ki, artıq 32 Konfrans keçiribdi Xarici İşlər Nazirləri səviyyəsində, post-sovet məkanında ilk dəfə keçirilən belə tədbirdir. İndi açığı deyə bilərəm..., müsəlman aləmində bəziləri Sovet İttifaqından çıxmış müsəlman ölkələri nə deməkdi, müsəlman dinini necə qəbul edirlər, nəyi bilirlər, nəyi bilmirlər, bəzi şübhələri var. Ona görə də bunların Azərbaycana gəlib müasir müsəlman digər tərəfdən isə dünyəvi dövlət olmaq nə deməkdi, bunlar üçün çox böyük maraq kəsb edirdi və mən ümidvaram ki, bu nümayəndələr, qonaqlar

3-4 gün Bakıda olduğu zaman Bakı ilə tanış olub, Bakının küçələri, meydanlarını gəzib, bakılılarla ünsiyyətdə olub artıq müəyyən fikirləri formalaşdırıb dönüblər öz evlərinə. Ona görə də, bu cəhətdən də, əlbəttə, bu Konfrans Azərbaycanı tanıtmaq Azərbaycanın müasir imicini, müasir simasını geniş kütlələrə xaricdə tanıtmaq baxımından, əlbəttə, çox önəmli idi. Və onu da qeyd eləmək lazımdır ki, sizin həmkarlarınız da xarici ölkələrdən, təxminən, 70-80-ə yaxın xarici jurnalist Bakıda bu müddətdə olubdur və əlbəttə ki, çoxlu materiallar yığıb Azərbaycanın indiki həyatı haqqında qayıdıblar. Və nəhayət əlbəttə ki, Konfransda qəbul olunmuş sənədlər, çünki hər bir beynəlxalq təşkilatın keçirdiyi tədbirin zirvə nöqtəsi onun qəbul etdiyi sənədlərdir. Bir ənənə olaraq Xarici İşlər Nazirlərin Konfranslarında adətən bir ümumi siyasi Bəyannamə qəbul olunur və onunla yanaşı gündəlikdə olan müxtəlif məsələlərə dair bir çox qətnamələr qəbul olunur. Deməli, Bakı Bəyannaməsinə gəldikdə, mən demək istəyirəm ola bilsin ki, bəziləriniz artıq tanış olmuşsunuz Bəyannamə ilə, çünki Bəyannamə həm İsam Konfransı Təşkilatının veb saytında yerləşdirilib həm də bizim Xarici İşlər Nazirliyin və Təşkilat Komitəsinin veb saytında yerləşdirilib. Bu Bəyannaməyə keçməmişdən əvvəl mən Sizə demişdim ki, bəzi rəqəmləri verəcəm və məsələn Konfransda 98 nümayəndə heyəti iştirak edib, onlardan 52-si üzv dövlətlərin nümayəndə heyətləri olub, rəqəmlərə gəldikdə, demək, ümumi nümayəndə heyətlərin tərkibində olan nümayəndələrin sayı - 588 nümayəndə iştirak edib. Və deməli, onların sırasında bir çox beynəlxalq təşkilatlar və həm qonaq qismində bu tədbirə dəvət olunanlar da iştirak ediblər. Deməli mən bayaq dediyim kimi İslam Konfransı Təşkilatının tərkibində 57 dövlət var. Və İKT-nin də nəzdində müşahidəçilər də var. Bunların sırasında deməli 6 beynəlxalq və regional təşkilatdır müşahidəçi simasında və 5 müstəqil dövlət, bunlar da İKT nəzdində müşahidəçilərdi. Və təxminən 100-ə yaxın mətbuat nümayəndələri olub və beləliklə konfransda iştirak edənlərin ümumi sayı 700-ə yaxındı ya bəlkə də, 700-dən də bir az çox idi. 588 nəfər bu sırf, deməli, diplomatik nümayəndə heyətləri tərkibində olanlar, məsələn, bəziləri öz təyyarələrində gəliblər onlar təyyarə heyəti, təhlükəsizlik xidməti və s. onları mən hələ saymıram onlarla bir yerdə haradasa 1000 yaxın adam iştirak edib. Tədbirinin miqyası çox geniş olub. O ki qaldı Bakı Bəyannaməsinə, əgər siz artıq bununla tanış olmaq imkanı əldə etmişsiniz, bilirsiniz ki, Bakı Bəyannaməsi 31 bənddən ibarətdir. Bu 31 bənddə dünyada baş verən bir çox məsələlərə islam dünyasının münasibəti bildirilir, Bəyannamənin əvvəlində bir neçə bənd ümum təşkilat məsələlərinə həsr olunub. Xüsusən də orada qeyd olunur ki, biz yəni Xarici İşlər Nazirləri əvvəlki konfranslarımızda qəbul olunmuş qərarlara öz sadiq olduğumuzu yenidən bəyan edirik, sonra son zamanlar Avropada və dünyanın bir neçə yerlərində islamofobiya tendensiyasına olan islam dünyasının münasibəti bildirilir. Sonra orada bir neçə gələn il üçün konkret tədbirlərin adı çəkilir. Bunu da qeyd eləməliyəm ki, Bakıda keçirilmiş konfrans tək bir konfrans kimi yox o cümlədən də Azərbaycanın İslam Konfransı Təşkilatında 1 illik müddətində başlamış sədrliyin də başlanğıc nöqtəsi olub. Çünki konfransı keçirən ölkə 1 il müddətində bu təşkilata sədrliyi aparır və bu o deməkdir ki, artıq ayın 19-dan başlayaraq gələn ilin iyununda Pakistanda keçiriləcək növbəti Xarici İşlər Nazirliyin növbəti konfransına qədər, hələ ayın tarixləri dəqiq deyil, deməli Azərbaycan daha desək Azərbaycanın Xarici İşlər Naziri bu konfransın sədridir. Sədr deyəndə nələr nəzərdə tutulub. Bu o demək deyil ki, Elmar Məmmədyarov indi Bakıdan gedib Ciddədə əyləşəcək. Yox, söhbət siyasi rəhbərlikdən gedir ki, bir il ərzində biz İKT ilə ya da İKT ölkələri ilə bağlı hər hansı bir

beynəlxalq aləmdə hər hansı bir hadisələrin inkişafına təşkilat gərək rəy versin, münasibət bildirsin. Bu da əsasən bura sədrlik edən ölkə tərəfindən bütün İKT üzv dövlətləri adından veriləcək bir münasibət olacaq. Əlbəttə bu bir il ərzində təşkilat tərəfindən bir çox tədbirlər həyata keçiriləcək və əlbəttə bunların həyata keçirilməsində Azərbaycan qabaqcıl rol oynayacaq. Deməli, bu konfransda bizim nümayəndə heyətinin rəhbəri Elmar Məmmədyarovun çıxışında da bu məsələlər əks olundu.

Biz sədrliyimiz zamanı bir neçə mühüm tədbirlərin keçirilməsinin təşəbbüskarları olmuşuq. Sizi daha çox ola bilsin maraqlandıran o olacaq ki, gələn il üçün Azərbaycanda İKT-nin himayəsi altında tolerantlığın və dözümlülüyün inkişafında kütləvi məlumat vasitələrinin roluna həsr olunmuş konfrans keçiriləcək. Son zamanlar bir sıra xoşagəlməz hadisələr baş verdi islamla, islamofobiya ilə bağlı. Onların kökündə çox güman ki, məlumatın az olması, təhsilin lazımi səviyyədə olmaması, təhsil proqramlarında bəzi tarixi məsələlərdə olan boşluqların olması və nəhayət bütün bu boşluqların, məlumatın az olmasının kütləvi məlumat vasitələri tərəfindən öz məqsədləri üçün məharətlə istifadə edilməsidir. Ona görə bütün bunları müzakirə etmək, kütləvi məlumat vasitələrinin nümayəndələri ilə yığışıb, ola bilsin ki, biliyin olmamasının doldurulması üçün belə bir konfransın keçirilməsi yerinə düşər. Ona görə Azərbaycanın təklifi o biri üzv dövlətlər tərəfindən müsbət qarşılanıb. Ona görə də Bakı Bəyannaməsində özünə yer tapıb və onu da deyə bilərəm ki, artıq bu konfransa maraq göstərən ölkələr tərəfindən konfransla bağlı məlumatları da müsbət qarşılanıb və çox güman ki, onlar da bu konfransın keçirilməsində öz yardımını əsirgəməyəcəklər.

Azərbaycanın o biri təklifi ondan ibarət idi ki, İKT çərçivəsində hüquq-mühafizə orqanlarının rəhbərlərinin konfransını təsis edilsin. Burada söhbət nədən gedir: deməli İslam Konfransı Təşkilatının çərçivəsində bir neçə istiqamət üzrə ənənəvi olaraq bu və ya digər sahəyə rəhbərlik edən nazirlərin görüşləri daima keçirilir, məsələn, xarici işlər nazirlərinin, məlumat sahəsində olan dövlət qurumları rəhbərlərinin konfransları hər il keçirilir, turizm nazirləri konfransları hər il keçirilir. Bildiyiniz kimi, sentyabr ayının əvvəlində Bakıda İslam Konfransı təşkilatının üzv dövlətlərinin turizm nazirlərinin 5-ci konfransı, bir neçə mədəniyyət nazirlərinin görüşləri keçiriləcək və s. Eyni zamanda, son illərdə yeni təhdidlər, təhlükələr ortaya çıxır. Bunlar nələrdi: beynəlxalq terrorizm, qeyri qanuni miqrasiyadır, narkotik maddələrin qeyri qanuni dövriyyəsi, silah alveri və s. Bu belə təhlükəli, belə cərəyanlardı ki, özünüz başa düşürsünüz ki, bunların heç bir ölkə tək başına onun öhdəsindən gələ bilməz. Burada əlbəttə ki, beynəlxalq əməkdaşlıq lazımdı, özü də beynəlxalq əməkdaşlığın yüksək səviyyəsi tələb olunur. Ona görə də İslam konfransı təşkilatı üzv ölkələri arasında bu bəlalar hamısında mövcuddur. Bu işdə həm İKT daxili əməkdaşlığın gücləndirilməsi, digər tərəfdən də digər nüfuzlu beynəlxalq təşkilatlarla bu işdə əlaqələrin səmərəliliyin artırılması məqsədilə Azərbaycan təklif etdi ki, İKT çərçivəsində XİN-nin mühafizə orqanlarının rəhbərlərinin konfransı daimi fəaliyyət göstərən qurum kimi də təsis edilsin. Və üzv dövlətlər, bizim həmkarlarımız, bu təklifi də müsbət qarşıladılar. Bu təklif Bakı Bəyannaməsində öz əksini tapmışdır.

Bəyannamənin bəndləri bir neçə regional məsələlərə həsr olunub: Ərəb-İsrail münaqişəsi, İraqda olan vəziyyət, İranın ətrafında onun nüvə proqramı ilə bağlı yaranmış gərgin vəziyyət, sonra Şimali Kipr məsələsi, bir də Somali və Sudanda olan son vəziyyət

və əlbəttə ki, Ermənistanın Azərbaycana qarşı olan təcavüzü ilə bağlı olan bir bənd 14 nömrəli bənddir. Bənd özü kifayət qədər böyükdür, amma bir bənddir. Bəzən suallar verirlər ki, niyə Azərbaycan bəs Bakıda keçirilməsindən sui-istifadə edib bir bəndin əvəzinə 15 bənd salmayıb Bakı Bəyannaməsinə. Birincisi siz gərək yaxşı başa düşəsiniz ki, bu Azərbaycanın tədbiri deyil, Azərbaycan sadəcə olaraq burada, öz paytaxtında bu konfransı keçirir, amma tədbir özü beynəlxalq təşkilatın tədbiridir. İkincisi də biz bilirik ki, İKT Ermənistanın Azərbaycana qarşı təcavüzünü tanıyan bir qurum kimi artıq 1993-cü ildən başlayaraq bu məsələ ilə bağlı öz qəti mövqeyini bildirir, ona görə də biz hesab etmirik ki, bu və ya digər məsələyə münasibət bildirən paraqrafların sayını süni şəkildə artırmaqla nə isə dəyişilir. Təşkilat dövlətin simasında artıq öz sözünü bir dəfə deyib və hər dəfə bunu süni şəkildə şişirtməyin mənası yoxdur. Bu siyasəti məsələn, Ermənistan hökuməti aparır, amma Azərbaycanın mövqeyi bir dəfə bəyan edilib ən yüksək səviyyədə və bizim mövqeyimiz o vaxtdan dəyişilməz olaraq qalıbdır.

Və nəhayət, Bəyannamənin sonunda bir neçə təşkilat daxili məsələlərə də yer ayrılıb və beləliklə bu Bəyannamə yekdilliklə qəbul olunub. Eyni zamanda, bu və ya digər məsələyə həsr edilmiş 100-ə yaxın ayrıca qətnamələr qəbul olunub. Və o cümlədən də, Azərbaycanla Ermənistan arasında davam edən münaqişəyə həsr olunmuş qətnamə də qəbul olunub. Birincisi, Ermənistanın Azərbaycana qarşı təcavüzü ilə bağlı qətnamə, bu qətnamələri siz məlumat idarəsindən də əldə edə bilərsiniz, internetdən də əldə edə bilərsiniz. İkinci qətnamə Azərbaycanın işğal olunmuş ərazilərdə islam tarixi və mədəni abidələrin Ermənistan tərəfindən dağıdılması haqqında qətnamə. Bu iki səhifəlik qətnamədir və orada da İKT öz qəti mövqeyini bildirir. Və nəhayət, Azərbaycana yardım haqqında qətnamə. Burada da Ermənistanın təcavüzü nəticəsində 60 milyard dollardan çox olan iqtisadi ziyanın vurulması qeyd olunub və ölkələrə çağırış var ki, Azərbaycana bu sahədə iqtisadi yardımı gücləndirsinlər. Deməli Bakı Bəyannaməsi ilə yanaşı orada olan Azərbaycana aid olan paraqrafla, bəndlə yanaşı ayrıca 3 dənə də qətnamə qəbul olunub. Bildiyiniz kimi konfransın ilk günündə, onun açılışında Azərbaycanın prezidenti İlham Əliyev iştirak edib, geniş nitq söyləyib. Orada Azərbaycanın bu günkü durumu, Azərbaycanın qarşısında duran vəzifələr, iqtisadi, siyasi, demokratikləşmə sahələrində, o cümlədən də Ermənistanın Azərbaycana təcavüzü ilə bağlı bizim mövqeyimiz öz əksini tapmışdır. Prezidentimizin çıxışı rəsmi sənəd kimi konfransda yayılıb və bu yaxınlarda təşkilatın katibliyi buklet şəklində bütün konfrans sənədlərini çap edəndən sonra, orada bu çıxış da öz əksini tapacaq. Məlumat üçün onu da deyim ki, konfrans zamanı İslam Həmrəylik Fondu adlanan belə bir fond var, İKT çərçivəsində ölkələrdə keçirilən bəzi islahatlar, bir çox vacib olan tədbirlər və yaxud fövqəladə iqtisadi yardım üçün lazım olan vəsait adətən bu İslam Həmrəyliyi Fondu adlanan fonddan götürülür. Bu Fond da İKT-ın üzv dövlətlərinin könüllü köçürmələrinin hesabına formalaşır. Hər il bu xarici işlər nazirlərinin konfransının gündəliyində belə bir bənd var ki, ölkələr öz könüllü ödəmələrini ödəmək istəyirsə, onlar elan edirlər. Bu il mən sizə deyim ki, Azərbaycan öz İKT çərçivəsində sədrliyini nəzərə alaraq, bizim ölkə bu Fonda beş yüz min ABŞ dolları köçürmək haqqında Prezidentimizin təşəbbüsü və qərarı olub, və bizim Xarici İşlər Nazirliyi konfrans zamanı bu niyyətimizi səsləndirib və, əlbəttə ki, bu ölkələr tərəfindən çox müsbət qarşılanıb. Onu deyim ki, məsələn bu il bizdən artıq verən yalnız Səudiyyə Ərəbistanı olub, o da bir milyard ABŞ dolları verib. Vaxtı gələr biz də bir milyard verə bilərik belə məsələlərə. Mənim sizə demək istədiyim bu, çox güman ki, bəlkə

də sualınız olacaq.

Sual: ...

V. Sadıqov: Minsk qrupu üzvləri siyasi həyatda olan fasilədən istifadə edərək istəyirlər ki, bundan yararlansınlar və müəyyən nailiyyətlər əldə etsinlər. İndi amma bu o demək deyil ki, Azərbaycan bu sürətin artırılmasını gözü bağlı dəstəkləyir, əlbəttə ki, bizim də öz məqsədlərimiz var, bizim öz mövqeyimiz var bu prosesdə. Bizim mövqelərimiz Azərbaycan öz müstəqilliyini bərpa edəndən sonra bəyan edilmişdir və mən hesab edirəm ki, bizim Ermənistanla müqayisədə mövqeyimiz daha əsaslıdır, daha prinsipialdır, çünki Ermənistan bir təcavüzkar ölkə olduğuna görə, özü də bunu çox yaxşı dərk edir və beynəlxalq ictimaiyyət bunu qəbul eləyir, ola bilsin bəlkə açıq bəyan etməsə də, amma sizi inandırım ki, görüşlərdə, məsələn mətbuatla bağlı görüşlərdə və sairə, Ermənistanın təcavüzkar olması hamı tərəfindən qəbul edilir. Əlbəttə, Ermənistan Azərbaycanla müqayisədə çox pis vəziyyətdədir və ona görə onların mövqeyi vəziyyətdən asılı olaraq onlar gərək manevr etsinlər. Əgər siz izləyirsiniz onların siyasətini, daim öz mövqelərini dəyişdirirlər, yeni məsələləri ortaya çıxardırlar, ya da götürürlər. Bu sahədə Azərbaycanın mövqeyi prinsipialdır, biz mövqeyimizi dəyişmirik, ölkədə baş verən hadisələrdən asılı olmayaraq bizim mövqeyimiz bir dəfəlik bəyan olunub. Ermənistan təcavüzkardır, Ermənistan işğal etdiyi ərazilərdən qoşunlarını çıxarmalıdır və Azərbaycanın qaçqınları və köçkünləri o ərazilərə qayıtmalıdır. Yalnız ondan sonra Ermənistanla bütün digər məsələləri həll edə bilərik. Hər halda, nəzərdən keçirə bilərik. Bizim mövqeyimizin əsasları budur. Ona görə, bilirsiniz, 1992-ci ildən başlayaraq yəni Minsk prosesinin ilk günündən başlayaraq bu prosesdə müxtəlif vəziyyətlər olub. Bir neçə məqamda beynəlxalq ictimaiyyət belə fikirdə idi ki, yəni bu gün sabah, bir həftəyə, bir aya məsələni həll etmək olardı. Bəzi hallarda çox gərgin olub, deməli uğursuzluqdan ATƏT-də, digər təşkilatlar da bir az pessimist mövqedə idilər. Ona görə indi növbəti dəfə sürət artır, hər halda zahirən inkişaf edən bu cərəyanlar sürətini artırırlar. Ona görə mən hesab edirəm ki, biz bu prosesin tarixini yadda saxlayaraq gərək səbirli olaq, deməli bu süni şəkildə yaranan belə fəallaşmanı tənqidi gözlə qəbul edək. Və əlbəttə Azərbaycanın mövqeyi açıqdır, əgər həqiqətən hansı isə irəliləyişə nail olmaq imkanı yaranırsa Azərbaycan bundan istifadə edəcək. Yox əgər bu süni sürətin artırılması, gözdən pərdə asmaq üçün təşkil olunubsa, əlbəttə Azərbaycan buna tənqidi yanaşacaq və öz prinsipial mövqeyini əlindən verməyəcək. Bunu yalnız deyə bilərəm sizin sualınıza cavab olaraq.

T. Tağızadə: Bir də ki, hamınıza aiddir, xahiş edirəm, bu günkü brifinq tematik xarakter daşıyır və mövzu 33-cü Xarici İşlər Nazirlərin İslam Konfransıdır. Buyurun...

Sual: Azərbaycanın İsraillə yaxşı olan əlaqələrinin bu İslam dövlətləri.....qəbul edirlər və Azərbaycanın İsraillə yüksək ...

V. Sadıqov: Aydındır. Azərbaycanın xarici siyasətinin təməl daşlarından biri odur ki, Azərbaycan bütün ölkələr ilə qonşuluq siyasətini aparır və bütün ölkələrlə siyasi və iqtisadi əlaqələrini inkişaf etdirməkdədir. Bunun zahiri göstəriciləri həm Azərbaycanın Prezidentinin, həm də Xarici İşlər Nazirinin çoxsaylı görüşləridir, səfərləridir, özünüz bunun şahidisiniz, və mən hesab etmirəm ki, İsraillə olan əlaqələrimiz də hansı isə bir fövqəladə xarakter ya da istisna hal daşıyır. İsrail beynəlxalq aləmin bir qəbul olunmuş üzvüdür və biz, deməli, İsraillə əlaqələrimizi inkişaf etdiririk. Bizim maraqlarımıza uy-

ğun olaraq, biz bu əlaqələri inkişaf etdiririk. Ərəb ya da müsəlman ölkələrə gəldikdə deyə bilərəm ki, bir çox ərəb ölkələri hələ Azərbaycan siyasi xəritədə heç yeri olmayanda yəni SSSR-nin tərkibində olarkən artıq bir çox ərəb ölkələri, müsəlman ölkələri İsraillə əlaqələri qurmuşlar o cümlədən siyasi, iqtisadi və s. Məsələn, əgər siz Ərəb-Fələstin münaqişəsini nəzərdə tutursunuzsa, onda mən yadınıza salmaq istəyirəm ki, Kemp-David sazişi, yəni İsrailin ilk dəfə deməli blokadadan çıxması imkanı yaratmış bu saziş ərəb dünyasının aparıcı ölkəsi olan Misir tərəfindən qurulmuşdur. Ona görə də mən hesab etmirəm ki, İKT üzv ölkələrindən kimsə belə qısqanclıq hissləri ilə Azərbaycana münasibət göstərə bilər ki, bəs Azərbaycan İsraillə əlaqələri inkişaf edir. Yenə də qeyd elədim ki, bir çox İKT ölkələri İsraillə əlaqələri genişləndirirlər. Ona görə də Azərbaycanın İKT-də sədrlik etməsi ilə Azərbaycan İsrail əlaqələrinə mən fikirləşmirəm ki, nə isə bir xələl gətiriləcək ya da zərbə vurulacaq ya da zəifləyəcək. Bu iki prosesin özünün çərçivəsi var. Biz, əksinə, hesab edirik ki, Azərbaycan kiçik ölkə olmasına baxmayaraq o öz töhfəsini verə bilər İKT-də baş verən bütün proseslərə, o cümlədən də Ərəb-İsrail prosesinə müsbət şəkildə inkişafına. Ona görə də biz hesab etmirik ki, bu iki proses bir-birindən asılı vəziyyətdə ola bilər.

Sual: ... Sizin yadımızdadırsa ... Filippin Respublikası da istəyirdi iştirak etsin, amma mənfi cavab almışdır. Hansı isə bir başqa ölkələrində iştirak etmək arzusuna mənfi cavab verilibmi?

V. Sadıqov: Aydındır. Deməli, İKT-nin nizamnaməsinə görə mən bayaq dedim ki, üzv ölkələrlə yanaşı orada müşahidəçi statusda var, İslam Konfransı Təşkilatında müşahidəçi statusu həm bəzi ölkələrə, həm də beynəlxalq və regional təşkilatlara verilir. Deməli, Rusiya Federasiyası, Bosniya, Mərkəzi Afrika Respublikası, Şimali Kipr Türk Cümhuriyyəti və Tailand. Deməli bu ölkələr İKT çərçivəsində müşahidəçi statusuna malik olan ölkələrdir. Və burada onların müşahidəçi kimi qəbul olunması bir çox amillərlə əsaslandırılır, və ilk növbədə bu ölkələrin əhalisində müsəlman əhalisinin payı, sayıdır. O ki qaldı Filippinə, Filippin Cümhuriyyəti artıq on ildən artıqdır ki, İslam Konfransı Təşkilatına müşahidəçi kimi qəbul olunma haqqında müraciət edibdir. Bildiyiniz kimi, Filippinin cənubunda Mindanao adasında əsası təşkil edən müsəlmanlar yaşayırlar, ümumiyyətlə, Filippində on milyondan artıq müsəlman əhalisi var. Son illərdə o müsəlman əhalisi ilə mərkəzi hökumət arasında bəzi problemlər yaranmışdır, hətta hərbi əməliyyatlar da keçirilmişdir, separatist mövqelər mövcud idi. Və son illər İslam Konfransı Təşkilatı bu problemi aradan qaldırmaq üçün öz xidmətlərini təklif edib Filippin hökumətinə və hal-hazırda 8 ölkədən ibarət İKT-nin səkkiz ölkədən ibarət bir işçi komitəsi mövcuddur İKT-nin tərkibində və onların da əsas məqsədi bu Filippin hökuməti ilə Filippində olan müsəlman əhalisi arasında olan problemlərin aradan qaldırılmasıdır. Və hər il xarici işlər nazirlərinin konfransı zamanı bu komitənin iclası keçirilir. Məhz elə ona görə də Filippinin xarici işlər naziri bu konfransa dəvət olunmuşdur qonaq qismində və onun əsas məqsədi odur ki, bu komitənin konfrans çərçivəsində, konfrans zamanı keçirilmiş görüşündə iştirak etsin, çün ki, adətən orada İKT, İKT-nin nümayəndələri iştirak edir. Filippin hökumətinin nümayəndələri bir də Moro Azadlıq Təşkilatı adlanan qurumun nümayəndələri iştirak edirlər. Ona görə mən deyə bilmərəm ki, kimsə rədd edib İKT ölkələrinin əksəriyyətinin mövqeyi belədir ki, bu problemlər həll ediləna qədər Filippinin İKT-də müşahidəçi məsələsi hələ ki qalır qıraqda. Amma bu komi-

tənin işinin müsbət olmasını nəzərə alaraq ola bilsin ki yaxın illərdə Filippin İKT-nin müşahidəçisi ola bilər.

Sual: İran xarici işlər naziri danışıqlar qurtarandan sonra ...

V. Sadıqov: Sizə belə deyim, bildiyiniz kimi, İKT-də ATƏT-dəki kimi bütün qərarlar, qətnamələr konfrans şəklində qəbul olunur. Bakı Bəyannaməsinin maddələrindən biri də məhz İranın nüvə proqramına həsr olunub. Bu sənəd müzakirə zamanı müzakirə olunmuşdur, bütün ölkələrin nümayəndələri tərəfindən o cümlədən də İran İslam Respublikasının nümayəndələri tərəfindən. Ona görə də əgər bu maddə Bəyannamədə yer tapıbdırsa, bu o deməkdir ki, İran özü də bu mətni qəbul edib. Xüsusi bir hansı isə müraciət İran tərəfindən İKT-yə olunmayıb. İranın xarici işlər naziri digər nazirlər kimi çıxış etmişdir konfrans zamanı, öz ölkəsinin bu məsələyə dair mövqeyini açıqlamışdır. O ki, qaldı İKT-nin bir qurum kimi bu məsələyə münasibəti, bu da Bakı Bəyannaməsində müvafiq paraqrafda öz əksini tapıbdır.

Sualınız varmı.... onda çox sağ olun, təşəkkür edirik.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV NATO BAŞ KATİBİNİN MÜAVİNİ JAN FURNENİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 3-də Prezident sarayında NATO Baş katibinin müavini Jan Furneni qəbul etmişdir.

Görüş zamanı Azərbaycanla NATO arasında əməkdaşlığın uğurla inkişaf etdirildiyi vurğulandı, qarşılıqlı maraq doğuran bir sıra məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

AZƏRBAYCAN RESPUBLİKASI İLƏ GÜRCÜSTAN ARASINDA İQTİSADİ ƏMƏKDAŞLIQ ÜZRƏ BİRGƏ HÖKUMƏTLƏRARASI KOMİSSİYANIN AZƏRBAYCAN RESPUBLİKASI TƏRƏFİNDƏN YENİ TƏRKİBİNİN TƏSDİQ EDİLMƏSİ BARƏDƏ AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

1. Azərbaycan Respublikası ilə Gürcüstan arasında iqtisadi əməkdaşlıq üzrə birgə hökumətlərarası komissiyanın Azərbaycan Respublikası tərəfindən tərkibi aşağıdakı heyətdə təsdiq edilsin:

Komissiyanın sədri

Artur Rasi-zadə - Azərbaycan Respublikasının Baş naziri

Komissiyanın üzvləri

Samir Şərifov- Azərbaycan Respublikasının maliyyə naziri

Heydər Babayev - Azərbaycan Respublikasının iqtisadi inkişaf naziri

Natiq Əliyev - Azərbaycan Respublikasının sənaye və energetika naziri

Ziya Məmmədov - Azərbaycan Respublikasının nəqliyyat naziri

Hüseynqulu Bağırov - Azərbaycan Respublikasının ekologiya və təbii sərvətlər naziri

Əbülfəz Qarayev - Azərbaycan Respublikasının mədəniyyət və turizm naziri

Misir Mərdanov - Azərbaycan Respublikasının təhsil naziri

Xələf Xələfov - Azərbaycan Respublikasının xarici işlər nazirinin müavini

Namiq Əliyev - Azərbaycan Respublikasının Gürcüstandakı fövqəladə və səlahiyyətli səfiri

Aydın Əliyev - Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsinin sədri

Nazim İbrahimov - Azərbaycan Respublikasının Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinin sədri

Elçin Quliyev - Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidmətinin rəisi

Süleyman Tatlıyev - Azərbaycan Respublikasının Sənaye və Ticarət Palatasının prezidenti

Kamal İsmayılzadə - Azərbaycan Respublikası Nazirlər Kabineti Aparatının regionlararası iqtisadi əlaqələr şöbəsinin müdiri (məsul katib)

2. "Azərbaycan Respublikası ilə Gürcüstan arasında iqtisadi əməkdaşlıq üzrə birgə hökumətlərarası komissiyanın Azərbaycan Respublikası tərəfindən tərkibi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 25 mart tarixli 133 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004-cü il, №3, maddə 163) 1-ci bəndi qüvvədən düşmüş hesab edilsin.

3. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

İlham Əliyev

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 4 iyul 2006-cı il

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV TÜRKİYƏNİN "CÜMHURİYYƏT" QƏZETİNİN MÜXBİRİNƏ MÜSAHİBƏ VERMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 4-də Prezident sarayında Türkiyənin "Cümhuriyyət" qəzetinin müxbiri Leyla Tavşanoğluya müsahibə vermişdir.

Dövlətimizin başçısı qlobal enerji layihələrinin reallaşdırılmasında Azərbaycan və Türkiyənin birgə uğurlu əməkdaşlığı, Türkiyə-Azərbaycan ikitərəfli əlaqələrinin hazırkı vəziyyəti və perspektivi, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi barədə və digər suallara ətraflı cavab vermişdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV GÜRCÜSTANIN BAŞ NAZİRİ ZURAB NOĞAİDELİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 5-də Prezident sarayında Gürcüstanın Baş naziri Zurab Noğaidelini qəbul etmişdir.

Gürcüstanın Baş naziri ölkələrimiz arasında münasibətlərin müxtəlif sahələrdə uğurla

inkişaf etdiyini vurğuladı. O, iqtisadi əlaqələrimizin təkcə neft sektorunda deyil, digər sahələrdə də inkişafı üçün yaxşı potensialın olduğunu qeyd edərək, Azərbaycanla Gürcüstan iqtisadi əməkdaşlığının bundan sonra da inkişaf edəcəyinə əminliyini bildirdi.

Dövlətimizin başçısı Azərbaycanla Gürcüstan arasında iqtisadi əlaqələrin inkişaf etdiyini vurğulayaraq, Gürcüstanın Baş nazirinin ölkəmizə səfərinin müxtəlif iqtisadi layihələr barədə müzakirələrin aparılması üçün yaxşı imkan yaratdığını qeyd etdi. Prezident İlham Əliyev ölkələrimizin qlobal enerji layihələrinin həyata keçirilməsi işində əməkdaşlığının iqtisadi əlaqələrimizin daha da genişlənməsi işinə xidmət etdiyini bildirdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN TÜRKİYƏYƏ SƏFƏRİ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 12-də Türkiyənin İstanbul şəhərinə gəlmişdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ GÜRCÜSTAN PREZİDENTİ MİXAİL SAAKAŞVİLİNİN GÖRÜŞÜ

İyulun 12-də İstanbulun "Çırağan" sarayında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Gürcüstan Prezidenti Mixail Saakaşvilinin görüşü olmuşdur.

Görüşdə ölkələrimiz arasında ikitərəfli əlaqələrin müxtəlif sahələrdə uğurla inkişaf etdiyi vurğulandı. Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft boru kəmərinin işə düşməsinin regional əməkdaşlığın daha da inkişafına xidmət etdiyini bildirən dövlət başçıları qarşılıqlı maraq doğuran məsələlər barədə müzakirə apardılar.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ TÜRKİYƏNİN BAŞ NAZİRİ RƏCƏB TAYYİB ƏRDOĞANIN GÖRÜŞÜ

İyulun 12-də İstanbulun "Çırağan" sarayında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğanın görüşü olmuşdur.

Görüşdə iki ölkə arasında dostluq münasibətlərinin daha da dərinləşməsi istiqamətində görülən işlər, həyata keçirilən tədbirlər yüksək qiymətləndirildi və bildirildi ki, Bakı-Tbilisi-Ceyhan layihəsinin reallaşması bütün bölgədə iqtisadi inkişafa səbəb olacaqdır. Gələcəkdə digər qlobal layihələrin, o cümlədən Bakı-Tbilisi-Ərzurum qaz kəməri layihəsinin də uğurla həyata keçiriləcəyinə əminlik ifadə edildi.

Söhbət zamanı qarşılıqlı maraq doğuran məsələlər barədə də müzakirələr aparıldı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN, GÜRCÜSTAN PREZİDENTİ MİXAİL SAAKAŞVİLİNİN VƏ TÜRKİYƏNİN BAŞ NAZİRİ RƏCƏB TAYYİB ƏRDOĞANIN GÖRÜŞÜ

İyulun 12-də İstanbulun "Çırağan" sarayında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin, Gürcüstan Prezidenti Mixail Saakaşvilinin və Türkiyə Respublikasının Baş naziri Rəcəb Tayyib Ərdoğanın üçtərəfli görüşü keçirilmişdir.

Görüşdə Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin istifadəyə verilməsi Azərbaycan, Gürcüstan və Türkiyə arasında uğurlu əməkdaşlığın yaxşı nümunəsi kimi dəyərləndirildi. Xüsusi vurğulandı ki, bu, hər üç ölkənin mənafeyinə xidmət edən beynəlxalq layihədir.

Söhbət zamanı Azərbaycan, Gürcüstan və Türkiyənin əməkdaşlığının regionda sülhün, sabitliyin, təhlükəsizliyin təmin olunmasında mühüm rol oynadığı da vurğulandı.

Görüşdə qarşılıqlı maraq doğuran bir sıra məsələlər barədə fikir mübadiləsi edildi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ABŞ-IN ENERGETİKA NAZİRİNİN MÜAVİNİ İLƏ GÖRÜŞÜ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 12-də İstanbulun "Çırağan" sarayında Amerika Birləşmiş Ştatlarının energetika nazirinin müavini Kley Sell ilə görüşmüşdür.

ABŞ Prezidenti Corc Buşun və energetika nazirinin səmimi salamlarını dövlətimizin başçısına çatdıran Kley Sell bildirdi ki, Bakı-Tbilisi-Ceyhan kəmərinin Azərbaycan üçün çox böyük əhəmiyyəti var, eyni zamanda, onun həm region üçün, həm də ABŞ üçün önəmi böyükdür. O, Azərbaycanın enerji təchizatı işində rolunun artması və bu böyük qlobal layihənin başa çatması münasibətilə Prezident İlham Əliyevi təbrik edərək dedi ki, biz Sizin uğurlarınıza şadıq və əməkdaşlığımızın daha da genişlənəcəyinə əminik. Bundan sonra Bakı-Tbilisi-Ərzurum qaz kəməri də uğurla fəaliyyət göstərəcəkdir.

Azərbaycan Prezidenti İlham Əliyev səmimi salamlara görə minnətdarlığını bildirdi və onun da salamlarını Prezident Corc Buşa və energetika nazirinə çatdırmağı xahiş etdi. Dövlətimizin başçısı Bakı-Tbilisi-Ceyhan layihəsinin həyata keçirilməsində ABŞ-ın böyük rolunu vurğuladı və Azərbaycanın bunu yüksək qiymətləndirdiyini söylədi. Prezident İlham Əliyev dedi ki, Bakı-Tbilisi-Ərzurum qaz kəməri enerji təchizatı sahəsində yeni bir mərhələ olacaqdır. Əminik ki, bu layihə də uğurla həyata keçiriləcək və ölkələrimiz arasında energetika sahəsində əməkdaşlıq daha da genişlənəcəkdir.

Görüşdə qarşılıqlı maraq doğuran bir sıra məsələlər müzakirə olundu.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ TÜRKİYƏ PREZİDENTİ ƏHMƏD NECDƏT SEZƏRİN GÖRÜŞÜ

İyulun 12-də İstanbulun "Çırağan" sarayında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Türkiyə Respublikasının Prezidenti Əhməd Necdət Sezərin görüşü olmuşdur.

Dövlət başçıları Azərbaycan ilə Türkiyə arasında heç bir problemin olmadığını vurğuladılar.

Prezident Əhməd Necdət Sezər Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft boru kəmərinin qarşıdakı açılışı münasibətilə Prezident İlham Əliyevi təbrik etdi, bu beynəlxalq layihəni əfsanədən gerçəkliyə çevirən ulu öndər Heydər Əliyevin tarixi xidmətlərini xatırlatdı. O bildirdi ki, İstanbulun gözəl bir yerində Heydər Əliyevin heykəlinin və adını daşıyan

parkın və küçənin açılması çox sevindirici haldır və onun tarixi xidmətlərinə bir töhfədir.

Azərbaycan Prezidenti İlham Əliyev xalqımızın ümummilli lideri Heydər Əliyevin xidmətlərinə verdikləri yüksək qiymətə görə Türkiyə dövlətinin başçısına təşəkkürünü bildirdi və dedi ki, ulu öndər Heydər Əliyevin siyasəti, eləcə də, uğurlu neft strategiyası bu gün də davam etdirilir. Vaxtilə bəziləri Bakı-Tbilisi-Ceyhan layihəsinə inanmasa da, artıq bu, gerçəklikdir, reallıqdır. İnanıram ki, gələcəkdə Bakı-Tbilisi-Ərzurum qaz kəməri və Qars-Axalkalaki-Bakı dəmir yolu layihələri də həyata keçiriləcəkdir.

İSTANBULUN SARIYER RAYONUNDA ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN ABİDƏSİNİN AÇILIŞI

Azərbaycan Prezidenti İlham Əliyev iyulun 12-də İstanbul şəhərinin Sarıyer rayonundakı Heydər Əliyev parkında xalqımızın ümummilli liderinin abidəsinin açılışında iştirak etmək üçün Heydər Əliyev küçəsinə gəldi. Buraya toplaşan minlərlə sakin dövlətimizin başçısını böyük hörmət və hərarətlə qarşıladılar. Ətraf binada türk dünyasının dahi şəxsiyyətləri Atatürkün və Heydər Əliyevin portretləri, Azərbaycanın və Türkiyənin dövlət bayraqları asılmışdı.

"Azərbaycan-Türkiyə dostluğu və qardaşlığı əbədidir!", "Dağlıq Qarabağ Azərbaycanındır və Azərbaycanın da olacaq!", "Türkiyəyə xoş gəlmisiniz, Türkiyə xalqı Sizinlə fəxr edir!" sözləri yazılmış transparantlar diqqəti cəlb edir, ulu öndərlər Atatürkün və Heydər Əliyevin "Azərbaycanın kədəri bizim kədərimiz, sevinci bizim sevincimizdir", "Biz bir millət, iki dövlətik" müdrik kəlamları səslənirdi.

Təntənəli açılış mərasimi ulu öndər Heydər Əliyevin tərcümeyi-halının oxunması ilə başlandı.

Mərasimi Sarıyer bələdiyyəsinin sədri Yusif Tülün açdı.

SARIYER BƏLƏDİYYƏSİNİN SƏDRİ YUSİF TÜLÜNÜN ÇIXIŞI

- Azərbaycan Respublikasının dəyərli Prezidenti cənab İlham Əliyev,

Azərbaycanın hörmətli parlament üzvləri və nazirləri,

Hörmətli Baş nazirimizin müavini və dövlət naziri,

Hörmətli millət vəkillərimiz, dəyərli Böyük Şəhər Bələdiyyəsi sədri,

Hörmətli qonaqlar, sevgili istanbullular!

Hamınıza belə bir gözəl qardaşlıq mərkəzinə "Xoş gəldiniz!" deyirəm. İki dövlətin bir milləti kimi qiymətləndirilən bu qardaşlıq nümunəsinin bir təzahürü olaraq, İstanbul Böyük Şəhər Bələdiyyəsinin təşəbbüsü, bələdiyyə sədri hörmətli Qədir Topbaşın himayəsi ilə Sarıyer bələdiyyəsi rəhbərliyinin və qardaş Azərbaycanın İstanbuldakı Baş konsulluğunun birgə yaratdığı bu gözəl park yeddi ay ərzində salındı və 2005-ci ilin avqustunda istifadəyə verilmək üçün hazır vəziyyətə gətirildi. Layihəmizin əsasında "bir millət, iki dövlət" fəlsəfəsinə xüsusilə fikir verildi. Parkın bir ucundakı bulaq üzərində Bakı-Tbilisi-Ceyhan neft kəmərinin əks etdirilməsinə çalışdıq. Əsas xətdə Mustafa Kamal Atatürk və Heydər Əliyevin obrazları görüşdürüldü.

Hörmətli qonaqlar, bu park 4736 kvadratmetrlik sahədə salınmışdır. Layihənin hazırlanmasında və parkın bugünkü vəziyyətə gətirilməsində bizi hər cür dəstəkləyən, heç bir çətinlikdən çəkinməyən, Azərbaycan-Türkiyə dostluğunun, qardaşlığının gözəl bir nümunəsini yaradan Baş konsulluğun bütün nümayəndələrinə təşəkkürlərimi bildirirəm. Eləcə də qardaş ölkə Azərbaycandan buraya qədər təşrif buyurduqları üçün hörmətli Prezidentimizə Sarıyer camaatı, istanbullular adından dərin təşəkkürümü bildirirəm.

Hörmətli Prezidentim, çox sağ olun.

İSTANBUL BÖYÜK ŞƏHƏR BƏLƏDİYYƏSİNİN SƏDRİ QƏDİR TOPBAŞIN ÇIXIŞI

- Dost, qardaş və ürəkdən sevdiyimiz Azərbaycanımızın çox dəyərli Prezidenti,

Xarici işlər naziri və Baş nazirin müavini və dövlət nazirimiz,

Millət vəkillərimiz, yerli administrasiya rəhbərlərimiz və bələdiyyə sədrlərimiz,

Mətbuatımızın dəyərli nümayəndələri, İstanbulun gözəl insanları, hörmətli qonaqlar!

Hamınızı bu mənalı gündə sevgi və hörmətlə salamlayıram. Napoleonun dediyi kimi, dünya tək bir dövlət olsaydı, paytaxt İstanbul olardı. Tarixin, mədəniyyətlərin, qitələrin qovuşduğu bir şəhərdə qardaşcasına bir araya gəldik. Bunun üçün şükür edirik. Hazırda biz Avropanın başlanğıc nöqtəsindəyik. Qarşı tərəf isə Asiyanın başlanğıc nöqtəsidir. İstanbul elə bir şəhərdir ki, burada hər gün günəş iki qitəyə birdən doğur. Bu şəhər belə bir gözəl gün yaşayır. 4500 illik tarixə malik, üç böyük mədəniyyətin, imperatorluğun idarəetmə mərkəzi olmuş bir şəhərdəyik. Belə gözəl bir şəhərdə dost və qardaş ölkənin mərhum Cümhurbaşqanı, çox hörmətli Heydər Əliyevin adını daşıyan bu park böyük məna daşıyır. Bələdiyyə başqanları olaraq, biz şəhərimizin gözəlləşməsinə xüsusilə böyük önəm veririk. Burada vətəndaşlarımız, insanlarımız asudə vaxtlarını səmərəli keçirəcəklər. Bu məqsədlə Sarıyer bələdiyyə başqanının köməyi ilə bu məkan yaradıldı. 2004-cü ilin oktyabr ayında bələdiyyə məclisimiz çox hörmətli Heydər Əliyevin adına bu parkın yaradılması və İstanbulun mərkəzində bir küçəyə Heydər Əliyevin adının verilməsi barədə qərar qəbul etdi. İnsanlar var ki, gəlib gedərlər, insanlar da var ki, tarixə düşürlər, xeyirxah əməlləri ilə yaddaşlarda yaşayırlar və başqaları üçün örnək olurlar. Heydər Əliyev də belə bir şəxsiyyətdir. Azərbaycan müstəqillik qazandıqdan sonra mən həmişə televiziyanı izləyərdim və xüsusilə Heydər Əliyevin çıxışlarına, mətbuat konfranslarına diqqətlə baxardım. Milli sərvətlərdən ölkənin inkişafı üçün necə istifadə etdiyini, bunu vətəndaşlara necə anlatdığını görürdüm. O, əvəzolunmaz bir şəxsiyyət, dünyada yetişmiş nadir şəxsiyyətlərdən biridir. Belə bir millətə mənsub olmağımızdan qürur duyduğumuzu bir daha ifadə edirəm.

Bu gün hamımız üçün çox önəmlidir. Yeni bir tarixi hadisəyə şahidlik edirik, birlikdə imza atırıq. Gələcək nəsillərimiz bu tarixi anları heç vaxt unutmadan, bir millət, iki dövlət ruhunun burada daim yaşayacağını görəcəklər. Bütün bu işlərdə əməyi olan hər kəsə təşəkkür edirəm. Bu gözəllik, bu qardaşlıq dünya durduqca davam edəcəkdir. Hamınıza çox sağ olun deyirəm.

TÜRKİYƏNİN DÖVLƏT NAZİRİ VƏ BAŞ NAZİRİN MÜAVİNİ MEHMET ƏLİ ŞAHİNİN ÇIXIŞI

- Hörmətli Prezident!

Hörmətli nazirlər, İstanbulumuzun dəyərli bələdiyyə sədri, dəyərli millət vəkilləri, hörmətli həmkarlar!

Azərbaycanın yetişdirdiyi böyük dövlət adamı, sabiq Prezident, əvəzedilməz bir şəxsiyyət olan Heydər Əliyevin əziz xatirəsini yaşadacaq Sarıyerdəki parkda Heydər Əliyevin abidəsinin açılışı münasibətilə bu gün bir araya gəlmişik. Bu münasibətlə mərhum Heydər Əliyevin xatirəsi qarşısında bir daha baş əyirik, ruhunun şad, məkanının cənnət olmasını arzu edirik.

Əziz könül dostları, Heydər Əliyev parkı, sadəcə, onun xatirəsini yaşatmaqla məhdudlaşmayacaqdır. Bu park Türkiyə və Azərbaycan xalqları arasında əzəldən gələn və əbədiyyətə qədər davam edəcək dostluq və qardaşlığın ölkəmizdə və Azərbaycandakı saysız-hesabsız nişanələrinə daha bir əlavə olacaqdır. Böyük dövlət adamı Heydər Əliyevin bir zamanlar çox dəqiq söylədiyi kimi, Türkiyə və Azərbaycan arasındakı dostluq iki suveren və müstəqil dövlət arasında qurula biləcək əlaqələrdən çox üstündür. Həmin münasibətlər dünyada analoquna az rast gəlinən səviyyədədir. Bir az əvvəl qeyd edildiyi kimi, "bir millət, iki dövlət" kəlamında öz dəqiq ifadəsini tapan bu əlaqələri daha da inkişaf etdirmək öhdəliyi hər iki ölkəyə rəhbərlik etmək məsuliyyətini daşıyan bizlər üçün böyük şərəfdir.

Bu hadisə münasibətilə bir araya gəldiyimiz gün ölkəmizi şərəfləndirən Azərbaycan Prezidenti hörmətli İlham Əliyevə və onu müşayiət edən hörmətli qonaqlara bir daha "Xoş gəldiniz!" demək istəyirəm. Bilin ki, mərhum Heydər Əliyevin adını daşıyacaq və xatirəsini yaşadacaq bu park sizin üçün də vətən torpağıdır, gələcək nəsillərə qoyub gedəcəyiniz çox dəyərli bir xatirədir.

Çox hörmətli Prezident, dəyərli qonaqlar!

Azərbaycan Prezidenti hörmətli İlham Əliyevin və onu müşayiət edən nümayəndə heyətinin ölkəmizə budəfəki səfəri son dərəcə mənalı və mənalı olduğu qədər də əhəmiyyətli bir hadisə ilə bağlıdır. Sabah Ceyhanda keçiriləcək mərasimdə Türkiyə və Azərbaycanın başqa bir yaxın dostumuz və qonşumuz olan Gürcüstanla birlikdə əl-ələ verərək gerçəkləşdirdikləri Bakı-Tbilisi-Ceyhan neft kəmərinin açılışı olacaqdır. Bu neft kəməri mərhum Heydər Əliyevin səyləri və birbaşa xidmətləri nəticəsində Türkiyə və Azərbaycan əməkdaşlığının çatdığı səviyyəni göstərən müştərək bir əsərdir. Bu duyğu və düşüncələrlə dəyərli qonaqlarımıza yenidən Türkiyəyə "Xoş gəldiniz!" deyirəm. Mərhum Heydər Əliyevin əziz xatirəsi qarşısında yenidən hörmət və ehtiramla baş əyirik. Hamınızı bir daha hörmətlə salamlayıram.

Azərbaycan Prezidenti İlham Əliyev mərasimdə nitq söylədi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ

- Əziz dostlar!

Əziz bacılar və qardaşlar, mən sizin hamınızı ürəkdən salamlayıram. Yenidən qardaş Türkiyədə olmağımdan çox böyük məmnunluq hissi keçirirəm. Türkiyə-Azərbaycan qardaş ölkələrdir, bizim xalqlarımız da qardaş xalqlardır. Bu gün bu gözəl tədbirdə iştirak etmək həm böyük məsuliyyətdir, həm də böyük xoşbəxtlikdir. Ulu öndər Heydər Əliyevin bütün həyatı və fəaliyyəti doğma xalqına xidmət etməkdən ibarət olmuşdur. O, həyatının bütün dövrlərində Azərbaycana sədaqətlə, ləyaqətlə xidmət etmişdir. 1993-cü ildə isə, Azərbaycana qayıdandan, prezident seçiləndən sonra Azərbaycanın uzunmüddətli inkişaf strategiyası başlandı. Azərbaycan uzun illər, əsrlər boyu müstəqillikdən məhrum olmuşdur, biz başqa ölkələrin tərkibində yaşayırdıq. 1991-ci ildən isə müstəqil dövlət kimi yaşamağa başladıq. O illər Azərbaycanda çox ağır keçirdi, ölkəmiz çox böyük çətinliklərlə üzləşmişdi. Həm iqtisadi, həm siyasi böhran hökm sürürdü və faktik olaraq, ölkənin müstəqil həyatı təhlükə qarşısında idi. Ölkə parçalanma ərəfəsində idi.

Azərbaycan xalqının müdrikliyi Heydər Əliyevin Azərbaycana dəvət edilməsi ilə bir daha özünü göstərdi və 1993-cü ildən bu günə qədər Azərbaycan öz inkişaf dövrünü yaşayır, bütün sahələrdə ölkəmiz güclənir, möhkəmlənir. Azərbaycanın müstəqilliyi artıq əbədi, dönməz xarakter almışdır və ölkəmiz dünya birliyində də özünə layiq yerini tuta bilmişdir. Azərbaycanda gedən müsbət proseslər ölkəmizin inkişafı ilə yanaşı, bölgədəki proseslərə müsbət təsir göstərir. Bu gün siyasi-iqtisadi cəhətdən Azərbaycan çox uğurla inkişaf edən bir ölkədir. Məhz Heydər Əliyevin fəaliyyəti nəticəsində 1990-cı illərin ortalarında başlanmış uğurlu siyasi və iqtisadi islahatlar bu gün Azərbaycanı çox böyük potensiala malik olan ölkəyə çevirmişdir. İqtisadi sabitlik, siyasi sabitlik, ictimai-siyasi vəziyyətin normallaşması, Azərbaycanda vətəndaş qarşıdurmasına son qoyulması - bütün bunlar ulu öndər Heydər Əliyevin əməyidir. Əgər bu gün Azərbaycan iqtisadi artımın sürəti baxımından dünyada birinci yeri tutursa, bunun təməli, əsası məhz 1990-cı illərin ortalarında qoyulmuşdur. Bu gün ölkəmiz çox sürətlə inkişaf edir, keçən il Azərbaycanda iqtisadi artım 26 faiz olmuşdur. Siyasi cəhətdən ölkə bölgədə öz mövqelərini möhkəmləndirir və Azərbaycan xalqı gələcəyə inamla baxır.

Heydər Əliyevin Türkiyə-Azərbaycan münasibətlərinin inkişafında da böyük rolu olmuşdur. O, Türkiyəni ürəkdən sevirdi. Hər zaman Türkiyəyə gələndə özünü çox rahat, çox xoşbəxt hiss edirdi və Türkiyə-Azərbaycan əlaqələrinin yüksək zirvəyə qalxmasında Heydər Əliyevin danılmaz rolu vardır.

Onun məşhur "Türkiyə və Azərbaycan bir millət, iki dövlətdir" kəlamı bizim hamımız üçün əzizdir, hamımız üçün doğmadır. Bu ifadə, bu kəlam ürəkdən gələn bir söz idi. Ancaq bununla bərabər, bu sözün çox böyük mənası var, tarixi əhəmiyyəti var. Türkiyə-Azərbaycan birliyinin möhkəmlənməsi üçün, inkişafı üçün böyük önəmi var və bu gün həm Türkiyədə, həm də Azərbaycanda bu söz artıq insanların qəlbində yaşayır. Biz bu gün çalışırıq və bundan sonra da çalışacağıq ki, aramızda olan bu gözəl qardaşlıq münasibətlərini daha da irəliyə aparaq, daha da möhkəmləndirək, yeni formalarla zənginləşdirək. Bizim birliyimizdən çox şey asılıdır. Bizim xalqlarımızın xoşbəxtliyi bölgədə gedən proseslər, təhlükəsizliyin, bölgədə işbirliyinin möhkəmlənməsi - bütün bunlar

çox böyük dərəcədə Türkiyə-Azərbaycan işbirliyindən asılıdır. Bu işbirliyi indi ən yüksək zirvəyə qalxıbdır. Bizim aramızda siyasi, iqtisadi, mədəni, bütün başqa əlaqələr ən yüksək zirvədədir. Biz bundan çox məmnunuq.

Sabah biz böyük bir tarixi hadisəni yaşayacağıq. Heydər Əliyevin təşəbbüsü ilə başlanmış Azərbaycanın müasir neft strategiyasının ən önəmli hadisəsi, uzun illər ərzində üzərində işlədiyimiz Bakı-Tbilisi-Ceyhan neft boru kəmərinin açılışını birlikdə qeyd edəcəyik. Bakı-Tbilisi-Ceyhan boru xətti Heydər Əliyevin adını daşıyır. Bu da təsadüfi deyildir. Çünki məhz onun təşəbbüsü ilə 1990-cı illərin ortalarında Bakı-Tbilisi-Ceyhan neft kəmərinin tikintisi haqqında qərar verilmişdir. Türk qardaşlarımız Ceyhan terminalına da Heydər Əliyevin adını vermişlər. Bu, bir daha onu göstərir ki, həmin layihələrin gerçəkləşməsində Heydər Əliyevin böyük xidmətləri olmuşdur. Bakı-Tbilisi-Ceyhan neft kəməri iki ölkəni daha da sıx birləşdirəcək, bizim önəmimizi artıracaq və Türkiyə-Azərbaycan müttəfiqliyini, qardaşlığını, işbirliyini daha da möhkəmləndirəcəkdir. Bu, dünya əhəmiyyətli bir layihədir. Dünyanın ən böyük enerji layihəsidir. Ancaq bunun ardınca yeni bir layihə gəlir. Bakı-Tbilisi-Ərzurum qaz xəttinin çəkilişi artıq başlanmışdır və bu ilin sonuna qədər onun istismara verilməsi nəzərdə tutulur. Bu, bir daha onu göstərir ki, düşünülmüş, məqsədyönlü neft strategiyası öz bəhrəsini verməkdədir. Bu layihə həyata keçirildikdən sonra Azərbaycan qazı həm Gürcüstana, həm Türkiyəyə veriləcək, eyni zamanda, Türkiyə üzərindən digər ölkələrə də nəql ediləcəkdir. Bu, o deməkdir ki, artıq bu layihələr regional müstəvidən çıxıb beynəlxalq, dünya müstəvisinə keçir. Dünyada enerji təhlükəsizliyinin möhkəmlənməsində öz rolunu oynayacaqlar. Bu hadisə bir də onu göstərir ki, işbirliyi olan yerdə, qarşılıqlı anlaşma olan yerdə bütün məsələlər öz həllini tapa bilər. Bakı-Tbilisi-Ceyhan layihəsi bir neçə il bundan əvvəl əfsanə kimi qələmə verilirdi. Bəziləri inanmırdı ki, biz onu həyata keçirəcəyik. Amma xalqlarımızın birliyi, rəhbərlərimizin birgə fəaliyyəti bunu əfsanədən gerçəkliyə çevirdi. Bütün başqa sahələrdə də bizim əlaqələrimiz möhkəmlənir və mən də öz tərəfimdən bu siyasəti davam etdirirəm və gələcəkdə də davam etdirəcəyəm.

Heydər Əliyevin siyasəti Azərbaycanda bütün sahələrdə yaşayır, o cümlədən Türkiyə-Azərbaycan münasibətlərinin möhkəmləndirilməsi işində. Bu münasibətlər daha da möhkəmlənməlidir, bizim birliyimiz daha da sıx olmalıdır. Biz bütün məsələlərə vahid mövqedən yanaşırıq. Həm ikitərəfli münasibətlərdə, həm regionda gedən proseslərdə, həm də bütövlükdə dünya üçün əhəmiyyətli olan məsələlərdə Türkiyə və Azərbaycan vahid mövqedən çıxış edir. Bu, həm bizim üçün, ölkələrimiz, xalqlarımız üçün, eyni zamanda bölgə üçün, dünya üçün çox önəmlidir. Artıq bizim işbirliyimiz, birgə həyata keçirdiyimiz nəhəng layihələr önəmimizi artırır, dünyadakı mövqelərimizi möhkəmləndirir. Bir sözlə, Türkiyə, Azərbaycan dünya miqyasında daha da böyük imkanlara malik olur.

Bu gün mənim üçün çox həyəcanlı bir gündür. Mən bu tədbirdə Azərbaycanın Prezidenti kimi iştirak edirəm. Eyni zamanda, Heydər Əliyev mənim atamdır və bir oğul kimi bu gün bu tədbirdə iştirak etmək mənim üçün çox önəmlidir. Ona görə mən bu gün ikiqat xoşbəxtəm. Dünyanın ən gözəl şəhərlərindən birində - gözəl İstanbulda, onun ən gözəl guşələrindən birində - Sarıyerdə Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin abidəsi açılır. Bu, çox böyük tarixi hadisədir və bir daha onu göstərir ki, bizim aramızda, ölkələrimiz arasında olan münasibətlər ən yüksək zirvədədir. Bir daha onu gös-

tərir ki, Türkiyə və türk xalqı Heydər Əliyevin əziz xatirəsini öz qəlbində yaşadır. Onun fəaliyyəti, iş prinsipləri və onun bizim münasibətlərimizə verdiyi töhfə həm Azərbaycanda, həm də Türkiyədə böyük təqdirlə anılır. Bu, bizim aramızda olan səmimi münasibətlərin, dostluğun, qardaşlığın əlamətidir, bizim aramızda olan birliyin əlamətidir. Biz bunun tərəfdarıyıq, hamımız çalışmalıyıq ki, bunu daha da möhkəmləndirək. Mən həmişə demişəm və bu gün də deyirəm ki, bizim gücümüz birliyimizdədir. Nə qədər sıx əməkdaşlıq etsək, bizim mövqelərimiz bir o qədər möhkəm olacaqdır. Bizim əleyhimizə fəaliyyət göstərən, uğurlarımızı istəməyən qüvvələr də var. Ancaq onların bütün cəhdlərinə rəğmən, biz istəyimizə nail olduq. Bu gün bu vətənpərvər gənclər çox böyük coşqu ilə öz istəklərini deyirlər və mən də onların istəklərinə qatılıram. Qarabağ məsələsini biz birlikdə həll edəcəyik. Qarabağ məsələsi Azərbaycanın ərazi bütövlüyü prinsipləri əsasında öz həllini tapacaqdır. Azərbaycana qarşı edilən ədalətsiz hərəkətlər, təcavüz, torpaqlarımızın işğalı, bu işğal və ermənilərin azərbaycanlılara qarşı etnik təmizləmə siyasəti nəticəsində 1 milyondan artıq soydaşımız qaçqın-köçkün həyatı yaşayır. Biz uzun illərdir çalışırıq ki, bu məsələni sülh yolu ilə, danışıqlar yolu ilə çözək, ancaq bütün bu cəhdlər heç bir səmərə vermir. Biz torpaqlarımızın itirilməsi ilə heç vaxt barışmayacağıq. Biz öz siyasi, iqtisadi, hərbi gücümüzü artırırıq. Azərbaycanın uğurlu inkişafı, bizim güclənmə meyillərimiz bir daha onu göstərir ki, məsələni ədalətli həll edəcəyik. Biz Ermənistan tərəfə imkan veririk, şans yaradırıq ki, işğal etdiyi torpaqlardan öz xoşu ilə, öz istəyi ilə geri çəkilsin və Azərbaycanın ərazi bütövlüyü bərpa olunsun. Ancaq bununla yanaşı, biz bütün başqa variantlara da hazır olmalıyıq. Azərbaycanın artan gücü, artan önəmi, iqtisadi-hərbi potensialı, bölgədə gedən proseslər, əlbəttə ki, bizim mövqelərimizi daha da möhkəmləndirir. Mən əminəm və heç şübhə etmirəm ki, biz Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ məsələsini ədalətli, Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll edəcəyik və ölkəmizin ərazi bütövlüyü bərpa olunacaqdır.

Türkiyə-Azərbaycan münasibətlərinin bu işdə önəmi, əlbəttə ki, çox böyükdür. Azərbaycan öz dövlət müstəqilliyini bərpa etdikdən sonra daim Türkiyənin dəstəyini, köməyini hiss etmişdir. 1991-ci ildən indiyə qədər bu davam edir və bütün bunlara, bütün bu dostluğa, qardaşlığa görə bütün türk xalqına Azərbaycan xalqı adından bir daha öz dərin minnətdarlığımı bildirirəm.

Əziz dostlar, bu parkın, abidənin açılışında iştirak etmək böyük xoşbəxtlikdir və fürsətdən bir daha istifadə edərək, bütün türk xalqına, türk bacı-qardaşlarıma öz dərin hörmət-məhəbbətimi ifadə edirəm, türk xalqına, Türkiyəyə yeni-yeni uğurlar, səadət, xoşbəxtlik arzulayıram. Sağ olun.

Sonra Azərbaycan Prezidenti İlham Əliyev Türkiyənin dövlət naziri Mehmet Əli Şahin, İstanbul Böyük Şəhər Bələdiyyəsinin və Sarıyer bələdiyyəsinin sədrləri ilə birlikdə Heydər Əliyevin abidəsinin üzərindən ağ örtüyü götürdülər. Azərbaycan Prezidenti ulu öndərin abidəsinin önünə gül dəstəsi qoydu. Dövlət naziri Mehmet Əli Şahin və bələdiyyə sədrləri də abidənin önünə gül dəstələri qoydular.

Azərbaycan Prezidenti İlham Əliyev, dövlət naziri Mehmet Əli Şahin və bələdiyyə sədrləri Heydər Əliyev parkında Atatürkün büstü önünə əklil və gül dəstələri qoydular.

Sonra Azərbaycan Prezidenti İlham Əliyev ulu öndərin adını daşıyan küçədə üzərində "Heydər Əliyev caddesi" yazılmış lövhənin üzərindən ağ örtüyü götürdü.

İstanbulun dəniz sahilində səfalı bir guşədə salınmış Heydər Əliyev parkında şəhər sakinlərinin dincəlməsi üçün hər cür müasir şərait yaradılmışdır. Azərbaycan və Türkiyə xalqlarının əbədi dostluq və qardaşlığının daha bir nümunəsi olan bu park istanbulluların ən sevimli istirahət yerlərindən birinə çevriləcəkdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVƏ TÜRKİYƏNİN NÜFUZLU "EKOVİTRİN" JURNALININ "AVRASİYADA İLİN SİYASƏT ADAMI" MÜKAFATI TƏQDİM EDİLMİŞDİR

Türkiyənin ən nüfuzlu media qruplarından biri olan "Ekovitrin" 14 ildir ki, iqtisadiyyat sahəsində müxtəlif proqramlar hazırlayaraq, Türkiyənin televiziya kanallarında nümayiş etdirir, ölkənin iqtisadi uğurlarını həm türk, həm də dünya ictimaiyyətinə çatdırır. Bu media qrupunun 2000-ci ildən buraxılan "Ekovitrin" aylıq jurnalı nüfuzlu əməkdaşları, ətraflı materialları sayəsində Türkiyənin ən sanballı nəşrlərindən birinə çevrilmişdir. Türkiyə ilə yanaşı, Asiya regionunda da geniş yayılan "Ekovitrin" jurnalı ənənəvi olaraq iqtisadiyyat, biznes, sənaye, ixracat, maliyyə, investisiya, siyasət və yerli idarəçilik sahələrində ilin adamlarını seçir. 2005-ci ildə Türkiyədə və xaricdə yaşayan 9 minə yaxın oxucunun iştirakı ilə keçirilən sorğunun nəticələrinə görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "Avrasiyada ilin siyasət adamı" elan olunmuşdur. Azərbaycan Prezidenti bu mükafata bir sıra sahələrdə səmərəli fəaliyyətinə və qazandığı uğurlara görə layiq görülmüşdür.

İyulun 12-də İstanbulun "Qrand cəvahir" mehmanxanasında Azərbaycan Prezidenti İlham Əliyevə "Avrasiyada ilin siyasət adamı" mükafatının təqdim edilməsinə həsr olunmuş mərasim keçirilmişdir.

Mərasimi "Ekovitrin" media qrupunun rəhbəri Kamuran Abacıoğlu açdı.

"EKOVİTRİN" MEDİA QRUPUNUN RƏHBƏRİ KAMURAN ABACIOĞLUNUN ÇIXIŞI

- Hörmətli Prezidentim,

Hörmətli Baş nazir müavinləri, hörmətli İslam Konfransı Təşkilatının baş katibi,

Dəyərli qonaqlar və hörmətli mətbuat nümayəndələri!

Mən qısa çıxış edəcəyəm. Bir ingilis yazıçısı demişdir ki, xoşbəxt olmağın ən yaxşı yolu bir insanı xoşbəxt etməkdir. Mən inanıram ki, hazırda bu salonda olanların hamısı çox xoşbəxtdirlər. Xoşbəxtliyi birlikdə bölüşdüyümüz üçün qürur hissi keçiririk. 14 ildir ki, müstəqil qəzetçilik anlayışı ilə öncə Anadolu aslanlarını, daha sonra avropalı türkləri, sonra Orta Asiyada uğur qazanan türkləri, Amerikadakı, Uzaq Şərqdəki türkləri, dünyanın harasında türk varsa, onların uğurlarını Türkiyədəki, demək olar ki, bütün televiziyaların ekranlarından türk və dünya insanlarına çatdırmağa çalışdıq. Öz yolumuzdan heç vaxt sapmadan, müsbət düşüncələri əsas götürərək, tənqidləri ancaq konstruktiv şəkil-

də səsləndirmək şərti ilə proqramlarımızı və "Ekovitrin" jurnalımızın fəaliyyətini davam etdiririk. Bu il "Ekovitrin"in ilin ulduzları mükafatı 5-ci dəfə təqdim edilir. Qarşıdakı illərdə mühüm bir hədəfimiz var. Bu mərasimi beynəlxalq qlobal problemlərin müzakirə ediləcəyi, Türkiyənin gələcəyinə nəzər salan bir foruma çevirməyi ürəkdən arzulayırıq və bunu həyata keçirəcəyimizə inanırıq. Mən bu hisslərlə hamınıza "Xoş gəldiniz!" deyir, hörmət və ehtiramlarımı çatdırıram.

[redacted]

Sonra "Ekovitrin" jurnalının baş redaktoru Şərəf Özataya söz verildi.

"EKOVİTRİN"İN BAŞ REDAKTORU ŞƏRƏF ÖZATANIN ÇIXIŞI

- Hörmətli Prezident,

Hörmətli Baş nazir müavinləri, hörmətli nazirlər, səfirlər, İslam Konfransı Təşkilatının dəyərli baş katibi,

Hörmətli mətbuat nümayəndələri və qonaqlar!

"Ekovitrin"in ənənəvi ilin ulduzları mərasiminə hamınız xoş gəlmisiniz. "Ekovitrin" jurnalı işıq üzü gördüyü 2000-ci ildən bu yana toxunduğu iqtisadi mövzular və xüsusi materiallar ilə mətbuatda özünəməxsus bir yer tutdu. Jurnal qısa bir müddət ərzində Türkiyənin sərhədlərini aşaraq, Avropadan Orta Asiya türk cümhuriyyətlərinə qədər uzanan geniş bir coğrafiyada iqtisadi əlaqələrin inkişafına mühüm töhfələr vermişdir. Prodüserlərimizin hazırladıqları və müxtəlif yerli kanallarda nümayiş etdirilən proqramlarımız ən mühüm yerli və xarici film və seriallarla rəqabət apardı, ən çox baxılan 100 proqram arasına daxil oldu. İndi daha geniş kütlələrə öz sözümüzü demək üçün peyk vasitəsilə yayımlanacaq tematik bir televiziya layihəmiz üçün mühüm addımlar atmağa başlamışıq. "Ekovitrin"in məzmununu zənginləşdirməklə yanaşı, qarşıdakı aylarda Türkiyənin ilk beynəlxalq jurnalını türk və ingilis dillərində dərc etməyə başlayacağıq. Eyni zamanda, xarici bir yayım qrupu ilə apardığımız danışıqlar nəticəsində güclü xarici sərmayə dəstəyi əldə edirik. "Ekovitrin"ə dəstək verən bütün dostlarımıza, əməkdaşlarımıza minnətdarlığımı bildirirəm. Hamınız xoş gəlmisiniz.

[redacted]

Sonra Türkiyə Baş nazirinin müavini, xarici işlər naziri Abdullah Gül çıxış etdi.

TÜRKİYƏ BAŞ NAZİRİNİN MÜAVİNİ, XARİCİ İŞLƏR NAZİRİ ABDULLAH GÜLÜN ÇIXIŞI

- Hörmətli Prezident İlham Əliyev!

Hörmətli qonaqlar!

Bu gün, həqiqətən, mühüm bir görüşdür. Bu görüşün Bakı-Tbilisi -Ceyhan neft kəmərinin açılış mərasimi ərəfəsinə təsadüf etməsi böyük bir məna daşıyır. Bu baxımdan Kamuran bəy başda olmaqla, "Ekovitrin"in bütün əməkdaşlarını təbrik edirəm. Bu təşəbbüslərin, toplantıların daimi olacağını gördük. Gözəl bir platformadır. Bu platformada

Türkiyənin və dünyadakı bütün türklərin uğurları təbliğ edilir. Bunun üçün də daim təşviqedici, uğurları daim ön plana çıxarılan platformalardan biridir. Bu münasibətlə sizi təbrik edirik.

Hörmətli Prezidentin bu toplantını şərəfləndirməsi, şübhəsiz, buna ayrı bir dəyər əlavə etmişdir. Buradakı bütün qonaqlar adından hörmətli Prezidentə təşəkkür edirəm. Cənab Prezident bu axşam və sabah bir çox mühüm toplantılarda iştirak edəcəkdir. Bakı-Tbilisi-Ceyhan neft kəməri, həqiqətən, əsrin ən mühüm layihələrindən biridir. Sadəcə, Qafqaz neftinin Aralıq dənizi vasitəsilə ixrac edilməsi ilə kifayətlənilməyəcəkdir. Bir müddət əvvəl hörmətli Prezident İlham Əliyevin Qazaxıstan Prezidenti Nursultan Nazarbayevlə imzaladıqları müqaviləyə əsasən, Qazaxıstan nefti bu kəmərlə bütün dünyaya ixrac ediləcəkdir. Bu, çox böyük bir uğurdur. Bildiyiniz kimi, Bakı-Tbilisi-Ərzurum qaz kəməri də inşa edilir. İnşallah bu ilin axırına qədər başa çatdırılacaqdır. Bu da xüsusi strateji əhəmiyyət daşıyan bir layihədir. Əminəm ki, bu kəmər vasitəsilə "Şahdəniz" qazı ilə yanaşı, Orta Asiyanın qaz ehtiyatları da ixrac ediləcək və bütün bu uğurları birlikdə görəcəyik.

Bu mərasimi təşkil edənlərə təşəkkür edirəm. Burada iştirak etdiyi üçün hörmətli Prezidentə ehtiramlarımı bildirirəm. Sağ olun.

[redacted]

Sonra Türkiyə Baş nazirinin müavini, xarici işlər naziri ABDULLAH GÜL Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə "Avrasiyada ilin siyasət adamı" mükafatını təqdim edərək dedi:

- Doğrusu, bu mükafatı təqdim etmək mənim üçün böyük bir şərəfdir. Hörmətli Prezident Azərbaycana çox böyük məharətlə rəhbərlik edir. Seçkilərdən sonra Azərbaycan çox böyük sıçrayışlar edir. Bir tərəfdən, iqtisadi uğurlar qazanır, digər tərəfdən isə, Avropa Şurasının bir üzvü olan Azərbaycan demokratiya sahəsində də sürətlə inkişaf edir. Bunları prioritet sahələr kimi gördüyünüz üçün Sizi türk milləti adından, bütün türklər adından təbrik edirik. Türkiyənin bütün gücü, bütün dəstəyi Azərbaycanın arxasındadır. Bu ölkənin uğurları bizim üçün böyük bir qürur mənbəyidir. Bütün türk milləti bundan böyük sevinc hissi keçirir. İnanırıq ki, qarşıdakı illərdə Azərbaycanın bir çox uğurlarına birlikdə şahid olacağıq. Bütün türk milləti adından Sizi bir daha təbrik edirəm.

[redacted]

Azərbaycan Prezidenti İlham Əliyev mərasimdə nitq söylədi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ

- Hörmətli xanımlar və cənablar!

Əziz dostlar, əziz bacı-qardaşlarım!

Bu gün mənim üçün çox gözəl bir gündür, çox həyəcanlı bir gündür. Mən yüksək mükafata layiq görüldüm və bu gün əziz dostum, hörmətli Abdullah Gül bu gözəl mükafatı mənə təqdim etdi. Bu, bir tərəfdən, mənim xidmətlərimin tanınması deməkdir, digər tərəfdən və bəlkə də, ən önəmlisi isə, Azərbaycanın son illər ərzində uğurlu inkişafından irəli gəlir. Həqiqətən, bizim ölkəmiz çox qısa müddət ərzində çox böyük inkişaf yolunu

keçmişdir. Əgər nəzərə alsaq ki, yalnız 15 il bundan əvvəl Azərbaycan öz dövlət müstəqilliyini bərpa etdi və müstəqil ölkə kimi fəaliyyətə başladı, onda görərik ki, bu qısa müddət ərzində ölkəmiz çox böyük sınaqlardan şərəflə çıxdı. 1991-ci ildə Sovet İttifaqı dağılanda Azərbaycan başqa sovet respublikaları ilə müqayisədə, bəlkə də, ən ağır durumda, ən çətin vəziyyətdə idi. Çünki ölkədə hökm sürən böhran, demək olar ki, bütün sahələri iflic vəziyyətinə salmışdı. Azərbaycanda iqtisadiyyat böyük sürətlə tənəzzülə uğrayırdı, siyasi proseslər böyük gərginliklər yaratmışdı, vətəndaş qarşıdurması artıq reallığa çevrilmişdi, insanların həyat səviyyəsi günü-gündən pisləşirdi. Beləliklə, ölkənin müqəddəratı sual altında idi. Əgər Ermənistanın Azərbaycana təcavüzünü də əlavə etsək, görərik ki, vəziyyət çox acınacaqlı idi.

Azərbaycanın uğurlu inkişafı məhz 1993-cü ildən sonra başlanmışdır. 1993-cü ildə Azərbaycan xalqı öz liderinə üz tutdu, Heydər Əliyevi hakimiyyətə dəvət etdi və ondan sonra Azərbaycanda vəziyyət normallaşdı, sabitləşdi. Siyasi proseslər normal məcraya düşdü, iqtisadi tənəzzülün qarşısı alındı və tədricən inkişaf başlandı. Bu inkişaf bütün sahələri əhatə etməyə başladı, Azərbaycan dünya birliyində özünə layiq yerini tutdu. Azərbaycanda aparılan cəsarətli iqtisadi islahatlar qısa müddət ərzində ölkə iqtisadiyyatına böyük təkan verdi. 1996-cı ildən 2003-cü ilə qədər Azərbaycanın iqtisadiyyatı ildə təxminən 10 faiz artırdı. 2004-cü ildən sonra isə bu artım daha da yüksək olmuşdur.

Azərbaycanda siyasi proseslər normallaşdı, demokratikləşmə prosesləri daha da geniş vüsət aldı. Söz azadlığı, fikir azadlığı, azad cəmiyyətin yaranması, qanunun aliliyinin bərpa olunması - bütün bunlar hər bir ölkənin inkişafı üçün başlıca şərtdir. Bu gün Azərbaycanın uğurlu inkişafı onu göstərir ki, seçdiyimiz yol düzgün yol olmuşdur.

Keçən iki il ərzində Azərbaycan iqtisadiyyatı daha da sürətlə inkişaf etdi. 2005-ci ildə iqtisadi artım 26 faiz, 2006-cı ilin 5 ayı ərzində təxminən 40 faiz olmuş, sənaye istehsalı 43 faiz artmışdır. Azərbaycanda son iki il yarım ərzində 400 mindən çox yeni iş yeri açılmışdır. Yoxsulluq şəraitində yaşayanların sayı 20 faiz azalmışdır. Əhalinin gəlirləri 25 faiz artmışdır. Bu iqtisadi göstəricilər özlüyündə sübut edir ki, Azərbaycanın iqtisadi cəhətdən möhkəmlənməsi artıq reallıqdır. Nəzərə alsaq ki, bizim əsas iqtisadi nailiyyətlərimiz hələ irəlidədir, görərik ki, qısa müddət ərzində Azərbaycan iqtisadi cəhətdən çox inkişaf etmiş zəngin dövlətə çevriləcəkdir. Bu da bizim məqsədimiz, amalımızdır. Biz istəyirik ki, ölkəmiz daha da möhkəmlənsin, müasirləşsin, yeniləşsin, iqtisadi cəhətdən qüdrətlənsin və insanlarımız daha da yaxşı yaşasınlar.

Sabah biz tarixi mərasimi birlikdə keçirəcəyik. Bakı-Tbilisi-Ceyhan neft kəmərinin açılış mərasimi sabah Ceyhanda nəzərdə tutulubdur. Bu, böyük bir tarixi hadisədir. Dünyanın ən böyük enerji layihəsidir. Bu layihə təkcə bizə iqtisadi gəlirlər deyil, eyni zamanda, bölgəyə sülh, sabitlik gətirəcək, təhlükəsizlik tədbirləri daha da möhkəmlənəcək və bu layihədə iştirak edən bütün ölkələrdə yaşayan insanlar bu işdən çox böyük fayda götürəcəklər. Türkiyə, Gürcüstan, Azərbaycan artıq beynəlxalq müstəvidə bu böyük enerji layihəsini və siyasi layihəni həyata keçirməklə bütün dünyaya sübut etmişlər ki, əgər birlik olsa, qarşılıqlı inam olsa və münasibətlər düzgün qurularsa, istənilən məsələ öz həllini tapa bilər. Bəziləri Bakı-Tbilisi-Ceyhan layihəsini bir əfsanə kimi qəbul edirdilər. İnanmırdılar ki, bu, reallaşa bilər, gerçəkləşə bilər. Amma həm siyasi, həm iqtisadi baxımdan çox çətin, ağır şəraitdə olsa da, bu, reallaşdı, gerçəkləşdi. Əgər kəmərin

keçdiyi əraziyə nəzər salsaq görərik ki, orada çox böyük texniki çətinliklər də mövcud idi. Dağlar, çaylar - bu, böyük bir səfərbərlik tələb edirdi və biz bunu etdik. Biz bu əfsanəni gerçəyə çevirdik. Nəyin hesabına? Ortaya güclü iradə, iqtisadi imkanlar qoyuldu, beynəlxalq maliyyə qurumları bu işə maraq göstərdilər və öz üzərinə maliyyə öhdəlikləri götürdülər. Bir də ki, üç ölkənin cəsarətli siyasəti. Sabah qeyd edəcəyimiz mərasim, əminəm ki, bu bölgənin uzunmüddətli inkişaf yollarını müəyyən edəcəkdir. Xalqlarımız bundan fayda götürəcək, bizim dövlətlərimizin bölgədə və dünyada önəmi artacaq, bir sözlə, Türkiyə və Azərbaycan daha da böyük imkanlara malik olacaqdır.

Bunun ardınca gələn "Şahdəniz" layihəsi də çox böyük strateji əhəmiyyət daşıyır. Bəlkə də, bir neçə il bundan əvvəl onun strateji əhəmiyyəti o qədər də dərk olunmurdu. Amma son müddət ərzində hamı üçün aydın oldu ki, bu layihə böyük əhəmiyyət daşıyır. Biz bu ilin sonuna qədər onu gerçəkləşdirəcəyik və Azərbaycan qazı Türkiyəyə və ondan sonra başqa ölkələrə nəql ediləcəkdir.

Bu, bir daha onu göstərir ki, bizim işlərimiz düzgün qurulur. Bizim bütün siyasətimiz, atdığımız bütün addımlar bir məqsədi güdür - ölkəmizi gücləndirmək, zənginləşdirmək, Azərbaycanın mövqelərini möhkəmləndirmək və bölgədə sülh, barış içində yaşamaq. Bu məsələdə Türkiyə-Azərbaycan birliyi ən böyük əhəmiyyət daşıyan bir amildir. Azərbaycan öz müstəqilliyini bərpa etdikdən sonra Türkiyə dərhal onu müstəqil dövlət kimi tanıdı və ondan sonra Azərbaycandan öz yardımını əsirgəmədi, ona öz əlini uzatdı. Biz bu yardımı hiss edirik. Həmişə hiss etmişik, xüsusilə müstəqilliyimizin ilk illərində, Azərbaycan çox çətin vəziyyətdə olarkən. Bu gün də bu dəstək bizim üçün çox önəmlidir. İndi Türkiyə və Azərbaycan bir-birinə dəstək verərək bölgədə, dünyada öz mövqelərini möhkəmləndirir. Bizi birləşdirən enerji layihələri, müştərək tariximiz, milli köklərimiz, eyni baxışlarımız, birliyimizdir. Budur ölkələrimizin inkişafını, gələcəyini müəyyənləşdirən amillər.

Bu gün İstanbulun gözəl yerlərindən biri olan Sarıyer rayonunda ulu öndər Heydər Əliyevin abidəsinin açılışı olmuşdur. Bu, böyük hadisədir və mən orada çıxış edərkən bir daha Heydər Əliyevin o məşhur kəlamını xatırlatdım: "Türkiyə və Azərbaycan bir millət, iki dövlətdir!". Bu, həm həqiqətdir, çünki doğrudan da belədir, eyni zamanda, bu, bizim siyasətimizdir. Bu siyasət yaşayır və yaşayacaqdır. Bizim xoşbəxtliyimiz, normal yaşamağımız bundan asılıdır. Biz bu gün bir-birimizə çox yaxınıq. Demək olar ki, Türkiyə-Azərbaycan münasibətləri indi ən yüksək zirvədədir. Biz gərək bunu qoruyaq, bunu yeni formalarla daha da zənginləşdirək, yeni işbirliyi layihələri üzərində işləyək ki, bu meyillər davam etsin.

Türkiyə-Azərbaycan birliyindən artıq bölgədə çox şeylər asılıdır. Əlbəttə ki, Avropada müəyyən işlər asılı olacaqdır və getdikcə bizim önəmimiz artacaqdır. Azərbaycan nefti artıq Türkiyə limanına çatdırılıbdır. İki ildən, üç ildən sonra Azərbaycan ildə 65 milyon ton neft hasil edəcəkdir. Bu, çox böyük rəqəmdir. Bu gün hörmətli nazir Abdullah Gül qeyd elədi ki, artıq Qazaxıstanla Azərbaycan arasında müqavilə imzalanıb və Qazaxıstan neftinin də bu yolla nəql edilməsi, təbii ki, kəmərin işinə daha da böyük dəstək verəcəkdir. Biz gələcəkdə əlavə neftin daşınması haqqında düşünürük və bu, gerçəklik ola bilər. Biz indi bu işlər üzərində çalışırıq. Bakı-Tbilisi-Qars dəmir yolunun yaranması işində biz Türkiyə ilə çox fəal çalışırıq və əminəm ki, bu layihəni də biz həyata keçirə-

cəyik. Əgər bu olarsa, onda Türkiyə Azərbaycanla dəmir yolu ilə birləşəcək, Türkiyə Orta Asiya ilə dəmir yolu ilə birləşəcək, Orta Asiya Avropa ilə birləşəcəkdir. Bu, dəmir yolu vasitəsilə həm Azərbaycanı Türkiyə ilə birləşdirəcək, eyni zamanda, Avropanı Asiya ilə birləşdirəcəkdir. Yəni bu layihənin çox böyük əhəmiyyəti var. Bütün bu işlərin mərkəzində Türkiyə və Azərbaycan dayanır. Bizim iştirakımız olmadan bölgədə heç bir layihə həyata keçirilə bilməz.

Biz bütün layihələrin fəal iştirakçıları, onların təşəbbüskarıyıq və belə olan halda, əlbəttə ki, dünyada bizim çəkimiz artacaqdır. Türkiyənin uğurları bizi çox sevindirir, bizi daha da ruhlandırır. Eyni zamanda, bilirəm ki, Azərbaycanın uğurlu inkişafı türk qardaşlarımıza da böyük sevinc gətirir. Bizim birliyimiz bizim gələcəyimizdir.

Azərbaycanın uğurlu inkişafı artıq reallıqdır və mən şübhə etmirəm ki, gələcəkdə bu meyillər ancaq və ancaq güclənəcəkdir. Amma bununla yanaşı, problemlər də az deyildir. İlk növbədə, bu, Azərbaycanın torpaqlarının işğal altında qalmasıdır. Bilirsiniz ki, uzun illərdir Azərbaycan xalqı bu işğaldan, Ermənistanın Azərbaycana qarşı etnik təmizləmə siyasətindən əziyyət çəkir. Bir milyondan artıq qaçqın-köçkünümüz var, torpaqlarımızın 20 faizi işğal altındadır. Ermənistanın qeyri-konstruktiv mövqeyi imkan vermir ki, bu məsələ sülh yolu ilə həll olunsun. Azərbaycan öz hərəkətləri ilə, öz siyasəti ilə artıq sübut edib ki, biz sülh prosesinə sadiqik. Baxmayaraq ki, 12 ildir atəşkəs rejimi elan olunub, danışıqlar aparılır, ancaq bunun heç bir nəticəsi yoxdur. Yəni bu 12 il ərzində Azərbaycan özünü kifayət qədər konstruktiv göstərib, öz sülh məramını ifadə edib və artıq bu, reallıqdır. Amma biz nə vaxta qədər gözləməliyik? Bizim səbrimiz əbədi deyil, tükənməz deyildir. Biz bütün imkanlardan istifadə etməliyik. Siyasi, diplomatik, iqtisadi, hərbi - bütün imkanlardan. Bu gün Azərbaycanın artan imkanları deməyə əsas verir ki, biz Qarabağ məsələsini də öz xeyrimizə həll edəcəyik, ədalətli həll edəcəyik və Azərbaycanın ərazi bütövlüyü bərpa olunacaqdır.

Əziz dostlar, əziz bacılar və qardaşlar, bu yüksək mükafatı mənə verdiyiniz üçün sizə bir daha təşəkkürümü bildirirəm, bir daha qardaş Türkiyədə olmağımdan öz məmnunluğumu bildirmək istəyirəm və bütün türk xalqına dərin hörmət və məhəbbətimi ifadə edirəm. Çox sağ olun!

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV TÜRKİYƏNİN "FLASH" TELEVİZİYA KANALINA MÜSAHİBƏ VERMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 12-də İstanbulda, "Çırağan" sarayında Türkiyənin "Flash" televiziya kanalının əməkdaşı Güray Dəyərliyə müsahibə vermişdir.

TÜRKİYƏ PREZİDENTİ ADINDAN RƏSMİ ZİYAFƏT

İyulun 12-də İstanbulun "Çırağan" sarayında Türkiyə Respublikasının Prezidenti Əhməd Necdət Sezərin adından Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft boru kəmərinin açılışı mərasimində iştirak etmək üçün Türkiyəyə gəlmiş dövlət və hökumət başçılarının şərəfinə rəsmi ziyafət verilmişdir.

HEYDƏR ƏLİYEV ADINA BAKI-TBİLİSİ-CEYHAN ƏSAS İXRAC BORU KƏMƏRİNİN İSTİFADƏYƏ VERİLMƏSİNƏ HƏSR OLUNMUŞ TƏNTƏNƏLİ MƏRASİM

İyulun 13-də Azərbaycan Prezidenti İlham Əliyev, Türkiyə Prezidenti Əhməd Necdət Sezər, Gürcüstan Prezidenti Mixail Saakaşvili Bakı-Tbilisi-Ceyhan boru kəmərinin rəsmi açılış mərasimində iştirak etmək üçün İstanbuldan təyyarə ilə Adana şəhərinə gəldilər.

Hava limanında dövlət başçılarının şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Sonra prezidentlər İlham Əliyev, Əhməd Necdət Sezər və Mixail Saakaşvili avtomobillərlə Heydər Əliyev adına Ceyhan terminalına gəldilər.

Ceyhan terminalında mərasimə toplaşanlar dövlət başçılarını, eləcə də, Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğanı, bp şirkətinin Prezidenti Con Braunu, habelə 30-dək ölkənin dövlət və hökumət nümayəndələrini, beynəlxalq və regional təşkilatların təmsilçilərini ehtiramla qarşıladılar.

Açılış mərasimini işıqlandırmaq üçün 300-dək jurnalist gəlmişdi.

Mərasimin əvvəlində Azərbaycan, Gürcüstan və Türkiyənin dövlət himnləri ifa olundu.

Sonra BTC-nin tarixi və tikintisinə dair sənədli filmdən kadrlar göstərildi.

İlk söz BTC layihəsinin operatoru olan bp şirkətinin prezidenti lord Con Brauna verildi.

bp ŞİRKƏTİNİN PREZİDENTİ LORD CON BRAUNUN ÇIXIŞI

- Zati-aliləri,

Hörmətli xanımlar və cənablar!

Burada böyük tarixi bir anda çıxış etmək mənim üçün böyük şərəfdir. Çünki Bakı-Tbilisi-Ceyhan neft kəmərinin başa çatdırılması tarixi əhəmiyyət daşıyır. İlk dəfədir ki, bu əsrdə Xəzər neftinin dünya bazarlarına çıxışını təmin edir. Eyni zamanda, Türkiyənin də Aralıq dənizi vasitəsilə xam neftin ixracatına qatılmasını təmin etdi. Mən burada oturan bütün həmkarlarıma öz minnətdarlığımı bildirmək istəyirəm. Burada Azərbaycan, Gürcüstan və Türkiyədən olan əməkdaşlarımı salamlayır və onların böyük zəhmətlərini yüksək qiymətləndirirəm. Eyni zamanda, həm hökumətlərin, yerli hakimiyyətlərin, həm də şirkət nümayəndələrini - Devid Vudvordu və digər həmkarlarımı salamlayıram. BTC layihəsi əsrin böyük bir layihəsidir. Uzunluğu 1774 kilometrdir və bu layihə 4 milyard dollarlıq sərmayənin qoyulması nəticəsində başa çatmışdır. Bu layihə çərçivəsində yerli hakimiyyətlərin köməyi ilə ətraf mühitin qorunmasına dair çox böyük layihələr də həyata keçirilibdir. Biz bugünkü rəsmi mərasimdə, demək olar ki, 12 illik işin nəticəsini dilə gətiririk. Gələcəkdə bu layihənin başqa bölgələrə çatmasının vacibliyini, "Şahdəniz"dən Gürcüstan vasitəsilə Türkiyəyə qaz ixrac edilməsini və Azərbaycanın qaz ixracatçısı olaraq dünya bazarına çıxmasını və bu bazarın Avropa və Asiya qaz bazarlarına qədər uzanmasını düşünürük. Biz bilirik ki, illər keçdikcə, enerji ehtiyatlarının dünya bazarlarına çatdırılmasında ehtiyat və təhlükəsizlik tədbirləri möhkəmləndirilməlidir. Biz bu layihələrə baxdıqda gördüyümüz işlərin bütün iştirakçılara həm sosial, həm də

iqtisadi mənada böyük müsbət nəticələr verdiyini görürük. Əgər bizim təşəbbüsümüz bu qədər güclü olmasaydı, bu layihə heç bir zaman gerçəkləşə bilməzdi. Burada əlbəttə, ilk mərhələləri xatırlatmaq istəyirəm. Onda təhlükəsizliklə əlaqədar problemlər yaşanırdı. Biz bütün tərəflərin güclü siyasi dəstəyini görməsəydik, bu layihə çətin ki, müvəffəqiyyətlə nəticələnərdi.

Biz tarixə - həm keçmişə, həm də gələcəyə nəzər salanda görürük ki, bu layihə böyük addım sayılır. Çünki bir çox insanı bir yerə gətirdi və parlaq gələcəyə yol açdı. Çox sağ olun.

Sonra bp-Azərbaycan şirkətinin prezidenti Devid Vudvord çıxış etdi.

bp-AZƏRBAYCAN ŞİRKƏTİNİN PREZİDENTİ DEVİD VUDVORDUN ÇIXIŞI

- Zati-aliləri Türkiyə Prezidenti Sezər,

Zati-aliləri cənab prezidentlər,

Hörmətli xanımlar və cənablar!

Mənim üçün bp və BTC Ko. üzrə tərəfdaşlarım adından bu gün neft kəmərinin açılış mərasimində sizlərə bu yüksək kürsüdən müraciət etmək böyük şərəfdir. Düşündüyümüz kimi, layihəmizin axırında biz enerjidaşıyıcılarının daha təhlükəsiz nəqli yolunu əldə edəcəyik. Bu işin keçmişində böyük çətinliklər yaşandı. Xəzərin "Azəri-Çıraq-Günəşli" yataqlarından çıxarılan neft Bakı-Tbilisi-Ceyhan neft kəməri ilə böyük məsafələr qət edərək buraya gətirilir. Kəmərin təkcə Türkiyə hissəsində 300-dən artıq kəndin yanından keçmişik. Marşrutun keçdiyi yerlərdə böyük kənd təsərrüfatı tarlaları, iri yaşayış məntəqələri vardı. Bu çətinliklərin hamısının öhdəsindən gəldik. Bundan başqa, ətraf mühitin qorunmasına böyük diqqət yetirildi. Flora və faunanın qorunmasına dair ətraf mühit proqramları da həyata keçirildi. Marşrutun keçdiyi yerdə biz Qazi Universitetinin arxeologiya bölməsinin köməyi ilə arxeoloji qazıntılar apardıq.

Mən bu gün hamınızı təbrik edib, yenə də minnətdarlığımı bildirmək istəyirəm. Burada həm Azərbaycan, həm Gürcüstan, həm də Türkiyə tərəflərinin göstərdikləri diqqət və köməyi qeyd etmək istəyirəm. Burada bp, ARDNŞ, Şevron, Statoyl, TPAO, ENİ, Total, İtoçu, İNPEX, KonokoFillips və Amerada Hess kimi şirkətləri də saymalıyam. Türkiyənin Botaş şirkətini, onun Türkiyə tərəfindən podratçılarını da qeyd etmək istəyirəm. Minlərcə insanın bu layihəyə cəlb olunması onun gerçəkləşməsi üçün böyük əhəmiyyət kəsb etdi.

Bu gün artıq kəmərin açılış mərasimini qeyd edirik. Səngəçaldan gələn, böyük əməyin nəticəsi olan xam neftin Ceyhana qədər gəlməsini görürük. Enerji bazarlarına neftin, qazın nəqli daha çox təhlükəsizlik tələb edir. İnsanlar və şirkətlər inkişaf etdikcə, cəmiyyətlərin rifahı daha yüksək olduqca, eyni zamanda, cəmiyyətlər arasında etibarın daha da artırılmasının və istər-istəməz, təhlükəsizliyin də vacib olduğunu qeyd edirlər. Mən bir daha sizə minnətdarlığımı bildirirəm.

Sonra ABŞ-ın energetika nazirinin müavini Kley Sellə söz verildi.

ABŞ-IN ENERGETİKA NAZİRİNİN MÜAVİNİ KLEY SELLİN ÇIXIŞI

- Zati-aliləri Azərbaycan Prezidenti İlham Əliyev,

Gürcüstan Prezidenti Mixail Saakaşvili,

Türkiyə Prezidenti Sezər,

Hörmətli xanımlar və cənablar!

Mən bu gün böyük bir mərasimdə iştirak edirəm. Neft kəmərinin inşasının başa çatdırılmasında əməyi olan böyük neft şirkətlərini salamlayıram. Onların böyük səyləri və investisiyaları nəticəsində bu layihə həyata keçirildi.

Zati-aliləri Prezident Buşun göndərdiyi salamı bu kürsüdən sizə çatdırmaq mənim üçün böyük şərəfdir. Burada Zati-aliləri Sezərə də müraciət etmək istəyirəm:

"Zati-aliləri, mən Türkiyə xalqını ürəkdən təbrik edirəm. İlk neft Bakıdan Ceyhana çatdı və bu hissləri Amerika xalqı Sizinlə paylaşır. BTC Xəzər dənizi ehtiyatlarının inkişafında böyük addımdır. Bu, eyni zamanda, ətraf mühit üçün böyük bir inkişaf addımıdır. Həm Azərbaycan, həm Gürcüstan, həm Türkiyə, həm də dünya bazarı üçün böyük bir hadisədir. Onun əhəmiyyəti BTC-nin həm də dünya enerji bazarına çıxmasındadır. Biz bu layihənin enerji təhlükəsizliyini möhkəmləndirəcəyinə, bölgələrin əməkdaşlığının artırılmasında böyük əhəmiyyət daşıyacağına və Amerika xalqı olaraq, biz Bakı-Tbilisi-Ceyhan layihəsinin yüksək dərəcədə müvəffəqiyyətlə tamamlanacağına inanırıq.

İmza: Corc Buş".

Mən burada Türkiyə, Gürcüstan, Azərbaycan xalqlarını və onların rəhbərlərini təbrik etmək istəyirəm. BTC-nin hər zaman daha yüksək zirvələr əldə etmək üçün müvəffəqiyyətli addım olacağına Amerika hökuməti adından inanıram. Əminəm ki, bu layihə və bundan sonrakı layihələr həm sərhədləri daha şəffaf edəcək, həm də əməkdaşlığı daha yüksək səviyyəyə qaldıracaqdır. Onun XXI əsrin əvvəlində dünyada ən böyük layihə olduğuna ürəkdən inanıram. Bu layihə ən yeni texnoloji nailiyyətlərdən istifadə edilərək həyata keçirildi. Bu enerji dəhlizlərinin Şərqdən Qərbə gedən böyük bir yol olduğuna və enerji təhlükəsizliyini təmin etdiyinə və insanlara daha yüksək rifah gətirəcəyinə inanıram. Bu enerji layihələri həm neftin, həm də qaz ehtiyatlarının dünya bazarlarına çatdırılmasında uğurlu addımdır və onlardan sonra yeni layihələr yaranacaqdır. BTC-nin müvəffəqiyyəti həm bölgə liderlərinin qərarlılığının, həm də böyük dəstəyin nəticəsidir. Bunun uğurlu olmasında Amerika hökuməti də öz dəstəyini heç zaman əsirgəməyibdir. Bir daha deyirəm, bu böyük, mötəbər mərasimdə iştirak etmək mənim üçün böyük şərəfdir. Yenə də sizi təbrik edir və minnətdarlığımı bildirirəm. Sağ olun.

Çıxış üçün Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğana söz verildi.

TÜRKİYƏNİN BAŞ NAZİRİ RƏCƏB TAYYİB ƏRDOĞANIN ÇIXIŞI

- Hörmətli prezidentlər,

Dünya enerji ictimaiyyətinin hörmətli nümayəndələri,

Xanımlar, cənablar!

Sizləri bu mənalı gündə ən səmimi hisslərlə salamlayıram.

Bakı-Tbilisi-Ceyhan neft kəmərinin rəsmi açılış mərasimi münasibətilə siz dəyərli qonaqlarımızla bir araya gəlməkdən böyük xoşbəxtlik hissi keçirdiyimizi xüsusi vurğulamaq istəyirəm. Bu mənalı günü bizimlə bölüşən hər bir kəsə təşəkkür edirəm.

Bu gün dünyanın ən böyük enerji layihələrindən biri olan Bakı-Tbilisi-Ceyhan neft kəmərinin gerçəyə çevrildiyinin şahidi oluruq. Bakı-Tbilisi-Ceyhan bir mühəndislik əsəri olmaqla yanaşı, ekoloji baxımdan da uğur nümunəsidir. Bakı-Tbilisi-Ceyhan bölgənin ekologiyasını dəyişdirəcək strateji bir layihədir. Bu layihə "XXI əsrin İpək Yolu" adlandırılan Şərq-Qərb enerji dəhlizinin ən mühüm xəttini təşkil etməkdədir. Bölgəmizin həm sabitliyi, həm də iqtisadi və sosial inkişafı baxımından son dərəcə taleyüklü layihədir.

Dəyərli qonaqlar, müasir dövrdə enerji təminatının təhlükəsizliyi təmin edilmədən rifah, sabitlik, iqtisadi və sosial inkişaf mümkün deyildir. 2030-cu ilədək dünyada enerji tələbatının 60 faiz artacağı gözlənilir. Bunu nəzərə aldıqda, Xəzər neftini beynəlxalq bazarlara fasiləsiz və təhlükəsiz bir şəkildə çatdıracaq Bakı-Tbilisi-Ceyhan kəmərinin bölgə və qlobal baxımdan əhəmiyyəti daha da aydınlaşır. Bakı-Tbilisi-Ceyhan neft kəməri Qərb ölkələrinin Xəzər hövzəsinin ehtiyatlarına birbaşa çatması baxımından da strateji əhəmiyyətə malikdir. Kəmər gündəlik 1 milyon barrel, illik 50 milyon ton buraxılış qabiliyyəti ilə dünya enerji təhlükəsizliyinə ciddi töhfələr verəcəkdir. Eyni zamanda, o, Türkiyə boğazlarının təhlükəsizliyinin təmin edilməsi baxımından da böyük əhəmiyyət kəsb edir və bu da bizim üçün çox mühümdür. Bu layihə ekoloji baxımdan böyük təhlükə yaradan neft tankerlərinin boğazlardan keçməsini azaldacaqdır.

Türkiyə olaraq biz bir tərəfdən, enerji mənbələrinin müxtəlifləşdirilməsi istiqamətində işlərimizi davam etdirir, digər tərəfdən də, coğrafi mövqeyimizdən istifadə edərək, hasilatçı ölkələrlə istehlakçı ölkələr arasında etibarlı enerji dəhlizləri yaratmaq məqsədi güdürük. Ceyhan terminalını bir enerji mərkəzinə çevirmək istəyirik. Bakı-Tbilisi-Ceyhan bizi bu məqsədə çatdıracaq ən mühüm layihədir. İyunun 4-də ilk neftini tankerə doldurduğumuz neft kəmərinə Qazaxıstanın da qoşulması ilə layihə daha da səmərəli olmuşdur. Aktau-Bakı-Tbilisi-Ceyhan marşrutu ilə Qazaxıstan neftinin Aralıq dənizinə çatdırılması, inanıram ki, qardaş Qazaxıstanla əlaqələrimizi daha da gücləndirəcəkdir.

Dəyərli qonaqlar, 2030-cu ildə Avropa Birliyinin təbii qaza olan tələbatının 70-80 faiz artması gözlənilir. Bu tələbatın bir hissəsinin Azərbaycanın "Şahdəniz" təbii qazı ilə və bölgədəki digər mənbələrdən təmin edilməsi nəzərdə tutulur. Eyni zamanda, son hadisələr çərçivəsində Avropa Birliyinin enerji mənbələrinin müxtəlifləşdirilməsi üçün işlərin sürətləndirilməsi Türkiyənin bu baxımdan daha mühüm mövqeyə malik olması ilə nəticələnmişdir. Türkiyə təbii qaz təchizatında Rusiya, Norveç və Əlcəzairdən sonra Avropa Birliyi üçün dördüncü arteriya kimi qiymətləndirilmişdir. Bu səbəbdən dost və

qonşu ölkələrlə inkişaf etdirdiyimiz Şərq-Qərb enerji dəhlizi, sadəcə, bölgə ölkələri üçün yox, Avropa Birliyi, Amerika Birləşmiş Ştatları və digər istehlakçı ölkələr üçün də böyük əhəmiyyət kəsb edir. Dəhlizin ikinci qolu olan Bakı-Tbilisi-Ərzurum qaz kəmərinin, nəzərdə tutulduğu kimi, 2006-cı ilin sonunda istifadəyə verilməsi, beləliklə, "Şahdəniz" qazının Türkiyəyə çatdırılması mühüm uğur olacaqdır. Son hadisələr Qazaxıstan və Türkmənistanın zəngin qaz ehtiyatlarının da bir hissəsini Avropaya çatdıracaq transxəzər qaz kəməri layihəsini ön plana çıxarmışdır. Qazaxıstan və Türkmənistan qazını Qərb bazarlarına çıxaracaq layihə bu iki ölkənin qlobal enerji təhlükəsizliyinin inkişafında oynadığı rolu da möhkəmləndirəcəkdir.

Çoxçalarlı enerji strategiyamız İraqın zəngin təbii qaz ehtiyatlarından istifadəni də əhatə edir. İraq təbii qazının qarşıdakı illərdə Kərkük-Yumurtalıq neft kəmərinə paralel çəkiləcək bir kəmərlə Ceyhana çatdırılmasını nəzərdə tuturuq. Eyni zamanda, Ceyhanda tikiləcək bir terminal vasitəsilə bölgənin təbii qazının Avropadan da o tərəfə, Amerika Birləşmiş Ştatlarının şərqinə qədər çatdırmaq məqsədi güdürük. Xəzər və Yaxın Şərq təbii qazını Türkiyə vasitəsilə Avropa Birliyi bazarlarına çatdıracaq Türkiyə-Yunanıstan-İtaliya qaz kəmərinin inşası üçün işlər davam edir. Türkiyə-Yunanıstan xəttinin inşası sürətlə davam edir və 2006-cı ilin sonlarında başa çatmasını nəzərdə tuturuq.

Onu da demək istəyirəm ki, biz həm ölkələrimiz, həm də Avropa ilə Asiya arasındakı nəqliyyatın inkişafına böyük əhəmiyyət veririk. Mal və xidmətlərin daha sürətlə və daha ucuz daşınması prioritet vəzifələrimizdən biridir. Bu çərçivədə Şərqlə Qərb arasında nəqliyyat əlaqəsini daimi edəcək Qars-Tbilisi-Bakı dəmir yolunu tezliklə həyata keçirmək üçün səy göstəririk və bu məsələdə qətiyyətliyik. Şərq-Qərb dəhlizinin nəqliyyat qolunu təşkil edən bu layihə həyata keçirildikdə, Türkiyə, Cənubi Qafqaz və Orta Asiyanı bir-birinə bağlayacaqdır. Bu layihə, eyni zamanda, Qafqazda geniş və irimiqyaslı bir əməkdaşlıq magistralının yaradılmasına da imkan verəcəkdir.

Dəyərli dostlar, burada bir daha vurğulamaq istəyirəm ki, söhbət sadəcə, xalqlarımızın həyat səviyyəsini yüksəldəcək bir enerji dəhlizinin yaradılmasından, şəhərlərimizi və insanlarımızı işıqlandıracaq və isindirəcək, inkişaf etdirəcək bir layihədən getmir. İnşa etdiyimiz neft kəmərləri enerji ehtiyatlarının nəqli ilə yanaşı, çox mühüm bir mesaj da daşıyır.

O da bu layihələri həyata keçirmək üçün etdiyimiz çoxtərəfli və çoxçalarlı əməkdaşlığın xarakterində gizlənibdir. Məncə, bu mesaj, kodunun açıqlanmasına ehtiyac duyulmayacaq dərəcədə aydındır. Bu enerji dəhlizi xalqlarımız və dövlətlərimiz arasında möhkəm sülh və dostluq dəhlizinin açılması mənasını da daşıyır. Mən əməkdaşlığımızın ortaya çıxardığı bu enerji dəhlizini qlobal miqyasda gündən-günə daha çox ehtiyac duyduğumuz təbii qaz qədər, yanacaq qədər, elektrik qədər həyati əhəmiyyət kəsb edən bir sabitlik və rifah dəhlizi kimi görürəm.

Türkiyə olaraq biz Şərq-Qərb enerji dəhlizi ilə yanaşı, Şimal-Cənub xətti çərçivəsində də əməkdaşlığa böyük əhəmiyyət veririk. 2010-cu illərdə Qara dənizə çatdırılacaq böyük həcmlərdə Rusiya və Qazaxıstan neftinin Aralıq dənizi vasitəsilə istehlakçı bazarlarına daşınmasını təmin edəcək Samsun-Ceyhan neft kəməri də ən qısa müddət ərzində inşa olunacaqdır. Bu layihə ilə əlaqədar ilk mərhələdə bir türk şirkəti ilə İtaliyanın qabaqcıl şirkətlərindən birinin lisenziya üçün müştərək müraciətləri qəbul edilmişdir. Şi-

mali Xəzər bölgəsində və Rusiyada fəaliyyət göstərən digər neft şirkətlərinin də layihədə iştirak etməsi bizi məmnun edir. Samsun-Ceyhan neft kəməri Qara dənizə çatdırılacaq nefti iqtisadi və ekoloji cəhətdən ən əlverişli şəkildə Aralıq dənizinə çıxaracaqdır. Eyni zamanda, boğazlarımız və gözəl İstanbulumuz üçün təhlükə yaradan tanker magistralının da qismən yüngülləşdirilməsi təmin ediləcəkdir. Bu səbəbdən layihənin həyata keçirilməsi üçün hökumət olaraq əlimizdən gələni etməyə hazırıq.

2010-cu illərdə İraq, Azərbaycan, Rusiya və Qazaxıstan neftinin çatdırılacağı Ceyhan terminalı hər gün müxtəlif ölçülərdəki tankerlərə fərqli xüsusiyyətlərə malik nefti doldurmağa hazır olacaqdır. Bu, hamı üçün böyük bir üstünlükdür. Təhlükəsiz bir bölgədə yerləşən terminalın bir enerji supermarketinə çevrilməsi Avropanın enerji təhlükəsizliyi baxımından da son dərəcə mühümdür.

Burada bir həqiqəti də vurğulamaq istəyirəm. O da enerji daşıyıcılarına tələbatımızın 20 il ərzində 60 faiz artacağının gözlənilməsidir. Bu tələbatın ödənilməsi üçün böyük miqyaslı sərmayə qoyulmalıdır. Bu səbəbdən istər yerli, istərsə də beynəlxalq sərmayədarlar üçün münasib bazar şərtləri yaratmaq istiqamətində mühüm addımlar atmışıq. Sərmayədarlara ən əlverişli investisiya imkanları yaratmaq üçün səy göstəririk. Qarşıdakı dövrdə ortaya çıxacaq enerji tələbatını ödəyə bilmək üçün atom enerjisi məsələlərinin də gündəliyimizdə olduğunu xüsusilə vurğulamaq istəyirəm. Bütün bu işlər Avropa Birliyinə daxil olmaq prosesinə mühüm töhfələr verəcəkdir.

Enerji bazarını sərbəstləşdirərək daha şəffaf etməyimiz qlobal sərmayədarlar üçün də həvəsləndirici olacaqdır. Hazırda bu sərmayələri müxtəlif maliyyə modellərindən istifadə edərək, sizlərlə birlikdə həyata keçiririk və həyata keçirə bilərik. Beynəlxalq sərmayədarlar üçün əlverişli bir bazara çevrilən enerji bazarımıza lazımi diqqəti göstərəcəyinizə inanıram.

Dəyərli qonaqlar, nəticə etibarilə qlobal enerji təhlükəsizliyi baxımından üzərimizə götürdüyümüz taleyüklü rolu dərk edirik. Bu məsələdə üzərimizə düşən vəzifələri yerinə yetirməkdə qətiyyətliyik. Enerji mənbələrinin hər birini əməkdaşlıq amili kimi qəbul edərək, bu sahədə beynəlxalq dialoq və əməkdaşlığa *əhəmiyyət* veririk. İstər bölgəmizdə, istərsə də dünyada sülh, sabitlik və rifaha töhfə verəcək Bakı-Tbilisi-Ceyhan kəmərinin buna bənzər layihələr üçün nümunə olacağına inanır, onun həyata keçirilməsində zəhməti olan hər kəsə təşəkkür edirəm. Bir az əvvəldə dediyim kimi, bu dəhlizlə nəql ediləcək enerjidaşıyıcılarının şəhərlərimiz qədər xalqlarımızın bir-birinə baxışlarını da işıqlandıracağına, qəlblərimizi isidəcəyinə, dostluq əlaqələrimizi daha da dərinləşdirəcəyinə inanıram. Bakı-Tbilisi-Ceyhan neft kəmərinin Türkiyə, Azərbaycan, Gürcüstan və iştiraka dair sazişi imzalayan Qazaxıstan üçün xeyirli olmasını, xalqlarımızın təhlükəsizlik və rifahına töhfə verməsini arzulayır, sizləri bir daha hörmətlə salamlayıram.

[redacted]

Azərbaycan Prezidenti İlham Əliyev mərasimdə nitq söylədi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ

- Hörmətli Prezident Əhməd Necdət Sezər!

Hörmətli Prezident Mixail Saakaşvili!

Hörmətli Baş nazir Rəcəb Tayyib Ərdoğan!

Xanımlar və cənablar, əziz dostlar!

Bu gün tarixi bir gündür. Bakı-Tbilisi-Ceyhan neft boru kəməri istismara verilir və bu tarixi günü biz birlikdə Ceyhan terminalında qeyd edirik. Bu gün mərasimin əvvəlində nümayiş etdirilən qısa filmdə tarixi anlar bir daha xatırlandı. 1994-cü ildə "Əsrin müqaviləsi"nin imzalanmasının görüntülərini bu gün bir daha gördük. Həqiqətən, bütün bu işlər, nəhəng layihələr məhz 1994-cü ildə başlanmışdır. "Əsrin müqaviləsi"nin imzalanması ilə Azərbaycanda böyük neft siyasəti başlanmışdır. Azərbaycan Prezidenti Heydər Əliyevin təşəbbüsü ilə başlanmış Azərbaycanın yeni neft strategiyası öz imkanlarından istifadə edib bizi qarşıda duran bütün məqsədlərə çatdırdı. "Azəri-Çıraq-Günəşli" neft yataqlarının işlənilməsi nəticəsində hasil olunan Azərbaycan nefti bu gün dünya bazarlarına müxtəlif yollarla ixrac edilir.

Onu da qeyd etmək istəyirəm ki, Azərbaycan tarixdə ilk dəfə olaraq, Xəzər dənizinin özünə məxsus olan sektoruna xarici investorları dəvət etdi. Ondan əvvəl Xəzər dənizində xarici şirkətlər heç vaxt fəaliyyət göstərməmişdir. Bütövlükdə, Azərbaycan neft ölkəsi kimi tanınır. Dünyada ilk dəfə sənaye üsulu ilə neft Azərbaycanda çıxarılmışdır. O cümlədən, dünyada dəniz yataqlarından ilk dəfə neft Azərbaycanda, Xəzər dənizində hasil edilmişdir. 1994-cü ildə başlanmış yeni layihələr Azərbaycana onun neft şöhrətini təzədən qaytardı. Bu gün Azərbaycan bu imkanlardan səmərəli istifadə edərək, öz iqtisadi potensialını gücləndirir. Azərbaycanda gedən iqtisadi inkişaf artıq hamımız tərəfindən görünür. Keçən il iqtisadiyyat 26 faiz, bu ilin 5 ayında təxminən 40 faiz artmışdır. Bütün bu nəticələrin təməli məhz 1994-cü ildə Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin təşəbbüsü ilə imzalanmış "Əsrin müqaviləsi" ilə qoyulmuşdur.

O vaxt Azərbaycan çox çətin, ağır durumda idi. Müstəqilliyi yenicə əldə etmiş ölkə iqtisadi böhran içərisində yaşayırdı. O cümlədən, siyasi vəziyyət o qədər də ürəkaçan deyildi. Ölkədə sabitlik hələ tam bərqərar olunmamışdı. Azərbaycan çox riskli bir ölkə kimi tanınırdı və o şəraitdə xarici sərmayəni Azərbaycana cəlb etmək, investorları inandırmaq ki, Azərbaycanda onların sərmayəsi batmayacaq, əksinə, əlavə sərmayə, əlavə gəlirlər gətirəcək - bu, əlbəttə ki, çox böyük siyasi bacarıq, müdriklik, uzaqgörənlik tələb edirdi. Azərbaycanın ümummilli lideri Heydər Əliyevin fəaliyyəti nəticəsində bu gün biz bu gözəl anları yaşayırıq. Nəzərə alsaq ki, həm ölkə daxilində, həm də bölgədə və bütövlükdə, müəyyən mənada dünyada Bakı-Tbilisi-Ceyhan neft kəmərinə inam o qədər böyük deyildi, onda görərik ki, bu işin həyata keçirilməsi nə qədər böyük çətinliklərlə müşayiət olunurdu. İnanmayan var idi, eyni zamanda, Bakı-Tbilisi-Ceyhan neft kəmərinin inşasının qarşısının alınmasına çalışanlar var idi, problemlər, maneə törədənlər var idi. Ancaq xalqımızın iradəsi, Azərbaycan, Türkiyə, Gürcüstan rəhbərliyinin iradəsi, bizim birgə fəaliyyətimiz bu əfsanəni gerçəkliyə çevirdi.

Azərbaycanda son 12 il ərzində təkcə neft-qaz sənayesinə 20 milyard dollardan çox vəsait qoyulmuşdur. Bu gün Azərbaycan neftini dünya bazarlarına çıxaran 3 ixrac neft kə-

məri var. Onların ən böyüyü Heydər Əliyevin adını daşıyan Bakı-Tbilisi-Ceyhan neft kəməridir. Bu illər ərzində Azərbaycanın neft infrastrukturu yeniləşdi, müasirləşdi. Azərbaycanda yeni, peşəkar mütəxəssislər yetişdi, fəhlələr yetişdi. Bizim birgə fəaliyyətimiz nəticəsində, xarici şirkətlərlə birlikdə gördüyümüz işlər nəticəsində bu sahəyə də böyük diqqət verildi. Bu imkandan, bugünkü fürsətdən istifadə edib, xüsusilə, xarici şirkətlərin fəaliyyətini vurğulamaq istəyirəm. bp şirkətinin rəhbərliyi ilə Azərbaycanda 1994-cü ildən fəaliyyət göstərən beynəlxalq konsorsiumun işini yüksək qiymətləndirirəm. bp şirkəti eyni zamanda, Bakı-Tbilisi-Ceyhan layihəsində aparıcı rol oynayır və bu şirkətin Azərbaycana verdiyi töhfələri biz çox yüksək qiymətləndirir və bunları təqdir edirik. Bu, bizə imkan verdi ki, Azərbaycan iqtisadi cəhətdən inkişaf etsin, neft amilindən məharətlə istifadə etsin.

Biz neft tarixini yaxşı bilirik. Müxtəlif ölkələrin təcrübəsini də öyrənmişik. Əfsuslar olsun ki, bəzi hallarda neft ölkəyə, xalqlara rifah deyil, çətinliklər gətirir, sosial ədalətsizlik, problemlər, gərginlik gətirir. Biz isə istəyirik ki, neft Azərbaycana sülh, inkişaf gətirsin, əməkdaşlıq gətirsin, xalqımızın rifah halı yaxşılaşsın. Əlbəttə ki, bütün görülən işlər bu məqsədi güdür və Azərbaycanda uzun illər ərzində fəaliyyət göstərən Dövlət Neft Fondunun işi bunun bariz nümunəsidir.

Bu gün mən xüsusilə Amerika Birləşmiş Ştatlarının bu məsələ ilə bağlı olan fəaliyyətini vurğulamaq istəyirəm. Biz Amerikanın dəstəyini bütün dövrlərdə hiss etmişik, ona arxalanmışıq və o dəstək bəzi məqamlarda həlledici rol oynamışdır. Həm "Azəri-Çıraq-Günəşli" neft yataqlarının işlənilməsində və həm də Bakı-Tbilisi-Ceyhan neft kəmərinin inşasında Amerika hökumətinin dəstəyi çox önəmli olmuşdur. Biz bunu çox yüksək qiymətləndiririk və buna görə Amerika hökumətinə minnətdarıq.

Bu işin ərsəyə gəlməsində beynəlxalq əməkdaşlıq yarandı: üç ölkə - Türkiyə, Gürcüstan, Azərbaycan, xarici neft şirkətləri, xarici maliyyə qurumları, yerli mütəxəssislər, neftçilər, fəhlələr, hüquqşünaslar. Bu işlərdə əməyi olan bütün insanlara mən Azərbaycan dövləti adından öz dərin minnətdarlığımı bildirirəm.

Bu kəmərin fəaliyyətə başlaması ilə Azərbaycanın qarşısında yeni üfüqlər açılır, yeni imkanlar açılır. Azərbaycan iqtisadi cəhətdən çox zəngin ölkəyə çevriləcəkdir. Ölkədə bütün sosial problemlər öz həllini tapacaqdır. Azərbaycan çox önəmli neft ixrac edən ölkəyə çevrilir. Əminəm ki, neftdən əldə olunan gəlirlərdən istifadə edilməklə Azərbaycanda bütün sosial məsələlər qısa müddət ərzində öz həllini tapacaq və Azərbaycan dünya iqtisadiyyatına daha da inamla inteqrasiya edəcəkdir.

Baxın, Bakı-Tbilisi-Ceyhan neft kəmərinin fəaliyyətə başlaması bölgədə gedən proseslərə nə qədər böyük təkan verdi. Bunun ardınca biz Bakı-Tbilisi-Ərzurum qaz kəmərinin istismarına çox yaxınıq. Bu layihə bir növ, Bakı-Tbilisi-Ceyhanın kölgəsində idi. Ancaq bu gün hamı görür ki, onun nə qədər böyük strateji əhəmiyyəti var. Nəzərə alsaq ki, xüsusilə indi dünyada və Avropada enerji təhlükəsizliyi məsələləri çox önəm daşıyır, onda görərik ki, Azərbaycan qazının Gürcüstana və Türkiyəyə gətirilməsinin çox böyük strateji əhəmiyyəti var.

Artıq biz yeni dövrə qədəm qoyuruq. Bəlkə də, bir neçə il bundan əvvəl zənn edirdik ki, Bakı-Tbilisi-Ceyhan neft kəmərinin tamamlanması ilə bizim əsas işlərimiz bitmiş olacaqdır. Amma həyat yerində durmur. Bakı-Tbilisi-Ceyhan kəmərinin tamamlanması,

sadəcə olaraq, bizim işimizin yeni mərhələsinin başlanması deməkdir. Bundan sonra Qazaxıstan nefti bu kəmər vasitəsilə dünya bazarlarına çıxarılacaqdır. Qaz ehtiyatları ilə zəngin olan Azərbaycan "Şahdəniz" qaz yatağından çıxarılan qazı Avropaya göndərəcəkdir. Digər önəmli layihələr, Bakı-Tbilisi-Ceyhanın ardınca gələn layihələr məhz Bakı-Tbilisi-Ceyhanın fəaliyyətə başlaması nəticəsində yaranır.

Bu, iqtisadi layihə deyil, sadəcə olaraq, texniki layihə deyil, halbuki, texniki cəhətdən, iqtisadi cəhətdən və siyasi cəhətdən bunun meydana gəlməsi çox böyük çətinliklərlə müşahidə olunurdu. Bakı-Tbilisi-Ceyhanın daha geniş mənası var. Artıq bu layihə regional çərçivədən çıxıb qlobal müstəviyə keçmişdir. Layihənin bu gün də dünya üçün böyük əhəmiyyəti var və gələcəkdə daha da artacaqdır. Belə olan halda, Azərbaycanın, Gürcüstanın, Türkiyənin də önəmi artacaqdır. Bu dəhlizdən istifadə edib başqa ölkələr də faydalana bilərlər. Belə olan halda, Azərbaycan həm neft-qaz hasil edən ölkə kimi, eyni zamanda, tranzit ölkə kimi bizim dostlarımızla bərabər fəaliyyətə başlayacaqdır. Yəni inanılmaz dərəcədə gözəl imkanlar açılır. Bütün bu imkanları möhkəmləndirmək, onlardan istifadə etmək üçün bölgədə təhlükəsizlik tədbirləri güclənməlidir. Mən əminəm ki, bu işdə Bakı-Tbilisi-Ceyhanın əhəmiyyəti daha da artacaqdır. Təhlükəsizlik tədbirləri, regional əməkdaşlıq, sülhün bərqərar olunması - bütün bunlar bölgə üçün lazımdır. Bölgənin inkişafı bundan sonra tam başqa formalarla zənginləşəcəkdir. Bu gün Azərbaycan, Türkiyə və Gürcüstan regional müstəvidə müttəfiq ölkələrdir. Bizim müttəfiqliyimiz artıq həyatda öz əksini tapıbdır. Bizim müttəfiqliyimiz bölgəyə təhlükəsizlik, sabitlik gətirir. Biz bunu istəyirik, sülh, əmin-amanlıq şəraitində yaşamaq istəyirik. İstəyirik ki, xalqlarımız rifah içərisində yaşasınlar, problemlər öz həllini tapsın və ölkələrimiz möhkəmlənsin. Hər üç ölkə bu layihənin həyata keçirilməsindən böyük faydalar götürəcəkdir. Bəlkə də, bu gün onların hamısını təsəvvür etmək mümkün deyildir. Amma vaxt keçdikcə, həyat keçdikcə biz bunların bariz nümunələrini açıq görəcəyik.

Qarşıda yeni məsələlər var, yeni layihələr var. Qars-Tbilisi-Bakı dəmir yolunun yaranması məsələsi artıq gündəlikdədir və biz bunun üzərində çox ciddi işləyirik. Bütövlükdə, qədim İpək Yolunun bərpası işində Bakı-Tbilisi-Ceyhan neft kəmərinin çox böyük əhəmiyyəti var. Bir sözlə, bu layihə artıq qlobal xarakter daşıyır və üç ölkənin səmərəli işbirliyi, əməkdaşlığı bunu mümkün etmişdir.

Mən bu fürsətdən istifadə edib bir daha demək istəyirəm ki, bizim həm Türkiyə, həm də Gürcüstanla ikitərəfli münasibətlərimiz ən yüksək zirvədədir. Bu münasibətlər qardaşlıq xarakteri daşıyır, xalqlarımızı bir-birinə daha da yaxınlaşdırır, belə nəhəng layihələrin həyata keçirilməsinə imkan yaradır. Çünki bu gün Azərbaycanda icra olunan layihələr dünyanın ən böyük enerji layihələridir. Dünyanın gələcəyi isə enerji mənbələri ilə bağlı olacaqdır. Artıq bunu hamı bilir və hamı görür ki, enerji təhlükəsizliyi ölkənin ümumi təhlükəsizliyinə çox böyük töhfə verir. Enerji müstəqilliyi ölkənin müstəqilliyini möhkəmləndirir.

Gürcüstan və Azərbaycan gənc müstəqil dövlətlərdir. Biz yalnız 15 il bundan əvvəl müstəqilliyimizi bərpa etmişik və bizim üçün müstəqillik ən yüksək, ən böyük nemətdir, ən böyük sərvətdir. Bakı-Tbilisi-Ceyhan bizim müstəqilliyimizi möhkəmləndirəcək, enerji müstəqilliyimizi təmin edəcəkdir. Belə olan halda, biz müstəqil siyasət apararaq, xalqlarımızın rifah halını yaxşılaşdıracağıq, milli maraqlarımızı daha da inamla

müdafiə edəcəyik. Ona görə Bakı-Tbilisi-Ceyhan layihəsinin çox geniş aspektləri var. Bu gün bunların hamısını sadalamaq çox vaxt aparar. Bir sözlə, bu, strateji əhəmiyyət daşıyan, ölkələrimizin müqəddəratını təmin edən, xoşbəxt gələcəyini təmin edən layihədir.

Bu gün mən çox xoşbəxtəm ki, buradayam. Ceyhan terminalına da Azərbaycanın ümummilli lideri Heydər Əliyevin adı verilmişdir. Bu, təsadüfi deyildir. Heydər Əliyevin adını həm Bakı-Tbilisi-Ceyhan, həm də Ceyhan terminalı daşıyır. Heydər Əliyev bu layihələrin təşəbbüskarı, onların memarı olmuşdur. Mən bu gün çox təəssüf edirəm ki, o, bu günləri görmədi. Allah ona bunu nəsib etmədi. Amma inanıram ki, onun ruhu bu gün bizimlədir. Bizimlə bərabər onun ruhu bu gün şaddır. Azərbaycan, Gürcüstan və Türkiyənin işbirliyi, qardaşlığı, əməkdaşlığı bundan sonra da möhkəmlənəcək və bizim bölgəyə sülh, sabitlik gətirəcəkdir.

Əziz dostlar, bu gözəl, tarixi hadisə münasibətilə sizin hamınızı bir daha ürəkdən təbrik edirəm, qardaş türk, gürcü və doğma Azərbaycan xalqlarına sülh, əmin-amanlıq, xoşbəxtlik arzulayıram. Sağ olun.

GÜRCÜSTAN PREZİDENTİ MİXAİL SAAKAŞVİLİNİN NİTQİ

- Hörmətli Prezident Sezər,

Hörmətli Prezident Əliyev,

Hörmətli Baş nazir Ərdoğan,

Hörmətli qonaqlar, xanımlar və cənablar!

Qaz layihəsi bizim ölkələrimiz üçün vacibdir. Çünki bu, təktərəfli əlaqələri sona çatdırdı və çoxtərəfli əlaqələrə yol açdı. Bizim siyasi vəziyyətimizin dəyişməsinə və beynəlxalq əlaqələrimizin inkişafına yol açdı. Artıq ölkələrin əlaqələri daha çox sülh və tərəfdaşlıq yolu ilə qurulur. Əlaqələrin heç bir şəkildə təzyiq və müharibə yolu ilə davam etdirilməsi mümkün deyildir. Mən xüsusən Sovetlər Birliyinin süqutundan sonra müstəqillik əldə etmiş ölkələrdəki, bu regionlardakı vəziyyətdən danışmaq istəyirəm. Mən heç vaxt Gürcüstanın dəhliz vəzifəsi daşıdığını və bu layihədə dəhliz olduğunu qəbul etmirəm. Çünki reallıqda biz burada təkcə əməkdaşlıqdan, çox güclü beynəlxalq şirkətlərlə əlaqədə ətraf mühitin qorunmasından və iqtisadi inkişafdan danışmırıq. Neft kəmərinin tikilməsi təkcə iqtisadiyyatın inkişafı mənasına gəlmir. Eyni zamanda, ölkəmizdə standartların, yeni ətraf mühiti qoruma mexanizminin qurulmasından, həyat standartlarının artırılmasından, habelə yeni enerji strategiyasının artıq həyata keçirilməsindən və ölkəmizdə artıq korrupsiyanın olmadığından danışa bilərəm. Bir il bundan əvvəl enerji sahəsində özəlləşdirmə apardıq və özəl sektora bu hüquqları verdikdən sonra ölkəmizdə daha az korrupsiya olmasına və daha çox bazar iqtisadiyyatı əlaqələrinin bərqərar edilməsinə nail olduq. Gürcüstan artıq bir postsovet ölkəsi deyil və olmayacaqdır. Biz artıq Qərb standartlarında işləyirik və Gürcüstan həm Qərb ölkələrinin, həm də, ələlxüsus, Türkiyənin ən böyük tərəfdaşlarından biridir.

Bildiyiniz kimi, Türkiyə Gürcüstanın artıq ən yaxın iqtisadi tərəfdaşıdır. Baş nazir Ərdoğan Gürcüstana səfər edərkən bizim investisiya mühitimizin inkişafına dair böyük la-

yihələrdən danışdı. Biz artıq Türkiyə ilə Gürcüstan arasında viza rejiminin olmadığını bəyan etdik. Gürcüstanda ən çox şəffaflığı olan sərhəd rejimi yaradılmışdır. Bunun əsasında yüksək səviyyədə dostluq mühiti qurduq. Türkiyə ilə Gürcüstan arasında fərqli layihələri həyata keçiririk. Batumi aeroportu Türkiyə şirkəti tərəfindən yenidən qurulur və noyabrda istifadəyə veriləcəkdir.

Ondan sonra bir çox iş adamı İstanbuldan Batumiyə rahat gəlib-gedəcək və hətta sərhədlərdən şəffaf şəkildə istifadə edə biləcəkdir.

Bu gün iki ölkə arasında texnoloji bilgilərin paylaşılmasını, özəl sektor nümayəndələrinin Gürcüstana daha çox cəlb edilməsini, ehtiyatlardan daha səmərəli istifadə olunmasını və Türkiyə ilə Gürcüstanın yeni bir iqtisadi əməkdaşlıq səviyyəsinə çıxdığını görürük. Yeni investisiyalar isə ölkəmizdə yeni iş yerlərinin açılmasına, iqtisadi və siyasi sabitliyə imkan yaradacaqdır. Eyni zamanda, qeyd etmək istəyirəm ki, zati-aliləri Türkiyə Prezidentinin dediyi kimi, iki ölkə arasındakı əməkdaşlıq, doğrudan da yeni bir mərhələyə çıxmışdır. Daha rahat nəqliyyat imkanları, daha çox investisiya və iqtisadi əlaqələr hər iki ölkənin tezliklə yeni, inkişaf etmiş iqtisadiyyata malik olmasına yol açmaqdadır.

Azərbaycan da artıq yeni iqtisadi əlaqələr mərhələsinə keçibdir. Biz fərqli mərhələlərdə fərqli çətinliklərlə üzləşdik. Bu çətinlikləri bir yerdə birgə səylərlə dəf etdik. Hazırda Qars-Axalkalaki-Tbilisi-Bakı dəmir yolunun inşasını yeni əməkdaşlıq mərhələsi kimi görürük. Axalkalaki bölgəsinə daha çox diqqət yetirilməsi, daha çox investisiya qoyuluşunun təmin edilməsi bölgəni tamamilə yeni səviyyəyə çıxaracaqdır. Biz Gürcüstan və Azərbaycan hazırda dünyada ən sürətlə inkişaf edən ölkələrik.

Mən öz təşəkkürlərimi lord Brauna, Devid Vudvorda bildirmək istəyirəm. Siz bilirsiniz ki, ilk növbədə, Azərbaycanın ümummilli lideri Heydər Əliyevin qətiyyəti BTC layihəsinin mümkünlüyünü göstərirdi. Onu da demək istəyirəm ki, burada gələcəyə baxışın olması da vacibdir və uzunmüddətli layihənin gerçəkləşməsi üçün inam lazımdır. Bu məsələləri inhisarçılıqla həll etmək çətin olacaq, mümkün olmayacaqdır. Burada alternativlər daha çox olmalıdır. İqtisadi inkişafa nail olmaq üçün çox fərqli yollar bu layihə kimi kağız üzərində işlənilməlidir. Çünki bütün bu amillər olmadan siz parlaq gələcəyi fikirləşə bilməzsiniz. Çünki biz hər şeydən əvvəl, sabitliyə, təhlükəsizliyə və yüksək rifaha nail olmaq istəyirik. Burada haqqında danışdığımız layihə, onun başa çatması bizə daha çox müstəqillik təmin edir. Bu, Ceyms Bond filmi deyildir. Sizin gördüyünüz bugünkü hadisə bir reallıqdır. Biz konfransda qazın Gürcüstanın, Türkiyənin fərqli bölgələrinə, Avropanın fərqli ölkələrinə çatdırılması haqqında danışacağıq. Bilirsiniz ki, bir zamanlar Bakı-Tbilisi-Ceyhan layihəsi olduğu kimi, qaz layihəsi də sıfırdan başlayırdı. Bir zamanlar bu danışıqlar Türkiyə ilə Azərbaycan arasında aparılırdısa, indi artıq dünya ölkələrinin də iştirakı ilə böyük beynəlxalq enerji layihələrindən söhbət edirik. Mən sizə təşəkkürlərimi bildirirəm və yeni uğurlar arzulayıram.

Sonra Türkiyə Prezidenti Əhməd Necdət Sezər nitq söylədi.

TÜRKİYƏ PREZİDENTİ ƏHMƏD NECDƏT SEZƏRİN NİTQİ

- Hörmətli prezidentlər,

Hörmətli Baş nazir və nazirlər,

Dəyərli qonaqlar!

Şərq və Qərb svilizasiyalarının kəsişdiyi ölkəmizə və Aralıq dənizinin parlayan ulduzu Ceyhan terminalına xoş gəlmisiniz. Bu gün burada əsrin layihəsi adlandırılan Bakı-Tbilisi-Ceyhan neft kəmərinin açılışı münasibətilə bir araya gəlmişik. Bu neft kəmərinin istifadəyə verilməsi ilə ölkəmizin Avropa, Asiya və Afrikanın kəsişdiyi bölgədə əsrlər boyu oynadığı mühüm rol bu gün daha parlaq şəkildə tarix səhnəsinə çıxmaqdadır. Enerji bütün sivilizasiya tarixi boyu insan oğlunun əsas ehtiyacları sırasında olmuş, fərdlərin enerjiyə olan bağlılığı enerjini qlobal səviyyəyə çıxarmışdır. Texnoloji inkişaf və qloballaşmanın sürətlənməsi enerji məsələsini yaşadığımız XXI əsrdə daha mühüm yerə gətirmiş, enerji ilə əlaqədar problemlərin beynəlxalq məsələlər arasında ön plana çıxması ilə nəticələnmişdir. Bu gedişat hər bir ölkənin enerjiyə daha böyük əhəmiyyət verməsinə, enerjinin milli müstəqillik və təhlükəsizliyin əsas amillərindən biri olaraq qəbul edilməsinə şərait yaratmışdır.

Dəyərli qonaqlar, ölkəmiz neft və qaz ehtiyatlarına görə dünyanın yeni strateji bölgələrindən biri olan Avrasiyanın ortasında, enerji nəqli yollarının kəsişdiyi nöqtədədir. Bu səbəbdən yaranmaqda olan yeni qlobal enerji xəritəsinin mərkəzindədir. Türkiyə coğrafi mövqeyinin verdiyi bu məsuliyyəti dərk edərək, qonşuları və ortaqları ilə zəruri enerji və nəqliyyat dəhlizlərini yaratmaqla Avropa və Asiyanın bütünləşməsi, regional sabitlik və tərəqqi üçün yeni şərtlərin yaradılması məqsədini güdür. Türkiyənin enerji strategiyası öz milli planlaşdırması, qlobal hadisələrin istiqamət verdiyi dünya enerji ehtiyacları əsas götürülərək yaradılır. Bu çərçivədə Türkiyənin Şərq-Qərb və Şimal-Cənub xətlərində keçid nöqtəsi olması, Ceyhan terminalının enerjidaşıyıcıları ticarəti mərkəzinə çevrilməsi, Bakı-Tbilisi-Ceyhan neft kəmərinin ardınca Samsun-Ceyhan neft kəməri, Bakı-Tbilisi-Ərzurum və transxəzər qaz kəməri layihələrinin həyata keçirilməsi nəzərdə tutulur. Türkiyə bu nöqtədən hərəkət edərək, Şərq-Qərb enerji dəhlizinin gerçəkləşdirilməsinə təşəbbüs göstərərkən, eyni zamanda, Xəzər hövzəsi və Yaxın Şərqin təbii qaz ehtiyatlarını Avropaya daşıyacaq layihələrin həyata keçirilməsində ön sıralardadır.

Beləliklə də yaxın müttəfiqimiz olan Avropa Birliyinin təbii qazla təmin edilməsinə töhfə verməkdədir.

Şərq-Qərb enerji dəhlizini təşkil edən layihələr bölgədə təhlükəsizlik və sülhün, iqtisadi inkişafın təmin edilməsi yolunda strateji addımlardır. Bu layihələr bölgə ölkələrinin biri-birləri ilə olan əlaqələri ilə yanaşı, Qərb dünyası ilə əlaqələrini də gücləndirir. Bu cəhət iqtisadi fayda ilə yanaşı, layihələrin daha böyük əhəmiyyətə malik olduğunu göstərir. Bu yanaşma çərçivəsində xüsusi yeri olan Bakı-Tbilisi-Ceyhan neft kəməri layihəsinin həyata keçirilməsinə iştirakçı ölkələr və xətti işlədəcək şirkətlərlə birlikdə ortaq və sağlam bir istək, inanc və qətiyyətlə göstərilən səylər nəticəsində nail olmuşuq. Bu layihənin həyata keçirilməsində nümayiş etdirilən əməkdaşlıq mədəniyyətinin yeni layihələrə təminat yaratdığını qürurla qeyd etmək istərdim. Bu gün dünya neft bazarları

baxımından əvəzsiz bir dəyərə malik olan Bakı-Tbilisi-Ceyhan neft kəmərinin açılışı münasibətilə yığışdığımız Ceyhan terminalının gələcək illərdə daha mühüm rol oynayacağına inanırıq. 28 ildir ki, İraq neftini dünya bazarlarına çıxaran bu terminal Bakı-Tbilisi-Ceyhan neft kəmərinin istifadəyə verilməsi ilə artıq Xəzər neftinə də dünya bazarlarını açan qapı vəzifəsini yerinə yetirəcəkdir. Ceyhan terminalı Samsun-Ceyhan neft kəmərinin çəkilməsi ilə böyük bir enerji və ticarət mərkəzinə çevriləcəkdir.

Hörmətli prezidentlər, dəyərli iştirakçılar. Enerji məsələsinin beynəlxalq siyasətlə sıx bağlılığı qarşıdakı dövrdə getdikcə artacaqdır. Bu səbəbdən hasilatçı, tranzit və istehlakçı ölkələr arasında daimi dialoq və əməkdaşlığın əhəmiyyəti daha da artmışdır. Dünyada enerji təhlükəsizliyinə töhfə verən bu neft kəmərinin açılışında ən mühüm hasilatçı və istehlakçı ölkə nümayəndələrinin bu gün burada bir arada olması sevindiricidir. Bu sayılıb-seçilmiş nümayəndələrin iştirakı enerji sahəsində ortaq problemlərin həlli yolunda əməkdaşlıq və dialoqa verilən əhəmiyyətin təzahürüdür. Bu cəhəti ilə Bakı-Tbilisi-Ceyhan neft kəməri bölgə ölkələri arasında əməkdaşlıq potensialını və regional əməkdaşlıq imkanlarından istifadə üçün göstərilən səylərin konkret nəticələrini göstərir. Tarixdən gələn köklü dərin əlaqələrimizin olduğu Qafqazın da sülh, sabitlik və rifah dolu günlərə qovuşması ən böyük arzumuzdur. Türkiyə, Azərbaycan və Gürcüstan arasında nümunəvi bir əməkdaşlıq modeli olan Bakı-Tbilisi-Ceyhan neft kəmərinin açılışı ilə Cənubi Qafqaz bölgəsində iqtisadi və sosial inkişafın sürətlənməsini gözləyirik. Bir müddət əvvəl Qazaxıstanın Bakı-Tbilisi-Ceyhan neft kəmərinə qoşulmasına dair sazişin Prezident hörmətli İlham Əliyev və Prezident hörmətli Nursultan Nazarbayev tərəfindən imzalanmasından da xoşbəxtlik hissi keçirdik.

Qazaxıstan neftinin Azərbaycan nefti ilə birlikdə Bakı-Tbilisi-Ceyhan vasitəsilə Aralıq dənizinə və dünya bazarlarına təhlükəsiz və əlverişli şəkildə çatdırılması Şərq-Qərb enerji dəhlizinin güclənməsinə, bölgədə əməkdaşlıq və qarşılıqlı etimadın daha da genişlənməsinə əlavə töhfə verəcəkdir. Türkiyə Qara dənizdən Qafqaza və Yaxın Şərqə qədər uzanan bölgədə müsbət istiqamətdəki dəyişiklikləri stimullaşdırmaqla, gərginlik və qarşıdurmanın əvəzində, əməkdaşlığa şərait yaradan bir ab-havanın yaranmasını istəyir. Bu çərçivədə regional əməkdaşlığı etimad artıran bir tədbir kimi görür və onun qarşılıqlı anlaşmanın möhkəmlənməsinə müsbət təsir göstərdiyinə inanır. Qlobal səviyyədə sülh, sabitlik və təhlükəsizliyə töhfə verən, eyni zamanda, bölgəsində müsbət dəyişiklikləri təşviq edən və əməkdaşlıq üçün etibarlı bir tərəfdaş olan ölkəmiz böyük öndər Mustafa Kamal Atatürkün müəyyən etdiyi prinsiplər çərçivəsində ikitərəfli və regional əlaqələrdə bəşəri dəyərlər əsasında siyasi, iqtisadi və sosial inkişaf istiqamətində səylərini davam etdirir. Bu səylər Şərq-Qərb və Şimal-Cənub müstəvilərində mühüm rol oynayan ölkəmiz üçün prioritet vəzifədir.

Dəyərli qonaqlar, bildiyiniz kimi, son günlərdə Ceyhana heç də uzaq olmayan bir bölgədə, Yaxın Şərqdə bütün dünyanı narahat edən mənfi hadisələr cərəyan etməkdədir. Mən bu gün bütün əlaqədar tərəfləri içində olduqları müharibə vəziyyətini unudaraq, diqqətlərini, heç olmasa, bir neçə dəqiqəlik buraya bizləri bir araya gətirən bu böyük əməkdaşlığa çevirməyə və bununla da regional sülh və sabitliyin nələrə qadir olduğunu qiymətləndirməyə dəvət edirəm. Bu fürsətdən istifadə edərək, beynəlxalq ictimaiyyətin çağırışlarına ürəkdən qoşulduğumu vurğulamaq istərdim.

Hörmətli Prezidentlər, hörmətli Baş nazir, nazirlər və dəyərli qonaqlar! Uzaqgörən insanların böyük zəhmət və səylərinin məhsulu olan beynəlxalq əməkdaşlığın, inam və qətiyyətin ən uğurlu nümunələrindən birini təşkil edən Bakı-Tbilisi-Ceyhan neft kəmərinin açılışı münasibətilə sizləri ölkəmizdə qəbul etməkdən xoşbəxtlik hissi keçiririk. Bu layihənin həyata keçirilməsinə rəhbərlik edən liderlərdən artıq aramızda olmayan Azərbaycan Prezidenti Heydər Əliyevi rəhmətlə yad edirəm. Bu şərəfli işdə əməyi olan bütün səlahiyyətli şəxslərə, bilik, təcrübə və bacarıqları ilə layihə və tikinti işlərində iştirak edən şirkətlərə, istedad və alın tərlərini əsirgəməyən mühəndis və fəhlələrə, kəmərin təhlükəsizliyini təmin edən əməkdaşlara türk milləti adından təşəkkür edirəm. Hamınıza əmin-amanlıq arzulayıram.

Sonra Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəməri layihəsində iştirak edən şirkətlərin təmsilçiləri kəmərin rəmzi maketinin yanına dəvət olundular. Onlar rəmzi borularla kəmərin iki qolunu birləşdirdilər.

Daha sonra Azərbaycan Prezidenti İlham Əliyev, Gürcüstan Prezidenti Mixail Saakaşvili, Türkiyə Prezidenti Əhməd Necdət Sezər, Baş nazir Rəcəb Tayyib Ərdoğan və bp şirkətinin prezidenti lord Con Braun dəvət olunaraq, rəmzi borularla kəməri tam birləşdirdilər.

Açılış mərasimindən sonra konsert oldu.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ TÜRKİYƏNİN BAŞ NAZİRİ RƏCƏB TAYYİB ƏRDOĞANIN GÖRÜŞÜ

Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin təntənəli açılış mərasimi başa çatdıqdan sonra Azərbaycan Prezidenti İlham Əliyevin və Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğanın görüşü olmuşdur.

Görüşdə ölkələrimiz arasında dostluq və qardaşlıq münasibətlərinin durmadan inkişaf etdiyi, Bakı-Tbilisi-Ceyhan neft kəmərinin açılış mərasiminin yüksək səviyyədə təşkil olunduğu və keçirildiyi bildirildi, gələcəkdə bir sıra mühüm iqtisadi layihələrin uğurla reallaşacağı əminliklə vurğulandı.

Söhbət zamanı qarşılıqlı maraq doğuran məsələlər barədə fikir mübadiləsi aparıldı.

Sonra Azərbaycan Prezidenti İlham Əliyev Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğanla birlikdə üzərində ulu öndər Heydər Əliyevin iri portreti olan və "Heydər Əliyev adına Ceyhan terminalı" sözləri yazılmış lövhənin önündə xatirə şəkli çəkdirdilər.

"TÜRKİYƏ-AZƏRBAYCAN QARDAŞLIĞI PARKI"NIN TƏNTƏNƏLİ AÇILIŞI

İyulun 13-də Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğan Ceyhan şəhərində ulu öndər Heydər Əliyevin adını daşıyan "Türkiyə-Azərbaycan qardaşlığı parkı"nın təntənəli açılışında iştirak etmişlər.

Dövlətimizin başçısını və dost ölkənin Baş nazirini buraya toplaşan minlərlə sakin böyük hörmət və hərarətlə, gül-çiçəklə qarşıladı. Ətraf binada türk dünyasının dahi şəxsiyyətləri Atatürkün və Heydər Əliyevin portretləri, Azərbaycanın və Türkiyənin dövlət bayraqları asılmışdı. Azərbaycan Prezidentini salamlayan, hər iki qardaş ölkənin birliyini vurğulayan şüarlar diqqəti cəlb edirdi.

Ceyhan şəhərinin mərkəzi küçəsində yerləşən bu istirahət guşəsi müasirliyi, gözəlliyi və sakinlərin asudə vaxtlarını səmərəli keçirməsi üçün yaradılan şəraiti ilə göz oxşayır. Parkda ulu öndərlər Atatürkün və Heydər Əliyevin abidələri ucaldılmış, heykəllərin arxasındakı lövhədə isə Türkiyənin və Azərbaycanın xəritələrinin üzərində iki dost, qardaş ölkənin qədimliyini əks etdirən tarix-mədəniyyət abidələrinin şəkilləri, Atatürkün və Heydər Əliyevin "Azərbaycanın kədəri bizim kədərimiz, sevinci bizim sevincimizdir", "Biz bir millət, iki dövlətik" müdrik kəlamları yazılmışdır. Abidə kompleksi Azərbaycan və Türkiyə memarları və mütəxəssisləri tərəfindən hazırlanmışdır.

Prezident İlham Əliyev və Baş nazir Rəcəb Tayyib Ərdoğan türk dünyasının dahi şəxsiyyətləri Mustafa Kamal Atatürkün və Heydər Əliyevin abidələri önünə gül dəstələri qoydular, kompleksi seyr etdilər.

Mərasimi Ceyhan bələdiyyəsinin başçısı HÜSEYN SÖZLÜ açaraq dedi:

-Qardaş Azərbaycanın çox hörmətli Prezidenti İlham Əliyev!

Türkiyə Cümhuriyyətinin hörmətli Baş naziri!

Hörmətli nazirlər, millət vəkilləri, valilər!

Hörmətli qonaqlar, sevimli ceyhanlılar!

Bu gün Bakı-Tbilis-Ceyhan boru xəttinin açılışı münasibətilə tarixi bir günü yaşayırıq. Biz, dəyərli həmərvətənlərimizin arzusu ilə gerçəkləşdirdiyimiz "Türkiyə-Azərbaycan qardaşlığı parkı"nda türk millətinin iki dəyərli övladının - ulu öndərimiz, qurucumuz Atatürkün və Azərbaycanın ulu öndəri, qurucusu Heydər Əliyevin abidələrini də ziyarət edərək, çox şərəfli bir günü qeyd edirik. Mən bütün qonaqlarımza bir daha "Xoş gəlmisiniz!" deyir, dərin sevgi və hörmətimi bildirirəm.

Bu tarixi günü yaşayarkən, həqiqətən də, çox böyük həyəcan içindəyik. Eyni dili danışdığımız, eyni kökdən gəldiyimiz, eyni mədəniyyətin övladları olduğumuz Azərbaycanın möhtərəm Prezidentini bir daha salamlayır və böyük məmnuniyyətlə sözü ona verirəm.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ÇIXIŞI

-Əziz dostum, qardaşım Rəcəb Tayyib Ərdoğan!

Əziz bacılar və qardaşlar!

Mən sizin hamınızı ürəkdən salamlayıram və bütün türk xalqına öz dərin hörmət və məhəbbətimi ifadə edirəm.

"Türkiyə-Azərbaycan qardaşlığı parkı" iki ölkə, iki xalq arasında olan münasibətləri əks etdirir. Bizim tariximiz, müştərək köklərimiz və bizim bu günümüz - bütün bunlar bir-biri ilə sıx bağlıdır. Türk və Azərbaycan xalqları əsrlər boyu bir-birinə çox sıx bağlı olmuşlar. Ancaq tarixin hökmünə görə, illər ərzində bir-birindən uzaq düşmüşlər. Yal-

nız Azərbaycan öz dövlət müstəqilliyini bərpa etdikdən sonra biz yenidən bir-birimizə qovuşduq, bir-birimizlə yenidən təmasda oluruq. Bu gün bizim birliyimiz, bir-birimizə bağlılığımız həm xalqlarımız, dövlətlərimiz üçün və həm də bütün bölgə üçün çox böyük əhəmiyyət kəsb edir.

Bu gün açılışında iştirak etdiyimiz Bakı-Tbilisi-Ceyhan boru xəttinin ərsəyə gəlməsi də iki xalqın, iki ölkənin birgə fəaliyyəti nəticəsində mümkün olmuşdur. Bizim gücümüz birliyimizdədir. Bu gün biz çox tarixi gün yaşadıq. Əsrlər boyu Azərbaycan xalqı və türk xalqı birlikdə yaşamağa meyil göstərmişdir. Bu gün biz bunu yaşayırıq. Bu gün bizim birgə fəaliyyətimizdən dünyada gedən proseslərə də təsir payı düşür. Bu gün bu gözəl gündə sizinlə bərabər olmağımdan çox böyük xoşbəxtlik hissi duyuram.

Bu parkda iki ulu insanın, türk dünyasının öndərlərinin heykəlləri qoyulmuşdur. Mustafa Kamal Atatürk, ulu öndərimiz müasir Türkiyənin qurucusudur, Türkiyənin xilaskarıdır və bu gün müasir Türkiyənin çox möhkəm inkişafı məhz Mustafa Kamal Atatürkün fəaliyyəti nəticəsində mümkün olmuşdur.

Ulu öndər Heydər Əliyev 1993-cü ildə Azərbaycana hakimiyyətə gələndə Azərbaycan faktik olaraq parçalanma ərəfəsində idi. Azərbaycan çox pis duruma düşmüşdü və ölkənin müqəddəratı çox qeyri-müəyyən idi. Onun fəaliyyəti nəticəsində Azərbaycan toparlandı, öz müstəqilliyini qoruyub saxlaya bildi və bu gün uğurla inkişaf edən ölkədir.

Bu gün Türkiyə və Azərbaycan dünyada öz mövqelərini möhkəmləndirirlər. Türkiyə və Azərbaycan iqtisadi baxımdan öz imkanlarını artırırlar. Bizim birgə fəaliyyətimiz bizə fayda gətirir, xalqlarımıza fayda gətirir, bölgəyə sülh, sabitlik gətirir və bu gün bu gözəl gündə sizinlə bərabər olmaq mənim üçün çox böyük şərəf və xoşbəxtlikdir.

Əziz, doğma bacı-qardaşlarım, bu əziz gündə sizi bir daha ürəkdən salamlayıram. Hər bir Türkiyə vətəndaşına, xoşbəxtlik, səadət, cansağlığı, yeni-yeni uğurlar arzulayıram.

Yaşasın Türkiyə, yaşasın Azərbaycan!

TÜRKİYƏNİN BAŞ NAZİRİ RƏCƏB TAYYİB ƏRDOĞANIN ÇIXIŞI

-Dəyərli qardaşım, Azərbaycan Prezidenti hörmətli Əliyev!

Dəyərli ceyhanlı qardaşlarım!

Hörmətli xanımlar və cənablar!

Sizi belə gözəl bir açılış mərasimində ən xoş duyğularla salamlayıram.

Bu gün iki mühüm mərasimi gerçəkləşdirdik. Bunlardan biri Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft boru xəttinin açılışı idi ki, bunun da memarı mərhum Heydər Əliyev olmuşdur. Məhz Ceyhandakı terminal Heydər Əliyev adına terminal kimi tarixə düşdü və bununla bu bölgə sülhə, qardaşlığa, dostluğa bir mesaj verdi. 1994-cü ildən bu günə qədər atılan addımlar, şükürlər olsun ki, son nöqtəsinə çatdı. İyunun 4-dən etibarən neft daşınmağa başladı və bu gün Ceyhanda rəsmi mərasimi gerçəkləşdirdik.

Hazırda ikinci mərasimi keçirir, "Türkiyə-Azərbaycan qardaşlığı parkı"nın açılışını edirik. Xüsusilə Ceyhanın bələdiyyə başçısına və bu işdə əməyi olan bütün insanlara təşəkkür edirəm.

Biz mərhum Heydər Əliyevin ifadə etdiyi kimi, "Bir millət, iki dövlət" olaraq gələcəyə baxırıq. Eyni şəkildə tərəqqi edirik və hər ötən gündə bu inkişaf daha da irəliyə gedir və gedəcəkdir. İnanıram ki, hazırda bütün türkdilli cümhuriyyətlərdə olan inkişafın önəmli olması sentyabr və oktyabr aylarında Türkiyədə keçirəcəyimiz tədbirlərdə, çıxışlarda bir daha nümayiş etdiriləcəkdir. Mən xüsusilə bu sahədə atasının yolunu uğurla davam etdirməsinə görə burada dəyərli qardaşıma ölkəm, millətim adından və öz adımdan çox təşəkkür edirəm.

Mən cümhuriyyətimizin banısı Mustafa Kamal Atatürkü, eyni zamanda, müstəqil Azərbaycanın banisi Heydər Əliyevi bir daha rəhmətlə anır, bu parkın açılışında əməyi olanlara təşəkkür edir, qardaşım İlham Əliyevə də ölkəmizə bir daha "Xoş gəlmisiniz!" deyirəm.

Sonra Azərbaycan Prezidenti və Türkiyənin Baş naziri parkı gəzərək, bu istirahət guşəsi ilə tanış oldular.

Azərbaycan və Türkiyə qardaşlığına, cəcə də ulu öndərlər Atatürkə və Heydər Əliyevə həsr olunmuş mahnıları, milli musiqi nömrələrini böyük maraqla dinləyən ceyhanlılar bu parkın xalqlarımızın əbədi dostluğunun nümunəsi olduğunu xüsusi vurğuladılar.

AZƏRBAYCAN İLƏ YAPONİYA ARASINDA ƏLAQƏLƏRİN İNKİŞAFI MƏSƏLƏLƏRİ MÜZAKİRƏ OLUNMUŞDUR

Azərbaycan Respublikası Xarici İşlər naziri Elmar Məmmədyarov iyulun 14-də Yaponiya xarici işlər nazirinin müavini xanım Akiko Yamanaka ilə görüşmüşdür.

Azərbaycan Prezidenti İlham Əliyevin bu ilin martında Yaponiyaya rəsmi səfərinin ölkələrimiz arasında əlaqələrin daha da möhkəmlənməsində önəmli rol oynadığını diqqətə çatdıran qonaq, bu səfər çərçivəsində imzalanmış müqavilələrin dövlətlərimizin əməkdaşlığının daha da inkişaf etdirilməsində əhəmiyyətini vurğulamışdır. Yaponiyanın Azərbaycan ilə dostluq münasibətlərinə xüsusi diqqət yetirdiyini qeyd edən xanım Akiko respublikamızda demokratiyanın və azad bazar iqtisadiyyatının inkişafı istiqamətində görülən işləri yüksək qiymətləndirmiş, Yaponiyanın Azərbaycanda əczaçılığın, kondisioner istehsalının, kiçik və orta sahibkarlığın inkişaf etdirilməsi məsələlərində əməkdaşlığa hazır olduğunu diqqətə çatdırmışdır. Yaponiyalı diplomat Azərbaycanın iqtisadi qüdrətinin möhkəmlənməsinin Cənubi Qafqaz regionunda sülhə və sabitliyə töhfə verəcəyinə inandığını bildirmiş, ölkəsinin Azərbaycan-Ermənistan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllini dəstəklədiyini vurğulamışdır.

Nazir Elmar Məmmədyarov da dövlətimizin başçısının Yaponiyaya səfərinin və bu səfər zamanı qəbul olunmuş birgə bəyanatın mühüm əhəmiyyətini vurğulayaraq, ölkələrimizin BMT çərçivəsində əməkdaşlığını yüksək qiymətləndirmişdir. Birləşmiş Millətlər Təşkilatında islahatların vacibliyini diqqətə çatdıran nazir, Təhlükəsizlik Şurasının genişləndiriləcəyi təqdirdə, Yaponiyanın yeni daimi üzv kimi dünyada sülhün və əmin-amanlığın möhkəmlənməsində xüsusi rol oynayacağına əminliyini ifadə etmişdir.

Ermənistanın Azərbaycana qarşı apardığı təcavüz və etnik təmizləmə siyasətinin bölgə-

də sabitliyə böyük əngəl olduğunu qonağın diqqətinə çatdıran nazir E.Məmmədyarov, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllinin mərhələli proses olduğunu bildirmişdir. Nazir demişdir ki, əvvəlcə torpaqlar işğaldan azad edilməli, qaçqın və məcburi köçkünlər öz yurdlarına qayıtmalı, onların təhlükəsizliyi və rifahı təmin olunmalıdır. Məhz bundan sonra Dağlıq Qarabağın Azərbaycanın ərazi bütövlüyü daxilində statusu müəyyənləşdirilə bilər.

Azərbaycanın bir sıra regional layihələri həyata keçirdiyini vurğulayan nazir demişdir ki, onlardan biri - Bakı-Tbilisi-Ceyhan neft kəməri artıq istismara verilmişdir və bu, ölkəmizin ən böyük uğurudur.

Xanım A.Yamanaka ikitərəfli əməkdaşlığın digər istiqamətlərinə toxunaraq, kənd təsərrüfatı, turizm, təhsil sahəsində də əlaqələrin inkişafı üçün geniş perspektivlərin olduğunu nəzərə çatdırmışdır.

Qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi ilə başa çatan görüşdən sonra mətbuat konfransı keçirilmiş, jurnalistləri maraqlandıran suallar ətraflı cavablandırılmışdır.

XARİCİ İŞLƏR NAZİRİ AVROPA KOMİSSİYASININ XARİCİ ƏLAQƏLƏR ÜZRƏ BAŞ DİREKTORUNUN MÜAVİNİ FOKİON FOTİADİSİ QƏBUL ETMİŞDİR

Cari ilin iyul ayının 17-də Azərbaycan Respublikasının Xarici İşlər Naziri Elmar Məmmədyarov Avropa Komissiyasının Xarici Əlaqələr üzrə Baş Direktorluğunun Baş Direktor müavini Fokion Fotiadisin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Səmimi qəbula görə təşəkkürünü bildirən cənab Fotiadis Azərbaycanın Avropa Birliyi ilə inteqrasiya siyasətini yüksək qiymətləndirmiş və əldə edilmiş nailiyyətlərin hər iki tərəfin maraqlarına xidmət etdiyini söyləmişdir.

Görüşdə Azərbaycan və Avropa İttifaqı arasında müzakirə olunan Avropa Qonşuluq Siyasəti çərçivəsində Fəaliyyət Planı üzrə danışıqların gedişi, ölkəmizin Avropa Birliyi ilə sıx əməkdaşlığı məsələləri ətrafında qarşılıqlı fikir mübadiləsi aparılmışdır. Tərəflər Fəaliyyət Planının prinsipcə razılaşdırılmış hesab edilə biləcəyini məmnunluqla qeyd etmişlər.

Öz növbəsində, Nazir Elmar Məmmədayrov regionda həyata keçirilən bir sıra irimiqyaslı iqtisadi layihələrdən söz açaraq Azərbaycanın Avropa məkanına inteqrasiya məsələsinin ölkəmizin xarici siyasətinin prioritet istiqamətlərindən biri olduğunu qeyd etmişdir. Eyni zamanda, Nazir mədəniyyət, təhsil və digər sahələrdə əməkdaşlığın vacibliyini vurğulamışdır.

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həll olunması istiqamətində aparılan danışıqlara toxunan E. Məmmədyarov münaqişənin sülh yolu ilə həll edilməsinin və bu istiqamətdə dünya ictimaiyyətinin, o cümlədən də Avropa Birliyinin səylərinin fəallaşdırmasının əhəmiyyətini bildirmişdir.

AZƏRBAYCAN-AVROPA İTTİFAQI MÜNASİBƏTLƏRİNƏ DAİR FİKİR MÜBADİLƏSİ APARILMIŞDIR

Xarici İşlər naziri E.Məmmədyarov iyulun 20-də Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Peter Semneboyin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşmüşdür.

Görüşdə Azərbaycan-Avropa İttifaqı münasibətlərinin hazırkı durumuna, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllinə dair danışıqlar prosesinə, regional münasibətlərə, bölgədə həyata keçirilən irimiqyaslı enerji və nəqliyyat layihələrinə dair ətraflı fikir mübadiləsi aparılmışdır.

Azərbaycan-Avropa İttifaqı münasibətləri ilə bağlı müzakirələrdə qurumun yeni qonşuluq siyasəti çərçivəsində Azərbaycan üzrə Fəaliyyət Planına dair danışıqlar prosesi, xüsusilə də enerji məsələləri sahəsində əməkdaşlıq imkanları diqqət mərkəzində olmuşdur.

Ölkəmizin təkcə enerji ehtiyatlarının mənbəyi deyil, eyni zamanda onun tranziti qismində çıxış etdiyini diqqətə çatdıran nazir E.Məmmədyarov, Avropa bazarlarına çıxışın dövlət siyasətində prioritet məsələ olduğunu diqqətə çatdırmış, bunun milli təhlükəsizlik baxımından böyük əhəmiyyət kəsb etdiyini bildirmişdir.

Görüşdə, həmçinin dünyada enerji təhlükəsizliyi məsələlərinə toxunulmuş, "Səkkizlər qrupu"nun qlobal enerji təhlükəsizliyi problemlərinə həsr olunmuş yekun sənədə dəstək ifadə edilmişdir.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllinə yönəlmiş danışıqlardan söz açan P.Semneboy, qarşılıqlı etimad təbirlərinin həyata keçirilməsi ilə tezliklə sülhə nail olunacağına ümidvar olduğunu bildirmişdir.

Azərbaycan tərəfinin danışıqların Praqa prosesi çərçivəsində davam etdirilməsinə hazır olduğunu bildirən nazir, işğal edilmiş Azərbaycan ərazilərinin boşaldılması, qaçqın və məcburi köçkünlərin öz doğma yurdlarına qaytarılması və bu ərazilərdə yenidənqurma işlərinin həyata keçirilməsi ilə bağlı məsələlərdə Ermənistan tərəfinin tutduğu qeyri-konstruktiv mövqeni qonaqların diqqətinə çatdırmışdır. Nazir işğal edilmiş ərazilərdə törədilən kütləvi yanğınları ekoloji fəlakət adlandıraraq demişdir ki, bu yanğınlar Azərbaycan tərəfinin köməyi və ya ATƏT-in vasitəçiliyi ilə aradan qaldırılarsa, qarşılıqlı etimad tədbirlərinə böyük töhfə verilmiş olar.

P.Semneboy məsələni Brüsseldə qaldıracağına söz verərək, yanğınların tezliklə dayandırılmasının zəruriliyini bildirmişdir.

Görüşdə qarşılıqlı maraq kəsb edən bir sıra digər məsələlər ətrafında da fikir mübadiləsi aparılmışdır.

XARİCİ İŞLƏR NAZİRLİYİNİN MƏTBUAT MƏRKƏZİNİN MƏLUMATI

Azərbaycan Respublikası 15-17 iyul 2006-cı ildə Sankt-Peterburqda keçirilmiş "Səkkizlər qrupu"nun Sammitinin yekunlarına dair Qlobal enerji təhlükəsizliyi problemlərinə həsr olunmuş sənədi alqışlayır.

Sözügedən sənəddə əksini tapmış "Qlobal enerji təhlükəsizliyi" fəaliyyət planı dünya enerji təhlükəsizliyi sahəsində bir çox məsələlərin həllinə imkan yaradan, bir növ strateji proqramın konstruktiv və vacib mexanizmidir. Bazarlara səmərəli daxil olmanın təmin edilməsi, enerji daşıyıcılarının, enerji mənbələri, nəqliyyat marşrutları və enerji daşıyıcılarının nəqli vasitələrinə təklif və tələbatın diversifikasiyası, ekoloji təmiz energetika texnologiyalarının tətbiqi və mübadiləsi üzrə müddəalar xüsusi əhəmiyyət kəsb edir. Azərbaycan "Səkkizlər qrupu" ölkələrinin dünya ölkələri xalqlarının həyat keyfiyyətinin yaxşılaşması üçün mühüm əhəmiyyəti olan effektiv, etibarlı və ekoloji təhlükəsiz enerji təminatınla təmin edilməsi üzrə öhdəliklərini xüsusilə alqışlayır.

Azərbaycan qarşılıqlı asılılığın artması şəraitində bütün maraqlı tərəflər arasında tərəfdaşlıq münasibətlərinin inkişaf etdirilməsinin zəruriliyi barədə "Səkkizlər qrupu" iştirakçılarının fikri ilə həmrəydir. Bununla əlaqədar, Azərbaycan Xəzər dənizində karbohidrogenlərin istehsalının artırılmasında, onların hasilatı və istehsalı sisteminin və dünya səviyyəli nəqliyyat infrastrukturunu, xüsusilə Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan neft boru kəmərinin yaradılmasında əldə olunmuş müstəsna nailiyyətin əhəmiyyətini vurğulayır. Sammitdə enerji təhlükəsizliyi məsələlərinin müzakirəsi Şərq-Qərb enerji dəhlizi çərçivəsində Xəzər dənizinin neft ehtiyatlarının inkişafı və dünya bazarlarına səmərəli nəql olunmasında strateji rol oynayan, həmçinin, iqtisadi artım, regional sabitlik və beynəlxalq enerji təhlükəsizliyi üçün möhkəm zəmin yaradan neft boru kəmərinin istismara verilməsi mərasimi ilə praktiki olaraq üst-üstə düşmüşdür. Azərbaycan, həmçinin, Şərq-Qərb enerji dəhlizinin daha da möhkəmlənməsi və genişləndirilməsinə öz sadiqliyini ifadə edir və öz tərəfdaşları ilə birlikdə Cənubi Qafqaz qaz boru kəmərinin (Bakı-Tbilisi-Ərzurum) müvəffəqiyyətlə başa çatmasını gözləyir, yaxın gələcəkdə isə Bakı-Tbilisi-Axalkalaki-Qars dəmiryolunun istismara verilməsi enerji daşıyıcılarının həmçinin bu marşrutla da nəqli üçün yeni imkanlar açacaqdır.

Azərbaycan "Səkkizlər qrupu" ölkələrinin çağırışında ifadə edilmiş birgə səylərə qoşulur və şəffaflığın artırılması, enerji bazarlarının gələcəyinin müəyyən edilməsi və qlobal sabitliyinin təmin olunması, enerji sektorunda sərmayə mühitinin yaxşılaşdırılması, həyati vacib energetika infrastrukturun fiziki təhlükəsizliyinin təmin edilməsi, iqlimin dəyişməsi və sabit inkişafı problemlərinin həlli vasitəsilə qlobal enerji təhlükəsizliyinin möhkəmləndirilməsinə öz töhfəsini vermək niyyətindədir.

20 iyul 2006-cı il

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN RUSİYA FEDERASİYASINA SƏFƏRİ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Müstəqil Dövlətlər Birliyinin üzvü olan ölkələrin dövlət başçılarının qeyri-rəsmi görüşündə iştirak etmək üçün iyulun 21-də Moskvaya gəlmişdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ MOLDOVA PREZİDENTİ VLADİMİR VORONİNİN GÖRÜŞÜ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 21-də Moskvada onun üçün ayrılmış iqamətgahda Moldova Prezidenti Vladimir Voronin ilə görüşmüşdür.

Görüşdə ölkələrimiz arasında müxtəlif sahələrdə ikitərəfli əlaqələrin möhkəmləndirilməsi və inkişaf etdirilməsi, beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığın genişləndirilməsi və qarşılıqlı maraq doğuran bir sıra digər məsələlər müzakirə olunmuşdur.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV RUSİYANIN RTR TELEVİZİYA KANALINA MÜSAHİBƏ VERMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 21-də Rusiyanın RTR televiziya kanalına müsahibə vermişdir.

SUAL: Cənab Prezident, əvvəla, demək istəyirəm ki, biz buraya "Böyük səkkizliyin" sammitinin keçirildiyi Sankt-Peterburqdan gəlmişik. Sammitin başlıca mövzusu enerji təhlükəsizliyi ilə bağlı idi. Ona görə də birinci sual energetika sahəsinə aiddir. Bakı-Ceyhan neft kəməri artıq işləyir, fəaliyyət göstərir, lakin hələlik tam gücü ilə işləmir. Digər ölkələri, məsələn, çox böyük neft yataqları olan Qazaxıstanı əməkdaşlığa cəlb etmək barədə düşünürsünüzmü?

CAVAB: Gözlənildiyinə görə, Bakı-Tbilisi-Ceyhan boru kəməri cədvələ əsasən 2008-ci ilədək tam gücü ilə işləyəcəkdir. O vaxt Azərbaycanın yataqlarında hasilat ildə 50 milyon tondan artıq olacaqdır. Bu boru kəməri də elə onda tamamilə doldurulacaqdır. Ona görə də təbiidir ki, indiki mərhələdə BTC hələlik tam doldurulmayıb. Çünki boru kəmərinin tikintisi və yataqlarımızın işlənilməsi, əslinə qalsa, paralel rejimdə gedirdi. Gələn il boru kəməri ilə təxminən 30 milyon ton neft nəql etmək planlaşdırılır, 2008-ci ilədək isə biz onun tam gücü ilə işləməsinə nail olacağıq. Beləliklə, boru kəmərini kifayət qədər uzun müddət tam yüklənmiş vəziyyətdə işlətmək üçün Azərbaycanın öz ehtiyatları kifayət qədərdir.

Digər ölkə və şirkətlərin bu layihədə iştirakı imkanlarına gəldikdə, bu imkanlar açıqdır və bunu arzu edəcək bütün şirkətlərə biz öz infrastrukturumuzu, əlbəttə, kommersiya şərtlərinə uyğun olaraq istifadəyə verməyə hazırıq. Bizim artıq Qazaxıstanla bu məsələ haqqında dövlətlərarası sazişimiz var. Beləliklə, gələcəkdə Qazaxıstan nefti də bu marşrutla mütləq nəql ediləcəkdir.

SUAL: Qazaxıstanın iştirak etmək və öz neftini bu boru kəmərinin köməyi ilə göndərmək imkanı varmı?

CAVAB: Bəli, var.

SUAL: Bəs, Azərbaycanın, yaxud, məsələn, GUAM təşkilatının bu cür qaz kəməri çəkmək planları varmı?

CAVAB: Azərbaycan artıq neçə illərdir qaz kəməri çəkir. Məsələ, sadəcə olaraq, ondadır ki, bütün diqqət Bakı-Tbilisi-Ceyhan neft kəmərinə yönəldilmişdi. Ona görə də Bakı-Tbilisi-Ərzurum marşrutu üzrə qaz kəməri, bir növ, kölgədə qalmışdı. Hərçənd ki, bu

layihə heç də az əhəmiyyətli və heç də kiçikmiqyaslı deyildir. Ona çox böyük vəsait sərf edilmişdir: təxminən 1 trilyon kubmetr qaz ehtiyatı olan iri "Şahdəniz" qaz-kondensat yatağının işlənilməsinə də, qaz kəmərinin tikintisinə də. Onu bu ilin sonunadək istismara vermək planlaşdırılır. Bir sözlə, Azərbaycan bu layihəni kifayət qədər uzun müddətdir həyata keçirir. O, tezliklə istifadəyə veriləcəkdir.

SUAL: Bu, hər halda, Azərbaycanın layihəsi, yoxsa müştərək layihə olacaq, yəni pul, maliyyə vəsaiti haradan gələcəkdir?

CAVAB: "Şahdəniz" yatağının işlənilməsi üzrə konsorsium var. Buraya müxtəlif xarici neft şirkətləri və Azərbaycan Dövlət Neft Şirkəti daxildir. Bakı-Tbilisi-Ceyhan boru kəməri üzrə olduğu kimi, qaz kəməri üzrə də konsorsium mövcuddur - bu, beynəlxalq layihədir və burada müxtəlif şirkətlərin öz payı var. Maliyyələşdirmə öz ehtiyatlarımız, habelə borc alınmış vəsait hesabına, indiki halda müxtəlif beynəlxalq maliyyə təsisatlarının vəsaiti hesabına həyata keçirilir. Onlar bu layihəni maliyyələşdirmək üçün vəsait ayırmışlar.

Deməliyəm ki, bu iki layihə - neft kəməri və qaz kəməri layihələri hazırda dünyamiqyaslı ən iri enerji layihələridir. Məsrəflərə görə də - artıq bir neçə milyard dollar xərclənmişdir, - məsələnin texniki cəhətinə görə də, əlbəttə, iqtisadi səmərəlilik və yeni marşrutların açılması baxımından da. Azərbaycandan ilk dəfə olaraq neft Aralıq dənizindən dünya bazarlarına çatdırılacaqdır. Həmçinin Azərbaycandan ilk dəfə olaraq qaz digər ölkələrə ixrac ediləcəkdir ki, bu da, əlbəttə, son vaxtlar ölkəmizin tarixində çox böyük hadisədir.

SUAL: Hər halda, qaz kəmərinin tikintisini hansı ilədək başa çatdırmağı planlaşdırırsınız və bu, neçəyə başa gələcəkdir?

CAVAB: Tikintini bu ilin sonunadək başa çatdırmaq planlaşdırılır. Bizdə birinci mərhələdə qaz hasilatı hələlik ildə təxminən 4-5 milyard kubmetr olacaqdır. Bu, öz tələbatımızı ancaq ödəyəcəkdir. Ona görə də ilk vaxtlar hasil olunan bu qazdan Azərbaycanın daxili tələbatını ödəmək üçün istifadə etməyi planlaşdırırıq. Hazırda Azərbaycan qaz idxalçısıdır. Yeri gəlmişkən, biz Rusiyadan ildə təxminin 4,5 milyard kubmetr qaz alırıq və bu, ölkələrimiz arasında kifayət qədər səmərəli əməkdaşlıqdır.

Bu layihəyə ümumən bir neçə milyard dollar sərf edilmişdir. Çünki qaz kəmərini öz yataqlarımızdan ayrılıqda nəzərdən keçirmək olmaz. Çünki qazma işlərinə də, kəşfiyyata da, təbii ki, platformanın tikintisinə də çox böyük məbləğdə sərmayə qoyulmuşdur - "Şahdəniz" yatağından qaz hasilatı üçün nadir platforma yaradılmışdır. Əlbəttə, qaz kəməri kifayət qədər çoxməsrəfli işdir. Bütün bunlar, bir neçə milyard dollara başa gəlir və təbii ki, bütün bunlar öz xərcini çıxaracaqdır. Bu da əminliyi artırır ki, iri beynəlxalq maliyyə təsisatları ona maraq göstərmiş və əslində, maliyyə məsələsində bizə kömək etmişlər.

SUAL: Bəs, konsorsiuma GUAM-ın hansı ölkələri daxildirlər?

CAVAB: GUAM ölkələri konsorsiumda iştirak etmirlər.

SUAL: Yəni, bu, ancaq Azərbaycan üçün maraqlıdır?

CAVAB: Bəli. Şübhəsiz belədir. Bilirsinizmi, GUAM-ın üzvü olan ölkələrin Azərbaycandan başqa heç birində layihədə iştirak edə biləcək şirkətlər yoxdur. İndiki halda, bp,

ENİ, "Total", "LUKoyl", "Şevron", "İNPEX", "İtoçu", "Statoyl" kimi dünyanın aparıcı şirkətləri tərəfdaşlarımızdır. Yəni, dünyanın neft hasilatı elitası Azərbaycanda həm neft, həm də qaz layihələri üzrə işləyir.

SUAL: Buna baxmayaraq, hazırda Rusiya ilə Azərbaycan arasında qaz sahəsində əməkdaşlıq bazar şərtləri əsasında həyata keçirilir? Biz bazara tamamilə keçmişik?

CAVAB: Bilirsinizmi, nəyin tamamilə bazar olduğu çətin sualdır. Bir çox illər ərzində Rusiyadan MDB ölkələrinə qaz təsbit edilmiş qiymətə göndərilirdi. Təbii ki, bu, bazar qiymətindən uzaq idi. Hesab edirəm ki, şirkətlər və təşkilatlar arasında iqtisadi münasibətlərdə hər şey bazar konyunkturasını nəzərə alaraq ölçülməlidir. Ona görə də indi Azərbaycan Rusiyadan min kubmetr qazı 110 dollara alır. Bu, keçən ildəkindən iki dəfə çoxdur. Əgər belə artımın dinamikasını nəzərə alsaq, bu, bazar dinamikasıdır. Demək olar, hətta bazar dinamikasından da artıqdır. Çünki adətən, bazar münasibətlərində 100 faiz bahalaşma nadir hadisədir.

SUAL: Lakin münasibətlər, hər halda, bazar münasibətləri, şəffaf, yoxsa kifayət qədər subyektiv olmalıdır?

CAVAB: Hesab edirəm ki, münasibətlər qarşılıqlı faydaya, qarşılıqlı mənafeyə və qarşılıqlı hörmətə, sözsüz, razılaşmalara riayət edilməsinə əsaslanmalıdır. Bu, etimadı möhkəmlətməyin də, uzunmüddətli əməkdaşlığın da mühüm elementlərindən biridir. Əgər müqavilə varsa, razılaşma varsa - hətta razılaşma tərəflərdən birini müəyyən vaxtda razı salmadıqda da - onu yerinə yetirmək lazımdır. Müqavilənin qabaqcadan razılaşdırılmadan pozulması biznesdə də, bazar münasibətlərində də, əlbəttə, yolverilməzdir. O ki qaldı məsələnin mahiyyətinə, şübhəsiz, münasibətlər bazar prinsiplərinə əsaslanmalıdır. Bu, tamamilə təbii və normal prosesdir. Prinsipcə, tezliklə postsovet məkanında bazar qiyməti anlayışı yəqin daha olmayacaqdır. Biz artıq 15 ildir müstəqil dövlətik və yəqin ki, qiymətqoymada da, təbii olaraq, digər bütün məsələlərdə də bazar prinsiplərinə tamamilə keçmək vaxtı çatmışdır. Bu, kifayət qədər ağrılı prosesdir, çünki, əslində, bütün əhaliyə aiddir, enerji daşıyıcılarının qiymətlərinin bahalaşması digər məhsulun avtomatik surətdə bahalaşmasına səbəb olur. Lakin bu, qaçılmaz haldır. Gec-tez hamı buna gəlib çıxacaqdır.

SUAL: Söhbətin axarı ilə başqa mövzuya keçim. Yəqin ki, neft, qaz, enerji daşıyıcıları problemləri MDB-nin qarşıdakı qeyri-rəsmi görüşündə müzakirə ediləcəkdir. Görüş, hər halda, qeyri-rəsmi olsa da, bu yaxınlarda belə bir xəbər səsləndi ki, liderlərdən dördü görüşə müxtəlif səbəblərə görə gəlməyəcək - səbəblər həqiqətən müxtəlifdir, subyektiv və obyektivdir. Necə bilirsiniz, MDB təsisatının səmərəliliyi necədir, bu səmərəlilik indiki məqamda itirilməyib ki?

CAVAB: O ki qaldı ölkəmizə, biz hesab edirik ki, bu təsisat kifayət qədər faydalıdır. Azərbaycan da MDB iclaslarında - dövlət başçıları səviyyəsində və digər səviyyələrdə iclaslarda iştirak edərək, təşkilatımızın daha da inkişaf etməsi işinə, əlbəttə, öz tərəfindən töhfə verməyə çalışır.

Əlbəttə, MDB tamam başqa bir vəziyyətdə yaradılmışdı. O, hansısa bir məqsədlə və ya vahid iqtisadi mənafelərlə birləşmiş dövlətlərin qurumu deyildi. Onlar kifayət qədər müxtəlif dövlətlər idi. Yəni, bu, bir növ, postsovet prosesi idi. Lakin MDB-nin mövcud

olması faktının özü, zənnimcə, iştirakçı ölkələrə öz məsələlərini həll etməyə, fəal əməkdaşlıq aparmağa, əlaqələri itirməməyə kömək göstərmişdir. Ona görə də hesab edirəm ki, bu, faydalı təsisatdır və onu daha səmərəli etmək üzərində işləmək lazımdır. Əgər bu təşkilatın real surətdə təşkilat olmasını istəyiriksə, onda, əlbəttə, çox dəqiq meyarlar da, öhdəliklər də olmalıdır və onlar yerinə yetirilməlidir. Bizim üçün kifayət qədər dəqiq idarəetmə strukturu olan və qəbul edilən qərarların mütləq yerinə yetirildiyi Avropa və beynəlxalq təşkilatların nümunəsi var. MDB bu funksiyaları hələlik yerinə yetirmir. O, daha çox ünsiyyət üçün, necə deyərlər, format funksiyasını həyata keçirir. Ölkələrimizi çoxdankı tarixin birləşdirdiyini nəzərə alsaq, ünsiyyət də çox faydalıdır. Bunu itirmək düzgün olmazdı. Əksinə, əməkdaşlığı artırmaq, mümkün olan yerdə möhkəmlətmək və normal mehriban qonşuluq münasibətlərini inkişaf etdirmək lazımdır.

SUAL: Yəni, belə çıxır ki, MDB "Böyük səkkizliyin", bir növ, yerli analoqudur, o da diskussiya klubudur?

CAVAB: Əlbəttə, belə müqayisə aparmaq çətindir. Mən MDB dövlətləri başçılarının iclaslarında bu yaxınlardan iştirak edirəm, başa düşdüyünüz kimi, ona görə də təcrübəm məhduddur. Lakin iştirak etdiyim tədbirlər daha çox müzakirə, ünsiyyət xarakteri daşımışdır. Ölkələrin rəhbərləri onları narahat edən məsələlər qaldırırlar.

SUAL: Prezident Putin ünsiyyət mövzularından birini artıq açıqlamışdır. Bu, təşkilat kimi MDB-nin yenidən qurulması məsələsidir. Siz ən əvvəl nə təklif edərdiniz: MDB-nin qalması və səmərəli bir təşkilat kimi qalması üçün nə etmək lazımdır?

CAVAB: Əlbəttə, bu məsələ sabah da, sonra da müzakirə olunacaqdır. MDB zirvə toplantılarında bu məsələ dəfələrlə qaldırılıbdır. Nəyi yenidən qurmaq gərəkdir? Ona məqsədəuyğunluq baxımından yanaşmaq lazımdır. Yəni, müəyyən etmək gərəkdir: biz nə istəyirik, bu təşkilatı necə görmək istəyirik. Əgər biz onu öz funksiyaları, qəbul edilən qərarları mütləq yerinə yetirmək, bu qərarların icrasına nəzarət mexanizmi olan tam dəyərli təşkilat kimi görmək istəyiriksə, onda bu, bir məsələdir. Əgər biz MDB-ni məsələlərin, yaxud bu və ya digər dövləti bəzən narahat edən hansısa təcili məsələlərin hərdən müzakirəsi üçün əlverişli forma olan təşkilat kimi və ya dövlət başçıları arasında ünsiyyət üçün format kimi sadəcə saxlamaq istəyiriksə, onda bu, başqa işdir. Burada bütün ölkələrin konsensusu olmalıdır.

Prinsipcə, postsovet məkanının bütün ölkələrində dövlətçiliyin təşəkkülü prosesi artıq başa çatmışdır. Birinci mərhələ ümumən sona yetmişdir, hərçənd onu, əlbəttə, hansısa daha qısa mərhələlərə bölmək olar. Ölkələr təşəkkül tapmışlar - bu, kimdəsə daha yaxşı, kimdəsə pis alınmışdır. Buna baxmayaraq, bu proses artıq başa çatmışdır. Hələ tez-tez deyildiyi kimi, indi ölkələrimizi gənc və ya yeni müstəqil ölkələr adlandırmaq, zənnimcə, artıq gecdir.

Ona görə də hər bir ölkə bu və ya digər təşkilata üzvlüyünü, təbii olaraq, öz mənafeləri mövqeyindən nəzərdən keçirir. Təşkilatda olmaq öhdəlikləri olmaq, hüquqları olmaq və bundan faydalanmaq deməkdir. Maraqlı olmayan təşkilatda olmaq mənasızdır. Eləcə də, kiminsə daim təzyiqə məruz qaldığı təşkilatda olmaq mənasızdır. Biz isə bütün təşkilatlara könüllü surətdə daxil oluruq. Kim daim təzyiqə məruz qaldığı yerə könüllü surətdə daxil olar?! Odur ki, təşəkkül prosesi başa çatdığına görə manevr üçün daha da geniş sərbəstlik açılır.

Mən indiki halda Azərbaycandan danışaraq, hesab edirəm ki, müxtəlif beynəlxalq təşkilatlarda iştirak etmək ölkəmizin xeyrinədir. Biz dünya siyasi proseslərinin, əslində, bütün spektrində iştirak edirik. Biz Avropa Şurasının da üzvüyük, MDB-nin də üzvüyük, İslam Konfransı Təşkilatının, İqtisadi Əməkdaşlıq Təşkilatının da üzvüyük, Asiyada etimad tədbirlərinin möhkəmləndirilməsi prosesində, GUAM-da da fəal iştirak edirik. Yəni, biri digərini istisna etmir, əksinə, bu, Azərbaycana öz mənafelərini irəlilətmək üçün əlavə imkanlar verir. Hər bir ölkə bunda maraqlıdır.

SUAL: Nəhayət, sabah atçapma yarışları olacaq. Siz cıdırla maraqlanırsınız, ya yox?

CAVAB: Xeyr, maraqlanmıram. Əlbəttə, cıdır çox yaxşı idman növüdür. Lakin, zənnimcə, indiki halda cıdır görüşmək üçün daha çox səbəbdir. Mən, sadəcə olaraq, hansısa cıdıra baxmaq üçün heç yerə getməzdim.

MÜXBİR: Sağ olun.

MDB ÖLKƏLƏRİ DÖVLƏT BAŞÇILARININ QEYRİ-RƏSMİ GÖRÜŞÜ

İyulun 22-də Moskvada Kreml sarayında Müstəqil Dövlətlər Birliyinin üzvü olan ölkələrin prezidentlərinin qeyri-rəsmi görüşü keçirilmişdir.

Görüşdə Azərbaycan Prezidenti İlham Əliyev, Rusiya Prezidenti Vladimir Putin, Qazaxıstan Prezidenti Nursultan Nazarbayev, Özbəkistan Prezidenti İslam Kərimov, Qırğızıstan Prezidenti Kurmanbek Bakiyev, Tacikistan Prezidenti Emomeli Rəhmonov, Belarus Prezidenti Aleksandr Lukaşenko, Moldova Prezidenti Vladimir Voronin iştirak edirdilər.

Rusiya Federasiyasının Prezidenti Vladimir Putin qeyri-rəsmi görüşü açaraq, iştirakçıları salamladı və sammitin işində iştirak etdiklərinə görə prezidentlərə öz dərin təşəkkürünü bildirdi. O dedi ki, bugünkü müzakirələr tamamilə sərbəst şəraitdə aparılacaq, biz həm ikitərəfli, həm də çoxtərəfli əlaqələrdən danışacağıq. MDB-nin inkişafı məsələləri də diqqət mərkəzində olacaqdır.

Sonra söz MDB Dövlət Başçıları Şurasının sədri, Qazaxıstan Prezidenti Nursultan Nazarbayevə verildi. O, qeyri-rəsmi sammitin yüksək səviyyədə təşkilinə və müzakirələr üçün yaradılan şəraitə görə minnətdarlığını bildirərək dedi ki, həmişə belə görüşlərdə yüksək səviyyədə keçən diskussiyalar əhəmiyyətli rol oynayır. Nursultan Nazarbayev daha sonra qeyd etdi ki, mən müzakirə üçün təklif olunan layihələri səfirliyimiz vasitəsilə sammit iştirakçılarına göndərmişəm. Məqsədimiz budur ki, müzakirə edilən məsələlər dövlət başçıları üçün qanedici olsun.

Sonra sammitdə Azərbaycan Prezidenti İlham Əliyev və digər dövlət başçıları çıxış etdilər. Çıxışlarda bir sıra mühüm təkliflər irəli sürüldü, MDB-də struktur islahatlarının aparılmasının əhəmiyyəti xüsusi vurğulandı. Görüşdə həmçinin enerji təhlükəsizliyi, MDB-nin yeniləşməsi istiqamətində islahatların aparılması məsələləri ilə bağlı fikir mübadiləsi edildi.

Sonra iclas qapalı şəraitdə davam etdirildi.

Qeyri-rəsmi görüş başa çatdıqdan sonra sammitin yekununu şərh edən Qazaxıstan Prezidenti Nursultan Nazarbayev jurnalistlərə bildirdi ki, MDB-də islahatlar aparmağın vaxtı

çatmışdır. Artıq yeni təkliflər, layihələr və proqramlar üzərində iş aparılır. Vaxtilə, 1991-ci ildə MDB yaradılarkən Britaniya modelinə üstünlük verilmişdir. Düşünürük ki, MDB ərazisində islahatlar, əsasən 5 istiqamətdə aparılmalıdır. Bunlardan birincisi, miqrasiya siyasətidir. Bu, MDB ərazisində sadə insanların gediş-gəlişinin asanlaşdırılmasını nəzərdə tutur və hamını narahat edən məsələdir. İkincisi, mövcud nəqliyyat dəhlizlərindən səmərəli istifadə olunması, üçüncüsü, MDB-nin ayrı-ayrı ölkələrində təhsil alan tələbələrin diplomlarının tanınması, dördüncüsü, terrorizm, ekstremizm və narkotik vasitələrin alverinə qarşı birgə mübarizə aparılması, beşincisi isə humanitar problemlər ilə bağlıdır.

Nursultan Nazarbayev bildirdi ki, sammitdə, həmçinin müdafiə və sərhəd siyasəti ilə bağlı ədalətli ümumi qərarların qəbul edilməsinin vacibliyi xüsusi vurğulanmışdır.

Gələcəkdə MDB tərkibində 70 komissiyanın fəaliyyət göstərəcəyini nəzərə çarpdıran Qazaxıstan Prezidenti dedi ki, əlaqələndirici qruplar yeni təklifləri bir daha nəzərdən keçirib araşdıracaq və həmin təkliflər dövlət başçılarının zirvə görüşündə konsensus əsasında qəbul ediləcəkdir.

MDB-nin üzvü olan ölkələrin dövlət başçılarının növbəti görüşü bu ilin noyabr ayında Minsk şəhərində keçiriləcəkdir.

RUSİYA PREZİDENTİNİN MÜKAFATI UĞRUNDA ATÇAPMA YARIŞLARI KEÇİRİLMİŞDİR

İyulun 22-də MDB-nin üzvü olan ölkələrin dövlət başçılarının qeyri-rəsmi görüşü başa çatdıqdan sonra Moskvanın mərkəzi cıdır meydanında Rusiya Prezidentinin mükafatı uğrunda növbəti atçapma yarışları keçirilmişdir. Prezident Vladimir Putin bu yarışların keçirilməsi barədə 2003-cü ilin dekabrında müvafiq qərar imzalamışdır.

Azərbaycan Prezidenti İlham Əliyev, Rusiya Prezidenti Vladimir Putin, Qazaxıstan Prezidenti Nursultan Nazarbayev, Qırğızıstan Prezidenti Kurmanbek Bakiyev, Özbəkistan Prezidenti İslam Kərimov, Moldova Prezidenti Vladimir Voronin, Tacikistan Prezidenti Emoməli Rəhmonov və Belarus Prezidenti Aleksandr Lukaşenko yarışları izləmək üçün Moskvanın mərkəzi cıdır meydanına gəldilər.

Qeyd edək ki, Moskvada atçapma yarışları ilk dəfə 2004-cü il iyulun 3-də keçirilmişdir. Həmin vaxt Türkmənistan və Belarus prezidentləri istisna olmaqla, MDB ölkələrinin liderlərinin hamısı Moskvaya gəlmişdi. Builki yarışları isə səkkiz prezident izləmişdir.

Rusiya Prezidentinin mükafatı uğrunda atçapma yarışları haqqında əsasnaməyə uyğun olaraq, cıdırda üç və daha çox yaşı olan at iştirak edə bilər. Yarışların mükafat fondu 6 milyon rubldur. Bu il jakeylər 1800 və 2000 metr məsafələrdə beş mükafat uğrunda mübarizə aparırdılar.

Azərbaycanın "Eşqiyyə" adlı zil qara atı və Rusiyanın "Satellit" köhləni mənzil başına bərabər çatmışdır. Fotofiniş göstərmişdir ki, bu atlar finiş xəttini, necə deyərlər, başabaş keçmişdir. Beləliklə, qaliblərin hər biri 3 milyon rubl mükafat almışlar. Xatırladaq ki, "Eşqiyyə" 60 dəfə beynəlxalq yarışlarda iştirak etmiş və onun 14-ündə yüksək nəticə göstərərək medallara layiq görülmüşdür.

Azərbaycan Prezidenti İlham Əliyev və digər dövlət başçıları yarışları böyük maraqla izlədilər.

Sonda qalib çaparlara mükafatlar təqdim edildi.

Bununla da Rusiya Prezidentinin mükafatı uğrunda II atçapma yarışları başa çatdı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV "VİNCİ" QRUPUNUN PREZİDENTİ İV-TİBO DE SİLQİNİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 24-də Prezident sarayında "VİNCİ" qrupunun prezidenti İv-Tibo de Silqinin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Dövlətimizin başçısı bu yaxınlarda Parisə etdiyi səfər zamanı "VİNCİ" qrupunun nümayəndələri ilə faydalı müzakirələr apardığını bildirdi. Prezident İlham Əliyev Azərbaycan iqtisadiyyatının uğurla inkişaf etdiyini və iqtisadiyyatın müxtəlif sahələri, o cümlədən infrastrukturun təkmilləşdirilməsi üçün böyük planların mövcud olduğunu vurğuladı.

İv-Tibo de Silqi şirkətinin ölkəmizdə fəaliyyət imkanlarını öyrənmək baxımından bu səfərinin əhəmiyyətli olduğunu bildirdi. Ölkəmizin iqtisadiyyatının sürətlə inkişaf etdiyini vurğulayan qonaq "VİNCİ" qrupunun Azərbaycanın xüsusilə infrastrukturunun müasirləşdirilməsi prosesində iştirak etməkdə maraqlı olduğunu qeyd etdi.

AZƏRBAYCAN RESPUBLİKASI İLƏ İRAN İSLAM RESPUBLİKASI ARASINDA İQTİSADİ, TİCARƏT VƏ HUMANİTAR SAHƏLƏRDƏ ƏMƏKDAŞLIQ ÜZRƏ DÖVLƏT KOMİSSİYASININ AZƏRBAYCAN RESPUBLİKASI TƏRƏFİNDƏN YENİ TƏRKİBİNİN TƏSDİQ EDİLMƏSİ BARƏDƏ AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

1. Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında iqtisadi, ticarət və humanitar sahələrdə əməkdaşlıq üzrə Dövlət Komissiyasının Azərbaycan Respublikası tərəfindən tərkibi aşağıdakı heyətdə təsdiq edilsin:

Komissiyanın sədri

Elmar Məmmədyarov - Azərbaycan Respublikasının xarici işlər naziri

Komissiyanın üzvləri

Xələf Xələfov - Azərbaycan Respublikasının xarici işlər nazirinin müavini

Azər Zeynalov - Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin birinci müavini

Elçin Quliyev - Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidmətinin rəisi

Niyazi Səfərov - Azərbaycan Respublikasının iqtisadi inkişaf nazirinin müavini

Musa Pənahov - Azərbaycan Respublikasının nəqliyyat nazirinin müavini

Bəhrəm Əliyev - Azərbaycan Respublikasının kənd təsərrüfatı nazirinin müavini

Ədalət Vəliyev - Azərbaycan Respublikasının mədəniyyət və turizm nazirinin müavini

Abbasəli Həsənov - Azərbaycan Respublikasının İran İslam Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri

Səfər Mehdiyev - Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsinin sədrinin birinci müavini

Xoşbəxt Yusifzadə -Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin birinci vitse-prezidenti

Vadim Xubanov - Azərbaycan Respublikası Milli Bankın İdarə Heyətinin sədr müavini

Arif Əsgərov - Azərbaycan Dövlət Dəmir Yolunun rəisi

Aydın Bəşirov - Azərbaycan Dövlət Xəzər Dəniz Gəmiçiliyinin rəisi

Etibar Pirverdiyev - "Azərenerji" Açıq Səhmdar Cəmiyyətinin prezidenti

Əlixan Məlikov - "Azəriqaz" Qapalı Səhmdar Cəmiyyətinin sədri.

2. "Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında iqtisadi, ticarət və humanitar sahələrdə əməkdaşlıq üzrə Dövlət Komissiyasının tərkibinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 26 iyul tarixli 545 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001-ci il, nömrə 7, maddə 482; 2005-ci il, nömrə 10, maddə 917) 1-ci bəndi qüvvədən düşmüş hesab edilsin.

3. Bu Fərman imzalandığı gündən qüvvəyə minir.

İlham Əliyev

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 25 iyul 2006-cı il.

AZƏRBAYCAN İLƏ KÜVEYT ARASINDA ƏLAQƏLƏRİN YÜKSƏK SƏVİYYƏDƏ OLDUĞU QEYD EDİLMİŞDİR

Xarici İşlər naziri Elmar Məmmədyarov iyulun 26-da ölkəmizdə səfərdə olan Küveyt Əmirinin müşaviri Məhəmməd Şərrarın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşmüşdür.

Azərbaycan ilə Küveyt arasında əlaqələrin yüksək sürətlə inkişaf etdiyini diqqətə çatdıran nazir, Küveytdə ölkəmizin səfirliyinin açılmasını yüksək qiymətləndirmişdir.

Azərbaycana ilk səfərində ona göstərilmiş qonaqpərvərliyə, səmimi qəbula görə təşəkkürünü bildirən Məhəmməd Şərraf, ölkələrimizin əlaqələrinin inkişafından razı qaldığını söyləyərək, ikitərəfli münasibətlərlə yanaşı, beynəlxalq təşkilatlar çərçivəsində də qarşılıqlı dəstəyi yüksək qiymətləndirmişdir. Qonaq Azərbaycan ilə Küveyt arasında siyasi, iqtisadi və ticarət əlaqələrinin genişləndirilməsi arzusunda olduğunu bildirmiş, xarici işlər nazirini Küveytə rəsmi səfərə dəvət etmişdir. Azərbaycanda son illərdə baş verən müsbət dəyişiklikləri, tərəqqini alqışlayan müşavir özəl sektorda da ikitərəfli əməkdaşlığın genişləndirilməsini vacib saymışdır.

Nazir Elmar Məmmədyarov dövlətlərimizin oxşar cəhətlərini qeyd edərək, Azərbaycanın da neft ölkəsi kimi Küveytin inkişaf istiqamətlərinin, neft ixracından gələn gəlirlərin bölüşdürülməsində təcrübəsinin öyrənilməsində maraqlı olduğunu bildirmişdir. Azərbaycanın hazırda İslam Konfransı Təşkilatına sədrlik etdiyini nəzərə çatdıran nazir, beynəlxalq təşkilatlarda Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı məsələlərdə islam dövlətlərinin daim Azərbaycanın mövqeyini dəstəkləmələrini, erməni silahlı qüvvələrinin işğal olunmuş torpaqlardan birmənalı şəkildə çıxarılmasını tələb etmələrini, münaqişə nəticəsində doğma torpaqlarından didərgin düşmüş qaçqın və məcburi köçkünlərə göstərilən maddi və mənəvi yardımı yüksək qiymətləndirmişdir.

M.Şərrar Küveytin də vaxtilə işğala məruz qaldığını və bu səbəbdən Azərbaycanın dərumunu daha yaxşı anladığını qeyd etmiş və humanitar yardımın həyata keçirilməsinin davam etdiriləcəyini bildirmişdir. Bundan başqa, qonaq bu yaxınlarda Dünya Səhiyyə Təşkilatının baş katibi vəzifəsinə keçiriləcək seçkilərdə Küveytin öz namizədini irəli sürdüyünü diqqətə çatdırmış və bu təşkilat çərçivəsində də yardımın genişləndiriləcəyini söyləmişdir.

Görüşdə tərəflər qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparmışlar.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BMT-NİN ÜMUMDÜNYA ƏRZAQ PROQRAMININ İCRAÇI DİREKTORU CEYMS MORRİSİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 27-də Prezident sarayında BMT-nin Ümumdünya Ərzaq Proqramının icraçı direktoru Ceyms Morrisin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Dövlətimizin başçısı ölkəmizin siyasi, iqtisadi cəhətdən sürətlə inkişaf etdiyini vurğulayaraq, Ermənistanın Azərbaycan torpaqlarını işğal etməsi və bunun nəticəsində bir milyon insanın qaçqın və məcburi köçkün vəziyyətinə düşməsinin başlıca problem olduğunu bildirdi. Prezident İlham Əliyev qaçqın və məcburi köçkünlərin vəziyyətinin yaxşılaşdırılması üçün Azərbaycan hökuməti tərəfindən ardıcıl tədbirlərin görüldüyünü və bütün çadır düşərgələrinin tezliklə ləğv olunacağını vurğuladı. Dövlətimizin başçısı Azərbaycanın qaçqın və məcburi köçkünlərinə göstərilən yardımın davam etdirilməsinə görə BMT-nin Ümumdünya Ərzaq Proqramına öz təşəkkürünü çatdırdı və təşkilat ilə əməkdaşlığın daha da inkişaf etdiriləcəyinə ümidvar olduğunu bildirdi.

Ceyms Morris BMT-nin Ümumdünya Ərzaq Proqramı ilə Azərbaycan arasında əməkdaşlığın yüksək səviyyədə olduğunu vurğuladı. O, səfəri müddətində qaçqın və məcburi köçkünlərlə görüşdüyünü qeyd etdi və Azərbaycan hökumətinin, şəxsən Prezident İlham Əliyevin qaçqın və məcburi köçkünlərin vəziyyətinin yaxşılaşdırılması üçün gördüyü işlərin onda böyük təəssürat yaratdığını bildirdi. Qonaq rəhbərlik etdiyi təşkilat ilə Azərbaycan arasındakı əlaqələrin bundan sonra da genişləndiriləcəyinə əminliyini ifadə etdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV TÜRKİYƏNİN DÖVLƏT NAZİRİ MEHMET AYDINI QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 27-də Prezident sarayında Türkiyənin Dövlət naziri Mehmet Aydını qəbul etmişdir.

Dövlətimizin başçısı Azərbaycan ilə Türkiyə arasındakı münasibətlərin müxtəlif sahələrdə çox uğurla inkişaf etdiyini vurğuladı. Prezident İlham Əliyev bu yaxınlarda Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft boru kəmərinin açılışı mərasimində iştirak etmək üçün Türkiyədə səfərdə olduğunu, səfər zamanı Türkiyənin Prezidenti və Baş naziri ilə səmərəli görüşlər keçirdiyini məmnunluqla xatırlatdı.

Mehmet Aydın Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğanın salamlarını Prezident İlham Əliyevə çatdırdı. Türkiyə-Azərbaycan iqtisadi komissiyasının növbəti iclasında iştirak etmək üçün Azərbaycana səfər etdiyini bildirən qonaq komissiyanın fəaliyyətinin ikitərəfli münasibətlərin, o cümlədən iqtisadi əlaqələrin daha da genişləndirilməsi işinə töhfə verdiyini qeyd etdi.

Prezident İlham Əliyev Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğanın salamlarına görə minnətdarlığını bildirdi və onun da salamlarını Türkiyənin Baş nazirinə çatdırmağı xahiş etdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV DÜNYA BANKININ AVROPA VƏ MƏRKƏZİ ASİYA REGİONU ÜZRƏ İNFRASTRUKTUR SEKTORUNUN DİREKTORU PETER TOMSONUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 31-də Prezident sarayında Dünya Bankının Avropa və Mərkəzi Asiya regionu üzrə infrastruktur sektorunun direktoru Peter Tomsonun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Böyük uğurla həyata keçirilən neft-qaz layihələrinin ölkəmizdə qeyri-neft sektorunun, özəl sektorun və infrastrukturun güclənməsinə imkan yaratdığını, Azərbaycanda əhalinin ehtiyaclarını təmin edə biləcək möhkəm iqtisadi siyasət aparıldığını nəzərə çarpdıran Prezident İlham Əliyev bu siyasətin makroiqtisadi sabitliyi qoruyub saxlamaq gücünə malik olduğunu bildirdi.

Dünya Bankı ilə aparılan müzakirələrin faydalı olduğunu vurğulayan dövlətimizin başçısı Azərbaycanın bu bankla əməkdaşlığa böyük əhəmiyyət verdiyini vurğuladı.

Azərbaycanda iqtisadi sahədə əldə edilən uğurların Dünya Bankı tərəfindən böyük maraqla qarşılandığını bildirən qonaq keçən il ölkəmizin iqtisadi inkişaf baxımından dünyada liderlik etdiyini xüsusi vurğuladı. O, əmin olduğunu bildirdi ki, Azərbaycanda həyata keçirilən düzgün iqtisadi siyasət nəticəsində bu liderlik bundan sonra da qorunub saxlanılacaqdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ATƏT-İN MİNSK QRUPUNUN AMERİKALI HƏMSƏDRİ MƏTYU BRAYZƏNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 1-də Prezident sarayında ATƏT-in Minsk qrupunun amerikalı həmsədri Mətyu Brayzəni qəbul etmişdir.

Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması ilə bağlı aparılan danışıqlar prosesinin hazırkı vəziyyəti, perspektivləri, bir sıra digər məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV TATARISTANIN BAŞ NAZİRİ RÜSTƏM MİNNİXANOVUN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 1-də Prezident sarayında Tatarıstanın Baş naziri Rüstəm Minnixanovun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Ötən il Kazan şəhərinin 1000 illiyi ilə əlaqədar yubiley tədbirlərində iştirak etdiyini məmnunluqla xatırlayan dövlətimizin başçısı Tatarıstan paytaxtının inkişafının və müasirliyinin onda sevinc hissi oyatdığını nəzərə çarpdırdı, Prezident Mintimer Şaymiyevə onun salamlarını, xoş arzularını çatdırmağı xahiş etdi.

Səmimi qəbula görə təşəkkür edən baş nazir Prezident Mintimer Şaymiyevin salamlarını dövlətimizin başçısına çatdırdı.

Bakıda keçirdiyi görüşlərdən bəhs edən qonaq "KamAZ" müəssisəsinə burada böyük maraq göstərilməsindən məmnun qaldığını söylədi. Baş nazir Rüstəm Minnixanov bildirdi ki, neft-kimya sənayesi sahəsində əməkdaşlıq həm Azərbaycan, həm də Tatarıstan üçün çox əhəmiyyətlidir, digər sahələrdə də geniş əlaqələr qurulması üçün yaxşı imkanlar vardır.

2006-CI İL MAYIN 25-DƏ BAKI ŞƏHƏRİNDƏ İMZALANMIŞ "AZƏRBAYCAN RESPUBLİKASININ XARİCİ İŞLƏR NAZİRLİYİ VƏ KUBA RESPUBLİKASININ XARİCİ İŞLƏR NAZİRLİYİ ARASINDA ƏMƏKDAŞLIQ HAQQINDA SAZİŞ"İN TƏSDİQ EDİLMƏSİ BARƏDƏ AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

1. 2006-cı il mayın 25-də Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi və Kuba Respublikasının Xarici İşlər Nazirliyi arasında Əməkdaşlıq haqqında Saziş" təsdiq edilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişin həyata keçirilməsini təmin etsin.

İlham Əliyev

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 2 avqust 2006-cı il

"AZƏRBAYCAN RESPUBLİKASININ ÜMUMDÜNYA TİCARƏT TƏŞKİLATINA ÜZV OLMASI PROSESİ İLƏ ƏLAQƏDAR QANUNVERİCİLİYİN ÜMUMDÜNYA TİCARƏT TƏŞKİLATININ TƏLƏBLƏRİNƏ UYĞUNLAŞDIRILMASI ÜZRƏ TƏDBİRLƏR PLANI"NIN TƏSDİQ EDİLMƏSİ BARƏDƏ AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası iqtisadiyyatının davamlı inkişafının təmin edilməsi və dünya iqtisadiyyatına inteqrasiyası baxımından Azərbaycan Respublikasının Ümumdünya Ticarət Təşkilatına (ÜTT) üzv olması mühüm əhəmiyyət kəsb edir. Ümumdünya Ticarət Təşkilatının üzv dövlətləri ilə ikitərəfli və çoxtərəfli danışıqlara başlamış Azərbaycan Respublikası Ümumdünya Ticarət Təşkilatına üzvolma prosesinin ən əsas mərhələsinə daxil olmuşdur. Üzvolma prosesinin təkmilləşdirilməsini, Ümumdünya Ticarət Təşkilatına əlverişli şərtlərlə daxil olmaq üçün ölkəmizin mənafelərinin vahid danışıqlar mövqeyindən qorunmasını, habelə gələcəkdə bu təşkilata üzvlük çərçivəsində aparılacaq fəaliyyətin səmərəliliyini təmin etmək məqsədi ilə qərara alıram:

1. "Azərbaycan Respublikasının Ümumdünya Ticarət Təşkilatına üzv olması prosesi ilə əlaqədar qanunvericiliyin Ümumdünya Ticarət Təşkilatının tələblərinə uyğunlaşdırılması üzrə Tədbirlər Planı" təsdiq edilsin (əlavə olunur).

2.Tədbirlər Planının icrasına nəzarət Azərbaycan Respublikasının Ümumdünya Ticarət Təşkilatına üzv olmasına hazırlıq işləri üzrə Komissiyaya həvalə edilsin.

3. Bu sərəncam imzalandığı gündən qüvvəyə minir.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 2 avqust 2006-cı il

AZƏRBAYCANIN BAŞ NAZİRİNİN MALAYZİYAYA SƏFƏRİ

Azərbaycan Respublikasının Baş naziri Artur Rasizadə İslam Konfransı Təşkilatı İcraiyyə Komitəsinin fövqəladə iclasında iştirak etmək üçün avqustun 2-də Malayziyaya yola düşmüşdür.

Baş nazir Artur Rasizadə iclasdakı çıxışında, Livandakı vəziyyətlə bağlı müzakirə olunan məsələyə Azərbaycan hökumətinin mövqeyini bildirərək, hərbi əməliyyatlara təcili surətdə son qoyulmasını, BMT-nin Təhlükəsizlik Şurası tərəfindən təxirəsalınmaz addımların atılmasını və dərhal diplomatik məsləhətləşmələrə başlanmasını zəruri hesab etmişdir.

Ölkəmizin də Ermənistan tərəfindən təcavüzə məruz qaldığını söyləyən Artur Rasizadə, beynəlxalq birliyin bu məsələyə laqeydlik göstərdiyini vurğulayaraq, Azərbaycanın bütün münaqişələrin, beynəlxalq hüququn norma və prinsipləri əsasında, dövlətlərin ərazi bütövlüyü çərçivəsində sülh yolu ilə həllinə tərəfdar olduğunu bildirmişdir.

Fövqəladə iclasın yekununda Livana və Fələstinə aid iki bəyannamə qəbul edilmişdir.

Səfər çərçivəsində Baş nazir Artur Rasizadənin türkiyəli həmkarı Rəcəb Tayyib Ərdoğan ilə təkbətək görüşü olmuşdur.

Nümayəndə heyəti avqustun 4-də Vətənə dönmüşdür.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV TÜRKİYƏ BAŞ NAZİRİNİN MÜAVİNİ VƏ DÖVLƏT NAZİRİ MEHMET ALİ ŞAHİNİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 7-də Prezident sarayında Türkiyə Baş nazirinin müavini və Dövlət naziri Mehmet Ali Şahinin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Dövlətimizin başçısı Mehmet Ali Şahinlə bu yaxınlarda İstanbulda Heydər Əliyev adına parkın açılışı mərasimində görüşdüyünü məmnunluqla xatırlatdı. Azərbaycan-Türkiyə münasibətlərinin çox yüksək səviyyədə olduğunu vurğulayan Prezident İlham Əliyev iki ölkənin müxtəlif qurumları arasında əməkdaşlığın daha da genişləndirilməsinin vacib olduğunu bildirdi.

Mehmet Ali Şahin Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğanın salamlarını Prezident İlham Əliyevə çatdırdı. Ölkəmizə ilk dəfə səfər etdiyini bildirən qonaq Azərbaycan Respublikasının Fövqəladə Hallar, Gənclər və İdman nazirlikləri ilə Türkiyənin müvafiq qurumları arasında əməkdaşlığın inkişaf etdirilməsi məqsədi ilə protokolların imzalanacağını qeyd etdi.

Prezident İlham Əliyev Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğanın salamlarına görə minnətdarlığını bildirdi və onun da salamlarını Türkiyənin Baş nazirinə çatdırmağı xahiş etdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BUXAREST ŞƏHƏRİNİN II SEKTORUNUN MERİ NEKULAİ ONTSANUNUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 7-də Prezident sarayında Buxarest şəhərinin II sektorunun meri Nekulai Ontsanunun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Buxarest şəhərinin II sektorunun meri Nekulai Ontsanu meriyanın 2006-cı il iyunun 27-də Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin büstünün ucaldığı parka ulu öndərin adının verilməsi ilə bağlı qərar qəbul etdiyini bildirdi və qərarı Azərbaycan Prezidentinin diqqətinə çatdıraraq dedi:

- Zati-aliləri, böyük şərəf və məmnunluqla diqqətinizə çatdırmaq istəyirəm ki, 2006-cı il iyunun 27-də Buxarest şəhərinin II sektorunun meriyası Azərbaycan xalqının ümummilli liderinin büstü ucaldılmış "Tei" parkındakı xiyabana Heydər Əliyevin adının verilməsi barədə qərar qəbul etmişdir. Bu qərar ondan irəli gəlmişdir ki, Azərbaycan xalqının ən çətin tarixi dövründə ölkəni böhrandan xilas edən, möhkəm özüllər əsasında demokratik Azərbaycan cəmiyyətinin təməlini qoyan böyük siyasi xadimin, əvəzolunmaz

şəxsiyyətin, Azərbaycan xalqının ümummilli liderinin unudulmaz xatirəsi Rumıniyanın paytaxtı Buxarest şəhərində əbədiləşdirilmişdir və bu fakt bizlərdən ötrü böyük əhəmiyyətə malikdir. Əminəm ki, Azərbaycan ilə Rumıniya arasında çox yüksək səviyyədə yaranmış dostluq və əməkdaşlıq münasibətləri ölkələrimizin xalqlarının rifahı və çiçəklənməsi naminə bundan sonra da bütün sahələrdə ardıcıl və dinamik surətdə genişlənəcək və inkişaf edəcəkdir.

Fürsətdən istifadə edib, Zati-alilərinizə həm öz adımdan, həm də Buxarest şəhərinin II sektorunun sakinləri adından dərin hörmət və ehtiramımı çatdırmaq istərdim.

Hörmətli cənab Prezident, əgər icazə versəniz, mən bu rəsmi sənədi tərcüməsi ilə bir yerdə Sizə təqdim edərdim. Bu, nəinki bizim II sektorun qərarı, həmçinin Buxarest vətəndaşlarının qərarıdır.

Buxarest şəhərinin II sektorunun meri Nekulai Ontsanu sənədi Prezident İlham Əliyevə təqdim etdi.

Dövlətimizin başçısı Rumıniyanın paytaxtı Buxarest şəhərinin II sektorunda yerləşən parka Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin adının verilməsinin əlamətdar hadisə olduğunu bildirdi, bu qərarın qəbul olunmasına görə merə təşəkkürünü çatdıraraq dedi:

- Ulu öndər Heydər Əliyevin adının Rumıniyanın paytaxtı Buxarest şəhərinin II sektorunda yerləşən parka verilməsi çox böyük əlamətdar hadisədir. Hörmətli cənab mer, bu qərarın qəbul olunmasında sizin böyük rolunuz olubdur. Mən bu münasibətlə sizə öz dərin minnətdarlığımı bildirmək istəyirəm.

O gözəl parka Heydər Əliyevin adının verilməsi bir tərəfdən Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevə olan böyük hörmətin əlamətidir, digər tərəfdən Rumıniya-Azərbaycan münasibətlərinin nə qədər yüksək səviyyədə olmasından xəbər verir. Heydər Əliyev öz fəaliyyətində Rumıniya-Azərbaycan münasibətlərinin inkişafı üçün böyük xidmətlər göstərmişdir.

Bu yaxınlarda Rumıniyaya rəsmi səfər etdiyini xatırladan Prezident İlham Əliyev, dövlətlərimiz arasındakı münasibətlərin sürətlə inkişaf etdiyini vurğuladı. Tezliklə Bakıda Rumıniya xalqının böyük oğlu, görkəmli mədəniyyət xadimi Corce Eneskunun abidəsinin ucaldılacağını nəzərə çatdıran dövlətimizin başçısı, belə hadisələrin xalqlarımızı daha da yaxınlaşdırdığını və ölkələrimiz arasındakı əlaqələrin inkişafına töhfə verdiyini bildirdi.

AZƏRBAYCANIN XARİCİ İŞLƏR NAZİRİ İSVEÇDƏ RƏSMİ SƏFƏRDƏ OLMUŞDUR

İsveçdə rəsmi səfərdə olan Xarici İşlər naziri E.Məmmədyarov avqustun 8-də həmin ölkənin xarici işlər naziri Yan Eliasson ilə görüşmüşdür.

1989-1990-cı illərdə ATƏT-in Dağlıq Qarabağ münaqişəsi üzrə vasitəçisi olan və 1994-cü ildə atəşkəsin əldə edilməsi prosesində fəal iştirak edən Y.Eliassonla görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində aparılan danışıqlarda beynəlxalq təşkilatların rolu və dünya ictimaiyyətinin səyləri, ikitərəfli və

çoxtərəfli formatda əməkdaşlığın inkişaf perspektivləri, iqtisadi əlaqələr, Avropa İttifaqı çərçivəsində əlaqələr və yeni qonşuluq siyasəti, Azərbaycanın regionda rolu və qonşuları ilə münasibətlərinə dair məsələlər müzakirə edilmiş, BMT-də islahatlar, regionda cərəyan edən proseslər, Yaxın Şərq, o cümlədən Livan böhranı ətrafında fikir mübadiləsi aparılmışdır.

Səmimi şəraitdə keçən görüşdə Azərbaycan Prezidentinin ölkəmizin İsveçdə səfirliyinin təsis edilməsi barədə Fərmanı qarşı tərəfin diqqətinə çatdırılmışdır. Bildirilmişdir ki, səfirlik bu ilin sonunadək fəaliyyətə başlayacaqdır.

Həmçinin ölkələrimiz arasında iqtisadi sahədə əlaqələrin inkişaf etdirilməsi üçün hüquqi müqavilə bazasının yaradılması, İsveç sərmayəsinin və iş adamlarının Azərbaycana cəlb edilməsi, birgə biznes forumların keçirilməsi və hökumətlərarası iqtisadi komissiyanın yaradılması məsələləri müzakirə olunmuşdur.

Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllində beynəlxalq təşkilatların, xüsusi ilə BMT, ATƏT, o cümlədən Avropa İttifaqının rolunun artırılması qeyd edilmiş və münaqişənin sülh yolu ilə tezliklə aradan qaldırılmasının vacibliyi bildirilmişdir.

Yan Eliasson Ermənistanın işğalı altında qalan Azərbaycan ərazilərində dəhşətli yanğınların baş verməsi ilə əlaqədar narahatlığını bildirmiş və həmin məsələnin İsveç xarici siyasət idarəsinin rəhbəri və BMT-nin Baş Məclisinin sədri kimi, daim diqqətdə saxladığını söyləmişdir.

Görüşdə, həmçinin Azərbaycanın həyata keçirdiyi irimiqyaslı iqtisadi layihələr, respublikamızın regionda lider dövlətə çevrilməsi və beynəlxalq aləmdə artan siyasi və iqtisadi nüfuzu diqqət mərkəzində olmuşdur. Azərbaycanın demokratiyanın inkişafında və insan hüquqlarının qorunmasında səyləri, ölkəmizin BMT-nin yeni yaradılmış İnsan Hüquqları Komitəsinə üç il müddətinə üzv seçilməsi İsveç rəsmisi tərəfindən müsbət qiymətləndirilmişdir.

Sonda Azərbaycanın və İsveçin xarici işlər nazirləri mətbuat konfransı keçirmişlər.

Avqustun 7-də E.Məmmədyarov İsveçin Mərkəzi Asiya-Qafqaz İnstitutu və İpək Yolu Təhsil Proqramının birgə mərkəzinin tədqiqat direktoru S.Korneli tərəfindən təşkil olunmuş və ölkənin aparıcı tədqiqat mərkəzləri, işgüzar dairələri və Xarici İşlər Nazirliyi nümayəndələrinin qatıldığı dəyirmi masada iştirak etmişdir.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi və onun ağır nəticələri, ölkəmizin siyasi və iqtisadi həyatı, regionda cərəyan edən proseslər, regional əməkdaşlıq və təhlükəsizlik məsələləri ətrafında müzakirələrin aparıldığı dəyirmi masada nazir E.Məmmədyarov sualları cavablandırmışdır.

Nazir E.Məmmədyarov səfər çərçivəsində İsveçin Sənaye, Məşğulluq və Kommunikasiya Nazirliyinin dövlət katibi S-E. Şöder, Azərbaycanda uğurla fəaliyyət göstərən tanınmış "Telia Sonera" şirkətinin prezidenti A.İgel, Ticarət Şurasının rəhbəri T.Feldom, ATƏT-in Baş Məclisinin vitse-prezidenti və İsveç parlamentinin üzvü T.Tinsqard, ATƏT-in Parlament Assambleyasının sədri, eyni zamanda Dağlıq Qarabağ münaqişəsi

üzrə xüsusi nümayəndəsi Q.Lenmarker ilə görüşmüş, müzakirələr aparmışdır.

Səfərin sonunda E.Məmmədyarovun İsveçdəki Azərbaycan cəmiyyətinin üzvləri və bu ölkədə yaşayan soydaşlarımızla da görüşü olmuşdur.

XARİCİ İŞLƏR NAZİRLİYİNİN RƏSMİSİNİN MÖVQEYİ

İKT XİN-in konfransının sədri qismində Azərbaycan Respublikasının xarici ölkələrindəki səfirləri və beynəlxalq təşkilatlar yönümlü daimi nümayəndəliyi tərəfindən də müvafiq iş aparılaraq İslam Hümməti problemlərinə beynəlxalq birliyin diqqətinin artırılması istiqamətində müəyyən nəticələr əldə edilmişdir. Belə ki, müvafiq işin nəticəsində cari ilin 20 sentyabr tarixində islam ölkələrinin problemləri, o cümlədən Livanda baş verən hadisələrlə əlaqədar İKT troykaları (İKT zirvə və XİN konfransı sədrləri)-Aİ (Finlyandiya-Aİ-də hazırkı sədr) görüşünün keçirilməsi nəzərdə tutulmuşdur.

Bundan əlavə AR-in BMT nəzdində Daimi Nümayəndəliyinin sədrliyi ilə Nyu-Yorkda, İKT qrupu səfirlərinin Livandakı vəziyyətlə bağlı xüsusi toplantısı keçirilmiş, həmin görüşün nəticələrinə dair məlumatın və qəbul edilmiş bəyanatın BMT TŞ sədrinə, BMT-üzv dövlətləri və ilk növbədə TŞ üzvlərinə çatdırılması İKT adından İslam qrupunun sədri kimi Azərbaycana həvalə edilmişdir.

Cari ilin 20 iyul tarixində BMT-də İKT qrupunun sədri qismində AR-in Daimi Nümayəndəsinin TŞ-nın sədri ilə görüşü keçirilmiş və Livandakı vəziyyətlə bağlı İKT dövlətlərinin mövqeyi və qrupun qeyd olunan toplantıda qəbul edilmiş bəyanat TŞ-sı sədrinə təqdim olunmuşdur. Eyni zamanda Livandakı vəziyyətlə bağlı BMT Baş Katibinin humanitar məsələlər üzrə müavini Y.Egeland ilə müvafiq görüş keçirilmiş və Livana humanitar yardımın göstərilməsi məsələlərinə həsr edilmiş xüsusi toplantıda İKT qrupunun sədri qismində AR-in BMT-dəki Daimi Nümayəndəliyi məruzə ilə çıxış etmişdir.

İslam Konfransı Təşkilatının Xarici İşlər Nazirləri Şurasının bu il Bakıda keçirilmiş 33-cü konfransının sədrliyinə Azərbaycan məsuliyyətli yanaşaraq, ilk növbədə İslam Hümməti üçün əhəmiyyətli xarakter daşıyan məsələlərin müzakirəsində də fəallıq göstərmişdir.

İKT İcraiyyə Komitəsinin Dövlət və Hökumət başçıları səviyyəsində geniş tərkibdə Livandakı vəziyyətlə bağlı fövqəladə görüşündə İKT XİN Konfransının hazırkı sədri kimi Azərbaycan fəal iştirak etmişdir. Ölkəmizi həmin tədbirdə təmsil edən Baş Nazir A.Rasizadə plenar iclasda çıxış edərək , Azərbaycanın Livanda baş verən hadisələrlə əlaqədar rəsmi mövqeyini İKT kürsüsündən ifadə etmiş, hərbi əməliyyatların dərhal dayandırılması, BMT TŞ-nın vasitəsilə lazımi və təxirəsalınmaz effektiv addımların atılması, Livan hökuməti və xalqına dəstək verilməsi humanitar yardımın göstərilməsinin vacibliyini vurğulamışdır.

Bakı, 09 avqust 2006-cı il

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İRAN PREZİDENTİNİN XƏZƏR MƏSƏLƏLƏRİ ÜZRƏ XÜSUSİ NÜMAYƏNDƏSİ, XARİCİ İŞLƏR NAZİRİNİN MÜAVİNİ MEHDİ SƏFƏRİNİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 10-da Prezident sarayında İran İslam Respublikası Prezidentinin Xəzər məsələləri üzrə xüsusi nümayəndəsi, xarici işlər nazirinin müavini Mehdi Səfərinin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Söhbət zamanı Azərbaycan-İran münasibətlərinin müxtəlif sahələrdə uğurla inkişaf etdiyi, iki ölkə rəhbərlərinin qarşılıqlı səfərlərinin əlaqələrimizin genişləndirilməsində xüsusi rol oynadığı vurğulandı və bu əlaqələrin bundan sonra da inkişaf edəcəyinə əminlik ifadə olundu.

Görüşdə qarşılıqlı maraq doğuran bir sıra digər məsələlər müzakirə edildi.

AZƏRBAYCAN RESPUBLİKASININ DİPLOMATİK XİDMƏT ORQANLARI RƏHBƏRLƏRİNİN İKİNCİ MÜŞAVİRƏSİ KEÇİRİLMİŞDİR

Avqustun 14-də Xarici İşlər Nazirliyində Azərbaycan Respublikasının diplomatik xidmət orqanları rəhbərlərinin ikinci müşavirəsi keçirilmişdir.

Azərbaycan Prezidenti İlham Əliyev müşavirədə iştirak etmişdir.

Dövlətimizin başçısı İlham Əliyev nazirliyin binasını gəzdi, ümummilli liderimiz Heydər Əliyevin foyedə qoyulmuş mərmər büstünə tamaşa etdi.

Müşavirədə xarici işlər naziri Elmar Məmmədyarov 2004-2006-cı illərdə Azərbaycan Respublikasının diplomatik xidmət orqanlarının fəaliyyəti barədə çıxış etdi.

XARİCİ İŞLƏR NAZİRİ ELMAR MƏMMƏDYAROVUN ÇIXIŞI

- Möhtərəm cənab Prezident,

Hörmətli müşavirə iştirakçıları,

Azərbaycan Respublikasının diplomatik xidmət orqanları rəhbərlərinin artıq mütəmadi xarakter almış müşavirələri görülən işlərə qiymət vermək, fəaliyyətimizin daha keyfiyyətli təşkilini təmin etmək, müvafiq dövlət qurumları ilə mövcud əlaqələrin səviyyəsini yüksəltmək nöqteyi-nəzərindən olduqca əhəmiyyətlidir.

Möhtərəm cənab Prezident,

Birinci müşavirədə Sizin verdiyiniz göstərişlərin diplomatik xidmət orqanları tərəfindən yerinə yetirilməsinə xüsusi əhəmiyyət verilmiş, müşavirədə səslənmiş təklif və fikirlər ciddi təhlil olunmuş, fəaliyyətimizin planlaşdırılmasında və praktik işimizdə nəzərə alınmışdır.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin ölkəmizin suverenliyi, ərazi bütövlüyü və sərhədlərinin toxunulmazlığı əsasında həlli məsələsi hesabat dövründə

də diplomatik xidmət orqanlarının işinin ən başlıca istiqaməti olaraq qalmışdır.

Azərbaycanın işğal olunmuş bütün ərazilərinin azad edilməsinin zəruriliyinə, didərgin salınmış əhalinin doğma yerlərinə qayıtmasına və Azərbaycanın Dağlıq Qarabağ bölgəsində Azərbaycan və erməni icmalarının dinc yanaşı yaşamasına əsaslanan strategiya Azərbaycan Respublikası Prezidentinin rəhbərliyi altında ardıcıl surətdə həyata keçirilmişdir.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi beynəlxalq təşkilatların diqqətində qalmaqda davam etmişdir. Belə ki, Avropa Şurası Parlament Assambleyasının 2005-ci ildə qəbul edilmiş qətnaməsində Azərbaycan ərazilərinin işğal edilməsi və orada etnik təmizləmə aparılması faktı *öz təsdiqini tapmışdır*. İslam Konfransı Təşkilatının 3-cü fövqəladə zirvə görüşü və xarici işlər nazirlərinin 32-ci və 33-cü konfransları zamanı təşkilata üzv olan dövlətlər Ermənistanın davam edən təcavüzünü pisləyərək, ölkəmizlə həmrəy olduqlarını bir daha təsdiqləmişlər.

Hesabat dövründə xarici siyasətimizin prioritetlərindən biri olan beynəlxalq təşkilatlarla sıx əməkdaşlıq üzrə fəaliyyətimiz davam etdirilmişdir.

BMT çərçivəsində səylərimizin daha da artırılması öz bəhrəsini verməyə başlamışdır. Belə ki, Azərbaycan yeni yaradılmış BMT-nin İnsan Hüquqları Şurasının tərkibinə cari ildə keçirilən ilk seçkilərdə bu nüfuzlu qurumun üzvü seçilmişdir.

Ötən dövr ərzində Azərbaycan terrorizmə, transmilli mütəşəkkil cinayətkarlığa, narkotiklərin qanunsuz dövriyyəsinə və digər növ təhlükəli cinayətlərə qarşı BMT və Avratlantik tərəfdaşlığı çərçivəsində beynəlxalq mübarizədə iştirakını davam etdirmişdir.

Hazırda uğurla həyata keçirilən "Fərdi tərəfdaşlığın fəaliyyət planı" Azərbaycanın NATO ilə inteqrasiya əlaqələrinin inkişafı prosesində mühüm amilə çevrilmişdir.

Avropa qonşuluq siyasəti çərçivəsində Fəaliyyət planının işlənib hazırlanması Avropa İttifaqı ilə tərəfdaşlığımızın inkişaf etdirilməsi baxımından böyük əhəmiyyətə malikdir. Aparılmış danışıqlar nəticəsində Fəaliyyət planının razılaşdırılması artıq son mərhələyə çatmışdır.

ATƏT ilə əməkdaşlıq ardıcıl surətdə davam etdirilmiş, hərbi-siyasi, iqtisadi-ekoloji və insan ölçüləri üzrə ATƏT-lə ölkəmiz arasında sıx əlaqələrin təmin olunması istiqamətində iş aparılmışdır.

Azərbaycan İslam Konfransı Təşkilatı çərçivəsində fəaliyyətini daim diqqət mərkəzində saxlayır. İKT ölkələri xarici işlər nazirlərinin Bakıda keçirilmiş 33-cü konfransından sonra Azərbaycan öz sədrliyi çərçivəsində artıq işə başlayıb, İKT-dən olan həmkarları ilə məsləhətləşmələr aparır və sıx əlaqələr qurur. Azərbaycan Livanda baş verən son hadisələrlə bağlı BMT və İKT çərçivəsində fəal səylər göstərmişdir.

Azərbaycan ilə YUNESKO arasındakı münasibətlər keyfiyyətcə yeni səviyyəyə yüksələrək, ölkəmizin humanitar siyasətinin mühüm tərkib hissəsinə çevrilmişdir. Ölkəmiz YUNESKO-nun İcraiyyə Şurasına üzv seçilmiş, bir sıra tarixi və mədəni abidələrimizin YUNESKO-nun Dünya irsi siyahısına salınması istiqamətində məqsədyönlü iş aparılır.

Bu il keçirilmiş zirvə görüşündə beynəlxalq regional təşkilat statusuna malik olmuş GU-

AM-ın üzv dövlətləri arasında onların ərazilərində mövcud münaqişələrin həlli ilə bağlı yekdil mövqeyin formalaşdırılması, səmərəli və təhlükəsiz nəqliyyat dəhlizlərinin təmin edilməsi sahəsində əməkdaşlıq inkişaf edir.

Hesabat dövründə Azərbaycanın Dünya Ticarət Təşkilatına üzvlüyünə dair danışıqlar davam etdirilmiş, İqtisadi Əməkdaşlıq Təşkilatının zirvə və nazirlər görüşləri, eləcə də, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı və digər iqtisadi yönümlü beynəlxalq təşkilatların mühüm tədbirləri təşkil edilmişdir.

İkitərəfli münasibətlərin inkişaf etdirilməsi və möhkəmləndirilməsi XİN-in daim diqqət mərkəzində saxlanılmışdır.

Dövlət və hökumət başçıları, parlamentlərin və xarici işlər nazirliklərinin rəhbərləri səviyyəsində çoxsaylı qarşılıqlı səfərlər həyata keçirilmiş, birgə hökumətlərarası komissiyaların və işçi qrupların iclasları təşkil olunmuş və dövlətlərarası müqavilə-hüquq bazasının genişləndirilməsi prosesi davam etdirilmişdir. Hesabat dövründə Azərbaycanın 39 beynəlxalq konvensiyaya qoşulması təmin olunmuş, ölkəmizin digər dövlətlərlə müxtəlif sahələri əhatə edən 300 müqavilənin hazırlanması və imzalanması təşkil edilmişdir.

Son iki il ərzində Azərbaycanın ABŞ-la strateji tərəfdaşlığı daha da möhkəmlənmiş və genişlənmişdir. Azərbaycan Respublikası Prezidentinin ABŞ-a 2006-cı ildəki səfəri ölkələrimizin münasibətlərində yeni səhifə açmış və əlaqələrimizin inkişafına təkan vermişdir.

Rusiya ilə Azərbaycan arasında olan strateji tərəfdaşlıq münasibətləri üçün yüksək səviyyədə intensiv dialoq, ticarət-iqtisadi əlaqələrin artan templə inkişafı, humanitar və başqa sahələrdə fəal qarşılıqlı əməkdaşlıq səciyyəvidir.

Türkiyə Azərbaycanın ən etibarlı strateji tərəfdaşı olaraq, qlobal enerji-nəqliyyat layihələri, dünya siyasətinin və iqtisadiyyatının aktual məsələləri üzrə ölkəmizlə eyni mövqedən çıxış edir.

Son iki ildə ölkəmiz ilə Almaniya, Avstriya, Fransa, İngiltərə, İtaliya, Latviya, Litva, Macarıstan, Polşa və Rumıniya arasında iqtisadi əməkdaşlıq və siyasi dialoq intensiv şəkildə inkişaf etməkdədir.

Azərbaycanın İran ilə də əlaqələri inkişaf etmişdir. İki ölkənin prezidentləri səviyyəsində həyata keçirilmiş səfərlər nəticəsində ölkələrimiz arasında olan münasibətlər yeni mərhələyə qaldırılmış, ikitərəfli əlaqələrimizin inkişafına təkan verilmişdir.

Çin, Yaponiya və Cənubi Koreya ilə siyasi, iqtisadi, mədəniyyət, elm və təhsil sahələrində əlaqələrimiz dinamik şəkildə inkişaf etməkdədir. Bir sıra yüksək səviyyəli səfərlər təşkil olunmuş, çoxsaylı sənədlər imzalanmışdır.

Azərbaycan ilə Səudiyyə Ərəbistanı, habelə Birləşmiş Ərəb Əmirlikləri, Küveyt, Qətər və Oman arasında əlaqələrin inkişafı davam edir, bir çox sahələrdə fəal dialoq mövcuddur.

İndoneziya, Pakistan, Malayziya və Bruney ilə əlaqələr genişlənir, onların inkişafı istiqamətində konkret addımlar atılmışdır.

Mərkəzi Asiya ölkələri ilə olan ənənəvi dostluq və əməkdaşlıq əlaqələrimiz Azərbay-

can Prezidentinin 2004-cü ildə Qazaxıstana, 2005-ci ildə isə Özbəkistana rəsmi səfərləri zamanı bir daha nümayiş olunmuşdur.

Siyasi, iqtisadi və humanitar sahələrdə qarşılıqlı əməkdaşlıq üçün geniş imkanlara malik olan Latın Amerikası bölgəsi ilə Azərbaycan arasında əlaqələr ötən müddət ərzində genişlənmiş, təkmilləşdirilən müqavilə-hüquq bazası münasibətlərin inkişafına əlverişli şərait yaratmışdır.

Xarici siyasətin əsas istiqamətlərindən olan iqtisadi meyar üzrə XİN-in davamlı fəaliyyəti nəticəsində Azərbaycanın iqtisadi potensialını və işgüzar mühitini, azad biznesin inkişafı üçün yaradılmış əlverişli şəraiti nümayiş etdirən investisiya və biznes forumları, habelə xarici ölkələrin hökumət və özəl sektorunun nümayəndələrinin ölkəmizə səfərləri təşkil edilmişdir.

Ötən dövr ərzində insan hüquqları və demokratikləşmə sahələrində XİN-in fəaliyyəti davam etdirilmişdir. Belə ki, 2005-ci ildə ölkəmizdə keçirilmiş parlament seçkiləri ilə bağlı XİN-in apardığı məqsədyönlü fəaliyyət nəticəsində seçkilər haqqında düzgün və obyektiv məlumat beynəlxalq ictimaiyyətə çatdırılmışdır.

Xarici İşlər Nazirliyi mətbuat, informasiya və təbliğat sahəsində də bir sıra irəliləyişlərə nail olmuşdur. Yüksək səviyyəli xarici qonaqların ölkəmizə səfərləri və keçirilmiş görüşlər barədə mütəmadi olaraq mətbuat konfransları və brifinqlər təşkil edilir, bu görüşlər mətbuatda işıqlandırılır, müxtəlif ölkədaxili, regional və beynəlxalq məsələlərə dair XİN-in mövqeyi press-relizlərdə əks etdirilir. Diplomatik nümayəndəliklərimiz mütəmadi olaraq XİN tərəfindən təmin edildikləri təbliğat materiallarını və ölkəmiz haqqında məlumatı xaricdə yayırlar. Bir sıra xarici kütləvi informasiya vasitələrində, jurnal və qəzetlərdə Azərbaycan haqqında məlumatlar öz əksini tapmış, televiziya kanallarında ölkəmizə dair verilişlər nümayiş etdirilmişdir.

Konsulluq-hüquq məsələləri Xarici İşlər Nazirliyinin işinin mühüm tərkib hissəsini təşkil edir. Hesabat dövründə bir sıra ölkələrlə müvafiq sənədlər imzalanmış, bir çox saziş layihələri Nazirlər Kabinetinə təqdim olunmuşdur. Bəzi qanunlara və Konsulluq Nizamnaməsinə müvafiq dəyişikliklərin edilməsi barədə təkliflər hazırlanıbdır. 2005-ci ildə konsulluq əməliyyatlarına görə 5.172.840 ABŞ dolları, cari ilin birinci yarısında isə 2.500.000 ABŞ dollarından artıq məbləğdə rüsum tutularaq, dövlət büdcəsinə köçürülübdür.

Möhtərəm cənab Prezident,

Ölkəmizin beynəlxalq əlaqələr sistemində tutduğu yeri nümayiş etdirmək üçün bildirmək istərdim ki, bu günə olan vəziyyətə görə 160 ölkə Azərbaycan Respublikası ilə diplomatik əlaqə qurmuşdur. Azərbaycanda Bakıda iqamətgahı olan 30 səfirlik, 2 baş konsulluq, beynəlxalq təşkilatların 12 nümayəndəliyi, 7 fəxri konsulluq fəaliyyət göstərir. İqamətgahları digər şəhərlərdə olan 43 diplomatik nümayəndəliyin rəhbərləri də Azərbaycanda akkreditə edilmişdir.

Hazırda Azərbaycanın xaricdə 37 səfirliyi, beynəlxalq təşkilatlar yanında 4 nümayəndəliyi, 5 baş konsulluğu, 1 konsulluğu, 2 fəxri konsulluğu fəaliyyət göstərir. Onlardan 20-si 2004-2006-cı illərdə fəaliyyətə başlayıbdır. Hazırda Azərbaycanın diplomatik nümayəndəlik və konsulluqlarında 278 diplomat çalışır.

Normativ-hüquq bazasının təkmilləşdirilməsi məqsədi ilə səfirliklər və daimi nümayəndəliklər haqqında əsasnamələr, XİN-ə işə qəbul qaydaları təsdiq edilmiş, konsulluqlar haqqında əsasnamə, diplomatik xidmət işçilərinin attestasiya qaydaları və diplomatik nümayəndəliklərin maliyyə təminatı qaydaları üzrə iş yekun mərhələsindədir. "Diplomatik xidmət haqqında" qanunun və "Xarici İşlər Nazirliyi haqqında Əsasnamə"nin yeni variantları üzrə iş gedir. Azərbaycan Respublikasının vahid xarici siyasət xəttinin həyata keçirilməsində Xarici İşlər Nazirliyinin əlaqələndirici rolunun gücləndirilməsi haqqında fərmanın layihəsi Azərbaycan Respublikası Prezidentinə təqdim olunmuşdur.

Diplomatik xidmət orqanlarının sisteminə rəhbərliyin və nəzarətin lazımi səviyyədə təşkili məqsədi ilə onların işinin uzunmüddətli planlaşdırılması və müvafiq hesabatların təqdim olunması təmin edilmişdir.

Diplomatik xidməti layiqli kadrlarla təmin etmək məqsədi ilə hesabat dövründə diplomatik xidmətə qəbul artıq iki dəfə müsabiqə əsasında keçirilmişdir. Mövcud kadrlarımızın peşəkarlığının artırılması məqsədi ilə nazirlikdə təlim və ixtisasartırma kursları təşkil edilmişdir.

Nazirliyin strukturunun təkmilləşdirilməsi istiqamətində işlər davam etdirilmişdir. Ötən iki illik müddət ərzində nazirliyin Kollegiyası və bir sıra yeni struktur bölmələri yaradılmış, nazirliyin Diplomatik Akademiyası təsis edilmişdir. Belə ki, XİN-də 21 struktur bölmə (17 idarə, 4 şöbə) fəaliyyət göstərir.

Möhtərəm cənab Prezident,

Çıxışımın sonunda qeyd etmək istərdim ki, Azərbaycan diplomatik xidmət orqanlarının qarşısında həyata keçirilməsi zəruri olan hələ çox vəzifələr durur. Sizi əmin etmək istəyirəm ki, Azərbaycan Respublikasının diplomatik xidmət əməkdaşları Sizin tərəfinizdən onlara tapşırılan vəzifələrin yerinə yetirilməsində öz əməklərini əsirgəməyəcəklər.

Diqqətinizə görə sağ olun.

[redacted]

Azərbaycan Prezidenti İlham Əliyev müşavirədə nitq söylədi.

PREZİDENT İLHAM ƏLİYEVİN NİTQİ

Bakı, 14 avqust 2006-cı il

- Hörmətli xanımlar və cənablar,

Səfirlər, Xarici İşlər Nazirliyinin əməkdaşları!

Bugünkü toplantı artıq ənənəvi xarakter daşıyır. İki il bundan əvvəl ilk dəfə olaraq, Azərbaycanı xaricdə təmsil edən səfirlərlə geniş müşavirə keçirilmişdir. Bugünkü müşavirədə biz, əlbəttə ki, son iki il ərzində görülmüş işləri təhlil edəcəyik. Eyni zamanda, şübhəsiz ki, gələcək planlar haqqında da fikir mübadiləsi aparılacaqdır.

Bu müşavirədə Azərbaycan hökumətinin digər üzvləri də iştirak edəcək və bir neçə gün ərzində səfirlər Azərbaycanda gedən proseslər barədə dolğun məlumat alacaqlar. Əl-

bəttə ki, hər bir nazirliyin fəaliyyəti xaricdə Azərbaycanı təmsil edən səfirlər üçün çox maraqlı olmalıdır. Siz Azərbaycanda gedən proseslərdən, aparılan işlərdən, əlbəttə ki, xəbərdarsınız. Ancaq, eyni zamanda, bu məsələlərin çox geniş şəkildə müzakirəsi sizin üçün də həm maraqlı olacaq, həm də ümumi işimizə çox böyük töhfə olacaqdır.

Son iki il ərzində Azərbaycanın xarici siyasəti uğurla davam etdirilir. Azərbaycan həm ikitərəfli formatda, eyni zamanda, beynəlxalq təşkilatlarda öz mövqelərini çox inamla müdafiə edir. Deyə bilərəm ki, son iki il ərzində Azərbaycanın bölgədəki və dünyadakı mövqeləri çox kəskin şəkildə möhkəmlənmişdir. Bizim bütün ölkələrlə ikitərəfli formatda münasibətlərimiz çox müsbət zəmində, qarşılıqlı hörmət, etimad əsasında qurulur və Azərbaycan Prezidentinin müxtəlif xarici səfərləri bunun əyani göstəricisidir.

Onu da deyə bilərəm ki, son iki il yarım ərzində Azərbaycan Prezidenti Birləşmiş Millətlər Təşkilatı Təhlükəsizlik Şurasının beş daimi üzvü olan ölkələrə rəsmi səfərlər etmişdir. Bu, özlüyündə çox gözəl göstəricidir. Azərbaycan həm əhali baxımından, həm də ərazi baxımından böyük ölkə deyil. Dünyanın aparıcı ölkələri ilə bizim çox səmərəli münasibətlərimiz, bir tərəfdən, əlbəttə ki, Azərbaycanın önəmindən xəbər verir, digər tərəfdən, şübhəsiz ki, Azərbaycanın düşünülmüş xarici siyasət prinsiplərindən irəli gəlir. Bir daha demək istəyirəm ki, bütün ölkələrlə münasibətlərimiz qarşılıqlı surətdə faydalı şəkildə aparılır və biz bu prinsiplərə sadiqik.

Qonşu ölkələrlə Azərbaycanın münasibətləri son iki il ərzində daha da möhkəmlənibdir. Biz bu bölgədə yaşayırıq və əlbəttə ki, bölgədə gedən proseslər, istər-istəməz, müəyyən dərəcədə Azərbaycana da təsir edir. Azərbaycanda gedən işlər, Azərbaycanın mövqeyi artıq bölgədə gedən proseslərə də çox önəmli dərəcədə təsir göstərir. Qonşu dövlətlərlə münasibətlərin sağlam şəkildə saxlanması və möhkəmlənməsi bizim mövqelərimizi möhkəmləndirir və eyni zamanda, Azərbaycanın bölgədə olan rolunu artırır. Bir də demək istəyirəm ki, bu münasibətlər çox müsbət zəmində qurulubdur və bizim milli maraqlarımıza cavab verir. Qonşu dövlətlərlə münasibətlərimiz bundan sonra da bizim üçün prioritet xarakter daşımalıdır və siyasi, iqtisadi, mədəni sahələrdə əlaqələr daha da möhkəmlənməlidir. Nəzərə alsaq ki, bizi qonşu dövlətlərlə çox sıx iqtisadi əlaqələr bağlayır, onda görərik ki, Azərbaycanın hərtərəfli inkişafı üçün bu münasibətlərin yüksək səviyyədə olması çox önəmli və zəruridir.

Beynəlxalq təşkilatlarla bizim əməkdaşlığımız uğurla davam etdirilir. Azərbaycan bir sıra beynəlxalq təşkilatların fəal üzvüdür. Nazir artıq bunu qeyd etdi ki, müxtəlif beynəlxalq təşkilatlarla bizim əlaqələrimiz güclənir. Son müddət ərzində Azərbaycanda iki mötəbər beynəlxalq tədbir keçirilmişdir. İqtisadi Əməkdaşlıq Təşkilatına üzv olan dövlətlərin zirvə görüşü və İslam Konfransı Təşkilatının xarici işlər nazirləri səviyyəsində toplantı keçirilmişdir. Hər iki görüş, toplantı çox yüksək səviyyədə keçirilmişdir və şübhəsiz ki, Azərbaycan bunların keçirilməsində özü haqqında artıq əyani şəkildə təqdimat tədbirlərini də həyata keçirmişdir. Çünki biz hələ ki, gənc müstəqil dövlətik. Biz özümüzü tanıtmalıyıq, özümüzü təqdim etməliyik. Azərbaycan haqqında, əlbəttə ki, dünyada informasiya artır. Ancaq siz də bunu bilirsiniz ki, hələ kifayət qədər deyildir. Ona görə hər bir beynəlxalq tədbirin Azərbaycanda keçirilməsi iki məqsədi güdür. Bir tərəfdən, tədbirin Azərbaycanda keçirilməsi, əlbəttə, Azərbaycanın artan rolundan xəbər verir. Digər tərəfdən, bizə imkan verir ki, xarici nümayəndələr Azərbaycan reallıqlarını öz gözləri ilə görsünlər.

Digər beynəlxalq təşkilatlarla da əməkdaşlıq müsbətdir. MDB, GUAM, Avropa Şurası və başqa təşkilatlarla Azərbaycan çox səmərəli işbirliyi, əməkdaşlıq edir. Biz bütün təşkilatlara könüllü şəkildə daxil olmuşuq və bu təşkilatlarda fəaliyyətimiz, əlbəttə, Azərbaycanın milli maraqlarının müdafiə olunmasına xidmət göstərir. Eyni zamanda, müxtəlif təşkilatlara üzv olmağımız, əlbəttə, Azərbaycanda gedən proseslərə də müsbət təsir göstərir. Misal üçün, Avropa Şurasında bizim fəaliyyətimiz, bir tərəfdən, Azərbaycanın maraqlarını müdafiə edir, digər tərəfdən, Azərbaycanda demokratik proseslərin sürətlənməsinə xidmət göstərir.

Bir sözlə, Azərbaycanın xarici siyasəti həm ikitərəfli formatda, həm də beynəlxalq təşkilatlar çərçivəsində çox uğurludur, düşünülmüş siyasətdir. Bizim strateji xəttimiz var və bu xəttə sadiqik. Son illər ərzində aparılan işlər onu göstərir ki, Azərbaycanın dünyadakı mövqeləri daha da möhkəmlənir.

Bununla bərabər, bizim diplomatiyamız çox çevik olmalıdır. Biz bölgədə və dünyada baş verən proseslərə çox operativ şəkildə reaksiya verməliyik. Eyni zamanda, öz təkliflərimizi verməliyik. Azərbaycan artıq dünyada gedən proseslərin fəal iştirakçısıdır. Bir çox hallarda bölgə və Avropa üçün önəmli tədbirlərin təşəbbüskarıdır. Bölgədə Azərbaycanın mövqeyindən artıq çox şey asılıdır. Azərbaycanın iştirakı olmadan bölgədə heç bir layihə, - nə siyasi, nə iqtisadi, nə nəqliyyat, nə də başqa, - həyata keçirilə bilməz. Ona görə bu, bizim ölkəmizi möhkəmləndirir.

Bir tərəfdən, Azərbaycanın daxilində gedən müsbət proseslər, iqtisadi artım, sosial məsələlərin həlli, regionların sosial-iqtisadi inkişaf proqramı - bütün bunlar Azərbaycanın iqtisadiyyatını möhkəmləndirir və bunun nəticəsində ölkə iqtisadiyyatı dünyada analoqu olmayan sürətlə artır. Azərbaycan bu göstəriciyə görə bu gün dünyada lider dövlətdir. Digər tərəfdən, bizim xaricdəki mövqelərimiz, beynəlxalq təşkilatlarda, ikitərəfli müstəvidə olan fəaliyyətimiz, əlbəttə ki, ölkəmizi daha da möhkəmləndirir, müəyyən risklərdən qoruyur. Bu da çox önəmlidir. Çünki dünyada gedən prosesləri biz hamımız izləyirik və görürük. Həm bölgədə, həm də başqa yerlərdə çox xoşagəlməz hadisələr baş verir. İnsanların təhlükəsizliyinə təsir göstərən proseslər gedir. Azərbaycanda bunların heç biri yoxdur. Biz ölkəmizi qorumalıyıq.

Bizim xarici siyasətimiz o cümlədən bu məqsədi güdməlidir və güdür. Azərbaycanda mümkün olan risklərin maksimum dərəcədə azaldılması xarici siyasət istiqamətində bizim əsas vəzifələrimizdən biridir. Görürsünüz ki, Azərbaycanda həm daxili vəziyyət, həm də ictimai-siyasi vəziyyət çox sabitdir, sosial vəziyyət yaxşılaşır və mümkün olan risklər minimum səviyyədədir. Bu, çox vacib məsələdir.

Əlbəttə, xaricdə Azərbaycanı təmsil edən insanlar həmişə bunu bilməli və öz fəaliyyətində unutmamalıdırlar. Bizim məqsədimiz ölkəmizi hərtərəfli inkişaf etdirmək, Azərbaycanı zəngin dövlətə çevirməkdir. Daxildə gedən proseslər, bizim bütün iqtisadi proqramlarımız bunu tezliklə reallığa çevirəcəkdir. Çünki son iki il yarım ərzində Azərbaycanda iqtisadi artım, yeni iş yerlərinin açılması sürətlə gedir. Azərbaycanda son iki ildə 435 min yeni iş yeri açılmışdır. Azərbaycan miqyaslı hansı ölkədə biz bunu görürük? Bu, heç bir ölkədə yoxdur. Ona görə, bizim iqtisadi potensialımız artdıqca, əlbəttə, ölkə də zənginləşir.

Bununla bərabər, xarici siyasətin uğurlu olması və daxili siyasətlə uzlaşması, şübhəsiz

ki, ölkəmizi hərtərəfli inkişaf etdirəcək, çox güclü regional dövlətə çevirəcəkdir. Beləliklə, Azərbaycan daha da sürətlə inkişaf edəcəkdir. Ona görə bütün bu məsələlər bir-biri ilə çox bağlıdır. Bir daha demək istəyirəm ki, bu müşavirənin keçirilməsi bu məqsədi güdür. Çünki xaricdə Azərbaycanı təmsil edən diplomatlar daxili vəziyyəti ilk mənbədən, birinci əldən bilməlidirlər. Bu baxımdan indiki müşavirənin önəmi, əlbəttə, çox böyükdür.

Bir daha demək istəyirəm ki, bütövlükdə, bizim xarici siyasətimiz çox uğurludur. Bunu biz özümüz də bilirik, tərəfdaşlarımız da bilirlər. Bəzən sual da verilir, necə olur ki, Azərbaycan bütün ölkələrlə ən yüksək səviyyədə münasibətlər qurub, ancaq heç bir güzəştə getmir? Adətən, yenə də deyirəm, böyük olmayan ölkələr nəyisə güzəştə verib, hansısa imtiyazlar əldə edirlər, yaxud da, hansısa xüsusi münasibətlərə meyilli olurlar. Azərbaycanın mövqeyi həmişə birmənalı olubdur. Biz öz milli maraqlarımızı heç kimə güzəştə getmərik. Azərbaycanın milli maraqları birinci məsələdir. Ancaq bizim təcrübəmiz, siyasətimiz onu göstərir ki, milli maraqların tam şəkildə müdafiə olunması ilə bərabər, bütün ölkələrlə qarşılıqlı surətdə faydalı əməkdaşlığın yaradılması mümkündür. Azərbaycanın timsalında biz bunu görürük.

Mən bir neçə dəfə demişəm, bu gün də demək istəyirəm, biz imkan verməyəcəyik ki, Azərbaycan rəqabət meydanına çevrilsin və buna imkan vermirik. Artıq bu, reallıqdır və hamı bu reallıqla barışır. Əksinə, Azərbaycan əməkdaşlıq meydanıdır. Bizim imkanlarımız, potensialımız, dünyaya açıq olmağımız, əlbəttə, tərəfdaşlarımız üçün də yeni imkanlar yaradır. Biz bundan səmərəli istifadə etməliyik. Biz Azərbaycana xarici sərmayələri daha da geniş şəkildə cəlb etməliyik və cəlb edirik də. Adambaşına düşən xarici sərmayənin həcminə görə Azərbaycan bölgədə birinci dövlətdir. Bu, onu göstərir ki, Azərbaycanda çox gözəl sərmayə mühiti var. Qanunvericilik imkan verir ki, investorlar Azərbaycana inamla işləməyə gəlsinlər. Digər tərəfdən, bu, Azərbaycanın iqtisadiyyatını inkişaf etdirən amillərdən biridir. Xüsusilə ilk illərdə, müstəqilliyimizin ilk illərində. Bu gün də vacibdir, baxmayaraq ki, indi bizim öz imkanlarımız artır və Azərbaycanın hərtərəfli inkişafına xidmət göstərir.

Bir sözlə, mən gələcəkdə Azərbaycan üçün hər hansı bir ciddi problem, yaxud da ki, təhlükə görmürəm. Düzdür, dünyada gedən proseslər dəyişir, dünya dəyişir və heç kim özünü heç nədən sığortalı hesab edə bilməz. Amma əgər bugünkü günü götürsək, biz görərik ki, Azərbaycanın qarşısında çox gözəl perspektivlər var və bu perspektivlərdən çox səmərəli şəkildə istifadə etməliyik.

Bizim nadir şansımız var, bundan maksimum dərəcədə istifadə etməliyik. Bakı-Tbilisi-Ceyhan neft kəmərinin işə düşməsi, onun ardınca Bakı-Tbilisi-Ərzurum qaz kəmərinin tikintisi, ondan sonra digər önəmli layihələrin həyata keçirilməsi, o cümlədən Qars-Tbilisi-Bakı dəmir yolunun tikintisi, əlbəttə ki, Azərbaycanın uzunmüddətli inkişaf strategiyasını müəyyən edir və bundan sonra uzun illər ərzində, on illiklər ərzində Azərbaycanın iqtisadi potensialını gücləndirən amillərdir. Biz bu gözəl imkanlardan çox səmərəli istifadə etməliyik. Bir tərəfdən, Azərbaycan iqtisadi cəhətdən özünü təmin edən ölkədir. Bilirsiniz ki, keçmişdə də qonşularla və MDB-nin digər ölkələri ilə müqayisədə ən az xarici yardım alan ölkə həmişə Azərbaycan olubdur. Buna baxmayaraq, bütün bu çətinliklərə baxmayaraq, biz öz ölkəmizi inkişaf etdirə bilmişik.

Bu gün isə iqtisadi inkişaf baxımından biz birinci ölkəyik. Bildiyiniz kimi, enerji təhlükəsizliyi məsələləri bu gün ön plana çıxıbdır. Azərbaycan da bu baxımdan özünü çox arxayın hiss edir. Ölkədə gedən digər proseslər, siyasi vəziyyət çox sabitdir. İqtidarla xalq arasında olan münasibətlər ən yüksək zirvədədir və bu, bizə əlavə imkanlar, əlavə güc verir. Məhz buna görə Azərbaycan bu gün müstəqil siyasət aparmaq iqtidarında olan bir ölkədir. Bir daha demək istəyirəm ki, müstəqillik təkcə dövlət atributları ilə ölçülmür. Müstəqillik o deməkdir ki, ölkə tam şəkildə müstəqil siyasət apara bilsin, öz xalqının maraqlarını tam şəkildə müdafiə edə və dünyada olan öz mövqelərini möhkəmləndirə bilsin. Budur müstəqillik.

Azərbaycan bu gün müstəqil siyasət aparan ölkədir və bu, bizim üçün ən böyük dəyərdir, ən böyük nemətdir. Yəni bu sahədə də müsbət imkanlar var. Biz bu gözəl imkanlardan səmərəli istifadə etməliyik. Çünki Azərbaycanın artan önəmi, iqtisadi potensialı, uğurlu xarici siyasəti, böyük dövlətlərlə olan strateji tərəfdaşlığımız - bütün bunlar ölkəmiz üçün çox gözəl perspektivlər açır. Biz də bunlardan səmərəli istifadə edirik və edəcəyik. Bu sahədə səfirliklərin də çox böyük rolu var. Çünki Azərbaycan haqqında həqiqətləri dünya birliyinə çatdırmaq çox önəmlidir. Yenə deyirəm, hələ ki, dünya ictimaiyyəti bizi geniş şəkildə, olduğumuz qədər tanımır. Bunun müəyyən təbii səbəbləri var. Çünki biz gənc dövlətik.

Digər tərəfdən, Azərbaycan əleyhinə işləyən güclü erməni lobbi təşkilatları var. Hansı ki, gündəlik fəaliyyətində Azərbaycana qarşı yalan, böhtan kampaniyası aparırlar. Bu da reallıqdır. Ona görə bizim nümayəndəliklərimiz bu məsələdə çox fəal olmalıdırlar. İşlədikləri ölkələrin müxtəlif qurumları ilə, təkcə dövlət qurumları ilə yox, parlament üzvləri ilə, qeyri-hökumət təşkilatları ilə, mətbuatla, geniş şəkildə ictimaiyyətlə təmasda olmalıdırlar ki, Azərbaycan haqqında reallıqlar dünya birliyinə olduğu kimi çatdırılsın. Bu, bizi daha da möhkəmləndirəcəkdir.

Bu barədə keçən dəfə mən öz tövsiyələrimi vermişdim. Bəzi ölkələrdə bu tövsiyələr yerinə yetirilibdir. Bəzi ölkələrdə, - mən indi ad çəkmək istəmirəm, - hələ ki, passivlik nümayiş etdirilir. Mən tələb edirəm ki, bütün səfirliklər bu praktikanı öz gündəlik fəaliyyətində tətbiq etsinlər və fəal olsunlar. Bizim artıq 46 ölkədə səfirliyimiz təsis edilibdir. Bəzi ölkələrdə hələ səfirlik yaranmayıb, onlarda da yaranacaqdır. Son iki il ərzində 21 ölkədə səfirlik təsis olunubdur. Biz bunu nə üçün edirik? Baxmayaraq ki, çox böyük maliyyə vəsaiti tələb edir, ona görə edirik ki, Azərbaycanı tanısınlar. Azərbaycan müxtəlif ölkələrdə öz mövqelərini möhkəmləndirə bilsin. Bizim imkanlarımız artsın və dünyada gedən proseslərdə Azərbaycanın rolu artsın. Bu istiqamətdə hələ böyük işlər görmək lazımdır.

Mən qeyd etdim ki, erməni lobbisi bizim əleyhimizə çox fəal kampaniya aparır və bunu hiss edirik, görürük. Bəzi hallarda müxtəlif xarici mətbuat orqanlarında Azərbaycana qarşı qərəzli məqalələrin arxasında da məhz erməni lobbisi dayanır. Biz bunu bilirik, öz mübarizəmizi aparmalıyıq və daha fəal olmalıyıq. Bu istiqamətdə öz siyasətimizi daha da güclü aparmalıyıq. Mən bir neçə dəfə demişəm, bir də demək istəyirəm, biz informasiya hücumuna keçməliyik. Biz Ermənistanın işğalçı siyasətini ifşa etməliyik. Çünki reallıq da bundan ibarətdir. Ermənistan Azərbaycan torpaqlarını zəbt edibdir və Ermənistanın təcavüzkar, etnik təmizləmə siyasəti nəticəsində bizim 1 milyondan çox soydaşı-

mız qaçqın, köçkün vəziyyətinə düşübdür. Amma erməni lobbisi tərəfindən aparılan təbliğat bəzi ölkələrdə tam fərqli bir mənzərə yaradıbdır. Baxmayaraq ki, bir ölkə kimi Ermənistanın diplomatik imkanları çox məhduddur. Baxmayaraq ki, ölkə öz iqtisadi potensialına görə, əlbəttə, bizdən çox geridədir və imkanı yoxdur ki, müxtəlif ölkələrdə səfirliklər açsın. Amma erməni lobbisi onların, elə bil ki, səfirlikləridir və onlar bir nöqtəyə vururlar. Onların bir hədəfi var, o da Azərbaycandır. Biz bu sahədə çox ciddi işlər aparmalıyıq və aparırıq.

O ki qaldı, Ermənistan-Azərbaycan münaqişəsinin həlli məsələsinə, bilirsiniz ki, danışıqlar Praqa prosesi çərçivəsində aparılmışdır. Azərbaycanın mövqeyi dəyişməz olaraq qalır. Biz hesab edirik ki, bu məsələ, bu münaqişə yalnız mərhələli yollarla öz həllini tapa bilər və Praqa prosesi, əslində, məsələnin mərhələli həlli deməkdir. Azərbaycan torpaqları işğalçı qüvvələrdən azad olunmalıdır. Qaçqınlar, köçkünlər öz doğma torpaqlarına, o cümlədən Dağlıq Qarabağa qayıtmalıdırlar. Ondan sonra Dağlıq Qarabağın statusu məsələsi müzakirə oluna bilər. Status müzakirə ediləndə, əlbəttə ki, ilk növbədə, beynəlxalq hüquq normaları tətbiq olunmalı və dünyada mövcud olan müsbət praktika, təcrübə də tətbiq olunmalıdır. Bilirik ki, müxtəlif ölkələrdə milli azlıqlar var, muxtariyyətlər var. Milli azlıq olmaq hələ o demək deyil ki, separatizm yolu ilə ölkənin bir hissəsini ondan ayırıb hansısa müstəqil dövlət qurasan. Azərbaycan heç vaxt imkan verməyəcək ki, ərazimizdə ikinci erməni dövləti yaradılsın. Bu, bizim birmənalı mövqeyimizdir və istəyirəm ki, siz də bunu biləsiniz.

Ermənistan tərəfi danışıqların gedişatı zamanı təxribat xarakterli müxtəlif uydurmalar, bəzi fərziyyələr irəli sürür. Bu, onların arzuları ola bilər, amma reallığı əks etdirmir. Reallıq da tam başqadır. Bizim mövqeyimiz beynəlxalq hüquq normalarına əsaslanır. Beynəlxalq hüquq normaları onu tələb edir ki, Azərbaycanın ərazi bütövlüyü bərpa olunsun. Dağlıq Qarabağ həm tarixi, mədəni baxımdan, eyni zamanda, hüquqi baxımdan Azərbaycanın ayrılmaz hissəsidir. Azərbaycan Birləşmiş Millətlər Təşkilatına Dağlıq Qarabağla birlikdə üzv olmuşdur. Azərbaycanın ərazi bütövlüyünü bütün ölkələr, o cümlədən Minsk qrupunun həmsədr ölkələri də tanıyırlar. Belə olan halda, Dağlıq Qarabağın Azərbaycandan hansı ayrılmasından söhbət gedə bilər?! Tamamilə mümkün olan məsələ deyildir.

Azərbaycanın mövqeləri günü-gündən möhkəmlənir. Bir də demək istəyirəm ki, hüquqi cəhətdən bizim mövqelərimiz sarsılmazdır. Ermənistanın mövqeyi çox zəifdir. Yəni, deyirlər ki, Dağlıq Qarabağda yaşayan ermənilər öz müqəddəratını təyin etməlidirlər. Belə olan halda, başqa ölkələrdə də ermənilər var. Mən bunu həmişə demişəm, onlar başqa ölkələrdə də öz müqəddəratlarını təyin edəcəklər?! Amerikada, Los-Ancelesdə erməni dövləti yaradacaqlar? Yoxsa, Fransada, Marseldə, yoxsa Krasnodar vilayətində, yoxsa Gürcüstanda? Əgər onlar bu məntiqlə yanaşırlarsa, dünyada neçə erməni dövləti yaranacaqdır?! Bu, mümkün olan şey deyil. Nə üçün burada Azərbaycan istisna olmalıdır? Nə üçün ikinci erməni dövləti məhz Azərbaycan ərazisində yaradılmalıdır? Hansı məntiqdən söhbət gedir? Mən bütün başqa məsələləri kənara qoyuram. Biz buna heç vaxt imkan verməyəcəyik və bir daha bunu bəyan edirəm. Amma, sadəcə, məntiqdən söhbət gedir. Ona görə onların hüquqi mövqeləri çox zəifdir.

Gəlin, tarixi götürək. Tarixi baxımdan da Qarabağ həmişə Azərbaycan torpağı olubdur,

bizim torpağımızdır. Yəqin, onu da yaxşı bilirsiniz ki, İrəvan Ermənistana Azərbaycan Xalq Cümhuriyyəti yarananda, məhz Azərbaycan Xalq Cümhuriyyəti tərəfindən verilmişdir. İrəvan xanlığında yaşayan insanların əksəriyyəti azərbaycanlı idi. Zəngəzur mahalında yaşayanların hamısı azərbaycanlı idi. Ona görə, tarixi baxımdan da bu, bizim torpağımızdır. Gəlin, iqtisadi cəhətdən baxaq. Bu gün Azərbaycanı və Ermənistanı müqayisə etmək mümkün deyil. Bizim iqtisadiyyatımız bu gün Ermənistan iqtisadiyyatından beş-altı dəfə böyükdür. Nəzərə alsaq ki, bizim əsas layihələrimiz indi başlanğıc mərhələsindədir, gəlin, bir az uzağa baxaq. Gəlin, üç il, beş il irəliyə baxaq ki, nə olacaq? Ermənistan Azərbaycanla rəqabət apara biləcəkmi? Yox! Bunu nə qədər tez başa düşsələr, onlar üçün o qədər də faydalı olar. Əgər onlar Azərbaycanın indiki təkliflərinə razı olmasalar, Azərbaycanın ondan sonrakı təklifləri daha da sərt olacaqdır. Onu da yaddan çıxartmamalıdırlar. Ona görə, bütün istiqamətlərdə üstünlük bizim tərəfimizdədir. Yenə də demək istəyirəm ki, siyasi proseslər baxımından Azərbaycan tam şəkildə müstəqil siyasət aparmaq iqtidarında olan bir ölkədir və bunu edir. Bununla bərabər, dünyanın aparıcı ölkələri ilə çox səmimi, işgüzar münasibətlər qura bilibdir. Bu münasibətlər bərabərlik prinsipi, qarşılıqlı hörmət əsasında, daxili işlərə qarışmamaq şərti ilə qurulubdur. Azərbaycanın torpaqlarını zəbt edən və daim narahatlıq hissləri keçirən Ermənistan, istər-istəməz, özünə haradasa sığınacaq, hami axtarır. Belə olan halda, təbii ki, ölkənin müstəqil siyasət aparmaq gücü tükənir. Nəzərə alsaq ki, iqtisadi cəhətdən, coğrafi vəziyyətdən, dünya üçün önəmi baxımından Azərbaycanla müqayisə edilməz səviyyədədir, əlbəttə ki, bu münaqişənin həll olunmaması nəticəsində Ermənistanın gələcəyi çətin olacaqdır. Bildiyiniz kimi, son illər ərzində ordu quruculuğuna böyük diqqət göstərilir. Bu da təbiidir. Birinci növbədə ona görə ki, Azərbaycanın bütövlükdə büdcəsi artır. Son üç il ərzində Azərbaycanın büdcəsi dörd dəfə artmışdır, yenə də artacaq, gələn il daha da artacaqdır. Təbii ki, bununla bərabər, bütün başqa xərclər artdıqca, hərbi xərclər də artır. Bu, məsələnin bir tərəfidir. Yəni, burada heç bir fövqəladə məsələ yoxdur. Bəzi hallarda müəyyən xarici dairələrdə belə bir fikir yaranır ki, Azərbaycanın hərbi xərcləri artır, bu, regionda təhlükə yarada bilər. Biz ancaq hərbi xərcləri artırsaydıq, deyə bilərdik ki, bəli, məntiq var. Amma bütün xərclər artır, o cümlədən hərbi xərclər. Amma bununla bərabər, Azərbaycan müharibə şəraitində yaşayan bir ölkədir. Atəşkəs rejiminin mövcud olması o demək deyil ki, müharibə qurtarıbdır. Müharibə qurtarmayıbdır. Müharibənin birinci dövrü müvəqqəti olaraq dayandırılıb, atəşkəs rejimi yaranıbdır. Amma o demək deyil ki, müharibə qurtarıbdır. Biz müharibə şəraitində yaşayan, torpaqlarımız işğal altında olan ölkəyik. Belə olan halda, müdafiə xərclərinin artması zəruridir. Bu, bu gün də var, sabah da olacaq və bu siyasət bundan sonra da davam etdiriləcəkdir.

Bir sözlə, mən bir daha demək istəyirəm ki, biz sülh danışıqlarına sadiqik. Biz hesab edirik ki, Praqa prosesi çox müsbət bir çərçivədir və Azərbaycan bu çərçivədə razılaşmanın əldə olunmasında maraqlıdır və buna hazırdır. Amma Ermənistanın qeyri-konstruktiv mövqeyi imkan vermir ki, Praqa prosesinin əsas müddəaları həyata keçsin. Ancaq biz hələ ki, ümidlərimizi üzməmişik. Hələ ümidlərimiz var ki, bu məsələ danışıqlar yolu ilə həll oluna bilər. Amma bunu həll etmək üçün birinci növbədə, Ermənistan konstruktiv mövqe nümayiş etdirməlidir. Digər tərəfdən, bu məsələ ilə məşğul olan vasitəçilər də daha da fəal olmalıdırlar. Ermənistanla Azərbaycanı bir müstəviyə

qoymaq olmaz. Biz zərərçəkən ölkəyik. Nəyimiz var ki, biz onu Ermənistana güzəştə gedək? Biz onların torpağını zəbt etməmişik ki, onu qaytaraq. Ona görə gərək bu yanaşmaya düzəliş edilsin. Burada açıq-aydın göstərilməlidir ki, müharibənin təşəbbüskarı kim olub və zərərçəkən tərəf kim olubdur.

Hesab edirəm ki, mən bu barədə fikirlərimi kifayət qədər sizə çatdırdım. Bir də demək istəyirəm ki, Azərbaycanın mövqeyində heç bir dəyişiklik yoxdur. Dağlıq Qarabağ münaqişəsi yalnız və yalnız beynəlxalq hüquq prinsipləri əsasında öz həllini tapa bilər. Siz də çalışdığınız ölkələrdə bu məsələni gündəliyin birinci məsələsi kimi həmişə nəzərdə saxlamalısınız.

Mən bilirəm ki, bu, belədir. Bilirəm ki, Xarici İşlər Nazirliyi tərəfindən təlimatlar verilibdir. Səfirlərin özləri də bu məsələdə çox fəaldırlar. Bizim bu məsələdən başqa ciddi problemimiz yoxdur və gələcəkdə də olmayacaqdır. Bu məsələ Azərbaycanın inkişafına da mənfi təsir göstərir. Baxmayaraq ki, bu gün iqtisadi inkişaf sürətinə, siyasi proseslərin müsbət olmasına görə iqtisadi potensialın artması onsuz da gedir. Ancaq təsəvvür edin, əgər bu məsələ öz həllini taparsa, Azərbaycan nə qədər daha da sürətlə irəliyə gedəcəkdir. Nə qədər yeni imkanlar yaranacaq, nə qədər xarici investorlar daha da inamla Azərbaycanla işləyəcəklər. Ona görə bu məsələdə hamımız çox fəal olmalıyıq. Təkcə səfirlər, yaxud da səfirliklərin işçiləri deyil, bütün ictimaiyyət, bütün Azərbaycan xalqı. Bu, ümummilli məsələdir. Ümummilli məsələdə hamı birləşməlidir və hamı bir nöqtəyə vurmalıdır.

Bir məsələyə də diqqət yetirmək istərdim. Mən qeyd etdim ki, həm ikitərəfli formatda, eyni zamanda, beynəlxalq təşkilatlarla olan münasibətlərdə bizim işlərimiz yaxşı gedir. İstərdim, siz bir sahəni də həmişə yadda saxlayasınız. Qeyri-hökumət təşkilatları ilə münasibətlər səfirliklər tərəfindən qurulmalıdır. Çünki qeyri-hökumət təşkilatları da dünyada gedən proseslərin bir hissəsidir. Bəzi hallarda, xüsusilə Azərbaycanın timsalında qeyri-hökumət təşkilatları çox siyasiləşibdir. Ona görə onların bir çoxunu heç qeyri-hökumət təşkilatı adlandırmaq mümkün deyildir. Beynəlxalq qeyri-hökumət təşkilatlarının bəzilərinin qərəzli, ədalətsiz mövqeyi də göz qabağındadır. Yəqin ki, onların yaranma prinsipi məhz bu məqsədi güdür.

Çünki bizi tənqid edən qeyri-hökumət təşkilatları, eyni zamanda, dünyanın ən inkişaf etmiş ölkələrini, o cümlədən demokratik inkişaf baxımından ən öndə gedən ölkələri də tənqid edirlər. Yəqin ki, bu, onların iş üslubudur. Amma buna baxmayaraq, Azərbaycanın həqiqətləri onlara da çatdırılmalıdır və onlar da bunu bilməlidir. Düzdür, müəyyən hallarda bəzi təşkilatların mövqeyi çox qərəzlidir. Bəlkə də, onlarla işləməyə heç vaxt sərf etməyə dəyməz. Ancaq görəndə ki, sadəcə olaraq, hansısa yanlış məlumat əsasında, yaxud da Azərbaycan müxalifətindən gələn hansısa yalan üzərində bir rəy formalaşıb, əlbəttə ki, buna operativ reaksiya verilməlidir və izahat işləri aparılmalıdır.

Təəssüflər olsun ki, dünyada Azərbaycana qarşı işləyən erməni lobbisi ilə bərabər, Azərbaycanda özünü müxalifət adlandıran qüvvələr də var. Onların maraqları da, mübarizə taktikası da üst-üstə düşür. Ancaq nəticə də təxminən eynidir. Bizə nə erməni lobbisi maneçilik yarada bildi, nə də ki, Azərbaycanın daxilində özünü müxalifət adlandıran bir qrup insanlar Azərbaycanın siyasətinə və ölkədə gedən proseslərə hansısa bir təsir edə bilməz. Azərbaycan çox inamla irəliləyən bir ölkədir. Artıq bunu hamı etiraf



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Fransa Respublikasının Prezidenti Jak Şirak tərəfindən rəsmi qarşılanma mərasimi. Paris, Yelisey sarayı 10 fevral 2006-cı il



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi Yaponiyanın İmperatoru Akihito İmperator sarayının qarşısında salamlayır. Tokio, 08 mart 2006-cı il



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Amerika Birləşmiş Ştatlarının Prezidenti Corc Buşun görüşü. Vaşinqton, Ağ ev, 28 aprel 2006-cı il



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin dəvəti ilə Koreya Respublikasının Prezidenti Roh Mu-hyunun ölkəmizə rəsmi səfəri. Rəsmi qarşılanma mərasimi. Bakı, 10 may 2006-cı il



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin İran İslam Respublikasının Prezidenti Mahmud Əhmədinejad ilə görüşü. Bakı, Prezident sarayı, 04 may 2006-cı il



GUAM-ın üzvü olan ölkələrin dövlət başçılarının zirvə görüşü. Kiyev, Prezident sarayı, 23 may 2006-cı il



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin NATO Parlament Assambleyasının yaz sessiyasında çıxışı. Paris, Qurultaylar sarayı, 30 may 2006-cı il



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Dialoq və Tərəfdaşlıq Naminə Qara dəniz forumunda. Buxarest, 04 iyun 2006-cı il



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin, onun üçün ayrılmış iqamətgahda Belçikanın xarici işlər naziri, ATƏT-in hazırkı sədri Karel de Quxt ilə görüşü. Rumıniya, Buxarest, 05 iyun 2006-cı il



Litva Prezidenti Valdas Adamkusun Bakıya rəsmi səfəri zamanı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevlə təkbətək görüşü. Bakı, Prezident sarayı, 08 iyun 2006-cı il



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Qazaxıstan Prezidenti Nursultan Nazarbayevin görüşü. Qazaxıstan Prezidentinin, Almatıdakı sarayı, 16 iyun 2006-cı il



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin, Gürcüstan Prezidenti Mixail Saakaşvilinin və Türkiyə Respublikasının Baş naziri Rəcəb Tayyib Ərdoğanın üçtərəfli görüşü. Türkiyə, İstanbulun "Çırağan" sarayı, 12 iyul 2006-cı il



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Asiyada qarşılıqlı fəaliyyətə və etimad tədbirlərinə dair müşavirə"sinin (AQFETM) II Sammit iştirakçıları ilə birgə xatirə şəkli. Qazaxıstan, Almatı şəhəri, 17 iyun 2006-cı il




Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev İstanbul şəhərinin Sarıyer rayonundakı Heydər Əliyev parkında xalqımızın ümummilli liderinin abidəsinin açılışında. 12 iyul 2006-cı il



MDB-nin üzvü olan ölkələrin dövlət başçılarının qeyri-rəsmi görüşündən sonra Rusiya Prezidentinin mükafatı uğrunda növbəti atçapma yarışları ərəfəsində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Rusiya Prezidenti Vladimir Putinin görüşü. Moskvanın mərkəzi cıdır meydanı, 22 iyul 2006-cı il



İordaniyanın Kralı II Abdullanın Bakıya rəsmi səfəri zamanı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevlə təkbətək görüşü. Bakı, Prezident sarayı, 23 avqust 2006-cı il



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sloveniya Prezidentinin iqamətgahında rəsmi qarşılanma mərasimi. 28 avqust 2006-cı il



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev İslam Konfransı Təşkilatının Əməkdaşlıq və Dialoq Uğrunda Gənclər Forumunda. İstanbul şəhəri, 03 sentyabr 2006-cı il



Ukrayna Prezidenti Viktor Yuşşenkonun Bakıya rəsmi səfəri. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Ukrayna Prezidenti Viktor Yuşşenkonun təkbətək görüşü. Prezident sarayı, 07 sentyabr 2006-cı il



Türkdilli dövlətlərin və topluluqların 10-cu dostluq, qardaşlıq və əməkdaşlıq qurultayında ənənəvi "Dəmir döymə" mərasimi keçirildi. İlk olaraq zindan üzərinə çəkiclə zərbəni Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev vurdu. Antalya şəhəri, Türkiyə, 18 sentyabr 2006-cı il



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Beynəlxalq Bertelsmann-2006 forumunda. Berlin şəhəri, Almaniya, 22 sentyabr 2006-cı il



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Latviya Respublikasına dövlət səfəri. Azərbaycan Prezidenti İlham Əliyev və Latviya Prezidenti Vayra Vike-Freyberqa Birgə bəyannamə imzalayırlar. Riqa şəhəri, "Riqa" qəsri, 04 oktyabrın 2006-cı il



Rumıniya Prezidenti Trayan Beseskunun Bakıya rəsmi səfəri zamanı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevlə təkbətək görüşü. Bakı, Prezident sarayı, 11 oktyabr 2006-cı il



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Belarus Respublikasına rəsmi səfəri zamanı Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenko tərəfindən rəsmi qarşılanma mərasimi. Minsk şəhəri, Belarus Prezidentinin iqamətgahı, 17 oktyabr 2006-cı il



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Belçika Krallığına işgüzar səfəri zamanı NATO-nun Şimali Atlantika Şurasında çıxışı. Brussel, NATO-nun qərargahı, 08 noyabr 2006-cı il



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Avropa Komissiyasının sədri Joze Manuel Barrozu Azərbaycan Respublikası və Avropa Birliyi arasında enerji məsələləri üzrə strateji tərəfdaşlığa dair anlaşma memorandumunu imzalayirlar.
Belçika, Brussel, 07 noyabr 2006-cı il



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Avropa Parlamentinin sədri Xosep Borrell Fontelles ilə görüşü. Belçika, Brüssel, Avropa Parlamentinin binası, 07 noyabr 2006-cı il



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin görüşü. Moskva, Kreml, 09 noyabr 2006-cı il



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkdilli ölkələrin dövlət başçılarının VIII zirvə görüşündə. Antalya şəhəri, Türkiyə, 17 noyabr 2006-cı il



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Azərbaycan-Birləşmiş Ərəb Əmirlikləri biznes forumunda. Abu-Dabi şəhəri, Birləşmiş Ərəb Əmirliklərinin Ticarət Palatasının binası, 20 noyabr 2006-cı il



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev MDB dövlət başçılarının zirvə görüşündə. Minsk şəhəri, Belarus, 27 noyabr 2006-cı il



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev MDB dövlət başçılarının Minskdə keçirilən zirvə görüşü çərçivəsində Ermənistan Prezidenti Robert Koçaryan ilə görüşmüşdür. Rusiya Federasiyasının Belarusdakı səfirliyinin binası, Belarus, 28 noyabr 2006-cı il

edir. Azərbaycanın mövqeyi ilə hesablaşırlar. Xüsusilə son parlament seçkilərindən sonra, - hesab edirəm ki, bu da bir dönüş nöqtəsi idi, - artıq bir çox təşkilatlar, o cümlədən xarici təşkilatlar tərəfindən, necə deyərlər, belə bir fikir açıq-aydın qəbul olunur ki, Azərbaycanın müstəqil siyasəti var, bu siyasət xalq tərəfindən dəstəklənir və belə olan halda, bu siyasətlə hesablaşmaq, barışmaq lazımdır. Kiminsə xoşuna gəlməyə bilər, bu da təbiidir. Çünki Azərbaycan indi çox cəlbedici ölkəyə çevrilir. Burada maraqlar toqquşa bilər. Mən əvvəldə dedim ki, biz imkan verməməliyik ki, bu, Azərbaycanda baş versin.

Azərbaycanın təbii sərvətləri, coğrafi vəziyyəti, artan önəmi, siyasi potensialı, əlbəttə ki, onu çox cazibədar ölkəyə çevirir. Bunun nəticəsində ona maraqlar artır. Maraqları təmin etmək üçün təzyiqlər artır. Bu, təbiidir, biz bunu bilməliyik. Bilməliyik ki, bəzi hallarda bizə qarşı olan təzyiq cəhdləri haradan qaynaqlanır. Ancaq Azərbaycan da öz siyasətini inamla aparır. Hamı gördü ki, bizimlə təzyiq yolu ilə danışmaq olmaz. Əməkdaşlıq, qarşılıqlı faydalı əlaqələr, sağlam tənqid, - xüsusilə beynəlxalq təşkilatlar tərəfindən, - olmalıdır. Çünki biz ancaq beynəlxalq təşkilatlar tərəfindən olan tənqidi qəbul edə bilərik. Biz heç bir ölkənin qarşısında öhdəlik götürməmişik ki, kiminsə tənqidinə məruz qalaq, yaxud, kiminsə sifarişini yerinə yetirək. Biz bəzi beynəlxalq təşkilatların üzvüyük, orada bizim öhdəliyimiz var. Biz onu yerinə yetiririk. Bəzi hallarda yubanma olur. Əlbəttə, Azərbaycan cəmiyyəti hələlik kamil sistem deyil, amma biz bu yolla gedirik. Biz sağlam tənqidə həmişə çox düzgün reaksiya vermişik. Qərəzli hücumlara heç vaxt baş əyməmişik, əyməyəcəyik də. Bizə təzyiq etmək istəyən qüvvələr, şəxslər artıq bunu görüblər. Əminəm ki, bundan sonra belə cəhdlərin təkrarlanması baş verməyəcəkdir. Hər halda, bunun uğursuz olması bir daha göstərir ki, Azərbaycanla yalnız və yalnız əməkdaşlıq dili ilə rəftar etmək olar.

Biz əhali baxımından, ərazi baxımından kiçik dövlətik, amma ləyaqətli dövlətik. Bir daha demək istəyirəm ki, heç kimin qarşısında gözümüz kölgəli deyildir. Biz Azərbaycan xalqının dəstəyinə arxalanırıq və bu dəstək Prezident kimi mənə xarici siyasəti müstəqil şəkildə aparmaq üçün əlavə güc verir. Mən məhz buna arxalanıb müstəqil siyasət aparıram. Bir də demək istəyirəm ki, bu siyasət heç kimin əleyhinə deyildir. Bu siyasət Azərbaycan xalqının lehinədir, marağınadır. Siz də öz fəaliyyətinizdə bu prinsipləri rəhbər tutmalısınız. Sizinlə təmasda olan bütün orqanlarla işgüzar münasibətlər, qarşılıqlı hörmətə əsaslanan münasibətlər olmalıdır. Ancaq eyni zamanda, Azərbaycanın maraqları birinci yerdə olmalıdır.

Mən əminəm ki, gələcək illərdə Azərbaycanın dünyadakı rolu daha da artacaqdır. Çünki bir də demək istəyirəm ki, biz işin yalnız birinci mərhələsindəyik. Bakı-Tbilisi-Ceyhan neft kəməri tam gücü ilə işləyəndən sonra, Azərbaycan qazı xarici ölkələrə çıxandan sonra, digər infrastruktur layihələri reallaşandan, dəmir yollarının, nəqliyyat dəhlizlərinin fəaliyyətə başlamasından sonra, əlbəttə, Azərbaycan çox önəmli ölkəyə çevriləcəkdir. Nəzərə alsaq ki, Azərbaycan dünyəvi, çox tolerant dövlətdir, Azərbaycanda bütün millətlərin, dinlərin nümayəndələri bir ailə kimi yaşayır. Azərbaycan demokratiya yolunu seçibdir. Bizim demokratiyaya sadiqliyimiz təkcə sözdə deyil, əməllərimizdədir. Biz bunu nümayiş etdiririk, ona görə yox ki, kiminsə xoşuna gələk. Ona görə ki, bu, bizim ölkəmizə lazımdır. Siyasi və iqtisadi islahatlar paralel şəkildə aparılmalıdır. Əgər ancaq siyasi islahatlar aparılacaqsa və onun iqtisadi bazası olmasa, heç vaxt uğur

qazanmaq mümkün olmayacaqdır. Biz bunu keçmişdə də görmüşük, başqa ölkələrdə də. Ancaq iqtisadi məsələlərə üstünlük verib siyasi islahatları kənarda qoymaq, sadəcə olaraq, hansısa müvəqqəti nailiyyətlərə gətirib çıxara bilər. Müvəqqəti ola bilər, ancaq uzunmüddətli iqtisadi strategiyamıza xələl gətirə bilər. Ona görə Azərbaycanda demokratik və iqtisadi islahatlar paralel şəkildə aparılır və bu, ölkəmizin hərtərəfli inkişafı üçün çox önəmli amildir.

Bir sözlə, bu sahədə də ölkəmiz inkişaf edir. Yəni biz bütün cəhətlərdə görürük ki, Azərbaycanın inkişafı, güclü dövlətə çevrilməsi artıq reallıqdır. Biz çalışmalıyıq ki, bunu daha da sürətlə həyata keçirək, öz maraqlarımızı tam şəkildə müdafiə edək. Elə edək ki, Azərbaycanın xarici siyasəti Azərbaycanı qorusun, Azərbaycanın qarşısında, elə bil, qalxan kimi dayansın ki, ölkəmiz inkişaf etsin. Ölkə öz istəyinə nail olsun və insanlar daha da yaxşı yaşasınlar. Budur siyasətimizin əsas istiqamətləri. Mən ümid edirəm ki, siz öz gündəlik fəaliyyətinizdə bu işləri əməli şəkildə icra edəcəksiniz və çalışdığınız ölkələrdə Azərbaycanı bundan sonra da ləyaqətlə təmsil edəcəksiniz. Sağ olun.

H.M.PAŞAYEVİN AZƏRBAYCAN RESPUBLİKASI XARİCİ İŞLƏR NAZİRİNİN MÜAVİNİ - AZƏRBAYCAN RESPUBLİKASI XARİCİ İŞLƏR NAZİRLİYİNİN DİPLOMATİK AKADEMİYASININ REKTORU TƏYİN EDİLMƏSİ HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Hafiz Mir-Cəlal oğlu Paşayev Azərbaycan Respublikası xarici işlər nazirinin müavini - Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Diplomatik Akademiyasının rektoru təyin edilsin.

İlham Əliyev

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 14 avqust 2006-cı il.

DİPLOMATİK XİDMƏT ORQANLARI RƏHBƏRLƏRİNİN İKİNCİ MÜŞAVİRƏSİ ÖZ İŞİNİ DAVAM ETDİRMİŞDİR

Xarici İşlər Nazirliyində Azərbaycan Respublikasının diplomatik xidmət orqanları rəhbərlərinin ikinci müşavirəsi avqustun 15-də öz işini davam etdirmişdir.

Müşavirədə xarici işlər nazirinin müavinləri Xələf Xələfov və Araz Əzimov, Baş nazirin müavini Əli Həsənov, iqtisadi inkişaf naziri Heydər Babayev, mədəniyyət və turizm naziri Əbülfəs Qarayev, maliyyə naziri Samir Şərifov, sənaye və energetika naziri Natiq Əliyev çıxış edərək ölkəmizin siyasi, iqtisadi, sosial və mədəni inkişafı sahəsində əldə olunmuş uğurlardan danışmışlar.

Müşavirə iştirakçıları Prezident İlham Əliyevin nitqindən irəli gələn məsələləri nəzərdən keçirmiş, Azərbaycanın xarici siyasətinin prioritetləri barədə müzakirə aparmışlar.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV MƏRAKEŞİN KƏND TƏSƏRRÜFATI, KƏND RAYONLARININ İNKİŞAFI VƏ DƏNİZ BALIQÇILIĞI NAZİRİ MOHAND LANSARIN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 16-da Prezident sarayında Mərakeşin kənd təsərrüfatı, kənd rayonlarının inkişafı və dəniz balıqçılığı naziri Mohand Lansarın rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Dövlətimizin başçısı bu səfərin Azərbaycan-Mərakeş əlaqələrinin genişləndirilməsi üçün yaxşı imkanlar yaratdığını qeyd etdi. Siyasi sahədə münasibətlərimizin inkişaf etdiyini vurğulayan Prezident İlham Əliyev iki ölkə arasındakı iqtisadi əlaqələrin və ticarət dövriyyəsinin qənaətbəxş səviyyədə olmadığını təəssüf hissi ilə bildirdi. Dövlətimizin başçısı Azərbaycanın Mərakeşdə səfirliyinin fəaliyyətə başlamasının ölkələrimiz arasındakı əlaqələrin gələcəkdə daha da inkişaf etdirilməsi işinə öz dəyərli töhfəsini verəcəyinə əminliyini ifadə etdi.

Mohand Lansar Mərakeş kralı VI Məhəmmədin məktubunu Prezident İlham Əliyevə çatdırdı. Məktubda Mərakeş kralı ölkələrimizin böyük potensialından optimal şəkildə istifadə edilməsi üçün ikitərəfli münasibətlərə yeni təkan vermək arzusunda olduğunu vurğulamış, əməkdaşlığımızın hüquqi çərçivəsini möhkəmləndirmək, sərmayə yatırılması və ticarəti gücləndirmək məqsədi ilə ölkəsinin bütün mümkün səyləri göstərmək əzmində olduğunu bildirmişdir.

AZƏRBAYCAN BAŞ NAZİRİNİN GÜRCÜSTANA SƏFƏRİ

Azərbaycan Respublikasının Baş naziri Artur Rasizadənin rəhbərlik etdiyi nümayəndə heyəti Azərbaycan-Gürcüstan hökumətlərarası iqtisadi əməkdaşlıq komissiyasının növbəti iclasında iştirak etmək üçün avqustun 16-da Gürcüstanın Batumi şəhərinə gəlmişdir.

Avqustun 16-da Batumidə Azərbaycanın Baş naziri Artur Rasizadə ilə Gürcüstanın Baş naziri Zurab Noğaidelinin təkbətək görüşü keçirilmişdir.

Sonra iqtisadi əməkdaşlıq üzrə Azərbaycan-Gürcüstan hökumətlərarası komissiyasının növbəti iclası açılmışdır. Gürcüstan Baş naziri Azərbaycan Respublikasının nümayəndə heyətini Acarıstanın paytaxtında salamlamaqdan məmnunluq duyduğunu vurğulamış, iki ölkə arasında siyasi, iqtisadi, mədəni əməkdaşlığın getdikcə yeni yüsət aldığını bildirmişdir. O, qlobal layihələrin Gürcüstan ərazisindən keçməklə reallaşmasında Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin əvəzsiz xidmətlərini hörmətlə xatırlatmışdır.

Azərbaycan Baş naziri Artur Rasizadə nümayəndə heyətinə göstərilən səmimi qəbul üçün təşəkkür etmiş, Azərbaycan-Gürcüstan münasibətlərinin səmimi və dərin tarixi köklərə söykəndiyini, strateji tərəfdaş olan ölkələrimizin çox sahələrdə mövqelərinin üst-üstə düşdüyünü vurğulamışdır.

A.Rasizadə jurnalistlərə gürcü həmkarı ilə ticarət-iqtisadi əlaqələr, energetika, gömrük və digər məsələlər üzrə fikir mübadiləsi apardığını, Gürcüstanın Azərbaycana borcu

məsələsində iki ölkənin narahatlığına səbəb olacaq elə bir məqam olmadığını bildirmişdir. O, Qars-Axalkalaki-Bakı dəmir yolunun çəkilişində Azərbaycanın qərarlı olduğunu bir daha xatırlatmışdır. O demişdir ki, komissiya üzvləri nəzərdə tutulan əksər məsələləri müzakirə etmişlər və ekspertlərə bu yöndə işi davam etdirmək həvalə olunmuşdur.

Azərbaycan nümayəndə heyəti Acarıstan Dövlət Muzeyi, Batumi dəniz-ticarət limanı ilə tanış olmuş, şəhərin görməli yerlərini seyr etmişdir. Nümayəndə heyətini Acarıstan hökumətinin başçısı Levan Varşalomidze, Gürcüstan hökumətinin üzvləri müşayiət etmişlər.

Avqustun 17-də Batumidə iqtisadi əməkdaşlıq üzrə Azərbaycan-Gürcüstan hökumətlərarası komissiyasının növbəti iclası başa çatmışdır. İclasın protokolunu Azərbaycan tərəfindən Baş nazir Artur Rasizadə, Gürcüstan tərəfindən Baş nazir Zurab Noğaideli imzalamışlar.

Gürcüstanın Azərbaycana borcunun restrukturizasiyası sənədini isə Azərbaycan tərəfindən maliyyə naziri Samir Şərifov, Gürcüstan tərəfindən onun həmkarı Aleksi Aleksişvili imzalamışlar.

Gürcüstanın Baş naziri komissiya üzvlərinə, ekspertlərə səmərəli fəaliyyətə görə təşəkkür etmiş, Batumidə məhsuldar görüş keçirildiyini, energetika sahəsində əməkdaşlıq, Azərbaycandan əlavə qaz alınmasına dair müzakirələr aparıldığını və danışıqların davam etdiriləcəyini bildirmişdir. Z.Noğaideli Qars-Axalkalaki-Tbilisi-Bakı dəmir yolunun çəkilişi ilə bağlı dəmir yolu idarələri rəhbərlərinin, ekspertlərin bu istiqamətdə işi davam etdirdiklərindən, Gürcüstan iqtisadiyyatına Azərbaycan sərmayəsinin cəlb olunması üçün prinsipial razılaşma əldə edildiyindən danışmışdır.

Artur Rasizadə isə demişdir ki, birgə layihələr yalnız Gürcüstan, Azərbaycan üçün deyil, bütün bölgə üçün əhəmiyyət daşıyır. Biz Gürcüstanla qeyri-neft sektorunda əməkdaşlığı da genişləndirmək niyyətindəyik. Turizm, xidmət sahələrində yaxşı ənənəyə malik Gürcüstanla əməkdaşlıq, zənnimcə, yaxşı nəticə verər. Mədəni, humanitar sahələrdə də əlaqələri inkişaf etdirmək barədə razılıq əldə olunmuşdur.

Avqustun 17-də Batumi şəhərində Azərbaycan Respublikasının Baş naziri Artur Rasizadənin və Gürcüstanın Baş naziri Zurab Noğaidelinin iştirakı ilə Azərbaycan-Gürcüstan biznes forumu keçirilmişdir.

Gürcüstanın iqtisadi inkişaf naziri İrakli Çoqovadze forumu açaraq, Azərbaycan nümayəndə heyətini və forumun iştirakçılarını salamlamışdır.

Gürcüstanın Baş naziri Zurab Noğaideli öz ölkəsində son illər həyata keçirilən iqtisadi islahatlar barədə ətraflı məlumat verərək demişdir ki, bunun sayəsində xarici sərmayələrin həcmi nəzərəçarpacaq dərəcədə artmışdır. O, Azərbaycan sərmayədarlarının Gürcüstan iqtisadiyyatının inkişafında daha fəal iştirak etməsini arzulamış, onlar üçün lazımi şəraitin yaradılacağını vurğulayaraq bildirmişdir ki, hazırda ölkənin vergi sistemində islahatlar aparılır, 2007-ci ilin yanvarında yeni Gömrük Məcəlləsi qüvvəyə minəcəkdir.

Bir neçə il öncə çoxlarına xəyal kimi görünən Bakı-Tbilisi-Ceyhan boru kəməri layihəsinin məhz Azərbaycanın müdrik rəhbəri Heydər Əliyevin siyasi cəsarəti sayəsində reallaşdığını xatırladan Noğaideli indiki forumun iki ölkə arasında nümunəvi münasibətlərin daha da dərinləşməsi baxımından səmərəli olacağına əminliyini söyləmişdir.

Azərbaycanın Baş naziri Artur Rasizadə nümayəndə heyətinə göstərilən qonaqpərvərliyə görə təşəkkür etmiş, iqtisadi əməkdaşlıq üzrə hökumətlərarası komissiyanın növbəti iclası ilə paralel keçirilən forumda iştirakından məmnunluğunu bildirmişdir. O demişdir ki, məqsəd iki ölkənin bütün sahələrdə əməkdaşlığının yaxın zamanlarda yeni mərhələyə qaldırılmasına nail olmaqdır. Təbiidir ki, həm Azərbaycan, həm də Gürcüstan bu gün bazar iqtisadiyyatı şəraitində yaşayır, inkişaf edir. Belə bir vəziyyətdə dövlətlərarası münasibətlərin daha da inkişafı ilə yanaşı, özəl qurumlar arasında da əlaqələrin genişləndirilməsi vacibdir. Bunun üçün hər iki tərəfdə imkanlar vardır.

Son dövrdə Azərbaycanın iqtisadiyyatının sürətli inkişafını və bu baxımdan dünyada lider dövlət olduğunu konkret rəqəmlərlə forum iştirakçılarının diqqətinə çatdıran Artur Rasizadə iki ölkənin iş adamları arasında əməkdaşlıq üçün yeni imkanların açıldığını bildirmişdir. O demişdir ki, forumda buna şərait yaradacaq, biznes nümayəndələri bir-biri ilə tanış olacaq, yeni ideyalar meydana çıxacaqdır. Bunları işin xeyrinə istiqamətləndirmək lazımdır. Prezidentlər İlham Əliyev və Mixail Saakaşvili də ölkələrimiz arasındakı münasibətlərin inkişafı ilə bağlı ideyaları dəstəkləyirlər. Bütün təşəbbüslər əməkdaşlığımızın yeni mərhələyə qaldırılmasına, xalqlarımızın rifahının yüksəldilməsinə xidmət etməlidir.

Sonra forumda Azərbaycanın iqtisadi inkişaf nazirinin müavini Niyazi Səfərovun "Azərbaycan iqtisadiyyatı: cari vəziyyət və inkişaf perspektivləri", Gürcüstanın iqtisadi inkişaf naziri İrakli Çoqovadzenin "Gürcüstan iqtisadiyyatının perspektivləri", Acarıstan hökumətinin başçısı Levan Varşalomidzenin "Acarıstan bölgəsində imkanlar" mövzusunda məruzələri dinlənilmiş, müzakirələr aparılmışdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BMT-NİN QAÇQINLAR ÜZRƏ ALİ KOMİSSARI ANTONİO QUTERREŞİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 17-də Prezident sarayında BMT-nin Qaçqınlar üzrə Ali komissarı Antonio Quterreşin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Dövlətimizin başçısı Ermənistanın Azərbaycan torpaqlarını işğal etməsi və bunun nəticəsində bir milyon insanın qaçqın və məcburi köçkün vəziyyətinə düşməsinin ölkəmiz üçün başlıca problem olduğunu bildirdi. O, qaçqın və məcburi köçkünlərin vəziyyətinin yaxşılaşdırılması üçün Azərbaycan hökuməti tərəfindən zəruri tədbirlərin görüldüyünü və tezliklə bütün çadır düşərgələrinin ləğv olunacağını vurğuladı. Prezident İlham Əliyev bu səfərin Azərbaycan ilə BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığı arasında əlaqələrin daha da genişləndirilməsi işinə töhfə verəcəyinə ümidvar olduğunu bildirdi.

Antonio Quterreş Portuqaliyanın Baş naziri olan zaman ATƏT-in Lissabon şəhərində keçirilmiş sammitində xalqımızın ümummilli lideri Heydər Əliyev ilə görüşdüyünü məmnunluqla xatırladı. Keçən il BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının qaçqın və məcburi köçkünlərin problemlərinin həllinə daha böyük diqqət ayrılması barədə qərar qəbul etdiyini bildirən qonaq bu baxımdan ölkəmizə səfərinin mühüm əhəmiyyət kəsb etdiyini vurğuladı. O, Azərbaycan hökumətinin qaçqın və məcburi köçkünlərin

vəziyyətinin yaxşılaşdırılması üçün göstərdiyi səyləri yüksək qiymətləndirdi və ölkəmiz ilə rəhbərlik etdiyi qurum arasında əməkdaşlığın bundan sonra da inkişaf etdiriləcəyinə əminliyini bildirdi.

2006-CI İL İYUNUN 27-DƏ BAKI ŞƏHƏRİNDƏ İMZALANMIŞ "AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ VƏ MİQRASİYA SİYASƏTİNİN İNKİŞAFI ÜZRƏ BEYNƏLXALQ MƏRKƏZ (MSİBM) ARASINDA ƏMƏKDAŞLIQ SAZIŞI"NİN TƏSDİQ EDİLMƏSİ HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

1. 2006-cı il iyunun 27-də Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti və Miqrasiya Siyasətinin İnkişafı üzrə Beynəlxalq Mərkəz (MSİBM) arasında Əməkdaşlıq Sazişi" təsdiq edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişin həyata keçirilməsi üçün lazımi tədbirlər görsün.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Miqrasiya Siyasətinin İnkişafı üzrə Beynəlxalq Mərkəzi (MSİBM) xəbərdar etsin.

İlham Əliyev

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 17 avqust 2006-cı il

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ABŞ SENATININ XARİCİ ƏLAQƏLƏR KOMİTƏSİNİN SƏDRİ SENATOR RİÇARD LUQARIN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 21-də Prezident sarayında ABŞ Senatının Xarici əlaqələr komitəsinin sədri senator Riçard Luqarın rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Dövlətimizin başçısı senator Luqar ilə Bakıda və Vaşinqtonda keçirdiyi görüşləri məmnunluqla xatırlayaraq, Vaşinqtona səfərinin uğurla həyata keçirildiyini və səfər zamanı səmərəli müzakirələrin aparıldığını qeyd etdi. Vaşinqtona səfərindən keçən dövr ərzində Azərbaycan-ABŞ ikitərəfli münasibətlərinin müxtəlif sahələrdə inkişafının uğurla davam etdirildiyini vurğulayan Prezident İlham Əliyev bu münasibətlərin dostluq və qarşılıqlı dəstək prinsiplərinə əsaslandığını bildirdi. Azərbaycan tərəfinin senator Luqarın ölkəmizə bu səfərinə böyük önəm verdiyini qeyd edən dövlətimizin başçısı səfərin qarşılıqlı münasibətlərimizin və strateji əhəmiyyət daşıyan əlaqələrimizin çox gözəl göstəricisi olduğunu vurğuladı.

Ötən il Azərbaycana səfərini məmnunluqla xatırladan senator Luqar qeyd etdi ki, Prezident İlham Əliyevin Vaşinqtona səfəri zamanı Senatın Xarici əlaqələr komitəsinin üzvləri ilə keçirdiyi görüş və bu görüş zamanı apardığı müzakirələr ABŞ tərəfi üçün çox

əhəmiyyətli olmuşdur. Ölkəmizin iqtisadiyyatının heyranedici sürətlə inkişaf etdiyini vurğulayan qonaq bunun onda gözəl təəssüratlar yaratdığını bildirdi. O, Azərbaycan xalqının rifahına yönəldilmiş bu cür inkişafa hətta bir çox ölkələrin belə nail ola bilmədiyini və Azərbaycanda gözlənildiyindən daha artıq işlərin görüldüyünü qeyd etdi. Senator Luqar ABŞ-Azərbaycan ikitərəfli əlaqələrinin səviyyəsindən məmnun olduqlarını bildirdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV "BP AZƏRBAYCAN" ŞİRKƏTİNİN PREZİDENTİ DEVİD VUDVORDU QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 22-də Prezident sarayında "BP Azərbaycan" şirkətinin prezidenti Devid Vudvordu qəbul etmişdir.

Devid Vudvord Azərbaycanın neft və qaz sənayesinin uğurla inkişaf etdiyini bildirdi. O, Səngəçal terminalında olduğunu və "Şahdəniz" layihəsinin icrası ilə bağlı görülən işlərin hazırkı vəziyyəti ilə maraqlandığını qeyd edərək, layihənin müvəffəqiyyətlə və vaxtında həyata keçirildiyini vurğuladı. Devid Vudvord yaxın zamanlarda "Şahdəniz" yatağından qaz ixracına başlanacağına əminliyini ifadə etdi.

Dövlətimizin başçısı "Şahdəniz" layihəsinin Azərbaycan və ümumilikdə region üçün böyük əhəmiyyət daşıdığını qeyd etdi. Layihənin uğurla həyata keçirilməsinin vacibliyini vurğulayan Prezident İlham Əliyev ölkəmizin yaxın gələcəkdə mühüm qaz hasilatçısı və ixracçısına çevriləcəyinə əmin olduğunu bildirdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV KOPENHAGEN KONSENSUS MƏRKƏZİNİN DİREKTORU BYORN LOMBORQU QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 22-də Prezident sarayında Kopenhagen Konsensus Mərkəzinin direktoru Byorn Lomborqu qəbul etmişdir.

Byorn Lomborq rəhbərlik etdiyi Kopenhagen Konsensus Mərkəzinin fəaliyyəti barədə Prezident İlham Əliyevə məlumat verərək bildirdi ki, onun əsas məqsədi dünyada gedən iqtisadi inkişaf proseslərini araşdırmaqdır. Qonaq Mərkəzin Azərbaycanın iqtisadiyyat sahəsində əldə etdiyi nailiyyətlərə də böyük maraq göstərdiyini və ölkəmizin müvafiq strukturları ilə əməkdaşlıq etdiyini bildirdi.

Dövlətimizin başçısı Mərkəzin fəaliyyətinin Azərbaycan üçün maraq doğurduğunu qeyd etdi. O, hazırda ölkəmizin energetika sahəsində böyük uğurlar qazandığını bildirərək, neft sahəsində əldə olunan gəlirlərdən məqsədyönlü istifadə edilməsi istiqamətində Azərbaycanda mühüm işlərin görüldüyünü vurğuladı. Prezident İlham Əliyev Kopenhagen Konsensus Mərkəzi ilə Azərbaycanın müvafiq qurumları arasındakı əməkdaşlığın bundan sonra da davam etdiriləcəyinə ümidvar olduğunu bildirdi.

AZƏRBAYCANIN XARİCİ İŞLƏR NAZİRİ UKRAYNA ORDENİ İLƏ TƏLTİF EDİLMİŞDİR

Ukrayna Prezidenti Viktor Yuşşenko ölkənin müstəqilliyinin 15-ci ildönümü münasibətilə xarici dövlətlərin vətəndaşlarının dövlət mükafatları ilə təltif edilməsi haqqında fərman imzalamışdır.

Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov beynəlxalq əməkdaşlığın inkişafına, Ukraynanın dünyada nüfuzunun və müsbət imicinin möhkəmlənməsinə, onun tarixi və müasir nailiyyətlərinin tanıdılmasına sanballı şəxsi töhfəsinə görə I dərəcəli "Xidmətlərə görə" ordeninə layiq görülmüşdür.

Bu yüksək mükafata təqdim edilənlər arasında Gürcüstanın xarici işlər naziri Gela Bejuaşvili, Polşa Senatının marşalı Boqdan Boruseviç, Avropa Parlamenti sədrinin müavini Yatsek Sariuş-Volski, Moldova baş nazirinin müavini, xarici işlər və Avropaya inteqrasiya naziri Andrey Stratan və Gürcüstan XİN başçısının birinci müavini Valeri Çeçelaşvili də var.

İORDANİYANIN KRALI ƏLAHƏZRƏT II ABDULLA AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ

İordaniyanın Kralı əlahəzrət II Abdulla avqustun 22-də Bakıya rəsmi səfərə gəlmişdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ İORDANİYANIN KRALI II ABDULLANIN TƏKBƏTƏK GÖRÜŞÜ

Avqustun 23-də, rəsmi qarşılanma mərasimindən sonra Prezident sarayında Azərbaycan Prezidenti İlham Əliyevin və İordaniyanın Kralı II Abdullanın təkbətək görüşü olmuşdur.

Görüşdə ikitərəfli əlaqələr, müxtəlif sahələrdə əməkdaşlıq məsələləri müzakirə edildi, Azərbaycan və İordaniya arasında qarşılıqlı siyasi münasibətlərin yüksək səviyyədə olması, siyasi dialoqun fəal surətdə həyata keçirilməsi müsbət hal kimi dəyərləndirildi.

Prezident İlham Əliyev və Kral II Abdulla ikitərəfli əlaqələrin digər sahələrini də inkişaf etdirməyin zəruriliyini vurğuladılar, ticarət-iqtisadi əlaqələrin səviyyəsinin qaldırılmasının, gələcəkdə qarşılıqlı əməkdaşlığın genişləndirilməsinin vacibliyini bildirdilər.

DÖVLƏT BAŞÇILARININ GENİŞ TƏRKİBDƏ GÖRÜŞÜ

Avqustun 23-də Prezident sarayında Azərbaycan və İordaniyanın dövlət başçılarının nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüş keçirilmişdir.

Prezident İlham Əliyev Kral əlahəzrət II Abdullanı bir daha səmimi salamladı, İordaniya Krallığı ilə hərtərəfli əməkdaşlığa böyük əhəmiyyət verdiyini söylədi. İordaniyanın dövlət başçısının Azərbaycana səfərinin və aparılan danışıqların ikitərəfli əməkdaşlığın genişlənməsinə töhfə verəcəyini vurğulayan Prezident İlham Əliyev dedi ki, ölkələrimiz arasında siyasi əlaqələr yüksək səviyyədədir və bu əlaqələri iqtisadi münasibətlərin genişlənməsinə yönəltməyin vaxtıdır. Bunun üçün gözəl perspektivlər var.

Prezident İlham Əliyev İordaniya Krallığında fəaliyyətə başlayan Azərbaycan səfirliyinin əlaqələrimizin daha da möhkəmlənməsinə və dərinləşməsinə xidmət edəcəyini bildirdi.

Kral II Abdulla Bakıya səfərindən, Prezident İlham Əliyevlə görüşündən şərəf duyduğunu söylədi. Bakıda olduğu qısa müddət ərzində Azərbaycanda görülən işlərdən və xalqın gələcəyi üçün nəzərdə tutulan layihələrin icrasından məmnunluğunu ifadə edən İordaniya Kralı bu tərəqqinin ölkəsində Azərbaycana olan marağın xeyli artmasına səbəb olduğunu bildirdi. O, ölkələrimiz arasında siyasi əlaqələri sosial-iqtisadi müstəviyə yönəltmək barədə Azərbaycan Prezidentinin fikirləri ilə tamamilə razılaşdığını bildirdi və əməkdaşlığın genişlənməsinin xalqlarımızın mənafeyinə xidmət edəcəyini vurğuladı.

Əlahəzrət II Abdulla Azərbaycan Prezidenti İlham Əliyevi İordaniyaya rəsmi səfərə dəvət etdi.

AZƏRBAYCAN PREZİDENTİ VƏ İORDANİYA KRALI SƏFƏRİN YEKUNLARINA DAİR BƏYANAT VERMİŞLƏR

Avqustun 23-də Prezident sarayında Azərbaycan və İordaniyanın dövlət başçılarının nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü başa çatdıqdan sonra Prezident İlham Əliyev və Kral II Abdulla səfərin yekunları ilə bağlı bəyanat vermişlər.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN BƏYANATI

-Əlahəzrət,

Hörmətli qonaqlar,

Xanımlar və cənablar,

Mən əlahəzrət İordaniya Kralını Azərbaycanda bir daha salamlamaq istəyirəm. Bu, İordaniya dövləti başçısının ölkəmizə etdiyi ilk rəsmi səfərdir və ölkələrimiz arasındakı münasibətlərdə mühüm mərhələdir. Bizim bütün sahələrdə çox gözəl əlaqələrimiz, yaxşı qarşılıqlı anlaşmamız var. Biz bir-birimizi beynəlxalq təşkilatlar çərçivəsində dəstəkləyirik. Siyasi dialoq olduqca yüksək səviyyədədir. Buna görə də, əla münasibətləri bütün sahələrdə genişləndirmək əzmindəyik.

Dünən və bu gün regional təhlükəsizlik və sabitlik, Orta Şərqdə və öz regionumuzdakı vəziyyət, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi, Fələstin-İsrail münaqişəsi kimi məsələlər ətrafında çox geniş fikir mübadiləsi apardıq. Bütün müzakirələr zamanı biz gördük ki, yanaşmamız oxşardır, üst-üstə düşür və bu oxşarlıq mövqelərimizi daha da yaxınlaşdırır.

Gələcək illər ərzində aparacağımız əməkdaşlığın aspektlərindən biri iqtisadi və ticari sahələr olacaqdır. Bu günə qədər ticarət dövriyyəsi çox olmamışdır. Hesab edirəm ki, bu səfər və bundan sonra ölkələrimizin hökumət rəsmilərinin və iş adamlarının qarşılıqlı səfərləri sayəsində biz bu sahədə gözəçarpan nailiyyətləri əldə edəcəyik.

İkitərəfli münasibətlərin inkişafından xəbər verən bir fakt da var. Biz bu yaxınlarda İordaniyada tam fəaliyyət göstərən səfirliyimizi açmışıq. Ümid edirəm ki, səfirlik əməkdaşlığın yeni yollarının müəyyən edilməsində mühüm rol oynayacaqdır. Bütün sahələrdə əməkdaşlığın genişləndirilməsi üçün böyük imkanlar var. Əvvəldə qeyd etdiyim kimi bunun üçün bizim çox yaxşı əsaslarımız var. Ölkələrimiz arasındakı əla siyasi münasibətlər, İordaniya Kralı, qardaşımla şəxsi dostluq münasibətləri iki qardaş ölkə arasında olduqca güclü əlaqələrin inkişafı üçün lazımi əsas yaradır.

Əlahəzrət, sizi və rəhbərlik etdiyiniz bütün nümayəndə heyətini Azərbaycanda bir daha salamlamaq istəyirəm. Sizə işlərinizdə uğurlar arzulayıram. Ümid edirəm və əminəm ki, bu səfər gələcəkdə birgə həyata keçirəcəyimiz işlər üçün yeni imkanlar açacaqdır.

İORDANİYANIN KRALI II ABDULLANIN BƏYANATI

-Cənab Prezident!

İki gün ərzində bizə göstərdiyiniz xoş qonaqpərvərliyə görə öz adımdan və nümayəndə heyətimin adından Sizə minnətdarlığımı bildirmək istəyirəm. Azərbaycana yenidən gəlməyimdən və qardaşımla bir daha görüşməyimdən böyük şərəf hissi duyuram.

Zati-alilərinizin qeyd etdiyi kimi, iki ölkə arasındakı siyasi münasibətlər olduqca güclüdür. Biz həm mənim ölkəm, həm Sizin ölkəniz üçün mühüm olan bir çox regional məsələləri müzakirə etdik. Həmin məsələlər ətrafında mövqelərimizin üst-üstə düşməsindən çox məmnun qaldım. Biz həmin mürəkkəb məsələlər qarşısındayıq, lakin hesab edirəm ki, ölkələrimiz əl-ələ verib, bütün regiona aid olan məsələləri aradan qaldırmaq iqtidarında olacaqdır.

Bununla belə, şəxsən hesab edirəm ki, İordaniya və Azərbaycan xalqları arasında mövcud olan münasibətlərin daha da inkişaf etdirilməsi üçün çox böyük imkanlar var. Azərbaycan Prezidenti ilə şəxsi dostluq münasibətlərini iki xalq arasındakı dostluq münasibətlərinə çevirmək üçün yaxşı fürsət yaranıbdır.

Siz qeyd etdiniz ki, ticari sahədə əməkdaşlıq üçün imkanlar mövcuddur. Biz bunu ciddi qəbul edirik və çalışacağıq ki, bu istiqamətdəki işlərimizi artıraq. Ona görə də, mən bu uğurlu səfərdən mümkün qədər qısa müddət ərzində real nəticələrin əldə edilməsi üçün xalqımız, hökumətiniz və səfirliyiniz ilə sıx işləyəcəyəm.

Eyni zamanda, bu fürsətdən istifadə edərək, ölkənizin inkişafı üçün gələcəkdə nəzərdə tutduğunuz planların həyata keçirilməsində Sizə uğurlar arzulamaq istəyirəm. Gələcəyinə inamla baxan digər qardaş müsəlman xalqların bütün sahələrdə nailiyyətlərini görmək İordaniyanın müsəlman xalqı üçün olduqca şərəflidir. İnşallah, biz gələcəkdə birgə işləyəcəyik. Əminik ki, Siz də ölkəmizə səfər edəcəksiniz və öz növbəmizdə, biz də Sizə bu cür səmimi qonaqpərvərliyimizi nümayiş etdirəcəyik.

İnşallah, ölkələrimiz arasındakı münasibətlər bir çox digər ölkələr üçün nümunə olacaqdır.

HEYDƏR ƏLİYEV FONDU İLƏ TANIŞLIQ

Azərbaycan Prezidenti İlham Əliyev və İordaniyanın Kralı əlahəzrət II Abdulla avqustun 23-də Heydər Əliyev Fondunda olmuşlar.

Fondun prezidenti, YUNESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyeva İordaniyanın dövlət başçısını böyük səmimiyyətlə qarşıladı.

Mehriban xanım Əliyeva ali qonağa Azərbaycan xalqının ümummilli liderinin xatirəsinə ehtiram əlaməti olaraq yaradılmış Fondun məqsədləri barədə məlumat verdi. Bildirildi ki, Fondun əsas məqsədləri Prezident Heydər Əliyevin zəngin irsini öyrənmək və təbliğ etməkdən, onun Azərbaycanın sosial-iqtisadi, mədəni tərəqqisinə yönəlmiş genişmiqyaslı fəaliyyəti barədə gələcək nəsillərdə, qonaqlarda əyani təsəvvür yaratmaqdan, dahi şəxsiyyətin müəllifi olduğu beynəlxalq layihələrin həyata keçirilməsini dəstəkləməkdən, Azərbaycan mədəniyyəti və tarixinin geniş təbliği ilə əlaqədar aparılan işlərə kömək göstərməkdən ibarətdir.

Prezident İlham Əliyev Kral II Abdullaya ümummilli liderimizin şəxsi arxivindən götürülmüş və onun fəaliyyətinin ayrı-ayrı dövrlərini əhatə edən eksponatlar barədə ətraflı məlumat verdi.

İordaniya dövlətinin başçısı fenomen şəxsiyyət Heydər Əliyevin həyatının ən müxtəlif məqamlarını əks etdirən və Azərbaycan tarixinin bütöv bir dövrü barədə geniş təsəvvür yaradan çoxlu sənədlərlə, dünyanın tanınmış siyasi xadimlərinin bəxş etdikləri hədiyyələrlə, ulu öndərimiz haqqında kitablarla, dünyanın nüfuzlu siyasi, elm, mədəniyyət və incəsənət xadimlərinin Azərbaycan dövlətinin qurucusu haqqında fikirləri ilə tanış oldu, müxtəlif ölkələrin liderləri ilə görüşlərdə çəkilmiş şəkillərə böyük maraqla baxdı.

İordaniyanın Kralı əlahəzrət II Abdulla Fondla tanışlıqdan sonra Xatirə kitabına ürək sözlərini yazdı, Azərbaycanın böyük öndəri Heydər Əliyevin adını daşıyan Fondla tanışlıqdan məmnun olduğunu bildirdi.

Sonra Azərbaycan Prezidenti İlham Əliyev və İordaniyanın Kralı əlahəzrət II Abdulla birgə xatirə şəkli çəkdirdilər.

Mehriban xanım Əliyeva dost ölkənin rəhbərinə xatirə hədiyyələri təqdim etdi.

Ali qonaq Fonddan xoş və zəngin təəssüratla ayrıldığını bildirdi.

ALİ QONAĞIN ŞƏRƏFİNƏ

Avqustun 23-də Azərbaycan Prezidenti İlham Əliyevin adından İordaniyanın Kralı əlahəzrət II Abdullanın şərəfinə Yaxt-klubda rəsmi qəbul təşkil edilmişdir.

AZƏRBAYCAN RESPUBLİKASI İLƏ İORDANİYA KRALLIĞI HÖKUMƏTLƏRİ ARASINDA İKİTƏRƏFLİ ƏMƏKDAŞLIĞA DAİR ÇƏRÇİVƏ SAZİŞİ İMZALANMIŞDIR

Avqustun 23-də Xarici İşlər naziri Elmar Məmmədyarov İordaniya Krallığının xarici işlər naziri Abdulilah Əl-Xatibin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşmüşdür.

Görüşdə iki ölkə arasındakı siyasi, iqtisadi və digər sahələr üzrə əməkdaşlığın inkişaf etdirilməsi imkanları barədə geniş müzakirələr aparılmış, ölkəmizdə həyata keçirilən irimiqyaslı enerji və nəqliyyat layihələri barədə qonaqlara ətraflı məlumat verilmişdir.

Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmiş Azərbaycan ərazilərində etnik təmizləmə siyasətinin həyata keçirilməsi və nəticədə bir milyondan çox soydaşımızın öz doğma torpaqlarından qaçqın və məcburi köçkün vəziyyətinə düşdüyünü diqqətə çatdıran nazir münaqişənin Praqa prosesi çərçivəsində mərhələli həlli barədə danışmışdır.

Tərəflər, həmçinin Yaxın Şərqdə sülh prosesi, İsrail-Livan münaqişəsi və bununla əlaqədar BMT Təhlükəsizlik Şurasının müvafiq qətnaməsinin icrası ilə bağlı məsələlər ətrafında da geniş fikir mübadiləsi aparmışlar.

İordaniyanın xarici işlər naziri Yaxın Şərqdə sülh prosesinə dair ölkəsinin mövqeyini açıqlamışdır.

XARİCİ İŞLƏR NAZİRLİYİNDƏ GÖRÜŞ

Avqustun 23-də Xarici İşlər naziri Elmar Məmmədyarov Dünya Ərzaq Təşkilatının Azərbaycandakı nümayəndəliyinin yeni rəhbəri xanım Linn Miller ilə görüşmüş, yeni vəzifəyə təyin olunması münasibətilə onu təbrik etmiş və fəaliyyətində uğurlar arzulamışdır.

Münaqişə qurbanlarına yardım göstərilməsinin hər bir humanitar təşkilatın mühüm vəzifəsi olduğunu bildirən Elmar Məmmədyarov Azərbaycanda bir milyondan çox qaçqın və məcburi köçkünün olduğunu diqqətə çatdırmış, Qaçqın və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi ilə əməkdaşlıq etməyi tövsiyə etmişdir.

Xanım Miller təşkilatla ölkəmiz arasında mövcud olan əlaqələrin daha da inkişaf etdirilməsinə çalışacağını və hazırda bu məsələlərlə tanış olduğunu, Azərbaycanın qaçqınlarla iş sahəsində təcrübəsindən faydalanacağını bildirərək, bu təcrübənin öyrənilməsinin vacibliyini söyləmişdir.

Nazir son zaman Cənubi-Şərqi Asiyada baş vermiş sunami, o cümlədən Pakistanda zəlzələ qurbanlarına Azərbaycanın göstərdiyi yardımı xatırlatmış və bu yaxınlarda Livana humanitar yardım göstərildiyini, bu istiqamətdə fəaliyyətin davam etdiriləcəyini bildirmişdir.

Elmar Məmmədyarov Azərbaycan Prezidenti və hökumətinin qaçqın və məcburi köçkünlərin problemlərinin tezliklə həll edilməsində israrlı olduğunu vurğulamış, onların yaşayış səviyyəsinin yaxşılaşdırılması üçün Dövlət Neft Fondundan maliyyə vəsaitlərinin ayrıldığını xatırlatmışdır. Nazir həmin şəxslərin normal həyat tərzinin təmin edilməsi üçün dövlət tərəfindən zəruri tədbirlərin həyata keçirildiyini söyləmişdir.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV TÜRKİYƏNİN İĞDIR BƏLƏDİYYƏSİNİN SƏDRİ NURETTİN ARASIN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 24-də Prezident sarayında Türkiyənin İğdır bələdiyyəsinin sədri Nurettin Arasın rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Dövlətimizin başçısı Azərbaycan ilə Türkiyə arasındakı münasibətlərin yüksək səviyyədə olduğunu bildirdi. Bu yaxınlarda Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft boru kəmərinin açılışında iştirak etmək üçün Türkiyədə səfərdə olduğunu qeyd edən Prezident İlham Əliyev bu layihənin iki ölkə arasındakı əlaqələri daha da möhkəmləndirəcəyini vurğuladı. Sonra dövlətimizin başçısı dünya azərbaycanlılarının həmrəyliyi sahəsində fəaliyyətinə görə təltif etdiyi "Tərəqqi" medalını Nurettin Arasa təqdim etdi.

Nurettin Aras "Tərəqqi" medalı ilə təltif olunması ilə bağlı Azərbaycan Prezidentinə dərin minnətdarlığını bildirdi. Azərbaycanın sürətlə inkişaf etdiyini qeyd edən qonaq ölkəmizin gələcəkdə daha böyük nailiyyətlər qazanacağına inandıqlarını vurğuladı. O, Türkiyə iş adamlarının Azərbaycana böyük sərmayə qoyduqlarını qeyd etdi və onların fəaliyyəti üçün yaradılmış gözəl şəraitə görə Prezident İlham Əliyevə təşəkkürünü bildirdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV "GLOBAL STEEL HOLDİNGS LTD." ŞİRKƏTİNİN SƏDRİ PRAMOD MİTTALIN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 24-də Prezident sarayında "Global Steel Holdings Ltd." şirkətinin sədri Pramod Mittalın rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Pramod Mittal ölkəmizə səfərindən məmnun olduğunu bildirdi. O, bu səfərin Azərbaycanda gedən iqtisadi inkişaf prosesləri ilə yaxından tanış olmaq üçün yaxşı imkanlar yaratdığını qeyd etdi.

Dövlətimizin başçısı Azərbaycanın iqtisadiyyat və digər sahələrdə əldə etdiyi uğurlar barədə qonağa məlumat verdi.

AZƏRBAYCAN RESPUBLİKASI İLƏ RUSİYA FEDERASİYASI ARASINDA İQTİSADİ ƏMƏKDAŞLIQ MƏSƏLƏLƏRİ ÜZRƏ HÖKUMƏTLƏRARASI DÖVLƏT KOMİSSİYASININ TƏRKİBİNİN TƏSDİQ EDİLMƏSİ BARƏDƏ AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

1. Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında iqtisadi əməkdaşlıq məsələləri üzrə hökumətlərarası Dövlət Komissiyasının tərkibi aşağıdakı heyətdə təsdiq edilsin:

Komissiyanın sədri:

Yaqub Eyyubov - Azərbaycan Respublikası Baş nazirinin birinci müavini

Komissiyanın üzvləri:

Natiq Əliyev - Azərbaycan Respublikasının sənaye və energetika naziri

Yavər Camalov - Azərbaycan Respublikasının müdafiə sənayesi naziri

Nazim İbrahimov - Azərbaycan Respublikasının Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinin sədri

Xələf Xələfov - Azərbaycan Respublikasının xarici işlər nazirinin müavini

Süleyman Tatlıyev - Azərbaycan Respublikasının Ticarət və Sənaye Palatasının prezidenti

Rəfail Mirzəyev - Azərbaycan Respublikasının fövqəladə hallar nazirinin birinci müavini

Mikayıl Cabbarov - Azərbaycan Respublikasının iqtisadi inkişaf nazirinin müavini

Musa Pənahov - Azərbaycan Respublikasının nəqliyyat nazirinin müavini

Bəhrəm Əliyev - Azərbaycan Respublikasının kənd təsərrüfatı nazirinin müavini

Teymur Mehdiyev - Azərbaycan Respublikasının mədəniyyət və turizm nazirinin müavini

Polad Bülbüloğlu - Azərbaycan Respublikasının Rusiya Federasiyasındakı fövqəladə və səlahiyyətli səfiri

Səfər Mehdiyev - Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi sədrinin birinci müavini

Etibar Pirverdiyev - "Azərenerji" Açıq Səhmdar Cəmiyyətinin prezidenti

Elşad Nəsirov - Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin vitse-prezidenti

Kamal İsmayılzadə - Azərbaycan Respublikası Nazirlər Kabineti Aparatının regionlararası iqtisadi əlaqələr şöbəsinin müdiri (məsul katib)

2. "Rusiya Federasiyası ilə iqtisadi əməkdaşlıq məsələləri üzrə Azərbaycan Respublikasının daimi fəaliyyət göstərəcək hökumətlərarası Dövlət Komissiyası haqqında" Azərbaycan Respublikası Prezidentinin 1996-cı il 8 aprel tarixli 294 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003-cü il, № 9, maddə 512):

2.1. adında "Rusiya Federasiyası ilə iqtisadi əməkdaşlıq məsələləri üzrə Azərbaycan Respublikasının daimi fəaliyyət göstərəcək" sözləri "Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında iqtisadi əməkdaşlıq məsələləri üzrə" sözləri ilə əvəz edilsin;

2.2. 1-ci bəndindən "Azərbaycan Respublikasının daimi fəaliyyət göstərəcək" sözləri çıxarılsın;

2.3. 2-ci bəndi qüvvədən düşmüş hesab edilsin.

3. Bu Sərəncam dərc edildiyi gündən qüvvəyə minir.

İlham Əliyev

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 25 avqust 2006-cı il

AZƏRBAYCAN RESPUBLİKASI İLƏ UKRAYNA ARASINDA İQTİSADİ ƏMƏKDAŞLIQ MƏSƏLƏLƏRİ ÜZRƏ HÖKUMƏT KOMİSSİYASININ YENİ TƏRKİBİNİN TƏSDİQ EDİLMƏSİ BARƏDƏ AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

1. Azərbaycan Respublikası ilə Ukrayna arasında iqtisadi əməkdaşlıq məsələləri üzrə Hökumət Komissiyasının tərkibi aşağıdakı heyətdə təsdiq edilsin:

Komissiyanın sədri:

Yaqub Eyyubov - Azərbaycan Respublikası Baş nazirinin birinci müavini

Komissiyanın üzvləri:

Natiq Əliyev - Azərbaycan Respublikasının sənaye və energetika naziri

Yavər Camalov -A zərbaycan Respublikasının müdafiə sənayesi naziri

Xələf Xələfov - Azərbaycan Respublikasının xarici işlər nazirinin müavini

Orucəli Hacıyev - Azərbaycan Respublikasının fövqəladə hallar nazirinin müavini

Mikayıl Cabbarov - Azərbaycan Respublikasının iqtisadi inkişaf nazirinin müavini

Musa Pənahov - Azərbaycan Respublikasının nəqliyyat nazirinin müavini

Ədalət Vəliyev - Azərbaycan Respublikasının mədəniyyət və turizm nazirinin müavini

İsgəndər İsgəndərov - Azərbaycan Respublikasının təhsil nazirinin müavini

Əsgər Abdullayev - Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi sədrinin müavini

Tələt Əliyev - Azərbaycan Respublikasının Ukraynadakı fövqəladə və səlahiyyətli səfiri

Elşad Nəsirov - Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin vitse-prezidenti

Kamal İsmayılzadə - Azərbaycan Respublikası Nazirlər Kabineti Aparatının regionlararası iqtisadi əlaqələr şöbəsinin müdiri (məsul katib)

2. "Azərbaycan Respublikasının Ukrayna Respublikası ilə iqtisadi əməkdaşlıq məsələləri üzrə Hökumət Komissiyası haqqında" Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 20 avqust tarixli 876 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998-ci il, № 8, maddə 531):

2.1. adında "Azərbaycan Respublikasının Ukrayna Respublikası ilə" sözləri "Azərbaycan Respublikası ilə Ukrayna arasında" sözləri ilə əvəz edilsin;

2.2. preambulasında, 1-ci bəndində, 2-ci bəndinin üçüncü abzasında və 4-cü bəndində "Ukrayna Respublikası" sözləri "Ukrayna" sözləri ilə əvəz edilsin;

2.3. 1-ci bəndi qüvvədən düşmüş hesab edilsin.

3. Bu Sərəncam dərc edildiyi gündən qüvvəyə minir.

İlham Əliyev

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 26 avqust 2006-cı il

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN SLOVENİYAYA RƏSMİ SƏFƏRİ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 27-də Sloveniya Respublikasına rəsmi səfərə gəlmişdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV SLOVENİYANIN BAŞ NAZİRİ YANEZ YANŞA İLƏ GÖRÜŞMÜŞDÜR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 27-də Sloveniyanın paytaxtından Bled şəhərinə gəlmişdir.

Elə həmin gün Prezident İlham Əliyev Sloveniyanın Baş naziri Yanez Yanşa ilə görüşdü. Söhbət zamanı ölkələrimiz arasında ikitərəfli iqtisadi əlaqələrin hazırkı vəziyyəti və perspektivləri barədə fikir mübadiləsi aparıldı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV GÜRCÜSTAN BAŞ NAZİRİNİN MÜAVİNİ GEORGİ BARAMİDZENİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 27-də Bled şəhərinin "Golf" mehmanxanasında Gürcüstan Baş nazirinin müavini, Avropa və Avratlantik strukturlarına inteqrasiya məsələləri üzrə dövlət naziri Georgi Baramidzeni qəbul etmişdir.

Georgi Baramidze Azərbaycan Prezidenti ilə görüşməyindən şərəf duyduğunu söylədi, enerji qıtlığı ilə əlaqədar ölkəsinin problemlərlə üzləşdiyi bir vaxtda Azərbaycanın göstərdiyi qardaşlıq yardımını gürcü xalqının heç vaxt unutmayacağını vurğuladı və bütün bunlara görə dövlətimizin başçısına dərin minnətdarlığını bildirdi.

Prezident İlham Əliyev Azərbaycan və Gürcüstanın dost və qardaş ölkələr olduğunu vurğulayaraq dedi ki, bizi birləşdirən ümumi dəyərlər və məqsədlər vardır. Həyata keçirilən birgə layihələr regionda əməkdaşlığımızın daha da genişləndirilməsinə xidmət edir. Dövlətimizin başçısı Sloveniyada keçirilən forumu Azərbaycan və Gürcüstanın Avropa ilə əməkdaşlığa göstərdiyi marağın daha bir nümunəsi kimi səciyyələndirdi.

Görüşdə ölkələrimiz arasında əməkdaşlığın müxtəlif sahələrinə dair fikir mübadiləsi aparıldı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AVROPA İTTİFAQININ CƏNUBİ QAFQAZ ÜZRƏ NÜMAYƏNDƏSİ PETER SEMNEBİ İLƏ GÖRÜŞMÜŞDÜR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 27-də Bled şəhərinin "Golf" mehmanxanasında Avropa İttifaqının Cənubi Qafqaz üzrə nümayəndəsi Peter Semnebi ilə görüşmüşdür.

Görüşdə Azərbaycan ilə Avropa İttifaqı arasında əməkdaşlığın perspektivləri və digər məsələlər müzakirə edilmişdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV "CASPİAN OUTLOOK-2008" BLED STRATEJİ FORUMUNDA İŞTİRAK ETMİŞDİR

Avqustun 27-də Sloveniyanın Bled şəhərindəki "Golf" mehmanxanasında "Caspian Outlook-2008" Bled Strateji Forumu işə başlamışdır. Forumda əsas diqqət enerji ehtiyatlarının Xəzər regionundan Qərbi Avropaya nəqli məsələlərinə yönəlmişdir.

Sloveniya hökuməti tərəfindən təşkil olunmuş və dünyanın işgüzar dairələrinin 180-dən çox nüfuzlu nümayəndəsinin, 20-dən çox ölkənin rəsmi nümayəndələrinin, eləcə də beynəlxalq təşkilatların təmsilçilərinin, region ölkələrinin tanınmış iqtisadçıları və siyasətçilərinin iştirak etdiyi forumu Sloveniyanın xarici işlər naziri Dimitri Rupel açdı. İki gün davam edəcək bu forumu strateji maraqların birləşdiyi tədbir kimi dəyərləndirən nazir praktik əməkdaşlığın genişləndirilməsi, Avropada enerji təhlükəsizliyinin təmin edilməsi baxımından faydalı olacağını vurğuladı. Nazir dedi ki, müzakirələrdə, əsasən, Xəzər dənizinin karbohidrogen ehtiyatlarının Avropaya çatdırılması istiqamətində gələcək planlar nəzərdən keçiriləcək və ümumiyyətlə, Xəzər hövzəsinin enerji ehtiyatlarından istifadə Avropa üçün çox əhəmiyyətlidir. O, eyni zamanda, Xəzər hövzəsində sabitliyin bərpasının vacibliyini, enerji daşıyıcılarının Avropaya təhlükəsiz daşınması üçün birgə fəaliyyət göstərməyin zəruriliyini bildirdi.

Regional və beynəlxalq əməkdaşlığı nəzərdə tutan bu tədbirdə iştirakına görə Azərbaycan Prezidenti İlham Əliyevə təşəkkürünü bildirən Dimitri Rupel həm də Azərbaycan iqtisadiyyatının son illərdəki sürətli inkişafı barədə məlumatın əldə edilməsinə imkan yaradacaq bu forumun bütün tərəflər üçün faydalı olacağını vurğuladı.

Sloveniyanın Baş naziri Yanez Yanşa Azərbaycanın dövlət başçısının xanımı ilə birlikdə forumda iştirak etməsini yüksək qiymətləndirdi. Baş nazir strateji əhəmiyyət daşıyan forumda mühüm məsələlər barədə fikir mübadiləsinin aparılacağını, enerji sahəsində yeni imkanların açıldığını bildirdi. Enerji təhlükəsizliyinin hər bir ölkə üçün xüsusi əhəmiyyət daşıdığını vurğulayan Yanez Yanşa dedi ki, bizim gələcək məqsədimiz, vəzifəmiz Avropada enerji təhlükəsizliyini təmin etməkdir. Bu baxımdan neftin və qazın dünya bazarlarına təhlükəsiz çatdırılması, xüsusilə qaz sektorunda əməkdaşlıq etmək bizim borcumuzdur və bu, günün tələbidir.

Forumda əsas diqqəti Xəzər hövzəsinə yönəldən və bu baxımdan Azərbaycanın rolunun xüsusilə önəmli olduğunu deyən Baş nazir həm də ixracçı və idxalçı ölkələr üçün Xəzər qazının çox böyük əhəmiyyət kəsb etdiyini söylədi. Cənubi Qafqazda əməkdaşlığa xüsusi diqqət verilməsinin zəruriliyini xatırladan Yanez Yanşa iqtisadi inteqrasiyada, azad iqtisadiyyatın inkişafında, bölgədə sülhün və təhlükəsizliyin qorunmasında hamının maraqlı olduğunu bildirdi. Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində Xəzər regionunun böyük rolunu bir daha xatırladan Baş nazir Sloveniyanın 2008-ci ildə Avropa İttifaqına sədrlik edəcəyini də bildirdi, enerji sahəsi ilə bağlı görülən səmimi və qarşılıqlı surətdə faydalı əməkdaşlığa yeni təkan verəcəyini vurğuladı.

Azərbaycan Prezidenti İlham Əliyev forumda nitq söylədi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ

- Hörmətli cənab Baş nazir!

Hörmətli xanımlar və cənablar!

Əziz dostlar!

İlk növbədə, Bled Strateji Forumunda iştirak etmək üçün məni dəvət etdiyinizə görə öz minnətdarlığımı bildirmək istəyirəm. Mən bu tədbiri çox önəmli bir təşəbbüs kimi dəyərləndirirəm və forum çərçivəsində müzakirə edəcəyimiz məsələlər gələcək illər ərzində olduqca əhəmiyyətli rol oynayacaqdır.

Bu gün keçirilən toplantının mövzusu Xəzər regionu və dünyanın enerji təhlükəsizliyində get-gedə artan rol oynayan Xəzər enerji təchizatıdır. Həmin rol gələn illər ərzində gözəçarpan səviyyədə artacaqdır.

Azərbaycan Xəzər regionunu xarici sərmayəçilərin üzünə açmaq məqsədi ilə göstərdiyi səylərdən fərəh duyur. 1994-cü ildə "Əsrin müqaviləsi"ni imzalamaqla, Azərbaycan Xəzər dənizindəki sektorunda yerləşən neft və qaz yataqlarının kəşfiyyatı və işlənilməsi sahəsində dünyanın aparıcı neft şirkətləri ilə uzun müddətli əməkdaşlıq qurmuşdur. Həyata keçirdiyimiz "açıq qapılar" siyasəti xarici sərmayələri cəlb etmiş və bunun nəticəsində son illər ərzində ölkə iqtisadiyyatına 20 milyard ABŞ dollarından çox xarici sərmayə yatırılmışdır. Xəzər dənizinin enerji resursları artıq Avropa və dünya bazarlarına çıxarılmaqdadır. Biz ölkəmizdə xarici sərmayəçilər üçün olduqca əlverişli mühit yaratmışıq və buna görə də Azərbaycan adambaşına düşən birbasa xarici sərmayələrin həcmi baxımından regionda ən öncül yerlərdən birini tutur.

Xəzər dənizində yerləşən böyük neft və qaz yataqlarının işlənilməsinə yönəltdiyimiz səylər bu gün çox gözəl nəticələr verir. Bir neçə ay bundan əvvəl Ceyhan terminalında Bakı-Tbilisi-Ceyhan neft boru kəmərinin tam işə düşməsi qeyd edilmişdir. Azərbaycan neftinin həmin terminala çatması mühüm hadisə olmaqla yanaşı, onun simvolik mənası da var, yəni bu hadisə məhz Azərbaycanın milli bayramı olan 28 May - Respublika günü ilə üst-üstə düşmüşdür. Bakı-Tbilisi-Ceyhan neft boru kəməri bizim üçün nəinki Azərbaycan neftini dünya bazarlarına çıxarmaq imkanı, onun ixracından əldə edilən gəlirlərdən faydalanmaq baxımından, həm də milli müstəqilliyimizin möhkəmləndirilməsi üçün çox mühümdür.

Müstəqil ölkə kimi, Azərbaycan beynəlxalq və regional məsələlərdə get-gedə daha fəal rol oynamağa başlayır. Bəzi hallarda ölkəmiz enerji, nəqliyyat kimi sahələrdə böyük regional inkişaf proqramlarının təşəbbüskarıdır. Azərbaycanın əlverişli coğrafi mövqeyini nəzərə alsaq, görərik ki, bütün mühüm nəqliyyat dəhlizləri ölkəmizin ərazisindən keçir. Hazırda biz nəqliyyat infrastrukturumuzun müasirləşdirilməsi üçün bir çox böyük sərmayə proqramlarını həyata keçirməkdəyik. Bir tərəfdən, Böyük İpək yolunun bərpası, Şərq-Qərb nəqliyyat dəhlizi, TRASEKA proqramı, digər tərəfdən, Şimal-Cənub nəqliyyat dəhlizi Azərbaycanı Avropadan Asiyaya və geriyə yük daşımaları sahəsində mühüm bir ölkəyə çevirir.

Təbii ki, Xəzər dənizindəki zəngin neft və qaz yataqlarının işlənilməsi ölkədə siyasi və iqtisadi islahatları çox fəal həyat keçirməyə imkan yaradır. Biz Azərbaycanda siyasi və

iqtisadi islahatları paralel şəkildə aparırıq və hesab edirəm ki, bu, uğurların əldə edilməsi üçün ilkin şərtdir. Əgər siz diqqəti yalnız iqtisadi islahatlara yönəltsəniz və demokratikləşmə, vətəndaş cəmiyyətinin yaradılması və qanunun aliliyinin təmin edilməsini bir kənara qoysanız, onda istədiyiniz nailiyyətləri əldə edə bilməyəcəksiniz. Eyni ilə, deyə bilərəm ki, yalnız siyasi islahatlarla məşğul olacağımız və iqtisadi islahatlar aparmayacağımız təqdirdə, gündəlikdə duran iqtisadi layihələrin həyata keçirilməsi çətin olacaqdır. Yalnız siyasi və iqtisadi islahatların birgə reallaşdırılması və Avropa dəyərlərinə qəti sadiqlik güclü iqtisadiyyat, qanunun aliliyi, demokratik cəmiyyət qurulması əsasında bir çox uğurların əldə edilməsini mümkün edə bilər.

İndi Avropa İttifaqının sərhədləri bizim regionumuza daha da yaxınlaşır. Azərbaycan Avropa İttifaqının "Yeni qonşuluq siyasəti"nə daxil edilibdir. Ona görə də bizim regionumuzda əsas götürüləcək meyarlar Avropa İttifaqında mövcud olan meyarlara çox bənzər olacaqdır. Azərbaycan ilə Avropa İttifaqı arasında çox güclü enerji dialoqu aparılmaqdadır. Bizim nəqliyyat imkanlarımız, istismara verilmiş boru kəmərləri regionda tamamilə yeni bir vəziyyət yaradır. Xəzər regionunun dünya üçün enerji təchizatı məsələsində oynadığı rol get-gedə daha da artacaqdır. Biz Azərbaycanın qaz yataqlarının işlənilməsinə də çox böyük önəm veririk. Nəhəng qaz yatağı sayılan "Şahdəniz"də bir trilyon kubmetrdən çox təbii qaz ehtiyatı var və burada hasilat cari ilin sonunda başlanacaqdır. Həmin qaz yatağını qonşu ölkələr və Avropa istehlakçıları ilə birləşdirəcək qaz boru kəməri eyni vaxtda istismara veriləcəkdir.

Son on iki il ərzində Azərbaycan neft və qaz sənayesinə xarici sərmayələrin cəlb edilməsi, əsas xarici neft şirkətləri və tərəfdaşlarımız, eləcə də, beynəlxalq maliyyə qurumları ilə əməkdaşlığın qurulması üçün böyük işlər görmüşdür. İndi Bakı-Tbilisi-Ceyhan boru kəməri artıq işləyir. Bu yaxınlarda Bakı-Tbilisi-Ərzurum qaz boru kəməri də istismara veriləcək, beləliklə, Azərbaycan qonşu ölkələr üçün yeni etibarlı qaz təchizatçısına çevriləcəkdir. Bir sözlə, bizim böyük planlarımız və perspektivlərimiz var.

Ölkəmizdə qeyri-neft sektorunun inkişafı bizim daim diqqət mərkəzimizdədir. Biz Azərbaycan iqtisadiyyatını şaxələndirmək əzmindəyik. Qeyri-neft sektorunun inkişafı bir çox yeni iş yerlərinin açılmasına imkan yaradır. Bu məqsədə nail olmaq üçün ölkə iqtisadiyyatının inkişafı çoxşaxəli olmalıdır. Son iki il yarım ərzində Azərbaycanda, əsasən, qeyri-neft sektorunda 435 mindən çox yeni iş yeri açılmışdır. Ötən il ərzində ölkəmizdə ümumi daxili məhsulun artımı 26 faiz, cari ilin ilk altı ayı ərzində 36 faiz, sənaye istehsalının artımı isə, təqribən 40 faiz olmuşdur və gələn il də bu rəqəmin eyni səviyyədə qalması proqnozlaşdırılır. Ölkəmiz sürətlə inkişaf edir. Bu baxımdan, neft və qaz amili mühüm rol oynayır.

Azərbaycan Avratlantik məkanına inteqrasiya istiqamətində çox fəal şəkildə çalışır. Mən artıq qeyd etdim ki, biz Avropa İttifaqının Cənubi Qafqaz ölkələri üçün tətbiq etdiyi "Yeni qonşuluq siyasətinə" daxil edilmişik. NATO ilə "Fərdi tərəfdaşlığın fəaliyyət planı" üzrə fəal işləyirik. Biz regionumuzda olduqca güclü mövqelərə malikik və hesab edirik, bu, gələcəkdə daha da möhkəmlənəcəkdir. Ölkəmiz Avropa ilə Azərbaycan arasında əməkdaşlığın yeni yollarını müəyyən etməyə çalışır. Gələcək illər ərzində Avropa ilə apardığımız enerji dialoqunun daha da fəallaşmasına xüsusi diqqət yetirəcəyik. Azərbaycandan neft və qazın Avropa və dünya bazarlarına çıxarılması regional təhlükəsizliyin, sabitliyin və əməkdaşlığın çox vacib elementlərinə çevriləcəkdir.

Eyni zamanda, qeyd etmək istəyirəm ki, Bakı-Tbilisi-Ceyhan boru kəməri istismara verildikdən sonra, Azərbaycan Qazaxıstanın həmin boru kəmərinə qoşulması haqqında bu ölkə ilə hökumətlərarası saziş imzalamışdır. Bu, öz növbəsində, regional əməkdaşlığın yeni elementidir. Əgər biz on iki il bundan əvvəl öz enerji siyasətimizi və yeni strategiyamızı başlamasaydıq, islahatları həyata keçirməsəydik, ürəkdən çalışmasaydıq və bu məsələlərin həllinə nail olmasaydıq, indi müşahidə olunan regional əməkdaşlığın və proseslərin heç biri reallığa çevrilə bilməzdi. Beləliklə, bu gün, regionda yeni vəziyyət formalaşır.

Xəzərin enerji resursları artıq beynəlxalq bazarlara müxtəlif marşrutlarla çıxarılır. Hazırda Azərbaycandan üç istiqamətdə enerji daşıyıcıları nəql edən boru kəmərləri mövcuddur. Onlar Rusiya, Gürcüstan və Türkiyə ərazilərinə qədər çəkilibdir. Təbii ki, çoxşaxəli boru kəməri siyasəti regional əməkdaşlığın inkişaf etdirilməsində bizim üçün çox mühüm amildir. Bu gün enerji sahəsində əməkdaşlıq məsələləri avtomatik şəkildə bütövlükdə regional əməkdaşlığa zəmin yaradır və bir çox ölkələr Azərbaycanın neft və qaz ehtiyatlarının işlənilməsi layihələrində fəal iştirak edir. Layihələrimizə qoşulmuş həmin ölkələrin şirkətləri ilə qurduğumuz işbirliyi enerji, təhlükəsizlik sahəsində, terrorçuluğa qarşı mübarizədə əməkdaşlıq, siyasi islahatlar, cəmiyyətin demokratikləşməsi, qonşuluq siyasəti kimi müxtəlif sahələrdə lazımi nəticələrin əldə olunmasına şərait yaradır. Bu baxımdan, Xəzərin neft və qaz ehtiyatlarının işlənilməsi bizim üçün, sadəcə, karbohidrogenlərin hasilatı və nəqli prosesi deyil, regionda tamamilə yeni mühitin yaradılması deməkdir. Beləliklə, Xəzər regionu Balkan regionuna və bütün Avropaya daha da yaxınlaşır. Əminəm ki, biz birgə səylər əsasında gələcəkdə daha yaxşı nailiyyətləri əldə edəcəyik.

Bu gün keçirilən forumun çox böyük əhəmiyyəti var və mən əminəm ki, burada yeni faydalı fikirlər irəli sürüləcəkdir. Çünki açıq müzakirələr bu cür yeni fikirlərin yaranmasına yaxşı şərait yaradır və bu, hamı üçün faydalı olur.

Regional təhlükəsizliyin və sabitliyin əsas elementlərindən biri təhdidlərin aradan qaldırılmasıdır. Bizim böyük planlarımız var. Gündəliyimizdə duran bir çox məsələlərin həllinin mümkün olmasını öz işlərimizlə sübuta yetiririk. Bir çoxları boru kəməri layihəsinə əfsanə kimi yanaşırdı, onun reallaşacağına inanmırdı, lakin biz bu sahədə də uğura nail olduq. Amma bütün planların həyata keçirilməsinə nail olmaq və gündəlikdə duran əsas məsələləri yekunlaşdırmaq üçün biz Cənubi Qafqaz regionunda sülhə və regional təhlükəsizliyə nail olmalıyıq. Regionda həll olunmamış münaqişələr hələ də mövcuddur. Burada separatçılıq və işğal faktları var. Azərbaycan on ildən çoxdur ki, Ermənistan tərəfindən təcavüzə məruz qalıbdır. Etnik təmizləmə siyasəti nəticəsində bir milyondan çox azərbaycanlı qaçqın və məcburi köçkün vəziyyətinə düşmüşdür. Torpaqlarımızın 20 faizi işğal altındadır. Biz münaqişənin sülh yolu ilə aradan qaldırılması üçün beynəlxalq təşkilatlarla iş aparırıq. Məsələnin həlli yalnız beynəlxalq hüquq normaları və prinsipləri əsasında mümkün ola bilər. Hər bir ölkənin ərazi bütövlüyünə hörmətlə yanaşılmalıdır.

BMT Təhlükəsizlik Şurasının Ermənistan silahlı qüvvələrinin zəbt olunmuş ərazilərdən qeyd-şərtsiz çıxarılmasını tələb edən dörd qətnaməsi yerinə yetirilməlidir. Münaqişə ilə bağlı Avropa Şurasının qətnaməsində Ermənistan Azərbaycan torpaqlarını işğal

edən dövlət kimi açıq şəkildə tanınır. Dünya ictimaiyyəti bu məsələyə qəti münasibətini bildirməlidir. Bu münaqişə əsas mancədir. Cənubi Qafqaz regionunda başqa oxşar münaqişələr də mövcuddur. Onlar bütün planlarımız üçün potensial təhlükə mənbəyidir. Ona görə də ədalət bərpa olunmalıdır.

Dünyadakı proseslər get-gedə daha asan şəkildə proqnozlaşdırıla bilir. Avropanın sərhədləri genişlənir. Regional əməkdaşlıq artır. Sivilizasiyalar arasında artan dialoq dünyada daha möhkəm təhlükəsizliyin bərqərar olmasına zəmin yaradır. Bu cür şəraitdə Cənubi Qafqazda hələ də potensial münaqişələr mövcud olaraq qalmaqdadır. Həmin münaqişələr Avropa strukturlarının daimi diqqət mərkəzində olacaqdır. Əgər biz artıq Avropa İttifaqının qonşusuna çevriliriksə, onda Avropa İttifaqı da bu məsələlərin nizamlanmasında iştirak hüququna malikdir. Azərbaycan heç bir dövlətin ərazisini işğal etməyib, biz etnik təmizləmə siyasəti aparmamışıq, əksinə, ölkəmiz təcavüzün və etnik təmizləmə siyasətinin qurbanına çevrilibdir. Təbii ki, biz ədalətin bərpa olunmasını istəyirik. Lakin biz problemi dinc yolla həll etmək istəyirik. Hesab edirəm ki, sülh prosesinin potensialı da hələ tam tükənməyibdir. Bütün bu məsələlər bir-biri ilə bağlıdır və hesab edirəm ki, onların hamısı indiki tədbir zamanı müzakirə olunacaqdır.

Sonda bu fürsətdən istifadə edərək, məni bu tədbirə dəvət etdiyinə görə Sloveniya dövlətinə və hökumətinə bir daha öz minnətdarlığımı bildirirəm. Sabah mənim bu ölkəyə rəsmi səfərim başlanır və ümid edirəm ki, səfər zamanı çox yaxşı nəticələr əldə olunacaq və ölkələrimiz arasındakı əməkdaşlıq artacaqdır. İki ölkə arasında iqtisadi əlaqələrin möhkəmləndirilməsi üçün gözəl imkanlar mövcuddur. Siyasi münasibətlərə gəldikdə, biz dost və müttəfiq ölkələrik. Mən bu fürsətdən istifadə edərək, bizə göstərilmiş qonaqpərvərliyə və xoş qəbula görə Sloveniya tərəfinə öz təşəkkürümü bildirirəm. Mən gözəl ölkənizdə, bu cür cənnət-məkanda olmağıma çox şadam. Ümid edirəm ki, planlarımızda nəzərdə tutulan bütün məsələlər öz həllini tapacaqdır. Mən konfransın işinə uğurlar arzulayıram və ümidvaram ki, onun nəticələri bütün planlarımızın həyata keçirilməsinə xidmət edəcəkdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ SLOVENİYA PREZİDENTİ YANEZ DRNOVŞEKIN GENİŞ TƏRKİBDƏ GÖRÜŞÜ

Avqustun 28-də Sloveniya Prezidentinin iqamətgahında - "Brdo Pri Kranyu" qəsrində Azərbaycan Prezidenti İlham Əliyevin Sloveniya Prezidenti Yanez Drnovşek ilə təkbətək görüşü başa çatdıqdan sonra, dövlət başçılarının nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü keçirilmişdir.

Görüşdə iki ölkə arasında siyasi dialoqun fəal həyata keçirildiyi bildirildi, iqtisadi əməkdaşlıq üçün olan geniş imkanlar və onun perspektivləri barədə söhbət açıldı. Avropa İttifaqı ilə yeni qonşuluq siyasəti çərçivəsində Azərbaycan ilə Sloveniya arasında əməkdaşlığın daha da genişləndirilməsinin zəruriliyi vurğulandı.

Prezident İlham Əliyev Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı ölkəmizin mövqeyini açıqladı.

Söhbət zamanı iqtisadi əlaqələr sahəsində konkret addımların atılmasının və qarşılıqlı səfərlərin təşkilinin əhəmiyyəti bildirildi.

PREZİDENTLƏRİN BİRGƏ MƏTBUAT KONFRANSI

Azərbaycan Prezidenti İlham Əliyev və Sloveniya Prezidenti Yanez Drnovşek geniş tərkibdə görüş başa çatdıqdan sonra birgə mətbuat konfransı keçirmişlər.

Dövlət başçıları jurnalistlər qarşısında bəyanatlarla çıxış etdilər.

SLOVENİYA PREZİDENTİ YANEZ DRNOVŞEKİN BƏYANATI

-Hörmətli xanımlar və cənablar!

Bu gün mən Azərbaycan Respublikasının Prezidenti zati-alilləri cənab İlham Əliyevi burada ilk rəsmi səfəri zamanı qəbul etməkdən olduqca məmnunam. Prezidentin ilk rəsmi səfəri hər zaman çox mühüm bir inkişaf nöqtəsi olur. Bu, xüsusən də ikitərəfli münasibətlər üçün əhəmiyyətli olur. Azərbaycan ilə Sloveniya müstəqilliklərini, demək olar ki, eyni vaxtda elan etmişlər və həmin vaxtdan etibarən hərə öz inkişaf istiqamətində böyük nailiyyətlər qazanmışdır. Eyni zamanda, belə bir qənaətə gəldik ki, ikitərəfli əməkdaşlıq sayəsində biz artıq əldə etdiyimiz nəticələrdən daha çox nailiyyətlər qazana bilərik. Hər iki tərəf üçün əməkdaşlığın inkişaf etdirilməsi üçün siyasi, iqtisadi və mədəni sahələrdə bir çox imkanlar mövcuddur. Eyni zamanda, biz gələcək Avropanın formalaşması layihəsində də iştirak edə bilərik.

Prezident İlham Əliyev və mən ikitərəfli münasibətlərə dair fikir mübadiləsi apardıq, eyni zamanda, Avropanın gələcəyi ilə bağlı məsələləri nəzərdən keçirdik. Azərbaycan Avropanın bu cür perspektivlərində xüsusilə maraqlıdır və Avropa İttifaqı ilə əməkdaşlığa böyük önəm verir. Şəxsən mən Azərbaycanın gələcəkdə Avropa İttifaqına üzvlüyünə və ona tam inteqrasiya olunmasına məmnunluqla baxıram. Hesab edirəm ki, Dağlıq Qarabağ məsələsi də bu baxımdan dinc yolla öz həllini tapacaq, bu problem qarşılıqlı razılaşma əsasında çözüləcəkdir. Biz bilirik ki, Azərbaycanla Ermənistan arasında olan bu münaqişə artıq uzun müddətdir gedir. Ümid edirəm ki, hər iki ölkə gələcəkdə Avropa İttifaqı ilə birlikdə çətinliklərin aradan qaldırılması üçün birgə işləyəcəkdir. Mən sonda Sloveniyanın mümkün olan hər hansı bir formada Azərbaycana yardım göstərməsinə hazır olduğumu bildirirəm.

Sağ olun.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN BƏYANATI

-Hörmətli cənab Prezident!

Hörmətli xanımlar və cənablar!

İlk növbədə, mənə və nümayəndə heyətinə göstərdiyiniz qonaqpərvərliyə görə Sizə minnətdarlığımı bildirmək istəyirəm. Mən Sloveniyaya ilk dəfə rəsmi səfər edirəm və biz ikitərəfli münasibətlərin inkişafına çox böyük əhəmiyyət veririk. Bu gün keçirdiyimiz danışıqlar bir daha onu göstərdi ki, aramızda olan əlaqələr çox sürətlə inkişaf edir və əminəm ki, bu səfərdən sonra əlaqələrin inkişafı daha da geniş olacaqdır. Eyni zamanda, hörmətli cənab Prezident, bu fürsətdən istifadə edib Sizi, münasib olan vaxtda Azərbaycana rəsmi səfərə dəvət edirəm.

Biz bu gün ikitərəfli əlaqələrimizin müxtəlif aspektlərini müzakirə etdik. Müzakirələr onu göstərir ki, bizim aramızda çox uğurlu əməkdaşlığın davam etdirilməsi mümkündür və biz bunu arzulayırıq. Sloveniya ilə ikitərəfli formatda əlaqələrin inkişafı bizim üçün çox önəmlidir. Eyni zamanda, Avropa İttifaqının üzvü kimi Sloveniya bizim üçün çox böyük maraq kəsb edən ölkədir. Bizim Avropa ilə əlaqələrimiz çox sürətlə inkişaf edir, Azərbaycan artıq Avropa İttifaqının qonşuluq siyasətinə qoşulubdur. Bununla bərabər, Avropa İttifaqı ilə enerji məsələlərinə dair yeni müzakirələr gözlənilir. Neft, qaz hasil edən ölkə kimi Azərbaycan Avropanın enerji təhlükəsizliyinin möhkəmlənməsində öz rolunu oynamağa hazırdır.

Beləliklə, bütün sahələrdə həm ikitərəfli formatda, eyni zamanda, beynəlxalq təşkilatlar çərçivəsində bizim əməkdaşlığımızın çox gözəl perspektivləri vardır. Onu da qeyd etmək istəyirəm ki, Sloveniyanı Azərbaycan ilə tarixi əlaqələr də birləşdirir. Azərbaycanın qəhrəman oğlu Mehdi Hüseynzadə Sloveniyada faşizmə qarşı sloveniyalılarla çiyin-çiyinə vuruşmuş, həlak olmuş və Sloveniya torpağında dəfn edilmişdir. Ondan sonrakı illərdə də əlaqələrimiz mövcud idi və Sizin də qeyd etdiyiniz kimi, bizim aramızda oxşar məqamlar da kifayət qədərdir. Həm Sloveniya, həm də Azərbaycan uzun illər ərzində başqa ölkələrin tərkibində yaşamışlar, müstəqilliyi də təxminən eyni vaxtda əldə etmişlər. Müstəqilliyimizin möhkəmlənməsi bizim üçün ən başlıca, ən prioritet məsələdir. Bunu etmək üçün, təbii ki, iqtisadi potensial möhkəmlənməlidir və Azərbaycan bu sahədə son illər ərzində böyük uğurlar əldə etmişdir. Azərbaycanda keçən il iqtisadi artım 26 faiz olmuşdur. Bu ilin altı ayında isə ümumi daxili məhsulun artımı 36 faiz təşkil etmişdir. Ölkəmizin çox böyük iqtisadi perspektivləri var və biz çox istərdik ki, Sloveniya ilə Azərbaycan arasında əlaqələr, - o cümlədən iqtisadi sahədə, - çox sürətlə inkişaf etsin. Bunu etmək üçün qarşılıqlı səfərlər də edilməlidir. Həm dövlət, hökumət nümayəndələrinin, eyni zamanda, iş adamlarının səfərləri təşkil olunmalıdır ki, biz bir-birimizin imkanlarını daha da yaxşı öyrənək və bunun nəticəsində əlaqələrimiz daha da sürətlə inkişaf etsin.

İlk söhbətimizin bir hissəsini Ermənistan -Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli yollarına həsr etdik, geniş fikir mübadiləsi aparıldı, mən cənab Prezidentə Azərbaycanın mövqeyini bir daha təqdim etdim. Bizim mövqeyimiz beynəlxalq hüquq normalarına əsaslanır. Azərbaycanın ərazi bütövlüyü pozulubdur. Azərbaycana qarşı Ermənistan tərəfindən etnik təmizləmə siyasəti aparılmış və bu siyasətin nəticəsində bir milyondan artıq azərbaycanlı öz doğma torpaqlarından didərgin düşmüşdür. Azərbaycan münaqişənin beynəlxalq hüquq normaları əsasında həll olunmasını tələb edir. Birləşmiş Millətlər Təşkilatının dörd qətnaməsi bunu tələb edir. Bu qətnamələrdə erməni qoşunlarının Azərbaycan torpaqlarından qeyd-şərtsiz çıxarılması öz əksini tapmışdır. Eyni zamanda, keçən ilin yanvar ayında Avropa Şurası münaqişəyə dair qətnamə qəbul etmişdir və həmin qətnamədə Ermənistan açıq-aydın işğalçı və təcavüzkar dövlət kimi tanınır. Belə olan halda, təbii ki, münaqişənin beynəlxalq hüquq normaları və prinsipləri əsasında həll edilməsi yeganə mümkün olan variantdır və Azərbaycan öz siyasətini bundan sonra da bu çərçivədə aparacaqdır. İndi danışıqlar prosesi Praqa formatı çərçivəsində gedir. Praqa prosesi bütövlükdə məsələnin mərhələli həlli deməkdir. Biz hesab edirik ki, bu, çox məqbul variantdır və ümid edirik ki, Ermənistan, nəhayət, konstruktiv mövqe nümayiş etdirərək, öz tərəfindən də məsələnin həlli üçün səylər göstərəcəkdir.

Bir daha demək istəyirəm ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ancaq və ancaq beynəlxalq hüquq normaları əsasında mümkündür. Bu məsələnin həll olunmaması bölgə üçün daim böyük təhlükə mənbəyidir və hesab edirəm ki, məsələ nə qədər tez həll olunarsa, bölgəyə sülh, əmin-amanlıq bir o qədər tez gələcək və risklər də azalacaqdır.

Cənab Prezident, məni Sloveniyaya dəvət etdiyinizə görə, Sizə bir daha dərin minnətdarlığımı bildirmək istəyirəm. Mən çox şadam ki, Sizin ölkəyə səfər edirəm. Onu da qeyd etmək istəyirəm ki, Sloveniyanın bizim bölgəyə çox böyük marağı vardır və dünən Bled şəhərində işə başlamış forumun keçirilməsi bunun əyani sübutudur. Çox əlamətdar haldır ki, Sloveniyada Xəzər bölgəsinin problemləri müzakirə olunur və geniş beynəlxalq ictimaiyyət də bu konfransda fəal iştirak edir. Mən əminəm ki, bu səfərdən sonra bizim aramızda olan əlaqələr daha da möhkəmlənəcəkdir. Əminəm ki, Siz Azərbaycana səfər edəndən sonra münasibətlər daha da yüksək pilləyə qalxacaq və ölkələrimiz, xalqlarımız bundan sonra da dostluq, mehribanlıq şəraitində bir-birinə dəstək verərək, daha da irəli gedəcəklər.

Sonra prezidentlər suallara cavab verdilər.

SUAL: Mənim sualım Sloveniya Prezidentinədir. Cənab Prezident, məlumdur ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi regionda sülhə və təhlükəsizliyə böyük maneələr törədir. Avropa İttifaqı isə Cənubi Qafqazla yeni qonşuluq siyasəti həyata keçirir. Avropa İttifaqının üzvü kimi, Sloveniyanın bu münaqişənin həllində mövqeyi nədən ibarətdir?

YANEZ DRNOVŞEK: Hər hansı bir münaqişə, xüsusən də söhbət bu cür münaqişədən gedirsə, bu, böyük bir maneədir, təhdiddir. Burada münaqişənin həllinin iki yolu var. Birincisi, dinc yolla yəni iki tərəf arasında, siyasətçilər arasında danışıqlar yolu ilə. Digər variant münaqişənin güc, hərb yolu ilə həllidir. Mən bu baxımdan birinci varianta, yəni sülh və danışıqlar yoluna üstünlük verərdim. Eyni zamanda, hesab edirəm ki, Prezident İlham Əliyev ilə apardığım müzakirələrdən sonra belə bir qənaətə gəldim ki, bu məsələnin, münaqişənin sülh yolu ilə yaxın gələcəkdə həll olunması üçün kifayət qədər imkanlar var. Mən hesab edirəm ki, bu cür imkanlardan istifadə etmək lazımdır.

Təbii ki, bu məsələni həll edilməmiş bir formada saxlamaq yaxşı olmaz. Çünki onun həll olunmamış vəziyyətdə qalması mövcud vəziyyəti daha da gərginləşdirir. Hesab edirəm ki, hər iki ölkənin başçısı kifayət qədər konstruktiv mövqe göstərərək, bu məsələnin çözülməsinə və çıxış yolunun tapılmasına nail ola bilər. Prezident İlham Əliyev, eyni zamanda, mənə bu imkanlarla bağlı öz fikirlərini söylədi və atılacaq ilk addımlar haqqında mülahizələrini bildirdi. Düşünürəm ki, bu baxımdan onun fikirləri həqiqətən vacibdir.

SUAL: Mənim sualım Prezident İlham Əliyevədir. Cənab Prezident, Siz enerji sahəsində əməkdaşlıq məsələləri müzakirə etdinizmi?

İLHAM ƏLİYEV: Enerji məsələlərinin müzakirəsi son müddət ərzində ənənəvi xarakter daşıyır. Mən öz çıxışımda qeyd etdim ki, Avropa İttifaqı ilə Azərbaycan arasında əlaqələrin bir hissəsi olaraq, enerji məsələlərinin müzakirəsi ənənəvi xarakter alıbdır. Bu

sahədə yeni imkanlar yaranır. Azərbaycan çox böyük neft-qaz hasil və ixrac edən ölkəyə çevrilir. Azərbaycandan Aralıq dənizinə çəkilən böyük neft kəməri artıq fəaliyyətdədir. Bir neçə milyard dollar dəyərində nəhəng transmilli layihə artıq başa çatmışdır. Bu ilin sonunadək Azərbaycanın böyük qaz yatağından çıxarılacaq təbii qaz Avropaya nəql ediləcəkdir. Yəni bunu etmək üçün artıq boru kəməri infrastrukturu da yaradılır. Bütün bunlar, əlbəttə ki, Avropa ilə Azərbaycan arasında enerji sahəsində əməkdaşlığın möhkəmlənməsinə gətirib çıxaracaqdır. Biz buna hazırıq, bunu arzulayırıq. Hiss edirik ki, Avropa ölkələri də bunu arzulayır. Belə olan halda, Azərbaycan Avropa istehlakçıları üçün yeni, çox əhəmiyyətli enerji mənbəyi olacaqdır.

SUAL: Mənim sualım Prezident İlham Əliyevə və Prezident Yanez Drnovşekədir. Siz hər iki ölkənin iqtisadi əlaqələrinin hazırkı səviyyəsini necə qiymətləndirirsiniz və bugünkü yüksək səviyyədə görüş Azərbaycan və Sloveniya arasındakı iqtisadi əməkdaşlığın perspektivi baxımından hansı yeni imkanlar açacaqdır?

YANEZ DRNOVŞEK: İki ölkə arasında olan iqtisadi münasibətlər hazırda kifayət qədər məhdud xarakter daşıyır. Çünki bizim keçmişdə bu sahədə o qədər də böyük imkanlarımız olmamışdır. Biz Prezident İlham Əliyevlə gələcəkdə bu əməkdaşlığın gücləndirilməsi haqqında danışdıq və təbii ki, onun ölkəmizə səfəri nəticəsində ikitərəfli iqtisadi əlaqələrimizin inkişaf etdirilməsinə zəmin yaranacaqdır. Prezident İlham Əliyev artıq qeyd etdi ki, Sloveniya şirkətləri də bu geniş imkanlardan istifadə edərək, Azərbaycanın gələcək inkişafına öz töhfəsini verə bilər. Azərbaycanın iqtisadi inkişafı bu gün çox yaxşı gedir. Biz baxacağıq ki, gələcəkdə işlərimiz necə gedəcəkdir. Bəli, Avropa İttifaqının üzvü olaraq, Sloveniya Azərbaycanla öz təcrübəsini bölüşəcəkdir. Xüsusən də, təchizatların formalaşdırılmasında. Beləliklə, Avropa İttifaqına üzvlük istiqamətində işlərin sürətləndirilməsinə öz töhfəsini verəcəkdir.

İLHAM ƏLİYEV: Bizim iqtisadi əlaqələrimizin göstəriciləri o qədər də böyük deyildir. Amma mütləq rəqəmlər böyük olmasa da, dinamika çox müsbətdir. Yəni bu, onu göstərir ki, son müddət ərzində ikitərəfli iqtisadi əlaqələr inkişaf etməyə başlamışdır. Lakin bu əlaqələrin səviyyəsi bizi qane edə bilməz. Cənab Prezidentlə mən razıyam ki, biz bir-birimizi daha da yaxşı tanımalıyıq. Mən əminəm ki, bu rəsmi səfərdən sonra iqtisadi sahədə də işlər daha yaxşı gedəcəkdir. Qarşılıqlı nümayəndə heyətlərinin səfərləri təşkil olunacaqdır. Bir sözlə, biz bir-birimizi daha da yaxşı tanımalıyıq, imkanlarımızı kəşf etməliyik. Belə olan halda, əminəm ki, iqtisadi əlaqələrin möhkəmlənməsi üçün çox gözəl imkanlar yaranacaqdır.

AZƏRBAYCAN PREZİDENTİNİN ŞƏRƏFİNƏ RƏSMİ NAHAR

Avqustun 28-də "Brdo Pri Kranyu" qəsrində Sloveniya Respublikasının Prezidenti Yanez Drnovşek adından Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin şərəfinə rəsmi nahar verilmişdir.

Sloveniya Prezidenti Yanez Drnovşek və Azərbaycan Prezidenti İlham Əliyev nitq söyləmişlər.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ATƏT-İN MİNSK QRUPUNUN AMERİKALI HƏMSƏDRİ MƏTYU BRAYZƏNİ QƏBUL ETMİŞDİR

Avqustun 28-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev onun üçün ayrılmış iqamətgahda, "Grand Union" mehmanxanasında ATƏT-in Minsk qrupunun amerikalı həmsədri, səfir Mətyu Brayzəni qəbul etmişdir.

Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə əlaqədar Minsk qrupu çərçivəsində aparılan danışıqlarla bağlı məsələlər müzakirə edildi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN AVROPA YENİDƏNQURMA VƏ İNKİŞAF BANKININ PREZİDENTİ JAN LEMYER İLƏ GÖRÜŞÜ

Avqustun 28-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev onun üçün ayrılmış iqamətgahda, "Grand Union" mehmanxanasında Avropa Yenidənqurma və İnkişaf Bankının prezidenti Jan Lemyer ilə görüşmüşdür.

Söhbət zamanı Azərbaycan ilə bu beynəlxalq maliyyə qurumu arasında əməkdaşlıq məsələləri müzakirə olundu.

LYUBLYANA ŞƏHƏR MERİYASINDA GÖRÜŞ

Avqustun 28-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Lyublyana şəhər meriyasının binasına gəlmişdir.

Prezident İlham Əliyevi və xanımı Mehriban Əliyevanı Lyublyana şəhərinin meri xanım Danika Simşiç böyük hörmət və ehtiramla qarşıladı.

Meriya binasının önündə dövlətimizin başçısının təntənəli qarşılanma mərasimi oldu, Lyublyana şəhərinin himni səsləndi. Xanım Danika Simşiç meriyanın əməkdaşlarını Azərbaycan Prezidentinə təqdim etdi.

Sonra meriyanın binasında görüş keçirildi. Danika Simşiç ali qonağı və onun xanımını salamlamaqdan çox şad olduğunu bildirdi. O, Avropanın qədim şəhərlərindən olan Lyublyananın tarixi abidələrinin bərpası üçün görülən işlərdən danışdı, bir çox ölkələrin paytaxtları ilə əməkdaşlıq etdiklərini vurğuladı.

Xanım Danika Simşiç Bakı ilə də əlaqələrin yaradılmasında maraqlı olduqlarını bildirərək dedi ki, Azərbaycanın paytaxtı barədə müəyyən məlumatım var. Ancaq çox xoş və maraqlı olardı ki, mən qədim neft diyarı Azərbaycanın paytaxtı Bakı şəhəri ilə yaxından tanış olum.

Mer onu da bildirdi ki, Avropa İttifaqının üzvü olan 25 ölkənin paytaxtları rəhbərlərinin toplantısı bu yaxınlarda məhz Lyublyanada keçiriləcəkdir.

Prezident İlham Əliyev görüşdə çıxış etdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ÇIXIŞI

- Hörmətli xanım mer!

Hörmətli xanımlar və cənablar!

Əziz dostlar!

Sizin gözəl şəhərinizdə olmağımdan çox böyük məmnunluq hissi keçirirəm. Mən artıq iki gündür ki, Sloveniyadayam, Lyublyana şəhərindəyəm. Hələ şəhərlə çox yaxından tanış ola bilməsəm də, maşında gedərkən binalara baxanda görürəm ki, çox gözəl şəhərdir. Çoxlu tarixi binalar var və onlar çox yüksək səviyyədə qorunur. Bu gün isə mən şəhərlə yaxından tanış olacağam və əminəm ki, ilkin gözəl təəssürat daha da möhkəmlənəcəkdir.

Sizin şəhəriniz çox böyük və qədim tarixə malikdir. Tarixi abidələri qoruyub saxlamaq və onları bərpa etmək, əlbəttə ki, sizin öz doğma tarixinizə olan münasibətdən irəli gəlir. Burada həm çox gözəl və zəngin təbiət mövcuddur, eyni zamanda, gözəl tarixi binalar Lyublyananın özünəməxsus simasını əks etdirir. Bütövlükdə Sloveniyanın son illər ərzində əldə etdiyi uğurlar bir dost kimi məni çox sevindirir. Ölkəniz bütün sahələrdə, o cümlədən həm siyasi, həm də iqtisadi cəhətdən çox sürətlə inkişaf edir. Təsadüfi deyil ki, Avropa İttifaqının ən yüksək mükafatı məhz Lyublyana şəhərinə verilmişdir.

Hörmətli xanım mer, bu fürsətdən istifadə edib sizi Bakıya dəvət edirəm. Güman edirəm ki, Bakı ilə tanışlığınız sizdə də çox gözəl təəssüratlar yaradacaq və bizim şəhərlərimiz bir-biri ilə əməkdaşlıq edəcəkdir. Mən artıq ikinci gündür ki, Lyublyanadayam. Sabah da burada olacağam və deyə bilərəm ki, ilk dəqiqələrdən çox böyük qonaqpərvərliklə üzləşmişəm. Mən və bizim bütün nümayəndə heyətimiz burada özümüzü çox yaxşı hiss edirik. Bu qonaqpərvərliyə görə sizə və bütün sloveniyalı dostlarımıza öz minnətdarlığımı bildirirəm.

Sağ olun.

Səfərə dəvətə görə dövlətimizin başçısına dərin minnətdarlığını bildirən xanım Danika Simşiç Mehriban xanım Əliyevaya gül dəstəsi, Prezident İlham Əliyevə xatirə olaraq üzərində Lyublyananın rəmzi olan hədiyyə təqdim etdi.

Prezident İlham Əliyev meriyanın fəxri qonaqlar kitabını imzaladı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN SLOVAKİYANIN XARİCİ İŞLƏR NAZİRİ YAN KUBİŞ İLƏ GÖRÜŞÜ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 28-də Lyublyanada, onun üçün ayrılmış iqamətgahda Slovakiyanın xarici işlər naziri Yan Kubiş ilə görüşmüşdür.

Görüşdə iki ölkə arasında əlaqələrin müxtəlif sahələrinə dair fikir mübadiləsi aparıldı.

ALİ QONAĞIN ŞƏRƏFİNƏ

Avqustun 28-də, günün sonunda Sloveniya Milli Şurasının sədri Yanez Suşnik və xanımı Berta Suşnikin adından Azərbaycan Prezidenti İlham Əliyevin və xanımı Mehriban Əliyevanın şərəfinə rəsmi ziyafət verilmişdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV SLOVENİYA PARLAMENTİNDƏ OLMUŞDUR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Sloveniyaya rəsmi səfəri çərçivəsində avqustun 29-da bu ölkənin parlamentinə - Milli Assambleyaya gəlmişdir.

Burada dövlətimizin başçısı İlham Əliyevi və xanımı Mehriban Əliyevanı parlament sədrinin müavini Saşo Peçe böyük hörmət və ehtiramla qarşıladı.

Azərbaycan Prezidenti İlham Əliyev Milli Assambleyanın fəxri qonaqlar kitabını imzaladı.

Sonra Prezident İlham Əliyevlə parlament sədrinin müavini Saşo Peçenin görüşü oldu. Söhbət zamanı ölkələrimiz arasında siyasi, iqtisadi sahələrdə olduğu kimi, parlamentlərarası əlaqələrin genişləndirilməsinin də vacibliyi vurğulandı. Azərbaycanın dövlət başçısının Sloveniyaya ilk rəsmi səfərinə bu ölkədə çox böyük əhəmiyyət verildiyini bildirən Saşo Peçe bu səfəri ikitərəfli münasibətlərin inkişafında çox mühüm mərhələ kimi dəyərləndirdi.

SLOVENİYA MİLLİ TELEVİZİYASINA MÜSAHİBƏ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 29-da günün sonunda Sloveniya milli televiziyasına müsahibə verdi.

AZƏRBAYCAN PREZİDENTİNİN ŞƏRƏFİNƏ

Avqustun 29-da Sloveniya Respublikası Milli Assambleyası sədrinin müavini Saşo Peçenin və onun xanımı adından Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və xanımı Mehriban Əliyevanın şərəfinə rəsmi nahar təşkil olundu.

SƏFƏR BAŞA ÇATDI

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 29-da Sloveniya Respublikasına rəsmi səfərini başa çatdıraraq Vətənə yola düşmüşdür.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV UKRAYNA BAŞ NAZİRİNİN MÜAVİNİ, UKRAYNA-AZƏRBAYCAN BİRGƏ İQTİSADİ ƏMƏKDAŞLIĞI ÜZRƏ HÖKUMƏTLƏRARASI KOMİSSİYASININ UKRAYNA TƏRƏFDƏN SƏDRİ ANDREY KLYUYEVİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 31-də Prezident sarayında Ukrayna Baş nazirinin müavini, Ukrayna-Azərbaycan Birgə İqtisadi Əməkdaşlığı üzrə Hökumətlərarası Komissiyasının Ukrayna tərəfdən sədri Andrey Klyuyevi qəbul etmişdir.

Görüşdə Azərbaycan-Ukrayna ikitərəfli münasibətlərinin, o cümlədən iqtisadi əməkdaşlığının müxtəlif sahələrinə dair fikir mübadiləsi aparılmışdır.

XARİCİ İŞLƏR NAZİRLİYİNDƏ GÖRÜŞ

Xarici İşlər naziri Elmar Məmmədyarov sentyabrın 1-də Dünya Səhiyyə Təşkilatı baş direktorunun köməkçisi xanım Marqaret Çanın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşmüşdür.

Çin Xalq Respublikasının hökuməti tərəfindən Dünya Səhiyyə Təşkilatının baş direktoru vəzifəsinə namizədliyi irəli sürülmüş xanım Marqaret Çan ölkələrimiz arasında ikitərəfli və beynəlxalq təşkilatlar çərçivəsində, o cümlədən səhiyyə sahəsində qarşılıqlı əməkdaşlığın yüksək səviyyədə olduğunu söyləmişdir.

Seçkiqabağı platforması barədə məlumat verən M.Çan, Dünya Səhiyyə Təşkilatının baş direktoru vəzifəsinə seçiləcəyi təqdirdə Azərbaycan ilə Çin arasında, həmçinin ölkəmizin müvafiq beynəlxalq qurumlarla səhiyyə sahəsində, xüsusi ilə də informasiya və təcrübə mübadiləsi məsələlərində mövcud imkanlardan istifadə edərək, respublikamızın Səhiyyə Nazirliyi ilə əlaqələrin daha da genişləndirilməsinə çalışacağını vurğulamışdır.

Nazir E.Məmmədyarov seçkiqabağı platforması barədə ətraflı məlumat verdiyi üçün qonağa təşəkkürünü bildirmiş və xanım Çanın uzun illərdən bəri səhiyyə sahəsində göstərdiyi xidmətləri yüksək qiymətləndirmişdir.

Ermənistanın azərbaycanlılara qarşı apardığı etnik təmizləmə, soyqırımı siyasəti və ölkəmizə hərbi təcavüzü nəticəsində doğma torpaqlarından məcburi surətdə qovulmuş bir milyona yaxın qaçqın və məcburi köçkünün olduqca çətin şəraitdə yaşadığını diqqətə çatdıran nazir E.Məmmədyarov, ölkəmizin beynəlxalq səhiyyə təşkilatları ilə sıx əməkdaşlıq etməsinin mühüm əhəmiyyət daşıdığını bildirmişdir.

Görüşdə qarşılıqlı maraq doğuran bir sıra digər məsələlər ətrafında da fikir mübadiləsi aparılmışdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN TÜRKİYƏYƏ SƏFƏRİ

Sentyabrın 3-də Azərbaycan Respublikasnın Prezidenti İlham Əliyev İslam Konfransı Təşkilatının Əməkdaşlıq və Dialoq Uğrunda Gənclər Forumunda iştirak etmək üçün İstanbula gəlmişdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ TÜRKİYƏNİN BAŞ NAZİRİ RƏCƏB TAYYİB ƏRDOĞANIN GÖRÜŞÜ

Sentyabrın 3-də İstanbulun Dolmabaxça sarayında Azərbaycan Prezidenti İlham Əliyevin Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğanla görüşü olmuşdur.

Görüşdə iki ölkə arasında dostluq və qardaşlıq münasibətlərinin, müxtəlif sahələrdə əlaqələrin uğurla inkişaf etdiyi vurğulandı, bu əlaqələrin regionda sülhə, sabitliyə, inkişafın sürətləndirilməsinə xidmət etdiyi bildirildi və gələcəkdə əməkdaşlığın bütün sahələrdə daim genişlənəcəyinə əminlik ifadə olundu.

Söhbət zamanı qarşılıqlı maraq doğuran bir sıra digər məsələlər də müzakirə edildi.

İSLAM KONFRANSI TƏŞKİLATININ DİALOQ VƏ ƏMƏKDAŞLIQ UĞRUNDA GƏNCLƏR FORUMUNUN DAİMİ QƏRARGAHININ TƏNTƏNƏLİ AÇILIŞ MƏRASİMİ

Sentyabrın 3-də İslam Konfransı Təşkilatının (İKT) Dialoq və Əməkdaşlıq Uğrunda Gənclər Forumunun İstanbul Dünya Ticarət Mərkəzində yerləşən Daimi qərargahının təntənəli açılış mərasimi keçirilmişdir.

Forumun prezidenti Əli Sarıkaya və baş katibi Elşad İsgəndərov ali qonaqlara məlumat verdilər. Bildirildi ki, 2005-ci ilin iyununda İslam Konfransı Təşkilatının üzvü olan ölkələrin xarici işlər nazirlərinin Yəmənin paytaxtı Sənada keçirilən iclası zamanı Foruma üzv-qurum (affiliated institution) statusu verildikdən sonra, həmin ilin dekabrında Türkiyə hökuməti Səna qətnaməsinin tələblərinə uyğun olaraq, təşkilat üçün İstanbul Dünya Ticarət Mərkəzində daimi əsaslarda fəaliyyət göstərən qərargah verilməsi haqqında qərar qəbul etmişdir. Sentyabrın 3-də Forumun Daimi qərargahının açılış mərasimini birgə keçirmək üçün Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğan adından Azərbaycan Prezidenti İlham Əliyevə dəvət göndərilmişdir. Tədbirdə həmçinin İslam Konfransı Təşkilatının baş katibi, İKT-nin üzvü olan, habelə Avropanın bir sıra ölkələrinin hökumət nümayəndələri, BMT, Avropa Şurası, İSESKO və digər beynəlxalq təşkilatların təmsilçiləri iştirak edirdilər.

Sonra İslam Konfransı Təşkilatının (İKT) Dialoq və Əməkdaşlıq Uğrunda Gənclər Forumu ilə İstanbul Dünya Ticarət Mərkəzi arasında Daimi qərargah haqqında saziş imzalandı, qərargahın rəmzi açılışını bildirən lent kəsildi, iştirakçılar onunla tanış oldular.

Fasilədən sonra mərasim İstanbulun Dolmabaxça sarayında davam etdirildi.

Mərasimdə Azərbaycan Prezidenti İlham Əliyev, Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğan, Türkiyə Böyük Millət Məclisinin sədri Bülənt Arınç, Pakistanın Baş naziri Şövkət Əziz, İslam Konfransı Təşkilatının baş katibi Ekmələddin İhsanoğlu, habelə digər yüksək vəzifəli qonaqlar iştirak edirdilər.

Əvvəlcə müqəddəs Qurani-Kərimdən ayələr oxundu.

Forumun prezidenti Əli Sarıkaya, baş katibi Elşad İsgəndərov Forumun yaranma tarixindən, gördüyü işlərdən, gələcək planlarından danışdılar. Bildirildi ki, İslam Konfransı Təşkilatının Dialoq və Əməkdaşlıq Uğrunda Gənclər Forumu Azərbaycan gənclərinin təşəbbüsü və Azərbaycan hökumətinin dəstəyi ilə 2004-cü ilin dekabrında Bakı şəhərində təsis edilmişdir. Təşkilat İKT-yə üzv olan 35 ölkədə fəaliyyət göstərən 40-dək aparıcı gənclər təşkilatını özündə birləşdirir. Xarici işlər nazirlərinin 33-cü konfransının qərarı ilə İKT-nin son 20 illik tarixində ilk dəfə olaraq bu Foruma təşkilatın üzv-qurumu statusu verilmişdir. Forumun fəaliyyətinin əsas istiqamətləri sırasında İKT ölkələrinin üzləşdiyi işğal, təcavüzlər haqqında həqiqətlərin dünyada geniş yayılması mühüm yer tutur. Bu ilin iyun ayında Forum İKT ölkələrində yaymaq məqsədi ilə Ermənistanın Azərbaycana qarşı işğalçılıq siyasəti haqqında ilk dəfə olaraq, ərəb dilində "Qarabağ: faktlar və nəticələr" adlı kitabı çap etdirmiş və İKT xarici işlər nazirlərinin Bakı konfransı zamanı onun beynəlxalq təqdimatını keçirmişdir.

İstanbul Böyük şəhər bələdiyyəsinin sədri Kadir Topbaş, İKT-nin baş katibi Ekmələddin İhsanoğlu, Türkiyə Böyük Millət Məclisinin sədri Bülənt Arınç, İKT-nin üzvü olan digər ölkələrin rəsmi nümayəndələri belə bir forumun keçirilməsinin xüsusi əhəmiyyətini vurğuladılar. Bildirildi ki, qloballaşan dünyada müxtəlif sahələrdə ölkələrarası əlaqələri inkişaf etdirməyə bu gün həmişəkindən daha çox ehtiyac vardır. Gənclərin əməkdaşlıq naminə bir araya gəlməsi zamanın tələbidir. Natiqlər müasir dünyada islam ölkələrinin üzləşdiyi problemlərin həllində Forumun qarşısında duran vəzifələrdən də danışdılar.

Pakistanın Baş naziri Şövkət Əziz bildirdi ki, gələcək dünyanın sağlam müstəvidə inkişafı həm də gənclər arasında qurulacaq möhkəm işbirliyindən asılıdır. O, ayrı-ayrı bölgələrdə baş verən münaqişələrlə, Yaxın Şərqdəki vəziyyətlə bağlı ölkəsinin mövqeyini də açıqladı və dedi ki, Pakistan bütün ölkələrin ərazi bütövlüyünü dəstəkləyir, terror hadisələrini qətiyyətlə pisləyir. Pakistanın Baş naziri Forumun fəaliyyətinə bundan sonra da kömək göstəriləcəyini bildirdi.

Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğan Azərbaycan Prezidentinin bu tədbirin baş tutmasını dəstəkləməsinin xüsusi əhəmiyyət daşıdığını bildirdi. O dedi ki, ilk gündən bu Forumun yaradılmasını dəstəklədiyinə görə dəyərli qardaşım, dost Azərbaycanın hörmətli Cümhurbaşqanı İlham Əliyevə hamınızın qarşısında öz adımdan, ölkəm, millətim və gənclər adından dərin təşəkkürümü bildirirəm. Baş nazir vurğuladı ki, milli, bəşəri dəyərlərlə zəngin olan islam mənəviyyatı dünyada sülh tərəfdarıdır. Yalnız sülh, əməkdaşlıq və dialoq narahat dünyanın sabahına təminat verə bilər.

Azərbaycan Prezidenti İlham Əliyev mərasimdə nitq söylədi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ

- Hörmətli Türkiyə Böyük Millət Məclisinin sədri!

Hörmətli baş nazirlər!

Əziz qonaqlar, xanımlar və cənablar!

İlk növbədə, qardaşım, Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğana məni Gənclər Forumunun açılış mərasiminə dəvət etdiyinə görə öz dərin minnətdarlığımı bildirmək

istəyirəm. Doğma Türkiyədə yenidən olmağımdan çox böyük məmnunluq hissi keçirirəm.

Mən buraya gələrkən ay yarım bundan əvvəl Türkiyədə baş vermiş buna bənzər mərasimi xatırladım. Ay yarım bundan əvvəl biz İstanbulda, boğazda və ondan sonra Ceyhanda Bakı-Tbilisi-Ceyhan neft kəmərinin istismara verilməsini bərabər qeyd edirdik. Bu gün isə İslam Konfransı Təşkilatı Gənclər Forumunun açılış mərasimini qeyd edirik. Bəlkə də bu iki hadisə arasında bilavasitə bağlantı yoxdur. Ancaq mən hesab edirəm ki, iki hadisənin qısa müddət ərzində baş verməsi çox böyük rəmzi xarakter daşıyır.

Bakı-Tbilisi-Ceyhan neft boru xəttinin fəaliyyətə başlaması bizim iqtisadi gücümüzü, bölgədəki mövqelərimizi daha da möhkəmləndirəcəkdir. Bizi bir-birimizə daha da sıx bağlayacaq və nəticədə ölkələrimizin iqtisadi və siyasi çəkisi artacaqdır. İslam Konfransı Təşkilatı Gənclər Forumunun uğurlu fəaliyyəti, eyni zamanda, humanitar sahədə bizim mövqelərimizi daha da möhkəm edəcəkdir. Sirr deyil ki, möhkəm iqtisadiyyat, güclü potensial hər bir işin görülməsi üçün əsas şərtdir və möhkəm zəmindir. Bu gözəl möhkəm zəmində biz maddi dəyərləri insani dəyərlərə çevirməliyik. Bu baxımdan İslam Konfransı Təşkilatı Gənclər Forumunun fəaliyyətə başlaması çox böyük əhəmiyyət kəsb edir və hesab edirəm ki, bu, müsəlman aləmində son illər ərzində baş vermiş hadisələrdən çox önəmlisidir.

Təşkilat fəaliyyətə çox uğurla başlamışdır. Qısa müddət ərzində bütün təşkilati məsələlər öz həllini tapmış və artıq Gənclər Forumu çox fəal işlərə başlamışdır. Bu gün forumun fəaliyyəti və gələcək planları haqqında burada kifayət qədər söhbət açıldı. Çox gözəl proqramlar var, planlar var. Mən şübhə etmirəm ki, bütün planlar həyata keçiriləcəkdir. Bununla bərabər, qeyd etmək istəyirəm ki, müsəlman gənclərinin birgə fəaliyyəti bizim gələcəyimiz üçün də çox önəmli əhəmiyyət daşıyan məsələdir.

İslam Konfransı Təşkilatına üzv olan ölkələrin əhalisinin böyük hissəsini gənclər təşkil edir. Gənclər cəmiyyətin ən fəal təbəqəsidir və böyük qüvvədir. Bizim ölkələrimizin gənclərinin indidən bir-biri ilə təmasda olması, əlbəttə ki, gələcəkdə fəaliyyətimizi daha da yüksək pilləyə gətirib çıxaracaqdır. İslam həmrəyliyinin möhkəmlənməsinə çox mühüm töhfəsini verəcəkdir. Biz özümüzü dünyaya daha da geniş şəkildə, olduğumuz kimi təqdim etməliyik. Bəzi hallarda islam ölkələri və islam dini haqqında dünyada çox yanlış və deyə bilərəm ki, təhlükəli rəylər formalaşdırılır. Biz belə cəhdlərin bəzən bilərəkdən, bəzi hallarda bilməyərəkdən edildiyini müşahidə edirik, amma bu, faktdır. Biz özümüzü təqdim etməliyik, dünyaya nümayiş etdirməliyik ki, islam dini sülh dinidir. İslamı heç vaxt terrorla eyniləşdirmək olmaz. Terrora biz məruz qalmışıq.

Azərbaycanda 1990-cı illərin əvvəllərində erməni terrorist təşkilatları tərəfindən 30-dan yuxarı terror aktı törədilmişdir və onların nəticəsində 2 mindən çox günahsız insan həlak olmuşdur. Azərbaycan uzun illərdir ki, Ermənistan tərəfindən təcavüzə məruz qalmışdır. İşğal olunmuş torpaqlarda bizim bütün tarixi abidələrimiz dağıdılıbdır. Məscidlərimiz, məktəblərimiz, tarixi binalarımız yerlə-yeksan edilibdir. Azərbaycanın ərazi bütövlüyü pozulubdur. Azərbaycana qarşı təcavüz nəticəsində torpaqlarımızın 20 faizi işğal altında qalır və etnik təmizləmə siyasəti nəticəsində 1 milyondan artıq azərbaycanlı qaçqın-köçkün şəraitində yaşayır. Bütün bunlar reallıqdır, faktlardır. Biz həmişə terrora məruz qalmış tərəfik. Biz istəyirik ki, ədaləti bərpa edək. İstəyirik ki, ərazi

bütövlüyümüzü bərpa edək və buna nail olacağıq. Çünki beynəlxalq hüquq normaları, haqq-ədalət bizim tərəfimizdədir. Biz daha da fəal olmalıyıq, bütün imkanlardan istifadə etməliyik. Siyasi, iqtisadi, diplomatik, bütün başqa imkanlardan istifadə edib ədaləti bərpa etməliyik. Bu işlərdə gənclərin rolu çox böyükdür.

Mən böyük məmnunluq hissi ilə qeyd etmək istəyirəm ki, artıq qısa müddət ərzində Gənclər Forumunun təşəbbüsü ilə Qarabağ münaqişəsinə dair kitab çapdan çıxmışdır və ilk dəfə olaraq, ərəb dilinə də tərcümə edilmişdir. Yəni, bu, onu göstərir ki, Forumun fəaliyyəti artıq praktik nəticələrə gətirir. Bu, çox təqdirəlayiq bir hadisədir. Bütövlükdə, gənclərin təşkilatlanması, maarifləndirilməsi bütün islam dünyası üçün çox böyük önəmli məsələdir. Bizim gənclərimiz dünyada gedən bütün proseslərdə fəal iştirak etməlidirlər. Bütün mütərəqqi işlərdə fəal iştirak etməlidirlər. Yaxşı təhsil almalı, yaxşı oxumalıdırlar. Mövcud olan bütün yeni texnologiyalara yiyələnməlidirlər.

Biz Azərbaycanda bu məsələyə böyük diqqət göstəririk. Azərbaycanın bütün orta məktəblərində kompyuter sinifləri yaradılır və onlar birbaşa internetə qoşulacaq ki, gənclərimiz, uşaqlarımız dünyada gedən bütün prosesləri izləsinlər və bu proseslərin iştirakçıları olsunlar. Biz yeni, güclü gənc nəslin formalaşmasında çox mühüm rol oynamalıyıq, çox böyük işlər görməliyik. Bu sahədə bir tərəfdən təhsil, ikinci tərəfdən idman, sağlamlıq, sağlam həyat tərzi, üçüncü tərəfdən, gənclərin fəal olması, bizim ictimai-siyasi həyatımızda onların fəal iştirakı - bütün bunlar ölkələrimizi möhkəmləndirəcəkdir. İslam Konfransı Təşkilatına üzv olan ölkələr arasında həmrəyliyi daha da gücləndirəcəkdir.

Bir müddətdən sonra indiki gənclər bizim ölkələrdə rəhbər vəzifələrə gələcəklər, ölkələrimizi idarə edəcəklər. Onların fəaliyyətindən ölkələrimizin müqəddəratı asılı olacaqdır. Çox vacibdir ki, gənclərimiz həm bilikli, savadlı olsunlar, həm müasir olsunlar, eyni zamanda, bütün milli və dini ənənələrə sadiq olsunlar, vətənpərvərlik ruhunda böyüsünlər ki, bizim ölkələrimiz gələcəkdə də inkişaf etsin və möhkəmlənsin.

Mən Forumun yaradılmasını alqışlayıram. Bunu çox böyük hadisə kimi qiymətləndirirəm və əminəm ki, Forumun fəaliyyəti nəticəsində görüləcək işlər bizi daha da sıx birləşdirəcək, bütövlükdə, İslam Konfransı Təşkilatının möhkəmlənməsinə gətirib çıxaracaqdır.

Azərbaycan İslam Konfransı Təşkilatının çox fəal üzvüdür. Biz bu yaxınlarda Bakıda üzv ölkələrin xarici işlər nazirlərinin toplantısını keçirmişdik. Bir neçə gündən sonra Bakıda üzv ölkələrin turizm nazirləri yığışacaqlar. Bir sözlə, hesab edirəm, bu istiqamətdə bizim fəaliyyətimiz çox önəmlidir və çalışırıq ki, ölkələrimiz bir-biri ilə daim sıx təmasda olsunlar. Siyasi əlaqələrimiz çox yüksək səviyyədədir. Çox vacibdir ki, bizim ölkələr iqtisadi sahədə bir-biri ilə daha da sıx əməkdaşlıq etsinlər.

Əziz dostlar, mən əminəm ki, Gənclər Forumunun fəaliyyətində böyük işlər görüləcəkdir, böyük nəticələr olacaqdır. Biz bu gün Forumun fəaliyyətinə öz xeyir-duamızı verirk, onu dəstəklədiyimizi göstəririk. İstərdim ki, bu dəstək, eyni zamanda, Forumun təşkilatlanma prosesinə öz müsbət təsirini göstərsin. Bu məqsədlə Azərbaycan dövləti Forumun büdcəsinə 100 min dollar köçürülməsi haqqında qərar qəbul edibdir. Əminəm ki, bu kiçik töhfə sizin işlərinizin daha da yaxşı getməsi üçün əlverişli zəmin yaradacaqdır. Əlbəttə ki, gələcəkdə Forumun maddi-texniki bazasının möhkəmlənməsində bizim bütün ölkələrimiz fəal iştirak edəcəkdir.

Mən bu gözəl hadisə münasibətilə sizin hamınızı bir daha ürəkdən təbrik edirəm. Qardaş türk xalqına öz sevgi və məhəbbətimi ifadə edirəm. Sağ olun.

* * *

Mərasim çərçivəsində müxtəlif dövlət qurumlarından və beynəlxalq təşkilatlardan daxil olmuş təbrik məktubları oxundu. Bundan əlavə, Forumun Avropa Şurası, Birləşmiş Millətlər Təşkilatı və İslam Təhsil, Elm və Mədəniyyət Təşkilatı (İSESKO) ilə birgə "Gənclər sivilizasiyaların alyansı uğrunda" təşəbbüsünün təqdimatı da oldu. Xatırladıldı ki, Türkiyə və İspaniya Baş nazirlərinin təklif etdiyi bu ideya 2005-ci ilin iyun ayında BMT-nin baş katibi Koffi Annan tərəfindən BMT-nin beynəlxalq proqramı kimi qəbul edilmiş "Sivilizasiyaların alyansı" təşəbbüsünün həyata keçirilməsində gənclərin rolunu gücləndirmək məqsədi ilə irəli sürülmüşdür.

Mərasim zamanı Dialoq və Əməkdaşlıq Uğrunda Gənclər Forumu, İslam Ticarət və İnkişaf Palatası, Avropa Şurası, BMT-nin İnkişaf Proqramı, İSESKO və İslam İnkişaf Bankı ilə əməkdaşlıq haqqında sənədlər imzalandı.

Məlumat verildi ki, 2007-ci ilin mayında İstanbul şəhərində dünya sənətçilərinin iştirakı ilə "Dialoq, hörmət, musiqi vasitəsilə anlaşma" devizi altında beynəlxalq sülh konsertləri təşkil ediləcəkdir.

Sonra Əməkdaşlıq və Dialoq Uğrunda Gənclər Forumunun dəstəklənməsində xidmətləri olan şəxslərə bu qurumun mükafatları təqdim olundu. Forumun prezidenti Əli Sarıkaya ilk mükafatı Azərbaycan Prezidenti İlham Əliyevə təqdim etdi. Dövlətimizin başçısı İlham Əliyev isə Türkiyə Böyük Millət Məclisinin sədri Bülənt Arınça, Pakistanın Baş naziri Şövkət Əzizə, Türkiyə Sənaye Palataları Federasiyasının başçısı Rifat Hisarciklioğluna, İstanbul Böyük şəhər bələdiyyəsinin sədri Kadir Toppaşa, Türkiyə Baş nazirinin baş müşaviri Əhməd Davutoğluna mükafatları təqdim etdi.

Forumun baş katibi Elşad İsgəndərov Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğana, Baş nazir isə İslam Konfransı Təşkilatının baş katibi Ekmələddin İhsanoğluna mükafatları təqdim etdi.

İslam Ticarət və İnkişaf Palatasının prezidenti Şeyx Saleh Kamilə Gənclər Forumunun fəxri mükafatı təqdim edildi.

SƏFƏR BAŞA ÇATDI

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev İslam Konfransı Təşkilatının Əməkdaşlıq və Dialoq Uğrunda Gənclər Forumunun Daimi qərargahının açılış mərasimi başa çatdıqdan sonra Vətənə yola düşmüşdür.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV RUSİYALI HƏMVƏTƏNLƏRİN BEYNƏLXALQ ŞURASININ BAKIDA KEÇİRİLƏN GENİŞ İCLASI İŞTİRAKÇILARININ BİR QRUPUNU QƏBUL ETMİŞDİR

Azərbaycan Prezidenti İlham Əliyev sentyabrın 5-də Prezident sarayında Rusiyalı Həmvətənlərin Beynəlxalq Şurasının Bakıda keçirilən geniş iclası iştirakçılarının bir qrupunu qəbul etmişdir.

Prezident İLHAM ƏLİYEV qonaqları salamlayaraq dedi:

- Şadam ki, bizim Bakıda belə mühüm hadisə baş verir - Rusiyalı Həmvətənlərin Beynəlxalq Şurasının geniş iclası keçirilir. Ümidvaram ki, bu görüşün keçirilməsi üçün bütün lazımi şərait yaradılmışdır. Şuranın iclasının ölkəmizdə keçirilməsi faktının özü çox şeydən xəbər verir. Bildiyiniz kimi, Azərbaycanda yaşayan bütün xalqlar arasında millətlərarası həmrəylik, sülh, dostluq məsələləri həmişə dövlətin və hökumətin diqqət mərkəzində olmuşdur və indi də diqqət mərkəzindədir. Əlbəttə ki, belə şəraitin yaradılması, bir tərəfdən, ölkəmizi möhkəmləndirir, çünki Azərbaycan çoxmillətli dövlətdir, digər tərəfdən isə bu, Rusiya ilə Azərbaycan arasında ikitərəfli münasibətlərin inkişaf etdirilməsinin mühüm elementidir. Respublikamızın həyatının ayrılmaz tərkib hissəsi olan tolerantlıq, dözümlülük onun hüdudlarından uzaqlarda da məlumdur. Ona görə də biz belə bir tədbirin Azərbaycanda keçirilməsinə ölkədə mövcud vəziyyətə sizin təşkilatınız tərəfindən verilən qiymət kimi, habelə dövlətlərimiz arasında münasibətlərin inkişafına daha bir sübut kimi baxırıq.

Bildiyiniz kimi, bu il Azərbaycanda Rusiya İli çərçivəsində bir sıra tədbirlər keçirilir. Ötən il Rusiyada Azərbaycan İli idi. Rusiya və Azərbaycan prezidentlərinin bu tədbirlərin açılış mərasimlərində iştirak etməsi faktının özü bizim buna nə kimi diqqət yetirdiyimizi göstərir. Həm keçən il, həm də bu il keçirilən tədbirlər çox mühümdür.

Biz bir-birimizi kifayət qədər yaxşı tanıyırıq. Bu səbəbdən də elə görünə bilər ki, ölkələrimizin illəri çərçivəsində tədbirlər keçirilməsinə lüzum yox idi. Xüsusən də ona görə ki, Rusiya incəsənətinin, mədəniyyətinin nümayəndələri, yaradıcılıq kollektivləri Azərbaycana müntəzəm olaraq gəlirlər, hökumət üzvləri, deputatlar, ictimai xadimlər səviyyəsində çox yaxşı əlaqələrimiz var. Buna baxmayaraq, hesab edirəm ki, məhz belə tədbirlərin keçirilməsi, onlara ictimai-siyasi əhəmiyyət verilməsi çox vacibdir. Bu, həm Rusiya ilə Azərbaycan arasında münasibətlərin dostluq, mehriban qonşuluq xarakter daşıdığını nəzərə çarpdırır, həm də vətəndaşlarımıza ölkələrimizin nailiyyətləri ilə daha yaxından tanış olmağa imkan verir. Zənnimcə, ikitərəfli münasibətlərimizin inkişafının mühüm elementi ondan ibarətdir ki, bu münasibətlər Sovet İttifaqının süqutundan sonra da saxlanılmışdır. Əgər 1990-cı illərdə müəyyən narahatlıq hiss olunurdusa, indi, 2000-ci ildən başlayaraq, Rusiya ilə Azərbaycan arasında elə münasibətlər yaranmışdır ki, onları hər iki prezident strateji tərəfdaşlıq kimi səciyyələndirir. Bu, həyatımızın bütün sahələrində - həm siyasi, həm də iqtisadi sahələrdə özünü büruzə verir. Son iyarım-iki ildə ölkələrimiz arasında əmtəə dövriyyəsi 2 dəfə artmışdır və getdikcə artmaq meyli var. Humanitar məkanın saxlandığını siz, yəqin ki, bilirsiniz. Yəqin sizə demişlər ki, Azərbaycanda rus dilinə münasibət olduqca müsbətdir. Ölkəmizdə rus dilində mətbu nəşrlər lap çoxdur. Mənə dedilər ki, onların sayı 20-dən artıqdır. Bəlkə də belədir, la-

kin, hər halda, sovet dövründəkindən qat-qat çoxdur. Rus dilində təhsil sahəsində də vəziyyət eyni ilə bu cürdür. Heç bir məhdudiyyət qoyulmur. Əksinə, biz rus dilində təhsil almaq istəyənlər üçün daha yaxşı şərait yaratmağa çalışırıq. Bizdə təhsilin ancaq rus dilində olduğu məktəblər çoxdur, habelə rus dilində təhsil bölməsi olan 300-dən artıq məktəb var. Ali məktəblərimizdə, bütün dövlət ali məktəblərində rus bölməsi fəaliyyət göstərir. Düşünürəm ki, bu da ikitərəfli münasibətlərin və ümumən, Azərbaycanın siyasi xəttinin mühüm elementidir. Biz qəti əminik ki, ölkəmizi ancaq müxtəlif xalqların nümayəndələrinin qarşılıqlı əlaqəsi sayəsində hərtərəfli surətdə inkişaf etdirə bilərik. Siyasi baxımdan da qarşımızda çox yaxşı perspektivlər var. İndi Azərbaycan ictimai-siyasi vəziyyətin çox sabit olduğu bir ölkədir. İqtisadi sahədə bu gün Azərbaycan sənaye istehsalının və ümumən iqtisadiyyatın artım sürətinə görə dünyada liderdir. Odur ki, ölkənin hərtərəfli inkişaf perspektivləri çox müsbətdir. Bildiyiniz kimi, iqtisadi amil bir çox prosesləri öncədən müəyyənləşdirir. Lakin millətlərarası həmrəylik, sülh, dostluq və respublikada yaşayan bütün xalqlar arasında məhz səmimi, mehriban münasibətlər olmadan ölkənin ahəngdar inkişafına nail ola bilməzdik. Biz məhz belə inkişafa çalışırıq. Ona görə də bir daha demək istəyirəm ki, bu görüşün də, Şuranın ölkəmizdə geniş iclasının keçirilməsi faktına da münasibətlərimizin çox mühüm elementi kimi böyük əhəmiyyət verirəm, həmçinin şadam ki, Azərbaycana belə böyük nümayəndə heyəti gəlmişdir. Bilirəm ki, çoxunuz ölkəmizə ilk dəfə gəlmisiniz, odur ki, reallıqlarımızla, ölkəmizin həyatı ilə, onun problemləri, nailiyyətləri ilə tanış olmaq, ümumiyyətlə, ölkəmizi hiss etmək olacaqdır. Baş verən hadisələri öz gözünlə görmək çox vacibdir. Bu, digər mənbələrdən alınan informasiyaya nisbətən həmişə daha dəqiq məlumatdır.

Mən sizi bir daha ürəkdən salamlayıram. Ümidvaram ki, ölkəmizə səfəriniz yaddaşınızda qalacaqdır.

Sonra görüş iştirakçıları çıxış edərək dedilər ki, Rusiyalı Həmvətənlərin Beynəlxalq Şurası Rəyasət heyətinin geniş iclası Bakıda Azərbaycan dövləti başçısının xeyir-duası və dəstəyi ilə keçirilir. Buna görə Azərbaycanın Rus icmasının sədri, Milli Məclisin deputatı M.Zabelin onların adından Prezident İlham Əliyevə çox böyük təşəkkürünü bildirdi. Qeyd olundu ki, görüşdə müxtəlif ölkələrin bir çox ictimai təşkilatlarının rəhbərləri iştirak edirlər. İclas iştirakçılarının şərəfinə təntənəli ziyafətdə onlar ölkəmiz, paytaxtımız haqqında təəssüratlarını bölüşdülər, qonaqlara məlumat verildi ki, Azərbaycan və şəxsən Prezident həmişə istəyir ki, ölkəmizə daha çox nümayəndə heyətləri, xüsusən də, respublikamızda heç vaxt olmayan nümayəndə heyətləri gəlsinlər, onlar Azərbaycan xalqının həyatı və mentaliteti ilə tanış olsunlar. Azərbaycan xalqının mentaliteti rus xalqının mentalitetinə oxşardır. Odur ki, Azərbaycana rus xalqının nə qədər çox nümayəndələri, - hətta ölkəmiz barəsində müəyyən mənfi baxışları olanlar da, - gəlsələr, onlar buradan Azərbaycan xalqının dostu kimi gedəcəklər.

Şuranın Rəyasət heyətinin sədri qraf Şeremetyev onlara göstərilmiş səmimi qonaqpərvərliyə görə, bu görüşə dəvətə görə Azərbaycan Prezidentinə təşəkkür edərək dedi ki, Şura ilk dəfə olaraq Rusiyadan kənarda toplaşır. Biz şadıq ki, bu, Sizin ölkənizdə baş verdi. Rusiyalı Həmvətənlərin Beynəlxalq Şurası Rəyasət heyətinin başçısı vurğuladı ki, keçən il tanış olduğu Azərbaycan Prezidenti ilə görüşmək onun üçün çox böyük şərəfdir. O dedi ki, biz Sizin atanızın məzarını ziyarət etdik, əklil qoyduq. Bu, bizim hamımız üçün çox təsirli bir an idi. Biz bilirik ki, o, öz ölkəsi üçün çox böyük işlər görmüşdür.

Qonaq dəvətə görə, nümayəndə heyətinin Azərbaycanda vaxtının belə gözəl keçməsi üçün şərait yaradıldığına görə bir daha minnətdarlığını bildirdi.

Şuranın Rəyasət heyətinin sədri Prezident İlham Əliyevə Georgi Pobedonosetsin təsviri olan qızıl suyuna çəkilmiş gümüş nimçə hədiyyə edərək dedi ki, bu, Moskvanın və ordunun rəmzidir.

Görüşdə rus icmasına göstərilən xeyirxah, həssas münasibətə görə ölkəmizin, onun rəhbərliyinin ünvanına səmimi minnətdarlıq sözləri səsləndi. Bildirildi ki, M.Zabelinin başçılıq etdiyi rus icması ölkə iqtidarının ona münasibəti baxımından bir çox cəhətdən nümunədir. O, Qafqazda ən böyük rus icmasıdır, eyni zamanda, sıx birləşmişdir, vahiddir. Burada rusiyalı həmvətənlərin bir çox təşkilatları təmsil olunmuşdur. Şəxsən Prezidentin və bütün Azərbaycan rəhbərliyinin münasibəti ona fəal olmaqda kömək edir. Bu isə ona Azərbaycan ilə Rusiya arasında, iki xalq arasında dostluq körpüsü olmağa, Azərbaycan parlamentində təmsil edilməyə imkan verir. Çıxışlarda qeyd olundu ki, yaxın vaxtlarda Bakıda rus kitabının birinci Beynəlxalq konqresi keçiriləcək və Azərbaycana nadir rus kitablarının 600 nüsxəsini hədiyyə vermək planlaşdırılır. Burada rus dilinə, rus dilində təhsilə böyük əhəmiyyət verildiyi nəzərə alınmaqla, bu kitablar bütün ölkə əhalisi üçün faydalı ola bilər.

Görüşdə ondan da söhbət getdi ki, Azərbaycanda Rusiya İli çərçivəsində Moskvanın Mədəniyyət günləri keçiriləcəkdir.

Görüş iştirakçıları xalqımızın rifahı naminə, Azərbaycan ilə Rusiya arasında əməkdaşlıq naminə son dərəcə mühüm fəaliyyətində Azərbaycan Prezidentinə uğurlar arzuladılar.

Dövlətimizin başçısı İLHAM ƏLİYEV görüşə yekun vuraraq dedi:

- Xoş sözlərə görə sağ olun. Mən çox minnətdaram, çünki həqiqətən hesab edirəm ki, hazırda Azərbaycanda baş verən hadisə çox mühümdür. Yeri gəlmişkən, mən bilmirdim ki, belə iclas Rusiyanın hüdudlarından kənarda ilk dəfə keçirilir. Odur ki, məhz Azərbaycanın Rusiyadan kənarda iclasın ilk dəfə keçirildiyi yer olduğuna görə təşəkkür edirəm. Yəqin ki, bu təcrübə gələcəkdə digər ölkələrə də yayılacaqdır. Düşünürəm ki, bu cür tədbirin, Şuranın geniş iclaslarının rus icması olan və müsbət təcrübəyə malik ölkələrdə keçirilməsi çox vacibdir. Eləcə də bu müsbət təcrübənin digər ölkələrə yayılması üçün vacibdir.

Bilirsinizmi, milli əlahiddəlik, millətçilik təzahürləri heç zaman tərəqqiyə doğru aparmamışdır. Bunların yayıldığı və ya tətbiq edildiyi ölkələr həmişə dərhal böyük problemlərlə qarşılaşmış, əziyyət çəkmişlər. Ona görə də bunun, milli sülhün vacibliyinin dərk edilməsi, zənnimcə, hər bir dövlətin ahəngdar inkişafına doğru aparan yoldur. Azərbaycan da, Rusiya da çoxmillətli ölkələrdir. Bizim ölkələrimizdə bütün millətlərin nümayəndələri nəinki özlərinin konstitusiya hüquqlarından istifadə edirlər, həm də cəmiyyətin gündəlik həyatında kifayət qədər tolerant səviyyədə digər mədəniyyətə qarşı həssasdırlar. Bu, bizi zənginləşdirir, Azərbaycanın hərtərəfli inkişafının çox mühüm amilidir. Siz qeyd etdiniz ki, rus kitabı festivalı keçiriləcəkdir. Bu da çox mühüm hadisədir. Çünki Birlik ölkələri arasında humanitar sahədə əməkdaşlığın təkmilləşdirilməsi üçün MDB çərçivəsində bir sıra tədbirlər hazırlanır ki, bu da mühüm hadisə və yanaşmadır. Bu baxımdan ölkələrimiz arasında ünsiyyətdə rus dilinin rolu, təbii ki, çox bö-

yükdür. Rus dilinin unudulmaması, əksinə, gənc nəslin onu bilməsi çox vacibdir. Ölkələrimizin artıq 15 ildir müstəqil dövlətlər kimi yaşadığını nəzərə alaraq, təbii ki, illər keçdikcə rus dilinin ünsiyyətdən çıxa biləcəyi ilə əlaqədar potensial təhlükə var. Bu isə son dərəcə arzuedilməz olardı. Çünki XIX əsrdə də, XX əsrdə də dünya ədəbiyyatı kimi, hər şey də Azərbaycana rus dili vasitəsilə gəlmişdir. Məsələn, bu gün dünyada mövcud olan müasir texnologiyalar internetin və digər vasitələrin köməyi ilə Azərbaycana, əsasən, rus dilindən istifadə ilə gəlir. Ona görə də ölkəmizdə rus dilinin qorunub saxlanılmasının bizim üçün çox böyük əhəmiyyəti var. Belə tədbirlər isə ona kömək edir. Yadımdadır ki, 2-3 il əvvəl Bakıda rusdilli mətbuatın Ümumdünya konqresi keçirilmişdir. Bu, Rusiyadan kənarda keçirilən konqres idi. Xatirimdədir, dünyanın hər yerindən çox böyük nümayəndə heyətləri, jurnalistlər, dövri nəşrlərin rəhbərləri gəlmişdilər. Elə onda Azərbaycan da müəyyən dərəcədə kəşf edildi. Burada mən bir məsələni də deməliyəm: biz hər halda heç də bərabər şəraitdə deyilik, çünki müasir Rusiyanın həyatı haqqında Azərbaycanda kifayət qədər yaxşı təsəvvür var. Belə ki, bizdə Rusiya telekanalları yayımlanır. Özü də peyk televiziyası vasitəsilə deyil, birbaşa rejimdə. Siz bunu da görə bildiniz: birinci kanal da, Rusiya kanalı da yayımlanır. Odur ki, biz Rusiyada nələr baş verdiyini bilir və prosesləri izləyirik. Amma Azərbaycanda baş verənləri keçmiş SSRİ-nin digər ölkəsində və ya Rusiyada bəzən çox da yaxşı bilmirlər. Çünki informasiya hər halda çox məhduddur. Bax, ona görə də belə səfərlərin çox böyük əhəmiyyəti var. Gərək gələsən, baxasan, həyatı hiss edəsən, ölkənin nə ilə yaşadığını, onun nə kimi prioritetləri, nə kimi problemləri, ikitərəfli münasibətlərin nə kimi səviyyədə olduğunu görəsən. Axı, bütün bunlar təkcə hansısa rəsmi, protokol tədbirləri çərçivəsində deyil, həm də gündəlik həyatda hiss edilir. Əminəm və siz də yəqin edəcəksiniz ki, Azərbaycanda rus mədəniyyətinə, rus dilinə və rus millətinin nümayəndələrinə münasibət həm dövlət, həm də məişət səviyyəsində tamamilə eyni cürdür. Bu, sevindirici haldır.

Sizi bir daha ürəkdən salamlayıram. Sizə ən xoş diləklərimi bildirir, Rusiyalı Həmvətənlər Şurasına uğurlar arzulayıram. Ümidvaram ki, gələcəkdə siz Bakını öz görüşlərinizin yeri kimi bir daha seçəcəksiniz. Sağ olun.

İŞĞAL OLUNMUŞ ƏRAZİLƏRDƏKİ YANĞINLARLA ƏLAQƏDAR AZƏRBAYCANIN İRƏLİ SÜRDÜYÜ QƏTNAMƏ LAYİHƏSİ BMT BAŞ ASSAMBLEYASININ PLENAR İCLASINDA QƏBUL EDİLMİŞDİR

Cari ilin sentyabrın 7-də BMT Baş Assambleyasının gündəliyinin "Azərbaycanın işğal edilmiş ərazilərində vəziyyət" adlı bəndi üzrə Azərbaycanın irəli sürdüyü qətnamə layihəsi plenar iclasda qəbul edilmişdir.

Bir neçə gün ərzində diplomatik kanallarla aparılmış fəal məsləhətləşmələrin nəticəsində qətnamənin mətnini Ermənistan və ATƏT-in Minsk Qrupunun Həmsədr ölkələri ilə razılaşdırmaq mümkün olmuşdur. Beləliklə qətnamə konsensus xarakterini əldə edərək, səsverməyə qoyulmadan qəbul edilmişdir.

Qətnamə bir neçə aspektdən mühüm əhəmiyyətə malikdir. İlk növbədə, işğal olunmuş ərazilərimizdə artıq bir neçə aylar davam edən yanğınların vurduğu ziyanın aradan qaldırılması və zərər çəkmiş ərazilərin bərpası üçün əlverişli şərait yaratmış olur. Belə ki,

bu sənəd yanğınlara məruz qalmış ərazilərdə ekoloji əməliyyatın keçirilməsinə, o cümlədən bölgənin ətraf mühitinə dəymiş zərərin qısa və uzun müddətli təsirinin dəyərləndirilməsinə, dəymiş ziyanın aradan qaldırılmasına və bölgənin bərpa edilməsinə çağırır. Bunun üçün Qətnamədə tərəflərin əməkdaşlıq etməyə hazır olduqları vurğulanır və BMT sisteminə daxil olan təşkilat və proqramlara, və xüsusilə də, Ətraf Mühit üzrə BMT Proqramına ATƏT ilə əməkdaşlıqda birgə fəaliyyətinin aparılmasına müraciət olunur.

Qətnamədə öz əksini tapmış digər bir müddəa ATƏT-in dəyərləndirmə missiyasını təşkil etmək niyyətinin sözügedən ekoloji əməliyyatın hazırlanmasında birinci addım olduğunun nəzərə alınmasıdır.

Qeyd olunmalıdır ki, ATƏT-in Fəaliyyətdə olan Sədri qətnamə ilə bağlı 2007-ci ilin 30 aprel tarixinədək BA-nın üzv-dövlətlərinə hesabat təqdim etməlidir.

Qətnamədən irəli gələn ekoloji əməliyyatın planlaşdırılması və həyata keçirilməsi üçün Azərbaycan Respublikasının aidiyyəti olan bütün dövlət qurumları işçi qrup çərçivəsində bu prosesə fəal şəkildə qoşulublar və bu gün Xarici İşlər Nazirliyində qrupun birinci görüşü keçirilib.

UKRAYNA PREZİDENTİ VİKTOR YUŞŞENKONUN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ

Sentyabrın 7-də Ukrayna Prezidenti Viktor Yuşşenko Bakıya rəsmi səfərə gəlmişdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ UKRAYNA PREZİDENTİ VİKTOR YUŞŞENKONUN TƏKBƏTƏK GÖRÜŞÜ

Rəsmi qarşılanma mərasimi başa çatdıqdan sonra Prezident sarayında Azərbaycan Prezidenti İlham Əliyevin və Ukrayna Prezidenti Viktor Yuşşenkonun təkbətək görüşü olmuşdur.

Görüşdə ölkələrimiz arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə uğurla inkişaf etdiyi vurğulandı və əməkdaşlığın bundan sonra da genişlənəcəyinə əminlik ifadə edildi.

Söhbət zamanı qarşılıqlı maraq doğuran bir sıra məsələlər də müzakirə olundu.

DÖVLƏT BAŞÇILARININ GENİŞ TƏRKİBDƏ GÖRÜŞÜ

Sentyabrın 7-də Prezident sarayında Azərbaycan Prezidenti İlham Əliyevin və Ukrayna Prezidenti Viktor Yuşşenkonun nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü keçirilmişdir.

Prezident İLHAM ƏLİYEV görüşü açaraq dedi:

- Hörmətli cənab Prezident,

Hörmətli qonaqlar!

Mən sizin hamınızı Azərbaycanda səmimi qəlbdən salamlayıram, xoş gəlmisiniz. Bizim çox ətraflı söhbətimiz oldu, qarşılıqlı maraq doğuran, demək olar, bütün məsələləri müzakirə etdik. Düşünürəm ki, indi geniş tərkibdə biz əməkdaşlığımızın əsas istiqamətlərini daha da dəqiqləşdirəcəyik.

Ölkələrimiz arasında ənənəvi xarakter daşıyan çox səmimi, mehriban münasibətlər mövcuddur. Ukrayna və Azərbaycan xalqları bütün dövrlərdə fəal əməkdaşlıq etmişlər, müstəqillik əldə olunduqdan sonrakı dövrdə isə, bu əməkdaşlıq, əlbəttə, yeni forma və xüsusiyyətlər almışdır.

Əməkdaşlığımız çox uğurlu, qarşılıqlı surətdə faydalıdır və bir çox sahələri əhatə edir. Siyasi, iqtisadi baxımdan, humanitar sahədə bizim aramızda münasibətlər çox yüksək səviyyəyə çatmışdır və uğurla inkişaf edir. Əminəm ki, Ukrayna Prezidentinin Azərbaycana rəsmi səfəri də bu münasibətlərin inkişafı üçün yaxşı amil olacaqdır.

Hörmətli Viktor Andreyeviç, Siz Azərbaycana çox böyük nümayəndə heyəti ilə gəlmisiniz. Elə bu faktın özü Sizin ikitərəfli münasibətlərə necə diqqət yetirdiyinizi göstərir. Biz də Azərbaycanda ikitərəfli əlaqələrimizin inkişafına çox böyük əhəmiyyət veririk. Əminəm ki, Sizin səfəriniz, aparılan danışıqlar, imzalanmış sənədlər, şübhəsiz, ölkələrimiz arasında dostluq, tərəfdaşlıq münasibətlərinin inkişafında mühüm mərhələ olacaqdır. Ümidvaram ki, səfər uğurlu keçəcək və ölkəmizdə olmağınız Sizdə yaxşı təəssürat doğuracaqdır. Bir daha xoş gəlmisiniz deyirəm.

Ukrayna Prezidenti VİKTOR YUŞŞENKO təşəkkür edərək dedi:

- Hörmətli İlham Heydər oğlu,

Hörmətli azərbaycanlı dostlar,

Ukrayna tərəfdən olan hörmətli nümayəndələr!

Dəvətdən istifadə etməyimə və bu gün belə mötəbər Ukrayna nümayəndə heyəti ilə Azərbaycanda olmağıma çox şadam. Sizinlə söhbətimizin əsaslandığı tezislərin bir hissəsini burada təkrar etmək istərdim. Sizinlə, ölkənizlə səmərəli siyasi, diplomatik münasibətlər saxlamaq bizim üçün çox rahat, çox asandır. Əsası qoyulmuş ənənələr, xalqlarımız səviyyəsində qədim əlaqələr, rəsmi hakimiyyət səviyyəsində sağlam ikitərəfli münasibətlər buna kömək edir. Ukrayna tərəfi onu əsas tutur ki, Azərbaycanla münasibətlərimizin inkişafının dinamikasının belə səviyyəsi, belə xarakteri strateji münasibətlərin olduğunu göstərir.

Ona görə də biz buradayıq, belə geniş nümayəndə heyəti ilə gəlmişik. Əminəm ki, bu, nəinki bizim mənafelərimizə, Ukraynanın mənafelərinə, həm də ikitərəfli mənafelərimizə cavab verir.

Sonra görüşdə fikir mübadiləsi davam etdirildi.

SƏNƏDLƏRİN İMZALANMA MƏRASİMİ

Dövlət başçılarının geniş tərkibdə görüşü başa çatdıqdan sonra Prezident sarayında sənədlərin imzalanma mərasimi olmuşdur.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Ukrayna Prezidenti Viktor Yuşşenko Birgə bəyannamə imzaladılar.

Azərbaycan Dövlət Neft Şirkəti ilə "Naftoqaz Ukrainı" şirkəti arasında uzunmüddətli əməkdaşlıq haqqında sazişi Azərbaycan tərəfindən ARDNŞ-in prezidenti Rövnəq Abdullayev, Ukrayna tərəfindən "Naftoqaz Ukrainı" şirkəti idarə heyətinin başçısı Vladimir Şeludçenko imzaladılar.

Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi ilə Ukrayna Aqrar Siyasət Nazirliyi arasında bitki sortlarının dövlət sınaqları və mühafizəsi sahəsində əməkdaşlıq haqqında sazişi Azərbaycan tərəfindən kənd təsərrüfatı naziri İsmət Abasov, Ukrayna tərəfindən aqrar siyasət naziri Yuri Melnik imzaladılar.

Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi ilə Ukrayna Dövlət Nüvə Tənzimləməsi Komitəsi arasında radiasiya təhlükəsizliyi sahəsində əməkdaşlıq haqqında sazişi Azərbaycan tərəfindən fövqəladə hallar naziri Kəmaləddin Heydərov, Ukrayna tərəfindən Ukraynanın Azərbaycandakı səfiri Stepan Volkovetski imzaladılar.

Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi ilə Ukrayna Xarici İşlər Nazirliyi arasında diplomatik kadrların hazırlanması haqqında sazişi Azərbaycan tərəfindən xarici işlər naziri Elmar Məmmədyarov, Ukrayna tərəfindən xarici işlər naziri Boris Tarasyuk imzaladılar.

Azərbaycan Respublikası Hökuməti ilə Ukrayna Nazirlər Kabineti arasında ətraf mühitin mühafizəsi sahəsində əməkdaşlıq haqqında sazişi Azərbaycan tərəfindən ekologiya və təbii sərvətlər naziri Hüseynqulu Bağırov, Ukrayna tərəfindən xarici işlər naziri Boris Tarasyuk imzaladılar.

Azərbaycan Respublikası Hökuməti ilə Ukrayna Nazirlər Kabineti arasında beynəlxalq qarışıq yük daşımaları haqqında sazişi Azərbaycan tərəfindən nəqliyyat naziri Ziya Məmmədov, Ukrayna tərəfindən nəqliyyat və rabitə naziri Nikolay Rudkovski imzaladılar.

AZƏRBAYCAN VƏ UKRAYNA PREZİDENTLƏRİNİN BİRGƏ MƏTBUAT KONFRANSI

Prezident sarayında sənədlərin imzalanması mərasimindən sonra Azərbaycan və Ukrayna prezidentlərinin birgə mətbuat konfransı olmuşdur.

Dövlət başçıları jurnalistlər qarşısında bəyanatlarla çıxış etdilər.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN BƏYANATI

- Hörmətli cənab Prezident,

Hörmətli qonaqlar, xanımlar və cənablar!

Ukrayna Prezidenti Viktor Andreyeviç Yuşşenkonu və bütün nümayəndə heyətini Azərbaycanda bir daha səmimi qəlbdən salamlamaq istərdim.

Bugünkü səfər ölkələrimiz arasında dostluq münasibətlərinin çox əyani təzahürüdür. Bu gün ikitərəfli münasibətlərimizin müxtəlif məqamları haqqında çox konkret, çox geniş söhbət oldu. Biz bu münasibətləri təhlil etdik, onların tarixindən danışdıq, habelə, -

bu, bəlkə də, ən başlıcasıdır, - əməkdaşlığımızın perspektivlərini müzakirə etdik. Bu perspektivlər bizim üçün çox mühümdür və olduqca böyük potensiala malikdir. Biz müxtəlif beynəlxalq təşkilatlarda birgə iştirakımız da daxil olmaqla, Ukrayna ilə Azərbaycanın ikitərəfli münasibətlərinə aid məsələlərin çox geniş dairəsini nəzərdən keçirdik. Müzakirə edilən bütün məsələlərdə mövqelərimiz üst-üstə düşür.

Biz Ukraynanı dost ölkə, Azərbaycan üçün mühüm tərəfdaş hesab edirik və ümidvarıq ki, bu gün imzalanmış sənədlər, əldə olunmuş razılaşmalar bütün sahələrdə münasibətlərimizin inkişafına xidmət edəcəkdir.

Biz energetika sahəsində əməkdaşlıq məsələlərini müzakirə etdik və qarşılıqlı maraq doğuran məsələlərin əməli surətdə işlənməsinə başlamaq barədə müvafiq qurumlara konkret tapşırıqlar verdik. Burada qarşılıqlı surətdə faydalı ola biləcək məqamlar lap çoxdur və biz bu əməkdaşlığı təkmilləşdirməyin müxtəlif yollarını nəzərdən keçiririk. Azərbaycan enerji ehtiyatlarının iri hasilatçısına və dünya bazarlarına böyük ixracçısına çevrilir və Ukrayna ilə əməkdaşlığın bizim üçün çox böyük əhəmiyyəti var. Nəqliyyat, kənd təsərrüfatı məsələləri, humanitar sahədə əməkdaşlıq məsələləri müzakirələrimizin diqqət mərkəzində olmuşdur. Bütün bu məsələlərdə bizim aramızda çox yüksək səviyyədə qarşılıqlı anlaşma var.

Biz çox şadıq ki, Ukraynadakı Azərbaycan diasporu və ölkəmizdə yaşayan ukraynalılar cəmiyyətə çox inteqrasiya etmiş və özlərini olduqca rahat hiss edirlər. Bunun özü də həm ikitərəfli münasibətlərin, həm də cəmiyyətlərimizin dözümlülüyünün yüksək səviyyəsinə dəlalət edir. Bu, ikitərəfli əlaqələrin çox mühüm elementidir.

Biz Ukrayna və Azərbaycanın getdikcə artan potensialını nəzərə alaraq, ümumən iqtisadi münasibətlərin inkişafı məsələlərini müzakirə etdik. Bizə elə gəlir ki, ölkələrimiz arasında əmtəə dövriyyəsinin çox yüksək sürətlə artmasına baxmayaraq, - inanıram ki, bu sürət saxlanacaq, - əminəm ki, ölkələrimiz arasında iqtisadi əlaqələrin daha fəal, daha geniş şaxəli və tam olması üçün istifadə edilməli ehtiyat mənbələri hələ çoxdur.

Azərbaycanda iqtisadi islahatların uğurla aparılması ölkə iqtisadiyyatının çox sürətli yüksəlişinə gətirib çıxarmışdır. Keçən il iqtisadiyyatımız 26 faiz artmışdır. Bu ilin altı ayında ümumi daxili məhsul 36 faiz, sənaye istehsalı 41 faiz artmış, son iki il yarımda Azərbaycanda 435 min yeni iş yeri yaradılmışdır.

Demək istəyirəm ki, bütün bunlar iqtisadi potensialın artdığını bir daha təsdiqləyir. Əlbəttə ki, qarşılıqlı surətdə faydalı əməkdaşlıq üçün imkanlar da artır. Ukraynada istehsal edilən bir sıra sənaye məhsuluna ölkəmizdə tələbat var. Biz bu istiqamətdə əməkdaşlıq edirik. Lakin ümidvaram ki, birgə hökumətlərarası komissiyanın işi, nazirliklər, idarələr səviyyəsində, ola bilsin, prezidentlər səviyyəsində də, - çox mühümdür ki, belə səviyyədə münasibətlərin daimi məşvərət formatı haqqında qərar qəbul edilmişdir, - fəal əlaqələr zənnimcə, daha geniş iqtisadi münasibətlər üçün yaxşı təkan olacaqdır.

Regional məsələlərdə əməkdaşlıq sahəsində bizim aramızda tam qarşılıqlı anlaşma var. Biz hörmətli Prezident Viktor Andreyeviç Yuşşenko ilə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması məsələsini də müzakirə etdik və mən bu problemin həllinə baxışımızı, bu məsələdə mövqeyimizi Prezidentə açıqladım. Biz Azərbaycanın mövqeyini Ukraynanın başa düşməsinə, habelə beynəlxalq aləmdə Ukrayna tərəfindən olan dəstəyə həmişə minnətdarlıq hissi ilə yanaşmışıq.

Başqa sözlə desək, zənnimcə, bir neçə saatlıq intensiv ünsiyyətimiz zamanı ikitərəfli münasibətlərin mühüm məsələlərindən heç biri diqqətdən kənarda qalmadı. Biz onları kifayət qədər ətraflı və çox yaxşı, səmimi şəraitdə müzakirə etdik.

Ümidvaram ki, Ukrayna Prezidentinin ölkəmizə səfəri və bu səfərlə bağlı hər şey, imzalanmış sənədlər, razılaşmalarımız münasibətlərimizin daha uğurla inkişaf etməsinin çox mühüm amili olacaqdır.

Təşəkkür edirəm.

UKRAYNA PREZİDENTİ VİKTOR YUŞŞENKONUN BƏYANATI

- Hörmətli İlham Heydər oğlu,

Hörmətli azərbaycanlı dostlar,

Xanımlar və cənablar!

Mən, ilk növbədə, dəvətə görə cənab Prezidentə minnətdaram. Mən ənənəvi dostluq şəraitində keçirdiyimiz danışıqlardan məmnunam. Mövzu çox müxtəlif idi, biz münasibətlərimizin müxtəlif sahələrinə - siyasi, iqtisadi, humanitar, müdafiə, xarici siyasət sahələrinə aid məsələlərə toxunduq. Hərbi-texniki əməkdaşlıq, energetika sahəsində bir sıra layihələrin həyata keçirilməsi məsələlərini ayrıca müzakirə etdik.

İlk növbədə, qeyd etmək istərdim ki, indi Ukraynada siyasi sabitlik mərhələsi başlamışdır. Parlament seçkilərində iştirak etmiş siyasi qüvvələr parlament çoxluğunun formalaşmasının, hökumətin formalaşmasının, ümummilli dəyərlərə, inteqrasiya vektoruna, milləti uzun illərdən bəri narahat etmiş ümdə məsələlərə münasibətə əsas baxışların formalaşmasının çox mürəkkəb yolunu keçdilər.

Mən böyük məmnunluqla demək istəyirəm ki, indi Ukrayna siyasi sabitlik mərhələsindədir. Bu, nəzərdən keçirdiyimiz məsələlərin həllinin iqtisadi perspektivlərini hiss edə bilməyimiz baxımından çox vacibdir. Əgər bu gün Ukrayna bazarını, makroiqtisadi mədəniyyəti, digər göstəriciləri müqayisə etməli olsaq, onda deyərdim ki, bizim, bəlkə də Şərqi Avropa üçün nadir göstəricilərimiz var. Bizdə ümumi məhsul istehsalının həcmi 7,7 faiz səviyyəsindədir. Milli iqtisadiyyatın bütün sahələrində artım müşahidə edilir. Elə bir sahə yoxdur ki, o, tənəzzüldə, durğunluqda olsun, yaxud böhrandan çıxmasın.

Bu gün ölkədə müstəqilliyin 15 ili ərzində işsizliyin ən aşağı səviyyəsi müşahidə olunur - 7,2 faiz. İl hesabı ilə biz xarici investisiyaların ən yüksək göstəricisinə malikik, ildə təxminən 7,4 milyard dollardır. Bizdə büdcənin formalaşmasının yaxşı dinamikası var. Keçən il büdcənin mədaxili 53 faiz artmışdır. Ötən illə müqayisədə cari ildə bu artım 18 faiz təşkil edir. Biz uzun illər ərzində həll edilə bilməyən sosial və humanitar məsələlərin xeyli hissəsinin həllinə müvəffəq olmuşuq.

Mən bunu Ukrayna ilə çoxtərəfli və ikitərəfli münasibətlərin inkişafı üçün yaxşı zəmin hesab edirəm. Ukrayna perspektivli ölkədir. Əminəm ki, Ukrayna qarşılıqlı maraqların gerçəkləşdirilməsi üçün çox imkanlara malikdir. Odur ki, münasibətlərimiz üçün ənənəvi olaraq əhəmiyyət kəsb edən bir sıra məsələlərin bu gün ikitərəfli danışıqlarda mü-

zakirə edilməsi bizdən ötrü vacib idi. Məsələlərin birinci qrupu energetika sahəsində əməkdaşlıqla bağlıdır. Bu gün energetika sahəsində Ukraynanı üç istiqamət maraqlandırır. Birincisi, potensial Azərbaycan şirkətləri ilə müştərək strukturlar yaradılmasıdır. Elə strukturlar ki, onlar neft kəşfiyyatı və hasilatı, neft məhsullarının emalı və satışının müştərək bazarlarında işləməyə qadir olsunlar. Ukrayna tərəfi buna hazır olduğunu artıq bildirmiş və bu, azərbaycanlı həmkarlara rəsmi qaydada göndərilmişdir. Hesab edirik ki, bu, bazarlara birlikdə daxil olmağın və qarşılıqlı potensialları inkişaf etdirməyin birinci mərhələsidir. İkinci addım Azərbaycan və Qazaxıstan neftinin Odessa-Brodı-Avropa bazarı marşrutu ilə nəql etmək imkanlarını saxlamaqdan ibarətdir. Bu, işləyən, fəaliyyət göstərən layihədir. Bu gün Xəzər dənizi və Qara dəniz regionu xam neftə dair yeni təkliflər formalaşdırır və onlar Odessa-Brodı layihəsinin gerçəkləşdirilməsinə asanlıqla uyğun gəlir. Üçüncü addım, əslində, elə həmin marşrutla - Xəzər regionu-Ukrayna-Avropa İttifaqı marşrutu ilə qazın nəql edilməsi kimi mühüm məsələdə birgə mövqeləri formalaşdırmaqdan ibarətdir.

Biz aviasiya sahəsində əməkdaşlığın davam və inkişaf etdirilməsində çox maraqlıyıq. Hazırda Ukrayna təyyarələrin yeddi modelini təqdim edə bilər. Onlar sınaqdan çıxarılmışdır və təhlükəsizliyin ən yüksək tələblərinə, müasir aviasiya bazarının iqtisadi xarakteristikalarına cavab verir. Hesab edirik ki, bu bizim perspektivimizdir. İndi təkliflərimiz ondan ibarətdir ki, biz bu məsələni ən yüksək səviyyədə öyrənməli, hər şeyə aydınlıq gətirməli, işimizi davam etdirməliyik.

Biz GUAM-ın fəaliyyəti məsələlərinə, Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi məsələsinə böyük diqqət yetirmişik. Ukrayna bu münaqişənin nizama salınması üçün, əvvəllər olduğu kimi, yenə də özünün bütün potensial imkanlarını təqdim edir. Azərbaycan tərəfindən xahiş edirik ki, bunu nəzərə alsın. Biz münaqişə iştirakçıları üçün daha çox münasib olan formada və rolda çıxış edə biləcək tərəf olmağa hazırıq.

Biz milli azlıqların yaşayışı üçün ən zəruri şəraitin təmin edilməsindən danışdıq. Ukraynadakı Azərbaycan icmasının özünü gözəl hiss etməsini eşitmək Ukrayna Prezidenti kimi mənə xoşdur. Əgər hələ həll etmədiyimiz məsələlər varsa, biz onların həllini ən yüksək səviyyədə təmin etməyə hazırıq. Sizə açığını deyəcəyəm ki, bizim danışıqlarımız asan oldu. Çünki bir tərəfdən, aramızda tarixən, ənənəvi mehriban münasibətlər var. Bu münasibətlər həm şüurlu səviyyədə, həm də təhtəlşüur səviyyəsində nəinki formalaşmışdır, eyni zamanda, hər iki xalqda möhkəmlənmişdir. Digər tərəfdən, zənnimcə, son illərin siyasəti də ölkələrin milli mənafelərinə diqqətcil münasibət göstərildiyini nümayiş etdirmişdir. Ukrayna bu siyasəti bundan sonra da davam etdirməyə hazırdır.

Son illər ticarət münasibətlərimizdə formalaşmış olan dinamika bizi çox sevindirir. Əmtəə dövriyyəsi keçən il 37 faiz, bu il isə, demək olar, 30 faiz artmışdır. Bu onu göstərir ki, GUAM çərçivəsində iki ölkə arasında ticarət münasibətlərinin təşkili mexanizmi səmərəlidir. Azad ticarət zonası özünün növbəti nəticələrini verir. Hər halda, əgər bu münasibətlərdə işçi komissiyaların, prezidentlərin diqqət yetirməli olduğu problemlər varsa, biz danışıqlar masası arxasında əyləşib onları müzakirə etməyə hazırıq. İstər tarif siyasəti məsələləri olsun, istərsə də sığorta və digər sahələrlə bağlı məsələlər olsun, fərqi yoxdur. Başa düşürük ki, bu münasibətləri təkmilləşdirmək lazımdır. Ona görə də nəticədə hər iki tərəf münasibətlərimizin statusunu qaldırmağa, Azərbaycan və Ukrayna Prezidentləri Şurası formasında yeni konstitusiya mexanizmi yaratmağa razılaşdı. Bu

Şura çərçivəsində ikitərəfli münasibətlərin ən aktual məsələlərini əhatə edəcək strateji plan hazırlanacaqdır. Bu gün prezidentlər müvafiq tapşırıqlar verdilər. Əminəm ki, münasibətlərimiz nəinki qarşılıqlı fayda verəcək, həm də bunlar olduqca perspektivlidir. Odur ki, İlham Heydər oğlu, danışıqlarımızın, hökumət səviyyəsində iki komandanın danışıqlarının aparıldığı şəraitə görə təşəkkür edirəm.

Sağ olun.

[redacted]

Sonra prezidentlər jurnalistlərin suallarına cavab verdilər.

SUAL: Cənab prezidentlər, Odessa-Brodı boru kəməri üçün əlavə neft göndərilməsi barədə sizdən daha ətraflı şərh eşitmək istərdim. O cümlədən, çox istərdim ki, cənab Əliyevdən qiymətlər barədə şərh eşidim. Duru Xəzər neftinin Rusiya neftindən nə dərəcədə baha olacağı planlaşdırılırmı ki, onun emalı Ukraynanın neftayırma zavodları üçün rentabelli olaraq qalsın. Cənab Yuşşenkodan eşitmək istərdim, Xəzər neftini emal etməyə razı olan konkret zavodlar, konkret ölkələr barədə planlarınız varmı? Əgər varsa, xahiş edirəm, onları açıqlayın.

İLHAM ƏLİYEV: Neft-qaz sahəsi ilə əməkdaşlıq məsələsi bizim aramızda ilk dəfə müzakirə olunmur. Biz ötən dəfə Kiyevdə də bu barədə ətraflı danışdıq və enerji əməkdaşlığının bütün məsələlərini kompleks şəkildə nəzərdən keçirən işçi qrup yaradılması haqqında qərar qəbul edildi. İndiki halda söhbət Odessa-Brodı boru kəmərinin layihəsindən, habelə onunla bu və ya digər dərəcədə bağlı olan başqa layihələrdən gedir. Biz Azərbaycandan enerji ehtiyatlarının göndərilməsini çoxşaxəli etməyi ölkəmizə indiyədək böyük üstünlük verən neft strategiyamızın əsas elementlərindən biri kimi nəzərdən keçiririk. İndi Azərbaycandan dünya bazarlarına üç boru kəməri çəkilmişdir. Onların ikisi Rusiya və Gürcüstana, Qara dəniz limanlarına, biri isə Türkiyəyə, Aralıq dənizindəki limana gedir. Beləliklə, Azərbaycandan enerji daşıyıcılarının, məhz neftin göndərilməsinin çoxşaxəliliyi artıq baş vermiş faktdır. Əlbəttə, Azərbaycanda neft hasilatı artdıqca, biz ixrac üçün yeni imkanları da nəzərdən keçiririk.

Deməliyəm ki, planlarımıza uyğun olaraq, Bakı-Ceyhan boru kəməri 2008-ci ilədək neftlə tam doldurulacaqdır. Bu isə 50 milyon ton deməkdir. Azərbaycan 2008-ci ildə məhz bu qədər neft ixrac edəcəkdir. Sonrakı illərdə isə neftin hasilatının da, ixracının da həcmi artacaqdır. Ona görə də alternativ yollar məsələlərinin nəzərdən keçirilməsi bizim üçün çox böyük maraq doğurur və bütün qalan amillər, ilk növbədə, məsələnin kommersiya tərəfi uzlaşdırılmaqla təbii ki, həmin istiqamətdə işin intensivliyi də müəyyənləşdiriləcəkdir.

Azərbaycan nefti çox keyfiyyətlidir, dünya bazarlarında məşhur Brent markasından daha yüksək qiymətləndirilir, Brent mükafatı ilə satılır və bununla da, Azərbaycanın neft-qaz yataqlarının işlənilməsinin səmərəliliyi artır. Azərbaycan neftinin neftayırma zavodlarında emalı məsələsi də aktual ola bilər, lakin deməliyəm ki, bu gün Qara dəniz və Aralıq dənizi limanlarından nəql olunan Azərbaycan nefti Avropanın neftayırma müəssisələrində çox böyük səmərə ilə uğurla emal edilir. Beləliklə, dünya bazarlarına neftin çox mühüm ixracçısı kimi, ən başlıcası isə, Xəzər neftinin Aralıq dənizi bazarlarına yeni ixracçısı kimi Azərbaycan tərəfdaşlarımızla, o cümlədən Ukrayna ilə gələcəkdə

çox fəal əməkdaşlıq etmək niyyətindədir.

VİKTOR YUŞŞENKO: Odessa-Brodı layihəsinin işini bərpa etmək üçün bazarda təxminən 4,5-5 milyon ton neft təklif olunmalıdır. Xəzər regionu bu cür perspektivi bir il-il yarımdan sonra təklif edir. Ona görə də Ukrnafta bu parametrin çərçivəsinə daxil ola biləcək ixrac cədvəlinin formalaşdırılması məsələsi ilə əlaqədar Azərbaycan Dövlət Neft Şirkətinə rəsmən müraciət etmişdir. Söhbət 4,5-5 milyon ton neft və boru kəmərini dolduracaq 600 min ton texnoloji neft göndərilməsindən gedir. Qeyd etdiyim kimi, bu, birinci mərhələdir. İndi Odessa-Brodı neft kəməri boyunca yerləşən iki neftayırma zavodu bu qədər nefti emal etməyə qadirdir. Emal imkanlarının cəmləşdirilməsi hazırda Ukrnafta şirkətinin malik olduğu 600 yanacaqdoldurma stansiyasından istifadə edilməsi barədə həm Azərbaycan, həm də Ukrayna tərəfinin qarşılıqlı təklifini nəzərdən keçirməyə imkan verəcəkdir. Bu, Ukraynada ən geniş yanacaqdoldurma stansiyaları şəbəkəsidir. Biz Azərbaycan tərəfinə bu imkanları birgə həyata keçirmək üçün təklif etməyə hazırıq. Bu, layihənin birinci hissəsidir. Bundan sonra biz emal zavodunun tikintisindən, bunun ardınca isə xam neftin müxtəlif Qərbi Avropalı tərəfdaşların, o cümlədən də polşalı tərəfdaşların mülkiyyəti olan zavodlarda emalı üçün onu "Drujba" boru kəməri ilə Slovakiyaya və Çexiyaya göndərməkdən danışa bilərik. Əlbəttə, biz zavodun tikintisinə başlanmasını və Xəzər neftinin Mərkəzi və Şərqi Avropada potensial surətdə yeni bazara çıxmasını bu layihənin zirvəsi hesab edirik.

SUAL: Mənim sualım hər iki prezidentədir. İndicə Birgə bəyannamə imzalandı. Bu sənəd iki ölkə arasında siyasi dialoqun genişlənməsinə konkret olaraq necə kömək edə bilər?

İLHAM ƏLİYEV: Ölkələrimiz arasında çox fəal, intensiv siyasi dialoq aparılır. Dediyimiz kimi, biz ikitərəfli formatda da, beynəlxalq təşkilatlar çərçivəsində də çox səmərəli əməkdaşlıq edirik və bu, çox yaxşı nəticələr verir. Çünki digər sektorların, o cümlədən iqtisadi, nəqliyyat, energetika sektorlarının inkişafı ilə bağlı qalan bütün məsələlər də, prinsipcə, ölkələr arasında siyasi münasibətlərin inkişaf səviyyəsindən asılıdır. Əgər yüksək səviyyədə qarşılıqlı etimad, anlaşma və dəstək varsa, onda, təbii ki, qalan bütün məsələlər daha asan həll edilir. Ukrayna ilə Azərbaycan arasında ənənəvi olaraq tərəfdaşlıq münasibətləri mövcuddur. Ölkələrimiz müstəqillik qazandıqdan bəri biz ikitərəfli formatda da, beynəlxalq təşkilatlar çərçivəsində də həmişə əməkdaşlıq etmişik və bu əməkdaşlıq davam etdirilir. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması məsələsində Ukraynanın mövqeyi, habelə separatizmin hər cür formasının pislənilməsi istiqamətində GUAM ölkələrinin birgə addımları da, əlbəttə, ikitərəfli əlaqələri tamamlayan mühüm elementdir. Odur ki, bu gün imzalanmış Bəyannamə, əvvəla, ölkələrimiz arasında yüksək siyasi münasibətlərin səviyyəsini əks etdirir, habelə bu münasibətləri möhkəmlətmək və bununla da qalan bütün sahələrdə qarşılıqlı fəaliyyət mexanizmlərindən daha tam istifadə etmək niyyətini müəyyənləşdirir. Bu gün biz danışıqlarda, indi isə mətbuat konfransında bu barədə kifayət qədər ətraflı söhbət açdıq. İqtisadiyyatın və siyasətin müxtəlif sektorlarına aid imzalanmış sənədlər də buna parlaq sübutdur. Başqa sözlə, Bəyannamə siyasi münasibətlərin yüksək səviyyəsini və hər iki tərəfin onları möhkəmlətmək istəyini göstərir.

VİKTOR YUŞŞENKO: Düşünürəm ki, qarşımızda, əslində, iki hissədən ibarət məsələ durur. Münasibətlərimizin statusu necədir və onların gerçəkləşdirilməsinin mexanizmi

necədir? Əgər biz konkret olaraq bugünkü sənəddən, siyasi Bəyannaməmizdən danışırıqsa, onda, bir tərəfdən, Bəyannamə elə prinsiplərə hörmət bəslənildiyini təsbit edir ki, münasibətlərimiz ənənəvi olaraq bu prinsiplər əsasında inkişaf edir. Söhbət yüksək qarşılıqlı siyasi etimad nümayiş etdirilməsindən tutmuş, tərəflərin müxtəlif məsələlərdə - siyasi, iqtisadi və başqa məsələlərdə mövqeyinədək vəziyyətdən gedir. Digər tərəfdən, başlıcası odur ki, Bəyannamə münasibətlərimizin statusunu qaldırmağı təklif edir, yəni bu, Prezidentlər Şurası kimi mexanizmdir. Zənnimcə, biz burada ona görə görüşmürük ki, bu və ya digər layihənin rentabelliyini, səmərəliliyini, zəruriliyini hiss edərək, onun həyata keçirilməsinə illərlə başlamayaq. Çünki haradasa siyasi mərkəz yoxdur, haradasa tətbiqi məsələlərin bu və ya digər hissəsinin tənzimlənməsində həmrəylik yoxdur. Məqsədimiz münasibətlərin statusunu yüksəltmək vasitəsilə bu cür problemləri gündəlikdən çıxarmaqdır, Ukrayna ilə Azərbaycan arasında qarşılıqlı münasibətlərin 4-5 ümdə mövzusuna prezidentlər səviyyəsində nəzarət etməkdir. O ki qaldı münasibətlərin dolğunlaşmasına, biz bu gün bu barədə danışdıq. İkitərəfli münasibətlərimizin inkişafı üçün yaxşı "Yol xəritəmiz" var. Bu gün biz nəinki malik olduğumuz nə varsa, o cümlədən, - mən buna əminəm, azad ticarət zonası rejiminin formalaşdırılması haqqında qərar qəbul olunması sayəsində, - onun yaxşı dinamizmini, həm də kifayət qədər tez-tez keçirdiyimiz siyasi dialoqu qeyd edirik.

Ümidvaram ki, İlham Heydər oğlu sentyabrın 27-də Ukraynaya gələcək, bizdə Kiyev şəhərinin müxtəlif millətlərdən olan 120 min sakininin həyatına son qoyan Babi Yar faciəsi ilə bağlı müvafiq tədbir keçiriləcəkdir. Bu, əslində, bəşəriyyətin qarşılaşdığı ilk Holokost dərsi ola bilər. Biz, inanın, digər ölkələrin rəhbərləri ilə heç də tez-tez müzakirə etmədiyim məsələlərdən, tariximizə aid məsələlərdən danışdıq. Lakin bizim üçün çox vacibdir ki, tariximizi Bakıda da, Tbilisidə də, Moskvada da, Brüsseldə də başa düşsünlər. Məsələn, bu gün biz dedik ki, Azərbaycan parlamenti 1932-33-cü illərdə Ukraynada baş vermiş Qolodomor haqqında müvafiq qərar qəbul etsəydi, bu siyasi cəhətdən çox düzgün olardı. Biz 10 milyon insanın faciəsindən yan keçməməyi təklif edirik. Hesab edirik ki, bu, təkcə Ukrayna xalqının faciəsi deyil, bu faciəni hamı bilməlidir. Əminəm ki, indi biz bu tarixdən ibrət götürsək, yaxın və ya uzaq qonşular olub-olmamağımızdan asılı olmayaraq, daha yaxşı olarıq. Bundan dünya da daha yaxşı olar. Minnətdaram ki, biz bu cür məsələlərdə də anlaşma tapırıq. Mən artıq sahə əməkdaşlığına aid olan məsələlərdən danışmayacağam. Bu gün beş sahə üzrə altı sənəd imzalandı. Bu, o deməkdir ki, hər iki tərəf münasibətlərimizi fəallaşdıra biləcək vasitələrin yaxşı ehtiyatına malikdir.

Ümumi bir qeyd: əminəm ki, hökumətlərin rolu, prezidentlərin rolu ondan ibarətdir ki, hər bir ölkənin, hər bir millətin çox böyük potensialı olsun. Bəlkə də, bu potensialın həyata keçilməsi problemi bəzən, yaxud tez-tez ondan ibarət olur ki, dövləti təmsil edən hakimiyyət müvafiq informasiyanı və ya müvafiq imkanları dolğunluğu ilə əlaqədar tərəflərə çatdırmır. Ona görə də deyirik ki, bizim vəzifəmiz təkcə siyasi dialoqu deyil, həm də işgüzar dialoqu, Kommersiya qüvvələri arasında dialoqu formalaşdırmaqdır. Hiss edə bilsinlər ki, onların münasibətlərinin inkişafının arxasında prezidentlərin, hökumətlərin siyasi dəstəyi durur. Bu cəhət çox vacibdir. Düşünürəm ki, bugünkü səfər, bugünkü danışıqlar, əlbəttə ki, bizim üçün münasibətlərimizin əlamətdar səhifəsini açdı.

Çox sağ olun.

ALİ QONAĞIN ŞƏRƏFİNƏ

Sentyabrın 7-də Azərbaycan Prezidenti İlham Əliyevin adından Ukrayna Prezidenti Viktor Yuşşenkonun şərəfinə Yaxt-klubda rəsmi qəbul təşkil edilmişdir.

Dövlət başçıları qəbulda nitq söylədilər.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ

- Hörmətli Viktor Andreyeviç!

Hörmətli qonaqlar!

Sizi Azərbaycanda bir daha salamlamağıma şadam. Bu gün biz çox səmərəli işlədik, çox mühüm danışıqlar apardıq, Ukrayna ilə Azərbaycan arasında ikitərəfli əlaqələrin gələcək inkişafını müəyyən edəcək çoxlu mühüm sənəd imzalandı. Biz Ukrayna Prezidentinin ölkəmizə səfərini ikitərəfli münasibətlərin çox mühüm elementi kimi qiymətləndiririk və elə indi demək olar ki, səfər çox uğurlu keçir və səfərin nəticəsində bütün istiqamətlərdə gələcək əməkdaşlıq üçün tamamilə yeni imkanlar yaradılır. Bu gün biz bu barədə təkbətək, nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşlərdə, mətbuat konfransında da danışdıq. İqtisadiyyatın bütün sahələrində, siyasi baxımdan və humanitar sahədə Ukrayna ilə Azərbaycan arasında əməkdaşlıq tamamilə yeni mərhələyə çıxır. Biz tərəfdaşlar, dostlarıq və bu, ikitərəfli əlaqələrimizin səviyyəsi və formatını da öncədən müəyyən edir. Ümidvaram ki, səfərin nəticələrini yaxın gələcəkdə biz hamımız əlaqələrimizin təkmilləşməsi, münasibətlərimizin bütün səviyyələrdə - hökumət üzvləri, parlament, ictimai təşkilatların üzvləri səviyyəsində intensivləşməsi məsələlərində görəcəyik. Münasibətlərin və qəbul edilən qərarlara nəzarəti əlaqələndirməyin özlüyündə nadir bir formatı yaradılmışdır. Bu, Prezidentlər Şurasıdır və o, ikitərəfli münasibətlərlə bağlı bütün məsələləri mütəmadi olaraq nəzərdən keçirəcəkdir.

Bizim aramızda siyasi qarşılıqlı əlaqə ən yüksək səviyyədədir, beynəlxalq təşkilatlar çərçivəsində, iqtisadiyyat, energetika sahəsində çox uğurla əməkdaşlıq edirik, çox gözəl perspektivlərimiz var. Ən başlıcası budur ki, bizim aramızda, ölkələrimiz və xalqlarımız arasında çox yüksək ənənələrə, dostluğa, qarşılıqlı anlaşmaya əsaslanan etimadlı münasibətlər mövcuddur. Ukrayna Prezidentinin Azərbaycana bugünkü səfəri bu münasibətləri daha da möhkəmləndirdi, gələcək inkişafın əsas istiqamətlərini öncədən müəyyənləşdirdi və əminəm ki, ikitərəfli əlaqələrin çox mühüm amili olacaqdır.

Dünyanın bizim yaşadığımız hissəsində regional əməkdaşlığın səviyyəsi də Azərbaycan ilə Ukraynanın müxtəlif məsələlərdə əməkdaşlığından xeyli dərəcədə asılı olacaqdır. İndi regional əlaqələrin tamamilə yeni formatı yaranır, Xəzər dənizi-Qara dəniz regionu bir-biri ilə getdikcə daha sıx inteqrasiya edərək, Xəzər dənizi-Qara dəniz regionunda tamamilə yeni vəziyyət əmələ gətirir. Nəqliyyat, energetika sahəsində, siyasi və digər münasibətləri nəzərə alaraq, bu regiona müəyyən dərəcədə vahid bir tam kimi baxmaq olar. Bu baxımdan regional əməkdaşlıq çərçivəsində Azərbaycanın və Ukraynanın rolu kifayət qədər yüksəkdir və əlaqələrimiz möhkəmləndikcə, nail olduğumuz bütün razılaşmalar həyata keçirildikcə artacaqdır.

Mən bu badəni Ukrayna xalqının, Ukraynanın şərəfinə, Ukrayna və Azərbaycan xalqla-

rı arasında dostluğun, sizin ölkənizin tərəqqisi şərəfinə və Prezident Viktor Andreyeviç Yuşşenkonun sağlığına qaldırmaq istəyirəm.

UKRAYNA PREZİDENTİ VİKTOR YUŞŞENKONUN NİTQİ

- Hörmətli İlham Heydər oğlu!

Hörmətli azərbaycanlı dostlar!

Zənnimcə, hər hansı layihənin gerçəkləşdirilməsini təmin etmək üçün bir zəruri şərt var - sənin qeyd dəftərçəndə nəzərdə tutulan layihənin həyata keçirilməsini birlikdə təmin etdiyin tərəfin telefon nömrəsi olmalıdır. Bugünkü səfər, Ukraynadan gələn nümayəndə heyəti, məncə, buna çox gözəl sübutdur ki, Azərbaycanla, onun rəhbərliyi, iqtidarı, xalqı ilə münasibətlərimiz ən yüksək səviyyədədir.

İş elə gətirmişdir ki, bu münasibətlərin illərlə formalaşmış gözəl ənənəsi var. Zənnimcə, o da eyni dərəcədə əhəmiyyətlidir ki, biz bu ənənəni qiymətləndiririk və bu münasibətləri qoruyub saxlamağın, onlara daha yaxşı cəhətlər əlavə etməyin, gələcək nəsilə ötürməyin nə dərəcədə vacib olduğunu başa düşürük. Mən sizin rəhbərliklə aramızda yaranmış etimadın səviyyəsini çox yüksək qiymətləndirirəm.

Bu gün biz tətbiqi layihələrə, həyata keçirmək üçün kifayət qədər aşkar olan layihələrə çox vaxt ayırdıq. Layihələrin gerçəkləşdirilməsi üçün hakimiyyət mexanizmlərindən, dövlət qurumlarından nə dərəcədə səmərəli və tez istifadə etməyə nail olmağımız məsələsində, bəlkə də, risk var. Məmur, bir tərəfdən, fiziki baxımdan böyük işlərə qadirdir, digər tərəfdən isə, haqqında danışdığımız layihələrin təşkilində ciddi maneə də ola bilər. Düşünürəm ki, biz bu münasibətlərin siyasi müstəvidən, hökumətlər arasındakı münasibətlər müstəvisindən işgüzar qurumların - digər əsaslar olan, digər stimulların işlədiyi, öz oyun qaydaları olan qurumların səviyyəsinə mümkün qədər tezliklə keçirmək üçün öz üzərimizdə məsuliyyət hiss etməliyik. Bu gün müzakirə etdiklərimizin üçdə iki hissəsi bazar layihələrinə, praktik olaraq, açıq, rəqabətli layihələrə aiddir. Bu layihələrin həyata keçirilməsini təmin etməyin ən yaxşı yolu hökumətin onları mümkün qədər tezliklə vicdanlı işgüzar strukturlara verməsindən ibarətdir.

Onu da vurğulamaq istərdim ki, biz Azərbaycanda Ukrayna xalqına olan münasibəti çox yüksək qiymətləndiririk. Cənab Prezident, Azərbaycandakı Ukrayna diasporunun həyatı üçün belə normal şərait təmin edildiyinə görə Sizə, komandanıza, hökumətinizə çox minnətdaram. Demək istərdim ki, Siz Ukraynada yaşayan Azərbaycan diasporu barəsində Ukrayna tərəfindən eyni cavabı həmişə eşidəcəksiniz. Ümumiyyətlə, bizim məqsədimiz Ukraynadakı hər hansı icmanın, o cümlədən də Azərbaycan icmasının həyatı üçün elə dinclik və rahatlıq yaratmaqdır ki, hansı torpaqda doğulmasından asılı olmayaraq, hər bir insan ayağa qalxıb böyük iftixar hissi ilə deyə bilsin: mən ukraynalıyam, çünki Ukraynada yaşayıram və Ukrayna dövləti mənə insan ləyaqətinə layiq olan firavanlığı verir. Ona görə də təhsillə, dilin inkişafı, məktəbəqədər tərbiyə, kütləvi informasiya vasitələri, mədəni xarakterli tədbirlərlə bağlı layihələr və ya digər təşəbbüslər ən yüksək səviyyədə dəstəklənəcəkdir.

Mən bu badəni iki böyük, iki maraqlı xalqın, nadir perspektivə malik xalqların şərəfinə qaldırmaq istərdim. Bu gün son on beş ilin bizi necə dəyişdirdiyindən danışdıq. Belə ba-

şa düşürəm ki, bəlkə də, insan meyarı baxımından milyonlarla adamın fəlakətləri, bəlkə də, minlərlə adamın faciələri olmuşdur, bəlkə də, bugünkü günün üstünlüklərindən heç də hamı bəhrələnməmişdir. Amma, gəlin yada salaq ki, bu on beş ildə iki dövlət - Azərbaycan və Ukrayna dövlətləri yaradılmışdır. Bu ideya milyonlarla əcdadımızın düşüncəsinin bəhrəsi idi, lakin onda ulduzlara görə də, vəziyyətə görə də müstəqil, suveren dövlətdən danışmaq üçün belə imkan yox idi. Bu gün biz hamımız nadir bir zəmanədə yaşayırıq. İstərdim ki, biz mövcud problemlərdən, - baxmayaraq ki, sanki, onlar mühümdür, onlarla həm məişət səviyyəsində, həm də siyasi səviyyədə hər gün qarşlaşırsan, - heç olmasa bir anlığa uzaqlaşaq və bizi suveren dövlətlərimizin yaranmasına gətirib çıxaran zəmanəni, hər halda, layiqincə qiymətləndirək.

Mən Azərbaycan və Ukrayna xalqlarının şərəfinə, Azərbaycan Respublikasının Prezidenti İlham Heydər oğlunun və onun xanımının sağlığına, burada olanların hamısının sağlığına badə qaldırıram.

UKRAYNA PREZİDENTİ VİKTOR YUŞŞENKOYA BAKI SLAVYAN UNİVERSİTETİNİN FƏXRİ DOKTORU DİPLOMU TƏQDİM EDİLMİŞDİR

Sentyabrın 8-də Bakı Slavyan Universitetində Ukrayna Prezidenti Viktor Yuşşenkoya BSU-nun fəxri doktoru diplomunun təqdim edilməsi mərasimi keçirilmişdir.

Ukrayna Prezidentini universitetdə səmimiyyətlə qarşıladılar. Tələbələr ali qonağa gül-çiçək təqdim etdilər.

Ukrayna dövlətinin başçısı və nümayəndə heyətinin üzvləri BSU-da 2001-ci ildə açılmış Ukrayna Mədəni-Maarif Mərkəzinin fəaliyyəti ilə tanış oldular. Ali məktəbdə ukraynaşünaslıq ixtisası üzrə təhsil alan tələbələr Viktor Yuşşenkonu Ukrayna dilində səmimiyyətlə salamladılar. Prezident Yuşşenko elə burada Azərbaycandakı Ukrayna diasporunun nümayəndələri ilə görüşdü.

Sonra universitetin akt salonunda təntənəli mərasim keçirildi. Tələbə xorunun ifasında Ukrayna və Azərbaycanın dövlət himnləri səsləndi.

Mərasimi universitetin rektoru professor Kamal Abdullayev açdı.

BSU-nun rektoru ali qonağı universitetin professor-müəllim heyəti və tələbələri adından salamlayaraq dedi:

- Bunu bildirmək mənim üçün şərəflidir ki, 2006-cı il sentyabrın 7-də universitetimizin Elmi Şurası Ukrayna ilə Azərbaycan arasında əməkdaşlığın inkişafında, xalqlarımız arasında dostluq əlaqələrinin möhkəmlənməsində, elm, təhsil və mədəniyyət sahəsində əlaqələrin genişlənməsi və dərinləşməsində görkəmli xidmətlərinə görə Ukrayna Prezidenti cənab Viktor Andreyeviç Yuşşenkoya Bakı Slavyan Universitetinin fəxri doktoru adı verilməsi haqqında yekdilliklə qərar qəbul etmişdir.

Professor K.Abdullayev vurğuladı ki, dost Ukraynanın Prezidentini Azərbaycanda müdrik, iradəli siyasətçi, ölkəmizin böyük dostu kimi tanıyırlar. Elmi Şuranın üzvləri və Bakı Slavyan Universitetinin bütün kollektivi əmindirlər ki, BSU-nun fəxri doktoru kimi V.Yuşşenko ölkələrimiz arasında elmi-mədəni əlaqələrin daha da genişlənməsinə, BSU ilə Ukraynanın ali təhsil müəssisələri arasında əməkdaşlığın dərinləşməsi üçün

əlavə imkanlar yaradılmasına, Bakının bu təhsil ocağında ukraynaşünas mütəxəssislər hazırlanmasının keyfiyyətinin yaxşılaşmasına kömək edəcəkdir.

Rektor vurğuladı ki, Azərbaycan Prezidenti İlham Əliyevin və Ukrayna Prezidenti Viktor Yuşşenkonun məqsədyönlü fəaliyyəti nəticəsində ölkələrimiz arasında münasibətlər yeni mərhələyə qədəm qoymuşdur və strateji tərəfdaşlıq səviyyəsində uğurla inkişaf edir. O, iftixar hissi ilə bildirdi ki, 1946-cı ildən fəaliyyət göstərmiş Rus Dili və Ədəbiyyatı Pedoqoji İnstitutunun bazasında, unudulmaz ümummilli liderimiz Heydər Əliyevin Fərmanı ilə 2000-ci ildə yaradılan Bakı Slavyan Universiteti Azərbaycan ilə Ukrayna arasında mənəvi, elmi, mədəni əlaqələrin inkişafında xüsusi rol oynayır. Özünün yeni keyfiyyətdə fəaliyyətinin qısa müddəti ərzində bu universitet nadir elmi və mədəni mərkəzə çevrilmişdir.

Universitetimizdə rus filologiyası və rusiyaşünaslıq, bolqarşünaslıq, polonistika, bohemistika, yunanşünaslıq, habelə Azərbaycanşünaslıq və türkiyəşünaslıq kimi ixtisaslarla yanaşı, ukraynaşünaslıq da layiqli yer tutur. BSU-da beynəlxalq münasibətlər, jurnalistika üzrə mütəxəssislər, Azərbaycan dili və ədəbiyyatı, rus dili və ədəbiyyatı, ibtidai sinif müəllimləri, Ukrayna, rus, yunan, polyak, çex, bolqar dillərindən və digər dillərdən tərcüməçilər də hazırlanır.

K.Abdullayev bildirdi ki, 2001-ci ildə Ukrayna Ali Radasının sədri İvan Stepanoviç Plyuş tərəfindən açılan Ukrayna Mərkəzi universitetdə fəaliyyət göstərən mədəni-maarif mərkəzləri arasında birinci olaraq yaradılmışdır, bu mərkəz nəzdindəki Ukrayna bazar günü məktəbi isə respublikamızda ilk belə məktəbdir. Xalqlarımız arasında mədəni əlaqələrin zəngin ənənələri var. Hələ XII əsrdə dahi Azərbaycan şairi Nizami Gəncəvi slavyan xalqları nümayəndələrinin nəcib xüsusiyyətlərini tərənnüm etmişdir. Onun əsərləri, eləcə də Füzuli, Vaqif kimi şairlərin və digərlərinin əsərləri hələ XIX əsrdə görkəmli maarifçi-yazıçı Nikolay İvanoviç Qulak tərəfindən originaldan Ukrayna dilinə tərcümə edilmişdir ki, bu da xüsusilə qiymətlidir.

Bu gün Azərbaycanda Taras Şevçenkonun, İvan Frankonun, Lesya Ukrainkanın, Oles Qonçarın, Maksim Rılskinin, Mikola Bajanın, Boris Olcynikin, İvan Draçın və bir çox başqalarının əsərlərini ana dilimizdə oxumağa imkan var.

Rektor dedi ki, indiki müstəqillik dövründə biz xalqarımızın bir-birinə necə gərəkli olduğunu, bir-birimizə necə ehtiyacımız olduğunu görürük. Ona görə də təsadüfi deyil ki, tələbələrimiz Ukraynanın görkəmli dövlət, ictimai xadimlərini, elm və mədəniyyət xadimlərini ruh yüksəkliyi ilə qarşılayırlar. Çox xoşdur ki, ukraynalı qonaqlarımız BSU-da ukraynaşünaslıq ixtisasının mövcudluğu faktını yüksək qiymətləndirir, bu ixtisasa yiyələnən tələbələrimizin yüksək səviyyəsini qeyd edirlər.

Bakı Slavyan Universitetində ukraynaşünaslıq həm bakalavr, həm də magistr pillələrində tədris olunur. 60-dan çox ukraynaşünas məzun, - ilk buraxılış isə 2002-ci ildə olmuşdur, - respublikanın müxtəlif təşkilatlarında uğurla çalışır. Bir çox gənc tədqiqatçılar - aspirant və dissertantlar Ukrayna-Azərbaycan əlaqələrinə dair elmi araşdırmalar aparırlar. Ukrayna Mədəni-Maarif Mərkəzi və Ukrayna bazar günü məktəbi təkcə BSU-nun ukraynaşünas tələbələri üçün deyil, həm də Azərbaycandakı Ukrayna diasporunun bir çox nümayəndələri, Ukraynanın ölkəmizdəki dostları üçün doğma ocağa çevrilmişdir.

Rektor vurğuladı ki, Ukrayna universitetləri ilə sıx əlaqələr yaradılmasaydı, bütün bun-

lar belə yüksək səviyyədə olmazdı. BSU indi Kiyev Milli Universiteti, Boqdan Xmelnitski adına Çerkassı Dövlət Universiteti, Kiyev Slavyan Universiteti, Regionlararası İşçi Heyətin İdarə Olunması Akademiyası ilə uğurlu əməkdaşlıq edir. Bu akademiyanın institutlarından biri Azərbaycan xalqının böyük oğlu Heydər Əliyevin adını daşıyır və hazırda burada bir qrup tələbəmiz təhsil alır. BSU-nun ukraynaşünas tələbələri və müəllimləri Çerkassı Universitetində müntəzəm olaraq staj keçirlər.

Azərbaycana marağın artması nəticəsində Ukraynanın ali məktəblərində azərbaycanşünaslıq şöbələri açılır, burada xalqımızın dili, mədəniyyət və tarixi öyrənilir. Diqqətəlayiq haldır ki, Kiyev Milli Universiteti kimi mötəbər ali məktəbin azərbaycanşünas tələbələri dil praktikası keçmək üçün dəfələrlə ölkəmizə gəlmişlər. Cənab Prezident, demək istəyirəm və yəqin bütün tələbələr məni dəstəkləyərlər ki, onlarla tələbələrimiz arasında elə səmimi münasibətlər yarandı, elə dostlaşdılar ki, ayrılmaq istəmirdilər. Onların tələbələrimizlə birlikdə respublikaya səfərə çıxmaq imkanı oldu, çadır şəhərciklərindəki məcburi köçkün uşaqları üçün məktəblərə getdilər, Ermənistanın təcavüzü, Ermənistan tərəfindən etnik təmizləmə siyasəti nəticəsində doğma ocaqlarından didərgin salınmış adamlarla görüşdülər.

Bakı Slavyan Universitetinin ukraynaşünaslığı inkişaf etdirmək üçün çox böyük planları var. Universitet Ukraynanın ali məktəbləri və elmi mərkəzləri ilə əlaqələri, tələbə və müəllim mübadiləsini genişləndirmək niyyətindədir. Şübhəsiz ki, bu, qarşılıqlı surətdə faydalı əməkdaşlıq olacaq və hər iki ölkənin təhsil nazirlikləri, Ukraynanın Azərbaycandakı və Azərbaycanın Ukraynadakı səfirlikləri bu işdə həmişəki kimi, yenə də onlara kömək edəcəkdir.

BSU-nun rektoru sözünü tamamlayaraq dedi: Cənab Prezident, bugünkü görüş, Sizin burada olmağınız bütün bu işlərə yeni təkan verəcəkdir.

Sonra professor K.Abdullayev Bakı Slavyan Universitetinin fəxri doktoru diplomunu və doktor mantiyasını Ukrayna dövlətinin başçısına təqdim etdi.

Mərasimdə Ukrayna Prezidenti Viktor Yuşşenko çıxış edərək dedi ki, Bakı Slavyan Universitetinin Fəxri doktoru adı almaq mənim üçün yüksək şərəfdir. Dünyaya bir çox mütəfəkkirlər, görkəmli dövlət xadimləri verən qədim, gözəl Azərbaycan torpağında belə hörmətli auditoriya qarşısında çıxış etməyimə həqiqətən şadam. Azərbaycanı sevənlərin hamısı ilə birlikdə ona tərəqqi arzulayıram. Azərbaycan biznesinin necə sürətlə inkişaf etdiyini, müstəqil dövlətin necə formalaşdığını və qurulduğunu diqqətlə izləyirəm.

Ukrayna Prezidenti Azərbaycanda və öz ölkəsində dövlətçiliyin təşəkkülü proseslərinin oxşarlığını vurğuladı. Eyni zamanda dedi ki, lakin biz müasir tarixdən, bəlkə də, milyonlarla insan üçün fəlakətli olmuş kəşməkəşli on beşillik tarixdən danışarkən, zənnimcə, qeyd etməliyik ki, tariximizdə ən şanlı nailiyyətlərdən birinə malikik - biz müstəqil Ukraynaya malikik, biz müstəqil Azərbaycana malikik. Bu gün baş verən hadisələrə müəyyən vaxtdan sonra qiymət vermək olar. Ukrayna rəhbəri Azərbaycan xalqını qazandığı uğurlar münasibətilə təbrik və əmin etdi ki, Ukrayna dövlətinin, Ukrayna xalqının simasında Azərbaycan xalqının həmişə dostları olacaqdır.

Prezident mərasim iştirakçılarına Azərbaycandakı təxminən 30 min nəfərlik Ukrayna diasporunun nümayəndələri ilə görüşdən danışdı, Ukrayna Mədəniyyət Mərkəzinin fəaliyyətinə görə BSU-nun rəhbərliyinə təşəkkürünü bildirdi. Prezident Viktor Yuşşenko bildirdi ki, Ukrayna dövləti Ukrayna diasporu üzvlərinin öz tarixi vətəni ilə əlaqələri itirməməsi üçün səylərini əsirgəməyəcəkdir. Müasir təlim proqramları, - o cümlədən Bakı Slavyan Universiteti üçün, - hazırlanacaqdır.

Prezident V.Yuşşenko Ukraynadakı Azərbaycan diasporunun vəziyyətindən söhbət açaraq bildirdi ki, o, ölkənin ictimai həyatında, humanitar və sosial sahələrdə fəal iştirak edir. Ali qonaq dedi: "Bu baxımdan bizdə prezidentlər səviyyəsində həllini gözləyən heç bir məsələ yoxdur. Mən buna görə təşəkkür edirəm, iki xalqın belə müdrikcəsinə qarşılıqlı əlaqəsi və bir-birinə yaxınlaşmaq üçün addımlar atması heç də tez-tez rast gəlinən hal deyildir. Bu, düzgün siyasətdir və biz onu davam etdirəcəyik".

Ukrayna Prezidenti Avropa qurumlarına inteqrasiyanı əsas götürməklə öz inkişaf yolunu müəyyənləşdirən ölkəsindəki müasir ictimai-siyasi vəziyyətdən, parlament seçkilərindən, bir sıra mühüm siyasi qərarlardan danışdı. Ukrayna dövlətinin başçısı dedi ki, biz Ukraynada vəziyyətin sabitləşməsi naminə, ölkənin gələcəyi naminə kompromis yolundan, qarşılıqlı anlaşma yolundan istifadə etdik.

Viktor Yuşşenko Ukrayna iqtisadiyyatında müsbət meyillərdən xəbər verən konkret rəqəmlər də gətirdi. O bildirdi ki, müstəqil Ukraynanın tarixi ərzində indi ölkədə işsizlik ən aşağı səviyyədədir, ümumi daxili məhsulun artımı 7-7,5 faiz təşkil edir, Ukrayna iqtisadiyyatına yatırılan xarici sərmayələrin həcmi də artmışdır. Sosial sahədə çox işlər görülmüş, əhalinin gəlirləri artmışdır. Ukrayna Prezidenti son illərin nailiyyətləri sırasında mətbuat azadlığını da vurğuladı.

Prezident Yuşşenko Ukraynanın xarici siyasət xəttindən danışaraq dedi: "Biz Azərbaycanla ikitərəfli münasibətləri yüksək qiymətləndiririk. İki ölkə arasında əmtəə dövriyyəsinin ildən-ilə artan səviyyəsi sevindirici faktdır". O, rəsmi səfərinin gedişində aparılmış danışıqlardan, imzalanmış mühüm sənədlərdən məmnunluq duyduğunu bildirdi. Ali qonaq energetika sahəsində və digər sahələrdə ölkələrimiz arasında perspektivlər açıldığını qeyd edərək dedi ki, ali məşvərət orqanı - Azərbaycan və Ukrayna Prezidentləri Şurası yaratmaq qərara alınmışdır. Bu orqanın məqsədi ikitərəfli münasibətlərin inkişafının əsas istiqamətlərinə dair məsələləri formalaşdırmaqdır.

Xəzər regionundan Ukraynaya, oradan isə Qərbi Avropaya təbii qaz göndərilməsi konsepsiyasının formalaşdırılması da ən ciddi diqqət yetirilməli əsas problemlərdən biri kimi göstərildi. Bu istiqamətdə müəyyən razılaşmalar əldə edilmişdir, təşəbbüs qrupu yaradılacaq, həmin layihə üzrə müvafiq siyasi və işgüzar təşəbbüslər formalaşdırılacaqdır.

Viktor Yuşşenko onu da xatırlatdı ki, ölkə rəhbərliyinin Avropa qurumlarına inteqrasiya, viza rejiminin liberallaşdırılması istiqamətində atdığı addımlar son vaxtlar Ukraynaya turist axınının 2,2 dəfə artmasına gətirib çıxarmışdır.

Ukrayna Prezidenti iqamətgahı Kiyevdə olan GUAM beynəlxalq təşkilatının fəaliyyətini gücləndirməyin zəruriliyini xüsusi vurğuladı.

Ukrayna Prezidenti Azərbaycana rəsmi səfərini, aparılmış danışıqları, imzalanmış sənədləri bir daha yüksək qiymətləndirərək bildirdi ki, ikitərəfli münasibətlərimiz gözəl, dinamik mərhələdədir, konkret iqtisadi layihələrin həyata keçirilməsi sahəsi də daxil

olmaqla, bizi əla perspektivlər gözləyir. Bu səfər iki ölkənin ali rəhbərliyi, hökumətləri arasında etimadı möhkəmlətmək üçün yaxşı imkan olacaqdır.

Prezident Yuşşenko BSU-nun tələbələrinə və professor-müəllim heyətinə yeni böyük uğurlar, dost Azərbaycan xalqına isə sülh və tərəqqi arzuladı.

Sonra Ukrayna dövlətinin başçısı Bakı Slavyan Universiteti tələbələrinin və müəllimlərinin suallarına cavab verdi. Viktor Yuşşenko Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllinin perspektivləri və bu prosesdə Ukraynanın mümkün təşəbbüsləri barədə suala cavab verərək bildirdi ki, bu mövzu Azərbaycan Prezidenti ilə görüş zamanı müzakirə edilmişdir. Bu, beynəlxalq görüşlərdə də iki dövlətin başçılarının müzakirə mövzusuna çevrilir. O bəyan etdi ki, Ukraynanın mövqeyi belədir: münaqişənin həlli üçün zəruri şərt Azərbaycan Respublikasının ərazi bütövlüyünün tanınmasından ibarətdir. Qoşunlar işğal olunmuş əraziləri tərk etməlidir, çünki münaqişənin həlli zamanı zor tətbiqi metodu həmişə çıxılmaz vəziyyət yaradır, heç bir nəticə vermir, qaçqınlar doğma yerlərinə qayıtmalıdırlar. Növbəti mərhələ - muxtariyyət statusunun müəyyən edilməsi referendum yolu ilə, lakin Azərbaycanın ərazi bütövlüyü hökmən nəzərə alınmaqla həyata keçirilməlidir. Bu məsələdə Ukraynanın konsepsiyası belədir. Lazım gələrsə, Ukrayna sülhyaratma əməliyyatlarında iştirak etməyə hazırdır.

BSU-nun rektoru professor Kamal Abdullayev V.Yuşşenkoya təşəkkür edərək bildirdi ki, Ukrayna rəhbəri azərbaycanlı tələbələrin Ukrayna ali məktəblərində təhsil alması üçün əlavə kvotalar ayrılmasına kömək göstərməyə söz vermişdir.

SƏNGƏÇAL TERMİNALI İLƏ TANIŞLIQ UKRAYNA PREZİDENTİNDƏ XOŞ TƏƏSSÜRAT YARATMIŞDIR

Ukrayna Prezidenti Viktor Yuşşenko sentyabrın 8-də Səngəçal terminalına gəlmişdir.

Dövlət Neft Şirkətinin prezidenti Rövnəq Abdullayev və terminalın baş direktoru Alan Maqines Ukrayna rəhbərini burada hörmətlə qarşıladılar.

Prezident Yuşşenko və Ukrayna nümayəndə heyətinin üzvləri Xəzər Enerji Mərkəzində "Əsrin müqaviləsi" üzrə həyata keçirilən layihələrə, indiyədək görülmüş işlərə həsr edilmiş fotosərgiyə və sənədli filmə baxdılar.

Qonaqlara bu Mərkəz, ümumən terminal barədə ətraflı məlumat verildi.

Bildirildi ki, terminalın tikintisinə 2001-ci ilin noyabrından başlanmış, indiyədək burada 3 mindən çox işçi çalışmış, 25 milyon adam-saatdan çox iş görülmüşdür. Bu, dünya rekordu sayıla biləcək bir hadisədir. Terminalda hər birinin tutumu 880 min barrel olan 3 xam neft çəninin, baş nasos stansiyasının, separatorların, idarəetmə məntəqəsinin tikintisi, sahildən 187 kilometr aralıda yerləşən "Mərkəzi Azəri" yatağından terminala qədər sualtı neft və qaz kəmərlərinin, fiber-optik rabitə kabellərinin çəkilişi, birləşdirmə və sınaq işləri tam başa çatdırılmışdır.

Sonra avtobusla terminalın ərazisini gəzən ali qonaq nəzarət-idarəetmə məntəqəsinin iş sistemi ilə də tanış edildi. Ukrayna Prezidentinə məlumat verildi ki, buradan Bakı-Novorossiysk, Bakı-Supsa və Bakı-Tbilisi-Ceyhan neft boru kəmərlərinin, Bakı-Tbilisi-Ərzurum qaz kəmərinin ölkə ərazisindəki hissələrində bütün prosesləri izləmək, hər hansı qəza, nasazlıq barədə dərhal xəbər tutub müvafiq tədbir görmək mümkündür.

Prezident Viktor Yuşşenko və onu müşayiət edən nümayəndə heyətinin üzvləri terminalda texnoloji proseslərlə əyani tanış oldular. Mütəxəssislər qonaqların çoxsaylı suallarına cavab verdilər.

Dünyanın ən nəhəng terminallarından biri ilə tanışlıq Ukrayna Prezidentində xoş təəssürat yaratdı.

Terminala gəlməsindən xatirə olaraq, ali qonağa hədiyyələr təqdim edildi.

HEYDƏR ƏLİYEV FONDU İLƏ TANIŞLIQ

Ukrayna Prezidenti Viktor Yuşşenko sentyabrın 8-də Heydər Əliyev Fondunda olmuşdur.

Azərbaycan Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva Ukraynanın dövlət başçısını böyük səmimiyyətlə qarşıladılar. Qonaqlar əvvəlcə kino zalda Fondun fəaliyyətinə, həyata keçirdiyi layihələrə həsr edilmiş sənədli filmə baxdılar.

Sonra Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun xoşməramlı səfiri Mehriban Əliyeva Ukrayna Prezidentinə Azərbaycan xalqının ümummilli liderinin xatirəsinə ehtiram əlaməti olaraq yaradılmış Fondun məqsədləri barədə məlumat verdi. Bildirildi ki, Fondun əsas məqsədləri Prezident Heydər Əliyevin zəngin irsini öyrənmək və təbliğ etməkdən, onun Azərbaycanın sosial-iqtisadi, mədəni tərəqqisinə yönəlmiş genişmiqyaslı fəaliyyəti barədə gələcək nəsillərdə, ölkəmizin qonaqlarında əyani təsəvvür yaratmaqdan, dahi şəxsiyyətin müəllifi olduğu beynəlxalq layihələrin həyata keçirilməsini dəstəkləməkdən, Azərbaycan mədəniyyəti və tarixinin geniş təbliği ilə əlaqədar aparılan işlərə kömək göstərməkdən ibarətdir.

Prezident İlham Əliyev Ukrayna rəhbərinə ümummilli liderimizin şəxsi arxivindən götürülmüş və onun fəaliyyətinin ayrı-ayrı dövrlərini əhatə edən eksponatlar barədə ətraflı məlumat verdi.

Ukrayna Prezidenti fenomen şəxsiyyət Heydər Əliyevin həyatının ən müxtəlif məqamlarını əks etdirən və Azərbaycan tarixinin bütöv bir dövrü barədə geniş təsəvvür yaradan çoxlu sənədlərlə, dünyanın tanınmış siyasi xadimlərinin bəxş etdikləri hədiyyələrlə, ulu öndərimiz haqqında kitablarla, dünyanın nüfuzlu siyasi, elm, mədəniyyət və incəsənət xadimlərinin Azərbaycan dövlətinin qurucusu haqqında fikirləri ilə tanış oldu, müxtəlif ölkələrin liderləri ilə görüşlərdə çəkilmiş şəkillərə böyük maraqla baxdı.

Ulu öndər Heydər Əliyevin 1997-ci ildə Ukraynaya səfəri zamanı o vaxt Ukrayna Milli Bankının rəhbəri olan V.Yuşşenko ilə çəkdirdiyi şəkil Ukrayna Prezidentində xüsusi ovqat yaratdı. O, həmin görüşü həmişə xoş təəssüratla xatırladığını bildirdi. Azərbaycan və Ukrayna prezidentləri həmin fotonun önündə xatirə şəkli çəkdirdilər.

Ukrayna Prezidenti Fondun Xatirə kitabına ürək sözlərini yazdı, ümummilli lider Heydər Əliyevin şəxsiyyətinə dərin hörmətini bildirdi, Azərbaycan dövlətinin tərəqqisi naminə dəyərli fəaliyyətində Fonda yeni uğurlar arzuladı.

Ukrayna Prezidentinə xatirə hədiyyələri təqdim edildi.

Ali qonaq Fonddan xoş və zəngin təəssüratla ayrıldığını bildirdi.

SƏFƏR BAŞA ÇATDI

Sentyabrın 8-də Ukrayna Prezidenti Viktor Yuşşenkonun Azərbaycana səfəri başa çatmışdır.

DÜNYA TİCARƏT TƏŞKİLATINA ÜZV OLMA MƏSƏLƏLƏRİNƏ DAİR DƏYİRMİ MASA KEÇİRİLMİŞDİR

BMT-nin Ticarət və İnkişaf üzrə Konfransı (UNCTAD) və Azərbaycan hökumətinin birgə təşkilatçılığı ilə sentyabrın 6-8-də Bakıda BMT-nin Orta Asiya İqtisadiyyatları üçün Xüsusi Proqramının (SPECA) üzvü olan ölkələrin dövlət məmurları üçün Dünya Ticarət Təşkilatına (DTT) üzvolma məsələlərinə dair ilk dəyirmi masa keçirilmişdir.

Hazırda Azərbaycan hökuməti DTT üzvlüyünə ən əlverişli şərtlərlə qəbul olunmanı təmin etmək məqsədi ilə müxtəlif ölkələrin təcrübələrini öyrənir. Azərbaycanın təşəbbüsü və UNCTAD-ın dəstəyi ilə keçirilən bu tədbir də həmin məqsədə yönəlmişdir.

Tədbirdə Azərbaycan ilə yanaşı, SPECA digər üzvləri - Əfqanıstan, Qazaxıstan, Qırğızıstan, Tacikistan və Özbəkistanın nümayəndələri, bu dövlətlərin Cenevrədə DTT məsələləri ilə məşğul olan diplomatları, o cümlədən, Azərbaycanın və Əfqanıstanın DTT yanındakı daimi nümayəndələri, habelə DTT üzvləri olan Oman və Gürcüstanın Cenevrədəki diplomatları iştirak etmişlər. Dəyirmi masada, ümumilikdə, 50-yə yaxın nümayəndə iştirak etmişdir.

Azərbaycanın xarici işlər nazirinin müavini, DTT üzvlüyünə hazırlıq məsələləri üzrə hökumət komissiyasının sədr müavini Mahmud Məmmədquliyev dəyirmi masa iştirakçılarını müzakirələrdə fəal iştirak etməyə çağırmışdır.

UNCTAD rəsmisi Nobert Lebale səmərəli əməkdaşlığa görə Azərbaycan hökumətinə minnətdarlığını bildirmişdir. DTT üzvlüyünə qəbul olunma prosesində ən yüksək nailiyyətin əldə edilməsi üçün müxtəlif təcrübələrin öyrənilməsinin vacibliyini vurğulayan N.Lebale təmsil etdiyi qurumun bundan sonra da Azərbaycan hökuməti ilə əməkdaşlığa hazır olduğunu demişdir.

Tədbirdə Qırğızıstan, Gürcüstan və Omanın təcrübələrinə, habelə, ümumilikdə, bu prosesə və hazırda DTT üzvlərinin Doha İnkişaf Gündəliyi adlanan yeni ticarət danışıqları raunduna dair müvafiq məsələlər müzakirə edilmişdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İSLAM KONFRANSI TƏŞKİLATININ BAŞ KATİBİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Prezidenti İlham Əliyev sentyabrın 11-də Prezident sarayında İslam Konfransı Təşkilatının (İKT) baş katibi Ekməleddin İhsanoğlunu qəbul etmişdir.

Ekməleddin İhsanoğlu Azərbaycanın İslam Konfransı Təşkilatında çox fəal iştirak etdiyini, ölkəmizdə bu nüfuzlu təşkilatın böyük tədbirlərinin keçirilməsini Azərbaycanın beynəlxalq aləmdə artan və möhkəmlənən mövqeyi ilə əlaqələndirdi.

Prezident İlham Əliyev bu yaxınlarda İstanbulda İKT-nin Əməkdaşlıq və Dialoq Uğrun-

da Gənclər Forumunun daimi qərargahının açılışı mərasimində iştirakını xatırlatdı, bu təşkilat çərçivəsində əməkdaşlığın daha da genişləndirilməsinin zəruriliyini bildirdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ÜMUMDÜNYA TURİZM TƏŞKİLATININ BAŞ KATİBİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Prezidenti İlham Əliyev sentyabrın 11-də Prezident sarayında Ümumdünya Turizm Təşkilatının (ÜTT) baş katibi Françesko Franjiallini qəbul etmişdir.

ÜTT-nin baş katibi Françesko Franjialli vaxtilə Azərbaycanda olduğunu, xalqımızın ümummilli lideri, dünya şöhrətli siyasi xadim Heydər Əliyevlə görüşünü məmnunluqla xatırlatdı. O, İslam Konfransı Təşkilatının üzvü olan ölkələrin turizm nazirlərinin V Konfransının Azərbaycanda keçirilməsinin böyük əhəmiyyət daşıdığını bildirdi.

Prezident İlham Əliyev ÜTT-nin baş katibinin ölkəmizə səfərinin turizmin inkişafı ilə əlaqədar Azərbaycanda görülən işlərlə yaxından tanış olması üçün yaxşı imkan yaratdığını söylədi.

Dövlətimizin başçısı İKT ölkələri turizm nazirlərinin V Konfransının önəmini xüsusi vurğuladı, Ümumdünya Turizm Təşkilatı ilə Azərbaycan arasında əməkdaşlığın bundan sonra genişlənəcəyinə ümidvar olduğunu bildirdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV PAKİSTANIN TURİZM NAZİRİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Prezidenti İlham Əliyev sentyabrın 11-də Prezident sarayında Pakistan İslam Respublikasının turizm naziri xanım Nilufər Bəxtiyarı qəbul etmişdir.

Qonaq Azərbaycana ilk dəfə səfər etdiyini və bundan çox böyük məmnunluq hissi keçirdiyini söylədi. Nazir Prezident İlham Əliyevin Pakistana rəsmi səfərini xatırlatdı, onun çox uğurla keçdiyini vurğuladı.

Prezident İlham Əliyev ölkələrimiz arasında əlaqələrin müxtəlif sahələrdə uğurla inkişaf etdiyini söylədi və əminliyini bildirdi ki, Azərbaycanın və Pakistanın turizmlə məşğul olan qurumları arasında da bu əlaqələr daim genişlənəcəkdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV TÜRKİYƏNİN MƏDƏNİYYƏT VƏ TURİZM NAZİRİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Prezidenti İlham Əliyev sentyabrın 11-də Prezident sarayında Türkiyənin mədəniyyət və turizm naziri Atilla Koçu qəbul etmişdir.

Nazir Atilla Koç bir neçə il bundan əvvəl Bakıya gəldiyini xatırlatdı, ötən son illər ərzində ölkəmizdə çox böyük inkişafın şahidi olduğunu bildirdi. O, İKT ölkələri turizm nazirlərinin V Konfransının Azərbaycanda yüksək səviyyədə təşkil edildiyini və bu mötəbər tədbirin əhəmiyyətini vurğuladı.

Dövlətimizin başçısı İlham Əliyev respublikamızda gedən inkişaf proseslərindən danışdı.

Görüşdə ölkələrimizin müvafiq qurumları arasında əlaqələrin bundan sonra da genişlənəcəyinə əminlik ifadə olundu.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV SƏUDİYYƏ ƏRƏBİSTANI KRALLIĞININ ALİ TURİZM TƏŞKİLATININ BAŞ KATİBİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Prezidenti İlham Əliyev sentyabrın 11-də Prezident sarayında Səudiyyə Ərəbistanı Krallığının Ali Turizm Təşkilatının Baş katibi Sultan bin Salman bin Əbdüləziz Al Səudu qəbul etmişdir.

Dövlətimizin başçısı İlham Əliyev qonağın bu səfərini, İKT-nin Bakıda keçirilən tədbirində iştirak etməsini Azərbaycan haqqında daha geniş və dolğun məlumat alması üçün gözəl fürsət kimi dəyərləndirdi.

Prezident İlham Əliyev Səudiyyə Ərəbistanına səfərlərini və keçirdiyi görüşləri məmnunluqla xatırlatdı.

Sultan bin Salman bin Əbdüləziz Al Səud Bakıda yüksək səviyyədə təşkil edilən konfransın əhəmiyyətini vurğuladı.

Görüşdə Azərbaycanda turizm infrastrukturunun sürətlə inkişaf etdiyi, bu sahənin əməkdaşlıq üçün yeni imkanlar açdığı bildirildi.

BAKIDA İSLAM KONFRANSI TƏŞKİLATININ ÜZVÜ OLAN ÖLKƏLƏRİN TURİZM NAZİRLƏRİNİN V KONFRANSI BAŞLANMIŞDIR

Sentyabrın 11-də Bakıda, "Gülüstan" sarayında İslam Konfransı Təşkilatının üzvü olan ölkələrin turizm nazirlərinin V Konfransının açılışı olmuşdur.

Konfrans iştirakçıları Azərbaycan Prezidenti İlham Əliyevi hərarətlə qarşıladılar.

Əvvəlcə Azərbaycanın turizm imkanlarını, təbiətini, zəngin mədəniyyətini əks etdirən reklam xarakterli film göstərildi.

İslam Konfransı Təşkilatının üzvü olan ölkələrin turizm nazirlərinin IV Konfransının sədri, Seneqalın turizm və hava nəqliyyatı naziri Usman Massek Ndiay V Konfransı açıq elan etdi.

Müqəddəs Qurani-Kərimdən ayələr oxundu.

Azərbaycan Prezidenti İlham Əliyev konfransda nitq söylədi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ

- Hörmətli qonaqlar,

Hörmətli nazirlər,

Xanımlar və cənablar!

Mən sizin hamınızı Azərbaycanda ürəkdən salamlayıram, ölkəmizə xoş gəlmisiniz.

İslam Konfransı Təşkilatının xətti ilə Azərbaycanda keçirilən çoxsaylı tədbirlər İslam Konfransı Təşkilatı ilə Azərbaycan arasında olan çox fəal əlaqələri daha da möhkəmləndirir. Biz çalışırıq ki, təşkilat çərçivəsində bütün tədbirlərdə çox fəal iştirak edək və bəzi tədbirlərin və görüşlərin təşəbbüskarıyıq. Bu, Bakıda İslam Konfransı Təşkilatının çərçivəsində keçirilən ikinci tədbirdir. Birinci tədbir xarici işlər nazirlərinin görüşü idi və o görüş zamanı çox faydalı və əhəmiyyətli qərarlar qəbul edilmişdir. Bu gün isə biz Azərbaycanda turizm nazirlərinin konfransını keçiririk.

Bugünkü hadisə özlüyündə göstərir ki, Azərbaycan təşkilatın işində çox fəal iştirak edir və çalışır ki, onun möhkəmlənməsinə öz töhfəsini versin. İslam Konfransı Təşkilatı İslam dünyasını birləşdirən təşkilatdır. Təşkilatın nüfuzu, dünyadakı rolu ildən-ilə artmaqdadır və bu, bizi çox sevindirir. Çünki, müsəlman ölkələrinin həmrəyliyi, birliyi indiki zamanədə daha böyük əhəmiyyət kəsb edir. Bizi birləşdirən tarixi əlaqələr, mədəni tellər, siyasi maraqlar, əlbəttə ki, çox önəmlidir. Bizim mövcud çağırışlara birgə cavablarımız, dünyanı əhatə edən böhranlara münasibətlərimiz, qaynar nöqtələrdə baş verən hadisələrə münasibətimiz, əlbəttə ki, dünyada gedən proseslərə çox əhəmiyyətli dərəcədə təsir göstərir. Təşkilatımız - İslam Konfransı Təşkilatı gücləndikcə, əlbəttə ki, bizim mövqelərimiz güclənəcək, bölgəyə və dünyaya baxışlarımız daha da bərabər şəkildə formalaşacaq və eyni zamanda bölgədə və dünyada gedən proseslərə təsirimiz daha da möhkəmlənəcəkdir. Biz bunu arzulayırıq, bunu istəyirik və İKT-nin tədbirlərinin Azərbaycanda keçirilməsi də bu məqsədi daşıyır.

Eyni zamanda, İslam dünyasının turizm nazirlərinin Azərbaycana gəlməsi Azərbaycanın bir növ təqdimatı deməkdir. Çünki, Azərbaycan gənc müstəqil dövlətdir. Biz müstəqil dövlət kimi cəmi 15 ildir yaşayırıq və hələ ki, özümüzü tanıtmağımıza böyük ehtiyac var. Mən bilirəm ki, nazirlərin böyük əksəriyyəti Azərbaycana ilk dəfədir səfər edirlər və hesab edirəm ki, ölkəmizlə tanışlıq gələcək əlaqələrin möhkəmlənməsinə gözəl şərait yaradacaqdır. Biz İslam Konfransı Təşkilatına üzv olan bütün ölkələrlə qarşılıqlı surətdə faydalı əməkdaşlığın dərinləşməsini istəyirik, buna çalışırıq. Əlbəttə ki, belə tədbirlərin ölkəmizdə keçirilməsi bu məqsədlərə xidmət edir.

Azərbaycan həm siyasi, həm də iqtisadi cəhətdən sürətlə inkişaf edən ölkədir. Azərbaycanda gedən proseslər, bölgədə gedən proseslər ölkəmizin mövqelərini möhkəmləndirir. İqtisadi artım baxımından ölkəmiz bu gün dünyada birinci ölkədir. Keçən il Azərbaycanda iqtisadi artım 26 faiz təşkil etmişdir, bu ilin 6 ayında isə 36 faizdir. Bu bizə imkan verir ki, maddi imkanlarımız möhkəmlənsin, ölkənin qarşısında duran bütün vəzifələri uğurla yerinə yetirək. Biz iqtisadiyyatın bütün sahələrini inkişaf etdirmək əzmindəyik və şübhəsiz ki, turizm sahəsinə də böyük diqqət göstərilir. Bir sözlə, Azərbaycanın ildən-ilə artan iqtisadi imkanları ölkəmizi hərtərəfli inkişaf etdirmək üçün çox gözəl zəmin yaradır.

Bununla bərabər, bölgədə və Azərbaycanda ən böyük təhlükə mənbəyi olan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi, əfsuslar olsun ki, uzun illərdir öz həllini tapa bilmir. Ermənistanın Azərbaycana hərbi təcavüzü və azərbaycanlılara qarşı etnik təmizləmə siyasəti ona gətirib çıxarıb ki, ölkəmizin, ərazimizin 20 faizi işğal altındadır. Bu işğal və etnik təmizləmə siyasəti nəticəsində bir milyondan artıq azərbaycanlı öz doğma torpağından didərgin düşübdür.

Bu həm böyük humanitar fəlakətdir, həm böyük ədalətsizlikdir və Ermənistan tərəfindən bütün beynəlxalq normaları pozmaq deməkdir. Bu münaqişəyə dair müxtəlif beynəlxalq təşkilatlar öz qərarlarını vermişdir. Birləşmiş Millətlər Təşkilatı dörd qətnamə qəbul etmişdir və bu qətnamələrdə Ermənistanın işğalçı qüvvələrinin zəbt olunmuş torpaqlardan qeyd-şərtsiz çıxarılması nəzərdə tutulmuşdur. Buna baxmayaraq, Ermənistan tərəfi qətnamələrə məhəl qoymur. Avropa Şurası keçən ilin əvvəlində buna bənzər qətnamə qəbul etmişdir və o qətnamədə Ermənistan işğalçı dövlət kimi tanınmışdır. İslam Konfransı Təşkilatı, həmişə olduğu kimi, Azərbaycanın haqq işinə öz dəstəyini əsirgəmir və təşkilatın çoxsaylı qərarları, qətnamələri açıq-aşkar şəkildə Ermənistanın təcavüzkar siyasətinə son qoyulmasını tələb edir. Amma bütün bunlara baxmayaraq, münaqişə öz həllini tapmır. Azərbaycan həm etnik təmizləmə siyasətinə düçar olmuşdur, eyni zamanda, Azərbaycanda çoxsaylı terror aktları törədilmişdir. Bu terror aktları nəticəsində 2 mindən artıq soydaşımız həlak olmuşdur.

Bu gün sentyabrın 11-dir və hamımız yaxşı xatırlayırıq ki, beş il bundan əvvəl Amerika Birləşmiş Ştatlarında dəhşətli terror aktı baş vermişdir. Günahsız insanlar həlak olmuşlar, biz onların xatirəsini bu gün bir daha yad edirik. İslam dünyası o dəhşətli terror aktını pisləmişdir və bu gün bizim birgə səylərimiz o cümlədən dünyada terrorizmə qarşı aparılan mübarizəyə xidmət göstərir. Terrorizmlə mübarizə aparmaq üçün bütün ölkələrin səyləri birləşməlidir. Təkbaşına bu bəla ilə mübarizə aparmaq mümkün deyildir. Azərbaycan bu işə töhfəsini verməyə hazırdır və verir. İslam Konfransı Təşkilatı çərçivəsində çoxsaylı görüşlərdə həmişə bir məsələ də vurğulanıb ki, bəzi qüvvələr İslamı terrorla eyniləşdirmək istəyirlər. Buna qətiyyətlə yol vermək olmaz. İslamı terrorla eyniləşdirmək istəyən qüvvələr sadəcə olaraq, ya bilməyərəkdən, yaxud da ki, qəsdən bizim dinimizə təcavüz etmiş olurlar. İslam dözümlülük dinidir, sülh dinidir, tolerantlıq dinidir. Biz bütün başqa dinlərin nümayəndələri ilə sülh, əmin-amanlıq şəraitində yaşamaq istəyirik və buna nail olacağıq.

Beləliklə, təşkilat çərçivəsində həm iqtisadi, həm siyasi, həm də mədəni xarakter daşıyan çoxsaylı məsələlər var, çağırışlar var. Mən əminəm ki, bizim görüşlərimiz nə qədər çox olsa, biz daha da böyük uğurlara nail olacağıq. İqtisadi sahədə İKT-yə üzv olan ölkələr arasında əməkdaşlıq daha da sürətlə aparılmalıdır. Bizim siyasi sahədə çox gözəl əməkdaşlığımız var, bizi birləşdirən mədəni əlaqələr buna çox gözəl xidmət göstərir. Eyni zamanda, iqtisadi sahədə daha da böyük əməkdaşlığa ehtiyac var. Bizim ölkələrimiz çox böyük potensiala malikdir və hesab edirəm ki, qarşılıqlı ticarətin təşviqi və dəstəklənməsi hər bir ölkənin iqtisadi siyasətində öz yerini tapmalıdır.

Bugünkü konfrans isə turizm sahəsində əməkdaşlığa həsr olunur və bu gün burada nümayiş etdirilən qısa film Azərbaycanın turizm imkanlarını təqdim etmişdir. Ölkəmizin çox gözəl təbii şəraiti var, doqquz iqlim qurşağı var, 800 kilometrdən çox dənizsahil zonası var. Yəni Azərbaycanda turizmin inkişafı üçün hər cür şərait var. Biz indi bu sahəyə çox böyük diqqət göstəririk. Turizm infrastrukturunun möhkəmlənməsinə çox böyük vəsait qoyulacaqdır. Bununla bərabər, ölkənin bütünlüklə infrastrukturu yeniləşir. Çünki, turizmi inkişaf etdirmək üçün mütləq infrastrukturun - yolların, aeroportların və digər obyektlərin yaradılması zəruridir.

Deyə bilərəm ki, indi Azərbaycanda - ölkənin qərbində, cənubunda və şimalında üç ye-

ni beynəlxalq aeroport tikilir, baxmayaraq ki, ölkənin ərazisi o qədər də böyük deyildir. Üç yeni, beynəlxalq standartlara cavab verən aeroportun tikintisi o cümlədən turizmin inkişafına xidmət göstərəcəkdir. Avtomobil yolları Azərbaycanda sürətlə inşa edilir. O cümlədən kənd yolları, magistral yollar. Azərbaycanın ən ucqar kəndlərinə yeni yollar çəkilir ki, həm insanlar daha da rahat gedib-gələ bilsinlər, eyni zamanda, turistlər üçün əlverişli şərait yaradılsın. Həm Bakı şəhərində, həm də Azərbaycanın müxtəlif bölgələrində yeni müasir hotellərin tikintisi nəzərdə tutulur.

Bir sözlə, dövlət öz tərəfindən əlindən gələni etməyə çalışır ki, turizmin inkişafı üçün bütün infrastruktur layihələri tezliklə həyata keçirilsin. Eyni zamanda, əlbəttə ki, özəl bölmə də bu gözəl imkanlardan istifadə edib yeni, müasir turizm obyektləri yaratmalıdır.

Bu gün bu fürsətdən istifadə edib təşkilata üzv olan ölkələrin şirkətlərinə və dövlət orqanlarına da müraciət etmək istəyirəm ki, Azərbaycanın turizm imkanlarından siz də bəhrələnin. Çünki bu sahə Azərbaycanda çox sürətlə inkişaf edəcək, bütövlükdə ölkəmizə çox böyük həcmdə xarici sərmayə qoyuluşu nəzərdə tutulubdur. İstərdik ki, bizim dost, qardaş ölkələrin nümayəndələri turizm sahəsində də iştirak etsinlər. Turizm həm mədəniyyət deməkdir, həm də əlbəttə ki, iqtisadiyyatın böyük sektoru deməkdir, eyni zamanda, ölkələrimizi birləşdirən amildir. Çünki, insanların müxtəlif ölkələrə gəlişi, ölkələrin vəziyyəti, tarixi abidələrlə tanış olması, əlbəttə ki, ölkələri bir-birinə daha da yaxın edir. Əlbəttə, siyasi əlaqələr çox mühümdür və bunlar var. Mən iqtisadi əlaqələrdən söhbət açdım və hesab edirəm ki, iqtisadi əlaqələr təşkilata üzv olan ölkələri daha da sıx birləşdirəcəkdir. Bununla bərabər turizm imkanlarından istifadə edilməsi də insanları bir-birinə daha da yaxın edəcəkdir. Buna da böyük ehtiyac var.

Bir daha demək istəyirəm ki, bizim çox zəngin birgə tariximiz var, bizi birləşdirən İslam dini var, bizim mədəniyyətimiz var. İnsanlarımız bir-biri ilə nə qədər çox təmasda olsalar, bizim üçün bir o qədər də yaxşı olacaq, İslam dünyası bir o qədər möhkəmlənəcək, İslam Konfransı Təşkilatı daha da böyük nailiyyətlərə malik olacaq və bütövlükdə, dünya daha da dolğun şəkildə inkişaf edəcəkdir.

İslam dünyası çox böyük qüvvədir. Bu qüvvədən biz səmərəli istifadə etməliyik. Bölgədə və dünyada sülhün, təhlükəsizliyin, əmin-amanlığın bərqərar olunmasında İslam dünyasının çox böyük rolu var və bu rol getdikcə artmaqdadır. Biz hamımız, hər birimiz çalışmalıyıq ki, İslam ölkələrini birləşdirən əlaqələr daha da möhkəm olsun və mövqelərimiz daha da möhkəmlənsin. Bütün bu məsələləri nəzərə alaraq, bir daha demək istəyirəm ki, Azərbaycanda İslam Konfransı Təşkilatı ölkələrinin turizm nazirlərinin konfransının keçirilməsi bizim üçün çox böyük əhəmiyyət kəsb edir. Mən bir daha bütün qonaqları ürəkdən salamlayıram, Azərbaycana gəldiyiniz üçün sizə öz minnətdarlığımı bildirirəm və konfransın işinə uğurlar arzulayıram. Sağ olun.

Sonra İKT-yə üzv olan ölkələrin turizm nazirlərinin IV Konfransının sədri, Seneqalın turizm və hava nəqliyyatı naziri USMAN MASSEK NDİAY çıxış etdi. O, konfransda iştirakına və dərin məzmunlu nitqinə görə Prezident İlham Əliyevə dərin minnətdarlıq edərək dedi ki, cənab Prezident, Sizin dünyada turizmin roluna verdiyiniz qiyməti, eyni zamanda, ölkənizdə bu sahənin inkişafına göstərdiyiniz qayğını bilirik və buna görə təşəkkür edirik. Biz tam aydınlığı ilə gördük ki, Azərbaycan xalqı və Sizin hökumətiniz

İKT-nin bütün çağırışlarına qoşulurlar. Sizi əmin etmək istəyirəm ki, söylədiyiniz bütün fikirlər bizim tərəfimizdən qəbul olunur.

O, yüksək səviyyədə təşkil olunan bu konfransın yaddaşlarda daim yaşayacağını, neçə illərdir Azərbaycan paytaxtı Bakı ilə Seneqalın paytaxtı Dakarın qardaşlaşdığını xatırlatdı, həmrəylik və insanların bir-birini tanıması baxımından İslam Konfransı Təşkilatı çərçivəsində görülən işlərdən danışdı. Nazir İsrail-Livan münaqişəsi ilə bağlı fikirlərini açıqladı və atəşkəsin əldə olunmasında İslam dünyasının tutduğu mövqeyi yüksək qiymətləndirdi.

İKT ölkələrinin birgə səylərinin və bir-birini dəstəkləməsinin əhəmiyyətinə toxunan nazir dedi ki, biz turizmi inkişaf etdirməli, bu sahədə mənafelərimizi həmişə qorumalıyıq. O, IV Konfransda qəbul olunmuş sənədlərin müvəffəqiyyətlə həyata keçirildiyini, səmərəli fəaliyyət üçün davamlı işlərin görüldüyünü söylədi, bu baxımdan gözəl Bakıda keçirilən konfransın xüsusi önəm daşıdığını vurğuladı.

* * *

İslam Konfransı Təşkilatının baş katibi EKMƏLƏDDİN İHSANOĞLU geniş məruzəsində qədim tarixə malik ölkəmizin paytaxtı ilə yaxından tanış olmağın bütün iştirakçılarda xoş təəssürat yaratdığını bildirdi, İKT-yə üzv olan ölkələrin xarici işlər nazirlərinin Bakıda keçirilmiş görüşünü məmnunluqla xatırlatdı, bu cür mühüm tədbirlərin təşkilinə və göstərilən qonaqpərvərliyə görə Azərbaycan Prezidentinə və hökumətinə təşəkkür etdi. Baş katib dedi ki, Azərbaycan İslam ölkələri arasında birliyin və əməkdaşlığın gücləndirilməsinə öz töhfəsini verir. O, İKT-nin onillik fəaliyyət planından danışaraq məlumat verdi ki, bu sənəd XXI əsrdə müsəlmanların qarşısında duran mühüm vəzifələri yerinə yetirmək, əsas çağırışları təmin etmək imkanı yaradır. Yoxsulluğun aradan qaldırılması üçün iqtisadi-ticarət əməkdaşlığının gücləndirilməsi ilə bağlı İKT-yə üzv ölkələr arasında məzmunlu görüşlər keçirilir.

Baş katib məlumat verdi ki, 2005-ci ildə İslam ölkələrinin ticarət dövriyyəsinin həcminin 14 faizi İKT-nin üzvü olan ölkələrlə ticarətin payına düşür və 2015-ci ilə qədər bunun 20 faizə çatdırılması qərara alınmışdır. Bu işdə turizm çox böyük rol oynamışdır. Bu sahədə əməkdaşlığın genişləndirilməsinin vacibliyi baxımından konfrans bütün iştirakçılar üçün faydalı olacaqdır. Hazırda turizm sektorunda yeni böyük imkanlar açılır. 2004-cü illə müqayisədə 2005-ci ildə turizm sahəsində gəlirlər 5,5 faiz artmışdır. Ən yüksək göstərici (10 faizdən çox) Afrika ölkələrində qeydə alınmışdır. Şərqi Asiyada və Yaxın Şərq ölkələrində artım 7 faiz olmuşdur. Ümumilikdə, İKT-yə üzv ölkələrin turizmdən əldə etdikləri gəlir 35 milyard dollara, bu ölkələrə gələn turistlərin sayı isə 40 milyona nəfərə çatmışdır. Ən çox turist Türkiyə və Malayziyaya gəlmişdir. Hazırda bu ölkələr turizm sahəsində Avropa ölkələri ilə çox ciddi rəqabət aparmaq iqtidarındadır.

E.İhsanoğlu dedi ki, turizm sektoru iş yerlərinin açılması üçün də faydalıdır. Milli parklar və qoruqlar vasitəsilə turizmin dayanıqlı inkişafı üzrə layihəsinin həyata keçirilməsi, təcrübə mübadiləsinin aparılması da zəruridir. Bu sahə mədəni əlaqələri də genişləndirir.

Baş katib bildirdi ki, 2006-cı il noyabrın 7-14-də turizm və əl işləri üzrə ilk beynəlxalq sərgi-konfrans keçiriləcəkdir. 2007-ci il iyunun 1-3-də isə Livanın paytaxtı Beyrut şəhərində ikinci sərgi-konfransın keçirilməsi planlaşdırılmışdır.

Bakı konfransı ölkələrarası iqtisadi, ticari və mədəni əlaqələrin gücləndirilməsinə çox mühüm töhfədir. Zəngin təbii sərvətlərlə yanaşı, göz oxşayan təbiətə malik Azərbaycanın qədim tarixi abidələri, mədəni irsi, folkloru, qeyri-adi flora və faunası vardır. Bu, doğrudan da, İslam dünyasının nə qədər zəngin olmasına dəlalət edir.

E.İhsanoğlu ötən iki gün ərzində geniş iclaslarda əhəmiyyətli məsələlərin müzakirə olunduğunu xatırladaraq dedi ki, ölkələrimiz arasında turizmin inkişafını hansı yollarla gücləndirməyin metodları, burada səsləndirilən ciddi tövsiyələr müfəssəl şəkildə təhlil ediləcək və İKT qərarların icrasını təmin etmək üçün bütün səylərini göstərəcəkdir.

* * *

Sonra çıxış edən Ümumdünya Turizm Təşkilatının baş katibi FRANÇESKO FRANJİALLİ Azərbaycanda olmaqdan, İKT ölkələri turizm nazirlərinin bütün tədbirlərində iştirak etməkdən məmnunluq duyduğunu söylədi. O, rəhbərlik etdiyi təşkilatın fəaliyyətindən danışaraq dedi ki, son beş ildə beynəlxalq turizm çox çətin və qeyri-müəyyən şəraitdə inkişaf edir. Baş verən hadisələr, terror aktları, münaqişələr, epidemiyalar, təbii fəlakətlər bu sahəyə ciddi mancə yaratmışdır. Buna baxmayaraq, dünyada insanların turizmə, səyahətə böyük istəyi, marağı vardır.

O, Ümumdünya Turizm Təşkilatının apardığı statistika barədə məlumat verərək bildirdi ki, 2005-ci ildə 800 milyondan çox turist müxtəlif ölkələrə getmişdir ki, bu da 2004-cü illə müqayisədə 5,5 faiz artım deməkdir. Turistlərin 109 milyonu bilavasitə İKT-yə üzv olan ölkələrin payına düşmüşdür. Bu ölkələrdən 6-nın hər biri 5 milyondan çox xarici turist qəbul etmişdir.

Bu sahənin inkişafına ciddi təhlükə yaradan amillərin, münaqişələrin aradan qaldırılmasının vacibliyini xüsusi vurğulayan ÜTT-nin baş katibi son tədqiqatlardan danışdı, turizm sənayesinin tərəqqisi, qarşılaşdığı problemlərlə bağlı ötən il Çində keçirilmiş iclas barədə məlumat verdi. Eyni zamanda bildirdi ki, bu ilin sonunadək təşkilatın regional komissiyasının Yaxın Şərqdə xüsusi görüşü təşkil olunacaqdır.

Françesko Franjialli islamın mütərəqqi, məhəbbət və dözümlülük aşılayan din olduğunu xüsusi vurğulayaraq dedi ki, mən Prezident İlham Əliyevin nitqində toxunduğu fikirləri tam dəstəkləyirəm. Azərbaycanda da turizmin inkişafına xüsusi diqqət yetirilir, yeni imkanlar açılır. Bu işdə Azərbaycan dövlətinin başçısının səylərini və təşəbbüsünü yüksək qiymətləndirirəm.

Cənab F.Franjialli turizmin planlaşdırılması işində İKT ölkələrinə yardım göstərməyə hazır olduğunu bildirdi, ÜTT-nin gələcək planları və vəzifələrindən danışdı, konfransın bütün iştirakçılar üçün səmərəli olacağını söylədi.

* * *

Sonra İslam Konfransı Təşkilatına üzv olan ölkələrin turizm nazirlərinin V Konfransına sədrlik Azərbaycan tərəfinə - mədəniyyət və turizm naziri Əbülfəs Qarayevə keçdi.

Azərbaycanın mədəniyyət və turizm naziri ƏBÜLFƏS QARAYEV çıxış edərək dedi:

-Hörmətli cənab Prezident,

Hörmətli cənab baş katib,

Hörmətli nazirlər və nümayəndə heyətinin başçıları,

Hörmətli konfrans iştirakçıları,

Hörmətli xanımlar və cənablar!

İcazə verin, turizm nazirlərinin V Konfransının Bakı şəhərində keçirilməsi üçün göstərilən etimada görə, İslam Konfransı Təşkilatına öz minnətdarlığımı bildirim.

Bu konfransda şəxsən iştirak etdiyinə və məzmunlu nitqinə, habelə konfransın keçirilməsini şəxsi nəzarətində saxladığına görə, Azərbaycan Respublikasının Prezidenti zati-aliləri İlham Əliyevə dərin təşəkkürümü bildirirəm.

Hörmətli həmkarlarıma Azərbaycana təşrif buyurduqlarına və bizim konfransın keçirilməsini dəstəklədiklərinə görə təşəkkür edirəm.

Əminəm ki, konfrans zamanı aparılan müzakirələr və qəbul olunacaq qərarlar İslam Konfransı Təşkilatı çərçivəsində turizm əməkdaşlığının genişləndirilməsinə, o cümlədən dünya turizminin inkişafına xidmət edəcəkdir. İnanıram ki, Azərbaycan İslam ölkələri arasında turizm əlaqələrinin daha geniş vüsət alması istiqamətində fəaliyyətini artıracaq, qəbul olunmuş qərarların həyata keçirilməsində mühüm rol oynayacaqdır.

Sizə bir daha təşəkkür edir və konfransın işinə uğurlar arzulayıram.

Azərbaycan Prezidenti İlham Əliyev konfrans iştirakçıları ilə birlikdə "Gülüstan" sarayının foyesində Mədəniyyət və Turizm Nazirliyinin keçirdiyi "Azərbaycan - 2006 turizm aləmi" fotomüsabiqəsində nümayiş etdirilən əsərlərdən ibarət sərgi ilə tanış oldu.

Dövlətimizin başçısı konfrans iştirakçıları ilə xatirə şəkli çəkdirdi.

KONFRANS İŞTİRAKÇILARININ ŞƏRƏFİNƏ

Sentyabrın 11-də Bakı Əyləncə Mərkəzində Azərbaycan Prezidenti İlham Əliyevin adından İKT ölkələri turizm nazirlərinin şərəfinə ziyafət verilmişdir.

Dövlətimizin başçısı ziyafətdə iştirak etmişdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BALKAN SİYASİ KLUBUNUN PREZİDENTİ JELYU JELEVİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 12-də Prezident sarayında Bolqarıstan Respublikasının sabiq Prezidenti, Balkan Siyasi Klubunun prezidenti Jelyu Jelevin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Dövlətimizin başçısı İlham Əliyev Jelyu Jelev ilə Sofiyada keçirdiyi görüşü məmnunluqla xatırladı.

Jelyu Jelev ümummilli lider Heydər Əliyev ilə Bolqarıstanda və Azərbaycanda keçirdiyi görüşlərin onda dərin təəssüratlar yaratdığını bildirdi. Qonaq rəhbərlik etdiyi Balkan Siyasi Klubunun fəaliyyəti barədə dövlətimizin başçısına məlumat verdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AVSTRİYANIN "SOCİETY" JURNALININ REDAKTORU XANIM GERTRUT TAUXAMMERƏ MÜSAHİBƏ VERMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 13-də Prezident sarayında Avstriyanın "Society" jurnalının redaktoru xanım Gertrut Tauxammerə müsahibə vermişdir.

Dövlətimizin başçısı Azərbaycan-Avstriya ikitərəfli münasibətləri, ölkəmizdə gedən iqtisadi inkişaf prosesləri, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi və digər məsələlər barədə suallara cavab vermişdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV VAŞİNQTONDA FƏALİYYƏT GÖSTƏRƏN MƏRKƏZİ ASİYA-QAFQAZ İNSTİTUTUNUN SƏDRİ FREDERİK STARIN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 14-də Prezident sarayında Vaşinqtonda fəaliyyət göstərən Mərkəzi Asiya-Qafqaz İnstitutunun sədri Frederik Starın rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Dövlətimizin başçısı Frederik Starı yenidən görməyinə məmnun olduğunu bildirdi. Vaşinqtona səfərinin nəticələrindən razı qaldığını qeyd edən Prezident İlham Əliyev bu səfərdən keçən dövr ərzində Azərbaycan-ABŞ ikitərəfli münasibətlərinin müxtəlif sahələrdə inkişafının uğurla davam etdirildiyini vurğuladı.

Prezident İlham Əliyev ilə görüşlərini məmnuniyyətlə xatırladan Frederik Star dövlətimizin başçısının Vaşinqtona səfərinin çox uğurla keçdiyini bildirdi. Qonaq rəhbərlik etdiyi Mərkəzi Asiya-Qafqaz İnstitutunun hazırkı fəaliyyəti barədə Azərbaycan Prezidentinə məlumat verdi.

AZƏRBAYCAN-POLŞA HÖKUMƏTLƏRARASI BİRGƏ İQTİSADİ KOMİSSİYANIN 1-Cİ İCLASI KEÇİRİLMİŞDİR

Sentyabrın 11-13-də Azərbaycan-Polşa hökumətlərarası Birgə iqtisadi komissiyanın Varşava şəhərində keçirilən 1-ci iclasında iştirak etmək məqsədilə AR İqtisadi inkişaf naziri H. Babayevin rəhbərlik etdiyi nümayəndə heyəti Polşada işgüzar səfərdə olmuşdur. Nümayəndə heyətinə Xarici işlər nazirinin müavini X. Xələfov, Səhiyyə nazirinin müavini S. Kərimov, Kənd təsərrüfatı nazirinin müavini B. Əliyev, Milli Bankın Baş direktoru R. Aslanlı, İxracın və investisiyaların təşviqi fondunun prezidenti E. Məcidov, habelə İqtisadi inkişaf, Nəqliyyat, Sənaye və Energetika nazirliklərinin mütəxəssisləri daxil edilmişdir.

Keçirilmiş ikitərəfli görüş zamanı Polşanın İqtisadiyyat naziri P. Vojnyak digər məsələlərlə yanaşı Polşanın və ümumilikdə Avropa İttifaqının enerji təminatı mövzusunu xüsusi vurğuladı. Polşalı nazir həmçinin, Azərbaycanda gedən siyasi-iqtisadi inkişaf proseslərinə də toxunaraq, cari ilin aprel ayında ölkəmizə işgüzar səfərini məmnunluq hissi

ilə xatırladı və Azərbaycanda həyata keçirilən müsbət yönlü islahatların əyani şahidi olduğunu qeyd etdi.

Komissiyanın həmsədri İqtisadi inkişaf naziri H. Babayev Azərbaycanın da Polşayla bütün sahələrdə əlaqələrin inkişafında maraqlı olduğunu və buna əyani sübut kimi AR Prezidentinin 30-31 mart 2005-ci il tarixlərdə Polşaya rəsmi səfəri və səfər zamanı müxtəlif sahələri əhatə edən mühüm sənədlərin imzalandığını qeyd etdi, lakin hər iki ölkənin potensial imkanlarının kiçik həcmdə olan ticarət dövriyyəsi ilə uzlaşmadığını qeyd edərək, bu yöndə ölkələrimizin rəsmi və biznes strukturlarının birgə səylərinin vacibliyini vurğuladı. Polşalı iş adamlarını ölkəmizdə mövcud olan əlverişli biznes mühitindən istifadə edərək Azərbaycanda aktiv fəaliyyətə dəvət etdi.

İclasda habelə, iqtisadiyyatın digər sahələri-turizm, kənd təsərrüfatı, nəqliyyat, kimya, yeyinti, yüngül sənaye, əczaçılıq, maliyyə-bank sahələrinə dair maraqlı çıxışlar, faydalı müzakirələr oldu.

İclasdan sonra, günün ikinci yarısı Azərbaycan nümayəndə heyəti Polşanın Baş naziri Y. Kaçinski tərəfindən qəbul edildi və görüşdə qarşılıqlı maraq doğuran bir sıra məsələlər müzakirə olundu.

Azərbaycan-Polşa hökumətlərarası Birgə iqtisadi komissiyanın Protokolunu Azərbaycan tərəfdən Komissiyanın həmsədri, İqtisadi inkişaf naziri H. Babayev, Polşa tərəfdən həmsədr, Polşanın İqtisadiyyat naziri P. Vojnyak imzaladılar.

Polşanın dövlət və biznes qurumlarını təmsil edən 100-ə yaxın nümayəndənin iştirak etdiyi Azərbaycan-Polşa iqtisadi əlaqələrinə həsr olunmuş seminar keçirildi.

Seminarın gedişində iştirakçıları maraqlandıran suallar həmsədrlər tərəfindən cavablandırıldı və maraq doğuran mövzular ətrafında fikir mübadiləsi aparıldı.

Azərbaycan-Polşa Birgə iqtisadi komissiyanın növbəti toplantısının gələn ilin may-iyun aylarında Bakıda keçirilməsi haqqında razılıq əldə edildi.

Səfər zamanı Azərbaycan nümayəndə heyəti Polşa Senatının sədri B. Boruseviç, Baş nazir Y. Kaçinski, İqtisadiyyat naziri P. Vojnyak ilə görüşlər keçirmişlər.

Sentyabr ayının 13-də AR İqtisadi inkişaf naziri H. Babayevin rəhbərlik etdiyi nümayəndə heyəti vətənə dönmüşdür.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV TÜRKİYƏNİN ƏMƏK VƏ SOSİAL MÜDAFİƏ NAZİRİ MURAT BAŞESGİOĞLUNUN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 14-də Prezident sarayında Türkiyənin əmək və sosial müdafiə naziri Murat Başesgioğlunun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Dövlətimizin başçısı Azərbaycan-Türkiyə əməkdaşlığının bütün sahələrdə çox uğurla həyata keçirildiyini qeyd etdi. İki ölkənin müxtəlif nazirlikləri arasındakı əlaqələrin daha da möhkəmləndirilməsinin mühüm olduğunu bildirən Prezident İlham Əliyev qarşılıqlı səfərlərin bu baxımdan əhəmiyyətini vurğuladı. Dövlətimizin başçısı Azərbaycan

hökumətinin sosial məsələlərin həllinə xüsusi diqqət verdiyini bildirərək, bu istiqamətdə ölkəmizdə böyük həcmli işlərin həyata keçirildiyini qeyd etdi.

Murat Başesgioğlu ümummilli lider Heydər Əliyev və Prezident İlham Əliyev ilə əvvəllər keçirdiyi görüşləri məmnuniyyətlə xatırlatdı. Azərbaycanın iqtisadi və sosial sahələrdə böyük uğurlar qazandığını vurğulayan qonaq ölkəmizdə baş verən inkişafın onda dərin təəssüratlar yaratdığını bildirdi. Murat Başesgioğlu rəhbərlik etdiyi Əmək və Sosial Müdafiə Nazirliyi ilə Azərbaycanın müvafiq nazirliyi arasındakı əlaqələrin yüksək səviyyədə olduğunu və bu əlaqələrin bundan sonra da genişlənəcəyini söylədi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV "bp-AZƏRBAYCAN" ŞİRKƏTİNİN PREZİDENTİ DEVİD VUDVORDU QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 14-də Prezident sarayında "bp-Azərbaycan" şirkətinin prezidenti Devid Vudvordu qəbul etmişdir.

Görüşdə "bp-Azərbaycan" şirkəti tərəfindən ölkəmizdə görülən işlər, o cümlədən Səngəçal terminalında uğurla həyata keçirilən layihələrlə bağlı məsələlər müzakirə olunmuşdur.

XARİCİ İŞLƏR NAZİRLİYİNİN DİPLOMATİK AKADEMİYASI İLK MÜHAZİRƏSİNİ TƏŞKİL ETMİŞDİR

Sentyabrın 15-də Xarici İşlər Nazirliyinin Diplomatik Akademiyası "Region ölkələrinin diplomatiyası: Vaşinqtondan baxış" mövzusunda mühazirə təşkil etmişdir.

Xarici işlər nazirinin müavini, Diplomatik Akademiyanın rektoru Hafiz Paşayev bildirmişdir ki, akademiyanın ilk tədbirində ABŞ-ın Con Hopkins Universiteti Mərkəzi Asiya-Qafqaz İnstitutunun rəhbəri, professor S.Frederik Star və həmin institutun elmi araşdırmalar üzrə direktoru, doktor Svante Kornell mövzu ilə bağlı mühazirələr oxuyacaqlar.

Birləşmiş Ştatlarda Azərbaycanın səfiri vəzifəsində işlədiyi müddətdə dəfələrlə Con Hopkins Universitetində mühazirə oxuduğunu xatırladan H.Paşayev, təhsil ocağının Mərkəzi Asiya-Qafqaz İnstitutunun bölgə ilə bağlı dərin və maraqlı təhlillər apardığını bildirmişdir. O demişdir ki, ümummilli liderimiz Heydər Əliyev müxtəlif vaxtlarda iki dəfə Con Hopkins Universitetində müəllim və tələbələr qarşısında çıxış etmişdir.

Professor S.Frederik Star təmsil etdiyi institut haqqında məlumat verərək bildirmişdir ki, Mərkəzi Asiya Araşdırmaları İnstitutunun adı səfir Hafiz Paşayevin təklifi ilə dəyişdirilərək Mərkəzi Asiya-Qafqaz İnstitutu adlandırılmışdır.

Azərbaycanda Diplomatik Akademiyanın yaradılmasını yüksək qiymətləndirən S.Frederik Star, bu işdə H.Paşayevə uğurlar arzulamışdır.

Alim Birləşmiş Ştatların Cənubi Qafqaz, o cümlədən Azərbaycan siyasətinin tarixindən danışmış, ABŞ-Azərbaycan əlaqələrinin hazırkı vəziyyətini qeyd etmişdir.

Avropanın xarici siyasətində Cənubi Qafqazın yeri, Avropa İttifaqı-Azərbaycan əlaqələrindən söz açan doktor Svante Kornell, regionda gedən proseslər, Cənubi Qafqaz öl-

kələrinin xarici siyasətindən danışmışdır. O demişdir ki, Ermənistandan fərqli olaraq, Azərbaycan və Gürcüstan Qərb ilə inteqrasiyaya daha çox üstünlük verirlər. Beynəlxalq birlik Ermənistana düzgün yol seçməkdə təsir göstərməlidir.

Azərbaycanın xarici siyasətinin başqa ölkələr üçün nümunə ola biləcəyini vurğulayan S.Kornell demişdir ki, aparılan düzgün siyasət nəticəsində hazırda Azərbaycan regional məsələlərdə obyekt deyil, subyekt kimi çıxış edir. Bunu Cənubi Qafqazın digər ölkələrinə aid etmək mümkün deyildir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ABŞ MÜDAFİƏ NAZİRİNİN AVRASİYA MƏSƏLƏLƏRİ ÜZRƏ MÜŞAVİRİ CEYMS MAKDUQALIN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 15-də Prezident sarayında ABŞ müdafiə nazirinin Avrasiya məsələləri üzrə müşaviri Ceyms MakDuqalın rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Dövlətimizin başçısı Vaşinqtona səfərini məmnuniyyətlə xatırlayaraq, səfəri zamanı Azərbaycan ilə ABŞ arasındakı əməkdaşlığın müxtəlif aspektləri üzrə geniş müzakirələrin aparıldığını qeyd etdi. Azərbaycan-ABŞ ikitərəfli münasibətlərinin müxtəlif sahələrdə uğurla inkişaf etdiyini vurğulayan Prezident İlham Əliyev ölkələrimiz arasındakı əlaqələrin gələcəkdə daha da inkişaf etdiriləcəyinə əminliyini söylədi.

Ceyms MakDuqal Prezident İlham Əliyevin Vaşinqtona səfərinin uğurla keçdiyini bildirdi. Qonaq ABŞ ilə Azərbaycan arasında bütün sahələrdə əməkdaşlığın müvəffəqiyyətlə davam etdiyini vurğuladı. Azərbaycanın beynəlxalq terrorizmə qarşı qlobal mübarizədə ilk günlərdən ABŞ-ın tərəfdaşı olduğunu qeyd edən Ceyms MakDuqal bu sahədə ölkəsinə verilən dəstəyə görə Prezident İlham Əliyevə təşəkkürünü bildirdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BİRİNCİ BEYNƏLXALQ RUS KİTABI FESTİVALININ İŞTİRAKÇILARINI QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 15-də Prezident sarayında Bakıda keçirilən Birinci beynəlxalq rus kitabı festivalının iştirakçılarını qəbul etmişdir.

Dövlətimizin başçısı İLHAM ƏLİYEV qonaqları salamlayaraq dedi:

- Sizin hamınızı ölkəmizdə görməyimə çox şadam. Xoş gəlmisiniz! Azərbaycanda Rusiya İlinin keçirilməsi nadir hadisədir. Düşünürəm ki, rus kitabı festivalı keçiriləcək bütün tədbirlər çərçivəsində ən yaddaqalanı olacaqdır. Ona görə də ümidvaram ki, ölkəmizə səfər sizin üçün də çox xoş olacaqdır. Bir çoxunuz əvvəlki illərdə, son onillikdə Azərbaycanda artıq dəfələrlə olmusunuz, bir çoxunuzla məni şəxsi dostluq münasibətləri bağlayır. Ona görə də sizin hamınızı, o cümlədən ölkəmizə ilk dəfə gələnləri ürəkdən salamlayıram.

Bir tərəfdən, bu festival Bakı sakinlərinin rus ədəbiyyatının, rusdilli ədəbiyyatın nailiyyətləri ilə tanış olmasından ötrü gözəl imkandır, eyni zamanda, ümumən ölkələrimiz

arasında ikitərəfli münasibətlərin inkişafı üçün çox mühüm hadisədir. Çünki iqtisadi, siyasi əlaqələrlə yanaşı, - bizim bu istiqamətdə böyük uğurlarımız var, - ikitərəfli münasibətlərdə humanitar əməkdaşlıq da əvəzsiz rol oynayır. İndi o da ön sıraya keçir ki, bu da çox sevindiricidir. Görünür, bu onunla bağlıdır ki, ölkələrimizdə, MDB ölkələrində dövlətçiliyin təşəkkülü prosesləri artıq bitmişdir, iqtisadi böhranlar da əsasən başa çatmışdır və indi daha dinamik inkişaf dövrü gəlib çatmışdır ki, burada da mənəvi dəyərlərə tələbat artır. Ona görə də bir daha demək istəyirəm ki, mən bu festivalı məhz həmin nöqteyi-nəzərdən qiymətləndirirəm. Festivalın çox böyük səmərəsi, böyük əhəmiyyəti var. Mövcud olan, genişləndirilməli olan əlaqələr ikitərəfli münasibətlərin möhkəmlənməsində, şübhəsiz, öz rolunu oynayır.

Rusiya ilə Azərbaycan arasında münasibətlər ümumən çox müsbətdir, biz bundan məmnunuq. Festivalın keçirilməsi buna daha bir sübut və bu əlaqələrin möhkəmlənməsi işində daha bir addımdır.

Siz yəqin bilirsiniz ki, Azərbaycanda rus dilinə böyük məhəbbətlə yanaşırlar. Rus dilinin ölkəmizdə saxlanması bizim üçün çox vacibdir. Əlbəttə, 15 il müstəqillikdən sonra bizdə rus dilindən Sovet İttifaqı dövründəki qədər istifadə edilmir və bunun da təbii səbəbləri var. Lakin gənc nəslin də rus dilini bilməsi çox vacibdir.

Yeri gəlmişkən, bu gün Azərbaycanda əlamətdar gündür - sentyabrın 15-i dərs ilinin başlanğıcı günüdür. Mən səhər tezdən bir neçə məktəbə getdim, onlardan birinin təmirdən sonra açılışında iştirak etdim. Bu məktəbdə iki bölmə - Azərbaycan və rus bölmələri var. Azərbaycanda tədrisin rus dilində aparıldığı belə məktəblər 300-dən çoxdur. Bu baxımdan biz fəxr edə bilərik ki, SSRİ dağıldıqdan sonra rusdilli məktəblərin sayı azalmadı, harada tədris rus dilində aparılırdısa, eləcə də saxlanmışdır. O cümlədən dövlət ali məktəblərində, orada da təhsilin rus dilində aparıldığı şöbələr var. Məsələn, Slavyan Universiteti. Başqa sözlə, bu, dövlət siyasətidir, çünki Azərbaycan çoxmillətli dövlətdir və hər bir millət təkcə Konstitusiyaya görə deyil, real həyatda da bərabər hüquqlara malikdir. Ona görə də ölkəmizdə yaşayan xalqlar arasında sülh inkişafımızın və dövlətçiliyi möhkəmlətməyin mühüm amillərindən biridir. Ona görə də çoxmillətli dövlət kimi biz, təbii ki, ölkədə yaşayan xalqların milli mədəniyyətlərinin inkişaf etdirilməsi, tam ahəngdarlıq şəraiti yaradılması məsələləri ilə çox ciddi məşğul olmalıyıq. Bundan ötrü çox yaxşı zəmin var. Azərbaycan tolerantlığı, dözümlülüyü, milli həmrəyliyi ilə həmişə fərqlənmişdir və indi də fərqlənir. Əlbəttə ki, bu festival kimi tədbirlər belə meyilləri gücləndirir. Gərək bizim aramızdakı əlaqələr qırılmasın, onlar daimi xarakter daşısın. Məsələn, ötən il və cari il əlaqələrin yeni formatı üçün imkanlar yaratmışdır: keçən il Rusiyada Azərbaycan İli idi, bu il Azərbaycanda Rusiya İlidir. Bu iki il bizi daha da yaxınlaşdırdı. Gərək bu illər başa çatdıqdan sonra əlaqələr kəsilməsin, meyil davam etsin. Bu, ilk növbədə, bizdən, ölkələrin rəhbərlərindən və təbii ki, ictimai və siyasi proseslərə təsir göstərən, ictimai rəyi formalaşdıran adamlardan asılıdır. Rusiyada da, Azərbaycanda da ədəbiyyat, mədəniyyət, incəsənət xadimləri sayılıb-seçilən, hörmət bəslənən insanlardır. İctimai şüurun, ictimai rəyin, ölkənin inkişaf yollarının formalaşmasında onların rolu böyükdür. Tanınmış yazıçının, şairin, mədəniyyət xadiminin dediyi sözün ictimaiyyət üçün böyük dəyəri var. Ona görə də gələcəkdə münasibətlərimizin necə inkişaf edəcəyi həm də xeyli dərəcədə ölkələrimizin nümayəndələri arasında bu sahədə əməkdaşlığından asılı olacaqdır.

Biz çox istəyirik ki, münasibətlərimiz indiki kimi dinamik inkişaf etsin. Bundan ötrü bütün əsaslar var, qarşılıqlı istək var və deyə bilərəm ki, biz hesab edirik, ümumiyyətlə, Rusiya ilə Azərbaycanın münasibətləri qonşular arasında münasibətlərə nümunədir. Qonşuları seçmirlər, amma təəssüf ki, bəzən qonşular arasında mübahisələr, hansısa anlaşılmazlıqlar, daha ciddi problemlər meydana çıxır. Lakin bizim münasibətlərimizdə belə şeylər yoxdur. Ona görə də əlaqələrimizi möhkəmlətmək lazımdır. Ümidvaram ki, biz birgə səylərimizlə daha da irəliləyəcəyik.

Sizi bir daha salamlamaq istərdim, sizinlə şəxsən görüşməyimə çox şadam, şadam ki, şəhərimizin sakinlərinin də sizinlə görüşmək imkanı olacaqdır. Bilirəm ki, bu axşam filarmoniyada görüş keçiriləcəkdir. Arzu edirəm ki, ölkəmizdə olduğunuz günlər xatirinizdə qalsın və xoş keçsin. Sağ olun.

İTAR-TASS informasiya agentliyinin baş direktoru VİTALİ İQNATENKO görüşdə çıxış edərək dedi:

- İlham Heydəroviç, Sizinlə söhbət etmək, görüşmək imkanına görə sağ olun. Demək istəyirəm ki, bu salon Rusiya Federasiyasının ziyalılarını birinci dəfə qəbul etmir. Unudulmaz Heydər Əliyeviç məhz bu salonda bizi bir neçə dəfə qəbul etmişdi. Biz bunların hamısını xatırlayırıq. Diqqətəlayiq haldır ki, biz bütün bunları unutmuruq. Budur, indi bizi Siz qəbul edirsiniz.

Bu gün başlanan festivalın təşkilində Rusiya XİN-i xüsusi rol oynayır. Sizə və festivalın təşkilinə kömək edənlərin hamısına dərin təşəkkürümüzü bildiririk. Bu günlər ərzində biz "dəyirmi masalar" keçirəcək, Bakı Slavyan Universitetində olacağıq. Biz çox şadıq ki, rus kitabı festivalının tarixi məhz burada başlayır.

Sonra "Drujba narodov" jurnalının baş redaktoru ALEKSANDR EBANOİDZE çıxış edərək dedi:

- Mən "Drujba narodov" jurnalına başçılıq edirəm. O, ünsiyyət və mədəni əlaqələr vasitəsidir, əvvəldən belə düşünülmüşdür və belə də fəaliyyət göstərməkdədir. Sizə deməyə şadam ki, ilk dəfə olaraq bu il biz Azərbaycan ədəbiyyatına həsr olunmuş xüsusi buraxılış nəşr etməyi qərara aldıq. Son 15 ildə Moskva nəşrlərində Azərbaycan yazıçılarının əsərləri çap edilməmişdi. Xüsusi buraxılış jurnalın üçüncü nömrəsidir, onun birinci səhifəsində Mehriban xanım Əliyevanın məktubu dərc olunmuşdur. Biz buna görə ona minnətdarıq. Xüsusi buraxılış maraqlı alındı. Bu yaz nömrəsindən sonra Azərbaycan müəlliflərinin daha iki əsəri çap olundu. İtirilmiş ədəbi əlaqələr bələcə bərpa edilir.

Federal Mətbuat və Kütləvi Kommunikasiyalar Agentliyinin rəhbəri MİXAİL SESLAVİNSKİ rus kitabı festivalının təşkilinin miqyasını və səviyyəsini yüksək qiymətləndirdi. O dedi: "Festivalın açılışının idman kompleksində olmasına yaxşı mənada qibtə etdik. Xatırladaq ki, əvvəllər şair və yazıçıları böyük stadionlar qəbul edərdi. Burada olanların bir çoxu 1970-ci illərdə Heydər Əliyevin təşkil etdiyi sovet ədəbiyyatı festivallarına gəlmişdi. Biz burada, festivalda xoş təbəssümlər, səmimi maraq və diqqət gördük. Bu, təkcə salonda deyil, şəhərdə, küçələrdə də baş verirdi. Adamlar müasir kitablarla, 1970-ci illərin kitabları ilə yazıçılara yaxınlaşır, avtoqraf xahiş edirdilər. Bütün bunlar insan qəlbinə hərarət verir.

Dünya şöhrətli yazıçı, Qırğızıstanın Lüksemburqdakı səfiri ÇİNGİZ AYTMATOV

Azərbaycan dövləti başçısının elm və mədəniyyətə yetirdiyi diqqəti yüksək qiymətləndirdi, Bakıda rus kitabı festivalının keçirilməsini buna sübutlardan biri kimi vurğuladı. O dedi: "Bizə çox xoşdur ki, Azərbaycan Prezidenti bizim üçün aktual olan məsələləri bizimlə bilavasitə müzakirə edir. Özü də iqtisadi, sosial problemlərlə, siyasətlə birlikdə".

Görkəmli yazıçı, Qazaxıstanın YUNESKO-dakı daimi nümayəndəsi OLJAS SÜLEYMENOV vurğuladı ki, yaradıcılıq təşkilatı kimi qorunub saxlanmasında məşhur siyasi xadim Heydər Əliyevin böyük rol oynadığı Azərbaycan Yazıçılar Birliyinin qorunub saxlanması faktının özü yüksək qiymətə layiqdir. Bu siyasəti Prezident İlham Əliyev də uğurla davam etdirir. O dedi: "Rus kitabına belə əhəmiyyət verilməsini ancaq alqışlamaq lazımdır".

Şair Dmitri Bıkov Rusiyanın gənc yazıçıları adından çıxış edərək, azərbaycanlı müəlliflərlə yaradıcılıq əlaqələrindən danışdı.

Mixail Seslavinski Birinci beynəlxalq rus kitabı festivalının iştirakçıları adından "Bolşaya rossiyskaya ensiklopediya"nın sanballı nəşrinin indiyədək çapdan çıxmış cildlərini, habelə sonrakı cildlərin alınması üçün sertifikatları Azərbaycan dövlətinin başçısına təqdim etdi. O həmçinin bildirdi ki, nəşrin ilk cildlərində Azərbaycan, Prezident Heydər Əliyev, paytaxt Bakı haqqında geniş məqalələr dərc olunmuşdur.

Görüşdən sonra Prezident İlham Əliyev və qonaqlar Prezident sarayı qarşısında xatirə şəkli çəkdirdilər.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN TÜRKİYƏYƏ SƏFƏRİ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkdilli dövlətlərin və toplulukların 10-cu dostluq, qardaşlıq və əməkdaşlıq qurultayında iştirak etmək üçün sentyabrın 17-də Türkiyənin Antalya şəhərinə gəlmişdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ TÜRKİYƏNİN BAŞ NAZİRİ RƏCƏB TAYYİB ƏRDOĞANIN GÖRÜŞÜ

Sentyabrın 18-də Antalyada, "Sunqatc Port Royal" mehmanxanasında Azərbaycan Prezidenti İlham Əliyevin və Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğanın görüşü olmuşdur.

Görüşdə ikitərəfli əlaqələr, enerji layihələri, beynəlxalq çərçivədə əməkdaşlıq məsələləri müzakirə edildi.

Qarşılıqlı maraq doğuran bir sıra digər məsələlərdən də söhbət gedən görüşdə Türkdilli dövlətlərin və toplulukların 10-cu dostluq, qardaşlıq və əməkdaşlıq qurultayının əhəmiyyətindən də danışıldı. Bildirildi ki, bu qurultay Azərbaycanla Türkiyə arasındakı dostluq, qardaşlıq münasibətlərinin, ümumən, türk dünyasının əlaqələrinin genişlənməsinə öz töhfəsini verəcəkdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV QAZAXISTANIN DÖVLƏT KATİBİ ORALBAY ABDIKƏRİMOVU QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 18-də Antalyada, "Sunqate Port Royal" mehmanxanasında Qazaxıstanın dövlət katibi Oralbay Abdıkərimovu qəbul etmişdir.

Görüşdə Azərbaycan və Qazaxıstanın dövlət başçılarının qarşılıqlı səfərlərinin səmərəli keçdiyi xatırladıldı, ölkələrimiz arasında əlaqələrin müxtəlif sahələrdə uğurla inkişaf etdiyi vurğulandı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ŞİMALİ KİPRİN PREZİDENTİ MEHMET ƏLİ TƏLƏT İLƏ GÖRÜŞÜ

Azərbaycan Prezidenti İlham Əliyev sentyabrın 18-də Antalyada, "Sunqate Port Royal" mehmanxanasında Şimali Kiprin Prezidenti Mehmet Əli Tələt ilə görüşmüşdür.

TÜRKDİLLİ DÖVLƏTLƏRİN VƏ TOPLULUQLARIN 10-CU DOSTLUQ, QARDAŞLIQ VƏ ƏMƏKDAŞLIQ QURULTAYI İŞƏ BAŞLAMIŞDIR

Sentyabrın 18-də Antalyada Türkdilli dövlətlərin və topluluqların 10-cu dostluq, qardaşlıq və əməkdaşlıq qurultayı işə başlamışdır.

Türkdilli Dövlətlərin və Topluluqların Dostluq, Qardaşlıq və İşbirliyi Vəqfi (TÜDEV) və Türkiyə Respublikasının Baş Nazirliyi yanında fəaliyyət göstərən Türk İşbirliyi və İnkişaf Agentliyi (TİKA) tərəfindən keçirilən qurultayda Azərbaycan Prezidenti İlham Əliyev iştirak etmişdir.

Əvvəlcə qurultay iştirakçıları türk dünyasının Əhməd Yəsəvi, Ərtuğrul Qazi, Əlişir Nəvai, Atatürk, Heydər Əliyev və digər görkəmli şəxsiyyətlərinin əziz xatirəsini birdəqiqəlik sükutla yad etdilər. Türkiyənin İstiqlal marşı ifa olundu.

TÜDEV-in sədri Əbdülxalıq Çay iştirakçıları salamlayaraq bildirdi ki, beşillik fasilədən sonra qurultay öz işinə başlayır. 1993-cü ildə ilk qurultay İstanbul şəhərində keçirilmişdir və məqsəd yeni layihələrlə gələcəyə doğru birlikdə getmək, mədəni, elmi, iqtisadi birliyə nail olmaqdır. O, ötən illərdə baş verən dəyişikliklərdən, inkişafdan, qədim tarixi olan türkdilli xalqların üzləşdiyi problemlərdən, dünyadakı rolundan, ortaq mədəniyyətə, ortaq dilə malik xalqlar arasında əlaqələrin genişləndirilməsinin əhəmiyyətindən danışdı.

Sonra Türkiyənin dövlət naziri Bəşir Atalay qurultay iştirakçıları barədə məlumat verərək bildirdi ki, ayrı-ayrı türkdilli dövlətlərdən və topluluqlardan nümayəndələr iştirak edir. Onlar əsasən Azərbaycan, Monqolustan, Tacikistan, Türkmənistan, Qazaxıstan, Özbəkistan, Qırğızıstan, Əfqanıstan, İraq, İran, Bosniya və Hersoqovina, Şimali Kipr, Krım, Abxaziya, Tıva, Qaqauziya, Altay, Çuvaşiya və Kabarda-Balkarı, eləcə də ABŞ, Fransa, Almaniya və digər ölkələrdəki diasporu təmsil edirlər. Dövlət naziri şimaldan-cənuba, şərqdən-qərbə doğru böyük coğrafi məkanda yaşayan türkdilli xalqların təmsilçilərinin qurultayının iki ildən bir ayrı-ayrı ölkələrdə keçirilməsinin faydalı olacağını vurğuladı.

Xatırladaq ki, qurultayın indiyədək daimi olaraq Türkiyə ərazisində keçirilməsi nəzərdə tutulurdu.

Sonra Türkiyə Böyük Millət Məclisinin sədri Bülənt Arınçın qurultaya təbriki oxundu.

Daha sonra ənənəvi "Dəmir döymə" mərasimi keçirildi. İlk olaraq zindan üzərinə çəkiclə zərbəni Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev vurdu.

Sonra Şimali Kipr Prezidenti Mehmet Əli Tələt, Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğan və başqaları bu missiyanı yerinə yetirdilər.

Qırğızıstanın Baş nazirinin birinci müavini Daniyar Usenov, Qazaxıstanın dövlət katibi Oralbay Abdıkərimov öz ölkələrinin dövlət başçılarının təbriklərini oxudular, türk dünyasının birliyinin bəşəriyyət üçün fayda verəcəyini vurğuladılar.

Daha sonra söz Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğana verildi. Qurultayın əhəmiyyətini vurğulayan Baş nazir dedi ki, zəngin təbii ehtiyatları, insan kapitalı, bərəkətli torpağı olan türk dünyası bəşəriyyətin gələcəyi üçün mühüm rol oynayır. Hazırda dünyanın bir çox problemlərlə üzləşdiyini, "soyuq müharibə"dən sonra yeni ictimai-siyasi vəziyyət yarandığını, ayrı-ayrı bölgələrdə münaqişələrin davam etdiyini xatırladan Rəcəb Tayyib Ərdoğan türkdilli dövlətlərin dünyada gedən proseslərdə fəal iştirakının zəruriliyini söylədi. O dedi ki, xüsusilə yerləşdiyimiz regionda baş verən hadisələrə biganə qala bilmərik. Biz ya başqalarının formalaşdırdığı siyasətə məruz qalmaqla passiv ünsürlər olacağıq, ya da bu siyasəti formalaşdıranlar arasında birlikdə yerimizi tutacağıq. Dünya siyasətinin ya obyekti, ya da subyekti olacağıq.

Baş nazir türk dünyasının birliyinin vacibliyini bir daha vurğulayaraq, xalqımızın ümummilli lideri Heydər Əliyevin "Bir millət, iki dövlət" kəlamını xatırlatdı, bu birliyin möhkəmləndirilməsi üçün XXI əsrdə yaranmış fürsət və imkanlardan səmərəli istifadə edilməsinin zəruriliyini bildirdi.

Ölkəsinin Azərbaycanla münasibətlərə xüsusi önəm verdiyini deyən Rəcəb Tayyib Ərdoğan əməkdaşlığın daha da dərinləşdirilməsi üçün Prezident İlham Əliyevlə müntəzəm görüşlərin keçirildiyini xatırlatdı və bunu örnək kimi dəyərləndirdi. Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin istifadəyə verilməsindəki xidmətlərinə görə Prezident İlham Əliyevə təşəkkür etdi, Bakı-Tbilisi-Ərzurum qaz kəmərinin çəkilişinin davam etdiyini və Qars-Axalkalaki-Bakı dəmir yolu layihəsinin tezliklə reallaşacağını söylədi.

Baş nazir türk dünyasının birliyi ilə bağlı bir sıra başqa məsələlərə də toxundu, Kipr və Dağlıq Qarabağ problemlərinin ədalətli həlli üçün birgə fəaliyyət göstərməyin vacibliyini söylədi.

Sonra çıxış edən Şimali Kiprin lideri Mehmet Əli Tələt mədəniyyətlər, dinlər, irqlərarası dialoqun əhəmiyyətindən danışdı, türk dünyası əleyhinə aparılan çirkin təbliğatın qarşısını almaq üçün birgə fəaliyyətin əhəmiyyətini vurğuladı. O, Şimali Kiprə göstərilən köməyə görə təşəkkür etdi. Azərbaycanın dəstəyini yüksək qiymətləndirərək, ilk təyyarə reysinin məhz Azərbaycan tərəfindən açıldığını xatırlatdı. O dedi ki, mən bütün bunlara görə Azərbaycana və onun rəhbərinə dərin minnətdarlığımı bildirirəm.

Azərbaycan Prezidenti İlham Əliyev qurultayda nitq söylədi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ

- Hörmətli xanımlar və cənablar,

Hörmətli qurultay iştirakçıları,

Əziz dostlar!

İlk növbədə, qurultayda iştirak etmək üçün məni Türkiyəyə dəvət etdiyinə görə əziz qardaşım, Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğana öz dərin minnətdarlığımı bildirirəm.

Qardaş Türkiyədə yenidən olmağımdan çox böyük məmnunluq hissi keçirirəm.

Qurultayın çox böyük önəmi var. Əminəm ki, qurultayın nəticələri də çox önəmli olacaqdır. Çünki qurultay zamanı son müddət ərzində görülmüş işlər, uğurlar, nailiyyətlər təhlil ediləcək və ən önəmlisi isə, qarşıda duran vəzifələr müəyyən olunacaqdır. Mən şübhə etmirəm ki, qurultay iştirakçıları müxtəlif komissiyalarda çox fəal işləyəcəklər və qurultayın nəticələri əməli-praktik əhəmiyyətə malik olacaqdır.

Bizim istəyimiz bəllidir. Bu barədə bu gün çox gözəl danışıldı. Biz istəyirik ki, türk dünyası bir olsun. Birlik daha da möhkəm olsun. Bizi birləşdirən əlaqələr çoxşaxəli olsun və bütünlükdə türk dünyası dünya üçün çox önəmli amilə çevrilsin. Bunu etmək üçün bütün əsaslar var.

Bildiyiniz kimi, Sovet İttifaqı dağılandan sonra, 1991-ci ildə bir neçə yeni türkdilli dövlət yarandı. Beləliklə, türkdilli dövlətlər anlayışı yarandı. Bu gün bu dövlətlər arasında olan işbirliyi, əlbəttə ki, hər bir ölkəni daha da gücləndirir. Xüsusilə, müstəqilliyimizin ilk illərində Türkiyənin dəstəyinə böyük ehtiyac var idi və bütün türkdilli dövlətlər bu dəstəyi hiss edirdilər. Bu gün də biz bunu hiss edirik. Buna görə Türkiyəyə, türk xalqına minnətdarıq. Ancaq, eyni zamanda, son illər ərzində, müstəqillik tariximizin keçid dövrü başa çatandan sonra bizim dövlətlər də artıq böyük imkanlara malik oldular. Bu gün türkdilli dövlətlərin fəaliyyəti, onların artan potensialı, bu ölkələrdə baş verən proseslər, əlbəttə ki, öz tərəfindən Türkiyəyə də dəstək olur.

Türkiyə-Azərbaycan münasibətləri indi ən yüksək zirvədədir, əziz dostum, qardaşım Rəcəb Tayyib Ərdoğan bu gün bu barədə danışdı. Bu münasibətləri bir neçə amil şərtləndirir - tarixi köklərimiz, etnik mənsubiyyətimiz, dilimiz, mədəniyyətimiz, milli-mənəvi dəyərlərimiz, ənənələrimiz.

Eyni zamanda, bu münasibətləri türk dünyasının iki görkəmli şəxsiyyətinin fikirləri, kəlamları müəyyənləşdirir. Böyük öndər Mustafa Kamal Atatürk demişdir: "Azərbaycanın sevinci Türkiyənin sevinci, Azərbaycanın kədəri Türkiyənin kədəridir". Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev demişdir: "Türkiyə və Azərbaycan bir millət, iki dövlətdir". Bu kəlamlar fərqli ictimai-siyasi durumda söylənmişdir. Tarix baxımından da onların arasında kifayət qədər böyük fərq var. Ancaq, bu düşüncələr, bu fikirlər keçmişdə, bu gün olduğu kimi, gələcəkdə də Türkiyə-Azərbaycan birliyini əbədi edəcək, möhkəmləndirəcəkdir. Bu kəlamlar həm dövlətlərarası münasibətlərə yol göstərir, eyni zamanda, insanlar arasında olan münasibətləri də müəyyənləşdirir. Biz bunu qurultayın adından da görürük - Türkdilli dövlətlərin və topluluqların qurultayı.

Dövlətlərarası münasibətlər, əlbəttə ki, mövcud olan praktikaya uyğun şəkildə həyata

keçirilir. Bu münasibətləri, Türkiyə-Azərbaycan münasibətlərini qardaşlıq, dostluq prinsipləri birləşdirir və indi iqtisadi, siyasi və mədəni sahələrdə bu münasibətlər ən yüksək zirvədədir. Bütün başqa sahələrdə də bu münasibətlərə güc verən, təkan verən məsələlərin də öz həllini tapması çox önəmlidir. Bu baxımdan ziyalıların bir araya gəlməsi, konfransların, qurultayların keçirilməsi, ictimai xadimlərin, millət vəkillərinin davamlı əlaqədə olması çox böyük əhəmiyyət kəsb edir. Bizim gücümüz birliyimizdədir. Bu gün Azərbaycanda baş verən proseslər, Azərbaycanın həyata keçirdiyi böyük, nəhəng layihələr, öz növbəsində, bütün türk dünyasına, onun möhkəmlənməsinə töhfəsini verir. Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum neft-qaz kəmərləri dünyada və təbii ki, bizim bölgədə vəziyyəti tam dəyişdirmişdir. Bu layihələr bölgənin uzunmüddətli inkişaf strategiyasını müəyyən edəcəkdir. Bizim həm iqtisadi, həm də siyasi mövqelərimizi möhkəmləndirəcək və artıq bunu görürük. Azərbaycan və Türkiyəni Orta Asiya ilə birləşdirən yollar, enerji dəhlizləri, Qars-Tbilisi-Bakı dəmir yolu layihəsinin həyata keçirilməsi dünyada tamamilə yeni bir vəziyyət yaradacaqdır. Biz bu vəziyyətdən çox səmərəli şəkildə istifadə etməliyik. Çünki, bu vəziyyəti biz yaradırıq. Əgər biz bunları yaratmasaydıq, bunlar olmazdı. Heç kim bizə bunu tövsiyə etməmişdir. Heç kim bizim əvəzimizə bu işləri görməmişdir. Bunu biz gördük. Vaxtilə əfsanə kimi tanınan bu layihələr xalqlarımızın səyi ilə, dövlət rəhbərlərinin cəsarəti və siyasəti sayəsində bu gün gerçəklikdir və uzun illər ərzində həm siyasi, həm iqtisadi, həm də bütün başqa sahələrdə bizim xalqlarımıza imkanlar yaradacaqdır. Ona görə türk dünyasının birləşməsi bu gün daha aktualdır və bunu etmək üçün daha da gözəl imkanlar var.

Biz bu barədə çox danışırıq. Birlikdən çox danışırıq və belə də lazımdır. Bu barədə daim danışmalıyıq və bir də deyirəm ki, bütün ictimai xadimlər, ictimaiyyət bu işdə fəal olmalıdır. Amma bu birliyi möhkəmləndirən amillər var. İqtisadi amillər, enerji amili, siyasi əlaqələr, xarici məsələlərə birgə baxışlarımız, birgə münasibətlərimiz, beynəlxalq təşkilatlarda birgə fəaliyyətimiz, əlaqələndirilmiş şəkildə aparılan siyasət, bir-birimizə dəstək - əlbəttə ki, bunlar bizi daha da möhkəmləndirir.

Dünyada qloballaşma prosesləri gedir. Ancaq, eyni zamanda, ayrı-seçkilik məsələləri də kifayət qədərdir və biz bunu görürük. Biz bu vəziyyətə özümüzü uyğunlaşdırmalıyıq. Bir-birimizə bağlı olmalıyıq, bir-birimizin əlini möhkəm tutmalıyıq ki, gücümüz daha da artsın. Bu gün türk dünyasının çox böyük potensialı var və Türkiyə başda olmaqla bütün türkdilli dövlətlər siyasi, iqtisadi cəhətdən, bütün başqa cəhətlərdən çox sürətlə inkişaf edir. Bizim bölgənin inkişafı nəticəsində dünya proseslərinə böyük təsirlər olacaqdır və biz bunu görürük. Bu baxımdan qurultayın keçirilməsi çox böyük əhəmiyyət daşıyır. Mən şübhə etmirəm ki, bu qurultayda bizi narahat edən bütün məsələlər müzakirə olunacaq və ən önəmlisi, gələcək fəaliyyətimiz üçün gözəl tövsiyələr veriləcək, dövlətlər və hökumətlər bundan bəhrələnəcəklər.

Bu gün bizim qurultayımızda çoxsaylı nümayəndələr var. Bütün türkdilli dövlətlərin nümayəndələri buradadır. Bu onu göstərir ki, müstəqillik dövründə əldə olunmuş uğurlar ölkələrimizi bir-birinə daha da bağlayır. Bu onu göstərir ki, türk dünyasının gələcək fəaliyyəti bizi düşündürür, narahat edir və biz öz fəaliyyətimizlə türk dünyasının gücünü möhkəmlətməliyik və bunu edirik. Əminəm ki, qurultay və onun nəticəsi olan birliyimizin möhkəmlənməsi həm bölgədə, həm Avropada və dünyanın başqa yerlərində çox böyük əks-səda doğuracaqdır.

Qurultaylar, konfranslar tez-tez keçirilməlidir. Eyni zamanda, hesab edirəm ki, xarici ölkələrdə, Avropa ölkələrində belə tədbirlərin keçirilməsi böyük əhəmiyyət kəsb edər. Çünki biz özümüzü tanıtmalıyıq, öz potensialımızı təqdim etməliyik. Bəzi hallarda bizim haqqımızda süni şəkildə mənfi rəy formalaşdırılır və bunun arxasında Türkiyə və Azərbaycana düşmənçilik mövqeyi tutan erməni lobbisinin fəaliyyəti dayanır. Biz bunu çox gözəl görürük və hiss edirik. Bizim əleyhimizə çox böyük, mütəşəkkil, böyük maliyyə dəstəyinə malik olan və bəzi riyakar siyasətçilər tərəfindən dəstəklənən erməni lobbisi fəaliyyət göstərir. Biz onların təbliğatını ifşa etməliyik, darmadağın etməliyik, ancaq müdafiə naminə yox. Biz hücum etməliyik, çünki, həqiqət bizim tərəfimizdədir. Baxın, Türkiyə dövlətinə ərazi iddiasında olan, Türkiyənin sərhədlərini tanımayan, Türkiyə hökumətinin arxivlərin açılmasına dair təkliflərini rədd edən Ermənistan bütün dünyada Türkiyəyə qarşı təbliğat aparır və dırnaqarası soyqırımını tanıtdırmaq istəyir. Ərazi baxımından tarixi Azərbaycan torpağında yerləşən, vaxtilə İrəvan xanlığının ərazisində və onun ətrafında yerləşən Azərbaycan torpaqlarında yaradılmış Ermənistan dövləti indi Azərbaycana qarşı ərazi iddiasındadır və təcavüz yolu ilə torpaqlarımızı ələ keçirmək istəyir. Torpaqlarımızın 20 faizi işğal altındadır, etnik təmizləmə siyasəti aparılmışdır və bu siyasət nəticəsində 1 milyondan çox azərbaycanlı öz doğma torpaqlarından didərgin düşmüşdür. Ancaq, buna baxmayaraq, erməni təbliğatı daim bizi hədəfdə saxlayır. Biz hücuma keçməliyik, onların yalan, iftira üzərində qurulmuş təbliğatını darmadağın etməliyik və bütün səyləri birləşdirib, həqiqəti bərpa etməliyik. Azərbaycan heç vaxt öz torpağında ikinci erməni dövlətinin yaranmasına icazə verməyəcəkdir. Azərbaycan bütün imkanlarını səfərbər edib, diplomatik, siyasi, iqtisadi, hərbi - bütün imkanlardan istifadə edib, öz doğma torpaqlarını azad edəcəkdir.

Bir daha demək istəyirəm ki, xaricdə bizim fəaliyyətimiz daha da yüksək səviyyədə qurulmalıdır. Bu baxımdan diaspor təşkilatlarının fəaliyyətinə böyük önəm verilməlidir. Diaspor təşkilatlarımız xaricdə çox sıx əməkdaşlıq edir. Türkiyə və Azərbaycan diasporlarının müxtəlif ölkələrdə birgə layihələri, birgə tədbirləri çox uğurludur və əminəm ki, bu, gələcəkdə bizim imkanlarımızı daha da artıracaqdır. Hesab edirəm ki, biz gələn il Türkiyə və Azərbaycan diaspor təşkilatları rəhbərlərinin forumunun keçirilməsi məsələsinə də baxmalıyıq. Mən təklif edirəm ki, gələn ilin birinci yarısında Azərbaycanda birinci forumu keçirək, Türkiyə və Azərbaycan diasporlarının birgə fəaliyyətini bir daha təhlil edib, onları istiqamətləndirək.

Bir sözlə, gələcəkdə çox işlər var. Biz türk dünyasını daha da mütəşəkkil şəkildə birləşdirməliyik və türk dünyasında gedən proseslərə biganə qalmamalıyıq. Daim bir-birimizə dəstək olmalıyıq, bir-birimizin problemlərinin həllində iştirak etməliyik. Əminəm ki, birgə səylər nəticəsində türk dünyası dünyada çox böyük imkanlara, çox güclü siyasi mövqeyə malik olacaq və beləliklə, bizim işlərimiz daha da uğurla həyata keçiriləcəkdir. Biz bunu istəyirik. Bugünkü qurultay bu işdə çox böyük önəmi olan addımdır. Mən qurultayın bütün iştirakçılarına uğurlar diləyirəm. Qurultayın keçirilməsində fəaliyyət göstərmiş TÜDEV və TİKA təşkilatlarının rəhbərlərinə öz minnətdarlığımı bildirirəm və bütün türk dünyasına uğurlar, uğurlar və qələbə arzulayıram.

[redacted]

Sonra TÜDEV və TİKA adından Prezident İlham Əliyevə, Şimali Kiprin rəhbəri Mehmet Əli Tələtə, Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğana və başqalarına xatirə hə-

diyyələri təqdim olundu. Qurultay iştirakçıları birgə xatirə şəkli çəkdirdilər.

Fasilədən sonra qurultay öz işini davam etdirdi.

Monqolustan, Tacikistan, Türkmənistan, Krım, Başqırdıstan, Moldova, Tatarıstan, Çuvaşiya, Qaqauziya, Altay, Dağıstan, Makedoniya, Bolqarıstan, Yunanıstan, Kosova, Rumıniya, Əfqanıstan, İraq, İran və digər ölkələrdən gəlmiş nümayəndələr çıxış etdilər. Gələcəkdə qurultayın iki ildən bir və müxtəlif ölkələrdə keçirilməsinin zəruriliyi vurğulandı.

QURULTAY İŞTİRAKÇILARININ ŞƏRƏFİNƏ

Sentyabrın 18-də Antalyada Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğanın adından qurultayda iştirak edən nümayəndə heyətləri başçılarının şərəfinə nahar verilmişdir.

Azərbaycan Prezidenti İlham Əliyev naharda iştirak edirdi.

II BEYNƏLXALQ AVRASİYA KİNOFESTİVALININ TƏNTƏNƏLİ AÇILIŞ MƏRASİMİ

Sentyabrın 18-də Antalyada II Beynəlxalq Avrasiya kinofestivalının təntənəli açılış mərasimi olmuşdur.

Azərbaycan Prezidenti İlham Əliyev mərasimdə iştirak etmişdir.

Mərasimə toplaşanlar dövlətimizin başçısını və xanımını hərarətlə qarşıladılar.

Kinofestivalı Türkiyənin tanınmış kinoaktyoru Korkan Abay açaraq, bu kinofestivalın 43-cü Avrasiya Qızıl Portağal kinofestivalının tərkib hissəsi kimi, iki il bundan əvvəl təşkil edildiyini bildirdi. Sentyabrın 23-dək davam edəcək festivalda 100-dən artıq ölkənin filmləri nümayiş etdiriləcəkdir. Festival iştirakçıları arasında tanınmış kinoşünaslar, aktyorlar, mədəniyyət və incəsənət xadimləri vardır. Azərbaycanı bu festivalda kinorejissor Şamil Nəcəfzadə, aktyorlar Sənubər İsgəndərli və Çimnaz Atakişiyeva təmsil edirlər.

Sonra Antalya Böyük Şəhər Bələdiyyəsinin başçısı Menderes Türel çıxış edərək, Azərbaycan Prezidenti İlham Əliyevi, Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğanı, Antalyada keçirilən Türkdilli dövlətlərin və topluluqların 10-cu dostluq, qardaşlıq və əməkdaşlıq qurultayının digər iştirakçılarını, sənət adamlarını salamladı. O, belə tədbirlərin mədəniyyət, incəsənət sahəsində əlaqələrin daha da genişlənməsi baxımından səmərəli olduğunu söylədi.

Sonra Azərbaycan Prezidenti İlham Əliyevə xatirə olaraq, festivalın xüsusi hədiyyəsi təqdim olundu.

Dövlətimizin başçısı hədiyyəyə görə təşəkkür etdi.

Daha sonra Şimali Kiprin Prezidenti Mehmet Əli Tələtə, habelə Orta Asiya dövlətlərinin prezidentlərinə təqdim edilmək üçün həmin ölkələrdən gəlmiş nümayəndə heyətlərinin başçılarına, eləcə də sənət adamlarına, festivalın təşkilində əməyi olanlara xatirə hədiyyələri təqdim olundu.

Baş nazir Rəcəb Tayyib Ərdoğan və digər çıxış edənlər festivalın əhəmiyyətindən, kino

sənətinin inkişafından, ölkələrarası münasibətlərdə mədəniyyətin rolundan danışdılar və festivalın işinə uğurlar arzuladılar.

Sonra incəsənət ustalarının çıxışı oldu. Azərbaycanın xalq artisti Zeynəb Xanlarovanın ifası tamaşaçılar tərəfindən hərarətli alqışlarla qarşılandı.

Daha sonra Azərbaycan Prezidenti İlham Əliyev, Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğan, nümayəndə heyətlərinin üzvləri, Antalya Dövlət Opera və Balet Teatrı orkestrinin ifasında "İpək yolu" əsərini dinlədilər.

XARİCİ İŞLƏR NAZİRLİYİNDƏ BEYNƏLXALQ QIZIL XAÇ KOMİTƏSİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ OLMUŞDUR

Sentyabrın 18-də Xarici İşlər naziri Elmar Məmmədyarov Beynəlxalq Qızıl Xaç Komitəsinin (BQXK) Azərbaycandakı nümayəndəliyinin keçmiş rəhbəri Meri Vernts və yeni təyin olunmuş nümayəndəsi Martin Amaşer ilə görüşmüşdür.

Meri Vernts ölkəmizdə fəaliyyət göstərdiyi dövrdə bir sıra müsbət dəyişikliklərin olduğunu bildirmiş və bu inkişafın artan templə, məqsədyönlü şəkildə getdiyini demişdir. Keçmiş sovet ölkələri arasında Azərbaycanın fərqli inkişaf etdiyini vurğulayan xanım M.Vernts, baş verən dəyişikliklərin sürətinin müsbət təsir bağışladığını diqqətə çatdırmışdır.

Nazir Elmar Məmmədyarov keçid dövrünün problemlərinin aradan qaldırılmasının, korrupsiya ilə mübarizənin və təhsil sisteminin gücləndirilməsinin vacibliyini vurğulamış, məcburi köçkünlərin müvəqqəti məskunlaşdığı düşərgələrin tezliklə ləğv edilməsinin hökumət qarşısında duran vacib vəzifələrdən biri olduğunu bildirmişdir.

Azərbaycanın regionda lider dövlət kimi öz mövqeyini möhkəmlətməkdə və daim inkişaf etməkdə maraqlı olduğunu vurğulayan nazir, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində aparılan sülh danışıqlarına toxunmuş, münaqişənin nizamlanmasının əsas prinsipləri haqqında məlumat vermişdir. Beynəlxalq ictimaiyyətin bu münaqişəyə diqqətini artırmasının zəruriliyini qeyd edən E.Məmmədyarov, Avropa məkanına inteqrasiya edən regionda Ermənistanın işğalçı siyasətinin beynəlxalq hüquqa uyğun olmadığını qeyd etmişdir.

Xanım M.Vernts BQXK-nın Azərbaycanda fəaliyyətə başladığı dövrdən bəri bir sıra irəliləyişlərin olduğunu, qurumun Bərdədə yeni ofisinin açıldığını bildirmiş, görülən işlər, o cümlədən itkin düşmüş şəxslərlə əlaqədar tədbirlər barədə məlumat vermişdir. O, itkin düşmüş insanlarla bağlı Avropa İttifaqının təşəbbüsü əsasında işçi qruplarının yaradıldığını, bu məsələnin komitənin fəaliyyətində əsas yerlərdən birini tutduğunu demişdir.

M.Vernts fəaliyyəti dövründə Xarici İşlər Nazirliyinin dəstəyinə görə təşəkkürünü bildirmiş, yeni nümayəndə M.Amaşeri təqdim etmişdir.

E.Məmmədyarov M.Verntsə gələcək fəaliyyətində uğurlar arzulamış, yeni nümayəndə ilə də əməkdaşlığın davam etdiriləcəyini bildirmişdir.

SƏFƏR BAŞA ÇATDI

Türkdilli dövlətlərin və topluluqların 10-cu dostluq, qardaşlıq və əməkdaşlıq qurultayında iştirak etmək üçün Türkiyədə səfərdə olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 19-da Vətənə qayıtmışdır.

AZƏRBAYCAN RESPUBLİKASI BAŞ NAZİRİNİN BİRİNCİ MÜAVİNİ Y.EYYUBOVUN MÜSTƏQİL DÖVLƏTLƏR BİRLİYİNİN İQTİSADİ ŞURASININ ÜZVÜ TƏYİN EDİLMƏSİ HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

1. Azərbaycan Respublikası Baş nazirinin birinci müavini Yaqub Abdulla oğlu Eyyubov Azərbaycan Respublikasından Müstəqil Dövlətlər Birliyinin İqtisadi Şurasının üzvü təyin edilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, Azərbaycan Respublikası Baş nazirinin birinci müavini Yaqub Abdulla oğlu Eyyubovun Azərbaycan Respublikasından Müstəqil Dövlətlər Birliyinin İqtisadi Şurasının üzvü təyin edilməsi barədə MDB-nin İcraiyyə Komitəsinə müvafiq bildiriş göndərsin.

3. "Azərbaycan Respublikası Baş nazirinin birinci müavini A.Abbasovun Müstəqil Dövlətlər Birliyinin İqtisadi Şurasının üzvü təyin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 2 mart tarixli 288 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000-ci il, № 3, maddə 155) qüvvədən düşmüş hesab edilsin.

4. Bu Fərman imzalandığı gündən qüvvəyə minir.

İlham Əliyev

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 20 sentyabr 2006-cı il

AZƏRBAYCAN RESPUBLİKASI VƏ İTALİYA RESPUBLİKASI ARASINDA İQTİSADİ ƏMƏKDAŞLIQ ÜZRƏ HÖKUMƏTLƏRARASI KOMİSSİYANIN AZƏRBAYCAN RESPUBLİKASI TƏRƏFİNDƏN TƏRKİBİ HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası və İtaliya Respublikası arasında əlaqələrin daha da genişlənməsini təmin etmək məqsədi ilə qərara alıram:

1. Azərbaycan Respublikası və İtaliya Respublikası arasında iqtisadi əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın Azərbaycan Respublikası tərəfindən aşağıdakı tərkibi təsdiq edilsin:

Komissiyanın həmsədri:

Heydər Babayev - Azərbaycan Respublikasının iqtisadi inkişaf naziri

Komissiyanın üzvləri:

Xələf Xələfov - Azərbaycan Respublikasının xarici işlər nazirinin müavini

Emil Kərimov - Azərbaycan Respublikasının İtaliya Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri

İlqar Fəti-zadə - Azərbaycan Respublikasının maliyyə nazirinin birinci müavini

Gülməmməd Cavadov - Azərbaycan Respublikasının sənaye və energetika nazirinin müavini

Musa Pənahov - Azərbaycan Respublikasının nəqliyyat nazirinin müavini

Natiq Məmmədov - Azərbaycan Respublikasının əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini

İlham Quliyev - Azərbaycan Respublikasının kənd təsərrüfatı nazirinin müavini

Sevda Məmmədəliyeva - Azərbaycan Respublikasının mədəniyyət və turizm nazirinin müavini

Elmar Qasımov - Azərbaycan Respublikasının təhsil nazirinin müavini

Sənan Kərimov - Azərbaycan Respublikasının səhiyyə nazirinin müavini

Elşad Nəsirov - Azərbaycan Respublikasının Dövlət Neft Şirkətinin vitse-prezidenti

2. Bu Sərəncamın 1-ci bəndində göstərilən Komissiyanın Azərbaycan Respublikası tərəfindən tərkibinə tapşırılsın ki, Azərbaycan Respublikası və İtaliya Respublikası arasında iqtisadi əməkdaşlıq əlaqələrinin tənzimlənməsi və onların daha da genişlənməsi istiqamətində müvafiq tədbirləri həyata keçirsin.

3. Bu Sərəncam dərc edildiyi gündən qüvvəyə minir.

İlham Əliyev

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 20 sentyabr 2006-cı il

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ABŞ SİLAHLI QÜVVƏLƏRİNİN AVROPA KOMANDANININ MÜAVİNİ, GENERAL UİLLİAM VORDU QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 20-də Prezident sarayında ABŞ Silahlı Qüvvələrinin Avropa komandanının müavini, general Uilliam Vordu qəbul etmişdir.

Dövlətimizin başçısı Azərbaycanla ABŞ arasında əlaqələrin müxtəlif sahələrdə uğurla inkişaf etdiyini vurğulayaraq, bu əlaqələrin gələcəkdə də inkişaf edəcəyinə əminliyini ifadə etdi.

General Uilliam Vord ölkəmizə ilk səfərindən məmnun olduğunu bildirdi. Prezident İlham Əliyevin ABŞ-a səfərinin müvəffəqiyyətlə həyata keçdiyini qeyd edən ABŞ Silahlı Qüvvələrinin Avropa komandanının müavini ölkələrimiz arasında əməkdaşlığın uğurla inkişaf etdiyini vurğuladı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ABŞ DÖVLƏT KATİBİNİN RABİTƏ VƏ İNFORMASİYA MƏSƏLƏLƏRİ ÜZRƏ MÜŞAVİRİ DEVİD QROSSU QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 21-də Prezident sarayında ABŞ dövlət katibinin rabitə və informasiya məsələləri üzrə müşaviri Devid Qrossu qəbul etmişdir.

Dövlətimizin başçısı Azərbaycan-ABŞ ikitərəfli münasibətlərinin uğurla inkişaf etdiyini vurğuladı. İki ölkənin müxtəlif sahələr üzrə nümayəndə heyətlərinin qarşılıqlı səfərlərinin bu münasibətlərin daha da genişləndirilməsi işinə xidmət etdiyini bildirən Prezident İlham Əliyev cənab Devid Qrossun ölkəmizə səfərinin rabitə və informasiya sahəsində də əlaqələrin genişləndirilməsi baxımından əhəmiyyətini qeyd etdi.

Devid Qross Azərbaycana səfərindən məmnun olduğunu bildirdi və ölkələrimiz arasında rabitə və informasiya sahəsində uğurlu əməkdaşlığın həyata keçirildiyini vurğuladı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ALMANİYAYA SƏFƏRİ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Beynəlxalq Bertelsmann-2006 forumunda iştirak etmək üçün sentyabrın 22-də Almaniyanın paytaxtı Berlinə gəlmişdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ABŞ-IN KEÇMİŞ DÖVLƏT KATİBİ HENRİ KİSSİNCER İLƏ GÖRÜŞÜ

Sentyabrın 22-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Berlində ABŞ-ın keçmiş dövlət katibi Henri Kissincer ilə görüşmüşdür.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN GÜRCÜSTAN PARLAMENTİNİN SƏDRİ NİNO BURCANADZE İLƏ GÖRÜŞÜ

Sentyabrın 22-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Berlində, onun üçün ayrılmış iqamətgahda - "Adlon" mehmanxanasında Gürcüstan parlamentinin sədri Nino Burcanadze ilə görüşmüşdür.

Görüşdə ölkələrimiz arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə uğurla inkişaf etdiyi vurğulandı, qlobal layihələrin, o cümlədən Bakı-Tbilisi-Ceyhan neft, Bakı-Tbilisi-Ərzurum qaz, Qars-Axalkalaki-Bakı dəmir yolu layihələrinin həyata keçirilməsinin regionda əməkdaşlığa və bölgədə sabitliyə xidmət etdiyi bildirildi.

Xanım Burcanadze Gürcüstan Prezidenti Mixail Saakaşvilinin səmimi salamlarını, hörmət və ehtiramını dövlətimizin başçısına çatdırdı, enerji böhranı ilə əlaqədar çətin vəziyyətə düşdüyü zaman Gürcüstana göstərdiyi köməyə görə Azərbaycan Prezidentinə və hökumətinə dərin minnətdarlığını bildirdi. O, Azərbaycanda bütün sahələrdə olan böyük inkişafın Gürcüstanda məmnunluqla qarşılandığını söylədi.

Prezident İlham Əliyev onun da səmimi salamlarını Prezident Saakaşviliyə çatdırmağı xanım Burcanadzedən xahiş etdi.

Görüşdə GUAM təşkilatı çərçivəsində əməkdaşlığın, eləcə də ölkələrimizin parlamentləri arasında əlaqələrin möhkəmlənməsi və genişlənməsinin əhəmiyyətli olduğu bildirildi.

BERLİNDƏ BEYNƏLXALQ BERTELSMANN-2006 FORUMU İŞƏ BAŞLAMIŞDIR

Sentyabrın 22-də Almaniyanın paytaxtı Berlində Beynəlxalq Bertelsmann-2006 forumu işə başlamışdır.

Azərbaycan Prezidenti İlham Əliyev forumda iştirak etmək üçün Almaniya Xarici İşlər Nazirliyinin binasına gəldi.

Forumu Karl Bertelsmann Fondunun icraiyyə komitəsinin üzvü Verner Veidenfeld açaraq iştirakçıları salamladı və gündəlik barədə məlumat verdi. Bildirildi ki, forum hər iki ildən bir Karl Bertelsmann Fondu tərəfindən təşkil edilir. Forumun məqsədi Avropanın ali siyasi, iqtisadi, mədəni və mətbuat dairələri arasında qitənin gələcəyinə dair dialoqun keçirilməsidir. İndiki forumda isə genişlənmiş Avropanın siyasi-iqtisadi perspektivləri müzakirə ediləcəkdir. Almaniyanın Avropa İttifaqına sədrliyi ərəfəsində belə bir forumun təşkili ümumavropa təşəbbüslərinin həyata keçirilməsinə mühüm təkan olacaqdır. Forumda 20-dək ölkənin dövlət və hökumət başçıları, parlament sədrləri və xarici işlər nazirləri iştirak edir.

Sonra Almaniyanın federal kansleri Angela Merkel, Fransanın Baş naziri Dominik de Vilpen, Belçikanın Baş naziri Gi Verhofştadt, Macarıstanın Baş naziri Ferents Dyurçan və Avropa Komissiyasının sədri Joze Manuel Barrozu çıxış etdilər.

Fasilədən sonra forumun "Balkanlar və Qara dəniz bölgəsi Avropa üçün lakmus kağızı kimi" mövzusunda birinci iclası keçirildi.

Almaniyanın ZDF televiziyasının Berlin ofisinin direktoru PİTER FREY iclası açaraq dedi:

- Hesab edirəm ki, bu gün çox səmərəli müzakirələr keçiriləcəkdir. Bugünkü müzakirələrdə üç ölkə rəhbərinin iştirak etməsindən şərəf duyuruq. Burada Qara dəniz regionunun gələcəyi ilə bağlı məsələlər müzakirə olunacaqdır. Qara dəniz regionunun təhlükəsizliyi və sabitliyi Avropanın təhlükəsizliyi üçün böyük əhəmiyyət kəsb edir. Avropa bu region üçün nə edə bilər, Balkanların təcrübəsi Qara dəniz regionu üçün faydalı ola bilərmi? Burada istifadə edə biləcəyimiz siyasi vasitələr mövcuddurmu?

Rumıniya Prezidenti TRAYAN BESESKU Qara dəniz və Balkan regionunda baş verən proseslər və ölkəsinin bu proseslərdə rolundan, həmin bölgədə mövcud olan problemlərin həllində Rumıniyanın mövqeyindən söhbət açdı. O, Kosovo məsələsinə toxundu və bütövlükdə keçmiş Sovetlər Birliyinə daxil olmuş ölkələrdəki münaqişələr barədə mövqeyini bildirdi:

- Kosovonun müstəqilliyini elan etməsi Serbiyada millətçiləri qızışdıra bilər. Bu cür hadisənin baş verməsi nəticədə Dağlıq Qarabağ, Dnestryanı, Abxaziya və Cənubi Osetiya

üçün təhlükəli presedent yarada bilər. Qara dəniz, Xəzər dənizi regionları Avropa üçün alternativ enerji təminatçısı ola bilər. Bu, Avropanın təkcə "Qazprom"dan asılı olmasının aradan qaldırılmasına imkan yarada bilər.

PİTER FREY: İndi isə söz Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə verilir.

Sizin həmkarınız Rumıniya Prezidenti Besesku deyir ki, Avropanın Qara dəniz regionu ilə bağlı siyasəti mövcud deyildir. Bununla razılaşırsınızmı? Keçirilən ilk müzakirələrdə Almaniya kansleri Angela Merkel genişləndirmənin dayandırılması ilə bağlı sərt mövqeyini, Fransanın Baş naziri Dominik de Vilpen enerji məsələləri ilə bağlı xüsusi mövqeyini bildirdilər. Bu mövqelərdən hansı ilə razılaşırsınız?

İLHAM ƏLİYEV: Günün ilk yarısında keçirilmiş bütün çıxışlar maraqlı oldu və genişlənmə, enerji, təhlükəsizlik, müdafiə məsələləri ilə bağlı Avropanın qəti siyasətinin müəyyənləşdirilməsi üçün çox əməli xarakter daşıyırdı. Almaniya və Fransanın Baş nazirləri tərəfindən deyilənlər bir-birinə zidd deyildi. Bunlar, sadəcə, Avropanın ehtiyacları və tərəfdaşlarının yeni formada anlaşılması fonunda deyilmiş sözlərdir. Rumıniya və Bolqarıstan Avropa İttifaqının tam hüquqlu üzvlərinə çevrildikdən sonra İttifaqın sərhədləri bizim Xəzər regionuna daha da yaxınlaşacaqdır. Eyni zamanda, sizin də bildiyiniz kimi, biz Avropa İttifaqının "Yeni qonşuluq siyasəti"nin həyata keçirilməsinin başlanmasını gözləyirik. Ehtimal ki, bu iki aspekt yeni vəziyyət yaradacaq və hamımız bunu həll etməliyik. Avropa İttifaqı qonşularına, qonşular isə Avropa İttifaqına münasibətdə siyasətlərini müəyyən etməlidirlər.

PİTER FREY: Avropa Sizin regionun təhlükəsizliyinə necə töhfə, verə bilər?

İLHAM ƏLİYEV: Hesab edirəm ki, töhfə, ilk növbədə, regionda mövcud olan münaqişələrin həllinə kömək etmək formasında ola bilər. Biz Avropanın qonşularıyıq və bizim ölkələrdə separatçı hərəkatlar mövcuddur. Söhbət Dağlıq Qarabağ, Abxaziya, Dnestryanı və Cənubi Osetiyada mövcud olan separatçı hərəkatlardan gedir. Bütün bu hərəkatların mənşəyi birdir. Onların nəticələri də eynidir: bu separatçı hərəkatlar suveren dövlətlərin ərazilərinin işğal olunmasına gətirib çıxarmışdır. Avropa bizə ərazi bütövlüyünün və beynəlxalq hüquq normaları və prinsiplərinin bərpasına kömək etməklə münqişələrin həllində əməli rol oynaya bilər. Azərbaycan ərazilərinin 20 faizini işğal etmiş Ermənistan indi özünü çox rahat hiss edir. Belə ki, ona qarşı Avropa tərəfindən heç bir ciddi siyasi təzyiq edilmir. Buna görə də münaqişələrin qiymətləndirilməsi ilə bağlı açıq siyasi mesajlar verilməli, münaqişələrin həlli üçün tərəfdaşlara kömək edilməli və regionda sülh bərpa olunmalıdır.

PİTER FREY: Bu məsələ Balkanlarda olan vəziyyətlə müqayisə oluna bilər. Bu region ilə bağlı Avropa İttifaqı son 10-15 il ərzində öz siyasətini həyata keçirmişdir. Sizin fikrinizcə, Avropanın keçmiş Yuqoslaviyada tətbiq etdiyi vasitələr sizin regionunuz üçün də faydalı ola bilərmi?

İLHAM ƏLİYEV: Bunu demək çox çətindir. Hər bir regionun özünün spesifik xüsusiyyətləri var. Keçmiş Yuqoslaviya təcrübəsini Cənubi Qafqazda tətbiq etmək çox çətindir. Çünki bunlar fərqli regionlardır. Əsas odur ki, burada açıq siyasət olsun. Bizim region Avropa üçün həqiqətən də mühüm regiona çevrilir. Rumıniya Prezidenti Besesku

enerji təchizatının çoxşaxəliliyi və enerji təhlükəsizliyi barədə danışdı. Xəzər dənizinin enerji ehtiyatları haqqında danışanda bilməliyik ki, Azərbaycanın enerji ehtiyatlarından söhbət gedir. Azərbaycanın nefti və qazı Azərbaycan tərəfindən inşa edilmiş boru kəmərləri vasitəsilə Avropaya nəql olunacaqdır. Sonra Xəzər hövzəsində olan digər dövlətlər bu kəmərlərə qoşula bilər və əgər bu baş verərsə, tamamilə yeni vəziyyət yaranacaqdır. Beləliklə, Xəzər regionu, Azərbaycan və Cənubi Qafqazın təhlükəsizliyi, enerji ehtiyatlarının nəqli və onun şaxələndirilməsi məsələlərində əhəmiyyəti artmaqdadır. Buna görə də regiona olan diqqət daha da artmalıdır.

Azərbaycanın öz maraqları var. Bu gün Fransanın Baş naziri bildirdi ki, avropalıların maraqları onlar üçün ilkin əhəmiyyət daşıyır. Mən bu fikri dəstəkləyirəm. Avropalılar üçün bu, düzgün yanaşmadır. Bununla yanaşı, Azərbaycan üçün də onun maraqları ilkin əhəmiyyət daşıyır. Ermənistan tərəfindən pozulmuş ərazi bütövlüyünü bərpa etmək Azərbaycanın marağındadır. Avropanın da region ilə bağlı öz maraqları var. Bu maraq da enerji mənbələrinin şaxələndirilməsi və regionun təhlükəsizliyinin təmin edilməsi ilə bağlıdır. Gəlin, bunların hamısını birləşdirək. Bu halda, əməkdaşlığımız hər iki tərəfə fayda gətirəcəkdir.

PİTER FREY: Prezident Əliyev, Sizə təşəkkür edirəm.

[redacted]

Bütün çıxışlarda münaqişələrin dövlətlərin ərazi bütövlüyü çərçivəsində həllinin əsas şərt olduğu birmənalı şəkildə vurğulandı. Bu məntiq qarşısında aciz qalan Ermənistanın xarici işlər naziri Vardan Oskanyanın saxta, yalan və böhtan dolu uzun uydurmaları salonda gülüş doğurdu və tədbirin aparıcısı Ermənistanın xarici siyasət idarəsinin rəhbərinin çıxışını yarımçıq kəsməli oldu.

Çernoqoriyanın Baş naziri MİLO CUKANOVİÇ keçmiş Yuqoslaviyaya daxil olmuş ölkələrdəki milli-etnik qarşıdurmaların həlli təcrübəsindən danışdı, münaqişələrin həll edilməməsinin ölkələrin inkişafına ciddi maneə törətdiyini vurğuladı, ərazi iddiaları ilə bağlı problemlərin sülh yolu ilə həllinin ən optimal yol olduğunu söylədi.

Bolqarıstan Prezidenti GEORGİ PIRVANOV isə, əsasən, Qara dəniz regionunda təhlükəsizlik məsələləri ilə bağlı sualları cavablandırdı.

PİTER FREY: Prezident Əliyev, Sizinlə "Yeni qonşuluq siyasəti" barədə danışmaq istərdim. Sizin fikrinizcə, bu siyasətin zəruri elementləri hansılar olmalıdır?

İLHAM ƏLİYEV: Hesab edirəm ki, Avropa İttifaqının bütün tərəfdaşları və Avropaya inteqrasiya prosesinə cəlb olunmuş bütün dövlətlər üçün müəyyən mərhələdə, mümkün qədər tez bir vaxtda, Avropa İttifaqından onun gələcək strategiyası barədə açıq mesaj almaları olduqca vacibdir. Bu gün biz Avropa İttifaqının genişlənməsi prosesinin dayandırılması barədə fikirlər eşitdik. Buna işarə olan başqa fikirlər də söylənildi. Gələcək strategiyamızı müəyyən etmək üçün burada açıq anlaşma olmalıdır. Azərbaycan kimi ölkələr çoxşaxəli xarici siyasət həyata keçirir. Biz, eyni zamanda, qısa və uzunmüddətli xarici siyasətimizi müəyyənləşdiririk. Ona görə də bizim üçün Avropa İttifaqı ilə münasibətlərdə hazırda hansı mərhələdə olduğumuzu, perspektivlərimizi və bu münasibətlərin gələcəyini bilmək çox vacibdir. Əgər bu münasibətlər yalnız "Yeni qonşuluq siyasəti" üzərində qurulacaqsa, bunu indidən bilməli və siyasətimizi buna uyğun müəyyənləş-

dirməliyik. Əgər Avropa İttifaqına üzvlük üçün imkan varsa, bu, tamamilə fərqli vəziyyət yaradır. Bu baxımdan potensial qonşular və ya üzvlər olaraq gələcək münasibətlərimizin perspektivlərini bilməliyik ki, əlaqələrimizi proqnozlaşdıra bilək, möhkəm əsaslar üzərində quraq və bundan qarşılıqlı surətdə faydalanaq.

[redacted]

Rumıniya Prezidenti Trayan Besesku münaqişələrin həllində beynəlxalq təcrübənin tətbiqi mümkünlüyü ilə bağlı sualı cavablandırarkən Vardan Oskanyanın millətlərin öz müqəddəratını təyin etməsi barədə beynəlxalq hüquq normalarının müddəalarını təhrif olunmuş şəkildə izah etmək cəhdi də çox uğursuz alındı. TRAYAN BESESKU buna cavab olaraq həmin məsələyə bir daha qayıtdı:

- Avropadakı səlahiyyətlərin həvalə edilməsi prinsipi, ehtimal ki, sizin danışdığınız icmalarda istifadə olunmur. Bütün Avropaya nəzər salsanız görərsiniz ki, azlıqlar müxtəlif ölkələrin daxilində muxtariyyətə malik olur, lakin beynəlxalq hüquq normaları və Avropa standartları imkan vermir ki, hər hansı bir ərazidə yığcam şəkildə yaşayan azlıq öz dövlətini yaratsın. Müxtəlif yerlərdə yaşayan azlıqlara müstəqil respublika yaratmaq imkanı verilsəydi, Avropanın indiki halını təsəvvür etmək çətin olardı. Mən hesab edirəm ki, əgər biz səlahiyyətlərin həvalə edilməsi prinsipini anlamasaq, yəni milli azlıqlara özünüidarə hüququnun verilməsini başa düşməsək, onda biz bütün Avropa üçün ümumi problem yaratmış olacağıq.

İLHAM ƏLİYEV: Ermənistan istisna olmaqla, Avropanın hər bir ölkəsində azlıqlar yaşayır. Ermənistan azlıqların yaşamadığı yeganə monoetnik ölkədir. Bunun səbəbini onların özlərindən soruşmaq yaxşı olardı. Milli azlıq olmaq yaşadığın ərazini dövlətdən ayırmaq, başqa bir dövlətin ərazi bütövlüyünü pozmaq hüququna malik olmaq demək deyildir. Dağlıq Qarabağ, Abxaziya, Cənubi Osetiya və Dnestryanıda təcavüzkar separatizm həyata keçirilmişdir. Bu gün tanınmamış, qanunsuz Dağlıq Qarabağ kimi qondarma qurumlar hamımız üçün böyük təhlükə yaradır. Bu ərazilər hər cür nəzarətdən kənarda qalıb, burada heç bir beynəlxalq hüquq norması işləmir. Bu ərazilərdə bütün növ qanunsuz hərəkətlər həyata keçirilir. Buna görə də tanınmamış bu qondarma qurumlar Avropa üçün ən böyük təhlükədir. Onlar özlərini "dövlət" adlandırırlar. Ermənistanda Dağlıq Qarabağın "müstəqilliyi" qeyd edilərkən iki erməni dövlətinin mövcudluğu barədə danışılırdı. Bu, yalnız başlanğıcdır. Təsəvvür edin ki, bu prinsip təsbit edilərsə, nələr baş verə bilər! Dünyada nə qədər erməni dövləti yaranacaq və bu bizi haraya gətirib çıxaracaq?

[redacted]

Növbəti sual Avropanın genişləndirilməsi mövzusuna həsr olundu. Bolqarıstan Prezidenti Georgi Pırvanov öz ölkəsinin bu məsələyə münasibətini açıqladı. Suala Azərbaycan Prezidenti İlham Əliyev də cavab verdi.

İLHAM ƏLİYEV: Azərbaycana gəlincə, deməliyəm ki, biz hələ Avropa İttifaqına üzvlük məsələsini müzakirə etmirik. Ölkəmiz "Yeni qonşuluq siyasəti"nin həyata keçirilməyə başlanılması mərhələsindədir. Bu, 5 il müddət üçün nəzərdə tutulmuşdur. Qonşuluq siyasətinin həyata keçirilməsi bizə cəmiyyətimizin bütün sahələrini təkmilləşdirməyə, siyasi islahatları, demokratikləşmə prosesini davam etdirməyə, vətəndaş cəmiy-

yəti qurmağa, bütün azadlıqları təmin etməyə kömək edəcəkdir. Bununla Azərbaycan Avropa İttifaqının üzvləri üçün tələb edilən meyarlar səviyyəsinə qalxacaqdır. Biz, həmçinin Avropa İttifaqının əhalisinin fikirlərini də anlamalı və nəzərə almalıyıq. Onlar yeni üzvlərin Avropa İttifaqına qəbul olunmasını istəyirlərmi və ya İttifaqın sərhədlərinin genişləndirilməsi haraya qədərdir?! Avropa İttifaqı daim genişlənə bilməz. Əks halda, bu qurumun normal fəaliyyəti mümkün olmayacaqdır. Buna görə də, əvvəldə qeyd etdiyim kimi, potensial üzvlər öz perspektivlərini qabaqcadan bilməlidirlər. Bizim tərəfimizdən də açıq mesaj olmalıdır ki, Avropa qarşısında öhdəliklərimizin hüdudu nə dərəcədədir. Bu iki şeyi birləşdirsək, münasibətlərimizin hansı mərhələdə olduğunu görərik. Bütün işlər qarşılıqlı fayda, anlaşma və hörmət əsasında qurulmalıdır.

"Zəngin təbii sərvətlərə malik olan Azərbaycan üçün Avropaya inteqrasiya nə qədər vacibdir?" sualına Prezident İLHAM ƏLİYEV belə cavab verdi:

- İlk növbədə, onu deməliyəm ki, Azərbaycan Avropada mövcud olan demokratiya səviyyəsinə catmasa, enerji ehtiyatlarının ölkəmizin bütün tələbatlarını ödəməsi mümkün olmayacaqdır. Biz neft hasil edən ölkələrin təcrübəsini araşdırmışıq. Bu ölkələrin əksəriyyətində iri enerji ehtiyatlarının olmasına baxmayaraq, onlar uğur əldə edə bilməmişlər. Burada çox güclü ictimai nəzarət, şəffaflıq və cavabdehlik təmin olunmalıdır. Biz bunu Avropanın inkişaf etmiş ölkələrində görürük. Ona görə də "Yeni qonşuluq siyasəti"nə qoşulmaq, Avropaya inteqrasiya etmək bizim daxili tələbatımızdan irəli gəlir.

Əlbəttə, Azərbaycan çox zəngin bir ölkəyə çevriləcəkdir. Ermənistan xarici işlər nazirini məyus etmək istəməzdim, lakin deməliyəm ki, Dünya Bankının proqnozlarına görə, qarşıdan gələn 20 il ərzində, neft qiymətləri normal götürüldükdə belə, Azərbaycan 140 milyard dollar vəsait qazanacaqdır. Bu vəsait bizə çox işləri görməyə kömək edəcəkdir. Lakin eyni zamanda, biz bu kapitalı insan kapitalına çevirməyi bacarmalıyıq. Biz təhsil sahəsinə sərmayələri artırmaq, yaxşı səhiyyə xidmətinə malik olmaq, başqa sözlə, Avropa ölkələrinin əldə etdikləri nailiyyətlərə çatmaq istəyirik.

Beləliklə, Avropaya inteqrasiya etməyimizin bünövrəsində möhkəm əməli əsaslar durur. Eyni zamanda, bu, qonşularla aramızda mövcud olan mühüm məsələləri həll etməyə də imkan verəcəkdir. Siyasətimizin Avropa istiqaməti çox vacibdir, ABŞ-la gözəl əlaqələrimiz mövcuddur. Ərazilərimizi işğal etmiş Ermənistan istisna olmaqla, bütün qonşularımızla yaxşı münasibətlərimiz var, islam ölkələri arasında mövqelərimiz güclüdür. Eyni zamanda, Avropa ölkələri ilə də yaxşı əlaqələrimiz var. Bütün bunlar Azərbaycanın sürətli inkişafı üçün çox gözəl şərait yaradır.

SUAL: Mən ABŞ-ın Avropa İttifaqındakı sabiq səfiriyəm. Bu vəzifəyə qədər Qafqaz və Xəzər dənizi regionu ilə bağlı işlərdə çalışmışam. Sualım enerji ilə bağlıdır. Biz Rusiyadan Avropaya çəkilmiş boru kəmərləri barədə çox dinlədik. Bakı-Tbilisi-Ceyhan neft boru kəməri bu il istismara verilmişdir. Tezliklə qaz kəməri Azərbaycan ilə Türkiyəni birləşdirəcəkdir. İndiyə qədər enerji ehtiyatlarının Qara dənizlə ya Rumıniya, yaxud da Bolqarıstan vasitəsilə Avropaya nəqli ilə bağlı konkret plan olmayıbdır. Avropa sizin regionun enerji ehtiyatlarının nəqli məsələsi ilə bağlı fəal olubmu və hörmətli prezidentlərin fikrincə, Avropa alternativ mənbə kimi sizin regionun enerji ehtiyatlarının inkişafı üçün nə etməlidir?

İLHAM ƏLİYEV: Əlbəttə ki, Azərbaycanın tərəfdaşları ilə əldə etdiyi nailiyyətlər bütünlükdə regionun inkişafına təsir göstərmişdir. Burada məsələ sadəcə boru kəmərləri, Azərbaycan nefti və qazının dünya və Avropa bazarlarına nəqli məsələsi deyildir. Geniş regional əməkdaşlıq həyata keçirilir. Bu sahədə Qazaxıstan ilə hökumətlərarası saziş imzalanmışdır. Bu amillər bütün siyasi və iqtisadi şəraiti dəyişmişdir.

Avropanın enerji strategiyasına gəlincə, təəssüf ki, burada vahid siyasət görmürük. Belə ki, Avropada neft və qazdan danışanda hər kəs öz maraqlarını düşünür. Azərbaycan uzun müddət Avropa İttifaqının enerji siyasəti proqramına cəlb olunmaq üçün çox çalışmışdır. Yalnız keçən qış fəslində baş vermiş hadisələrdən sonra biz bu sahədə müəyyən təkliflər alırıq və bu da Avropa İttifaqının bizə marağını göstərir. Neft və qaz sahəsində qarşılıqlı əməkdaşlıq üçün çox gözəl potensialımız mövcuddur. Azərbaycan Avropaya qazı nəql edəcək yeganə yeni alternativ mənbəyə çevrilir. Çünki bütün digər alternativlər artıq fəaliyyət göstərir. Əlbəttə ki, bu, bizim ölkənin, regionun əhəmiyyətini artırır. Azərbaycan, Gürcüstan, Türkiyə və Avropa ölkələri böyük bir layihəyə cəlb olunublar və bu, regionu daha da sabit və təhlükəsiz edəcəkdir.

Dövlətimizin başçısının çıxışları hər dəfə maraqla dinlənildi və alqışlarla qarşılandı.

PİTER FREY: Sizin hamınıza təşəkkürümü bildirirəm.

FORUM İŞTİRAKÇILARININ ŞƏRƏFİNƏ

Sentyabrın 22-də Karl Bertelsmann Fondunun binasında Beynəlxalq Bertelsmann-2006 forumu iştirakçılarının şərəfinə ziyafət verilmişdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ziyafətdə iştirak etmişdir.

KARL BERTELSMANN FONDUNDA "DEMOKRATİYA ÇAĞIRIŞI" MÖVZUSUNDA MÜZAKİRƏLƏR

Azərbaycan Prezidenti İlham Əliyev, Çernoqoriyanın Baş naziri Milo Cukanoviç, Polşanın keçmiş Prezidenti Aleksandr Kvasnevski və İsveçin keçmiş Baş naziri Karl Bildt sentyabrın 22-də Karl Bertelsmann Fondunun binasında "Demokratiya çağırışı" mövzusunda müzakirələrdə iştirak etmişlər.

ALEKSANDR KVASNEVSKİ müzakirələri açaraq dedi: Prezident Əliyev mənim yaxın dostumdur. Biz ilk dəfə Prezident kimi deyil, vacib qurum sayılan milli olimpiya komitələrinin rəhbərləri kimi görüşmüşük.

İLHAM ƏLİYEV: Mən hələ də həmin komitənin prezidentiyəm.

ALEKSANDR KVASNEVSKİ: Cənab İlham Əliyev hələ də Azərbaycan Milli Olimpiya Komitəsinin sədridir. Mən isə yox. Artıq təqaüddəyəm. Fərq məhz bundadır.

İndi isə mən Azərbaycan mövzusuna keçmək istəyirəm. Ölkəniz müxtəlif dövrlər yaşamışdır - qədim dövr, sonralar Sovetlər Birliyinin tərkibində olmusunuz, hazırda demokratik dövlət qurursunuz və qarşınızda yeni imkanlar açılır. İndi isə biz sual və cavablardan ibarət müzakirəyə keçəcəyik. Lakin bunu etməmişdən əvvəl xahiş edirəm, ölkənizin bu günü haqqında bizə qısa məlumat verəsiniz. Bir prezident kimi Sizin fikrinizcə,

gələcək 5 il üçün ölkənizin qarşısında duran ən vacib məsələlər hansılardır?

İLHAM ƏLİYEV: Bilirsiniz, bugünkü Azərbaycan haqqında qısa danışmaq olduqca çətindir. Xüsusən də, qarşıdakı 5-10 il ərzində ölkədə hansı işlərin yerinə yetirilməsi ilə bağlı planlar haqqında danışmaq üçün çox vaxt lazımdır.

İlk növbədə, mən burada çox yaxşı dostum Aleksandrı salamlamaq istəyirəm, sonuncu dəfə biz görüşəndə o, hələ Prezident idi. Amma artıq o, Prezident deyil, lakin mən onu yaxşı əhval-ruhiyyədə görməyə çox şadam. O, həmişəki kimi çox enerjilidir, ideyaları çoxdur.

ALEKSANDR KVASNEVSKİ: Həyat davam edir.

İLHAM ƏLİYEV: Hazırda bizim ölkəmiz müstəqilliyinin ilk və ən vacib mərhələsini yaşayır. Müstəqilliyimizin 15 ilindən sonra deyə bilərik ki, ölkəmizin əsas problemləri artıq arxada qalıbdır. Bu gün siyasi və iqtisadi baxımdan Azərbaycan çox sürətlə inkişaf edən ölkədir. Hazırda bizim ümumi daxili məhsulumuzun artımı dünyada ən yüksək göstəricidir. Son il bu rəqəm 26 faiz, bu ilin 8 ayı ərzində 36 faiz təşkil etmişdir. Son üç il ərzində Azərbaycanda təqribən 500 minə yaxın yeni iş yeri açılmışdır. Hazırda biz, əsasən, təbii sərvətlərimizin insan kapitalına çevrilməsi üzərində işləyirik.

Biz təhsil, yeni texnologiyalar kimi sahələrə sərmayələrin necə qoyulması üzərində işləyirik. Bu addımları ona görə atırıq ki, gələcəkdə neft və qaz hasilatından və enerji daşıyıcılarının qiymətlərindən asılı olmayaq və müasir cəmiyyət quraq. Azərbaycan Avratlantik strukturlarına sürətlə inteqrasiya etməkdədir. Biz Avropa İttifaqının "Yeni qonşuluq siyasəti"ndə, NATO-nun "Fərdi tərəfdaşlığın fəaliyyət planı"nda fəal iştirak edirik. Ölkəmizdə demokratikləşmə prosesi gedir. Azərbaycan dünyəvi dövlətdir. Ölkəmizdə dini dözümlülük çox yüksək səviyyədədir. Mühüm coğrafi mövqedə yerləşən Azərbaycan bir sıra böyük beynəlxalq və regional layihələrin təşəbbüskarıdır.

Biz hazırda nəhəng enerji layihələrini başa çatdırmaq üzrəyik. Xəzər dənizindən Aralıq dənizinə qədər çəkilmiş boru kəməri artıq istismara verilib və beləliklə, biz Avropa bazarlarına çıxış əldə etmişik. Bütün bunlar inkişaf üçün çox möhkəm, hərtərəfli əsaslar yaradır. Biz iqtisadi inkişaf və enerji təchizatı baxımından müstəqilik. Bu o deməkdir ki, biz əsil müstəqil ölkəyik, əhalinin ehtiyac və tələbatlarının ödənilməsinə yönəlmiş müstəqil siyasət həyata keçiririk. Əminəm ki, qarşıdakı beş il ərzində güclü siyasi və iqtisadi sistemə malik olacaq ölkəmiz davamlı, demokratik və açıq cəmiyyət yolu ilə inkişaf edəcəkdir.

ALEKSANDR KVASNEVSKİ: Hesab edirəm ki, bu tədbirdə bəzi formalaşmış stereotipləri aradan qaldırmaq üçün yaxşı imkan yaranıbdır. Bunlardan bəzilərinə cavab olaraq demək istəyirəm ki, əlbəttə, Siz heç də atasını Prezident vəzifəsində əvəz edən ilk şəxs deyilsiniz. Bu cür hallar digər ölkələrdə də olur. Bəzi Avropa ölkələrində belə bir stereotip mövcuddur ki, Azərbaycanda hələ də siyasi partiyalar sistemi yetkin deyil, onlar hələ də nəzarət altındadır.

İLHAM ƏLİYEV: Əlbəttə ki, bizdə siyasi sistem keçid dövrünü yaşayır. 15 il bundan əvvəl biz tamamilə başqa sistemdə yaşamışıq. İndi biz inteqrasiyaya doğru addımlayırıq. Avropa İttifaqının "Yeni qonşuluq siyasəti"ndə iştirak etmək, Avropa Şurası kimi təşkilatlardakı fəaliyyət nəyə görə bizim üçün vacibdir? Çünki bu, bizə Avropa İttifa-

qında olan dəyərlərə uyğunlaşmağa, ən azı, bu dəyərlərə yaxın olmağa və onları təkmilləşdirməyə kömək edir. Belə ki, dünyada digər ölkələrin müsbət və mənfi təcrübəsinə nəzər yetirsəniz görərsiniz ki, bu sahədə ən yaxşı nailiyyətlər, demək olar, Avropada əldə olunub: açıq və demokratik cəmiyyət, güclü iqtisadiyyat və sair. Nəyə görə biz bu gün Avropa İttifaqı ölkələri tərəfindən bir sıra problemlərə dair bəyanatlar eşidirik? Bunlardan biri də miqrasiya problemidir. Nə səbəbdən belə bir problem yaranır? Çünki Avropa cəmiyyəti cəlbedicidir. Bizim qarşımızda bu çür yaxşı nümunə mövcuddur. Biz də öz siyasi sistemimizi təkmilləşdiririk. Siyasi sistemimiz hələ tam formalaşmayıb və bu da təbiidir, başqa cür ola da bilməz. Çünki bizdə siyasi sistemin heç bir ənənəsi də olmayıbdır. Bu, nə sovet vaxtlarında, nə də ondan əvvəldə mövcud olubdur. Ona görə də, hesab edirəm ki, Avratlantik məkana inteqrasiya və əməkdaşlıq prosesləri bizə çox güclü siyasi sistemi qurmağa kömək edəcəkdir.

O ki, qaldı bayaq söylədiyiniz məqama, mənim dostum, Sizin ölkənizdə ailə hökuməti var.

ALEKSANDR KVASNEVSKİ: Əlbəttə, hətta bizdə hakimiyyətdə əkizlər var.

İcazənizlə, mən son sualımı verim, çünki sonra biz müzakirələrin yeni mərhələsinə keçəcəyik. Qarşıdakı 5 ildə ölkənizdə siyasi vəziyyəti proqnozlaşdırsaq, Azərbaycanda hansı siyasi partiyaları görürsünüz, ümumiyyətlə, onların ideoloji konsepsiyasını necə görürsünüz?

İLHAM ƏLİYEV: Əminəm ki, bizim partiya həmişə qalib gələcək.

ALEKSANDR KVASNEVSKİ: Mənim Prezident Əliyevə növbəti sualım Cənubi Qafqazdakı vəziyyətlə bağlıdır. Sualımın birinci hissəsi belədir: regionda vəziyyəti necə görürsünüz? İkincisi, Rusiya ilə münasibətləriniz nə yerdədir?

İLHAM ƏLİYEV: Qafqazdakı vəziyyət mürəkkəbdir. Nəyə görə? Çünki bu kiçik məkanda üç münaqişə var, yəni Cənubi Qafqaz ölkələrində üç separatçı hərəkat mövcuddur: Dağlıq Qarabağ, Abxaziya və Cənubi Osetiyada. Onların hamısının eyni kökləri var, yəni təcavüzkar separatizm. Onların nəticələri də eynidir. Həmin münaqişələr nəticəsində Azərbaycan və Gürcüstanın ərazi bütövlüyü pozulubdur. Bunun nəticəsində 1 milyondan çox azərbaycanlı qaçqın-köçkün vəziyyətinə düşərək, əziyyət çəkməkdədir. Azərbaycanlılara və gürcülərə qarşı etnik təmizləmə siyasəti aparılmış və ölkələrimiz bu cür humanitar fəlakətdən əziyyət çəkmişlər. Hazırda biz danışıqlar prosesindəyik və çalışırıq ki, münaqişəni sülh yolu ilə həll edək. Beynəlxalq ictimaiyyət bizi bu münaqişəni dinc yolla həll etməyə çağırır, amma bu, çox çətindir. Çünki siz bunu yalnız o vaxt həll edə bilərsiniz ki, qarşı tərəfin buna həvəsi və ya arzusu olsun. Lakin əgər qarşı tərəf mövcud olan status-kvonu qanuniləşdirməyə çalışırsa, hərbi əməliyyatların ilkin mərhələsini leqallaşdırmaq istəyirsə, onda lazımi nizamlanmaya nail olmaq çox çətindir.

Biz hesab edirik ki, Cənubi Qafqazdakı münaqişələr beynəlxalq hüququn norma və prinsipləri əsasında həll olunmalıdır. Bizim arzularımız ola bilər, Ermənistan tərəfinin arzuları ola bilər. Lakin bu, nizamlanma üçün əsas ola bilməz. Məsələnin aradan qaldırılmasının yalnız hüquqi əsasları olmalıdır. Bütün beynəlxalq ictimaiyyət Azərbaycanın ərazi bütövlüyünü tanıyır və Azərbaycan Dağlıq Qarabağ ərazisi də daxil olmaqla BMT-yə üzv qəbul edilibdir.

Dağlıq Qarabağ tarixi nöqteyi-nəzərdən Azərbaycanın ərazisidir. Ermənilər Dağlıq Qarabağa XIX əsrin birinci yarısında gəliblər. Bu, məlum faktdır. Hüquqi baxımdan bu region Azərbaycanın ərazisidir. Ona görə də biz bu məsələni yalnız beynəlxalq hüququn norma və prinsipləri əsasında həll etmək istəyirik. Biz Dağlıq Qarabağ ermənilərinə Azərbaycanın tərkibində ən yüksək muxtariyyət statusunun verilməsini təklif etmişik. Bu, bizim tərəfimizdən ediləcək maksimum güzəştdir. Lakin onlar, sadəcə olaraq, Azərbaycandan ayrılmaq və qondarma "müstəqilliyini" bəyan etmək arzusu ilə yaşayır və beləliklə, ölkəmizin ərazi bütövlüyünün parçalanmasına nail olmaq istəyirlər. Bu da mümkün deyildir.

Bir sözlə, tarixi həqiqət, eləcə də siyasi vəziyyət bizim tərəfimizdədir. Yenə deyirəm, hüquqi baxımdan, bu bölgə Azərbaycan ərazisidir. İqtisadi baxımdan, Ermənistan üçün Azərbaycanla ayaqlaşmaq get-gedə çətin olacaqdır. Bizim bugünkü iqtisadiyyatımız Ermənistan iqtisadiyyatından 6 dəfə böyükdür. Gələn il 10 dəfə çox olacaq və bu, get-gedə daha da artacaqdır. Bəzən Avropadakı siyasətçilər bizə irad tutur ki, hərbi büdcəmizi artırırıq. İlk növbədə, onu demək istəyirəm ki, bu, bizim suveren hüququmuzdur. İkincisi, bizim büdcəmiz ümumi həcmlə artır. Son üç il ərzində Azərbaycanın büdcəsi 4 dəfə artmışdır. Təbii ki, belə olan halda, hərbi xərclərimiz də artır.

Mən bir daha demək istəyirəm ki, biz problemi dinc yolla həll etmək istəyirik. İqtisadi baxımdan Azərbaycan olduqca güclü ölkəyə çevrildikdən sonra, hərbi əməliyyatlar haqqında düşünmək mütləq xarakter daşımayacaqdır. Yəni ərazi bütövlüyümüzün bərpa edilməsi üçün bir çox digər vasitə və yollar mövcud olacaqdır. Ermənistan rəhbərliyi bunu nə qədər tez başa düşsə, onların özləri üçün bir o qədər yaxşı olacaqdır. Vaxt ötdükcə bizim mövqeyimiz daha da möhkəmlənəcək və sərtləşəcəkdir. Prinsip etibarilə bu münaqişə regional inkişafa olan əsas təhlükədir. Xüsusən də regionumuzda son illər ərzində aparılan böyük əməkdaşlıq layihələrini nəzərə alsaq, bu münaqişə ən böyük potensial təhlükədir.

Regionumuzda böyük həcmdə neft və qaz hasilatı başlanır. Hazırda Xəzər dənizində neft ehtiyatlarının dünyanın neft şirkətləri ilə əməkdaşlıq edən Azərbaycan tərəfindən işlənilməsi nəticəsində enerji daşıyıcıları Aralıq dənizi vasitəsilə dünya və Avropa bazarlarına çıxarılır. Bu, çox milyardlıq sərmayələrdir. Bu layihə nəinki regionda aparılan əməkdaşlığa, o cümlədən regionda və ondan kənarda cərəyan edən siyasi proseslərə də təsir göstərir. Ona görə də biz həmin potensial təhlükənin aradan qaldırılması üçün birgə çalışmalıyıq. Hesab edirik ki, Avropa İttifaqı da bu baxımdan daha fəal rol oynaya bilər.

ATƏT problemi həll etmək mandatına malikdir. BMT-nin Təhlükəsizlik Şurası erməni qüvvələrinin Azərbaycanın zəbt olunmuş torpaqlarından qeyd-şərtsiz çıxarılması ilə bağlı 4 qətnamə qəbul etmişdir. Onlar hələ də yerinə yetirilməyibdir. Avropa İttifaqının bu baxımdan mövqeyi vacibdir, çünki Avropa İttifaqı artıq bizim qonşumuzdur. Biz də öz tərəfimizdən Avropa İttifaqına daha da yaxınlaşırıq və onun "Yeni qonşuluq siyasəti"ndə iştirak edirik. Ona görə də, digər təşkilatlardan fərqli olaraq, Avropa İttifaqı regionda təhlükəsizliyin olmasında daha da maraqlıdır. Çünki biz qonşuyuq. Bu münaqişə olduqca ciddi təhlükədir. Münaqişənin dondurulmuş vəziyyətdə olması bizdə yanlış təsəvvür yaratmamalıdır. Bəzi hallarda dondurulmuş münaqişələr, ümumiyyətlə, yaddan çıxarılır. İnsanlar hesab edir ki, hər şey normaldır, tərəflər danışıqlar aparır. Lakin belə

hesab etmək lazım deyildir. Çünki sülh çox kövrəkdir və onun pozulması çoxlu təhlükələr yarada bilər.

ALEKSANDR KVASNEVSKİ: Mən, eyni zamanda, Rusiya ilə bağlı sual verdim. Xahiş edərdim, bu haqda da danışasınız.

İLHAM ƏLİYEV: Bizim Rusiya ilə yaxşı münasibətlərimiz var. Biz qonşuyuq. Mən sizə deyə bilərəm ki, təqribən 10 il bundan əvvəl Rusiya ilə Azərbaycan arasında olan münasibətlər çox pis idi. Həmin vaxt Rusiya açıq formada erməni separatçılarını dəstəkləyirdi. Rusiya 1 milyard dollar həcmində hərbi avadanlıq və texnikanı qeyri-qanuni olaraq Ermənistana ötürmüşdü. Bu məsələ ilə bağlı Rusiya Dövlət Dumasında böyük qalmaqal yarandı və beləliklə, bizim Rusiya ilə münasibətlərimiz çox gərgin xarakter aldı. Lakin birgə səylərlə biz ziddiyyətli məsələlərdə razılığa gələ bildik və indi ölkələrimizin münasibətləri, demək olar ki, qonşular arasında olan münasibətlərə nümunə ola bilər. Rusiya kimi böyük ölkə ilə Azərbaycan arasındakı münasibətlər qarşılıqlı hörmət, daxili işlərə qarışmamaq və dostluq prinsiplərinə əsaslanır.

Biz, Azərbaycan xalqının tələbatlarına və maraqlarına uyğun siyasət aparırıq. Siyasətimiz müstəqildir. Siyasi, iqtisadi münasibətlərdə, o cümlədən dünya ictimaiyyəti ilə qurduğumuz əlaqələrdə siyasətimiz müstəqildir. Mən sizə deyə bilərəm ki, bu siyasət özünü doğruldur. Bizim ABŞ-la strateji tərəfdaşlıq münasibətlərimiz də mövcuddur. Eyni zamanda, bizim İKT-yə üzv olan ölkələrlə də yaxşı münasibətlərimiz var. Bizim qonşularla olan münasibətlərimiz müsbətdir. Rusiyadan başqa, bizim İranla da yaxşı münasibətlərimiz var. Bir sözlə, bütün bunlar mümkündür. Həmin amillər regionda təhlükəsizliyin və sabitliyin bərqərar olmasına xidmət edir. Çünki bizim yerləşdiyimiz region olduqca mürəkkəbdir.

Bəzən Avropada mövcud olan meyarlar avtomatik qaydada bizim regiona tətbiq edildikdə, nəticələr fərqli olur. Burada, Avropada sizin öz qonşularınız var. Bizim öz qonşularımız var və onlar da fərqlidir. Təbii ki, qonşular da həmsərhəd olan ölkələrdə gedən proseslərə təsir göstərir. Bizim də əldə etdiyimiz nailiyyətlər qonşu ölkələrdə gedən proseslərə təsir göstərir. Bu, nəzərə alınmalıdır.

Son 15 il ərzində Azərbaycanın müstəqilliyinin qorunub saxlanılması bizim üçün prioritet xarakterli məsələ olmuşdur. Çünki ölkəni, sadəcə, müstəqil elan etmək və müstəqilliyə aid olan müəyyən qanuni atributların olması kifayət deyildir. Biz hər gün müstəqilliyimizi möhkəmləndirməli idik. İndi isə bu proses artıq başa çatıbdır. Ölkəmiz bu gün güclüdür və biz qonşularımızla yaxşı münasibətdə olmalıyıq. Zənnimcə, digər ölkələr də bunu arzulamalıdır. Aleksandr, Siz bu məsələni iki dəfə qaldırdığınıza görə, çalışdım ki, bu suala hərtərəfli cavab verim.

ALEKSANDR KVASNEVSKİ: Bəli, Rusiya böyük ölkədir, ona görə də mən bu məsələni xüsusi qaldırdım. Bəs, Avropa və ABŞ-a gəldikdə, Sizin bunlarla münasibətləriniz nə yerdədir?

İLHAM ƏLİYEV: Bir ölkə olaraq, biz bu gün həmin əməkdaşlığı davam etdirmək istəyirik. Həmin əməkdaşlıq qarşılıqlı surətdə olduqca faydalıdır və artıq yaxşı tarixə malikdir. Azərbaycan müstəqilliyini əldə etdikdən sonra bizə elə gəlirdi ki, kimsə gəlib bizə dərhal kömək edəcəkdir. Kimsə gəlib bizə mütləq qaydada yardım etməlidir. Bəlkə

də, bu cür münasibət Azərbaycanın keçmişdə uzun illər və əsrlər boyu digər ölkənin tərkibində olması ilə bağlı idi. Bəlkə də bunun başqa səbəbləri var idi. Ola bilsin, kimsə düşünürdü ki, bütün dünya Azərbaycanın müstəqil olması ilə əlaqədar ölkəmiz haqqında və orada baş verən hadisələr barədə düşünməlidir. Lakin vaxt getdikcə biz anladıq ki, bütün işlər yalnız özümüzdən asılıdır. Əgər bizim imkanlarımız böyük olsa, güclü olsaq, müdrik addımlar atsaq, onda biz yaxşı əməkdaşlıq qura biləcəyik. Əgər belə olmasa, biz öz yerimizi tuta bilməyəcəyik. Biz hesab edirik ki, gələcəyimiz və taleyimiz yalnız özümüzdən asılıdır. Ona görə biz ölkəmizi sıfır səviyyəsindən qurmağa başladıq. Hətta mən deyərdim ki, bu səviyyədən də aşağı, çünki Azərbaycan olduqca acınacaqlı vəziyyətdə idi. Ölkəmizdə vətəndaş müharibəsi, işğal, siyasi və iqtisadi böhran mövcud idi. Vaxt keçdikcə Azərbaycan gücləndi və apardığı əməkdaşlığın səviyyəsi artmağa başladı. İndi isə həmin əməkdaşlıq birtərəfli deyil, artıq ikitərəfli qaydada aparılır.

Azərbaycan dünyada enerji təchizatı və təhlükəsizliyi sahəsində mühüm ölkəyə çevrilməyə başlayır. Biz ABŞ-la beynəlxalq terrorçuluğa qarşı mübarizədə əməkdaşlıq edirik və dünyanın müxtəlif yerlərində aparılan sülhməramlı əməliyyatlarda iştirak edirik. Biz Avropanı Asiya ilə birləşdirən nəqliyyat dəhlizi rolunu oynayırıq. Bir çox layihələrin təşəbbüskarıyıq və onları amerikalı və avropalı dostlarımızla həyata keçiririk. Biz ABŞ-la, Avropa İttifaqı ilə qarşılıqlı fayda verən əməkdaşlığı genişləndirmək arzusundayıq. Xüsusən də "Yeni qonşuluq siyasəti"nə gəldikdə, hesab edirəm ki, biz bir çox praktiki məsələləri qonşuluq proqramına daxil etməliyik. Azərbaycan xalqı üçün maraqlı ola biləcək konkret məsələlərin ortaya qoyulması olduqca vacibdir. Biz burada yardım və ya maliyyə dəstəyindən danışmırıq. Bizə bu mərhələdə həmin yardım lazım deyil. Biz indi Azərbaycanda həyat tərzi standartlarını Avropadakı standartlara yaxınlaşdırmaq istəyirik. Bu baxımdan, Avropa İttifaqı və ABŞ ilə əməkdaşlığımız Azərbaycan üçün böyük əhəmiyyət kəsb edir.

Hazırda beynəlxalq ictimaiyyətin iştirakına ehtiyac duyulan yeganə məsələ Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin aradan qaldırılmasıdır. Əgər beynəlxalq ictimaiyyət münaqişənin həllində mühüm rol oynamasa, hadisələr gözlənilməz istiqamətdə cərəyan edə biləcəkdir. İndi Ermənistanla Azərbaycan arasında olan qüvvələr tarazlığı artıq mövcud deyildir.

İndi Ermənistanla-Azərbaycan arasında inkişaf sahəsində mövcud olan fərq get-gedə artır və bu, hər il artacaqdır. Bir sözlə, qüvvələrin tarazlıqda olması bir növ sabitliyin amili idi. Lakin bu gün bu, artıq mövcud deyildir. Ona görə də əgər bu məsələnin həllində bizə yardım edilməsə və beynəlxalq ictimaiyyət münaqişənin aradan qaldırılmasında lazımi dərəcədə fəal olmasa, onda hadisələr öz məntiqi ilə inkişaf edə bilər və Azərbaycandakı vəziyyət bu cür davam etsə, gələcəkdə ona nəzarət etmək çətin olacaqdır. Bu, ən əsas təhlükədir. Bu elə bir sahədir ki, biz burada Avropa İttifaqı və Birləşmiş Ştatlar tərəfindən olduqca böyük diqqətin və əməkdaşlığın şahidi olmalıyıq. Çünki bu bizim ümumi təhlükəsizliyimizə aid olan məsələdir.

ALEKSANDR KVASNEVSKİ: Əgər Sizin ölkədə güclü iqtisadiyyat və maliyyə imkanlarınız olarsa, onda gələcəkdə vəziyyət nəzarət altından necə çıxa bilər? Bunu necə təsəvvür etmək olar?

İLHAM ƏLİYEV: Bilirsiniz, ölkə torpaqları 10 ildən çox müddət ərzində işğal altında

olduğu zaman, ölkədə 1 milyondan çox qaçqın və məcburi köçkün olan təqdirdə və zəbt edilmiş ərazilərdə hər bir şeyin dağıdıldığı halda, vəziyyət daha da mürəkkəbləşir. Ötən il ATƏT-in faktaraşdırıcı missiyası Azərbaycanın işğal edilmiş ərazilərində olmuş və hesabat hazırlamışdır. Orada deyilir ki, zəbt olunmuş torpaqlarda, xüsusən də Azərbaycanın işğal edilmiş 7 rayonunda bütün evlər yerlə-yeksan olunubdur. Belə olan halda, xalqın səbri tükənir, iqtisadi və hərbi nöqteyi-nəzərdən ölkə gücləndikcə, bizim imkanlarımız da artır.

Gələn il bizim hərbi büdcəmiz Ermənistanın bütün büdcəsinə bərabər olacaqdır. Belə olan halda, Ermənistanın sülh prosesini pozması ilə barışmaq çətin olacaqdır. Mən əvvəldə də qeyd etdim ki, Ermənistan bu gün razılığa gəlməlidir. Çünki hazırda biz danışıqlar masası arxasında ən münasib təklifi irəli sürmüşük. Azərbaycanın imkanları genişləndikcə, bizim mövqeyimiz də sərtləşəcəkdir.

ALEKSANDR KVASNEVSKİ: Mən isə belə düşünürəm ki, iqtisadiyyatda, büdcədə və hərbi xərclərdə bu cür yaxşı imkanlar artdıqca, məhz sülh yolu ilə məsələnin çözülməsi də mümkün olacaqdır. Yəni kompromisin tapılması üçün bu, ən münasib vaxt olacaqdır. Bu, Sizin təşəbbüsünüzdür və Sizin tərəfdən beynəlxalq ictimaiyyətə təklif edilə bilər. Bu imkandan istifadə etmək lazımdır. Çünki 3-4 ildən sonra nəyin baş verəcəyini, yəni neft və qazın qiymətinin hansı səviyyədə olacağını demək çətindir. Hesab edirəm ki, məsələnin Sizin təşəbbüsünüz əsasında həlli üçün münasib vaxtdır.

İLHAM ƏLİYEV: Siz haqlısınız və biz mümkün olan ən yaxşı təklifi irəli sürmüşük. Əgər digər oxşar vəziyyətlə bu münaqişəni müqayisə etsək görərik ki, yalnız biz bu cür ən yüksək statuslu muxtariyyətin verilməsini təklif etmişik. Bu, bizim edə biləcəyimiz maksimum təklifdir. Biz ermənilərin Dağlıq Qarabağı Ermənistana vermək arzusu ilə razılaşa bilmərik. Bu, heç vaxt baş tutmayacaqdır. Lakin biz güzəştlərə əsaslanan konstruktiv və düzgün təklifimizin rədd edildiyini və sülh prosesinin Ermənistan tərəfindən pozulduğunu gördükdə, bundan çox məyus oluruq.

Bu yaxınlarda Ermənistanın xarici işlər naziri bizim nazirimizlə görüşməkdən imtina etdi. Bilirsiniz, nə səbəbə görə? Çünki GUAM ölkələri BMT çərçivəsində dondurulmuş münaqişələri müzakirə etmək təklifi ilə çıxış etmişdir. Onlar isə dedilər: "Əgər siz, bunu etsəniz, biz sizinlə görüşməyəcəyik". Yaxşı, bir tərəf danışıqlar prosesindən imtina etdikdə, biz nə edə bilərik? Ermənistan tərəfi daimi olaraq, sülh prosesini pozur. Keçmişdə bir neçə dəfə belə hadisələr baş vermişdir, yəni hər iki tərəf məsələnin həllinin sonuna yaxınlaşdığı bir anda, Ermənistanda nə isə baş verirdi. Birinci dəfə Ermənistan Prezidenti Ter-Petrosyan sazişi imzalamağa razı olduqda, ona qarşı dövlət çevrilişi edildi. Ermənistanın bugünkü Prezidenti o vaxt Baş nazir idi. Sonra o, birdən-birə Prezident oldu və Ter-Petrosyanı bu işlərdən uzaqlaşdırdı. İkinci dəfə, Aleksandr, hadisə Sizin Bakıda olduğunuz zaman baş verdi. Ermənistan parlamentində terror aktları törədildi. Hər zaman biz məsələnin vacib nöqtəsinə yaxınlaşdığımız halda, Ermənistanda nə isə baş verir və danışıqlarda əldə olunan irəliləyiş heçə endirilir. Biz iki il ərzində Praqa prosesi formatında işlədik və sazişin imzalanmasına yaxın olduq. Sonra Ermənistan tərəfi Fransada, Rambuyedə oxşar münasibət nümayiş etdirdi. Ermənistan tərəfi, sadəcə, danışıqları tərk etdi. Onlar fiziki mənada danışıqları tərk etdilər. Belə bir halda, biz nə edə bilərik?

ALEKSANDR KVASNEVSKİ: Mən hesab edirəm ki, yaxşı bir görüş alındı və fikrimcə, bu məsələnin həlli üçün Sizin şəxsən yaxşı imkanlarınız var. Hazırda, bu məqsəd üçün ən münasib şərait yaranıbdır. Bir çox məsələlər Sizdən asılıdır və əgər bu məsələni həll etsəniz, biz hamımız Sizə Nobel mükafatının verilməsinə səs verəcəyik. Bunu mütləq qaydada etmək lazımdır. Sizi inandıra bilərəm ki, hazırda bu kiçik imkan Sizin əlinizdədir.

İsveçin keçmiş Baş naziri KARL BİLDT dünya siyasətində Avropanın aparıcı rolunun saxlanılması və gücləndirilməsi məsələlərindən danışdı. O, xalqların bir-birinə daha çox yaxınlaşmasının və demokratik dəyərlərə sadiqliyinin Avropa məkanında sabitliyə və tərəqqiyə ən etibarlı zəmanət olduğunu bildirdi.

Çernoqoriyanın Baş naziri MİLO CUKANOVİÇ müstəqillik qazanmış ölkəsində gedən proseslərdən söhbət açdı, demokratik təsisatların bərqərar olması üçün Avropa təcrübəsindən bəhrələnmək baxımından belə tədbirlərin əhəmiyyətini vurğuladı.

ÖLKƏMİZİN ALMANİYADAKI SƏFİRLİYİNİN YENİ BİNASI İLƏ TANIŞLIQ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 23-də ölkəmizin Almaniya Federativ Respublikasındakı səfirliyinin yeni binası ilə tanış olmuşdur.

Səfirliyin əməkdaşları dövlətimizin başçısını ehtiramla qarşıladılar.

Prezident İlham Əliyev səfirlik binasının baş planı ilə tanış oldu.

Məlumat verildi ki, 1910-cu ildə tikilmiş və əvvəllər şəxsi yaşayış evi olmuş bina səfirliyin fəaliyyəti üçün çox münasibdir. Onun bundan sonra 60 il ərzində texniki təhlükəsizliyinə təminat verilmişdir. Üçmərtəbəli, alman memarlığı üslubunda tikilmiş binada yaxın vaxtlarda təmir işlərinə başlanacaqdır. Həyətyanı ərazisi ilə birlikdə ümumi sahəsi 1500 kvadratmetrdir.

Almaniya paytaxtının qərb hissəsində mənzərəli ərazidə yerləşən binanın rəsmi açılışı gələn ilin sonuna nəzərdə tutulmuşdur.

Prezident İlham Əliyev ayrı-ayrı mərtəbələri gəzdi, aparılacaq təmir-bərpa işləri ilə bağlı tövsiyə və tapşırıqlarını verdi.

SƏFƏR BAŞA ÇATDI

Berlin şəhərində keçirilən Beynəlxalq Bertelsmann-2006 forumunda iştirak etmək üçün Almaniyada səfərdə olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 23-də Vətənə yola düşmüşdür.

AZƏRBAYCANIN XARİCİ İŞLƏR NAZİRİNİN ABŞ-A SƏFƏRİ

Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov BMT Baş Məclisinin 61-ci sessiyasının ümumi müzakirələrində iştirak etmək üçün Nyu-Yorkda səfərdədir.

Sentyabrın 25-də BMT Baş Məclisinin 61-ci sessiyası çərçivəsində Nyu-Yorkda Demokratiya və İqtisadi İnkişaf Uğrunda Təşkilat - GUAM Xarici İşlər Nazirləri Şurasının iclası keçirilmişdir.

Ukrayna xarici işlər naziri Boris Tarasyukun sədrliyi ilə keçirilən iclasda bir sıra məsələlər, o cümlədən 2007-ci ilin büdcəsi, təşkilati məsələlər, işçi qrupları haqqında əsasnamələr müzakirə olunmuşdur. Gürcüstan xarici işlər nazirinin birinci müavini Valeri Çeçelaşvili GUAM təşkilatının baş katibi vəzifəsinə təsdiqlənmiş, Azərbaycanın Ukrayna səfirliyinin müşaviri Səbuhi Temirov isə iqtisadi məsələlər üzrə əməkdaşlıq proqramlarının əlaqələndiricisi təyin edilmişdir. Ölkəmiz GUAM-ın yeni təşkil edilən fövqəladə məsələlər və nəqliyyat üzrə işçi qruplarının əlaqələndiricisi rolunu öz üzərinə götürmüşdür.

Xarici işlər nazirləri sülhməramlı fəaliyyətdə əməkdaşlığın artırılmasına dair məsələnin öyrənilməsinin vacibliyini qeyd etmiş, milli əlaqələndiricilərə bununla bağlı konkret təkliflər üzərində işləmək barədə tapşırıq vermişlər. Tərəflər BMT Baş Məclisi 61-ci sessiyasının gündəliyində 27-ci bənd kimi duran "GUAM ərazisində davam edən münaqişələr, onların beynəlxalq sülh və təhlükəsizliyə təsiri" məsələsinə dair müzakirələrin hansı istiqamətdə aparılacağı barədə fikir mübadiləsi etmişlər.

Həmin gün BMT-nin iqamətgahında keçirilmiş GUAM-ABŞ görüşündə müzakirələrin nəticəsi kimi birgə bəyanat qəbul olunmuşdur.

Azərbaycanın xarici işlər naziri Baş Məclisin 61-ci sessiyası çərçivəsində keçirilən İslam Konfransı Təşkilatı xarici işlər nazirlərinin əlaqələndirici görüşündə sədrlik etmiş, Nepal, Suriya, İordaniya və Özbəkistanın xarici işlər nazirləri ilə ikitərəfli görüşlər keçirmişdir.

Elmar Məmmədyarov sentyabrın 25-də BMT Baş Məclisinin 61-ci sessiyasının ümumi müzakirələrində çıxış edərək üzv dövlətləri millətlər, mədəniyyətlər və dinlər arasında anlaşma və dialoqu genişləndirmək üçün konkret tədbirlər görməyə çağırmışdır. O vurğulamışdır ki, dünyada artan islamofobiya meyillərinin qarşısını almaq zəruridir. İslam Konfransı Təşkilatı Nazirlər Şurasının sədri kimi, Azərbaycan müsəlman cəmiyyətləri də daxil olmaqla, bütün ölkələrdə islam dini haqqında bilikləri artırmağa ehtiyac görür. Bu məqsədlə İKT 2007-ci ildə Bakıda tolerantlıq və qarşılıqlı anlaşmada KİV-lərin rolu mövzusunda beynəlxalq konfrans keçirməyi planlaşdırır. Nazir Azərbaycanın terrorizmin bütün formalarını pislədiyini bəyan etmiş, terrorizmin islam dini və müsəlman xalqları ilə əlaqələndirmək cəhdlərindən narahatlığını bildirmişdir.

Baş Məclisin diqqət yetirdiyi təcili məsələlərdən birinin də Azərbaycanın işğal edilmiş ərazilərində vəziyyət olduğunu vurğulayan Elmar Məmmədyarov bununla bağlı ali qurumun yekdilliklə qəbul etdiyi qətnamənin iki məqsəd daşıdığını demişdir: sənəd yandırılan ərazilərə dəyən qısa və uzunmüddətli ziyanın müəyyənləşdirilməsi, həmin ərazi-

lərdə təcili ekoloji əməliyyatın keçirilməsi, torpaqların bərpa olunması, daha sonra isə, bu tədbirlərlə münaqişə tərəfləri olan Azərbaycan və Ermənistan arasında etimad yaradaraq, sülh danışıqları prosesinə töhfə vermək üçündür.

Nazir həmçinin demişdir ki, qətnamə münaqişə prosesində yeganə müsbət hadisədir. Əhəmiyyətli irəliləyiş əldə olunmasa da, hələlik tərəflər və vasitəçilər mərhələli nizamlanmanı yeganə çıxış yolu kimi qəbul ediblər. Azərbaycan nümayəndəsinin sözlərinə görə, münaqişə tərəfləri iki əsas prinsiplə - işğal edilmiş Dağlıq Qarabağ ərazisinin statusunun müəyyənləşdirilməsi və Ermənistan silahlı qüvvələrinin bütün zəbt edilən Azərbaycan torpaqlarından çıxarılması ilə bağlı razılığa gələ bilmirlər. Azərbaycanın mövqeyini açıqlayan xarici işlər naziri demişdir ki, Dağlıq Qarabağın statusu yalnız bölgənin erməni və azərbaycanlı icmalarının iştirakı ilə demokratik və qanuni proses vasitəsilə müəyyənləşdirilə bilər. Bunun üçün işğalçı qüvvələr torpaqlardan geri çəkilməli, Azərbaycanın məcburi köçkün düşmüş əhalisi Dağlıq Qarabağa və ətraf bölgələrə qayıtmalıdır. Azərbaycan tərəfi öz mövqeyində BMT Təhlükəsizlik Şurasının qətnamələrini və ATƏT-in müvafiq qərarlarını əsas tutur. Lakin Ermənistan birbaşa görüşlərdən imtina edərək, qeyri-konstruktiv mövqeyi ilə danışıqlarda irəliləyiş ümidlərini heçə endirir.

Elmar Məmmədyarov BMT kürsüsündən ölkəmizin iqtisadi uğurlarından da söhbət açmış və bildirmişdir ki, hazırda hökumətin qarşısında duran əsas məqsəd neft sektorunun gəlirlərini qeyri-neft sektoruna yatırmaqla ölkənin ixrac potensialını artırmaqdır. Bölgəmiz üçün tarixi rol oynayan Bakı-Tbilisi-Ceyhan ixrac boru kəməri işə salınıb, ilin sonunadək isə Bakı-Tbilisi-Ərzurum qaz kəmərinin tikintisi başa çatdırılacaq və Azərbaycan qlobal enerji təhlükəsizliyinə öz töhfələrini verəcəkdir.

Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov sentyabrın 26-da BMT Baş Məclisinin 61-ci sessiyası çərçivəsində Nyu-Yorkda ATƏT-in Minsk qrupunun həmsədrləri və ATƏT-in hazırkı sədrinin şəxsi nümayəndəsi səfir Anji Kaspşik ilə görüşmüşdür.

Bağlı qapılar arxasında iki saata yaxın davam edən müzakirələr zamanı tərəflər Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllinə dair danışıqlar prosesində gələcək addımlara dair perspektivləri nəzərdən keçirmişlər. Bu barədə AzərTAc-a məlumat verən nazir Elmar Məmmədyarov demişdir ki, həmsədrlər yaxın günlər ərzində bölgəyə səfər etmək istədiklərini bildirmişlər. Hazırda onlar sülh danışıqları prosesinin dirəndiyi problemlərin aradan qaldırılması imkanları üzərində işləyirlər. Bu həftənin sonu isə, Minsk qrupunun həmsədrləri danışıqların hazırkı mərhələsinə dair Avropa İttifaqı sədrliyini məlumatlandırmaq üçün Helsinkiyə gedəcəklər.

Minsk qrupunun həmsədrləri və səfir Anji Kaspşik həmin gün Nyu-Yorkda Ermənistanın xarici işlər naziri Vartan Oskanyan ilə də görüşmüşlər.

Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov sentyabrın 26-da Nyu-Yorkda BMT Baş Məclisi 61-ci sessiyasının sədri xanım Şeyxa Həya Rəşid əl-Xəlifə ilə görüşmüşdür. Nazir xanım Rəşid əl-Xəlifəni yüksək vəzifəyə seçilməsi münasibətilə təbrik etmiş, habelə İslam Konfransı Təşkilatı Nazirlər Şurasının sədri qismində Azərbaycanın fəaliyyəti barədə məlumat vermişdir.

61-ci sessiyanın gündəliyinə salınan "GUAM ərazisində davam edən münaqişələr və onların beynəlxalq sülh və təhlükəsizliyə təsiri" məsələsi ilə bağlı bildirilmişdir ki, narahat edən problemləri Baş Məclisin müzakirəsinə çıxarmaq BMT üzvü olan hər bir dövlətin haqqıdır. Elmar Məmmədyarov təşkilatın bu qaydalarına həmişə əməl olunacağına əminliyini söyləmiş, Baş Məclisin yeni sədrinə fəaliyyətində uğurlar arzulamışdır.

Xatırladaq ki, əslən bəhreynli olan xanım Şeyxa Həya Rəşid əl-Xəlifə BMT tarixində Baş Məclisin sədri vəzifəsinə seçilən üçüncü qadındır.

Həmin gün nazir Elmar Məmmədyarov BMT-nin iqamətgahında Azərbaycan adından "BMT və onunla əlaqəli heyətin təhlükəsizliyi haqqında Konvensiyaya Əlavə Protokol"u imzalamışdır. Sənədi imzaladığına görə nazirə təşəkkür edən BMT baş katibinin hüquqi məsələlər üzrə müavini Nikolas Mişel demişdir ki, Azərbaycan bu beynəlxalq hüquqi sənədi imzalayan ilk ölkələrdəndir. O, Protokolun Azərbaycan parlamenti tərəfindən tezliklə ratifikasiya ediləcəyinə ümidvar olduğunu bildirmişdir.

Elmar Məmmədyarov İqtisadi Əməkdaşlıq Təşkilatının (İƏT) sədri kimi İƏT və Cənub-Şərqi Asiya Dövlətləri Assosiasiyasının (ASEAN) birgə 10-cu nazirlər iclasında iştirak etmişdir. İclasın həmsədri kimi çıxış edən Elmar Məmmədyarov İƏT və ASEAN arasında əməkdaşlıq əlaqələrinin gücləndirilməsinə dair fikirlərini söyləmişdir.

BMT Baş Məclisinin 61-ci sessiyasının ümumi müzakirələrində iştirak edən Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov sentyabrın 27-də Nyu-Yorkda Qvatemalanın xarici işlər naziri Gert Rosental ilə görüşmüşdür. Tərəflər iki ölkə arasında BMT çərçivəsində əlaqələrə dair fikir mübadiləsi aparmışlar. Qvatemala naziri BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvlüyünə qarşıdan gələn seçkilər zamanı ölkəsinin namizədliyinin Azərbaycan tərəfindən dəstəklənməsini istəmişdir.

Görüşün sonunda Azərbaycanın və Qvatemalanın xarici işlər nazirlikəri arasında əməkdaşlıq haqqında protokol imzalanmışdır.

Xatırladaq ki, ölkələrimiz arasında diplomatik əlaqələr 1994-cü ilin noyabr ayında qurulmuşdur.

Xarici işlər naziri Elmar Məmmədyarov həmin gün ölkəmizin BMT-dəki daimi nümayəndəliyində ABŞ-ın yəhudi icması təşkilatlarının üzvləri ilə görüşmüşdür. Söhbət zamanı ABŞ-Azərbaycan münasibətləri, Ermənistan-Azərbaycan münaqişəsinin həllinə dair danışıqların hazırkı mərhələsi, bölgəmizdə vəziyyət diqqət mərkəzində olmuşdur. Elmar Məmmədyarov vurğulamışdır ki, Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəməri, Bakı-Tbilisi-Ərzurum təbii qaz kəməri və planlaşdırılan Bakı-Tbilisi-Axalkalaki-Qars dəmir yolu layihələri bölgəni əhəmiyyətli dərəcədə dəyişdirəcəkdir. Nazir ABŞ Konqresində Azərbaycanla bağlı məsələlərdə Amerikanın yəhudi icmasının daha böyük dəstəyinə ümid bəslədiyini bildirmişdir.

Amerikanın yəhudi icması təşkilatlarının nümayəndələri Azərbaycana səfərləri zamanı ölkəmizdə şahid olduqları dini və mədəni tolerantlığı məmnunluqla vurğulamışlar. Elmar Məmmədyarov bildirmişdir ki, daim dini və mədəni tolerantlıq movqeyindən çıxış edən Azərbaycan gələn il Bakıda bu mövzuda beynəlxalq konfrans təşkil etmək niyyətindədir.

Görüşdə Amerikanın Yəhudi Komitəsi, Amerikanın Əsas Yəhudi Təşkilatlarının Prezidentlərinin Konfransı və digər yəhudi təşkilatlarının nümayəndələri iştirak etmişlər.

2006-CI İL İYULUN 5-DƏ BAKI ŞƏHƏRİNDƏ İMZALANMIŞ "AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ VƏ ÇELYABİNSK VİLAYƏTİ (RUSİYA FEDERASİYASI) HÖKUMƏTİ ARASINDA TİCARƏT-İQTİSADİ, ELMİ-TEXNİKİ VƏ MƏDƏNİ ƏMƏKDAŞLIQ HAQQINDA SAZİŞ"İN TƏSDİQ EDİLMƏSİ BARƏDƏ AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

1. 2006-cı il iyulun 5-də Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti və Çelyabinsk vilayəti (Rusiya Federasiyası) Hökuməti arasında ticarət-iqtisadi, elmi-texniki və mədəni əməkdaşlıq haqqında Saziş" təsdiq edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, müvafiq dövlət orqanları ilə birlikdə bu Sərəncamın 1-ci bəndi ilə təsdiq edilən Sazişin həyata keçirilməsi üçün lazımi tədbirlər görsün.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişin qüvvəyə minməsi ilə əlaqədar dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Çelyabinsk vilayəti (Rusiya Federasiyası) Hökumətinə müvafiq bildiriş göndərsin.

İlham Əliyev

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 26 sentyabr 2006-cı il

AZƏRBAYCAN RESPUBLİKASI İLƏ KOREYA RESPUBLİKASI ARASINDA 2006-CI İL MAYIN 11-DƏ BAKI ŞƏHƏRİNDƏ İMZALANMIŞ SƏNƏDLƏR HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

1. Azərbaycan Respublikası ilə Koreya Respublikası arasında 2006-cı il mayın 11-də Bakı şəhərində imzalanmış aşağıdakı sənədlər təsdiq edilsin:

1.1. Azərbaycan Respublikası Hökuməti və Koreya Respublikası Hökuməti arasında mədəniyyət sahəsində əməkdaşlıq haqqında Saziş;

1.2. Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi və Koreya Respublikasının Tikinti və Nəqliyyat Nazirliyi arasında tikinti sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu;

1.3. Azərbaycan Respublikasının Nəqliyyat Nazirliyi və Koreya Respublikasının Tikinti və Nəqliyyat Nazirliyi arasında nəqliyyat sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu.

2. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, bu Sərəncamın 1.1-1.3-cü bəndlərində göstərilən sənədlərin həyata keçirilməsi üçün lazımi tədbirlər görsün.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1.1-ci bəndində göstərilən Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Koreya Respublikası Hökumətini xəbərdar etsin.

İlham Əliyev

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 27 sentyabr 2006-cı il

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV SƏRHƏD MƏSƏLƏLƏRİ ÜZRƏ BEYNƏLXALQ KONFRANSIN SƏRHƏD XİDMƏTLƏRİ RƏHBƏRLƏRİNİN İŞÇİ QRUPUNUN BAKIDA KEÇİRİLƏN İCLASININ NÜMAYƏNDƏLƏRİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 27-də Prezident sarayında Sərhəd Məsələləri üzrə Beynəlxalq Konfransın ("Şiofok konfransı") sərhəd xidmətləri rəhbərlərinin işçi qrupunun Bakıda keçirilən iclasının nümayəndələrini qəbul etmişdir.

Prezident İlham Əliyev konfransın ölkəmiz üçün mühüm əhəmiyyət daşıdığını və Azərbaycanın təhlükəsizlik sahəsində əməkdaşlığa böyük önəm verdiyini bildirdi. Dünyanın terrorizmlə və narkotik maddələrin qaçaqmalçılığı ilə üzləşdiyi indiki narahat vaxtında sərhədlərin mühafizəsini vacib sayan Azərbaycan Prezidenti vurğuladı ki, sərhəd xidməti qurumlarının əməkdaşlığı ümumi təhlükəsizlik üçün olduqca zəruridir. Dövlətimizin başçısı dedi ki, hər bir ölkənin sərhədi əməkdaşlıq üçün bir qapıdır. Bu qapı dostların və xoşniyyətli insanların üzünə açıq olmalıdır. Lakin bəzən elə olur ki, bu qapılar potensial təhlükə mənbəyinə çevrilir. Yalnız beynəlxalq təhlükəsizlik tədbirləri yarana biləcək hər hansı təhlükənin qarşısını ala bilər.

Konfransda dünyanın bir çox ölkələrindən, o cümlədən Avropa İttifaqı dövlətlərindən nümayəndələrin iştirakını müsbət hal kimi dəyərləndirən Prezident İlham Əliyev sərhəd xidməti təcrübəsinin Azərbaycan üçün xüsusi önəm daşıdığını vurğuladı. Bildirdi ki, Sovetlər İttifaqı zamanında Azərbaycan yalnız İran və Türkiyə ilə həmsərhəd idi. Müstəqillik qazandıqdan sonra isə ölkəmizin yeni qonşuları yarandı. Bu da, istər-istəməz, güclü təhlükəsizlik tədbirlərinin görülməsini zəruri edir. Dövlətimizin başçısı bu baxımdan respublikamızda sərhəd xidmətinin infrastrukturunun yaradılması istiqamətində ciddi tədbirlər görüldüyünü diqqətə çatdırdı.

Azərbaycanın sərhəd xidmətinin kifayət qədər güclü olduğunu və getdikcə daha da təkmilləşdiyini bildirən Prezident İlham Əliyev xatırlatdı ki, hər bir ölkənin təhlükəsizliyi onun sərhədindən başlayır. Terrorizmin yaratdığı dramatik vəziyyət şəraitində sərhəd-

lərin tam təhlükəsizliyini təmin etmək üçün bütün ölkələrin sərhəd xidmətləri sıx əməkdaşlıq etməli, qarşılıqlı informasiya mübadiləsi aparmalıdırlar. Yalnız belə əməkdaşlıq nəticəsində Avropada və dünyada təhlükəsizliyə tam nail olmaq mümkündür.

Görüş iştirakçıları adından danışan Almaniyanın Federal Sərhəd Mühafizəsinin rəisi Udo Burkholder Azərbaycanın ümummilli lideri Heydər Əliyevin məzarını ziyarət etdiklərini bildirdi. O, Bakıda keçirilən iclasın əhəmiyyətindən bəhs edərək dedi ki, sərhəd xidmətçiləri vahid bir ailəyə mənsubdur. Azərbaycan sərhədçilərinin bu ailədə xüsusi yeri var. Azərbaycanın sərhəd xidməti Almaniyanın və dünyanın digər ölkələrinin sərhəd xidməti qurumları ilə faydalı əməkdaşlıq edir. Qonaq Azərbaycanda bu xidmətin işinin təkmilləşdirilməsi sahəsində görülən tədbirlərin artıq öz bəhrəsini verdiyini söylədi.

Udo Burkholder "Şiofok konfransı"nın rəmzi hədiyyəsini Azərbaycan Prezidenti İlham Əliyevə təqdim etdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV QƏTƏRİN "ƏL-CƏZİRƏ" TELEYAYIM KORPORASİYASININ ƏMƏKDAŞLARINA MÜSAHİBƏ VERMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 27-də Prezident sarayında Qətərin "Əl-Cəzirə" teleyayım korporasiyasının əməkdaşları Əbdülmunim Salim Adil və Hüda Xəlil Rahməyə müsahibə vermişdir.

- Cənab Prezident, icazə verin, müsahibəmizə çox mühüm hesab etdiyim sualla başlayım. Artıq üç ilə yaxındır ki, atanız, Prezident Heydər Əliyev haqq dünyasındadır. Onun rəhbərliyi illərində Azərbaycan irəliyə doğru addımladı. O, yenidən əldə edilmiş dövlətçiliyin təşəkkülü sahəsində ilk tədbirlərə başladı. İndi, respublikaya Sizin başçılıq etdiyiniz vaxtda özünüzü atanızın dövlətçiliyi möhkəmləndirməsi işinin davamçısı hesab edirsinizmi və bu gün Sizin üçün ən önəmli məqsəd hansıdır?

-Təbii ki, özümü Heydər Əliyevin işlərinin davamçısı hesab edən təkcə mən deyiləm, indi baş verənləri Azərbaycan xalqı da məhz belə qəbul edir. Mən bu vəzifəyə başlayanda bildirmişdim ki, Azərbaycanda Heydər Əliyevin rəhbərliyi ilə bir çox illər ərzində həyata keçirilmiş nə varsa, hamısını davam etdirəcəyəm. O illər Azərbaycan üçün həlledici illər olmuşdur, çünki dövlətimizin özünün varlığı sual altında idi. Azərbaycanda cərəyan etmiş mənfi proseslər ölkəmizin dövlətçiliyinə, əslində, son qoya bilərdi. Heydər Əliyevin xidməti, ilk növbədə, ondadır ki, o, müstəqilliyimizi qoruyub saxladı, möhkəmləndirdi və Azərbaycanı elə bir səviyyəyə çıxardı ki, ölkəmizin hərtərəfli inkişafı heç kimdə heç bir sual və şübhə doğurmur.

İndi qarşımızda duran vəzifə bu möhkəm təməl əsasında inkişaf etmiş iqtisadiyyata və siyasi sistemə malik müasir dövlət, bizim hamımızın fəxr edə biləcəyimiz ölkə yaratmaqdan ibarətdir. Son üç ildə bu istiqamətdə böyük uğurlara nail olmağımız məndə məmnunluq hissi və atamın başladığı və həyata keçirdiyi və indi bizim müvəffəqiyyətlə davam etdirdiyimiz işlərə görə qürur hissi doğurur.

- Cənab Prezident, təbii ki, Azərbaycan üçün ən ağrılı problemlərdən biri təkcə Dağlıq

Qarabağın deyil, həm də onun hüdudlarından kənarda 7 rayonun işğalıdır. Hazırda Azərbaycanın ATƏT və digər beynəlxalq təşkilatlar, o cümlədən BMT Baş Məclisi vasitəsilə göstərdiyi diplomatik səylərin uğuruna inanırsınızmı?

- Bizim göstərdiyimiz səylər hələlik əməli nəticə verməmişdir. Əlbəttə, bu, bizdə, Azərbaycan rəhbərliyində və ictimaiyyətində böyük narahatlıq doğurur. Çünki bu vəziyyət 10 ildən çoxdur davam edir. Azərbaycanlılara qarşı həyata keçirilmiş etnik təmizləmə dünya birliyi tərəfindən pislənməmişdir. Halbuki, 1 milyondan çox adam Ermənistan tərəfindən etnik təmizləməyə məruz qalmışdır. Sərhədləri bütün dünya tərəfindən tanınan suveren dövlətin ərazisinin, - bizim ərazi bütövlüyümüz BMT tərəfindən də tanınır, - işğalına dünya birliyi tərəfindən lazımi münasibət göstərilməmişdir. Bu işğal nəticəsində torpaqların 20 faizi zəbt olunmuş, 1 milyondan çox azərbaycanlı qaçqına və məcburi köçkünə çevrilmişdir. Başqa sözlə, bütün bunlar uzun illər davam edən ən böyük ədalətsizlikdir. Təəssüf ki, dünya birliyi bu işğala son qoymaq üçün təcavüzkara lazımi təsir göstərmir. Biz münaqişənin sülh yolu ilə həlli üçün səy göstəririk, lakin eyni zamanda əmin oluruq ki, ciddi hərbi, siyasi, diplomatik və iqtisadi vasitələr olmasa, işğala son qoymaq çətin, bəlkə də, qeyri-mümkün olacaqdır. Buna görə də ATƏT çərçivəsində danışıqlar prosesini davam etdirərək, habelə bu məsələnin müzakirəsinə yeni qurumları, o cümlədən BMT Baş Məclisini, Avropa Şurası, İslam Konfransı Təşkilatını və digər təşkilatları cəlb etməklə biz dinc yolla nizamasalma üçün bütün imkanlardan istifadə etmək istəyirik ki, problemin sülh yolu ilə həlli üçün hər şeydən istifadə edib-etmədiyimiz barədə gələcəkdə heç bir şübhəmiz qalmasın. Bununla yanaşı, biz ölkəmizi möhkəmləndiririk, iqtisadiyyatımızı, müdafiə sahəsini möhkəmləndiririk. Azərbaycana yatırılan çox böyük məbləğdə sərmayələr ona gətirib çıxardı ki, bu gün bizim iqtisadiyyatımız Ermənistan iqtisadiyyatından 6 dəfə üstündür, gələn il isə 10 dəfə artıq olacaqdır. Təbii ki, bütün bunlar məsələnin həlli üçün bizdən ötrü getdikcə daha əlverişli şərait yaradacaqdır.

Dağlıq Qarabağ əzəli Azərbaycan torpağıdır. Ermənilər oraya XIX əsrin birinci yarısında köçürülmüşlər. Dağlıq Qarabağın hüdudlarından kənardakı ərazilərin əhalisi yüz faiz azərbaycanlılar idi. Dağlıq Qarabağ əhalisinin təxminən 30 faizi azərbaycanlılar idi, bu, kifayət qədər çoxdur. Bir sözlə, həm tarixi, həm də hüquqi baxımdan ədalət bizim tərəfimizdədir. İqtisadi potensial baxımından Ermənistan bizim üçün artıq rəqib deyildir. Hərbi potensial nöqteyi-nəzərindən bu gün Azərbaycan ordusu Qafqazda ən güclü ordudur və onun gücü artır, çünki biz hərbi büdcəmizi hər il artırırıq. Gələn il isə bizim hərbi büdcəmiz Ermənistanın bütün büdcəsinə bərabər olacaqdır.

Bütün energetika, iqtisadi layihələrimiz tamamilə həyata keçirildikdən sonra Azərbaycan çox güclü dövlətə çevriləcəkdir. Ermənistan bizimlə yarışa bilməyəcəkdir. Ona görə də Ermənistan rəhbərliyi bu yolun fəlakətliliyini, perspektivsizliyini və münaqişə sülh yolu ilə nizama salınmasa, Dağlıq Qarabağ və Ermənistan əhalisini necə bir təhlükəyə məruz qoyacaqlarını başa düşməlidir.

-Bir halda ki, Azərbaycanın hərtərəfli - iqtisadi, sənaye və hərbi baxımdan möhkəmləndiyindən danışırıq, onda demək olarmı, elə bir hədd, elə bir sərhəd varmı ki, artıq ondan sonra Siz belə qənaətə gələcəksiniz ki, bütün sülh və diplomatiya imkanları tükənmişdir?

- Bilirsiniz, danışıqlar prosesinin lap əvvəlindən, 1994-cü ildən bu proses hansısa formatda gedirdi, hansısa təkliflər müzakirə edilirdi. Tərəflər, əsasən, ATƏT-in Minsk qrupundan gələn təkliflər ətrafında dialoq aparırdılar. Lakin hansısa mərhələdə, nizamasalma prinsiplərinin az-çox hansısa ümumi anlaşmasına gəlib çıxdıqda, danışıqlar pozulurdu. Özü də erməni tərəfinin təqsiri üzündən pozulurdu. Əvvəlcə Ermənistanda çevriliş oldu və rəhbərlik zorakılıq yolu ilə dəyişdi və danışıqlar pozuldu. Sonra Ermənistan parlamentində dövlət terrorizmi aktı törədildi, Ermənistan hakimiyyətinin nümayəndələri öldürüldü və beləliklə, danışıqlar yenidən pozuldu, sonrakı mərhələlər də həmçinin. Ermənistan tərəfi son anda həmişə danışıqlardan yayınır.

İndiki danışıqlar formatı mərhələli həlli nəzərdə tutan Praqa prosesi formatıdır, yəni Ermənistanın işğalçı qüvvələrinin ərazilərimizdən çıxarılmasını, Dağlıq Qarabağın statusunun müzakirə edilməsini və təhlükəsizliyi möhkəmlətmək sistemini, habelə sülhyaratma əməliyyatını nəzərdə tutur. Ümumən, söhbət bundan gedir. Yəni, bu, əslində, yekun mərhələsidir və əgər o, erməni tərəfinin qeyri-konstruktiv mövqeyi ilə pozulsa, onda nə Minsk qrupu həmsədrlərinin, nə də münaqişə tərəflərinin danışıqları davam etdirmək üçün daha imkanları, sadəcə, qalmayacaqdır. Yəni, gələcəkdə danışıqlar nəyin ətrafında aparılacaqdır? Ona görə də biz hesab edirik ki, indiki mərhələdə danışıqlar prosesini erməni tərəfinin pozması danışıqların dayandırılmasına gətirib çıxara bilər. Lakin biz başa düşürük ki, danışıqlar dayanarsa, onda bundan sonra nəsə baş verməlidir. Biz oturub, heç nə etməyə bilmərik, nə vaxtsa nə isə baş verəcəyini gözləyə bilmərik. Biz ya danışıqlar prosesində, ya da bu prosesdən kənarda olmalıyıq. Əgər biz danışıqlar prosesindən kənarda olsaq, onda Azərbaycan danışıqların aparılmasına dair bütün öhdəlikləri öz üzərindən götürəcəkdir və bu məsələdə öz strategiya və taktikamızı dəyişəcəyik. Əlbəttə ki, onda istənilən digər variantlar müzakirə ediləcəkdir.

Dediyim kimi, Azərbaycanın güclü iqtisadi potensiala malik olduğu və Azərbaycanla müqayisədə Ermənistanın zəif ölkə olduğu bir şəraitdə, dərhal hərbi əməliyyat barədə düşünmək zəruri deyildir.

Hərbi əməliyyat sonuncu addımdır. Yəni Azərbaycanın çox böyük maliyyə, insan ehtiyatları, nəhəng intellektual potensialı olduğu halda, məqsədə çatmağımız üçün bizim çox imkanlarımız olacaqdır. Sadəcə olaraq, Ermənistanda anlamalıdırlar ki, proses bizim xeyrimizə inkişaf edir.

Bəli, əlbəttə, prosesin uzanması bir milyon qaçqın-köçkünümüzün əzab-əziyyəti ilə müşayiət olunur. Lakin biz onlara kömək etməyə çalışırıq, onlar üçün yeni müasir şəhərlər və qəsəbələr salırıq. Biz qaçqın-köçkünləri cəmiyyətin gündəlik həyatına inteqrasiya etməyə çalışırıq. Onlar üçün müvəqqəti də olsa, normal həyat şəraiti yaratmağa çalışırıq, çünki əminik ki, onlar öz torpaqlarına qayıdacaqlar. Buna görə də münaqişənin uzanması üzündən insanlarımız narahatlıq və əziyyət çəkirlər. Lakin Ermənistanda anlamalıdırlar ki, prosesin inkişafı baxımından onların tutduğu yol heç yerə aparmır. Onların mövqeyi yalnız özlərinin təsəvvürlərinə və arzularına əsaslanır. Bizim mövqeyimiz isə beynəlxalq hüquq normalarına əsaslanır. Azərbaycanın ərazi bütövlüyü hamı tərəfindən - ATƏT-in Minsk qrupunun həmsədrləri olan ABŞ, Rusiya və Fransa, Avropa İttifaqı və İslam aləmi, bütün dünya tərəfindən tanınmışdır. BMT Dağlıq Qarabağı Azərbaycanın ayrılmaz hissəsi kimi tanımışdır. Ona görə də Ermənistan ya diasporun, ya da

dünyanın müxtəlif ölkələrində Ermənistanı qurban kimi qələmə verməyə cəhd göstərən satqın, riyakar siyasətçilərin köməyinə uzun müddət arxalana bilməz. Bu, çox davam etməyəcəkdir. Bizim aramızda qüvvələr tarazlığı olanda, hərbi və iqtisadi potensialımız müəyyən dərəcədə təxminən bərabər olanda, onlar belə fəaliyyəti davam etdirə bilirdilər. Biz bu tarazlığı pozduq. Bu tarazlıq daha yoxdur və aramızdakı fərq artacaqdır.

Dağlıq Qarabağ məsələsi bizim bir nömrəli problemimizdir. Bizim maliyyə imkanlarımız, siyasi qüvvəmiz, bizim regiondakı mövqeyimiz şəraitində, enerji ehtiyatları baxımından Azərbaycanın region üçün, Avropa üçün vacibliyi şəraitində Ermənistan bizimlə rəqabət apara bilməz. Onlar bunu anlamalıdırlar. Dağlıq Qarabağın erməni əhalisinin təhlükəsizliyi naminə, Ermənistan əhalisinin təhlükəsizliyi naminə onlar işğal olunmuş ərazilərdən könüllü surətdə çıxmalıdırlar.

- Biz eşidirik ki, Rusiya strateji tərəfdaşdır, Birləşmiş Ştatlar da Sizə yaxındır, hələ Türkiyəni demirik... Siz hansı xarici siyasəti yeridirsiniz?

- Bilirsinizmi, daxili siyasət kimi, xarici siyasət də elə bir amildir ki, hamının gözü qarşısındadır. Biz Azərbaycanda səmimi siyasət yeridirik. Başqa sözlə, siyasətimizdə heç bir ikimənalılıq yoxdur - həm rəsmi görüşlərdə, həm bəyanatlarımızda, həm qəbul etdiyimiz qərarlarda biz daim həm ictimaiyyət üçün, həm də xarici tərəfdarlarımız üçün düzgün, açıq siyasət yeridirik. Çünki biz dünyada yalnız o vaxt nüfuz və hörmət qazana bilərik ki, prioritetlərimiz haqqında açıq danışaq, bütün məsələlərə dair mövqeyimizi açıq bəyan edək və tərəfdaşlarımızla əməkdaşlıq etməyə çalışaq. Bəzən, bəlkə də, müəyyən amillərin təsiri altında belə təsəvvür yaranır ki, öz aralarında hansısa problemləri olan ölkələrlə normal əməkdaşlıq etmək mümkün deyildir. Azərbaycanın təcrübəsi bunu təkzib edir.

Siz Rusiya ilə stratcji tərəfdaşlıq münasibətlərimizi xatırlatdınız. Hazırda bu münasibətlər Azərbaycan müstəqillik qazandığı vaxtdan bəri ən yüksək səviyyəyə çatmışdır və biz bundan çox razıyıq. Bu, Rusiyanın da, bizim də maraqlarımıza cavab verir. Amerika Birləşmiş Ştatları ilə münasibətlərimiz barədə də eyni sözləri demək olar. Strateji tərəfdaşlıq və müxtəlif sahələrdə əməkdaşlıq münasibətlərimiz qarşılıqlı surətdə faydalı və regionun inkişafı üçün çox vacibdir. Türkiyə bizim ən yaxın tərəfdaşımızdır, Azərbaycanın müstəqilliyini ilk tanıyan ölkədir, bizi möhkəm qardaşlıq və əməkdaşlıq telləri bağlayır. Eyni sözləri bizim digər qonşumuz - Gürcüstan haqqında da deyə bilərəm. Biz Gürcüstanla müxtəlif sahələrdə - siyasi, iqtisadi münasibətlər sahəsində, energetika layihələrində fəal əməkdaşlıq edirik. Bizim digər qonşumuz İrandır. Onunla hazırkı münasibətlərimiz ictimaiyyətin əhval-ruhiyyəsini tam əks etdirir və çox şadıq ki, bu münasibətlər ən yüksək səviyyəyə qalxmışdır və bizim aramızda heç bir problem yoxdur, hərçənd, bəzən onları süni surətdə yaratmağa cəhd göstərirlər.

Avropa İttifaqı ilə münasibətlərimiz bu gün yeni mərhələyə keçir. Avropa İttifaqı Cənubi Qafqaz üçün, o cümlədən Azərbaycan üçün tərəfdaşlıq və qonşuluq proqramı təklif etmişdir. Energetika sahəsində də yaxşı perspektivlər açılır. İslam Konfransı Təşkilatında mövqelərimiz möhkəmlənir. Hazırda Azərbaycan burada nazirlər səviyyəsində həmsədrdir.

Görürsünüz, bütün bunlar ölkənin inkişafı üçün əlverişli imkanlar açır. Bizim başlıca vəzifəmiz Azərbaycanı uğurla inkişaf etdirmək, riskləri minimuma endirmək, bütün ehti-

yatlarımızı optimallaşdırmaq və iqtisadi, sosial inkişafa nail olmaqdır. Bunu yalnız sərhədlərimizdə vəziyyət yaxşı olduqda, əsas tərəfdaşlarımızla münasibətlər yaxşı olduqda təmin etmək olar. Biz buna nail ola bilmişik. Bizim təcrübəmiz göstərir ki, ayrı-ayrı ölkələr arasındakı ziddiyyətlər Azərbaycan üçün heç bir rol oynamır. Biz həmişə demişik ki, Azərbaycanın mənafeyi birinci yerdədir. Bura, ölkəmiz rəqabət meydanı deyil, əməkdaşlıq meydanıdır. Biz buna nail ola bilmişik.

Odur ki, bizim xarici siyasət prioritetlərimiz çoxşaxəlidir və bir-birini tamamlayır.

- Cənab Prezident, bir halda ki, İranı xatırladınız, belə bir sualı verməyə bilmərəm. O cümlədən İran ətrafında, onun nüvə dosyesi ətrafında yaranmış vəziyyət barədə. İran yaxın qonşunuzdur və onun əhalisinin xeyli hissəsi azərbaycanlılardır. Siz bu məsələnin həllini necə təsəvvür edirsiniz?

- Bəli, İran yaxın qonşumuzdur və siz düzgün qeyd etdiniz ki, İranda çox böyük sayda azərbaycanlılar yaşayırlar və əlbəttə ki, biz onların taleyinə biganə deyilik. Ümumiyyətlə, regional miqyasda qonşunun təhlükəsizliyi sənin təhlükəsizliyin deməkdir. Bu, aksiomdur. Bizim yanaşmamız məhz belədir. Ona görə də hesab edirik ki, narahatlıq doğuran hər bir məsələ danışıqlar yolu ilə, sülh yolu ilə həll edilməlidir. Burada təzyiq, hədə-qorxu gəlmək metodları məqbul deyil, onların heç bir xeyri olmayacaqdır.

Dünyanın istənilən digər ölkəsi kimi, İranın da öz atom energetikasını inkişaf etdirmək hüququ var. Burada qanuna zidd bir şey yoxdur. Əgər bu, müəyyən təşkilatlarda və ya ölkələrdə narahatlıq doğurursa, bu məsələni nizama salmaq lazımdır. Elə bir anlaşmaya gəlmək gərəkdir ki, hər iki tərəf mövcud vəziyyətdən razı qalsın. Əgər narahatlıq əsaslıdırsa, o, aradan qaldırılmalıdır. Lakin hər bir dövlətin suveren hüququ da mütləq həyata keçirilməlidir. Ona görə də biz ancaq danışıqlar yoluna tərəfdarıq və hesab edirik ki, bu, yeganə mümkün yoldur.

- Cənab Prezident, hamımız bilirik ki, İranın Ermənistanla, bu gün düşməniniz olan, Azərbaycan ərazisinin böyük bir hissəsini, təxminən 20 faizini işğal etmiş ölkə ilə də yaxşı münasibətləri var. Bu, Sizi narahat edirmi, yoxsa, əksinə, ümid edirsiniz ki, bu münasibətlər vəziyyətin nizama salınması işində kömək edə bilər?

- Bilirsinizmi, təbii ki, bu məsələlər ictimai qavrayış səviyyəsində, ictimai rəy səviyyəsində Azərbaycanda narahatlıq doğurur. Deyək ki, sənin ərazini işğal etmiş ölkəni təsəvvürə gətirin. Təbii ki, biz bu ölkənin beynəlxalq əlaqələrinə və onunla kimlərin dost olduğuna, kimlərin dost olmadığına həmişə diqqət yetiririk. Lakin digər tərəfdən, beynəlxalq münasibətlər sistemi mövcuddur. Qonşularımızdan təkcə İranın deyil, bəzi başqalarının da Ermənistanla yaxşı münasibətləri var. Yəni, bu, Azərbaycan tərəfindən siyasi qərarlar qəbul edilməsinə təsir göstərə biləcək amil olmamalıdır. Əksinə, çalışmalıyıq ki, Ermənistanın yaxşı münasibətləri olan ölkələrlə bizim ondan da yaxşı münasibətlərimiz olsun. Biz buna çalışırıq və belə də edirik.

Bizim regionda və dünyada ənənəvi müttəfiqlərimiz var, onlar Azərbaycanı dəstəklədiklərini daim bəyan edirlər, onlarla kifayət qədər məhsuldar və səmərəli münasibətlərimiz yaranır. Diplomatiyamızın köməyi ilə maksimum dərəcədə səylərimizi bizdə narahatlıq doğuran məqamlar üzərində cəmləşdirməliyik. Başqa sözlə, biz diplomatiyada Ermənistanın meydanında oynamalıyıq.

Biz Los-Ancelesdə Baş konsulluq açdıq. Bu, Birləşmiş Ştatlarda böyük şəhərdir. Əlbət-

tə ki, orada diplomatik nümayəndəliyimizin olması bizim üçün çox vacibdir. Lakin sirr deyil ki, Kaliforniya ABŞ-da ermənilərin çox yaşadığı ştatdır. Biz orada olmaq və onlarla, erməni lobbisi ilə mübarizə aparmaq üçün orada Baş konsulluq açdıq. Biz Argentinada da səfirlik açırıq. Bildiyiniz kimi, Latın Amerikasında ən güclü erməni lobbisi Argentinadadır. Elə görünə bilər ki, heç bir ciddi əlaqələrimiz olmayan ölkədə səfirlik açmaq Azərbaycanın nəyinə gərəkdir? Ancaq biz orada səfirlik açırıq ki, erməni lobbisi ilə onların ərazisində mübarizə aparaq. Biz daim onları qabaqlamalıyıq. Biz buna nail olmuşuq. Bizim diplomatik təşəbbüslərimiz, siyasi gedişlərimiz, regiondakı inteqrasiya prosesləri, region ölkələri ilə münasibətlərimizin möhkəmlənməsi - bütün bunlar bizim mövqelərimizi gücləndirir.

Bu gün Ermənistan diplomatik baxımdan uduzmuş ölkədir. Onların özlərinə yaxın müttəfiq saydığı ölkələr bu gün Azərbaycanın da yaxın müttəfiqidir. Bu ölkələr üçün mühümlüyü baxımından, Azərbaycan Ermənistandan daha mühümdür. Ermənistan bir ölkə kimi heç bir maraq kəsb edə bilməz, çünki o, bir tərəfdən coğrafi dalandır, digər tərəfdən isə, biz boru kəmərimizi kənardan çəkməklə onu energetika baxımından dalana çevirmişik. Biz Qars-Tbilisi-Bakı dəmir yolunu çəkməklə onu nəqliyyat baxımından da dalana çevirəcəyik. Regionumuzdan ümumiyyətlə uzaqda olan təşkilatların və siyasətçilərin etirazlarına baxmayaraq, biz bunu edəcəyik.

Beləliklə, Ermənistan onlar üçün nə ilə cəlbedici ola bilər, Ermənistan region ölkələri üçün nə ilə cəlbedici ola bilər? Yalnız bununla ki, onun müxtəlif ölkələrin siyasətinə təsir göstərən zəngin diasporu var? Bu, amildir. Lakin bu amil Azərbaycan amili ilə müqayisədə olduqca kiçikdir.

Bu gün Azərbaycan böyük potensiala - enerji, nəqliyyat potensialına, siyasi potensiala malik ölkədir, islam aləmində möhkəm mövqeyə malik ölkədir. Biz müstəqillik əldə etdiyimiz vaxtdan bəri, xüsusilə Dağlıq Qarabağ məsələsinin nizama salınması məsələsində Azərbaycanı dəstəklədiklərinə görə İslam aləmindəki qardaşlarımıza çox minnətdarıq. Azərbaycan Avropaya və dünya bazarlarına enerji ehtiyatları göndərəcək bir ölkədir. Bu, Şərq-Qərb dəhlizinin keçdiyi ölkədir. Tərəzinin bir gözündə Azərbaycanı, o biri gözündə isə Ermənistanı təsəvvür edin. Müqayisəolunmaz çəkilərdir. Biz bütün istiqamətlərdə mübarizə aparmalıyıq. Mən hökumət qarşısında, Azərbaycanın bütün vətənpərvərləri qarşısında vəzifə qoymuşam ki, ermənilər bizim ərazilərdən getməyincə, Ermənistana qarşı bütün cəbhələrdə mübarizə aparılsın. Düşünürəm ki, onlar bizim ərazilərimizdən çıxandan sonra münasibətlərimiz bərpa olunacaq və biz qonşular kimi yanaşı yaşamağı davam etdirəcəyik.

- Cənab Prezident, Xəzər Azərbaycan üçün firavanlıq və iqtisadiyyatı möhkəmlətmək mənbəyidir. Lakin belə fikir var ki, Xəzər həm də sahilyanı ölkələr arasında nifaq mənbəyidir. Sizin dediyiniz neftin nəqli marşrutlarını nəzərə alsaq, bu, Rusiya kimi ölkələrin mənafelərinə toxunur, çünki bu marşrutlar Rusiyadan yan keçir.

- Xəzər barəsində Rusiya ilə dənizin sektoral bölgüsü haqqında sazişimiz var. Bu saziş belə həssas məqamla bağlı bütün məsələləri tamamilə aradan götürmüşdür. İkitərəfli sektoral bölgü barədə Qazaxıstanla da belə saziş imzalamışıq. Yeri gəlmişkən, Rusiyanın Qazaxıstanla da sazişi var. Hesab edirəm ki, bu ikitərəfli sazişlər məsələnin çoxtərəfli tənzimlənməsi üçün əsas ola bilər. Bu, Xəzəryanı dövlətlərin əməkdaşlığı baxı-

mından çox vacibdir. Gündəlik həyat baxımından isə, bilirsinizmi, biz artıq 15 ildir müstəqil dövlətik və 15 ildə Xəzərin statusu problemi nizama salınmayıbdır. Sizə açığını deyəcəyəm, bu, praktik baxımdan bizə mane olmur. Biz Xəzər dənizinin Azərbaycan sektoruna milyardlarla dollar məbləğində sərmayə cəlb etmişik, neft və qazın Xəzər dənizindən nəqli üçün boru kəmərləri tikmişik və onlardan uğurla istifadə edirik. Əlbəttə, Xəzər mövzusunun beştərəfli səviyyədə tənzimlənməsi Xəzərətrafı regionda etimadı möhkəmlətmək üçün çox mühüm elementdir.

O ki qaldı boru kəmərinə, siz də təkrar etdiniz ki, o, Rusiyadan yan keçir. Mən bu tezislə razı deyiləm, çünki biz "yan keçən" boru kəməri çəkməmişik. Biz Aralıq dənizinə boru kəməri tikmişik. Əgər Aralıq dənizinə boru kəmərini Rusiya ərazisi ilə çəkmək mümkün olsaydı və bu, iqtisadi cəhətdən sərfəli olsaydı, biz bunu edərdik. Bizə dünya bazarına çıxmaq lazım idi. Aralıq dənizi isə dünya bazarı deməkdir. Qara dəniz Avropa bazarı deməkdir. Yeri gəlmişkən, bizim boru kəmərlərindən biri məhz Rusiya ərazisi ilə onun Novorossiysk limanına gedir və demək olar, 10 ildir uğurla fəaliyyət göstərir. Gürcüstanın Qara dənizdəki Supsa limanına gedən və artıq 6 ildən çoxdur fəaliyyət göstərən boru kəməri ilə olduğu kimi, biz bu boru kəməri ilə də neft nəql edirik. Bizə Aralıq dənizinə çıxmaqla gündə bir milyon barrel neft nəql etmək gücü olan boru kəməri lazım idi. Biz onu tikdik və o, heç kimə qarşı yönəldilməyib, heç kimin mənafelərinə toxunmur. Birinci dərəcəli məsələ Azərbaycanın mənafeləridir. Bizim öz enerji ehtiyatlarımızı hasil etmək hüququmuz, istədiyimiz yerə boru kəmərləri çəkmək hüququmuz var. Biz bunu həm öz pulumuza, həm də tərəfdaşlarımızın, maliyyə təsisatlarının puluna həyata keçirdik. Həmin boru kəməri heç kimə qarşı yönəldilməyib, əksinə, ümidvaram, gələcəkdə biz onu genişləndirdikdən, digər paralel boru kəməri çəkdikdən sonra o, qonşularımızın da xeyrinə ola bilər.

- Cənab Prezident, vaxtınızdan sui-istifadə etmək istəmirəm.

İcazənizlə, sonuncu, ənənəvi sualımızı verək. Bu, Azərbaycanın ərəb dünyası ilə qarşılıqlı münasibətləri barədədir. O mənada ki, Azərbaycan İraqda koalisiya qüvvələrində iştirak edir. Cüzi qüvvə ilə iştirak etsə də, bu, hər halda, həssas məqamdır.

- Ərəb dünyası ilə münasibətlərimiz çox müsbət şəkildə təşəkkül tapır. Biz buna çox böyük əhəmiyyət veririk. Bu, xarici siyasət fəaliyyətimizdə də olduqca mühüm istiqamətdir. Son iki-üç ildə bir çox ərəb ölkələrində öz səfirliklərimizi açmağımız çox mühüm amildir və əməkdaşlığımıza necə böyük əhəmiyyət verdiyimizi göstərir. Mən Prezidentliyim dövründə üç dəfə Səudiyyə Ərəbistanında olmuşam - həm rəsmi səfərdə, həm də digər səbəblərlə əlaqədar. Qətərə rəsmi səfər etmişəm. Ərəb dövlətlərinin başçıları Azərbaycana gəlirlər, bizim aramızda İslam Konfransı Təşkilatı çərçivəsində də, ikitərəfli formatda da çox yaxşı əlaqələr var. Biz bu əlaqələri genişləndirmək niyyətindəyik. Dediyim kimi, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması məsələsində Azərbaycanı dəstəkləyən ərəb ölkələrinə çox minnətdaram. Səudiyyə Ərəbistanı kimi ölkənin Ermənistanla heç bir diplomatik münasibəti yoxdur və onu yalnız buna görə tanımır ki, Ermənistan Azərbaycan ərazisini işğal etmişdir. Bu, qardaşlığın çox yüksək təzahürüdür və bizim üçün çox qiymətlidir.

Ona görə də xarici siyasət doktrinamızda bu istiqamətin çox böyük əhəmiyyəti var və bu əhəmiyyət getdikcə artır. Çünki bizi narahat edən məsələlər eynidir. İslama nifrətlə

bağlı məsələlər ərəb dünyasını da, bizi də narahat edir. İslamın terrorizmlə eyniləşdirilməsi, müsəlmanlar üçün təhqiramiz olan ifadələr işlədilməsi, həmrəyliyə deyil, əksinə, qarşıdurmaya doğru aparan bəyanatlar verilməsi və hərəkətlər edilməsi narahatlıq doğurur. Bütün bunlar bizi narahat edir, ərəb dünyasını narahat edir. Bizi bu amil də yaxınlaşdırır. Odur ki, biz bu istiqamətdə öz səylərimizi artırmalıyıq. Təsadüfi deyil ki, biz İslam Konfransı Təşkilatının iki mühüm konfransının - xarici işlər nazirləri səviyyəsində və turizm nazirləri səviyyəsində konfranslarının Bakıda keçirilməsinin təşəbbüsçüsü olmuşuq. Bu da əməkdaşlıq etmək niyyətimizin daha bir təzahürüdür. Digər tərəfdən, bu, islam dövlətlərinin yüksək vəzifəli nümayəndələrinin Azərbaycana gəlməsi, indi Azərbaycanın necə bir ölkə olduğunu görməsi və bizi narahat edən məsələləri müzakirə etmək üçün imkandır.

Ona görə də hesab edirəm ki, gələcəkdə, biz öz tərəfimizdən bu münasibətlərin möhkəmlənməsi üçün bütün işləri görəcəyik. Bu münasibətlərin böyük tarixi kökləri var, onlar xalqlarımızın birliyinə əsaslanır. Bugünkü siyasi mənafelərimiz də uyğun gəlir.

- Cənab Prezident, bu cavablara görə çox sağ olun. Onlar ekranımızda əksini tapacaq və başa düşüləcəkdir. Çünki dediyiniz kimi, dünyamız ümumi dünyadır. Bu cavablara görə Sizə çox minnətdarıq.

Bu müsahibə oktyabrın 15-də "Əl-Cəzirə" telekanalı ilə yayımlanmışdır.

AZƏRBAYCAN MİLLİ MƏCLİSİNİN SƏDRİ OQTAY ƏSƏDOVUN UKRAYNAYA SƏFƏRİ

Milli Məclisin sədri Oqtay Əsədov Babi Yarda faciənin 65 illiyi ilə əlaqədar keçirilən matəm tədbirlərində iştirak etmək üçün sentyabrın 27-də Kiyevə gəlmişdir.

Milli Məclisin sədri Oqtay Əsədov sentyabrın 27-də Babi Yarda nasizm qurbanlarının abidəsi önünə gül dəstəsi qoyaraq, onların xatirəsini ehtiramla anmışdır.

Matəm mərasimi yarğanın cənubundakı bağçada 1976-cı ildə qoyulmuş abidənin yanında keçirilmişdir. Mərasimə dörd dövlətin başçıları, müxtəlif ölkələrin rəsmi nümayəndə heyətləri, beynəlxalq siyasi, ictimai və dini təşkilatların nümayəndələri, görkəmli xadimlər, faciənin şahidləri, həlak olanların qohumları, gettonun keçmiş məhbusları və Babi Yar faciəsinin 65-ci ildönümünə həsr olunmuş "Qoy mənim xalqım yaşasın" beynəlxalq forumunun digər iştirakçıları qatılmışlar.

Elə həmin gün Milli Məclisin sədri Oqtay Əsədov Vətənə yola düşmüşdür.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV MÜSTƏQİL DÖVLƏTLƏR BİRLİYİ ONKOLOQLARI VƏ RADİOLOQLARININ DÖRDÜNCÜ QURULTAYININ İŞTİRAKÇILARINI QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 28-də Prezident sarayında Müstəqil Dövlətlər Birliyi onkoloqları və radioloqlarının dördüncü qurultayının iştirakçılarını qəbul etmişdir.

Ölkəmizdə belə mötəbər tədbirin keçirilməsinin əhəmiyyətini vurğulayan dövlətimizin başçısı, Azərbaycanda müxtəlif sahələrdə, o cümlədən səhiyyədə böyük inkişafın olduğunu, respublikada 10 diaqnostika mərkəzinin tikildiyini bildirdi.

Dövlətimizin başçısı Müstəqil Dövlətlər Birliyi onkoloqları və radioloqlarının dördüncü qurultayının Azərbaycanda keçirilməsinin MDB çərçivəsində humanitar sahədə əlaqələrin genişlənməsi işinə xidmət etdiyini vurğuladı.

Nümayəndə heyəti adından danışan Rusiyanın N.Bloxin adına Onkoloji Elmi Mərkəzinin baş direktoru, Rusiya Tibb Elmləri Akademiyasının prezidenti akademik Mixail Davıdov bu qurultayın xüsusi əhəmiyyət daşıdığını qeyd etdi. Prezident İlham Əliyevin qurultayın keçirilməsinə göstərdiyi dəstəyi xüsusi vurğulayan qonaq dövlətimizin başçısına minnətdarlığını bildirdi. O qeyd etdi ki, keçmiş SSRİ respublikaları arasında Azərbaycan yeganə ölkədir ki, burada onkologiya üzrə iki akademik çalışır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV MDB-NİN İCRAİYYƏ KOMİTƏSİNİN SƏDRİ - İCRAÇI KATİBİ VLADİMİR RUŞAYLONU QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 28-də Prezident sarayında MDB-nin İcraiyyə Komitəsinin sədri - icraçı katibi Vladimir Ruşaylonu qəbul etmişdir.

MDB çərçivəsində müxtəlif sahələrdə əməkdaşlığın genişləndirilməsində ölkəmizin yaxından iştirak etdiyini bildirən dövlətimizin başçısı Müstəqil Dövlətlər Birliyi onkoloqları və radioloqlarının dördüncü qurultayının Bakıda keçirilməsinin əhəmiyyətini vurğuladı.

Vladimir Ruşaylo Azərbaycanda belə bir mötəbər tədbirin keçirilməsini yüksək qiymətləndirdi.

Görüşdə MDB çərçivəsində əməkdaşlıq və bir sıra digər məsələlər barədə fikir mübadiləsi aparıldı.

AZƏRBAYCAN-FRANSA İQTİSADİ KOMİSSİYASININ AZƏRBAYCAN RESPUBLİKASI TƏRƏFİNDƏN YENİ TƏRKİBİNİN TƏSDİQ EDİLMƏSİ BARƏDƏ AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

1. Azərbaycan-Fransa İqtisadi Komissiyasının Azərbaycan Respublikası tərəfindən yeni tərkibi aşağıdakı heyətdə təsdiq edilsin:

Komissiyanın həmsədri:

Heydər Babayev - Azərbaycan Respublikasının iqtisadi inkişaf naziri

Komissiyanın üzvləri:

Xələf Xələfov - Azərbaycan Respublikası xarici işlər nazirinin müavini

Azər Bayramov - Azərbaycan Respublikası maliyyə nazirinin müavini

Teymur Mehdiyev - Azərbaycan Respublikası mədəniyyət və turizm nazirinin müavini

Sənan Kərimov - Azərbaycan Respublikası səhiyyə nazirinin müavini

Bəhram Əliyev - Azərbaycan Respublikası kənd təsərrüfatı nazirinin müavini

Gülməmməd Cavadov- Azərbaycan Respublikası sənaye və energetika nazirinin müavini

Səfər Mehdiyev - Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi sədrinin birinci müavini

Sabir İlyasov - "Azərbaycan Hava Yolları" Dövlət Konserni baş direktorunun birinci müavini

Rüfət Aslanlı - Azərbaycan Respublikası Milli Bankı İdarə heyətinin üzvü, baş direktor

2. Bu Sərəncamın 1-ci bəndində göstərilən Komissiyaya tapşırılsın ki, Azərbaycan Respublikası və Fransa Respublikası arasında iqtisadi əməkdaşlıq əlaqələrinin tənzimlənməsi və daha da genişləndirilməsi istiqamətində müvafiq tədbirlər həyata keçirsin.

3. "Azərbaycan-Fransa İqtisadi Komissiyasının yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 1997-ci il 1 dekabr tarixli 699 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997-ci il, № 6, maddə 521) 2-ci və 3-cü bəndləri qüvvədən düşmüş hesab edilsin.

4. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

İlham Əliyev

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 28 sentyabr 2006-cı il

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV TÜRKİYƏNİN RABİTƏ VƏ NƏQLİYYAT NAZİRİ BİNƏLİ YILDIRIMIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 2-də Prezident sarayında Türkiyənin rabitə və nəqliyyat naziri Binəli Yıldırımın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Ölkələrimiz arasında əlaqələrin müxtəlif sahələrdə, o cümlədən rabitə və informasiya texnologiyaları sahəsində uğurla inkişaf etdiyini vurğulayan dövlətimizin başçısı oktyabrın 3-də Bakıda keçiriləcək beynəlxalq telekommunikasiya və informasiya texnologiyaları sərgi və konfransının da əhəmiyyətini qeyd etdi.

Qars-Axalkalaki-Tbilisi-Bakı dəmir yolu xəttinin həm ölkələrimiz arasında əlaqələrin, həm də regional əməkdaşlığın genişləndirilməsi işində mühüm rol oynayacağını bildirən Prezident İlham Əliyev dedi ki, Azərbaycan bu əhəmiyyətli nəqliyyat xəttinin tikintisi üçün özünün maliyyə öhdəliyini yerinə yetirməyə hazırdır.

Azərbaycan ilə Türkiyə arasında bütün sahələrdə əlaqələrin durmadan inkişaf etməsindən məmnunluqla bəhs edən cənab Binəli Yıldırım Bakıda beynəlxalq telekommunikasiya və informasiya texnologiyaları sərgi və konfransının keçirilməsinin böyük əhəmiyyət daşıdığını söylədi.

Qars-Axalkalaki-Tbilisi-Bakı dəmir yolunun region ölkələrinin qarşılıqlı surətdə faydalı əməkdaşlığında mühüm rol oynayacağını vurğulayan qonaq bu mühüm layihənin uğurla həyata keçirilməsinə Azərbaycanın xüsusi diqqət yetirməsinin Türkiyədə yüksək qiymətləndirildiyini bildirdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BMT-NİN İQTİSADİ VƏ SOSİAL İŞLƏR DEPARTAMENTİNİN YARDIM VƏ ƏLAQƏLƏNDİRMƏ BÖLMƏSİNİN İCRAÇI KATİBİ SARBULAND XANI QƏBUL ETMİŞDİR

Azərbaycan Prezidenti İlham Əliyev oktyabrın 2-də Prezident sarayında BMT-nin İqtisadi və Sosial İşlər Departamentinin yardım və əlaqələndirmə bölməsinin icraçı katibi Sarbuland Xanı qəbul etmişdir.

Vaxt tapıb onu qəbul etdiyinə görə dövlətimizin başçısına minnətdarlığını bildirən cənab Xan Birləşmiş Millətlər Təşkilatının baş katibi Kofi Annanın salamlarını Prezident İlham Əliyevə çatdırdı. O, Azərbaycanın informasiya və telekommunikasiya sahəsindəki inkişafının baş katib tərəfindən yüksək qiymətləndirildiyini bildirdi.

BMT nümayəndəsi dedi ki, onun rəhbərlik etdiyi qurumun əsas məqsədlərindən biri məşğul olduğu sahə üzrə ölkələr arasında dialoq yaratmaq və əlaqələrə istiqamət verməkdir. Qonaq dedi: "Cənab Prezident, biz bilirik ki, Azərbaycan Sizin fəal və uzaqgörən rəhbərliyiniz altında milli informasiya və kommunikasiya texnologiyaları strategiyasının hazırlanmasında inkişafa nail olmuşdur".

Birləşmiş Millətlər Təşkilatının baş katibi Kofi Annanın salamlarına görə minnətdarlığını bildirən dövlətimizin başçısı İlham Əliyev özünün də salamlarını ona çatdırmağı xahiş etdi.

Prezident İlham Əliyev informasiya və kommunikasiya texnologiyalarının nəinki ölkəmizin, eləcə də bütün dünyanın gələcək inkişafında xüsusi rolu olduğunu bildirdi. Dövlətimizin başçısı ölkəmizin bu sahəyə böyük əhəmiyyət verdiyini, informasiya və kommunikasiya texnologiyaları ilə bağlı konkret layihələrimizin mövcud olduğunu vurğuladı.

Prezident İlham Əliyev dedi ki, biz Azərbaycanın bu sahədə dünyanın aparıcı ölkələrindən biri olmasını arzulayırıq.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ATƏT-İN MİNSK QRUPUNUN HƏMSƏDRLƏRİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 2-də Prezident sarayında ATƏT-in Minsk qrupunun həmsədrlərini qəbul etmişdir.

Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması ilə bağlı danışıqların hazırkı vəziyyəti və perspektivlərinə dair fikir mübadiləsi aparılmışdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BOSNİYA VƏ HERSEQOVİNANIN RABİTƏ VƏ NƏQLİYYAT NAZİRİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 2-də Prezident sarayında Bosniya və Herseqovina Respublikasının rabitə və nəqliyyat naziri Branko Dokiçi qəbul etmişdir.

Dövlətimizin başçısı Bosniya və Herseqovinadan Azərbaycana ilk dəfə rəsmi nümayəndənin gəlməsindən məmnunluğunu bildirdi. Azərbaycanın dünya ölkələri ilə sıx münasibətlər qurduğunu nəzərə çarpdıran Prezident İlham Əliyev o cümlədən Bosniya və Herseqovina ilə də müxtəlif sahələrdə əməkdaşlıq etmək niyyətində olduğumuzu vurğuladı.

Bosniya və Herseqovinadan Azərbaycana gəlmiş ilk rəsmi nümayəndə olmasından şərəf duyduğunu bildirən Branko Dokiç yaxın gələcəkdə ölkələrimiz arasında rabitə, informasiya texnologiyaları sahəsində əməkdaşlıq proqramının hazırlanmasının zəruriliyini söylədi. O, Bosniya və Herseqovinanın Azərbaycanla müxtəlif sahələrdə əlaqələri genişləndirmək istədiyini bildirdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AVROPA BİRLİYİ "ÜÇLÜYÜ"NÜN (TROYKA) NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 3-də Prezident sarayında Avropa Birliyi "Üçlüyü"nün (Troyka) nümayəndə heyətini qəbul etmişdir.

Dövlətimizin başçısı qonaqları salamlayaraq dedi ki, sizin ölkəmizə səfəriniz çox əhəmiyyətlidir və Avropa Birliyi ilə Azərbaycan arasında əməkdaşlığın inkişafında yeni mərhələnin başlanğıcı deməkdir. Azərbaycanın Avropa Birliyi ilə əlaqələrinin səviyyəsinin yüksək olduğunu vurğulayan Prezident İlham Əliyev dedi ki, biz müxtəlif sahələrdə əməkdaşlığımızı genişləndirmək niyyətindəyik. Qonşuluq siyasəti bütün regiona sülh və inkişaf gətirəcəkdir. Ümid edirəm ki, aparılan müzakirələr Avropa Birliyi ilə Cənubi Qafqaz münasibətlərinin inkişafında faydalı olacaqdır.

Prezident İlham Əliyevin fikirləri ilə şərik olduqlarını söyləyən Finlandiyanın xarici işlər naziri Erkki Tuomioya Azərbaycanda qonşuluq siyasətinin fəaliyyəti barədə müzakirələr apardıqlarını bildirdi. Bakıya səfərin çox səmərəli olduğunu vurğulayan qonaq ümidvar olduğunu bildirdi ki, qonşuluq siyasəti regionda münaqişələrin həllinə töhfələr verə biləcəkdir. O dedi ki, biz münasibətlərimizin təkcə iqtisadi baxımdan deyil, həm də davamlı siyasi dialoq və əməkdaşlıq çərçivəsində dərinləşəcəyinə ümid edirik.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ABŞ-AZƏRBAYCAN TİCARƏT PALATASININ HƏMSƏDRİ CEYMS BEYKERİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Prezidenti İlham Əliyev oktyabrın 3-də Prezident sarayında ABŞ-Azərbaycan Ticarət Palatasının həmsədri Ceyms Beykerin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Dövlətimizin başçısı XII Beynəlxalq telekommunikasiya və informasiya texnologiyaları sərgi-konfransının Bakıda çox yaxşı səviyyədə keçməsindən məmnunluğunu bildirdi. Azərbaycanda informasiya və telekommunikasiya texnologiyaları sahəsinin inkişafına böyük maraq göstərildiyini vurğulayan Prezident İlham Əliyev ölkəmizin bu sahədə inkişafın yeni mərhələsinə qədəm qoyduğunu nəzərə çarpdırdı. Dövlətimizin başçısı əmin olduğunu bildirdi ki, Azərbaycan telekommunikasiya və informasiya texnologiyaları sahəsində uğurlar əldə edəcəkdir.

Təmsil etdiyi təşkilatın fəaliyyətinə göstərdiyi dəstəyə görə Prezident İlham Əliyevə minnətdarlıq edən cənab Ceyms Beyker Bakıda keçirilən tədbirin əhəmiyyətli olduğunu bildirdi. O, bir sıra ölkələrin, o cümlədən ABŞ şirkətlərinin bu tədbirə cəlb olunmasını məmnunluqla vurğuladı.

AZƏRBAYCAN RESPUBLİKASI VƏ LATVİYA RESPUBLİKASI ARASINDA İQTİSADİ, ELMİ-TEXNİKİ VƏ MƏDƏNİ ƏMƏKDAŞLIQ ÜZRƏ HÖKUMƏTLƏRARASI KOMİSSİYANIN AZƏRBAYCAN RESPUBLİKASI TƏRƏFİNDƏN TƏRKİBİNİN TƏSDİQ EDİLMƏSİ BARƏDƏ AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası və Latviya Respublikası arasında əlaqələrin daha da genişlənməsini təmin etmək məqsədi ilə qərara alıram:

1. Azərbaycan Respublikası və Latviya Respublikası arasında iqtisadi, elmi-texniki və mədəni əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın Azərbaycan Respublikası tərəfindən aşağıdakı tərkibi təsdiq edilsin:

Komissiyanın həmsədri:

Heydər Babayev - Azərbaycan Respublikasının iqtisadi inkişaf naziri

Komissiyanın üzvləri:

Xələf Xələfov - Azərbaycan Respublikasının xarici işlər nazirinin müavini

İlqar Fəti-zadə - Azərbaycan Respublikasının maliyyə nazirinin birinci müavini

Gülməmməd Cavadov - Azərbaycan Respublikasının sənaye və energetika nazirinin müavini

Musa Pənahov - Azərbaycan Respublikasının nəqliyyat nazirinin müavini

Sevda Məmmədəliyeva - Azərbaycan Respublikasının mədəniyyət və turizm nazirinin müavini

Elmar Qasımov - Azərbaycan Respublikasının təhsil nazirinin müavini

İltimas Məmmədov - Azərbaycan Respublikasının rabitə və informasiya texnologiyaları nazirinin müavini

Səfər Mehdiyev - Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi sədrinin birinci müavini

Rüfət Aslanlı - Azərbaycan Respublikasının Milli Bankının İdarə heyətinin üzvü, baş direktor

2. Bu Sərəncamın 1-ci bəndi ilə tərkibi təsdiq edilmiş Hökumətlərarası Komissiyaya tapşırılsın ki, Azərbaycan Respublikası və Latviya Respublikası arasında iqtisadi, elmi-texniki və mədəni əməkdaşlıq əlaqələrinin tənzimlənməsi və onların daha da genişlənməsi istiqamətində müvafiq tədbirləri həyata keçirsin.

3. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

İlham Əliyev

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 3 oktyabr 2006-cı il

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV LATVİYAYA DÖVLƏT SƏFƏRİ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 3-də Latviya Respublikasına üçgünlük dövlət səfərinə gəlmişdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ LATVİYA PREZİDENTİ VAYRA VİKE-FREYBERQANIN TƏKBƏTƏK GÖRÜŞÜ

Oktyabrın 4-də Latviya Prezidentinin iqamətgahında - "Riqa" qəsrində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Latviya Respublikasının Prezidenti Vayra Vike-Freyberqanın təkbətək görüşü olmuşdur.

Görüşdə ölkələrimiz arasında əlaqələrin müxtəlif sahələrdə uğurla inkişaf etdiyi vurğulandı. Dövlət başçıları beynəlxalq təşkilatlar çərçivəsində faydalı əməkdaşlıq, Avratlantik strukturlara inteqrasiya sahəsində qarşılıqlı fəaliyyət məsələlərini müzakirə etdilər və iqtisadi sahədə əlaqələrin genişləndirilməsi üçün böyük potensialın olduğunu bildirdilər.

Prezidentlər bir-birinə xatirə hədiyyələri təqdim etdilər.

DÖVLƏT BAŞÇILARININ GENİŞ TƏRKİBDƏ GÖRÜŞÜ

Oktyabrın 4-də "Riqa" qəsrində təkbətək görüşdən sonra Azərbaycan Prezidenti İlham Əliyevin və Latviya Prezidenti Vayra Vike-Freyberqanın nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü keçirilmişdir.

Xanım Vayra Vike-Freyberqa Azərbaycan Prezidenti İlham Əliyevi bir daha səmimiyyətlə salamlayaraq, Latviyaya dövlət səfəri etməsindən olduqca məmnun qaldığını söylədi, bu səfərin Azərbaycanla Latviya arasında ikitərəfli münasibətlərin inkişafından xəbər verdiyini bildirdi. Azərbaycana bir il bundan əvvəl etdiyi rəsmi səfərini xatırladan Latviya Prezidenti yaddaşında onun uğurlu səfər kimi qaldığını xüsusi vurğuladı. Həmin səfərin bəhrəsinin getdikcə daha çox hiss edildiyini bildirən xanım Vayra Vike-Freyberqa üstündən bir il keçdikdən sonra ikitərəfli münasibətlərdə əldə olunan nəticələri müzakirə və təhlil etmək baxımından dövlətimizin başçısının indiki səfərinin böyük əhəmiyyət daşıdığını söylədi.

Prezident İlham Əliyev ona və nümayəndə heyətinə göstərilən qonaqpərvərliyə görə Prezident Vayra Vike-Freyberqaya minnətdarlığını bildirdi və dedi ki, Azərbaycan Prezidenti kimi mən, ölkələrimiz arasında olan əlaqələrə və onların hərtərəfli inkişafına xüsusi önəm verirəm. Çünki Latviya NATO-nun və Avropa Birliyinin üzvüdür, Avropaya inteqrasiya sahəsində təcrübə əldə edib və Azərbaycan bu təcrübədən faydalana bilər.

SƏNƏDLƏRİN İMZALANMASI

Oktyabrın 4-də "Riqa" qəsrində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Latviya Respublikasının Prezidenti Vayra Vike-Freyberqanın iştirakı ilə rəsmi sənədlərin imzalanma mərasimi olmuşdur.

İlk olaraq Azərbaycan Prezidenti İlham Əliyev və Latviya Prezidenti Vayra Vike-Freyberqa Birgə bəyannamə imzaladılar.

Azərbaycan Respublikasının Təhsil Nazirliyi ilə Latviya Respublikasının Təhsil və Elm Nazirliyi arasında "Təhsil sahəsində əməkdaşlıq haqqında saziş"i Azərbaycan tərəfindən təhsil naziri Misir Mərdanov və Latviya tərəfindən təhsil və elm naziri xanım Bayba Rivja imzaladılar.

Azərbaycan Respublikasının Maliyyə Nazirliyi ilə Latviya Respublikasının Maliyyə Nazirliyi arasında "Maliyyə sahəsində əməkdaşlıq haqqında saziş"i Azərbaycan tərəfindən maliyyə naziri Samir Şərifov və Latviya tərəfindən maliyyə naziri Oskar Spurdzinş imzaladılar.

Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi ilə Latviya Respublikasının Səhiyyə Nazirliyi arasında "Səhiyyə və tibb elmi sahəsində əməkdaşlıq haqqında saziş"i Azərbaycan tərəfindən səhiyyə naziri Oqtay Şirəliyev və Latviya tərəfindən səhiyyə naziri Qundars Berzinş imzaladılar.

Azərbaycan Respublikası Hökuməti ilə Latviya Respublikası Hökuməti arasında "İnformasiya və kommunikasiya texnologiyaları sahəsində əməkdaşlıq haqqında saziş"i Azərbaycan tərəfindən xarici işlər naziri Elmar Məmmədyarov və Latviya tərəfindən informasiya və kommunikasiya texnologiyaları naziri xanım İna Qudele imzaladılar.

Azərbaycan Respublikası Hökuməti ilə Latviya Respublikası Hökuməti arasında "Hava əlaqələri haqqında saziş"i Azərbaycan tərəfindən "Azərbaycan Hava Yolları" Dövlət Konserninin baş direktoru Cahangir Əsgərov və Latviya tərəfindən nəqliyyat naziri Krişyanis Peters imzaladılar.

Azərbaycan Respublikası Hökuməti ilə Latviya Respublikası Hökuməti arasında "Rabitə sahəsində əməkdaşlıq haqqında saziş"i Azərbaycan tərəfindən xarici işlər naziri Elmar Məmmədyarov və Latviya tərəfindən nəqliyyat naziri Krişyanis Peters imzaladılar.

AZƏRBAYCAN RESPUBLİKASININ SƏHİYYƏ NAZİRLİYİ VƏ LATVİYA RESPUBLİKASI SƏHİYYƏ NAZİRLİYİ ARASINDA SƏHİYYƏ VƏ TİBB ELMİ SAHƏSİNDƏ ƏMƏKDAŞLIQ HAQQINDA SAZİŞ

4 oktyabr 2006-cı il

Bundan sonra "Razılığa gələn Tərəflər" adlandırılacaq Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi və Latviya Respublikasının Səhiyyə Nazirliyi

Hər iki ölkənin suverenliyinə və bərabər hüquqluluğuna əsaslanan səhiyyə və tibb elmi sahəsində ənənəvi əlaqələrin inkişaf etdirilməsi və möhkəmləndirilməsini qərara alaraq,

aşağıdakılar barədə razılığa gəldilər:

MADDƏ 1

Bu Sazişə əsasən hər bir ölkənin mövcud qanun və qaydalarına əsaslanaraq, beynəlxalq öhdəliklərin əsasında tərəflər səhiyyə və tibb elmi sahəsində əməkdaşlıq əlaqələrini inkişaf etdirəcəklər.

Əməkdaşlığın spesifik sahələri qarşılıqlı olaraq Razılığa gələn Tərəflərin maraqları nəzərə alınaraq təyin olunacaqdır.

MADDƏ 2

Razılığa gələn Tərəflər özlərinin bütün imkanlarından istifadə edərək ikitərəfli əməkdaşlıq çərçivəsində, aşağıdakıların həyata keçirilməsinə nail olacaqlar:

- Razılığa gələn Tərəflərin maraqlarını əks etdirən səhiyyə sahəsində məlumat-informasiya mübadiləsi;
- Səhiyyə sahəsində elmi tədqiqatların aparılması üzrə mütəxəssis mübadiləsi;
- Tibb institutları, tibbi mərkəzlər və digər əlaqədar qurumlar arasındakı birbaşa əlaqələr;
- Səhiyyə və əczaçılıq sahəsində yeni texnologiyalar və innovasiyalar barədə məlumat mübadiləsi;
- Hər iki ölkədə səhiyyənin vəziyyəti və monitorinq haqqında məlumat mübadiləsi, habelə təhlükəli infeksiyalara qarşı müştərək mübarizənin aparılması;
- Yeni dərman maddələri, onların effektivliyi, əlavə təsirləri, habelə formasiyada qeydiyyat, nəzarət və keyfiyyət göstəricilərinə dair məlumat mübadiləsi;
- Bağlanılmış sazişlər əsasında səhiyyə və tibb elmi sahəsində əməkdaşlıq.

MADDƏ 3

Razılığa gələn Tərəflər hər iki ölkədə tədris seminarları təşkil edəcək və hər bir ölkənin səhiyyəsinin prioritetlərinə əsaslanaraq əlaqədar sahələrin mütəxəssis ekspertlərinin digər ölkəyə səfərini təşkil edəcəklər.

Razılığa gələn Tərəflər hər iki ölkədə səhiyyənin prioritetlərinə əsaslanaraq keçiriləcək konfranslar, simpoziumlar və digər beynəlxalq tədbirlər haqqında məlumat mübadiləsi edəcəklər.

MADDƏ 4

Razılığa gələn Tərəflər hər iki ölkənin tibb universitetləri və institutları arasında birbaşa əlaqələri inkişaf etdirəcəklər. Buraya aşağıdakılar daxildir:

- Bağlanılmış sazişlərə uyğun olaraq mütəxəssislərin mübadiləsi;
- Elmi tədqiqat materiallarının, elmi sənədlərin, tədqiqat proqramlarının, tibbi tədris filmlərinin, iş metodlarının yazılı və vizual mübadiləsi.

MADDƏ 5

Razılığa gələn Tərəflər bu Sazişin icrası və Fəaliyyət planı hazırlanması üçün səhiyyə və tibb elmi sahəsində müştərək komissiya yaradacaqlar.

MADDƏ 6

Mütəxəssislərin, ekspertlərin və dövlət nümayəndələrinin səfərləri zamanı yol xərclərini göndərən tərəf ödəyəcəkdir.

MADDƏ 7

Fəaliyyət planının həyata keçirilməsinə nəzarət və ikitərəfli əməkdaşlıq çərçivəsində digər tədbirlərin monitorinqi üçün Razılığa gələn Tərəflər hər iki ölkədə işçi qrup yaradacaqlar. Bu qruplar razılığa əsasən iki ildə bir dəfədən çox olmayaraq görüş keçirəcəklər. Görüşdə komissiyaların dəvət etdiyi ekspertlər də iştirak edə bilər.

MADDƏ 8

Qarşılıqlı rəsmi razılıq əsasında tərəflər Sazişə əlavələr və dəyişikliklər edə bilərlər. Bu əlavələr və dəyişikliklər rəsmiləşdirilərək bu Sazişin ayrılmaz hissəsi olacaqdır.

MADDƏ 9

Bu Sazişin təfsiri və tətbiqinə dair Razılığa gələn Tərəflər arasında yaranacaq hər hansı mübahisələr danışıqlar və məsləhətləşmələr yolu ilə həll edilməlidir.

MADDƏ 10

Bu Saziş imzalandığı tarixdən qüvvəyə minir və 5 il müddətinə qüvvədə qalır.

Razılığa gələn Tərəflərdən biri diplomatik kanallar vasitəsilə 5 il müddət bitməmişdən 6 ay əvvəl yazılı bildiriş təqdim edərək bu Sazişin qüvvəsini ləğv etməzsə onun qüvvəsi avtomatik olaraq növbəti beş illik müddətlərə uzadılır.

Riqa şəhərində 4 oktyabr 2006-cı il tarixində hər biri Azərbaycan, latış və ingilis dillərində olmaqla iki əsl nüsxədə imzalanmışdır, bütün mətnlər bərabər autentikdir. Hazırkı Sazişin müddəalarının təfsirində fikir ayrılığı yarandıqda, ingilis dilində olan mətn əsas götürüləcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASININ SƏHİYYƏ NAZİRİ	LATVİYA RESPUBLİKASININ SƏHİYYƏ NAZİRİ
OQTAY ŞİRƏLİYEV	*QUNDARS BERZİNŞ*

AZƏRBAYCAN RESPUBLİKASININ TƏHSİL NAZİRLİYİ VƏ LATVİYA RESPUBLİKASININ TƏHSİL NAZİRLİYİ ARASINDA TƏHSİL SAHƏSİNDƏ ƏMƏKDAŞLIQ HAQQINDA SAZİŞ

4 oktyabr 2006-cı il

Bundan sonra "Tərəflər" adlandırılacaq Azərbaycan Respublikasının Təhsil Nazirliyi və Latviya Respublikasının Təhsil Nazirliyi dövlətlərin suveren bərabərliyi hüququ prinsipindən irəli gələn, hər iki dövlətin təhsili sisteminin bütövlüyü prinsipləri əsasında gələcək əməkdaşlığı möhkəmləndirmək və inkişaf etdirməkdə qarşılıqlı maraqlarını ifadə edərək,

təhsilə xüsusi əhəmiyyət verməklə, təhsil alanların vətəndaşlığı və etnik mənsubiyyətindən asılı olmayaraq hər iki dövlətin vətəndaşlarının təhsil və mədəni ehtiyaclarını ödəmək istəyi ilə

aşağıdakılar haqqında razılığa gəldilər:

MADDƏ 1

Tərəflər hər iki ölkənin universitetləri və digər ali təhsil müəssisələri arasında birbaşa əlaqələrin qurulmasına imkan yaradacaqlar.

MADDƏ 2

Tərəflər razılaşdırılmış sahələrdə birgə elmi tədqiqatların aparılmasına şərait yaradacaq, ölkələrində keçirilən elmi konfrans və simpoziumlarda iştirak etmək üçün hər iki tərəfin mütəxəssislərinə dəvətlər göndərəcək, hər iki ölkənin təhsil sahəsindəki təcrübə mübadiləsi məqsədilə mütəxəssisləri dəvət edəcəklər.

MADDƏ 3

Tərəflər elmi məcmuələr, metodik vəsaitlər və dövri mətbuat mübadiləsi aparacaq, ölkələrinin alimlərinin elmi əsərlərinin qarşı Tərəfin elmi məcmuələrində çap olunmasına şərait yaradacaqlar.

MADDƏ 4

Tərəflər elmi dərəcələrin, elmi adların və ali təhsil diplomlarının qarşılıqlı tanınması məqsədilə öz ölkələrində qəbul edilmiş qanunlar haqqında məlumat mübadiləsi aparacaqlar.

MADDƏ 5

Təhsil sisteminin inkişafı və təkmilləşdirilməsi məsələlərini öyrənmək və təcrübə mübadiləsinin aparılması məqsədilə Tərəflər nazirlik, təhsili idarəetmə orqanları və tədris müəssisələri işçiləri səviyyəsində nümayəndə heyətlərinin qarşılıqlı mübadiləsini aparacaqlar.

MADDƏ 6

Tərəflər humanitar sahədə əməkdaşlığa geniş yer verəcək, bu istiqamətdə qarşılıqlı yaradıcılıq müsabiqələri, idman yarışları və ali məktəblərin incəsənət qruplarının qarşılıqlı mübadiləsini təşkil edəcəklər.

MADDƏ 7

Tərəflər hər il öz universitetlərində təhsil almaq üçün hər iki ölkənin vətəndaşlarına qarşılıqlı şəkildə təqaüdlər ayıracaqlar.

İxtisaslar Tərəflərin ehtiyac duyduğu sahələri əhatə edəcəkdir.

MADDƏ 8

Tərəflərin qarşılıqlı yazılı razılığına əsasən hazırkı Sazişə, onun ayrılmaz hissəsi olan ayrıca protokollarla rəsmiləşdirilən və bu Sazişin 10-cu maddəsinə uyğun olaraq qüvvəyə minən əlavə və dəyişikliklər edilə bilər.

MADDƏ 9

Bu Sazişin icrası zamanı yaranmış mübahisələr danışıqlar və məsləhətləşmələr yolu ilə həll olunacaqdır.

MADDƏ 10

Bu Saziş imzalandığı gündən qüvvəyə minir və 31 dekabr 2010-cu ilə qədər qüvvədə qalacaqdır.

Tərəflərdən biri bu müddətin başa çatmasına altı ay qalmış onun qüvvəsini ləğv etmək niyyəti barədə digər Tərəfə diplomatik kanallar vasitəsilə bildirməzsə bu Sazişin qüvvəsi növbəti bir il müddətinə uzadılır.

Bu Saziş Riqa şəhərində 4 oktyabr 2006-cı il tarixində Azərbaycan, latış və ingilis dillərində iki əsl nüsxədə imzalanmışdır və bütün mətnlər bərabər autentikdir. Bu Sazişin təfsiri zamanı fikir ayrılığı yarandıqda ingilis dilindəki mətndən istifadə ediləcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASININ TƏHSİL NAZİRİ	LATVİYA RESPUBLİKASININ TƏHSİL VƏ ELM NAZİRİ
MİSİR MƏRDANOV	*BAYBA RİVJA*

PREZİDENTLƏRİN BİRGƏ MƏTBUAT KONFRANSI

Oktyabrın 4-də "Riqa" qəsrində rəsmi sənədlərin imzalanma mərasimi başa çatdıqdan sonra Azərbaycan Prezidenti İlham Əliyev və Latviya Respublikasının Prezidenti Vayra Vike-Freyberqa birgə mətbuat konfransı keçirmişlər.

Əvvəlcə dövlət başçıları jurnalistlər qarşısında bəyanatlarla çıxış etdilər.

LATVİYA PREZİDENTİ VAYRA VİKE-FREYBERQANIN BƏYANATI

- Möhtərəm cənab Prezident!

Xanımlar və cənablar!

Bu gün Riqada yeni bir tarixi hadisə baş verir. Mən şadam ki, Azərbaycan Prezidentinin tarixi əhəmiyyət daşıyan ilk dövlət səfəri çərçivəsində cənab İlham Əliyevi burada salamlayıram. Bu, Latviya Prezidentinin ötən il Azərbaycana etdiyi rəsmi səfərinə cavab

səfəridir. Ona görə biz ölkələrimiz arasında, həqiqətən, gözəl münasibətlərin olmasını təsdiq edə bilərik. Münasibətlərimizin intensivliyi ildən-ilə artır və hətta deyə bilərəm ki, aydan-aya inkişaf etməkdə davam edir. Azərbaycana səfərimiz zamanı biz geostrateji əhəmiyyətə malik olan dövlət ilə əməkdaşlıq haqqında bir sıra mühüm sazişlər imzalamışıq. Bu gün isə, daha altı sənəd imzalandı və bir neçəsi də hazırlıq mərhələsindədir. Bu gün artıq biz iki ölkə arasında əməkdaşlıq üçün tam və geniş şəkildə hüquqi bazanın olmasından danışa bilərik. Biz Azərbaycanda sürətli iqtisadi inkişafı və gələcək nəsillər barədə düşünülməsini və müdrik qərarların qəbul edilməsini görməkdən çox məmnunuq. Bu gün həmin ölkənin malik olduğu nəinki təbii sərvətlərdən, həm də bu sərvətlərdən gələn gəlirlərdən sonrakı nəsillər üçün istifadə olunmasına kömək edəcək fond yaradılmışdır. Mən ölkələrimiz arasında dostluq əlaqələrinin olmasından çox məmnunam və şadam ki, bu cür qısa müddət ərzində biz həm siyasi, həm iqtisadi sahədə yaxınlaşmağa başladıq. Ticarət dövriyyəmiz iki dəfə artdı və fikrimcə, biz gələcəyə daha böyük nikbinliklə baxa bilərik.

Cənab Prezident, indi isə, sözü Sizə verirəm.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN BƏYANATI

- Hörmətli xanım Prezident!

Hörmətli dostlar!

Mənə və nümayəndə heyətinə Latviyada göstərdiyiniz qonaqpərvərliyə görə dərin minnətdarlığımı bildirmək istəyirəm. Bu səfər Latviya-Azərbaycan münasibətlərinin tarixində Azərbaycan Prezidentinin Latviyaya ilk səfəridir. Mən çox şadam ki, səfər çox uğurla keçir.

Siz qeyd etdiyiniz kimi, artıq bizim münasibətlərimizi müəyyən edən bir sıra ikitərəfli sənədlər imzalanmışdır. Sənədlərin bir hissəsi Sizin Azərbaycana səfər etdiyiniz vaxt, keçən ilin oktyabr ayında imzalanmışdır. Bu gün isə digər sənədlər imzalanmışdır. Beləliklə, demək olar ki, bütün sahələrdə bizim münasibətlərimizi müəyyən edən hüquqi baza mövcuddur. Biz Latviya ilə münasibətlərə çox böyük önəm veririk, çox istəyirik ki, münasibətlər daha da sürətlə inkişaf etsin. Xanım Prezident, Sizin Azərbaycana keçən il etdiyiniz tarixi səfər bu münasibətlərin yeni mərhələsini açdı. Bugünkü səfər isə bu münasibətləri daha da möhkəmləndirəcəkdir. Mən şübhə etmirəm ki, yaxın gələcəkdə bizim aramızda həm siyasi, həm iqtisadi, həm sosial, həm də bütün başqa sahələrdə münasibətlər daha da yüksək pilləyə qalxacaqdır. Biz bunu çox istəyirik, arzulayırıq. Latviya bizim üçün dost ölkədir.

Sabah Riqada Latviya-Azərbaycan biznes forumu keçiriləcəkdir. Azərbaycandan çox böyük nümayəndə heyəti - iş adamları, biznesmenlər gəlmişdir. Əminəm ki, onların əlaqələri də ikitərəfli iqtisadi əməkdaşlığın inkişafında mühüm rol oynayacaqdır.

Azərbaycanda siyasi, iqtisadi islahatlar uğurla həyata keçirilir. Biz əminik ki, Avropa Birliyi ilə münasibətlərimiz bundan sonra Azərbaycanda bütün sahələrdə irəliləyişə, tərəqqiyə gətirib çıxaracaqdır. Biz Avropaya inteqrasiya siyasətimizə sadiqik. Avropa Birliyi ilə Azərbaycan arasında başlanan yeni qonşuluq proqramı bizim qarşımızda yeni imkanlar, yeni üfüqlər açır. Latviyanın Azərbaycanı daim dəstəkləməsi də çox əlamət-

dar hadisədir. Bu dəstəyə görə mən Sizə bir daha dərin minnətdarlığımı bildirmək istəyirəm. Şübhə etmirəm ki, növbəti beş ildə Avropa Birliyi ilə Azərbaycan arasında yeni qonşuluq proqramının həyata keçirilməsi nəticəsində bizim münasibətlərimiz daha da möhkəmlənəcəkdir.

Latviyanın uğurları bizi çox sevindirir. Latviya artıq öz doğma Avropa ailəsinə qayıtmışdır. Həm NATO-nun, həm də Avropa Birliyinin üzvüdür. Bu, Latviya üçün tarixi nailiyyətdir və Latviyanın dostları kimi, bizi çox sevindirir. Mən əminəm ki, Azərbaycanın Avratlantik məkana inteqrasiyası məsələlərində Latviya indiki kimi, daim bizim yanımızda olacaq, öz dəstəyini əsirgəməyəcəkdir.

Mən bir daha demək istəyirəm ki, son müddət ərzində bizim münasibətlərimiz yeni mərhələyə qalxmışdır. Müstəqillik bərpa olunandan sonra ilk illərdə bizim aramızda o qədər də intensiv dialoq aparılmırdı. Amma keçən il xanım Prezidentin səfərindən sonra bu münasibətlər çox intensiv xarakter almışdır. Qısa müddət ərzində Azərbaycanın Latviyadakı səfirliyi işə başladı. Artıq birbaşa təyyarə reysləri açılmışdır və bütün başqa sahələrdə münasibətlər uğurla inkişaf edəcəkdir.

Bizə göstərdiyiniz səmimi münasibətə, qonaqpərvərliyə görə, Azərbaycana verdyiniz dəstəyə görə, o cümlədən beynəlxalq təşkilatlarda Latviyanın Azərbaycanı dəstəkləməsinə görə öz adımdan və nümayəndə heyəti adından bir daha dərin minnətdarlığımı bildirmək istəyirəm. Əmin olduğumu bildirirəm ki, bizim aramızdakı münasibətlər gələcəkdə getdikcə inkişaf edəcək və iki xalqın maraqlarına cavab verəcəkdir.

Bir daha Sizə təşəkkür edirəm.

Sonra prezidentlər jurnalistlərin suallarına cavab verdilər.

- Mənim sualım Latviya Prezidentinədir. Məlum olduğu kimi, Ermənistanın Azərbaycan ərazilərini işğal etməsi və Dağlıq Qarabağda separatçı rejimin qurulması nəticəsində regionda sabitlik pozulub və Azərbaycanın Avropa strukturlarına inteqrasiyası baxımından ciddi problemlər yaranıbdır. Avropa ailəsinin bir üzvü kimi Latviyanın bu münaqişənin həlli ilə bağlı mövqeyi nədən ibarətdir?

VAYRA VİKE-FREYBERQA: Latviyanın mövqeyi aydındır və Avropa Birliyinin ümumi mövqeyinə, o cümlədən Birləşmiş Millətlər Təşkilatının qəbul etdiyi bir sıra qətnamələrə uyğundur. Mən Azərbaycanı tərəfdaşlıq planı barədə Avropa Birliyi ilə razılığa gəlməsi münasibətilə sizi təbrik etmək istəyirəm. Həmin planda bir neçə çox vacib fundamental xarakterli prinsiplər öz əksini tapıbdır. Sənədin preambulasında Avropa Birliyinin hörmət etdiyi və dəstəklədiyi ərazi bütövlüyü prinsipi bir daha vurğulanır. Hesab edirəm ki, bu, Azərbaycan üçün çox vacibdir.

Eyni zamanda, həmin sənəddə Birləşmiş Millətlər Təşkilatının və ATƏT-in qəbul etdiyi qətnamələrə də istinad olunur. Latviya həmin ümumi mövqeyi tam dəstəkləyir. Biz hesab edirik ki, münaqişənin yenidən başlanması imkanlarını azaltmaq üçün digər ölkələr bu problemə davamlı diqqət yetirməlidir. Biz dövlətlərin suverenliyi tətbiq edilən öz milli ərazisinin bütövlüyünün qorunması, həmin dövlətlərdə yaşayan çoxsaylı milli azlıqlara yüksək səviyyəli muxtariyyətin təmin edilməsi üzərində düşünməliyik.

Hesab edirəm ki, bu cür yanaşma həmin məsələdə tətbiq edilə bilər. Bu cür yanaşmadan dünyanın bir sıra digər yerlərində istifadə olunmuşdur. Əminəm ki, hər iki tərəfin siyasi

iradəsi əsasında və ikitərəfli dialoqun intensiv qaydada davam etdirilməsini nəzərə alaraq və eyni zamanda Avropa Birliyi kimi təşkilatın dialoqda bir vasitəçi və tərəfdaş kimi səylərindən istifadə edərək, bu məsələyə eyni prinsiplə yanaşmaq olar. Təbii ki, Avropa Birliyinin bir üzvü kimi Latviya Birliyin tutduğu mövqeyi tam və qəti şəkildə dəstəkləyir.

- Sualım hər iki prezidentədir. Siz Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasındakı səsvermə prosesini müzakirə etdinizmi? Sizin rəyiniz necədir?

VAYRA VİKE-FREYBERQA: Biz bu məsələni müzakirə etmədik, lakin mən namizədliyimi dəstəklədiyinə görə Azərbaycana və təbii ki, BMT-nin Təhlükəsizlik Şurasına, onun beş daimi üzvünə minnətdaram. Bu məsələdə xüsusi imtiyazlar var və hesab edirəm ki, səsvermə kifayət dərəcədə aydın xarakter almışdı. Bizim əlavə bir neçə günümüz var və gəlin yeni baş katibin seçilməsinin rəsmi təsdiqlənməsini gözləyək.

İLHAM ƏLİYEV: Xanım Prezident qeyd etdiyi kimi, Azərbaycan Latviya Prezidentinin namizədliyini dəstəkləyir və bu məsələni biz fikir mübadiləsi zamanı müzakirə etdik. Bu, həmçinin rəsmi sənədlərdə öz əksini tapıbdır. Prinsip etibarilə, hesab edirik ki, Birləşmiş Millətlər Təşkilatındakı islahatlar həmin təşkilatın gələcək inkişafı üçün çox vacibdir. Bu, xüsusən də, qəbul olunmuş qətnamələrin və qərarların həyata keçirilməsinə aiddir. Bəzi hallarda qəbul edilmiş qərar və qətnamələr həyata keçirilmir. Bizim misalımızda BMT Təhlükəsizlik Şurasının Azərbaycanın zəbt olunmuş ərazilərindən işğalçı qoşunların çıxarılmasını tələb edən dörd qətnaməsindən söhbət gedir. Bu tələbə baxmayaraq, on ildən artıqdır ki, həmin qətnamələr yerinə yetirilməyibdir. Ona görə də vacibdir ki, BMT-də qətnamələrin icrası ilə bağlı mexanizmlər, eləcə də qətnamələri və beynəlxalq hüququn əsas normalarını pozan dövlətlərə qarşı sanksiyaların tətbiq edilməsi alətləri mövcud olsun.

Biz xanım Prezident ilə Ermənistan-Azərbaycan danışıqlarının hazırkı durumunu müzakirə etdik və mən xanım Prezidentə aparılan müzakirələr və Azərbaycanın mövqeyi haqqında məlumat verdim. Biz Azərbaycanın mövqeyini dəstəklədiyinə və onu qəbul etdiyinə görə Latviyaya çox minnətdarıq. Dünyadakı bütün münaqişələr kiminsə arzu və ya istəklərinə yox, yalnız hamılıqla tanınmış beynəlxalq hüquq norma və prinsiplərinə əsasən öz həllini tapmalıdır. Həmin beynəlxalq hüquq normaları Ermənistandan tələb edir ki, işğal etdiyi ərazilərdən dərhal çıxsın, etnik təmizləmə siyasətinə son qoyulsun və bir milyon qaçqın və məcburi köçkünlərin öz doğma yurdlarına qayıtması mümkün olsun.

Ümidvaram ki, biz beynəlxalq ictimaiyyətin, o cümlədən artıq bu prosesin bir hissəsi olan və qonşuluq siyasətinə başlamış Avropa Birliyinin birgə səyləri nəticəsində Cənubi Qafqazda uzunmüddətli və sarsılmaz sülhə nail olacağıq.

- Mənim sualım hər iki prezidentədir. Latviya ilə Azərbaycan arasında bir sıra mühüm sənədlər imzalanmışdır. İqtisadi layihələrin həyata keçirilməsi üçün hansı konkret perspektivləri görürsünüz?

VAYRA VİKE-FREYBERQA: Biz iki ölkənin ümumi maraqlarına aid olan bir çox məsələləri müzakirə etdik. Təbii ki, burada ilk növbədə, Azərbaycanın Avropa Birliyi üçün enerji daşıyıcılarının alternativ təchizatçı kimi çox mühüm rolu nəzərdə tutulur.

Biz neftin və qazın nəqlinin yeni, şaxələnmiş marşrutlarını yüksək dərəcədə alqışlayırıq. Azərbaycan qazının Avropaya çatdırılması məqsədi ilə onun Yunanıstan ərazisindən keçməsi bizim üçün vacibdir. Biz öz enerji mənbələrimizi şaxələndirməliyik. Hesab edirik ki, təchizatçılar və istehlakçılar arasında münasibətlərin bazar iqtisadiyyatı və azad rəqabət əsasında tarazlı şəkildə olması da vacibdir. Yalnız bir təchizatçının olması qeyri-tarazlı vəziyyət yaradır və təzyiq aləti kimi istifadə edilir. Bu, arzuolunmazdır.

Digər nailiyyətlər də var. Ölkələrimizi bir-birinə bağlayan birbaşa hava uçuşları mövcuddur.

Çox qısa müddət ərzində ticarət dövriyyəsinin iki dəfə artması faktı xüsusi qeyd olunmalıdır, bu, malik olduğumuz potensialı nümayiş etdirir. Nəhayət, Azərbaycanın nəzərdə tutduğu layihələrin genişləndirilməsi və Baltikyanı ölkələrin də eyni imkanlarının olması ölkələrimiz arasında yerüstü nəqliyyat və hava nəqliyyatı vasitəsilə əlaqələrin artmasına xidmət edəcəkdir. Riqa logistika, maliyyə və nəqliyyat mərkəzi kimi Bakıya bənzərdir, çünki sizin də paytaxt şəhəriniz öz regionunda eyni rolu oynayır. Hər iki ölkə informasiya texnologiyaları sahəsində tədqiqat işlərinə başlamışdır. Təhsil sahəsində çalışırıq ki, cəmiyyətimizin hər bir üzvünə internet çıxışı təmin edilsin. Bütün bu məqsədlər eynidir. Bu gün apardığımız müzakirələrdə və nazirlərimizin davam etdirəcəyi danışıqlarda biz həyata keçirilə biləcək və hər iki ölkə üçün qarşılıqlı surətdə faydalı olacaq xüsusi və konkret əməkdaşlıq layihələrinə diqqət yetirəcəyik.

İLHAM ƏLİYEV: Biz iqtisadi əməkdaşlığın perspektivlərini müzakirə etdik və ikitərəfli iqtisadi əlaqələrin çox yaxşı gələcəyinə dair yekdil fikirdəyik. Ümid edirik ki, bu sahədə hökumətlərarası komissiyanın birgə fəaliyyəti çox faydalı olacaqdır. Komissiya iki tərəfin işgüzar dairələrinin bir-birini daha yaxşı tanımasına, ümumi təmasların qurulmasına və birgə iqtisadi fəaliyyətin aparılması üçün müxtəlif imkanların araşdırılmasına yardım edəcəkdir.

Latviya və Azərbaycan çox sürətlə inkişaf edən ölkələrdir. Ölkəmizdə ÜDM-in artımı Avropada və ümumiyyətlə, dünyada ən yüksək göstəricilərdən biridir. Bu onu göstərir ki, ölkələrimizdə iqtisadi islahatlar siyasəti çox uğurludur və eyni zamanda, birgə biznesin aparılması üçün yeni imkanlar açır. Azərbaycanda çox yaxşı sərmayə mühiti var və müxtəlif sahələrdə sərmayədar, podratçı və tərəfdaş kimi bizim ölkədə işləmək arzusunda olan Latviya şirkətlərini salamlayırıq.

Eyni zamanda, enerji inkişafı sahəsində Azərbaycan son illər ərzində böyük irəliləyiş əldə etmişdir və bu gün Avropanın enerji təhlükəsizliyi baxımından vacib ölkəyə çevrilir. Uzun illər ərzində biz Avropa və beynəlxalq ictimaiyyətin çox etibarlı tərəfdaşı olmuşuq və hazırda, istifadə edilən bütün enerji infrastrukturunu nəzərə alaraq, Azərbaycan ikitərəfli münasibətlərdə daha fəal olmağa çalışır.

Azərbaycandan Latviyaya gəlmiş iş adamlarından ibarət geniş nümayəndə heyəti və onun biznes forumda iştirakı ikitərəfli iqtisadi əlaqələrə verdiyimiz böyük diqqətin və Azərbaycanın özəl sektorunun işbirliyi qurulmasında maraqlı olmasının göstəricisidir.

Latviyada artıq Azərbaycan səfirliyinin fəaliyyətə başladığını nəzərə alaraq, hesab edirəm ki, o, potensial biznes təmasları üçün bələdçi rolunu oynaya bilər. Biz hökumətlərarası komissiyanı yaratmışıq və o, gündəlik əsaslarla iqtisadi fəaliyyəti tənzimləyəcək-

dir. Bununla belə, fürsətdən yararlanmaq üçün özəl sektordan ötrü çox yaxşı imkanlar yaranacaqdır. Özəl sektor və sərmayələr, adətən, ölkələr arasında çox güclü siyasi və dost münasibətlərin olduğu təqdirdə həmin ölkələrə gedir. Bu sözləri Latviya və Azərbaycana şamil etmək olar. Bizim aramızda çox yüksək səviyyədə siyasi təmaslar, qarşılıqlı anlaşma, dəstək və dostluq münasibətləri var. Bu, geniş iqtisadi əməkdaşlıq üçün yaxşı əsasdır. Əminəm ki, gələn illər ərzində bu sahədə biz birlikdə yeni çox işlər görəcəyik.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN LATVİYANIN BAŞ NAZİRİ AYQARS KALVİTİS İLƏ GÖRÜŞÜ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 4-də "Latviya İctimaiyyət Evi"nə gəldi. Burada dövlətimizin başçısını Latviyanın Baş naziri Ayqars Kalvitis böyük hörmət və ehtiramla qarşıladı.

Sonra Azərbaycan Prezidenti İlham Əliyev ilə Latviyanın Baş naziri Ayqars Kalvitis arasında görüş oldu.

Görüşdə ölkələrimiz arasında iqtisadi əlaqələrin genişləndirilməsi üçün konkret layihələr müzakirə olundu, hökumətlərarası birgə iqtisadi komissiyanın fəaliyyətinə toxunuldu və əminliklə vurğulandı ki, bu, gələcəkdə ümumi işlərin uğurla getməsinə kömək edəcəkdir.

Azərbaycanın və Latviyanın iş adamlarının qarşılıqlı səfərlərinin təşkilinin zəruriliyi və Riqada keçiriləcək Azərbaycan-Latviya biznes forumunun əhəmiyyəti vurğulandı.

Görüşdən sonra Latviyanın Baş naziri Ayqars Kalvitisin və xanımı Kristin Kalvitenin adından Azərbaycan Prezidenti İlham Əliyevin və xanımı Mehriban Əliyevanın şərəfinə nahar verildi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV LATVİYA SEYMİNDƏ OLMUŞDUR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 4-də Latviya parlamentinin - Seymin binasına gəlmişdir. Latviya Seyminin sədri xanım İnqrida Udre dövlətimizin başçısını binanın önündə böyük hörmət və ehtiramla qarşıladı.

Azərbaycan Prezidenti İlham Əliyev burada Seymin əməkdaşları ilə görüşdü, parlamentin binası ilə tanış oldu, o cümlədən iclas salonuna baxdı. Seymin qonaq salonunda xatirə şəkli çəkdirdi.

Sonra Azərbaycan Prezidenti İlham Əliyev ilə Latviya Seyminin sədri İnqrida Udre arasında görüş oldu.

Görüşdə Azərbaycan və Latviya parlamentləri arasında əlaqələrin genişlənməsi, beynəlxalq təşkilatlarda uğurlu əməkdaşlıq, ölkələrimiz arasında əlaqələrin inkişafı xüsusi vurğulandı. Avratlantik strukturlara inteqrasiya prosesinin sürətləndirilməsi üçün birgə fəaliyyət məsələləri müzakirə olundu.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV LATVİYA UNİVERSİTETİNDƏ OLMUŞDUR

Oktyabrın 4-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Latviya Universitetinə gəlmişdir.

Burada dövlətimizin başçısını və xanımını universitetin rektoru professor İvars Latsis böyük hörmətlə qarşıladı.

Sonra universitetin professor-müəllim heyəti ilə görüş keçirildi.

Universitetin rektoru İVARS LATSİS görüşü açaraq dedi:

- Zati-aliləri Azərbaycan Respublikasının Prezidenti!

Hörmətli xanımlar və cənablar!

Mən Sizi Latviya Universitetində böyük məmnunluq və şərəf hissi ilə salamlayıram. Bugünkü ali qonağımızın tərcümeyi-halından çox qısa hissəni iştirakçıların diqqətinə çatdırmaqdan şərəf duyuram.

1961-ci ildə Bakı şəhərində dünyaya göz açmış hörmətli qonağımız orada orta məktəbdə təhsil almışdır. 1977-ci ildə, o, sovet vaxtlarında məşhur olan Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutuna daxil olmuşdur. Həmin institutu bitirdikdən sonra dissertasiya müdafiə edərək, tarix elmləri namizədi alimlik dərəcəsi almışdır. Onun elmi işinin mövzusu böyük və kiçik dövlətlər arasındakı münasibətlərə aid olmuşdur.

Sonrakı dövrlərdə hörmətli qonağımız bir neçə il özəl sektorda işləmiş və daha sonra isə, hökumət işinə qatılmışdır. O, on il ərzində Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin birinci vitse-prezidenti vəzifəsində işləmişdir. Eyni zamanda, o, bir neçə il ərzində parlamentin deputatı olmuş və ölkəsinin Avropa Şurasındakı parlament nümayəndə heyətinin rəhbəri kimi çalışmışdır. İndi isə, o, artıq Azərbaycan Respublikasının Prezidentidir.

Onu da sizə deyim ki, indi çox nadir hallarda beş dildə sərbəst danışan insana rast gələ bilərsiniz. Onun ana dili Azərbaycan dilidir və əgər səhv etmirəmsə, hazırda həmin dildə dünyanın müxtəlif guşələrində yaşayan 50 milyona yaxın azərbaycanlı danışır. Onların yalnız kiçik bir hissəsi Azərbaycanda yaşayır.

Hörmətli qonaqlar!

Xanımlar və cənablar!

İndi isə, mən böyük məmnuniyyətlə sözü Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə vermək istəyirəm. Buyurun, cənab Prezident.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ

- Məni təqdim etdiyinizə görə Sizə olduqca minnətdaram.

Mən sizin hamınızı salamlamaq və bu gün bizimlə birlikdə olmaq məqsədi ilə buraya gəldiyinizə görə minnətdarlığımı bildirmək istəyirəm. Bu, ölkələrimiz müstəqilliyini bərpa etdikdən sonra Azərbaycan Respublikası Prezidentinin Latviyaya ilk səfəridir.

Biz bu səfərə olduqca böyük əhəmiyyət veririk və onu ölkələrimiz arasındakı münasibətlərin möhkəmləndirilməsi istiqamətində atılmış mühüm addım kimi dəyərləndiririk.

Bu münasibətlərin hazırkı mərhələsi Latviya Prezidentinin Azərbaycana ötən il etdiyi rəsmi səfərlə başlanmışdır. Biz olduqca geniş müzakirələr apardıq, bir çox mühüm ikitərəfli sənədlər imzaladıq və əməkdaşlığın formalaşmasına doğru artıq praktik addımlar atmağa başladıq.

Bu gün Prezident, Baş nazir, parlamentin sədri ilə görüşlərim zamanı biz artıq əldə olunmuş razılaşmaların həyata keçirilməsini müzakirə etdik. Eyni zamanda, ölkələrimizin siyasi, iqtisadi və sosial həyatının, demək olar ki, bütün aspektlərini əhatə edən çox mühüm ikitərəfli sənədlər imzaladıq. Bizim Latviyadakı səfirliyimiz artıq tam fəaliyyət göstərir. Riqa ilə Bakı arasında birbaşa hava uçuşlarından artıq bəhrələnirik və bu, əməkdaşlığımızın yalnız ilkin addımıdır.

Biz Latviyanı olduqca mühüm dost və tərəfdaş hesab edirik. Həyata keçirdiyimiz Avropaya inteqrasiya siyasətimizdə bizə yardım kimi Latviyanın göstərdiyi səylərə görə sizə çox minnətdarıq. Azərbaycan artıq bu cür layihələrə və proqramlara başlamışdır. Biz Avropa Birliyinin qonşusuna çevrilirik. Avropanın sərhədləri bizim sərhədlərimizə çox yaxındır. Azərbaycan Avropa Birliyinin Yeni qonşuluq siyasətində iştirak edən ölkəyə çevrilir. Bu baxımdan biz Latviya ilə ikitərəfli münasibətlərimizi və eyni zamanda, Avropa Birliyi ilə əlaqələrimizi Azərbaycanın xarici siyasətinin olduqca vacib elementi kimi dəyərləndiririk.

Sizin ölkə kimi, Azərbaycan da XX əsrdə öz müstəqilliyindən məhrum olmuşdur. Biz müstəqilliyimizi eyni vaxtda, yəni 1991-ci ildə Sovet İttifaqının süqutundan sonra bərpa etdik. Əlbəttə ki, hər bir ölkənin öz çətinlikləri, problemləri və öz gündəliyi var idi və o, problemləri aradan qaldırmaq üçün bütün işləri görməyə çalışırdı. Biz hazırda latviyalı dostlarımızın tam formalaşmasını, Avropa ailəsinə tam qayıtmasını görməkdən olduqca məmnunuq. Siz Avropa Birliyinin və NATO-nun tamhüquqlu üzvünə, Avropa işlərində çox mühüm rol oynayan və dünyanın yerləşdiyiniz hissəsində regional inkişafda geniş şəkildə iştirak edən ölkəyə çevrildiniz. Təbii ki, bir dost kimi biz bunu görməkdən çox şadıq.

Azərbaycanın müstəqilliyinin ilk illəri dərin siyasi və iqtisadi böhran, vətəndaş müharibəsi, Azərbaycan torpaqlarının Ermənistanın təcavüzü və işğalına məruz qalması və ümumi iqtisadi tənəzzül ilə müşayiət olunurdu.

1991-ci ildən təqribən 1995-ci ilə qədər biz olduqca ciddi iqtisadi çətinliklərlə üzləşdik və vəziyyət yalnız 1996-cı ildə sabitləşdi. 1996-cı ildən 2005-ci ilə qədər bizim siyasi və iqtisadi islahatlar siyasətimiz sürətli inkişafa zəmin yaratdı. 1996-cı ildən 2005-ci ilə qədər hər il ÜDM-in artımı təqribən 10 faiz təşkil edirdi. 2005-ci ildən başlayaraq, həmin göstəricilər iki dəfə artmışdı. Ötən il Azərbaycanda ÜDM-in artımı 26 faizdən, 2006-cı ilin 8 ayı ərzində isə 30 faizdən çox olmuşdur.

Biz siyasi və iqtisadi islahatları davam etdiririk, qanunvericiliyimizi təkmilləşdiririk. Yeni qonşuluq siyasəti qarşıdakı 5 il ərzində Azərbaycanın standartlarını Avropa standartlarına uyğunlaşdırmağa imkan yaradacaqdır. Siyasi inkişaf, bazar iqtisadiyyatına sadiqliyimiz, qanunun aliliyi ilə seçilən və Avropa strukturlarına inteqrasiya olunmuş de-

mokratik cəmiyyət qurmaq, tərəfdaşlar və dostlarımızla dostluq şəraitində yaşamaq bizim arzumuzdur.

Azərbaycan regional miqyasda artıq gözəçarpan nailiyyətlər əldə etmişdir. Biz regional inkişafda olduqca mühüm, bir çox hallarda, həlledici rol oynayırıq. Heç bir regional layihə bizim iştirakımız olmadan mümkün deyildir. Azərbaycan tərəfindən başlanmış bir çox regional layihələr az vaxt keçdikdən sonra dünya miqyaslı layihələrə çevrilmişdir. Onların arasında neft və qaz yataqlarının işlənilməsi, Xəzərin neft və qaz ehtiyatlarının dünya bazarlarına çatdırılmasını mümkün edən boru kəmərlərinin çəkilməsi kimi layihələri misal gətirmək olar. Bütün bunlar çoxmilyardlıq sərmayələr deməkdir. Son bir neçə il ərzində Azərbaycanda həyata keçirilmiş layihələr dünyanın ən böyük enerji layihələri hesab olunur. Həmin layihələr nəinki Azərbaycanın və tərəfdaşlarımızın iqtisadi vəziyyətinə, həm də regional inkişafa, regiondakı siyasi duruma, siyasətin istiqamətinə və regionun gələcəyinə çox güclü təsir göstərir. Regional ölkə kimi Azərbaycanın rolu get-gedə artır. Enerji amili mühüm amillərdən yalnız biridir. Hazırda biz daşıma marşrutlarına çox ciddi diqqət yetiririk. Azərbaycan öz ərazisi vasitəsilə Avropa və Asiya arasında çox mühüm dəmir yolu xəttinin çəkilməsinin təşəbbüskarıdır və beləliklə, ölkəmiz regionda daşımalar şəbəkəsinə çevriləcəkdir.

Azərbaycan enerji layihələrindən əldə olunan gəlirləri öz iqtisadiyyatını şaxələndirmək üçün istifadə edir. Biz Azərbaycanın gələcəyini yüksək təhsili təmin edən, çox güclü qeyri-neft sektoruna malik, öz vətəndaşlarının dünyada mövcud olan ən yüksək informasiya texnologiyalarına çıxışını təmin etmək iqtidarında olan ölkə kimi görürük. Başqa sözlə desək, biz öz qətiyyətimiz və iradəmiz sayəsində yaratdığımız və malik olduğumuz bu cür yeganə imkandan istifadə edərək, Avropaya tam inteqrasiya olunmuş, açıq cəmiyyət qurmuş, güclü iqtisadiyyata və regionda güclü mövqelərə malik ölkəni formalaşdıracağıq.

Bu, bizim planlarımızdır və onları həyata keçiririk. Son üç il ərzində Azərbaycanda 400 mindən çox yeni iş yeri açılmışdır və onların əksəriyyəti qeyri-neft sektorunda yaradılmışdır. Hazırda, biz humanitar sektora, təhsilə, səhiyyəyə, kompyuterləşdirməyə, infrastruktura, yolların, su xətlərinin çəkilməsinə, elektrik stansiyaların tikintisinə çox böyük vəsait sərf edirik. 2003-cü ildən 2008-ci ilə qədər Azərbaycanda bütün əsas infrastruktur və sərmayə proqramlarını həyata keçirmək planımız var. Bu, çox böyük məqsədli proqramdır və biz gözəçarpan maliyyə resursları ayırmışıq. Büdcə gəlirlərimizin çox sürətlə artması sayəsində bu gün biz hər bir potensial layihəni həyata keçirməyə qadirik. Azərbaycan nə iqtisadi, nə də ki, enerji təhlükəsizliyi və siyasəti baxımından heç kimdən asılı deyildir.

Biz artıq tam formalaşmış ölkəyik. Azərbaycan xalqının iradəsinə, Azərbaycanın maraqlarının lazımınca qorunması və əhalimiz üçün daha yaxşı yaşayış şəraitini təmin etmək kimi prinsiplərə əsaslanan müstəqil siyasəti həyata keçiririk.

Eyni zamanda, dostlarımız və tərəfdaşlarımız ilə əməkdaşlığa tam açığıq. Bu amilin əsas göstəricilərindən biri də o ola bilər ki, Azərbaycan adambaşına düşən birbaşa xarici sərmayələrin cəlb edilməsi sahəsində regionda öncül mövqeyə malik olan ölkədir. Ölkəmizdə çox yaxşı sərmayə mühiti var və son on il ərzində Azərbaycana təqribən 25-30 milyard dollar sərmayə yatırılmışdır. Biz heç vaxt öz tərəfdaşlarımızı məyus etməmişik

və öhdəliklərimizi həmişə lazımınca yerinə yetirmişik. Azərbaycan beynəlxalq maliyyə təsisatlarında, siyasi dairələrdə kifayət qədər hörmətə, nüfuza malikdir və son nəticədə, regional işlərdə get-gedə daha mühüm rol oynayacaqdır. Bu, bizim siyasətimizin əsas elementidir.

Güclü iqtisadiyyat bir nömrəli məsələdir, çünki möhkəm iqtisadiyyat olmadan heç bir siyasi layihə real olmayacaqdır. Qanunun aliliyinə əsaslanan və tam demokratik dəyərlərə malik cəmiyyət qurmaq məqsədi ilə biz Azərbaycan xalqının gündəlik tələbatlarını ödəməliyik. İnsanlar yalnız iqtisadi cəhətdən müstəqil olduğu halda, özlərini tam azad hiss edə bilərlər. Bu məqsədə nail olmaq üçün qarşıda duran vəzifələrdən biri özəl sektoru dəstəkləyəcək genişmiqyaslı proqramın həyata keçirilməsidir.

Bu gün, özəl sektorun ÜDM-dəki payı təqribən 75 faiz təşkil edir. Əgər neft sənayesinin ÜDM-i təşkil edən əsas amil olduğunu və onun əsasən hökumət tərəfindən tənzimləndiyini və dövlətin mülkiyyətində olduğunu nəzərə alsaq, bu rəqəm kifayət qədər yüksəkdir. Bir sözlə, özəl sektora dəstək də bizim prioritet məsələlərimizdən biridir. Biz özəl sektora güzəştli kreditlərin verilməsi yolu ilə onu dəstəkləmək üçün büdcəmizdə xüsusi fondlar yaratmışıq. Misal üçün, bu il özəl şirkətlər üçün təxminən yüz milyon ABŞ dolları həcmində güzəştli kreditlərin verilməsi nəzərdə tutulubdur. Gələn il, ola bilsin ki, bu məbləğ eyni səviyyədə qalacaq və yaxud ondan da çox olacaqdır. Bu, Azərbaycanın öz yolunu dərk edən, Avropa dəyərlərini bölüşdürən müasir ölkə kimi inkişafını mümkün edəcəkdir.

Uğurlu inkişafın mühüm amillərindən biri də ondan ibarətdir ki, Azərbaycan dünyəvi ölkədir və yüksək dözümlülüyü ilə seçilir. Azərbaycanda bir çox milli azlıqlar, müxtəlif dinlərin nümayəndələri yaşayır. Bizim tariximizdə etnik və ya dini zəmində heç vaxt heç bir münaqişə və ya narazılıq olmayıbdır. Dözümlülük yüksək səviyyədədir. Azərbaycanın burada yaşayan bütün xalqların Vətəni olması uğur qazanılmasında prioritet məsələdir.

Milli azlıqlar olmayan, monoetnik ölkə kimi tanınan ölkələrdə isə vəziyyət fərqlidir.

Bizim qonşuluğumuzda monoetnik dövlət var. Onun monoetnik olması orada, yəni Ermənistanda yaşamış təqribən 300 min azərbaycanlının etnik təmizləmə siyasəti nəticəsində qovulması ilə bağlıdır. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi bizim üçün yeganə ciddi problemdir, çünki bütün digər problemlər həll olunmaqdadır. Mən onlardan bir neçəsini artıq qeyd etdim, lakin bütün inkişaf sahələrində maliyyə resurslarına, təfərrüatlı təhlil və yanaşmaya əsaslanan proqramlar mövcuddur. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə gəldikdə isə, biz ümid edirik ki, beynəlxalq ictimaiyyət erməni təcavüzkarları işğala son qoymağa məcbur etməkdə mühüm rol oynayacaqdır. Ermənistanın Azərbaycana təcavüzü artıq yaxşı məlum olan faktdır.

Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurası erməni qoşunlarının Azərbaycanın işğal olunmuş ərazilərindən dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən 4 qətnamə qəbul etmişdir. Lakin ermənilər bu qətnamələri yerinə yetirmirlər. ATƏT-in qərarları da Azərbaycan ərazilərinin azad olunması prinsiplərinə əsaslanır, lakin onlar da yerinə yetirilməyibdir. Avropa Şurası bir qətnamə qəbul etmişdir və orada aydın şəkildə bildirilir ki, Ermənistan Azərbaycana qarşı təcavüz edib, torpaqlarımızı işğal edib və bu işğal nəticəsində bir milyondan artıq azərbaycanlını qaçqın və məcburi köçkün vəziyyə-

tinə salıbdır. Avropa Şurasının bu qətnaməsi ötən ilin yanvar ayında qəbul edilmişdir və bu, həm də çox vacib siyasi bəyanatdır. İslam Konfransı Təşkilatı, GUAM kimi digər təşkilatlar da Azərbaycanın mövqeyini dəstəkləmişlər.

Latviya Azərbaycanı bu danışıqlarda dəstəkləyir və həmin mövqe bu gün Latviya Prezidenti ilə imzaladığımız birgə bəyannamədə öz əksini tapmışdır. Lakin Ermənistana elə gəlir ki, həmin beynəlxalq qərarların heç biri qanuni deyildir. Ermənilər, ümumiyyətlə, beynəlxalq normalara riayət etmir, normal beynəlxalq davranış nümayiş etdirmirlər. Onlar hesab edirlər ki, XXI əsrdə bir ölkə digər ölkənin ərazisinin 20 faizini işğal altında saxlamağa davam edə bilər və buna görə cəzadan yaxa qurtara bilər. Əfsuslar olsun ki, BMT qətnamələrinin həyata keçirilməsi mexanizminin olmaması, Avropa Şurasının qətnamələri yalnız siyasi məna daşıdığı səbəbindən, beynəlxalq ictimaiyyət, ümumiyyətlə, bu məsələyə böyük diqqət yetirmir. Buna görə də ermənilərə elə gəlir ki, onlar Azərbaycan ərazisinin işğalını davam etdirə bilərlər. Lakin bu, çox səhv və dardüşüncəli yanaşmadır. Bu gün Azərbaycan 5 il və ya 10 il bundan əvvəlki ölkə deyildir. Biz iqtisadi baxımdan güclü ölkəyik. Hərbi cəhətdən çox güclüyük. Azərbaycan regiondakı siyasi mövqelərini gücləndirir. Hər bir baxımdan Azərbaycanın mövqeyi ədalətlidir. Tarixi baxımdan ermənilər Dağlıq Qarabağa yalnız XIX əsrin birinci yarısında gəliblər. Bunu sübut edən bir çox materiallar var. O cümlədən Dağlıq Qarabağda 1978-ci ildə qoyulmuş və ermənilərin Qarabağa gəlişinin 150-ci ildönümünə həsr olunmuş abidə vardı. Bu, o deməkdir ki, onlar buraya yalnız 1828-ci ildən sonra gəliblər. Onlar bizim torpağa bir qonaq kimi gəlmişlər. İndi isə etnik təmizləmə siyasətini apardıqdan sonra bütün azərbaycanlıları Dağlıq Qarabağdan qovmuş və onun inzibati sərhədlərindən kənarda yerləşən və heç vaxt yaşamadıqları yeddi rayonu işğal etmişlər.

Beləliklə, 700 min azərbaycanlı öz ölkəsində məcburi köçkün vəziyyətinə düşmüşdür. Ermənistandan isə 300 minədək azərbaycanlını qovmuşlar və hazırda, torpaqlarımızı işğal altında saxlayırlar. Tarixi baxımdan bu, məlumdur. Hüquqi baxımdan Azərbaycanın ərazi bütövlüyü beynəlxalq ictimaiyyət, o cümlədən Birləşmiş Millətlər Təşkilatı tərəfindən tanınmışdır. Azərbaycan Birləşmiş Millətlər Təşkilatına Dağlıq Qarabağ ərazisi də daxil olmaqla qəbul edilmişdir. Bu o deməkdir ki, hüquqi baxımdan da həqiqət bizim tərəfdədir. İqtisadi baxımdan, əlbəttə ki, Azərbaycan və Ermənistanın iqtisadi potensialı müqayisəedilməzdir. Gələn illər ərzində, bu fərq daha da artacaqdır.

Buna görə də, Ermənistan rəhbərliyi və Dağlıq Qarabağdakı separatçı qruplar öz siyasətinin gələcəksiz olduğunu, Ermənistan xalqına rifah, təhlükəsizlik gətirməyəcəyini və əvvəlcədən proqnozlaşdırıla bilməyəcəyini nə qədər tez anlasalar, onların özləri üçün bir o qədər yaxşı olar. Hər bir halda, Azərbaycan Dağlıq Qarabağın müstəqilliyinə heç vaxt razılıq verməyəcəkdir. Biz heç zaman ərazimizdə ikinci erməni dövlətinin yaranmasına razılaşmayacağıq və ərazi bütövlüyümüzü bərpa edəcəyik. Bunu sülh yolu ilə həll etmək istəyirik. Ona görə də, biz ATƏT, onun Minsk qrupu və eyni zamanda, Avropa Birliyi, Birləşmiş Millətlər Təşkilatı və digər beynəlxalq təşkilatlar ilə sıx işləyirik ki, münaqişəni sülh yolu ilə, beynəlxalq hüquq normaları əsasında həll etmək üçün onların yardımından istifadə edək.

Azərbaycanın gələcəyi parlaq görünür və siyasi, iqtisadi islahatlar, Avropa Birliyinin proqramlarına dair güclü inteqrasiya siyasəti və Azərbaycana aid Yeni qonşuluq siyasəti

qarşıdakı 5 il ərzində ölkədə tamamilə fərqli vəziyyət yaradacaqdır. Ümidvaram ki, Avropa Birliyi ilə qonşuluq siyasətinin həyata keçirilməsi nəticəsində gələn beş il ərzində, Azərbaycanın meyarları daha da təkmilləşəcək, siyasi sistem güclənəcəkdir. Biz iqtisadi baxımdan çox güclü potensiala malikik. Məhz Dünya Bankının hesabatında bildirilmişdir ki, gələn 20 il ərzində Azərbaycan təkcə neft layihələrindən 140 milyard dollar gəlir əldə edəcəkdir. Bu rəqəm neft qiymətlərinin orta səviyyədə olacağı şərti ilə hesablanmışdır.

Ona görə də, mən şübhə etmirəm ki, öz potensialımız, uzaqgörənliyimiz, proqramlarımız və gündəliyimiz əsasında ölkəni müasirləşdirmək üçün Azərbaycan regional işlərdə çox vacib rol oynayacaq və təbii ki, regionumuzda və ondan kənarda baş verən bir çox proseslərə təsir göstərəcəkdir.

Mən bir daha dediklərimə qayıtmaq istəyirəm ki, ölkələrimiz arasındakı əməkdaşlıq bizim üçün çox vacibdir və həmin əməkdaşlıq qarşılıqlı surətdə faydalıdır.

Bir daha demək istəyirəm ki, biz olduqca fəal siyasi və iqtisadi dialoqun, əməkdaşlığın, qarşılıqlı dəstəyin, sadəcə, başlanğıcındayıq və ümidvaram ki, Baltik ölkələri ilə Xəzər ölkələri arasındakı ümumi əməkdaşlıq yeni səviyyəyə qalxacaqdır. Biz bunu arzulayırıq və bunun üzərində çalışırıq. Mənim Latviyaya dövlət səfərim ikitərəfli münasibətlərə verdiyimiz əhəmiyyətin çox aydın göstəricisidir.

Eyni zamanda, mən son on beş il ərzində əldə olunmuş böyük nailiyyətlərə görə Latviyanı və Latviya xalqını təbrik etmək istəyirəm. Biz hər ikimiz eyni ölkənin hissəsi olmuşuq və əvvəldə dediyim kimi, hər iki ölkə 15 il bundan əvvəl müstəqilliyini bərpa edibdir. Ölkənizin və xalqınızın əldə etdiyi nailiyyətlər, həqiqətən, tarixi xarakter daşıyır. Siz bununla fəxr edə bilərsiniz və təbii ki, sizin dostlarınız kimi, biz də bundan çox məmnunuq. Ümid edirəm ki, gələcəkdə bizim daha çox təmaslarımız olacaqdır. Təhsil sahəsində bir çox planlarımız var və bu gün mən burada çoxlu gənc görürəm. Ümidvaram ki, təmaslarımız genişlənəcək, ölkələrimiz arasında müxtəlif sahələrdə nümayəndə heyətlərinin daha çox səfərləri olacaq və əlaqələrimiz davam edəcək və qarşılıqlı surətdə faydalı olacaq və daha möhkəm tərəfdaşlıq və əməkdaşlığa zəmin yaradacaqdır.

Diqqətinizə görə çox sağ olun.

İVARS LATSİS: Xanımlar və cənablar, suallarınızı vermək üçün xüsusi imkanınız var.

- Cənab Prezident, gözəl çıxışınıza görə Sizə minnətdarlığımı bildirirəm. Mən Latviyadan Avropa Parlamentinin üzvüyəm. Bu gün axşam Azərbaycanda təşkil olunmuş enerji konfransında iştirak etmək üçün Riqa ilə Bakı arasında birbaşa uçuş xəttindən məmnunluqla istifadə edəcəyəm. Həmin konfrans Sizin hökumətiniz tərəfindən təşkil olunubdur. Mən bu fürsətdən istifadə edərək, enerji məsələlərini müzakirə edəcəyəm. İndi isə sualım belədir: Siz enerji sahəsində bizimlə əməkdaşlığı necə görürsünüz?

İLHAM ƏLİYEV: Sağ olun. Biz artıq on ildən çoxdur ki, böyük enerji layihələrini həyata keçiririk və onlar ilk illərdə olduqca çətin şəraitdə və vəziyyətdə başlanmışdı. Lakin bu gün neft boru kəmərləri artıq istismar olunur. Boru kəməri nefti Aralıq dənizinə və dünya bazarlarına çıxarır. Qaz boru kəmərinin tikintisi bu ilin sonunda başa çatdırılacaqdır. Təbii ki, Azərbaycan neft-qaz hasil və ixrac edən mühüm ölkəyə çevrilir. Həmin

neft və qaz yeni mənbədən gəlir və yeni istiqamətlərə nəql olunur.

Tarixdə ilk dəfə olaraq, biz Xəzər neftini Aralıq dənizinə çatdırırıq və bu, dünya bazarlarına çıxış deməkdir. Bu, uğurla həyata keçirilmiş və bir neçə milyard dollarlıq böyük infrastruktur layihəsidir. İlk dəfə olaraq, Xəzər dənizindən hasil edilən qaz qonşu ölkələrə və daha sonra isə Avropaya çatdırılacaqdır. Bu, eyni zamanda, regionda tamamilə yeni vəziyyət yaradır. Ona görə də enerji sahəsindəki əməkdaşlığımız ikitərəfli formatda ola bilər, biz bu məsələ üzərində işləməyə hazırıq və artıq onun müxtəlif aspektlərini müzakirə etmişik. Bu cür əməkdaşlıq həmçinin Avropa Birliyi və Azərbaycan münasibətləri çərçivəsində də ola bilər.

Enerji sahəsində bizimlə işləmək və Azərbaycanla uzunmüddətli işbirliyinə girmək məqsədi ilə Avropa Birliyinin böyük maraq göstərdiyini görməkdən məmnunuq. Bu, həm də indiki tarixi dövrdə yeni, təkrarolunmaz vəziyyət yaradır. Azərbaycan Xəzərdə işləmək məqsədi ilə xarici şirkətləri dəvət etmiş ilk Xəzəryanı ölkədir. Ölkəmiz dünya bazarlarına çıxışı təmin edən və hazırda başa çatdırılmış boru kəməri layihəsini irəli sürmüş ilk ölkədir. Ona görə də bu gün ikitərəfli səviyyədə və əlbəttə ki, Avropa Birliyi-Azərbaycan əlaqələri səviyyəsində enerji əməkdaşlığı üçün potensial görünür. Biz Avropa bazarları üçün neft-qaz hasil və ixrac edən mühüm ölkə olmaqdan, təbii ki, çox şadıq.

Eyni zamanda, mən çox şadam ki, Siz Riqadan Bakıya birbaşa reysdən istifadə edərək, ölkəmizə səfər edəcəksiniz. Yeri gəlmişkən, bu, xanım Prezidentin ötən il ölkəmizə rəsmi səfəri çərçivəsində əldə edilmiş razılıq nəticəsində mümkün olmuşdur və indi biz bu birbaşa hava xəttindən bəhrələnirik.

İVARS LATSİS: Çox sağ olun.

AZƏRBAYCAN PREZİDENTİNİN ŞƏRƏFİNƏ

Oktyabrın 4-də, günün sonunda Latviya Respublikasının Prezidenti xanım Vayra Vike-Freyberqanın və həyat yoldaşı İmants Freyberqsin adından Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və xanımı Mehriban Əliyevanın şərəfinə rəsmi ziyafət verilmişdir.

Dövlət başçıları ziyafətdə nitq söylədilər.

LATVİYA PREZİDENTİ VAYRA VİKE-FREYBERQANIN NİTQİ

- Zati-aliləri cənab Azərbaycan Prezidenti!

Hörmətli xanım Əliyeva!

Xanımlar və cənablar!

Zati-aliləri, çox şadam ki, Siz mənim təklifimi qəbul edərək, dövlətlərimiz müstəqilliyini bərpa etdiyi və diplomatik əlaqələrin yaradıldığı vaxtdan sonra ilk dəfə olaraq Latviyaya səfər etmisiniz.

Düz bir il öncə, 2005-ci il oktyabrın 3-4-də Latviya Prezidentinin Azərbaycana ilk səfəri olmuşdur. Mən son dərəcə gözəl Azərbaycan torpağına səfər etmək və Sizin xalqınızın

qonaqpərvərliyi ilə tanış olmaq şərəfinə nail olmuşam. Sizin ölkənizə səfərim zamanı Köhnə Bakını - İçərişəhəri ziyarət etmək imkanım olub, hansı ki, eynilə hazırda bizim olduğumuz Köhnə Riqa kimi parlaq bir arxitektura abidəsidir və YUNESKO-nun Dünya İrsi Siyahısına salınmışdır.

Biz Köhnə Riqanın tarixinin ən parlaq şahidlərindən biri olan Qarabaşlılar Evi binasındayıq. Bu bina bizim tariximizin bir növ simvoluna çevrilmişdir. Belə ki, İkinci Dünya müharibəsi zamanı Qarabaşlılar Evi, demək olar, tamamilə dağıdılmışdı və müstəqilliyin bərpasından sonra dövlətimiz kimi, bu binanı da yenidən qurmuşuq. Eynilə öz dövlətini yenidən qurmuş Azərbaycan xalqı kimi.

Bizim ölkələrimiz bir-birindən uzaqda yerləşir, lakin bizi xalqlarımız arasındakı dostluq münasibətləri birləşdirir. Xalqlarımızın tarixində son dərəcə çox bənzərliklər var. 1918-ci ildə Latviya və Azərbaycan müstəqillik yoluna qədəm qoymuş, bunun qarşısı Azərbaycanda 1920-ci ildə, Latviyada isə 20 il sonra zorakılıqla kəsilmişdir. Məhz bir çox onilliklər ötəndən sonra, xalqlarımızın davamlı olaraq ədalətə və müstəqilliyə can atması sayəsində Latviya və Azərbaycan yenidən azad olmuşdur.

Bu il bizim ölkələrimizin müstəqilliyinin bərpa olunmasının 15 ili tamam olur. Bu illər ərzində bir çox şeylərə müvəffəq olmuşuq. Latviya və Azərbaycan dünyanın siyasi xəritəsində öz yerlərini həmişəlik əldə etmişlər. Latviya 2004-cü ildə Avropa Birliyinə və NATO-ya daxil olmaq kimi özünün iki strateji məqsədinə nail olmuşdur. Azərbaycan bu 15 il ərzində yerləşdiyi regionun liderlərindən birinə çevrilmişdir. Hələ yaxın keçmişdə həyata keçirilməz görünən məsələlər, artıq bu gün reallığa çevrilmişdir.

Bu il ərzində ikitərəfli əlaqələrimizdə bir çox mühüm, həlledici məqamlar öz yerini tapmışdır. Riqada Azərbaycan səfirliyinin açılması diplomatik əlaqələrin inkişafına imkan yaratmışdır. Şadam ki, Bakıda Latviya səfirliyi öz işinə başlamışdır. Azərbaycanda fövqəladə və səlahiyyətli səfirimizin yaxın zamanda akkreditə olunacağına ümidvarıq.

İqtisadiyyat sahəsində bir çox məqsədlər yerinə yetirilmişdir. İki il ərzində ölkələrimiz arasında ticarətin həcminin faktik olaraq iki dəfə artdığını qeyd etmək istərdim. Buna ötən il imzalanmış sənədlər və həmçinin hər iki səfirliyin uğurlu fəaliyyəti imkan yaratmışdır. Paytaxtlarımız arasında birbaşa hava əlaqəsinin açılması iş adamlarının təmaslarının fəallaşmasına səbəb olmuşdur. Dövlət səfəri çərçivəsində keçiriləcək biznes forumu bu təmasların dərinləşməsi üçün əlavə imkanlar yaradır. Bu gün imzalanmış sənədlər də münasibətlərimizin inkişafına fayda verəcəkdir. Ümid edirəm ki, hökumətlərarası komissiya ilin sonuna kimi öz işinə başlayacaqdır.

Bu gün imzalanmış və bir çox mühüm beynəlxalq məsələlər üzrə bizim ümumi mövqeyimizin ifadə olunduğu birgə bəyannamə ölkələrimiz arasındakı əlaqələrin yetkinliyini sübut edir.

Mən Azərbaycan tərəfindən AB və NATO ilə daha sıx əlaqələrin yaradılmasının xeyrinə edilmiş seçimi böyük məmnuniyyətlə izləmişəm. Latviya Avropa Birliyinin Yeni qonşuluq siyasətində yaxından iştirak edir və Cənubi Qafqaz dövlətləri ilə, o cümlədən Azərbaycanla əməkdaşlığın inkişaf etdirilməsini dəstəkləyən dövlətlər sırasına aiddir. Bu, bizim prioritetlərimizdən biridir. Əmin ola bilərsiniz ki, Latviya tərəfindən bu fəaliyyət davam etdiriləcəkdir.

Cənab Prezident, mən BMT-nin baş katibi vəzifəsinə seçkilərdə namizədliyimin Azərbaycan tərəfindən dəstəkləndiyinə görə Sizə dərin minnətdarlığımı ifadə etmək istəyirəm. BMT-nin bütün dünyada sülhə, sabitliyə və inkişafa imkan yaradan əvəzedilməz forum olduğuna inanıram. Bizim ümumi borcumuz bu təşkilatın planetimizdə sülhü və tarazlaşdırılmış inkişafı möhkəmləndirərək, XXI yüzilliyin çağırışlarına səmərəli cavablar vermək iqtidarında olması istiqamətində əməyimizi əsirgəməməkdən ibarətdir.

Zati-aliləri, öz səfərinizlə Latviya xalqına verdiyiniz şərəfə görə Sizə minnətdaram. Bu, əlaqələrimizin inkişaf etdirilməsi yolunda ümidlər vəd edən bir addımdır və inanıram ki, bu əlaqələr gələcəkdə də öz inkişaf dinamikasını qoruyub saxlayacaqdır.

Mən bu badəni bizim hazırkı və gələcək əməkdaşlığımızın, ölkələrimizin tərəqqisinin şərəfinə qaldırmaq istəyirəm!

Latviya və Azərbaycan arasındakı dostluğun şərəfinə!

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ

- Hörmətli xanım Prezident!

Hörmətli cənab İmants Freyberqs!

Əziz dostlar, xanımlar və cənablar!

Xanım Prezident, ilk növbədə, məni dost ölkənizə dövlət səfərinə dəvət etdiyinizə görə Sizə ürəkdən təşəkkür edir, Latviya torpağında mənə və nümayəndə heyətinə göstərdiyiniz səmimi qonaqpərvərliyə görə dərin minnətdarlığımı bildirmək istəyirəm.

Keçirdiyimiz görüşlərdən çox məmnunam. Biz ikitərəfli əməkdaşlıqla bağlı geniş fikir mübadiləsi, danışıqlar apardıq. Əminəm ki, bütün bunlar, həmçinin imzalanmış birgə bəyannamə və digər sənədlər, iki ölkənin iş adamlarının keçirəcəkləri biznes forumu əməkdaşlığımızın inkişafına və dərinləşməsinə öz töhfəsini verəcəkdir. Ötən il Azərbaycana səfəriniz əlaqələrimizin daha da genişlənməsinə xüsusi təkan vermiş və müxtəlif sahələrdə qarşılıqlı surətdə faydalı əməkdaşlığımız üçün yaxşı perspektivlər açmışdır.

Bu gün Azərbaycanla Latviya arasında iqtisadi əlaqələr sürətlə inkişaf edir, əmtəə dövriyyəsinin həcmi ildən-ilə artır. Ölkələrimiz, eyni zamanda, Avropaya inteqrasiya proseslərində, beynəlxalq və regional təşkilatlar, o cümlədən BMT, ATƏT, Avropa Şurası, həmçinin Avropa İttifaqının Yeni qonşuluq siyasəti proqramı və NATO-nun "Fərdi tərəfdaşlığın fəaliyyət planı" çərçivəsində uğurlu əməkdaşlıq edir. Bu təsisatlarla əməkdaşlıqda Latviyanın Azərbaycana dəstəyinə görə Sizə minnətdarlığımı bildirirəm.

İki ölkə arasında mövcud olan qarşılıqlı anlaşma və dəstək, siyasi dialoq, müxtəlif sahələrdə sıx əlaqələr məmnunluq doğurur. Azərbaycan sürətlə inkişaf edən ölkədir. Həyata keçirilən siyasi və iqtisadi islahatlar ölkənin dinamik inkişafına imkan yaradıbdır. 2005-ci ilədək on il ərzində Azərbaycanda ümumi daxili məhsulun artımı hər il 10 faizdən çox olmuşdur. 2005-ci ildə bu 26 faiz, 2006-cı ilin birinci yarısında isə 36 faizdən çox artmışdır. Təxminən son üç il ərzində ölkədə 435 min yeni iş yeri açılmışdır.

Azərbaycan regionda sabitliyin və təhlükəsizliyin möhkəmlənməsinə, iqtisadi inkişafa

və inteqrasiyaya təkan verəcək beynəlxalq layihələr həyata keçirir. Bakı-Tbilisi-Ceyhan neft kəməri, Bakı-Tbilisi-Ərzurum qaz kəməri, Bakı-Tbilisi-Qars dəmir yolu layihələri bütün regionun inkişafında mühüm rol oynayacaqdır. Lakin mövcud münaqişələri aradan qaldırmadan regionda sülhə və təhlükəsizliyə nail olmaq mümkün deyildir. Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü regionda sabitliyi pozan başlıca amildir. Bu hərbi təcavüz və etnik təmizləmə siyasəti nəticəsində torpaqlarımızın 20 faizi işğal edilmiş, ölkədə bir milyondan çox qaçqın və məcburi köçkün yaranmışdır. Azərbaycan münaqişənin beynəlxalq hüquq, ölkəmizin ərazi bütövlüyü çərçivəsində ədalətli şəkildə nizama salınmasını, münaqişə ilə bağlı BMT Təhlükəsizlik Şurasının qətnamələrinin, ATƏT-in, Avropa Şurasının və digər beynəlxalq təşkilatların qərarlarının yerinə yetirilməsini tələb edir.

Xalqımızın ən ağrılı problemi olan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində Latviyanın mövqeyini yüksək qiymətləndirirəm. Fürsətdən istifadə edərək, GUAM dövlətləri ərazisində davam edən münaqişələr və onların beynəlxalq sülhə, təhlükəsizliyə və inkişafa təsiri ilə bağlı məsələnin BMT Baş Məclisi 61-ci sessiyasının gündəliyinə daxil edilməsində ölkənizin Azərbaycana verdiyi dəstəyə görə Sizə xüsusi təşəkkür edirəm.

Mən Azərbaycanla Latviya arasında münasibətlərin bütün sahələrdə inkişaf etməsinin, genişlənməsinin tərəfdarıyam və inanıram ki, ölkənizə səfərim bu münasibətləri daha yüksək səviyyəyə qaldıracaqdır.

Hörmətli xanım Prezident, icazə verin, bu badəni Sizin şərəfinizə, cənab İmants Freyberqsin şərəfinə, ölkələrimiz arasında səmimi dostluq və faydalı əməkdaşlıq əlaqələrinin inkişafının şərəfinə qaldırım!

AZƏRBAYCAN-LATVİYA BİZNES FORUMU

Oktyabrın 5-də Riqada, "Latviya İctimaiyyət Evi"ndə Azərbaycan-Latviya biznes forumu işə başlamışdır.

Forum iştirakçıları Azərbaycan Prezidenti İlham Əliyevi və Latviya Prezidenti Vayra Vike-Freyberqanı hərarətlə qarşıladılar.

Latviya İnvestisiya və İnkişaf Agentliyinin direktoru Andris Ozols forumu açaraq, dövlət başçılarını salamladı. Forumda hər iki tərəfdən 100-ə qədər iş adamının iştirak etdiyini bildirərək dedi ki, əsas məqsəd sahibkarlar arasında iqtisadiyyatın müxtəlif sahələrində səmərəli əməkdaşlığın qurulması və mövcud iqtisadi potensialdan yararlanaraq, ticarət dövriyyəsini hər iki ölkəni qane edən səviyyəyə çatdırmaqdır.

Andris Ozols bildirdi ki, bu latviyalı və azərbaycanlı iş adamlarının ikinci biznez forumudur. Birinci forum Latviya Prezidentinin Azərbaycana səfəri zamanı keçirilmişdir. Belə tədbirlərin ikitərəfli əməkdaşlıq baxımından səmərəli olduğunu vurğuladı.

Sonra prezidentlər biznes forumda nitq söylədilər.

LATVİYA PREZİDENTİ VAYRA VİKE-FREYBERQANIN NİTQİ

- Zati-aliləri Prezident Əliyev,

- Sahibkarlar,

- Xanımlar və cənablar!

- Bir il öncə mənim Azərbaycana dövlət səfərimdən sonra burada təşkil olunmuş Latviya-Azərbaycan biznes forumunda çıxış etməkdən məmnunam və şərəf hissi duyuram. Mən bu forumda təmsil olunmuş çoxsaylı Latviya və Azərbaycan şirkətlərini görməkdən şadam. İştirakçılar çoxdur, məncə, təşkilatçılar daha böyük salon ayıra bilərdilər. Belə mühüm tədbiri təşkil etdiyinə görə Latviya İnvestisiya və İnkişaf Agentliyinə, habelə Azərbaycanda İxracın və Sərmayələrin Təşviqi Fonduna öz minnətdarlığımı bildirmək istəyirəm.

Bu gün keçirilən biznes forumu, eləcə də ötən il Azərbaycana etdiyim səfərin nəticələri iqtisadi əməkdaşlığımızın genişləndirilməsi və birgə layihələrin həyata keçirilməsinə böyük marağın olduğunu göstərir. Hesab edirəm ki, yaxşı əsaslarla başlayırıq.

Azərbaycana səfərimdən sonra, Latviyanın "Air Baltic" milli aviasiya şirkəti bu ilin mayında Riqa ilə Bakı arasında birbaşa uçuşlara başlamışdır. Həmin vaxtdan etibarən Latviya və Azərbaycan şirkətləri bir sıra yeni tərəfdaşlıq əlaqələri qurmuşlar. Ölkələrimiz arasında ticarət dövriyyəsi iki dəfə artmışdır. Ümid edirəm ki, bu, davam edəcəkdir.

Biz aşağı həcmli ticarət dövriyyəsindən başlamışdıq, lakin indi görürük ki, inkişaf gedir və bu, bizim münasibətlərimizin tarixində yeni bir səhifə açır.

Burada bir sıra Latviya şirkətləri, o cümlədən kommersiya bankları və informasiya texnologiyaları şirkətləri var ki, onlar artıq bir neçə il ərzində Azərbaycan bazarında fəaliyyət göstərmişlər. Eyni zamanda, Azərbaycan şirkətləri Latviyada işləmişlər. Ümidvaram ki, Sizin Latviyaya dövlət səfəriniz nəticəsində daha çox birgə müəssisə yaranacaq və tərəfdaşlıq qurulacaqdır.

2005-ci ildə Azərbaycana etdiyim dövlət səfəri zamanı hər iki tərəf gömrük məsələlərinin həllinə və sərmayələrin təşviqi və qorunmasına töhfə vermiş, habelə iqtisadi, elmi, texniki və mədəni əməkdaşlığı gücləndirən sazişlər imzalamışdır. Vergi sahəsində konvensiya və terrorçuluğa qarşı mübarizə haqqında saziş gələcək işbirliyimiz üçün möhkəm əsasların yaradılmasına da kömək etmişdir. Biz ümid edirik ki, iqtisadi, elmi, texniki və mədəni əməkdaşlıq haqqında saziş çərçivəsində yaradılmış hökumətlərarası komissiya dövlətlərimiz arasında daha intensiv dialoqun təmin edilməsinə təsirini bu yaxınlarda göstərəcəkdir.

Dünən hökumətlərimiz arasında əməkdaşlığın müxtəlif sahələrini əhatə edən bir sıra yeni sazişlər imzalanmışdır. Mən ürəkdən ümid edirəm ki, Azərbaycan və Latviyanın biznes nümayəndələri də öz aralarında bir çox yeni tərəfdaşlıq sazişləri bağlayacaqlar və cənab Prezident, Sizin Latviyaya səfəriniz ölkələrimiz arasındakı ticarət münasibətlərinə yeni təkan verəcəkdir.

Ötən il Latviyada Azərbaycan səfirliyinin açılması ölkələrimiz arasında əməkdaşlığın möhkəmləndirilməsi sahəsində mühüm hadisə olmuşdur. Cari il ərzində Latviyanın Azərbaycanda səfirliyinin açılması ilə bu uğurlar daha da artacaqdır.

Cənab Prezident, Latviyanın Avropa İttifaqı və NATO-ya üzv olması ölkənin iqtisadi inkişafına müsbət təsir göstərmişdir. Latviya ilə Azərbaycan dünyada ən sürətlə inkişaf edən iqtisadiyyatları qurduğu bir vaxtda belə bir biznes auditoriyasına müraciət etmək xüsusilə xoşdur. 2001-2005-ci illər ərzində Latviyanın ÜDM-nin artımı ildə 8 faizdən çox olmuşdur. Ötən il ÜDM-in artımı 10,2 faizə çatmışdır. Bu, Avropa İttifaqında ən yüksək və bütün dünyada 5-ci göstəricidir. Cari ilin birinci yarısında, mənim ölkəmdə ÜDM-in həcmi hətta 12 faizdən çox artmışdır. Bu cür sürətli iqtisadi artım daxili tələbatın dayanmadan artması və Latviyanın ixracının davamlı şəkildə yüksəlməsi sayəsində mümkün olmuşdur.

Bu gün Latviyanın sənaye potensialının 70 faizindən çoxu özəl sektorun payına düşür. 2005-ci ildə mənim ölkəmin ixrac əməliyyatlarının 76,2 faizi, yəni dörddə üçündən çoxu məhz dost Avropa İttifaqı ölkələri ilə olmuşdur. Latviyadakı birbaşa xarici sərmayələrin üçdə ikisindən çoxu Avropa İttifaqının payına düşür, 2005-ci ildə bu, 68,2 faiz təşkil etmişdir.

Mən məmnunluqla qeyd edirəm ki, Latviyanın Azərbaycana ixracı ötən il ərzində 35 faizdən çox artmışdır. Azərbaycandan idxal isə üç dəfə çoxalmışdır. Latviya ilə Azərbaycan arasındakı ticarət dövriyyəsi hələ də nisbətən aşağı olsa da, biz ümid edirik ki, müsbət meyillər davam edəcəkdir. Biz gələcəkdə ticarət sahəsində, xüsusən də Latviyanın ixrac əməliyyatlarında gözəçarpan artımın əldə olunmasına ümid edirik.

Cənab Prezident, iqtisadi inkişaf sahəsində əldə etdiyi nailiyyətlərə görə Azərbaycanı təbrik edirik. Azərbaycan iqtisadiyyatı yüksək sürətlə inkişaf etməkdədir. Xarici sərmayədarlar Azərbaycanda böyük layihələr, xüsusən də karbohidrogen sektorundakı layihələri həyata keçirməkdə davam edirlər. Biz ürəkdən inanırıq ki, yeni strateji boru kəmərləri sistemlərinin inkişaf etdirilməsi, habelə Azərbaycan iqtisadiyyatının şaxələndirilməsi Azərbaycanın və onun xalqının rifahının yüksəldilməsinə kömək edəcəkdir. Latviya Azərbaycan qazı, nefti və neft məhsullarının idxal edilməsində maraqlıdır. Hazırda onların idxalı Rusiya ərazisi ilə tranzit şərtlərindən olduqca asılı vəziyyətdədir. Avropa İttifaqının üzvü olaraq, Latviya Azərbaycanın əlavə neft və qaz təchizatı sistemlərinin inkişaf etdirilməsi və onların Avropaya qədər uzadılmasında xüsusilə maraqlıdır.

Neftin kəşfiyyatı və işlənilməsi üzrə dünyada ən mühüm ölkələrdən biri sayılan Azərbaycan, əlbəttə ki, təbii yanacağın qiymətlərinin artmasından faydalanır. Amma hazırda dünyada neftin qiymətlərinin artması Latviyada son iki il ərzində ildə 6 faizlik həddi keçmiş inflyasiyanın səviyyəsinə əlavə təzyiq göstərir və gələcəkdə bizim iqtisadi artımımızı zəiflədə bilər.

ÜDM-in yüksək artım səviyyəsinin saxlanılması Avropa İttifaqının orta gəlir səviyyəsinə çatmağı arzulayan Latviya üçün olduqca vacibdir. Bizim gəlir səviyyəmiz hələ də Avropa İttifaqının orta göstəricisinin 50 faizini təşkil edir. Artımı davam etdirmək üçün Latviya bir sıra işləri yerinə yetirməlidir. Ölkədə daha yüksək keyfiyyətli mallar istehsal etməklə və xidmətlər göstərməklə rəqabət artırılmalı və yüksək texnologiyalara səmərəli şəkildə sərmayə yatırılmalı və onlar tətbiq olunmalı, tədqiqatlar və yeniliklər təşviq olunmalı və yüksək peşəkarlığı ilə seçilən işçi qüvvəsi ilə təmin edilməlidir. Biz Avropa İttifaqının strukturları və uyğunlaşma fondlarının səmərəli istifadəsini mümkün etməliyik. Çünki onlar sadalanmış prioritetlərin həyata keçirilməsində bizə yardım edə-

cək və sosial-iqtisadi qeyri-bərabərliyin tədricən azaldılmasına zəmin yaradacaqdır.

Yaydakı quraqlığın məhsula göstərdiyi təsiri və Orta Şərqdə siyasi gərginlik nəticəsində neftin qiymətlərinin daha da qalxması ehtimalını nəzərə alaraq, yaxın gələcəkdə Latviyada inflyasiya dərəcəsini azaltmaq çətin olacaqdır. Nəticədə belə çıxır ki, mənim ölkəm avronu, nəzərdə tutulduğu kimi, 2008-ci ilin yanvarın 1-də yox, ondan sonra dövriyyəyə buraxacaqdır.

İnflyasiya səviyyəsindən savayı, Latviya Valyuta-İqtisadi İttifaqına qoşulmaq üçün lazım olan digər meyarlara tam cavab verir.

Cənab Prezident, Latviya İpək yolunun nəqliyyat marşrutları ilə tarixən bağlı olub və ənənəvi olaraq, Avropa ilə Asiya arasında ticarət və tranzit üzrə vacib mərkəzə çevrilibdir. Bu gün ölkəm siyasi baxımdan təhlükəsizdir və Şimali Avropanın zəngin bazarlarına açıqdır. Latviya Azərbaycan istehsalçılarına özlərinin məhsulları və xammalı ilə yeni Qərb bazarlarına daxil olmaqda kömək edə bilər. Latviyanın donmayan üç ən böyük dəniz limanı olduqca qənaətcil və yüksək səviyyədə inkişaf etmiş infrastrukturla təchiz edilmişdir. Yollarımızın, boru kəmərlərimizin və anbarlarımızın imkanlarından tam istifadə etmək, daha yüksək həcmdə yüklər qəbul etmək mümkündür və mən əminəm ki, Siz Latviyanın üstünlüklərini müsbət qiymətləndirəcəksiniz.

Mən ürəkdən inanıram ki, Sizin ölkəmə səfəriniz zamanı, Siz Riqanın və Latviyanın ümidverici potensialı barədə daha çox öyrənəcəksiniz. Biz strateji Baltik dənizi regionunun tam mərkəzində yerləşirik. Ümidvaram ki, Azərbaycan Prezidentinin Latviyaya indiki dövlət səfəri ölkələrimiz arasında iqtisadi tərəfdaşlığın möhkəmləndirilməsi və şaxələndirilməsinə xidmət edəcək, daha geniş iqtisadi əməkdaşlığa yeni təkan verəcək və sahibkarlarımız arasında yeni faydalı işbirliyinin qurulmasına əsas yaradacaqdır.

Mən hər iki ölkənin biznes nümayəndələrinə uğurlu görüşlər və burada, Riqada aparacaqları müzakirələrdə faydalı nəticələr arzulayıram.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ

- Hörmətli xanım Prezident,

- Əziz dostlar,

İlk növbədə, burada, Latviyada bizə göstərilmiş səmimi qəbula və qonaqpərvərliyə görə mən öz adımdan, nümayəndə heyəti və Azərbaycanın iş adamları adından Sizə dərin minnətdarlığımı bildirmək istəyirəm. Biz bu səfəri xanım Prezidentin ötən il Azərbaycana səfərindən sonra ikitərəfli münasibətlərdə başlanmış yeni mərhələnin davamı kimi müxtəlif sahələrdə əməkdaşlığın daha da genişləndirilməsi istiqamətində çox vacib addım hesab edirik.

Bakıda Latviya və Azərbaycan iş adamlarının iştirakı ilə keçirilmiş birinci Latviya-Azərbaycan biznes forumu bizim hamımızın yadındadır. Həmin tədbirin nəticələri olduqca uğurludur və əməkdaşlıq üçün böyük imkanlar vəd edir.

Çox qısa müddət ərzində, yəni daha dəqiq desək, bir il ərzində biz əlaqələrimizin bütün sahələrində irəliləyişə nail olduq. Dünən imzalanmış sənədlər siyasi, iqtisadi və sosial həyatın aspektlərini əhatə edir və bir il öncə bağlanmış sazişlərlə birgə biz artıq əməkdaşlığımızın daha da genişləndirilməsi üçün çox möhkəm hüquqi bazaya malikik. Son bir il ərzində iş adamlarımız bir-birini daha yaxşı tanımağa başlamışlar. Biz artıq birgə layihələrə başlamışıq, ölkələrimiz arasında birbaşa hava xətləri var. Bizim Latviyadakı diplomatik nümayəndəliyimiz tam fəaliyyətə başlamışdır. Ümidvarıq ki, gələcəkdə qarşılıqlı fayda verən daha çox layihə həyata keçiriləcəkdir.

Ölkələrimizin iqtisadiyyatı çox sürətlə inkişaf etməkdədir. Biz ÜDM-in artımının göstəricisinə görə, Avropada və hətta dünyada öncül yerdəyik. Latviyada gördüyümüz nailiyyətlər olduqca böyükdür və mən müstəqilliyinin 15 ili ərzində Latviya xalqının əldə etdiyi uğurlara görə Sizi təbrik etmək istəyirəm. Ölkəniz hazırda öz inkişaf yoluna, o cümlədən yenidən Avropa ailəsinə qayıdır. Latviya Avropa İttifaqının və NATO-nun üzvüdür. Burada sürətli inkişaf göz qabağındadır. Biz dost və tərəfdaşıq və mən bundan məmnunam. Biz bunu öz inkişafının ilk mərhələsində olan bir dost ölkə kimi duyuruq.

Həyata keçirdiyimiz Avropa siyasəti həm də böyük imkanlar vəd edir. Hazırda biz Avropa İttifaqı ilə nəinki Yeni qonşuluq siyasəti çərçivəsində, eləcə də enerji sahəsində uzunmüddətli əməkdaşlığa başlamışıq. Avropa İttifaqı ilə Azərbaycan arasındakı əlaqələr hər iki tərəf üçün get-gedə daha böyük əhəmiyyət kəsb edir. Avropa dəyərlərinə doğru addımlayan Azərbaycan Latviya ilə münasibətlərini yüksək qiymətləndirir. Biz hər zaman ikitərəfli səviyyədə, o cümlədən beynəlxalq təşkilatlar çərçivəsində bir-birimizi dəstəkləyir, qarşılıqlı yardım göstəririk. Bu fürsətdən istifadə edərək, BMT-də dondurulmuş münaqişələrin müzakirəsinə aid səsvermə zamanı ölkəmizin mövqeyini dəstəklədiyinə görə mən Azərbaycan hökuməti və xalqı adından Latviya tərəfinə bir daha dərin təşəkkürümü bildirmək istəyirəm. Həmin dəstək GUAM ölkələrinin təşəbbüsünün qəbul edilməsi və hazırda BMT-də müzakirəyə çıxarılmasında, sözün əsil mənasında, olduqca vacib idi.

Ölkələrimizin iqtisadi potensialı artmaqdadır. Eyni zamanda, əməkdaşlığın və siyasi əlaqələrin daha da inkişaf etdirilməsi üçün qarşımızda çox möhkəm əsaslar var. Hər bir ölkənin biznes icması olduqca həssasdır. Öz ölkələri ilə potensial tərəfdaş ölkə arasında yaxşı siyasi münasibətlərin olduğu halda, onlar həmin ölkədə biznes qurmağa və sərmayə yatırmağa üstünlük verirlər. Ona görə də güclü siyasi dialoq və əməkdaşlıq işgüzar dairələr üçün əlavə rahat şərait yaradır. Bu gün burada Azərbaycandan gəlmiş çox sayda iş adamlarının iştirak etməsi faktı bunun bariz nümunəsidir. İşbirliyinə böyük maraq, qarşılıqlı maraq doğuran məsələlər var. Bir sözlə, birgə biznesin aparılması böyük fayda verəcəkdir.

İqtisadi əməkdaşlığımız getdikcə artır. Bu, əlavə imkanlar yaradır. Bu səfər zamanı biz həmçinin belə bir qənaətə gəldik ki, Latviya regional nəqliyyat şəbəkəsidir. Azərbaycan da öz regionunda eyni rolu oynayır. Əsas yükdaşıma şirkətlərini regional əməkdaşlıq üçün bizim infrastrukturdan, hava və dəniz limanlarından, nəqliyyat marşrutlarından istifadəyə cəlb etdik. Təbii ki, nəqliyyat məsələləri regionun gələcək inkişafında daha böyük rol oynayacaqdır. Cənubi Qafqaz və Xəzər regionu artıq Avropanın qonşusuna çevrilir. Biz artıq Xəzər və Qara dəniz regionları arasında çox yaxşı əməkdaşlıq aparırıq. Bu əməkdaşlığı asanlıqla daha geniş formata qədər genişləndirə bilərik. Burada Xəzər-Qara-Baltik dənizləri regionu nəzərdə tutulur. Bu, nəinki yeni iqtisadi vəziyyətin, o cümlədən çox güclü siyasi formatın formalaşmasına xidmət edəcəkdir. Bizim eyni is-

təklərimiz var, tərəfdaş ölkələrik və eyni istiqamətdə addımlamalıyıq. Təbii ki, bu əlaqələrin iqtisadi komponenti çox vacib rol oynayır, çünki iqtisadiyyat hər bir inkişafın əsasıdır. Əgər siz iqtisadi baxımdan güclü və müstəqilsinizsə, onda, əlbəttə ki, ölkənin mövqeləri də möhkəmlənir.

Biz Azərbaycanda həmin iqtisadi müstəqilliyin bərqərar edilməsinə nail olmuşuq. Bu, Azərbaycanın son 15 il ərzində qoruyub saxladığımız müstəqilliyinə verilən ən əsas töhfələrdən biridir. Təbii ki, hazırda əvvəlkindən fərqli olan və dəyişən enerji bazarındakı vəziyyət Azərbaycanın əhəmiyyətini birmənalı olaraq artırır. Lakin 1990-cı illərdə enerji sahəsində əməkdaşlığa başladığımız zaman heç təsəvvür edə bilməzdik ki, bizim resurslarımız regional istehlakçılar üçün bu qədər əhəmiyyət daşısın. Əsas neft və qaz layihələrini başladığımız vaxt, başlıca məqsəd həmin təbii sərvətləri dünya bazarlarına çıxarmaq və onlardan ölkədə siyasi və iqtisadi vəziyyətin inkişaf etdirilməsi üçün bir vasitə kimi istifadə etməkdən ibarət idi.

Bu gün artıq Avropa və dünya bazarlarına çıxarılan enerji resurslarımız Avropa və dünya işlərində getdikcə daha böyük rol oynacaqdır. Dünya bazarlarına boru kəmərləri vasitəsilə nəql olunan Azərbaycanın nəhəng neft və qaz ehtiyatları regional vəziyyətə və qonşuluqdakı proseslərə təsir göstərəcəkdir.

Bu baxımdan Latviya ilə Azərbaycan arasındakı davamlı əməkdaşlıq daha böyük əhəmiyyət daşıyacaq və işgüzar dairələrimiz həmin işbirliyinin yeni sahələrini araşdıracaqlar. Şübhə yoxdur ki, təsis edilmiş birgə hökumətlərarası komissiya mühüm rol oynacaqdır. Çünki komissiya iş adamlarına bir-biri ilə tanış olmağa yardım edəcək, potensial əməkdaşlıq yollarının bələdçisi olacaqdır. Nəticədə, həmin komissiyanın vaxtaşırı görüşləri ikitərəfli ticarətin artmasına zəmin yaradacaqdır.

Biz çox məmnunuq ki, ticarət dövriyyəsi artır, lakin rəqəm hələ də qənaətbəxş sayıla bilməz. Bu da təbiidir, çünki yalnız bu yaxınlarda biz ciddi əməkdaşlığa, çox vacib regional layihələrdə iştiraka başlamışıq. Təbii ki, qarşılıqlı maraq ölkələrimiz arasında uzunmüddətli iqtisadi əməkdaşlıq üçün yaxşı əsasdır. İqtisadi və siyasi əməkdaşlıq paralel şəkildə aparılır. Çox yüksək səviyyəli siyasi və iqtisadi təmaslardan məmnunluqla istifadə edirik.

Latviya Azərbaycan üçün çox vacib tərəfdaşdır, dost ölkədir və Azərbaycan ilə Avropa İttifaqı arasındakı münasibətlərdə ölkəmizi hər zaman dəstəkləyir. Bu da çox vacibdir. Əminəm ki, nümayəndə heyətimiz dünən və bu gün ərzində bu reallığı öz gözü ilə gördü. İş adamları öz maraqlarını kommersiya faydası ilə bağlayırlar. Bu da müşahidə olunur. Qarşılıqlı fayda verən biznes müqavilələri, öhdəliklər və sazişlərin hamısı ölkələrimiz arasında daha möhkəm əlaqələrin qurulmasına xidmət edəcəkdir və eyni zamanda, iş adamlarımız üçün daha yaxşı şərait yaradacaqdır.

Hazırda Azərbaycan biznesi çox sürətlə inkişaf edir. Biz özəl sahibkarlığa dəstək verirk. Bu məqsədlə büdcəmizdə xüsusi fond var. Bu il həmin rəqəm yüz milyon dollar təşkil edir və biz bu vəsaiti, demək olar ki, çox güzəştli şərtlərlə kredit kimi özəl sektora təklif edirik. Bu il biz dövlət sərmayə şirkəti yaratmışıq. Onun ilkin kapitalı 100 milyon dollardır və əsas məqsədi sərmayələr üçün münbit şərait yaratmaq, proqnozlaşdırmanı mümkün etmək üçün yeni potensial sərmayədarları cəlb etmək və ilkin mərhələdə həmsərmayəçi kimi çıxış etməkdən ibarətdir.

Ümumiyyətlə, Azərbaycandakı sərmayə mühiti çox müsbətdir. Adambaşına düşən birbaşa xarici sərmayələrin həcminə görə Azərbaycan regionda aparıcı ölkədir. Biz son on il ərzində sərmayə kimi ölkəmizə təqribən 30 milyard dollar cəlb etmişik və bu meyil davam edir. Enerji və boru kəmərləri layihələrinin həyata keçirilməsi məqsədi ilə Azərbaycan üçün milyardlarla dollar ayırmış beynəlxalq maliyyə təsisatları ilə çox fəal şəkildə işləyirik. Biz beynəlxalq banklar üçün etibarlı tərəfdaşıq. İqtisadi və biznes nüfuzumuz artır.

Bu gün Azərbaycan öz iqtisadiyyatına istədiyi qədər sərmayələr cəlb etməyə qadirdir. Bir neçə il bundan əvvəl biz Dövlət Neft Fondu yaratmışıq. Neft satışından əldə olunan bütün gəlirlər həmin fonda toplanır və ölkənin ən vacib və təcili tələbatlarının ödənilməsi üçün sərf olunur. Bu gün Azərbaycanın nağd valyuta ehtiyatları 3 milyard dollara bərabərdir. Dövlət büdcəmiz son üç il ərzində 4 dəfə artmışdır. Yerli sərmayə proqramlarımız da artmışdır. Hazırda Azərbaycanda 6 elektrik stansiyası tikilməkdədir. Yollar, su kəmərləri, qazpaylama sistemləri çəkilir.

Bundan əlavə, ölkəmizdə üç yeni hava limanı tikilir. Xəzərin şərq sahilindən neftin daşınmasında bütün tankerlərimizdən tam istifadə etmək üçün nəqliyyat infrastrukturuna yatırılan sərmayələrin də həcmi artırılır. Biz kənd təsərrüfatının inkişafına çox böyük diqqət yetiririk və bu sahədə fəal şəkildə əməkdaşlıq edə bilərik. Bank işi, sığorta, informasiya və kommunikasiya texnologiyaları sahələri də var. Bir neçə gün bundan əvvəl Bakıda informasiya və kommunikasiya texnologiyaları mövzusunda böyük bir konfrans təşkil edilmişdir. Biz İKT üzrə regional mərkəzə çevrilməyi planlaşdırırıq.

Gündəliyimizdə duran əsas məsələ neft və qaz gəlirlərinin humanitar dəyərlərə çevrilməsidir. Azərbaycan iqtisadiyyatını şaxələndirmək üçün bu gəlirlərin yeni texnologiyalara sərf edilməsi vacibdir. Biz on ildən sonra neft qiymətlərindən asılı olmamalıyıq. Bir tərəfdən, neftin qiymətinin yüksək olması bizim üçün əlavə gəlir deməkdir. Lakin digər tərəfdən isə, iqtisadiyyatda vəsaitlərin həddindən artıq çox olmasına və bəzi arzuedilməz inflyasiya meyillərinə səbəb olur. Biz iqtisadiyyatımızı elə bir şəkildə tarazlaşdırmalıyıq ki, ölkəmizin gündəlik tələbatlarını ödəyə bilək və eyni zamanda, makroiqtisadi sabitliyi pozmayaq.

Bütün bu sahələrdə görəcəyimiz birgə işlər çoxdur. Sizin çox yaxşı təcrübəniz, bilik və texnologiyalarınız var və Avropa İttifaqının bir üzvü olaraq, təbii ki, öz təcrübənizi bizimlə bölüşə bilərsiniz. Sürətlə inkişaf edən ölkə kimi biz Avropanın enerji təhlükəsizliyinə öz töhfəmizi verə bilərik və bunu yaxşı tərəfdaşlıq ruhunda edirik. Bir sözlə, maraqlarımız və fayda qarşılıqlı xarakter daşıyır. Dostluğa əsaslanan güclü tərəfdaşlıq, siyasi dialoq və biznes təmasları kimi amillər hər bir ölkənin inkişafını şərtləndirir. Əvvəldə dediyim kimi, biz bu gün əməkdaşlıq üçün həyatımızın bütün sahələrini əhatə edən hərtərəfli hüquqi bazaya malikik. Ümid edirik ki, əvvəldə olduğu kimi, tərəfdaşlığımızın növbəti mərhələsi də uğurlu olacaqdır.

Mən on beş illik çox qısa tarixi müddət ərzində əldə etdiyi nailiyyətlər, Avropa ailəsinə qayıdış və böyük siyasi-iqtisadi uğurlar münasibətilə Latviyanı bir daha təbrik etmək istəyirəm. Səmimi qəbula görə Latviya xalqına ən ülvi şəxsi arzularımla bir daha təşəkkürümü bildirirəm və ümid edirəm ki, gələcəkdə təmaslar və əməkdaşlıq artacaqdır.

Çox sağ olun.

LATVİYANIN APARICI KİV-LƏRİNİN BAŞ REDAKTORLARI İLƏ GÖRÜŞ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 5-də Riqada onun üçün ayrılmış iqamətgahda - "Radisson SAS" mehmanxanasında Latviyanın aparıcı kütləvi informasiya vasitələrinin baş redaktorları ilə birlikdə dəyirmi masa arxasında səhər yeməyində iştirak etmiş və onların suallarına cavab vermişdir.

Dövlətimizin başçısı Azərbaycandakı ictimai-siyasi vəziyyətlə maraqlanan jurnalistlərə ölkədə aparılan genişmiqyaslı siyasi, iqtisadi, sosial və hüquqi islahatlar haqqında danışdı, daxili və xarici siyasətdə əldə olunan nailiyyətlər barədə məlumat verdi. Ümumi daxili məhsulun sürətli artımının inflyasiya riski yaratması barədə suala cavabında Azərbaycan Prezidenti İlham Əliyev bildirdi ki, ölkədə inflyasiyaya ciddi nəzarət olunur.

İqtisadi yüksəlişlə əlaqədar əhalinin sosial vəziyyətinin yaxşılaşdırılması üçün görülən tədbirlərdən danışan Prezident İlham Əliyev qeyd etdi ki, əldə olunan gəlirlər əmək haqlarının, pensiya və müavinətlərin artırılmasına yönəldilir. Eyni zamanda, ölkədə regionların sosial-iqtisadi inkişafı ilə əlaqədar bir neçə proqram həyata keçirilir.

Jurnalistlər Latviya ictimaiyyəti üçün Bakı neftinin Baltik dənizi sahillərinə çatdırılması məsələsinin daha çox maraqlı olduğunu bildirdilər. Prezident İlham Əliyev Azərbaycanın enerji daşıyıcılarının bir neçə kəmərlə Avropa bazarına çıxarıldığını xatırlatdı və bildirdi ki, bu amil Avropanın enerji təhlükəsizliyinin təmin olunması baxımından ölkəmizin əhəmiyyətli rolunu artırır.

Daha sonra respublikamızın rəhbəri regiondakı vəziyyət, Azərbaycanın mövqeyi, milli azlıqlara münasibətlə bağlı suallara cavab verdi. Bildirdi ki, Azərbaycan bütün dövlətlərlə, o cümlədən region ölkələri ilə münasibətlərini qarşılıqlı anlaşma, mehriban dostluq prinsipləri əsasında qurur. Xarici siyasətin əsas prioriteti regionda sülhə və sabitliyə töhfə verməkdən ibarətdir. Lakin təəssüf ki, Ermənistanın təcavüzkar siyasəti bu sabitliyə ən böyük əngəldir.

Prezident İlham Əliyev Azərbaycanda başqa xalqların nümayəndələrinin və milli azlıqların dinc və əmin-amanlıq şəraitində yaşaması üçün heç bir problemin olmadığını da vurğuladı. Azərbaycan cəmiyyətində tolerantlığın hökm sürdüyünü xatırladan Prezident ölkəmizdə hər bir xalqın nümayəndəsinin öz dini ayinlərini icra etməsi üçün kifayət qədər məbədlərin mövcud olduğunu, bu ibadətgahların dövlət tərəfindən qorunduğunu, təmir olunaraq yenidən qaydaya salındığını bildirdi.

Latviya jurnalistləri ölkəmizlə yaxından tanış olmaq üçün Azərbaycana səfər etmək fikrində olduqlarını söylədilər. Prezident İlham Əliyev Azərbaycanda gedən ictimai-siyasi proseslərlə və eləcə də geniş quruculuq işləri ilə bilavasitə tanış olmaq üçün latviyalı jurnalistlərin ölkəmizə səfərini təşkil etməkdən ötrü müvafiq strukturlara tapşırıqlar verdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV RİQA ŞƏHƏR MERİYASINDA OLMUŞDUR

Oktyabrın 5-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Riqa şəhər meriyasına gəlmişdir.

Meriya şurasının sədri Ayvars Aksenoks Prezident İlham Əliyevi və xanımı Mehriban Əliyevanı böyük hörmət və ehtiramla qarşıladı.

Ayvars Aksenoks Şəhər dumasının üzvlərini dövlətimizin başçısına təqdim etdi.

Sonra meriyada görüş keçirildi. Görüşü Meriya Şurasının sədri Ayvars Aksenoks açdı.

RİQA MERİYA ŞURASININ SƏDRİ AYVARS AKSENOKSUN ÇIXIŞI

- Cənab Azərbaycan Respublikasının Prezidenti!

Hörmətli cənablar!

Hörmətli Azərbaycan nümayəndə heyətinin üzvləri!

Bu gün Riqa Şəhər Dumasının və Latviya Respublikası paytaxtının ali özünüidarə orqanının nümayəndələri adından sizi burada qarşılamaq bizim üçün böyük şərəfdir və sizi ratuşada salamlamaqdan iftixar duyuruq.

Müxtəlif ölkələrin başçılarının Riqa Dumasına gəlməsi xoş ənənəyə çevrilmişdir və dövlətlərin və iri şəhərlərin rəhbərlərinin vahid məqsədə doğru getdiyini təsdiq edir ki, bu da bütün mümkün səviyyələrdə əməkdaşlığa kömək edir. Mən Baltikyanı ölkələrə ilk rəsmi səfəriniz zamanı Sizi salamlamağıma şadam və bizə çox xoşdur ki, regionda səfər etdiyiniz birinci ölkə məhz Latviya olmuşdur.

Ötən ilin əvvəllərində, Latviyada və Azərbaycanda bu səfərə hazırlıq görülən vaxt ilk Riqa-Bakı aviareysi açıldı. Ünsiyyət daha da asanlaşdı, bu isə şəhərlərimizin sakinlərinin qarşılıqlı əlaqəsinin inkişafına, turizmin, dövlətlərimizin iqtisadiyyatının inkişafına kömək edir.

Bizim məqsədimiz həyat səviyyəsinin hərtərəfli yaxşılaşdırılması, demokratiyanın inkişafı, şəhərlərimizin və ölkələrimizin əhalisinin təhlükəsizliyinin təmin edilməsidir. Əminəm ki, uğurlu və qarşılıqlı surətdə faydalı əməkdaşlıq buna kömək göstərəcəkdir. Biz ölkələrimizin şəhərləri üçün qarşılıqlı maraq doğuran əlaqələrin yaradılmasının bundan sonra da dəstəklənməsinə görə Azərbaycan Respublikasının dövlət təsisatlarına minnətdar olacağıq.

Latviya paytaxtına ilk rəsmi səfərinizi xoş və səmərəli keçirməyinizi arzu edirəm. Arzu edirəm ki, şəhərimizin gözəlliyini görəsiniz, vətənə ən yaxşı və xoş təəssüratla qayıdasınız.

Riqa Dumasının ratuşasına xoş gəlmisiniz və mən Sizə Fəxri qonaqlar kitabını imzalamağı təklif edirəm.

[redacted]

Prezident İlham Əliyev meriyanın Fəxri qonaqlar kitabını imzaladı.

Sonra dövlətimizin başçısı görüşdə çıxış etdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ÇIXIŞI

- Bizi salamlamağınıza və qonaqpərvərliyinizə görə çox sağ olun.

Ölkənizə səfərim başa çatır. Biz dünən Prezident, Baş nazir, parlamentin sədri və digər rəsmi şəxslər ilə çox yaxşı danışıqlar apardıq və ölkənizi gözəl təəssüratla tərk edirik. Bizim və nümayəndə heyətimizin üzvlərinin bu iki gün ərzində gördüklərimiz, həqiqətən, çox təsirli olmuşdur. Ölkəniz qısa müddət ərzində Avratlantik inteqrasiyası, iqtisadi inkişaf, siyasi sistemin möhkəmləndirilməsi baxımından çox böyük yol keçmişdir və əlbəttə ki, Latviyanın dostları kimi, bu, bizi sevindirir.

Biz ikitərəfli münasibətlərimizə böyük əhəmiyyət veririk və sizin dediyiniz kimi, Azərbaycan Prezidentinin bu regiona ilk səfəri Latviyadan başlanmışdır. Baltikyanı ölkələrdə Azərbaycanın ilk səfirliyinin Latviyada açılması faktını da bizim münasibətlərimizin və maraqlarımızın mühüm indikatoru hesab etmək olar.

Biz indicə Latviya Prezidenti ilə Latviya-Azərbaycan biznes forumunun açılışında iştirak etdik. Bizimlə böyük biznes nümayəndə heyəti gəlmişdir. Bütün bu amillər qarşılıqlı münasibətlərimizin hərtərəfli inkişafına kömək edir. Dünənki gün ərzində, əsasən, maşında gedəndə olsa da, Riqanın gözəl yerlərinə baxa bildim. Mehmanxananın nömrəsindən də şəhərin gözəl panoramı açılır və indi isə ümidvaram ki, Riqanın görməli yerləri ilə daha yaxından tanış olacağam.

Bu, çox böyük tarixi, ənənələri və mədəniyyəti olan şəhərdir. Ötən ağır illər ərzində bütün bunların bənzərsizliyini qoruyub saxlamağınız riqalıların öz şəhərinə məhəbbətindən, tarixə, ənənələrə, tarixi abidələrə münasibətindən xəbər verir. Bu gün Riqanın qədim binaları əski tarixin təcəssümüdür, müasir binalar isə ölkənin və şəhərin necə dinamik inkişaf etməsini göstərir.

Bu, dostlarınız kimi, bizi çox sevindirir və sizin uğurlarınıza şadıq. Buna görə də bütün nümayəndə heyəti adından sizə ehtiramımı bildirmək və Riqanın bənzərsiz görünüşünün qorunub saxlanmasında şəhərin hakimiyyət orqanlarının xidmətlərini vurğulamaq istərdim. Bu, çox vacibdir, çünki bizim şəhərlərimizin görkəmi vətəndaşların və sakinlərin öz tarixinə münasibətini göstərir. Latviyanın da, Azərbaycanın da qədim tarixi var və o, daim bizim qəlblərimizdə yaşamalıdır, gənc nəslimiz onu yaxşı bilməli, tarixi, ənənələri, milli dəyərləri qoruyub saxlamalıdır. Bunsuz heç bir ölkə normal şəkildə inkişaf edə bilməz.

Bununla yanaşı, sizin ölkənizdə müasir inkişafın, dinamik inkişafın böyük əlamətlərini də görürük. Bu isə Avropaya və dünyaya dolğun inteqrasiyaya kömək edir. Buna görə də bir daha qeyd etmək istərdim ki, burada keçirdiyimiz görüşlərdən, şəhərdən, Latviyanı çox böyük məmnunluq hissi ilə tərk etməyimizdən aldığımız təəssürat olduqca müsbətdir və biz gələcəkdə fəal əməkdaşlığa ümid bəsləyirik. Riqalılara və şəhərin hakimiyyət orqanlarına Riqa kimi tarixi abidənin qorunması sahəsində gələcəkdə də fəal işləməyi arzulayıram. Təşəkkür edirəm.

Sonra Prezident İlham Əliyev Riqa şəhərində salınacaq Azərbaycan-Latviya dostluq parkının layihəsi ilə ətraflı tanış oldu.

AZƏRBAYCANIN LATVİYADAKI SƏFİRLİYİ İLƏ TANIŞLIQ

Azərbaycan Prezidenti İlham Əliyev oktyabrın 5-də ölkəmizin Latviya paytaxtındakı səfirliyinə gəlmişdir.

Səfirliyin əməkdaşları dövlətimizin başçısını böyük səmimiyyətlə qarşıladılar.

Səfir Tofiq Zülfüqarov ABŞ, Fransa və digər inkişaf etmiş ölkələrin səfirlikləri ilə qonşuluqda yerləşən binanın tarixi, səfirliyin əməkdaşları üçün yaradılan şərait barədə məlumat verdi.

Prezident İlham Əliyev ayrı-ayrı otaqlara baş çəkdi, diplomatlara tövsiyə və tapşırıqlarını verdi, işlərində uğurlar arzuladı və onlarla xatirə şəkli çəkdirdi.

LATVİYADAKI AZƏRBAYCAN İCMASININ NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 5-də Riqada onun üçün ayrılmış iqamətgahda - "Radisson SAS" mehmanxanasında Baltikyanı ölkələrdəki Azərbaycan icmasının nümayəndələri ilə görüşmüşdür.

Dövlətimizin başçısı görüşdə çıxış etdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ÇIXIŞI

- Mənim Latviyaya səfərim bu gün başa çatır. Dünən və bu gün çox əhəmiyyətli görüşlər keçirildi, geniş müzakirələr və fikir mübadiləsi aparıldı. Bu səfərdən sonra bizim ölkələrimiz arasında münasibətlər, şübhəsiz ki, yeni pilləyə qalxacaqdır. Eyni zamanda, nəzərə alsaq ki, burada Azərbaycan diasporu da mövcuddur, əlbəttə, Latviyada səfirliyin olması azərbaycanlılar üçün əlavə bir dəstəkdir. Diasporun da fəaliyyəti səfirliyə kömək göstərir. Bu, ikitərəfli yoldur. Azərbaycanın müxtəlif ölkələrdə artıq formalaşmış diaspor təşkilatları vardır.

Dünya azərbaycanlılarının II qurultayına bütün ölkələrdən nümayəndələr gəlmişdi. Mən o vaxt öz çıxışımda da demişdim və bu gün bunu bir daha vurğulamaq istəyirəm: Azərbaycanın artan imkanları, potensialı xarici ölkələrdə yaşayan azərbaycanlılara dəstəkdir, onların mövqelərini möhkəmləndirir. Eyni zamanda, xaricdə yaşayan azərbaycanlılar da öz vətənlərinin elçiləri kimi, fəaliyyətləri ilə ölkəmizi daha da yaxşı tanıdırlar. Buna böyük ehtiyac vardır.

Azərbaycan haqqında hələlik dünyada kifayət qədər məlumat yoxdur. Müxtəlif ölkələrdə səfirliklərin açılması bu boşluğu doldurur. Bununla bərabər, xarici ölkələrdə yaşayan azərbaycanlılar da öz fəaliyyətləri ilə bu işdə çox fəal iştirak etməlidirlər. Sizin gücülü mövqeləriniz, əlbəttə ki, Azərbaycanın mövqelərini ikitərəfli formatda möhkəmləndirir. Çox istərdim ki, xarici ölkələrdəki azərbaycanlılar yaşadıqları ölkələrin iqtisadi və ictimai-siyasi həyatında daha da fəal rol oynaya bilsinlər. İqtisadi sahədə bütövlükdə biz bunu görürük, ictimai-siyasi sahəyə gəldikdə isə, hələ çox işlər görülməlidir. Bizim nümayəndələr müxtəlif orqanlarda təmsil olunmalı, seçkilərdə iştirak etməlidirlər. Diasporlar daha da təşkilatlanmalıdır, xaricdə yaşayan azərbaycanlılar üçün doğma bir təş-

kilat, doğma bir ev kimi olmalıdır. Ölkəmizin maraqlarının təmin olunmasında xarici ölkələrdə yaşayan azərbaycanlıların çox böyük rolu vardır.

Bildiyiniz kimi, xaricdə yaşayan azərbaycanlılar Azərbaycanda yaşayan azərbaycanlılardan bir neçə dəfə çoxdur və mən şəxsən hesab edirəm ki, başqa ölkələrdə işləyən, yaşayan insanlar Azərbaycan üçün çox böyük işlər görürlər. Bütövlükdə bu, müsbət haldır ki, bizim soydaşlarımız başqa ölkələrdə işləyirlər, maddi imkanlar əldə edirlər, öz mövqelərini möhkəmləndirirlər və artıq bu, bir amilə çevrilir.

Yenə də deyirəm, Azərbaycan indi çox dinamik şəkildə inkişaf edir. Həm iqtisadi cəhətdən, həm də siyasi cəhətdən ölkə çox böyük beynəlxalq hörmətə malikdir. Bizim ikitərəfli əlaqələrimiz bütün ölkələrlə xüsusilə, Avropa ölkələri ilə indi tam yeni görkəm alır. Məsələn, Latviya-Azərbaycan münasibətləri burada bir örnək kimi göstərilə bilər. Latviya həm Avropa İttifaqının, həm də NATO-nun üzvüdür. Bölgədə çox böyük mövqelərə malikdir və bu gün Azərbaycanla çox gözəl münasibətləri var. Biz buraya böyük heyətlə gəlmişik - nazirlər, iş adamları, parlament nümayəndələri. Yəni bizim əlaqələrimiz hərtərəflidir və sizin burada güclü mövqelərə malik olmağınız bizim ikitərəfli əlaqələrimizə böyük dəstək olacaqdır. Bütövlükdə Baltikyanı ölkələrdə bizim siyasətimiz daha da fəal, çevik olmalıdır. Biz indi bu siyasəti bütün ölkələrlə - Latviya, Litva, Estoniya ilə aparırıq ki, münasibətlərimiz yaxşı qurulsun. Bu ölkələr bizi beynəlxalq müstəvidə daim dəstəkləyir və bilirsiniz ki, Birləşmiş Millətlər Təşkilatında GUAM ölkələrinin təşəbbüsü ilə qaldırılmış dondurulmuş münaqişələrin həlli məsələsi bütün Baltikyanı ölkələr tərəfindən dəstəklənir və onlar bizə səs verirlər. Biz də beynəlxalq təşkilatlarda daim bu ölkələrin maraqlarını müdafiə edəcəyik.

Prezident kimi mən ilk dəfə Latviyadayam, burada gördüklərim məni çox sevindirir. Həm ölkənin inkişafı, həm də xüsusilə Latviya-Azərbaycan əlaqələri və onların gələcək perspektivləri. Əlbəttə ki, Azərbaycan Prezidenti kimi məni Latviyada yaşayan azərbaycanlıların taleyi də yaxından maraqlandırır. Mən çox istərdim ki, burada yaşayan azərbaycanlılar çalışdıqları sahələrdə ən möhkəm mövqelərə malik olsunlar. Ölkənin ictimai-siyasi həyatında çox fəal iştirak etsinlər, biznes sahəsində öz imkanlarını daha da genişləndirə bilsinlər. Güclənən Azərbaycanda yaranan yeni imkanlar, artan potensial, Avropa üçün bizim ölkəmizin önəminin artması dolayı yolla sizin də buradakı fəaliyyətinizə, işlərinizə müsbət təsir göstərməlidir. Sadəcə olaraq, bu əlaqələr daha da sıx olmalıdır, sistemli şəkildə aparılmalıdır. Azərbaycanda fəaliyyət göstərən Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinin xətti ilə, Xarici İşlər Nazirliyinin, səfirliyin xətti ilə, bütün başqa xətlərlə bu əlaqələr olmalıdır. Əgər sizin hansısa problemləriniz, sizi narahat edən məsələlər varsa, biz bunu bilməliyik və öz tərəfimizdən məsələnin həlli üçün səylər göstərməliyik. İndi Azərbaycanın kifayət qədər imkanları var.

Bir daha deyirəm, bizim Latviya ilə çox sıx siyasi dialoqumuz, iqtisadi əlaqələrimiz, ortaq maraqlarımız, gələcəkdə başlanacaq birgə layihələrimiz, əlbəttə ki, burada yaşayan azərbaycanlılar üçün də yeni imkanlar yaradacaqdır. Bilirsiniz ki, Latviya Prezidentinin Azərbaycana səfərindən sonra Riqa ilə Bakı arasında birbaşa aviareyslər açıldı. Bu da, ilk növbədə, burada yaşayan azərbaycanlılar üçün böyük hadisədir və artıq rahat, heç bir tranzitsiz, heç bir çətinliksiz, birbaşa Riqa ilə Bakı arasında reyslər var. Şübhə etmirəm

ki, gələcəkdə bu uçuşların sayı da artacaqdır. Çünki, bizim 20-dən çox tanınmış biznes nümayəndəmiz buradadır, əlaqələr yaranacaq, digər işlər görüləcəkdir. Mən istəyirəm ki, burada yaşayan azərbaycanlılar, xüsusilə biznes sahəsində çalışanlar da bundan bəhrələnsinlər. Çünki, yenə deyirəm, Azərbaycanın iqtisadi potensialı, maliyyə imkanları artır. Ölkənin büdcəsi son üç il ərzində dörd dəfə artmışdır - 1,5 milyard dollardan artıq 6 milyard dollara çatmışdır. Mənim yadımdadır, bir neçə il bundan əvvəl bəziləri Azərbaycanda belə bir fikir söyləyirdilər ki, Azərbaycan Baltikyanı ölkələrdən bir neçə dəfə böyükdür, niyə onların büdcəsi bizimkindən bir neçə dəfə çoxdur? Hətta Latviyanı və başqa qonşu ölkələri nümunə kimi göstərərək deyirdilər ki, onların büdcəsi 5 milyard dollardır, Azərbaycanın büdcəsi bir milyard. Azərbaycanın büdcəsi 6 milyard dollar olubdur. Amma icmal büdcə isə 7,5 milyard dollar olacaqdır.

Biz artıq bir ölkə kimi çox güclü iqtisadi imkanlara malikik. Siyasi mövqelərimizi möhkəmləndiririk. Siz Avropada yaşayırsınız, Latviya Avropa İttifaqının üzvüdür. Artıq Azərbaycan Avropa İttifaqı ilə Yeni qonşuluq siyasətinə başlayır. İki gün bundan əvvəl, Avropa İttifaqı "Üçlüyü"nün (Troyka) nümayəndə heyəti Bakıya gəlmişdi. Biz bütün məsələləri razılaşdırdıq ki, noyabr ayında Avropa İttifaqı ilə Azərbaycan arasında Yeni qonşuluq siyasətinə dair razılaşma imzalanacaqdır. Biz Avropa İttifaqı ilə enerji sahəsində yeni bir əməkdaşlıq çərçivəsində məsələləri müzakirə edirik.

Azərbaycanın da imkanları artır və Azərbaycan sizin vətəninizdir. Mən əminəm ki, siz öz vətəninizi sevirsiniz, ona sadiqsiniz və vaxtaşırı Azərbaycana gəlirsiniz. Əlbəttə ki, Azərbaycanın artan mövqeləri sizdən ötrü də həm böyük mənəvi amildir, həm də praktik əhəmiyyət kəsb edir. Mən səfər etdiyim bütün ölkələrdə yaşayan azərbaycanlılarla görüşürəm. Bu bizim siyasətimizin mühüm hissəsidir. Xarici ölkələrdə yaşayan azərbaycanlılar, - baxmayaraq ki, onlar Azərbaycan vətəndaşlarıdır, yaxud da yaşadıqları ölkələrin vətəndaşlarıdır, - bizim qardaşlarımızdır. Ona görə də biz onların həyatına biganə qala bilmərik. Mən əminəm ki, artıq səfirlik işə başlayandan sonra bütün problemləriniz, yaxud da sizi narahat edən məsələlər operativ şəkildə öz həllini tapa bilər. Bilin ki, Azərbaycan dövləti sizin arxanızdadır.

Bu gün mən bir daha sizin hamınızı salamlayıram və çox şadam ki, Latviyada Azərbaycan diasporu təşkilatlanmış formada fəaliyyət göstərir. Əminəm ki, iki ölkə arasında artan, möhkəmlənən əlaqələr diasporun fəaliyyətinə də müsbət təsir göstərəcəkdir.

Latviyada yaşayan soydaşımız RAFİQ SEYFULLAYEV dövlətimizin başçısına müraciətlə dedi:

- Cənab Prezident, mən 30 ildən artıqdır Azərbaycandan kənarda yaşamağıma baxmayaraq, həmişə Azərbaycanla maraqlanmışam. Ölkəmizin tarixinə fikir versək, Azərbaycan heç vaxt belə yüksək səviyyədə olmamışdır. Bu, ancaq və ancaq müstəqil Azərbaycanın memarı, xilaskarı, ümummilli liderimiz Heydər Əliyevin adı ilə bağlıdır. Bu gün azərbaycanlılar nəinki regionda, hətta bütün dünyada ümummilli liderimizin zəngin fəlsəfəsi ilə yaşamalıdırlar.

Azərbaycan xalqının böyük xoşbəxtliyidir ki, Siz bu yolu layiqincə davam etdirirsiniz. Siz bütün dünya azərbaycanlılarının, Azərbaycan xalqının dəstəyinə arxayın ola bilərsi-

niz. Mən ulu öndər Heydər Əliyevi öz valideynlərim qədər sevirəm və o, həmişə mənim qəlbimdə yaşayacaqdır. Onun ideyalarına həmişə sadiq olacağam.

İstərdim, icazənizlə, bütün dünya azərbaycanlılarının, diasporumuzun adından onun büstünü Sizə hədiyyə edim.



Ulu öndərin qızıldan hazırlanmış büstü Prezident İlham Əliyevə təqdim olundu.

Dövlətimizin başçısı qiymətli hədiyyəyə görə təşəkkürünü bildirdi.

Sonra Baltikyanı ölkələrdə yaşayan bir neçə soydaşımız, Azərbaycan icmasının üzvləri Prezidentə yaxınlaşaraq, səmimi söhbət etdilər, ona rəhbərlik və təmsil etdikləri diaspor təşkilatları tərəfindən nəşr olunmuş Azərbaycanla, ümummilli liderimizlə bağlı kitablar bağışladılar. Riqada salınacaq Latviya-Azərbaycan dostluq parkı layihəsinin azərbaycanlı müəllifləri dövlətimizin başçısına xüsusi xatirə hədiyyələri verdilər.

Prezident İlham Əliyev təşəkkür edərək dedi ki, bu gün şəhər Dumasında olarkən orada mənə parkın layihəsini göstərdilər. Sizin işlədiyiniz bu layihə çox gözəldir. Məncə, gərək elə yer seçilsin ki, oraya sakinlər çox gəlib-getsinlər, yəni o yer gur olsun. Bu, şəhər üçün də çox vacibdir. Şəhərin meri mənə bu layihəni göstərdi və xoşuma gəldi.

Estoniya-Azərbaycan icmasının üzvləri Prezidentə xatirə hədiyyəsi təqdim etdilər. Onlar dedilər ki, cənab Prezident, Sizin Baltikyanı bölgəyə, konkret olaraq, Azərbaycana dost olan Latviyaya səfəriniz bizi də çox sevindirir, fəaliyyətimizin daha da səmərəli olmasına xidmət edir. Baltikyanı ölkələrdə yaşayan azərbaycanlılar ictimai-siyasi həyatda çox fəaldırlar. Eyni zamanda, Sizi Latviyanın qonşusu olan Estoniya və Litvada da görmək çox xoş olardı.

Litva-Azərbaycan icmaları adından danışan Sadıq Nurullayev dövlətimizin başçısına Litvanın keçmiş paytaxtı olmuş Trakay şəhəri barədə buklet təqdim edərək dedi ki, burada əsasən, karaimlər yaşayır və onların dili Azərbaycan dilinə yaxındır.

İLHAM ƏLİYEV: Onların bir nümayəndəsi Türkiyədə səfir olubdur, ondan sonra başqa vəzifə almışdı. O, Bakıya gəlmişdi.

SADIQ NURULLAYEV: İndi o, Prezidentin köməkçisidir.

İLHAM ƏLİYEV: Özü də karaimdir.

SADIQ NURULLAYEV: Bəli, o Türkiyəyə yenidən səfir gedəcəkdir.

İLHAM ƏLİYEV: Axı, o, Türkiyədə səfir olubdur.

SADIQ NURULLAYEV: Amma yenə gedəcəkdir.

Cənab Prezident, Azərbaycanın artan potensial imkanları ilə fəxr edirik. 1996-cı ildə məqalələrimizdə yazmışdıq ki, Azərbaycan regionun incisi olacaq, onda hamı bizə şübhə ilə yanaşırdı. Artıq 2006-cı ildir, biz görürük ki, Azərbaycan, həqiqətən də, regionun incisidir. Sizin dediyiniz kimi, indi regionda Azərbaycansız heç bir iş görülmür, layihə həyata keçirilmir. Biz bundan çox sevinirik. Mən iqtisadi elmlər doktoruyam, hesablamalarımıza görə, 2014-cü ildə Azərbaycanda kiçik və orta biznes büdcə gəlirlərinin 60-75 faizini verəcəkdir. Bu, bizim arzumuzdur. Belə olan halda, biz inkişaf etmiş ölkələr səviyyəsinə gəlib çatacağıq.

İLHAM ƏLİYEV: Məncə, biz ondan tez gəlib çatmalıyıq. Çünki biz qarşıya elə məqsəd qoymuşuq ki, hər şey qısa müddət ərzində olsun.

SADIQ NURULLAYEV: Biz Latviyadakı səfirimizə də təşəkkür edirik ki, Litvadakı azərbaycanlıları da yaddan çıxarmır. İstərdik ki, Latviyadakı səfirliyimiz Estoniyanı da əhatə etsin.

İLHAM ƏLİYEV: Əlbəttə, gərək biz bunu həll edək.

Görüşdən sonra soydaşlarımız Azərbaycan Prezidenti ilə xatirə şəkli çəkdirdilər.

SƏFƏR BAŞA ÇATDI

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 5-də Latviya Respublikasına dövlət səfərini başa çatdıraraq Vətənə yola düşmüşdür.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV MDB-NİN ÜZVÜ OLAN DÖVLƏTLƏRİN TƏHLÜKƏSİZLİK VƏ XÜSUSİ XİDMƏT ORQANLARININ RƏHBƏRLƏRİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 6-da Prezident sarayında MDB-nin üzvü olan dövlətlərin təhlükəsizlik və xüsusi xidmət orqanlarının rəhbərlərini qəbul etmişdir.

Görüşdə MDB-nin üzvü olan dövlətlərin təhlükəsizlik və xüsusi xidmət orqanlarının sıx əməkdaşlığının böyük əhəmiyyət kəsb etdiyi vurğulandı.

Prezident İlham Əliyev dünyada beynəlxalq terrorizmin, narkotiklərin qeyri-qanuni dövriyyəsinin, mütəşəkkil cinayətkarlığın vüsət aldığı indiki dövrdə tərəfdaş ölkələr arasında əlaqələrin möhkəmləndirilməsinin, operativ məlumat mübadiləsinin, məsləhətləşmələrin vacibliyini bildirdi. Dövlətimizin başçısı bu cür əməkdaşlığın sabitliyə, əmin-amanlığa, beynəlxalq təhlükəsizliyə və iqtisadi sahədə əlaqələrin genişləndirilməsinə hərtərəfli zəmin yaratdığını söylədi. Bu baxımdan Azərbaycanın MDB çərçivəsində də fəal mövqe tutduğunu vurğulayan Prezident İlham Əliyev ölkəmizin erməni terrorizmindən böyük ziyan çəkməsindən də danışdı. Dövlətimizin başçısı indi heç bir ölkənin beynəlxalq terrorizmlə təkbaşına mübarizə aparmaq iqtidarında olmadığını bildirdi, MDB-nin üzvü olan dövlətlərin Təhlükəsizlik və Xüsusi Xidmət Orqanları Rəhbərləri Şurasının növbəti iclasının Bakıda keçirilməsini Azərbaycanın bu sahədə tutduğu prinsipial mövqeyə verilən konkret qiymət kimi dəyərləndirdi. Prezident İlham Əliyev görüş iştirakçılarından MDB-nin dövlət başçılarına onun salamlarını və xoş arzularını çatdırmağı xahiş etdi.

Rusiya Federal Təhlükəsizlik Xidmətinin direktoru, MDB-nin üzvü olan dövlətlərin Təhlükəsizlik və Xüsusi Xidmət Orqanları Rəhbərləri Şurasının sədri Nikolay Patruşev səmimi qəbula görə Azərbaycan Prezidentinə görüş iştirakçıları adından dərin minnətdarlığını bildirdi. O, Şuranın iclaslarında İspaniya, Danimarka, Fransa və Almaniyanın müşahidəçi qismində iştirak etdiklərini, almaniyalı təmsilçinin Bakıda keçirilən iclasın yüksək səviyyədə təşkilini xüsusi vurğuladığını söylədi. N.Patruşev dedi ki, məhz

MDB-nin üzvü olan dövlətlərin təhlükəsizlik və xüsusi xidmət orqanları arasında səmərəli əməkdaşlıq sayəsində 5-7 ölkənin qurumlarının birgə əməliyyatlar həyata keçirməsi mümkün olmuşdur. O, Rusiya Prezidenti Vladimir Putinin və digər üzv dövlətlərin başçılarının salamlarını Azərbaycan Prezidentinə yetirdi, Şuranın növbəti iclasının gələn ilin mayında Sankt-Peterburqda keçiriləcəyini bildirdi.

Ətraflı fikir mübadiləsindən sonra qonaqlar görüşdən xatirə olaraq Prezident İlham Əliyevə hədiyyə təqdim etdilər. Səmimi söhbət zamanı dövlətimizin başçısı Azərbaycanda Rusiya İlinin də yüksək səviyyədə keçdiyini vurğuladı.

Görüşün sonunda xatirə şəkli çəkdirildi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV RUSİYA ELMLƏR AKADEMİYASININ VİTSE-PREZİDENTİ ALEKSANDR ANDREYEVİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 6-da Prezident sarayında Rusiya Elmlər Akademiyasının vitse-prezidenti Aleksandr Andreyevin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Qonaqları salamlayan və rusiyalı elm xadimlərinin Azərbaycana səfərini böyük hadisə kimi qiymətləndirən dövlətimizin başçısı Azərbaycan və Rusiya elmlər akademiyalarının uğurlu əməkdaşlıq etdyini vurğuladı. Sovet hakimiyyəti dağıldıqdan sonra elmi əlaqələrimizin kəsilmədiyini xatırladan Prezident İlham Əliyev dedi ki, bu əlaqələri daha da genişləndirmək, gücləndirmək lazımdır. Dövlətimizin başçısı Rusiya Elmlər Akademiyası nümayəndələrinin ölkəmizə səfərini bu istiqamətdə mühüm təşəbbüs kimi səciyyələndirdi. Prezident İlham Əliyev Rusiya ilə bütün istiqamətlərdə yüksək səviyyədə əlaqələr qurulduğunu, elm və təhsil sahəsində əməkdaşlığın daha da dərinləşməsinin zəruriliyini bildirdi.

Rusiya elminin sürətlə inkişaf etdiyini, elm xadimlərinin dünyada məşhur olduğunu vurğulayan Prezident İlham Əliyev Azərbaycanda elmin inkişafına yönəldilmiş konkret planların hazırlandığını, xüsusilə də elm adamlarının vəziyyətinin yaxşılaşdırılması istiqamətində bir sıra mühüm addımların atıldığını bildirdi.

Qəbula görə təşəkkür edən Rusiya Elmlər Akademiyasının vitse-prezidenti Aleksandr Andreyev Azərbaycan Prezidentinin elm sahəsinə diqqət və qayğı göstərməsi baxımından nümunəvi bir dövlət başçısı olduğunu vurğulayaraq, dövlətimizin başçısının özünün də alim olduğunu xatırlatdı.

Cənab Aleksandr Andreyev ölkələrimiz arasında elmi əlaqələrin uğurla davam etdirildiyini, mütəmadi olaraq təcrübə mübadiləsi aparıldığını bildirdi, Azərbaycanda rus dilinin itməməsini, gənclərin rus dilində sərbəst danışmasını xüsusi vurğuladı.

2006-CI İL SENTYABRIN 19-DA BAKI ŞƏHƏRİNDƏ İMZALANMIŞ "AZƏRBAYCAN RESPUBLİKASI GƏNCLƏR VƏ İDMAN NAZİRLİYİ VƏ BOLQARISTAN RESPUBLİKASI GƏNCLƏR VƏ İDMAN DÖVLƏT AGENTLİYİ ARASINDA GƏNCLƏR SİYASƏTİ VƏ İDMAN SAHƏSİNDƏ ƏMƏKDAŞLIQ HAQQINDA SAZİŞ"İN TƏSDİQ EDİLMƏSİ BARƏDƏ AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

1. 2006-cı il sentyabrın 19-da Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyi və Bolqarıstan Respublikası Gənclər və İdman Dövlət Agentliyi arasında gənclər siyasəti və idman sahəsində əməkdaşlıq haqqında Saziş" təsdiq edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişin həyata keçirilməsi üçün lazımi tədbirlər görsün.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Bolqarıstan tərəfini xəbərdar etsin.

İlham Əliyev

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 6 oktyabr 2006-cı il

AZƏRBAYCANIN VƏ ERMƏNİSTANIN XARİCİ İŞLƏR NAZİRLƏRİ MOSKVADA DANIŞIQLAR APARIRLAR

Oktyabrın 6-da Rusiya Xarici İşlər Nazirliyində ATƏT-in Minsk qrupu həmsədrlərinin vasitəçiliyi ilə Azərbaycan xarici işlər naziri Elmar Məmmədyarovla Ermənistan xarici siyasət idarəsinin başçısı Vartan Oskanyan arasında məsləhətləşmələr başlanmışdır.

İki ölkə nazirlərinin görüşü haqqında razılaşma ATƏT-in Minsk qrupunun həmsədrləri Yuri Merzlyakov (Rusiya), Mətyu Brayzə (ABŞ) və Bernar Fasyenin (Fransa) oktyabrın 2-4-də bölgəyə səfəri çərçivəsində əldə edilmişdir.

Xarici işlər nazirləri Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllinin əsas prinsiplərini müzakirə edəcəklər. Qapalı aparılan danışıqların təfsilatı açıqlanmır.

MOSKVADA ERMƏNİSTAN-AZƏRBAYCAN, DAĞLIQ QARABAĞ MÜNAQİŞƏSİNƏ DAİR DANIŞIQLARIN NÖVBƏTİ MƏRHƏLƏSİ BAŞA ÇATMIŞDIR

Moskvada ATƏT-in Minsk qrupu həmsədrlərinin iştirakı ilə Azərbaycan və Ermənistanın xarici işlər nazirləri səviyyəsində Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli yollarının axtarışına dair danışıqların növbəti mərhələsi başa çatmışdır.

Rusiyanın xarici işlər naziri Sergey Lavrov həmkarlarının qapalı keçən görüşünün yekunlarını müsbət qiymətləndirmişdir. O demişdir: "Görüş səmərəli keçmişdir".

Rusiya XİN-də aparılan danışıqlarda Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov və Ermənistanın xarici siyasət idarəsinin başçısı Vartan Oskanyan, habelə ATƏT-in Minsk qrupunun üç həmsədri iştirak etmişlər. Nümayəndə heyətimizə Azərbaycan xarici işlər nazirinin müavini Araz Əzimov da daxil idi.

AZƏRBAYCAN XİN-İN BAŞÇISI MOSKVA DANIŞIQLARININ YEKUNLARINDAN RAZI QALMIŞDIR

Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınmasına dair Moskvada ATƏT-in Minsk qrupu həmsədrlərinin iştirakı ilə Ermənistan XİN-in başçısı V.Oskanyanla aparılmış danışıqların yekunlarını Azərbaycan və Rusiya KİV-ləri üçün şərh etmişdir.

Nazirin sözlərinə görə, Moskvada kifayət qədər intensiv danışıqlar aparılmış, danışıqlar prosesinin gedişində yaranmış problemlərlə bağlı həmsədrlərin təklif etdikləri bir sıra ideyalar müzakirə olunmuşdur. E.Məmmədyarov demişdir: "Ermənistan-Azərbaycan münaqişəsinin həllinin əsas prinsiplərinə dair konstruktiv və səmərəli fikir mübadiləsi aparılmışdır. Danışıqlar zamanı müzakirə olunan ideyaları təhlil etmək üçün hər iki tərəfin oktyabrın 24-dək fasilə götürməsi barədə razılıq əldə edilmişdir. Danışıqları Azərbaycan və Ermənistan xarici işlər nazirləri səviyyəsində oktyabrın 24-də Parisdə davam etdirmək qərara alınmışdır".

E.Məmmmədyarov bildirmişdir ki, görüşün formatı ATƏT-in Minsk qrupu həmsədrlərinin iştirakı ilə başlanmış, sonra isə fərdi qaydada davam etdirilmişdir. Rusiyanın xarici işlər naziri Sergey Lavrov ilə təklikdə fərdi görüş keçirilmiş, sonra həmsədrlərlə ayrılıqda görüşlər davam etdirilmişdir. Danışıqlarda ATƏT-in hazırkı həmsədrinin şəxsi nümayəndəsi Anji Kaspşik də iştirak etmişdir.

"Böyük səkkizlik ölkələrinin ehtimal etdikləri kimi, münaqişəni 2006-cı ilin sonunadək nizama salmaq mümkün olacaqmı?" sualına cavabında nazir demişdir ki, hansısa müddətlər qoymaq lazım deyil, çünki bu, olduqca ciddi və həssas məsələdir, lakin danışıqlar prosesində irəli getməyə çalışacağıq. Danışıqların başlıca mövzusu nizamasalmanın əsas prinsipləridir və həmsədrlərin təklifləri Praqa prosesi çərçivəsində uzun illər müzakirə olunan prinsiplərə əsaslanır. Hazırda problemin bir hissəsi statusla, bir hissəsi erməni qoşunlarının tam çıxarılması ilə bağlıdır. Bizim vəzifəmiz incə tarazlığı tapmaq və onun əsasında irəliləməkdir. Biz münaqişənin nizama salınmasının əsas prinsiplərini razılaşdırmışıq, lakin razılaşdırılmamış iki prinsip qalmışdır ki, onların da üzərində işləyirik. Bu gün məhz həmin prinsiplər müzakirə edilmişdir.

E.Məmmədyarov, ATƏT-in Minsk qrupunun həmsədri kimi, Rusiyanın fəaliyyətini qiymətləndirərək bildirmişdir ki, Rusiya tərəfi danışıqlar prosesində irəliləyiş əldə olunması üçün kifayət qədər intensiv maraq göstərməkdən ötrü bütün imkanlara malikdir və maraq göstərir. O demişdir: "Hesab edirik ki, Rusiya bizim həm siyasi, həm də iqtisadi tərəfdaşımız, qonşumuzdur. Şübhəsiz ki, o, nizamasalma baxımından həlledici rollardan birini oynamalıdır. Gördüyümüz kimi bu istiqamətdə Rusiyanın Azərbaycanı və Ermənistanı ortaq məxrəcə gətirmək arzusu vardır ki, biz nizamasalmanın birinci mərhələsinə keçə bilək. Şübhəsiz ki, belə mürəkkəb münaqişəni birdəfəyə həll etmək

mümkün deyil, o, mərhələlərlə həll olunmalıdır. Azərbaycan ilə Ermənistan arasında qarşılıqlı münasibətlərə gələcək ən son elementi çox böyük əhəmiyyətə malik etimad elementidir və bu baxımdan Rusiya böyük rol oynaya bilər".

Azərbaycan XİN-in başçısı vurğulamışdır ki, ölkəmizin qarşısında duran vəzifələrdən biri Azərbaycanı regionun lideri səviyyəsinə qaldırmaqdır və bu, münaqişənin dinc yolla nizama salınması üçün daha çox imkanlar açacaqdır. Bu mərhələdə biz çalışırıq ki, atəşkəs pozulmasın və eyni zamanda, münaqişənin həll edilməsi üzərində işləyirik. Bu, Azərbaycan və Ermənistan üçün, habelə bütün region üçün vacibdir.

RUSİYA VƏ AZƏRBAYCAN İNTENSİV ƏMƏKDAŞLIĞIN DAVAM ETDİRİLMƏSİNƏ TƏRƏFDARDIR

Azərbaycan XİN-in başçısı Elmar Məmmədyarov Moskvaya səfəri zamanı Rusiyanın xarici işlər naziri Sergey Lavrov ilə görüşmüşdür.

E.Məmmədyarov bildirmişdir ki, görüşdə ikitərəfli münasibətlərə dair məsələlər müzakirə olunmuş, regional problemlər, habelə beynəlxalq təşkilatlarda qarşılıqlı fəaliyyət məsələləri ilə bağlı fikir mübadiləsi aparılmışdır. Nazir demişdir: "Biz ölkələrimiz arasında hazırda mövcud olan intensiv əməkdaşlığın davam etdirilməsinin vacibliyini vurğulamışıq".

O bildirmişdir ki, regional problemlərin müzakirəsi çərçivəsində Rusiya-Gürcüstan münasibətləri məsələsi nəzərdən keçirilmişdir. E.Məmmədyarov demişdir: "Azərbaycanın mövqeyi ondan ibarətdir ki, məsələ diplomatik yolla həll edilməlidir və bu, vəziyyəti indiki haldan çıxarmaq üçün yeganə yoldur. Biz deyirik ki, Rusiya-Gürcüstan ikitərəfli münasibətlərində yaranmış çətinlikləri aradan qaldırmaq lazımdır. Güman edirəm ki, Rusiya tərəfi də bunu başa düşür". Rusiya-Gürcüstan münasibətlərində yaranmış gərginlik bütövlükdə regiona təsir göstərir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ATƏT-İN KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİ AZADLIĞI ÜZRƏ NÜMAYƏNDƏSİ MİKLOŞ HARAŞTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 9-da Prezident sarayında ATƏT-in kütləvi informasiya vasitələri azadlığı üzrə nümayəndəsi Miklos Haraştini qəbul etmişdir.

Görüşdə mətbuat azadlığı və demokratiyanın inkişafı sahəsində görülən işlər barədə fikir mübadiləsi aparıldı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV NATO BAŞ KATİBİNİN CƏNUBİ QAFQAZ VƏ ORTA ASİYA ÜZRƏ XÜSUSİ NÜMAYƏNDƏSİ ROBERT SİMMONSUN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 9-da Prezident sarayında NATO Baş katibinin Cənubi Qafqaz və Orta Asiya üzrə xüsusi nümayəndəsi Robert Simmonsun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.

NATO-nun Baş katibi Yaap de Hoop Sxefferin salamlarını dövlətimizin başçısına çatdıran Robert Simmons Azərbaycan ilə NATO arasında "Fərdi tərəfdaşlığın fəaliyyət planı" çərçivəsində əməkdaşlığın genişlənməsindən məmnunluğunu söylədi.

Salamlara görə minnətdarlığını bildirən Prezident İlham Əliyev onun da salamlarını NATO-nun Baş katibi Yaap de Hoop Sxefferə çatdırmağı xahiş etdi. "Fərdi tərəfdaşlığın fəaliyyət planı" çərçivəsində Azərbaycan-NATO əməkdaşlığının uğurla həyata keçirildiyini vurğulayan dövlətimizin başçısı bu əməkdaşlığın gələcəkdə də inkişaf edəcəyinə ümidvar olduğunu bildirdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV "NOBL" ŞİRKƏTİNİN PREZİDENTİ RİÇARD ELMANI QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 9-da Prezident sarayında "Nobl" şirkətinin prezidenti Riçard Elmanı qəbul etmişdir.

Riçard Elman Azərbaycanda ilk dəfə olduğunu və ölkəmizdə gedən geniş tikinti və quruculuq işlərinin onda böyük təəssürat yaratdığını dedi.

Dövlətimizin başçısı bildirdi ki, ölkəmiz güclü və dinamik iqtisadi inkişaf yoluna qədəm qoymuşdur. Əsas məqsədimiz qeyri-neft sektorunun davamlı inkişafına nail olmaqdır. Görülən tədbirlər bu istiqamətdə uğurlar əldə etmək üçün baza yaradır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV "ROSSİYA" TELEKANALININ "VESTİ" PROQRAMINA MÜSAHİBƏ VERMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 9-da Prezident sarayında "Rossiya" telekanalının "Vesti" proqramının aparıcısı Sergey Brilyova müsahibə vermişdir.

Dövlətimizin başçısı Azərbaycan-Rusiya münasibətləri, ölkəmizdə iqtisadi inkişaf, regional əməkdaşlıq və digər məsələlər barədə suallara ətraflı cavab vermişdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV RUSİYA FEDERASİYASI PREZİDENTİNİN KÖMƏKÇİSİ CAHAN POLLIYEVANI QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 10-da Prezident sarayında Rusiya Federasiyası Prezidentinin köməkçisi Cahan Pollıyevanı qəbul etmişdir.

Görüş zamanı Azərbaycan ilə Rusiya arasında əlaqələrin müxtəlif sahələrdə, o cümlədən humanitar əməkdaşlıq sahəsində uğurla inkişaf etdiyi vurğulandı.

Cahan Pollıyeva Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev ilə görüşlərini məmnuniyyətlə xatırlayaraq bu görüşlərin onda böyük təəssüratlar yaratdığını qeyd etdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BÖYÜK BRİTANİYA PARLAMENTİNİN PARLAMENTLƏRARASI İTTİFAQDAKI NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 10-da Prezident sarayında Böyük Britaniya parlamentinin Parlamentlərarası İttifaqdakı nümayəndə heyətini qəbul etmişdir.

Dövlətimizin başçısı ölkəmizdə gedən iqtisadi inkişaf prosesləri, cəmiyyətin demokratikləşdirilməsi və digər sahələrdə həyata keçirilən geniş miqyaslı işlər barəsində ətraflı danışdı.

Böyük Britaniya parlamentinin üzvü Brayan Cenkins nümayəndə heyətinin bir çox üzvlərinin Azərbaycana ilk dəfə səfər etdiklərini və ölkəmizin xüsusilə son dövrlərdə əldə etdiyi böyük nailiyyətlərin nümayəndə heyətində son dərəcə yaxşı təəssüratlar yaratdığını vurğuladı. Qonaq Prezident İlham Əliyev tərəfindən Azərbaycanda həyata keçirilən işlər ilə bağlı verilən məlumatların ölkəmizi daha yaxından tanımaq baxımından əhəmiyyətli olduğunu qeyd etdi.

AZƏRBAYCAN RESPUBLİKASININ MOSKVA ŞƏHƏRİ İLƏ ƏMƏKDAŞLIQ ÜZRƏ HÖKUMƏT KOMİSSİYASININ YENİ TƏRKİBİNİN TƏSDİQ EDİLMƏSİ BARƏDƏ AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

1. Azərbaycan Respublikasının Moskva şəhəri ilə əməkdaşlıq üzrə Hökumət Komissiyasının tərkibi aşağıdakı heyətdə təsdiq edilsin:

Komissiyanın sədri:

Yaqub Eyyubov - Azərbaycan Respublikası Baş nazirinin birinci müavini

Komissiyanın üzvləri:

Natiq Əliyev - Azərbaycan Respublikasının sənaye və energetika naziri

Azad Rəhimov - Azərbaycan Respublikasının gənclər və idman naziri

Xələf Xələfov - Azərbaycan Respublikasının xarici işlər nazirinin müavini

Mikayıl Cabbarov - Azərbaycan Respublikasının iqtisadi inkişaf nazirinin müavini

Bəhrəm Əliyev - Azərbaycan Respublikasının kənd təsərrüfatı nazirinin müavini

Ədalət Vəliyev - Azərbaycan Respublikasının mədəniyyət və turizm nazirinin müavini

İradə Hüseynova - Azərbaycan Respublikasının təhsil nazirinin müavini

Sənan Kərimov - Azərbaycan Respublikasının səhiyyə nazirinin müavini

Polad Bülbüloğlu - Azərbaycan Respublikasının Rusiya Federasiyasındakı fövqəladə və səlahiyyətli səfiri

Rauf Pənahov - Bakı Şəhər İcra Hakimiyyəti başçısının müavini

Kamal İsmayılzadə - Azərbaycan Respublikası Nazirlər Kabineti Aparatının regionlararası iqtisadi əlaqələr şöbəsinin müdiri (məsul katib)

2. "Azərbaycan Respublikasının Moskva şəhəri ilə əməkdaşlıq üzrə Hökumət Komissiyasının yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 5 fevral tarixli 69 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999-cu il, № 2, maddə 104) 1-ci bəndi qüvvədən düşmüş hesab edilsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Azərbaycan Respublikasının Moskva şəhəri ilə əməkdaşlıq üzrə Hökumət Komissiyasının Azərbaycan tərəfinin yeni tərkibi barədə Rusiya Federasiyası tərəfinə müvafiq bildiriş göndərsin.

4. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

İlham Əliyev

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 10 oktyabr 2006-cı il

RUMİNİYA PREZİDENTİ TRAYAN BESESKUNUN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ

Rumıniya Prezidenti Trayan Besesku oktyabrın 11-də Bakıya rəsmi səfərə gəlmişdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ RUMİNİYA PREZİDENTİ TRAYAN BESESKUNUN TƏKBƏTƏK GÖRÜŞÜ

Oktyabrın 11-də Prezident sarayında Azərbaycan Prezidenti İlham Əliyevin və Rumıniya Prezidenti Trayan Beseskunun təkbətək görüşü olmuşdur.

Görüşdə ölkələrimiz arasında siyasi-iqtisadi və digər sahələrdə əlaqələrin uğurla inkişaf etdiyi vurğulandı və iqtisadi əməkdaşlığın genişlənməsi üçün böyük potensialın olduğu bildirildi.

Tərəflər Avratlantik strukturlara inteqrasiya prosesində ölkələrimiz arasında əməkdaşlığın daim genişləndiyini vurğuladılar.

Söhbət zamanı qarşılıqlı maraq doğuran bir sıra məsələlər müzakirə olundu.

DÖVLƏT BAŞÇILARININ GENİŞ TƏRKİBDƏ GÖRÜŞÜ

Oktyabrın 11-də Prezident sarayında Azərbaycan Prezidenti İlham Əliyevin və Rumıniya Prezidenti Trayan Beseskunun nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü keçirilmişdir.

Prezident İLHAM ƏLİYEV görüşü açaraq dedi:

- Hörmətli cənab Prezident, hörmətli qonaqlar mən sizin hamınızı ürəkdən salamlayıram. Azərbaycana xoş gəlmisiniz!

Sizin Azərbaycana rəsmi səfərinizə çox böyuk əhəmiyyət veririk və əminəm ki, bu səfər bizim aramızda olan münasibətlərin inkişafında çox mühüm rol oynayacaqdır.

Rumıniya bizim üçün çox yaxın bir ölkədir, dost ölkədir. Biz Rumıniya tərəfindən həmişə dəstək görmüşük və bu dəstək indi də davam edir.

Çox şadam ki, bizim aramızda həm siyasi, həm iqtisadi, həm mədəni, həm də humanitar sahələrdə çox yüksək əməkdaşlıq mövcuddur. İndi bütün sahələrdə əməkdaşlıq etmək əzmindəyik və işbirliyimizin nəticələri çox uğurludur. Demək olar ki, biz müttəfiq ölkələrik və əminəm ki, gələcəkdə bizim aramızda əməkdaşlıq, birgə layihələr daha da sürətlə davam edəcək və xalqlarımız bölgədə daha da yaxın olacaqlar.

Səfər çərçivəsində bir neçə sazişin imzalanması nəzərdə tutulubdur. Beləliklə, bizim münasibətlərimizin hüquqi bazası möhkəmlənəcəkdir. Əminəm ki, keçirdiyimiz və keçirəcəyimiz danışıqlar, fikir mübadiləsi qarşıda duran bütün vəzifələrin həlli üçün çox əhəmiyyətli olacaq və gələcəkdə daha da geniş əməkdaşlıq edəcəyik.

Azərbaycanın Avratlantik strukturlarına inteqrasiya siyasətini Rumıniya həmişə dəstəkləmişdir. Biz bu dəstəyi hiss edirik, buna görə Sizə minnətdarıq.

Bizim ikitərəfli münasibətlərimizin istiqamətlərindən biri də məhz bu məsələlərdir. Hesab edirəm ki, bu sahədə də Rumıniyanın təcrübəsi bizim üçün çox önəmli ola bilər.

Sizi bir daha ürəkdən salamlayıram. Əminəm ki, Sizin səfəriniz çox uğurlu keçəcəkdir.

Sonra Rumıniya Prezidenti TRAYAN BESESKU çıxış edərək dedi:

- Cənab Prezident, çox sağ olun. İlk öncə məni Azərbaycana səfərə dəvət etdiyinizə görə, eyni zamanda, mənə və nümayəndə heyətinə göstərdiyiniz qonaqpərvərliyə görə Sizə dərin minnətdarlığımı bildirirəm.

Azərbaycana bu gün etdiyim rəsmi səfərin əsas məqsədi məhz ondan ibarətdir ki, biz Azərbaycanla ikitərəfli münasibətlərin möhkəmləndirilməsində xüsusilə maraqlıyıq.

Biz siyasi və iqtisadi münasibətlərin daha da inkişaf etdirilməsinə xüsusi önəm veririk. Eyni zamanda hesab edirik ki, ölkələrimiz təhlükəsizlik sahəsində də əməkdaşlıq etməlidir.

Biz Azərbaycanı Xəzər regionunda özümüzə dost və tərəfdaş ölkə hesab edirik. Düşünürük ki, bizim tərəfdaşımız olan Azərbaycan enerji təhlükəsizliyi baxımından bu gün Avropa bazarlarında çox yüksək rəqabət qabiliyyətinə malik ölkə ola bilər.

Rumıniya artıq NATO-nun üzvüdür və gələn il yanvarın 1-dən Avropa İttifaqının tamhüquqlu üzvü olacaqdır. Həmin təşkilatlarda üzvlüyümüzü nəzərə alaraq, Rumıniya bu çərçivədə Azərbaycanla ənənəvi ikitərəfli münasibətlərin inkişaf etdirilməsində xüsusilə maraqlıdır. Eyni zamanda, bu təşkilatlarda üzvlüyümüz baxımından biz bütün Avropa məkanında təhlükəsizlik, o cümlədən enerji təhlükəsizliyi sahəsində məsuliyyət daşıyan bir ölkə kimi çıxış etmək istəyirik.

Cənab Prezident, məni ölkənizə səfərə dəvət etdiyinizə görə, Sizə bir daha dərin təşəkkürümü bildirirəm.

SƏNƏDLƏRİN İMZALANMA MƏRASİMİ

Dövlət başçılarının geniş tərkibdə görüşü başa çatdıqdan sonra Prezident sarayında sənədlərin imzalanma mərasimi olmuşdur.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Rumıniya Respublikasının Prezidenti Trayan Besesku Birgə bəyannamə imzaladılar.

Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi ilə Rumıniyanın Mədəniyyət və Dini İşlər Nazirliyi arasında "Mədəniyyət sahəsində əməkdaşlığa dair saziş"i Azərbaycanın mədəniyyət və turizm naziri Əbülfəs Qarayev və Rumıniya Mədəniyyət və Dini İşlər Nazirliyinin Dövlət katibi Adrian Lemeni imzaladılar.

Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyi və Rumıniyanın Kiçik və Orta Müəssisələr və Kooperativlər Milli Agentliyi arasında "Əməkdaşlıq haqqında memorandum"u Azərbaycanın iqtisadi inkişaf naziri Heydər Babayev və Rumıniyanın iqtisadiyyat və ticarət naziri İoan-Kodruts Şereş imzaladılar.

Azərbaycan Respublikası Hökuməti və Rumıniya Hökuməti arasında "Ticarət-iqtisadi əlaqələr və elmi-texniki əməkdaşlıq haqqında 1995-ci il avqustun 2-də Buxarest şəhərində imzalanmış Sazişə dəyişikliklər edilməsi barədə Əlavə protokol"u Azərbaycanın iqtisadi inkişaf naziri Heydər Babayev və Rumıniyanın iqtisadiyyat və ticarət naziri İoan-Kodruts Şereş imzaladılar.

Azərbaycan Respublikası Hökuməti və Rumıniya Hökuməti arasında "İnvestisiyaların təşviqi və qorunması haqqında 2002-ci il oktyabrın 29-da Bakı şəhərində imzalanmış Sazişə dəyişikliklər edilməsi barədə Əlavə protokol"u Azərbaycanın iqtisadi inkişaf naziri Heydər Babayev və Rumıniyanın xarici işlər naziri Mixay Rezvan Unquryanu imzaladılar.

AZƏRBAYCAN RESPUBLİKASININ MƏDƏNİYYƏT VƏ TURİZM NAZİRLİYİ VƏ RUMINİYANIN MƏDƏNİYYƏT VƏ DİNİ İŞLƏR NAZİRLİYİ ARASINDA MƏDƏNİYYƏT SAHƏSİNDƏ ƏMƏKDAŞLIQ HAQQINDA SAZİŞ

11 oktyabr 2006-cı il

Bundan sonra "Razılığa gələn Tərəflər" adlandırılan Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi və Rumıniyanın Mədəniyyət və Dini İşlər Nazirliyi iki ölkə arasında mövcud dostluq əlaqələrini inkişaf etdirmək və gücləndirmək niyyətində olaraq, həmçinin mədəniyyət sahəsində əməkdaşlığı genişləndirmək məqsədilə aşağıdakılar barədə razılığa gəldilər.

MADDƏ 1

Razılığa gələn Tərəflər hər iki Dövlətin daxili qanunvericiliyinə müvafiq olaraq qarşılıqlı maraq göstərilən sahələrdə, xüsusilə teatr, bədii və folklor qrupların, habelə fərdi ifaçıların mübadiləsini, rəsm əsərlərindən ibarət sərgilərin keçirilməsini, filmlərin nümayişini və yaxud digər tərəfin təşkil etdiyi beynəlxalq film festivallarında iştirak etməsini və müştərək filmlərin çəkilməsi ilə kino sahəsində əməkdaşlığı inkişaf etdirəcəklər.

MADDƏ 2

Razılığa gələn Tərəflər hər iki ölkənin muzeyləri, kitabxanaları arasında məlumat mübadiləsi aparacaq, M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası ilə Rumıniya Milli Kitabxanası arasında əlaqələr yaradacaq və qarşılıqlı kitab sərgilərinin təşkilinə səy göstərəcəklər.

MADDƏ 3

Razılığa gələn Tərəflər Rumıniyada Azərbaycan Mədəniyyəti Mərkəzinin və Azərbaycanda Rumıniya Mədəniyyət Mərkəzinin yaradılması istiqamətində əməkdaşlıq edəcəklər.

MADDƏ 4

Razılığa gələn Tərəflər müvafiq ictimai və ixtisaslaşmış institutların ekspertlərinin və mədəni irsin qorunması ilə bağlı problemlərin öyrənilməsi üzrə mütəxəssislərin iştirakı ilə ikitərəfli görüşlər, seminar və simpoziumlar təşkil edəcəklər.

MADDƏ 5

Razılığa gələn Tərəflər təşkil etdikləri beynəlxalq konfranslar, müsabiqələr və mədəniyyət məsələləri ilə bağlı görüşlərdə nümayəndələrin iştirakına şərait yaradacaqlar.

MADDƏ 6

Razılığa gələn Tərəflər mədəniyyətin müxtəlif sahələrində əldə edilmiş son nailiyyətlər haqqında bilik və təcrübə mübadiləsini təşviq edəcəklər.

MADDƏ 7

Razılığa gələn Tərəflər qarşılıqlı surətdə xalça və xalq tətbiqi sənəti, milli geyim, musiqi alətləri və milli mətbəx nümunələrindən ibarət sərgilərin təşkilini öhdələrinə götürəcəklər.

MADDƏ 8

Razılığa gələn Tərəflər hər iki Dövlətin sənətkarları arasında görüşləri, incəsənət ustalarının iştirakı ilə konsert proqramlarının mübadiləsini, habelə incəsənət üzrə təhsil sahəsində mütəxəssis və təcrübə mübadiləsini təşviq edəcəklər.

MADDƏ 9

Razılığa gələn Tərəflər hər iki ölkədə Mədəniyyət Günlərinin keçirilməsi məqsədilə müvafiq hazırlıq işlərinin aparılmasına və Mədəniyyət Günləri çərçivəsində Azərbaycanda Rumıniya filmlərini və Rumıniyada Azərbaycan filmlərini nümayiş etdirəcəklər.

MADDƏ 10

Razılığa gələn Tərəflərin yazılı razılığı ilə bu Sazişə əlavələr və dəyişikliklər edib bilər. Belə əlavələr və dəyişikliklər bu Sazişin ayrılmaz hissəsi olan ayrı-ayrı protokollar formasında rəsmiləşdiriləcək və bu Sazişin 11-ci maddəsində nəzərdə tutulan qaydada qüvvəyə minəcəkdir.

MADDƏ 11

Bu Saziş onun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Razılığa gələn Tərəflərin sonuncu yazılı bildirişinin alındığı tarixdən qüvvəyə minir.

Bu Saziş beş (5) il müddətinə bağlanılır və Razılığa gələn Tərəflərdən biri bu Sazişin müddətinin bitməsinə ən azı altı ay qalmış onu ləğv etmək niyyəti barədə yazılı şəkildə digər tərəfə məlumat verməzsə, onun qüvvəsi avtomatik olaraq növbəti beş (5) il müddətinə uzadılacaqdır.

Bu Saziş Bakı şəhərində 11 oktyabr 2006-cı ildə iki əsl nüsxədə, hər biri rumın, azərbaycan və ingilis dillərində imzalanmışdır, bütün mətnlər eyni qüvvəyə malikdir. Bu Sazişin təfsiri və tətbiqi zamanı fikir ayrılığı olduqda ingilis dilindəki mətnə istinad ediləcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASININ MƏDƏNİYYƏT VƏ TURİZM NAZİRİ	RUMINİYA RESPUBLİKASININ MƏDƏNİYYƏT VƏ DİNİ İŞLƏR NAZİRLİYİNİN DÖVLƏT KATİBİ
ƏBÜLFƏS QARAYEV	*ADRİAN LEMENİ*

AZƏRBAYCAN VƏ RUMINİYA PREZİDENTLƏRİNİN BİRGƏ MƏTBUAT KONFRANSI

Oktyabrın 11-də Prezident sarayında sənədlərin imzalanması mərasimindən sonra Azərbaycan və Rumıniya prezidentlərinin birgə mətbuat konfransı olmuşdur.

Dövlət başçıları jurnalistlər qarşısında bəyanatlarla çıxış etdilər.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN BƏYANATI

- Hörmətli cənab Prezident,

Hörmətli Rumıniya nümayəndə heyətinin üzvləri,

Xanımlar və cənablar!

Rumıniya Prezidenti cənab Trayan Beseskunun Azərbaycana rəsmi səfəri ikitərəfli münasibətlərdə çox önəmli bir addımdır. Bizim ölkələrimiz çox uğurlu əməkdaşlıq edir. Rumıniya Azərbaycanın müstəqilliyini tanıyan ikinci ölkə olubdur və Azərbaycan öz dövlət müstəqilliyini bərpa etdikdən sonra biz daim Rumıniya tərəfindən dəstək görürük. Bu gün də bu dəstəyi hiss edirik və Rumıniya Prezidentinə, Rumıniya hökumətinə öz dərin minnətdarlığımızı bildirmək istəyirik.

Bizim əlaqələrimiz çoxşaxəlidir. Hazırda çox intensiv siyasi dialoq aparılır. Qeyd etməliyəm ki, son bir il yarım ərzində cənab Besesku ilə çoxsaylı görüşlərimiz olubdur. Bugünkü görüş sayca dördüncüdür. Bu, özlüyündə onu göstərir ki, bizim aramızda çox sıx əlaqələr var, daim məsləhətləşmələr keçiririk, geniş fikir mübadiləsi aparılır. O cümlədən bu gün bizim aramızda çox səmimi, açıq danışıqlar keçirildi. Həm təkbətək görüş-

də, eyni zamanda, nümayəndə heyətlərinin iştirakı ilə. Müxtəlif məsələlər - ikitərəfli münasibətlər, iqtisadi əlaqələr, siyasi əlaqələr, Azərbaycanın Avratlantik strukturlara inteqrasiyası və Rumıniyanın bu siyasətə öz dəstəyini verməsi, nəhəng enerji layihələri, Azərbaycanın uğurlu neft strategiyası və gələcək əməkdaşlıq prinsipləri müzakirə olundu. Bütün bu məsələlər diqqət mərkəzində idi. Bütün bu məsələlər barədə çox geniş fikir mübadiləsi aparılmışdır və bizim aramızda heç bir fikir ayrılığı yoxdur. Bu, çox sevindirici haldır. Çünki bu, bir daha onu göstərir ki, ikitərəfli münasibətlər çox geniş formatda həyata keçirilir. Bu münasibətlər çoxşaxəlidir, çox sahələri əhatə edir və əlbəttə ki, münasibətlərin hərtərəfli inkişafı üçün çox gözəl zəmin yaradır.

Bununla bərabər, regionda gedən proseslər, regional vəziyyət, regionda təhlükəsizlik tədbirlərinin möhkəmlənməsi məsələləri də müzakirə olunmuşdur. Bizim regionun çox böyük imkanları, çox böyük perspektivləri var. Nəqliyyat infrastrukturunun yeniləşməsi, yeni nəqliyyat dəhlizlərinin açılması işində, enerji daşıyıcılarının dünya və Avropa bazarlarına çatdırılmasında, Avropanın enerji təhlükəsizliyinin möhkəmlənməsində Azərbaycanın rolu və artan imkanları, əlbəttə ki, regionu çox önəmli nöqtəyə gətirib çıxarır.

Nəzərə alsaq ki, artıq Qara dəniz-Xəzər dənizi regionlarının birgə fəaliyyəti bugünün reallığıdır, regionda sabitliyin möhkəmlənməsi, təhlükəsizlik tədbirlərinin güclənməsi bizi çox maraqlandırır və narahat edir. Rumıniyada, Buxarestdə keçirilən Qara dəniz forumunda bu fikirlər səslənmişdir. Artıq bizim regionda gedən əməkdaşlıq meyilləri geniş formatda regional işbirliyinin əsasını qoyur. Şübhəsiz ki, bu işdə Rumıniya və Azərbaycanın birgə səylərinin vacibliyi göz önündədir. Bütün bunları nəzərə alaraq, bir daha demək istəyirəm ki, regionda sülhün, təhlükəsizliyin bərqərar olması bizim hamımızın marağındadır.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi regionda ən başlıca təhlükə mənbəyidir. Bu münaqişə regionda sabitliyin pozulmasına gətirib çıxara bilər və regional əməkdaşlığa çox böyük maneədir. Azərbaycanın mövqeyi dəyişməz olaraq qalır: həm tarixi baxımdan, eyni zamanda, hüquqi baxımdan Dağlıq Qarabağ Azərbaycan torpağıdır. Biz tələb edirik ki, Birləşmiş Millətlər Təşkilatının bu məsələyə dair dörd qətnaməsi icra olunsun və Ermənistanın işğalçı qüvvələri zəbt olunmuş torpaqlardan qeyd-şərtsiz çıxsın. Azərbaycanlılara qarşı Ermənistan tərəfindən aparılmış etnik təmizləmə siyasəti nəticəsində didərgin düşmüş insanlar öz doğma torpaqlarına qayıda bilsinlər. Etnik təmizləmə siyasətinin nəticələri aradan qaldırılsın və məsələ beynəlxalq hüquq normaları və prinsipləri əsasında öz həllini tapsın.

Azərbaycan bütün ölkələrin ərazi bütövlüyünü tanıyır və əlbəttə, tələb edir ki, Azərbaycanın da ərazi bütövlüyü tanınsın. Deyə bilərəm ki, Ermənistan istisna olmaqla, bütün dünya Azərbaycanın ərazi bütövlüyünü tanıyır. Azərbaycan Birləşmiş Millətlər Təşkilatına üzv olanda Dağlıq Qarabağla birlikdə üzv olmuşdur. Ona görə də, məsələnin həlli yalnız və yalnız hüquqi müstəvidə öz həllini tapa bilər və Azərbaycanın mövqeyi dəyişməz olaraq qalır. Dağlıq Qarabağda yaşayan ermənilərin təhlükəsizliyini təmin etmək üçün müxtəlif tədbirlər görülə bilər. Biz demişik, bu gün də mən bunu təkrar etmək istəyirəm ki, Dağlıq Qarabağa Azərbaycanın tərkibində yüksək muxtariyyət statusu verilə bilər. Ancaq Dağlıq Qarabağın Azərbaycandan ayrılması, Azərbaycanın ərazisində

ikinci erməni dövlətinin yaradılması, yaxud da ki, Dağlıq Qarabağın Ermənistana birləşməsi məsələləri müzakirə mövzusu deyil və olmayacaqdır.

Rumıniyanın bu məsələdə mövqeyi bizi həm sevindirir, həm də ruhlandırır. Rumıniyanın mövqeyi indi imzalanmış Birgə bəyannamədə öz əksini tapmışdır. Bu mövqeyə görə, bu yanaşmaya görə biz Rumıniya hökumətinə, şəxsən Rumıniya Prezidentinə çox minnətdarıq. Bu mövqe bütün münaqişələrə şamil edilməlidir. Bütün münaqişələr eyni yanaşma ilə öz həllini tapa bilər, heç bir istisna halı olmamalıdır.

Əgər hansısa bir halda istisna olarsa, bu, çox çətin və çox acınacaqlı nəticələrə gətirib çıxara bilər. Dünyada, Avropada, bizim bölgəmizdə buna oxşar münaqişələr də var, buna oxşar problemlər də var və əgər hansısa bir halda məsələ beynəlxalq hüquq əsasında yox, hansısa başqa prinsiplər əsasında öz həllini taparsa, bundan bütün bölgə böyük zərər çəkə bilər. Bir daha demək istəyirəm ki, hesab edirəm, Azərbaycanın mövqeyi məsələnin həlli işində prinsipial rol oynayır, bizim mövqeyimiz dəstəklənir. Biz bu dəstəyi hiss edirik və getdikcə bu dəstək artır.

Ümud etmək istəyirəm ki, Avropa qonşuluq siyasətinə qoşulan Azərbaycan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllində Avropanın imkanlarından da bəhrələnə bilər. Biz çox istəyirik ki, Minsk qrupu ilə yanaşı, digər təşkilatlar da bu məsələ ilə bağlı öz mövqelərini bildirsinlər, bu işdə fəal iştirak etsinlər. Biz çox şadıq ki, GUAM ölkələrinin təşəbbüsü ilə dondurulmuş münaqişələrə dair məsələ Birləşmiş Millətlər Təşkilatı Baş Məclisinin 61-ci sessiyasının gündəliyinə salınmışdır. Rumıniya dövləti bu məsələdə öz mövqeyini ortaya qoymuşdur, Azərbaycanın və digər GUAM ölkələrinin mövqeyini dəstəkləmişdir. Yenə demək istəyirəm ki, bütün bunlar bizim səmimi münasibətlərimizi bir daha əks etdirir və Rumıniya Prezidentinin Azərbaycana indiki səfəri münasibətlərimizi daha da möhkəmləndirəcəkdir. Biz bunu arzulayırıq, bunu istəyirik. Rumıniya bizim üçün çox yaxın, dost ölkədir. Mən əminəm ki, bizim aramızda olan əlaqələr bundan sonra daha da genişlənəcək, dərinləşəcək və xalqlarımız bir-birilərinə daha da yaxın olacaqlar. Təşəkkür edirəm.

RUMİNİYA PREZİDENTİ TRAYAN BESESKUNUN BƏYANATI

- İlk növbədə, məni və nümayəndə heyətini Azərbaycana rəsmi səfərə dəvət etdiyinə görə Prezident İlham Əliyevə dərin minnətdarlığımı bildirmək istəyirəm. Prezident Əliyevin burada dediyi kimi, biz kifayət qədər məsələləri geniş müzakirə etdik. Eyni zamanda, biz regional maraq və Avropa üçün maraq kəsb edən məsələləri nəzərdən keçirdik. NATO-nun üzvü olan və gələn il yanvarın 1-dən Avropa İttifaqının üzvü olacaq dövlət kimi Rumıniya xarici siyasətində Qara dəniz regionuna xüsusi diqqət yetirməyi davam etdirəcəkdir. Qara dəniz forumu çərçivəsində biz həmin regionda təhlükəsizlik tədbirlərinin möhkəmləndirilməsi məsələlərini müzakirə etdik. Eyni zamanda, bunu Xəzər regionuna da şamil etmək istəyirik, çünki biz bu regionun enerji sərvətlərinin daşınmasında maraqlıyıq. Biz qonşuyuq və istəyirik ki, istər NATO, istərsə də Avropa İttifaqı baxımından eyni təhlükəsizlik sisteminin bir hissəsi olaq. Mən Prezident Əliyevi əmin etdim ki, Rumıniya bu sahədə Azərbaycanla öz təcrübəsini bölüşməyi davam etdirəcək və Azərbaycanın Avropa strukturlarına daxil olmasına kömək edəcəkdir.

Biz tam əminik ki, Azərbaycan regionda həm təhlükəsizlik, həm də enerji siyasətində müsbət töhfə vermiş bir ölkədir. Bu baxımdan biz qarşılıqlı əməkdaşlığımızı hər iki tərəfin maraqları əsasında davam etdirəcəyik. Dondurulmuş münaqişələrə aid məsələdə əməkdaşlığımızı davam etdirəcəyik. Mən demək istəyirəm ki, Rumıniyanın Albaniya, Ukrayna ilə çox gözəl münasibətləri var, Azərbaycanla əla münasibətləri var, Ermənistanla da yaxşı münasibətləri var. Amma bununla belə, yaxşı münasibətlərin olması bu fundamental prinsiplərin yaddan çıxarılmasına əsas ola bilməz. Rumıniya bir əsrdən çox müddət ərzində öz xarici siyasətində hər bir dövlətin ərazi bütövlüyü prinsipinə, sərhədlərin toxunulmazlığı prinsipinə həmişə hörmətlə yanaşmış və riayət etmişdir. Ona görə də hər hansı bir ərazi məsələsi və etnik məsələ ortaya çıxarsa, həmin prinsiplərdən uzaqlaşmaq mənfi hadisələrin baş verməsi ilə nəticələnə bilər. Hansı dövlət olursa-olsun, bu, onun təhlükəsizliyinə qarşı işləyə bilər. Ona görə sərhədlərin toxunulmazlığı və ərazi bütövlüyünün təmin edilməsi prinsipləri vacibdir və mən bunların üzərində bir daha dayanaraq təkrar edirəm. Mən hesab edirəm ki, Albaniya ilə olan xoş münasibətlərimiz, Moldova, Ukrayna, Rusiya Federasiyası ilə olan münasibətlərimiz əsasında biz müvafiq işlər görə bilərik. Lakin bu fundamental prinsiplərdən uzaqlaşmaq mümkün deyildir.

Mən xüsusi vurğulamaq istəyirəm ki, təhlükəsiz regionun yaradılmasına, xüsusən də Qara dəniz və Xəzər dənizi regionunun təhlükəsiz region kimi inkişaf etdirilməsinə marağımızı nəzərə alaraq, hesab edirəm ki, Rumıniya malların və enerji daşıyıcılarının Avropaya daşınması üçün tranzit ölkə kimi çıxış edə bilər. Gələcəkdə məhz bu tərəfdaşlıq sayəsində bizim idxaldan asılılığımız da azala bilər. Təbii ki, bu Avropa İttifaqı ilə əməkdaşlığımızda, xüsusən də bunun əsasında, Azərbaycan məhz enerji resurslarının etibarlı bir təchizatçısı kimi öz rolunu oynaya bilər. Bu da Avropanın enerji təhlükəsizliyini möhkəmləndirməsinə Azərbaycanın çox gözəçarpan töhfəsi ola bilər.

Biz bu məsələni görüşlərimiz zamanı müzakirə etdik. Konstansa-Pança-Triest" layihəsini müzakirə etdik. Eyni zamanda, Xəzər dənizindən hasil olunan xam neftin nəqlinə dair layihələri müzakirə etdik. Rumıniya üçün və Avropa İttifaqının üzvləri üçün olduqca maraqlı digər layihələr də var. Söhbət, əsasən, xam neftin nəqlindən gedir. Mən çox aydın şəkildə bildirmək istəyirəm ki, Avropa İttifaqının tam üzvünə çevrildikdən sonra, 2007-ci ilin yanvarın 1-dən etibarən Rumıniya enerji təchizatında Avropaya öz töhfəsini verə bilər. Çünki hazırda bütün Avropada enerji daşıyıcılarının, demək olar ki, 50 faizi xaricdən idxal olunur. Gələcək illərdə bu idxalın həcmi, asılılıq daha da artacaq, hətta 70 faiz təşkil edəcəkdir. Hesab edirəm ki, bu səbəbə görə nəinki Rumıniyanın Azərbaycanla münasibətlərini, həm də bizim Avropa İttifaqına qarşıdakı üzvlüyümüzü nəzərə alaraq, konkret layihələri həyata keçirməklə biz bütün Avropa üçün alternativ enerji daşıyıcılarının təchizatçısına çevrilə, alternativ həll yollarını tapa bilərik. Ona görə Azərbaycan bu məsələdə xüsusi töhfəsini verə bilər. Qarşımızda duran məqsədlərdən biri budur, təkbətək və geniş tərkibdə görüşümüzdə gördük ki, bizim mövqelərimiz üst-üstə düşür.

Eyni zamanda, sizin ölkənizin üzv olduğu beynəlxalq təşkilatlarda əməkdaşlıq haqqında danışdıq. Cənab Prezident, Sizi əmin edə bilərəm ki, Avratlantik strukturlara inteqrasiyada daim bizim dəstəyimizə əmin ola bilərsiniz.

Sonra prezidentlər jurnalistlərin suallarına cavab verdilər.

- Mənim sualım cənab Prezident İlham Əliyevədir. Sizin ölkə bütün həmin layihələrdə maraqlıdırsa, bizim üçün də neft və qazın bu regiondan Avropaya nəql olunması maraqlıdırsa, mən "Naubuko" layihəsi ilə bağlı soruşmaq istəyirəm. Sizin ölkəniz bu xüsusi layihədə maraqlıdırmı?

İLHAM ƏLİYEV: Azərbaycan neft və qaz təchizatının şaxələndirilməsində maraqlıdır. Biz bu günə qədər üç neft boru kəmərinin tikilməsinə nail olmuşuq. Onlar bizim neftimizi üç istiqamətə - ikisi Qara dəniz istiqamətinə, biri isə Aralıq dənizi istiqamətinə çıxarır. Biz artıq Azərbaycanın bütün tələbatını ödəmişik və həmin boru kəmərləri böyük həcmdə nefti nəql edə biləcəkdir. Azərbaycan birmənalı olaraq qısa müddət ərzində çox mühüm qaz təchizatçısına çevriləcəkdir. Eyni zamanda, özümüzün qaza olan tələbatımızı ödəyəcəyik. Çünki iqtisadiyyatımız get-gedə artır və bizim bazarımızda qaza tələbat da çoxalır. Bununla yanaşı, gələcək illər ərzində bu sahədə yeni addımlar atacağıq. Azərbaycandan qaz boru kəmərinin Türkiyəyə çəkilməsi və istismara verilməsi nəzərdə tutulur. Texniki baxımdan bu, Azərbaycan qazını sonra Avropaya çatdıra bilər. "Naubuka" layihəsi çox maraqlı və cəlbedici layihədir. Azərbaycan bu layihədə iştirak edə bilər və ümumiyyətlə, layihə Azərbaycandan və Xəzər regionundan qaz təchizatına əsaslanır. Ona görə deyə bilərəm ki, bu layihənin əsas elementi olan Azərbaycanın iştirakı olmadan onu həyata keçirmək mümkün olmayacaqdır. Bu, birmənalıdır. Bir sözlə, biz enerji ehtiyatlarımızın dünya və Avropa bazarlarına çıxarılmasında və enerji təhlükəsizliyi məsələlərində Avropanın tələbatının ödənilməsində maraqlıyıq. Təbii ki, biz neft və qazdan böyük gəlirlər əldə edir və onu xalqımızın, ölkəmizin həyat tərzinin yaxşılaşdırılmasına sərf edirik.

- Rumıniya Azərbaycanın Avratlantik strukturlara inteqrasiyasına daim dəstək verəcəyini bəyan etdi. Rumıniyanın Cənubi Qafqaz və Orta Asiya ilə əlaqələrinin genişlənməsində Azərbaycanın rolunu necə görürsünüz?

TRAYAN BESESKU: Bildiyiniz kimi, Rumıniya hazırda Xəzər regionu ilə bağlı güclü siyasət yeritməkdədir. Əgər bizim güclü siyasətimiz olsa, Rumıniya öz sərhədləri yaxınlığında yerləşən demokratik ölkələrlə birgə özünün də iştirak etdiyi təhlükəsizlik sisteminin, qlobal və ümumi siyasi bir sistemin bir hissəsi olaraq, hesab edirəm ki, Xəzər və Qara dəniz regionunda yerləşən ölkələrlə birgə Avratlantik və Avropa inteqrasiyasında rol oynaya bilər.

NATO-nun və Avropa İttifaqının sərhəd ölkəsi kimi Rumıniya bu qurumlara inteqrasiya sahəsindəki təcrübəsini NATO sisteminin və Avropa İttifaqının üzvü olmaq arzusunda olan ölkələrlə bölüşə bilər. İkinci məsələ, Qara dəniz regionunda olan bütün ölkələrlə bizim ənənəvi ikitərəfli münasibətlərimiz var. Yəni, NATO-nun və ya Avropa İttifaqının bir üzv ölkəsi kimi bizim borcumuzdur ki, öz təcrübəmizi digər ölkələrlə bölüşək. Qara dəniz regionunda yerləşən dövlətlərlə ikitərəfli ənənəvi münasibətlərimiz bizi ruhlandırır ki, bu təcrübəni onlarla bölüşək. Üçüncüsü, bizim yanımızda təhlükəsiz və çiçəklənən regionun olması üçün Rumıniya Qara dəniz və Xəzər dənizi regionunda yerləşən dövlətlərin NATO-ya və Avropa İttifaqına inteqrasiyası prosesində güclü şəkildə öz dəstəyini verə bilər. Bu, elə bir reallıqdır ki, nəinki Rumıniya, eyni zamanda, Bolqa-

rıstan da bu sahədə müstəsna rol oynayacaq və Avropa İttifaqına tam inteqrasiya olunaraq, bu proseslərə öz töhfəsini verəcəkdir. NATO-nun, Avropa İttifaqının dost ölkələri kimi, maraqlıyıq ki, digər ölkələr də bu inteqrasiya proseslərinə tam qoşulsunlar. Təbii ki, heç kim birmənalı deyə bilməz ki, konkret bir tarixdə Azərbaycan NATO-nun və Avropa İttifaqının üzvü olsun. Lakin mühüm cəhət ondan ibarətdir ki, Azərbaycan artıq NATO ilə tərəfdaşlıq edir və Azərbaycan da Avropa İttifaqı ilə yeni qonşuluq siyasətini tam yerinə yetirərək, proqramın növbəti mərhələsi ilə bağlı bu ilin noyabr ayında Brüsseldə bir saziş imzalayacaqdır. NATO ilə tərəfdaşlıq quran və Avropa İttifaqı ilə yeni qonşuluq siyasətinə qoşulan bir ölkə kimi Rumıniya bu prosesə öz dəstəyini verə bilər. Çox sağ olun.

MƏŞHUR RUMIN BƏSTƏKARI VƏ MUSİQİÇİSİ CORCE ENESKUNUN ABİDƏSİNİN AÇILIŞI

Oktyabrın 11-də Bakıda, 8-ci mikrorayonda məşhur rumın bəstəkarı və musiqiçisi, müasir rumın milli bəstəkarlıq məktəbinin banisi, Rumıniya Elmlər Akademiyasının yaradıcılarından biri Corce Eneskunun (1881-1955) abidəsinin təntənəli açılışı olmuşdur.

Mərasimə toplaşanlar Azərbaycan Prezidenti İlham Əliyevi və Rumıniya Prezidenti Trayan Beseskunu hərarətlə qarşıladılar.

Dövlət başçıları abidənin üzərindən ağ örtüyü götürdülər və əzəmətli heykəlin önünə gül dəstələri qoydular.

Prezidentlər mərasimdə çıxış etdilər.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ÇIXIŞI

-Hörmətli cənab Prezident!

Hörmətli qonaqlar!

Əziz dostlar!

Bu gün Rumıniya-Azərbaycan münasibətlərinin tarixində çox əlamətdar bir gündür. Rumıniya mədəniyyətinin ən görkəmli simalarından biri olan Corce Eneskunun abidəsi ucaldılıb və bu gün biz bu abidənin açılışında bərabər iştirak edirik. Mən bu münasibətlə hamınızı ürəkdən təbrik edirəm.

Corce Enesku həm dahi bəstəkar, həm dirijor, həm də mahir musiqiçi olubdur. Onun əsərləri - opera, simfoniya və sonataları müasir rumın musiqisinin əsasını qoymuşdur. Corce Enesku dünya mədəniyyət xəzinəsinə çox böyük töhfəsini vermişdir. Bununla bərabər, Corce Eneskunun ictimai fəaliyyəti də çox geniş olmuşdur. O, Rumıniya Bəstəkarlar Cəmiyyətinin təsisçisi və prezidenti olmuşdur, antifaşist hərəkatında da çox fəal iştirak etmişdir.

Mən çox şadam ki, bu gün Rumıniya Prezidenti cənab Beseskunun iştirakı ilə biz bu abidənin açılışında iştirak edirik. Bu bir daha onu göstərir ki, bizim aramızda olan münasibətlər dostluq, qardaşlıq əsasında qurulmuşdur. Prezident Beseskunun Azərbaycana səfəri bu münasibətlərin inkişafında çox böyük rol oynayır.

Ölkələr arasında münasibətlərin inkişafında insanlar arasında münasibətlər də mühüm rol oynayır. Xalqların görkəmli xadimlərinin xatirəsinin hörmətlə yad edilməsi də, şübhəsiz, bizim münasibətlərimizin inkişafında çox böyük rol oynayacaqdır.

İki il bundan əvvəl Rumıniyanın paytaxtı Buxarest şəhərində, gözəl parkda Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin abidəsi ucaldılmışdır. Bu yaxınlarda parka Heydər Əliyevin adı verilmişdir. Onu da qeyd etmək istəyirəm ki, abidənin ucaldılması üçün müvafiq qərarları şəhər meriyası vermişdir. 2004-cü ildə Buxarest şəhərinin meri cənab Besesku idi və ulu öndər Heydər Əliyevin abidəsi Rumıniya paytaxtında onun şəxsi təşəbbüsü və iştirakı ilə ucaldılmışdır. Mən buna görə bütün Azərbaycan xalqı adından cənab Beseskuya öz minnətdarlığımı bildirmək istəyirəm.

Bizim münasibətlərimiz hərtərəflidir, çoxşaxəlidir. Siyasi müstəvidə çox fəal əməkdaşlıq edirik. Rumıniya Azərbaycanı daim dəstəkləyən ölkədir. İqtisadi əlaqələrimiz inkişaf edir. Bütün başqa sahələrdə ikitərəfli münasibətlərimiz bizi tam şəkildə qane edir. Çox sevindirici haldır ki, humanitar sahədə də əlaqələr genişlənir. Əminəm ki, dahi bəstəkar Corce Eneskunun abidəsinin ucaldılması bu işdə çox önəmli bir addım və çox önəmli bir qərardır.

Əziz dostlar, bu abidənin açılışı münasibətilə sizi bir daha ürəkdən təbrik edirəm. Arzu edirəm ki, Rumıniya-Azərbaycan münasibətləri bundan sonra da sürətlə inkişaf etsin və bizim xalqlarımız bir-birinə daha da yaxın olsunlar.

RUMİNİYA PREZİDENTİ TRAYAN BESESKUNUN ÇIXIŞI

- Hörmətli cənab Prezident!

Xanımlar və cənablar!

Dahi rumın bəstəkarı Corce Eneskunun abidəsinin açılışı mərasimində iştirak etmək üçün bizə yaratdığınız imkana görə sizə minnətdarıq. Təbii ki, bu, sadəcə, bir protokol xarakterli jest deyildir. Bugünkü hadisənin daha bir mənası var. Burada rumın bəstəkarının abidəsinin açılması Azərbaycan Respublikasının rumın mədəniyyətinə, musiqisinə olan hörmətindən irəli gəlir. Azərbaycan xalqının ümummilli lideri, dahi dövlət xadimi Heydər Əliyevin Rumıniyanın paytaxtında abidəsinin açılışı ilə biz də, rumın xalqı da eynilə sizə, Azərbaycana öz böyük hörmətimizi nümayiş etdirdik.

Bəstəkar Corce Eneskunun qoyduğu irs hər bir rumın üçün bizim keçmişimizin, musiqimizin, mədəniyyətimizin bir hissəsidir. Lakin indi Rumıniya, eyni zamanda, gələcəyini də Eneskunun əsərlərində görür. Rumın bəstəkarı Eneskunun musiqi dünyasına daxil olduqca, siz rumın xalqının ürəyində olan ən məhrəm duyğuları, onun hisslərini anlayacaqsınız. Çünki onun əsərlərində hər bir rumının həyatı boyu keçirdiyi sevinc, qəm-qüssə, nəyəsə inamının olması və ya olmaması, gələcəyə nikbinliklə baxması və sadəcə olaraq, hər bir rumının gündəlik həyat tərzi öz əksini tapmışdır.

Bu gün bizim üçün sevinc dolu bir gündür. Bu gün daim yaddaşımızda qalacaqdır. Cənab Prezident, bu abidənin açılışı barədə qərarların qəbul edilməsi münasibətilə mən şəxsən Sizə öz dərin minnətdarlığımı bildirirəm. Bu işdə iştirak edən bütün şəxslərə öz təşəkkürümü bildirirəm. Sağ olun.

Sonra Rumıniya Prezidenti Trayan Besesku abidənin müəllifləri - xalq rəssamı, Rəssamlıq Akademiyasının professoru, heykəltəraş Natiq Əliyevlə və memar Rasim Babakişiyevlə görüşdü, onlara dərin minnətdarlığını bildirdi.

Prezidentlər İlham Əliyev və Trayan Besesku mərasimdə iştirak edən Azərbaycanın və Rumıniyanın incəsənət və mədəniyyət xadimləri, sənət adamları ilə görüşüb söhbət etdilər.

ALİ QONAĞIN ŞƏRƏFİNƏ

Oktyabrın 11-də "Gülüstan" sarayında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin adından Rumıniya Prezidenti Trayan Beseskunun şərəfinə rəsmi qəbul təşkil olunmuşdur.

Dövlət başçıları qəbulda nitq söylədilər.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ

-Hörmətli cənab Prezident!

Hörmətli qonaqlar!

Xanımlar və cənablar!

Mən sizi Azərbaycanda bir daha ürəkdən salamlayıram. Azərbaycana xoş gəlmisiniz!

Rumıniya Prezidentinin Azərbaycana rəsmi səfəri ikitərəfli münasibətlərimizin inkişafında çox mühüm rol oynayır və artıq demək olar ki, səfər çox uğurlu olmuşdur. Bizim əlaqələrimizin çox böyük tarixi var. Hələ XV əsrdə Azərbaycan hökmdarı Uzun Həsən və rumın hökmdarı Böyük Stefan müttəfiqlik haqqında saziş imzalamışdılar. Çox görkəmli rumın alimi, məşhur dilçi Dmitri Kantemirin fəaliyyəti barədə Azərbaycanda geniş məlumatlar var idi.

Şərqdə ilk dəfə demokratik respublika - 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti yarananda onun görkəmli nümayəndəsi Səməd bəy Mehmandarov Rumıniyanın ən ali mükafatı ilə təltif edilmişdi. 1920-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti süqut etdi. Azərbaycan öz dövlət müstəqilliyini itirdi. Biz yalnız 1991-ci ildə öz dövlət müstəqilliyimizi bərpa etdik. Amma buna baxmayaraq, o illərdə də rumın və Azərbaycan xalqları çox fəal əməkdaşlıq edirdi, geniş iqtisadi əlaqələr mövcud idi. İnsanlar bir-birilə ünsiyyətdə olmuşdular. Bir sözlə, bizim aramızda olan əlaqələr həmişə inkişaf edirdi və əlbəttə ki, müstəqillik bərpa olunandan sonra münasibətlər yeni mərhələyə, yeni pilləyə qalxmışdır.

1991-ci ildə Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra bizi müstəqil respublika kimi tanıyan ikinci dövlət Rumıniya olmuşdur. Son 15 il ərzində bizim aramızda əlaqələr çox sürətlə inkişaf etmişdir, siyasi- iqtisadi və humanitar sahələrdə, bütün istiqamətlərdə biz çox fəal əməkdaşlıq edirik. Biz müttəfiqik və indiki dövrdə Rumıniya-Azərbaycan münasibətləri bütövlükdə regionda gedən proseslərə çox ciddi şəkildə təsir göstərir. Qara dəniz və Xəzər dənizi regionlarının əməkdaşlığı o cümlədən Rumı-

niya və Azərbaycan tərəfindən aparılan siyasət nəticəsində möhkəmlənir. Bu dialoq və əməkdaşlıq bütün başqa ölkələrə öz təsirini göstərir. Bizim aramızda olan siyasi-iqtisadi əlaqələr, nəqliyyat və enerji dəhlizlərinin mövcudluğu, əlbəttə ki, regional işlərdə rolumuzu artırır.

Rumıniya Prezidentinin Azərbaycana bugünkü səfəri isə bu münasibətlərə yeni təkan verir. Bu gün çox geniş fikir mübadiləsi aparılmışdır, danışıqlar çox uğurlu keçmişdir. İmzalanmış sənədlər əlaqələrimizin hüquqi bazasının möhkəmlənməsinə şərait yaradır. Bir sözlə, əminəm ki, bizim aramızda olan əlaqələr bu səfərdən sonra daha da sürətlə inkişaf edəcəkdir.

Neft-qaz sektorunda əməkdaşlıq haqqında geniş müzakirələr aparılmışdır. Bu sahədə gələcəkdə çox böyük planlarımız var. Bizim planlarımız, bildiyiniz kimi, həyatda öz əksini tapır. Azərbaycanda həyata keçirilən neft siyasəti nəticəsində ölkəmiz, demək olar ki, qarşısında duran bütün vəzifələri uğurla yerinə yetirdi. Azərbaycanın yataqlarından hasil edilən neft və qaz dünya bazarlarına çıxarılır və çıxarılacaqdır. Beləliklə, Rumıniya bu sahədə də bizim üçün çox önəmli tərəfdaş ölkə kimi öz töhfəsini verməkdədir.

Regionda təhlükəsizlik problemlərinin həlli, o cümlədən Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli barədə bizim aramızda fikir mübadiləsi aparılmışdır. Rumıniyanın mövqeyi çox müsbət mövqedir. Bu gün imzalanmış birgə siyasi bəyannamədə bu mövqe bir daha öz əksini tapmışdır. Biz bu mövqeyə görə Rumıniya Prezidentinə və rumın xalqına öz minnətdarlığımızı bildiririk.

Eyni zamanda, bu gün Azərbaycanın mədəniyyət işçiləri ilə bizim görüşümüz olubdur. Azərbaycanın mədəni həyatında çox əlamətdar hadisə baş veribdir. Dahi rumın bəstəkarı, musiqiçisi Corce Eneskunun abidəsi ucaldılmışdır. Yəni bu, bir daha onu göstərir ki, bizim aramızda olan əlaqələr dostluq, mehribanlıq əsasında qurulubdur və şübhə etmirəm ki, getdikcə daha da güclənəcəkdir.

Hörmətli cənab Prezident, mən Sizi və Rumıniya nümayəndə heyətini Azərbaycanda bir daha ürəkdən salamlayıram və bu badəni Sizin şərəfinizə, Rumıniya-Azərbaycan əlaqələrinin inkişafının şərəfinə qaldırıram!

RUMİNİYA PREZİDENTİ TRAYAN BESESKUNUN NİTQİ

- Hörmətli cənab Prezident!

Hörmətli nazirlər!

Xanımlar və cənablar!

Məni Azərbaycana səfərə dəvət etdiyinizə görə Sizə bir daha öz minnətdarlığımı bildirirəm.

Mən Prezident Əliyevlə keçirdiyim görüşlər zamanı həm Prezidentin, həm də Azərbaycan hökuməti üzvlərinin bizə olan səmimiyyətini tam duydum. Eynilə biz də öz tərəfimizdən Azərbaycana çox səmimi münasibət bəsləyirik. Azərbaycan Prezidentinin söylədiyi nitqdən biz bir daha anladıq ki, iki ölkə arasında olan münasibətlərin nə qədər zəngin tarixi var. Əgər tarixi hadisələrdən danışsaq, bunlar Böyük Stefanın və Dmitri Kantemirin hökmdarlığı dövrünə təsadüf edir.

Münasibətlərimizin tarixi bizim aramızda olan etimadın daha da artırılmasına xidmət edəcəkdir. Eyni zamanda, nəinki tarixi əlaqələr, bizim yerləşdiyimiz regionların yaxınlığı da bizi bir-birimizə daha yaxın edir. Bizim üçün bu günlərdə ən vacib olan məsələ xalqlarımızın təhlükəsizliyinin təmin edilməsidir. Əgər biz xalqlarımız üçün təhlükəsizliyi təmin edə biliriksə, bu, o deməkdir ki, onlar gələcəkdə tərəqqi şəraitində yaşayacaqlar.

Biz bu gün eyni zamanda, qarşılıqlı maraq doğuran məsələləri də nəzərdən keçirdik. Hesab edirəm ki, əldə etdiyimiz razılıqlar və eyni zamanda, yerləşdiyi regionda hər iki ölkənin artan və daha da güclənən mövqeləri gələcəkdə ikitərəfli münasibətlərimizin inkişafı üçün çox möhkəm zəmin yaradır.

Cənab Prezident, Sizi bir daha əmin etmək istəyirəm ki, Rumıniya Azərbaycan üçün dost ölkədir. Beynəlxalq münasibətləri qurduqda və xarici siyasəti həyata keçirdikdə daim dostluq prinsiplərinə əsaslanan Rumıniya Sizin yanınızdadır. Vəziyyətdən asılı olmayaraq, biz Sizi əmin edə bilərik ki, biz xarici siyasətimizdə rəhbər tutduğumuz mühüm prinsiplərdən heç zaman geri çəkilməyəcəyik.

Son 65 il ərzində Rumıniya kommunist sistemində yaşamışdır. İndi isə kommunist sistemi artıq mövcud deyil, Rumıniya tamamilə yeni sistem qurur. Həmin 65 il ərzində Rumıniya da bir çox çətinliklərlə üzləşmişdir. Bu gün biz öz xarici siyasətimizi həyata keçirdikdə, hər bir ölkənin ərazi bütövlüyü, onun sərhədlərinin toxunulmazlığı prinsiplərini əsas tuturuq. Biz Sizi əmin edirik ki, bu prinsiplərdən heç zaman geri çəkilməyəcəyik. Çünki bu prinsiplər bizim taleyimizdə də mühüm rol oynamışdır. Hamıya yaxşı məlumdur ki, bu prinsiplərdən çəkilən hər hansı bir tərəf gec və ya tez bundan əziyyət çəkir.

Sonda onu bildirmək istəyirəm ki, Rumıniya möhkəm, etibarlı tərəfdaş olaraq, Avratlantik strukturlara inteqrasiya prosesində Sizi daim dəstəkləyəcəkdir. Avratlantik ailəsinə qoşulmaq istiqamətində Rumıniya Azərbaycan ilə xüsusi tərəfdaşlıq qurmaqda maraqlıdır.

Çox sağ olun!

MİLLİ MƏCLİSDƏ GÖRÜŞ

Rumıniya Prezidenti Trayan Besesku oktyabrın 12-də Milli Məclisə gəlmişdir.

Parlamentin binası önündə ali qonağı Milli Məclisin sədri Oqtay Əsədov, Milli Məclis Aparatının rəhbəri Səfa Mirzəyev və digər rəsmi şəxslər qarşıladılar.

Rumıniya Prezidenti Trayan Besesku əvvəlcə Milli Məclisin iclas salonuna baxdı. Sonra Milli Məclisin sədri Oqtay Əsədovla Rumıniya Prezidenti Trayan Besesku arasında təkbətək görüş oldu.

Daha sonra görüş geniş tərkibdə davam etdirildi. Milli Məclisin sədri Oqtay Əsədov dedi ki, Azərbaycan onun dövlət müstəqilliyini ilk tanıyan dövlətlərdən biri kimi Rumıniya ilə əlaqələrin inkişafına böyük önəm verir. Hazırda ölkələrimiz arasında münasibətlər çox yüksək səviyyədədir və əlaqələrimizin bu cür inkişafında dövlətlərimizin başçılarının xüsusi rolu vardır. Azərbaycan Prezidenti İlham Əliyevin 2004-cü ildə Rumıniyaya səfəri zamanı ölkələrimiz arasında əlaqələrin perspektivləri, regional əməkdaşlıq və beynəlxalq məsələlər ətrafında geniş müzakirələr aparılmış, 11 sənəd imzalanmış-

dır. Aparılan danışıqlar və imzalanmış sənədlər münasibətlərimizin gələcək inkişafı üçün möhkəm hüquqi baza yaratmışdır.

Oqtay Əsədov parlamentlərarası əlaqələrdən danışaraq, Milli Məclisdə Rumıniya parlamenti ilə dostluq qrupunun yaradıldığını xatırlatdı, deputatların qarşılıqlı səfərlərinin münasibətlərimizin daha da genişlənməsinə xidmət etdiyini söylədi.

Milli Məclisin sədri Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi barədə də söhbət açdı, problemin həllində Azərbaycanın ədalətli mövqeyini dəstəklədiyinə görə Rumıniya Prezidentinə minnətdarlıq etdi.

Rumıniya Prezidenti Trayan Besesku səmimi görüş və ətraflı məlumat üçün təşəkkür etdi, ölkələrimiz arasında əlaqələrin inkişafında parlamentlərin rolunun və parlament diplomatiyasının vacibliyini vurğuladı. Ali qonaq Rumıniya parlamenti sədrinin Oqtay Əsədovu səfərə dəvət etdiyini bildirdi, bu səfərin geniş nümayəndə heyəti ilə həyata keçiriləcəyinə əminliyini söylədi.

Rumıniya Prezidenti 18 oktyabr - Dövlət müstəqilliyi günü münasibətilə Azərbaycan xalqını təbrik etdi.

Milli Məclis sədrinin birinci müavini Ziyafət Əsgərov, müavinlər Bahar Muradova, Valeh Ələsgərov, Milli Məclis Aparatının rəhbəri Səfa Mirzəyev və digər rəsmi şəxslərin iştirak etdiyi görüşdə qarşılıqlı maraq doğuran bir sıra məsələlər ətrafında geniş fikir mübadiləsi aparıldı.

RUMİNİYA PREZİDENTİNƏ BAKI DÖVLƏT UNİVERSİTETİNİN FƏXRİ DOKTORU DİPLOMU TƏQDİM EDİLMİŞDİR

Oktyabrın 12-də Bakı Dövlət Universitetində Rumıniya Prezidenti Trayan Beseskuya BDU-nun Fəxri doktoru diplomunun təqdim edilməsi mərasimi olmuşdur.

Rumıniya Prezidentini universitetdə səmimiyyətlə qarşıladılar. Tələbələr ali qonağa gül təqdim etdilər.

BDU-nun rektoru, MEA-nın müxbir üzvü, Milli Məclisin deputatı Abel Məhərrəmov mərasimi açaraq, Rumıniya Prezidentinin həyat və fəaliyyətinin əsas mərhələlərindən danışdı. Rumıniya dövlətinin başçısına Şərqdə ilk dəfə yaradılan dünyəvi ali məktəbin - Bakı Dövlət Universitetinin tarixi barədə məlumat verildi, bildirildi ki, hazırda BDU-nun 16 fakültəsində 17 minədək tələbə təhsil alır. Onların min nəfərdən çoxu 15 xarici ölkənin nümayəndələridir. Universitetdə 1300-dən çox müəllim işləyir, onların təxminən 300 nəfəri elmlər doktoru, professor, 14 nəfəri Milli Məclisin deputatıdır.

Rektor Abel Məhərrəmov BDU-nun geniş beynəlxalq əlaqələrindən söhbət açaraq dedi ki, bu təhsil ocağı Avropa Universitetlər Assosiasiyasının üzvüdür, Bolonya prosesi çərçivəsində keçirilən tədbirlərdə fəal iştirak edir. BDU Rumıniya Universitetinin təşəbbüsü ilə yaradılmış Qara Dəniz Universitetləri Şəbəkəsinə də daxildir. 2002-ci ildən 2004-cü ilədək BDU həmin qurumda sədrlik etmişdir. Rumıniyanın bir sıra ali məktəbləri ilə BDU arasında sıx əlaqələr yaradılmışdır, birgə layihələr həyata keçirilir.

Rektor Rumıniyaya səfərindən aldığı təəssüratını bölüşərək dedi ki, bu ölkənin rəhbərliyi elm və təhsilə, habelə Qara Dəniz Universitetləri Şəbəkəsinin fəaliyyətinə böyük

diqqət yetirir. A.Məhərrəmov Rumıniya Prezidentini Avropa İttifaqının öz üzv ölkələri üçün maliyyələşdirdiyi beynəlxalq təhsil proqramlarında Azərbaycan ali məktəblərinin iştirak etməsinə kömək göstərməyə çağırmışdır.

Abel Məhərrəmov çıxışında Azərbaycanın başlıca problemi olan Dağlıq Qarabağ münaqişəsinə də toxundu. Eyni zamanda bildirildi ki, müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, ümummilli lider Heydər Əliyevin müəyyənləşdirdiyi və Prezident İlham Əliyevin uğurla davam etdirdiyi xarici siyasət xətti Avropa qurumlarına və Avratlantik birliyinə inteqrasiyadan ibarətdir.

Rektor Rumıniya ilə Azərbaycan arasında ənənəvi dostluq münasibətlərinin inkişafında və möhkəmlənməsində xidmətlərinə görə Rumıniya dövlətinin başçısına Fəxri doktor adı verilməsi haqqında BDU Elmi Şurasının 2006-cı il 11 oktyabr tarixli qərarını oxudu.

Rektor Rumıniya dövlətinin başçısına BDU-nun Fəxri doktoru diplomunu, doktor mantiyasını, habelə xatirə hədiyyələrini təqdim etdi.

Prezident Trayan Besesku mərasimdə çıxış edərək, Rumıniya dövlətinin təşəkkülünün əsas mərhələlərindən, yeni ictimai-siyasi formasiyaya keçid dövründə rumın xalqının qarşılaşdığı çətinliklərdən danışdı.

O dedi ki, hazırda Rumıniya NATO-nun üzvüdür, gələn ilin yanvarından Avropa İttifaqının tamhüquqlu üzvü olacaqdır. Ölkənin xarici siyasət xətti Qara dəniz və Xəzər dənizi hövzələrinin dövlətləri ilə münasibətlərin möhkəmlənməsinə yönəldilmişdir.

Trayan Besesku bu regiondakı münaqişələrə toxunaraq vurğuladı ki, onun ölkəsi Rumıniyanın təhlükəsizliyinə müəyyən dərəcədə təsir göstərə biləcək belə qarşıdurmaların mövcudluğuna biganə qalmayacaqdır. Rumıniya rəhbəri dedi ki, ayrılıqda öz xüsusiyyətləri olan münaqişələrdən hər birinə beynəlxalq hüquq normalarına, dövlətlərin ərazi bütövlüyü prinsiplərinə əməl edilməsi mövqelərindən yanaşmaq lazımdır.

Rumıniya-Azərbaycan münasibətlərinin perspektivlərindən bəhs edən ali qonaq regionda lider ölkə olan Azərbaycanın yüksək iqtisadi potensialını vurğuladı. Rumıniya lideri bildirdi ki, Azərbaycanda həyata keçirilən qlobal enerji layihələri Xəzər neftinin nəqlinin alternativ yollarının müəyyən edilməsinə gətirib çıxarmalıdır.

Mərasimdən sonra Rumıniya Prezidenti BDU-nun Fəxri doktorlarının fotoşəkillərinə baxdı.

RUMİNİYA PREZİDENTİ TRAYAN BESESKUNUN VƏ AZƏRBAYCANIN BAŞ NAZİRİ ARTUR RASİZADƏNİN BİRGƏ İŞGÜZAR NAHARI

Oktyabrın 12-də Yaxt klubda ölkəmizdə səfərdə olan Rumıniya Prezidenti Trayan Beseskunun və Azərbaycanın Baş naziri Artur Rasizadənin birgə işgüzar naharı olmuşdur.

Nahardan əvvəl, Rumıniya Prezidenti və Azərbaycanın Baş naziri əvvəlcə Bakı buxtasını və paytaxtın buradan görünüşünü seyr etdilər. Artur Rasizadə ali qonağa paytaxtımız haqqında qısa məlumat verdi.

Süfrə arxasında səmimi söhbət zamanı ölkələrimiz arasında münasibətlərin, o cümlədən iqtisadi sahədə əməkdaşlığın perspektivləri barədə fikir mübadiləsi edildi.

HEYDƏR ƏLİYEV FONDU İLƏ TANIŞLIQ

Rumıniya Prezidenti Trayan Besesku oktyabrın 12-də Heydər Əliyev Fondunda olmuşdur.

Azərbaycan Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva Rumıniyanın dövlət başçısını böyük səmimiyyətlə qarşıladılar.

Prezidentlər və Rumıniya nümayəndə heyətinin üzvləri əvvəlcə Fondun fəaliyyətinə, həyata keçirdiyi layihələrə həsr edilmiş sənədli filmə baxdılar.

Fondun təhsil, səhiyyə, mədəniyyət, elm və s. sahələrdə genişmiqyaslı layihələr hazırlayıb həyata keçirməsi, xüsusilə uşaq evləri və internat məktəblərinin yenidən qurulması, maddi-texniki bazasının yaxşılaşdırılması, valideyn himayəsindən məhrum olan uşaqlara, diabet və talassemiyadan əziyyət çəkən insanlara hərtərəfli qayğı göstərilməsi, son ilyarımda təkcə qurumun təşəbbüsü ilə müasir tələblərə cavab verən 190 yeni məktəbin tikilib istifadəyə verilməsi, əlil uşaqlarda informasiya texnologiyaları ilə işləmək vərdişlərinin aşılanması, zəngin mədəniyyətimizin öyrənilməsi, təbliği istiqamətində gördüyü işlər, beynəlxalq təşkilatlarla sıx əməkdaşlığı rumıniyalı qonaqlarda xoş təəssürat yaratdı.

Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyeva muzeyin ekspozisiyaları ilə tanış olan Rumıniya Prezidentinə Azərbaycan xalqının ümummilli liderinin xatirəsinə ehtiram əlaməti olaraq yaradılmış Fondun məqsədləri barədə məlumat verdi. Bildirdi ki, Fondun əsas məqsədləri Prezident Heydər Əliyevin zəngin irsini öyrənmək və təbliğ etməkdən, onun Azərbaycanın sosial-iqtisadi, mədəni tərəqqisinə yönəlmiş genişmiqyaslı fəaliyyəti barədə gələcək nəsillərdə, qonaqlarda əyani təsəvvür yaratmaqdan, dahi şəxsiyyətin müəllifi olduğu beynəlxalq layihələrin həyata keçirilməsini dəstəkləməkdən, Azərbaycan mədəniyyəti və tarixinin geniş təbliği ilə əlaqədar aparılan işlərə kömək göstərməkdən ibarətdir.

Prezident İlham Əliyev ali qonağa ümummilli liderimizin şəxsi arxivindən götürülmüş və onun fəaliyyətinin ayrı-ayrı dövrlərini əhatə edən eksponatlar, fotoşəkillər barədə ətraflı məlumat verdi.

Rumıniya dövlətinin başçısı fenomen şəxsiyyət Heydər Əliyevin həyatının ən müxtəlif məqamlarını əks etdirən və Azərbaycan tarixinin bütöv bir dövrü barədə geniş təsəvvür yaradan çoxlu sənədlərlə, dünyanın tanınmış siyasi xadimlərinin bəxş etdikləri hədiyyələrlə, ulu öndərimiz haqqında kitablarla, dünyanın nüfuzlu siyasi, elm, mədəniyyət və incəsənət xadimlərinin Azərbaycan dövlətinin qurucusu haqqında fikirləri ilə tanış oldu, müxtəlif ölkələrin liderləri ilə görüşlərdə çəkilmiş şəkillərə böyük maraqla baxdı.

Rumıniya Prezidenti Xatirə kitabına ürək sözlərini yazdı, milli lider Heydər Əliyevə dərin hörmətini bildirdi, Fonda Azərbaycanın tərəqqisi naminə dəyərli fəaliyyətində yeni uğurlar arzuladı.

Fondun Prezidenti Mehriban xanım Əliyeva Rumıniya Prezidentinə xatirə hədiyyələri təqdim etdi.

Sonra çay süfrəsi arxasında səmimi söhbət oldu.

Dövlətimizin başçısı dost ölkənin rəhbərinə Bakıya rəsmi səfərini əks etdirən fotoalbom təqdim etdi.

Prezident İlham Əliyev Azərbaycana rəsmi səfərini başa çatdıran Rumıniya Prezidenti Trayan Besesku ilə Fondun binası qarşısında sağollaşdı.

SƏFƏR BAŞA ÇATDI

Oktyabrın 12-də Rumıniya Prezidenti Trayan Beseskunun Azərbaycana rəsmi səfəri başa çatmışdır.

CƏNUBİ QAFQAZDAKI MÜNAQİŞƏLƏR REGİONUN SABİTLİYİNƏ TƏHLÜKƏDİR

Oktyabrın 12-də Xarici İşlər naziri Elmar Məmmədyarov Almaniya bundestaqının üzvləri ilə görüşmüşdür.

Nümayəndə heyətinin başçısı, Almaniyanın Avropa Şurası Parlament Assambleyasındakı nümayəndəsi RaynderŞtenblok Azərbaycana ilk dəfə səfər etdiyini və maraqlı görüşlər keçirdiyini bildirmiş, bu görüşlərin region ölkələri haqqında ətraflı məlumat əldə etmək baxımından vacib olduğunu diqqətə çatdırmışdır. Ölkəsinin gələn il Avropa Birliyinə (AB) sədrlik edəcəyini bildirən qonaq, Avropa qonşuluq siyasətində Cənubi Qafqaza mühüm diqqət yetirildiyini demişdir.

Elmar Məmmədyarov Azərbaycan və Gürcüstanın öz gələcəyini Avropaya inteqrasiyada gördüklərini və hər iki dövlətdə bu istiqamətdə iş aparıldığını bildirmişdir. Cari il noyabrın 14-də Azərbaycan və Avropa Birliyi arasında Fəaliyyət Planının qəbul olunacağını qeyd edən nazir, bu yaxınlarda qurumun yüksək səviyyədə nümayəndə heyətinin ölkəmizə səfər etdiyini, AB ilə Azərbaycan arasında enerji sahəsində əməkdaşlığın inkişafı üçün xüsusi memorandumun imzalanmasına dair razılıq əldə edildiyini demişdir.

Azərbaycanın NATO ilə əməkdaşlığının da inkişaf etdirdiyini bildirən Elmar Məmmədyarov, 10 il üçün nəzərdə tutulmuş "Fərdi tərəfdaşlığın fəaliyyət planı"na uyğun olaraq, ölkəmizdə bir sıra islahatların həyata keçirildiyini diqqətə çatdırmışdır. Bununla belə, nazir AB-nin region ölkələri ilə münasibətlərdə milli dəyərlər, ənənələr, dini amilləri nəzərə almağın vacibliyini vurğulamışdır.

Azərbaycanda enerji sektorunun inkişafına toxunan Elmar Məmmədyarov, qeyri-neft bölməsinin, xüsusilə kənd təsərrüfatının, turizmin, habelə infrastrukturun tərəqqi etdirilməsinin əhəmiyyətindən danışmışdır.

Nazir Bakı-Tbilisi-Ceyhan neft və Cənubi Qafqaz qaz kəmərlərinin istismara verilməsinin ardınca, Bakı-Tbilisi-Axalkalaki-Qars dəmir yolunun tamamlanmasından sonra Xəzər hövzəsi enerjidaşıyıcılarının dünya bazarlarına çıxarılmasında Azərbaycanın tranzit ölkə olacağını qeyd etmişdir. Ölkəmizdə təhsilin inkişaf etdirilməsinin zəruriliyini önə çəkən nazir, ilk növbədə, bu sahəyə sərmayə qoyulmasının vacibliyini söyləmiş, Azərbaycan hökumətinin bu istiqamətdə də müvafiq iş apardığını bildirmişdir.

Almaniyalı deputat R.Ştenblok ölkəsinin region ilə əlaqələrin inkişafında maraqlı olduğunu nəzərə çatdırmış, Cənubi Qafqazdakı münaqişələrin sabitliyə zərbə vurduğunu xüsusi vurğulamışdır.

Nazir E.Məmmədyarov Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsində atəşkəs rejiminin davam etməsinə baxmayaraq, cəbhə xəttində hər il 300 nəfərə yaxın insan tələfatının olduğunu bildirmişdir. Münaqişənin mərhələli həlli barədə məlumat verən nazir, bu məsələyə beynəlxalq ictimaiyyətin diqqətinin artırılmasını zəruri saymışdır.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da fikir mübadiləsi aparılmışdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ABŞ DÖVLƏT KATİBİ MÜAVİNİNİN YAXIN ŞƏRQ MƏSƏLƏLƏRİ ÜZRƏ MÜŞAVİRİ SƏFİR CEYMS CEFRİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 12-də Prezident sarayında ABŞ dövlət katibi müavininin Yaxın Şərq məsələləri üzrə müşaviri səfir Ceyms Cefrini qəbul etmişdir.

İlk dəfə Azərbaycana səfər etdiyini vurğulayan qonaq ölkəmizə gəlməyindən çox şad olduğunu söylədi. Türkiyədə çalışdığı illərdə Azərbaycanda gedən prosesləri diqqətlə izlədiyini, Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəməri ilə bağlı məsələlərlə yaxından məşğul olduğunu bildirən cənab Ceyms Cefri zəngin iqtisadi və mədəni potensiala malik Azərbaycanın ABŞ-la münasibətlərinin çox uğurla inkişaf etdiyini diqqətə çatdırdı.

Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft boru kəməri layihəsinin Azərbaycan-ABŞ əməkdaşlığının çox mühüm elementlərindən biri olduğunu vurğulayan dövlətimizin başçısı dedi ki, bu qlobal layihə burada iştirak edən böyük dövlətlərin, nüfuzlu şirkətlərin və ABŞ Administrasiyasının birgə səyləri nəticəsində reallığa çevrilmişdir.

Azərbaycan-ABŞ münasibətlərinin müxtəlif sahələrdə sürətlə inkişaf etdiyini vurğulayan Prezident İlham Əliyev əmin olduğunu bildirdi ki, bu əməkdaşlıq bundan sonra da uğurla inkişaf edəcəkdir.

Söhbət zamanı Azərbaycan-ABŞ ikitərəfli münasibətlərinin perspektivləri və regional məsələlərlə bağlı fikir mübadiləsi aparıldı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV TÜRKİYƏNİN MƏRMƏRƏ QRUPUNUN NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 12-də Prezident sarayında Türkiyənin Mərmərə Qrupu Strateji və Sosial Araşdırmalar Vəqfinin nümayəndə heyətini qəbul etmişdir.

Prezident İLHAM ƏLİYEV qonaqlara müraciətlə dedi: Xoş gəlmisiniz, çox şadam ki, böyük heyətlə Azərbaycana gəldiniz. Azərbaycanla daha geniş tanış olmağınız üçün çox gözəl imkanlar var. Çox şadıq ki, əlaqələrimiz bütün səviyyələrdə - həm dövlət başçıları səviyyəsində, həm də millət vəkilləri, nazirlər səviyyəsində çox sürətlə inkişaf edir. Əlbəttə, təmaslar nə qədər çox olarsa, biz bir-birimizə o qədər də yaxın olacağıq. Bu yaxınlarda Türkiyədə Türkdilli dövlətlərin və topluluqların 10-cu dostluq, qardaşlıq və əməkdaşlıq qurultayı keçirilmişdir. Artıq qurultayın çox önəmli nəticələri var və

əminəm ki, gələcək fəaliyyətimiz üçün qarşımızda çox gözəl imkanlar açır.

Türkiyə-Azərbaycan münasibətləri bu işlərdə əsas amillərdən biridir. Türkiyə-Azərbaycan münasibətlərindən bütün türk dünyasında gedən proseslər müəyyən dərəcədə asılı olacaqdır. Eyni zamanda, bizim regionda baş verən hadisələr də bu münasibətlərin təsiri altındadır. Biz böyük iqtisadi, enerji layihələri həyata keçiririk, bizim iştirakımızla siyasi layihələr həyata keçirilir. Ona görə Türkiyə-Azərbaycan birliyi həm bizim ürəyimizdən gələn duyğulardır, eyni zamanda, zəmanənin tələbidir. Biz bir-birimizlə nə qədər sıx bağlı olsaq, gücümüz o qədər də artacaqdır. Bu, artıq reallıqdır, gerçəklikdir.

Azərbaycanın indiki inkişaf sürəti onu çox güclü ölkəyə çevirir. Həm iqtisadi cəhətdən, həm siyasi cəhətdən bölgədə gedən proseslərdə iştirakımız Azərbaycanın önəmini artırır.

Şübhəsiz ki, Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum neft-qaz kəmərləri, Bakı-Tbilisi-Qars dəmir yolu layihəsi - bütün bunlar həm Türkiyənin, həm də Azərbaycanın bölgədə və Avropada siyasi çəkisini artıran amillərdir. Biz bunu istəyirik. İstəyirik ki, daha da möhkəm mövqelərə, daha da güclü təsir imkanlarına malik olaq və birlikdə gələcəyə doğru irəliləyək. Bütün dövrlərdə Türkiyə-Azərbaycan münasibətləri qardaşlıq, dostluq əsasında davam etmişdir. İndiki dövrdə də bu münasibətlər, deyə bilərəm ki, ən yüksək zirvədədir. Sizin gəlişiniz və Mərmərə Qrupunun bu işlərdə fəal iştirakı çox təqdirəlayiqdir. Siz ikitərəfli münasibətlərin inkişafına çox dəyərli töhfə verirsiniz.

Bir də demək istəyirəm ki, dövlətlərarası, hökumətlərarası münasibətlər, millət vəkilləri arasında olan əlaqələr, müxtəlif dövlət qurumlarının və özəl qurumların birgə fəaliyyəti ilə yanaşı, bu işlərdə ictimai əlaqələr də xüsusi yer tutur. Mən deyə bilərəm ki, ictimai əlaqələrin inkişafında Mərmərə Qrupu müstəsna rol oynayır. Ona görə mən sizə çox minnətdaram. Sizin fəaliyyətiniz bizim ölkələrimizi daha da sıx birləşdirir. Beləliklə də, bölgədə Türkiyə-Azərbaycan müttəfiqliyi böyük proseslərin inkişafına təsirini gücləndirir.

Mən çox şadam ki, böyük heyətlə gəlmisiniz. Çoxlarınızı yaxından tanıyıram. Məncə, bəziləri Azərbaycanda ilk dəfə, yaxud da ki, daha az olmuşlar. Amma istərdim ki, daha da tez-tez gəliş-gediş olsun və sizin Qrupunuz, həmişə olduğu kimi, münasibətlərimizin inkişafında fəal rol oynasın. Sizi bir daha salamlayıram, Vətəninizə xoş gəlmisiniz!

Mərmərə Qrupu Vəqfinin sədri Akkan Suver qurumun fəaliyyətindən danışaraq dedi ki, biz beynəlxalq tədbirlərdə Türkiyə ilə yanaşı, Azərbaycan gerçəkliklərini, xüsusilə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsində ermənilərin işğalçılıq siyasətinin əsil mahiyyətini dünya ictimaiyyətinə çatdırmağa çalışırıq. Vəqfin rəhbəri, eyni zamanda, prinsipial məsələlərdə Azərbaycanın Türkiyəni dəstəkləməsinin qardaş ölkədə minnətdarlıq hissləri doğurduğunu vurğulayaraq dövlətimizin başçısına nümayəndə heyəti adından təşəkkür etdi. O dedi ki, burada olan millət vəkillərimiz də mütləq Sizə təşəkkürlərini bildirəcəklər. "Erməni soyqırımı" mövzusunda Azərbaycan Milli Məclisinin Fransa parlamentinə müraciətini razılıqla qarşılayır, minnətdarlığımızı bildiririk.

Prezident İlham Əliyev bir daha vurğuladı ki, bizim gücümüz xalqlarımızın birliyindədir. Türkiyə bizə arxadır. Müasir dövrdə ölkəmizin sürətli inkişafı Azərbaycanın beynəlxalq aləmdə mövqelərini möhkəmlədir və bu amil bizim də qardaş ölkəyə dəstək vermək imkanımızı artırır.

Türkiyə Böyük Millət Məclisinin deputatı Güldal Akşit iki qardaş ölkə arasındakı əməkdaşlığa verdiyi töhfəyə görə Prezident İlham Əliyevə minnətdarlığını bildirdi, Baş nazir Rəcəb Tayyib Ərdoğanın salamlarını çatdırdı.

Daha sonra nümayəndə heyətinin üzvləri Naxçıvanda olduqlarını və orada görülən geniş quruculuq işlərindən məmnunluqlarını ifadə etdilər. Akkan Suver Naxçıvanda Hüseyn Cavidin məqbərəsini ziyarətdən aldıqları təəssüratdan danışaraq dedi ki, Atatürkə və atanıza təsir edən ən böyük amil, bəlkə də, mədəniyyət amilidir. Mənə elə gəlir ki, Atatürk Tofiq Fikrətdən, atanız Hüseyn Caviddən mədəniyyətin tərəqqisi fikrini, hər halda, mənimsədilər.

İLHAM ƏLİYEV: Doğrudur. Cavid o vaxt, sovetlər dövründə, Stalinin dövründə həbs olunmuşdu. Onu Sibirə sürgün etmişdilər. Onu əsərlərinə görə, türkçü olduğuna görə həbs etmişdilər və orada da vəfat etmişdi. Heydər Əliyev hələ kommunist dövründə burada rəhbər olduğu zaman onun cənazəsini Sibirdən Azərbaycana gətirtdi. Bu, çox fövqəladə bir hadisə idi. Çünki Cavid rəsmi sovet təbliğatında antisovet, pantürkist yazıçı kimi tanınırdı. O, Sibirdə rəhmətə getmiş, orada da dəfn olunmuşdu. Onun qəbrini orada tapmaq, cənazəsini buraya gətirmək, özü də böyük təntənə ilə gətirmək, çox fövqəladə bir hadisə idi. O, Naxçıvanda dəfn olundu. Ancaq ondan sonra Heydər Əliyev Bakıdan Moskvaya Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsinə getdi. Ondan sonra gələn rəhbərlər buna önəm vermədilər. Heydər Əliyev yenidən Azərbaycana qayıdandan sonra Cavidin siz gördüyünüz məqbərəsini yaratdı. Çox möhtəşəm bir məqbərədir.

Çox şadam ki, siz də gördünüz ki, Naxçıvan çox sürətlə inkişaf edir. Heydər Əliyevin təşəbbüsü ilə orada yeni hava limanının təməli qoyuldu, 2004-cü ildə biz onun açılışını etdik. Yenə də Heydər Əliyevin təşəbbüsü ilə böyük su anbarı Vayxır su anbarı tikilməyə başladı. Biz onu keçən il açdıq. Naxçıvanda Heydər Əliyev adına ən müasir, böyük məktəb tikildi. İndi biz böyük xəstəxana tikirik. Azərbaycanın ən müasir xəstəxanası olacaq və orada dünyanın ən yüksək avadanlıqları da quraşdırılacaqdır. Naxçıvanın büdcəsinə çox böyük vəsait ayırdıq. Qısa müddət ərzində Naxçıvanın büdcəsi təxminən 200 milyon dollara çatdı.

Prezident İlham Əliyev Mərmərə Qrupunun üzvlərinə uğurlar arzuladı.

Görüşdən xatirə olaraq dövlətimizin başçısına hədiyyə təqdim olundu. Qonaqlar Prezident İlham Əliyevlə xatirə şəkli çəkdirdilər.

XİN RƏSMİSİNİN AÇIQLAMASI

Fransa Parlamentinin alt palatasının qondarma "Erməni soyqırımı"nın inkar edilməsinin Fransada qeyri-qanuni hesab olunması üzrə və bu qanuna dair səsverməni böyük təəccüb və narahatlıqla qarşıladıq.

Təəssüflər olsun ki, Ermənistan və onun diasporası sülh və sabitliyə töhfə vermək əvəzinə regiondakı vəziyyətdə çox destruktiv rol oynamaqda davam edir.

Tam anlayaraq ki, qarşıda bu təşəbbüs Senat tərəfindən də təsdiq olunmalıdır, biz Fransa Parlamentini bu məsələyə daha ehtiyatlı, qərəzsiz və balanslı yanaşmağa sövq edirik.

Fransa Hökumətinin bu qanunverici aktla razı olmadığını nəzərə alaraq biz ümidvarıq

ki, Fransa Senatı beynəlxalq ictimaiyyətin Avropanın bu strateji vacib regionunda təhlükəsizlik, sabitlik və qarşılıqlı etimad mühitinin yenidən qurulmasında elan etdiyi marağına tam uyğun olaraq, bu mənfi addımın qarşısını alacaq.

Bakı, 12 oktyabr 2006-cı il

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ÜMUMÇİN XALQ NÜMAYƏNDƏLƏRİ MƏCLİSİ DAİMİ KOMİTƏSİ SƏDRİNİN MÜAVİNİ SYU SZYALUNUN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 13-də Prezident sarayında Ümumçin Xalq Nümayəndələri Məclisi Daimi Komitəsi sədrinin müavini Syu Szyalunun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Dövlətimizin başçısı keçən il Çin Xalq Respublikasına səfərini məmnuniyyətlə xatırlayaraq, səfər zamanı keçirilmiş görüşlərin Azərbaycan ilə Çin arasında müxtəlif sahələrdə münasibətlərin inkişafına mühüm töhfə verdiyini qeyd etdi. Ölkələrimizin beynəlxalq təşkilatlar çərçivəsində uğurla əməkdaşlıq etdiyini vurğulayan Prezident İlham Əliyev Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar Çinin mövqeyini yüksək qiymətləndirdi. Dövlətimizin başçısı parlamentlərimiz arasındakı əlaqələrin əhəmiyyətinə toxunaraq, bu səfərin ölkələrimiz arasında mövcud olan dostluq münasibətlərini daha da möhkəmləndirəcəyinə əminliyini ifadə etdi.

Syu Szyalu Çin Xalq Respublikasının Sədri Hu Szintaonun, Ümumçin Xalq Nümayəndələri Məclisi Daimi Komitəsinin sədri və Çin Xalq Respublikası Baş nazirinin salamlarını Prezident İlham Əliyevə çatdırdı və Çin Xalq Respublikası Sədrinin məktubunu dövlətimizin başçısına təqdim etdi. O, ölkələrimiz arasındakı münasibətlərin müxtəlif sahələrdə uğurla inkişaf etdiyini vurğuladı. Çin ilə Azərbaycanın ikitərəfli münasibətlərdə və beynəlxalq aləmdə bir-birinə dəstək verdiyini qeyd edən Syu Szyalu əlaqələrimizin bundan sonra da inkişaf etdiriləcəyinə ümidvar olduğunu bildirdi.

Prezident İlham Əliyev Çin Xalq Respublikası rəhbərliyinin salamlarına görə minnətdarlığını bildirdi və onun da salamlarını Çinin rəhbərliyinə çatdırmağı xahiş etdi.

MİLLİ MƏCLİS SƏDRİNİN BAŞÇILIĞI İLƏ NÜMAYƏNDƏ HEYƏTİ GUAM PARLAMENT ASSAMBLEYASININ NÖVBƏTİ İCLASINDA İŞTİRAK ETMİŞDİR

Milli Məclisin sədri Oqtay Əsədovun başçılığı ilə parlament nümayəndə heyəti GUAM Parlament Assambleyasının növbəti III iclasında iştirak etmək üçün oktyabrın 14-15-də Kişinyovda səfərdə olmuşdur.

GUAM ölkələri Parlament Assambleyasının 3-cü iclası öz işinə oktyabrın 15-də başladı. Əvvəlcə GUAM Parlament Assambleyası bürosunun geniş iclası keçirildi. Büro iclasının gündəliyi təsdiq edildikdən sonra bir sıra təşkilati məsələlərə baxıldı. Sonra GUAM Parlament Assambleyasının 3-cü iclası öz işinə başladı. İclasda quruma üzv ölkələrin

parlament nümayəndə heyətlərindən əlavə Rumıniya və Litva parlamentlərinin sədr müavinləri, xarici ölkələrin Moldovada fəaliyyət göstərən diplomatik korpusunun nümayəndələri də iştirak edirdilər.

İclası giriş sözü ilə açan Moldova parlamentinin sədri Marian Lupu GUAM ölkələri Parlament Assambleyasına Moldovanın sədrliyinin artıq başa çatdığını, sədrliyin növbəti ölkəyə təhvil veriləcəyini bildirdi, GUAM-ın ötən dövrdəki fəaliyyətindən danışdı. İclasın iştirakçıları demokratiya, insan haqları və xüsusilə də parlament diplomatiyası sahəsində Assambleyanın gördüyü işləri yüksək qiymətləndirdilər.

Sonra iclasda Milli Məclisin sədri, Azərbaycan parlament nümayəndə heyətinin rəhbəri Oqtay Əsədov çıxış edərək, GUAM ölkələri Parlament Assambleyasının 3-cü iclasının keçirilməsində roluna və böyük təşkilatçılıq işlərinə görə Moldova tərəfinə təşəkkürünü çatdırdı. Azərbaycan parlamentinin sədri qeyd etdi ki, ölkəmiz iqtisadi, siyasi, mədəni və digər sahələrdə gündən-günə inkişaf etməkdədir. Ölkəmiz sürətli yüksəlişə nail olduqca onun beynəlxalq aləmdə nüfuzu da artır. İndi Azərbaycan dünyanın bir sıra beynəlxalq təşkilatlarına üzvdür və bu qurumlar çərçivəsində fəal fəaliyyət göstərir. Ölkəmiz GUAM təşkilatına xüsusi önəm verir və bu quruma daxil olan dövlətlərlə əlaqələrin inkişafında maraqlıdır. Bu məsələ Azərbaycanın xarici siyasətinin bir hissəsini təşkil edir.

Milli Məclisin sədri Oqtay Əsədov regional iqtisadi əlaqələr və təhlükəsizlik məsələlərini önə çəkdi. Qeyd etdi ki, regionda sabitlik məsələləri çox vacibdir. GUAM-a daxil olan ölkələr bu sahəyə daha ciddi fikir verməli və qarşılıqlı əməkdaşlığı gücləndirməlidirlər. Ərazi bütövlüyünün qorunmasında, terrorizmə və separatizmə qarşı mübarizədə birgə səyləri daha da artırmalıyıq. Bu və ya digər bir sıra vacib məsələlərə toxunan Milli Məclisin sədri Oqtay Əsədov GUAM ölkələri Parlament Assambleyasının 3-cü iclasının böyük əhəmiyyət daşıdığını söylədi, bu qurumun, eləcə də üzv ölkələrin qarşısında yeni perspektivlər açacağına inamını ifadə etdi.

GUAM Parlament Assambleyasının fəaliyyətini yüksək qiymətləndirən Gürcüstan parlamentinin sədri Nino Burcanadze qarşılıqlı əməkdaşlıqda böyük uğurlar əldə olunduğunu söylədi. Azərbaycan ilə hərtərəfli əməkdaşlığa böyük önəm verdiklərini deyən xanım Burcanadze, ötən il Gürcüstanın enerji sahəsində çətin məqamlarında dostluq köməyinə görə Azərbaycan dövlətinə və Prezident İlham Əliyevə dərin minnətdarlıq etdi, əsil tərəfdaş ölkə kimi Azərbaycanın nümunəvi bir dövlətə çevrildiyini dedi.

Sonra iclasda Ukrayna Ali Radası sədrinin birinci müavini Adam Martınyuk, Litva Seymi sədrinin birinci müavini Çeslovas Yursenas, Rumıniya parlamenti sədrinin birinci müavini Jeodor Meleşkanu və başqaları çıxış edərək GUAM ölkələri Parlament Assambleyasının bu quruma daxil olan ölkələrin bir-birinə yardım və əməkdaşlıq çərçivəsində fəaliyyətinə müsbət qiymət verdilər, təşkilata uğurlar arzuladılar.

İclasda quruma üzv dövlətlər arasında əməkdaşlığın inkişaf perspektivləri, dondurulmuş münaqişələrin həlli üçün beynəlxalq birliyin və quruma üzv dövlətlərin səylərinin artırılması, birgə layihələrin qanunvericilik bazasının təmin edilməsi üçün parlamentlərarası əməkdaşlığın inkişafı və digər məsələlər müzakirə olundu. Fasilə zamanı GUAM Parlament Assambleyasının ayrı-ayrı komitələrinin iclasları keçirildi. Bu iclaslarda qurumun konkret sahələrdəki fəaliyyəti müzakirə olundu, perspektivlər müəyyənləşdirildi.

Assambleyanın 3-cü iclasının fasilədən sonrakı davamında da həmin komitələrin sədrlərinin məruzələri dinlənildi, GUAM Parlament Assambleyasının 4-cü iclasının harada və nə vaxt keçirilməsi məsələsi müzakirə olundu. Qeyd edildi ki, müvafiq qaydaya uyğun olaraq Parlament Assambleyasına sədrlik Azərbaycan tərəfinə verilir. Bu münasibətlə Moldova Parlamentinin sədri Marian Lupu Milli Məclisin sədri Oqtay Əsədovu təbrik etdi. Sədr Oqtay Əsədov çıxış edərək təşəkkürünü bildirdi, dedi ki, Azərbaycan bütün beynəlxalq təşkilatlarda daim fəal mövqedən çıxış edir, GUAM Parlament Assambleyasına növbəti mərhələdə sədrlik vəzifəsini də layiqincə yerinə yetirəcək, bu təşkilatın daha da möhkəmlənməsinə və üzv dövlətlərin qarşılıqlı əməkdaşlığının genişlənməsinə çalışacaqdır.

İclasda qərara alındı ki, GUAM Parlament Assambleyasının 4-cü iclası 2007-ci ildə Bakı şəhərində keçirilsin.

Sonra iclasın yekun sənədi - rəsmi məlumat qəbul edildi. Bu sənəddə GUAM Parlament Assambleyasının növbəti mərhələdə fəaliyyətinin istiqamətləri əksini tapmışdır.

İclasdan sonra mətbuat konfransı keçirildi. Azərbaycanın, Gürcüstanın, Ukraynanın və Moldovanın parlament rəhbərləri kütləvi informasiya vasitələri nümayəndələrinin suallarını cavablandırdılar.

Bununla da GUAM ölkələri Parlament Assambleyasının Kişinyovda keçirilən iclası başa çatdı.

Həmin gün Moldovanın Prezidenti Vladimir Voronin GUAM ölkələri Parlament Assambleyasının 3-cü iclasında iştirak edən nümayəndə heyətlərinin rəhbərləri ilə görüşdü. Moldova Prezidentinin Milli Məclisin sədri Oqtay Əsədov ilə görüşündə ölkələrimiz arasındakı əlaqələrin inkişaf perspektivləri, parlamentlərarası münasibətlərin daha da dərinləşdirilməsi və qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ABŞ-IN ÜMUMDÜNYA TİCARƏT TƏŞKİLATI YANINDA SƏFİRİ PETER ALLGEİERİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 16-da Prezident sarayında ABŞ-ın Ümumdünya Ticarət Təşkilatı yanında səfiri Peter Allgeieri qəbul etmişdir.

Peter Allgeier Prezident İlham Əliyevin cari ilin aprel ayında Vaşinqtona səfərinin çox uğurla keçdiyini bildirdi, o vaxtdan ötən dövr ərzində ABŞ ilə Azərbaycan arasında ikitərəfli münasibətlərin bütün sahələrdə uğurla inkişaf etdiyini vurğuladı.

Dövlətimizin başçısı Vaşinqtona səfərini məmnuniyyətlə xatırlayaraq, o dövrdən bəri iki ölkə arasındakı əlaqələrin daha fəal xarakter aldığını qeyd etdi. Azərbaycan-ABŞ münasibətlərinin müxtəlif sahələrdə uğurla inkişaf etdiyini vurğulayan Prezident İlham Əliyev əlaqələrimizin bundan sonra da genişləndiriləcəyinə əmin olduğunu bildirdi.

AVRATLANTİKA STRUKTURLARINA İNTEQRASİYA AZƏRBAYCANIN XARİCİ SİYASƏT KURSUNDA MÜHÜM YER TUTUR

Xarici İşlər naziri Elmar Məmmədyarov oktyabrın 16-da NATO Parlament Assambleyasının Müdafiə və təhlükəsizlik komitəsinin Gələcək təhlükəsizlik və müdafiə imkanları alt komitəsi üzvlərindən ibarət nümayəndə heyəti ilə görüşmüşdür.

Komitənin sədri, nümayəndə heyətinin rəhbəri Vahid Ərdəm NATO parlamentarilərinin səfəri çərçivəsində keçirilmiş və keçiriləcək görüşlərə dair ətraflı məlumat vermişdir. O, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli və regionda təhlükəsizliyin təmin edilməsi məsələlərinin hər iki tərəf üçün maraqlı məsələ olduğunu vurğulamışdır. V.Ərdəm Azərbaycanın Avropaya inteqrasiya sahəsində atdığı addımları yüksək qiymətləndirərək, ölkəmizlə qarşılıqlı əməkdaşlığın vacib əhəmiyyət daşıdığını söyləmişdir.

Nazir E.Məmmədyarov Azərbaycanın Avropa və Avratlantika strukturlarına inteqrasiyası məsələsinin ölkəmizin xarici siyasət kursunda prioritet istiqamətlərdən biri olduğunu bildirmiş, əlaqələrin bu yöndə inkişafının dövlətimizin milli maraqlarına xidmət etdiyini vurğulamışdır.

Görüşdə Azərbaycanın sosial-iqtisadi inkişafından söz açan nazir E.Məmmədyarov, respublikamızın səyləri ilə həyata keçirilən irimiqyaslı iqtisadi layihələrin coğrafiyasının daha da genişləndirilməsinin region ölkələri üçün həyati əhəmiyyət daşıdığını söyləmişdir. Nazir demişdir ki, regionda daim təhlükə mənbəyi olan dondurulmuş münaqişələr burada davamlı təhlükəsizliyin təmin edilməsinə ciddi əngəllər törədir.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində aparılan danışıqlar prosesinə toxunan nazir E.Məmmədyarov, Ermənistanın etnik təmizləmə və işğalçılıq siyasətinin nəticələri haqqında qonaqlara ətraflı məlumat vermişdir. Nazir münaqişənin beynəlxalq hüququn norma və prinsipləri əsasında, Azərbaycanın Konstitusiyası və ərazi bütövlüyü çərçivəsində həll edilməsinin vacibliyini vurğulamışdır.

Görüşdə tərəflər qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da fikir mübadiləsi aparmışlar.

AZƏRBAYCAN RESPUBLİKASI İLƏ BELARUS RESPUBLİKASI ARASINDA İQTİSADİ ƏMƏKDAŞLIQ ÜZRƏ BİRGƏ HÖKUMƏTLƏRARASI KOMİSSİYANIN AZƏRBAYCAN RESPUBLİKASI TƏRƏFİNDƏN YENİ TƏRKİBİNİN TƏSDİQ EDİLMƏSİ BARƏDƏ AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

1. Azərbaycan Respublikası ilə Belarus Respublikası arasında iqtisadi əməkdaşlıq üzrə birgə hökumətlərarası komissiyanın Azərbaycan Respublikası tərəfindən tərkibi aşağıdakı heyətdə təsdiq edilsin:

Komissiyanın sədri:

Yaqub Eyyubov - Azərbaycan Respublikası Baş nazirinin birinci müavini

Komissiyanın üzvləri:

Natiq Əliyev - Azərbaycan Respublikasının sənaye və energetika naziri

Yavər Camalov - Azərbaycan Respublikasının müdafiə sənayesi naziri

Xələf Xələfov - Azərbaycan Respublikasının xarici işlər nazirinin müavini

Niyazi Səfərov - Azərbaycan Respublikasının iqtisadi inkişaf nazirinin müavini

Musa Pənahov - Azərbaycan Respublikasının nəqliyyat nazirinin müavini

İlham Quliyev - Azərbaycan Respublikasının kənd təsərrüfatı nazirinin müavini

İradə Hüseynova - Azərbaycan Respublikasının təhsil nazirinin müavini

Orucəli Hacıyev - Azərbaycan Respublikasının fövqəladə hallar nazirinin müavini

İsmayıl İsmayılov - Azərbaycan Respublikasının gənclər və idman nazirinin müavini

Əli Nağıyev - Azərbaycan Respublikasının Belarus Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri

Kamal İsmayılzadə - Azərbaycan Respublikası Nazirlər Kabineti Aparatının regionlararası iqtisadi əlaqələr şöbəsinin *müdiri (məsul katib)*

2. "Azərbaycan Respublikası ilə Belarus Respublikası arasında iqtisadi əməkdaşlıq üzrə birgə hökumətlərarası komissiyanın Azərbaycan Respublikası tərəfindən tərkibi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 25 mart tarixli 134 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004-cü il, №3, maddə 164) 1-ci bəndi qüvvədən düşmüş hesab edilsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Azərbaycan Respublikası ilə Belarus Respublikası arasında iqtisadi əməkdaşlıq üzrə birgə hökumətlərarası komissiyanın Azərbaycan Respublikası tərəfindən tərkibi barədə Belarus Respublikası tərəfinə müvafiq bildiriş göndərsin.

4. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

İlham Əliyev

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 16 oktyabr 2006-cı il

XARİCİ İŞLƏR NAZİRLİYİNİN DİPLOMATİK AKADEMİYASININ YARADILMASINDA BEYNƏLXALQ TƏCRÜBƏDƏN İSTİFADƏ OLUNUR

Oktyabrın 17-də xarici işlər nazirinin müavini, Xarici İşlər Nazirliyinin Diplomatik Akademiyasının rektoru Hafiz Paşayev akademiyanın yaradılması ilə bağlı görülən işlərə dair mətbuat konfransı keçirmişdir.

Hafiz Paşayev bildirmişdir ki, uzun müddət diplomatik fəaliyyətdən sonra təcrübəsini təhsil sahəsinə yönəltmək fikrinə düşmüş, Azərbaycan Prezidentinin 2006-cı il 14 avqust tarixli Sərəncamı ilə Xarici İşlər Nazirliyinin Diplomatik Akademiyasının rektoru təyin edilmişdir.

Diplomatik Akademiyanın yaradılması haqqında Sərəncamdan sonra ABŞ-da bu sahədə fəaliyyət göstərən mərkəzlərin fəaliyyəti ilə maraqlanmağa başladığını qeyd edən H.Paşayev demişdir ki, bu məqsədlə konseptual məsələləri əhatə edən tədqiqat xarakterli sənəd hazırlanmışdır. Akademiyanın yaradılmasına maliyyə dəstəyi almaq üçün sənəd ABŞ-ın Ticarət və İnkişaf Agentliyinə təqdim olunmuşdur.

Nazir müavini ilin sonunadək agentliyin yekun qərarını alacaqlarına ümid etdiyini diqqətə çatdırmışdır.

Akademiyanın birinci mərhələdə dövlət qurumlarının xarici əlaqələr sahəsində çalışan əməkdaşları üçün ixtisasartıma kursları təşkil etməklə məşğul olacağını bildirən rektor, artıq bu işə başlandığını, ABŞ-dan olan iki mütəxəssisin Xarici İşlər Nazirliyinin əməkdaşları üçün intensiv ingilis dili kursları keçdiklərini demişdir. Növbəti mərhələlərdə beynəlxalq münasibətlər, beynəlxalq hüquq, diplomatiya, beynəlxalq jurnalistika, beynəlxalq maliyyə əlaqələri, biznes, konfliktologiya və digər sahələr üzrə magistr təhsili, daha sonrakı mərhələdə isə müvafiq ixtisaslar üzrə bakalavr təhsili təşkil ediləcəkdir. Bu işlərə həmin sahələrdə tanınmış xarici mütəxəssislərin rəhbərlik etməsi nəzərdə tutulmuşdur. Bundan əlavə, tədris prosesinə yerli mütəxəssislər, o cümlədən xaricdə təhsil alanlar da cəlb olunacaqlar.

Rektor akademiya üçün Bakı ətrafında universitet şəhərciyi tipində kompleks tikdirməyin nəzərdə tutulduğunu demişdir. Bundan əlavə, akademiyanın elmi mərkəzinin, internet portalının və kitabxanasının yaradılması da diqqət mərkəzindədir.

Akademiyanın yaradılması işində bu sahədə dünyada tanınmış tədris ocaqlarının təcrübəsindən istifadə olunacağını qeyd edən Hafiz Paşayev, sentyabrın sonunda Vyanada 49 ölkənin Diplomatiya Akademiyasının rəhbərlərinin görüşündə iştirak etdiyini demişdir. Artıq Ukraynanın, İsveçin, Rusiyanın, Argentinanın diplomatiya akademiyalarının fəaliyyəti ilə tanış olmaq üçün müvafiq dəvətlər alınmışdır.

ABŞ-ın Con Hopkins Universitetinin rəhbərliyi ilə əldə edilmiş razılığa əsasən bu təhsil ocağının ekspertləri Azərbaycanın Diplomatik Akademiyasında yeni səfirliklərin təşkilinə, konsulluq xidmətinə, səfirliyin yerləşdiyi ölkənin hökuməti və yerli mətbuatla əlaqələrini necə qurmasına dair təlimlər keçəcəklər.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN BELARUSA RƏSMİ SƏFƏRİ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 17-də Belarus Respublikasına ikigünlük rəsmi səfərə gəlmişdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ BELARUS PREZİDENTİ ALEKSANDR LUKAŞENKONUN TƏKBƏTƏK GÖRÜŞÜ

Oktyabrın 17-də, Minskdə Belarus Prezidentinin iqamətgahında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenkonun təkbətək görüşü olmuşdur.

Görüşdə ölkələrimiz arasında ikitərəfli münasibətlərin uğurla inkişafı, iqtisadi əlaqələrin genişləndirilməsi üçün böyük potensialın olduğu vurğulandı.

Prezident Aleksandr Lukaşenko xalqımızın ümummilli lideri Heydər Əliyevin iki ölkə arasında əlaqələrin inkişafındakı xidmətlərini xatırladaraq, bu münasibətlərin indiyədək qorunub saxlandığını vurğuladı və dedi ki, rəsmi Minsk Azərbaycanla istənilən sahədə əməkdaşlıq etməyə hazırdır.

Prezident İlham Əliyev iki ölkə arasında iqtisadi əməkdaşlığın daha da gücləndirilməsi üçün mövcud imkanlardan səmərəli istifadə edilməsinin əhəmiyyətli olduğunu bildirdi.

Görüşdə qarşılıqlı maraq doğuran bir sıra digər məsələlər müzakirə olundu.

DÖVLƏT BAŞÇILARININ GENİŞ TƏRKİBDƏ GÖRÜŞÜ

Oktyabrın 17-də təkbətək görüşdən sonra Azərbaycan Prezidenti İlham Əliyevin və Belarus Prezidenti Aleksandr Lukaşenkonun nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü oldu.

Prezident ALEKSANDR LUKAŞENKO qardaş Azərbaycanın dövlət nümayəndə heyətini Belarus torpağında bir daha salamlayaraq dedi ki, bu səfər dövlətlərimiz müstəqillik əldə etdikdən sonra Azərbaycan dövləti başçısının Belarus Respublikasına ilk səfəridir. Bu gün bizim perspektiv istiqamətləri işğüzar şəraitdə müzakirə etməyə imkanımız var. Əminəm ki, yüksək səviyyədə dialoqun fəallaşdırılması Belarus-Azərbaycan münasibətlərinin genişlənməsinə təkan verəcəkdir. İki dövlətin dinamik inkişaf edən iqtisadiyyatları, böyük istehsal potensialı qarşılıqlı marağı şərtləndirir, geniş səpkili məsələlər üzrə daha fəal birgə iş aparmağı zərurətə çevirir.

Qeyd etmək xoşdur ki, son illər ölkələrimiz arasında əmtəə dövriyyəsi sürətlə artır. Bu, 2005-ci ildə təxminən 30 milyon dollar olmuş və 2004-cü ildəkinə nisbətən 85 faizdən çox artmışdır. Yaxşı dinamikadır, lakin bununla yanaşı, mütləq rəqəmlərlə götürdükdə əmtəə dövriyyəsi cüzidir. Halbuki bizim əmtəə dövriyyəmiz daha çox ola bilər. Əminəm ki, İlham Heydəroviçin Belarusa səfərindən sonra belə də olacaqdır.

Prezident Lukaşenko bildirdi ki, Belarusun Azərbaycana ixracı traktorlardan, yük avtomobillərindən, yol texnikasından, ağac emalı məhsulundan və bir çox digər məhsullardan ibarətdir. Azərbaycan isə ölkəmizə sənaye üçün böyük əhəmiyyəti olan pambıq lifi, tütün xammalı, habelə Belarusda istehsal edilməyən ərzaq məhsulları göndərir. Lakin biz əmtəə dövriyyəsini artırmaq, iki ölkənin təsərrüfat subyektləri arasında sabit əlaqələr yaratmaq, bu əlaqələrə uzunmüddətli xarakter vermək üçün heç də bütün imkanlardan istifadə etmirik. Yaxın vaxtlarda biz sənaye və energetika sahəsində iri müştərək layihələrin gerçəkləşdirilməsinə gəlib çıxmalıyıq.

Belarus Prezidenti vurğuladı ki, bizim münasibətlərimizdə qapalı mövzular yoxdur. Azərbaycana azacıq da olsa maraq göstərən nümayəndələrimizdən xahiş edərdim ki, oraya gedib, Azərbaycan tərəfinə əməkdaşlıq təklif etsinlər. Biz təkcə Azərbaycanda deyil, həmsərhəd ölkələrdə də öz bazarımızı tapacağıq. Azərbaycan rəhbərliyi bizi bu sahədə dəstəkləyəcəkdir. Üstəlik, Azərbaycan çox böyük maliyyə ehtiyatlarına malikdir və onları yolların, hava limanlarının tikintisinə, kənd təsərrüfatına, yeni müəssisələr yaradılmasına və köhnə müəssisələrin modernləşdirilməsinə yönəldir. Bizə Azərbaycanda tələbat ola bilər.

Mən hərbi-texniki əməkdaşlıq üzrə mütəxəssislərimizə təşəkkür etmək istəyirəm. Əgər hamı digər dövlətlərlə də işə bu cür yanaşsa, onda bizə həmişə tələbat olacaqdır. Azərbaycan Prezidenti texnikamıza şəxsən baxdı. Azərbaycana çox yüksək məsuliyyətlə və mədəniyyətlə getmək lazımdır ki, bizim haqqımızda yaxşı danışsınlar. İndi bu, biznesdə əsas şərtdir.

Prezident Lukaşenko daha sonra dedi ki, mən neft-qaz sahəsində ikitərəfli əməkdaşlığı çox perspektivli sanıram. Bu istiqamətdə niyyətimizi dəstəkləyən Azərbaycan Prezidentinə minnətdaram. Azərbaycanda iri neft və qaz yataqlarının, Belarusda isə müasir güclü neft-kimya kompleksinin olması elə bir təməldir ki, energetika sahəsində münasibətlərimiz onun əsasında qarşılıqlı surətdə faydalı şəkildə inkişaf edə bilər. Biz neftin, o cümlədən Xəzər neftinin ərazimizlə nəqlinin həcminin artırılmasında maraqlıyıq. Əgər bu, Azərbaycana lazım və faydalı olarsa, Xəzər neftinin Baltikyanı regiona və Polşaya tranziti üçün özümüzün bütün boru kəməri nəqliyyatının infrastrukturunu təqdim etməyə hazırıq. Bizim neft və qaz yataqlarının işlənilməsində müştərək layihələrin həyata keçirilməsi üçün də imkanımız var. Biz belə prinsipial dəstəyi alacağıq.

Müasir şəraitdə kooperasiyanın genişləndirilməsi və dövlətlərimizin malik olduğu potensial əsasında müştərək müəssisələr yaradılması əhəmiyyətlidir. Azərbaycan tərəfi Belarus traktorlarının, digər kənd təsərrüfatı texnikasının yığılması üçün müəssisə yaradılmasında çox maraqlıdır. Bu, Azərbaycana kənd təsərrüfatının inkişafı üçün çox gərəkdir. Buna görə də onu bu sahədə dəstəkləmək lazımdır. Üstəlik, biz nəinki Azərbaycan bazarından istifadə edə, həm də qonşularla ticarət edə bilərik. Bu gün Azərbaycanın kənd təsərrüfatı büdcə vasitəsilə dəstəklənir. Düşünürəm ki, bu pulları orada qazanmaq lazımdır. Bizim bundan ötrü bütün imkanlarımız var. Səmərəli münasibətləri inkişaf etdirmək üçün bizdə zəruri olan hər şey var.

Beynəlxalq məsələlərin əksəriyyətində mövqelərimiz oxşardır. Ölkələrimiz güclü və çiçəklənən dövlət quruculuğu xətti aparır. Əminəm ki, imzalanmağa təklif edilən Belarus ilə Azərbaycan arasında 2015-ci ilədək sosial-iqtisadi əməkdaşlıq haqqında müqavilə və Belarus-Azərbaycan sazişləri yaxın perspektiv üçün qarşılıqlı fəaliyyətimizin keyfiyyətcə yeni səviyyəsinə nail olmağa, onun uzunmüddətli xarakter daşımasını təmin etməyə imkan verəcəkdir.

İlham Heydəroviç, MDB-nin tədbirinin baş tutmamasına baxmayaraq, buraya gəldiyinizə görə Sizə ürəkdən təşəkkür etmək istəyirəm. Biz bunu yüksək qiymətləndirir və Sizin bu səfərə görə təəssüflənməməyiniz üçün hər şeyi edəcəyik.

Azərbaycan Prezidenti İLHAM ƏLİYEV rəsmi səfər zamanı ona və Azərbaycan nümayəndə heyətinə göstərilmiş qonaqpərvərliyə və mehriban qəbula görə minnətdarlığını bildirərək dedi ki, Siz tamamilə haqlısınız, Belarusa səfərim və MDB-nin iclası bir vaxta təsadüf etdi. Lakin bu hadisələrin əhəmiyyəti baxımından, əlbəttə, ölkənizə rəsmi səfər digər hadisələrdən üstündür. Odur ki, MDB-nin iclasının təxirə salındığı məlum olduqda, rəsmi səfərin başqa vaxta keçirilməsi barədə təbii ki, heç bir söhbət gedə bilməzdi.

Biz ölkənizdə baş verən hadisələri çox böyük maraqla izləyirik, uğurlarınıza çox sevinirik. Düşünürəm ki, artıq bu gün bütün istiqamətlərdə əməkdaşlığı gücləndirmək üçün çox yaxşı zəmin var. Bunun üçün qarşılıqlı istək var. Praktik baxımdan artıq müəyyən niyyətlər var. İki il əvvəl yaradılan hökumətlərarası komissiya fəal işləyir, müxtəlif nazirliklər və idarələr, istehsal müəssisələri səviyyəsində əlaqələr də fəaldır. İqtisadi sahədə, Belarusda istehsal edilən malların alınması sahəsində fəal əməkdaşlığımızın necə başlanmasından çox məmnunuq. Məhz bu qarşılıqlı etimad və tam qarşılıqlı anlaşma gələcəkdə münasibətlərimizin uğurlu inkişafını bəri başdan müəyyənləşdirir.

Prezident İlham Əliyev vurğuladı ki, iqtisadiyyatlarımız bir-birini çox uğurla tamamlaya bilər. Bu gün Belarusda istehsal edilən məhsullara Azərbaycanda tələbat var. Azərbaycanda istehsal edilən məhsullar isə Sizin ölkəniz üçün maraq doğurur. Ona görə də energetika, neft-qaz sahəsində, müştərək müəssisələr, sənaye müəssisələri, o cümlədən kənd təsərrüfatında, müdafiə sənayesində müəssisələr yaradılması sahəsində əməkdaşlıq - bütün bu istiqamətlər çox praktik əhəmiyyətə malikdir. Fəal iqtisadi əməkdaşlığımızın son dövrü göstərir ki, qərarlarımız dərhal həyata keçirilir. Biz əməkdaşlıq üçün hansısa bir istiqaməti müəyyənləşdirən kimi, hər iki tərəfdən müvafiq addımlar atılır, yerlərdə rəhbər işçilərə tapşırıq verilir və icraçılar öz vəzifələrinə məsuliyyətlə yanaşırlar. Düşünürəm ki, bu, ölkələrimiz arasında həqiqi tərəfdaşlıq münasibətlərinin necə qurulmalı olduğuna çox yaxşı nümunədir.

Azərbaycan dövlətinin başçısı bildirdi ki, iqtisadiyyatlarımız çox dinamik inkişaf edir. İqtisadi potensial, sənaye potensialı artır və təbii ki, bu, daha fəal iqtisadi əməkdaşlıq üçün zəmin yaradır. Mən əminəm və Sizinlə tam razıyam ki, mövcud əmtəə dövriyyəsini göstərən mütləq rəqəmlər bizi qane edə bilməz. Əminəm ki, səfərdən sonra biz əmtəə dövriyyəsinin xeyli artacağını görəcəyik. İmzalanmağa təklif olunan sənədlər də münasibətlərimiz üçün yaxşı hüquqi baza yaradacaq, gələcək inkişaf perspektivlərini müəyyən edəcəkdir.

Prezident İlham Əliyev dedi ki, biz Belarus ilə Azərbaycan arasında hərtərəfli əməkdaşlıqda maraqlıyıq və ümidvarıq ki, bu əməkdaşlıq qarşılıqlı surətdə faydalı olacaqdır və o, artıq məhz belədir. Əməkdaşlığın nəticələri bizi qane edir və çox geniş qarşılıqlı fəaliyyət üçün perspektivlər açır.

Bu gün biz Sizinlə çox geniş səpkili məsələləri müzakirə etdik və hətta müzakirənin gedişində hərə özü üçün yeni-yeni sahələr açır. Elə sahələr ki, burada biz fəal əməkdaşlıq edə bilərik. Bu, çox sevindirir və ümidvaram ki, nəzərdə tutduğumuz hər şey həyata keçiriləcəkdir. Biz öz öhdəliklərimizin yerinə yetirilməsinə çox məsuliyyətlə yanaşırıq.

Dövlətimizin başçısı daha sonra dedi ki, biz istəyirik, ölkələrimiz arasında əməkdaşlıq uzunmüddətli əsasda olsun, habelə bu əməkdaşlığa cəlb edilmiş bütün qurumlar öz öhdəliklərinin yerinə yetirilməsinə çox məsuliyyətlə yanaşsınlar. Qarşılıqlı etimad hər bir əməkdaşlığın əsasıdır. Bu gün ölkələrimiz arasında qarşılıqlı etimad var. Belarusun və Azərbaycanın ölkələrimizdə səfirliklərinin açılması da ikitərəfli əlaqələrə necə əhəmiyyət verdiyimizi göstərir, habelə əməkdaşlığın yeni sahələrini müəyyənləşdirmək üçün səmərəli mexanizmdir. Səfirliklər, hökumətlərarası komissiya, nümayəndə heyətlərinin qarşılıqı səfərləri, - belə səfərlər olmuşdur və ümidvaram ki, gələcəkdə də olacaq, - əməkdaşlığımızın gələcək potensialını məhz bunlar irəlicədən müəyyən edəcəkdir. Mən bundan çox məmnunam və bir daha demək istəyirəm ki, səfərə dəvətə görə minnətdaram.

Getdikcə daha fəal olan dialoqumuzu davam etdirməkdən ötrü Sizi bir daha, - artıq geniş tərkibdə görüşümüzdə, - özünüz üçün əlverişli vaxtda Azərbaycana rəsmi səfərə dəvət etmək istəyirəm. Bu, ölkələrimizin və xalqlarımızın mənafelərinə uyğundur.

SƏNƏDLƏRİN İMZALANMASI

Oktyabrın 17-də dövlət başçılarının geniş tərkibdə görüşü başa çatdıqdan sonra sənədlərin imzalanma mərasimi olmuşdur.

Əvvəlcə Azərbaycan Prezidenti İlham Əliyev və Belarus Prezidenti Aleksandr Lukaşenko "Azərbaycan Respublikası ilə Belarus Respublikası arasında 2015-ci ilə qədər sosial-iqtisadi əməkdaşlıq haqqında müqavilə"ni imzaladılar.

Azərbaycan Respublikası Hökuməti ilə Belarus Respublikası Hökuməti arasında "Kombinə edilmiş yükdaşımalar haqqında saziş"i Azərbaycan tərəfindən xarici işlər naziri Elmar Məmmədyarov və Belarus tərəfindən nəqliyyat və kommunikasiyalar naziri Vladimir Sosnovski imzaladılar.

Azərbaycan Respublikasının Nəqliyyat Nazirliyi ilə Belarus Respublikasının Nəqliyyat və Kommunikasiyalar Nazirliyi arasında "Nəqliyyat sahəsində əməkdaşlıq haqqında memorandum"u Azərbaycan tərəfindən xarici işlər naziri Elmar Məmmədyarov və Belarus tərəfindən nəqliyyat və kommunikasiyalar naziri Vladimir Sosnovski imzaladılar.

Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi ilə Belarus Respublikasının İdman və Turizm Nazirliyi arasında "Bədən tərbiyəsi və idman sahəsində əməkdaşlıq haqqında saziş"i Azərbaycan tərəfindən xarici işlər naziri Elmar Məmmədyarov və Belarus tərəfindən idman və turizm naziri Aleksandr Qriqorov imzaladılar.

Azərbaycan Respublikasının Təhsil Nazirliyi ilə Belarus Respublikasının Təhsil Nazirliyi arasında "Təhsil sahəsində əməkdaşlıq haqqında saziş"i Azərbaycan tərəfindən xarici işlər naziri Elmar Məmmədyarov və Belarus tərəfindən təhsil naziri Aleksandr Radkov imzaladılar.

Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi ilə Belarus Respublikasının Fövqəladə Hallar Nazirliyi arasında "Əməkdaşlıq haqqında saziş"i Azərbaycan tərəfindən fövqəladə hallar naziri Kəmaləddin Heydərov və Belarus tərəfindən fövqəladə hallar naziri Ənvər Bariyev imzaladılar.

Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyi ilə Belarus Respublikasının İqtisadiyyat Nazirliyi arasında "Kiçik sahibkarlığın inkişafı sahəsində əməkdaşlıq haqqında saziş"i Azərbaycan tərəfindən xarici işlər naziri Elmar Məmmədyarov və Belarus tərəfindən iqtisadiyyat naziri Nikolay Zayçenko imzaladılar.

Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi ilə Belarus Respublikasının Kənd Təsərrüfatı və Ərzaq Nazirliyi arasında "Kənd Təsərrüfatı kompleksi sahəsində iqtisadi və elmi-texniki əməkdaşlıq haqqında saziş"i Azərbaycan tərəfindən kənd təsərrüfatı naziri İsmət Abasov və Belarus tərəfindən kənd təsərrüfatı və ərzaq naziri Leonid Rusak imzaladılar.

"Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyəti ilə Belarus Milli Dövlət Teleradio Şirkəti arasında "Əməkdaşlıq haqqında saziş"i Azərbaycan tərəfindən "Azərbaycan Televiziya və Radio Verilişləri" QSC-nin sədri Arif Alışanov və Belarus tərəfindən Belarus Milli Dövlət Teleradio Şirkətinin sədri Aleksandr Zinovski imzaladılar.

AZƏRBAYCAN RESPUBLİKASI GƏNCLƏR VƏ İDMAN NAZİRLİYİ VƏ BELARUS RESPUBLİKASI İDMAN VƏ TURİZM NAZİRLİYİ ARASINDA BƏDƏN TƏRBİYƏSİ VƏ İDMAN SAHƏSİNDƏ ƏMƏKDAŞLIQ HAQQINDA SAZİŞ

17 oktyabr 2006-cı il

Bundan sonra "Tərəflər" adlandırılacaq, Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyi və Belarus Respublikası İdman və Turizm Nazirliyi, hər iki ölkənin xalqları arasında dostluq əlaqələrinin inkişafı və möhkəmləndirilməsi üçün bədən tərbiyəsi və idman sahəsində əməkdaşlığın mühüm və vacib elementlərdən biri olduğunu nəzərə alaraq, aşağıdakılar barəsində razılığa gəldilər:

MADDƏ 1

Tərəflər, beynəlxalq idman əməkdaşlığını inkişaf etdirmək və möhkəmləndirmək məqsədi ilə öz fəaliyyətlərini təcrübə və informasiya mübadiləsi üçün keçiriləcək görüş və məsləhətləşmələr yolu ilə koordinasiya edəcəklər.

Tərəflər idman əlaqələrinin möhkəmləndirilməsi məqsədi ilə hər iki ölkədə keçirilən beynəlxalq idman tədbirlərində və yarışlarında Azərbaycan və Belarus idmançılarının, məşqçilərin, idman hərəkatı təşkilatçılarının iştirakına kömək göstərəcəklər.

Tərəflər idmançıların hazırlığının və idman ustalıqlarının səviyyəsini artıraraq məqsədi ilə müxtəlif idman növləri üzrə yığma və klub komandalarının hər iki Tərəfin dövlətinin idman bazalarında təlim məşq toplanışlarının və birgə məşqlərinin keçirilməsini təşviq edəcəklər.

MADDƏ 2

Tərəflər kütləvi idman tədbirlərinin təşkili üzrə təcrübə mübadiləsinə, əhalinin bədən tərbiyəsi ilə müntəzəm məşğul olmağa cəlb edilməsinə dəstək verəcəklər.

Tərəflər əhalinin bədən tərbiyəsi və idman vasitəsi ilə sağlamlığı üzrə elmi-metodik məlumatları mübadilə edəcəklər.

MADDƏ 3

Tərəflər məşqçilərin və elmi-pedaqoji kadrların hazırlığı, yenidən hazırlığı və onların mübadiləsi sahəsində əməkdaşlıq edəcəklər.

Tərəflər hər iki dövlət tərəfindən təşkil edilən idmanla bağlı elmi konqreslər, simpozium və seminarlarda Azərbaycan və Belarus alimlərinin və mütəxəssislərinin iştirakına kömək edəcəklər.

Tərəflər yüksək səviyyəli idmançıların hazırlanması üçün elmi işlərin, yüksək idman nailiyyətləri sahəsində sonuncu nəticələrin, idman diaqnostikası, tibbi-bioloji təminat metodları və müasir elmi avadanlığın istifadəsi barədə məlumatların mübadiləsinə kömək edəcəklər.

MADDƏ 4

Tərəflər ədalətli oyun prinsiplərinə sədaqətlərini təsdiq edirlər və yarışlarda və idman-

çıların hazırlığı zamanı qadağan olunmuş vasitə və metodların istifadəsi ilə mübarizədə birgə fəaliyyət göstərəcəklər.

MADDƏ 5

Tərəflər idman qurğularının tikintisi və istismarı və idman avadanlıqlarının istehsalı sahələrində təcrübə mübadiləsi aparacaqlar.

MADDƏ 6

Tərəflər hər iki dövlətdə idmanın inkişafı məqsədi ilə idman növləri üzrə federasiyalar, olimpiya hazırlıq mərkəzləri, idman ixtisaslı elm və tədris ocaqları arasında birbaşa əlaqələr qurulmasını dəstəkləyəcəklər.

Tərəflər müəyyən edir ki, bu Sazişin müddəalarında öz əksini tapmış bədən tərbiyəsi və idman sahələrindəki əməkdaşlığın formaları qarşılıqlı hörmət, bərabərlik, Tərəflərin digər beynəlxalq sazişlərdən irəli gələn hüquq və öhdəliklərini azaltmama şəraitində həyata keçiriləcəkdir. Sazişin həyata keçirilməsinin formasını, proqrammı və maliyyə şərtlərini Tərəflər hər bir konkret hal üçün məsləhətləşmələr yolu ilə müəyyən edəcəklər.

MADDƏ 7

Bu Saziş imzalandığı gündən qüvvədədir və 4 (dörd) il müddətinə qüvvədə olacaqdır. Tərəflərdən hər hansı biri onun qüvvəsini ləğv etmək niyyəti barədə bu müddətin bitməsinə altı ay qalmış yazılı olaraq diplomatik kanallarla digər Tərəfə bildirməzsə, Sazişin qüvvəsi avtomatik olaraq növbəti dörd illik müddətə uzadılacaqdır.

Bu Sazişin qüvvəsinin ləğv edilməsi, Tərəflər digər razılıq olmadığı təqdirdə, hazırkı Sazişin qüvvədə olduğu müddətdə başlanılan layihə və proqramlara təsir etmir.

Minsk şəhərində 17 oktyabr 2006-cı il tarixində iki əsl nüsxədə Azərbaycan və rus dillərində imzalanmışdır, hər iki mətn eyni qüvvəyə malikdir.

AZƏRBAYCAN RESPUBLİKASININ XARİCİ İŞLƏR NAZİRİ	BELARUS RESPUBLİKASININ İDMAN VƏ TURİZM NAZİRİ
ELMAR MƏMMƏDYAROV	*ALEKSANDR QRİQOROV*

AZƏRBAYCAN RESPUBLİKASININ TƏHSİL NAZİRLİYİ İLƏ BELARUS RESPUBLİKASININ TƏHSİL NAZİRLİYİ ARASINDA TƏHSİL SAHƏSİNDƏ ƏMƏKDAŞLIQ HAQQINDA SAZİŞ

17 oktyabr 2006-cı il

Bundan sonra "Tərəflər" adlanacaq Azərbaycan Respublikasının Təhsil Nazirliyi ilə Belarus Respublikasının Təhsil Nazirliyi,

Tərəflərin dövlətlərinin təhsil sistemlərinin hüquq bərabərliyi, müstəqillik və bütövlük prinsipləri əsasında faydalı əməkdaşlığın möhkəmləndirilməsinə və inkişaf etdirilməsinə qarşılıqlı səylərini bildirərək,

maarifçilik siyasəti sahəsində qarşılıqlı münasibətlərdə ümumbəşəri dəyərlərin, insan hüquqları haqqında Ümumi Bəyannamənin, Uşaq hüquqları haqqında konvensiyanın prinsiplərinin, beynəlxalq hüquq normalarının şərtsiz üstünlüklərini qəbul edərək və onları əməli həyata keçirilməsinə çalışaraq,

təhsil sahəsində elmiliyin və dünyəviliyin, humanizm və demokratiyanın təmin olunmasına, hər iki dövlətdə yaşayan xalqların, təhsil alanların vətəndaşlığından, etnik mənsubiyyətindən asılı olmayaraq, mədəni-təhsil tələbatının ödənilməsinə xüsusi əhəmiyyət verərək,

aşağıdakılar haqqında razılığa gəldilər:

MADDƏ 1

Tərəflər ümumi təhsil, texniki-peşə, orta ixtisas və ali, eləcə də diplomdan sonrakı təhsil, həmçinin elmi tədqiqatların aparılması sahəsində əməkdaşlığı inkişaf etdirəcəklər.

MADDƏ 2

Sazişin məqsədi aşağıdakılardır:

- uyğun sahələrin ali və orta ixtisas təhsili məktəbləri, eləcə də ixtisasartırma təhsil müəssisələri və elmi təşkilatlar arasında birbaşa əlaqələrin bərqərar olunması və onların qarşılıqlı faydalı əməkdaşlığı üçün lazımi şəraitin yaradılması;
- qarşılıqlı maraq kəsb edən mövzular üzrə birgə elmi tədqiqatların aparılması, tədris-metodiki ədəbiyyatın tərtib edilməsi;
- ali və orta ixtisas təhsili məktəblərində, o cümlədən ixtisasartırma təhsili müəssisələrində mühazirələrin oxunması üçün uzun və qısamüddətli əsaslarla elmi və müəllim kadrlarının mübadiləsi.

MADDƏ 3

Tərəflər aşağıdakılara səy göstərəcəklər:

- təhsil və elmi məsələlər üzrə beynəlxalq təşkilatlarla əməkdaşlığın inkişaf etdirilməsində bir-birinə köməklik göstərilməsi;
- qarşılıqlı maraq kəsb edən sahələr üzrə mütəxəssislərin hazırlanması üçün Tərəflərin qarşılıqlı bərabərlik əsasında ali və orta ixtisas məktəblərində yerlərin ayrılması;
- hər iki Tərəfin alimlərinin elmi əsərlərinin ali məktəblərin elmi məcmuələrinin dövri mətbuatında dərc olunmasına köməklik göstərilməsi;
- Tərəflərin milli dillərinin öyrənilməsi üzrə xüsusi kursların təşkil olunması;
- dərslik və dərs vəsaitləri daxil olmaqla ədəbiyyat mübadiləsi;
- ümumtəhsil məktəbləri müəllimlərinin ixtisasartırması və təkmilləşdirilməsi sahəsində qarşılıqlı əməkdaşlıq.

Tərəflər Belarus Respublikasında yaşayan milliyyətcə azərbaycanlı olan uşaqlara və Azərbaycan Respublikasında yaşayan milliyyətcə belarus olan uşaqlara ana dillərində təhsil almaq, öz xalqlarının mədəniyyəti, tarixi və adət-ənənələri ilə tanış olmaq üçün əlverişli şərait yaradacaqlar.

MADDƏ 4

Tərəflər Azərbaycan Respublikası və Belarus Respublikasının ali təhsil müəssisələri arasında birbaşa əməkdaşlığın inkişafına, həmçinin hər iki ölkənin ali təhsil və müvafiq elmi-tədqiqat müəssisələri ilə əməkdaşlığın qurulmasına, təhsil sahəsində beynəlxalq proqram və layihələr çərçivəsində əməkdaşlıq aparılmasına, ali məktəb alimlərinin əsərlərinin qarşılıqlı olaraq öz elmi məcmuələrində çap olunmasına şərait yaradırlar.

MADDƏ 5

Tərəflər kontrakt əsasında digər Tərəfin vətəndaşlarına öz təhsil müəssisələrinə bərabər səviyyədə qəbul olunmağı təmin edirlər.

MADDƏ 6

Tərəflər dünya standartlarına istiqamətləndirilmiş vahid tələbatı təmin etmək məqsədilə təhsil müəssisələri üzrə normativ-hüquqi sənədlərin mübadiləsini həyata keçirir, təhsilin dövlət standartlarına dair qanunvericilik və digər normativ aktların, elmi-pedaqoji tədqiqatlar haqqında məlumatların alınmasına və mübadiləsinə, təhsil problemləri üzrə birgə elmi proqramların işlənilməsin köməklik göstərirlər.

MADDƏ 7

Tərəflər öz dövlətlərinin ərazilərində adekvat şəkildə mövcud olan ehtiyaclara uyğun olaraq digər tərəfin dövlətinin dilində ümumi təhsil müəssisələrinin, o cümlədən məktəblərin, siniflərin, qrup və dərnəklərin açılmasına yardım edəcək, onlara dövlət təşkilati-pedaqoji və tədris-metodiki köməklik göstərəcəklər.

MADDƏ 8

Tərəflər təhsil sənədlərinin qarşılıqlı tanınması haqqında müqavilənin imzalanması məsələsinə baxacaqlar.

MADDƏ 9

Tərəflər humanitar sahələrdə birgə sosioloji tədqiqatların aparılması, şagirdlərin və müəllimlərin birgə əməyinin və istirahətinin təşkilinə köməklik göstərilməsi və idman yarışlarının təşkili sahəsində əməkdaşlıq edəcəklər.

MADDƏ 10

Təhsil sisteminin inkişafı və təkmilləşdirilməsi, təhsili idarəetmə kadrlarının hazırlanması, müəllimlərin attestasiyası məsələlərinin öyrənilməsi və qabaqcıl təcrübə mübadiləsinin aparılması məqsədilə Tərəflər nazirlik, təhsili idarəetmə orqanları və tədris müəssisələri işçiləri səviyyəsində nümayəndə heyətlərinin qarşılıqlı mübadiləsini aparır, habelə birgə nəzəri, elmi-praktik konfranslar, seminarlar, müşavirələr və digər tədbirlər keçirəcəklər.

MADDƏ 11

Bu Sazişin müddəalarından irəli gələn konkret tədbirlər, onların həyata keçirilməsi tarixləri və şərtləri hər il tərtib olunan Protokollarla müəyyən olunur.

Bu Sazişin müddəalarının həyata keçirilməsi ilə əlaqədar Tərəflər arasında əlaqələri və

qarşılıqlı münasibətləri tənzimləmək məqsədilə İşçi qrupu təşkil olunur. İşçi qrup tərəflərdən birinin xahişi ilə ildə bir dəfə Bakıda və Minskdə görüşəcəkdir.

İşçi qrupuna hər bir Tərəfdən nazir müavini başçılıq edəcəkdir.

MADDƏ 12

Bu Saziş imzalandığı gündən qüvvəyə minir.

Bu Saziş 5 (beş) il müddətinə bağlanır və Tərəflərdən biri yuxanda göstərilə müddətin bitməsinə ən azı 6 (altı) ay qalmış digər tərəfi onun qüvvəsini ləğv etmək niyyəti barədə xəbərdar etməzsə, bu Saziş avtomatik olaraq növbəti 5 (beş) illik müddətlərə uzadılır.

Bu Sazişə Tərəflərin qarşılıqlı razılığı əsasında bu Sazişdə nəzərdə tutulmuş qaydada qüvvəyə minən və onun ayrılmaz hissəsi olan ayrıca protokollarla tərtib olunan dəyişiklik və əlavələr edilə bilər.

Bu Saziş Minsk şəhərində 17 oktyabr 2006-cı il tarixində iki əsl nüsxədə hər biri Azərbaycan və rus dillərində imzalanmışdır, bütün mətnlər bərabər autentikdir.

Bu Sazişin müddəalarının təfsirində fikir ayrılığı yarandığı təqdirdə, rus dilindəki mətndən istifadə ediləcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASININ XARİCİ İŞLƏR NAZİRİ	BELARUS RESPUBLİKASININ TƏHSİL NAZİRİ
ELMAR MƏMMƏDYAROV	*ALEKSANDR RADKOV*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV MİNSK AVTOMOBİL ZAVODUNDA OLMUŞDUR

Oktyabrın 17-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Minsk avtomobil zavodunda olmuşdur.

Azərbaycan rəhbərini burada Belarus Respublikasının sənaye naziri Anatoli Rusetski ehtiramla qarşıladı. Dövlətimizin başçısına gül dəstəsi və duz-çörək təqdim olundu.

Bu zavod 1944-cü ildə, Minsk şəhəri alman faşistlərindən azad olunduqdan sonra tikilmiş, 1947-ci ildə istifadəyə verilmişdir. Hazırda zavodda 27 500 işçi çalışır və gün ərzində 90 avtomobil istehsal olunur. MAZ-ın məhsulları Azərbaycan bazarında da məşhurdur, 2004-cü ildən burada rəsmi dileri fəaliyyət göstərir.

Dövlətimizin başçısı hazırda 300 növ məhsul buraxan zavodun yük avtomobillərinə, mikroavtobuslarına, avtokranlara, digər texnikalara baxdı, ayrı-ayrı istehsal sahələri və sexləri ilə tanış oldu, zavodun xatirə kitabına ürək sözlərini yazdı:

"Belarusun iqtisadi və sənaye potensialı sürətlə inkişaf edir. Sənaye məhsullarının nümunələri ilə tanış olarkən, biz onların yüksək keyfiyyətinin və texnoloji nailiyyətlərin olması qənaətinə gəldik.

MAZ sənaye müəssisələri sırasında layiqli yer tutur və xaricdə zavodun məhsuluna tələbat böyükdür.

Zavodun işçilərinə yeni uğurlar və Belarusun dost xalqına tərəqqi arzulayıram.

İlham Əliyev

Azərbaycan Respublikasının Prezidenti

17.10.2006-cı il".

Daha sonra Prezident İlham Əliyev zavodun buraxdığı avtobuslara mindi, onların müasir standartlara uyğun istehsal olunduğunu bildirdi.

PREZİDENT İLHAM ƏLİYEV BELARUS DÖVLƏT HƏRBİ SƏNAYE KOMİTƏSİNDƏ OLMUŞDUR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 17-də Belarus Respublikasının Dövlət Hərbi Sənaye Komitəsinə gəlmişdir.

Burada dövlətimizin başçısını Komitənin sədri Nikolay Azamatov böyük hörmət və ehtiramla qarşıladı.

Sonra Azərbaycan Prezidenti İlham Əliyev ilə Nikolay Azamatov arasında görüş keçirildi.

Dövlətimizin başçısı sonra Hərbi Sənaye Komitəsinin nəzdində fəaliyyət göstərən "Aka" elm-istehsalat birliyi ilə tanış oldu.

AZƏRBAYCAN PREZİDENTİNİN ŞƏRƏFİNƏ

Oktyabrın 17-də Belarus Respublikası Prezidentinin "Pronze" iqamətgahında Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenkonun adından Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin şərəfinə rəsmi qəbul təşkil olunmuşdur.

Dövlət başçıları qəbulda nitq söylədilər.

BELARUS PREZİDENTİ ALEKSANDR LUKAŞENKONUN NİTQİ

-Hörmətli yoldaşlar!

Bugünkü yüksək səviyyədə görüşün yekunları Belarusla Azərbaycan Respublikası arasında münasibətlərin böyük potensialının olduğunu bir daha əyani şəkildə təsdiqləyir. Bir sıra mühüm razılaşmalar əldə olundu, ikitərəfli əməkdaşlığın gələcək inkişafının konkret istiqamətləri müəyyən edildi. Əsas sənədin - 2015-ci ilədək sosial-iqtisadi əməkdaşlıq haqqında müqavilənin, habelə müxtəlif fəaliyyət sahələrinə dair sazişlərin imzalanması ölkələrimizin qarşılıqlı əlaqələri üçün geniş imkanlar açır. Belarusla Azərbaycan arasında əməkdaşlığın hərtərəfli, sistemli xarakter alması üçün çox iş görülmüşdür. Sizinlə birlikdə gələcək üçün vəzifəmiz nəzərdə tutulanların hamısını həyata keçirməkdən ibarətdir.

Özünün əməksevərliyi, qonaqpərvərliyi və çox zəngin mədəni ənənələri ilə məşhur olan Azərbaycan xalqına Belarus həmişə rəğbət bəsləyir. İndi ölkələrimizin hər biri müstəqil sosial-iqtisadi inkişafın, dövlətçiliyi möhkəmlətməyin, dünya xalqlarının böyük ailəsində layiqli yer tutmağın çətin yolu ilə gedir. Sosial sabitlik, sadə insanlara əsil

qayğı, dövlətin həyati əhəmiyyətli mənafelərinin başa düşülməsi, onları beynəlxalq aləmə çıxarmaq əzmi - bunlar ölkələrimizin siyasətinin əsaslandığı sarsılmaz prinsiplərdir. Əminəm ki, bütün səviyyələrdə Belarus-Azərbaycan münasibətlərinin dostluq, mehriban qonşuluq xarakteri ikitərəfli əməkdaşlığın inkişafından möhkəm təməl yaradacaq, xalqlarımız üçün yaxşı perspektivlər açacaqdır.

Bu gün biz sadəcə dost, qardaş dövlətin rəhbərini deyil, gözəl, ağıllı, uzaqgörən, bacarıqlı insanı və ümidvaram ki, onun başçılıq etdiyi eynilə güclü, sivilizasiyalı, savadlı nümayəndə heyətini qəbul edirik.

Hörmətli İlham Heydər oğlu!

Mən böyük məmnuniyyətlə bu badəni Sizin ölkə qarşısında qoyduğunuz planların həyata keçməsi şərəfinə qaldırmağı təklif edirəm. Bu, böyük, lakin ən real planlardır. Mən Sizə cansağlığı diləmək istəyirəm, arzum budur ki, həmişə bax beləcə, bugünkü kimi olasınız. Onda xalq Sizi məmnunluqla dəstəkləyəcəkdir. Əgər dövlətin daxilində xalqın səni dəstəkləyirsə, bu, bütün problemlərin həllinin rəhnidir.

Sizin şərəfinizə, Azərbaycan xalqının şərəfinə!

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ

- Əziz Aleksandr Qriqoryeviç!

Əziz dostlar!

Çox mehribancasına qəbula görə, qonaqpərvərliyə görə, nümayəndə heyətimizin bütün üzvlərinə belə səmimi, xoş münasibətə görə bir daha təşəkkür etmək istərdim. Biz bunu qardaş Belarus torpağında olduğumuz ilk andan hiss etdik. Bütün bugünkü günü qarşılıqlı anlaşma, dostluq və yüksək səviyyəli əməkdaşlıq şəraitində keçirdik.

Bu, Azərbaycan Prezidentinin Belarusa ilk rəsmi səfəridir və biz buna çox böyük əhəmiyyət veririk. Bu gün inamla demək olar ki, səfər və onun nəticələri çox uğurludur. Birinci gün olduqca zəngin idi. Biz Aleksandr Qriqoryeviçlə təkbətək, sonra nümayəndə heyətləri üzvlərinin iştirakı ilə geniş tərkibdə görüşdə çox açıq, ətraflı söhbət etdik. İkitərəfli inkişafla, regional əməkdaşlıqla, beynəlxalq münasibətlərlə bağlı məsələlərin kifayət qədər geniş dairəsini müzakirə etdik. İnkişafın, qarşılıqlı fəaliyyətin, Belarusla Azərbaycan arasında yaxın və uzaq perspektiv üçün əməkdaşlığın əsas yollarını müəyyən etdik, mühüm sənədlər imzaladıq. Zənnimcə, ən başlıcası budur ki, nümayəndə heyətimizin üzvləri və belaruslu həmkarlar dostlaşdılar. Bu, çox vacibdir. Axı, dövlətlərarası münasibətlər həm də insanlar arasında olan münasibətlər deməkdir. Aleksandr Qriqoryeviçlə bizim aramızda çox səmimi münasibətlər yarandı. Biz bu münasibətləri çox qiymətləndiririk. İndiki səfər bu münasibətləri daha da möhkəmlətdi. Bu münasibətlərin bütün səviyyələrdə çox səmimi, mehriban xarakter daşıması son dərəcə vacibdir.

Bu gün mən və əminəm ki, nümayəndə heyətinin bütün üzvləri müstəqillik əldə olunduğu vaxtdan bəri, bu 15 ildə Belarusun qazandığı nailiyyətlərindən aldığımız böyük təəssüratın altındayıq. Biz dinamik inkişaf edən ölkə gördük, Belarusun çox böyük intellektual, sənaye, iqtisadi potensiala malik olduğunu gördük. Ölkənizdə baş verən hadisələr, iqtisadi inkişafın sürəti barədə mənim məlumatım vardı. Lakin bu gün biz Minskin

necə inkişaf etdiyini gördük, ölkənizdə necə müasir, yüksək texnologiyalara əsaslanan istehsalatın olduğunu gördük. Bu istehsalatlar və onların bugünkü səviyyəsi, inkişafı isə Belarus xalqının intellektual yaradıcılığının bəhrəsidir. Həmin istehsalatların bir qismi sovet dövründə də fəaliyyət göstərirdi, lakin sovet dövründə onlar bu gün nail olduqları potensiala malik deyildi. İndi onlar, dünya səviyyəli məhsul buraxır ki, bunu da Aleksandr Qriqoryeviçin rəhbərliyi ilə Belarus xalqı təmin etmişdir.

Dövlətin, xüsusən də, qısa dövr ərzində və kifayət qədər çətin zaman kəsiyində formalaşmış gənc dövlətin inkişafı rəhbərin işinin nəticəsidir. Bu gün Belarusda gördüklərimiz Aleksandr Qriqoryeviç Lukaşenkonun çox böyük fəaliyyətinin - təşkilatçılıq, yaradıcılıq fəaliyyətinin, öz xalqına, öz dövlətinə sadiqliyinin, öz ölkəsini inkişaf etdirmək və onu tərəqqi yolu ilə aparmaq əzminin nəticəsidir. Bu, çox sevindiricidir. Düşünürəm ki, ölkələrimizin nümayəndələri arasında əlaqələr nə qədər çox olarsa, müxtəlif layihələr də bir o qədər çox olacaqdır.

Biz həmin layihələri artıq bu gün müəyyən etdik. Onların bir qismi mənim səfərimdən əvvəl müəyyən edilmişdi və artıq qısa müddətdə uğurla həyata keçirilir. Bu gün biz məsələləri müzakirə edərkən tam yekdil fikirdə olduq ki, bu əlaqələri intensivləşdirmək lazımdır, münasibətlərin inkişafına güclü təkan, dinamizm vermək lazımdır. Biz yekdil fikirdə və bu qənaətdəyik ki, qarşıya qoyulmuş vəzifələr qısa müddətdə, çox səmərəli şəkildə, yüksək səviyyədə yerinə yetirilməlidir.

Mən münasibətlərimizin gələcəyinə böyük nikbinliklə baxıram. Əminəm ki, Aleksandr Qriqoryeviç Lukaşenkonun Azərbaycana gələn il üçün nəzərdə tutulan səfərinədək bugünkü razılaşmaların nəticələrinin həyata keçirilməsi sahəsində əməli iş görüləcək, ölkələrimiz gələcəyə doğru birlikdə irəliləyəcəklər.

Belarusun, formalaşmış müstəqil dövlətin uğurlarını bir daha qeyd etmək, Prezident Aleksandr Qriqoryeviçə ən xoş diləklərimi bildirmək bütün Belarus xalqına xoşbəxtlik, cansağlığı, firavanlıq və tərəqqi arzulamaq istərdim.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV MİNSK TRAKTOR ZAVODUNDA OLMUŞDUR

Azərbaycan Prezidenti İlham Əliyev oktyabrın 18-də Minsk Traktor Zavoduna gəldi.

Burada dövlətimizin başçısını milli geyimli qızlar gül və duz-çörəklə qarşıladılar.

Belarus Respublikası Baş nazirinin birinci müavini Vladimir Semaşko, zavodun Baş direktoru Aleksandr Puxovoy Prezident İlham Əliyevi salamladılar və bu nüfuzlu zavodun fəaliyyəti barədə məlumat verdilər. Bildirildi ki, əsası 1946-cı ilin mayın 29-da qoyulan bu zavod dünyanın ən məşhur, nufuzlu istehsalat, kənd təsərrüfatı texnikası istehsal edən müəsisələrindən biridir. Hazırda burada 20 mindən çox insan çalışır, bu müəssisədə 100 adda məhsul istehsal olunur və məhsulları dünyanın 60 ölkəsinə ixrac edilir. Dünyanın məşhur 100 zavodu arasında ilk 8-liyə daxil olan müəssisələrdən biridir.

Azərbaycan Prezidenti İlham Əliyev gündəlik 196 traktor istehsal edən bu müəssisənin yığım və digər sexlərini gəzdi, istehsal prosesləri, ayrı-ayrı texnikaların hazırlanması mexanizmi ilə tanış oldu. Sonra dövlətimizin başçısı zavodda istehsal olunan və əsasən

kənd təsərrüfatı sahəsində istifadə edilən traktor və texnikadan ibarət sərgi ilə tanış oldu. Müasir standartlara uyğun hazırlanan traktorların iş üslubu və istifadə qaydaları barədə Prezident İlham Əliyevə məlumat verildi. Dövlətimizin başçısı bu cür texnikaların istehsalının təşkili üçün ölkəmizdə də şəraitin olduğunu vurğuladı və bu barədə müvafiq işlərin görülməsi üçün lazımi addımların atılmasının zəruriliyini söylədi, bildirildi ki, burada istehsal olunan ehtiyat hissələri gətirib Azərbaycanda yığmaq mümkündür. Zavod əsasən kənd təsərrüfatı texnikası və ehtiyat hissələri, təkərlər istehsal edir və xidmətlər göstərir, eləcə də, ayrı-ayrı ölkələrdə bu cür müəssisələrin təşkilində yaxından iştirak edir. Etibarlı və təhlükəsiz texnika istehsal edən bu müəssisənin məhsullarına Böyük Britaniya, ABŞ, Almaniya, Fransa, Kanada, İtaliya, İsveç və başqa ölkələrdə böyük tələbat vardır. Zavodda ilk məhsul 1953-cü ildə Belarus MTZ-2 markası altında istehsal olunmuşdur.

BELARUS MİLLİ KİTABXANASI İLƏ TANIŞLIQ

Azərbaycan Prezidenti İlham Əliyev oktyabrın 18-də Belarus Milli Kitabxanasına gəlmişdir.

Prezident İlham Əliyevi burada gül-çiçəklə və duz-çörəklə qarşıladılar. Kitabxananın direktoru Roman Motulski Prezident İlham Əliyevə məlumat verdi ki, 2000-ci ildə Prezident Aleksandr Lukaşenkonun sərəncamı ilə tikintisinə başlanmış bu kitabxana binası cari ilin əvvəlində istifadəyə verilmişdir. Ümumi sahəsi 166,5 min kvadratmetr olan kitabxana kompyuterləşdirilmişdir.

Kitabxananın ədəbiyyat fondunda 8 milyon nüsxə kitab vardır. Yaxın 30 ildə onun sayını 14 milyon nüsxəyə çatdırmaq nəzərdə tutulmuşdur. Burada 500 işçi çalışır, müxtəlif şöbələr və 19 oxu zalı fəaliyyət göstərir. Gündə kitabxanaya 25 min oxucu müraciət edir.

Azərbaycan Prezidenti İlham Əliyev ayrı-ayrı oxu zallarını və şöbələri gəzdi, binanın layihəsi ilə yaxından tanış oldu, Milli kitabxananın onda dərin təəssürat oyatdığını söylədi, fəxri qonaqlar kitabına ürək sözlərini yazdı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV MEKSİKANIN SƏHİYYƏ NAZİRİ XULİO FRENKİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 19-da Prezident sarayında Meksikanın səhiyyə naziri Xulio Frenki qəbul etmişdir.

Prezident İlham Əliyev Xulio Frenkin Meksikanın Azərbaycana səfər etmiş ilk naziri olduğunu vurğulayaraq, bu səfərin ölkələrimiz arasında ikitərəfli münasibətlərin gələcək inkişafına öz töhfəsini verəcəyinə əminliyini bildirdi.

Xulio Frenk Azərbaycana səfər etməkdən məmnunluğunu ifadə etdi. Ölkəmizdə keçirdiyi görüşlər barədə Prezident İlham Əliyevə məlumat verən qonaq Meksika ilə Azərbaycan arasında müxtəlif sahələrdə, o cümlədən beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığın gələcəkdə daha da inkişaf etdiriləcəyinə ümidvar olduğunu vurğuladı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İTALİYA XARİCİ İŞLƏR NAZİRİNİN MÜAVİNİ, AZƏRBAYCAN-İTALİYA İQTİSADİ ƏMƏKDAŞLIĞINA DAİR MƏŞVƏRƏT FORUMUNUN HƏMSƏDRİ FAMİANO KRUÇİANELLİNİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 20-də Prezident sarayında İtaliya xarici işlər nazirinin müavini, Azərbaycan ilə İtaliya arasında iqtisadi əməkdaşlığa dair məşvərət forumunun həmsədri Famiano Kruçianellinin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Dövlətimizin başçısı İtaliyanın ölkəmizin əsas iqtisadi tərəfdaşlarından biri olduğunu qeyd etdi. İki ölkə arasında iqtisadi əməkdaşlığın hazırda əsasən neft sənayesi sahəsində həyata keçirildiyini bildirən Prezident İlham Əliyev qeyri-neft sektorunda əlaqələrin genişləndirilməsinin əhəmiyyətini vurğuladı. Dövlətimizin başçısı Azərbaycan iqtisadiyyatının sürətlə inkişaf etdiyini nəzərə çatdıraraq, bunun qarşılıqlı iqtisadi əlaqələrin daha da möhkəmləndirilməsi üçün yeni imkanlar yaratdığını qeyd etdi.

Famiano Kruçianelli İtaliya-Azərbaycan münasibətlərinin yüksək səviyyədə olduğunu bildirdi. Azərbaycanın enerji təhlükəsizliyi baxımından İtaliya üçün strateji mövqedə yerləşdiyini qeyd edən qonaq iqtisadiyyatın digər sahələrində də əlaqələrin genişləndirilməsinin əhəmiyyətli oduğunu vurğuladı. O, bir çox İtaliya şirkətlərinin Azərbaycana böyük maraq göstərdiyini bildirərək, bu səfərin iqtisadi sahədə əlaqələrimizin daha da inkişafına töhfə verəcəyinə əminliyini söylədi.

AZƏRBAYCAN RESPUBLİKASI KƏND TƏSƏRRÜFATI NAZİRLİYİ VƏ İTALİYA RESPUBLİKASININ KƏND TƏSƏRRÜFATI, ƏRZAQ VƏ MEŞƏÇİLİK SİYASƏTİ NAZİRLİYİ ARASINDA ƏMƏKDAŞLIQ HAQQINDA ANLAŞMA MEMORANDUMU

20 oktyabr 2006-cı il

Bundan sonra "Tərəflər" adlandırılacaq Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyi və İtaliya Respublikasının Kənd Təsərrüfatı, Ərzaq və Meşəçilik Siyasəti Nazirliyi,

kənd təsərrüfatı sahəsində iqtisadi və elmi-texniki əlaqələrin, habelə aqrar-sənaye sahədə əməkdaşlığın genişləndirilməsi məqsədilə aşağıdakılar barədə razılığa gəldilər:

MADDƏ 1

Tərəflər səmərəli əməkdaşlığa nail olmaq üçün aşağıda göstərilmiş istiqamətində birgə fəaliyyət göstərəcəklər:

a) bitkiçilik sahəsində toxumçuluq, yeni tarla, tərəvəz və meyvə bitkiləri sortlarının mübadiləsi;

b) heyvandarlıqda süni mayalandırma, damazlıq və seleksiya işlərinin aparılması sahələrində əməkdaşlıq;

c) kənd təsərrüfatında aqroservislərin yaradılmasına köməklik göstərilməsi;

d) kənd təsərrüfatı məhsullarının müasir texnologiya ilə istehsalı və emalı, marketinqi, eləcə də infrastruktur sahələrinə investisiya qoyuluşu, bu sahələrdə mövcud müəssisələrin fəaliyyətinin genişləndirilməsi və yeni birgə müəssisələrin yaradılmasına köməklik göstərilməsi;

e) mineral gübrələr və bitki mühafizəsi vasitələrinin, həmçinin, baytarlıq preparatlarının istehsalı sahəsində əməkdaşlıq;

f) ekoloji təmiz kənd təsərrüfatı məhsulları (meyvə-tərəvəz və bostan bitkiləri) istehsalı üzrə aqrokimyəvi tədbirlərin aparılması sahəsində təcrübə mübadiləsi;

g) kənd təsərrüfatı sahəsində elmi əlaqələrin genişləndirilməsi və bu istiqamətdə təcrübə mübadiləsi;

h) kənd təsərrüfatının müxtəlif sahələrinə həsr edilmiş simpozium, seminar, video konfrans vasitəsilə həyata keçirilən konfranslar, sərgi və yarmarkaların təşkil edilməsi;

i) beynəlxalq standartlar, texnologiyalar və elmi-texniki yeniliklər barədə məlumat mübadiləsi;

j) bitkiçilik və heyvandarlıqda genetik və bioloji materiallar mübadiləsi;

k) təbii və qarışıq yem istehsalının inkişaf etdirilməsi sahəsində əməkdaşlıq;

l) yeni iqtisadi münasibətlər şəraitində kənd təsərrüfatı sahəsində elmi-tədqiqat və islahatların aparılması işlərinin əlaqələndirilməsi, məlumat və təcrübə mübadiləsi;

m) bitkiçilik sahəsində ziyanvericilərə və xəstəliklərə qarşı mübarizə, eləcə də baytarlıq tədbirlərinin həyata keçirilməsi;

n) aqrar sahənin prioritet problemlərinin həlli üçün birgə layihələrin hazırlanması və həyata keçirilməsi;

o) suvarmanın səmərəli üsullarından istifadə və bu üsulların tətbiqi sahəsində əməkdaşlıq.

MADDƏ 2

Bu Anlaşma Memorandumunda nəzərdə tutulan əməkdaşlıq Tərəflərin öz səlahiyyətləri çərçivəsində milli qanunvericiliyinə və beynəlxalq öhdəliklərinə uyğun olaraq həyata keçiriləcəkdir.

MADDƏ 3

Tərəflər mövcud problemlərin həlli üçün məsləhətləşmələr keçirəcəklər. Məsləhətləşmələrin keçirildiyi yer, tarix, gündəliyi, habelə xərclərin ödənilməsi qaydası qarşılıqlı razılıq əsasında müəyyənləşdiriləcəkdir və bu Anlaşma Memorandumunda nəzərdə tutulan fəaliyyətlər onun Tərəflərinin hesabına həyata keçiriləcəkdir.

Məsləhətləşmələr nəticəsində razılıq əldə edilməzsə, mübahisəli məsələlər diplomatik kanallar vasitəsilə həll ediləcəkdir.

MADDƏ 4

Tərəflərin qarşılıqlı razılığı əsasında bu Memoranduma dəyişiklik və əlavələr edib bilər. Həmin dəyişiklik və əlavələr Memorandumun ayrılmaz tərkib hissəsi olan ayrıca Protokollarla tərtib ediləcək və 5-ci maddədə nəzərdə tutulmuş prosedurlara uyğun olaraq qüvvəyə minəcəkdir.

MADDƏ 5

Bu Anlaşma Memorandumu, imzalandığı tarixdən qüvvəyə minir.

Bu Anlaşma Memorandumu beş il müddətinə bağlanılır və Tərəflərdən biri həmin müddətin başa çatmasına ən azı altı ay qalmış, diplomatik kanallar vasitəsilə onun qüvvəsini ləğv etmək niyyəti barədə digər Tərəfi məlumatlandırmazsa, onun qüvvəsi avtomatik olaraq növbəti beşillik müddətlərə uzadılır.

Bu Anlaşma Memorandumu Bakı şəhərində 20 oktyabr 2006-cı ildə, iki əsl nüsxədə azərbaycan, italyan və ingilis dillərində imzalanmışdır və bütün mətnlər bərabər autentikdir. Bu Memorandumun təfsiri zamanı fikir ayrılığı yarandıqda ingilis dilində olan mətn əsas götürülür.

AZƏRBAYCAN RESPUBLİKASININ KƏND TƏSƏRRÜFAT NAZİRİ	İTALİYA RESPUBLİKASININ XARİCİ İŞLƏR NAZİRİNİN MÜAVİNİ
İSMƏT ABBASOV	*FAMİANO KRUÇİANELLİ*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV DÜNYA SƏHİYYƏ TƏŞKİLATININ BAŞ DİREKTORU VƏZİFƏSİNƏ NAMİZƏD PROFESSOR TOMRİS TÜRMƏNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 25-də Prezident sarayında Dünya Səhiyyə Təşkilatının baş direktoru vəzifəsinə namizəd, türkiyəli professor Tomris Türməni qəbul etmişdir.

Görüşdə xanım Tomris Türmənin Dünya Səhiyyə Təşkilatının baş direktoru vəzifəsinə namizədliyinin Azərbaycan tərəfindən dəstəklənməsi məsələsi müzakirə olundu.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV bp-AZƏRBAYCAN ŞİRKƏTİNİN RƏHBƏRİ DEVİD VUDVORDU QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 25-də Prezident sarayında bp-Azərbaycan şirkətinin rəhbəri Devid Vudvordu qəbul etmişdir.

Devid Vudvord bp-Azərbaycan şirkətinin ölkəmizdə cari fəaliyyəti barədə dövlətimizin başçısına məlumat verdi.

GÖRÜŞLƏR DAVAM ETDİRİLƏCƏKDİR

Oktyabrın 23-24-də Fransa Xarici İşlər Nazirliyində Azərbaycan Respublikasının xarici işlər naziri Elmar Məmmədyarov erməni həmkarı Vardan Oskanyan və Minsk qrupunun həmsədrləri ilə görüşmüşdür.

Azərbaycan xarici siyasət idarəsinin rəhbəri E.Məmmədyarov bildirmişdir ki, görüşlər zamanı Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin dinc yolla həll olunması ilə bağlı ATƏT-in Minsk qrupu həmsədrlərinin Moskvadakı görüşlərində irəli sürdükləri fikirlər barədə ətraflı müzakirələr aparılmışdır. Azərbaycan və Ermənistan nümayəndələri, eləcə də Minsk qrupunun həmsədrləri müzakirə olunmuş məsələlərə münasibət bildirmiş, danışıqların davam etdirilməsi barədə ümumi razılığa gəlmişlər.

Həmsədrlərlə birlikdə hər iki ölkənin xarici işlər nazirlərinin noyabrın 14-də Brüsseldə növbəti görüşünün keçirilməsi qərara alınmışdır. Brüssel görüşündən sonra həmsədrlər Yerevana və Bakıya səfər edəcəklər.

Nazirlər və həmsədrlər Azərbaycan və Ermənistan prezidentlərinin gələcək görüşlərini də müzakirə etmişlər. Bu görüş barədə belə bir fikir səslənmişdir ki, Brüssel görüşündən və həmsədrlərin regiona səfərindən sonra prezidentlərin görüşünün mümkünlüyü növbəti görüşlərin birində müzakirə olunacaqdır.

AVROPA İTTİFAQI - AZƏRBAYCAN ƏMƏKDAŞLIQ KOMİTƏSİNİN İCLASI KEÇİRİLMİŞDİR

Brüsseldə 26 oktyabr 2006-cı il tarixində Aİ-Azərbaycan Əməkdaşlıq Komitəsinin iclası keçirilmişdir.

İclasda Aİ nümayəndə heyətinə Avropa Komissiyasının Xarici Əlaqələr üzrə Baş Direktorunun müavini c-b Fokion Fotiadis, Azərbaycan nümayəndə heyətinə isə Xarici İşlər Nazirinin müavini c-b Mahmud Məmməd-Quliyev başçılıq edirdi.

İclas zamanı əsasən Avropa Qonşuluq Siyasəti (AQS) çərçivəsində gələcək əməkdaşlıq perspektivləri, o cümlədən Fəaliyyət Planının yaxın zamanlarda qəbul edilməsinə dair məsələlər müzakirə edildi.

Tədbirdə enerji sahəsində əməkdaşlıq məsələləri əhatə edildi və bu əməkdaşlığın strateji əməkdaşlıq səviyyəsinə inkişaf etdirilməsində hər iki tərəfin maraqlı olduğu vurğulandı. Bu kontekstdə müvafiq Anlaşma Memorandumunun imzalanmasının vacibliyi xüsusi olaraq qeyd edildi.

Qara Dəniz və Xəzər Dənizi bölgələrinin ölkələri arasında həm nəqliyyat, həm enerji sahəsində əməkdaşlığın gücləndirilməsini ehtiva edən Bakı Prosesi üzrə danışıqlar aparıldı və bu çərçivədə Azərbaycanın rolu xüsusi olaraq vurğulandı.

Eyni zamanda tədbir zamanı, tərəflər arasında iqtisadiyyatlarının vəziyyəti haqqında məlumat və bir sıra aidiyyəti məsələlər üzrə fikir mübadiləsi aparıldı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AVROPA YENİDƏNQURMA VƏ İNKİŞAF BANKININ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 26-da Prezident sarayında Avropa Yenidənqurma və İnkişaf Bankının nümayəndə heyətini qəbul etmişdir.

Nümayəndə heyətinin respublikamıza səfərinin əhəmiyyətli olduğunu vurğulayan dövlətimizin başçısı Avropa Yenidənqurma və İnkişaf Bankı ilə ölkəmizin əməkdaşlığının səviyyəsindən, birgə həyata keçirilən layihələrdən razılığını bildirdi. Prezident İlham Əliyev dedi ki, regionların və qeyri-neft sektorunun inkişafı ölkə rəhbərliyinin xüsusi diqqət yetirdiyi əsas istiqamətlərdən biridir. Dövlətimizin başçısı ümidvar olduğunu bildirdi ki, AYİB ilə əməkdaşlıq Azərbaycanda gedən iqtisadi inkişaf prosesinə öz töhfəsini verəcəkdir.

Azərbaycanın coğrafi nöqteyi-nəzərdən çox mühüm bir ərazidə yerləşdiyini xatırladan Prezident İlham Əliyev ölkəmizdə sosial infrastrukturun inkişafı istiqamətində görülən işlərdən də söhbət açdı. Sosial-iqtisadi inkişaf proqramlarının və bir sıra digər iqtisadi layihələrin Azərbaycanın öz daxili imkanları hesabına maliyyələşdirildiyini vurğulayan dövlətimizin başçısı ölkəmizdə büdcənin də sürətlə artdığını nəzərə çarpdırdı. Bütün digər sahələrdə də böyük inkişaf əldə edildiyini, xarici sərmayələr üçün ölkəmizdə yaxşı mühit yaradıldığını bildirən Prezident İlham Əliyev əmin olduğunu söylədi ki, Avropa bankı ilə əməkdaşlıq bundan sonra daha da möhkəmlənəcəkdir.

AYİB-in direktoru xanım Karina Rautala bildirdi ki, onların Azərbaycana səfərinin əsas məqsədi ölkənin sosial-iqtisadi inkişafı ilə yaxından tanış olmaq və bu barədə tam məlumat əldə etməkdir. Ölkəmizdə keçirdikləri görüşlər, bölgələrə səfərlər, o cümlədən Səngəçal terminalı ilə tanış olmaları barədə dövlətimizin başçısına məlumat verən qonaq dedi ki, bütün bunlar Azərbaycanın iqtisadiyyatda və digər sahələrdə əldə etdiyi uğurlarla yaxından tanışlıq baxımından böyük əhəmiyyət daşıyır.

Azərbaycanda bütün sahələrdə həqiqətən böyük uğurlar qazanıldığını, irimiqyaslı layihələr həyata keçirildiyini söyləyən Karina Rautala Avropa Yenidənqurma və İnkişaf Bankının bu prosesdə yaxından iştirak etməsindən məmnunluğunu vurğuladı. O dedi ki, AYİB gələcəkdə də iqtisadi layihələrin həyata keçirilməsində Azərbaycanla əməkdaşlıq etməyə hazırdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ABŞ-IN ALMAN MARŞALL FONDUNUN NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 27-də Prezident sarayında ABŞ-ın Alman Marşall Fondunun nümayəndə heyətini qəbul etmişdir.

Azərbaycan ilə ABŞ arasında müxtəlif sahələrdə əməkdaşlığın uğurla inkişaf etdiyini bildirən dövlətimizin başçısı Marşall Fondu ilə əlaqələrin də genişləndiyini vurğuladı. Prezident İlham Əliyev Marşall Fondu ilə uğurlu əməkdaşlığın gələcəkdə də davam etdiriləcəyinə əmin olduğunu nəzərə çarpdırdı.

Dünyada Azərbaycana böyük maraq olduğunu söyləyən nümayəndə heyətinin başçısı Skott Klaq ölkəmizlə ABŞ arasında əməkdaşlığın uğurla inkişaf etdiyini bildirdi. Azərbaycanın beynəlxalq aləmdə rolunun artdığını qeyd edən qonaq Marşall Fondu ilə Azərbaycan arasında əlaqələrin yeni mərhələyə qalxdığını vurğuladı. O, əməkdaşlığın bundan sonra da genişlənəcəyinə əmin olduğunu bildirdi.

Söhbət zamanı Azərbaycan-ABŞ ikitərəfli münasibətləri və beynəlxalq məsələlərlə bağlı fikir mübadiləsi aparıldı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV XARİCİ ÖLKƏLƏRİN KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN RUSİYADA AKKREDİTƏ OLUNMUŞ NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞMÜŞDÜR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 27-də Prezident sarayında xarici ölkələrin kütləvi informasiya vasitələrinin Rusiyada akkreditə olunmuş nümayəndələri ilə görüşmüşdür.

Prezident İlham Əliyev jurnalistləri salamlayaraq dedi:

- Sizi görməyimə məmnunam. Jurnalistlərdən ibarət böyük bir nümayəndə heyəti Azərbaycana gəlmişdir. Mən bunu yüksək qiymətləndirirəm. Hesab edirəm ki, bu səfər ölkəmizdə gedən inkişaf prosesləri, əldə olunan nailiyyətlər, problemlər ilə tanış olmaq üçün yaxşı imkandır. Zənnimcə, Azərbaycana nə qədər çox jurnalist səfər edərsə, ölkənin əldə etdiyi nailiyyətlər, inkişafı və ümumi vəziyyəti ilə daha yaxından tanış olmaq imkanı yarana bilər.

Bildiyimə görə səfəriniz müddətində bir sıra mühüm tədbirlərdə iştirak etmiş, rayonlarda olmusunuz. Ümidvaram ki, bu səfər çox faydalı olacaqdır. Bir daha ölkəmizə xoş gəlmisiniz.

- FRED VİR ("Christian Science Monitor"): Məncə, bu il Sizin Prezident Koçaryan ilə iki görüşünüz olubdur. Dağlıq Qarabağ və işğal edilmiş ərazilərlə bağlı Sizin mövqeyinizi bilmək istərdim. Münaqişənin danışıqlar yolu ilə qısa müddət ərzində nizama salınacağına hansısa ümid varmı? Əgər yoxdursa, seçiminiz nə olacaq?

- Danışıqlar prosesinin gələcəyi barədə əvvəlcədən bir şey demək çətindir. Çünki, bir tərəfdən, danışıqlar on ildən artıqdır ki, davam etdirilir və bu, heç bir nəticə verməmişdir. Buna səbəb beynəlxalq hüquq normaları və davranışlarına əməl etmək istəməyən Ermənistanın nümayiş etdirdiyi mövqedir. Digər tərəfdən, indi biz Praqa formatı adlandırılan danışıqlar formatındayıq və bu, münaqişənin dinc yolla həllinə nail olmaq imkanı yarada bilər. Bizim mövqeyimiz beynəlxalq hüququn dünya birliyi tərəfindən tanınmış norma və prinsiplərinə əsaslanır. Azərbaycanın ərazi bütövlüyü danışıqlar mövzusu deyildir. Ermənistan BMT Təhlükəsizlik Şurasının işğalçı qüvvələrin Azərbaycan ərazilərindən qeyd-şərtsiz və dərhal çıxarılmasını tələb edən dörd qətnaməsinə əməl etməlidir. Bu, Azərbaycanın qəti surətdə sadiq olduğu beynəlxalq hüququn əsas prinsipidir. Ermənistanın mövqeyi onların arzuları, gözləntiləri və xəyallarına əsaslanır. "Baş vermiş fakt" prinsipinə əsaslanır. Belə hesab edirlər ki, yalnız xarici dəstək sayəsində hərbi əməliyyatlarda əldə etdikləri müvəqqəti üstünlük onlara Dağlıq Qarabağ ərazisini Azərbaycandan ayırmaq və Ermənistana birləşdirmək barədə düşünmək hüququ verir. Bu, baş tutmayacaqdır. Ona görə də Ermənistan rəhbərliyi aydın başa düşməlidir ki,

Azərbaycan ərazi bütövlüyü məsələsi ilə bağlı hər hansı güzəştə getməyəcəkdir.

Biz nə edə bilərikso, bunu təklif etmişik. Bu da ondan ibarətdir ki, Dağlıq Qarabağdakı ermənilərə və Dağlıq Qarabağa qayıdacaq azərbaycanlılara, - Dağlıq Qarabağda azərbaycanlılara qarşı etnik təmizləmə həyata keçirilməzdən əvvəl yerli əhalinin ən azı 30 faizini azərbaycanlılar təşkil etmişdir, - dünyada mövcud olan yüksək səviyyəli muxtariyyət statusu verilsin. Dünyada muxtariyyətlə bağlı müsbət təcrübə mövcuddur. Məlumdur ki, dünyanın, xüsusilə, Avropanın bir çox ölkələrində milli azlıqlar, muxtariyyətlər vardır. Azlıq olmaq o demək deyil ki, o, başqa bir dövlətin ərazisini qopararaq burada digər dövlət yarada bilər. Xüsusən nəzərə alsaq ki, dünyanın bir çox ölkələrində ermənilər yaşayırlar, təsəvvür edin, onlar yaşadıqları hər bir ölkədə müstəqillik tələb etsələr, nələr baş verə bilər?! Bu, bizim konstruktiv mövqeyimizdir. Bizim edə biləcəyimiz maksimum budur. Bir daha demək istəyirəm ki, bu mövqe beynəlxalq hüquq və davranış normalarına əsaslanır.

Danışıqlar uğursuzluğa məruz qalacağı təqdirdə, nəyin baş verəcəyini əvvəlcədən demək çətindir. Hər halda, əgər danışıqların bu raundu bir nəticə verməsə, onda Azərbaycan mütləq öz strategiyası, taktikası və davranışını yenidən nəzərdən keçirəcəkdir.

- RAFAEL MORENO (İspaniyanın "El Correo" qəzeti): Xəzərdən enerji ehtiyatlarının Avropaya göndərilməsi üçün Gürcüstan vasitəsilə Ukraynaya boru kəməri çəkilməsi layihəsi varmı? Bütün kütləvi informasiya vasitələrində deyilir ki, belə imkan mövcuddur. Belə bir layihə realdırmı? Bununla əlaqədar daha bir sual: Rusiya ilə Gürcüstan arasında indiki münasibətlər hansısa şəkildə bu layihə ilə bağlı ola bilərmi?

- Neft üçün bizim artıq üç boru kəmərimiz var. Onların ikisi nefti Qara dənizə, biri isə Aralıq dənizinə nəql edir. Ona görə də yaxın perspektivdə neftin nəqli üçün daha bir boru kəmərinə ehtiyac yoxdur. Çünki neft bütün bazarlara - Avropa və dünya bazarlarına gedir. Əgər söhbət qaz kəmərindən gedirsə, o, artıq ilin sonunadək tikilib başa çatdırılacaqdır. Beləliklə, Azərbaycan qazı Gürcüstan ərazisi ilə Türkiyə bazarına nəql ediləcək, oradan isə digər bazarlara göndəriləcəkdir. Orada artıq bu qazı qəbul edə biləcək qaz nəqletmə sistemi - Avropa sistemi var. Odur ki, yeni boru kəmərlərinin tikintisi məsələsi, zənnimcə, yaxın vaxtlarda qalxmayacaqdır. Azərbaycanın maraq göstərdiyi boru kəməri sistemləri - Avropa qaz kəmərləri, neft kəmərləri mövcuddur. Məsələn, Ukrayna və Qara dəniz hövzəsinin digər ölkələri - Bolqarıstan, Rumıniya ilə əməkdaşlığımız var. Bu əməkdaşlıq mövcuddur. Bu mənada mövcud boru kəməri sisteminin potensialından istifadə etmək olar.

- MANFRED FRİNK ("Die welt" qəzeti, Almaniya): Neftin sayəsində büdcəniz artır, özü də, böyük həcmdə. Buna baxmayaraq, sizdə çoxlu kasıb var, səhv etmirəmsə, 28 faiz təşkil edir. Siz bu fərqi necə və nə vaxt aradan qaldıracaqsınız? İcazənizlə, ikinci sual: keçən il parlament seçkilərindən sonra Avropa təşkilatları seçkilər zamanı və azad mətbuata münasibətdə Avropa normalarının pozulmasına görə Sizin hökuməti tənqid etdilər. Bu vəziyyəti, seçki prosedurlarını dəyişmək niyyətiniz varmı?

- Yoxsulluğun azaldılması proqramı var və Azərbaycan onu iri beynəlxalq maliyyə təşkilatları ilə birlikdə həyata keçirir. Bu proqram uğurla gerçəkləşdirilir. Cari ilin əvvəlinə, yanvar ayına yoxsulluğun səviyyəsi, dediyiniz kimi, 28-29 faiz olmuşdur. Lakin 2005-ci ilin yanvarına yoxsulluğun səviyyəsi 49 faiz idi. Yəni, bir ildə Azərbaycanda

yoxsulların sayı 20 faiz azalmışdır. Biz 2006-cı ilin nəticələrini gözləyirik. İlkin hesablamalara görə, yoxsulların sayı yenə də çox kəskin surətdə azalacaqdır. Qarşıya qoyduğumuz vəzifələrdən biri Azərbaycanda ümumiyyətlə yoxsulluğu qısa müddətdə ləğv etməkdir. Bunun üçün regional inkişaf proqramını həyata keçiririk. Son üç ildə Azərbaycanda təxminən 500 min yeni iş yeri yaradılmışdır. Əmək haqları, pensiyalar müntəzəm olaraq qaldırılır. İnfrastruktura çox böyük sərmayə qoyulur, yeni hava limanları, elektrik stansiyaları tikilir, yollar çəkilir, su təchizatı, qaz təchizatı yaxşılaşır, sosial infrastruktur inkişaf edir. Son iki ildə 600 məktəb tikilmişdir, hazırda regionlarda eyni vaxtda 10 müasir xəstəxana inşa edilir. Yəni, bütün bu tədbirlər yoxsulluğun nəinki azalmasına, ümumiyyətlə, ləğv olunmasına kömək edəcəkdir. Eyni zamanda, işsizliyin də aradan qaldırılmasına. İnkişaf etmiş hər hansı digər ölkədəki kimi, işsizlər yalnız o kəslər olacaqlar ki, onlar işləmək istəmirlər. Təəssüf ki, bələləri Avropada da var.

Bu proqramlar tamamilə realdır, maliyyə ehtiyatları ilə möhkəmləndirilmişdir. Siz qeyd etdiniz ki, bizim maliyyə vəziyyətimiz yaxşılaşır. Son 3-4 ildə Azərbaycanın büdcəsi 4 dəfədən çox artmışdır, özü də, təkcə neftin hesabına yox. Biz böyük həcmdə neft çıxarmağa yalnız bu yaxınlarda başlamışıq. Yəqin bilirsiniz ki, yeni yataqlardan çıxarılan bütün neftdən əldə edilən gəlirlər Azərbaycan Neft Fonduna daxil olar. Neft Fondundan büdcəyə köçürmələr isə cəmi 500 milyon dollar məbləğində planlaşdırılır. Büdcəyə qalan mədaxillər, əsasən, maliyyə intizamının möhkəmləndirilməsi, ictimai nəzarətin gücləndirilməsi və çox fəal iqtisadi islahatlar aparılması hesabına olur.

Azərbaycanda siyasi islahatlar da çox səmərəli və iqtisadi islahatlarla paralel surətdə həyata keçirilir. Mən qəti əminəm ki, çoxlu sayda yoxsul və işsizlər olan ölkədə sizin Qərbi Avropada öyrəşdiyiniz kimi demokratik cəmiyyət qurmaq mümkün deyildir. Ona görə də yoxsulluğun azaldılması, əhalinin rifahının yaxşılaşdırılması, insanları narahat edən sosial məsələlərin həlli - bütün bunlar daha açıq cəmiyyət qurulmasına, demokratiyanın inkişafına, yəni bizim nail olmağa çalışdığımız məqsədlərə doğru aparır. Məqsədimiz isə aydındır - biz güclü, iqtisadi cəhətdən müstəqil, siyasi cəhətdən azad, Avropa qurumlarına inteqrasiya edilmiş dövlət qurmaq istəyirik. Ona görə də bütün inteqrasiya proseslərində fəal iştirak edirik. İndi biz Avropa İttifaqının qonşuluq proqramına qoşuluruq. Bu, beşillik proqramdır və o cümlədən Azərbaycanda siyasi sistemin möhkəmlənməsi üçün çox böyük əhəmiyyətə malikdir.

O ki qaldı keçən ilin parlament seçkiləri barədə sualınıza, deməliyəm ki, onun gedişini müxtəlif təşkilatlardan olan çox böyük sayda müşahidəçilər izləyirdilər. Təəssüf ki, onların bir qismi siyasi cəhətdən sifarişli idi və öz qiymətlərində real vəziyyəti deyil, müəyyən dairələrin siyasi iddialarını əks etdirirdilər. Eyni zamanda, parlament seçkilərini iri təşkilatlar da müşahidə edirdi, "exit-poll" keçirmişdilər. Bu təşkilatları biz yox, Amerika hökuməti seçmişdi. Sizə deyim ki, "exit-poll"un nəticələri ilə parlament seçkilərinin nəticələri 90 faiz üst-üstə düşmüşdür. "Exit-poll"un nəticələrinin 10 faizinin rəsmi nəticələrlə uyğun olmadığı yerlərdə seçkilərin yekunlarını ləğv etdik. Biz 10 dairədə seçkilərin nəticələrini ləğv etdik. Bu dairələrdə təkrar seçkilər keçirildi, onlarda yenə də Amerika hökumətinin seçdiyi təşkilat tərəfindən "exit-poll" aparıldı. Təkrar seçkilərdə "exit-poll"un nəticələri ilə rəsmi nəticələr 100 faiz üst-üstə düşdü. Zənnimcə, bu, ən parlaq sübutdur ki, parlament seçkiləri Azərbaycan cəmiyyətinin əhval-ruhiyyəsini tamamilə əks etdirmişdir. Pozuntuların olması başqa məsələdir və onlara görə

iqtidar məsuliyyət daşımır. 125 yerə 2 min namizəd vardı. Bu, Azərbaycan üçün görünməmiş rəqəm idi. Əlbəttə, bir çox namizədlərin özləri qanunvericiliyi pozur, seçki prosesinə qarışır, seçiciləri pulla öz tərəfinə çəkir, çirkin təbliğat kampaniyası aparırdılar. Bunların hamısı olmuşdur. Lakin biz buna görə məsuliyyət daşımırıq. Hökumət kimi və dövlət kimi, biz bu seçkilərin demokratik, açıq keçməsi üçün hər şeyi etmişdik. Düşünürəm ki, biz buna nail olduq, hərçənd bizi məyus edən məqamlar da oldu. Biz obyektiv tənqidi qəbul edirik. Ancaq seçkilərin keçirilməsi məsələləri baxımından Azərbaycana qarşı olan və siyasi məqsədlər güdən hücumları qəbul etmirik.

- FRANS PRESS: Mən Sizə İranın siyasəti ilə bağlı sual vermək istərdim. Azərbaycan ABŞ-ın İrana qarşı sanksiyalarını dəstəkləyəcəkmi və bu sanksiyaların ölkənizə təsiri necə olacaq?

- İranın nüvə proqramı ilə bağlı narahatlıq doğuran bütün məsələlər danışıqlar yolu ilə həll olunmalıdır. Ümid edirəm ki, bu, regiondakı çox kövrək sabitliyin pozulmaması və məsələnin dincliklə nizamlanmasına nail olmaq üçün yeganə yoldur.

Məsələn, biz Azərbaycanda Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasına birbaşa cəlb edilmiş beynəlxalq təşkilatlardan, o cümlədən Cənubi Qafqazda sülhün bərqərar olunmasında maraqlı olanlardan daim eşidirik ki, münaqişə dinc yolla həll edilməlidir. Ərazimizin on ildən artıq bir müddətdə işğal altında olmasına, Ermənistan tərəfindən həyata keçirilmiş etnik təmizləmə nəticəsində bir milyondan artıq soydaşımızın evsiz-eşiksiz qalmasına baxmayaraq, biz münaqişəni dinc yolla nizamlamağa çalışırıq. Siz onların yaşadıqları köhnə çadır düşərgələrinə və onlar üçün inşa etdiyimiz yeni qəsəbəyə baş çəkmisiniz. Tezliklə çadır düşərgələri tamamilə ləğv olunacaqdır.

Biz də nüvə proqramı ilə bağlı problemin həll edilməsi üçün beynəlxalq birliyin bütün imkanlarından istifadə etməsini gözləyirik. Sanksiyalara gəlincə, Azərbaycan bu sanksiyaları dəstəkləməyəcəkdir. Hesab edirik ki, belə sanksiyalar səmərə verməyəcəkdir. Onlar məsələnin həllinə aparıb çıxarmayacaq, yalnız regiondakı vəziyyəti daha da gərginləşdirəcəkdir. Bizim İranla yaxşı münasibətlərimiz var. İran ilə uzun, min kilometrdən artıq sərhədimiz var. Fəal ticarət əlaqələrimiz mövcuddur. Buna görə də biz çox narahatıq ki, vəziyyəti gərginləşdirəcək istənilən potensial addım ümumən regional inkişafa böyük təsir göstərə bilər.

- ROBERT BAAQ (Almaniya radiosu): Bildiyimiz kimi, Azərbaycan Türkiyəyə çox yaxındır. Fransanın "erməni soyqırımının" inkar edilməsini cinayət kimi nəzərdə tutan qanun layihəsi səbəbindən Fransa ilə Türkiyə arasında münasibətlər pisləşmişdir. Bu məsələ ilə bağlı Azərbaycanın rəsmi mövqeyi nədən ibarətdir?

- Bizim rəsmi mövqeyimiz Xarici İşlər Nazirliyinin bəyanatında öz əksini tapmışdır. Burada açıq şəkildə bildirilmişdir ki, Azərbaycan bu qanunvericilik təşəbbüsünün irəli sürülməsi və səsvermənin keçirilməsindən çox narahatdır. Biz belə yanaşmanı rədd edirik. Eyni zamanda, bu məsələ ilə bağlı parlamentimiz tərəfindən də oxşar bəyanat verilmişdir. Biz Fransa rəsmilərindən Fransa hökumətinin bu qanun layihəsini dəstəkləmədiyini eşitməyimizdən məmnunuq. Bu mövqe Fransa xarici işlər nazirinin Azərbaycanın xarici işlər naziri ilə bu yaxınlarda Parisdə keçirilən görüşündə də ifadə olunmuşdur. Eyni zamanda, bu mövqe Fransanın Bakıdakı səfirliyi tərəfindən də bildirilmişdir. Biz Fransa parlamentinin üzvləri ilə deyil, Fransa hökuməti ilə işləyirik və bizim üçün Fran-

sa hökuməti tərəfindən ifadə olunmuş mövqe qənaətbəxşdir. Biz ümidvarıq ki, Fransa tarixin saxtalaşdırılmasına əsaslanmış bu antidemokratik layihənin qanun kimi təsdiqlənməsinə imkan verməyəcəkdir. Çünki Fransa parlamentində baş verənlər fikir, söz azadlığının, demokratiyanın və demokratiyanın əsas prinsiplərinin kobud surətdə pozulmasıdır. Bu layihənin lehinə səs vermiş parlament üzvləri üçün gələcəkdə demokratiya haqqında danışmaq və digər ölkələri demokratik olmağa öyrətmək çox çətin olacaqdır.

Biz belə qanunvericilik aktını pisləyirik. Hesab edirik ki, əvvəla, bunun reallıqla heç bir əlaqəsi yoxdur. Qondarma "soyqırımı" ermənilərin və erməni lobbisinin uydurmasıdır. Onlar bundan Azərbaycana qarşı təcavüzlərinə bəraət qazandırmaq, özlərini qurban, "hücumlardan" əziyyət çəkmişlər kimi təqdim etmək üçün istifadə edirlər. Buna görə də belə hesab edirlər ki, hazırda azərbaycanlılara qarşı bu cür əməlləri törətmək hüquqları vardır. Xocalıda soyqırımı törədənlər məhz ermənilər olmuşlar. Ermənistanın silahlı qüvvələri tərəfindən Azərbaycanın Xocalı şəhərində 600-dən çox insan - uşaq, yaşlı adamlar, o cümlədən qadınlar qətlə yetirilmişdir. Biz, eyni zamanda, Türkiyə hökumətinin Ermənistana təklif etdiyi müzakirələrin başlanılması və arxivlərin açılması təklifini dəstəkləyirik.

- FRED VİR ("Christian Seicence Monitor"): Azərbaycana tez-tez terrorçuluğa qarşı mübarizədə ABŞ-ın müttəfiqi kimi istinad edilir. Bilmək istəyirəm, İraqda davam edən müharibə baxımından ABŞ-a yardım etmək üçün Azərbaycanın atacağı addımlar hansılar olacaqdır?

- Bizim müxtəlif sahələrdə ABŞ-la çox möhkəm tərəfdaşlıq əlaqələrimiz var. Bunlardan biri antiterror əməliyyatlarıdır. Biz Əfqanıstandakı koalisiya qüvvələrinə dərhal qoşulduq, Kosovoya əsgərlərimizi göndərdik. İraqda müharibə başlayanda biz oraya əsgərlərini göndərən ilk ölkələrdən biri olmuşuq. Yeri gəlmişkən, yalnız bundan sonra, Azərbaycanın İraqa öz əsgərlərini göndərməsindən bir ildən artıq vaxt keçəndən sonra, Ermənistan da geridə qalmamaq üçün öz əsgərlərini deyil, sürücülərini oraya göndərdi.

Bu, bizim ABŞ ilə möhkəm tərəfdaşlığımızın aydın göstəricisi oldu. Biz terrorizmə qarşı mübarizədə əməkdaşlıq edirik. Bu əməkdaşlıq çox əhəmiyyətlidir, onun artıq yaxşı tarixçəsi və hesab edirəm ki, yaxşı gələcəyi vardır. Dediyim kimi, ABŞ ilə enerji, regional inkişaf və antiterror əməliyyatları kimi müxtəlif sahələrdə yaxşı əlaqələrimiz mövcuddur. Biz hesab edirik ki, bu münasibətlərin tarixi Azərbaycanın etibarlı tərəfdaş olduğunu sübut edir.

- DEVİD NAUER (İsveçrənin "Tages Anzeiger Zürich" qəzeti): Rusiya ilə Gürcüstan arasındakı qarşıdurma sizin bu hər iki ölkə ilə münasibətlərinizə necə təsir göstərmişdir?

- Təsir göstərməmişdir və hesab edirəm ki, göstərməyəcəkdir. Belə ki, istər Rusiya, istərsə də Gürcüstan ilə münasibətlərimiz özünəməxsus əhəmiyyətə malikdir. Hər iki ölkə bizim qonşumuzdur. Hər iki ölkə ilə çox yaxşı münasibətlərimiz var və bu münasibətlər strateji tərəfdaşlıq xarakteri daşıyır. Buna görə də Rusiya ilə Gürcüstan arasında baş verənlər münasibətlərimizə təsir göstərməyibdir. Biz xarici siyasətimizi prioritetlərimiz və xalqımızın maraqları əsasında həyata keçiririk. Heç bir ölkənin daxili işlərinə qarışmırıq, digər dövlətlər arasında olan münasibətlərə müdaxilə etmirik. Hesab edirəm ki, bütün ölkələr diqqətlərini öz problemləri üzərində cəmləşdirsələr, dünya daha təhlükəsiz olar, daha proqnozlaşdırıla bilən olar. Biz dostlarımızı bir-birinə dost kimi gör-

mək istərdik.

- CEYMS KİLNER ("Reuters" agentliyi): İki qısa sualla Sizə müraciət etmək istərdim. Siz bildirdiniz ki, həm İran, həm də ABŞ ilə yaxşı münasibətləriniz var. Mənim üçün bilmək maraqlıdır, Siz bu münasibətləri necə tarazlaşdırırsınız?

İkinci sualım iqtisadiyyatla bağlıdır. Azərbaycan iqtisadi artıma görə dünyanın ən sürətlə inkişaf edən ölkələrindən biridir. Siz 20-25 ildən sonra neft gəlirlərinin çox yüksək səviyyədə olacağı təqdirdə, iqtisadiyyatın hansı digər sahələrini inkişaf etdirməyi planlaşdırırsınız?

- Hesab edirəm ki, başqa ölkələrlə əlaqələrimizə dair birinci sualınıza artıq mən cavab vermişəm. Azərbaycan digər ölkələrin qarşıdurma, rəqabət aparacağı yer deyildir. Biz açıq şəkildə bildirmişik ki, Azərbaycanın əməkdaşlıq məkanı olmaqda davam etməsini istəyirik. Ölkələrin bir-biri ilə yaxşı və ya pis münasibətləri ola bilər. Nə üçün Azərbaycan öz siyasətini bəzi ölkələrin əməkdaşlıq etmək istəməməsi faktı üzərində qurmalıdır? Bunun bizə heç bir təsiri yoxdur. Artıq qeyd etdiyim kimi, ABŞ ilə yaxşı münasibətlərimiz var. Bu əməkdaşlığın bir çox nümunələri mövcuddur. Eyni zamanda, bizim İranla da yaxşı münasibətlərimiz var. Bizim siyasətimizdə bu iki element bir-birinə qarşı durmur. Ola bilsin ki, bir gün siyasətimizin bu elementləri regionda daha dinc mühitin yaradılması üçün böyük əhəmiyyətə malik olacaqdır. Azərbaycanın xarici siyasəti müdrik, çox proqnozlaşdırılan və açıqdır.

Neft gəlirlərinə gəlincə deyərdim ki, Azərbaycan 1994-cü ildən həyata keçirilən layihələrdən yalnız keçən ildən etibarən əhəmiyyətli dərəcədə neft gəlirləri əldə etməyə başlamışdır. Əlbəttə, hazırda bütün enerji layihələrimiz reallığa çevrilir. Bakı-Tbilisi-Ceyhan Azərbaycanın tarixi nailiyyətidir. Bakı-Tbilisi-Ərzurum qaz kəməri də ölkəmizin və ümumiyyətlə, regionun inkişafı üçün böyük əhəmiyyət kəsb edir. Biz qarşıdan gələn illərdə ölkəyə nəhəng neft gəlirlərinin axımı ərəfəsindəyik. Əlbəttə, biz 50-70 ildən sonra neftin hasilatı aşağı düşdükdən sonra nələrin baş verəcəyi barədə indidən düşünürük. Biz bu nadir imkandan istifadə etməliyik.

Hazırda biz, əsasən, təhsil və elm sahəsinə investisiya qoyuruq. İnkişaf etmiş ölkələrin təcrübəsi göstərir ki, bu və ya digər ölkənin uğurunu irəlicədən müəyyən edən neft və ya qaz deyil, beyin və texnologiyalardır. Biz müasir Azərbaycan naminə güclü intellektual potensialın yaradılması məqsədi ilə və eyni zamanda, gənclərin dünyada baş verənlərdən xəbərdar olması üçün gələcək nəsillərə, informasiya texnologiyalarına, iqtisadiyyatın qeyri-neft sektoruna sərmayə qoyuruq. Biz Azərbaycandakı bütün məktəblərin kompyuterləşdirilməsi proqramının həyata keçirilməsinə başlamışıq. Gələn ilin sonuna kimi Azərbaycandakı bütün 4500 məktəb, o cümlədən ən ucqar yerlərdəki məktəblər kompyuterlər və internetə çıxışla təmin olunacaqdır. Biz bunu nə üçün edirik? Ona görə edirik ki, gənclərimiz beynəlxalq ictimaiyyətin və dünya iqtisadiyyatının bir hissəsinə çevrilsin.

Digər proqram sənayenin inkişafı ilə bağlıdır. Biz hazırda qeyri-neft sektoruna investisiyaların cəlb edilməsi üzərində işləyirik. Xaricdən və Azərbaycandan qeyri-neft sektoruna sərmayələrin cəlb edilməsi məqsədi ilə kapitalı 100 milyon ABŞ dolları təşkil edən Dövlət İnvestisiya Şirkəti yaratmışıq. Biz bunu neftin tükəndiyi zaman güclü iqtisadiyyata nail olmaq və gələn 5-10 il müddətində neft qiymətlərindən asılılığı minimum həd-

də endirmək məqsədi ilə edirik. Hesab edirəm ki, bu, mümkündür. Əgər biz möhkəm çalışsaq, - biz bunu edirik, - hazırda gündəlikdə olan bütün layihələri həyata keçirsək, iqtisadiyyatımız 5-10 ildən sonra neftdən asılı olmayacaq və Azərbaycan bu regionun mühüm sənaye mərkəzinə çevriləcəkdir.

- "EL CORREO" qəzeti (İspaniya): Əgər, ümumiyyətlə, ölkənin belə arzusu varsa, Azərbaycanın NATO-ya daxil olması mümkünlüyünün perspektivləri necədir?

- Bilirsiniz, bu məsələ təkcə bizdən asılı deyildir. Bu, ikitərəfli prosesdir. Təşkilatlar ölkənin daxil olmasını istəməlidir. Bunu ölkə də istəməlidir və buna hazır olmalıdır. Biz NATO ilə dialoq çərçivəsində də, "Sülh naminə tərəfdaşlıq proqramı" çərçivəsində də çox fəal əməkdaşlıq edirik. İki il əvvəl yeni formata keçmişik. Bu, NATO ilə "Fərdi tərəfdaşlığın fəaliyyət planı"dır. Qeyd etdiyim kimi, NATO qoşunları ilə birlikdə sülhayartma əməliyyatları aparırıq. Əməkdaşlığımız çox səmərəli şəkildə inkişaf edir. Biz bundan çox məmnunuq. Bu əməkdaşlığın haraya aparıb çıxaracağını, onun son mərhələsinin nədən ibarət olacağını zaman və vəziyyətin inkişafı göstərəcəkdir.

- ADEL SMİS (İsveçrənin Roman radiosu): Beynəlxalq Sərhədsiz Reportyorlar təşkilatının bu yaxınlarda mətbuat azadlığı ilə bağlı dərc etdiyi hesabatında Azərbaycan 134-cü yerdədir. Belə görünür ki, bu, yerli jurnalistlərin təqiblər, qorxutma və yüksək dərəcədə korrupsiya ilə bağlı bir sıra şikayətləri ilə əlaqədardır. Sizcə, ölkənizdə mətbuat azadlığının yaxşılaşdırılması üçün imkanlar varmı və bunun üçün hansı tədbirlər görülür?

- Əlbəttə ki, yaxşılaşma üçün imkanlar var. Lakin Azərbaycana və ya hər hansı digər ölkəyə gəldikdə, şəxsən mən bu cür reytinqlərə böyük şübhə ilə yanaşıram. Hesab edirəm ki, belə reytinqlər ölkədəki real vəziyyəti əks etdirmir, bəzən şəxsi yanaşmaya və ya istənilən digər səbəblərə əsaslanır. Çünki demokratiya sahəsində aparıcı hesab olunan dövlətlərin bəziləri bu siyahının ortasında, üçüncü dünya ölkələrindən kifayət qədər aşağıdadır. Bu, o qədər də inandırıcı görünmür. Səmimi deyim ki, belə reytinqlər gündəlik həyatımızda və ya Azərbaycandakı siyasi proseslərdə o qədər də əhəmiyyətli rol oynamır. Dövlət başçısı kimi mən də ona heç bir fikir vermirəm. Bununla yanaşı, əlbəttə ki, vəziyyəti daha da yaxşılaşdırmaq üçün imkanlar var. Azərbaycanın müstəqillik tarixi qısadır. Yalnız 15 ildir ki, biz müstəqil dövlət kimi yaşayırıq. 15 il bundan qabaq ölkəmiz Sovet İttifaqının bir hissəsi idi və siz bunun nə olduğunu başa düşürsünüz. Biz müstəqillik qazandıqdan sonra ilk illər iqtisadiyyatın və siyasi sistemin tam tənəzzülü ilə müşayiət olunmuşdur. Yeri gəlmişkən, bu gün özlərini demokratik müxalifət adlandıranlar o vaxt qəzetləri bağlayır, jurnalistlərə hədə-qorxu gəlir, onları həbs edirdilər. 1992-93-cü illərdə müxalifətdə olan partiyamızın nümayəndələri hədə-qorxuya məruz qalır, qəddar şəkildə döyülürdülər. Bütün bunlar bu gün özlərini demokrat adlandıran şəxslər tərəfindən edilmişdir.

Sonrakı dövrlərdə yenə böyük çətinliklər oldu. Yalnız 1996-cı ilin axırı - 1997-ci ildən başlayaraq vəziyyət sabitləşdi və ölkə sürətlə inkişaf etməyə başladı. Hesab edirəm ki, Azərbaycanda azad mətbuatın təşviqi üçün bir çox işlər görülmüşdür. Azərbaycanda 500-dən artıq qəzet, bir çox televiziya kanalları, radio stansiyaları fəaliyyət göstərir. Senzura yoxdur. Yeri gəlmişkən, Azərbaycanda senzura 1992-93-cü illərdə hakimiyyətdə olan bugünkü müxalifət tərəfindən tətbiq edilmişdir. Azərbaycanda senzura Xalq Cəbhəsi hökuməti tərəfindən tətbiq olunmuşdur. Onlar bunu unutmağa çalışırlar, lakin insanların yadından çıxmır.

Bir sözlə, ölkəmizdə söz və mətbuat azadlığı var. İstədiyiniz qəzeti açsanız burada hökumət, ayrı-ayrı insanlar barəsində xoşagəlməz, təhqiredici məqalələr görə bilərsiniz. Müxalifət qəzetlərində daha çox hücumlar edilən şəxs olmağıma baxmayaraq, Prezident seçilən zaman bütün hökumət rəsmilərinə müraciət edərək, jurnalistləri onların yazdıqları yanlış məlumatlara və etdikləri təhqirlərə görə məhkəməyə verməməyə çağırdım. Bunu mən etdim, heç kim məni buna məcbur etmədi. Hesab etdim ki, bu, ölkənin demokratik inkişafı üçün vacib addımdır. Lakin təəssüf ki, bunun müqabilində gözlədiyimiz olmadı. Bu müraciət təsirsiz qaldı. Jurnalistlərin bir qismi, az bir hissəsi, dərhal belə qərara gəldi, indi onlar heç bir məsuliyyət daşımadan və azərbaycanlıların mentalitetinə diqqət vermədən istədiklərini edə bilərlər. Buna görə də insanlar hər bir demokratik ölkədə olduğu kimi, özlərini məhkəmələrdə müdafiə etməyə başladılar. Buna heç də azad mətbuata təzyiq və ya onu bağlamaq cəhdi kimi baxılmamalıdır. Əsla yox! Azad mətbuat normal inkişafın əsas elementlərindən biridir.

Bir daha qeyd edirəm ki, bizə lazım olan çoxşaxəli inkişafa nail olmaq üçün yaxşı iqtisadi göstəricilərimiz var. Siyasi islahatlar da iqtisadi islahatlarla paralel aparılır. Yalnız bu halda biz uğur qazana bilərik.

- NİV VARTER ("Russia today"): Ermənistan və Rusiya arasındakı tarixi əlaqələri və mədəni bağlılığı və habelə Çeçenistandan qaçqınların Azərbaycana axınını nəzərə alsaq, belə hesab etmirsiniz ki, Moskva Dağlıq Qarabağ münaqişəsinin və ölkənizin qaçqınlar probleminin həllinə maneçilik törədir?

- Rusiya Azərbaycanın qonşusudur. Yeri gəlmişkən deyim ki, o, Ermənistanın qonşusu deyil və onunla sərhədi yoxdur. Rusiya münaqişənin həllinin tapılmasına yardım etmək mandatına malik olan ATƏT-in Minsk qrupunun üç həmsədr ölkədən biridir. Mən sizə deyə bilərəm ki, Rusiya rəsmiləri ilə iş təcrübəmiz və onların bu münaqişənin həlli ilə bağlı apardıqları siyasət müsbətdir. Biz görürük ki, Rusiya hökuməti Ermənistan və Azərbaycanın münaqişənin dinc yolla həllinə nail olmaları üçün səmimi səylər göstərir. Buna görə də 1990-cı illərdə üzləşdiyimiz gərginlik dövrü sona çatmışdır. Biz Rusiya ilə Azərbaycan arasında həll edilməmiş bütün problemlərin aradan qaldırılmasına nail olmuşuq və indi münasibətlərimizi poza biləcək heç bir problem qalmamışdır. Əksinə, iqtisadi, siyasi və mədəni inkişaf sahələrində çox yaxşı nailiyyətlərimiz var.

Bu il Azərbaycanda Rusiya İlidir və o, başa çatmaq üzrədir. Ötən il Rusiyada Azərbaycan İli olmuşdur. Mən artıq bu məsələyə toxunmuşam, başqa dövlətlər arasındakı münasibətlər, onların tarixi və digər əlaqələri bizim aramızda olan münasibətlərə mane olmamalıdır.

Siz qeyd etdiniz ki, Rusiya ilə Ermənistan arasında yaxşı münasibətlər var. Bəli, bu, doğrudur. Lakin mən hesab etmirəm ki, bu, Rusiyanın, Ermənistanla olduğu kimi, Azərbaycanla da yaxşı münasibətlərə malik olmasına mane olur. Hazırda biz bunun şahidi də oluruq. Əgər biz Ermənistan və Azərbaycanın vacibliyini müqayisə etsək, onda hansı ölkənin vacib olduğunu görərik. Əməkdaşlıq, enerji, coğrafi mövqe, siyasi vəziyyət, geosiyasi mövqe baxımından və istənilən digər nöqteyi-nəzərdən Ermənistan ilə Azərbaycanın əhəmiyyətini, əlbəttə ki, müqayisə etmək olmaz. Ona görə də bu, əlavə gərginlik yarada bilən bir element sayıla bilməz.

Qaçqınlara gəlincə, deməliyəm ki, Azərbaycan təcavüz qurbanıdır. Qaçqın həyatının nə

olduğunu biz bilirik. Çeçenistandan insanlar özlərinin və ailələrinin həyatlarını müharibədən xilas etmək üçün Azərbaycana gələndə bir qonşu və dost kimi ölkəmiz ehtiyacı olan insanlar üçün öz qapılarını açdı. Burada, Qafqazda belə qəbul olunubdur.

- BORİS ANZOV: Salaməleyküm. Mən Bolqarıstan informasiya agentliyinin müxbiriyəm. Səmimi qəbula görə Sizin mətbuat xidmətinizə minnətdarlığımı bildirirəm. Mən həm də Rusiya Xalqlar Dostluğu Universitetinin məzunuyam. Bilirəm ki, Siz Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunu bitirmisiniz. Dünən iqtisadiyyat naziri ilə görüşdə naziriniz dedi ki, respublikada gənclərlə bağlı xüsusi dövlət proqramı var. Bu yaxınlarda Rusiya Xalqlar Dostluğu Universitetində Sizin adamların gənclərlə necə işlədiyini gördüm. Həqiqətən, bu, böyük işdir. Biz iki gündür buradayıq və mən Sizin siyasətinizlə bağlı sosioloji sorğu aparmışam. Deyə bilərəm ki, Sizin ünvanınıza bir dəfə də olsun pis fikrə, yaxud tənqidə rast gəlmədim. Hamı deyir ki, Azərbaycanda bütün işlər Sizin köməyiniz sayəsində görülür. Mənim Sizə bir sualım var. Siz Bolqarıstanla Azərbaycanın qarşılıqlı münasibətlərini necə görürsünüz?

- Şərhinizə görə təşəkkür edirəm. Biz həqiqətən də çalışırıq ki, insanların həyatı yaxşılaşsın. Prezident kimi mənim başlıca vəzifəm insanlara xidmət etməkdir. Ola bilsin, bu, çox təmtəraqlı səslənir, lakin həqiqətən belədir. Azərbaycanda görülən bütün işlər insanların daha firavan yaşamasına, iqtisadi durumun yaxşılaşmasına, Azərbaycanın mövqeyinin dünyada və regionda möhkəmlənməsinə xidmət edir. Artıq bu gün həmin mövqelər həlledicidir. Biz istəyirik ki, qanunun aliliyinin hökm sürdüyü, adət və ənənələrimizə çox güclü şəkildə bağlı olan, əməkdaşlıq üçün açıq olan müasir dövlət yaradaq.

Bolqarıstanla münasibətlərimizə gəldikdə isə deməliyəm ki, bu, kifayət qədər yüksək səviyyədədir, bizim çox fəal dialoqumuz var. Ötən il Bolqarıstan Prezidenti Azərbaycana rəsmi səfərə gəlmişdi, bu il isə mən Bolqarıstanda rəsmi səfərdə olmuşam, biz çoxlu ikitərəfli sazişlər imzalamışıq. Biz regional formatda çox fəal əməkdaşlıq edirik. Bolqarıstanın Avropa İttifaqının üzvünə çevriləcəyi bir vaxtda biz Azərbaycanın Avropaya inteqrasiyasının bundan sonra da dəstəklənəcəyinə ümid bəsləyirik. Biz güclü Mərkəzi Asiya-Qafqaz-Qara dəniz hövzəsi qurşağı yaradılması kimi iri regional geosiyasi təşəbbüslər üzərində birgə işləyirik. Bunun üçün ikitərəfli səviyyədə yaxşı perspektivlər var. İndiki halda Azərbaycan çoxtərəfli xarakter daşıyan bir çox təşəbbüslər irəli sürmüşdür. Zənnimcə, bu, etimadın möhkəmlənməsinə, regionun, ölkələrin inkişafına kömək göstərəcəkdir. Məsələn, nəqliyyat məsələsi. Asiya ilə Avropa arasında nəqliyyat əlaqəsindən danışarkən Azərbaycandan yan keçmək olmaz, coğrafiya da buna imkan vermir, üstəlik, biz güclü nəqliyyat infrastrukturu yaradırıq və artıq nəqliyyat mərkəzinə çevrilmişik. Ona görə də həm bu baxımdan, həm ikitərəfli münasibətlər, həm də Avropa İttifaqı-Azərbaycan münasibətləri baxımından Bolqarıstanla əlaqələrimiz çox müsbətdir. Bundan əlavə, sizin ölkəyə səfərimdən çox məmnun qalmışam. Çox əla və gözəl ölkədir, xalqınız mehriban və qonaqpərvərdir. Mən Bolqarıstanda özümü evdəki kimi hiss edirdim. Ona görə də bütün bolqar dostlarıma mənim ən yaxşı arzularımı çatdırmağınızı xahiş edirəm.

- TOT PRİİNS (Bloomberg agentliyi): Keçən həftə ölkənizin hərbi büdcəsi hökumətinizin diqqət mərkəzində olmuşdur. Gələn il hərbi büdcənizin bir milyard dollardan artıq olacağı gözlənilir. Bilmək istərdim ki, hansı silahları və hansı dövlətlərdən alırsınız, əsgərlərinizə təlimi kim keçir?

İkinci sualım da var. Bəzi mətbuat orqanlarında hökumətiniz daxilində parçalanmanın olması barədə məqalələr dərc edilmişdir. Siz bu barədə nə deyə bilərsiniz?

- Nazirlər Kabinetinin son iclasında ilin ötən 9 ayının nəticələrini müzakirə etdik və bu nəticələr çox müsbətdir. Biz dünyada ən yüksək, 34-35 faizlik ümumi daxili məhsul artımına malikik. Dünyada ən yüksək, təqribən 40 faizlik sənaye istehsalı artımına və ola bilsin ki, ən sürətlə artan büdcəyə malikik. Ona görə də biz yalnız hərbi büdcəni ümumi kontekstdən çıxarmamalıyıq. Hərbi büdcə ümumi büdcənin bir hissəsidir. Üç il bundan əvvəl Azərbaycanın büdcəsi 1,5 milyard dollar olanda, əlbəttə ki, hərbi büdcə də aşağı səviyyədə idi. Nəzərə alsaq ki, gələn il Azərbaycanın büdcəsi təxminən 6,5 milyard dollar olacaq, bu halda, əlbəttə, hərbi büdcə də artır. Bu, təbiidir. Çünki bütün digər sahələr - təhsil, səhiyyə, infrastruktur sahəsi üçün ayrılan xərclər də artır. Burada xüsusi heç bir şey yoxdur. Azərbaycanın yalnız hərbi büdcəsi artsaydı, bəzi təşkilatların narahatlığını başa düşərdim.

Lakin bununla yanaşı, biz müharibə vəziyyətindəyik və güclü olmalıyıq. Hazırda danışıqlar, sülh prosesi gedir. Ancaq eyni zamanda, uzaq və yaxın tarixdən anlayırıq ki, güclüsənsə, məqsədlərinə çatmaq üçün qüdrətin və qabiliyyətin varsa, danışıqlar prosesində mövqeyin də güclənməyə başlayır. Biz buna nail oluruq. Biz diplomatik formatda işləyirik, beynəlxalq təşkilatlarla işləyirik.

Keçən ilin yanvar ayında Avropa Şurası kimi təşkilat Ermənistan tərəfindən Azərbaycan ərazilərinin işğalını pisləyən qətnamə qəbul etmişdir. Demək olar ki, on illik fasilədən sonra BMT yenidən bu məsələyə qayıtmışdır və biz postsovet məkanında dondurulmuş münaqişələrə dair məsələnin müzakirə olunması təşəbbüsü ilə çıxış etmişik.

Avropa İttifaqı ilə qonşuluq proqramında münaqişənin Azərbaycanın ərazi bütövlüyünə hörmət əsasında həll edilməsinə dair müddəa var və bu da çox vacibdir. Çünki Ermənistan Azərbaycanın ərazi bütövlüyünü tanımır. Birləşmiş Millətlər Təşkilatı tanıyır, Minsk qrupunun həmsədrləri - ABŞ, Rusiya, Fransa tanıyır, Avropa İttifaqı tanıyır, Ermənistan isə yox.

Eyni zamanda, biz İslam Konfransı Təşkilatı, müsəlman dünyası ilə də əməkdaşlıq edirik. Bu təşkilatın Dağlıq Qarabağ münaqişəsi ilə bağlı qəbul etdiyi qətnamələr də çox müsbətdir. Bu, məsələnin diplomatik tərəfidir. Biz iqtisadi sahədə də fəaliyyət göstəririk. İqtisadi cəhətdən qüdrətlənirik. Ermənistan bu baxımdan bizimlə rəqabət apara bilməz. Vaxt ötdükcə, biz daha da güclü olacağıq, imkanlarımız daha da artacaqdır. Eyni zamanda, biz hərbi sahədə də çalışırıq. Bu, təbiidir. Hər bir dövlət bunu edər. Ola bilsin, gündəliyimizin bu formatı çox genişdir. Lakin Dağlıq Qarabağ münaqişəsinin həlli bizim üçün bir nömrəli məsələdir. Bu münaqişədən başqa bizim heç bir böyük problemimiz yoxdur.

Mən artıq yoxsulluğun azaldılması, işsizlik probleminin həlli və digər məsələlərə toxundum. Lakin Dağlıq Qarabağ probleminə biz bir nömrəli problem kimi baxırıq. Biz bu münaqişənin beynəlxalq hüquq əsasında həll edilməsi üçün zəruri olan bütün işləri görəcəyik.

Hökumətdə parçalanmaya dair qeyd etdiyiniz məqalələrə gəldikdə isə, deməliyəm ki, bütün bunlar jurnalistlərin uydurmasından başqa bir şey deyildir. Bəzən qəsdən belə

yanlış məlumatlar yayılır. Bilirik ki, belə şayiələrin əsas mənbəyi müxalifət qəzetləridir. Bunun səbəbləri müəyyən mənada aydındır. Çünki bu gün Azərbaycanda gördüyümüz vəziyyət hökumətimizə qarşı özlərini müxalifət adlandırmağa çalışan həmin qüvvələrin tam iflası, onların tarixinin sonu deməkdir. Çünki onlar 13 ildir ki, müxalifətdədirlər və bu günə qədər xalqımız üçün cəlbedici ola biləcək heç bir ideya irəli sürməyiblər. Bu 13 il ərzində onların bütün fəaliyyəti hökumətin tənqid olunmasına əsaslanır. Lakin həmin 13 il ərzində hökumət böyük işlər görübdür. Biz boru kəmərləri tikmişik, yaşayış şəraitini yaxşılaşdırmışıq, müasir ölkə yaratmışıq, Avropa Şurası kimi beynəlxalq təşkilatların üzvü olmuşuq. Hazırda biz Avropa İttifaqının qonşusuna çevrilirik. Biz Birləşmiş Ştatların güclü tərəfdaşıyıq, Rusiya ilə yaxşı münasibətlərimiz və tərəfdaşlığımız var. Regionda öz mövqeyimizi tutmuşuq və iqtisadi baxımdan güclüyük. Bütün bunlar müxalifətin bizi tənqid etməyə çalışdığı həmin 13 ildə baş veribdir.

Bu gün xalq Azərbaycanda nəyin baş verdiyini, bizim gündəliyimizdə və onların gündəliyində nəyin olduğunu görür. Bundan əlavə, hər hansı siyasi qüvvə müəyyən bir nailiyyət əldə etməyə çalışdığı zaman, ilk növbədə, özünə və xalqa hörmət etməlidir. Onlar parlament seçkilərində yenidən uğursuzluğa düçar olduqda nə etdilər?! Öz qəzetlərində ABŞ-a hücum etməyə başladılar. Parlament seçkilərindən əvvəl onlar belə şayiələr yayırdılar ki, Qərb Azərbaycanda inqilab planlaşdırır. Təbii ki, bu, tam yanlış məlumat idi. Onlar hər zaman özlərini son dərəcə qərbyönümlü qüvvə kimi təqdim etməyə çalışırdılar. Parlament seçkiləri başa çatdıqdan və təbii ki, heç bir dəstək almadıqdan dərhal sonra onlar Birləşmiş Ştatlara, Avropaya, Avropanın aparıcı ölkələrinə, Avropa təşkilatlarına hücuma keçməyə başladılar. Siz yalnız bunu təsəvvür edin ki, həmin insanlar hakimiyyətə gəlsələr, nələr baş verər?! Onların siyasəti nə ola bilər?! Onların Qərb dünyasına münasibəti necə ola bilər?! Əgər görsələr ki, gözləntilərindən bəziləri reallaşmır, onda arxalarını çevirəcəklər.

Bir sözlə, bu, həmin yazıların əsas mənbəyidir. Onlar hesab edirlər ki, bizi zəiflətmək məqsədi ilə müxalifət üçün, belə desək, yeganə vasitə hökumətdə süni parçalanma yaratmağa çalışmaqdan ibarətdir. Bu da ki, düzgün deyil, hökumətimiz güclü və möhkəmdir. Bizim gücümüz xalqın dəstəyindədir. Buna görə də həmin şayiələr reallıqdan uzaqdır. Biz xalqın əksəriyyəti tərəfindən dəstəklənən çox möhkəm hökumət sisteminə malikik.

Bəzən Azərbaycanda baş verənləri tənqid edirlər. Mən beynəlxalq mətbuatı izləyirəm. Lakin, eyni zamanda, biz görəndə ki, Azərbaycan xalqının tam əksəriyyəti bizi dəstəkləyir, bu o deməkdir ki, biz haqlıyıq, bizi tənqid edənlər isə yox. Bu, əsas nəticədir. Bizim üçün Azərbaycanın dünyada hansı şəkildə təqdim edilməsi, onun beynəlxalq nüfuzu və ölkəmizin imici olduqca vacibdir. Lakin səmimi olaraq deyirəm ki, Azərbaycanın ən ucqar kəndindəki vətəndaşın Azərbaycan və onun hökuməti haqqında nə düşünməsi bir Prezident kimi mənim üçün ən vacib məsələdir. Çünki ölkənin necə olacağını və hökumətin fəaliyyətinin səmərəli olub olmaması ilə bağlı qiymət verilməsini məhz o, həll edir.

AZƏRBAYCAN İLƏ İSLANDİYA ARASINDA ƏLAQƏLƏR İNKİŞAF PERSPEKTİVLƏRİ MÜZAKİRƏ OLUNMUŞDUR

Xarici İşlər naziri Elmar Məmmədyarov İslandiyanın Səhiyyə və Sosial Sığorta Nazirliyinin daimi katibi Devid Qunnarsonun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşmüşdür.

İslandiya hökuməti tərəfindən Dünya Səhiyyə Təşkilatının (DST) baş direktoru vəzifəsinə namizədliyi irəli sürülmüş Devid Qunnarson, seçkiqabağı platforması haqqında ətraflı məlumat vermişdir. O, ölkələrimiz arasında mövcud siyasi, iqtisadi əlaqələrin gələcəkdə daha da genişləndirilməsinin, o cümlədən səhiyyə sahəsində qarşılıqlı əməkdaşlığın inkişaf etdirilməsinin vacibliyini qeyd etmişdir.

E.Məmmədyarov Ermənistanın Azərbaycana qarşı həyata keçirdiyi işğalçılıq və etnik təmizləmə siyasəti nəticəsində ölkəmizdə 1 milyona yaxın qaçqın və məcburi köçkünün ağır şəraitdə yaşadığını diqqətə çatdırmışdır. Nazir səhiyyə sahəsində fəaliyyət göstərən beynəlxalq təşkilatlarla, xüsusilə DST ilə əməkdaşlığın vacibliyini vurğulamışdır.

Görüşdə DST baş direktoru vəzifəsinə seçkilər və D.Qunnarsonun seçkiqabağı platforması ətrafında qarşılıqlı fikir mübadiləsi aparılmışdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İSPANİYANIN SƏHİYYƏ VƏ İSTEHLAK NAZİRİ ELENA SALQADONUN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 30-da Prezident sarayında İspaniyanın səhiyyə və istehlak naziri Elena Salqadonun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Xanım Elena Salqado İspaniya hökumətinin Azərbaycan Respublikasına səfər edən ilk üzvü olduğunu qeyd edərək, bu səfərin ölkələrimiz arasında əlaqələrin genişləndirilməsi üçün mühüm rol oynayacağına ümidvar olduğunu bildirdi. O, hökumətinin Azərbaycan ilə münasibətləri müxtəlif sahələrdə inkişaf etdirməkdə maraqlı olduğunu vurğuladı və iki ölkə arasında əməkdaşlığın gücləndirilməsi üçün yaxşı imkanların olduğunu qeyd etdi.

Dövlətimizin başçısı bu səfərin Azərbaycan ilə İspaniya arasında əlaqələrin genişləndirilməsinə öz töhfəsini verəcəyinə ümidvar olduğunu bildirdi. Bu yaxınlarda ölkəmizin İspaniyada səfirliyinin fəaliyyətə başladığını qeyd edən Prezident İlham Əliyev bunun İspaniya ilə münasibətlərin inkişafına Azərbaycanın verdiyi önəmin göstəricisi olduğunu vurğuladı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AŞPA-NIN MONİTORİNQ KOMİTƏSİNİN AZƏRBAYCAN ÜZRƏ HƏMMƏRUZƏÇİLƏRİ TONİ LLOYD VƏ ANDRES HERKELİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 30-da Prezident sarayında Avropa Şurası Parlament Assambleyasının Monitorinq komitəsinin Azərbaycan üzrə həmməruzəçiləri Toni Lloyd və Andres Herkeli qəbul etmişdir.

Görüşdə Azərbaycanda gedən demokratikləşmə prosesləri, ölkəmizdə siyasi, iqtisadi və digər sahələrdə həyata keçirilən islahatlar, Azərbaycan ilə Avropa Şurası arasında əməkdaşlığın hazırkı vəziyyəti və gələcək perspektivləri barədə fikir mübadiləsi aparıldı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV GÜRCÜSTANIN MƏDƏNİYYƏT, ABİDƏLƏRİN QORUNMASI VƏ İDMAN NAZİRİ GEORGİ QABAŞVİLİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 30-da Prezident sarayında Gürcüstanın mədəniyyət, abidələrin qorunması və idman naziri Georgi Qabaşvilini qəbul etmişdir.

Dövlətimizin başçısı Azərbaycan ilə Gürcüstan arasında münasibətlərin müxtəlif sahələrdə, o cümlədən mədəniyyət, idman və digər humanitar sahələrdə uğurla inkişaf etdiyini vurğuladı. Prezident İlham Əliyev bu səfərin ikitərəfli əlaqələrimizin daha da möhkəmlənməsinə xidmət edəcəyinə ümidvar olduğunu bildirdi.

Georgi Qabaşvili Gürcüstan ilə Azərbaycan arasında münasibətlərin müvəffəqiyyətlə inkişafından ölkəsinin məmnunluğunu ifadə etdi. Səfəri müddətində keçirdiyi görüşlər barəsində dövlətimizin başçısına məlumat verən qonaq əlaqələrimizin bundan sonra da genişlənəcəyinə əmin olduğunu bildirdi.

GUAM ÖLKƏLƏRİ ƏRAZİSİNDƏKİ MÜNAQİŞƏLƏR ÖLKƏLƏRİN ƏRAZİ BÜTÖVLÜYÜ ÇƏRÇİVƏSİNDƏ HƏLL EDİLMƏLİDİR

Xarici işlər naziri Elmar Məmmədyarov oktyabrın 31-də ölkəmizdə səfərdə olan Gürcüstanın xarici işlər naziri Gela Bejuaşvilinin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşmüşdür.

Görüşdən sonra keçirdikləri mətbuat konfransında nazirlər müzakirə etdikləri məsələlər barədə məlumat vermişlər.

Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov bildirmişdir ki, görüşdə ölkələrimiz arasında ikitərəfli əlaqələrin bütün aspektləri müzakirə olunmuşdur. Azərbaycan ilə Gürcüstanın strateji tərəfdaşlıq səviyyəsindəki əməkdaşlığına toxunan E.Məmmədyarov, bu kontekstdə inşası başa çatmış Bakı-Tbilisi-Ceyhan neft, tikintisi davam edən Bakı-Tbilisi-Ərzurum qaz kəmərlərini, habelə Qars-Axalkalaki-Tbilisi-Bakı dəmir yolu layihəsini qeyd etmişdir.

Ölkələrimizin beynəlxalq təşkilatlar çərçivəsində çoxtərəfli münasibətlərinə toxunan nazirlər, ümumi səylər nəticəsində BMT Baş Məclisinin 61-ci sessiyasının gündəliyinə daxil edilmiş "GUAM ərazisindəki dondurulmuş münaqişələr" məsələsinin müzakirəsinin əhəmiyyətini vurğulamışlar. E.Məmmədyarov demişdir ki, bu məsələdə GUAM ölkələrinin ortaq mövqeyi münaqişlərin dövlətlərin ərazi bütövlüyü çərçivəsində həll edilməsindən ibarətdir.

Bildirilmişdir ki, görüşdə humanitar sahədə əlaqələr müzakirə edilmiş, Tbilisidə Nəri-

man Nərimanovun və Cəlil Məmmədquluzadənin ev-muzeylərinin yaradılmasına, Azərbaycan Dram Teatrının açılmasına və Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin abidəsinin qoyulmasına dair fikir mübadiləsi aparılmışdır.

Bundan əlavə, görüşdə Gürcüstanda yaşayan azərbaycanlıların vəziyyəti, habelə Azərbaycan-Gürcüstan dövlət sərhədinin delimitasiyası məsələləri müzakirə mövzusu olmuşdur. Qərara alınmışdır ki, sərhədlərin delimitasiyasına dair dövlətlərarası müştərək komissiyanın növbəti iclası noyabrda Bakıda keçirilsin.

MOSKVADA QİƏT ÖLKƏLƏRİ XARİCİ İŞLƏR NAZİRLƏRİNİN İCLASI KEÇİRİLMİŞDİR

Noyabrın 1-də Moskvada Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı (QİƏT) ölkələri xarici işlər nazirlərinin 15-ci iclası açılmışdır. Rusiyanın xarici işlər naziri S.Lavrovun sədrliyi ilə keçən iclasda Azərbaycan xarici işlər nazirinin müavini Mahmud Məmmədquliyev iştirak edir.

Rusiya Prezidenti V.Putinin iclas iştirakçılarına göndərdiyi məktubda deyilir ki, Qara dəniz regionu Avropa ilə Asiya arasında sıx və səmərəli əlaqələrin inkişafı üçün mühüm coğrafi mövqeyə və potensiala malikdir.

QİƏT ölkələri xarici işlər nazirlərinin ikigünlük görüşü zamanı təşkilatın fəaliyyətinin səmərəsinin artırılması yolları, müxtəlif sahələrdə qarşılıqlı əlaqələrin genişləndirilməsinə dair tədbirlər müzakirə olunacaq, habelə Rusiyanın sədrliyinə yekun vurulacaqdır. Təşkilata sədrlik Serbiyaya keçəcəkdir.

Mahmud Məmmədquliyev AzərTAc-ın müxbirinə bildirmişdir ki, Moskvada qarşılıqlı maraq doğuran bir sıra məsələlər barədə geniş fikir mübadiləsi aparılmış, o cümlədən təşkilata Rusiyanın sədrliyinin yekunları müzakirə olunmuşdur. O demişdir ki, Azərbaycan təşkilatın möhkəmləndirilməsinə, İstanbulda keçiriləcək növbəti zirvə görüşü baxımından QİƏT-in səmərəliliyinin artırılmasına tərəfdar çıxmışdır. Onun sözlərinə görə, QİƏT-in zirvə görüşü çərçivəsində təşkilatın fəaliyyətinin səmərəliliyinin artırılması planına müvafiq dəyişikliklər edilməsi haqqında məsələnin hazırlanması üçün yüksəksəviyyəli ekspertlərdən ibarət qrup yaratmaq ideyası irəli sürülmüşdür. Dəyişikliklər dövlət başçılarının müzakirəsinə veriləcəkdir.

Azərbaycan xarici işlər nazirinin müavini Mahmud Məmmədquliyev demişdir: "QİƏT-in fəal üzvü olan Azərbaycan müntəzəm surətdə təkliflər irəli sürür. Bizim mövqeyimiz həmişə dəqiq və aydındır. Zənnimizcə, təşkilat bu gün çox zəifdir və onun regionda və beynəlxalq aləmdə rolunu gücləndirmək lazımdır. Azərbaycan tərəfi dəfələrlə təklif etmişdir ki, Katiblikdə təşkilata üzv ölkələrin hər birinin nümayəndəsi olsun. Bu məsələni biz çoxdan qaldırmışıq, indi Rusiya da buna tərəfdardır. Fikrimcə, Katiblikdə təşkilatın fəaliyyətinin bütün istiqamətləri - nəqliyyat, energetika və iqtisadiyyatın digər mühüm sahələri üzrə ciddi ekspertlər olmalıdır".

XARİCİ İŞLƏR NAZİRİ İTALİYANIN ATƏT-DƏKİ DAİMİ NÜMAYƏNDƏSİ FRANÇESKO BASKONENİ QƏBUL ETMİŞDİR

2006-cı ilin noyabr ayının 1-də Azərbaycan Respublikasının Xarici İşlər Naziri Elmar Məmmədyarov İtaliyanın ATƏT-dəki daimi nümayəndəsi Françesko Baskoneni qəbul etmişdir.

Səmimi qəbula görə təşəkkürünü bildirən cənab F.Baskone ATƏT-in Bakıdakı ofisinin fəaliyyətindən və hökumət qurumlarının ofislə əməkdaşlığından razı qaldığını bildirmiş, Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin Paris görüşündən sonra nazir Elmar Məmmədyarovun Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində aparılan danışıqların hazırkı mərhələsi ilə bağlı fikirləri ilə maraqlanmışdır.

Öz növbəsində nazir münaqişəsinin həllindən danışan zaman ilk növbədə, bu həllin yalnız Azərbaycanın ərazi bütövlüyü çərçivəsində mümkün olduğunu qeyd etmiş, Dağlıq Qarabağ əhalisinə Azərbaycanın tərkibində ən yüksək özünüidarə statusunun verilməsinin və həm erməni, həm azərbaycanlı icmasının bölgədə birgə dinc yanaşı yaşayışının təmin olunmasının vacibliyini vurğulamışdır. Lakin, ilk öncə erməni silahlı qüvvələrinin işğal olunmuş torpaqları azad etməsinin, qaçqın və məcburi köçkünlərin öz yurdlarına qayıtmasının və sonra bu ərazilərdə həyatın normallaşdırılması üçün işlərin görülməsinin, kommunikasiyaların açılmasının zəruri olduğunu qonağın diqqətinə çatdırmışdır.

Həmçinin nazir Dağlıq Qarabağ ermənilərinin də Azərbaycan vətəndaşları olduğunu və Azərbaycanın ayrılmaz tərkib hissəsini təşkil edən bu bölgənin gələcəkdə inkişaf etdirilməsində hökumətin maraqlı olduğunu nəzərə çatdırmışdır.

Cənab F.Baskone də həllin əsas prinsipləri üzrə razılığın əldə olunmasının zəruriliyini qeyd edərək, münaqişənin tənzimlənməsindən sonra qarşılıqlı etimadın yaranması istiqamətində tədbirlərin görülməsini vacib saymışdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV TÜRKİYƏNİN TƏHSİL NAZİRİ HÜSEYİN ÇELİKİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 2-də Prezident sarayında Türkiyə Cümhuriyyətinin təhsil naziri Hüseyin Çeliki qəbul etmişdir.

Ölkələrimiz arasında müxtəlif sahələrdə, o cümlədən təhsil sahəsində əlaqələrin uğurla inkişaf etdiyini vurğulayan dövlətimizin başçısı Türkiyənin təhsil nazirinin ölkəmizə səfərinin təcrübə mübadiləsi üçün yaxşı imkan yaratdığını bildirdi. Prezident İlham Əliyev Azərbaycanda xeyli türkiyəli, Türkiyədə isə xeyli azərbaycanlı gənclərin təhsil almasının dost ölkələrimizin bu sahədə əlaqələrinin daha da genişləndirilməsində mühüm amil olduğunu nəzərə çarpdırdı.

Azərbaycanın dövlət siyasətində gənclərin təhsilinə böyük diqqət yetirildiyini vurğulayan dövlətimizin başçısı əmin olduğunu bildirdi ki, ölkələrimizin təhsil sahəsində əməkdaşlığı bundan sonra da inkişaf edəcəkdir.

Azərbaycan-Türkiyə əlaqələrinin bütün sahələrdə uğurla inkişaf etdiyini söyləyən qo-

naq təhsil sahəsində əməkdaşlığın da yaxşı səviyyədə olduğunu bildirdi. Ölkəmizə səfərindən məmnunluqla bəhs edən cənab Hüseyin Çelik bu səfərin Azərbaycanda təhsil sahəsindəki inkişafla yaxından tanış olmaq üçün yaxşı imkan yaratdığını bildirdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV XƏZƏRİN KARBOHİDROGEN EHTİYATLARININ İŞLƏNİLMƏSİ ÜZRƏ MƏSLƏHƏT ŞURASININ ÜZVLƏRİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 2-də Prezident sarayında Xəzərin karbohidrogen ehtiyatlarının işlənilməsi üzrə məsləhət şurasının üzvlərini qəbul etmişdir.

Məsləhət şurasının üzvü cənab Stüart Eyzenştat Səngəçal terminalı ilə tanışlıqdan aldıqları xoş təəssüratdan danışaraq dedi ki, orada çox böyük işlər görülür. Diqqəti çəkən məsələlərdən biri də orada təlim mərkəzinin olmasıdır. Azərbaycanlıların terminalın müxtəlif sahələrində çalışması üçün hər il 120 nəfər təlim mərkəzində yüksək hazırlıq keçir.

Təlim mərkəzində məşğələlərin xüsusi əhəmiyyət daşıdığını bildirən dövlətimizin başçısı bu sahədə işlərin çox uğurla getdiyini vurğuladı. Prezident İlham Əliyev dedi ki, biz çalışırıq Azərbaycanda inkişaf edən energetika sahəsi daim bacarıqlı kadrlarla təmin olunsun. İndi həm Səngəçalda, həm də digər sahələrdə çoxlu sayda yerli kadrların çalışmasının əhəmiyyətini vurğulayan dövlətimizin başçısı hazırda azərbaycanlıların həm sıravi işlərdə, həm də yüksək vəzifələrdə nümunə göstərdiklərini bildirdi. Prezident İlham Əliyev gələcəkdə bu sahədə daha böyük işlər görüləcəyinə əmin olduğunu vurğuladı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BP ŞİRKƏTİNİN VİTSE-PREZİDENTİ ENDRYU İNQLİSİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 2-də Prezident sarayında bp şirkətinin vitse-prezidenti Endryu İnqlisi qəbul etmişdir.

Ölkəmizə səfərindən məmnunluğunu bildirən qonaq Azərbaycanda neft sənayesinin, energetika sektorunun davamlı inkişaf etdiyini və bu sahədə böyük uğurlar əldə olunduğunu vurğuladı. "Şərqi Azəri" yatağında on gün bundan əvvəl neft hasilatına başlandığını söyləyən cənab Endryu İnqlis "Şahdəniz" layihəsinin tezliklə başa çatacağını mühüm uğur kimi dəyərləndirdi. O, təmsil etdiyi şirkətin Azərbaycanla əlaqələrinin bundan sonra da uğurla davam edəcəyini bildirdi.

Azərbaycanın yanacaq-energetika sektorunda qısa müddətdə çox böyük irəliləyişin, inkişafın baş verdiyini xatırladan Prezident İlham Əliyev "Azəri-Çıraq-Günəşli" yataqlarında neft hasilatının yüksək həddə yaxınlaşmasını mühüm hadisə kimi dəyərləndirdi. "Şahdəniz" yatağında görülən işləri yüksək qiymətləndirən dövlətimizin başçısı bütün bunların xarici şirkətlərlə, o cümlədən bp şirkəti ilə ölkəmizin on ildən çox davam edən uğurlu əməkdaşlığının gözəl nəticəsi olduğunu bildirdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İORDANİYANIN BAŞ NAZİRİ MƏRUF ƏL-BƏXİTİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 6-da Prezident sarayında İordaniyanın Baş naziri, müdafiə naziri Məruf əl-Bəxitin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Prezident İLHAM ƏLİYEV qonaqlara müraciətlə dedi:

- Hörmətli Baş nazir, hörmətli qonaqlar! Mən sizin hamınızı Azərbaycanda salamlayıram, "Xoş gəlmisiniz!". Mən əminəm ki, ölkəmizə səfəriniz ikitərəfli münasibətlərə çox güclü təkan verəcək və bizim aramızda olan dostluq, qardaşlıq münasibətləri daha da güclənəcəkdir. Biz bütövlükdə ikitərəfli əlaqələrimizin inkişafı ilə bağlı bütün məsələləri çox səmimi şəkildə müzakirə edirik və görürük ki, bu münasibətlər uğurla inkişaf edir.

Əlahəzrət Kral II Abdullanın Azərbaycana rəsmi səfəri, əlbəttə ki, bu işdə çox önəmli addım olmuşdur. Səfər zamanı çox geniş fikir mübadiləsi aparılmış və münasibətlərimiz bir daha təhlil edilmişdir. Siyasi əlaqələr çox yüksək səviyyədədir. Biz çalışmalıyıq ki, iqtisadi əlaqələr də bu səviyyəyə qalxsın. Hələlik iqtisadi sahədə əməkdaşlığımız nə sizi, nə də bizi qane edir. Ticarət dövriyyəsinin artması üçün əməli addımlar atılmalıdır və ölkələrin potensialı buna imkan verir. Mən ümid edirəm ki, nümayəndə heyətinin tərkibində olan nazirlər öz həmkarları ilə görüşəcəklər və beləliklə, iqtisadi sahədə də güclü inkişaf müşahidə olunacaqdır.

Bildiyiniz kimi, artıq bir müddətdir ki, İordaniyada Azərbaycan səfirliyi fəaliyyətə başlayıb və ikitərəfli münasibətlərin bütün sahələrdə inkişafı üçün öz rolunu oynayacaqdır.

Bir sözlə, mən şübhə etmirəm ki, sizin səfəriniz gələcək münasibətlərimiz üçün önəmli addım olacaq və sizi bir daha Azərbaycanda ürəkdən salamlayıram. Əminəm ki, səfəriniz həm uğurlu olacaq, həm də sizin üçün xoş keçəcəkdir.

İordaniyanın Baş naziri MƏRUF ƏL-BƏXİT dövlətimizin başçısına minnətdarlıq edərək dedi: Çox sağ olun, zati-aliləri cənab Prezident! Hər şeydən əvvəl demək istəyirəm ki, Kral çox istəyirdi və çox israrlı idi ki, biz Azərbaycana gələk. İcazə verin, Sizə İordaniya Kralı II Abdullanın hörmət və ehtiramını, salamlarını çatdırım.

Biz bu ölkəyə açıq ürəklə gəlmişik və Azərbaycanla bütün sahələrdə əlaqələrin səviyyəsini öyrənmək və onu inkişaf etdirmək və Sizinlə Kral arasında olan dostluğun səviyyəsinə çatdırmaq istəyirik. Dövlətlərimiz arasında həm siyasi, həm ticarət-iqtisadi, həm də sosial və digər sahələrdə əməkdaşlıq üçün çox geniş imkanlar vardır.

XARİCİ İŞLƏR NAZİRİ İORDANİYA HAŞİMİYYƏ KRALLIĞININ XARİCİ İŞLƏR NAZİRİ ABDELELAH ƏL-XATİB İLƏ GÖRÜŞMÜŞDÜR

2006-cı ilin noyabr ayının 6-da Azərbaycan Respublikasının Xarici İşlər Naziri Elmar Məmmədyarov Azərbaycanda səfərdə olan İordaniya Haşimiyyə Krallığının Xarici İşlər Naziri Abdelelah əl-Xatib ilə görüşmüşdür.

Görüşdə Yaxın Şərqdə vəziyyət, eləcə də İraqdakı son durum ətrafında fikir mübadiləsi aparılmış, beynəlxalq terrorizmlə mübarizədə səylərin artırılması, İKT-yə üzv ölkələr arasında əməkdaşlığın daha da genişləndirilməsinin vacibliyi qeyd edilmişdir. Eyni zamanda, islam dəyərlərinin digər sivilizasiyalar qarşısında müasir tələblərə cavab verəcək səviyyədə təmsil olunmasını təmin etmək məqsədi ilə əməkdaşlığın həm ikitərəfli, həm də çoxtərəfli çərçivədə daha da gücləndirilməsinin zəruriliyi ifadə olunmuşdur.

İordaniya dövlət başçısı Kral II Abdullanın cari ilin avqustun 22-23-də Azərbaycana rəsmi səfərindən sonra iki ölkə arasında əlaqələrin daha da genişləndirilməsindən duyulan məmnuniyyət ifadə edilmişdir. Ölkələrimiz arasında yüksək səviyyədə olan siyasi əlaqələrin sosial-iqtisadi müstəviyə yönəltmək barəsində dövlət başçılarının göstərişlərinin yerinə yetirilməsi məqsədilə yaxın gələcəkdə iki ölkə iş adamlarının iştirakı ilə ticarət və iqtisadiyyat sahəsində fəaliyyət göstərən təşkilatların birgə görüşlərinin keçirilməsi təklifi İordaniya xarici siyasət idarəsinin rəhbəri tərəfindən müsbət qarşılanmış, bunun iki ölkə arasındakı ticarət və iqtisadi əlaqələrinin daha da inkişafına xidmət edəcəyi vurğulanmışdır.

AZƏRBAYCAN RESPUBLİKASININ HÖKUMƏTİ VƏ İORDANİYA HAŞİMİLƏR KRALLIĞININ HÖKUMƏTİ ARASINDA TURİZM SAHƏSİNDƏ ƏMƏKDAŞLIQ HAQQINDA SAZİŞ

7 noyabr 2006-cı il

Bundan sonra "Razılığa gələn Tərəflər" adlandırılacaq Azərbaycan Respublikasının Hökuməti və İordaniya Haşimilər Krallığının Hökuməti,

bərabərlik və qarşılıqlı mənfəət əsasında iki ölkə arasında turist münasibətlərini inkişaf etdirməyə can ataraq,

Sazişin tərəfləri arasında qarşılıqlılıq əsasında turizm sahəsində əməkdaşlığı başlamaq niyyətilə,

aşağıdakılar barədə razılığa gəlmişlər:

MADDƏ 1

Razılığa gələn Tərəflər hər iki xalqın tarixi və mədəniyyətini daha yaxşı anlamaq üçün turizm sahəsində əməkdaşlığı inkişaf etdirməyə və möhkəmləndirməyə çalışacaqlar. Bu məqsədlə Razılığa gələn Tərəflər turizm sahəsində əməkdaşlığı bu Sazişin müddəalarına və milli qanunvericiliyə uyğun şəkildə həyata keçirəcəklər.

MADDƏ 2

Razılığa gələn Tərəflər turizm sahəsində fəaliyyət göstərən müvafiq şirkətlər və təşkilatlar arasında sıx əməkdaşlığı təşviq edərək, bütün mümkün imkanlardan istifadə edib Azərbaycan və İordaniya arasında turizm axınının inkişaf etdirilməsinə yardım edəcəklər. Razılığa gələn Tərəflər hər iki ölkədə qarşılıqlı əsasında turist nəşriyyatının və reklam materiallarının yayılması, eləcədə bütün mümkün texniki və inzibati imkanlardan istifadə edərək, "turist əlaqələrinin" həvəsləndirilməsini və dəstəklənməsini təşviq edəcəklər.

MADDƏ 3

Razılığa gələn Tərəflər turist mübadiləsində özəl sektorun müstəsna rolunu qeyd edirlər və özəl turizm şirkətlərinə onların proqramlarının həyata keçirilməsində müvafiq şəraiti yaradacaqlar.

MADDƏ 4

Razılığa gələn Tərəflər beynəlxalq standartlara uyğun olaraq hər bir tərəfin dövlətini ziyarət edən turistlərin qarşılıqlı təhlükəsizliyini təmin etmək üçün lazımi tədbirlər görəcəklər.

MADDƏ 5

Razılığa gələn Tərəflər hər bir dövlətdə mövcud qanun və qaydalara uyğun olaraq turizm fəaliyyəti və layihələri ilə bağlı təcrübə və məlumat mübadiləsi edəcəklər.

MADDƏ 6

Razılığa gələn Tərəflər hər iki dövlətdə müalicəvi turizm və sağlamlıq mərkəzləri sahələrində əməkdaşlığı təşviq edəcəklər.

MADDƏ 7

Razılığa gələn Tərəflər hər iki dövlətdə dini turizm sahəsində əməkdaşlığı təşviq edəcəklər.

MADDƏ 8

Razılığa gələn Tərəflər hər iki dövlətdə turizm sahəsində investisiya imkanları ilə bağlı məlumat mübadiləsinə yardım edəcəklər.

MADDƏ 9

Bu Saziş, Razılığa gələn Tərəflərin diplomatik kanallar vasitəsilə Sazişin qüvvəyə minməsi üçün bütün dövlətdaxili proseduraların bitməsi barədə göndərdiyi sonuncu yazılı bildirişin tarixindən qüvvəyə minir.

MADDƏ 10

Bu Saziş 5 (beş) il müddətinə qüvvədədir və Razılığa gələn Tərəflərdən biri bu Sazişin qüvvəsinin bitməsinə 6 (altı) ay qalmış Sazişin qüvvəsinin ləğv edilməsi barədə digər tərəfə yazılı bildiriş göndərməzsə, onun qüvvəsi hər dəfə qarşılıqlı razılaşma əsasında növbəti beş illik müddətə uzadılacaqdır. Sazişin qüvvədən düşməsi, Razılığa gələn Tərəflərin başqa qərarı olmayana qədər, tamamlanmayan layihə, proqram və ya digər müvafiq işlərin icrasına təsir etməyəcəkdir.

Bu Saziş Bakı şəhərində 7 noyabr 2006-cı il tarixində Azərbaycan və ingilis dillərində iki əsl nüsxədə imzalanmışdır, hər iki mətn eyni qüvvəyə malikdir.

AZƏRBAYCAN RESPUBLİKASININ İQTİSADİ İNKİŞAF NAZİRİ	İORDANİYA HAŞİMİLƏR KRALLIĞININ PLANLAŞDIRMA VƏ BEYNƏLXALQ ƏMƏKDAŞLIQ NAZİRİ
HEYDƏR BABAYEV	*SÜHEYR ƏL-ƏLİ*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN BELÇİKAYA İŞGÜZAR SƏFƏRİ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 6-da Belçikaya işgüzar səfərə gəlmişdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN BELÇİKA SENATININ SƏDRİ ANN-MARİ LİZENİLƏ GÖRÜŞÜ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 7-də Belçika Senatının binasına gəlmişdir.

Prezident İlham Əliyevi binanın önündə Belçika Senatının sədri xanım Ann-Mari Lizen böyük hörmət və ehtiramla qarşıladı.

Azərbaycan Prezidenti və Belçika Senatının sədri dövlət bayraqları önündə xatirə şəkli çəkdirdilər. Dövlətimizin başçısı Senatın xatirə kitabını imzaladı.

Sonra Azərbaycan Prezidenti İlham Əliyev ilə Belçika Senatının sədri Ann-Mari Lizen arasında təkbətək görüş oldu.

Görüşdə parlamentlərarası əlaqələr, ikitərəfli münasibətlər, regional məsələlər barədə və beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığa dair fikir mübadiləsi aparıldı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN AVROPA PARLAMENTİNİN SƏDRİ XOSEP BORRELL FONTELLES İLƏ GÖRÜŞÜ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 7-də Avropa Parlamentinin binasına gəlmişdir.

Burada dövlətimizin başçısının Avropa Parlamentinin sədri Xosep Borrell Fontelles ilə görüşü oldu.

Görüşdən sonra Avropa Parlamentinin sədri Xosep Borrell Fontellesin adından Azərbaycan Prezidenti İlham Əliyevin şərəfinə nahar verildi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN AVROPA KOMİSSİYASININ ENERJİ MƏSƏLƏLƏRİNƏ DAİR MƏSUL KOMİSSARI ANDRİS PYEBALQS İLƏ GÖRÜŞÜ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 7-də Brüsseldə Avropa Komissiyasının enerji məsələlərinə dair məsul komissarı Andris Pyebalqs ilə görüşmüşdür.

Görüşdə dövlətimizin başçısı Azərbaycanda enerji sahəsində görülən işlərdən, o cümlədən qlobal enerji layihələrindən ətraflı bəhs etdi.

Gələcəkdə Avropanın enerji təchizatçısı kimi Azərbaycanın əhəmiyyətinin xüsusi vurğulandığı görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da fikir mübadiləsi aparıldı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN AVROPA KOMİSSİYASININ SƏDRİ JOZE MANUEL BARROZU İLƏ GÖRÜŞÜ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 7-də Brüsseldə Avropa Komissiyasının sədri Joze Manuel Barrozu ilə görüşmüşdür.

Cənab Barrozu Azərbaycan ilə əməkdaşlığın səviyyəsinin yaxşı olduğunu bildirərək dedi ki, əlaqələrin daha da genişləndirilməsi üçün potensial böyükdür. O, Azərbaycan Respublikası ilə Avropa Birliyi arasında imzalanacaq enerji məsələləri üzrə strateji tərəfdaşlığa dair anlaşma memorandumunun əhəmiyyətini vurğuladı, Azərbaycanın Avropaya inteqrasiyasının Avropa Birliyi üçün də vacibliyini bildirdi. Cənab Barrozu dedi ki, biz Azərbaycanın Avropa Birliyi ilə əlaqələrini yüksək qiymətləndiririk, qonşuluq siyasəti çərçivəsində işbirliyindən məmnunuq, əlaqələrimizdə iqtisadi, o cümlədən enerji sahəsində əməkdaşlıq mühüm yer tutur. Bununla yanaşı, demokratik dəyərlər baxımından da əməkdaşlığımız faydalıdır. Elə etməliyik ki, həm Azərbaycan əhalisi, həm də Avropa Birliyi ölkələrinin əhalisi bunun əməli nəticələrini görsün.

Avropa Birliyi ilə əməkdaşlığı yüksək qiymətləndirən Azərbaycan Prezidenti İlham Əliyev ölkəmizdə gedən iqtisadi inkişaf proseslərindən, yoxsulluğun azaldılması, yeni iş yerlərinin açılması və demokratik islahatlar barədə ətraflı söhbət açdı və bildirdi ki, bütün sahələrdə Avropa dəyərlərinə qovuşmağın bizim üçün böyük əhəmiyyəti var. Dövlətimizin başçısı Azərbaycanın Avropa Birliyinə töhfəsindən də danışaraq, ölkəmizin əlverişli coğrafi mövqeyi, zəngin təbii sərvətləri və geniş nəqliyyat infrastrukturu olduğunu vurğuladı və dedi ki, bu baxımdan Azərbaycan da Avropa üçün böyük əhəmiyyət daşıyır.

Söhbət zamanı Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ məsələsinə də toxunuldu. Prezident İlham Əliyev danışıqlar prosesinin hazırkı mərhələsi, eləcə də Azərbaycanın bu məsələdə mövqeyi barədə məlumat verdi.

Avropa Komissiyasının sədri dedi ki, biz yalnız enerji sahəsində deyil, digər sahələrdə də Azərbaycanla əməkdaşlığın genişləndirilməsində maraqlıyıq.

Görüşdə qarşılıqlı maraq doğuran bir sıra məsələlər də müzakirə olundu.

AZƏRBAYCAN İLƏ AVROPA BİRLİYİ ARASINDA ANLAŞMA MEMORANDUMU İMZALANMIŞDIR

Noyabrın 7-də Azərbaycan Prezidenti İlham Əliyev və Avropa Komissiyasının sədri Joze Manuel Barrozu Azərbaycan Respublikası və Avropa Birliyi arasında enerji məsələləri üzrə strateji tərəfdaşlığa dair anlaşma memorandumu imzaladılar.

Sənədin imzalanmasından sonra mətbuat nümayəndələri üçün keçirilən brifinqdə Avropa Komissiyasının sədri Joze Manuel Barrozu və Azərbaycan Prezidenti İlham Əliyev bəyanatlarla çıxış etdilər.

AVROPA KOMİSSİYASININ SƏDRİ JOZE MANUEL BARROZUNUN BƏYANATI

- Xanımlar və cənablar, xoş gördük!

Prezident İlham Əliyevi ilk dəfə Brüsseldə salamlamaqdan böyük məmnunluq hissi duyuram. Biz indicə Prezident İlham Əliyevlə birlikdə Azərbaycan və Avropa İttifaqı arasında enerji tərəfdaşlığına dair anlaşma memorandumunu imzaladıq. Bu memorandum Komissiyanın davamlı enerji təhlükəsizliyinin təminatı strategiyasının bir nəticəsidir. Bu strategiyada enerji sektorunda əsas neft ixrac edən və tranzit ölkələr arasında əlaqələrin genişləndirilməsinə xüsusi diqqət verilir. Bu anlaşma memorandumunun icrası Azərbaycanın Avropa İttifaqının enerji bazarlarına daha tez inteqrasiyasına kömək edəcəkdir. Xəzər hövzəsindən enerji daşıyıcılarının nəqli nəticəsində Avropa İttifaqının enerji təhlükəsizliyi daha da güclənəcəkdir. Eləcə də bu, Azərbaycanda enerjiyə olan tələbatın daha səmərəli şəkildə idarəedilməsi sisteminin yaradılmasına və təcrübə mübadiləsinə imkan verəcəkdir.

Mən bir fikri xüsusi vurğulamaq istəyirəm ki, Avropa İttifaqının enerji təhlükəsizliyinin təmin edilməsində Xəzər hövzəsindən nəql olunacaq enerji daşıyıcıları böyük rol oynayacaqdır. Biz buna görə Azərbaycana minnətdarıq. Yəni Azərbaycan enerji sahəsində Avropa İttifaqı ilə daha yaxından əməkdaşlıq edəcəkdir.

Eləcə də məmnunluq hissi ilə qeyd edirik ki, Azərbaycan Avropa İttifaqının qonşuluq siyasətinə daxil olub və bu, ölkədə sabitliyə və rifaha öz töhfəsini verəcəkdir.

Təbii ki, enerji və iqtisadi sahədə əməkdaşlıq çox vacib məsələlərdir.

Lakin Azərbaycan ilə Avropa İttifaqı arasındakı əməkdaşlıq təkcə bununla məhdudlaşmır. Avropanın yeni qonşuluq siyasəti daha genişdir. Biz demokratiya, idarəçilik, azadlıq və insan hüquqlarının qorunması kimi ümumi dəyərlərə əsaslanaraq irəli getmək niyyətindəyik. Mən bu məsələlərlə, o cümlədən Azərbaycan mətbuatında söz azadlığı ilə bağlı bəzi məlumatları Azərbaycan Prezidenti ilə hərtərəfli müzakirə etdim. Əminəm ki, cənab Prezident bu barədə sizə əlavə məlumat verəcəkdir.

Biz Azərbaycanla güclü və hərtərəfli münasibətlərin yaradılmasında maraqlıyıq. Təbii ki, islahatlar sahəsində Azərbaycana yardım etməyə hazırıq və bu barədə də fikir mübadiləsi apardıq. Mən çox məmnunluq hissi ilə vurğulamaq istəyirəm ki, Azərbaycan Prezidentinin fikrincə, islahatlar yalnız iqtisadi yox, siyasi sahədə də aparılmalıdır.

Biz Azərbaycana neft və qaz hasilatından gələn gəlirlərin şəffaf şəkildə idarə olunması və iqtisadiyyatın davamlı şəkildə inkişaf etdirilməsi sahəsində də yardım göstərməyə hazırıq. Azərbaycan çətin dövrlərini yaşayarkən Avropa Birliyi ona 400 milyon avrodan artıq məbləğdə yardım göstərmişdir. Amma indi Azərbaycan dünyanın ən sürətlə inkişaf edən ölkələrindən biridir. Mən böyük məmnunluq hissi ilə demək istəyirəm ki, bu gün Azərbaycan və Azərbaycan Prezidenti Avropa İttifaqı ilə qarşılıqlı maraqlara və ümumi dəyərlərə əsaslanan münasibətlərin inkişaf etməsini istəyir.

Cənab Prezident, Brüsselə gəldiyinizə görə, təşəkkür edirəm.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN BƏYANATI

- Çox sağ olun, cənab sədr!

Xanımlar və cənablar!

Mən bu gün Brüsseldə olmağımdan və cənab sədr Barrozu ilə ikitərəfli münasibətlərimizlə və regional inkişafla bağlı məsələləri müzakirə etməkdən çox şadam.

Əlaqələrimizin uzun tarixi var. Azərbaycan öz müstəqilliyini əldə etdiyi vaxtdan etibarən biz hər zaman Avropa İttifaqının dəstəyini hiss etmişik. Xüsusilə də, Azərbaycanın tarixində ən çətin anlarda biz Avropa İttifaqından həm güclü maliyyə dəstəyi, həm də siyasi dəstək almışıq. Azərbaycanın 15 illik müstəqilliyi dövründə ölkəmizin Avropa İttifaqı ilə münasibətləri uğurla inkişaf edir. Bu gün biz münasibətlərimizin yeni bir mərhələsinə qədəm qoyuruq. Avropa İttifaqının Cənubi Qafqazda yeni qonşuluq siyasəti və enerji məsələləri üzrə strateji tərəfdaşlığı çərçivəsində uzunmüddətli tərəfdaşlığa başlayırıq. Hər iki məsələ, əlbəttə ki, Azərbaycan üçün böyük əhəmiyyət kəsb edir və əminəm ki, qarşıdan gələn illər ərzində bu əməkdaşlıqda daha böyük inkişafa nail olacağıq.

Azərbaycanda siyasi və iqtisadi islahatlar paralel şəkildə aparılır və biz demokratik cəmiyyət qururuq. Qanunun aliliyi və insan hüquqlarının qorunması prinsipləri əsas tutulur. Yəni bu iki məsələni biri-birindən ayırmaq olmaz. Bir sözlə, bu məsələlərin Azərbaycan və ümumiyyətlə regional əməkdaşlıq üçün böyük əhəmiyyəti var. Xüsusən də, ölkədəki böyük neft və qaz ehtiyatlarını və parlaq gələcəyimizi nəzərə alaraq, bu məsələlərin ölkə üçün nə qədər vacib olduğunu anlaya bilərik. İndi biz bu məsələyə müxtəlif formada baxırıq. Ona görə Avropa İttifaqı ilə əməkdaşlıq bizim üçün nəinki iqtisadi göstəricilərimizi təkmilləşdirmək, eyni zamanda, gələcək illər ərzində ölkəmizdəki meyarları Avropa İttifaqının meyarlarına daha da yaxınlaşdırmaq imkanı yaradır.

Biz ümumi dəyərləri bölüşürük. Azərbaycanda getdiyimiz yol, qarşımızda duran vəzifələr aydın şəkildə anlaşılır və bu cür məsələlər bizim üçün prioritet xarakter daşıyır. Görüşlərimiz zamanı həmin vacib məsələləri müzakirə etdik və əminəm ki, gələcək illər ərzində Avropa İttifaqı ilə Azərbaycan arasındakı əməkdaşlıq davam etdiriləcək və genişlənəcəkdir. Biz bu əməkdaşlığa qarşılıqlı maraq doğuran və fayda verən yeni elementlər gətirəcəyik.

Azərbaycan olduqca mühüm neft və qaz hasilatçısına çevrilir. Azərbaycanda neft və qaz gəlirlərinin idarə edilməsinin olduqca müasir sistemi var. Azərbaycan hasilat sənayesində gəlirlərin şəffaf şəkildə idarə edilməsi təşəbbüsünə qoşulmuşdur və bu, digər ölkələr üçün nümunə ola bilər. Bu, beynəlxalq maliyyə təsisatları tərəfindən də bildirilmişdir.

Bir sözlə, ölkəmizin iqtisadi göstəriciləri və siyasi inkişafı bu imkanları yaradacaq və Avropa İttifaqı ilə əməkdaşlıq bu çərçivədə aparılır. Siyasi əməkdaşlıq, siyasi və iqtisadi islahatlar, enerji təhlükəsizliyi məsələləri - bunlar hamısı bu baxımdan bizim tərəfimizdən nəzərdən keçirilir. İttifaqı ilə bütün bu məsələlərdə və ümumiyyətlə əməkdaşlığımız bu istiqamətdə gedir.

Mən xoş qəbula görə minnətdaram və apardığımız müzakirələrdən çox məmnunam və demək istəyirəm ki, gələcək əməkdaşlığımıza böyük maraqla baxırıq. Çox sağ olun.

Sonra mətbuat nümayəndələrinin suallarına cavab verildi.

DMİTRİ ŞKURKO (Ukrinform): Mənim sualım Prezident İlham Əliyevədir. Avropa İttifaqı ilə enerji dialoqu çərçivəsində Azərbaycan Odessa-Brodı-Qdansk kəmərinin istifadəsində nə dərəcədə maraqlıdır və Azərbaycan neftinin bu boru kəməri ilə nəqli nə vaxt gözlənilir?

İLHAM ƏLİYEV: Bu məsələ Ukrayna Prezidenti ilə görüşlərimiz zamanı bir neçə dəfə müzakirə olunub və biz bununla bağlı Azərbaycan-Ukrayna birgə işçi qrupu yaratmışıq. Hazırda həmin boru kəmərinin kommersiya tərəfinin, digər iqtisadi amillərin və istismarın müəyyən edilməsi mexanizmləri qiymətləndirilir. Biz görüşlərimiz zamanı Azərbaycanın yalnız boru kəmərinin neftlə doldurulmasında yox, eyni zamanda, neftin nəql olunduğu ölkələrdə neft məhsullarının emalı və paylanmasında da iştirakını müzakirə etdik. Mən bilirəm ki, Avropa İttifaqı bu layihəyə maraq göstərir və bunu da müzakirə etdik. Bu, məsələnin həlli üçün yaxşı bir çərçivədir. Gələcəkdə regionumuzda neft hasilatının həcmi çox böyük olacaq və bu, digər boru kəmərlərinin istifadəsi üçün də kifayət edəcəkdir. Alternativ marşrutların olması bizim üçün də böyük əhəmiyyət kəsb edir. Bu gün Azərbaycandan Avropa və dünya bazarlarına neftin nəqli üçün 3 boru kəməri var və əlavə bir boru kəmərinin olması faydalı ola bilərdi.

"THE OBSERVER" qəzeti (Böyük Britaniya): İnsan hüquqlarına dair hesabatlarda Azərbaycanın adı Belarusla yanaşı çəkilir. Siz dekabr ayında burada Qazaxıstan Prezidentini qəbul edəcəksiniz. Siz Avropa İttifaqının ölkələrlə yaxşı əlaqələri enerji ehtiyatlarına əsasən yaratdığını deyən tənqidçilərə nə deyə bilərsiniz?

JOZE MANUEL BARROZU: Hər şeydən əvvəl gəlin, onu qeyd edək ki, Azərbaycanda müşahidə olunan təkamül müsbət istiqamətdədir. Gəlin, yaddan çıxarmayaq ki, Azərbaycan bu yaxınlarda öz müstəqilliyini qazanıb və demokratik ölkə qurmağa başlayıbdır. Azərbaycanda hazırda siyasi və iqtisadi islahatların aparılması üçün səylər göstərilir. Bu gün bizim apardığımız iş, həm də Azərbaycanda demokratiyanın inkişaf etdirilməsi və qanunun aliliyi ilə bağlıdır. Bu gün mən bu məsələni cənab Prezidentlə görüşüm zamanı qaldırdım və o, vəziyyətlə bağlı öz fikir və təhlillərini söylədi. Biz Azərbaycanla müsbət əlaqələr qururuq və onun çətin regionda yerləşdiyini anlayırıq. Avropa İttifaqının Azərbaycanla əməkdaşlığının ən əhəmiyyətli bir hissəsini siyasi və demokratik islahatlar təşkil edir. Bu, Avropa İttifaqının qonşuluq siyasətinin çox mühüm bir hissəsidir. Azərbaycanla əlaqələrimiz, sadəcə, enerji sahəsi ilə məhdudlaşmır. Prezident İlham Əliyevin qeyd etdiyi kimi, Azərbaycan ilə Avropa İttifaqı arasında əlaqələr ümumi dəyərlərə əsaslanmalıdır və biz bu dəyərləri dəstəkləmək üçün, azərbaycanlı dostlarımızla birgə işləmək üçün bu gün buradayıq.

ALEKSANDR MİNİYEV (Rusiya): Mənim sualım Prezident İlham Əliyevədir. Gürcüstanla Rusiya əlaqələri barədə Sizin fikirlərinizi bilmək istərdik. Qafqaz Sizin regionunuzdur. MDB-nin gələcəyi haqqında da nə deyə bilərsiniz?

İLHAM ƏLİYEV: Adətən, Azərbaycanda biz hər zaman çalışırıq ki, qonşularımızın daxili işlərinə və hökumətlərarası münasibətlərə müdaxilə etməyək. Bizim Gürcüstan və Rusiya ilə yaxşı əlaqələrimiz var. Hər ikisi qonşumuz və tərəfdaşımızdır. Hər ikisi ilə strateji tərəfdaşlıq münasibətlərimiz var. Bu sahədə əldə etdiyimiz müsbət təcrübəmiz haqqında çox danışa bilərdim, lakin vaxtınızı almaq istəmirəm. Hesab edirəm ki, qonşularımız arasındakı normal münasibətlər regional əməkdaşlığa xidmət edəcəkdir. Azərbaycan özünün daxili məsələlərinin həllindən əlavə, regional əməkdaşlığa, enerji sahəsindəki əlaqələrimizə də xüsusi önəm verir. Ona görə potensial risklərin minimum həddə endirilməsi bizim üçün prioritet əhəmiyyət daşıyır. Bu baxımdan da biz öz dostlarımız və qonşularımız arasındakı münasibətləri əsil dostlar arasındakı münasibətlər kimi görmək istəyirik.

"EURO POLİTİKS" qəzeti (Belçika): Mənim sualım Prezident İlham Əliyevədir. 2005-ci ilin mart ayında qətlə yetirilmiş jurnalist Elmar Hüseynovla bağlı sual vermək istərdim. Məlum olduğu kimi, o, Sizin haqqınızda və hökumətiniz haqqında tənqidi yazılar yazırdı. Həmin qətl hadisəsinin lazımi qaydada araşdırılması ölkənizdə mətbuat azadlığına dəstək verməyiniz kimi qəbul edilə bilərdi. Xahiş edirik, bu məsələ ilə bağlı məlumat verəsiniz.

İLHAM ƏLİYEV: Bu qətl hadisəsi Azərbaycana ağır zərbə oldu və həmin hadisənin nəticələri hələ bu gün də bizim gözümüz qarşısındadır. Çünki Azərbaycanda birinci dəfə idi ki, jurnalist bu cür qəddarlıqla qətlə yetirilmişdi. Bilirsiniz, onun yazdığı məqalələri bir yana qoysaq, - çünki o, müxtəlif siyasi dairələrlə bağlı tənqidi yazılar yazırdı, - bu hadisə onu göstərdi ki, Azərbaycandakı daxili sabitliyin pozulmasında maraqlı olan qüvvələr var. Bu hadisə baş verdikdən dərhal sonra biz geniş təhqiqat apardıq, ABŞ-ın, Britaniyanın və Avropadakı təhlükəsizlik orqanlarına da müraciət etdik ki, cinayətkarların tapılmasında bizə yardım etsinlər. Birgə səylər nəticəsində, öz təhqiqatımız əsasında qətlin kimin tərəfindən törədildiyi barədə məlumatı əldə edə bildik. İndi isə biz həmin şəxsləri tapmalıyıq. Biz İnterpolla müvafiq iş aparırıq, çünki hazırda həmin insanlar Azərbaycanda deyil, onun hüdudlarından kənardadır. Ölkədə olmayan cinayətkarı tapmaq bəzən çətin olur. Ona görə bütün dünyada axtarışda olan cinayətkarların tapılması və ədalət mühakiməsinə gətirilməsi bəzən çox çətin olur. Hazırda biz nə edə bilərik? Sadəcə, cinayətdə təqsirli bilinən bu şəxslərin İnterpol tərəfindən tapılmasını və ədliyyə orqanlarına təhvil verilməsini gözləyə bilərik.

- Mənim sualım cənab Barrozuyadır. Bildiyimiz kimi, bu yaxınlarda Azərbaycan və Ermənistan ilə fərdi tədbirlər planı razılaşdırılıb. Bu planda ölkələrin ərazi bütövlüyü, suverenliyi, təhlükəsizliyi və xüsusilə də enerji təhlükəsizliyi məsələləri əks olunubdur. Bilmək istərdim ki, Ermənistanın bu plandakı prinsiplərə zidd getməsinə, yəni Azərbaycanın ərazi bütövlüyünün pozulması məsələsinə Avropa İttifaqı necə baxır?

JOZE MANUEL BARROZU: Əvvəlcə onu demək istəyirəm ki, biz Azərbaycanın ərazi bütövlüyünü, suverenliyini tam tanıyır və dəstəkləyirik. Biz bunu tədbirlər planında qeyd etmişik. Həmin sənəddə deyilir ki, Azərbaycanın müstəqilliyi, suverenliyi və ərazi bütövlüyü Avropada sülhün və sabitliyin qorunmasına öz töhfəsini verəcəkdir. Bu, bizim fəaliyyət planımızda aydın şəkildə ifadə olunubdur.

Ermənistanla münaqişənin olması ilə yanaşı, biz Azərbaycanı Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli istiqamətində səyləri davam etdirməyə çağırırıq. Minsk qrupunun vasitəçilik fəaliyyətini və eləcə də Cənubi Qafqaz üzrə xüsusi nümayəndənin göstərdiyi səyləri dəstəkləyirik. Eyni zamanda, tərəflər arasında razılaşma əldə edildikdən dərhal sonra regionda bərpa və yenidənqurma prosesinə qoşulmağa hazırıq. Mən Prezident İlham Əliyevlə görüşümdə bu fikri bildirdim. Çox sağ olun.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN AVROPA BİRLİYİ ŞURASININ BAŞ KATİBİ, XARİCİ SİYASƏT VƏ TƏHLÜKƏSİZLİK SİYASƏTİ ÜZRƏ ALİ NÜMAYƏNDƏSİ XAVYER SOLANA İLƏ GÖRÜŞÜ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 7-də Brüsseldə Avropa Birliyinin iqamətgahına gəlmişdir.

Binada Azərbaycan Respublikasının dövlət bayrağı asılmışdı.

Prezident İlham Əliyevi binanın önündə Avropa Birliyi Şurasının baş katibi, xarici siyasət və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi Xavyer Solana böyük hörmət və ehtiramla qarşıladı.

Sonra Azərbaycan Prezidenti İlham Əliyevin Avropa Birliyi Şurasının baş katibi Xavyer Solana ilə təkbətək görüşü oldu.

Dövlətimizin başçısı Azərbaycanda gedən siyasi-iqtisadi inkişaf proseslərindən və müxtəlif sahələrdə qazanılan uğurlardan danışdı.

Avropa Birliyinin Azərbaycanla əlaqələrə böyük əhəmiyyət verdiyini bildirən Xavyer Solana bunun müxtəlif sahələrdə, o cümlədən enerji sahəsində əməkdaşlığın inkişafına təkan verəcəyini vurğuladı. O, yeni qonşuluq siyasətindən danışaraq, bunu Azərbaycan-Avropa Birliyi əməkdaşlığının yeni mərhələsi adlandırdı. Xavyer Solana Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli və regional məsələlərlə də maraqlandı.

Prezident İlham Əliyev ölkəmizin Avropa Birliyi ilə münasibətlərə çox böyük önəm verdiyini vurğuladı, "Yeni qonşuluq siyasətinə dair fəaliyyət planı"nın əhəmiyyətindən danışdı və əməkdaşlığın bundan sonra da genişlənəcəyinə əminliyini söylədi. Dövlətimizin başçısı Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı danışıqlar prosesinin hazırki vəziyyəti barədə ətraflı bəhs edərək dedi ki, bu məsələ yalnız və yalnız Azərbaycanın ərazi bütövlüyü prinsipinə əməl olunmaqla həll edilə bilər.

Xavyer Solana Azərbaycanı regionda çox əhəmiyyətli rol oynayan dövlət kimi səciyyələndirdi və ümumiyyətlə, Avropa Birliyinin regionla əlaqələrində ölkəmizlə əməkdaşlığın çox mühüm yeri olduğunu vurğuladı.

PREZİDENT İLHAM ƏLİYEVİN VƏ AVROPA İTTİFAQI ŞURASININ BAŞ KATİBİ XAVYER SOLANANIN BİRGƏ BRİFİNQİ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 7-də Brüsseldə Avropa İttifaqı Şurasının baş katibi, xarici siyasət və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi Xavyer Solana ilə görüşmüşdür.

Görüşdən sonra mətbuat nümayəndələri üçün birgə brifinq keçirildi.

Prezident İlham Əliyev və Xavyer Solana bəyanatlarla çıxış etdilər.

AVROPA İTTİFAQI ŞURASININ BAŞ KATİBİ XAVYER SOLANANIN BƏYANATI

- Xanımlar və cənablar!

Sabahınız xeyir olsun!

İcazənizlə, ilk növbədə onu deyim ki, burada, Brüsseldə ikinci dəfə Azərbaycan Prezidenti cənab İlham Əliyev ilə görüşməkdən olduqca məmnunam. O, Avropanın çoxdankı dostudur və Avropa İttifaqı ilə Azərbaycan və ümumiyyətlə, həmin regionun ölkələri arasındakı münasibətlərin mühüm bir anında buraya səfər etmişdir.

Bu gün Avropa İttifaqı ilə Azərbaycan arasında mühüm sənəd, enerji məsələləri üzrə strateji tərəfdaşlığa dair anlaşma memorandumu imzalanacaqdır.

Gələn həftənin əvvəlində isə Avropa İttifaqının yeni qonşuluq siyasətinə dair Azərbaycan və Cənubi Qafqazın digər ölkələri - Gürcüstan və Ermənistan ilə tədbirlər planı imzalanacaqdır. Təbii ki, biz yeni qonşuluq siyasətinin mühüm hissəsi olan ikitərəfli münasibətləri və gələn həftə həyata keçirilməsinə başlanılacaq tədbirlər planını müzakirə etdik.

Eyni zamanda, enerji sahəsində əməkdaşlıq haqqında danışdıq, regiondakı məsələləri, o cümlədən Dağlıq Qarabağ məsələsini, Gürcüstandakı və ümumiyyətlə, bütün regiondakı vəziyyəti müzakirə etdik. Mən Prezident Əliyevdən çox sualları öyrəndim. Apardığımız danışıqları mühüm və önəmli sayıram və onunla yenidən Bakıda görüşməyimi arzulayıram. Bakıya səfərim mənim yaxşı yadımdadır.

Cənab Prezident, buraya səfər etdiyinizə görə Sizə bir daha minnətdarlığımı bildirirəm. Əminəm ki, yeni qonşuluq siyasətinə dair tədbirlər planı Sizin ölkə və region ilə əlaqələrin gücləndirilməsinə yeni təkan verəcəkdir. Çox sağ olun.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN BƏYANATI

- Çox sağ olun, cənab ali nümayəndə!

Bizə göstərdiyiniz qonaqpərvərliyə görə Sizə minnətdaram. Burada, Brüsseldə yenidən olmağımdan və ikitərəfli əlaqələrimiz, regional proseslərə dair fikir mübadiləsi aparmaq imkanından çox məmnunam.

Bu gün biz Azərbaycan ilə Avropa İttifaqı arasında əməkdaşlığın yeni mərhələsinə başlayırıq. Əminəm ki, bundan sonra olduqca uzun müddət ərzində həyata keçirəcəyimiz daha sıx tərəfdaşlıq, əməkdaşlıq və əlaqələr Azərbaycana siyasi və demokratik islahatları, ölkənin müasirləşdirilməsini, güclü siyasi və iqtisadi sistemin qurulmasını davam etdirmək imkanı yaradacaqdır.

Avropa İttifaqının Cənubi Qafqaz regionuna aid yeni qonşuluq siyasəti gələn beş il ərzində ölkəmizdə siyasi və iqtisadi inkişaf meyarlarının Avropa İttifaqındakı göstəricilərə uyğunlaşdırılmasının əsasını qoyacaqdır. Bu, bizim məqsədimiz və gündəliyimizdə duran məsələlərdir. Avratlantik məkana inteqrasiya sahəsində Azərbaycanın neçə illər ərzində apardığı siyasət həm ölkəmiz, həm də bütövlükdə regional əməkdaşlıq üçün çox böyük nəticələr vermişdir.

Hazırda əməkdaşlığımızın elementlərindən biri enerji sahəsindəki əlaqələrdir. Avropanın etibarlı tərəfdaşı və dostu olan Azərbaycan hamımız üçün get-gedə daha mühüm məsələyə çevrilən enerji təhlükəsizliyində vacib rol oynamaqdadır.

Ümumiyyətlə, mən əməkdaşlığımızı olduqca səmərəli və mühüm hesab edirəm. Bu əməkdaşlıq müstəqilliyimizin qısa dövrü, yəni 15 ili ərzində ölkəmizdə sürətlə inkişaf edən iqtisadiyyat, güclü siyasi sistem qurmaq imkanını yaratdı və Avratlantik məkana inteqrasiya arzumuzu möhkəmləndirdi.

Mən Azərbaycanın böyük dostu cənab Xavyer Solananı ölkəmizə səfərə dəvət etdim. O, Azərbaycanda dəfələrlə olubdur. Əminəm ki, gələcək səfəri zamanı cənab Solana ölkəmizdəki bir çox dəyişiklikləri görəcək və biz öz dialoqumuzu olduqca səmimi və açıq formada davam etdirəcəyik. Avropa və Azərbaycanın gələcəyi naminə əməkdaşlığımız irəli gedəcəkdir. Sağ olun.

Sonra jurnalistlərin suallarına cavab verildi.

"AZAD AVROPA" RADİOSU: Sualım Prezident Əliyevədir. Siz Rusiya ilə müqayisədə ölkənizi Avropa İttifaqı üçün enerji təchizatında alternativ kimi görürsünüzmü?

İLHAM ƏLİYEV: Biz ölkəmizi heç vaxt hər hansı digər ölkənin alternativi hesab etməmişik. Biz, sadəcə, öz işimizi yerinə yetirmişik. Ölkəmiz və bütün region üçün düzgün olan işləri görmüşük. Bizim indiki enerji infrastrukturumuz böyük həcmdə neft və qazı Avropa və dünya bazarlarına çıxarmaq imkanı yaradır. Bu siyasətin əsası 1994-cü ildə qoyulmuşdur. Artıq 10 ildir ki, biz bu siyasəti həyata keçiririk. Bir daha demək istəyirəm ki, həmin siyasətin məqsədi ölkəmizin tələbatının ödənilməsindən, sürətli iqtisadi inkişafdan ibarətdir. Bu gün isə Avropadakı və dünyadakı vəziyyət 10 il əvvəl olan vəziyyətdən fərqlənir. Bu səbəbə görə də enerji təhlükəsizliyi məsələləri get-gedə daha böyük əhəmiyyət kəsb edir. Azərbaycan isə öz neft və qaz ehtiyatları, mövcud olan enerji infrastrukturu və boru kəmərləri ilə, təbii ki, dünyanın və regionun enerji təhlükəsizliyində mühüm rol oynaya bilər.

FƏRİD İSKƏNDƏROV (Azərbaycanın "Space" telekanalı): Azərbaycanın Avropa İttifaqı üçün vacibliyi nədən ibarətdir və enerji sahəsindən başqa, digər sahələrdəki əməkdaşlığın gələcək perspektivlərini necə görürsünüz?

XAVYER SOLANA: Prezidentin dediyi kimi, Azərbaycan ilə Avropa İttifaqı arasındakı münasibətlər yeni mərhələyə qədəm qoyur. Yeni qonşuluq siyasətinə dair tədbirlər planının həyata keçirilməsi gələn həftənin ikinci günündən etibarən başlanacaqdır və bu təkcə enerji sahəsinə aid deyildir. Burada bir çox digər müddəalar da vardır. Prezident həmçinin vurğuladı ki, siyasi, iqtisadi və digər sahələrdə dəyişikliklərin olması üçün çox işlər görülür və bu faydalıdır. Biz Azərbaycanla ikitərəfli münasibətlərimizi dərinləşdirmək əzmindəyik və bu, təkcə enerji sahəsini əhatə etmir. Baxmayaraq ki, o, vacib sahədir. Azərbaycan yalnız enerji məhsulları ölkəsi deyil, regionun mühüm ölkəsidir. Biz Cənubi Qafqaz regionunun üç ölkəsi - Azərbaycan, Ermənistan və Gürcüstan ilə münasibətlərin dərinləşməsində maraqlıyıq. Biz nəinki siyasi münasibətlər, o cümlədən regional əlaqələr də qurmalıyıq.

Bu barədə Prezidentlə söhbət etdik və o, bununla razılaşdı. Ölkənizdə hazırda gedən sürətli inkişaf regional inteqrasiyada öz rolunu oynayacaqdır.

"NEZAVİSİMAYA QAZETA" (Rusiya): Sualım Prezident Əliyevədir. Sizin Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı konsepsiyanız nədən ibarətdir?

İLHAM ƏLİYEV: Mövqeyimiz tam aydındır və hər zaman beynəlxalq hüquq normaları və prinsiplərinə arxalanır. Dünyanın istənilən yerində münaqişənin həllinə ehtiyac duyularsa, beynəlxalq hüquq normaları və prinsipləri həmin münaqişəyə tətbiq olunmalıdır. Azərbaycanın ərazi bütövlüyü, yalnız Ermənistan istisna olmaqla, beynəlxalq ictimaiyyət, Birləşmiş Millətlər Təşkilatı və bütün ölkələr tərəfindən tanınır. Münaqişə yalnız bu əsaslarla həll oluna bilər. Azərbaycanın işğal olunmuş torpaqları qaytarılmalı, işğala son qoyulmalı, etnik təmizləmə siyasətindən əziyyət çəkmiş bir milyon azərbaycanlı qaçqın və məcburi köçkün öz doğma torpaqlarına qayıtmalıdır. Bu halda, Dağlıq Qarabağ ermənilərinə dünyada mövcud olan ən yüksək muxtariyyət statusu verilə bilər. Bu, beynəlxalq təcrübədir. Milli azlıqlar və muxtariyyətlər Avropada bir çox ölkədə var. Azlıq olmaq o demək deyil ki, siz torpağın müəyyən hissəsini qoparıb özünüzü müstəqil elan edə bilərsiniz. Bir sözlə, tərəfdar çıxdığımız bu əsas prinsiplər bunlardır və münaqişənin həlli üçün yaxşı zəmin ola bilər. Sağ olun.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN BELÇİKA PARLAMENTİ NÜMAYƏNDƏLƏR PALATASININ SƏDRİ HERMAN DE KROO İLƏ GÖRÜŞÜ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 8-də Belçika parlamentinin binasında Nümayəndələr palatasının sədri Herman de Kroo ilə görüşmüşdür.

Palatanın sədri dövlətimizin başçısını böyük hörmət və ehtiramla qarşıladı.

Prezident İlham Əliyev və Nümayəndələr palatasının sədri Herman de Kroo xatirə şəkli çəkdirdilər.

Dövlətimizin başçısı nümayəndələr palatasının fəxri qonaqlar kitabını imzaladı.

Sonra Nümayəndələr palatasının sədri Herman de Kroonun adından Prezident İlham Əliyevin şərəfinə nahar verildi.

Süfrə arxasında söhbət zamanı cənab Herman de Kroo Azərbaycan Prezidenti İlham Əliyevin Belçikaya səfərinin xüsusi əhəmiyyət daşıdığını bildirərək dedi ki, biz bu səfərə böyük diqqət yetiririk. Azərbaycan Avropa Birliyinin yeni qonşuluq siyasətində fəal iştirak edir.

Palatanın sədri Azərbaycanın enerji təchizatı imkanlarının çox böyük olduğunu, ölkəmizdə şəffaflıq siyasətinin həyata keçirildiyini və sürətli iqtisadi inkişafı xüsusi vurğuladı.

Azərbaycan Prezidenti İlham Əliyev cənab Herman de Kroonun Bakıya səfərini xatırlatdı, ölkəmizin regionda rolundan, Azərbaycanda gedən iqtisadi inkişaf proseslərindən söhbət açdı, iqtisadiyyatımızın Avropa bazarlarına açıq olduğunu bildirdi. Dövlətimizin başçısı dedi ki, yeni qonşuluq siyasəti çərçivəsində Avropa Birliyi ilə əməkdaşlığımız davam edir və bunun praktik nəticələri göz qabağındadır. Avropaya inteqrasiya Azər-

baycanın siyasətinin əsas istiqamətlərindən biridir və dəyərlərimizin Avropa dəyərlərinə yaxınlaşmasına yaxından kömək edir.

Söhbət zamanı Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə toxunuldu, regional və bir sıra başqa məsələlər barədə fikir mübadiləsi aparıldı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN BELÇİKANIN BAŞ NAZİRİ Gİ VERHOFSTADT İLƏ GÖRÜŞÜ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 8-də Brüsseldə, Belçikanın Baş naziri Gi Verhofstadt ilə görüşmüşdür.

Görüşdə ikitərəfli münasibətlərin genişləndirilməsinin vacibliyi vurğulandı. Bildirildi ki, iqtisadi əlaqələrin hazırkı səviyyəsi qənaətbəxş deyil, lakin bunun genişləndirilməsi üçün potensial imkanlar böyükdür.

Ölkəmizlə Avropa Birliyi arasında energetika sahəsində əməkdaşlığın, iqtisadi əlaqələrin genişləndirilməsi üçün Belçika şirkətlərinin Azərbaycana yaxından cəlb olunmasının əhəmiyyəti, biznes forumunun keçirilməsinin vacibliyi vurğulandı.

Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli və qarşılıqlı maraq doğuran bir sıra məsələlər ətrafında da fikir mübadiləsi edildi.

Azərbaycan Prezidenti İlham Əliyev Belçikanın Baş nazirini ölkəmizə səfərə dəvət etdi. Dəvət məmnunluqla qəbul olundu.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NATO-NUN BAŞ KATİBİ YAAP DE HOOP SXEFFER İLƏ GÖRÜŞÜ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 8-də NATO-nun qərargahına gəlmişdir.

Dövlətimizin başçısını binanın önündə NATO-nun baş katibi Yaap dc Hoop Sxeffer böyük hörmət və ehtiramla qarşıladı.

Azərbaycan Prezidenti İlham Əliyev və NATO-nun baş katibi Yaap de Hoop Sxeffer NATO-nun bayrağı önündə xatirə şəkli çəkdirdilər.

Sonra Prezident İlham Əliyev ilə NATO-nun Baş katibi Yaap de Hoop Sxeffer arasında təkbətək görüş oldu.

Dövlətimizin başçısı NATO ilə əməkdaşlığın uğurla inkişaf etdiyini, "Fərdi tərəfdaşlığın fəaliyyət planı" çərçivəsində görülən işləri bunun yaxşı nümunəsi kimi səciyyələndirdi. Azərbaycan rəhbəri NATO ilə əməkdaşlığın bundan sonra daha da genişlənəcəyinə əminliyini söylədi.

Prezident İlham Əliyev bir daha təsdiqlədi ki, NATO-ya, Avropa Birliyinə və digər Avratlantik strukturlara inteqrasiya Azərbaycanın siyasətinin əsas istiqamətlərindən biridir. Dövlətimizin başçısı iqtisadiyyat, enerji sahələrində əməkdaşlıq məsələlərinə də toxunaraq dedi ki, NATO enerji təhlükəsizliyi ilə birbaşa məşğul olan təşkilat olmasa da, bu məsələyə də mühüm diqqət yetirir. Azərbaycan sülhməramlıları NATO hərbçi-

ləri ilə birlikdə Əfqanıstanda, Kosovoda və İraqda sabitliyin qorunmasında, sülhyaratma əməliyyatlarında fəal iştirak edir. Azərbaycan Prezidenti özünün indiki səfərinin əməkdaşlığın genişlənməsi baxımından çox böyük əhəmiyyət kəsb etdiyini bildirdi.

Baş katib Yaap de Hoop Sxeffer "Fərdi tərəfdaşlığın fəaliyyət planı" çərçivəsində Azərbaycanla əməkdaşlığı NATO adından yüksək qiymətləndirdi. O, əməkdaşlığın daha da genişlənəcəyinə əmin olduğunu bildirərək dedi ki, NATO-nun rəhbərliyi də bunda maraqlıdır. NATO-nun yüksək vəzifəli nümayəndələrinin Azərbaycana səfərləri bunu bir daha təsdiqləyir.

Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi barədə də söhbət getdi.

Hazırda Praqa prosesi çərçivəsində aparılan danışıqlar barədə məlumat verən Prezident İlham Əliyev Azərbaycanın mövqeyini bir daha açıqlayaraq dedi ki, münaqişə sərhədlərin toxunulmazlığı, ərazi bütövlüyü prinsipi əsasında həll oluna bilər.

Görüşdə Azərbaycanın Avropa Birliyi ilə əməkdaşlığı, enerji təhlükəsizliyi, regional məsələlər və qarşılıqlı maraq doğuran digər mövzular da müzakirə olundu.

[redacted]

Sonra Prezident İlham Əliyev Şimali Atlantika Şurasında çıxış etdi. Daha sonra NATO-ya üzv dövlətlərin Şuradakı daimi nümayəndələri, səfirləri ilə müzakirələr aparıldı.

[redacted]

Görüşdən sonra Prezident İlham Əliyev və NATO-nun baş katibi Yaap de Hoop Sxeffer birgə mətbuat konfransı keçirərək, bəyanatlarla çıxış etdilər.

NATO-NUN BAŞ KATİBİ YAAP DE HOOP SXEFFERİN BƏYANATI

- Sabahınız xeyir!

Mən, səfirlər və Şimali Atlantika Şurası Azərbaycan Prezidenti cənab İlham Əliyevi burada bir daha salamlamaqdan olduqca məmnunuq. Fikrimcə, onun səfəri bir sıra səbəblərə görə böyük əhəmiyyət kəsb edir.

İlk növbədə, onu deməliyəm ki, NATO üzrə müttəfiqlər Azərbaycan ilə müxtəlif aspektlərdə əməkdaşlığı yüksək qiymətləndirirlər. Bildiyiniz kimi, "Fərdi tərəfdaşlığın fəaliyyət planı" mövcuddur. Biz müdafiə islahatları, təsisat dəyişiklikləri kimi məsələlər üzərində birgə işləyirik. Həmin məsələlər ətrafında geniş fikir mübadiləsi aparıldı. Azərbaycanda iqtisadi inkişaf, güclü siyasi sistemin qurulması, demokratikləşmə, mətbuat azadlığı və sair sahələrə aid Prezidentin verdiyi məlumatlar nəzərə alındı. Burada aydınlıq var.

Prezident Əliyevin bu gün səhər buraya gəlməsinin ikinci səbəbi də var. Bu, Azərbaycanın regiondakı mühüm mövqeyi və rolu ilə bağlıdır. Region həssasdır, orada qeyri-sabitlik riskləri var. Onu da qeyd edim ki, qonağımız böyük həcmdə karbohidrogenlər ixrac edən ölkənin başçısıdır. Bu amil təkcə iqtisadiyyatla yox, həm də strategiya və geosiyasətlə bağlıdır. Prezident olduqca maraqlı çıxış etdi. Həmin məsələlər ətrafında maraqlı müzakirələrimiz oldu.

Bir sözlə, vaxtınızı çox almaq istəmirəm. Cənab Prezident, Sizin səfəriniz, danışıqlarda

səmimiliyiniz yüksək qiymətləndirilir. Artıq dediyim kimi, biz çox geniş məsələləri müzakirə etdik. Hesab edirəm ki, Prezident Əliyevin səfəri Azərbaycan-NATO münasibətlərinin daha da intensivləşdirilməsinə xidmət edəcəkdir. Biz "Fərdi tərəfdaşlığın fəaliyyət planı" üzərində işləyirik. Azərbaycan fəal çalışır. Beləliklə, cənab Prezident, Sizi burada görməyimizdən çox məmnunuq.

Üzr istəyirəm, icazənizlə, mən əlavə edim. Bu məsələni yaddan çıxarmaq istəmirəm, yoxsa, səhv buraxmış olaram. Azərbaycanın Əfqanıstan və Kosovodakı kimi vacib əməliyyatlarda iştirakı NATO və onun tərəfdaşları üçün böyük əhəmiyyət kəsb edir. Mən bunu yaddan çıxara bilmərəm, çünki bu addım Azərbaycanı təhlükəsizliyin vacib təminatçısına çevirir. Bir halda ki, təşkilatımız bu gün bir çox yerlərdə əməliyyatlar aparır, bu məsələ NATO çərçivəsində çox mühümdür. Üzr istəyirəm, cənab Prezident, mən bunu yaddan çıxara bilməzdim.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN BƏYANATI

- Çox sağ olun, cənab baş katib. Qonaqpərvərliyinizə görə minnətdaram.

Bu gün NATO-Azərbaycan münasibətlərinin gələcək inkişafında olduqca vacib gündür. Əlaqələrimizin tarixi uzundur. On ildən artıqdır ki, biz sıx əməkdaşlıq layihələri üzərində çalışmışıq. Biz "Sülh naminə tərəfdaşlıq" proqramından başladıq, indi isə, "Fərdi tərəfdaşlığın fəaliyyət planı" ilə məşğuluq. Həmin plan siyasi sistemimizin bütün sahələrini əhatə edir. Müdafiə, iqtisadi və siyasi sahələrdə aparılan islahatların hamısı bir-biri ilə bağlıdır. Xəzərin neft və qaz yataqlarının əhəmiyyətini, onların enerji təhlükəsizliyi və ümumiyyətlə, regional təhlükəsizlik üçün vacibliyini nəzərə alsaq, təbii ki, bütün bunlar əlaqələrimizə yenilik gətirir.

Əlaqələrimizin müsbət və çox yaxşı tarixi var. Bu gün isə, həmin münasibətlərin, demək olar ki, yeni mərhələsi başlayır. Baş katiblə bizim ikitərəfli münasibətlər, regional təhlükəsizlik və inkişaf məsələləri haqqında çox əhatəli və geniş müzakirələrimiz oldu. Eyni zamanda, Şimali Atlantika Şurasında ideyalarımız, planlarımız barədə uzun və çox açıq, səmimi söhbətimiz oldu. Əvvəlki nailiyyətlərimizi nəzərdən keçirdik və gələcək əməkdaşlıq üçün çox möhkəm əsaslar qoyuldu. Azərbaycan qonşuluqda daha təhlükəsiz mühitin yaradılmasında oynadığı mühüm rolunu davam etdirəcəkdir. Biz Kosovo ilə Əfqanıstanda sülhməramlı əməliyyatlarda iştirakımızı davam etdirəcəyik. Hesab edirəm ki, bu, bizim gənc, lakin NATO-nun əsil və etibarlı tərəfdaşı olmaq üçün öz potensialını artıran ölkəmiz üçün çox vacibdir.

İqtisadi və siyasi islahatlar, cəmiyyətin demokratikləşməsi, sosial və müdafiə islahatları hamısı bir-biri ilə bağlıdır. Bütün bunlar güclü iqtisadi və siyasi sistemə malik olan ölkənin formalaşmasına, eləcə də dostlarımız və müttəfiqlərimizlə möhkəm əlaqələrin inkişafına imkan yaradacaqdır.

Sonra jurnalistlərin suallarına cavab verildi.

ASSOŞİEYTED PRESS agentliyi: Cənab baş katib, mən bilmək istərdim, apardığınız danışıqlarda enerji təhlükəsizliyi nə dərəcədə müzakirə olundu? Bilirəm ki, dünən enerji məsələlərinə dair məsul komissar Pyebalqsla bu məsələ ilə bağlı görüş keçirilibdir.

YAAP DE HOOP SXEFFER: Təbii ki, söhbətlərimiz mühüm rol oynayır. Xüsusən də nəzərə almalıyıq ki, keçmişdə enerji təhlükəsizliyi sahəsində işləmiş cənab Prezident bu məsələ üzrə ekspertdir. Azərbaycan bu sahədə çox mühüm ölkədir, yəni bundan sonra neft və qaz təchizatı sahəsində daha böyük rol oynamağa başlayacaqdır. Çünki, bildiyiniz kimi, neft hasilatı həm cənab Prezidentin, həm də ekspertlərin dediyi kimi, gözəçarpan dərəcədə artacaqdır.

Fikrim ondan ibarətdir ki, enerji təchizatına gəldikdə, NATO bu sahədə aparıcı təşkilat olmasa da, enerji təhlükəsizliyi ilə bağlı müzakirələr təşkilatımız üçün çox vacibdir. Bu məsələlər NATO çərçivəsində nəzərdən keçirilir. Həmin məsələlər dünən komissar Pyebalqs ilə də qeyri-formal qaydada müzakirə edildi. Əgər Siz Azərbaycana və regiona nəzər salsanız, aydın şəkildə görərsiniz ki, enerji təchizatı və boru kəmərlərinin çəkilməsi enerji təhlükəsizliyində mühüm rol oynayır.

Mən bir daha deyirəm ki, bu məsələlər NATO-nun birbaşa səlahiyyətinə aid deyil, təşkilatımız bu sahədə aparıcı rol oynamır və oynamayacaqdır. Lakin enerji təhlükəsizliyinə dair müzakirələrin siyasi və geosiyasi tərəfləri bizim üçün maraqlıdır. Biz və səfirlər bu fürsətdən istifadə edərək, həmin məsələləri Prezident Əliyev ilə geniş şəkildə müzakirə etdik.

FƏRİD İSKƏNDƏROV ("Space" televiziyası, Azərbaycan): Sualım cənab Sxefferədir. Cənubi Qafqaz regionundakı münaqişələrin həllinə NATO hansı konkret töhfə verə bilər? Sağ olun.

YAAP DE HOOP SXEFFER: NATO birbaşa iştirakçı və vasitəçi deyil, lakin region ölkələri ilə yaxşı münasibətləri var. Bizim Azərbaycanla çox yaxşı əlaqələrimiz var. Bu gün Prezident Əliyevlə biz bunu vurğuladıq. Ermənistan da NATO-nun tərəfdaşıdır. Bu yaxınlarda biz Gürcüstanla intensiv dialoq mərhələsinə başlamışıq. Təbii ki, NATO-nun tutduğu əsas mövqe region ölkələrinin ərazi bütövlüyünə hörmətlə yanaşmadan ibarətdir. İstər Azərbaycan, Gürcüstan və ya regiondakı hər hansı digər ölkə olsun.

Həmin dialoq çərçivəsində dəfələrlə vurğulamışıq ki, bütün münaqişələr dinc yolla, vasitəçilik əsasında öz həllini tapmalıdır. Təbii ki, biz Dağlıq Qarabağ məsələsini Prezident Əliyev ilə geniş şəkildə müzakirə etdik. O, mənə və səfirlərə həmin dondurulmuş münaqişə ilə bağlı öz fikirlərini söylədi. Bizim hamımız ümid edirik ki, münaqişə vasitəçilərin yardımı ilə sülh danışıqları əsasında nizamlanacaqdır.

Beləliklə, NATO-nu regionda birbaşa iştirakçı kimi dəyərləndirməyin. Çünki NATO Cənubi Osetiya və Abxaziyada birbaşa rol oynamır. Dağlıq Qarabağ məsələsi ilə NATO yox, Minsk qrupu məşğul olur. Lakin biz region ölkələri ilə olan münasibətlərimizdən və tərəfdaşlığımızdan istifadə edirik. Bilirik ki, region həssasdır və bunu nəzərə alaraq, biz bütün elementləri müzakirə etmək məqsədi ilə həmin tərəfdaşlıqdan tam şəkildə istifadə edirik. Bu, NATO-nun regiondakı mühüm tərəfdaşları ilə birgə oynadığı roldur.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ATƏT-İN HAZIRKI SƏDRİ, BELÇİKANIN XARİCİ İŞLƏR NAZİRİ KAREL DE QUXT İLƏ GÖRÜŞÜ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 8-də Brüsseldə, onun üçün ayrılmış iqamətgahda ATƏT-in hazırkı sədri, Belçikanın xarici işlər naziri Karel de Quxt ilə görüşmüşdür.

Görüşdə Azərbaycan ilə ATƏT arasında əməkdaşlıq, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli və qarşılıqlı maraq doğuran bir sıra başqa məsələlər müzakirə olundu.

KRAL BEYNƏLXALQ ƏLAQƏLƏR İNSTİTUTUNDA SİYASİ BRİFİNQ

Noyabrın 7-də Brüsseldə Kral Beynəlxalq Əlaqələr İnstitutunda siyasi brifinq keçirilmişdir.

Azərbaycan Prezidenti İlham Əliyevi institutun baş direktoru Klod Mission və digər rəsmi şəxslər böyük hörmət və ehtiramla qarşıladılar.

"Avropa İttifaqı-Azərbaycan: enerji sahəsində və digər sahələrdə əməkdaşlıq" mövzusuna həsr olunmuş diskussiyada bir sıra ölkələrin Brüsseldə akkreditə olunmuş səfirləri, beynəlxalq təşkilatlar yanında daimi nümayəndələri, Belçikanın tanınmış elm xadimləri, nüfuzlu siyasətçilər, politoloqlar, beynəlxalq təşkilatların, o cümlədən Avropa İttifaqı Şurasının, Avropa Parlamentinin təmsilçiləri iştirak edirdilər.

İnstitutun baş direktoru KLOD MİSSİON brifinqi açaraq dedi:

- Zati-aliləri!

Xanımlar və cənablar!

Mən Azərbaycan Prezidenti cənab İlham Əliyevi Kral Beynəlxalq Əlaqələr İnstitutunda salamlamaqdan məmnunam və şərəf hissi duyuram. Auditoriyamız qarşısında çıxış etmək üçün dəvətimizi qəbul etdiyinizə görə minnətdarlığımı bildirirəm. Bilirik ki, Siz ölkəmizə bir neçə günlüyə gəlmisiniz və vaxt tapıb burada bizimlə görüşdüyünüzə görə öz səmimi təşəkkürümüzü ifadə edirik. Bu görüşdə sədrlik etməyə razılığını vermiş Belçika Xarici İşlər Nazirliyinin çoxtərəfli münasibətlər üzrə direktoru səfir Jan de Buta minnətdarıq. İndi isə mən böyük məmnuniyyət hissi ilə Sizi bu diskussiyanı dinləməyə dəvət edirəm və sözü cənab sədrə verirəm.

[redacted]

Belçika Xarici İşlər Nazirliyinin çoxtərəfli münasibətlər üzrə direktoru sədr JAN DE BUT çıxış edərək dedi:

- Çox sağ olun! Bu cür mötəbər auditoriyada sədrlik etmək üçün məni dəvət etdiyinizə görə minnətdaram.

Zati-aliləri cənab Prezident!

Xanımlar və cənablar!

Bu axşam burada olmaq mənim üçün böyük şərəfdir. Mən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevi sizə təqdim etmək istərdim.

Zati-aliləri, biz bu cür gənc yaşında belə böyük təcrübəyə malik olan şəxsiyyəti görməkdən çox şadıq. Siz, akademik biznes, eləcə də hökumət işində və siyasət sahəsində olduqca fəal olmusunuz. Hazırda isə Siz, dövlət başçısısınız. Tarix elmləri namizədi elmi dərəcəsini çox gənc yaşlarınızda, hətta 24 yaşınız tamam olmamış almısınız, siyasi elmlər sahəsində doktorluq dərəcəsinə maliksiniz. Siz, Moskva Beynəlxalq Münasibətlər İnstitutunda mühazirə oxumusunuz.

Siyasətə gəldikdə, Siz, Yeni Azərbaycan Partiyasının sədr müavini, daha sonra sədrin birinci müavini və nəhayət 2005-ci ildə sədr seçilmisiniz. Parlament fəaliyyətinə gəldikdə, Siz iki dəfə Azərbaycan parlamentinə seçilmisiniz. Eyni zamanda, Avropa Şurası Parlament Assambleyasında ölkənizin parlament nümayəndə heyətinin rəhbəri və Assambleya sədrinin müavini olmusunuz.

Biznes sahəsində 1991-1994-cü illər ərzində bir sıra özəl sənaye, kommersiya şirkətlərinə rəhbərlik etmisiniz. Daha sonra Siz Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin vitse-prezidenti və birinci vitse-prezidenti vəzifəsində işləmisiniz.

2003-cü ilin avqust ayındakı Baş nazir vəzifəsinə təyin olunmusunuz. Həmin ilin oktyabr ayında isə Siz ölkənizin Prezidenti seçilmisiniz.

Xanımlar və cənablar! Bu gün maraqlı tərcümeyi-halına malik olan şəxsiyyətlə görüşmək və onun "Avropa İttifaqı-Azərbaycan: enerji sahəsində və digər sahələrdə əməkdaşlıq" mövzusunda çıxışını dinləməkdən məmnunuq.

Beləliklə, Zati-aliləri cənab Prezident, biz hamımız Sizi dinləyirik!

[redacted]

Prezident İlham Əliyev siyasi brifinqdə çıxış etdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ÇIXIŞI

- Çox sağ olun. Məni təqdim etdiyinizə görə minnətdaram. Mənə göndərilmiş dəvətə görə minnətdarlığımı bildirirəm.

Biz burada tərəfdaşlığımızı və son siyasi-iqtisadi məsələləri, regionumuzda və Azərbaycanda gedən prosesləri müzakirə edəcəyik. Bu gün səhər Brüsseldə Avropa Komissiyasının sədri cənab Barrozu ilə, cənab Solana, cənab Borrel və digər rəsmilərlə çox səmərəli görüşlərim olubdur. Görüşlərimiz zamanı əməkdaşlığımızın nəticələrini nəzərdən keçirdik.

Azərbaycan müstəqilliyini əldə etdikdən sonra biz əməkdaşlığımızı inkişaf etdiririk. Avropa İttifaqı ilə Azərbaycan arasındakı əməkdaşlığın genişləndirilməsi üçün çox işlər görülübdür. Biz hər zaman Avropa İttifaqının güclü dəstəyini hiss etmişik və buna görə sizə olduqca minnətdarıq. Bu dəstək Azərbaycanın müstəqilliyinin ilk illərində xüsusilə duyulurdu. Çünki keçmiş sovet respublikaları arasında Azərbaycan, bəlkə də, ən ağır vəziyyətdə idi.

Ölkəmizdə siyasi və iqtisadi böhran mövcud idi, torpaqlarımız Ermənistanın silahlı qüv-

vələri tərəfindən işğal olunmuşdu, vətəndaş müharibəsi gedirdi. Bütün bunlar ölkədə hərbi dövlət çevrilişi etmək cəhdləri ilə nəticələndi. Bir sözlə, ölkəmiz dağılmaq üzrə idi. Biz çalışdıq ki, öz səylərimizlə problemləri həll edək və çətinlikləri aradan qaldıraq. Biz bütün dünyaya nümayiş etdirdik ki, Azərbaycan öz müstəqilliyini qorumağa qadir olan ölkədir.

Keçmiş Sovet İttifaqının digər respublikaları kimi, bizim üçün də müstəqillik böyük bir hədiyyə idi. Lakin ən çətini müstəqilliyi qoruyub saxlamaq, onu möhkəmləndirmək və müstəqil ölkə kimi yaşamağa qadir olduğumuzu xalqımıza sübut etmək idi. Bu cür çətin və mürəkkəb şəraitdə biz Avropa İttifaqının güclü dəstəyini hiss etdik və 400 milyon avrodan çox maliyyə yardımı aldıq. Bu maliyyə yardımı iqtisadi islahatların, eyni zamanda, siyasi islahatların aparılması üçün vacib idi.

Bir sözlə, bizim əməkdaşlığımızın çox yaxşı tarixi var və bu gün artıq yeni mərhələ ərəfəsindəyik, əməkdaşlığımızın yeni səhifəsini açırıq. İlk növbədə onu deməliyəm ki, bu səhər cənab Barrozu ilə enerji məsələləri üzrə strateji tərəfdaşlığa dair anlaşma memorandumunu imzaladıq. Hesab edirəm ki, bu sənəd əsasında bir çox sahələrdə əməkdaşlığımızı daha təfərrüatlı və hərtərəfli formada qura biləcəyik. Birgə səylər nəticəsində gələn həftə burada, Brüsseldə Avropa İttifaqının Cənubi Qafqaza aid yeni qonşuluq siyasəti çərçivəsində yeni addımlar atmağa başlayacağıq və bu da Azərbaycanın gələcək inkişafına böyük təsir göstərəcəkdir.

Gələn beş il ərzində yeni qonşuluq siyasətinin həyata keçirilməsi sayəsində biz öz meyarlarımızı Avropa İttifaqının meyarlarına yaxınlaşdıracağıq. Bizim ümumi dəyərlərimiz var. Biz Azərbaycanı müasir, demokratik, iqtisadi və siyasi baxımdan güclü və etibarlı tərəfdaş ölkəyə çevirmək əzmindəyik. Ümid edirəm ki, Avropa İttifaqının yeni qonşuluq siyasəti bu məqsədə nail olmaqda bizə yardım edəcəkdir. Gələn beş il ərzində biz bir çox məsələlərə diqqət yetirəcəyik. Xüsusən də iqtisadi islahatları davam etdirəcək və regional səviyyədə, Avropa İttifaqı -Azərbaycan münasibətləri çərçivəsində əlaqələrimizi gücləndirəcəyik.

Bundan başqa, siyasi islahatlar davam etdiriləcəkdir. Azərbaycanda qanunun aliliyi tam bərqərar olunacaq, demokratikləşmə prosesi gedəcək və bütün bunlar məqsədlərimizə çatmaqda bizə yardımçı olacaqdır. Demək olar, bizim xüsusi imkanlarımız var ki, ölkəmizi hər cəhətdən gücləndirək. Təbii ki, Brüsseldə noyabr ayında baş verən bu iki mühüm hadisə bizim əməkdaşlığımızı və gələcəyimizi yetərli dərəcədə müəyyən edəcəkdir. Açdığımız yeni səhifə hər iki tərəfə fayda gətirəcək və əməkdaşlığımızı daha uğurlu edəcəkdir.

Hazırda Azərbaycanda apardığımız açıq qapılar siyasətinin nəticələrini görürük. Bu siyasət 1990-cı illərin ortalarından aparılmağa başlanmışdır. Azərbaycan xarici sərmayələr üçün açıq olan bir ölkə idi. Lakin bu, kifayət etmədi. Ona görə də o vaxt biz həmin sərmayələri cəlb etməyə çalışdıq. Ölkədə siyasi riskləri azaltmağa çalışdıq və bu baxımdan xarici sərmayədarları cəlb edə bildik və onlarla lazımi əməkdaşlığı qurduq.

Son on il ərzində Azərbaycana milyardlarla dollar sərmayə qoyulması onu göstərdi ki, ölkəmizin iqtisadi inkişafı düzgün gedir. Birbaşa xarici sərmayələrin adambaşına düşən həcminə görə Azərbaycan nəinki keçmiş sovet respublikaları arasında, ola bilsin ki, daha geniş bir sahədə ilk yeri tutan ölkədir. Bizim ölkədə xarici sərmayələr üçün əlverişli

şərait yaradılıb və bu baxımdan Azərbaycan aparıcı ölkələrdən biridir.

Olduqca qətiyyətli iqtisadi islahatlar siyasəti nəticəsində 1996-cı ildən 2004-cü ilə qədər ölkəmizdə ÜDM-in illik artımı 10 faiz səviyyəsində olmuşdur. Ötən il, 2005-ci ildə ÜDM-in artımı 26 faiz, cari ilin 9 ayı ərzində 34 faiz təşkil etmişdir. Bizim iqtisadiyyatımız çox sürətlə, hətta deyərdim ki, bütün dünyada ən sürətlə inkişaf edən iqtisadiyyatdır. Bir sözlə, ölkəmizin iqtisadi həyatındakı bu müsbət meyil davam edəcək və Azərbaycanın bütün iqtisadi və sənaye infrastrukturunun müasirləşdirilməsinə imkan yaradacaqdır. Biz bunu etməliyik. Çünki bu gün mövcud sənaye infrastrukturu artıq köhnəlibdir. Bu, Sovet İttifaqının böyük bazarı üçün yaradılmışdı və indi təmir və bərpa işlərinə ehtiyacı vardır. Biz yeni infrastruktur yaradırıq. Bu baxımdan peşəkar kadrların hazırlanması da siyasətimizdə mühüm yer tutur. Öz təbii sərvətlərimizi və onlardan gələn gəlirləri insan kapitalına çevirmək üçün beynəlxalq maliyyə təsisatları ilə işləyir, tərəfdaşlarımızla əməkdaşlıq edirik və təhsil, informasiya texnologiyaları, səhiyyə sahələrinə xüsusi diqqət yetiririk. Bunlar sosial rifahın əsasıdır.

Eyni zamanda, iqtisadiyyatın qeyri-neft sektorunun inkişafına çox diqqət yetiririk. Hazırda bu sahənin inkişafı bizim gündəliyimizdə əsas yer tutan məsələdir. Ona görə də hesab edirəm ki, sürətli iqtisadi inkişaf bu məqsədlərə nail olmaqda bizə kömək edəcəkdir. Bizim vəziyyətdə olan, yəni 1990-cı illərdəki vəziyyəti yaşamış hər hansı bir ölkəyə baxsanız görərdiniz ki, əsas məsələ ölkənin cəlbediciliyinə nail olmaqla bağlı idi. Keçmiş Sovet İttifaqında Azərbaycanın iqtisadiyyatı, əsasən, məhz neftlə bağlı olmuşdur və dənizdə yerləşən yataqlardan neft birinci dəfə məhz Azərbaycanda hasil olunmuşdur. Bu da bizim iqtisadiyyatımızın aparıcı sahəsi idi. Biz indi də bu sahəyə xüsusi önəm veririk və hazırda neft hasilatı get-gedə artır. Enerji sahəsinə çoxmilyardlı sərmayələr yatırılıb və hər tərəfdən, əsasən, quru sərhədləri olan ölkəmiz üçün nəqliyyat infrastrukturumuzu inkişaf etdiririk. Azərbaycandan Avropaya və beynəlxalq bazarlara neft nəql edən 3 boru kəməri artıq istismardadır. Sonuncu tikilmiş ən uzun neft boru kəməri Azərbaycanın tarixi nailiyyətidir və biz bu layihəni beynəlxalq tərəfdaşlarımızla birgə yerinə yetirmişik. Hesab edirəm ki, bu, Azərbaycan xalqının tələbatlarının ödənilməsinə və regional əməkdaşlığa uzun onilliklər ərzində xidmət edəcəkdir.

Bugünkü infrastruktur artıq yaradılıb və təbii ki, bu, ölkə üçün əlavə fayda verir və birmənalı olaraq, regional əməkdaşlıqda da öz rolunu oynayır. Bir sözlə, regional əməkdaşlıq məsələləri - sabitlik, təhlükəsizlik bir-biri ilə bağlıdır. İndi enerji təhlükəsizliyi və bütünlükdə ümumi siyasi təhlükəsizlik, siyasi, iqtisadi müstəqillik - bunların hamısı bir-biri ilə bağlıdır və siz bir məsələni digərindən ayıra bilməzsiniz. Ona görə mühüm regional enerjidaşıyıcılarının hasilatçısı kimi Azərbaycan, təbii ki, Avropa İttifaqına müəyyən imkanları təqdim edə bilər.

Eyni zamanda, biz siyasi islahatlara da önəm veririk. Mən tamamilə əminəm ki, böyük siyasi dəyişiklik olmadan, biz istədiyimizə nail ola bilməyəcəyik. Təbii ki, biz müxtəlif ölkələrin təcrübələrini də öyrənirik. O cümlədən, təbii sərvətləri olan ölkələrin təcrübəsini öyrənirik. Onları biz nəzərdən keçirmişik və görmüşük ki, dünyanın müxtəlif yerlərindəki neft hasil edən ölkələrdə, nadir halları istisna olmaqla, hər zaman neft gəlirləri sosial inkişafa gətirib çıxarmır, gəlirlər düzgün bölüşdürülmür. Biz Azərbaycanda istədiyimizə nail olmaq üçün müsbət təcrübəni öyrəndik və siyasi islahatlar apardıq.

Eyni zamanda, dərhal hasilat sənayesində gəlirlərin şəffaf şəkildə idarə edilməsi təşəbbüsünə qoşulduq. Bu, Britaniyanın Baş naziri tərəfindən irəli sürülmüşdür və Azərbaycan artıq bu sahədə nailiyyətlər əldə edibdir. Hazırda biz neftdən gələn gəlirlərin idarə edilməsi, şəffaflıq baxımından beynəlxalq təsisatlar - Dünya Bankı və Beynəlxalq Valyuta Fondu tərəfindən yüksək qiymətləndirilirik. Bütün bunlar çox güclü ictimai nəzarətin olmasını təmin edir və eyni zamanda, olduqca güclü ictimai arxayınlığa əsas yaradır ki, bu gəlirlər düzgün istifadə edilir.

Demokratikləşmə, siyasi islahatlar, qanunun aliliyi, insan hüquqlarının qorunması sahələrində biz çalışırıq əlimizdən gələni edək ki, maksimum dərəcədə xalqımızın rifahına xidmət edək. Azərbaycan elə bir ölkədir ki, onun gündəliyində güclü siyasi dəyişikliklər proqramı durur, iqtisadi islahatlar nəzərdə tutulur və bütün bu işlər paralel şəkildə aparılır.

Mən əminəm ki, yoxsul ölkələrdə Qərbi Avropadakı demokratiyanı qurmaq birmənalı olaraq çətindir. Digər tərəfdən, əgər iqtisadi baxımdan güclü olsan da, siyasi azadlıqlar və güclü ictimai nəzarət olmadan, qazanılmış uğur əldən qaçırıla bilər. Ona görə Azərbaycanda siyasi və iqtisadi islahatların paralel şəkildə həyata keçirilməsi uğurlu olmuşdur.

Biz ölkəmizdəki mənfi proseslərin aradan qaldırılmasına nail olduq. Ölkəmizdə güclü siyasi sabitliyi bərqərar etdik. Təbii ki, əgər bunu etməsəydik, bir çox nailiyyətləri də qazana bilməzdik. Çünki iqtisadi nailiyyətlər məhz bununla bağlıdır. Şirkətlər öz kapitalını, sərmayələrini siyasi baxımdan gələcəyi aydın olmayan ölkəyə yatırmır.

Ona görə biz dünyadakı müəyyən qüvvələrin təsirindən yan keçdik və ölkəmizi açıq elan etdik. Bizim siyasətimiz aydındır, proqnozlaşdırıla bilir, səmimidir. Bu baxımdan da biz çox səmimi siyasi və iqtisadi şərait yarada bilərik.

Azərbaycandakı proseslər artıq regional əməkdaşlığa müsbət təsir göstərir. Bu gün Azərbaycan regionun liderinə çevrilibdir. Bütün bu üstünlükləri və öhdəlikləri ölkəmiz öz üzərində hiss edir. Ona görə, təbii ki, regiondakı enerji inkişafı, siyasi inkişaf müəyyən mənada Azərbaycandakı vəziyyətdən asılı olacaqdır.

Bir sözlə, biz hesab edirik ki, mühüm sabitlik amili kimi indi Azərbaycanın rolu artır. Təbii ki, enerji təhlükəsizliyi sahəsində də ölkəmizin rolu artacaqdır. Bu, xüsusən də Avropaya və Avropa İttifaqına aiddir. Azərbaycan bu baxımdan enerji təchizatının yeni mənbəyinə çevrilib, ölkəmiz müasir infrastruktura malikdir. Bu il çəkilməsi başa çatdırılmış boru kəməri beynəlxalq standartlara cavab verir. Digər tərəfdən, bizim böyük neft və qaz ehtiyatlarımız var. Bu, ölkəmizin şanslarıdır. Bu şanslar güclü iqtisadi sistem, siyasi sistem və Avropaya tam inteqrasiya olunmaq sistemini yaratmağa imkan verir. Ona görə Avropa İttifaqının yeni qonşuluq siyasəti Avropaya daha yaxın olmaq fürsətidir.

Biz əməkdaşlığımızın hər hansı bir aspektini yüksək realizm hissi ilə nəzərdən keçiririk. Bu günlərdə biz Azərbaycanın Avropa İttifaqına üzvlüyü haqqında danışmırıq və nə Azərbaycan, nə də Avropa İttifaqı buna hazırdır. Lakin biz bunun üzərində işləyirik, inteqrasiya istiqamətində addımlar atırıq. Biz tərəfdaşlıq və əməkdaşlığı davam etdiririk. Mən hesab edirəm ki, biz nə qədər çox addım atarıqsa, onda Azərbaycan, vəziyyəti qiymətləndirdikdən sonra, heç bir tərəddüd olmadan Avropanın mühüm dostu və tərəfdaşına çevriləcək və etibarlı ölkə olacaqdır. Bütün bunlar müsbət meyillər, nailiyyətlər, planlar və gələcəklə bağlı fikirlərdir.

Regional vəziyyətə gəldikdə, bu gün bizim apardığımız siyasət Xəzər dənizi regionundan kənara çıxır. Biz artıq regional əməkdaşlığın daha geniş mənada yeni elementlərini görürük. Misal üçün, Qara dəniz və Xəzər dənizi regionları arasındakı münasibətlər, əməkdaşlıq, enerji və nəqliyyat məsələləri necədir? Bu layihələr uğurla həyata keçirilə bilər. Artıq Azərbaycanda olduqca müsbət təcrübə var, bu, enerji və nəqliyyat sahəsinə aiddir. Beynəlxalq maliyyə təsisatları ilə çox yaxşı əlaqələrimiz var. Onlar bizə çox etibarlı tərəfdaş kimi baxırlar. Müxtəlif layihələrə milyonlarla dollar sərf edirlər və bu layihələr siyasi sabitliyə və iqtisadi rifaha xidmət edir. Ona görə hazırkı planlarımız regiondan kənara çıxmağa və yeni - Xəzər dənizi və Qara dəniz regionları arasında əməkdaşlığın yaradılmasına yönəlibdir.

Mən regional inkişafımıza mane olan yeganə mənfi elementlər kimi separatçı hərəkatları deyə bilərəm. Səmimi deyim ki, mən bundan başqa heç bir potensial təhlükə görmürəm. Lakin həll olunmamış Ermənistan-Azərbaycan münaqişəsi, Dağlıq Qarabağdakı separatizm regional əməkdaşlıq üçün ən böyük potensial təhlükədir və regional siyasi sabitliyi də sual altına alır.

Biz çalışırıq münaqişəni aradan qaldıraq. ATƏT-in Minsk qrupu, Avropa İttifaqı və digər təşkilatlarla birgə işləyirik ki, bu məsələnin düzgün həllinə nail olaq və bu məsələnin həlli beynəlxalq hüquq normaları və prinsiplərinə arxalansın. Lakin indiyə qədər biz Ermənistan tərəfindən lazımi cavab almamışıq. Ermənistan XXI əsrdə beynəlxalq hüquq normaları və prinsiplərini kobudcasına pozur. Bu ölkə 1 milyon azərbaycanlı qaçqın və məcburi köçkünün insan hüquqlarını pozub və etnik təmizləmə siyasətini aparıbdır. İndi nəinki Dağlıq Qarabağ, ətrafdakı 7 inzibati rayon da Ermənistanın işğalı altındadır. Onlar elə rayonlardır ki, orada ermənilər heç vaxt yaşamayıblar. Orada etnik təmizləmə siyasəti aparılıb və bütün tikililər yerlə-yeksan edilibdir. Bu yaxınlarda ATƏT-in faktaraşdırıcı missiyası işğal olunmuş torpaqlara səfər etmiş və hesabat yazmışdır. Bu hesabatdan da görünür ki, orada bütün məscidlər, ulu babalarımızın məzarları, bütün binalar dağıdılıbdır. Bir sözlə, bu Azərbaycana qarşı, Azərbaycanın mədəniyyətinə qarşı törədilmiş vandalizm aktıdır.

Beynəlxalq vasitəçilərin səylərinə baxmayaraq, indiyədək problemin sülh yolu ilə nizamlanması yoxdur. Bizim mövqeyimiz aydındır və beynəlxalq hüququn normaları və prinsiplərinə əsaslanır. Azərbaycanın ərazi bütövlüyü bərpa edilməlidir. Ermənistanın silahlı qüvvələri işğal olunmuş bütün ərazilərdən çıxarılmalıdır. Müharibədən əvvəl azərbaycanlılar Dağlıq Qarabağda əhalinin 30 faizini təşkil edirdilər. Dağlıq Qarabağ ermənilərinə Azərbaycan daxilində ən yüksək muxtariyyət statusu verilə bilər.

BMT-nin Təhlükəsizlik Şurası erməni silahlı qüvvələrinin Azərbaycanın işğal olunmuş torpaqlarından qeyd-şərtsiz çıxarılmasını tələb edən 4 qətnamə qəbul edibdir. Ötən ilin yanvar ayında Avropa Şurasının Parlament Assambleyası Ermənistanın Azərbaycana qarşı təcavüzünü pisləyən qətnamə qəbul etmişdir. Lakin Ermənistan heç bir qətnaməni yerinə yetirməyib və bunlara ümumiyyətlə məhəl qoymur. Onlar etiraf edirlər ki, bizim ölkənin torpaqlarını işğal altında saxlamaqla Dağlıq Qarabağ üçün müstəqillik qazanacaqlar. Bu, heç vaxt baş verməyəcəkdir. Azərbaycanın ərazi bütövlüyü beynəlxalq icti-

maiyyət, Birləşmiş Millətlər Təşkilatı tərəfindən tanınır. Ölkəmizin ərazi bütövlüyünü tanımayan yeganə dövlət Ermənistandır.

Dağlıq Qarabağın Azərbaycandan qoparılması, ümumiyyətlə, müzakirə mövzusu deyildir. Yəni siz təsəvvür edə bilərsinizmi ki, dünyanın istənilən bir guşəsində hər hansı azlıq müstəqillik tələb etməyə başlasa, neçə ölkə yaranar? Dağlıq Qarabağ qədər sahəsi olan, əhalisi 60 min nəfərdən aşağı olan neçə ölkə yaranar, nə qədər insanlar bundan əziyyət çəkər? Yəni azlıqlar hər bir ölkədə, Avropada da var. Yəni siz elə bir ölkə tapa bilməzsiniz ki, orada milli azlıq olmasın. Bəlkə bunun üçün yeganə istisna məhz Ermənistandır. Çünki bu monoetnik ölkədir və bunun səbəbi məhz ermənilərdən soruşulmalıdır.

Dediyim kimi, hər bir ölkədə milli azlıq var. Azərbaycanda da milli azlıqlar yaşayır. Yəni milli azlığın olması o demək deyil ki, onların hüququ var ki, etnik təmizləmə siyasətini aparsınlar, torpağı qoparıb özlərinə yeni bir dövlət yaratsınlar. Əgər bu prinsip kimi qəbul edilsə, onda dünyada nələr baş verə bilər? Bu, beynəlxalq hüququn fundamental normaları və prinsiplərinin alt-üst edilməsidir və beynəlxalq ictimaiyyət bundan böyük əziyyət çəkəcəkdir. Yəni bu nə ilə bağlıdır? Onunla bağlıdır ki, Ermənistan ikinci erməni dövləti yaratmaq istəyir. Ermənilər artıq öz müqəddəratını təyin etmək hüququndan istifadə ediblər, yəni Ermənistan dövləti var. İndi isə onlar ikinci erməni dövləti yaratmaq istəyirlər. Bunu da Azərbaycanda etmək istəyirlər. Yəni sabah onlar üçüncü erməni dövlətini yaradacaqlar? Bu gün biz bu meyillərin ilk siqnallarını artıq eşidirik. Bu, olduqca fəlakətli, ağır nəticələri ilə yadda qalacaq proses kimi özünü büruzə verə bilər.

Bizim əldə etdiyimiz müsbət nəticələr, nailiyyətlər qısa bir müddətdə, 15 illik müstəqillik tariximiz ərzində olmuşdur. Ölkə torpaqlarının işğal altında saxlanılması isə gərginlik yaradır və bu regionda, Azərbaycanda sabitliyin pozulması üçün əsas mənbədir.

Bir sözlə, bu, bizim gündəliyimizdə duran bir nömrəli məsələdir. Ona görə biz münaqişənin aradan qaldırılması üçün bütün səyləri göstəririk və əminəm ki, Avropa İttifaqı ilə əlaqələrimiz və əməkdaşlığımız bu məqsədə nail olmaqda bizə kömək edəcəkdir. İndi Avropa İttifaqında artıq sərhədlər yoxdur. Siz bunun faydasını görürsünüz. Əgər bizim region Avropa İttifaqına daha yaxınlaşsa və buradakı meyarlar, onların müəyyən bir hissəsi tam şəkildə öz əksini tapsa, mən hesab edirəm ki, həll olunmamış məsələlər də öz həllini tapacaqdır.

Bir sözlə, mən vaxtınızı çox almaq istəmirəm və çalışdım ki, Azərbaycandakı vəziyyəti, regional çətinlikləri, problemləri sizə təsvir edim. Mən bir daha demək istəyirəm ki, bu gün, bəlkə də, tarixi bir gündür. Çünki biz Avropa İttifaqı ilə uzunmüddətli tərəfdaşlığa başladıq və hesab edirəm ki, bunun nəticələri qarşılıqlı surətdə faydalı və uğurlu olacaqdır.

JAN DE BUT: Sağ olun, cənab Prezident!

Siz olduqca geniş və hərtərəfli çıxış etdiniz. Sovet İttifaqı dövründən açıq qapılar siyasətinə qədər keçdiyiniz yol və iqtisadi göstəriciləriniz, gələcək üçün planlarınız və arzularınız bizə böyük təəssürat bağışladı. Bunlar Azərbaycanın qarşısında yeni imkanlar açır. Bilirik ki, Sizin regionda artıq yeni vəziyyət formalaşır. Təsvir etdiyiniz mövcud təhlükələri necə qavradığınızı, separatçı hərəkatların olduğunu gördüyünüzü də biz an-

ladıq. Bunlar, birmənalı olaraq, ölkənizdə mövcuddur, lakin hələ ki, öz həllini tapmayıbdır. Əgər icazəniz olarsa, indi auditoriyadan veriləcək suallara keçək. Hesab edirəm ki, bu, bir çox iştirakçılar üçün maraqlı olardı.

Hər hansı sual varmı? Buyurun.

- Cənab Prezident, xanımlar və cənablar, axşamınız xeyir olsun. Mən Ermənistan səfirliyini təmsil edirəm. İstəmirdim birinci danışam, amma sualımı verəcəyəm. Çox sağ olun cənab Prezident, Azərbaycanın dünyadakı mövqeyi, enerji siyasəti və Qarabağ problemi barədə verdiyiniz məlumata görə minnətdaram.

Nəyə görə Qarabağ ermənilərı yenidən Azərbaycanın yurisdiksiyasına qayıtmağa razılıq verməlidirlər? Onlar orada sakit yaşayırdılar və sovet qanunlarına uyğun olaraq, öz müqəddəratını təyin etmək istədikləri zaman siz onlara qarşı müharibəyə başladınız. Neft gəlirlərindən onlara inkişaf və sülh təklif etmək əvəzinə, müharibə ilə hədələyirsiniz. Belə bir halda, onlar yenidən Azərbaycan hüdudları çərçivəsində Stalin qaydalarına uyğun yaşamağa necə razılıq verə bilərlər? Sağ olun.

- Mən "European house" jurnalının müxbiriyəm. Avropa Şurası və ATƏT Azərbaycandakı seçkiləri davamlı şəkildə tənqid etmiş və Azərbaycan müstəqilliyini qazandıqdan etibarən bu sahədə müsbət qiymət verməmişdir. Siz Azərbaycanda bütün səviyyələrdə ədalətli və azad seçkilərin keçirilməsinə necə baxırsınız? Mən parlament və prezident seçkilərini nəzərdə tuturam.

İLHAM ƏLİYEV: Birinci suala gəldikdə, onu demək istəyirəm ki, bəzən Avropada hər hansı bir məsələni bəyan etmək və onu sonra təşviq etmək asandır, çünki digər insanların bu haqda ümumiyyətlə məlumatı olmur. Uzun illər ərzində Ermənistan Avropadakı öz diasporunun yardımı ilə ictimai rəyi uğurla çaşdırmışdır. Xüsusən də bu, münaqişənin birinci illərində baş verdi. Azərbaycanın o vaxt heç bir diplomatik nümayəndəliyi yox idi. Ermənistanın isə diasporu var idi və o, diplomatik nümayəndəlik missiyasını oynayırdı. Ona görə yanlış ictimai rəy yaradılması Ermənistan siyasətinin əsas elementi idi.

İndi bunu etmək olduqca çətindir. Çünki vaxt keçdikcə Azərbaycanın beynəlxalq mövqelərinin güclənməsi və öz fikirlərimizin daha aydın şəkildə çatdırılması ermənilərin işini daha da müşkül edibdir. Bir sözlə, nəyə görə Azərbaycan, ümumiyyətlə müharibəyə başlamalıdır? Bu, birinci sualdır. Məhz Ermənistan birinci olaraq bizə qarşı müharibəyə başladı. Birinci dəfə Dağlıq Qarabağda məhz azərbaycanlılar qətlə yetirildi və bundan sonra separatçı hərəkatı gücləndi. O vaxt Ermənistan separatçı hərəkatı dəstəkləyirdi və bunun nəticəsində Azərbaycanın əraziləri işğal olundu. Bu müharibənin nəticələrinə baxın: indi Azərbaycanın ərazisinin 20 faizi işğal altındadır. Bu, məhz təcavüz, separatizm və etnik təmizləmə siyasətinin nəticəsidir. Problem isə ondan ibarətdir ki, beynəlxalq ictimaiyyət buna lazımi reaksiya vermir. XXI əsrdə Ermənistanın Azərbaycana qarşı təcavüzü faktına, 1 milyon qaçqın və məcburi köçkünü olması faktına indiyə qədər göz yumur. Bizim qaçqınlarımız və məcburi köçkünlərimiz ölkəmizdə çətin şəraitdə yaşayırlar. Ona görə tarixi saxtalaşdırmaq cəhdi artıq Azərbaycanın nümayəndələrinin olduğu yerdə baş tutmayacaqdır.

Problemin mahiyyətinə gəldikdə isə, onu deməliyəm ki, hər bir ölkə beynəlxalq hüqu-

qa hörmətlə yanaşmalıdır. Ümumi götürsək, ölkələr arasında münasibətlər beynəlxalq hüququn adi norma və prinsipləri ilə tənzimlənir. Birləşmiş Millətlər Təşkilatı bütün ölkələri əhatə edən bir təşkilatdır. Təhlükəsizlik Şurası 4 qətnaməni qəbul edibdir. Həmin qətnamədə Ermənistan qüvvələrinin Azərbaycanın işğal edilmiş ərazilərindən qeyd-şərtsiz, dərhal çıxarılması tələb olunur. Əgər ermənilərin ərazisini Azərbaycan işğal etsəydi, onda həmin qətnamələr bizə qarşı olardı. Misal üçün, Avropa Şurası 5 il bundan əvvəl həm Ermənistanı, həm də Azərbaycanı üzv kimi qəbul etdi. Lakin onun 2005-ci ildə qəbul edilmiş qərarında bildirilir ki, Avropa Şurasına üzv olan bir ölkənin digər üzv ölkənin ərazisini işğal etməsi faktı qəbuledilməzdir.

Ermənilər bunu elə təsvir edirlər ki, guya bu torpaqları hər hansı bir kənar yerdən gəlmiş silahlı qüvvələr işğal ediblər. Amma Avropa Şurasının qərarında məhz aydın məsələlər qeyd olunub və bildirilir ki, kim bu təcavüzün qurbanı, kim isə bu təcavüzü edən tərəfdir.

Ona görə indi ermənilərin Dağlıq Qarabağda Azərbaycan dövlətinin hüdudları çərçivəsində yaşaması haqqında danışmaq hələ tezdir. Çünki biz əvvəlcə işğala son qoymalıyıq. Ermənistanın silahlı qüvvələri işğal olunmuş torpaqlardan çıxmalıdır. Yalnız bundan sonra biz birgə kommunikasiyaları açа bilərik. Daha sonra ermənilər regional layihələrdə iştirakdan bəhrələnə bilərlər.

Yəni ermənilər bundan nə uddular? Ermənilər, ümumiyyətlə, Ermənistan xalqı işğaldan sonra daha yaxşı yaşamağa başladı? Yox! Onlar bütün regional layihələrdən, nəqliyyat layihələrindən təcrid olunublar. Onlar daha təhlükəsiz şəraitdə yaşayırlar? Yox! Bu da belə olmadı. Biz yaxşı bilirik ki, Azərbaycan Ermənistan cəmiyyətində böyük narahatlıq doğurur. Azərbaycanın inkişafı narahatlıq doğurur. Ona görə məhz ermənilər üçün yaxşı olardı ki, nəinki beynəlxalq hüquq normaları və prinsiplərə, həm də normal davranışa riayət etsinlər.

İkinci suala gəldikdə isə, tənqidlə bağlı mən onu deyə bilərəm ki, ATƏT və Avropa Şurası kimi təşkilatlar nəinki Azərbaycanı, bir çox ölkələri tənqid edirlər. Hətta həmin ölkələr arasında olduqca inkişaf etmiş demokratik ölkələr də var. Bu da normaldır. Biz faktlara əsaslandığı təqdirdə, siyasi motivi olmadığı təqdirdə, hər zaman tənqidi qəbul edirik. Əfsuslar olsun ki, bəzi hallarda həmin bu tənqid formaları bəzi ölkələrə qarşı siyasi təzyiq alətinə çevrilir. Yaxud da bəzi ölkələrdə müəyyən məsələlərə nail olmaq alətinə çevrilir və onlar qeyri-demokratik və ya kifayət dərəcədə demokratik olmayan adlandırılır.

Fakt baxımından mən hesab edirəm ki, Azərbaycandakı parlament seçkiləri bir çox müşahidəçilər tərəfindən izlənilirdi. Bəzi təşkilatlar "exit-poll" keçirdi və bu təşkilatlar bizim tərəfimizdən yox, Birləşmiş Ştatların Dövlət Departamenti tərəfindən seçilmişdi. "Exit-poll"un nəticələri rəsmi seçki nəticələri ilə 90 faiz üst-üstə düşdü. Bu o deməkdir ki, seçkilərin tənqid olunması o qədər ciddi və ədalətli deyildir. Yəni seçki dairələrinin qalan 10 faizində nəticələr "exit-poll"un nəticələri ilə üst-üstə düşmədi və biz bunları ləğv etdik. Bəzi rəsmilər cəzalandırıldı, yerli icra hakimiyyətinin nümayəndələri öz vəzifələrindən azad edildi və ədalət mühakiməsi qarşısında cavab verməli oldular.

Biz həmin 10 faiz seçki dairələrində təkrar seçkilər keçirdik. Burada da "exit-poll" keçirən təşkilat yenə Dövlət Departamenti tərəfindən seçildi və onların gəldiyi nəticələr

rəsmi seçki nəticələri ilə üst-üstə düşdü.

Bu Azərbaycanda parlament seçkilərinin qanunun müddəalarına uyğun keçirildiyinin bariz nümunəsidir və Azərbaycan xalqının iradəsi orada öz əksini tapmışdır.

Təbii ki, demək olmaz ki, bu, tam ideal formada keçirilmiş seçkilər idi. Yəni ümumi baxımdan götürsək, seçkilər baş tutdu. İnqilaba gəldikdə isə, bəziləri Gürcüstan, Ukrayna və Qırğızıstanda olan inqilablara istinad edirdi və digər bir inqilabı Azərbaycanda görmək istəyirdilər. Lakin fərq məhz ondan ibarət idi ki, Azərbaycanda siyasi və iqtisadi inkişaf artıq bərqərar olub və Azərbaycan özünün müstəqil siyasətini aparır. Ona görə inqilabın Azərbaycana ixrac edilməsi cəhdi boşa çıxdı, Azərbaycan xalqı bunu dəstəkləmədi. Bir sözlə, nəticələr onu göstərdi ki, Azərbaycan xalqının 80 faizi hazırkı iqtidarı dəstəkləyir. Bu da bizim siyasətimizin əsasını təşkil edir.

Buna baxmayaraq, biz ədalətli, düzgün tənqidə açığıq. Biz ideal deyilik və heç bir ölkə ideal sayıla bilməz. Hətta ən inkişaf etmiş ölkələrdə də bəzi pozuntuları görürük. Burada "Euronews" və CNN kanalları ilə bəzi pozuntular haqqında məlumatları dinləyirik. Yəni bu cür hadisələr digər ölkələrdə də baş verir. Əgər tənqid siyasi motivli səbəblərə arxalanırsa və əgər kimsə bununla bağlı Azərbaycana təzyiq göstərirsə, biz bunu qəbul edə bilmərik.

JAN DE BUT: Sağ olun. Daha iki sual var.

-Mədəni irsin qorunması əsas dəyərlərdən biridir. Sülh və Müharibə İnstitutu məlumat verir ki, ermənilərin qəbiristanlığında minlərlə qəbir daşları dağıdılmışdır. Bu, onların dini və mədəni irsidir. Bildirilir ki, onlar təsadüfən dağıdıla bilməzdi. Sualım ondan ibarətdir ki, nəyə görə Azərbaycan hökuməti belə hadisələrə yol verir? Sağ olun.

-Cənab Prezident, mən ölkənizə böyük sərmayə yatıran şirkətlərlə yaxından tanışam. Sualım siyasi xarakter daşımır, iqtisadiyyatla bağlıdır. Siz burada gözəl rəqəmlər gətirdiniz və mən deyərdim ki, siz hətta Çini də geridə qoymusunuz. Sizcə, "Hollandiya sindromu" olmadan ölkənizdə inkişafı davamlı şəkildə necə saxlamaq mümkündür? Biz bilirik ki, Neft Fondu var və digər tədbirlər görülür. Lakin davamlılığı təmin etmək çətin bir məsələdir.

Digər sualım, bəlkə də, siyasətlə bağlıdır. Rusiya ilə Gürcüstan arasındakı gərginliyi nəzərə alaraq, Azərbaycan bunun aradan qaldırılması üçün nə edə bilər? Sağ olun.

İLHAM ƏLİYEV: Birinci suala gəldikdə, demək istəyirəm ki, Azərbaycan həmin mədəni irsin qorunmasında maraqlı olanlara təklif irəli sürmüşdü ki, bir missiya yaradılsın, orada beynəlxalq təşkilatların nümayəndələri, Avropa Şurasının, Avropa İttifaqının və ATƏT-in nümayəndələri olsun və regiona səfər etsinlər. Onlar nəinki sizin qeyd etdiyiniz yerlərə və eyni zamanda, Ermənistana da getsinlər və ən azı, azərbaycanlıların məzarlıqlarında baş vermiş faktları araşdırsınlar. Dağlıq Qarabağda və digər işğal olunmuş ərazilərdə Azərbaycanın qəbiristanlıqlarını görsünlər, işğalın nəticələrini görsünlər. Orada heç bir şey saxlanılmayıb və belə bir halda, Azərbaycanı bəzi işlərə görə pisləmək tamamilə qəbuledilməzdir.

Biz sizi dəvət edirik, buyurun, qrupu təşkil edin və gəlin. Biz bunu təklif etdik. Amma ermənilər bundan imtina etdilər. Çünki onlar bildilər ki, bunun nəticələri necə olacaqdır.

Ona görə uzun mədəni dözümlülük tarixinə malik olan, çoxmilli azlıqlarla seçilən, dini dözümlülüklə fərqlənən ölkə kimi biz bu işləri görməyə hazırıq. Misal üçün, Ermənistanın özü monoetnik ölkədir. Bəlkə də, siz heç bir başqa ölkə tapa bilməzsiniz ki, onun əhalisinin 99 faizi bir etnik mənşəyə mənsub olsun. Ona görə mənim sualıma cavab verin, nəyə görə bu baş veribdir? Azərbaycan tərəfi bunu bilir. Çünki Ermənistanın ərazisindən 300 minə yaxın azərbaycanlı qovulmuşdur. Yeri gəlmişkən, onu deyim ki, ötən əsrin əvvəlində Ermənistanın indiki paytaxtının əhalisinin 30 faizini azərbaycanlılar təşkil edirdi və 1918-ci ildə Azərbaycandan Ermənistana hədiyyə edilmişdir. Bəlkə siz bunu bilmirsiniz? Lakin Ermənistan səfirliyinin nümayəndəsi bunu bilir. Amma onlar bunu yaddan çıxarmaq istəyirlər. Ermənistandakı şəhərlərin bir çoxlarının, əslində, Azərbaycan adları var. Onlar hamısını dəyişdirdilər. İndi isə onlar Dağlıq Qarabağın paytaxtını başqa cür adlandırırlar. Bu, necə baş vermişdir? Həmin paytaxt Xankəndi adlandırılırdı. Sovet vaxtında onu Stepanakert adlandırmağa başladılar, ən təhlükəli bir inqilabçının - Stepan Şaumyanın adını verdilər. Belə olan halda soruşulur: nəyə görə şəhərlərə süni qaydada yaradılmış adlar, bolşevik "qəhrəmanlarının" adları verilir?

Bir sözlə, hesab edirəm ki, bu məsələnin nəzərdən keçirilməsinin yolu var. Bizim ölkəmizdə bir çox milli azlıqlar var, xristianların kilsələri, yəhudilərin sinaqoqları var. Baxmayaraq ki, ölkəmizdə çox kiçik katolik icması yaşayır, bununla belə, mən Vatikana səfərim zamanı qərar qəbul etmişdim ki, Azərbaycanda katolik kilsəsi tikilsin. Bu da Azərbaycandakı dini dözümlülükdən xəbər verir. Bizim dini dözümlülüyümüz bütün dünyada tanınır. Belə olan halda, Azərbaycanı dini və mədəni abidələrin dağıdılmasında günahlandırmaq tamamilə qəbuledilməzdir. Siz əgər Azərbaycana gəlsəniz görərsiniz ki, burada müxtəlif milli azlıqlara aid olan, mənsub olan abidələr var. Ona görə gəlin missiyanı təşkil edək. Onlar nəinki Azərbaycana, Dağlıq Qarabağa və Ermənistana da səfər etsinlər və bu halda əsil reallıq hər kəs tərəfindən anlaşılacaqdır.

İkinci suala gəldikdə, qeyd etmək istəyirəm ki, böyük neft gəlirləri və sürətli iqtisadi artım və digər amillər makroiqtisadi sabitliyi poza bilər. Bu, Azərbaycan üçün yeni bir vəziyyətdir. Bundan əvvəl biz həmişə çalışırdıq ki, daha çox gəlirlər əldə edək. Çox səylər göstərirdik ki, büdcəmizi artıraq. İndi, son 3 il ərzində dövlət büdcəmizi 4 dəfə artırmışıq. Biz artıq çalışırıq ki, iqtisadiyyatımızı həddindən artıq vəsaitlərlə doldurmayaq. İndi biz əhalimizin rifahına, əmək haqqının artırılmasına yönəlmiş layihələri həyata keçirmək istəyirik. Təbii ki, bu da makroiqtisadi sabitliklə bağlıdır. Bu, bizim qarşımızda duran çətin bir vəzifədir. Neft Fondunu yaratmışıq. Neft Fondu elə bir yerdir ki, orada nəinki, sadəcə, neft gəlirləri şəffaf şəkildə idarə edilir. Eyni zamanda, orada gəlirlərin çoxu toplanır ki, iqtisadiyyata həddindən artıq vəsait daxil olmasın və makroiqtisadi sabitlik pozulmasın. Ona görə "Hollandiya sindromu"nun qarşısının alınması üçün bütün səyləri göstəririk. Çalışırıq ki, nəinki neft sahəsini, eyni zamanda, qeyri-neft sektorunu inkişaf etdirək. Hər il büdcəmizdən kiçik və orta sahibkarlara 100 milyon ABŞ dolları həcmində kreditlər ayırırıq ki, onlar regionlarda yeni iş yerləri açsınlar. Eyni zamanda, biz Dövlət İnvestisiya Şirkəti yaratdıq. Onun nizamnamə kapitalı 100 milyon ABŞ dollarıdır. Onlar digər ölkələrdən potensial sərmayədarları, eyni zamanda, yerli sərmayədarları qeyri-neft sektorundakı böyük layihələrin həyata keçirilməsinə cəlb edirlər.

Biz yerli sahibkarları dəstəkləyirik və çalışırıq ki, bütün bu işləri görərək, onlara kömək edək. Əgər biz desək ki, gələcəkdə qeyri-neft sektoru neft sektorundan daha üstün olacaq, bu, sadəlövhlük olardı. Təbii ki, gələn onillər ərzində neft sektoru Azərbaycan iqtisadiyyatının əsas hissəsini təşkil edəcəkdir. Ona görə biz Dünya Bankı, Beynəlxalq Valyuta Fondu ilə, digər beynəlxalq maliyyə təsisatları ilə işləyirik ki, hər hansı bir mənfi nəticənin qarşısını alaq.

Sualınızın ikinci hissəsinə, Rusiya ilə Gürcüstan arasında münasibətlərə gəldikdə, hər ikisi bizim üçün qonşu ölkədir və hər ikisi ilə yaxşı münasibətlərimiz var. Bu, strateji tərəfdaşlıq münasibətləridir. Ona görə hesab edirəm ki, Azərbaycanın yaxşı qonşuluq münasibətləri saxlamaq təcrübəsi nəzərə alına bilər. Bu, çox müsbət bir təcrübədir. Bizim qurduğumuz əlaqələr mehriban qonşuluq, qarşılıqlı hörmət prinsiplərinə əsaslanır. Bu da ölkələr arasındakı münasibətlərdə çox mühüm bir amildir. Ölkələr bir-birinə həmişə hörmətlə yanaşmalıdır və beləliklə, problemlər aradan qaldırıla bilər. Bir-birinin işlərinə qarışmamaq prinsipi və iqtisadi əməkdaşlıq vacibdir. Rusiya ilə Gürcüstan arasında olan münasibətləri bir yana qoysaq, bizim Rusiya ilə münasibətlərimizi və bunun Azərbaycanın rifahına necə xidmət etdiyini nəzərə alsaq, görərik ki, regionda münasibətləri hansı formada qurmaq lazımdır. Eyni zamanda, biz bu cür münasibətlərin qonşularımız arasında olmasında da maraqlıyıq. Biz istəyirik ki, şirkətlər və ölkələr üçün Azərbaycanda olduqca yaxşı əməkdaşlıq şəraiti təmin edilsin və eyni zamanda, mən istəyirəm ki, bizim dostlarımız öz aralarında da dost olsunlar.

JAN DE BUT: Çox sağ olun.

SƏFƏR BAŞA ÇATDI

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Belçika Krallığına işgüzar səfəri noyabrın 8-də başa çatmışdır.

POLŞA SENATININ SƏDRİ BAKIYA RƏSMİ SƏFƏRƏ GƏLMİŞDİR

Milli Məclisin sədri Oqtay Əsədovun dəvəti ilə Polşa Senatının sədri Boqdan Boruseviç noyabrın 7-də Bakıya rəsmi səfərə gəlmişdir.

Noyabrın 8-də "ABU ARENA"da Polşa Milli Sərgisinin açılış mərasimi olmuşdur.

Polşanın Azərbaycandakı səfiri Kşiştof Krayevski mərasim iştirakçılarını salamlayaraq bildirdi ki, sərgi Polşa Təsərrüfat Palatası, Azərbaycanın Ticarət və Sənaye Palatası, Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondu və digər qurumların dəstəyi ilə təşkil olunmuşdur.

Hər iki ölkənin dövlət himnləri səsləndi.

Polşa Senatının sədri Boqdan Boruseviç və Milli Məclisin sədri Oqtay Əsədov qısa nitq söylədilər. Onlar bir-birindən uzaq məsafədə yaşamalarına baxmayaraq, xalqlarımız arasında tarixi əlaqələrin, həmişə xoş, mehriban münasibətlərin olduğunu vurğuladılar. Parlament sədrləri sərginin iki ölkə arasında iqtisadi əlaqələrin inkişafında səmərəli vasitə olacağına, anoloji sərginin Varşavada da təşkil ediləcəyinə əminliklərini bildirdilər və iştirakçılara uğurlar arzuladılar.

Polşa Respublikası iqtisadiyyat nazirinin müavini Anjev Kaçmarek ölkəsinin, Azərbay-

canın iqtisadi inkişaf naziri Heydər Babayev respublikamızın iqtisadi vəziyyəti, imkanları barədə məlumat verdilər. İki ölkə arasında illik ticarət dövriyyəsinin hələlik 60 milyon dollar təşkil etdiyini xatırladan natiqlər, bunun mövcud potensial imkanlardan çox aşağı olduğunu bildirdilər. Eyni zamanda, Polşa Senatı sədrinin ölkəmizə səfərinin və indiki sərginin bu sahədə mühüm rolu olacağına əminliklərini söylədilər.

Polşa Senatının sədri Boqdan Boruseviç və Milli Məclisin sədri Oqtay Əsədov sərginin açılışını bildirən lenti kəsdilər, nümayiş etdirilən müxtəlif çeşidli məhsullara baxdılar.

Tikinti, hərbi-sənaye, ərzaq, meyvə-tərəvəz, informasiya texnologiyaları, mebel, dərman, tibb avadanlığı, məişət əşyaları və digər məhsullar sərgiyə gələnlərdə xüsusi maraq doğururdu. Azərbaycanın müxtəlif nazirlikləri və özəl qurumlarının təmsilçiləri polşalı həmkarları ilə işgüzar söhbət aparır, əməkdaşlıq imkanlarını öyrənirdilər.

Polşalı biznesmenlər də Azərbaycandakı mövcud istehsal sahələri ilə bağlı özlərini maraqlandıran suallara cavab alırdılar.

* * *

Polşa Senatının sədri Boqdan Boruseviç noyabrın 8-də Milli Məclisə gəldi. Parlamentin binası önündə qonağı Milli Məclisin sədri Oqtay Əsədov qarşıladı.

Polşa Senatinin sədri və nümayəndə heyətinin üzvləri əvvəlcə Milli Məclisin iclas salonu ilə tanış oldular

Milli Məclisin sədri Oqtay Əsədovla Polşa Senatının sədri Boqdan Boruseviç arasında təkbətək görüş oldu. Sonra görüş geniş tərkibdə davam etdirildi. Oqtay Əsədov ölkələrimiz arasındakı dostluq əlaqələrinin qədim tarixindən danışdı. Həmçinin bildirdi ki, XIX-XX əsrlərdə polyak arxitektorlar Bakıda gözəl binalar inşa ediblər. Neft sənayesinin inkişafında da polşalı mütəxəssislər yaxından iştirak etmişlər. İndi isə əlaqələrimiz yüksələn xətlə inkişaf edir. Dövlət başçılarının səfərləri zamanı aparılan danışıqlar, imzalanmış çoxsaylı sənədlər ikitərəfli münasibətlərin genişlənməsi üçün hüquqi baza yaratmışdır. Bunun nəticəsidir ki, siyasi, iqtisadi, ticarət və mədəni əlaqələrimiz günbəgün genişlənir. Parlamentlərarası əlaqələr də möhkəmlənir. Milli Məclisdə Polşa parlamenti ilə dostluq qrupu fəaliyyət göstərir.

Daha sonra Milli Məclisin sədri Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi barədə ətraflı məlumat verərək bildirdi ki, Azərbaycan problemin sülh yolu ilə həllinə tərəfdardır. Ermənistan BMT Təhlükəsizlik Şurasının qətnamələrini yerinə yetirməli və işğal etdiyi əraziləri boşaltmalıdır. Əgər sülh danışıqları bir nəticə verməsə, biz öz torpaqlarımızı başqa vasitələrlə azad edəcəyik.

Polşa Senatının sədri Boqdan Boruseviç onlara göstərilən qonaqpərvərliyə, səmimi qəbula və ətraflı məlumata görə minnətdarlığını bildirdi. O dedi ki, rəsmi Varşava Azərbaycanla əlaqələrin inkişafında maraqlıdır. Polşada da Azərbaycanı yaxşı tanıyırlar. Nümayəndə heyətimizin tərkibində deputatlarla yanaşı, iqtisadi qurumların nümayəndələri və iş adamları da gəliblər. Onlar da öz azərbaycanlı həmkarları ilə görüşüb əlaqələrin inkişafına dair danışıqlar aparacaqlar.

Görüşdə qarşılıqlı maraq doğuran bir sıra məsələlər ətrafında geniş fikir mübadiləsi oldu.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN MOSKVAYA SƏFƏRİ

Belçika Krallığına səfərini başa çatdıran Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 8-də axşam Moskvaya səfərə gəlmişdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV RUSİYA FEDERASİYASININ PREZİDENTİ VLADİMİR PUTİNLƏ GÖRÜŞMÜŞDÜR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 9-da Moskvada, Kremldə Rusiya Federasiyasının Prezidenti Vladimir Putinlə görüşmüşdür.

Rusiya Prezidenti VLADİMİR PUTİN dövlətimizin başçısını səmimiyyətlə salamlayaraq dedi:

-İlham Heydəroviç, ilk növbədə, Moskvaya gəldiyinizə, dəvətimizi qəbul etdiyinizə görə Sizə təşəkkürümü bildirmək istəyirəm. Sizi Brüsselə uğurlu səfər münasibətilə təbrik etmək istəyirəm. Bilirəm ki, bu səfər çox işgüzar, konkret olmuş, energetika sahəsində ümumavropa səylərində Azərbaycanın iştirakı baxımından mühüm razılaşmalar əldə edilmişdir. Bu, bizi də çox sevindirir, çünki bildiyiniz kimi, bu məsələ barədə Avropa İttifaqı ilə bizim daim dialoqumuz olur. Tezliklə növbəti görüş, növbəti sammit keçiriləcəkdir. Odur ki, avropalı tərəfdaşlarla dialoqunuzun necə keçdiyi barədə fikirlərinizi eşitmək mənim üçün çox maraqlı olacaqdır.

Lakin, bununla belə, bizim Sizinlə siyasi sahədə də, beynəlxalq işlərdə də, iqtisadiyyatda da çox böyük həcmdə ikitərəfli münasibətlərimiz var. Əmtəə dövriyyəsi 1 milyard dolları keçmişdir. Düşünürəm ki, yaxın 2-3 ildə biz onu iki dəfə artıracağıq. Hər halda, əmtəə dövriyyəsinin artım sürəti məhz bundan xəbər verir. Zənnimcə, bu il biz ticarət-iqtisadi əlaqələrimizin həcmini 50 faiz artırmışıq.

Sizi görməyimə çox şadam. Xoş gəlmisiniz!

Azərbaycan Prezidenti İLHAM ƏLİYEV səmimi qəbula görə Rusiya dövlətinin başçısına təşəkkür edərək dedi:

-Vladimir Vladimiroviç, sağ olun. Mənə də yenidən Moskvaya gəlmək, Sizinlə yenidən görüşmək, ikitərəfli münasibətlərimizi, regional əməkdaşlığı, regionda vəziyyəti müzakirə etmək çox xoşdur.

Münasibətlərimizin necə inkişaf etməsindən biz də məmnunuq. Münasibətlərimizin dinamizmi çox yüksəkdir, onlar çox səmərəlidir, mehriban qonşuluq, dostluq və əməkdaşlıq əsasında qurulmuşdur, biz praktik nəticəni görürük. Son vaxtlar Rusiya ilə Azərbaycan arasında münasibətlər çox yüksək səviyyəyə, bəlkə də, müstəqillik əldə edilməndən bəri ən yüksək səviyyəyə çatmışdır. Əlbəttə ki, biz əməkdaşlığın potensialını artırmağa çox çalışırıq. Hazırda siyasi müstəvidə, iqtisadi, humanitar sahələrdə əməkdaşlıq çox fəal gedir.

Biz Azərbaycanda Rusiya İli, - təəssüf ki, təqvimə görə başa çatır, lakin ümidvaram ki, gələcəkdə də mənən davam etdiriləcək, - çərçivəsində də çox yaxınlaşdıq. Rusiyada Azərbaycan, Azərbaycanda Rusiya illəri keçirilməsinin bu formatı çox səmərəli, çox faydalı oldu. Bu müddət ərzində ölkələrimiz və xalqlarımız daha da yaxınlaşdılar. Zən-

nimcə, il ərzində bütün səviyyələrdə malik olduğumuz bu mütəmadi təmasların gələcəkdə hansısa digər formada davam etdirilməsinə ehtiyac var. Bütün bu məsələlər bir-biri ilə bağlıdır və onların müsbət surətdə həll olunması istər münasibətlərimizin möhkəmlənməsinə, istərsə də ümumən regionda vəziyyətin sabitləşməsinə kömək edəcəkdir. Ona görə də bizim söhbətlərimiz belə böyük maraqla keçir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN MOSKVA ŞƏHƏRİNİN MERİ YURİ LUJKOV İLƏ GÖRÜŞÜ

Rusiya Federasiyasında səfərdə olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 10-da Moskva şəhər meriyasına gəldi.

Dövlətimizin başçısını meriyanın binası önündə Moskvanın meri Yuri Lujkov böyük hörmət və ehtiramla qarşıladı.

Sonra Prezident İlham Əliyevin Moskva meri Yuri Lujkovla görüşü oldu.

YURİ LUJKOV Azərbaycan dövlətinin başçısına müraciətlə dedi:

-Bizimlə, moskvalılarla görüşməyə vaxt tapdığınıza görə çox şadam. Şəxsən Sizə böyük hörmətimiz var. Atanız Heydər Əliyeviçin xatirəsini əziz tuturuq. Onunla yaxından əlaqə saxlayırdıq. Düşünürəm ki, əməkdaşlığımızın, münasibətlərimizin müasir mərhələsinin normal olduğunu deyə bilərik.

Əlbəttə, Sizin səfəriniz və bugünkü görüşümüz bu qarşılıqlı fəaliyyətin müxtəlif sahələrində əlaqələrin genişlənməsinə təkan verəcəkdir. Əmtəə döriyyəsinin və digər göstəricilərimizin artımı kifayət qədər yaxşıdır, xüsusi çəki hətta Azərbaycan ilə Rusiya arasındakı əmtəə dövriyyəsini üstələyir. Mənə elə gəlir ki, biz Bakı ilə Moskva arasında əməkdaşlığı daha da genişləndirmək üçün bütün müasir imkanlardan istifadə edə bilərik. Beləliklə, bu əməkdaşlıq daha güclü, müasir olar və Rusiya ilə Azərbaycan arasında münasibətlərin yüksək səviyyəsinə uyğun gələr.

Yuri Lujkov Azərbaycan Prezidenti İlham Əliyevdən meriyanın Fəxri qonaqlar kitabına ürək sözlərini yazmağı xahiş etdi.

SƏFƏR BAŞA ÇATDI

Noyabrın 11-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Rusiya Federasiyasına səfəri başa çatmışdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV MOSKVA DÖVLƏT BEYNƏLXALQ MÜNASİBƏTLƏR İNSTİTUTUNUN REKTORU, PROFESSOR ANATOLİ TORKUNOVU QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 14-də Prezident sarayında Rusiya Xarici İşlər Nazirliyinin Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunun rektoru, professor Anatoli Torkunovu qəbul etmişdir.

Dövlətimizin başçısı Moskva şəhərində yaşadığı illərin əksər hissəsinin MDBMİ ilə

bağlı olduğunu vurğulayaraq bildirdi ki, vaxtilə təhsil aldığım və dərs dediyim ali təhsil ocağının rektorunu qəbul etmək mənim üçün çox xoşdur.

Prezident İlham Əliyev professor Anatoli Torkunovun ölkəmizə səfərinin Azərbaycanın və Rusiyanın xarici işlər nazirlikləri, tədris ocaqları və müxtəlif təşkilatları, respublikamızda yeni yaranmış Diplomatik Akademiya ilə MDBMİ arasında əməkdaşlığın genişlənməsi baxımından böyük əhəmiyyət daşıdığını bildirdi.

Budəfəki səfəri zamanı Azərbaycanda çox böyük inkişafın əldə edildiyinin şahidi olduğunu bildirən Anatoli Torkunov insanların çöhrəsində sevinc, fərəh hisslərini görməkdən çox məmnun qaldığını söylədi. Prezident İlham Əliyevi Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunda daim xatırladıqlarını bildirən qonaq dedi ki, institutda 19 nəfərdən ibarət Fəxri doktorlar klubu yaradılmışdır. İnstitut fəxr edir ki, həmin 19 nəfərdən biri də siyasi xadim və dövlət xadimi kimi dünyada məşhur olan Prezident İlham Əliyevdir. Fəxri doktorlar klubunun üzvlərindən yalnız Prezident İlham Əliyev MDBMİ-nin məzunudur.

Anatoli Torkunov Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunun Elmi Şurasının təsis etdiyi mükafatı - bu ali məktəbin inkişafındakı xidmətlərinə və diplomatik kadrların hazırlanmasına töhfələrə görə medalı, habelə MDBMİ-nin Məzunlar Assosiasiyasının idarə heyətinin mükafatını - elmi-siyasi və biznes fəaliyyətində yüksək nəticələr əldə etmiş insanlar üçün Qızıl nişanı Prezident İlham Əliyevə təqdim etdi.

Dövlətimizin başçısı mükafatlara görə minnətdarlığını bildirdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV LİTVA DÖVLƏT TƏHLÜKƏSİZLİYİ DEPARTAMENTİNİN BAŞ DİREKTORU ARVİDAS POTSYUSU QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 14-də Prezident sarayında Litva Dövlət Təhlükəsizliyi Departamentinin Baş direktoru Arvidas Potsyusu qəbul etmişdir.

Söhbət zamanı ölkələrimiz arasında müxtəlif sahələrdə əlaqələrin uğurla inkişaf etdiyi vurğulandı, Litva Prezidenti Valdas Adamkusun Azərbaycana səfərinin və səfər zamanı imzalanmış sənədlərin Azərbaycan-Litva əlaqələrinin inkişafında mühüm rol oynadığı qeyd olundu.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV SƏUDİYYƏ ƏRƏBİSTANININ ALİ SOSİAL SIĞORTA TƏŞKİLATININ SƏDRİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 15-də Prezident sarayında Səudiyyə Ərəbistanı Krallığının Ali Sosial Sığorta Təşkilatının sədri Süleyman əl-Hümayydı qəbul etmişdir.

Prezident İlham Əliyev bildirdi ki, Azərbaycan ilə Səudiyyə Ərəbistanı arasında münasibətlər uğurla inkişaf edir. Ölkələrimizin müxtəlif qurumları arasında təcrübə mübadi-

ləsi, mövcud əlaqələrin daha da genişləndirilməsi baxımından qarşılıqlı səfərlərin əhəmiyyəti böyükdür. Dövlətimizin başçısı dedi ki, ölkələrimiz beynəlxalq təşkilatlar çərçivəsində bir-birini daim dəstəkləyir və əminəm ki, əməkdaşlığımız bundan sonra da möhkəmlənəcəkdir.

Süleyman əl-Hümayyd Səudiyyə Ərəbistanının Kralı Abdulla ibn Əbdüləziz Al Səudun səmimi salamlarını Prezident İlham Əliyevə çatdırdı. Qonaq ölkələrimiz arasında əlaqələrin yüksək səviyyəsini vurğulayaraq dedi ki, Səudiyyə Ərəbistanı əməkdaşlığın bütün sahələrdə daha da inkişaf etdirilməsində maraqlıdır. O, bu səfəri müddətində Azərbaycanın müxtəlif bölgələrində olduğunu və ölkəmizdə gedən inkişaf proseslərinin onda dərin təəssürat doğurduğunu söylədi.

Prezident İlham Əliyev Səudiyyə Ərəbistanı Kralının salamlarına görə minnətdarlığını bildirdi və özünün də salamlarını ona çatdırmağı xahiş etdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ALMANİYA NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 15-də Prezident sarayında Almaniya Federativ Respublikasının nümayəndə heyətini qəbul etmişdir.

Prezident İlham Əliyev əmin olduğunu bildirdi ki, Almaniya nümayəndə heyətinin bu səfəri ölkələrimiz arasında inkişaf edən münasibətlərə yeni təkan verəcəkdir. Dövlətimizin başçısı vurğuladı ki, Azərbaycan-Almaniya əlaqələri siyasi, iqtisadi və digər sahələrdə sürətlə inkişaf edir. Almaniyaya iki il əvvəlki rəsmi səfərini məmnunluqla xatırladan Prezident İlham Əliyev o vaxtdan keçən dövr ərzində ikitərəfli əlaqələrin, xüsusilə iqtisadi əməkdaşlığın inkişafı sahəsində böyük işlər görüldüyünü söylədi.

Dövlətimizin başçısı dedi ki, münasibətlərimiz həm ikitərəfli müstəvidə, həm də Azərbaycan-Avropa İttifaqı əlaqələri çərçivəsində uğurla inkişaf edir. Hazırkı mərhələdə Azərbaycan Avropa İttifaqı ilə yeni anlaşmalar imzalayır və əminəm ki, bu sahədə gələcək əməkdaşlığımız uğurlu olacaqdır.

Prezident İlham Əliyev vurğuladı ki, ətraf mühitin qorunması sahəsində də Azərbaycanın böyük planları və proqramları var. Azərbaycan rəhbərliyi ekologiya məsələlərinə çox böyük əhəmiyyət verir. Dövlətimizin başçısı bildirdi ki, Almaniya nümayəndə heyətinin bu səfəri həm ikitərəfli münasibətlərin inkişafı, həm də ətraf mühitin qorunması sahəsində əməkdaşlıq baxımından faydalı olacaqdır.

Nümayəndə heyətinin adından çıxış edən Almaniyanın Ətraf Mühit, Təbiəti Mühafizə və Nüvə Reaktorlarının Təhlükəsizliyi Nazirliyinin dövlət katibi, parlamentin deputatı xanım Astrid Kluq dedi ki, artıq iki gündür Azərbaycandayıq və özümüz üçün çox maraqlı olan bir ölkəni kəşf etdik. Azərbaycan və Almaniyanı birləşdirən təkcə səmimi dostluq münasibətləri deyil, həm də müxtəlif istiqamətlərdə əməkdaşlıq, o cümlədən ətraf mühitin qorunması sahəsində geniş əlaqələr birləşdirir. İndiki səfərimiz də bu əməkdaşlığın təzahürüdür. Nümayəndə heyətimizə Bundestaqın deputatları, ekologiya sahəsində fəaliyyət göstərən qeyri-hökumət təşkilatlarının təmsilçiləri daxildir. Xanım Astrid Kluq xatırlatdı ki, Almaniyanın ekologiya ilə məşğul olan təşkilatları Azərbaycanla uğurlu əməkdaşlıq edir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVƏ DÜNYADA ÇOX BÖYÜK NÜFUZA MALİK MİXAEL ZUKKOV FONDUNUN ALİ MÜKAFATI TƏQDİM OLUNMUŞDUR

Azərbaycanda təbiəti mühafizə sahəsində həyata keçirdiyi uğurlu siyasətə görə Prezident İlham Əliyevə Almaniyanın dünyada çox böyük nüfuza malik Mixael Zukkov Fondunun ali mükafatı təqdim olunmuşdur.

Bu münasibətlə noyabrın 15-də "Hyatt-Regensy" hotelinin "Quba" zalında keçirilən təqdimat mərasimində fondun idarə heyətinin üzvü Martin Oppenbrinq çıxış edərək təşkilatın fəaliyyəti, onun yaradıcısı və sədri Mixael Zukkov barədə məlumat verdi. O dedi ki, Mixael Zukkov 35 ildir həyatını və ömrünü təbiətə, insanlara həsr edir. 1997-ci ildə xidmətlərinə görə İsveç parlamenti onu alternativ Nobel mükafatına layiq görmüşdür. Qonaq bildirdi ki, Azərbaycan biomüxtəlifliyə görə dünyanın ən nadir bölgələrindən biridir və bu fondun maraq göstərdiyi ölkələrdəndir.

Mərasimdə çıxış edən fondun sədri Mixael Zukkov ilk dəfə 30 il bundan əvvəl Azərbaycana gəldiyini söylədi, Qobustan qayaları ilə tanışlıq zamanı respublikamızı qədim insan məskəni və əsrarəngiz təbiəti olan bir diyar kimi tanıdığını bildirdi. Azərbaycan müstəqillik qazandıqdan sonra 1990-cı illərin ortalarında ölkəmizə yenidən gəldiyini vurğulayan Zukkov ümummilli lider ilə görüşdüyünü və Prezident Heydər Əliyevdə ətraf mühitin mühafizəsi ilə bağlı son dərəcə maraqlı fikirlərin olduğunu diqqətə çatdırdı. O, ulu öndər Heydər Əliyevin sərəncamı ilə Ekologiya və Təbii Sərvətlər Nazirliyinin yaradılmasını Azərbaycanda bu sahədə atılan ən mühüm addım kimi dəyərləndirdi və dedi ki, məhz Heydər Əliyevin müdrik və düzgün siyasəti nəticəsində Azərbaycanda milli parkların və qoruqların yaradılması istiqamətində ciddi nailiyyətlər əldə edilmişdir. Keçid dövrü yaşayan ölkələrin heç birində Azərbaycandakı qədər uğurlar qazanılmadığını xatırladan natiq dedi: demək olar ki, bu sahədə Azərbaycan liderdir.

Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən tədbirlərə toxunan Mixael Zukkov son üç ildə qəbul olunan proqramların ekologiya və ətraf mühit üçün son dərəcə əhəmiyyətli olduğunu söylədi. O dedi ki, əgər 2003-cü ilə qədər xüsusi mühafizə olunan ərazilər 5 faiz təşkil edirdisə, Prezident İlham Əliyevin qətiyyətli səyləri nəticəsində Azərbaycanda xüsusi mühafizə olunan obyektlərin sahəsi ölkə ərazisinin 8 faizinə çatmışdır. Ölkənin müxtəlif regionlarında 6 milli park yaradılmışdır. Yaxın gələcəkdə yaradılacaq yeni milli parkları nəzərə alsaq, onda Azərbaycan ərazisinin 12 faizi təbii irs kimi qorunub saxlanacaqdır. Bu, çox böyük göstəricidir.

Sonra "Azərbaycanın mühafizə olunan təbiəti" adlı film nümayiş etdirildi.

Fondun prezidenti Mixael Zukkov ətraf mühitin mühafizəsi ilə bağlı göstərdiyi xidmətlərə görə fondun ali mükafatını Azərbaycan Prezidenti İlham Əliyevə təqdim etdi.

MOSKVA DÖVLƏT BEYNƏLXALQ MÜNASİBƏTLƏR İNSTİTUTUNUN REKTORU XARİCİ İŞLƏR NAZİRLİYİ DİPLOMATİYA AKADEMİYASININ QONAĞI OLMUŞDUR

Noyabrın 15-də Xarici İşlər Nazirliyində ölkəmizdə səfərdə olan Rusiya Xarici İşlər Nazirliyi Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunun (MDBMİ) rektoru, professor Anatoli Torkunov ilə görüş olmuşdur.

Xarici işlər nazirinin müavini, nazirliyin Diplomatik Akademiyasının rektoru Hafiz Paşayev tədbiri açaraq, MDBMİ-nin təkcə keçmiş sovet məkanında deyil, eləcə də bütün dünyada diplomatiya sahəsində kadrların hazırlanmasında böyük nüfuza malik təhsil ocağı olduğunu demişdir.

1944-cü ildə yaradılan Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunun məzunları arasında azərbaycanlıların da olduğunu diqqətə çatdıran H.Paşayev, onların ən parlaq nümunəsi kimi Azərbaycan Prezidenti İlham Əliyevi göstərmişdir.

Qonağı tədbir iştirakçılarına təqdim edən rektor Hafiz Paşayev bildirmişdir ki, professor Anatoli Torkunov 1972-ci ildə MDBMİ-nin beynəlxalq əlaqələr fakültəsini bitirərək, institutun Asiya və Afrika xalqlarının tarixi və mədəniyyəti kafedrası üzrə aspiranturaya daxil olmuşdur. A.Torkunov baş müəllimlikdən institutun rektoru vəzifəsinədək yüksəlmiş, 1983-1986-cı illərdə SSRİ-nin ABŞ-dakı səfirliyində işləmişdir. 1992-ci ildən Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunun rektoru işləyən A.Torkunov Rusiya Xarici İşlər Nazirliyinin kollegiyasının üzvüdür.

Azərbaycanda Diplomatik Akademiyanın yaradılmasını diplomatiya sahəsində kadrların hazırlanması baxımından yüksək qiymətləndirən A.Torkunov, Rusiyanın xarici siyasətinə dair mühazirə oxumuşdur.

Professor A.Torkunov SSRİ-nin dağılmasından sonra Rusiyanın xarici siyasətinin əsas prioritetləri, müasir beynəlxalq münasibətlər sistemində Rusiyanın yeri və rolu, ölkəsinin ABŞ, Avropa İttifaqı, NATO, MDB ölkələri ilə münasibətləri haqqında danışmış, dünyada sülhün və təhlükəsizliyin təmin olunması prosesində Rusiyanın iştirakından söz açmışdır.

Ölkəsinin Avropanın enerji təchizatında mühüm rol oynadığını diqqətə çatdıran MDBMİ-nin rektoru demişdir ki, Rusiyanın keçmiş Sovet İttifaqı ölkələri ilə münasibətləri yeni xarakter daşıyır.

A.Torkunov Rusiya ilə Azərbaycanın siyasi, iqtisadi, mədəni və digər sahələrdə münasibətlərinin yüksək səviyyədə olduğunu bildirmiş, prezidentlər Vladimir Putin və İlham Əliyev arasındakı müsbət dialoqun bu əlaqələrdə mühüm rol oynadığını demişdir.

Sonda professor A.Torkunov tədbir iştirakçılarının suallarını cavablandırmışdır.

"AZƏRBAYCAN RESPUBLİKASI KƏND TƏSƏRRÜFATI NAZİRLİYİ VƏ İTALİYA RESPUBLİKASININ KƏND TƏSƏRRÜFATI, ƏRZAQ VƏ MEŞƏÇİLİK SİYASƏTİ NAZİRLİYİ ARASINDA ƏMƏKDAŞLIQ HAQQINDA ANLAŞMA MEMORANDUMU"NUN TƏSDİQ OLUNMASI BARƏDƏ AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

1. 2006-cı il oktyabrın 20-də Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyi və İtaliya Respublikasının Kənd Təsərrüfatı, Ərzaq və Meşəçilik Siyasəti Nazirliyi arasında əməkdaşlıq haqqında Anlaşma Memorandumu" təsdiq edilsin.

2. Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Anlaşma Memorandumunun həyata keçirilməsini təmin etsin.

İlham Əliyev

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 15 noyabr 2006-cı il.

MİLLİ MƏCLİSİN NÜMAYƏNDƏ HEYƏTİ MDB PARLAMENTLƏRARASI ASSAMBLEYANIN NÖVBƏTİ İCLASINDA İŞTİRAK ETMİŞDİR

Noyabrın 16-da parlamentin sədri Oqtay Əsədov MDB Parlamentlərarası Assambleyasının növbəti iclasında iştirak etmək üçün Sankt-Peterburq şəhərinə işgüzar səfərə gəlmişdir.

MDB Parlamentlərarası Assambleyasının növbəti iclası çərçivəsində zəngin tədbirlər planı hazırlanmışdır. Bu tədbirlərə noyabrın 15-dən başlanmışdı. Əvvəlcə təşkilatın daimi komissiyalarının iclasları keçirilmişdir.

Komissiyaların işində Milli Məclisin regional məsələlər daimi komissiyasının sədri Arif Rəhimzadə, hüquq siyasəti və dövlət quruculuğu məsələləri daimi komissiyasının sədr müavini Rövşən Rzayev və iqtisadi siyasət daimi komissiyasının sədr müavini Azər Əmiraslanov iştirak etmişlər. Komissiyalarda MDB-yə üzv ölkələr üçün böyük əhəmiyyətə malik olan qanun layihələri müzakirə olunmuşdur. Bunlar əsasən "Banklar və bank fəaliyyəti haqqında", "Əmlak vergisi haqqında", "Torpaq vergisi", "Dövlət rüsumu", "Qarşılıqlı sığorta cəmiyyətləri haqqında" model qanun layihələri idi. Diqqətəlayiq hal odur ki, Azərbaycan tərəfinin həmin qanun layihələri ilə bağlı təklifləri nəzərə alınmışdır. Bu, beynəlxalq təşkilatlarda Azərbaycanın fəallığını və ölkəmizin həmin qurumlarda nüfuzunun artdığını təsdiqləyən başlıca amillərdəndir.

Noyabrın 16-da MDB Parlamentlərarası Assambleyası öz işinə Tavriya sarayında Parlamentlərarası Assambleya Şurasının iclası ilə başlamışdır. İclasda Parlamentlərarası Assambleyanın növbəti iclası ilə bağlı nəzərdə tutulan bütün məsələlər müzakirə olunaraq qəbul edilmişdir. Gündəlikdəki məsələlərdən biri MDB Parlamentlərarası Assambleyası nümayəndələrinin Azərbaycan Respublikası Milli Məclisinə təkrar seçkilərdə müşahidəçi qismində iştirakı ilə bağlı idi. Milli Məclisə keçirilən təkrar seçkilər iclasda yüksək qiymətləndirilmişdir. Qeyd olunmuşdur ki, Azərbaycanda mühüm siyasi aksiya

olan seçkilərə yüksək səviyyədə diqqət yetirilir və bu məsələdə ölkəmizdə demokratiyanı uğurla inkişaf etdirən dövlətimizin başçısı İlham Əliyevin böyük rolu vardır.

Şuranın iclası başa çatdıqdan sonra MDB Parlamentlərarası Assambleyasının 27-ci ümumi iclası olmuşdur. İclasdan sonra mətbuat konfransı keçirilmiş, parlament sədrləri jurnalistlərin suallarına cavab vermişlər.

Azərbaycan, Rusiya, Gürcüstan və Ermənistan parlament sədrlərinin görüşü isə qapalı keçmişdir. Görüşdən sonra Rusiya Federasiya Şurasının sədri S.Mironov qısa bəyanatla çıxış edərək bu cür görüşlərin faydalı olduğunu və belə tədbirlərin gələcəkdə də davam etdirilməsinin zəruriliyini vurğulamışdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN TÜRKİYƏYƏ SƏFƏRİ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev türkdilli ölkələrin dövlət başçılarının Antalyada keçiriləcək zirvə görüşündə iştirak etmək üçün noyabrın 16-da Türkiyəyə səfərə yola düşmüşdür.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN QAZAXISTAN PREZİDENTİ NURSULTAN NAZARBAYEVLƏ GÖRÜŞÜ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 17-də Antalyada, Türkdilli ölkələrin dövlət başçılarının VIII zirvə görüşü çərçivəsində Qazaxıstan Respublikasının Prezidenti Nursultan Nazarbayev ilə görüşmüşdür.

Görüşdə ölkələrimiz arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə uğurla inkişaf etdiyi, iqtisadi əlaqələrin genişləndiyi, ticari-iqtisadi əlaqələrin daha da dərinləşməsi üçün böyük potensialın olduğu vurğulandı, energetika məsələlərinə toxunuldu. Bildirildi ki, Azərbaycan ilə Qazaxıstanın qlobal enerji layihələrində birgə iştirakı, bu sahədə əməkdaşlığı bölgədə sülhün və sabitliyin qorunmasına xidmət edir, bütün region üçün böyük əhəmiyyət daşıyır.

Dövlət başçılarının VIII zirvə görüşünün türkdilli ölkələr və xalqlar arasında əməkdaşlığın genişlənməsinə xidmət etdiyini vurğulayan prezidentlər ölkələrimizin əlaqələrinin bundan sonra da inkişaf edəcəyinə və daha da möhkəmlənəcəyinə əmin olduqlarını bildirdilər.

Prezident Nursultan Nazarbayev Azərbaycanın neft-qaz sahəsində böyük təcrübəyə malik olduğunu vurğuladı, Prezident İlham Əliyevi ölkəsinə səfərə dəvət etdi.

Dəvət məmnunluqla qəbul olundu.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN QIRĞIZISTAN PREZİDENTİ KURMANBEK BAKİYEVLƏ GÖRÜŞÜ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 17-də türkdilli ölkələrin dövlət başçılarının Antalyada keçirilən VIII zirvə görüşü çərçivəsində Qırğızıstan Respublikasının Prezidenti Kurmanbek Bakiyev ilə görüşmüşdür.

Görüşdə siyasi sahədə əlaqələrin yaxşı səviyyədə olduğu, iqtisadi əməkdaşlıq potensialının araşdırılmasının vacibliyi vurğulandı. Xalqlarımız arasında yaxınlığın, yaxşı siyasi əlaqələrin ikitərəfli münasibətlərin daha da genişlənməsi işində təkanverici rol oynaya biləcəyi qeyd edildi.

Prezident Kurmanbek Bakiyev Qırğızıstanda 20 min soydaşımızın yaşadığını, Azərbaycan diasporunun ölkənin biznes sahəsində, iqtisadi inkişaf proseslərində fəal iştirak etdiyini söylədi.

Prezident İlham Əliyev bildirdi ki, Azərbaycanın Qırğızıstanda səfirliyinin açılması planlaşdırılır və bu, əlaqələrimizin genişləndirilməsinə öz töhfəsini verəcəkdir.

Görüşdə energetika sahəsində əməkdaşlığın mümkünlüyü də vurğulandı. Prezident Kurmanbek Bakiyev Azərbaycanın energetika sahəsindəki təcrübəsindən istifadə edilməsinin faydalı olduğunu bildirdi.

Prezidentlər türkdilli ölkələrin dövlət başçılarının VIII zirvə görüşünün keçirilməsinin çox əhəmiyyətli olduğunu, humanitar sahədə də əməkdaşlığın genişləndirilməsinin mümkünlüyünü vurğuladılar.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər də müzakirə edildi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ TÜRKİYƏ PREZİDENTİ ƏHMƏD NECDƏT SEZƏRİN GÖRÜŞÜ

Noyabrın 17-də Antalyada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Türkiyə Respublikasının Prezidenti Əhməd Necdət Sezərin görüşü olmuşdur.

Görüşdə qlobal enerji layihələrinin, o cümlədən Bakı-Tbilisi-Ceyhan neft və Bakı-Tbilisi-Ərzurum qaz kəmərlərinin əhəmiyyəti, ikitərəfli münasibətlərin çox uğurla inkişaf etdiyi bildirildi. Türkdilli ölkələrin dövlət başçılarının VIII zirvə görüşünün uğurla keçdiyi, xalqlarımız arasında əlaqələrin genişləndirilməsində xüsusi əhəmiyyət daşıdığı vurğulandı.

Türkiyə Prezidenti Azərbaycan ilə Avropa İttifaqı arasında yeni qonşuluq siyasətinə dair tədbirlər planının imzalanması münasibətilə dövlətimizin başçısını təbrik etdi.

Prezident İlham Əliyev Azərbaycanın Avropaya inteqrasiya siyasətindən danışdı, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi məsələsinə də toxundu.

Prezident Əhməd Necdət Sezər bu məsələ ilə bağlı ölkəsinin mövqeyini bir daha açıqlayaraq dedi ki, Dağlıq Qarabağ münaqişəsi Azərbaycanın ərazi bütövlüyü çərçivəsində sülh yolu ilə həll olunmalıdır.

Görüşdə regional və qarşılıqlı maraq doğuran digər məsələlər barədə də fikir mübadiləsi aparıldı.

TÜRKDİLLİ ÖLKƏLƏRİN DÖVLƏT BAŞÇILARININ VIII ZİRVƏ GÖRÜŞÜ

Noyabrın 17-də Türkiyənin Antalya şəhərində Türkdilli ölkələrin dövlət başçılarının VIII zirvə görüşü açılmışdır.

Xatırladaq ki, ilk zirvə görüşü 1992-ci ildə Ankarada, sonrakı toplantılar 1994-cü ildə İstanbulda, 1995-ci ildə Bişkekdə, 1996-cı ildə Daşkənddə, 1998-ci ildə Astanada, 2000-ci ildə Bakıda və 2001-ci ildə İstanbulda keçirilmişdir.

Türkiyə Respublikasının Prezidenti Əhməd Necdət Sezər zirvə görüşünün keçirildiyi "Divan Talya" Konqres Mərkəzində Azərbaycan Prezidenti İlham Əliyevi, Qazaxıstan Prezidenti Nursultan Nazarbayevi, Qırğızıstan Prezidenti Kurmanbek Bakiyevi və Türkmənistanın Türkiyədəki səfiri Nurbeldı Amanbuladovu böyük hörmət və ehtiramla qarşıladı.

Zirvə görüşünü açan Türkiyə Cümhuriyyətinin Prezidenti Əhməd Necdət Sezər türkdilli ölkələrin liderlərini və nümayəndə heyətlərini salamladı, onları dövlət müstəqilliklərinin 15 illiyi münasibətilə təbrik etdi. Prezident Əhməd Necdət Sezər 1992-ci ildəki ilk zirvə görüşündən keçən 14 il ərzində türkdilli ölkələr arasında ikitərəfli və çoxtərəfli münasibətlərin və işbirliyinin möhkəmləndirilməsində əsaslı dəyişikliklərin baş verdiyini söylədi, ötən toplantılarda regional və beynəlxalq məsələlər haqqında faydalı fikir mübadiləsi aparıldığını, əlaqələrin gücləndirilməsi, iqtisadi və sosial inkişafın sürətləndirilməsi baxımından böyük irəliləyişlər olduğunu bildirdi.

Türkiyənin dövlət başçısı beynəlxalq terrorizmin, dini radikalizmin, separatizmin, qanunsuz miqrasiyanın, narkotik maddələr qaçaqmalçılığının və digər mütəşəkkil cinayətkarlığın Avrasiya bölgəsinin inkişafı və sabitliyinə təhlükə yaratdığını bildirdi.

Cənubi Qafqazda həqiqi sülhün, tərəqqi və əməkdaşlıq mühiti yaradılmasının yalnız Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində dinc yolla həllindən asılı olduğunu vurğulayan Prezident Əhməd Necdət Sezər Türkiyənin bu sahədə qardaş Azərbaycanı bundan sonra da qətiyyətlə dəstəkləyəcəyini söylədi.

Xalqımızın ümummilli lideri Heydər Əliyevin xatirəsini ehtiramla anaraq, onun tarixi xidmətlərini xatırladan Prezident Əhməd Necdət Sezər dedi ki, sağlam təməllər üzərində qurulan bu zirvə görüşləri ölkələrimiz arasındakı dostluq və qardaşlığın daha da möhkəmlənməsinə, bölgədə sülhün və əmin-amanlığın təmin olunmasına xidmət edir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ

- Hörmətli dövlət başçıları!

Hörmətli xanımlar və cənablar, əziz dostlar!

İlk növbədə, əziz qardaşım, Türkiyə Cümhuriyyətinin Cümhurbaşqanı Əhməd Necdət Sezərə bu zirvə görüşünü təşkil etdiyinə və bizə göstərdiyi yüksək qonaqpərvərliyə görə öz adımdan dərin təşəkkürümü bildirmək istəyirəm. Yenidən qardaş ölkədə olmağımdan çox məmnunam və hesab edirəm ki, bu zirvə görüşünün keçirilməsi, aparılacaq fikir mübadiləsi və qəbul ediləcək qərarlar bizim birgə fəaliyyətimiz üçün yeni imkanlar açacaqdır.

Bizim ölkələrimiz 15 ildir ki, müstəqil həyat yaşayır. Sovet İttifaqı dağılandan sonra biz müstəqilliyə qovuşduq. Müstəqillik əldə etmək çox böyük nailiyyətdir. Deyə bilərəm ki, ən böyük sərvətimiz bizim müstəqilliyimizdir. Çünki biz uzun illər, əsrlər boyu bu müstəqillikdən məhrum olmuşduq. Ancaq müstəqilliyi möhkəmlətmək, qoruyub saxlamaq daha da çətin işdir və ötən 15 il göstərdi ki, yeni müstəqil dövlətlər müstəqil ölkələr kimi çox uğurlu fəaliyyət göstərir. Bizim qarşımızda duran bütün əsas çətinliklər arxada qaldı və ilk illərdə qardaş Türkiyənin bizə göstərdiyi dəstək bu işdə çox böyük rol oynamışdır. Türkiyə Azərbaycanı müstəqil ölkə kimi tanıyan ilk dövlət olmuşdur. Azərbaycan dövlət müstəqilliyini əldə etdikdən sonra Türkiyə Azərbaycana çox böyük dəstək vermiş, kömək göstərmişdir və bizim müstəqil şəkildə fəaliyyətimiz üçün bunun çox böyük rolu olmuşdur.

İndiki mərhələdə yeni müstəqil ölkələr artıq öz inkişaf dövrünü yaşayır. Demək olar ki, bütün ölkələrdə tənəzzül və iqtisadi çətinliklər arxada qalmışdır. Bizim iqtisadiyyatımız sürətlə inkişaf edir, siyasi proseslər normal məcrada gedir və təbii ki, ikitərəfli əlaqələrimiz də möhkəmlənir. Ölkələrimiz arasında ikitərəfli əlaqələr yüksək səviyyədədir və biz bunu möhkəmləndiririk. Əlbəttə ki, çoxtərəfli əlaqələrin möhkəmlənməsinə də böyük ehtiyac var. Ona görə bu zirvə görüşünün uzun fasilədən sonra keçirilməsinin çox böyük əhəmiyyəti var, buna böyük ehtiyac var. Dünya dəyişir, bölgəmizdə baş verən hadisələr yeni yanaşmalar tələb edir, yeni çağırışlar ortaya çıxır və biz birlikdə bunlara çarə tapmalıyıq. Birgə fəaliyyətimiz nəticəsində bölgəni inkişaf etdirmək üçün, sülhün, təhlükəsizliyin, sabitliyin tam şəkildə bərqərar olunması üçün bizim birgə səylərimiz böyük əhəmiyyət kəsb edir.

Bizi birləşdirən tarixi köklər, ortaq mədəniyyət, etnik mənsubiyyət, əlbəttə ki, qarşılıqlı, səmərəli fəaliyyətimiz üçün çox böyük əsasdır, böyük amildir. Mədəni əlaqələrimizin inkişaf etdirilməsi insanlar arasında əlaqələrin möhkəmlənməsinə gətirib çıxarır və bu məqsədə nail olmaqda mən TÜRKSOY təşkilatının fəaliyyətini yüksək qiymətləndirmək istəyirəm. Bu təşkilatın fəaliyyəti nəticəsində bizim xalqlarımız bir-birinə daha da yaxın oldular. Siyasi əlaqələrimiz çox yüksək səviyyədədir və iqtisadi sahədə böyük işlər görülübdür, bizim münasibətlərimiz hərtərəfli inkişaf edir.

İqtisadi sahədə bizi birləşdirən konkret, real layihələr var və onların uğurla həyata keçirilməsi həm ölkələrimiz üçün, həm də bölgə üçün yeni imkanlar açır. Bakı-Tbilisi-Ceyhan neft kəmərinin istismara verilməsi tarixi hadisədir və bu kəmər bundan sonra uzun illər, onilliklər ərzində bölgənin həm iqtisadi inkişafına, həm də ki, təhlükəsizliyinin möhkəmlənməsinə xidmət göstərəcəkdir. Qardaş Qazaxıstanın bu layihəyə qoşulması ona yeni dinamizm gətiribdir, artıq çox böyük mənada regional layihəyə çeviribdir. Əminəm ki, fəaliyyətə başlamış kəmərin uzun illər ərzində istismarı nəticəsində xalqlarımızın rifahı yaxlışacaq, bizim əlaqələrimiz daha da möhkəmlənəcək və beləliklə bölgədə sülhün, təhlükəsizliyin təmin edilməsi mümkün olacaqdır.

Bakı-Tbilisi-Ərzurum qaz kəmərinin çəkilməsi Azərbaycan qazının Türkiyəyə və Avropaya çatdırılması deməkdir, Avropanın enerji təhlükəsizliyi məsələlərinin həlli üçün töhfədir və bu istiqamətdə ölkələrimizin birgə fəaliyyəti çox böyük əhəmiyyət kəsb edir. Xəzər dənizi hövzəsində yerləşən ölkələrin çox zəngin təbii ehtiyatları - neft, qaz ehtiyatları var və bunlar artıq ölkələrimizin, xalqlarımızın inkişafı üçün böyük əhəmiyyət daşıyır. Çünki bölgəyə, ölkələrə maddi rifah gətirir. Siyasi proseslərin inkişafına gətirib çıxarır, ölkələrimizdə demokratik proseslərə də müsbət təsir göstərir. Zəngin olmayan ölkələrdə, yaxud kasıb ölkələrdə demokratik proseslər ləng gedir.

Biz öz siyasətimizi iki istiqamətdə formalaşdırırıq. İqtisadi islahatlar və siyasi islahatlar

bir-birini tamamlayır, bir-birini şərtləndirir. Maddi rifahın yüksəlməsi, insanların normal yaşaması, iqtisadiyyatın, özəl sektorun, sahibkarlığın inkişafı, əlbəttə ki, ölkələrimizin demokratikləşməsinə çox mühüm təsir göstərir.

Bizim uğurlu işbirliyimiz artıq gerçəklikdir, reallıqdır. Vaxtilə əfsanə kimi görünən layihələr bu gün reallığa çevrilir. Bu onu göstərir ki, biz bu işləri görməyə qadirik. Bütün çətinliklərə, bütün maneələrə baxmayaraq, biz bunu bacardıq.

Ona görə mən şübhə etmirəm ki, Qars-Tbilisi-Bakı dəmir yolu layihəsinin həyata keçirilməsində də qarşımızda duran çətinliklər, süni maneələr aradan qaldırılacaqdır.

Bu dəmir yolunun tikintisi ölkələrimiz üçün, xalqlarımız üçün, regional əməkdaşlıq üçün lazımdır. O, Türkiyəni Azərbaycanla dəmir yolu vasitəsilə birləşdirəcəkdir. Türkiyəni Orta Asiya ilə, Qazaxıstanla dəmir yolu vasitəsilə birləşdirəcəkdir və bütövlükdə Avropanı Asiya ilə birləşdirəcəkdir. Bu layihə bölgədə ancaq və ancaq sabitliyin, sülhün möhkəmlənməsinə gətirib çıxaracaqdır. Ona görə süni şəkildə yaradılan problemlər bizi bu yoldan çəkindirməyəcək, iradəmizi qırmayacaq, əksinə, bizi daha da mətin edəcək və daha da məqsədyönlü fəaliyyətimizə təkan verəcəkdir.

Biz müstəqilliyimizin 15 ilini yaşadıq. Bu illər ərzində problemlər də oldu, çətinliklər də, böhranlar da oldu. Bizim bir-birimizə dəstək verməyimiz, əlbəttə ki, çətinliklərin aradan qaldırılmasına böyük imkanlar yaratdı. Azərbaycanın sürətli iqtisadi inkişafı artıq reallıqdır. Avropa Yenidənqurma və İnkişaf Bankının bu yaxınlardakı hesabatına görə, Azərbaycan iqtisadi artımın sürəti baxımından dünyada lider dövlətə çevrilibdir. 2005-ci ildə bizim iqtisadiyyatımız 26 faiz, 2006-cı ildə isə 34 faiz artmışdır. Sənaye istehsalı 40 faiz artmışdır. Bu, ölkənin dinamik inkişafına imkanlar yaradır, eyni zamanda, bizim iqtisadi potensialımızı möhkəmləndirir. Çox istəyirik ki, bizə qardaş olan ölkələr bu imkanlardan faydalansınlar və biz də o ölkələrin imkanlarından faydalanaq. Artıq bizim ölkələrimiz dinamik inkişafa qədəm qoyubdur. Yeni iş yerləri, yeni müəssisələr, neft-qaz kəmərləri yaradılır, nəqliyyat strukturu müasirləşir, modernləşir və dünya standartlarına cavab verir. Ona görə iqtisadi sahədəki əməkdaşlığımız və gələcək fəaliyyətimiz, əminəm ki, ölkələrimiz arasında olan münasibətlərə çox böyük təkan verəcəkdir.

Ancaq bizi narahat edən problemlər də kifayət qədərdir. Biz yerləşdiyimiz bölgənin problemləri ilə yaşayırıq. Əfsuslar olsun ki, bölgəmizdə, o cümlədən Azərbaycanda hələlik sülh, sabitlik, təhlükəsizlik bərqərar olunmayıbdır. Azərbaycanın ən ağrılı problemi Ermənistanın Azərbaycana qarşı davam edən işğalıdır. Bu, həm bizim üçün böyük problemdir, həm də bölgə üçün sabitliyi poza biləcək amildir. Biz məsələni sülh yolu ilə həll etmək niyyətindəyik. Beynəlxalq hüquq normaları və prinsipləri əsasında həll etmək niyyətindəyik. Hər bir münaqişə, hər bir mübahisə müəyyən çərçivələr, dünyada mövcud olan prinsiplər, normalar əsasında həll edilməlidir. Xüsusilə dünyanın ən aparıcı təşkilatı olan Birləşmiş Millətlər Təşkilatının qərarları əsasında həll olunmalıdır. Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurası məsələnin həllinə və Ermənistan qoşunlarının torpaqlarımızdan qeyd-şərtsiz şəkildə çıxarılmasına dair dörd qətnamə qəbul etmişdir. Ermənistan bunlara məhəl qoymur. İslam Konfransı Təşkilatının bu məsələdə dəstəyinə görə biz təşkilata üzv olan ölkələrə minnətdarıq. O təşkilat da müvafiq qərarlar qəbul edibdir. Avropa Şurası kimi mötəbər təşkilat keçən ilin yanvar ayında Ermənistan-Azərbaycan münaqişəsinə dair qərar qəbul edib və orada Ermənistanı işğalçı dövlət kimi tanıyıbdır.

Ancaq Ermənistana bunun heç bir təsiri yoxdur. Belə olan halda, beynəlxalq təzminləmə mexanizmlərinə bizim ümidimiz azalır. Belə olan halda, bölgədə vəziyyət gərginləşə bilər. Azərbaycan torpağının 20 faizini itiribdir, etnik təmizləmə siyasəti nəticəsində bir milyondan artıq soydaşımız qaçqın, köçkün vəziyyətində yaşayır. İşğal olunmuş torpaqlarımızdakı bütün tarixi, mədəni, dini abidələr dağıdılıbdır, daş daşüstə qalmayıbdır. Torpaqlarımız yandırılır, meşələrimiz qırılır, dini məbədlərimiz dağıdılır, vandalizm aktları törədilir. Dağlıq Qarabağ adlı qeyri-qanuni, kriminal qurum beynəlxalq nəzarətdən tamamilə kənardadır. Orada nə baş verir - beynəlxalq ictimaiyyət bundan xəbərsizdir. Bizdə olan məlumata görə, orada kriminal əməliyyatlar baş verir, narkotrafik inkişaf edir, qanunsuz silah alveri gedir, terrorçular hazırlanır. Terrorizmdən əziyyət çəkmiş ölkə kimi Azərbaycan terrorizmin nə olduğunu yaxşı bilir. Ona görə biz tələb edirik ki, məsələ yalnız və yalnız beynəlxalq hüquq normaları əsasında həll olunmalıdır. Bu, hansısa ölkənin xülyaları əsasında həll oluna bilməz. Biz də çox şey istəyə bilərik. Bizim tarixi torpağımız olan İrəvan xanlığının ərazisi bu gün Ermənistan dövlətinin tərkibindədir. Ancaq biz məsələyə reallıqla yanaşırıq. Biz bilirik ki, əgər dünyada mövcud olan sərhədlərə toxunularsa, bu, çox xoşagəlməz hadisələrə gətirib çıxara bilər, çox böyük fəlakətlərə gətirib çıxara bilər.

Ona görə hər bir ölkənin ərazi bütövlüyü tanınmalıdır. Azərbaycanın da ərazi bütövlüyü Ermənistandan başqa, bütün dünya dövlətləri tərəfindən tanınır. Mən bir daha qeyd etmək istəyirəm ki, biz məsələnin sülh yolu ilə həllinə tərəfdarıq və bunun üçün əlimizdən gələni edirik. Bizə göstərilən diqqətə, qayğıya və dəstəyə görə qardaş dövlətlərə minnətdarıq. Bu dəstək bizim üçün çox önəmlidir və çalışacağıq ki, bütün imkanlardan istifadə edib, məsələnin ədalətli həllinə nail olaq. Bunu etmək üçün biz güclü olmalıyıq. İqtisadiyyatımızı möhkəmləndirməliyik, potensialımızı gücləndirməliyik, bölgədə daha da möhkəm mövqelərə malik olmalıyıq. Əlbəttə ki, belə olan halda, danışıqlar prosesində bizim mövqeyimiz daha da güclü olacaqdır.

Əziz dostlar, əminəm ki, bu zirvə görüşü tarixə yazılacaqdır. Çünki, bir daha demək istəyirəm ki, uzun fasilədən sonra Türkiyə dövlətinin təşəbbüsü və ev sahibliyi ilə bu zirvə görüşünün təşkili çox böyük əhəmiyyət kəsb edir. Mən əminəm ki, bundan sonra uzun fasilələr olmayacaq və biz mütəmadi qaydada görüşəcəyik, öz səylərimizi birləşdirəcəyik. Biz bir-birimizi daim dəstəkləməliyik. Hər bir türkdilli ölkənin problemi digərlərinin probleminə çevrilməlidir. Biz Türkiyənin Avropa Birliyinə üzv olmaq cəhdlərini alqışlayırıq, dəstəkləyirik. Bəzi hallarda Türkiyəyə qarşı olan ədalətsizliyi görəndə biz də çox üzülürük, bu, bizə də çox böyük təsir göstərir. Çünki, dünyada ədalət olmalıdır, çərçivələr olmalıdır, davranış qaydaları olmalıdır. Hər bir insan, hər bir dövlət ədalətsizliyi görəndə, əlbəttə ki, buna dözə bilmir. Bizim işimiz haqq işidir. Biz ədalətin, sülhün tərəfdarıyıq, əməkdaşlığın tərəfdarıyıq. Şübhə etmirəm ki, bu görüşdə və gələcəkdə zirvə görüşlərində qəbul ediləcək qərarlar bizim birliyimizi daha da möhkəmləndirəcəkdir.

Bu zirvə görüşünün təşkilinə görə Türkiyə dövlətinə və şəxsən əziz qardaşım Prezident Əhməd Necdət Sezərə bir daha öz təşəkkürümü bildirirəm. Əminəm ki, qəbul olunacaq qərarlar bizi daha da birləşdirəcək və türk dünyası daha sürətlə inkişaf edəcəkdir.

Təşəkkür edirəm.



Qazaxıstan Prezidenti Nursultan Nazarbayev, Qırğızıstan Prezidenti Kurmanbek Bakiyev və Türkmənistan nümayəndə heyətinin rəhbəri adından bu ölkənin Ankaradakı səfiri Nurbeldı Amanbuladov çıxış etdilər.

Prezident Nazarbayev türkdilli ölkələrin siyasi, iqtisadi və mədəni əlaqələrinin daha da genişləndirilməsinin zəruriliyini vurğuladı. O, Qazaxıstanın türkdilli dövlətlərlə kosmos sahəsində tədqiqatlar aparmağa hazır olduğunu bildirərək dedi ki, bu il biz ilk peykimizi buraxmışıq, 2008-ci ildə ildə isə ikincisini buraxmağı nəzərdə tuturuq. Bu istiqamətdə birgə fəaliyyət göstərə bilərik.

Prezident Kurmanbek Bakiyev Orta Asiya dövlətlərinin nəqliyyat yollarından kənarda qalmaması üçün nəqliyyat və rabitə sahəsində layihələrin həyata keçirilməsinin vacibliyini vurğuladı. O, çoxtərəfli əməkdaşlığın inkişafı baxımından siyasi dialoqun vacibliyini xatırlatdı və əmin olduğunu bildirdi ki, zirvə görüşündə qəbul ediləcək qərarlar türkdilli ölkələrin qarşılıqlı əlaqələrinin genişləndirilməsi baxımından əhəmiyyətli olacaqdır.

Səfir Nurbeldı Amanbuladov Türkmənistan Prezidentinin zirvə görüşü iştirakçılarına salamlarını çatdırdı, Antalya görüşündə qəbul ediləcək qərarların dost və qardaş ölkələr arasında işbirliyinə töhfə verəcəyini söylədi.

Sonra türkdilli ölkələrin dövlət başçıları birgə xatirə şəkli çəkdirdilər.

Fasilədən sonra Türkiyə Prezidenti Əhməd Necdət Sezərin adından türkdilli ölkələrin dövlət başçılarının şərəfinə nahar verildi. Azərbaycan Prezidenti İlham Əliyev naharda iştirak edirdi.



Zirvə görüşü fasilədən sonra işini davam etdirdi.

Türkiyə Prezidenti Əhməd Necdət Sezər, Azərbaycan Prezidenti İlham Əliyev, Qazaxıstan Prezidenti Nursultan Nazarbayev və Qırğızıstan Prezidenti Kurmanbek Bakiyev ikinci iclasda çıxış etdilər.

Prezident İlham Əliyev çıxışında əsas diqqəti bir neçə məsələyə yönəltdi, türkdilli ölkələrin əhatə olunduğu regionda, ümumiyyətlə, daha geniş məkanda mövcud olan çağırışlardan və problemlərdən danışdı, enerji təhlükəsizliyini, terrorizmə, separatizmə qarşı mübarizəni, iqtisadi əməkdaşlığı və digər məsələləri əsas çağırış kimi səciyyələndirdi. Dövlətimizin başçısı dedi ki, türk dünyası həm əhali, həm maddi imkanlar, təbii sərvətlər baxımından, həm də intellektual baxımdan çox böyük potensiala malik ölkələri özündə birləşdirir. Azərbaycanda daxili sabitlik var və bu da əməkdaşlığımıza kömək edir. Azərbaycan Qazaxıstanın gələcəkdə ATƏT-ə sədrlik etməsini də dəstəkləyir.

Prezident İlham Əliyev dini zəmində baş verən münaqişələrin, irqçiliyin, ayrı-seçkiliyin mövcud olduğunu vurğuladı, separatizmə qarşı birgə mübarizənin vacibliyini bildirərək, Azərbaycanın təcavüzkar separatizmə və terrorizmə məruz qalmış ölkə olduğunu bir daha xatırlatdı. Dövlətimizin başçısı dedi ki, türkdilli dövlətlər çoxmillətli ölkələrdir, Azərbaycanda olan dini tolerantlıq başqa dövlətlər üçün də nümunə ola bilər.

Türkdilli ölkələrin dövlət başçılarının VIII zirvə görüşü Antalya bəyannaməsinin imza-

lanması ilə başa çatdı. Bəyannaməni Azərbaycan Prezidenti İlham Əliyev, Türkiyə Prezidenti Əhməd Necdət Sezər, Qazaxıstan Prezidenti Nursultan Nazarbayev və Qırğızıstan Prezidenti Kurmanbek Bakiyev imzaladılar.

Növbəti, IX zirvə görüşünün Bakıda keçirilməsi qərara alındı.

DÖVLƏT BAŞÇILARININ ŞƏRƏFİNƏ

Zirvə görüşü başa çatdıqdan sonra Antalyanın "Şeraton" mehmanxanasında Türkiyə Prezidenti Əhməd Necdət Sezərin adından dövlət başçılarının şərəfinə rəsmi ziyafət verildi. Azərbaycan Prezidenti İlham Əliyev ziyafətdə iştirak edirdi.

Türkiyə Prezidenti Əhməd Necdət Sezər ziyafətdə çıxış edərək, dövlət başçılarını və nümayəndə heyətlərinin üzvlərini Antalya zirvə görüşünə yeni məna verən və onun əhəmiyyətini artıran hadisə - dövlət müstəqilliklərinin 15 illiyi münasibətilə ürəkdən təbrik etdi. O dedi ki, qardaşlarımızın 15 il ərzində çatdıqları səviyyə bu gün bizə qürur hissi verir.

İlk dəfə 1992-ci ildə Ankarada təşkil edilən zirvə görüşündən sonra ölkələrimiz arasında ikitərəfli münasibətlərdə olduğu kimi, çoxtərəfli əməkdaşlıq sahəsində də böyük işlər görüldüyünü diqqətə çatdıran Əhməd Necdət Sezər indiki zirvə görüşündə bölgədəki və beynəlxalq aləmdəki vəziyyət, əlaqələrin genişləndirilməsi, bölgədə sülh və sabitliyin möhkəmləndirilməsi kimi mövzular ətrafında fikir mübadiləsi aparıldığını bildirdi.

O dedi ki, ölkələrimizin yerləşdiyi bölgədə sülhü və sabitliyi təhdid edən mənfi amillər mövcuddur, bunlara qarşı dayanmaq üçün bölgədaxili və beynəlxalq əməkdaşlığın gücləndirilməsi və dərinləşdirilməsi zəruridir. Bizim məqsədimiz ölkələrimiz arasındakı əməkdaşlığı bu baxımdan inkişaf etdirərək, həm ictimai inkişaf və rifaha, həm də beynəlxalq sülh və əmin-amanlığa öz töhfəmizi verməkdir. Türkdilli ölkələrin bir-birinin təcrübəsi və imkanlarından istifadə edərək, öz inkişaflarını sürətləndirəcəklərinə və müasir dövlətlər arasındakı yerlərini möhkəmləndirəcəklərinə inanırıq. Eyni bölgədə yerləşən ölkələr olaraq, aramızdakı əməkdaşlıq imkanlarından ən yüksək səviyyədə istifadə etmək, bizdən sonrakı nəsillərə yaxşı bir dünya, miras qoymaq məsuliyyəti daşıyırıq. Prezidentlərin, xalqlarımızın liderlərinin üzərinə bölgəmizi rəqabət meydanı olmaqdan qurtararaq, əməkdaşlıq və sabitlik zonasına çevirmək üçün əlimizdən gələn bütün işləri görmək kimi böyük vəzifə düşür.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN BİRLƏŞMİŞ ƏRƏB ƏMİRLİKLƏRİNƏ RƏSMİ SƏFƏRİ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 20-də Türkiyənin Antalya şəhərindən Birləşmiş Ərəb Əmirliklərinə ikigünlük rəsmi səfərə gəlmişdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ BİRLƏŞMİŞ ƏRƏB ƏMİRLİKLƏRİNİN PREZİDENTİ ŞEYX XƏLİFƏ BİN ZAİD AL NƏHYANIN TƏKBƏTƏK GÖRÜŞÜ

Noyabrın 20-də Abu-Dabidə, Əl-Müşrif Prezident sarayında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Xəlifə bin Zaid Al Nəhyanın təkbətək görüşü olmuşdur.

Görüşdə ikitərəfli münasibətlərin müxtəlif sahələrdə inkişafından məmnunluq bildirildi, Azərbaycan Prezidentinin bu səfərinin ölkələrimiz arasında əlaqələrin daha da genişləndirilməsində əhəmiyyəti xüsusi vurğulandı. Əminliklə ifadə edildi ki, bu səfərdən sonra müxtəlif sahələrdə, o cümlədən iqtisadi sahədə də əməkdaşlığın mövcud potensialından tam istifadə ediləcəkdir.

Söhbət zamanı beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi məsələsinə də toxunuldu. Prezident İlham Əliyev Ermənistanın Azərbaycana qarşı təcavüzünün ağır nəticələri barədə məlumat verdi, bu münaqişənin həlli ilə bağlı hazırda aparılan danışıqlar prosesindən söhbət açdı.

Görüşdə regional və qarşılıqlı maraq doğuran bir sıra məsələlər müzakirə olundu.

DÖVLƏT BAŞÇILARININ GENİŞ TƏRKİBDƏ GÖRÜŞÜ

Abu-Dabidə, Əl-Müşrif Prezident sarayında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Xəlifə bin Zaid Al Nəhyanın nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü keçirilmişdir.

Görüşdə Azərbaycanla Birləşmiş Ərəb Əmirlikləri arasında ikitərəfli münasibətlərin uğurla inkişaf etdiyi, Azərbaycan Prezidentinin bu ölkəyə rəsmi səfərinin əhəmiyyəti vurğulandı. Bildirildi ki, imzalanacaq sənədlər ölkələrimiz arasında əlaqələrin genişlənməsi üçün möhkəm hüquqi baza yaradacaqdır. Azərbaycanın və BƏƏ-nin iş adamlarının iştirakı ilə keçiriləcək biznes forum hər iki tərəf üçün faydalı olacaqdır.

SƏNƏDLƏRİN İMZALANMASI

Noyabrın 20-də Abu-Dabidə, "Qəsrul əl-Emirat" mehmanxanasında Azərbaycan Respublikası ilə Birləşmiş Ərəb Əmirlikləri arasında sənədlərin imzalanma mərasimi olmuşdur.

Azərbaycan Respublikası Hökuməti ilə Birləşmiş Ərəb Əmirlikləri Hökuməti arasında İqtisadi, ticari və texniki əməkdaşlıq haqqında sazişi Azərbaycan tərəfindən iqtisadi inkişaf naziri Heydər Babayev və BƏƏ tərəfindən iqtisadiyyat və planlaşdırma naziri xanım şeyxa Lubna Al Qasimi imzaladılar.

Azərbaycan Respublikası ilə Birləşmiş Ərəb Əmirlikləri arasında İkiqat vergiqoymanın aradan qaldırılması haqqında hökumətlərarası konvensiyanı Azərbaycan tərəfindən xarici işlər naziri Elmar Məmmədyarov və BƏƏ tərəfindən kabinet işləri üzrə dövlət naziri Məhəmməd Abdulla Al Qərqavi imzaladılar.

Azərbaycan Respublikası ilə Birləşmiş Ərəb Əmirlikləri arasında İnvestisiyaların təşviq edilməsi və qarşılıqlı qorunması haqqında hökumətlərarası sazişi Azərbaycan tərəfindən iqtisadi inkişaf naziri Heydər Babayev və BƏƏ tərəfindən kabinet işləri üzrə dövlət naziri Məhəmməd Abdulla Al Qərqavi imzaladılar.

Azərbaycan Respublikası ilə Birləşmiş Ərəb Əmirlikləri arasında Səhiyyə sahəsində əməkdaşlıq haqqında sazişi Azərbaycan tərəfindən xarici işlər naziri Elmar Məmmədyarov və BƏƏ tərəfindən səhiyyə naziri Fomeid Məhəmməd əl-Kitami imzaladılar.

Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi ilə Birləşmiş Ərəb Əmirliklərinin Ədliyyə Nazirliyi arasında Əməkdaşlıq haqqında sazişi Azərbaycan tərəfindən ədliyyə naziri Fikrət Məmmədov və BƏƏ tərəfindən ədliyyə naziri Məhəmməd Nahir əl Zahiri imzaladılar.

Azərbaycan Respublikası ilə Birləşmiş Ərəb Əmirlikləri arasında Cinayət işlərində qarşılıqlı hüquqi yardım üzrə hökumətlərarası sazişi Azərbaycan tərəfindən ədliyyə naziri Fikrət Məmmədov və BƏƏ tərəfindən ədliyyə naziri Məhəmməd Nahir əl Zahiri imzaladılar.

Azərbaycan Respublikası ilə Birləşmiş Ərəb Əmirlikləri arasında Ekstradisiya haqqında müqaviləni Azərbaycan tərəfindən ədliyyə naziri Fikrət Məmmədov və BƏƏ tərəfindən ədliyyə naziri Məhəmməd Nahir əl-Zahiri imzaladılar.

Azərbaycan Respublikası ilə Birləşmiş Ərəb Əmirlikləri arasında Mülki və ticari işlər üzrə hüquq və məhkəmə sahələrində əməkdaşlıq haqqında hökumətlərarası sazişi Azərbaycan tərəfindən ədliyyə naziri Fikrət Məmmədov və BƏƏ tərəfindən ədliyyə naziri Məhəmməd Nahir əl-Zahiri imzaladılar.

Azərbaycan Respublikası ilə Birləşmiş Ərəb Əmirlikləri arasında Hərbi əməkdaşlığa dair hökumətlərarası sazişi Azərbaycan tərəfindən müdafiə naziri general-polkovnik Səfər Əbiyev və BƏƏ tərəfindən baş qərargah rəisinin müavini Məhəmməd Hilal bin Sürur əl-Kəbi imzaladılar.

Azərbaycan Respublikası ilə Birləşmiş Ərəb Əmirlikləri arasında Təhsil sahəsində əməkdaşlıq haqqında sazişi Azərbaycan tərəfindən xarici işlər naziri Elmar Məmmədyarov və BƏƏ tərəfindən təhsil naziri Hənif Həsən imzaladılar.

Azərbaycan Respublikasının Milli Olimpiya Komitəsi ilə Birləşmiş Ərəb Əmirliklərinin Milli Olimpiya Komitəsi arasında Anlaşma memorandumunu Azərbaycan tərəfindən Milli Olimpiya Komitəsinin baş katibi Ağacan Əbiyev və BƏƏ tərəfindən Milli Olimpiya Komitəsinin baş direktoru İbrahim Əbdülməlik imzaladılar.

AZƏRBAYCAN RESPUBLİKASININ SƏHİYYƏ NAZİRLİYİ VƏ BİRLƏŞMİŞ ƏRƏB ƏMİRLİKLƏRİNİN SƏHİYYƏ NAZİRLİYİ ARASINDA SƏHİYYƏ VƏ TİBB ELMİ SAHƏSİNDƏ ƏMƏKDAŞLIQ HAQQINDA SAZİŞ

20 noyabr 2006-cı il

Bundan sonra "Tərəflər" adlandırılacaq Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi və Birləşmiş Ərəb Əmirliklərinin Səhiyyə Nazirliyi iki ölkə arasında səhiyyə və tibb elmi sahəsində əlaqələrin inkişaf etdirilməsi və möhkəmləndirilməsini qərara alaraq aşa-

ğıdakı müddəalar barədə razılığa gəlmişlər:

MADDƏ 1

Tərəflər bu Sazişə müvafiq olaraq və hər bir ölkənin qanunvericiliyinə əsaslanaraq onların səhiyyə və tibb institutları, tibbi mərkəzləri və digər qurumları arasında əməkdaşlığın inkişaf etdirilməsində bir-birini dəstəkləyəcəklər.

MADDƏ 2

Tərəflər hər iki ölkənin səhiyyə sistemlərinin daha yaxından qarşılıqlı öyrənilməsi və səhiyyə və elmi tədqiqat sahəsində daha geniş əməkdaşlıq məqsədilə özlərinin ekspertlərindən ibarət nümayəndə heyətlərinin prioritet hesab edilən və göndərən tərəfin təklif etdiyi mövzular üzrə tədris səfərlərini təşkil edəcək.

Tərəflər bir-birinə ekspertlərin adları, vəzifələri və ixtisasları, həmçinin təcrübə mübadiləsi üçün təklif edilmiş mövzular haqqında qarşılıqlı razılaşdırılmış tarixdən ən azı 30 gün əvvəl məlumat verməlidirlər.

Göndərən tərəf qəbul edən tərəfə səfərin başlanılma tarixi və marşrut barəsində ən azı 15 gün əvvəl məlumat verməlidir.

Göndərən tərəf göndərilən ekspertlərin 2 paytaxt arasında gediş-gəliş xərclərini ödəməlidir.

Qəbul edən tərəf səfər müddətində yerli nəqliyyat və mehmanxana xərclərini ödəməlidir.

MADDƏ 3

Tibb elmi sahələri üzrə əməkdaşlığın inkişafı məqsədilə Tərəflərin tibbi cəmiyyətləri keçiriləcək elmi tədbirlərin cədvəli barədə hər il dekabr ayının 15-nə qədər məlumat verməlidirlər. Onlar həmçinin bu tədbirlər üzrə təşkilatı məlumatları da təqdim etməlidirlər.

MADDƏ 4

Tərəflər tibbi və elmi tədqiqat institutları arasında birbaşa əməkdaşlıq dəstəkləyəcəklər.

İnstitutlar arasında birbaşa əməkdaşlıq elmi materialların və texniki sənədlərin mübadiləsi, həmçinin birgə iş planları və metodologiya əsasında qarşılıqlı maraq kəsb edən birgə tədqiqat proqramları vasitəsilə, göndərən tərəfin xərci hesabına hər iki dövlətdə təcrübi kurslar və elmi konfranslarda iştirak yolu ilə həyata keçirilir.

İnstitutların rəhbərlərinin imzaladığı planlar hər iki dövlətin səlahiyyətli orqanları tərəfindən təsdiq edildikdən sonra qüvvəyə minir.

Tərəflər birbaşa anlaşma yolu ilə xəstəxanalar arasında olan əlaqələri dəstəkləyəcəklər.

MADDƏ 5

Tərəflər tibbi jurnalların, səhiyyə təhsili üzrə materialların və posterlərin mübadiləsini qarşılıqlı əsasda inkişaf etdirəcəklər.

Tərəflər tibbi nəşriyyat sahəsində əməkdaşlığı inkişaf etdirəcəklər.

MADDƏ 6

Tərəflər qarşılıqlılıq əsasında digər tərəfin vətəndaşlarına, həmçinin rəsmi məqsədlər üçün onların ərazisində müvəqqəti qalan bu cür şəxslərə, o cümlədən diplomatik və konsulluq əməkdaşlarına tərəflərin qanunvericiliyinə müvafiq olaraq tibbi xidmət göstərilməsini təmin edəcəklər.

Turistin digər tərəfin ərazisində müvəqqəti qalması zamanı təcili cərrahiyyə əməliyyatına ehtiyac yarandığı halda, qəbul edən tərəf, xəstənin vəziyyətinin onun fəsadlar təhlükəsi olmadan transportasiya olunmasına imkan verənə qədər xəstəyə mövcud qaydalara əsasən tibbi xidmət göstərilməsini təmin etməlidir.

Bir tərəfin ərazisində epidemiya və ya yoluxucu xəstəliklər mövcud olduğu təqdirdə, digər tərəfin bu ölkədə müvəqqəti qalan turistlərinə pulsuz tibbi yardım göstəriləcəkdir.

Tərəflər hər bir xüsusi halda qarşılıqlı razılığa əsasən, xərclərin göndərən tərəfdən ödənilməsi şərtilə, müalicə və diaqnostika üçün digər tərəfə xəstələri göndərə bilərlər.

Bir tərəfin vətəndaşının digər tərəfin ərazisində vəfat etdiyi təqdirdə, tərəflər qarşılıqlılıq əsasında müvafiq xidmətlərin, o cümlədən balzamlaşdırma və ya cənazənin konservasiyası üzrə digər tədbirlərin görülməsini təmin edəcəkdir. Cənazənin daşınması üzrə xərclər vəfat etmiş şəxsin ailəsi tərəfindən ödəniləcəkdir.

MADDƏ 7

Tərəflər hər tərəfdən üç nəfər olmaqla əməkdaşlığın həyata keçirilməsini təmin edəcək əlaqələndirici qrup yaradacaqlar. Qrup Bakıda və Əbu Dabidə mütəmadi iclaslar keçirəcəklər.

MADDƏ 8

Tərəflərin qarşılıqlı razılığı ilə bu Sazişə edilməsi təklif olunmuş dəyişikliklər və əlavələr, bu Sazişin tərkib hissələri hesab edilən ayrıca protokollarla rəsmiləşdirilir. Yuxanda göstərilən protokollar bu Sazişin 9-cu maddəsində nəzərdə tutulmuş qaydada qüvvəyə minir.

MADDƏ 9

Bu Saziş Tərəflərin bütün prosedurların dövlətdaxili qanunvericiliyə müvafiq olaraq bitməsi haqqında bir-birinə diplomatik kanallarla qarşılıqlı bildiriş verdiyi tarixdən qüvvəyə minir və beş il müddətinə qüvvədədir.

Tərəflərdən biri bu Sazişin qüvvədən düşməsindən altı ay əvvəl diplomatik kanallarla onun qüvvəsini ləğv etmək istəyi barədə yazılı bildiriş təqdim etmədiyi halda, bu Sazişin qüvvəsi avtomatik olaraq daha beş il müddətinə uzadılacaqdır.

Bu Sazişin qüvvəsi ləğv edildiyi təqdirdə, ona uyğun olaraq həyata keçirilən və başa çatdırılmamış əməkdaşlıq üzrə hər hansı proqram başa çatdırılana qədər davam etdiriləcəkdir.

Bu Saziş hər biri Azərbaycan, ərəb və ingilis dillərində olmaqla iki nüsxədə imzalan-

mışdır, bütün mətnlər eyni qüvvəyə malikdir. Təfsirdə fikir ayrılığı olduğu təqdirdə, ingilis dilində olan mətnə üstünlük verilir.

Saziş Əbu Dabi şəhərində 20 noyabr 2006-cı il tarixində imzalanmışdır.

AZƏRBAYCAN RESPUBLİKASININ XARİCİ İŞLƏR NAZİRİ	BİRLƏŞMİŞ ƏRƏB ƏMİRLİKLƏRİNİN SƏHİYYƏ NAZİRİ
ELMAR MƏMMƏDYAROV	*FOMEİD MƏHƏMMƏD ƏL-KİTAMİ*

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ VƏ BİRLƏŞMİŞ ƏRƏB ƏMİRLİKLƏRİ HÖKUMƏTİ ARASINDA ALİ TƏHSİL SAHƏSİNDƏ ƏMƏKDAŞLIQ HAQQINDA SAZİŞ

20 noyabr 2006-cı il

Sonradan "Tərəflər" adlandırılacaq Azərbaycan Respublikası Hökuməti və Birləşmiş Ərəb Əmirlikləri Hökuməti iki ölkə arasında mövcud olan dostluğun möhkəmləndirilməsi, iki xalq arasında əlaqələrin dəstəklənməsi, millətlər arasında əməkdaşlığın inkişaf etdirilməsi istəyi ilə və hər iki ölkədə mövcud olan qayda və qanunlar çərçivəsində həyata keçirilən sıx əməkdaşlığın nəticəsi kimi əldə olunacaq faydanı anlayaraq iki hökumət aşağıdakılar barədə razılığa gəldilər:

MADDƏ 1

Tərəflər ali təhsil sahəsinə məsul şəxslərin, o cümlədən tədris heyəti üzvləri və tədqiqatçıların mübadiləsini, onlar arasında qarşılıqlı maraq doğuran sahələrdə əməkdaşlığı, həmçinin elm sahəsində nümayəndə heyətlərinin mübadiləsini təşviq edəcəklər.

MADDƏ 2

Tərəflər hər iki ölkənin təhsil və elmi tədqiqat müəssisələri arasında birbaşa əlaqələri dəstəkləyəcək, o cümlədən mövcud imkanlar daxilində tədris heyəti üzvləri və tədqiqatçıların mübadiləsini və qarşılıqlı ezamiyyəsini təşviq edəcəklər.

MADDƏ 3

Tərəflər hər iki ölkənin ali təhsil müəssisələri və elmi tədqiqat mərkəzləri arasında elm və idarə etmə sahəsində təcrübə mübadiləsi aparacaqlar.

MADDƏ 4

Tərəflər ümumiyyətlə elmi tədqiqatlar sahəsində, xüsusilə də tətbiqi elmlər sahəsində əməkdaşlığı, o cümlədən müştərək tədqiqat qruplarının yaradılmasını təşviq edəcək, elmi tədqiqatlar və araşdırmaların nəticələrinin mübadiləsini aparacaqlar.

MADDƏ 5

Tərəflər hər iki ölkənin ali təhsil və elmi tədqiqat müəssisələrində, xüsusilə texniki, tibb və texnologiya elmləri sahəsində kadr hazırlanması imkanlarının artırılmasına çalışacaqlar

MADDƏ 6

Tərəflər hər iki ölkədə qüvvədə olan qaydalara əsasən öz ölkələrinin universitetləri tərəfindən verilmiş diplomları və ali təhsildən sonrakı akademik dərəcələri qarşılıqlı şəkildə tanıyacaq , həmçinin təhsil sistemləri haqqında məlumat mübadiləsi aparacaqlar.

MADDƏ 7

Tərəflər mövcud imkanlar daxilində və hər iki ölkədə qüvvədə olan qanunlara əsasən təhsil təqaüdləri və yerlərinin mübadiləsini aparmaq üçün çalışacaq, həmçinin tələbələrin qarşılıqlı səfərlərinin mübadiləsini aparacaqlar.

MADDƏ 8

Tərəflər hər iki ölkənin ali təhsil müəssisələrində mühazirələr, simpoziumlar və kitab sərgilərini əhatə edən elm günləri və həftələrinin keçirilməsini təşviq edəcəklər.

MADDƏ 9

Tərəflər kitabların, nəşrlərin, dövri mətbuatın, kompyuter proqramlarının, filmlərin, həmçinin hər iki ölkədə elmi tədqiqat və mədəniyyətlə əlaqəsi olan bütün mənbələrin mübadiləsini təşviq edəcəklər.

MADDƏ 10

Tərəflər bir-birini əvvəlcədən xəbərdar etmək şərtilə yerli və beynəlxalq əhəmiyyətli elmi və mədəni görüşlərdə, konfranslarda, forumlarda və seminarlarda birgə iştirakı təşviq edəcəklər.

MADDƏ 11

Tərəflər əlyazmaları, arxivlər və tarixi sənədlərlə tanış olmaq və onlardan istifadə etmək üçün sadələşdirilmiş şərait yaradacaq, hər iki ölkənin tarixi abidələrini və irsini öyrənməkdə əməkdaşlıq edəcək, bu sahənin mütəxəssislərinin mübadiləsini aparacaqlar.

MADDƏ 12

Tərəflər hər iki ölkədə ərəb dili və islami biliklərin öyrənilməsini dəstəkləyəcək və təşviq edəcəklər.

MADDƏ 13

Tərəflər digər tərəfə məxsus xüsusilə seçilmiş elmi və ədəbi əsərlərin tərcüməsi və nəşrini təşviq edəcək, bu işdə elektron nəşr texnologiyasından istifadə edəcəklər.

MADDƏ 14

Tərəflər ancaq öz aralarında qarşılıqlı razılaşdırılmış qaydada və xüsusi məqsədlər üçün lazım olan məlumat mübadiləsi aparmaq haqqında razılığa gəlir və digər tərəfin yazılı razılığı olmadan öz aralarında aparılmış məlumat mübadiləsindən hər hansı bir informasiyanın üçüncü tərəfə ötürməməsi haqqında razılığa gəldilər.

MADDƏ 15

Bu Saziş 5 il müddətinə bağlanılır və Tərəflərin onun qüvvəyə minməsi üçün zəruri

olan dövlətdaxili prosedurlan yerinə yetirdikləri barədə diplomatik kanallar vasitəsilə bir-birlərinə göndərdikləri sonuncu yazılı bildirişin alındığı tarixdən qüvvəyə minir.

Tərəflərdən biri bu müddətin başa çatmasına altı ay qalmış onun müddətinin uzadılması barədə digər Tərəfə diplomatik kanallar vasitəsilə bildiriş göndərməzsə bu Sazişin qüvvəsi avtomatik olaraq növbəti bir illik müddətlərə uzadılır. Sazişin qüvvəsi ləğv edildiyi təqdirdə orada nəzərdə tutulmuş və icrası başa çatdırılmamış proqram və layihələr başa çatdırılanadək davam etdiriləcəkdir.

Bu Saziş Əbu Dabi şəhərində 20 noyabr 2006-cı il tarixində iki əsl nüsxədə hər biri Azərbaycan, ərəb və ingilis dillərində imzalanmışdır, bütün mətnlər eyni qüvvəyə malikdir və onun müddəalarının təfsirində fikir ayrılığı yarandıqda ingilis dilindəki mətn əsas götürüləcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASININ XARİCİ İŞLƏR NAZİRİ	BİRLƏŞMİŞ ƏRƏB ƏMİRLİKLƏRİNİN TƏHSİL NAZİRİ
ELMAR MƏMMƏDYAROV	*HƏNİF HƏSƏN*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN BİRLƏŞMİŞ ƏRƏB ƏMİRLİKLƏRİNİN İQTİSADİYYAT VƏ PLANLAŞDIRMA NAZİRİ ŞEYXA LUBNA AL QASİMİ İLƏ GÖRÜŞÜ

Noyabrın 20-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Abu-Dabidə onun üçün ayrılmış iqamətgahda - "Qəsrul əl-Emirat" mehmanxanasında Birləşmiş Ərəb Əmirliklərinin iqtisadiyyat və planlaşdırma naziri xanım şeyxa Lubna Al Qasimi ilə görüşmüşdür.

Görüşdə ölkələrimiz arasında iqtisadi-ticarət sahəsində əməkdaşlığın daha da genişləndirilməsi diqqət mərkəzində olmuşdur.

BƏƏ naziri keçiriləcək biznes forumun hər iki tərəf üçün faydalı olacağını, Azərbaycanla mühüm sahələrdə, o cümlədən infrastruktur və kimya sənayesi üzrə əməkdaşlığın genişləndirilməsinin zəruriliyini bildirdi.

Söhbət zamanı vurğulandı ki, ölkələrimiz arasında imzalanmış sənədlər əməkdaşlığımızın hüquqi əsasını təşkil edir və gələcək əlaqələrə böyük təkan verəcəkdir. Görüşdə Azərbaycanın Birləşmiş Ərəb Əmirliyinin azad iqtisadi zona yaradılması təcrübəsindən istifadə olunmasının zəruriliyi də bildirildi və bunun ikitərəfli münasibətlərin gücləndirilməsinə kömək edəcəyi vurğulandı.

Gələcəkdə Azərbaycanda Birləşmiş Ərəb Əmirliyində istehsal olunan malların sərgilərinin təşkil olunacağı da bildirildi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN "CONSOLIDATED ENERGY RESOURCES LLC" VƏ "GHOBASH TRADING AND INVESTMENTS GROUP" ŞİRKƏTLƏRİNİN RƏHBƏRİ SEYİD ƏHMƏD QOBAŞ İLƏ GÖRÜŞÜ

Noyabrın 20-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev onun üçün ayrılmış iqamətgahda - "Qəsrul əl-Emirat" mehmanxanasında "Consolidated Energy Resources LLC" və "Ghobash Trading and İnvestments Group" şirkətlərinin rəhbəri, Birləşmiş Ərəb Əmirliklərinin sabiq iqtisadiyyat naziri, Ərəb Valyuta Fondunun keçmiş sədri Seyid Əhməd Qobaş ilə görüşmüşdür.

Görüşdə ölkələrimiz arasında əlaqələrin yaxşı səviyyədə olduğu vurğulandı və bildirildi ki, iqtisadi sahədə əməkdaşlıq üçün geniş potensial mövcuddur və bu baxımdan biznes forumun keçirilməsi xüsusi önəm daşıyır. Perspektiv iqtisadi layihələrin, habelə Azərbaycanın və BƏƏ-nin iş adamları arasında əməkdaşlığın ümumən ikitərəfli münasibətlərin inkişafına xidmət edəcəyi və bu potensialdan səmərəli istifadənin zəruriliyi vurğulandı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ABU-DABİ İCRAEDİCİ ŞURASININ ÜZVÜ, ABU-DABİ ƏMİRLİYİNİN VƏLİƏHDİ DİVANININ BAŞÇISI ŞEYX SULTAN BİN XƏLİFƏ AL NƏHYAN İLƏ GÖRÜŞÜ

Noyabrın 20-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev onun üçün ayrılmış iqamətgahda - "Qəsrul əl-Emirat" mehmanxanasında Abu-Dabi İcraedici Şurasının üzvü, Abu-Dabi Əmirliyinin Vəliəhdi Divanının başçısı, Birləşmiş Ərəb Əmirlikləri Prezidentinin oğlu Şeyx Sultan bin Xəlifə Al Nəhyan ilə görüşmüşdür.

Şeyx Sultan bin Xəlifə Al Nəhyan Azərbaycan Prezidenti İlham Əliyevin Birləşmiş Ərəb Əmirliklərinə səfərini yüksək qiymətləndirdi, bunun əhəmiyyətli olduğunu söylədi.

Görüşdə ölkələrimiz arasında əlaqələrin müxtəlif sahələrdə uğurla inkişaf etdirilməsinin, o cümlədən iqtisadi sahədə əməkdaşlığın genişləndirilməsinin zəruriliyi bildirildi və bir sıra məsələlər barədə fikir mübadiləsi aparıldı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ABU-DABİ TELEVİZİYASINA MÜSAHİBƏSİ

Noyabrın 20-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev onun üçün ayrılmış iqamətgahda - "Qəsrul əl-Emirat" mehmanxanasında Birləşmiş Ərəb Əmirliklərinin Abu-Dabi Televiziyasına müsahibə vermişdir.

- Cənab Prezident, istərdik, Birləşmiş Ərəb Əmirliklərinə səfərinizin məqsədi haqqında danışasınız.

- Məqsəd münasibətlərimizin genişləndirilməsindən ibarətdir. Birləşmiş Ərəb Əmirlikləri ilə Azərbaycan arasında neçə illər ərzində çox yaxşı ikitərəfli əlaqələr yaranmışdır. Lakin prezidentlər səviyyəsində heç bir səfər olmamışdır. Bu, Azərbaycan Prezidenti-

nin ölkənizə etdiyi ilk səfərdir. Əminəm ki, bu səfər münasibətlərimizin yeni səhifəsini açacaqdır. Bizim olduqca yaxşı siyasi münasibətlərimiz, mədəni əlaqələrimiz var. Ancaq eyni zamanda, iqtisadi münasibətlərimizi də möhkəmləndirmək istəyirik. Ona görə bu gün iş adamlarının iştirakı ilə birgə biznes forum keçiriləcəkdir. Mənimlə Azərbaycandan çox sayda iş adamları gəlmişdir. Onlar öz həmkarları ilə fikir mübadiləsi aparacaq, gələcəkdə mümkün olacaq birgə layihələri və əməkdaşlıq yollarını nəzərdən keçirəcəklər. Bu, ikitərəfli münasibətlərin vacib elementidir. Biz mövcud əlaqələrimizi iqtisadi əməkdaşlıqla möhkəmləndirməliyik. Bu baxımdan hazırkı səfərin nəticələri çox əhəmiyyətli olacaqdır.

- Bildiyimiz kimi, Azərbaycan mühüm coğrafi-strateji məkanda yerləşir. Ölkəniz İran, Türkiyə və Rusiya ilə həmsərhəddir. Azərbaycandakı ümumi vəziyyəti necə təsvir edərdiniz?

- Vəziyyət, ümumiyyətlə, çox müsbətdir. Siyasi vəziyyətə gəldikdə, bu, olduqca sabitdir, proqnozlaşdırıla bilir. Belə bir durum ölkəmizi çoxşaxəli formada inkişaf etdirməyə imkan yaradır. Azərbaycandakı siyasi sabitlik sürətli iqtisadi inkişafla nəticələnmişdir. Ötən il Azərbaycanın ümumi daxili məhsulunun artımı 26 faiz təşkil etmişdir. Bu il isə 34 faizə bərabərdir. Bu, dünyada ən yüksək göstəricidir. Təbii ki, ümumi daxili məhsulun mütləq rəqəmləri indiyə qədər çox yüksək olmamışdır. Lakin artımın dinamikası gözəçarpan dərəcədə olmuşdur. Bu, yalnız bir sıra amillərlə - siyasi və iqtisadi sabitlik, qonşu ölkələrlə yaxşı münasibətlər, regional əməkdaşlıq və milli maraqların qorunması ilə bağlıdır. Bütün bunlar yaxşı bir mühitin yaradılmasına imkan vermişdir.

İqtisadiyyatımızın sürətli inkişafı sosial problemlərin həllinə və layihələrin həyata keçirilməsinə imkan yaradır, xalqımızın tələbatları ödənilir və əmək haqları artırılır. Bütün bunlar ölkədə gedən faktik inkişaf prosesinin təzahürüdür. Mən artıq qeyd etdim ki, bizim qonşularımızla da yaxşı münasibətlərimiz var və bu, gələcəkdə də davam edəcəkdir. Bu, regional sabitliyin vacib bir amilidir.

- Bəzi beynəlxalq təşkilatlar Azərbaycanda insan hüquqları ilə bağlı vəziyyətdən şikayətlənirlər. Bu haqda nə deyə bilərsiniz?

- Bilirsiniz, əgər deyilən hər hansı bir tənqid reallığa əsaslanırsa, biz bunu qəbul edirik. Çünki biz müstəqil ölkə kimi 15 ildir yaşayırıq. O vaxtadək tamamilə qapalı, fərqli bir sistemdə yaşamışıq. O zaman insan hüquqları heç nəzərə də alınmırdı və tamamilə fərqli bir sistem mövcud idi. Həmin 15 il ərzində Azərbaycanın böyük problemləri olmuşdur. Biz hazırda demokratik ölkəyik, bütün demokratik təsisatlar fəaliyyət göstərir, söz azadlığı, mətbuat azadlığı və dini azadlıq mövcuddur. Bütün bunlar ölkə üçün, onun inkişafı üçün vacibdir. Təbii ki, çatışmazlıqlar da var. Bəzi beynəlxalq təşkilatlar hərdən bizi tənqid edirlər və əgər görürüksə ki, bu, ədalətlidir, biz onu qəbul edirik. Amma bəzi hallarda bu tənqid ədalətsizdir və onun müxtəlif siyasi səbəbləri var. Bəzi beynəlxalq qurumlar bu məsələdən istifadə edərək, Azərbaycana təzyiq göstərmək, öz məqsədlərinə nail olmaq istəyirlər. Biz bunu əsla qəbul etmirik və bu cür tərzdə ədalətsiz tənqidi heç vaxt qəbul etməyəcəyik.

- Dağlıq Qarabağla bağlı vəziyyəti necə görürsünüz? Biz bilirik ki, nizamlanmanın hazırda müəyyən mərhələləri var.

- Burada yalnız yeganə həll yolu var, o da Azərbaycanın ərazi bütövlüyünün bərpasıdır. Bu da Ermənistan tərəfindən pozulubdur. Artıq 15 ildən çoxdur ki, biz işğal altında yaşayırıq. 1994-cü ildə biz atəşkəs sazişini imzaladıq. Lakin buna baxmayaraq, Ermənistan azərbaycanlılara qarşı etnik təmizləmə siyasəti aparmışdır və Dağlıq Qarabağdan və onun ətrafında olan yeddi rayondan bütün azərbaycanlılar qovulmuşdur. Bu, XX əsrdə törədilmiş ən böyük cinayətlərdən biridir. Ölkə ərazisinin 20 faizi işğal altındadır. Bu yaxınlarda ATƏT faktaraşdırıcı missiyasını həmin işğal olunmuş zonalara göndərmişdir və onlar hesabat hazırlamışlar. Həmin hesabatda bildirilir ki, hər şey yerlə-yeksan olunmuşdur. Ermənistan hər şeyi - evləri, məktəbləri, xəstəxanaları, tarixi abidələri, bizim ulu babalarımızın məzarlarını və məscidləri dağıdıbdır. Onlar vandalizm aktı törədiblər.

Amma biz çalışırıq ki, məsələni sülh yolu ilə həll edək. Ona görə biz danışıqlar prosesini aparırıq. Lakin eyni zamanda, bu danışıqlar daimi davam edə bilməz. Ermənilər Dağlıq Qarabağ üçün müstəqillik istəyirlər. Bu, mümkün deyildir. Azərbaycan bunu heç vaxt qəbul etməyəcəkdir. Biz onlara öz hüdudlarımız çərçivəsində muxtariyyət statusu verə bilərik.

Ona görə, əgər ermənilər münaqişənin həllinə nail olmaq və təhlükəsizlik şəraitində yaşamaq istəyirlərsə, onlar Birləşmiş Millətlər Təşkilatı Təhlükəsizlik Şurasının 4 qətnaməsini yerinə yetirməlidirlər. Həmin qətnamələrdə Ermənistan işğalçı qüvvələrinin işğal edilmiş ərazilərdən qeyd-şərtsiz çıxarılması tələb olunur. Onlar indiyə qədər bunu yerinə yetirməyiblər. Biz məsələnin dinc yolla həllinə sadiqik. Eyni zamanda, öz güclü iqtisadiyyatımızı, ordumuzu qururuq və ölkəmizin işğal olunmuş torpaqlarını azad etməyə hazır olmalıyıq. Bu, bizim hüququmuzdur, qanuni haqqımızdır. Azərbaycanın ərazi bütövlüyü Birləşmiş Millətlər Təşkilatı tərəfindən tanınıbdır.

- Beləliklə, Siz istənilən zaman hərb yolundan istifadə edə bilərsiniz?!

- Mən belə deyərdim: bu, istisna edilmir. Biz çalışacağıq ki, məsələni dinc yolla həll edək. Sülh danışıqlarının gündəliyində duran məsələləri uzun illər ərzində müzakirə etməyə çalışmışıq. Biz danışıqları 15-30 ilə qədər davam etdirə bilmərik. Yəni biz baxacağıq, əgər danışıqlar bir fayda verməsə, Ermənistan bizim torpaqlarımızı azad etməsə, onda Azərbaycan müxtəlif variantları nəzərdən keçirə bilər. Yəni, bu o demək deyil ki, bu, ola bilməz. Mən belə hesab edirəm.

- Bəs İranın nüvə proqramı ilə bağlı mövqeyiniz necədir? Sizin fikrinizcə, onların bu cür hüququ varmı?

- Bilirsiniz, beynəlxalq qaydalara uyğun olaraq, hər bir ölkə nüvə enerjisini tədqiq etmək hüququna malikdir. Biz bu məsələyə hüquqi cəhətdən baxırıq. Hər bir ölkə, təbii ki, müəyyən beynəlxalq təşkilatların qaydaları əsasında bunu edə bilər və bu, onun hüququdur. Əgər Azərbaycan öz nüvə enerjisini inkişaf etdirmək istəsə, bu da Azərbaycanın hüququdur. Yəni, bu gün Orta Şərqdə bəzi ölkələr var ki, onlar da bu variantdan istifadə etmək istəyirlər. Bu, məsələnin bir tərəfidir.

Məsələnin digər tərəfi, bizim Avropa və Amerikadakı tərəfdaşlarımızın narahatlığı ilə bağlıdır. Bu narahatlıq da nəzərə alınmalıdır. Yəni, normal bir çərçivə müəyyən edilməlidir ki, vəziyyətə aydınlıq gətirilsin və bununla İrana işlərin davam etdirilməsi üçün əsaslar yaradıla bilər. Mən hesab edirəm ki, əgər bunlar davam etdirilərsə, danışıqlar

yolu ilə vəziyyətin aydınlaşdırılmasına gətirib çıxara bilər. Bu günlərdə belə məlumatlar və bəyanatlar var ki, nüvə proqramı dinc məqsəd daşıyır. Bizim əsaslarımız yoxdur ki, buna inanmayaq. Biz hər hansı bir məsələni beynəlxalq hüquq baxımından nəzərdən keçirməliyik. Əgər məndən Dağlıq Qarabağ məsələsi ilə bağlı soruşurlarsa, mən də beynəlxalq hüquq normaları və prinsiplərinə, ərazi bütövlüyü prinsipinə, beynəlxalq hüququn əsas vacib elementinə istinad edirəm.

O ki qaldı millətlərin öz müqəddəratını təyin etməsinə, bu da vacib bir elementdir və hüquqdur. Lakin bu, ərazi bütövlüyü çərçivəsində özünü büruzə verə bilər. Digər ölkələrə gəldikdə isə, milli azlıqlara muxtariyyət verilə bilər.

Ona görə Dağlıq Qarabağ məsələsini bir yana qoyaraq, hesab edirəm ki, İrana və onun nüvə proqramına gəldikdə, buna da eyni bir əsaslarla yanaşmaq lazımdır. Çünki əgər hər hansı bir qərar kiminsə istək və arzularına əsaslansa, bu, bütün beynəlxalq münasibətlər sistemini pozacaqdır.

- Bilirsiniz ki, bəzi hallarda siyasi münaqişələr baş verir. Məsələn, Gürcüstan ilə Rusiya arasında. Bu baxımdan Azərbaycan kimin tərəfini tutur?

- Yox, biz heç bir tərəfi tutmuruq. Biz bu münasibətlərin, ölkələr arasında olan əlaqələrin bir hissəsi deyilik. Məhz bizim də uğurumuzun əsas amili ondan ibarətdir ki, heç vaxt ölkəmizə aid olmayan məsələyə müdaxilə etmirik. Biz heç bir ölkənin daxili işlərinə qarışmırıq. Eyni zamanda, digər ölkələrə də icazə vermirik ki, bizim işlərimizə müdaxilə etsinlər. Bir sözlə, biz dövlətlərarası münasibətlərə müdaxilə etmirik. Bizim Birləşmiş Ştatlarla yaxşı münasibətlərimiz var. Rusiya ilə çox yaxşı münasibətlərimiz mövcuddur. Hər iki ölkə ilə əməkdaşlıq edirik. Ruslar bizim qonşularımızdır, ölkələrimiz həmsərhəddir. Bizim çox yaxşı iqtisadi münasibətlərimiz var. Birləşmiş Ştatlar bizim tərəfdaşımızdır və Azərbaycanda ən böyük sərmayədarlardan biridir. Həmin ölkə bizim enerji layihələrimizi çox fəal surətdə dəstəkləmişdir və buna görə də onlara minnətdarıq.

Yeri gəlmişkən, Azərbaycan elə bir ölkədir ki, orada digər ölkələrin maraqları bir-birilə ziddiyyətə girmir və yaxud da hər hansı bir ziddiyyətli mühit yaratmır. Burada əməkdaşlıq var. Əgər hansısa bir ölkə bizimlə əməkdaşlıq edirsə, daxili məsələlərimizə müdaxilə etmirsə, onda işlərimiz yaxşı gedir. Ona görə mən hesab edirəm ki, əməkdaşlığın aparılması, gərginliyin aradan qaldırılması və mövqelərin üst-üstə düşməsi vacibdir. Bizim regionda çox ehtiyatlı olmalıyıq, çünki burada böyük ölkələrin maraqları var. Onların özlərinin strateji maraqları var və bizim özümüzün ərazimiz var, öz təbii sərvətlərimiz mövcuddur. Biz olduqca mühüm nəqliyyat infrastrukturuna malikik və bu baxımdan istəyirik ki, daha çox və geniş əməkdaşlıq aparaq. Bizim uğurumuz onu göstərir ki, siyasətimiz düzgündür. Bu, olduqca vacibdir ki, biz dünyanı müxtəlif hissələrə bölməyək, bir düşərgədə və yaxud digər düşərgədə olmayaq. Biz, sadəcə, özümüzə arxalanırıq və hüququmuz var. Biz öz tərəfdaşlarımızla, dostlarımızla qarşılıqlı hörmət və ehtiram, bir-birinin işlərinə müdaxilə etməmək prinsipləri əsasında işləyirik.

ABU-DABİDƏ AZƏRBAYCAN-BİRLƏŞMİŞ ƏRƏB ƏMİRLİKLƏRİ BİZNES FORUMU KEÇİRİLMİŞDİR

Noyabrın 20-də Birləşmiş Ərəb Əmirliklərinin paytaxtı Abu-Dabidə, bu ölkənin Ticarət Palatasının binasında Azərbaycan-Birləşmiş Ərəb Əmirlikləri biznes forumu keçirilmişdir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev forumda iştirak etmişdir.

Ticarət Palatasının şöbə müdiri Camal Mehdi biznes forumu açaraq, forumda iştirak etdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevə təşəkkürünü bildirdi.

BİRLƏŞMİŞ ƏRƏB ƏMİRLİKLƏRİNİN İQTİSADİYYAT VƏ PLANLAŞDIRMA NAZİRİ XANIM ŞEYXA LUBNA AL QASİMİNİN ÇIXIŞI

-Bismillahir-rəhmanir-rəhim!

Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyev!

Hörmətli qonaqlar!

Xanımlar və cənablar!

Mən Zati-alinizi Birləşmiş Ərəb Əmirliklərinin hökuməti və ölkəmizin işgüzar dairələri adından səmimi qəlbdən salamlayıram. Zati-aliləri, səfəriniz zamanı vaxt tapıb bu gün buraya bizimlə görüşə gəldiyinizə və bizimlə birlikdə olduğunuza görə Sizə minnətdarıq və çox məmnunuq. Bilirik ki, Sizin səfər proqramınız çox gərgindir. Biz hər iki ölkənin biznes nümayəndələrinin iştirakı ilə bu gün burada keçirilən mötəbər məclisi mövcud olan əməkdaşlığın inkişaf etdirilməsi, habelə daha da genişləndirilməsinin yeni yollarının araşdırılması üçün münasib bir fürsət kimi dəyərləndiririk. İki xalqın rifahı naminə biz bir çox işləri görə bilərik.

Zati-aliləri!

Hörmətli qonaqlar!

Biz Sizin iqtisadi möcüzənizi, ölkənizdə gedən sürətli və hərtərəfli iqtisadi inkişafı böyük maraqla izləyirik. Biz rəhmətlik atanız Heydər Əliyevin ölkənin gələcəyi naminə müdrik rəhbərliyini, uzaqgörənliyini və göstərdiyi böyük səyləri iftixar hissi ilə yüksək qiymətləndiririk. Zati-alinizin ölkə infrastrukturunun yeniləşməsinə, təsisatların müasirləşdirilməsinə və neftə əsaslanan iqtisadiyyatdan daha çoxşaxəli iqtisadiyyata keçidin təmin edilməsinə yönəldilmiş səylərini də böyük məmnuniyyətlə müşahidə edirik. Gözəl ölkənizin Prezidenti seçildikdən sonra Siz bütün təcrübənizdən milli neft və qaz sektorunun daha da inkişaf etdirilməsi üçün istifadə etdiniz. Səyləriniz uğurlu olmuşdur. Əsas neft şirkətləri ilə tərəfdaşlıq haqqında imzaladığınız müqavilələr ÜDM-i üç dəfə artırmağa imkan yaratmışdır və əminik ki, gələcəkdə həmin həcm iki dəfə artacaqdır. Düşünülmüş iqtisadi idarəçilik sayəsində 2005-ci ildə ÜDM-in artımı 26 faizdən çox olmuşdur. Adambaşına düşən gəlirin həcmi də artmışdır. Beynəlxalq ekspertlər bu gün o fikirdədirlər ki, yaxın zamanlarda ölkəniz keçid dövrünü yaşayan iqtisadiyyatdan yeni və sürətlə inkişaf edən iqtisadiyyata çevriləcəkdir.

Zati-aliləri!

mimi minnətdarlığımızı bildiririk. Ümidvarıq ki, bu səfər ölkələrimiz arasında mövcud olan iqtisadi, ticari və digər işgüzar əlaqələri daha da möhkəmləndirəcək, inkişaf etdirəcək, hər iki ölkənin iş adamlarına və şirkətlərinə birgə səmərəli fəaliyyət üçün əlverişli şərait yaradacaqdır.

Zati-aliləri, Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti əlahəzrət şeyx Xəlifə bin Zaid Al Nəhyanın və vəliəhd, Silahlı Qüvvələrin Baş komandanı Məhəmməd bin Zaidin tövsiyələri və tapşırıqlarına əsasən, Abu-Dabi Ticarət Palatası dost ölkələrlə birgə əməkdaşlıq edir, bütün tərəflərlə qarşılıqlı faydalı əlaqələr körpüsü qurmağa, birgə ticarət və sərmayə şirkətləri yaratmağa, onların fəaliyyətini hər iki tərəfə fayda verə biləcək bir istiqamətə yönəltməyə səy göstərir.

Bütün bunlara əsaslanaraq, Abu-Dabi Ticarət Palatası Birləşmiş Ərəb Əmirlikləri və Azərbaycan arasında sıx iqtisadi, sənaye və ticari əlaqələri, o cümlədən sərmayə qoyuluşu ilə bağlı Azərbaycan şirkətləri, iş adamları ilə qarşılıqlı əlaqələri daha da möhkəmləndirməyə səy göstərir. Zati-alinizi əmin etmək istəyirəm ki, biz əldə olan bütün imkanlardan istifadə edərək, bu sahələrdə ölkələrimiz arasında əməkdaşlığı daha da intensivləşdirəcəyik.

Zati-aliləri cənab Prezident!

Xanımlar və cənablar!

Məlumat üçün bildirmək istəyirəm ki, son illər Azərbaycanla iqtisadi və ticari əlaqələr yüksələn xətt üzrə inkişaf edir, ticarət dövriyyəsinin həcmi 42 milyon dirhəmdən 731 milyon dirhəmə çatmışdır. Son beş ildə Birləşmiş Ərəb Əmirliklərində, xüsusilə Abu-Dabi Əmirliyində aparılan və dəyəri milyardlarla ABŞ dolları ilə ölçülən tikinti, quruculuq işlərində, potensial imkanları olan beynəlxalq şirkətlərin qoyduğu sərmayələrdən istifadədə əldə olunmuş təcrübəmizə əsaslanaraq, biz Azərbaycanda inkişaf etdirilməkdə olan sahələrə sərmayə qoyuluşunda və nəzərdə tutulan layihələrin həyata keçirilməsində fəal iştirak edə bilərik.

Zati-aliləri cənab Prezident!

Biz Azərbaycan iqtisadiyyatına və sənayesinə sərmayə qoyuluşunda iştirakın, ölkələrimizin şirkətləri, müəssisələri arasında birgə fəaliyyət imkanlarının perspektivini görür, bu sahələrdə əməkdaşlığı daha da dərinləşdirmək və möhkəmləndirmək istəyirik. Bizim şirkətlərimizin qardaş Azərbaycanın sənayesinə və iqtisadiyyatına sərmayə qoymaq, Azərbaycan şirkətləri ilə birgə əməkdaşlıq etmək üçün həddən artıq böyük imkanları vardır. Biz bu fəaliyyətin faydalı və səmərəli olmasından ötrü sərmayə qoyulması, birgə əməkdaşlığın inkişaf etdirilməsinə şərait yaradılması və prosesin asanlaşdırılması üçün tədbirlər görülməsini arzu edirik. Birgə əməkdaşlıq əlaqələri Azərbaycanın müəssisələrinə və şirkətlərinə öz məhsullarını, xidmətlərini azad ticarət zonası bazarına çıxarmaq üçün geniş imkanlar yaradacaqdır. Biz Zati-alinizin səfərindən istifadə edərək, ölkənizdə sərmayə qoyuluşu və digər iqtisadi fəaliyyət sahələrində tətbiq edilən qanunlarla tanış olmaq istəyirik.

Zati-aliləri, fürsətdən istifadə edərək, bu səfərinizə görə Sizə, Sizi müşayiət edən nümayəndə heyətinin üzvlərinə, iş adamlarına və şirkətlərə bir daha dərin minnətdarlığımızı bildirir, bu səfəri yüksək qiymətləndiririk. Ümidvarıq ki, bu səfər iki dost ölkə ara-

sında qurulacaq gələcək əlaqələrin inkişafında və genişləndirilməsində, qarşıya qoyulmuş məqsədlərin həyata keçirilməsində öz mühüm və səmərəli rolunu oynayacaqdır. Bir daha təşəkkür edirik.

[redacted]

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev biznes forumda nitq söylədi.

PREZİDENT İLHAM ƏLİYEVİN NİTQİ

- Hörmətli xanımlar və cənablar!

Əziz dostlar!

İlk növbədə, məni dəvət etdiyinə və ikitərəfli iqtisadi münasibətlər ətrafında fikir mübadiləsini aparmaq üçün yaradılmış fürsətə görə Abu-Dabi Ticarət Palatasına öz minnətdarlığımı bildirmək istəyirəm. Mən gözəl ölkənizə səfər etməkdən olduqca məmnunam. Bu, ölkələrimiz arasında diplomatik münasibətlərin qurulmasından bəri Azərbaycan Respublikası Prezidentinin Birləşmiş Ərəb Əmirliklərinə ilk rəsmi səfəridir.

Azərbaycan müstəqilliyinin cəmi on beşinci ilini yaşayır. Ölkəmiz müstəqilliyinin ilk illərində üzləşdiyi çətinliklərin tam aradan qaldırılmasına bütün səylərini sərf etmiş və sürətli siyasi və iqtisadi inkişafına başlamışdır. Sovet İttifaqı dağıldıqdan sonra müstəqilliyini qazanmış Azərbaycanda daxili vəziyyət çox ağır idi. Ölkədə iqtisadi böhran, istehsalatda tənəzzül müşahidə olunurdu. Siyasi problemlər özünü büruzə verirdi. Vətəndaş müharibəsi və digər xoşagəlməz hadisələr baş verirdi. Bütün bunlar Azərbaycana inkişaf etməyə və regionun güclü ölkəsinə çevrilməyə imkan vermirdi.

Lakin Prezident Heydər Əliyev tərəfindən 1993-cü ildə başlanmış siyasi və iqtisadi islahatlar siyasətinin davamlı şəkildə aparılması Azərbaycanı regionumuzda və bütövlükdə bütün keçmiş sovet respublikaları arasında iqtisadi inkişaf baxımından ən qabaqcıl ölkəyə çevirdi. Azərbaycanda aparılan olduqca cəsarətli siyasi, iqtisadi və sosial islahatlar tarixi baxımdan çox qısa dövr ərzində bizə bütün çətinlikləri və böhranı aradan qaldırmağa və çoxşaxəli qaydada inkişaf etməyə imkan yaratdı. Həmin vaxtdan etibarən Azərbaycan çox böyük müvəffəqiyyətlər əldə etdi.

Bu gün ölkənin iqtisadi inkişafı sosial ehtiyaclar üçün daha çox vəsait sərf olunmasına imkan yaradır. Ötən il bizim iqtisadi artımımız 26 faiz olmuşdur, bu il isə artıq 34 faiz təşkil edir. Bu rəqəm dünyada ən yüksək göstərici sayılır. Təbii ki, iqtisadi inkişaf göstəriciləri reallıqda olan vəziyyətdən fərqlənir. Lakin mütləq göstəricilər artmaqdadır. İnkişafımızın dinamik olmasını, bütün iqtisadi fəaliyyət sahələrini əhatə edən proqramlarımızı nəzərə alaraq, əminəm ki, gələcək illərdə çox möhkəm iqtisadiyyatın qurulmasına nail olacaq və Azərbaycan xalqının tələbatlarını ödəyəcəyik.

Təbii ki, iqtisadiyyatımızın əsas sektorlarından biri enerji, yəni neft və qaz sektorudur. Həmin sektora son on il ərzində milyardlarla dollar sərmayə yatırılıbdır. Azərbaycanın neft yataqlarından hasil olunan neft bu gün müasir boru kəmərləri sistemi vasitəsilə dünya bazarlarına çıxarılır. Neft hasilatının həcmi artır və əldə olunan neft gəlirləri iqtisadiyyatımızı şaxələndirməyə imkan yaradır. Bu gün hökumətimiz qarşısında duran əsas vəzifələrdən biri neft kapitalını insan kapitalına çevirməkdən ibarətdir. Eyni zamanda,

iqtisadiyyatın yeni sektorlarının yaradılmasına, xüsusən də sənaye inkişafının təmin olunmasına böyük önəm verilir. Bütün bunlar gələcəkdə neft qiymətlərindən asılı olmamaq və şaxələndirilmiş iqtisadiyyata malik olmaq üçün edilir.

Neft çoxlu pul gətirir, lakin çoxlu sayda yeni iş yerləri açmır. Hazırda qarşımızda duran məqsəd işsizliyin tam aradan qaldırılmasıdır və bu istiqamətdə olduqca böyük addımlar atılmışdır. Son üç il ərzində, biz Azərbaycanda təqribən 500 min yeni iş yerinin açılmasına nail olmuşuq. Həmin iş yerlərinin əksəriyyəti Azərbaycanın rayonlarında yaradılmışdır. Bu, regional inkişaf proqramının uğurla həyata keçirilməsindən xəbər verir.

Bizim çox müasir nəqliyyat infrastrukturumuz var. Coğrafi mövqeyimiz çox əlverişlidir. Ölkəmiz Avropa ilə Asiyanın kəsişdiyi nöqtədə yerləşir və biz infrastrukturumuz, təcrübəmiz, insanlarımızın istedadı və potensialımız əsasında coğrafi mövqeyimizdən istifadə edirik. Biz artıq regional məsələlərdə mühüm rol oynayırıq. İqtisadi cəhətdən güclü ölkədə, təbii ki, müstəqillik də möhkəmlənir. Ölkəmizin uzun onilliklər və əsrlər boyu öz müstəqilliyindən məhrum olduğunu nəzərə alsaq, bu amil olduqca vacibdir.

İqtisadi imkanlarımız və potensialımız insanların həyat tərzini yaxşılaşdırmaqla yanaşı, müstəqilliyimizin möhkəmləndirilməsi üçün də vacib vasitədir. Ona görə siyasi inkişaf, regional əməkdaşlıq, iqtisadi islahatlar, sosial problemlərin həllinə verilən böyük diqqət bizim üçün əsas prioritet məsələlərdir.

Son üç ilyarım ərzində dövlət büdcəmiz üç dəfədən çox artmışdır. Hazırda, biz neft və qaz sektorunun böyük inkişafı ərəfəsindəyik. Gələn illər ərzində neft hasilatının həcmi gündə ən azı bir milyon barrelə çatacaqdır. Neftdən əldə olunan gəlirlərin infrastrukturun inkişafı, sosial proqramların həyata keçirilməsi kimi vacib məsələlərin həllinə yönəldilməsi məqsədi ilə biz Neft Fondu yaratmışıq. Eyni zamanda, gələcək nəsillər üçün ehtiyat fondlarının formalaşdırılması iqtisadi siyasətimizin əsas meyarlarındandır.

Planlarımız çoxdur. Bunların böyük hissəsi artıq uğurla həyata keçirilmişdir. Təbii ki, regional əməkdaşlıq, tərəfdaşlarımızla dost və qardaş ölkələrlə əməkdaşlığımız bizim üçün böyük əhəmiyyət kəsb edir. Bu baxımdan Birləşmiş Ərəb Əmirlikləri ilə Azərbaycan arasındakı münasibətlər dost və qardaş ölkələr arasındakı əlaqələrə nümunə hesab edilə bilər. Neçə illər ərzində əlaqələrimiz çox yüksək səviyyədə olmuşdur. Əminəm ki, ölkənizə etdiyim səfər həmin münasibətlərə daha da böyük təkan verəcəkdir və ölkələrimizin işgüzar dairələri yeni əməkdaşlıq sahələrini müəyyən edəcəklər.

Əməkdaşlığın digər sahəsi birgə layihələrdə iştirakdan ibarət ola bilər. Mən artıq qeyd etdim ki, biz Dövlət İnvestisiya Şirkəti yaratmışıq və həmin qurum məhz potensial sərmayədarların axtarılması ilə məşğul olacaqdır. O, hətta texniki əsaslandırma sənədlərini də tərtib edə və potensial sərmayədarları dəvət edə bilər. Beynəlxalq kreditlər tələb edən layihələrdə ölkəmiz etibarlı tərəfdaş nüfuzunu artıq qazanmışdır. Bakı-Tbilisi-Ceyhan boru kəmərinin çəkilməsi üçün beynəlxalq maliyyə təsisatları, banklar konsorsiumu milyardlarla dollar kredit ayırmışlar. Eyni üsul digər layihələrdə də istifadə edilmişdir. Ona görə beynəlxalq bazarlarda maliyyə vəsaitləri toplamaq baxımından problem olmayacaqdır.

Bütün bunlar yaxşı imkanları təmin edir. Ona görə də biz ölkənizin işgüzar dairələrini Azərbaycana dəvət edir və bizimlə işbirliyi qurmağa çağırırıq. Bu gün çatışmazlıq yal-

nız ondadır ki, Azərbaycan haqqında məlumat hələ də kifayət dərəcədə yayılmır. Bu, xüsusən də, biznes imkanlarına aiddir. Ona görə, biz sizinlə işləyirik. Rəsmilərimiz burada, sizinlədir. İş adamları burada əyləşiblər. Biz özümüzü və imkanlarımızı təqdim etmək üçün çox çalışmalıyıq. Yəni nəyimiz var və nə edə bilərik. Əminəm ki, bu gün keçirdiyimiz görüş bu baxımdan vacibdir və əhəmiyyətli olacaqdır. Biznes adətən təhlükəsiz, dostluq olan və proqnozlaşdırılan yerlərə, gəlir gətirən ölkələrə getməyə üstünlük verir. Bütün həmin meyarlar Azərbaycanda var. Ölkəmizdə ictimai-siyasi sabitlik mövcuddur. Biz bir-birimizlə dostuq və Azərbaycanda qarşılıqlı fayda verəcək bir çox işlər var. Əminəm ki, bu, baş verəcək və mənim səfərimdən sonra daha çox əməkdaşlığın şahidi olacağıq.

Hörmətli dostlar, mən bu fürsətdən istifadə edərək, sizi Azərbaycana dəvət edirəm və oradakı vəziyyəti özünüz görə biləcəksiniz. Təqdimatda nə qədər yaxşı olursa-olsun, lakin belə kəlam var: bir dəfə görmək, yüz dəfə eşitməkdən yaxşıdır. Bu dəvətlə mən çıxışımı başa vururam və gözəl ölkənizdə olduğumuz ilk dəqiqələrdən hiss etdiyimiz xoş qonaqpərvərliyə görə sizə öz minnətdarlığımı bildirirəm. Birləşmiş Ərəb Əmirlikləri xalqına rifah, sülh və uğurlar arzulayıram.

Çox sağ olun.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AZƏRBAYCAN-YAPONİYA DÖVLƏT KOMİSSİYASININ 4-CÜ İCLASININ İŞTİRAKÇILARINI QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 22-də Prezident sarayında Azərbaycan-Yaponiya Dövlət komissiyasının 4-cü iclasının iştirakçılarını qəbul etmişdir.

"İtochu Corporation" şirkətinin vitse-prezidenti Yokota Akira ölkəmizə səfər zamanı xalqımızın ümummilli lideri Heydər Əliyevin məzarını ziyarət etdiklərini bildirərək, Heydər Əliyevin rəhbərliyi altında Azərbaycanın böyük nailiyyətlər qazandığını vurğuladı. Yaponiya ilə Azərbaycan arasında ikitərəfli əlaqələrin yaxşı səviyyədə olduğunu bildirən qonaq Azərbaycan-Yaponiya Dövlət komissiyasının 4-cü iclasının nəticələrinin əməkdaşlığımızın daha da genişləndirilməsi işinə öz töhfəsini verəcəyinə əminliyini söylədi.

Dövlətimizin başçısı Yaponiyaya rəsmi səfərini məmnuniyyətlə xatırlayaraq, bu səfərdən ötən müddət ərzində iki ölkə arasında bütün sahələrdə əməkdaşlığın daha da inkişaf etdiyini vurğuladı. Hazırda ölkəmizdə iqtisadiyyatın müxtəlif sahələrində yeni layihələrin həyata keçirildiyini qeyd edən Prezident İlham Əliyev Azərbaycanın bu istiqamətdə Yaponiya şirkətləri ilə əlaqələri genişləndirməkdə maraqlı olduğunu bildirdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ATƏT-İN MİNSK QRUPUNUN HƏMSƏDRLƏRİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 22-də Prezident sarayında ATƏT-in Minsk qrupunun həmsədrlərini qəbul etmişdir.

Görüş zamanı Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması ilə bağlı danışıqların hazırkı vəziyyəti və perspektivləri ilə əlaqədar fikir mübadiləsi aparılmışdır.

RUSİYA FEDERASİYASI ƏRAZİSİNDƏ TİCARƏTLƏ MƏŞĞUL OLAN AZƏRBAYCAN VƏTƏNDAŞLARININ PROBLEMLƏRİNİN HƏLLİ HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Rusiya Federasiyası hökumətinin 15 noyabr 2006-cı il tarixli 683 №li qərarına əsasən, 2007-ci il yanvarın 15-dən ölkə ərazisində miqrantların ticarətlə məşğul olmasına məhdudiyyət qoyulur. Qərar müvafiq olaraq bu ölkədə ticarətlə məşğul olan çoxsaylı Azərbaycan vətəndaşlarına da şamil olunacaqdır. Rusiya Federasiyası ərazisində ticarətlə məşğul olan Azərbaycan vətəndaşlarının rastlaşacağı problemlərin həlli məqsədi ilə qərara alıram:

1. Rusiyada ticarət fəaliyyəti ilə məşğul olan Azərbaycan vətəndaşlarının problemlərinin öyrənilməsi və həlli ilə bağlı aşağıdakı tərkibdə dövlət komissiyası yaradılsın:

Komissiyanın sədri

Yaqub Eyyubov - Azərbaycan Respublikası Baş nazirinin birinci müavini

Komissiyanın üzvləri:

Elmar Məmmədyarov - Azərbaycan Respublikasının xarici işlər naziri

Heydər Babayev - Azərbaycan Respublikasının iqtisadi inkişaf naziri

Füzuli Ələkbərov - Azərbaycan Respublikasının əmək və əhalinin sosial müdafiəsi naziri

Ramil Usubov - Azərbaycan Respublikasının daxili işlər naziri

Ziya Məmmədov - Azərbaycan Respublikasının nəqliyyat naziri

İsmət Abasov - Azərbaycan Respublikasının kənd təsərrüfatı naziri

Nazim İbrahimov - Azərbaycan Respublikasının Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinin sədri

Zeynal Nağdəliyev - Azərbaycan Respublikası Prezidentinin İcra Aparatının Regional idarəetmə və yerli özünüidarəetmə orqanları ilə iş şöbəsinin müdiri

Əli Həsənov - Azərbaycan Respublikası Prezidentinin İcra Aparatının ictimai-siyasi məsələlər şöbəsinin müdiri

Novruz Məmmədov - Azərbaycan Respublikası Prezidentinin İcra Aparatının Xarici əlaqələr şöbəsinin müdiri

Polad Bülbüloğlu - Azərbaycan Respublikasının Rusiya Federasiyasındakı fövqəladə və səlahiyyətli səfiri

Məmməd Əliyev - Ümumrusiya Azərbaycanlıları Konqresinin sədri

2. Komissiya bir ay müddətində tədbirlər planı hazırlayıb təsdiq etsin və onun həyata keçirilməsini təmin etsin. Görülmüş işlər haqqında mütəmadi olaraq Azərbaycan Respublikasının Prezidentinə məlumat versin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

4. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

İlham Əliyev

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 22 noyabr 2006-cı il

BAKIDA QARA DƏNİZ İQTİSADİ ƏMƏKDAŞLIĞI PARLAMENT MƏCLİSİ BAŞ ASSAMBLEYASININ 28-Cİ PAYIZ SESSİYASI KEÇİRİLMİŞDİR

Noyabrın 22-də Milli Məclisdə Qara dəniz İqtisadi Əməkdaşlığı Parlament Məclisi Baş Assambleyasının 28-ci payız ümumi sessiyası öz işinə başlamışdır.

Sessiyanı Baş Assambleyanın sədri, Azərbaycan Respublikası Milli Məclisinin sədri Oqtay Əsədov açaraq tədbirə səmərəli iş və uğurlar arzulamışdır. Milli Məclisin sədri sessiyada aparılacaq müzakirələrin, veriləcək təklif və tövsiyələrin təşkilatın fəaliyyətinin təkmilləşməsinə kömək edəcəyinə ümidvar olduğunu vurğulamışdır.

Sədr Avropa Şurası Parlament Assambleyasının, Avropa Parlamentinin, MDB Parlamentlərarası Assambleyasının, İslam Konfransı Təşkilatı Parlament Məclisinin və digər beynəlxalq qurumların nümayəndələrini, diplomatik korpusun təmsilçilərini və digər qonaqları Bakıda keçirilən bu mötəbər tədbirdə iştirakından məmnunluğunu bildirmişdir.

Sonra Oqtay Əsədov giriş nitqi ilə çıxış etmiş və bildirmişdir ki, hazırda biz regional inteqrasiya proseslərinin geniş vüsət aldığı bir dünyada yaşayırıq. Yer kürəsinin müxtəlif bölgələrində mövcud olan bir çox siyasi, iqtisadi, ekoloji və digər problemləri ölkələrin səylərini birləşdirmədən həll etmək mümkün deyildir.

Müxtəlif sivilizasiyaların qovuşuğunda yerləşən Qara dəniz regionunun dünya siyasətində rolu XXI əsrin əvvəllərində daha da artmışdır. Məmnunluq hissi ilə qeyd edirəm ki, Qara dəniz İqtisadi Əməkdaşlığı çərçivəsində iqtisadi inteqrasiya ölkələrimiz arasında möhkəm siyasi münasibətlərin yaranmasına, ölkələrimiz üçün ümumi olan bir çox problemlərin həllinə yol açır, regionun zəngin təbii ehtiyatlarından, nəqliyyat imkanlarından və intellektual potensialından səmərəli istifadə etməyə imkan verir.

Regionda Avropa ilə Asiyanı, Şimalla Cənubu bir-birinə sıx bağlayan mühüm iqtisadi layihələrin həyata keçirildiyini xatırladan O.Əsədov demişdir ki, Xəzər neftini dünya bazarlarına çıxaran Bakı-Tbilisi-Ceyhan neft kəməri artıq istismara verilmişdir, digər enerji-nəqliyyat layihələrinin işə salınacağı gün uzaqda deyildir. Təşkilatımızın üzvü olan dövlətlərin uğurlu iş birliyinin bəhrəsi olan bu layihələrdən biz bütün region ölkələrinin və xalqlarının fayda götürməsini istəyirik.

Sədr təəssüf hissi ilə demişdir ki, indiyədək həll edilməyən bir sıra münaqişələr bütün regionun inkişafı yolunda böyük maneəyə çevrilmişdir, eyni zamanda, beynəlxalq sülh və təhlükəsizlik üçün ciddi qorxu törədir. Biz əminik ki, bu münaqişələr, o cümlədən Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi hamılıqla qəbul edilmiş beynəl-

xalq hüquq normaları və prinsipləri, xüsusən onların arasında başlıca prinsip olan dövlətlərin sərhədlərinin toxunulmazlığı və ərazi bütövlüyü prinsipi əsasında tezliklə həll ediləcəkdir. Regionumuzun sülh və sabitlik zonasına çevrilməsi burada yaşayan bütün xalqların mənafelərinə uyğundur.

Hazırda Azərbaycanda olduqca əlverişli sərmayə mühiti var. Adambaşına düşən birbaşa xarici sərmayələrin həcminə görə Azərbaycan nəinki keçmiş sovet ölkələri, o cümlədən bir çox Şərqi Avropa ölkələri arasında birinci yeri tutur. Bu, aydın şəkildə onu göstərir ki, sərmayə mühiti müsbətdir. Biz sərmayədarların etimadını qazanmaq üçün əlimizdən gələni edirik. Ölkəni etibarlı tərəfdaş kimi formalaşdırmaq uzun vaxt, hətta illər tələb edir. Sadə bir səhv addım həmin nailiyyəti heçə endirə bilər. Xoşbəxtlikdən, bizdə belə hadisə müşahidə edilməyib və əminəm ki, gələcəkdə də olmayacaqdır. Əksinə, biz yerli və xarici sərmayədarlar üçün maksimum rahat şərait yaratmağa çalışırıq.

Müstəqilliyimizin ilk illərini yaşadığımız vaxtda biz, təbii ki, xarici sərmayədarlara arxalanırdıq, çünki yerli şirkətlər, - əgər belələri vardısa, - olduqca zəif idi. Lakin bu gün yerli sahibkarlığa yardım göstərməklə, biz yerli sərmayələrin artdığını görürük. Özəl sahibkarlığın inkişaf etdirilməsi ilə bağlı bizim müxtəlif proqramlarımız var. Hazırda özəl sektorun ÜDM-dəki payı 75 faizdən çoxdur. Bu, böyük rəqəmdir. Biz güzəştli kreditlər verməklə özəl sektora yardım göstəririk. Kreditlər iş adamlarına verilir və onlar həmin vəsaiti yeni müəssisələr yaratmaq və iş yerləri açmaq üçün istifadə edirlər. Bu yaxınlarda biz Dövlət İnvestisiya Şirkəti yaratmışıq və onun əsas məqsədi Azərbaycan üçün vacib layihələrdə həmsərmayəçi kimi iştirak etməkdən ibarətdir. Əgər xarici sərmayədar görsə ki, dövlətin özü sərmayəçi kimi iştirak edir, onda həmin potensial sərmayədarın inamı artır və daha da möhkəmlənəcəkdir.

Biz sərmayədarları, ilk növbədə, ölkənin çoxşaxəli inkişafı üçün vacib olan sahələrə cəlb etməyi planlaşdırırıq və həmin sahələrdə xammala və infrastruktura malikik. Ona görə də işgüzar dairələrin bu cür imkandan istifadə etməsi hər iki tərəf üçün faydalı ola bilər. Biz bu əməkdaşlığa açığıq, onu genişləndirmək istəyirik. Ölkənizin əldə etdiyi iqtisadi inkişaf və böyük potensial sizinlə işləməyə əlavə maraq yaradır. Ölkəniz olduqca qısa müddət ərzində böyük inkişafa nail oldu, regionda iqtisadi şəbəkəyə çevrilə bildi və xarici sərmayələr üçün olduqca cəlbedicidir. Siz neft amilindən istifadə edərək, onu çoxşaxəli iqtisadiyyatın qurulmasına yönəltdiniz. Biz də eyni işi görmək istəyirik. Lakin biz bu yolun yalnız başlanğıcındayıq. Ona görə də, sizin təcrübənizi öyrənmək bizim üçün çox vacibdir. Hesab edirəm ki, mənimlə buraya gəlmiş rəsmilər və iş adamları öz vaxtlarından səmərəli istifadə edəcəklər.

İkitərəfli münasibətlər, iqtisadi əməkdaşlıq, o cümlədən qarşılıqlı layihələr və s. məsələlərdə gələcəkdə hərtərəfli inkişaf görmək istəyirik, çünki bunlar əlaqələrimizi daha da möhkəmləndirəcəkdir. Təbii ki, bizim ikitərəfli əsasda çox yaxşı əməkdaşlığımız var. Biz Birləşmiş Millətlər Təşkilatı, İslam Konfransı Təşkilatı kimi beynəlxalq qurumlar çərçivəsində əməkdaşlıq edir və bir-birimizi dəstəkləyirik. Bir sözlə, möhkəm iqtisadi münasibətlərimiz olduğu halda, əməkdaşlıq üçün yeni yollar açılacaqdır.

Biz Azərbaycanda iqtisadi islahatlar siyasətini davam etdirəcəyik. Artıq qeyd etdiyim kimi, gələcək planlarımız çoxdur. Azərbaycandakı müxtəlif layihələr ölkənizin iş adamları üçün maraqlı ola bilər. Misal üçün, turizm sahəsini götürək. Gözəl təbiəti ilə

seçilən ölkəmizdə çox sayda iqlim zonaları mövcuddur. Hazırda Azərbaycanda tikinti sektoru yüksək sürətlə inkişaf etməkdədir. Burada böyük potensial var. Xidmətlər sektoru önəmlidir və biz onu gələcəkdə daha da inkişaf etdirmək fikrindəyik. Biz iqtisadiyyatımızı şaxələndirmək üçün əlimizdən gələni edirik.

Ölkəmizdə çox böyük intellektual səviyyəyə malik olan kadrlar var. Savadlılıq, demək olar ki, 100 faizdir. İstedadlı işçilərimiz sayəsində, kadrlarla bağlı hər hansı problem yaranmır. Əlverişli coğrafi mövqeyimiz, xoş niyyətlərimiz, neft və qaz ehtiyatları nəticəsində formalaşmış möhkəm iqtisadi əsaslar, nefti Qara dəniz və Aralıq dənizi sahillərinə nəql edən boru kəmərləri, o cümlədən Avropaya uzanacaq qaz boru kəməri - bütün bunlar gələcəkdə uğurlu iqtisadi əməkdaşlıq üçün əsas şərtləri təmin edir.

Həmin meyarları nəzərə alaraq, möhkəm iqtisadiyyatın yaradılması üçün yeganə və təkrarolunmaz fürsətimiz var. Əgər iqtisadiyyat güclüdürsə, onda ölkə hər sahədə güclüdür. Ümidvaram ki, ölkənizə etdiyim səfər, burada keçirdiyimiz görüşlər və apardığımız danışıqlar, fikir mübadiləsi daha geniş əməkdaşlığa zəmin yaradacaqdır. Biz hər cür əməkdaşlığa hazırıq. Əgər şirkətləriniz sərmayələrin qoyulmasında maraqlıdırsa, onda biz onların sərmayələrinin qorunması üçün maksimum şərait yaradacağıq. Əgər onlar xidmətlər sahəsində fəaliyyət göstərmək istəyirsə, Azərbaycanda bunun üçün böyük imkanlar var.

Hazırda nəhəng infrastruktur layihələri həyata keçirilir. Altı elektrik stansiyası inşa edilir. Onların ikisi artıq tikilibdir. Gələn iki il ərzində üç istiqamətdə bizi qonşu ölkələrlə birləşdirəcək yollar çəkiləcəkdir. İndi biz böyük su kəmərinin çəkilməsi, qazpaylayıcı sistemin qurulması ilə məşğuluq. Tibb sahəsinə böyük sərmayələr ayrılır. Yeni müasir xəstəxanalar, məktəblər və məişət obyektləri tikilir. Bir sözlə, xidmətlər sahəsində işləyən şirkətlər üçün bu gün və əlbəttə ki, gələcəkdə, imkanlar çox olacaqdır. Nəzərə alsaq ki, neft satışından əldə etdiyimiz gəlirlər artacaq və biz həmin vəsaitlərin infrastrukturun inkişafına yönəldilməsini planlaşdırırıq, onda ölkəmiz cəlbedici ola bilər.

Çıxışının sonunda Milli Məclis adından sessiya iştirakçılarını bir daha salamlayan və tədbirə səmərəli iş arzulayan O.Əsədov Qara dəniz İqtisadi Əməkdaşlığı Parlament Məclisi Baş Assambleyasının 28-ci ümumi sessiyasını açıq elan etmişdir.

Sonra Prezidentin İcra Aparatının xarici əlaqələr şöbəsinin müdiri Novruz Məmmədov Azərbaycan Prezidenti İlham Əliyevin toplantı iştirakçılarına müraciətini oxumuşdur (müraciətin mətni qəzetin bugünkü nömrəsində dərc olunur).

Daha sonra Serbiya Respublikası xarici işlər nazirinin xüsusi nümayəndəsi Milorad Sekuliç Qara dəniz İqtisadi Əməkdaşlığı sədrinin müraciətini oxumuşdur. Müraciətdə deyilir ki, QİƏ mütəşəkkil cinayətkarlığa və beynəlxalq terrorizmə qarşı mübarizə, ətraf mühitin mühafizəsi, təhsilin inkişafı və nəqliyyat sahələrində əlaqələrin genişləndirilməsini məqsədəuyğun sayır. Qara dəniz hövzəsində magistral enerji və nəqliyyat xətlərin çəkilməsi, bu sahədə əməkdaşlıq əlaqələrimizin möhkəmlənməsində mühüm rol oynayar.

Serbiya Respublikası da QİƏ-nin yeni üzvü kimi Qara dəniz İqtisadi Əməkdaşlığı çərçivəsində əlaqələrin inkişafına xüsusi önəm verir, QİƏ ilə Avropa İttifaqı arasında münasibətlərin genişlənməsinə çalışacaqdır.

Tədbirin iştirakçıları xatirə şəkli çəkdirdikdən sonra, sessiya işini davam etdirmiş, iclasın gündəliyi, Baş Assambleyanın 27-ci sessiyasının protokolları təsdiqlənmiş, yeni mandatlara baxılmışdır.

Nümayəndə heyətlərinin rəhbərləri çıxış edərək tədbirin yüksək səviyyədə təşkilinə və onlara göstərilən qonaqpərvərliyə görə, minnətdarlıq etmiş, gündəlikdəki məsələlərə münasibət bildirmişlər.

Fasilədən sonra prosedur məsələlərinə baxıldı, Baş Assambleyanın fəaliyyəti barədə hesabat dinlənildi. Müzakirələrdə QİƏ-nin daimi katibliyinin baş katibi, səfir Leonidas Krisantopolus, milli nümayəndə heyətlərinin rəhbərləri çıxış etmişlər. QİƏ-nin fəaliyyətinin səmərəliliyinin artırılması məsələsi xüsusi müzakirə mövzusu olmuşdur. Çıxış edən deputatlar Qara dəniz İqtisadi Əməkdaşlığına üzv ölkələr arasında iqtisadi, ticarət, sosial, mədəni və digər sahələrdə münasibətlərin genişləndirilməsinin, eləcə də təşkilatın özünün digər beynəlxalq qurumlarla əlaqələrinin inkişaf etdirməsinin və Qara dəniz hövzəsindəki problemlərin həllində rolunun artırılmasının vacibliyini vurğuladılar.

Sonra "Alternativ enerji mənbələri və onların Qara dəniz hövzəsində tətbiqi imkanları", "Əqli mülkiyyətin qorunması sahəsində qanunvericilik bazasının təkmilləşdirilməsi" və "Qloballaşdırma prosesi və mədəni müxtəlifliyə potensial təhlükələr" mövzularında məruzələr dinlənilmişdir.

Deputatlar iqtisadi, ekoloji, texnoloji və hüquqi məsələlərlə bağlı təkliflərini bildirmişlər.

Sonda müzakirə olunan məsələlərin milli nümayəndə heyətlərinin parlamentlərində baxılması tövsiyə olunmuşdur.

Qara dəniz İqtisadi Əməkdaşlığı Parlament Məclisi Baş Assambleyasının Bakıda keçirilən 28-ci payız ümumi sessiyası öz işini noyabrın 23-də Oqtay Əsədovun sədrliyi ilə davam etdirmişdir.

Noyabrın 23-də keçirilmiş iclasda Azərbaycan nümayəndə heyətinin üzvü Asəf Hacıyev Baş Assambleyanın sədr müavini vəzifəsinə seçilmiş və qurumun 2007-ci il büdcəsi təsdiqlənmişdir.

Gündəlikdəki digər məsələlərin müzakirəsi zamanı Azərbaycan, Türkiyə, Rumıniya, Fransa, Ukrayna və Rusiyadan olan deputatlar çıxış edərək qloballaşan dünyada mədəni əlaqələrin genişləndirilməsinin vacibliyini vurğulamış, YUNESKO-nun mədəni irsin qorumasına dair proqramına uyğun olaraq quruma üzv ölkələrdə mədəni abidələrin mühafizəsinin gücləndirilməsi barədə təklif irəli sürmüşlər. Əqli mülkiyyətin qorunmasının hüquqi bazasının təkmilləşdirilməsi məsələsi də xüsusi müzakirə mövzusu olmuşdur. Natiqlər mədəni əlaqələrin inkişafının xalqların və millətlərin daha da yaxınlaşmasında, eləcə də bəzi problemlərin həllində mühüm rol oynadığını vurğulamışlar.

Sonda QİƏ-nin reqlamentinə uyğun olaraq təşkilati məsələyə baxılmış, rotasiya qaydasında Bolqarıstan parlamentinin başçısı Georgi Pirinski Baş Assambleyanın sədri seçilmişdir. Oqtay Əsədov sədrlik postunun rəmzi olan çəkici bolqarıstanlı həmkarına təqdim etmiş və ona uğurlar arzulamışdır.

Georgi Pirinski tribunadan bir daha iştirakçılar adından Baş Assambleyanın 28-ci sessiyasının yüksək səviyyədə təşkilinə, nümayəndə heyətlərinə göstərilən qonaqpərvərliyə görə minnətdarlıq etmişdir. O demişdir ki, təşkilata rəhbərlik edəcəyi növbəti 6 ayda

qarşıya qoyulmuş məqsədə çatmaq üçün QİƏ-nin fəaliyyətinin səmərəliliyini artırmağa çalışacaqdır. G.Pirinski bildirmişdir ki, Bolqarıstan 2007-ci il yanvarın 1-dən Avropa İttifaqına da sədrlik edəcəkdir. Bu da QİƏ-nin rolunun artırılmasına, qurumun beynəlxalq əməkdaşlığının genişləndirilməsinə mühüm təsir göstərəcəkdir.

Baş Assambleyanın növbəti ümumi sessiyasının 2007-ci il iyunun 5-də Bolqarıstanın paytaxtı Sofiya şəhərində keçirilməsi qərara alınmışdır

Bununla da Qara dəniz İqtisadi Əməkdaşlığı Parlament Məclisi Baş Assambleyasının Bakıda keçirilən 28-ci payız sessiyası öz işini başa çatdırmışdır.

Sonra tədbirin yekunlarına dair mətbuat konfransı keçirilmişdir.

QİƏ PM Baş Assambleyası sədrinin müavini Asəf Hacıyev demişdir ki, Bakı sessiyasında Qara dəniz İqtisadi Əməkdaşlığına üzv ölkələr arasında iqtisadi, ticarət, sosial, mədəni və digər sahələrdə münasibətlərin genişləndirilməsi, eləcə də təşkilatın özünün digər beynəlxalq qurumlarla əlaqələrinin inkişaf etdirməsi, Qara dəniz hövzəsindəki problemlərin həllində qurumun rolunun artırılması və bir sıra mühüm məsələlər müzakirə olunmuşdur. Azərbaycan tərəfi Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin səbəbləri və acı nəticələri barədə sessiya iştirakçılarına ətraflı məlumat vermişdir.

Gürcüstan nümayəndə heyətinin üzvü, QİƏ PM-nin iqtisadi, ticarət, texnologiya və energetika məsələləri komitəsi sədrinin müavini David Saqanelidze demişdir ki, Azərbaycan nümayəndə heyəti Baş Assambleyanın Yerevanda keçirilmiş 27-ci sessiyasının işində iştirak etmiş və səmərəli təkliflər vermişdir. Amma Ermənistan naməlum səbəblərdən bu tədbirə qatılmadı. Bu onu göstərir ki, Azərbaycan həmişə olduğu kimi regionda sülhün bərqərar olmasında, təşkilatın fəaliyyətinin səmərəliliyinin artırılmasında konstruktiv mövqe tutur. Ermənistan isə tədbirə qatılmamaqla özünün qeyri-konstruktiv mövqedə olduğunun bir daha sübut edir.

Sonra iştirakçılar jurnalistləri maraqlandıran digər məsələlərə aydınlıq gətirmişlər.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BOLQARISTAN RESPUBLİKASI XALQ MƏCLİSİNİN SƏDRİ GEORGİ PİRİNSKİNİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 23-də Prezident sarayında Bolqarıstan Respublikası Parlamentinin - Xalq Məclisinin sədri Georgi Pirinskinin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Dövlətimizin başçısı Azərbaycan ilə Bolqarıstan arasında münasibətlərin uğurla inkişaf etdiyini vurğuladı. O, Bolqarıstan Prezidenti Georgi Pırvanov ilə dəfələrlə görüşdüyünü məmnuniyyətlə xatırladaraq, bu görüşlərin ikitərəfli əlaqələrimizin genişləndirilməsi işinə mühüm töhfə verdiyini qeyd etdi. İki ölkənin parlamentləri arasında əməkdaşlığın əhəmiyyətinə toxunan Prezident İlham Əliyev indiki səfərin əlaqələrimizin daha da inkişaf etdirilməsində mühüm rol oynayacağına əmin olduğunu bildirdi.

Georgi Pirinski Azərbaycana Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Məclisinin iclasında iştirak etmək üçün gəldiklərini qeyd edərək, səfər çərçivəsində ikitərəfli görüşlərin də keçirildiyini bildirdi. Azərbaycan və Bolqarıstanın dövlət başçıları-

nın qarşılıqlı səfərlərini xatırladan qonaq bu səfərlərin iki ölkə arasında əlaqələrin daha da genişləndirilməsində xüsusi rol oynadığını vurğuladı. O, ölkələrimizin bütün sahələrdə əməkdaşlığının, o cümlədən parlamentlərarası əlaqələrin bundan sonra da inkişaf edəcəyinə əminliyini ifadə etdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İSLAM ÖLKƏLƏRİ TƏHSİL, ELM VƏ MƏDƏNİYYƏT TƏŞKİLATININ (İSESCO) BAŞ DİREKTORU ƏBDÜLƏZİZ bin OSMAN əl-TUVEYCRİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 24-də Prezident sarayında İslam Ölkələri Təhsil, Elm və Mədəniyyət Təşkilatının (İSESCO) baş direktoru Əbdüləziz bin Osman əl-Tuveycrini qəbul etmişdir.

Bu yaxınlarda İSESCO-nun Küveytdə sessiyasının keçirildiyini bildirən qonaq növbəti sessiyanın 2008-ci ildə Bakıda keçirilməsinə razılıq verildiyinə görə, Azərbaycan tərəfinə və şəxsən Prezident İlham Əliyevə təşəkkürünü bildirdi. O, noyabrın 23-də Heydər Əliyev Fondunun prezidenti xanım Mehriban Əliyevaya İslam Ölkələri Təhsil, Elm və Mədəniyyət Təşkilatının "Xoşməramlı səfiri" fəxri adının verilməsi münasibətilə təbriklərini çatdırdı.

Dövlətimizin başçısı Heydər Əliyev Fondunun və onun prezidenti Mehriban xanım Əliyevanın fəaliyyətinə verilən yüksək qiymətə görə İSESCO-ya və təşkilatın rəhbəri Əbdüləziz bin Osman əl-Tuveycriyə minnətdarlığını bildirdi.

İSESCO-nun növbəti sessiyasının Bakı şəhərində keçirilməsinin əhəmiyyətini vurğulayan Prezident İlham Əliyev bu il ölkəmizdə İslam Konfransı Təşkilatı çərçivəsində iki tədbirin uğurla keçirildiyini də xatırlatdı. Dövlətimizin başçısı belə tədbirlərin İslam Konfransı Təşkilatı ilə əməkdaşlığın daha da genişləndirilməsi işində mühüm rol oynadığını bildirdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ÜMUMDÜNYA TİCARƏT TƏŞKİLATI KATİBLİYİNİN "ÜZV OLMA PROSESLƏRİ" ÜZRƏ QURUMUNUN RƏHBƏRİ ARİF HÜSEYNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 27-də Prezident sarayında Ümumdünya Ticarət Təşkilatı (ÜTT) Katibliyinin "Üzv olma prosesləri" üzrə qurumunun rəhbəri Arif Hüseyni qəbul etmişdir.

Görüş zamanı Azərbaycan ilə Ümumdünya Ticarət Təşkilatı arasında əməkdaşlığın müxtəlif sahələrinə dair fikir mübadiləsi aparılmışdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN BELARUSA SƏFƏRİ

Azərbaycan Prezidenti İlham Əliyev MDB dövlət başçılarının Minskdə keçiriləcək zirvə görüşündə iştirak etmək üçün noyabrın 27-də Belarus paytaxtına gəlmişdir.

MİNSKDƏ MDB DÖVLƏT BAŞÇILARININ ZİRVƏ GÖRÜŞÜ KEÇİRİLMİŞDİR

Noyabrın 28-də Minsk şəhərində, Belarus Milli Kitabxanasının binasında Müstəqil Dövlətlər Birliyinin üzvü olan ölkələrin dövlət başçılarının zirvə görüşü keçirilmişdir.

Zirvə görüşündə 11 ölkənin - Azərbaycan, Rusiya, Belarus, Gürcüstan, Qazaxıstan, Qırğızıstan, Moldova, Ermənistan, Özbəkistan, Tacikistan və Ukraynanın dövlət başçıları iştirak edirdilər. Türkmənistanı Nazirlər Kabineti sədrinin müavini təmsil edirdi.

Zirvə görüşünə ev sahibliyi edən Belarus Prezidenti Aleksandr Lukaşenko prezidentlər İlham Əliyevi, Vladimir Putini, Mixail Saakaşvilini, Nursultan Nazarbayevi, Kurmanbek Bakiyevi, Vladimir Voroninі, Robert Koçaryanı, İslam Kərimovu, Emomәli Rəhmonovu və Viktor Yuşşenkonu, habelə Türkmənistan Nazirlər Kabineti sədrinin müavini Qurbanqulu Berdımühəmmədovu səmimiyyətlə qarşıladı.

Açılışdan əvvəl görüş iştirakçıları rəsmi foto çəkdirdilər.

Sonra zirvə görüşünün məhdud formatda iclası başlandı. Belarus Prezidenti Aleksandr Lukaşenko zirvə görüşündə iştirak edən dövlət başçılarını bir daha salamladı, Tacikistan Prezidentini yenidən bu vəzifəyə seçilməsi münasibətilə təbrik etdi. A.Lukaşenko xatırlatdı ki, bu il dekabrın 6-da MDB-nin 15 ili tamam olur. Bu müddət ərzində xeyli iş görülmüş, ən başlıcası isə, üzv ölkələr arasında əməkdaşlığa meyil qorunub saxlanmışdır. Lakin nəzərdə tutulan çox məsələlər həyata keçirilməmişdir. Ona görə də MDB-də inteqrasiyanı dərinləşdirmək üçün daha fəal olmalıyıq. Prezident A.Lukaşenko onu da bildirdi ki, təkcə 2006-cı ilin ötən dövrü ərzində Belarus Respublikasının MDB ölkələri ilə mal dövriyyəsinin həcmi 20 milyard dolları keçmişdir.

Zirvə görüşünün məhdud formatda iclasını MDB Dövlət Başçıları Şurasının sədri, Qazaxıstan Prezidenti Nursultan Nazarbayev açdı. O bildirdi ki, bu formatda iclasın məqsədi gündəliyin özü və habelə onun bəzi məsələləri barədə fikir mübadiləsi aparmaq, müxtəlif yanaşmalar olan sənədlərlə bağlı cavab layihələrini müzakirə etməkdir. Bu, ilk növbədə MDB-nin səmərəliliyinin yüksəldilməsi və onun inkişaf perspektivləri haqqında məsələlərə aiddir.

Sonra MDB-nin İcraiyyə Komitəsinin sədri-icraçı katibi Vladimir Ruşayloya söz verildi. O bildirdi ki, zirvə görüşü gündəliyinin layihəsi üzv dövlətlərin təklifləri və MDB-nin ali orqanlarının tapşırıqları əsasında hazırlanmışdır. Qaydaya uyğun olaraq, gündəliyin layihəsi qabaqcadan MDB Xarici İşlər Nazirləri Şurasında müzakirə edilmiş və üzv ölkələrdən daxil olmuş təkliflər nəzərə alınmışdır.

Sonra zirvə görüşünün məhdud formatda iclası öz işini qapalı şəkildə davam etdirdi.

Sonra MDB-nin üzvü olan ölkələrin dövlət başçılarının zirvə görüşü geniş tərkibdə davam etdirildi.

Belarus Prezidenti Aleksandr Lukaşenko bu zirvə görüşünün Minsk şəhərində keçirilməsinin əhəmiyyətindən söz açdı. MDB məkanında bütün sahələrdə inteqrasiya siyasətinin gücləndirilməsinin vacibliyini bildirən Aleksandr Lukaşenko bir daha dövlət başçılarını öz ölkəsində salamladı.

MDB Dövlət Başçıları Şurasının sədri, Qazaxıstan Prezidenti Nursultan Nazarbayev zir-

və görüşünün yüksək səviyyədə təşkilinə və onlara göstərilən qonaqpərvərliyə görə Belarus Prezidenti Aleksandr Lukaşenkoya təşəkkürünü bildirdi, qapalı şəkildə keçirilən görüşdə müzakirə olunan sənədlərin əhəmiyyətindən danışdı.

Sonra MDB İcraiyyə Komitəsinin sədri-icraçı katibi Vladimir Ruşaylo qapalı görüşdə müzakirə olunan məsələləri bir daha xatırladaraq dedi ki, MDB Xarici İşlər Nazirləri Şurasının iclasında müzakirə edilib qəbul olunan sənədlərin bir neçəsi əlavə və dəyişikliklər olunmaqla təsdiqlənmişdir. Yüksək səviyyəli qrupun MDB-nin səmərəliliyinin artırılması, inkişafı və gələcək perspektivləri barədə hazırladığı məruzə ətrafında geniş fikir mübadiləsi aparılmışdır. Vladimir Ruşaylo həmçinin bildirdi ki, konkret müzakirə edilmədiyinə görə yalnız bir sənəd - MDB dövlət başçılarının Birlik ölkələri arasında dövlət sərhədlərinin müqavilə-hüquqi rəsmiləşdirilməsi haqqında Bəyanatı qəbul olunmamışdır.

Sonra dövlət başçıları zirvə görüşünün sənədlərini imzaladılar.

İmzalanma mərasimindən sonra zirvə görüşünün yekunlarına dair mətbuat konfransı keçirildi. MDB Dövlət Başçıları Şurasının sədri, Qazaxıstan Prezidenti Nursultan Nazarbayev və MDB İcraiyyə Komitəsinin sədri-icraçı katibi Vladimir Ruşaylo kütləvi informasiya nümayəndələrinin suallarına cavab verdilər. Həmçinin bildirildi ki, növbəti zirvə görüşünün gələn il Tacikistanın paytaxtı Düşənbə şəhərində keçirilməsi nəzərdə tutulur.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ GÜRCÜSTAN PREZİDENTİ MİXAİL SAAKAŞVİLİNİN GÖRÜŞÜ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev MDB dövlət başçılarının Minskdə keçirilən zirvə görüşü çərçivəsində noyabrın 28-də, onun üçün ayrılmış iqamətgahda Gürcüstan Prezidenti Mixail Saakaşvili ilə görüşmüşdür.

Görüşdə ölkələrimiz arasında əlaqələrin müxtəlif sahələrdə inkişaf etdiyi vurğulandı, gələcəkdə əlaqələrimizin daha da genişləndiriləcəyinə əminlik ifadə edildi, qarşılıqlı maraq doğuran bir sıra digər məsələlər müzakirə olundu.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ UKRAYNA PREZİDENTİ VİKTOR YUŞŞENKONUN GÖRÜŞÜ

Noyabrın 28-də Minskdə Azərbaycan Prezidenti İlham Əliyevin və Ukrayna Prezidenti Viktor Yuşşenkonun görüşü olmuşdur.

Görüşdə ölkələrimiz arasında ikitərəfli əlaqələrin müxtəlif sahələrdə uğurla inkişaf etdiyi vurğulandı, beynəlxalq təşkilatlar, o cümlədən GUAM çərçivəsində əməkdaşlığın genişlənməsindən məmnunluq ifadə edildi.

Prezidentlər əlaqələrin bundan sonra da inkişaf edəcəyinə əminliklərini söylədilər və qarşılıqlı maraq doğuran bir sıra məsələlər barədə fikir mübadiləsi apardılar.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ ERMƏNİSTAN PREZİDENTİ ROBERT KOÇARYANIN GÖRÜŞÜ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev MDB dövlət başçılarının Minskdə keçirilən zirvə görüşü çərçivəsində noyabrın 28-də, Rusiya Federasiyasının Belarusdakı səfirliyinin binasında Ermənistan Prezidenti Robert Koçaryan ilə görüşmüşdür.

Əvvəlcə geniş tərkibdə keçirilən görüşdə Azərbaycan və Ermənistanın xarici işlər nazirləri Elmar Məmmədyarov və Vartan Oskanyan, habelə Rusiyanın xarici işlər naziri Sergey Lavrov, ATƏT-in hazırkı sədri Karel de Quxt, onun şəxsi nümayəndəsi Anji Kaspşik, rusiyalı həmsədr Yuri Merzlyakov da iştirak edirdilər.

Görüşü giriş sözü ilə açan Sergey Lavrov Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində danışıqlar prosesinin davam etdirilməsinin vacibliyini vurğuladı.

Sonra dövlət başçıları görüşü təkbətək davam etdirdilər. Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı fikir mübadiləsi aparıldı.

AZƏRBAYCAN, BELARUS VƏ UKRAYNA PREZİDENTLƏRİNİN ÜÇTƏRƏFLİ GÖRÜŞÜ

Noyabrın 28-də Minskdə, Belarus dövləti başçısının iqamətgahında Azərbaycan Prezidenti İlham Əliyevin, Belarus Prezidenti Aleksandr Lukaşenkonun və Ukrayna Prezidenti Viktor Yuşşenkonun üçtərəfli görüşü olmuşdur.

Prezidentlər enerji daşıyıcılarının nəqli layihələrinin gerçəkləşdirilməsi, enerji daşıyıcılarının göndərilməsi və emalı, müvafiq infrastrukturun inşası sahəsində üç dövlətin böyük potensialı olduğunu vurğuladılar.

Görüşdə vurğulanmışdır ki, Baltikyanı ölkələrin, Şərqi Avropa ölkələrinin də maraqları daxilində olan bu regional bazar inkişaf etməlidir.

Belarus Prezidenti Aleksandr Lukaşenkonun fikrincə, üç ölkə enerji təhlükəsizliyinin təmin olunması sahəsində sıx əməkdaşlıq etməlidir.

Azərbaycan Prezidenti İlham Əliyev bildirmişdir ki, indiki görüş onun bu yaxınlarda Belarusa rəsmi səfəri zamanı yüksək səviyyədə aparılmış danışıqların davamı olaraq keçirilir. Azərbaycan dövlətinin başçısı bütün sahələrdə, o cümlədən energetika sahəsində Belarusla ölkəmiz arasında əməkdaşlığın böyük potensialı olduğunu bildirdi.

Ukrayna Prezidenti Viktor Yuşşenko üç ölkənin ticarət-iqtisadi əməkdaşlığının səviyyəsini yüksək qiymətləndirdi. Onun sözlərinə görə, Ukraynanın Belarus və Azərbaycan ilə əmtəə dövriyyəsi 5 milyard dollarlıq həddi keçmişdir. Viktor Yuşşenko üç ölkənin energetika sahəsində əlaqələrin inkişafını əməkdaşlığın strateji istiqaməti adlandırdı. O dedi ki, Azərbaycan neftinin Belarusun neftayırma zavodlarına nəqli üçün Odessa-Brodı boru kəmərindən istifadə olunması perspektivli layihədir.

SƏFƏR BAŞA ÇATDI

Azərbaycan Prezidenti İlham Əliyev noyabrın 28-də axşam Belarusa səfərini başa çatdıraraq Vətənə yola düşmüşdür.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV DUBAY LİMANLARI, GÖMRÜKXANALARI VƏ AZAD TİCARƏT ZONASI KORPORASİYASININ İCRAÇI SƏDRİ SULTAN ƏHMƏD BİN SÜLEYİMİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 29-da Prezident sarayında Dubay Limanları, Gömrükxanaları və Azad Ticarət Zonası Korporasiyasının icraçı sədri Sultan Əhməd bin Süleyimi qəbul etmişdir.

Qonaq Birləşmiş Ərəb Əmirliklərinin vitse-prezidenti və Baş naziri, Dubay Əmirliyinin hökmdarı şeyx Məhəmməd bin Rəşid Al Məktumun salamlarını dövlətimizin başçısına çatdırdı. Şeyx Məhəmmədin tapşırığı ilə iş adamlarından ibarət nümayəndə heyəti ilə respublikamıza səfərə gəldiyini söyləyən Sultan Əhməd bin Süleyim dedi ki, onlar Azərbaycan ilə Dubay arasında iqtisadi əlaqələrin genişlənməsi üçün səylərini əsirgəməyəcəklər.

Birləşmiş Ərəb Əmirliklərinə rəsmi səfərini xatırladan Azərbaycan Prezidenti İlham Əliyev bildirdi ki, Dubayın iş adamlarından ibarət nümayəndə heyətinin Azərbaycana gəlməsi ölkələrimizin iqtisadi əməkdaşlığının daha da genişləndirilməsində hər iki tərəfin maraqlı olduğunu göstərir.

Prezident İlham Əliyev Birləşmiş Ərəb Əmirliklərinin vitse-prezidenti və Baş naziri, Dubay Əmirliyinin hökmdarının salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını şeyx Məhəmməd bin Rəşid Al Məktuma çatdırmağı xahiş etdi.

2006-CI İL SENTYABRIN 1-DƏ BAKI ŞƏHƏRİNDƏ İMZALANMIŞ "AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA DÖVLƏT QULLUĞU MƏSƏLƏLƏRİ ÜZRƏ KOMİSSİYA İLƏ BİRLƏŞMİŞ MİLLƏTLƏR TƏŞKİLATININ İNKİŞAF PROQRAMI ARASINDA "DÖVLƏT QULLUĞU SİSTEMİNDƏ İSLAHATLARIN APARILMASI VASİTƏSİLƏ YAXŞI İDARƏÇİLİYİN TƏŞKİLİ: MİM 9-UN (YADİDP-NİN İLKİN VARİANTI 2006-2015) İCRASINA DAİR LAYİHƏ SƏNƏDİ"NİN TƏSDİQ EDİLMƏSİ BARƏDƏ AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

1. 2006-cı il sentyabrın 1-də Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya ilə Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramı arasında "Dövlət Qulluğu Sistemində İslahatların aparılması vasitəsilə Yaxşı İdarəçiliyin Təşkili: MİM 9-un (YADİDP-nin ilkin variantı 2006-2015) icrasına dair Layihə Sənədi" təsdiq edilsin.

2. Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən sənədin həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən sənədin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə BMT-nin İnkişaf Proqramını xəbərdar etsin.

İlham Əliyev

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 29 noyabr 2006-cı il

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV GÜRCÜSTANIN BAŞ NAZİRİ ZURAB NOĞAİDELİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 30-da Prezident sarayında Gürcüstanın Baş naziri Zurab Noğaidelini qəbul etmişdir.

Azərbaycan ilə Gürcüstan arasında strateji tərəfdaşlıq əlaqələrinin uğurla inkişaf etdiyini bildirən Prezident İlham Əliyev MDB-nin üzvü olan ölkələrin dövlət başçılarının bu yaxınlarda Minskdə keçirilən sammitində Gürcüstan Prezidenti ilə görüşünü xatırlatdı və ikitərəfli münasibətlərin daha da genişləndirilməsinə dair fikir mübadiləsi apardıqlarını vurğuladı.

Prezident İlham Əliyev dedi ki, Gürcüstan Baş nazirinin respublikamıza səfəri hazırkı mərhələdə ölkələrimiz arasında əlaqələrin daha da möhkəmlənməsi üçün yeni imkanlar yaradacaqdır. Dövlətimizin başçısı əmin olduğunu bildirdi ki, Azərbaycan-Gürcüstan əlaqələri bundan sonra da inkişaf edəcəkdir.

Hər dəfə Bakıya səfərə gələndə, hətta son səfərindən qısa müddət keçməsinə baxmayaraq, Azərbaycandakı böyük inkişafın şahidi olduğunu söyləyən Gürcüstanın Baş naziri dedi ki, Azərbaycanın iqtisadiyyatının belə dinamikası, iqtisadi artım sürətinə görə dünyada liderlik etməsi bizi də sevindirir. Bu böyük uğurlara görə dövlətimizin başçısını təbrik edən cənab Zurab Noğaideli əmin olduğunu bildirdi ki, ölkələrimiz arasındakı əlaqələr daha da inkişaf edəcək və möhkəmlənəcəkdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AŞPA-NIN DAĞLIQ QARABAĞ ÜZRƏ ALT KOMİTƏSİNİN SƏDRİ LORD RASSEL CONSTONU QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 30-da Prezident sarayında AŞPA-nın Dağlıq Qarabağ üzrə alt komitəsinin sədri lord Rassel Constonu qəbul etmişdir.

Görüş zamanı Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması ilə bağlı aparılan danışıqların hazırkı vəziyyəti və Azərbaycan-Avropa Şurası Parlament Assambleyası əməkdaşlığına dair fikir mübadiləsi aparılmışdır.

AZƏRBAYCAN İLƏ BÖYÜK BRİTANİYA ARASINDA İKİTƏRƏFLİ MÜNASİBƏTLƏR DƏRİN TARİXİ ƏNƏNƏLƏRƏ SÖYKƏNİR

Noyabrın 30-da Xarici İşlər naziri Elmar Məmmədyarov Böyük Britaniya parlamenti Lordlar Palatasının üzvü xanım Baronessa O'Keteyn ilə görüşmüşdür.

Xanım O'Keteyn Azərbaycan ilə Böyük Britaniya arasında mövcud ikitərəfli münasibətlərin dərin tarixi ənənələrə söykəndiyini söyləmişdir.

Görüşdə tərəflər Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində aparılan danışıqlar prosesinin hazırkı mərhələsi, qloballaşma prosesləri, regionumuzda həyata keçirilən irimiqyaslı iqtisadi layihələr, beynəlxalq terrorçuluğa qarşı mübarizə və sair məsələləri müzakirə etmişlər.

Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı danışıqlara toxunan nazir E.Məmmədyarov bildirmişdir ki, münaqişə yalnız Azərbaycanın ərazi bütövlüyü və Konstitusiyası əsasında, beynəlxalq hüququn norma və prinsipləri çərçivəsində həll edilməlidir. O, bir sıra ölkələrdə erməni diasporunun Azərbaycan haqqında məqsədyönlü şəkildə böhtan xarakterli təbliğat aparmalarını misal gətirərək, bu hərəkətin danışıqlar prosesinə mənfi təsir göstərdiyini vurğulamışdır.

Görüşdə qarşılıqlı maraq doğuran bir sıra digər məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV TÜRKİYƏNİN İĞDIR VİLAYƏTİNİN VALİSİ SAİM SAFFET KARAHİSARLINI QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 1-də Prezident sarayında Türkiyə Cümhuriyyətinin İğdır vilayətinin valisi Saim Saffet Karahisarlını qəbul etmişdir.

Azərbaycan ilə Türkiyə arasında bütün sahələrdə münasibətlərimizin dostluq, qardaşlıq səviyyəsində uğurla inkişaf etdiyini vurğulayan dövlətimizin başçısı İğdır vilayəti ilə əlaqələrə xüsusi önəm verildiyini bildirdi. İğdır vilayətinin iş adamları tərəfindən Naxçıvan Muxtar Respublikasına sərmayələr qoyulmasından və bu əlaqələrin ildən-ilə genişlənməsindən razılıqla bəhs edən Prezident İlham Əliyev İğdırın bələdiyyə sədri Nurəddin Aras ilə tez-tez görüşdüyünü nəzərə çatdırdı.

İğdır valisi Saim Saffet Karahisarlının ölkəmizə ilk dəfə səfərə gəlməsindən məmnunluğunu vurğulayan dövlətimizin başçısı əmin olduğunu bildirdi ki, İğdır vilayəti ilə Azərbaycanın bir sıra bölgələri arasında əlaqələr bundan sonra da inkişaf edəcək və möhkəmlənəcəkdir.

Azərbaycana ilk dəfə səfərə gəlməsinə baxmayaraq, ölkəmizdə özünü evindəki kimi hiss etdiyini bildirən Saim Saffet Karahisarlı respublikamızda aparılan böyük quruculuq işlərini öz gözləri ilə görməkdən çox şad olduğunu söylədi. O, Azərbaycan iqtisadiyyatının çox böyük sürətlə inkişaf etməsinin qürur doğurduğunu vurğulayaraq dedi ki, bu, ölkənin bölgələrində də özünü göstərir. Biz Şamaxıya səfərimiz zamanı bu inkişafı öz gözümüzlə gördük. Orada İğdır və Şamaxının qardaşlaşmış şəhərlər olması barədə protokol imzalamışıq. Bu, qardaş ölkələrimizin iki şəhəri arasında hərtərəfli əlaqələr qurulmasına imkan yaradacaqdır.

XİN-İN NÜMAYƏNDƏ HEYƏTİ MACARISTANDA SƏFƏRDƏ OLMUŞDUR

Azərbaycan xarici işlər nazirinin müavini Xələf Xələfovun başçılığı ilə XİN-in nümayəndə heyəti noyabrın 29-dan dekabrın 1-dək Macarıstanda səfərdə olmuşdur.

Noyabrın 30-da X.Xələfov Macarıstanın xarici işlər naziri Kingi Gents ilə görüşmüşdür. Danışıqlarda Azərbaycan-Macarıstan ikitərəfli münasibətləri, onların daha da möhkəmləndirilməsi və inkişaf etdirilməsi, habelə qarşılıqlı maraq doğuran digər məsələlər müzakirə olunmuşdur.

Xanım Gents demişdir ki, Azərbaycanın Macarıstanda səfirliyi açıldıqdan sonra iki ölkə arasında münasibətlər xeyli güclənmiş və nəinki siyasi sahədə, həm də iqtisadi və mədəni sahələrdə möhkəm əlaqələr yaradılmasında diplomatik nümayəndəliyin fəaliyyəti təqdirəlayiqdir.

Görüşdə Avropanın enerji bazarının təmin edilməsi, hər iki ölkənin parlamentləri, işgüzar dairələrinin nümayəndələri arasında qarşılıqlı münasibətlər kimi sahələrdə ikitərəfli əməkdaşlığın əhəmiyyəti vurğulanmış, əməkdaşlığın bir çox sahələrini əhatə edən sazişlərin layihələrinin sanballı paketinin hazırlandığı bildirilmişdir. Onların imzalanması Azərbaycan-Macarıstan əməkdaşlığının genişlənməsinə təkan verəcəkdir.

Səfər zamanı X.Xələfovun Macarıstan parlamenti sədrinin müavini Qabor Vilaqoşi və Parlamentlərarası İttifaqın sədri Qabor Xarşla da görüşləri olmuşdur. Danışıqlarda parlamentlərarası əlaqələrin möhkələnməsi məsələləri müzakirə olunmuş, bu əlaqələri genişləndirmək, ticarət və investisiyalar sahəsində qarşılıqlı fəaliyyəti inkişaf etdirmək yolları nəzərdən keçirilmişdir.

Elə həmin gün Azərbaycan xarici işlər nazirinin müavini Macarıstan Ədliyyə Nazirliyinin dövlət katibi Fenets Kondoroşi ilə də görüşmüşdür. Danışıqlarda hər iki ölkənin hüquq mühafizə orqanları arasında əməkdaşlıq, hüquqi sahədə qarşılıqlı yardım məsələləri müzakirə edilmişdir.

İqtisadiyyat və Nəqliyyat Nazirliyinin dövlət katibi Mikloş Mereni ilə görüşdə isə energetika sahəsi də daxil olmaqla, iqtisadi məsələlərin müzakirəsi diqqət mərkəzində olmuşdur.

Görüşlərdə Azərbaycanın Macarıstandakı səfiri Həsən Həsənov iştirak etmişdir.

Dekabrın 1-də XİN-in nümayəndə heyəti Vətənə yola düşmüşdür.

AZƏRBAYCAN RESPUBLİKASI XARİCİ İŞLƏR NAZİRLİYİNİN BƏYANATI

Ermənistan kütləvi informasiya vasitələri tərəfindən yayılmış məlumatlara əsasən, 2006-cı ilin dekabr ayının 10-da Ermənistan Respublikasının yaratdığı qeyri-qanuni hərbi rejim Azərbaycan Respublikasının işğal olunmuş Dağlıq Qarabağ regionunda qondarma "konstitusion referendum" keçirmək niyyətindədir.

Adı çəkilən akt Azərbaycan Konstitusiyası ilə yanaşı, beynəlxalq hüquq norma və prinsiplərini pozur və hal hazırda davam edən sülh prosesinə mane olur. Qondarma "referendum" və onun nəticələrinin heç bir qanuni effekti olmayacaq və Ermənistan silahlı qüvvələrinin Azərbaycanın Dağlıq Qarabağ və digər işğal edilmiş ərazilərində Azər-

baycanlı əhaliyə qarşı həyata keçirdikləri dəhşətli etnik təmizləmə və işğalçılığı barədə kifayət qədər xəbərdar olan beynəlxalq ictimaiyyəti aldada bilməyəcək.

Dağlıq Qarabağ regionu əhalisinin özünü idarəetmə haqqında hər hansı konstitusion sənəd yalnız regionun bütöv erməni və azərbaycanlı icmalarının tam, bərabər və birbaşa iştirak edə biləcəyi son dərəcə dəqiq işlənmiş qanuni, demokratik və sülh prosesi vasitəsi ilə həyata keçirilə bilər.

Azərbaycan heç vaxt Ermənistan tərəfinin həyata keçirdiyi fait accompli (baş vermiş fakt) bədnam təcrübəsinə əsaslanan və regionda davamlı sülh və sabitliyə nail olmaq üçün göstərilən səylərə tamamilə ziddiyyət təşkil edən bu kimi qanunsuz aktlarını tanımayacaq.

Bakı, 02 dekabr 2006-cı il

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ÜMUMDÜNYA TAEKVONDO FEDERASİYASININ PREZİDENTİ ÇANQVON ÇUNU QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 4-də Prezident sarayında Ümumdünya Taekvondo Federasiyasının Prezidenti Çanqvon Çunu qəbul etmişdir.

Respublikamıza ötən səfərindən keçən dövr ərzində ölkəmizdə daha da böyük inkişafın əldə edildiyinin şahidi olduğunu söyləyən qonaq Azərbaycanın idman sahəsində də böyük uğurlar qazandığını bildirdi. Cənab Çanqvon Çu Prezident İlham Əliyevin ümumiyyətlə ölkədə idmanın, o cümlədən taekvondonun inkişafına göstərilən diqqət və qayğıdan məmnunluğunu ifadə etdi.

Dövlətimizin başçısı Ümumdünya Taekvondo Federasiyasının Prezidentinin Azərbaycana səfərinin ölkəmizin idman sahəsində beynəlxalq əlaqələrinin daha da genişləndirilməsi baxımından əhəmiyyətli olduğunu qeyd etdi. Azərbaycanda idmanın, o cümlədən taekvondonun inkişafına hər cür kömək göstərildiyini bildirən Prezident İlham Əliyev ölkə rəhbərliyinin bundan sonra da bu sahədə səylərini əsirgəməyəcəyini vurğuladı.

GUAM XARİCİ İŞLƏR NAZİRLƏRİ ŞURASININ BƏYANATI

GUAM Xarici İşlər Nazirləri Şurası Azərbaycan Respublikasının Dağlıq Qarabağ regionunda 2006-cı ilin 10 dekabr tarixində nəzərdə tutulmuş qondarma "konstitusion referendum"-un keçiriləcəyi ilə əlaqədar öz ciddi narahatlığını bildirir.

Şura xüsusi olaraq qeyd edir ki, qondarma "referendum"-un keçirilməsi Azərbaycan Respublikasının Konstitusiyası ilə yanaşı, beynəlxalq hüququn müvafiq norma və prinsiplərini pozur və məhz bu səbəbdən onun heç bir hüquqi effekti olmayacaq və onun nəticələri qüvvəsiz hesab ediləcək.

Nazirlər vurğulayırlar ki, qondarma "referendum" davam edən sülh prosesinə mane olur və regiondakı fait accompli (baş vermiş faktlar - hüq.) vəziyyətini yaradaraq beynəlxalq ictimaiyyəti aldatmaq məqsədi ilə təşkil edilir.

GUAM Şurası xüsusi olaraq bildirir ki, bu kimi addım ümumbəşəri demokratiya stan-

dartları və dəyərləri, qanunun aliliyi və insan hüquqları ilə ziddiyyət təşkil edir. Dağlıq Qarabağ regionu əhalisinin özünü idarəetmə haqqında hər hansı konstitusion sənəd yalnız regionun erməni və azərbaycanlı icmalarından ibarət bütöv əhalisinin tam, bərabər və birbaşa iştirak edə biləcəyi, qanuni, demokratik və sülh prosesi vasitəsi ilə həyata keçirilə bilər.

GUAM Xarici İşlər Nazirləri Şurası ATƏT-in üzv ölkələrini və digər beynəlxalq təşkilatları bu kimi qeyri-qanuni aktı pisləməyə və Azərbaycanın ərazi bütövlüyü əsasında və beynəlxalq səviyyədə tanınmış sərhədləri çərçivəsində münaqişənin sülh yolu ilə həllinin tapılmasına yönəlmiş davam edən səyləri dəstəkləməyə çağırır.

Brüssel, 04 oktyabr 2006-cı il

RUSİYA FEDERASİYASI HÖKUMƏTİNİN SƏDRİ MİXAİL FRADKOVUN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ

Rusiya Federasiyası hökumətinin sədri Mixail Fradkov dekabrın 4-də Bakıya rəsmi səfərə gəlmişdir.

AZƏRBAYCAN-RUSİYA HÖKUMƏTLƏRARASI DANIŞIQLARI

Dekabrın 4-də Azərbaycanın Baş naziri Artur Rasizadənin və RF hökumətinin sədri Mixail Fradkovun iştirakı ilə Azərbaycan-Rusiya hökumətlərarası danışıqları keçirilmişdir.

Artur Rasizadə rusiyalı həmkarını Azərbaycan Nazirlər Kabinetinin binası önündə səmimiyyətlə qarşıladı.

Əvvəlcə Azərbaycan və Rusiya hökumətlərinin rəhbərləri təkbətək görüş keçirdilər.

Sonra geniş tərkibdə keçirilən Azərbaycan-Rusiya danışıqlarında Artur Rasizadə Azərbaycanda Rusiya İlinin başa çatması ilə bir vaxta düşən səfər barədə dəvətini qəbul etdiyinə görə Mixail Fradkova təşəkkürünü bildirdi.

Azərbaycan hökumətinin başçısı dedi: "Rusiya Azərbaycan üçün strateji tərəfdaşdır və iki ölkə arasında münasibətlər də bu ruhda inkişaf edir". O vurğuladı ki, prezidentlər İlham Əliyevin və Vladimir Putinin tez-tez keçirilən görüşləri, habelə idarələrarası səviyyədə əlaqələr iki ölkə arasında əməkdaşlığın möhkəmlənməsində mühüm amildir. Artur Rasizadənin sözlərinə görə, hökumətlərarası iqtisadi komissiya da fəal işləyir.

O, Azərbaycan-Rusiya iqtisadi əlaqələrinin dinamikasına dair misallar gətirdi. Məsələn, əgər 2005-ci ildə əmtəə dövriyyəsinin səviyyəsi 2004-cü ildəkinə nisbətən 29 faiz yüksəlmişdisə, cari ildə artımın 50 faiz səviyyəsində olacağı gözlənilir.

A.Rasizadə Azərbaycan iqtisadiyyatının uğurlarından danışaraq dedi ki, ÜDM-in artımı keçən ildəkinə nisbətən 36 faiz olmuşdur. O, ölkədə həyata keçirilən sosial proqramların və regional energetika və nəqliyyat layihələrinin vüsətindən də söhbət açdı. Hökumət başçısı regionların kifayət qədər inkişaf etməməsini və bəzi sahələrdəki geriliyi iqtisadi xarakterli problemlər kimi səciyyələndirdi. Artur Rasizadə xüsusi vurğuladı ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınmaması Azərbaycanın başlıca problemi olaraq qalır.

Azərbaycanın Baş naziri iki ölkənin təkcə idarələri arasında deyil, həm də regionları arasında sıx əlaqələr yarandığını xatırladaraq, əmin olduğunu bildirdi ki, Rusiya nümayəndə heyətinin indiki səfəri çoxtərəfli əməkdaşlığın daha da inkişafı üçün yeni stimul olacaqdır.

Mixail Fradkov dedi ki, prezidentlərin görüşləri zamanı əldə edilmiş razılaşmalar uğurla həyata keçirilir və Rusiya hökumətinin vəzifəsi azərbaycanlı həmkarları ilə işgüzar əlaqələri dəstəkləməkdən, ikitərəfli münasibətləri Rusiyanın və Azərbaycanın xeyrinə yönəltməkdən ibarətdir. O, ölkələrimizin bütün sahələrdə fəal inkişaf edən əlaqələrini yüksək qiymətləndirdi. Rusiya hökuməti sədrinin sözlərinə görə, qara və əlvan metallurgiyada, maşınqayırma və yüksək texnologiyalar sahəsində qarşılıqlı surətdə faydalı əlaqələri gücləndirmək lazımdır.

M.Fradkov bildirdi ki, Azərbaycanda Rusiya İli Azərbaycan-Rusiya münasibətlərinin daha da dərinləşməsi üçün əlverişli şərait yaratmışdır. Azərbaycanda gələn il keçiriləcək Moskva Günləri də bu nəcib işə xidmət edəcəkdir. O, Rusiya İli tədbirlərinin yaxşı təşkilinə görə Azərbaycan tərəfinə təşəkkürünü bildirdi.

SƏNƏDLƏRİN İMZALANMASI

Geniş tərkibdə danışıqlar başa çatdıqdan sonra hökumətlərarası sənədlər imzalanmışdır.

Azərbaycan Respublikası hökuməti ilə Rusiya Federasiyası hökuməti arasında ikitərəfli hərbi-texniki əməkdaşlığın gedişində istifadə olunan və əldə edilən əqli fəaliyyətin nəticələrinin qarşılıqlı hüquqi mühafizəsi haqqında sazişi Azərbaycanın müdafiə naziri Səfər Əbiyev və Rusiyanın ədliyyə naziri Vladimir Ustinov imzaladılar.

Azərbaycan Respublikası hökuməti ilə Rusiya Federasiyası hökuməti arasında Fiziki şəxslərin poçt baratlarının mübadiləsi sahəsində əməkdaşlıq haqqında sazişi Azərbaycanın rabitə və informasiya texnologiyaları naziri Əli Abbasov və Rusiyanın informasiya texnologiyaları və rabitə naziri Leonid Reyman imzaladılar.

Azərbaycan Respublikası və Rusiya Federasiyası arasında 2007-2009-cu illər üçün humanitar sahədə əməkdaşlıq proqramını Azərbaycan xarici işlər nazirinin müavini Xələf Xələfov və Rusiya xarici işlər nazirinin müavini Qriqori Karasin imzaladılar.

Azərbaycan Milli Bankı ilə Rusiya Mərkəzi Bankı arasında Kredit təşkilatlarının fəaliyyətinə bank nəzarəti haqqında sazişi Azərbaycan Milli Bankının sədri Elman Rüstəmov və Rusiya Mərkəzi Bankı sədrinin müavini Oleq Mojayskov imzaladılar.

* * *

Sənədlərin imzalanması başa çatdıqdan sonra iki ölkənin hökumət rəhbərləri jurnalistlərin suallarına cavab verdilər.

- Bugünkü danışıqlar zamanı nə kimi razılaşmalar əldə edildi və siz onlardan hansılarını iki ölkənin ticarət-iqtisadi münasibətlərinin inkişafı üçün əsas adlandıra bilərsiniz?

MİXAİL FRADKOV: Biz kifayət qədər məsələlər müzakirə etdik. O cümlədən neft-qaz sahəsində, elektroenergetika əməkdaşlığı, maşınqayırmada, metallurgiyada, sənaye kooperasiyasında, yüksək texnologiyalar sahəsində əlaqələri genişləndirməyin

mümkünlüyünü. Bildirdik ki, yaxşı perspektivlərimiz var və biz enerji bazarlarında bir-birimizi tamamlaya, hərbi-texniki əməkdaşlıq da daxil olmaqla, sənayedə əlaqələri dərinləşdirə bilərik. Özü də, bu, təkcə hərbi əməkdaşlıq sahəsi kimi deyil, həm də yüksək texnologiyalar sahəsində əməkdaşlıq kimi nəzərdə tutulmalıdır.

Bu gün imzalanmış sənədlər müqavilə-hüquqi bazanı möhkəmləndirir, bu zəmində uğurlu və səmərəli əməkdaşlığı davam etdirməyə imkan verir. Buraya həm hərbi-texniki əməkdaşlıq sahəsində intellektual mülkiyyətin qorunması, həm də kommunikasiyalar, poçt rabitəsi və bank sahəsində razılaşmalar daxildir. Kredit təşkilatlarına nəzarət haqqında saziş imzalamaqla, əslində, banklarımızın əməkdaşlığını dərinləşdiririk. Bütün bunlar nəinki ildən-ilə artan və bu il 1,5 milyard dollara yaxınlaşmış ticarətin həcmini genişləndirmək üçün, həm də siyasi məsələlərdə, ticarət-iqtisadi və humanitar sahələrdə əməkdaşlığın keyfiyyətcə yeni səviyyəsinə çıxmaq üçün yaxşı zəmin yaradır.

2005-ci ildə Rusiyada Azərbaycan İli və 2006-cı ildə Azərbaycanda Rusiya İli keçirilməsinin nəticələri mədəniyyət, incəsənət, ədəbiyyat sahəsində mövqelərin yaxınlaşdığını təsdiq edir. Bu gün biz həmkarım Artur Rasizadə ilə Azərbaycanda Rusiya İlinin bağlanışı mərasimində iştirak edəcəyik.

- İkitərəfli münasibətlərin səviyyəsini və gələcək perspektivlərini necə qiymətləndirirsiniz?

MİXAİL FRADKOV: İkitərəfli münasibətlərin səviyyəsi kifayət qədər yüksəkdir, bütün istiqamətlərdə dinamik inkişaf edir, perspektivlər yaxşıdır. Hökumətlərarası komissiya işləyir və icra hakimiyyəti səviyyəsində əlaqələndirməni həyata keçirir. İkitərəfli münasibətlərin perspektivləri, regional səviyyədə fəaliyyətimizin əlaqələndirilməsi ümidvericidir.

- Məlum olduğu kimi Rusiya Prezidentinin Azərbaycana səfəri zamanı dövlətlərarası münasibətlərin yeni səviyyəyə qaldırılmasının zəruriliyi barədə razılıq əldə edilmişdir. Sizin fikrinizcə, bu istiqamətdə irəliləyişə nail olunubmu, Azərbaycan məqsədə çatmaq üçün hansı tədbirləri görür?

ARTUR RASİZADƏ: Bizim üçün Rusiya ilə münasibətlər strateji və tərəfdaşlıq xarakteri daşıyır və onların səviyyəsini yüksəltmək üçün bütün sahələrdə iş görülür. Siyasi sahədə ölkə rəhbərlərinin müntəzəm səfərləri, görüşləri keçirilir. Bu gün Rusiyadan hökumət sədrinin başçılığı ilə nüfuzlu nümayəndə heyəti gəlmişdir. Qısaca qiymət verməli olsaq, bizim münasibətlərimiz digər dövlətlər üçün nümunə ola bilər. İki ölkə arasında bütün sahələrdə mehriban qonşuluq, dostluq münasibətləri yaranmışdır. Mixail Yefimoviç ilə bu barədə fikir mübadiləsi apardıq. Şükürlər olsun ki, bizim Rusiya ilə, demək olar ki, problemimiz yoxdur, Allah eləsin, bundan sonra da olmasın. Hökumətlər qarşısında qoyulan vəzifə uğurla yerinə yetirilir. Perspektivlərə gəldikdə isə, bunlar böyükdür. Mən Rusiyanın və Azərbaycanın iqtisadiyyatlarının artım sürətini nəzərdə tuturam. Bu il Azərbaycanda ÜDM-in həcmi 36 faiz, dörd ilə isə iki dəfə artacaqdır. Yəni inkişaf qarşılıqlı əlaqələri, ortaya çıxan məsələlərin həllini də tələb edir. Təkcə son bir neçə ildə biz Rusiyadan 5 tanker və bir quru yük gəmisi almışıq. Sovet dövründə bunu etmək mümkün deyildi. Bu, yalnız bir misaldır. Mən Rusiya hökumətinin sədri ilə razıyam ki, biz təkcə razılığa gəldiyimiz və nəticələr əldə etdiyimiz sahələrdə əməkdaşlığı inkişaf etdirməklə yanaşı, qarşılıqlı əlaqələrin yeni sahələrini də axtarıb tapmalıyıq.

Bunlar asanlıqla həll olunan məsələlər deyil, lakin ölkələrimiz arasında yaranmış tarixi münasibətlərimiz zəminində inkişaf perspektivlərini əsas götürsək, həyat özü bizi irəliləməyə vadar edir. Buna görə də mən münasibətlərimizi çox yüksək qiymətləndirirəm və onları daha yüksək səviyyəyə qaldırmaq üçün öz tərəfimizdən lazım olan bütün tədbirləri görəcəyik.

- Azərbaycana qaz verilməsi və onun qiyməti məsələsi necə həll olunur?

MİXAİL FRADKOV: Biz qarşılıqlı əlaqələrimizin bu sahəsində işlərin vəziyyətindən razıyıq. Siz istər Rusiyanın daxili bazarı, istərsə də ixrac üçün qazın qiymətlərinə dair qəbul edilən qərarlardan xəbərdarsınız. Biz bir neçə il ərzində ixrac üzrə və Rusiyanın daxili bazarında qaz sahəsində bərabər gəlir səviyyəsinə çıxmağı planlaşdırırıq. Bu isə elektrik enerjisinin qiymətlərinə təsir göstərəcəkdir. Bu, Azərbaycanla ikitərəfli münasibətlərimizdə belə məsələlərin dəqiqləşdirilməsini də istisna etmir. Məlumdur ki, biz qazın min kubmetrinin qiymətini şirkətlər səviyyəsində 230 dollaradək artırmaq barədə təklif irəli sürmüşük. Bununla əlaqədar göndərilən qazın həcmi də dəqiqləşdirilir. Azərbaycanda yeni yataq işə salınır. Biz buna çox şadıq, "Şahdəniz" yatağında qaz hasilatının həcmi bu ilin sonu və gələn ilin əvvəlində artırılacaqdır. Biz onu əsas tuturuq ki, Azərbaycan öz tələbatını öz hasilatı ilə təmin edə bilər. Bu, ölkələrimiz arasında həmin sahədə əməkdaşlığın genişlənməsini qətiyyən istisna etmir, əksinə bunu dərinləşdirməyə, üçüncü ölkələrin bazarlarında, regional bazarlarda səyləri birləşdirməyin mümkünlüyünü nəzərdən keçirməyə, Azərbaycanın yeraltı qaz anbarlarının mövcud potensialından istifadə etməyə imkan verir.

ARTUR RASİZADƏ: Biz "Qazprom" qarşısında öhdəliklərimizi həmişə yerinə yetirmişik. Alınan qazın haqqının ödənilməsi cədvəlləri bir dəfə də pozulmayıbdır. Biz "Qazprom"dan qazın həcminə dair təklif almışıq - söhbət min kubmetri 230 dollar olmaqla, 1,5 milyard kubmetr qaz göndərilməsindən gedir. Cari ildə bu rəqəm 4,5 milyard kubmetr təşkil edəcəkdir. Təklifə baxılır. Biz qazın həcminin və qiymətinin necə olacağını hələlik deyə bilmərik. Demək istəyirəm ki, qazın sahibi Rusiyadır. O, öz qazını qiymətqoymanın dünyadakı meyilləri bazasında təklif edir. Biz Rusiyanın mövqeyini başa düşməliyik. Başa düşmək bir şeydir, kimin nə istədiyi isə başqa şeydir. Təbii ki, mətbuatda və ictimaiyyətdə sual doğacaq ki, nə üçün qazın qiyməti belə sürətlə qalxır? Bəzi ölkələr üçün istisna mümkündürmü? Təkrar edirəm, qazın sahibi Rusiyadır. Nə kimi qərar qəbul ediləcəyini gələcək danışıqlar prosesi göstərəcəkdir. Müxtəlif ölkələr üçün qiymət məsələsi də başadüşüləndir. Biz Mixail Yefimoviçlə fikir mübadiləsi apardıq və mən bildirdim ki, biz yanacağın dünya qiymətindən danışarkən, yanacağı dünya qiymətlərinə alan ölkələrdə texnoloji proseslərin səviyyəsini nəzərə almaq lazımdır. Etiraf etmək lazımdır ki, təəssüflər olsun, biz belə səviyyəyə çıxmamışıq. Mən qənaətli texnologiyaları, bu və ya digər məhsulun istehsalına çəkilən xərcləri nəzərdə tuturam.

Azərbaycan öz inkişafının, o cümlədən də yanacaq-energetika sahəsində inkişafının elə bir səviyyəsindədir ki, istər əhalinin, istərsə də iqtisadiyyatın enerji ehtiyatlarına olan bütün tələbatını ödəməyə imkanımız var.

- Azərbaycan nə vaxt Rusiyadan qaz almadan keçinə bilər? O, öz tələbatını özü nə vaxt tam ödəyəcəkdir?

ARTUR RASİZADƏ: Gələn ilin yanvarın 1-dən.

- Siz Bakı-Novorossiysk boru kəməri ilə neft ixracını davam etdirəcəksinizmi?

ARTUR RASİZADƏ: Biz bu neft kəmərinin işləməsində maraqlıyıq. Amma bir məsələni nəzərə alın. İndi o, neftin Supsaya, Qara dəniz sahilinə nəqli ilə müqayisədə 5 dəfə baha başa gəlir. Bu, əvvəlcədən şərtləşdirilmişdir və biz həmin tarifə bu günədək əməl edirik.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV RUSİYA HÖKUMƏTİNİN SƏDRİ MİXAİL FRADKOVU QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 4-də Prezident sarayında Rusiya Federasiyası hökumətinin sədri Mixail Fradkovu və onun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Azərbaycan dövlətinin başçısı İLHAM ƏLİYEV qonaqları salamlayaraq dedi:

- Hörmətli Mixail Yefimoviç!

Hörmətli qonaqlar!

Sizi Azərbaycanda salamlamağıma çox şadam. Şadam ki, siz Azərbaycanda Rusiya İlinin bağlanışı ilə əlaqədar səfərə gəlmisiniz.

Rusiyada Azərbaycan İli kimi, bu il də, ümumən, çox uğurlu keçdi. Ötən iki ildə ölkələrimiz və xalqlarımız daha da yaxın oldular. Bu il bizə əməkdaşlığın imkanlarını daha yaxşı qiymətləndirməyə imkan verdi. Mədəni proqramlar, nümayəndə heyətlərinin mübadiləsi, biznesin, ticarət əlaqələrinin inkişafı çərçivəsində bir çox tədbirlər keçirildi. Bütün bunlar ikitərəfli münasibətlərimizin necə möhkəm olduğunu bir daha göstərir. Mən bu yaxınlarda Moskvada olarkən Rusiya Prezidenti ilə görüşümdə dedim ki, Rusiya İli formal olaraq başa çatsa da, əminəm ki, o, digər formatda sonrakı illər ərzində də davam edəcəkdir. Sizin ölkəmizə belə mötəbər nümayəndə heyəti ilə gəlməyiniz də ikitərəfli əməkdaşlığın çox böyük potensialı olduğunu göstərir.

Ticarət münasibətlərimiz də inkişaf edir, əmtəə dövriyyəsi yüksək sürətlə artır, əslində, iki ildə iki dəfə çoxalmışdır. Ümidvarıq ki, bu müsbət meyillər gələcəkdə də artacaq, inkişaf edəcək və bu, istər ölkələrimiz arasında ikitərəfli münasibətlərin möhkəmlənməsinə, istərsə də regionumuzda ümumən müsbət proseslərin inkişafına təkan verəcəkdir.

Bir daha xoş gəlmisiniz. Ümidvaram ki, səfəriniz faydalı və xoş olacaq, buna hava da kömək edir. Bu gün gəlişinizlə əlaqədar belə günəşli, demək olar, yaz havası var. Ümidvaram ki, bütün bunlar əlaqələrimizin daha da inkişafına kömək edəcəkdir.

Rusiya Federasiyası hökumətinin sədri MİXAİL FRADKOV səmimi qəbula görə təşəkkür edərək dedi:

- Hörmətli İlham Heydər oğlu!

Sizinlə görüşmək imkanına görə, burada, Azərbaycan torpağında səmimi, mehribanlıqla qarşılandığımıza görə Sizə təşəkkür edirəm. İlk növbədə, Rusiya Prezidenti Vladimir Putinin salamını yetirmək istərdim. O, Sizinlə olan sonuncu söhbətlərini və noyabrın əvvəlində keçirilən görüşü xatırlayır. Demək istərdim ki, əldə olunmuş razılaşmalar yə-

rinə yetirilir. Biz hər şeyi nəzarətdə saxlayırıq. Bu gün həmkarım Artur Rasizadə ilə təkbətək görüşdə və nümayəndə heyətlərinin iştirakı ilə görüşdə Rusiya ilə Azərbaycan arasında əməkdaşlığın ümdə məsələləri müzakirə olundu.

Məmnunluğumu bildirmək istərdim ki, münasibətlərimiz, ilk növbədə, mənim məsuliyyət daşıdığım ticarət-iqtisadi münasibətlər uğurla və dinamik inkişaf edir, bu, siyasi əlaqələrin və humanitar sahədə əməkdaşlığın səmərəli inkişafına təkan verir. Rusiyada Azərbaycan İlinin və Azərbaycanda Rusiya İlinin keçirilməsi bir-birini tamamlayan hadisələrdir, bir-biri ilə qarşılıqlı surətdə bağlıdır və siyasi, iqtisadi və humanitar münasibətlərin daha da inkişafına kömək edir. Bu gün həmkarımla biz Azərbaycanda Rusiya İlinin təntənəli bağlanışı mərasimini keçirəcəyik. Lakin biz bunu bağlamırıq, əksinə, humanitar əməkdaşlığın inkişafına əlavə təkan veririk. Bu gün biz 2009-cu ilədək humanitar əməkdaşlığın inkişafı haqqında birgə sənədlər imzaladıq, Moskvada Bakı, Bakıda isə Moskva günləri keçirməyi planlaşdırırıq. Bir sözlə, bütün səviyyələrdə əlaqələr genişlənir və dərinləşir, biz əməkdaşlığın, faktik olaraq, keyfiyyətcə yeni səviyyəsinə keçirik.

Bu gün hər iki tərəf əlaqələri inkişaf etdirmək, onları neft, qaz, elektroenergetika sahələri ilə məhdudlaşdırmamaq, sənayedə, iqtisadiyyatın başqa sahələrində kooperasiyanın yeni səviyyəsinə çıxmaq arzusunda olduğunu bildirdi. Biz bunu ikitərəfli münasibətlərin inkişafı, ümumən, regional və qlobal problemlərin həlli naminə etməyə qadirik.

İLHAM ƏLİYEV: Sağ olun. Mənim çoxlu salamımı və ən xoş arzularımı Vladimir Vladimiroviçə çatdırın. Moskvadakı görüşümüz həmişəki kimi çox konstruktiv, dostluq və səmimilik şəraitində keçdi. İkitərəfli əməkdaşlığın bir çox mühüm məsələlərini müzakirə etdik. Biz bütün istiqamətlərdə müsbət irəliləyiş olduğunu görürük.

OPERA VƏ BALET TEATRINDA AZƏRBAYCANDA RUSİYA İLİNİN TƏNTƏNƏLİ BAĞLANIŞ MƏRASİMİ KEÇİRİLDİ

Dekabrın 4-də Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrında Azərbaycanda Rusiya İlinin təntənəli bağlanış mərasimi keçirilmişdir.

Azərbaycan Prezidenti İlham Əliyev mərasimdə iştirak etmişdir. Salona toplaşanlar dövlətimizin başçısını hərarətlə qarşıladılar.

Mərasimi Rusiya hökumətinin sədri Mixail Fradkov açaraq dedi ki, son iki il Rusiya-Azərbaycan münasibətləri tarixində xüsusilə mühüm illərdir. Milli İllər mübadiləsi ideyasını prezidentlər İlham Əliyev və Vladimir Putin irəli sürmüşlər. Bu İllərin keçirilməsi çoxəsrlik dostluq və mehriban qonşuluq ənənələrinin möhkəmlənməsinə Rusiya və Azərbaycan xalqlarının dərin və səmimi marağının parlaq təzahürü olmuşdur. Həyata keçirilmiş tədbirlər iki dövlətin zəngin potensialını nümayiş etdirdi. Gələcək çoxşaxəli qarşılıqlı əlaqələrin daha da genişlənməsi üçün bu potensialdan istifadə etmək lazımdır.

Mixail Fradkov Azərbaycanda Rusiya İlinə yekun vuraraq dedi: "Biz dost Azərbaycan xalqına müasir Rusiyanın maksimum tam mənzərəsini təqdim etməyə, onun siyasi, iqti-

sadi, humanitar sahələrdə nailiyyətlərindən danışmağa çalışdıq". M.Fradkov xatırlatdı ki, İl çərçivəsində bir sıra mühüm və maraqlı tədbirlər həyata keçirildi. Bu tədbirlərin müvəffəqiyyəti, xeyli dərəcədə Azərbaycanda rus mədəniyyətinə, dilinə və ədəbiyyatına böyük maraqla şərtlənmişdir. Bu, Rusiya Prezidenti Vladimir Putinin təşəbbüsü və Azərbaycan dövlətinin başçısı İlham Əliyevin himayədarlığı ilə Bakıda keçirilmiş Rus kitabının birinci beynəlxalq festivalının gedişində də öz təsdiqini tapmışdır. Rusiya İli çərçivəsində Azərbaycan tamaşaçıları dünya şöhrətli yaradıcılıq kollektivləri ilə görüşmək imkanı qazandılar. İdman, gənclər və qeyri-hökumət təşkilatlarının qarşılıqlı əlaqələri gücləndi.

RF hökumətinin başçısı Rusiya İlinə istər öz ölkəsinin, istərsə də Azərbaycan tərəfinin göstərdiyi informasiya dəstəyini də yüksək qiymətləndirdi. Vurğuladı ki, milli İllərin keçirilməsi zamanı qarşıya qoyulmuş məqsədlərə - birbaşa insani ünsiyyət yaradılması, iki ölkənin xalqları arasında qarşılıqlı anlaşma və dostluğun möhkəmlənməsi məqsədlərinə nail olunmuşdur. O, Azərbaycan Prezidentinə, Baş nazirə və ölkəmizdə Rusiya İlinin belə yüksək səviyyədə keçirilməsi üçün səylərini əsirgəməyənlərə təşəkkür etdi. Mixail Fradkov dedi: "Biz milli İllər çərçivəsində yaranmış dostluq və əməkdaşlıq mühitinin gələcəkdə də saxlanılması və başqa formatda davam etdirilməsi barədə Azərbaycan Prezidentinin ideyasını alqışlayırıq". O, Azərbaycan xalqına firavanlıq, sülh və tərəqqi, Azərbaycan-Rusiya əlaqələrinə isə yeni-yeni nailiyyətlər və perspektivlər arzuladı.

Azərbaycanın Baş naziri Artur Rasizadə çıxışında bildirdi ki, Azərbaycan və Rusiya prezidentləri İlham Əliyev və Vladimir Putinin Rusiyada Azərbaycanda Rusiya İlinin keçirilməsi barədə təklifi iki ölkənin ictimaiyyəti və yaradıcı kollektivləri tərəfindən geniş dəstəklənmişdir. A.Rasizadə dedi: "Ötən il biz Rusiyada Azərbaycan İlinin uğurla keçməsinin şahidi olduq. Bu gün isə böyük razılıq hissi ilə qeyd edirik ki, Azərbaycanda Rusiya İli ölkələrimiz və xalqlarımız arasında hərtərəfli əməkdaşlığın genişləndirilməsinə xidmət edən parlaq, əlamətdar hadisələrlə dolu tədbir olmuşdur. Fevralın 21-də Bakıda Rusiya İlinin təntənəli açılışı zamanı iki ölkə prezidentlərinin verdikləri ümumi əhval-ruhiyyə ilə başlanan Azərbaycanda Rusiya İli respublikamızın həyatında mühüm ictimai-siyasi hadisəyə çevrilmişdir.

Artur Rasizadə vurğuladı ki, Azərbaycan ilə Rusiyanı qədim tarixə malik qarşılıqlı münasibətlər birləşdirir. Xalqlarımız bütün dövrlərdə bir-birinə səmimi hisslər bəsləmişlər və çox mühümdür ki, bizi birləşdirən müsbət nə varsa, qorunub saxlanmış və inkişaf etdirilmişdir. İki ölkə arasındakı münasibətlər ilbəil daha da dinamik və məzmunlu xarakter kəsb edir. Dövlətlərimiz münasibətlərini strateji tərəfdaşlıq ruhunda qurur ki, bu da qonşular arasında əməkdaşlığın necə olmasına yaxşı nümunədir.

Artur Rasizadə Azərbaycanda Rusiya İlinin keçirilməsində fəal iştirakına görə Rusiya tərəfinə təşəkkürünü bildirdi.

Rəsmi hissədən sonra Rusiya balet ustalarının iştirakı ilə böyük konsert oldu. Konsert proqramına rus və Qərbi Avropa bəstəkarlarının baletlərindən parçalar daxil edilmişdi. Böyük Teatrın və Mariya teatrının məşhur artistlərinin hər bir çıxışını hərarətlə qarşılayan tamaşaçılar müasir rus balet məktəbinin parlaq nümayəndələrinin ustalığına heyranlıqlarını sürəkli alqışlarla ifadə etdilər.

RUSİYA HÖKUMƏTİ SƏDRİNİN ŞƏRƏFİNƏ

Dekabrın 4-də "Ulduz" sarayında Azərbaycan Prezidenti İlham Əliyevin adından Rusiya hökumətinin sədri Mixail Fradkovun şərəfinə qəbul təşkil edilmişdir.

Azərbaycan Prezidenti İlham Əliyev və RF hökumətinin sədri Mixail Fradkov qəbulda nitq söylədilər.

Dövlətimizin başçısı Rusiya nümayəndə heyətinin üzvlərini salamlayaraq vurğuladı ki, 2005-ci ildə Rusiyada Azərbaycan İli kimi, Azərbaycanda Rusiya İli də rəngarəng, parlaq və zəngin keçdi. Prezident İlham Əliyev dedi: "Bu gün baxdığımız gözəl konsert bu İlin layiqli sonluğudur". O bildirdi ki, bütün il ərzində tədbirlər keçirildi, onlar iki ölkənin xalqlarını yaxınlaşdırdı, fəal siyasi dialoq getdi, iqtisadi əməkdaşlıq, inteqrasiya əlaqələri inkişaf etdi. Dövlətimizin başçısı dedi: "Söz yox ki, bu İl qarşılıqlı əməkdaşlığın potensialını daha da inkişaf etdirdi". O, "dövlətlər arasında əməkdaşlığın gələcəkdə də qarşılıqlı hörmətə, qarşılıqlı faydaya və qarşılıqlı yardıma əsaslanması" üçün iki ölkənin, xalqların, regionda sülh və təhlükəsizlik naminə Azərbaycan və Rusiyanın strateji tərəfdaşlığının birgə səylərlə daha da inkişaf edəcəyinə ümid bəslədiyini söylədi.

Prezident İlham Əliyev vurğuladı ki, Azərbaycanda Rusiya İli iki ölkə xalqlarının və rəhbərliyinin əməkdaşlığı inkişaf etdirmək iradəsini bir daha göstərdi. Dövlətimizin başçısı dedi: "Malik olduğumuz nəticələr - ikitərəfli ticarətin genişlənməsi, əmtəə dövriyyəsinin artması, gələcək iqtisadi əməkdaşlıq üçün çox böyük əhəmiyyəti olacaq məsələlərin həlli - bunlar hamısı münasibətlərimizin yalnız üzdə olan hissəsidir". O əmin olduğunu bildirdi ki, gələcək hadisələr də ikitərəfli əlaqələrin inkişafı ilə əlamətdar olacaqdır. Azərbaycan Prezidenti dedi: "Ürəklərimizdə Rusiya İli sona yetmədi, o, davam edəcək və əminəm ki, xalqlarımız arasında daha sıx qarşılıqlı əlaqəyə gətirib çıxaracaqdır".

Rusiya hökumətinin başçısı Mixail Fradkov səmimi qəbula görə Azərbaycan Prezidentinə və azərbaycanlı həmkarına təşəkkür edərək dedi: "Biz hiss edirik ki, dostlarımız arasındayıq. Belə demək üçün kifayət qədər çoxlu əsas var. Bu, təkcə səmərəli əməkdaşlığımızın deyil, həm də münasibətləri bütün istiqamətlərdə inkişaf etdirmək perspektivlərini görməyin nəticəsidir". Onun fikrincə, Rusiyada Azərbaycan İlini tamamlayan Azərbaycanda Rusiya İli ikitərəfli əməkdaşlığı gələcəkdə də inkişaf etdirmək üçün yaxşı zəmindir.

M.Fradkov prinsipial razılaşmaları rəhbər tutaraq və lazımi ikitərəfli potensiala malik olaraq, bütün sahələrdə - siyasi, iqtisadi, mədəni sahələrdə əlaqələri genişləndirmək və dərinləşdirmək yolu ilə irəliləmək üçün qarşılıqlı niyyət olduğunu bildirdi. Rusiya hökuməti sədrinin sözlərinə görə, bu niyyətlər Azərbaycanın Baş naziri ilə danışıqlarda da, ölkə Prezidenti ilə görüşdə də öz təsdiqini tapdı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV TÜRKİYƏ JANDARMA QÜVVƏLƏRİNİN BAŞ KOMANDANI İŞIK KOŞANERİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 5-də Prezident sarayında Türkiyə Jandarma Qüvvələrinin Baş komandanı İşık Koşaneri qəbul etmişdir.

Azərbaycan ilə Türkiyə arasında bütün sahələrdə dostluq və qardaşlıq münasibətlərinin uğurla inkişaf etdiyini vurğulayan dövlətimizin başçısı iqtisadi, siyasi, hərbi sahələrdə ölkələrimizin bir-birinə dəstək verdiyini bildirdi.

Türkiyəyə builki səfərlərini məmnunluqla xatırlayan Prezident İlham Əliyev, eyni zamanda, Türkiyənin rəsmi nümayəndə heyətlərinin mütəmadi olaraq ölkəmizə səfər etmələrini əlaqələrimizin inkişafı üçün yaxşı nümunə olduğunu vurğuladı. Dövlətimizin başçısı dedi ki, bu il ölkələrimizin tarixində böyük bir hadisə baş verib - Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft boru kəməri işə salınıb ki, bu da Azərbaycan və Türkiyə xalqları üçün, habelə bölgədə sülhün, sabitliyin, firavanlığın əldə olunması üçün böyük əhəmiyyət daşıyır.

Prezident İlham Əliyev respublikamızın daxili qoşunları ilə Türkiyə Jandarma Qüvvələri arasında əməkdaşlığın möhkəmlənməsinin ikitərəfli münasibətlərimizdə əhəmiyyətini vurğuladı. Türkiyə Jandarma Qüvvələrinin böyük təcrübəyə malik olduğunu xatırladan dövlətimizin başçısı, Azərbaycanın daxili qoşunlarının da təcrübə qazandığını qeyd etdi.

Cənab İşık Koşanerin səfərinin Azərbaycanın Daxili Qoşunları ilə Türkiyənin Jandarma Qüvvələri arasında təcrübə mübadiləsi baxımından çox əhəmiyyətli olduğunu diqqətə çatdıran Prezident İlham Əliyev bu səfərin səmərəli keçəcəyinə əminliyini bildirdi.

Azərbaycan və Türkiyə silahlı qüvvələri, o cümlədən Daxili Qoşunlarla Jandarma Qüvvələri arasında illərdən bəri uğurla davam edən əməkdaşlıqdan razılıqla bəhs edən cənab İşık Koşaner bu işlərdə şəxsən iştirak etməsindən böyük məmnunluq duyduğunu söylədi. Bu əməkdaşlığın ölkələrimiz arasında əlaqələrin möhkəmlənməsinə xidmət etdiyini vurğulayan qonaq Azərbaycanda bu sahədə görülən işlərlə yaxından tanış olmaq üçün indiki səfərin yaxşı imkan yaratdığını və bundan böyük məmnunluq duyduğunu bildirdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV FRANSA SAHİBKARLAR BİRLİYİNİN (MEDEF) QAFQAZ VƏ ORTA ASİYA KOMİTƏSİNİN ÜZVLƏRİNDƏN İBARƏT NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 5-də Prezident sarayında Fransa Sahibkarlar Birliyinin (MEDEF) Qafqaz və Orta Asiya komitəsinin üzvlərindən ibarət nümayəndə heyətini qəbul etmişdir.

MEDEF-ə Fransanın aparıcı şirkətlərinin və maliyyə strukturlarının nümayəndələri daxildir.

Dövlətimizin başçısı Azərbaycanda ictimai-siyasi sabitliyin mövcud olduğunu vurğuladı, ölkəmizdə gedən iqtisadi inkişaf proseslərindən bəhs etdi, sənaye istehsalının sürətlə artdığını bildirdi. Prezident İlham Əliyev dedi ki, hazırda Azərbaycan ümumi daxili məhsulun, o cümlədən sənaye istehsalının artım sürətinə görə dünyada lider dövlətdir. Bu, Avropa Yenidənqurma və İnkişaf Bankının son hesabatında da qeyd edilmişdir. Ölkəmizdə nəqliyyat sektoru sürətlə inkişaf edir, Azərbaycan Avropa ilə Asiya arasında mühüm nəqliyyat dəhlizidir. Qeyri-neft sektorunun inkişafı, sosial sahəyə diqqət bizim siyasətimizin prioritet istiqamətlərindən biridir.

Azərbaycan ilə Fransa arasında ikitərəfli münasibətlərdən danışan Prezident İlham Əliyev dedi ki, ölkələrimizin iqtisadi əlaqələri uğurla inkişaf edir, Fransanın aparıcı şirkətlərinin təmsilçilərinin daxil olduqları nümayəndə heyətinin Bakıya səfəri də ölkəmizə olan marağın yaxşı nümunəsidir. Dövlətimizin başçısı Fransaya səfəri zamanı MEDEF-in üzvləri qarşısında çıxış etdiyini də xatırlatdı.

Prezident İlham Əliyev xüsusi vurğuladı ki, Azərbaycanda xarici iş adamları, şirkətlər üçün hər cür şərait yaradılmışdır, ölkəmizdə əlverişli sərmayə mühiti vardır. Adambaşına düşən xarici sərmayələrin həcminə görə Azərbaycan ilk yerlərdən birini tutur. İnfrastrukturun inkişafı üçün bir sıra layihələr həyata keçirilir və bu işlər ölkəmizin öz imkanları hesabına görülür. Dövlət İnvestisiya Şirkətinin yaradılması ölkəmizə xarici sərmayədarların daha geniş cəlb olunması üçün əlavə imkanlar açacaqdır. Azərbaycanın təşəbbüsü və bilavasitə iştirakı ilə qlobal enerji layihələri uğurla həyata keçirilir. Son üç ildə ölkənin dövlət büdcəsi dörd dəfə artmışdır.

Dövlətimizin başçısı gələcəkdə Azərbaycanda yeni texnologiyaların tətbiqi baxımından böyük işlər görüldüyünü bildirərək dedi ki, bu, sənayenin inkişafı üçün yeni imkanlar yaradacaqdır.

Fransa şirkətlərinin nümayəndələri ölkənin iş adamlarının Azərbaycanda energetika, maliyyə, kənd təsərrüfatı və sair sahələrdə uğurlu fəaliyyətlərini xatırlatdılar, yaradılmış əlverişli şəraitə görə minnətdarlıq etdilər. Qonaqlar iqtisadi əlaqələrin daha da genişləndirilməsi üçün konkret layihələr barədə də danışdılar.

Prezident İlham Əliyev görüş iştirakçılarını maraqlandıran suallara ətraflı cavab verdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV TÜRKİYƏNİN "ALARKO" ŞİRKƏTİNİN PREZİDENTİ İSHAQ ALATONU QƏBUL ETMİŞDİR

Azərbaycan Prezidenti İlham Əliyev dekabrın 6-da Prezident sarayında Türkiyənin "Alarko" şirkətinin prezidenti İshaq Alatonu qəbul etmişdir.

Azərbaycana gəlməyindən böyük fərəh hissi duyduğunu bildirən qonaq xalqımızın ümummilli lideri Heydər Əliyev ilə görüşlərini daim məmnunluqla xatırladığını, bu görüşlərin onda böyük təəssürat yaratdığını söylədi.

Azərbaycanda gedən sürətli inkişafı görməkdən qürur duyduğunu nəzərə çarpdıran İshaq Alaton xarici sərmayədarlar üçün Azərbaycanda gözəl iş şəraiti yaradıldığını bildirdi.

Dost və qardaş ölkələrimiz arasında bütün sahələrdə əlaqələrin uğurla inkişaf etdiyini vurğulayan Prezident İlham Əliyev Azərbaycanda çoxlu sayda Türkiyə şirkətinin və iş adamlarının fəaliyyət göstərdiyini nəzərə çarpdırdı. Dövlətimizin başçısı Azərbaycan-Türkiyə əməkdaşlığının daim inkişaf edəcəyinə, möhkəmlənəcəyinə əmin olduğunu söylədi.

ATƏT-İN NAZİRLƏR ŞURASI DAĞLIQ QARABAĞA DAİR BƏYANAT QƏBUL ETMİŞDİR

Dekabrın 5-də Brüsseldə Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatının (ATƏT) Xarici İşlər Nazirləri Şurasının iclasında Dağlıq Qarabağa dair bəyanat qəbul edilmişdir. ATƏT-in üzvü olan 56 ölkənin bəyəndiyi bəyanatda deyilir:

"ATƏT-in Minsk qrupu həmsədrlərinin səyləri və ATƏT-in hazırkı sədrinin dəstəyi ilə Dağlıq Qarabağ münaqişəsinin həll edilməsi istiqamətində 2006-cı il ərzində aparılmış danışıqlar nəticəsində tərəflərin əsas prinsiplər üzrə razılığa gəlmək üçün daha yaxınlaşmaları bizi ruhlandırır.

Biz bu ilin iyulunda Sankt-Peterburqda keçirilən zirvə görüşündə "Böyük səkkizliyin" liderləri tərəfindən bu səylərin dəstəklənməsini alqışlayırıq.

Biz Ermənistan və Azərbaycan prezidentlərinin bu əsas prinsiplər barədə növbəti il ərzində mümkün qədər tez yekun razılığa gəlmələri üçün göstərdikləri səyləri gələn il daha da artırmalarında israr edirik.

Biz tərəfləri ərazilərdə yanğınların dayandırılması və onların fəsadlarının aradan qaldırılması məqsədi ilə beynəlxalq ictimaiyyətin köməyi ilə ekoloji əməliyyatlar aparılması üçün əməkdaşlığın genişləndirilməsinə çağırırıq. Bu tədbirlər tərəflər arasında etimadın bərpa edilməsi üçün əhəmiyyətli addım ola bilər. ATƏT buna kömək göstərməyə hazırdır.

Biz, eyni zamanda, ATƏT-in hazırkı sədrinin şəxsi nümayəndəsinə və onun regiondakı missiyasına, xüsusən də onların Ekoloji Qiymətləndirmə Missiyasına və atəşkəsin davam etməkdə olan monitorinq fəaliyyətinə dəyişməz dəstəyimizi ifadə edirik. Biz cəbhə xətti boyunca vaxtaşırı baş verən və insanların həyatını itirməsi ilə nəticələnən insidentlərdən təəssüflənir və hər iki tərəfi atəşkəsə sayıqlıqla riayət etməyə çağırırıq".

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV FRANSANIN ƏRAZİNİN ABADLAŞDIRILMASI MƏSƏLƏLƏRİ NAZİRİ KRİSTİAN ESTROZİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 9-da Prezident sarayında Fransanın ərazinin abadlaşdırılması məsələləri naziri Kristian Estrozini qəbul etmişdir.

Qonağın respublikamıza səfərinin ölkələrimizin əməkdaşlığının daha da genişləndirilməsi işinə xidmət edəcəyinə əminliyini bildirən dövlətimizin başçısı Fransa ilə Azərbaycan arasında səmərəli, işgüzar münasibətlərin olduğunu vurğuladı. Azərbaycanda çoxlu sayda Fransa şirkətlərinin fəaliyyət göstərdiyini və sərmayələr gətirdiyini xatırladan Prezident İlham Əliyev Fransanın aparıcı şirkətlərinin təmsilçilərindən ibarət böyük bir nümayəndə heyətinin bu günlərdə Bakıya səfər etdiyini bildirərək dedi ki, bu, Fransanın ölkəmizə olan böyük marağını göstərir.

Son illər Fransaya çoxsaylı səfərlər etdiyini bildirən dövlətimizin başçısı Fransa nümayəndə heyətlərinin respublikamıza səfərindən məmnunluğunu vurğulayaraq dedi ki, sizin səfəriniz ölkələrimiz arasında bütün sahələrdə əməkdaşlığın yeni istiqamətlərinin müəyyənləşdirilməsində böyük rol oynayacaqdır.

Azərbaycan-Fransa əlaqələrinin son illər ərzində durmadan inkişaf etdiyini söyləyən Kristian Estrozi bu əlaqələrin daha da genişlənməsi üçün böyük potensial olduğunu nəzərə çarpdırdı. Fransanın iş adamlarından ibarət böyük bir heyətin bu yaxınlarda Azərbaycana səfər etməsindən xəbəri olduğunu bildirən qonaq dedi ki, bu, Fransa iş adamlarının Azərbaycana böyük maraq göstərdiyini bir daha nümayiş etdirir. Əminik ki, müxtəlif sahələrdə əməkdaşlığımız bundan sonra da uğurla inkişaf edəcəkdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV GÜRCÜSTANIN AVROPA ŞURASI PARLAMENT ASSAMBLEYASINDA NÜMAYƏNDƏ HEYƏTİNİN RƏHBƏRİ GİORGİ BOKERİANI QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 11-də Prezident sarayında Gürcüstanın Avropa Şurası Parlament Assambleyasında nümayəndə heyətinin rəhbəri Giorgi Bokerianı qəbul etmişdir.

Görüşdə Azərbaycan ilə Gürcüstan nümayəndə heyətlərinin AŞPA çərçivəsində əməkdaşlığının uğurla həyata keçirildiyi qeyd edilmiş, bu əməkdaşlığın ölkələrimiz arasında ikitərəfli münasibətlərin genişlənməsində rolu vurğulanmışdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AŞPA-NIN MONİTORİNQ KOMİTƏSİNİN SƏDRİ, ASSAMBLEYANIN SİYASİ MƏSƏLƏLƏR KOMİTƏSİNİN ÜZVÜ EDUARD LİNTNERİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 11-də Prezident sarayında Avropa Şurası Parlament Assambleyasının Monitorinq komitəsinin sədri, Assambleyanın Siyasi məsələlər komitəsinin üzvü Eduard Lintneri qəbul etmişdir.

Eduard Lintner Siyasi məsələlər komitəsinin Bakıda keçirilən iclasına böyük maraq göstərildiyini və komitə üzvlərinin əksəriyyətinin bu tədbirdə iştirak etdiyini bildirdi. Monitorinq komitəsinin həmməruzəçilərinin bu yaxınlarda ölkəmizə növbəti səfərinə toxunan Monitorinq komitəsinin sədri həmməruzəçilərlə yaxın əməkdaşlığa görə Prezident İlham Əliyevə təşəkkürünü çatdırdı. Monitorinq komitəsinin Azərbaycana dair son məruzə layihəsi ilə yenicə tanış olduğunu bildirən Eduard Lintner ölkəmizdə yaxşı irəliləyişlərin baş verdiyini vurğuladı.

AŞPA-nın Siyasi məsələlər komitəsinin iclasının Bakıda keçirilməsinin mühüm hadisə olduğunu deyən dövlətimizin başçısı bunun komitə üzvlərinə ölkəmizdə gedən inkişaf prosesləri ilə yaxından tanış olmağa yaxşı imkan yaradacağını bildirdi. Monitorinq komitəsi həmməruzəçilərinin ölkəmizə son səfəri zamanı açıq müzakirələrin aparıldığını qeyd edən Prezident İlham Əliyev qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsinin aparılmasının daim böyük əhəmiyyət daşıdığını vurğuladı. O, ölkəmizdə bütün sahələrdə müsbət dəyişikliklərin bundan sonra da davam edəcəyinə əminliyini ifadə etdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AŞPA-NIN AVROPA XALQ PARTİYASI QRUPUNUN SƏDRİ LUK VAN DEN BRANDENİ, AVROPA DEMOKRAT QRUPUNUN SƏDR MÜAVİNİ DEVİD UİLŞİR VƏ SİYASİ MƏSƏLƏLƏR KOMİTƏSİNİN ÜZVÜ STEF QORİSİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 11-də Prezident sarayında Avropa Şurası Parlament Assambleyasının Avropa Xalq Partiyası qrupunun sədri Luk Van den Brandeni, Avropa Demokrat qrupunun sədr müavini Devid Uilşir və Siyasi məsələlər komitəsinin üzvü Stef Qorisi qəbul etmişdir.

Dövlətimizin başçısı AŞPA-nın Siyasi məsələlər komitəsinin iclasının Bakıda keçirilməsindən məmnunluğunu ifadə etdi. Prezident İlham Əliyev bildirdi ki, bu tədbir komitənin xüsusilə Azərbaycana ilk dəfə səfər edən üzvlərinin ölkəmizlə yaxından tanış olmaları və görülən işlər barədə birbaşa məlumat almaları baxımından çox əhəmiyyətlidir.

Luk Van den Brande AŞPA-nın mühüm komitələrindən biri olan Siyasi məsələlər komitəsinin iclasının Bakı şəhərində keçirilməsinin əhəmiyyətinə toxunaraq, tədbirin geostrateji baxımdan mühüm mövqedə yerləşən Azərbaycanda gedən inkişaf prosesləri ilə tanış olmaq üçün yaxşı imkanlar yaratdığını bildirdi.

Görüşdə ölkəmizdə siyasi, iqtisadi sahələrdə, demokratikləşmə istiqamətində həyata keçirilən islahatlar, Azərbaycan ilə AŞPA arasındakı əlaqələrin hazırkı vəziyyəti ilə bağlı fikir mübadiləsi aparıldı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV TÜRKİYƏNİN AVROPA ŞURASI PARLAMENT ASSAMBLEYASINDAKI NÜMAYƏNDƏ HEYƏTİNİN RƏHBƏRİ MURAT MERCANI QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 11-də Prezident sarayında Türkiyənin Avropa Şurası Parlament Assambleyasındakı nümayəndə heyətinin rəhbəri Murat Mercanı qəbul etmişdir.

Dövlətimizin başçısı Azərbaycan ilə Türkiyə arasında münasibətlərin yüksək səviyyədə olduğunu bildirdi. İki ölkənin müxtəlif strukturlarını təmsil edən nümayəndələrinin daim qarşılıqlı səfərlər həyata keçirdiyini bildirən dövlətimizin başçısı bunun əlaqələrimizin daha da möhkəmləndirilməsi baxımından əhəmiyyətli olduğunu qeyd etdi.

Murat Mercan Türkiyə və Azərbaycanın AŞPA-dakı nümayəndə heyətlərinin uğurla əməkdaşlıq etdiyini vurğuladı. Bu il fəaliyyətə başlayan Bakı-Tbilisi-Ceyhan neft boru kəmərinin önəminə toxunan qonaq həyata keçiriləcək digər regional layihələrin də iki ölkə arasındakı əlaqələri daha da möhkəmləndirəcəyinə əminliyini ifadə etdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AŞPA-NIN SİYASİ MƏSƏLƏLƏR KOMİTƏSİNİN SƏDRİ ƏBDÜLQƏDİR ATƏŞİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 11-də Prezident sarayında Avropa Şurası Parlament Assambleyasının Siyasi məsələlər komitəsinin sədri Əbdülqədir Ateşi qəbul etmişdir.

Əbdülqədir Ateş ölkəmizə AŞPA-nın Siyasi məsələlər komitəsinin Bakıda ilk dəfə keçirilən iclasında iştirak etmək üçün gəldiyini söylədi və bu iclasın onun komitəyə sədrlik etdiyi dövrə təsadüf etməsindən xüsusilə məmnun olduğunu vurğuladı. Bakıya uzun müddət əvvəl Türkiyənin turizm naziri kimi səfər etdiyini deyən qonaq keçən dövr ərzində Azərbaycanda çox böyük dəyişikliklərin baş verdiyini bildirdi.

Dövlətimizin başçısı AŞPA-nın Siyasi məsələlər komitəsinin növbəti iclasını Bakıda keçirməsinin əhəmiyyətini vurğuladı. O, Azərbaycanda siyasi, iqtisadi və digər sahələrdə əldə olunan uğurlara toxunaraq, ölkəmizin gələcəkdə daha da müasirləşəcəyi və inkişaf edəcəyinə əminliyini ifadə etdi.

Söhbət zamanı Azərbaycan-AŞPA əməkdaşlığına dair fikir mübadiləsi aparıldı.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV DAĞISTAN NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 12-də Prezident sarayında Dağıstan Respublikası Prezidentinin müşaviri Səid Qurbanovu, Dərbənd rayon Administrasiyasının başçısı Qurban Qurbanovu və Dağıstanın Azərbaycandakı nümayəndəliyinin rəhbəri Məhəmməd Qurbanovu qəbul etmişdir.

Xalqımızın ümummilli liderinin vəfatının ildönümü ilə əlaqədar dərin hüznlə başsağlığı verən Səid Qurbanov ulu öndər Heydər Əliyev ilə uzun illər şəxsi dostluq münasibətlərini xatırladaraq, onunla keçirdiyi çoxsaylı görüşləri heç vaxt unutmadığını bildirdi. Ulu öndərin Azərbaycan xalqı qarşısında misilsiz xidmətlər göstərdiyini vurğulayan qonaq müasir müstəqil Azərbaycan Respublikasının qurucusu və memarı Heydər Əliyevin ideyalarının Prezident İlham Əliyev tərəfindən layiqincə həyata keçirildiyini söylədi.

Dərin hüznlə başsağlığına görə Səid Qurbanova minnətdarlıq edən dövlətimizin başçısı onun ümummilli liderimiz Heydər Əliyev ilə uzun illər davam etmiş dostluq münasibətlərini yaxşı xatırladığını bildirdi və bu dostluğa görə bir daha təşəkkür etdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV SƏUDİYYƏ ƏRƏBİSTANININ MƏDƏNİYYƏT VƏ İNFORMASİYA NAZİRİ İYAD İBN ƏMİN ƏL-MƏDƏNİNİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 13-də Prezident sarayında Səudiyyə Ərəbistanı Krallığının mədəniyyət və informasiya naziri İyad ibn Əmin əl-Mədəninin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Dövlətimizin başçısı Azərbaycan ilə Səudiyyə Ərəbistanı arasında münasibətlərin çox uğurla inkişaf etdiyini və əməkdaşlığımızın yüksək səviyyədə olduğunu bildirdi. O, Səudiyyə Ərəbistanına son illər ərzində etdiyi səfərləri və keçirdiyi görüşləri məmnuniyyətlə xatırlatdı. Prezident İlham Əliyev nazirin bu səfərinin ölkələrimiz arasında mədəniyyət və informasiya sahəsində əlaqələrin daha da genişlənməsinə töhfə verəcəyinə əmin olduğunu bildirdi.

İyad ibn Əmin əl-Mədəni Səudiyyə Ərəbistanının Kralı Abdullah bin Əbdüləziz Al Səudun salamlarını Prezident İlham Əliyevə çatdırdı. O, Azərbaycana səfəri barədə dövlətimizin başçısına məlumat verərək, göstərilən qonaqpərvərliyə görə təşəkkürünü bildirdi. Ölkələrimiz arasında əlaqələrin yüksək səviyyədə olduğunu vurğulayan qonaq humanitar və mədəniyyət sahələrində əməkdaşlığımızın bundan sonra da inkişaf etdiriləcəyinə əminliyini ifadə etdi.

Prezident İlham Əliyev Səudiyyə Ərəbistanının Kralı Abdullah bin Əbdüləziz Al Səudun salamlarına görə minnətdarlığını bildirdi və onun da salamlarını Krala çatdırmağı xahiş etdi.

XARİCİ İŞLƏR NAZİRLİYİNDƏ AZƏRBAYCAN RESPUBLİKASININ DİPLOMATİK NÜMAYƏNDƏLİKLƏRİNİN KONSULLUQ MƏSƏLƏLƏRİ ÜZRƏ MƏSUL ƏMƏKDAŞLARININ BİRİNCİ MÜŞAVİRƏSİ KEÇİRİLİR

2006-cı il dekabr ayının 11-14 tarixlərində Xarici İşlər Nazirliyində Azərbaycan Respublikasının diplomatik nümayəndəliklərinin konsulluq məsələləri üzrə məsul əməkdaşlarının birinci müşavirəsi keçirilir.

Bu müşavirənin keçirilməsi haqqında fikirlər Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin iştirakı ilə cari ilin avqust ayında keçirilmiş Səfirlərin müşavirə iclasında səslənmiş və nazirlik rəhbərliyi tərəfindən dəstəklənmişdir.

Müşavirədə Azərbaycan Respublikasının 37 ölkədəki diplomatik nümayəndəlik və konsulluqlarda fəaliyyət göstərən konsulluq məsələləri üzrə məsul əməkdaşları iştirak edirlər.

XİN-in Konsulluq İdarəsinin rəisi, Səfir N.Hüseynovun sədrliyi ilə aparılan müşavirə, Nazir müavini, Səfir V.Sadıqovun çıxışı ilə açıq elan edilmişdir. Müşavirədə Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi, Daxili İşlər Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Milli Təhlükəsizlik Nazirliyi, və digər dövlət orqanlarının nümayəndələrinin iştirakı və təlim xarakterli çıxışları, həmçinin konsulluq fəaliyyətinə dair məsələlərin müzakirələri nəzərdə tutulur.

AZƏRBAYCAN RESPUBLİKASI XARİCİ İŞLƏR NAZİRLİYİNİN DİPLOMATİK AKADEMİYASININ NİZAMNAMƏSİNİN TƏSDİQ EDİLMƏSİ HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

"Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Diplomatik Akademiyasının yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 6 mart tarixli 1346 nömrəli Sərəncamının icrası ilə əlaqədar və Azərbaycan Respublikası Xarici İşlər Na-

zirliyinin Diplomatik Akademiyasının fəaliyyətinin təşkilini təmin etmək məqsədi ilə qərara alıram:

1. Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Diplomatik Akademiyasının Nizamnaməsi təsdiq edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

3. Bu Fərman dərc edildiyi gündən qüvvəyə minir.

İlham Əliyev

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 15 dekabr 2006-cı il

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ İLƏ PAKİSTAN İSLAM RESPUBLİKASI HÖKUMƏTİ ARASINDA AZƏRBAYCAN-PAKİSTAN BİRGƏ KOMİSSİYASININ AZƏRBAYCAN RESPUBLİKASI TƏRƏFİNDƏN YENİ TƏRKİBİNİN TƏSDİQ EDİLMƏSİ BARƏDƏ AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

1. Azərbaycan Respublikası Hökuməti ilə Pakistan İslam Respublikası Hökuməti arasında Azərbaycan-Pakistan Birgə Komissiyasının Azərbaycan Respublikası tərəfindən yeni tərkibi aşağıdakı heyətdə təsdiq edilsin:

Komissiyanın həmsədri:

Yaqub Eyyubov - Azərbaycan Respublikası Baş nazirinin birinci müavini

Komissiyanın üzvləri:

Yavər Camalov - Azərbaycan Respublikasının müdafiə sənayesi naziri

Əli Abbasov - Azərbaycan Respublikasının rabitə və informasiya texnologiyaları naziri

Misir Mərdanov - Azərbaycan Respublikasının təhsil naziri

Xələf Xələfov - Azərbaycan Respublikası xarici işlər nazirinin müavini

Niyazi Səfərov - Azərbaycan Respublikası iqtisadi inkişaf nazirinin müavini

Azər Bayramov - Azərbaycan Respublikası maliyyə nazirinin müavini

Teymur Mehdiyev - Azərbaycan Respublikası mədəniyyət və turizm nazirinin müavini

Sənan Kərimov - Azərbaycan Respublikası səhiyyə nazirinin müavini

Bəhram Əliyev - Azərbaycan Respublikası kənd təsərrüfatı nazirinin müavini

Səfər Mehdiyev - Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi sədrinin birinci müavini

Xoşbəxt Yusifzadə - Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin birinci vitse-prezidenti

Cahangir Əsgərov - "Azərbaycan Hava Yolları" Dövlət Konserninin baş direktoru

Vadim Xubanov - Azərbaycan Respublikası Milli Bankının İdarə Heyəti sədrinin müavini

Ağadayı Ağayev - Azərbaycan Respublikası Nazirlər Kabineti Aparatının xarici iqtisadi əlaqələr şöbəsinin müdiri (məsul katib)

2. "Azərbaycan Respublikası Hökuməti ilə Pakistan İslam Respublikası Hökuməti arasında Azərbaycan-Pakistan birgə komissiyasının tərkibi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 17 may tarixli 416 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000-ci il, № 5, maddə 342; 2001-ci il, № 7, maddə 459; 2006-cı il, № 7, maddə 588, № 9, maddə 743) 1-ci bəndi qüvvədən düşmüş hesab edilsin.

3. Bu Sərəncam dərc edildiyi gündən qüvvəyə minir.

İlham Əliyev

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 15 dekabr 2006-cı il

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AVROPA İTTİFAQININ CƏNUBİ QAFQAZ ÜZRƏ XÜSUSİ NÜMAYƏNDƏSİ PETER SEMNEBİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 15-də Prezident sarayında Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Peter Semnebini qəbul etmişdir.

Azərbaycan ilə Avropa İttifaqı arasında əlaqələrin uğurla inkişaf etdiyini bildirən dövlətimizin başçısı bu qurumun "Yeni qonşuluq siyasəti"nin həyata keçirilməsi, enerji məsələləri sahəsində əməkdaşlığın genişləndiyini vurğuladı.

Brüsselə səfərini məmnunluqla xatırlayan Prezident İlham Əliyev bu səfərin Azərbaycan-Avropa İttifaqı əməkdaşlığının inkişafında xüsusi rol oynadığını qeyd etdi. Dövlətimizin başçısı əmin olduğunu bildirdi ki, Azərbaycan ilə Avropa İttifaqı arasında əlaqələr bundan sonra daha da genişlənəcək və inkişaf edəcəkdir.

Ölkəmizə səfərindən, dövlətimizin başçısı ilə görüşündən və ikitərəfli münasibətlərin daha da genişləndirilməsi məsələlərinin müzakirəsindən məmnunluğunu söyləyən qonaq Azərbaycan ilə Avropa İttifaqı arasında əməkdaşlığın uğurla inkişaf etdiyini vurğuladı. Cənab Peter Semnebi Avropa İttifaqının xarici siyasət və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi Xavyer Solananın salamlarını Prezident İlham Əliyevə çatdıraraq dedi ki, o, Brüsseldə Azərbaycan Prezidenti ilə keçirdiyi görüşlərdən çox məmnun olmuşdur. Qonaq əmin olduğunu söylədi ki, Azərbaycan-Avropa İttifaqı əlaqələri bundan sonra da inkişaf edəcəkdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV TÜRKİYƏNİN SƏNAYE VƏ TİCARƏT NAZİRİ ƏLİ COŞQUNU QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 18-də Prezident sarayında Türkiyənin sənaye və ticarət naziri Əli Coşqunu qəbul etmişdir.

Azərbaycan ilə Türkiyə arasında münasibətlərin yüksək səviyyədə olduğunu nəzərə çarpdıran dövlətimizin başçısı müxtəlif sahələrdə əlaqələrimizin uğurla inkişaf etdiyini bildirdi. Yüksək səviyyəli nümayəndə heyətlərinin qarşılıqlı səfərlərinin əməkdaşlığımızın daha da genişlənməsi işinə xidmət etdiyini vurğulayan Prezident İlham Əliyev hazırkı dövrdə həm Türkiyənin, həm də Azərbaycanın iqtisadiyyatının sürətlə inkişaf etdiyini bildirdi.

Birgə həyata keçirilən böyük layihələrin dünya əhəmiyyətinə malik olduğunu bildirən dövlətimizin başçısı dedi ki, neft, qaz boru kəmərləri, dəmir yol xətti layihələrinin həyata keçirilməsi bölgədə firavanlığın, sabitliyin, təhlükəsizliyin qorunması işinə xidmət edir.

Türkiyəli iş adamlarının ölkəmizdə fəaliyyətinin daim genişlənməsini müsbət hal kimi dəyərləndirən Prezident İlham Əliyev Azərbaycan-Türkiyə biznes forumunda iştirakını xatırladı, Türkiyənin tanınmış, böyük şirkətlərinin respublikamıza gəlməsi prosesinin getdikcə güclənməsindən məmnunluq duyduğunu söylədi. Dövlətimizin başçısı dedi ki, Türkiyənin sənaye və ticarət naziri Əli Coşqunun respublikamıza səfəri ölkələrimiz arasında iqtisadi əməkdaşlığın daha da genişləndirilməsi işinə xidmət edəcəkdir.

Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğanın salamlarını Prezident İlham Əliyevə çatdıran qonaq dost və qardaş olan Azərbaycanın son illərdəki inkişafını qürurla izlədiklərini söylədi. O dedi ki, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin təməlini qoyduğu prinsiplər çərçivəsində ölkələrimiz arasında dostluq münasibətləri durmadan möhkəmlənir, Prezident İlham Əliyev də bu yolu uğurla davam etdirir. Ölkələrimiz arasında ticarət dövriyyəsinin ildən-ilə artdığını söyləyən nazir Azərbaycan-Türkiyə birgə qlobal layihələrinin, neft-qaz layihələrinin həyata keçirilməsini çox önəmli bir hadisə kimi qiymətləndirdi.

Rəcəb Tayyib Ərdoğanın salamlarına görə minnətdarlığını bildirən dövlətimizin başçısı İlham Əliyev özünün də salamlarını Türkiyənin Baş nazirinə çatdırmağı xahiş etdi.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ABŞ DÖVLƏT KATİBİNİN DEMOKRATİYA, İNSAN HÜQUQLARI VƏ ƏMƏK MƏSƏLƏLƏRİ ÜZRƏ MÜŞAVİRİ BARRİ LOUENKRONU QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 18-də Prezident sarayında ABŞ dövlət katibinin demokratiya, insan hüquqları və əmək məsələləri üzrə müşaviri Barri Louenkronu qəbul etmişdir.

Azərbaycan ilə ABŞ arasındakı münasibətlərin, əməkdaşlığın səviyyəsindən məmnunluğunu bildirən dövlətimizin başçısı ikitərəfli əlaqələrin uğurla inkişaf etdiyini vurğuladı. Prezident İlham Əliyev dedi ki, bu səfər qarşılıqlı münasibətlərimizə, onun müxtəlif cəhətlərinə bir daha nəzər salmaq, gələcəkdə hansı işlərin görülməsinin mümkünlüyünü müzakirə etmək üçün yaxşı imkan yaradır.

Dövlətimizin başçısı əmin olduğunu bildirdi ki, ölkələrimizin əməkdaşlığı, ikitərəfli münasibətlərimiz bundan sonra da inkişaf edəcək və genişlənəcəkdir.

Cənab Barri Louenkron qeyd etdi ki, ABŞ-Azərbaycan siyasi, iqtisadi, təhlükəsizlik, enerji, demokratikləşmə və digər sahələrdə ikitərəfli münasibətlərin daha da inkişaf etdirilməsi istiqamətində mühüm işlər həyata keçirilir. Bu sahələrin bir-biri ilə sıx bağlı olduğunu nəzərə çarpdıran qonaq dedi ki, cənab Prezident, Sizin ABŞ-a səfərinizdən sonra Vaşinqtondakı açıq çıxışınızı əsas götürərək, əlaqələrimizin daha da inkişaf etdirilməsi istiqamətində işləyirik. Sizin səfərinizdən keçən dövr ərzində əlaqələrimizin inkişafında müəyyən irəliləyişlər baş verir və bu istiqamətdə bir sıra işlər görülmüşdür.

Görüşdə ikitərəfli münasibətlərin bir sıra məsələlərinə dair fikir mübadiləsi aparıldı.

İXRAC NƏZARƏTİ ÜZRƏ KOMİSSİYANIN VƏ İDARƏLƏRARASI EKSPERTLƏR QRUPUNUN YARADILMASI HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

"İxrac nəzarəti haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, ixrac nəzarəti sahəsində dövlət siyasətinin həyata keçirilməsini və müvafiq dövlət orqanlarının fəaliyyətinin əlaqələndirilməsini təmin etmək məqsədi ilə qərara alıram:

1. Aşağıdakı tərkibdə İxrac Nəzarəti üzrə Komissiya yaradılsın:

Komissiyanın sədri:

Yaqub Eyyubov - Azərbaycan Respublikası Baş nazirinin birinci müavini

Komissiyanın üzvləri:

Yavər Camalov - Azərbaycan Respublikasının müdafiə sənayesi naziri

Natiq Əliyev - Azərbaycan Respublikasının sənaye və energetika naziri

Xələf Xələfov - Azərbaycan Respublikası xarici işlər nazirinin müavini

Faiq Tağızadə - Azərbaycan Respublikası fövqəladə hallar nazirinin müavini

Sənan Kərimov - Azərbaycan Respublikası səhiyyə nazirinin müavini

Əli Nağıyev - Azərbaycan Respublikası milli təhlükəsizlik nazirinin müavini

Toğrul Musayev - Azərbaycan Respublikası ədliyyə nazirinin müavini

Çingiz Məmmədov - Azərbaycan Respublikası müdafiə nazirinin müavini

Firdovsi Əliyev - Azərbaycan Respublikası ekologiya və təbii sərvətlər nazirinin müavini

Asif Cəbrayılov - Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti rəisinin müavini

Nəriman Quliyev - Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti

Abutalıb Səmədov - Azərbaycan Respublikası Müəllif Hüquqları Agentliyinin sədri

Ağadayı Ağayev - Azərbaycan Respublikasının Nazirlər Kabineti Aparatının xarici iqtisadi əlaqələr şöbəsinin müdiri (komissiyanın katibi)

Şahin Bağırov - Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Gömrük Nəzarətinin Təşkili Baş İdarəsinin rəisi

2. Bu Sərəncamın 1-ci bəndi ilə yaradılmış Komissiyaya tapşırılsın ki, Komissiyanın iclaslarında müzakirə ediləcək məsələlərin hazırlanması üçün aidiyyəti təşkilatların vəzifəli şəxslərindən ibarət idarələrarası ekspertlər qrupu yaratsın və onun fəaliyyətini tənzimləsin.

3. Bu Sərəncam dərc edildiyi gündən qüvvəyə minir.

İlham Əliyev

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 19 dekabr 2006-cı il

MİLLİ MƏCLİSİN SƏDRİ OQTAY ƏSƏDOV RUMİNİYAYA SƏFƏRİ

Milli Məclisin sədri Oqtay Əsədovun rəhbərlik etdiyi parlament nümayəndə heyəti dekabrın 18-də Rumıniyanın paytaxtı Buxarestə gəlmişdir.

Həmin gün Milli Məclisin sədri Oqtay Əsədov Rumıniya Senatının sədri Nikolaye Vakaroyu ilə görüşmüşdür. Geniş nümayəndə heyətlərinin iştirakı ilə keçən görüşdə qarşılıqlı maraq doğuran bir sıra vacib məsələlər müzakirə edilmişdir.

İkitərəfli siyasi, iqtisadi əlaqələrin daha da genişləndirilməsi, parlamentlərarası münasibətlər, beynəlxalq təşkilatlarda birgə fəaliyyət, Azərbaycanda və Rumıniyada son vaxtlar əldə olunan nailiyyətlər, bir sıra iri iqtisadi layihələrdə əməkdaşlıq və digər məsələlər müzakirələrin əsas mövzusu olmuşdur. Qeyd edilmişdir ki, 2007-ci il yanvarın 1-dən Avropa İttifaqının tamhüquqlu üzvü olacaq Rumıniya Azərbaycanın İttifaqa inteqrasiyasına kömək etmək üçün yaxşı imkanlar əldə edəcəkdir.

Görüşdə Azərbaycanın ən ağrılı problemi olan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi və onun həlli yolları barədə də geniş fikir mübadiləsi aparılmışdır. Rumıniya tərəfi bir daha Azərbaycanın ərazi bütövlüyünü dəstəklədiyini, münaqişənin beynəlxalq hüquq normaları çərçivəsində ədalətli həllinə tərəfdar olduğunu bəyan etmişdir.

Sonda Milli Məclisin sədri Oqtay Əsədov Rumıniya Senatının Şərəf kitabına ürək sözlərini yazmışdır.

Dekabrın 18-də Milli Məclis sədrinin növbəti görüşü Rumıniyanın Deputatlar Palatasının sədri Boqdan Oltenau ilə olmuşdur. Bu görüşdə də ölkələrimiz arasında hərtərəfli əlaqələrin daha da dərinləşməsinin vacibliyi, qanun yaradıcılığında təcrübə mübadiləsinə xüsusi diqqət yetirilməsinin əhəmiyyəti vurğulanmışdır. İslahatların hüquqi bazasının yaradılmasında rumın təcrübəsinin Azərbaycan üçün maraqlı olduğu qeyd edilmiş, deputatlarımızın nüfuzlu beynəlxalq təşkilatlarda faydalı əməkdaşlıq etməsi yüksək qiymətləndirilmişdir.

Sonra Azərbaycan nümayəndə heyətinin üzvləri ümummilli liderimiz Heydər Əliyevin Buxarestin mərkəzində ucaldılmış abidəsini ziyarət edib, önünə əklil qoymuşlar. Milli Məclisin sədri Oqtay Əsədov ümummilli liderimizin adını daşıyan parkda Buxarestdə təhsil alan azərbaycanlı tələbələrlə görüşmüş, onların qayğı və problemləri ilə maraqlanmışdır.

Həmin gün parlament nümayəndə heyəti Rumıniyanın Baş nazirinin müavini Bela Marko ilə görüşmüşdür. Görüşdə sosial, iqtisadi, mədəni və digər sahələrdə əməkdaşlığın mövcud durumu və perspektivlər barədə fikir mübadiləsi aparılmışdır. Bu sahələrdə bir çox ortaq mövqelərimizin mövcudluğu diqqətə çatdırılmış, ölkələrimiz üçün keçid dövrünün çətinlikləri və ayrı-ayrı məqamlar müzakirə olunmuşdur. Keçid dövrünü artıq başa vurmaqda olan Rumıniyanın bu sahədəki təcrübəsinin əhəmiyyəti qeyd edilmişdir.

Görüşdə parlamentlərarası əlaqələr, enerji təhlükəsizliyi sahəsində, iri iqtisadi layihələrdə qarşılıqlı əməkdaşlıq və digər məsələlər əsas müzakirə obyekti olmuşdur.

Söhbətdə Azərbaycanın, eləcə də ümumilikdə bölgənin iqtisadi inkişafına mane olan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın ərazi bütövlüyü və sərhədlərin toxunulmazlığı prinsipi əsasında həllinin vacibliyi vurğulanmışdır.

Milli Məclisin sədri Oqtay Əsədov Rumıniyaya səfəri çərçivəsində dekabrın 19-da bir sıra görüşlər keçirmişdir.

Milli Məclisin mətbuat xidmətindən bildirmişlər ki, Rumıniya Prezidenti Trayan Besesku ilə keçirilən görüş ikitərəfli əlaqələrin dərinləşməsi baxımından çox səmərəli olmuşdur.

Azərbaycan parlament nümayəndə heyətini səmimiyyətlə qarşılayan Rumıniya Prezidenti bu ilin oktyabrında Azərbaycanda səfərdə olarkən ona göstərilən qonaqpərvərliyə görə Prezident İlham Əliyevə minnətdarlığını çatdırmağı xahiş etmişdir. Milli Məclisin sədri Oqtay Əsədov da rumın xalqına və Rumıniya Prezidentinə Azərbaycan Prezidenti İlham Əliyevin salamlarını və xoş arzularını çatdırmışdır. Görüşdə qeyd edilmişdir ki, strateji tərəfdaşlıq çərçivəsində ikitərəfli əlaqələrin daha da möhkəmləndirilməsi üçün geniş imkanlar mövcuddur. Parlamentlərarası münasibətlərin və parlament dostluq qruplarının fəaliyyətinin bu sahədə əhəmiyyəti də xüsusi qeyd edilmişdir.

Milli Məclisin sədri Oqtay Əsədov Rumıniyanın Avropa İttifaqına qəbulu münasibətilə Prezident Trayan Beseskunu təbrik etmiş və ölkəmizin bu sahədə Rumıniya təcrübəsindən bəhrələnəcəyini bildirmişdir. Rumıniya Prezidenti isə ölkəsinin Azərbaycanın Avropa İttifaqına və NATO-ya inteqrasiyasına daim dəstək olacağını bəyan etmişdir.

Görüşdə siyasi, iqtisadi, mədəni, enerji təhlükəsizliyi, Azərbaycanın ərazi bütövlüyü və sərhədlərinin toxunulmazlığı, əlaqələrimizin inkişaf etdirilməsi və digər vacib məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.

Milli Məclisin sədri Oqtay Əsədovun Rumıniya Prezidenti Trayan Besesku ilə görüşü ölkənin kütləvi informasiya vasitələrində geniş işıqlandırılmışdır.

Dekabrın 19-da parlament nümayəndə heyəti senator, NATO PA-sı sədrinin müavini Mixail Lupoi ilə də görüşmüşdür.

Parlamentlərarası əlaqələrin daha da inkişaf etdirilməsi, ölkələrimizin qanunvericilik orqanlarında fəaliyyət göstərən parlamentlərarası əlaqələr üzrə işçi qruplarının işinin daha da təkmilləşdirilməsi, beynəlxalq təşkilatlarda qarşılıqlı faydalı əməkdaşlıq və digər vacib məsələlər geniş müzakirə olunmuşdur. Rumıniyalı deputatların beynəlxalq təşkilatlarda Azərbaycanın haqq işini daim dəstəkləmələri yüksək qiymətləndirilmişdir.

Həmin gün Azərbaycan parlamentinin nümayəndə heyəti türk dünyasının böyük oğlu Atatürkün abidəsini ziyarət edərək önünə əklil qoymuşlar.

Sonra nümayəndə heyəti Azərbaycanın Rumıniyadakı səfirliyinə gələrək diaspor və Rumıniya-Azərbaycan Dostluq Cəmiyyətinin üzvləri ilə görüşmüşdür. Sədr Oqtay Əsədov dostluq cəmiyyətinə Rumıniyanın tanınmış ziyalılarının üzv olmasını, xeyli sayda ölkə vətəndaşının bu dostluğa töhfə vermək istəklərini yüksək qiymətləndirmişdir. İqtisadiyyat professoru, sabiq Prezidentin müşaviri, tanınmış ictimai xadim, Rumıniya-Azərbaycan Dostluq Cəmiyyəti idarə heyətinin üzvü Markus Opran, akademik, sabiq senator, tanınmış həkim, dostluq cəmiyyətinin baş katibi İoan Pop de Popa, Rumıniya-Türkiyə Ticarət Palatasının sədri Tamer Atalay çıxış edərək əlaqələrin daha da möhkəmlənməsində əllərindən gələni bundan sonra da əsirgəməyəcəklərini bildirmişlər. Onlar Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevi çox yaxşı tanıdıqlarını, dost münasibətləri və bu dahi şəxsiyyətin siyasətinə həmişə heyran qaldıqlarını bildirmiş, bu siyasətin Prezident İlham Əliyev tərəfindən çox uğurla davam etdirildiyini vurğulamışlar.

Azərbaycan-Rumıniya Gənclər və Mədəniyyət Assosiasiyasının sədri İqbal Hacıyev görülən işlərdən və perspektiv vəzifələrdən danışmışdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ATƏT-İN DEMOKRATİK TƏSİSATLAR VƏ İNSAN HÜQUQLARI BÜROSUNUN DİREKTORU KRİSTİAN ŞTROHALI QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 22-də Prezident sarayında ATƏT-in Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosunun direktoru Kristian Ştrohalı qəbul etmişdir.

Dövlətimizin başçısı ilə ötən görüşünü məmnunluqla xatırlayan qonaq dedi ki, cənab Prezident, Siz həmin görüş zamanı gələcəkdə Azərbaycanda modernləşdirmə və inkişaf proseslərinin zəruriliyindən söhbət açmışdınız. Fikrimcə, son üç il ərzində ölkənizdə bu istiqamətdə böyük nailiyyətlər əldə olunmuşdur. Çox şadam ki, ATƏT də bu sahədə öz töhfəsini verməkdədir. Cənab Kristian Ştrohal ATƏT-in regiondakı fəaliyyətinə Azərbaycan tərəfindən göstərilən güclü dəstəyi də yüksək qiymətləndirdi.

Prezident İlham Əliyev dedi ki, biz ATƏT-lə əməkdaşlığı bundan sonra da inkişaf etdirməyə və bu sahədə təşkilatı dəstəkləməyə hazırıq. Azərbaycanda siyasi, iqtisadi, sosial sahələrdə sürətli inkişaf gedir, ölkəmiz regional əməkdaşlıqda fəal iştirak edir. Beynəlxalq təşkilatlarla, Avropa İttifaqı ilə də əməkdaşlığımız inkişaf edir və daim genişlənir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV RUSİYANIN DAXİLİ İŞLƏR NAZİRİ RƏŞİD NURQALİYEVİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 22-də Prezident sarayında Rusiya Federasiyasının daxili işlər naziri Rəşid Nurqaliyevi qəbul etmişdir.

Ölkələrimizin daxili işlər nazirlikləri arasında yaxşı əlaqələrin olduğunu vurğulayan

dövlətimizin başçısı bu əməkdaşlığın ikitərəfli münasibətlərin inkişafı baxımından vacibliyini qeyd etdi. Azərbaycan-Rusiya münasibətlərinin uğurla inkişaf etdiyini bildirən Prezident İlham Əliyev ölkəmizdə başa çatmış Rusiya İlinin qarşılıqlı anlaşma işinə xidmət göstərdiyini söylədi. Ölkələrimizin müxtəlif sahələrdə əməkdaşlığının uğurla davam etdiyini vurğulayan dövlətimizin başçısı hər iki ölkənin hüquq mühafizə orqanları arasında əlaqələrin də bu baxımdan mühüm rol oynadığını qeyd etdi.

Hazırda cinayətkarlığa qarşı mübarizənin universal xarakter daşıdığını bildirən Prezident İlham Əliyev dedi ki, hüquq mühafizə orqanlarının işinin əlaqələndirilməsi ölkələrimizin təhlükəsizliyi, habelə regional və beynəlxalq təhlükəsizlik üçün vacibdir. Bu gün terrorizmə və beynəlxalq cinayətkarlığa qarşı mübarizə qlobal xarakter daşıyır. Bu cür təhlükələrə qarşı ölkələrimizin birgə mübarizəsi vacibdir. İnformasiya mübadiləsi, qarşılıqlı yardım və digər sahələrdə əməkdaşlıq ölkələrimizin maraqlarına cavab verir. Bu baxımdan Rusiya daxili işlər nazirinin Azərbaycana səfəri böyük əhəmiyyət daşıyır.

Azərbaycan ilə Rusiya arasında əməkdaşlığın səmərəli olduğunu bildirən Rəşid Nurqaliyev dedi ki, bu gün biz transmilli mütəşəkkil cinayətkarlığa, beynəlxalq terrorizmə qarşı mübarizə, qeyri-leqal miqrasiya məsələlərini müzakirə etmişik. Transmilli mütəşəkkil cinayətkarlığın sərhədləri yoxdur. Bu, XXI əsrdə bütün dünya ölkələri üçün təhlükədir.

Ölkələrimiz arasında əməkdaşlıqdan razı qaldıqlarını söyləyən nazir məlumat verdi ki, Rusiya Daxili İşlər Nazirliyinin Daxili Qoşunları ilə Azərbaycan Daxili İşlər Nazirliyi Daxili Qoşunları Baş İdarəsi arasında 2007-2008-ci illər üçün birgə fəaliyyət haqqında protokol imzalanmış, birgə bəyanat verilmişdir. Nazir dedi ki, bizim birgə əməkdaşlığımız bütün sahələrdə uğurla inkişaf edir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV "RİA NOVOSTİ" AGENTLİYİNİN BAŞ DİREKTORU SVETLANA MİRONYUKU QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 22-də Prezident sarayında Rusiyanın "RİA Novosti" agentliyinin baş direktoru Svetlana Mironyuku qəbul etmişdir.

Svetlana Mironyuk xalqımızın ümummilli lideri Heydər Əliyevin həyat və fəaliyyətini əks etdirən fotoşəkillərdən ibarət albomu dövlətimizin başçısına təqdim etdi. Agentliyin rəhbəri dedi ki, Azərbaycana gəlməyimizdən məqsəd ölkədə gedən proseslər, inkişaf, müxtəlif sahələrdə görülən işlər barədə məlumatları Rusiyada və daha geniş məkanda yaymaqdan ibarətdir. Azərbaycanla əməkdaşlıqla bağlı böyük planlarının və konkret layihələrinin olduğunu bildirən S.Mironyuk vurğuladı ki, "RİA Novosti" bunların həyata keçirilməsi üçün müvafiq tədbirlər görəcəkdir. Azərbaycanla əməkdaşlığın bundan sonra da genişləndirilməsinə böyük diqqət yetirəcək, beləliklə də, ölkələrimiz arasında informasiya mübadiləsinin daha da yüksək səviyyəyə çatdırılmasına nail olacağıq.

Qonaq "RİA Novosti"nin Azərbaycanla əməkdaşlığı ilə bağlı görüləcək işlər barədə də ətraflı məlumat verdi.

Prezident İlham Əliyev Azərbaycan ilə Rusiya arasında informasiya mübadiləsinin əhəmiyyətini vurğuladı. Dövlətimizin başçısı ümidvar olduğunu bildirdi ki, "RİA Novosti"nin ölkəmizlə əməkdaşlığı Azərbaycan və Rusiya ictimaiyyətinin ölkələrimizdə gedən proseslərlə daha yaxından tanış olması üçün əlavə imkanlar yaradacaqdır.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV "EXO MOSKVI" RADİOSUNA MÜSAHİBƏ VERMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 22-də Prezident sarayında "Exo Moskvı" radiosuna müsahibə vermişdir.

JURNALİST: Efirimizdə Azərbaycan Prezidenti İlham Əliyevdir. Xoş gördük, cənab Prezident. Bizə müsahibə verməyə razılığınıza görə sağ olun. Sizə internetlə çoxlu sual gəlib və biz hətta təəccübləndik, çünki bilmirdik ki, Azərbaycana təkcə moskvalılarda və peterburqlularda deyil, həm də estonlarda, latışlarda, iranlılarda... belə maraq var.

Hazırda hətta Latviya və Estoniyada da hamını maraqlandıran başlıca mövzu, qəribə olsa da, Türkmənbaşı Saparmurad Niyazovun vəfatıdır və Estoniyadan Vladimir Sizə belə bir sual verir: "Salam, cənab Prezident, Siz Türkmənistanda hadisələrin inkişaf ssenarisini necə görürsünüz, bu ölkədəki hadisələr Azərbaycanın həyatına necə təsir göstərəcək və Siz Türkmənistanın taleyində iştirak edəcəksinizmi? Əlbəttə ki, dolayısı ilə?"

İLHAM ƏLİYEV: Əvvəla, mən Türkmənistan Prezidentinin vəfatı ilə əlaqədar bütün dost, qardaş türkmən xalqına başsağlığı vermək istərdim. Mən artıq hökumətə və Prezidentin yaxın adamlarına başsağlığı vermişəm. Əlbəttə, bu, böyük itkidir və türkmən xalqına bu çətin anda dözüm və səbir diləmək istərdim. Əlbəttə ki, dost dövlət kimi, biz münasibətlərimizi bundan sonra da inkişaf etdirmək niyyətindəyik. Bizim Xəzər dənizində ümumi sərhədimiz var, gələcəkdə iqtisadiyyat, energetika sahəsində səmərəli əməkdaşlığı inkişaf etdirmək üçün, bəlkə də, olduqca çox təmas nöqtələrimiz var. Təbii ki, biz belə əməkdaşlığa hazırıq. Ümidvaram ki, ölkələrimiz arasında münasibətlərin daha da inkişafı regionda etimad və təhlükəsizlik tədbirlərinin möhkəmlənməsinə kömək edəcəkdir.

SUAL: Türkiyənin xarici işlər naziri Abullah Gül Türkmənistanda hakimiyyət boşluğu yarana biləcəyindən narahatlığını bildirmişdir.

İLHAM ƏLİYEV: Bilirsiniz, bu barədə nə isə demək bizim üçün çətindir, çünki kifayət qədər məlumatımız yoxdur. Görünür, Türkiyənin məlumatı daha çoxdur, onların arasında daha fəal siyasi dialoq var. Ona görə də Türkmənistandakı daxili siyasi vəziyyəti şərh etmək istəməzdim.

SUAL: Ötən həftə Türkmənistan Azərbaycana Xəzər dənizi ilə bağlı məsələnin artıq ikitərəfli əsasda həll olunmasını təklif etdi. Bu, İran, Türkmənistan, Azərbaycan və Rusiya arasında mövcud olan köhnə məsələdir. Bu məsələnin həlli hansı mərhələdədir və Siz Rusiyadan nə gözləyirsiniz?

İLHAM ƏLİYEV: Deməliyəm ki, biz Rusiya ilə bütün məsələləri həll etmişik. Bizim milli sektorlarımızı bölən dövlətlərarası sazişimiz var. Qazaxıstan ilə də və müvafiq olaraq, Rusiya ilə Qazaxıstan arasında da məsələ bu cür həll olunmuşdur. Beləliklə, Rusiya

yeganə Xəzəryanı ölkədir ki, qonşuları ilə problemlərini həll etmişdir. Çünki Rusiyanın qonşuları Azərbaycan və Qazaxıstandır. Qalanları ilə hələlik danışıqlar prosesi gedir. Düşünürəm ki, bir-biri ilə saziş imzalamış üç ölkə arasında mövcud olan format və razılaşma Xəzərin bölünməsinə dair hərtərəfli sazişin əsasını təşkil edə bilər və etməlidir. Hər şey beynəlxalq normalara, prinsiplərə, mövcud beynəlxalq təcrübəyə əsaslanmalıdır. Azərbaycan da bu istiqamətdə fəal əməkdaşlığa və danışıqlar aparmağa hazırdır. Təəssüf ki, Türkmənistanla danışıqlar prosesi, demək olar, sıfır nöqtəsindədir. İranla danışıqlar kifayət qədər intensivdir, müntəzəm məsləhətləşmələr keçirilir, İran nümayəndələri buraya gəlirlər, bizim mütəxəssislərimiz İrana gedirlər. Biz məsələnin beynəlxalq hüquq normaları və prinsiplərinə uyğun həllini tapmağa çalışırıq. İstənilən digər qərar qeyri-məqbuldur, çünki artıq hazır norma və prinsiplər vardır. Öz sektorunu artırmaq arzusu ola bilər, lakin hər şey prinsiplərə əsaslanmalıdır. Əgər bu prinsip bir dəfə pozularsa, onda o, bütün digər məsələlərdə də pozula bilər.

SUAL: Başqa sözlə, deməli bu, ikitərəfli sazişlər sistemidir?

İLHAM ƏLİYEV: Bu mərhələdə biz ikitərəfli sazişlər yolu ilə getdik, çünki məsələnin çoxtərəfli həlli yolunu tapmaq çətin idi. Ona görə də, zənnimcə, Rusiya, Qazaxıstan və Azərbaycan rəhbərlikləri öz aralarında razılığa gəlmək kimi müdrik qərar qəbul etdilər. Biz bir tərəfdən bu məsələləri həll etdik, bizim Qazaxıstan və Rusiya ilə Xəzərdə sərhədlərimiz müəyyənləşdirilmişdir. Eyni zamanda, bu, hərtərəfli saziş üçün bazadır.

SUAL: Deyəsən, Siz Türkmənistanla Xəzərdə hansısa qaz yatağının işlənilməsinə dair razılıq əldə edəndə İran məsələyə qarışdı və o zaman hansısa problem yarandı?

İLHAM ƏLİYEV: Belə şey olmamışdır. Sizin məlumatınız dəqiq deyildir, kim isə səhv məlumat vermişdir.

JURNALİST: Belə problemlər olmayıb?

İLHAM ƏLİYEV: Yox, olmamışdır. Təəssüf ki, Türkmənistanla Xəzərin orta xəttinə dair fikirlərimiz üst-üstə düşmür. Onlar məsələyə bir cür yanaşırlar, biz isə başqa cür. Yəqin ki, onlar hesab edirlər ki, onlar haqlıdırlar, bizim fikrimizcə, biz haqlıyıq. Yenə demək istəyirəm ki, bizim haqlı olduğumuzu təkcə sektorların bölünməsinə dair artıq mövcud təcrübə deyil, həm də Xəzərin Azərbaycan sektoruna və bu sektordakı yataqlara dünyanın aparıcı şirkətlərinin milyardlarla dollar sərmayə yatırması göstərir. Yeri gəlmişkən, Türkmənistanın bu yataqlara iddiası olub və indi də var. Yəqin ki, bu şirkətlərin yaxşı və savadlı hüquqşünasları var və onlara yaxşı məsləhətlər vermişlər ki, mübahisəli sektorda yerləşən yataqlara pul yatırmağa dəyər, ya dəyməz. Biz özümüz də 1994-cü ildə xarici şirkətlərlə danışıqların sonuncu fazasını keçirməzdən əvvəl ekspertiza apardıq və məlum oldu ki, əgər məsələ beynəlxalq arbitraja düşərsə, bizim xeyrimizə həll olunacaqdır. Buna görə də biz 1994-cü ildən bəri neft-qaz layihələrimizi təmiz vicdanla və əminliklə həyata keçiririk. Yeri gəlmişkən, Xəzər dənizi ilə bağlı məsələnin həll edilməməsi bizə milyardlarla dollar sərmayə cəlb etməyə mane olmamışdır.

SUAL: İlham Heydəroviç, bu mövzunu bitirmək üçün soruşuram, Siz deyirsiniz ki, mən Türkmənistanın daxilindəki siyasi hadisələrə qarışmaq istəmirəm. Lakin onlar, əksinə, Sizin işlərinizə qarışa bilərlər. Aranızda əlaqə - ölkənizlə Türkmənistan arasında bərə əlaqəsi var və qaçqınlar meydana gələ bilər. Siz buna hazırsınızmı?

İLHAM ƏLİYEV: Yox, siz nə deyirsiniz! Biz bu məsələni hətta nəzərdən belə keçirmirik. Yeri gəlmişkən, digər dövlətlərin işlərinə qarışmamaq bizim xarici siyasətimizin prinsiplərindən biridir. Hesab edirik ki, ölkələr bir-birinin işlərinə az qarışsalar, dünya qat-qat təhlükəsiz olar. Ona görə də biz digər ölkələrdə hər hansı daxili siyasi vəziyyəti prioritetimiz kimi nəzərdən keçirməyə heç vaxt çalışmırıq və eyni zamanda, kimsə bizim işlərimizə qarışmağa cəhd edəndə, bu, bizi çox qıcıqlandırır.

SUAL: Bildiyimizə görə, "Qazprom"un nümayəndə heyəti Rusiya qazının qiymətini müəyyən etmək üçün bu gün Azərbaycana gəlməlidir. Bizə həm də məlum olduğuna görə, Rusiya qazın qiymətini 230 dollaradək qaldırmağı planlaşdırır. Siz buna necə baxırsınız, hesab etmirsinizmi ki, bu, Rusiyanın siyasi oyunudur?

İLHAM ƏLİYEV: Məsələ belədir. Əvvəla, "Qazprom"un dəvəti ilə nümayəndə heyətimiz bu gün Moskvadadır. Danışıqlar artıq kifayət qədər çoxdan gedir və təəssüf ki, bir nəticə yoxdur, çünki "Qazprom" ilə Azərbaycanın neft şirkəti arasında qarşılıqlı surətdə faydalı əməkdaşlığın müsbət səviyyəsi və çəkisi azalır, özü də bizim təqsirimiz olmadan azalır. Əgər sizin üçün maraqlıdırsa, mən bunun bir qədər tarixindən danışa bilərəm.

JURNALİST: Çox maraqlıdır.

İLHAM ƏLİYEV: Biz Rusiya qazını almaq proqramına başladıqda qiymət 48 dollar səviyyəsində idi. O vaxt bununla "İtera" şirkəti məşğul olurdu, bizim onunla uzunmüddətli müqaviləmiz vardı və bu müqavilənin yerinə yetirilməsindən çox razı idik. Sonra, bizdən asılı olmayan səbəblərə görə, təchizatçı dəyişdi, o, "Qazprom" oldu. Onunla təsbit olunmuş qiymətə, səhv etmirəmsə, hər min kubmetr üçün 55 və ya 60 dollara beşillik müqavilə bağlandı. Lakin keçən il "Qazprom" bu müqaviləni birtərəfli qaydada ləğv etdi, başqa sözlə, anlatdı ki, qaz həmin qiymətə yox, 110 dollara veriləcəkdir. Biz razılaşdıq, hərçənd, bu, təəccüblü idi. Hər halda, iri bir şirkətin beş il müddətinə beynəlxalq öhdəliyi vardı. Biz 1994-cü ildə xarici şirkətlərlə "Əsrin müqaviləsi"ni imzaladıq və bu müqavilədə bir vergül belə dəyişdirilməyibdir. Hesab edirik ki, etimadı illərlə qazanmaq lazımdır, onu səhv bir addımla itirmək olar. Lakin, görünür, belə yanaşma heç də hər yerdə yoxdur. Deməli, öhdəliklərin pozulmasına baxmayaraq, biz xoş məram və əməkdaşlıq ruhu göstərdik, bir min kubmetri 110 dollara razılaşdıq. Amma bu qiymət birdən-birə 230 dollara, son məqamda isə 235 dollaradək qaldırıldıqda, əlbəttə ki, bunun Rusiya-Azərbaycan münasibətlərinin ruhuna, xarakterinə və mahiyyətinə tam uyğunsuzluğu hiss edilir. Bu isə təəssüf doğurur, çünki bizim münasibətlərimiz çox müsbət, çox konstruktiv tərzdə qurulur və energetika ilə müqayisədə daha geniş sahələri əhatə edir. Yox, əgər söhbət energetikadan, xüsusən də qazdan gedirsə, onda, qiyməti birtərəfli qaydada qaldırmağa və Azərbaycanı müəyyən dərəcədə məcburiyyət qarşısında qoymağa çalışmaqdansa, görünür, birgə fəaliyyət, müştərək layihələr üçün təmas nöqtələrini axtarmaq daha məntiqi və ağlabatan olardı. Azərbaycanı məcbur etmək qeyri-mümkündür. Azərbaycan elə dövlət deyil ki, onu məcbur edə biləsən. Digər tərəfdən, qiyməti qaldırmaq "Qazprom"un haqqıdır. "Qazprom" 500 dollar da, min dollar da elan edə bilər. Bu, onun haqqıdır. Eləcə də bizim bundan imtina etməyə haqqımız var.

SUAL: Belə başa düşürəm ki, qiymət 230 dollar olarsa, Rusiyadan aldığımız qazın həcmini azaldacaqsınız?

İLHAM ƏLİYEV: Biz onu almaqdan ümumiyyətlə imtina edə bilərik.

JURNALİST: İmtina etmək? Bəs onda qazı haradan alacaqsınız, Sizə əlavə qaz lazım deyilmi?

İLHAM ƏLİYEV: Bəli, bizə əlavə qaz lazımdır, ona görə ki, biz özümüzü qazla hələlik təmin edə bilmirik. Bu il bizdə neft hasilatı 30 milyon ton olmuşdur, daxili tələbat isə 6 milyon ton təşkil edir. Ona görə də burada problem yoxdur. Qaz hasilatı 4,5-5 milyon kubmetr olmuşdur, daxili tələbat isə 10 milyon kubmetrdir. Odur ki, bizdə qıtlıq var. Bu qıtlıqdan istifadə etmək isə yaxşı iş deyildir. Biz heç vaxt belə etməzdik. Biz qazı haradan alacağıq? Almalı yerimiz yoxdur. Deməli, biz öz enerji balansımızı dəyişdirməli, onu mazut-qaz yanacağından mazut yanacağına keçirməliyik. Bu, nəyə gətirib çıxaracaq? Aydındır ki, biz Azərbaycan neftinin Novorossiysk limanına nəqlini azaltmalı olacağıq. Başqa çarəmiz yoxdur. Elektrik stansiyalarımız nə iləsə işləməlidir: qaz olmasa, mazutla işləyəcək. Bəs mazutu haradan almaq olar? Ancaq neft emal etməklə. Bəs nefti haradan alaq? Bakı-Novorossiysk kəmərindən. Gördüyünüz kimi, kommersiya baxımından belə aqressiv addım atıldıqda, o, bu cür nəticələrə doğru aparır. Ən başlıcası odur ki, ölkələrimiz arasında mehriban qonşuluq münasibətlərinin inkişafını o qədər də istəməyən müəyyən qüvvələr bu vəziyyətdən istifadə etməsin və baş verən hadisələrin mahiyyətini siyasi baxımdan səhv yozmasınlar. Hesab edirəm ki, bu məsələni kommersiya və energetika çərçivəsində saxlamaq və ona başqa qiymət verməmək lazımdır.

SUAL: Yəni, Siz siyasi məna məhəl qoymadınız? Belədir, cənab Prezident?

İLHAM ƏLİYEV: Bilirsiniz, siyasi məna olub-olmadığını demək mənim üçün çətindir. Mən vəziyyətdən Azərbaycan üçün minimum itki ilə və eyni zamanda, ləyaqətlə çıxmağın yolunu tapmağı qərara aldım. Mən Azərbaycanın kommersiya şantajı elementlərinə məruz qalan ölkəyə çevrilməsinə imkan verə bilmərəm. Buna yol verə bilmərəm.

JURNALİST: Bilirsiniz, sadəcə, Rusiyada hesab edirlər ki, Gürcüstanın qaz blokadasında iştirak etmək istəmədiyi üçün bu yolla Azərbaycanı cəzalandırırlar. Axı, Siz Gürcüstana qaz göndərməkdə davam edirsiniz?

İLHAM ƏLİYEV: Biz Gürcüstana qaz göndərmirik.

JURNALİST: Bu, bir çox Rusiya təhlilçilərinin...

İLHAM ƏLİYEV: ...deyərdim ki, bir çox Rusiya məmurunun fikridir. Bu, çox pis haldır. Yeri gəlmişkən, ilk dəfə deyil ki, belə yalan xəbərlər sonradan geniş müzakirə olunmuş və bu yalan məlumatlar əsasında nəticələr çıxarılmışdır. Biz Bakı-Tbilisi-Ceyhan neft kəmərinin tikintisi zamanı da bununla rastlaşmışıq. Onda deyirdilər ki, bu kəmər Rusiya əleyhinə yönəldilmişdir. Aralıq dənizinə gedən boru kəməri nə üçün Rusiya əleyhinə yönəldilməlidir? Rusiya ərazisindən Aralıq dənizinə boru kəməri çəkmək olar? Yəqin ki, yox. Ona görə də kəmər Rusiyadan yan keçir, biz yan keçmək istədiyimiz üçün yox. Əgər yan keçmək istəsəydik, onda Bakı-Novorossiysk boru kəmərindən istifadə etməzdik. Yeri gəlmişkən, bu kəmər iqtisadi baxımdan ziyanlıdır və Bakı-Supsa, yaxud Bakı-Tbilisi-Ceyhan boru kəmərləri ilə qətiyyən müqayisə edilə bilməz. Sadəcə, dünya bazarlarından uzaqda yerləşən hasilatçı ölkə kimi bizə Aralıq dənizinə çıxan boru kəməri lazımdır. Vəssalam. Onda bu məsələ ilə bağlı diskussiyalar gedirdi, ilk baxışda çox məlumatlı təsiri bağışlayan adamlar Azərbaycanın dostcasına hərəkət et-

mədiyi barədə ciddi diskussiya aparırdılar. İndi də eyni vəziyyət yaranmışdır. Biz Gürcüstana qaz göndərmirik. Biz özümüz qazı alırıq. Biz bu il 4,5 milyard kubmetr qaz almışıq. Yeri gəlmişkən, Rusiyanın ən yüksək vəzifəli rəhbərlərinin informasiyasına və bəyanatına görə, Rusiyaya borcla bağlı problemi olmayan yeganə ölkə bizik. Biz qabaqcadan ödəmişik, biz borclu deyilik, heç vaxt müqavilələri pozmamışıq. Ona görə də bu fonda qiymətin belə qaldırılması bizə qəribə görünür. Mən buna qiymət vermək və ehtimallar qurmaq fikrində deyiləm, ehtimallar əsasında nəticə çıxarmağı sevmirəm.

SUAL: İlham Heydəroviç, Rusiyada bilirlər ki, Sizin Prezident Putinlə şəxsi münasibətləriniz var. O da məlumdur ki, Prezident Putin "Qazprom"da baş verənləri diqqətlə izləyir. Elə dünən o, Saxalin-2 layihəsinin rəhbərlərini Aleksey Millerlə birlikdə qəbul etmişdi. Siz bunu, özünüz dediyiniz kimi, kommersiya məsələsi kimi deyil, siyasi məsələ kimi, - çünki Azərbaycan Rusiyanın siyasi müttəfiqidir, - həll etməyə çalışmamısınız? Siz bu barədə Rusiya Prezidenti ilə danışmamısınızmı? Bax belə bizə dediyiniz kimi?

İLHAM ƏLİYEV: Təbii ki, danışdım. Mən bunu Moskvada axırıncı dəfə olarkən fikir mübadiləsi qaydasında dedim. Bu, noyabrın əvvəlində olmuşdur. Təbii ki, bu mövzu çox geniş fikir mübadiləsi kontekstində müzakirə edildi. Lakin o mənada müzakirə edilmədi ki, "Qazprom"a deyəsiniz, bizə qazı ucuz versinlər. Mən suveren dövlətin Prezidentiyəm. Mən heç vaxt heç kimdən xahiş etmirəm. Əgər hansısa bir vəziyyət yaranıbsa, deməli, ondan çıxmaq lazımdır. Biz özünü təmin edən ölkəyik. Biz heç kimdən asılı deyilik. Ermənistandan fərqli olaraq, biz soyuqdan donmarıq. Ermənistanda artıq indinin özündə həyəcan qaldırmışlar ki, onların qaz anbarlarında qaz tükənir, çünki Gürcüstanda boru partlayıb və xahiş edirlər ki, bizi xilas edin. Biz belə tərbiyə edilməmişik. Bizim ikitərəfli münasibətlərə yanaşmamız başqadır və bu münasibətləri başqa cür dərk edirik. Biz hər bir ölkə ilə, o cümlədən də Rusiya ilə ikitərəfli münasibətləri qarşılıqlı fayda, mehriban qonşuluq, - əgər söhbət qonşulardan gedirsə, - tərəfdaşlıq, hörmət və ləyaqət səviyyəsində nəzərdən keçiririk. Ona görə də xahiş etmək bizə xas deyildir.

JURNALİST: Bu əhvalatlar, təkcə sizinlə bağlı hadisə deyil, son zaman baş verənlər MDB-nin sonudur. Bu, MDB-nin, sadəcə olaraq, güllələnməsi deməkdir? MDB-nin mahiyyəti...

İLHAM ƏLİYEV: Mən MDB-nin mahiyyətini ucuz Rusiya qazı səviyyəsinə endirməzdim. Bilirsinizmi, hər halda, 15 il hər bir ölkənin özünü müstəqil hiss etməsi üçün böyük müddətdir. SSRİ-nin süqutu nəticəsində müstəqillik əldə etmək heç də ən böyük nailiyyət deyildir. Milli azadlıq mübarizəsinin mövcud olduğu və olmadığı ölkələrin hamısı obyektiv və əlbəttə ki, həm də subyektiv səbəblərə görə müstəqillik əldə etdi. Ona görə də düşünürəm ki, ikitərəfli münasibətləri, - o cümlədən də Rusiya ilə, - məhz bu nöqteyi-nəzərdən keçirmək vaxtı çoxdan çatmışdır. Rusiya heç kimə heç nə borclu deyil və əgər qazı Avropaya 260 dollara satırsa, onda nə üçün MDB ölkələrinə başqa qiymətə satmalıdır. O, başqa ölkədir. Ola bilsin, biz bunu, sadəcə, daha tez başa düşmüşük və heç bir xəyala qapılmırıq. Yeri gəlmişkən, deməliyəm ki, MDB çərçivəsində də bizim hansısa iddialarımız və ya xahişlərimiz, yaxud hisslərimiz yoxdur ki, deyək siz bizə borclusunuz. Heç kim heç kəsə borclu deyil. Əgər sən müstəqil dövlətsənsə, problemləri özün həll et. Ona görə də mən bu məsələni, ümumən, siyasiləşdirməzdim. Hərçənd siyasi mənanı, əlbəttə, istisna etmək olmaz. Amma MDB-nin varlığının vacibliyini ucuz qaza bağlamaq da, sadəcə, düzgün olmazdı.

SUAL: Yaxşı. Gəlin, MDB-yə iqtisadi nöqteyi-nəzərdən baxaq. Ucuz qaz yoxdur. Məsələn, Gürcüstana öz şərabını, öz mineral suyunu Rusiyaya ixrac etmək qadağan edilmişdir və sair. Birlik üzvləri üçün MDB-də hansı iqtisadi fayda qalmışdır? Məsələn, Sizin üçün, Azərbaycan üçün? Sizin üçün MDB-nin faydası nədədir?

İLHAM ƏLİYEV: Bu, bizə heç nə vermir. Mən açıq deyirəm. Biz MDB üzləri ilə münasibətlərimizi ikitərəfli əsasda qururuq. Məsələn, iqtisadi baxımdan qonşularla həyata keçirdiyimiz layihələr MDB çərçivəsindən kənardadır. Məsələn, siyasi əlaqələr baxımından da: Bizim, demək olar, MDB-nin bütün ölkələri ilə ikitərəfli münasibətlər çərçivəsində münasibətlərimiz yaxşıdır. Buna görə praktik nöqteyi-nəzərdən MDB heç nə vermir. Bu, görüşlərin keçirilməsi, danışıqlar aparılması üçün yaxşı formatdır. Bu yaxınlarda Minskdə keçirilən MDB zirvə görüşündə liderlər arasında bir sıra görüşlər olmuşdur, onlar danışmışlar, fikir mübadiləsi aparmışlar, vəssalam. Başqa sözlə, MDB-yə böyük tələblərlə yanaşmaq lazım deyildir. Eləcə də digər təşkilatlara. Məgər BMT hansısa qlobal məsələləri həll etmişdir? BMT Baş Məclisinin qətnamələri, məsələn erməni qoşunlarının işğal olunmuş ərazilərdən dərhal çıxarılmasını tələb edən 4 qətnamə 14 ildir yerinə yetirilmir. Heç kim demir ki, BMT-ni buraxmaq lazımdır və ya o, faydalı deyildir. Başqa sözlə, böyük tələblər qoymaq lazım deyildir. Həm də MDB-nin necə yaradıldığını yada salmaq lazımdır. Axı bu, nə Avropa İttifaqı, nə GUAM və hətta Avrasiya İqtisadi Birliyi də deyildir. MDB üzvləri taleyin hökmü ilə bu təşkilatda birləşmişlər. Düşünürəm ki, onun mövcud olması, olmamasından daha müsbət haldır. Onun dağılması ilə yaxşı heç nə olmayacaqdır. İndi heç olmazsa, görüşmək, danışmaq imkanı vardır. Kimsə hesab edir ki, MDB çərçivəsində problemlər həll oluna bilər. Mən ilk dəfə 2003-cü ildə, hələ Baş nazir olarkən MDB-nin Yaltada keçirilən zirvə toplantısına öz problemlərimlə gəlmişdim. Sonra yeni prezidentlər ilk dəfə öz problemlərini müzakirəyə çıxaranda mən özümü xatırlayırdım. Bu, o format deyildir. O, heç nə həll etmir. Məsələn, hətta münaqişələrin nizama salınması məsələlərində. Dağlıq Qarabağ münaqişəsinin nizama salınması ilə kim məşğul olur? ATƏT. Gürcüstanda və ya Moldovada münaqişələrlə kim məşğul olur? MDB? Xeyr. MDB-dən çox şey gözləmək lazım deyildir.

SUAL: GUAM-da üzvlük Sizə nə verir?

İLHAM ƏLİYEV: GUAM 1997-ci ildə yaradılmış təşkilatdır. Bu təşkilatın yaradılmasının zamanın və şəraitin tələbi olduğuna əmin olmaq üçün həmin dövrdəki Rusiya-Azərbaycan münasibətlərini yada salmaq kifayətdir. Çoxları unutmuşlar, ancaq o zaman Azərbaycan blokadada idi. Rusiya Azərbaycanı Volqa-Don kanalında, sərhəddə blokadaya almışdı. Mərhum general Roxlin Ermənistana milyard dollarlıq qanunsuz silah verilməsi faktını açıqlayanda Rusiya Dumasında böyük qalmaqal qalxmışdı.

JURNALİST: Baxmayaraq ki, bu işi Prezident Yeltsinin nəzarət idarəsinin rəisi Vladimir Vladimiroviç Putin araşdırırdı.

İLHAM ƏLİYEV: Sizin yaxşı yaddaşınız var. Axı, bu olmuşdu. Ərazilərin 20 faizini zəbt etmiş, azərbaycanlılara qarşı etnik təmizləmə aparmış, bir milyon insanı evsiz-eşiksiz qoymuş işğalçı ölkə əlavə olaraq birdən-birə milyard dollarlıq silah alır. Bu hərbi tarazlığın tam pozulması demək idi. Lakin indi biz onu kompensasiya etmişik. Biz hərbi tarazlığı öz xeyrimizə dəyişmişik. Ancaq dediklərim GUAM-ın yaradılması ərəfəsində olan reallıqlardır. Buna görə də Ukrayna, Gürcüstan, Moldova və Azərbaycanın bu təş-

kilata daxil olmasında qəribə heç nə yoxdur. Bir qədər sonra Özbəkistan da qoşuldu, sonra çıxdı. Kifayət qədər səmərəli formatdır.

Hesab edirəm ki, təşkilat anti- olmamalıdır. Yeri gəlmişkən, Azərbaycanın bu təşkilatda iştirakı müsbət amildir. Prinsipcə, biz heç kimə qarşı heç bir kampaniyada iştirak etmirik. Bizim Ermənistanla, ərazilərimizi işğal etmiş ölkə ilə problemimiz vardır. Biz onunla bütün metodlarla, bütün vasitələrlə, bütün geniş cəbhə boyunca - iqtisadi, siyasi, hərbi, informasiya, təbliğat sahələrində, hər sahədə mübarizə aparırıq və aparacağıq. Digər ölkələrlə bizim problemimiz yoxdur və biz heç vaxt kiməsə qarşı kampaniyaya qoşulmayacağıq. GUAM bizə nə vermişdir? - məsələsinə gəldikdə... Deyə bilərəm ki, GUAM-ın təşəbbüsü hazırda Birləşmiş Millətlər Təşkilatının gündəliyinə daxil edilmişdir. Biz GUAM çərçivəsində ilk dəfə bütün separatçı münaqişələri bir formatda birləşdirməyə nail olmuşuq. Axı, əvvəllər bu, yox idi. Nədənsə, əvvəllər həmişə, xüsusilə Qərbdə, hesab edilirdi ki, Abxaziyada, Osetiyada və Dnestryanıda baş verənlər separatizmdir, Dağlıq Qarabağdakı isə guya hansısa azadlıq hərəkatıdır. Halbuki mahiyyət eynidir - təcavüzkar separatizm. Nəticə də eynidir - etnik təmizləmə, ərazilərin işğalı və yüz minlərlə, milyon qaçqın. Lakin erməni lobbisinin xüsusiyyətləri sayəsində onlar həmişə bu formatdan ayrıla bilmişlər. GUAM bunların hamısını sistemləşdirdi və dondurulmuş münaqişələr barədə bəndin daxil edilməsi haqqında məhz GUAM-ın təklifi olan qətnamə BMT-də keçmişdir. Bəzi ölkələr bunun əleyhinə çıxdılar, lakin dünyanın aparıcı ölkələri lehinə oldu. Bax bu, yaxın vaxtlarda yaradılmış təşkilatın artıq bu cür təşəbbüslə çıxış etməsinə misaldır.

SUAL: Cənab Prezident, bir halda ki, Siz Dağlıq Qarabağ mövzusuna toxundunuz, Siz Rusiyanın Minsk qrupu çərçivəsində regionda vasitəçilik fəaliyyətinin aktivliyindən nə dərəcədə razısınız? Bəlkə də, Minsk qrupu çərçivəsindən kənarda. Sizin fikrinizcə, Rusiya həlledici söz deyə bilərmi? Kobud desək, Sizcə, bu problemin həllinin açarları və ya açarlarından biri nə dərəcədə Moskvadadır?

İLHAM ƏLİYEV: Biz həmişə Minsk qrupuna vahid orqanizm kimi baxmışıq. Yeri gəlmişkən, deməliyəm ki, Minsk qrupunun fəaliyyətinin son mərhələsi münaqişənin həlli yollarının tapılmasına cəhd göstərilməsi baxımından kifayət qədər müsbətdir, həm də, bəlkə də bu, Minsk qrupu həmsədrlərinin birgə aktiv fəaliyyətinin hələlik qalmaqda olan sayca az elementlərindən biridir. Fransa, Rusiya, ABŞ Ermənistan-Azərbaycan münaqişəsinin həlli çərçivəsində birgə işləyirlər. Bu, müsbət haldır. Lakin biz ayrılıqda danışıqlar aparmırıq. Minsk qrupunun həmsədrləri olan ölkələrin nümayəndələri hər dəfə, adətən, ya hamısı bir yerdə gəlirlər, yaxud da kimsə hansı səbəb üzündənsə gələ bilmirsə, onun rəyi başqalarının rəyindən fərqlənmir. Buna görə də bizim üçün kimisə fərqləndirmək çətindir. Ayrıca formatda biz nə Rusiya ilə, nə Fransa ilə, nə Amerika ilə bu məsələ ilə məşğul oluruq.

SUAL: Hesab edirsiniz ki, Abxaziya, Osetiya və ya Dnestryanı məsələsinin həllinin açarı Moskvadadır? Belə çıxır ki, Dağlıq Qarabağ münaqişəsi ayrıca məsələdir.

İLHAM ƏLİYEV: Biz münaqişənin həlli yollarını tapmağa cəhd göstərən ölkələrə hörmət və minnətdarlıqla yanaşırıq. Bu, bizim məsələmizdir, onu heç kimin çiyinlərində qoymamalıyıq. Biz özümüz onu həll etməliyik. Bu, bizim torpağımızdır, bizim ərazimizdir. Biz güclü olmalıyıq, iqtisadiyyatı möhkəmləndirməliyik, ordunu möhkəmlən-

dirməliyik, diplomatik cəbhədə daha fəal olmalıyıq, biz Ermənistandan daha vacib ölkə olmalıyıq və artıq oluruq. Öz əhəmiyyətimiz, potensialımız və layihələrimizlə erməni lobbisini üstələməliyik. Axı bizim mübarizəmiz, əslində, Ermənistanla deyildir. Əgər açıq danışsaq, Ermənistan bir ölkə kimi bizə rəqib deyil. Əgər erməni lobbisi aradan götürülsə, məsələ asanlıqla həll olunar.

ALEKSEY VENEDİKTOV ("Exo Moskvı"): 2000-ci ildə mən Davosda olanda küçə ilə gedirdim və birdən eşitdim: "Aleksey!". Heydər Əliyeviç masa arxasında əyləşmişdi və dedi: "Aleksey, gəl əyləş". Mühafizəçilər kənara çəkildilər, onun Koçaryanla əyləşdiyini gördüm. O dedi: "Əyləş, üçüncü olarsan". Əyləşdim, təbii ki, mənə qəhvə gətirdilər. Fikirləşirdim ki, Heydər Əliyeviç nə üçün məni çağırdı, bilirdim ki, bu, əbəs deyildi. Səssizcə oturub üçlükdə qəhvə içirdik. Sonra o, mənə tərəf dönüb, - mən onunla Koçaryanın arasında oturmuşdum, - dedi: "Aleksey, yadında saxla, mən Roberti partiyaya qəbul etmişəm". Qəhvəni içdi. O zaman birbaşa danışıqlar aparılırdı, prezidentlər görüşürdülər...

İLHAM ƏLİYEV: Görüşlər indi də var...

JURNALİST: Danışıqlar irəliləyirmi? Siz xatırladınız, zənnimcə, Sizin bunun uğrunda hərbi qüvvə ilə də mübarizə aparmağa hazır olduğunuzu eşitdikdə, çoxları dik atılacaqdır. İlham Heydəroviç, əlbəttə, başa düşürəm, Siz bunu elə-belə, sözgəlişi demədiniz. Hər halda indi bu münaqişəni, məsələn, ikitərəfli danışıqlarla kifayət qədər tezliklə və kifayət qədər ağrısız həll etməyə imkan varmı?

İLHAM ƏLİYEV: Danışıqlar, ümumiyyətlə, ikitərəfli formatda da gedir. Minsk qrupu, sadəcə olaraq, bir növ vasitəçidir, təkliflər hazırlayır, tərəflərin rəylərini nəzərə alır. Biz görüşdük, bir saat-saat yarım danışdıq və dağılışdıq. Bundan sonra xarici işlər nazirləri görüşdülər və sair. Bizdə işçi orqan yoxdur. Minsk qrupu müəyyən dərəcədə işçi orqanın funksiyalarını da yerinə yetirir, görüşlərin yekunlarına dair tövsiyələr, arzular alır, regiona gedir və bizdən eşitdiklərinin əsasında mövqeləri yaxınlaşdıra biləcək formullar tapmağa çalışır. Ona görə də Minsk qrupunun fəaliyyəti müsbətdir. Qərarlar tapılması baxımından yox, məhz eşidilənlərin ümumiləşdirilməsi və az-çox məqbul bəndlər hazırlanması baxımından. Lakin hər şey, əlbəttə, Ermənistanın mövqeyindən asılı olacaqdır. Çünki bizim mövqeyimiz kifayət qədər aydındır. Azərbaycanın ərazi bütövlüyünü bütün dünya tanımışdır. Yeri gəlmişkən, bu yaxınlarda atılmış addım, deyərdim ki, uydurma konstitusiya üzrə referendum keçirilməsi kimi çox ağılsız addım bütün dünyaya və bütün beynəlxalq təşkilatlara bu hərəkəti pisləməyə bir daha imkan verdi. Bunu ATƏT də etdi. Bunu Minsk qrupu - Rusiya, Fransa, Amerika, Türkiyə, Avropa Şurası, Avropa İttifaqı, GUAM, İslam Konfransı Təşkilatı da etdi. Hamı. Yəni, referendum keçirilməsini pisləbilər. Yeri gəlmişkən, biz - bəlkə də, ekspertlərdən kimlərsə buna diqqət yetirməmişdir - referendum keçirilməzdən əvvəl xüsusi olaraq etiraz etməmişdik. Mən, sadəcə, bunun nə vaxt baş verəcəyini gözləyirdim, reaksiyanın necə olacağını bilirdim. Bunu Ermənistanda, nədənsə, təəccüblə qarşılamışdılar. Olmaya, onlar göydən düşmüşdülər, bilmirdilər ki, belə reaksiya olacaq? Mən necə reaksiya göstəriləcəyini bilirdim. Ona görə də bu ağılsız addımın nə vaxt atılacağını gözləyirdim. Bu addım atıldı. Bununla da BMT Təhlükəsizlik Şurasının qətnamələrindən 14 il sonra Azərbaycanın ərazi bütövlüyü yenidən təsdiq edildi. Heç kim heç vaxt Dağlıq Qarabağı müstəqil döv-

lət kimi tanımayacaqdır. 60 min nəfər əhalisi olan ölkə heç kimə gərək deyildir. Özü də bu, ilk növbədə, Azərbaycanın iradəsi olmadan mümkün deyil, biz isə buna heç zaman razılaşmayacağıq. Ona görə də Ermənistan rəhbərliyi bu başlıca məsələni anlamalıdır ki, bu, heç vaxt olmayacaqdır. Əlbəttə, ərazi bütövlüyü çərçivəsində həll yolu tapmaq olar. Biz müxtəlif modellər - muxtariyyət, özünüidarə, yüksək status təklif etmişik, Avropada, dünyanın digər ölkələrindəki oxşar halları araşdırmışıq. Axı, azlıqda olmaq ərazini ölkədən ayırmaq demək deyildir. Biz XXI əsrdə yaşayırıq, orta əsrlərdə, mağara psixologiyası ilə yaşamırıq. Etnik təmizləmə aparmaq, bütün azərbaycanlıları qovmaq, sonra da referendum keçirmək - bunları bir neçə əsr əvvəl etmək olardı, indi isə heç kim belə şeyi qəbul etmir.

SUAL: Siz indi Naxçıvanda olanda dediniz ki, gələn il Azərbaycanın hərbi büdcəsi Ermənistanın bütün büdcəsinə bərabər olacaqdır. Rusiyanın hərbi mütəxəssisləri ehtiyat edirlər ki, Siz ABŞ-dan silah almağa başlayacaqsınız. Siz silahı haradan alırsınız və haradan almağa hazırlaşırsınız?

İLHAM ƏLİYEV: Yeri gəlmişkən, mən bunu iki il əvvəl demişəm. Mən qarşıya vəzifə qoymuşdum. Onda Azərbaycan büdcəsi ümumiyyətlə indiki kimi deyildi. Büdcəmiz dörd il ərzində dörd dəfə artdı, bizim büdcəmiz 6,5 milyard dollar, birləşdirilmiş büdcə isə təxminən 8 milyard dollardır. Mən sözümün üstündə durmağa adət etmişəm. Ona görə də sözümün üstündə durdum və ordunun büdcəsini Ermənistanın bütün büdcəsinə çatdırdım. Bu, son həddi deyildir, onu ötüb keçəcəkdir. Silah almağa gəldikdə isə, harada ucuz, keyfiyyət yaxşı, problemlər azdırsa, oradan alacağıq. Biz Rusiya ilə də əməkdaşlıq edirik. Yeri gəlmişkən, bizim münasibətlərimizin elementlərindən biri hərbi-texniki sahədə əməkdaşlıqdır. Yeni elementdir. Bu da bizim üçün münasibdir. Bizim üçün istehsalçıdan almaq, sonradan üçüncü əllərdən almaqdan daha yaxşıdır.

SUAL: Yəni, Siz ABŞ-dan silah almaq imkanlarını istisna etmirsiniz?

İLHAM ƏLİYEV: Zənnimcə, orada bizə silah satmayacaqlar.

JURNALİST: Dinləyicilərdən çoxlu sual alınmışdır. Onlar soruşurlar: Azərbaycan NATO-ya daxil olacaqmı?

İLHAM ƏLİYEV: Mən bu mövzuda Bakıda, yeri gəlmişkən, o cümlədən NATO-da dəfələrlə danışmışam. Mən hadisələri qabaqlamağı, əsassız bəyanatlar verməyi sevmirəm. Əvvəla, hər hansı təşkilata daxil olmaq ikitərəfli prosesdir. Təşkilat sənin ona daxil olmağını istəyir, ya yox. Qapı döymək, təkid, xahiş etmək, yalvarıb-yaxarmaq mənim xarakterimə ziddir. Bu, Avropa İttifaqına da aiddir. Biz beşillik saziş, Qonşuluq proqramı imzalamışıq, kifayət qədər səmərəli mexanizmlər var. Biz ölkəmizin meyarlarını ümumdünya, Avropa meyarlarına yaxınlaşdırmaq üzərində işləməliyik. Bunun oraya daxil olmağa gətirib çıxarıb-çıxarmayacağı başqa məsələdir. Hətta bu və ya digər səbəbdən gətirib çıxarmasa da, biz artıq açıq cəmiyyət olacağıq. Bizim nadir imkanımız var. Azərbaycanın iqtisadi artımı indi dünyada ən yüksək - 34 faizdir, ötən il 26 faiz idi, gələn il yəqin ki, 30 faiz olacaqdır. İstehsalın artımı, üç il ərzində yarım milyon iş yerinin açılması, əslində, bir ildə yoxsulluğun səviyyəsinin 49 faizdən 29 faizədək azalması, sənaye istehsalının 40 faiz artması. Biz texniki göstəricilərinə görə nadir enerji layihələri həyata keçirmişik. Geosiyasi baxımdan bu, nadir hadisədir. Bakı-Tbilisi-Ceyhan, sadəcə, neftlə doldurulmuş boru parçası deyildir. Qaz, dəmir yol layihələri də bu qəbildəndir. Biz dəmir yolunu Türkiyə və Gürcüstan vasitəsilə Avropa ilə birləşdirmək istəyirik. Yəni, belə nadir sosial-iqtisadi imkanımız olduğuna görə, təbii ki, siyasi islahatları hərəkətə gətirməliyik. Əlbəttə, bunun baş verməməsi faciə ilə nəticələnməyəcək. Ölkə inkişaf edəcək, lakin bu, tam inkişaf olmayacaqdır. Biz ölkəni müasirləşdirmək istəyirik ki, güclü siyasi sistemi və azadlıqları olan müasir dövlətə çevrilsin. Ən yaxşı nümunə Avropadır. Bu, sirr deyildir. Ona görə də bizim üçün tərəfdaşlıq proqramı onlardan nəyisə xahiş etmək və kömək göstərin demək cəhdi deyildir. Biz, bəlkə də onlara daha çox lazım olacağıq, nəinki onlar bizə. Bu, bizim üçün ölkəmizin bütün göstəricilərini yaxşı səviyyəyə gətirmək imkanıdır. Eyni sözləri NATO haqqında da demək olar. Biz "Sülh naminə tərəfdaşlıq" çərçivəsində, fərdi tərəfdaşlığın fəaliyyət planı çərçivəsində əməkdaşlıq edirik. Yeri gəlmişkən, Kollektiv Təhlükəsizlik üzrə Müqavilə Təşkilatının (KTMT) üzvü olan Ermənistan da orada əməkdaşlıq edir. Nə üçünsə, heç kəs Ermənistandan soruşmur ki, siz daxil olmaq istəyirsinizmi? Bizdən isə soruşurlar. Heç olmasa, onlardan da soruşsunlar: əgər KTMT-nin üzvüdürlərsə, NATO-nun fərdi tərəfdaşlıq planında nə işləri var. Uzun müddət iki stulda oturmaq olmaz. Özü də hazırda onlar bəzi dövlət xadimlərinin "köməyi" ilə Rusiyanın Qafqazda forpostu kimi yüksək status almışlar. Lakin aydın deyil ki, bu forpost kimin əleyhinədir. Bizim əleyhimizə? Kimin əleyhinə? Zənnimcə, bu, ümumiyyətlə zərərli yanaşmadır. Bəzən eşidirəm ki, Rusiyanın Qafqazda yeganə müttəfiqi Ermənistandır. Nəyə görə? Baxın, Azərbaycanla Ermənistanı tərəziyə qoyun, əlbəttə, mən dərinə getmək istəmirəm, mövzu kifayət qədər genişdir. Azərbaycan Rusiyanın qonşusudur, Ermənistan isə qonşusu deyildir. Azərbaycanın Rusiya Qafqazı ilə dərin tarixi, mədəni əlaqələri var, Ermənistanın isə yoxdur. Azərbaycan neft və qaz hasil edən ölkədir və indiki halda artıq hasilatçı kimi müttəfiqdir. Lakin biz Rusiya ilə rəqabət apara bilmərik. Rusiya hər il Avropaya 150 milyard kubmetr qaz satır. Bizim gələn il üçün qaz hasilatımız isə 10 milyard kubmetr olacaqdır. Eyni sözləri elektroenergetika haqqında da demək olar, biz energetika sistemlərimizi birləşdirmişik. Ona görə də nə üçün Azərbaycan daha az əhəmiyyətli ölkədir? Bu, mənə aydın deyildir. Yəni bu, stereotipdir, yoxsa yenə erməni lobbisi, yaxud başqa səbəblər var?

JURNALİST: Cənab Prezident, biz Sizə çoxlu stereotip gətirmişik. Bu da təbiidir, axı, biz Rusiyada yaşayırıq. Toxunmaq istədiyimiz daha bir mühüm mövzu var. Siz bizim daxili işlər nazirimizlə, cənab Nurqaliyevlə görüşmüsünüz. Məsələ bunda deyil. Məsələ ondadır ki, bildiyiniz kimi, Rusiya dövləti, Rusiya hökuməti əmək miqrasiyası, - bunu mədəni şəkildə və nəzakətlə belə adlandıraq, - haqqında qərar qəbul etmişdir. Müxtəlif hesablamalara görə, Rusiyada milyon yarımdan iki milyonadək azərbaycanlı işləyir. Prezident Putin iki milyon demişdir, amma burada statistika, bildiyiniz kimi, şübhəlidir. Azərbaycanlılar, əsasən, xidmət sahəsində, bazarlarda işləmişlər və işləyirlər. Hökumətin gələn il qüvvəyə minəcək qərarı onların imkanlarını kəskin şəkildə məhdudlaşdırır. Eşitmişəm, amma dəqiq bilmirəm, doğrudurmu ki, Siz Rusiyanı tərk etməli olan həmvətənləriniz üçün burada, Bakıda, ümumiyyətlə, Azərbaycanda mərkəzlər yaradılması barədə göstəriş vermisiniz? Belədirmi? Siz bu barədə Nurqaliyevlə, Putinlə danışmısınızmı? Bunun baş verməməsi üçün nə etmək olar, Siz nə təklif etmisiniz?

İLHAM ƏLİYEV: Bəli, əlbəttə, danışmışam. Bu mövzu Rusiya Prezidenti ilə görüş zamanı da, indi də müzakirə olunmuşdur. Yeri gəlmişkən, rəqəmlər barədə. Sizə deyim

ki, indi görüşdə bizim daxili işlər naziri də iştirak edirdi və mənim də məlumatım vardı. Bizim məlumatımıza görə, Azərbaycanın əmək qabiliyyətli yaşda burada müvəqqəti olmayan vətəndaşları təxminən 400-500 min nəfərdir.

JURNALİST: Bütün ölkələrdə?

İLHAM ƏLİYEV: Bəli.

JURNALİST: Yəni, onlar Azərbaycanın hazırda digər ölkələrdə işləyən vətəndaşlarıdır. Onlar yarım milyondur.

İLHAM ƏLİYEV: Rusiya vətəndaşları olan azərbaycanlılar da təxminən 500-600 min nəfərdir. Ona görə də iki milyon, üç milyon rəqəmi həqiqətə uyğun deyildir. Biz rayonlar üzrə, şəhərlər üzrə monitorinq keçirdik və müəyyən etdik ki, daha çox adamın getdiyi bəzi rayonlarda əhalinin təxminən 7 faizi yoxdur. Odur ki, bu, Azərbaycan üçün bir növ faciə kimi qəbul edilə biləcək fəlakətli rəqəm deyildir.

JURNALİST: Axı, bu adamlar yarım milyondur. İndi onlar Rusiya hökumətinin bəzi hərəkətlərinin təsirinə məruz qalacaqlar.

İLHAM ƏLİYEV: Əlbəttə. Ona görə də biz ləngimədən qərar qəbul etdik, mən bu istiqamətdə işin qaydaya salınması üçün Baş nazirin birinci müavini başda olmaqla hökumət komissiyası yaradılması haqqında fərman verdim. İndi biz DİN-in nümayəndələrini Rusiyanın bir neçə regionuna göndəririk...

JURNALİST: Bu, Rusiya ilə razılaşdırmaqla edilir?

İLHAM ƏLİYEV: Bəli. Biz, əvvəla, Rusiyanın hakimiyyət orqanları ilə birlikdə dəqiq sayı və dəqiq fərdi tərkibi müəyyənləşdirmək üçün Azərbaycan diasporunu, bütün regionlarda şöbələri olan Ümumrusiya Azərbaycan Konqresini, səfirliyi işə qoşmuşuq. Bu məsələni həll etmək olar və lazımdır. Yalnız əlaqəli şəkildə etmək lazımdır ki, bu, kampaniyaçılıq xarakteri daşımasın. Əgər Rusiyada miqrasiya proseslərini həqiqətən qaydaya salmaq vəzifəsi qoyulmuşdursa, mən belə başa düşürəm ki, prinsipcə bunu məhz həmin miqrantların gəldikləri ölkələrlə əməkdaşlıq şəraitində etmək daha səmərəli olacaqdır. Biz daha yaxşı bilirik, bizim mexanizmlərimiz çoxdur. Sizə açığını deyim ki, yaratdığımız komissiya prosesin artıq rəsmiləşdirilməsi deməkdir. Bilirdik ki, gec-tez belə olacaqdır. Çünki vəziyyətin, hadisələrin gedişini izləyirik. Müəyyən narahatlıq, milli və dini zəmində toqquşmalar, skinhedlər - bunların hamısı reallıqdır. Biz bunu izləyirik. Odur ki, bu vəziyyətə bir qədər əvvəldən hazırlaşmışdıq, iqtisadi, sosial, inzibati xarakterli tədbirlər kompleksi hazırlamışdıq. Bu məsələni ancaq birgə səylərlə həll etmək lazımdır. Bu, bizim üçün problemlər yaratmayacaqdır. Qarşıya qoyulmuş vəzifənin yerinə yetirilib-yetirilməyəcəyi hələ məlum deyil, axı, orada təkcə Azərbaycandan deyil, Orta Asiyadan, digər regionlardan olanlar da yaşayır, işləyirlər. Onlar boşluqda deyillər, kiminləsə görüşür, əlaqə saxlayırlar, onlara kimsə kömək edir, kimsə onların sənədlərini rəsmiləşdirir, bazarda kimsə onlardan töycü alır. Bax, onlarla mübarizə aparmaq lazımdır. Əgər Rusiyada onlara, belə deyək, havadarlıq edənlərə qalib gəlmək mümkün olarsa, onda məsələni həll edəcəklər. Bu, mürəkkəb məsələdir və Rusiyanın hakimiyyət orqanlarına uğur arzulayıram. Bunu etmək çətin olacaqdır. Odur ki, miqrantların gəldikləri ölkələrlə əməkdaşlıq etmək hamı üçün faydalı olacaqdır.

SUAL: Dediniz ki, Sizin məlumatınıza görə, Rusiyada Azərbaycan vətəndaşları təxmi-

nən 500 min nəfərdir. Lakin etnik azərbaycanlılar Rusiyada qat-qat çoxdur. Bu insanlar artıq Rusiya vətəndaşlığı alsalar da, etnik azərbaycanlılardır. İndi isə Rusiyada millətçilik əhval-ruhiyyəsi artmaqdadır və yəqin ki, özünüzünkülərə görə ürəyiniz ağrıyır. Axı, onlar Sizin xalqınızdır. Siz cənab Nurqaliyevlə danışdınız, bu problemi necə həll edəcəksiniz? Çünki Rusiyada azərbaycanlılara qarşı, bütün qafqazlılara qarşı mənfi əhval-ruhiyyə yaranır. Siz bununla əlaqədar işləyəcəksinizmi, kömək edəcəksinizmi?

İLHAM ƏLİYEV: Bilirsinizmi, biz maksimum nə mümkündürsə, onu edirik. Yeri gəlmişkən deyim ki, Rusiyada Gürcüstan vətəndaşları olan çoxlu azərbaycanlı var. Yenə də nazirliyimizin məlumatına görə, onlar təxminən 170 min nəfərdir. Ona görə də, əlbəttə, azərbaycanlılar çoxdur və onların taleyi bizi narahat edir. Mən harada, hansı ölkədə oluramsa-olum, həmişə diasporla görüşürəm - Moskvada da, Kiyevdə də, Avropada da. Zənnimcə, bizim təşəbbüsümüzlə Prezident Putini Ümumrusiya Azərbaycan Konqresinin ikinci qurultayına dəvət etməyim və bizim orada birlikdə çıxış etməyimiz Azərbaycan diasporunun rahatlığı üçün mühüm amil oldu. Bu, cəmiyyətə də, bütün qurumlara da çox güclü siqnal idi. Əlbəttə ki, belə fəal siyasi əməkdaşlıq da kömək edir, çünki ölkələrimiz arasında əlaqələr genişlənir, ünsiyyətin səviyyəsi yüksəlir, əmtəə dövriyyəsini iki dəfə artırmışıq, indi üç dəfə artırırıq. Bütün bunlar köməkedici amillərdir. Amma bu məsələdə, bildiyiniz kimi, hər şey bizdən asılı deyildir. Hər halda, ora bizim ərazimiz deyildir. Bu, Rusiyanın ərazisidir və hər şey məhz əhvali-ruhiyyədən, ictimai ovqatdan asılıdır. Əlbəttə, müəyyən dairələrin millətçilik zəminində siyasi kapital toplamağa can atması çox narahat edir. Başqa bir şey hesabına siyasi kapital toplamaq mümkün olmadıqda, bu, əlverişli görünə bilər. Bu, klassiklər demişkən, sonuncu sığınacaq olsa da, çox təhlükəlidir, xüsusən də Rusiya kimi ölkədə. Azərbaycan da çoxmillətli ölkədir. Sizə deyim ki, biz milli azlıqlara böyük qayğı ilə yanaşırıq. Çünki bilirsiniz, ölkələrimizdə problemlər var və sosial-iqtisadi problemlər kifayət qədər oxşardır. Əgər hər hansı bir problem yerli sakini narahat edirsə, o, bundan, sadəcə, narazıdır və narazılığını bildirir. Əgər bu, azlığın nümayəndəsinə aiddirsə, o düşünə bilər ki, bu ona görədir ki, o, başqa millətdəndir. Ona görə də azlıqların yığcam yaşadıqları bölgələrə daha çox kömək göstərməyə çalışırıq - sosial infrastruktur: xəstəxanalar, məktəblər tikir, iş yerləri yaradırıq. Azərbaycanın zənginliyi ondadır ki, biz çoxmillətli dövlətik. Mən buna qəti əminəm. Bu, hər bir çoxmillətli dövlət üçün vacibdir. Rusiya da Qafqaz ölkəsidir. Qafqazın bir hissəsi Rusiyadadır. Məsələn, onlar necə fərqləndirəcəklər...

JURNALİST: ...dağıstanlını azərbaycanlıdan?

İLHAM ƏLİYEV: Heç cür. Məgər fərqləndirmək olarmı, hətta soyadları da eynidir. Yaxşı, bu, nəyə gətirib çıxaracaq? Biz öz tərəfimizdən maksimum hər şeyi edirik ki, soydaşlarımız üçün rahatlıq olsun. Lakin mən onlara demişəm, - yeri gəlmişkən, Moskvada da, Peterburqda da, digər şəhərlərdə də, - siz olduğunuz ölkənin qanunları ilə yaşamalı, onun qanunlarına tabe olmalı, o cümlədən də məişət sahəsində inteqrasiya etməlisiniz. Amma bilin ki, sizə pis olsa, sizi həmişə qəbul edərik.

SUAL: İcazənizlə, söhbətimizin sonunu tələsik edək. Suallar olduqca çoxdur, həqiqətən tələsiklikdir. İndi biz Bakıda olarkən - bu, daxili işdir, buna baxmayaraq, - bir çox bakılılar bizə deyirdilər ki, hündür binaların tikintisi şəhərin tarixi mərkəzini məhv edir. Bunu biz də görürdük. Ölkə Prezidenti kimi Siz bu təhlükəni hiss edirsinizmi, yoxsa bu,

ancaq həmin məhəllədə yaşayan adamların rəyidir?

İLHAM ƏLİYEV: Belə narahatlıq var. Nə vaxt ki, heç nə tikmirdilər, deyirdilər heç nə tikilmir. İndi Bakıda eyni zamanda 500 ev tikildiyi bir vaxtda deyirlər ki, həddindən çoxdur. Hər bir ev məhəlləyə də uyğun olmalıdır, onun hündürlüyü və arxitekturası da Bakının arxitekturasına uyğun gəlməlidir. Odur ki, biz bu məsələlərlə məşğul oluruq. Əgər diqqət yetirdinizsə, indi bir çox köhnə evlərə yenidən üzlük çəkilir, onların tarixi koloriti bərpa edilir. Sözlərim qutuyabənzər köhnə sovet evlərinə də aiddir. İndi onlara da bizim gözəl Bakı daşından üzlük çəkirik və bunlar köhnə Bakı evləri kimi olacaqdır.

SUAL: İlham Heydəroviç, bu gün-sabah BMT Təhlükəsizlik Şurası İran problemi haqqında qətnamə qəbul edəcəkdir. Orada hərtərəfli olmasa da, hər halda, sanksiyalar da olacaqdır. Layihə artıq hazırdır, ola bilsin, indi, biz sizinlə söhbət etdiyimiz vaxtda son qeydlər yazılır. Əgər indi Azərbaycan Təhlükəsizlik Şurasının üzvü olsaydı, İran barəsində nə kimi mövqe tutardı?

İLHAM ƏLİYEV: Biz sanksiyaların əleyhinə olardıq. İstənilən sanksiyaların. Bu, birmənalıdır.

JURNALİST: Bəs nə üçün? Hər halda, atom silahının yayılması dəhşətli tarixdir. Yeri gəlmişkən, bu, Sizin problemləriniz olacaq, axı, İranda 26 milyon, yaxud 30 milyon azərbaycanlı yaşayır.

İLHAM ƏLİYEV: Axı, nüvə texnologiyalarının hazırlanması qadağan edilməyib. Doğrudurmu? Hər bir ölkənin buna haqqı var. BAEA mövcuddur, beynəlxalq nəzarət mövcuddur. Bu gün sübut varmı ki, İran nüvə bombası hazırlayır? Bizdə belə sübut yoxdur. Bu sübutlar beynəlxalq ekspertlərdə varmı? Bütün bunlar ehtimallar səviyyəsindədir. Odur ki, ölkəni nüvə texnologiyalarını inkişaf etdirmək istədiyinə görə cəzalandırmaq... Nə üçün başqalarına olar, onlara olmaz? Yəni, prinsip pozulur. Bəlkə də, bu, kiminsə xoşuna gəlmir, yəqin ki, kimdəsə narahatlıq və ya qorxu doğurur. Belə isə, bu məsələni müzakirəyə çıxarmaq, işləmək, əməkdaşlıq etmək lazımdır. Desən ki, olmaz, sanksiyalar tətbiq ediləcəkdir - bu, heç nəyə gətirib çıxarmayacaqdır. İnanın mənə. Biz bu regionda yaşayırıq, regionu tanıyırıq, İranla min kilometrdən çox sərhədimiz var, orada, dediyiniz kimi, 30 milyonadək azərbaycanlı yaşayır. Bu, heç nəyə, yaxşı bir şeyə gətirib çıxarmayacaqdır. Ona görə də biz bunun əleyhinəyik və mən bu mövqeyi dəfələrlə açıqlamışam, bəyan etmişəm və hesab edirəm ki, bu, təhlükəsizlik baxımından region üçün və ümumən inkişaf üçün ağır nəticələrə gətirib çıxaracaqdır.

JURNALİST: Cənab Prezident, axırıncı sualdır. Sankt-Peterburqdan olan arxitektor Yura yazır: Sizin xanımınız kimi xanımı harada tapmaq olar? Əvvəlcədən təşəkkür edirəm. Mehriban xanım gözəllik ilahəsidir. Yuraya bir məsləhət verin.

İLHAM ƏLİYEV: Yəqin ki, Bakıda. Düşünürəm ki, Bakıda, daha harada tapmaq olar.

SUAL: Bu müsahibəni dinləyəcək rusiyalılara demək istədiklərinizi birbaşa demək üçün indi Sizin iki dəqiqə vaxtınız var. Ənənəvi olaraq, biz qonaqlarımıza belə imkan veririk.

İLHAM ƏLİYEV: İki dəqiqə, bu, çox qeyri-demokratikdir. Axı, siz məni nə qədər sorğu-suala tutdunuz? Bir saat. Mənim demək istədiyim üçün isə cəmi iki dəqiqə. Siz söz azadlığını boğursunuz.

Mən Yeni İl ərəfəsində bütün rusiyalılara xoşbəxtlik, firavanlıq, məhəbbət, əmin-amanlıq arzulamaq istəyirəm. Mənim həyatım Moskva ilə bağlı olmuşdur - 15 il orada oxumuş, işləmişəm. O illər pis illər deyildi, məhz gənclik, formalaşma illəri idi. Ona görə də Rusiyada baş verən hadisələr, təbii ki, qonşu dövlətin Prezidenti kimi, habelə şəxsi nöqteyi-nəzərdən mənim üçün əhəmiyyətlidir. Mən Rusiyanın uğurlarına sevinirəm, sevinirəm ki, Rusiya yenidən dünya miqyasında sanballı dövlətə çevrilir. Bizdə deyirlər, qonşunun firavanlığı sənin firavanlığındır. İstəyirəm ki, sülh olsun, ölkələrimiz arasında əməkdaşlıq inkişaf etsin, qarşılıqlı anlaşma möhkəmlənsin, daha çox ünsiyyət olsun.

JURNALİST: Cənab Prezident, son söz Sizdədir, biz Sizinlə doğum gününüz ərəfəsində görüşürük. Siz artıq dediniz ki, xahiş etməyi sevmirsiniz. Buna baxmayaraq, öz doğum gününüz üçün Rusiyadan hansı hədiyyəni almaq istərdiniz?

İLHAM ƏLİYEV: Sözün düzü, bunu demək mənim üçün çətindir. Ən yaxşı hədiyyə xoş bir sözdür və Azərbaycanın dost olduğunu başa düşməkdir.

JURNALİST: Çox sağ olun.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV GÜRCÜSTANIN BAŞ NAZİRİ ZURAB NOĞAİDELİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 25-də Prezident sarayında Gürcüstanın Baş naziri Zurab Noğaidelini qəbul etmişdir.

Görüşdə ölkələrimiz arasında ikitərəfli münasibətlərin, o cümlədən iqtisadi əlaqələrin uğurla inkişaf etdiyi bildirilmiş, müxtəlif sahələrdə əməkdaşlığın bundan sonra da genişlənəcəyinə əminlik ifadə olunmuşdur.

UKRAYNANIN BAŞ NAZİRİ VİKTOR YANUKOVİÇİN AZƏRBAYCANA İŞGÜZAR SƏFƏRİ

Ukraynanın Baş naziri Viktor Yanukoviç dekabrın 26-da Azərbaycana işgüzar səfərə gəlmişdir.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV UKRAYNANIN BAŞ NAZİRİ VİKTOR YANUKOVİÇİ QƏBUL ETMİŞDİR

Azərbaycan Prezidenti İlham Əliyev dekabrın 26-da Prezident sarayında Ukraynanın Baş naziri Viktor Yanukoviçi qəbul etmişdir.

Dövlətimizin başçısı qonağı salamlayaraq dedi:

- Gərgin iş cədvəlinə baxmayaraq, Sizi Yeni il ərəfəsində Bakıda görməyimə çox şadam. Artıq çoxdan apardığımız dialoqumuzu davam etdirmək çox xoş və dəyərlidir. Ümidvaram ki, ölkəmizə səfəriniz ikitərəfli münasibətlərin inkişafında yeni mərhələ olacaq, onlara dinamizm verəcək, iqtisadiyyatın bir çox sahələrini əhatə etməyə imkan yaradacaqdır. Düşünürəm ki, Baş nazirimizlə konstruktiv söhbətiniz oldu.

Ukrayna hökumətinin başçısı qəbula görə təşəkkür edərək dedi:

- Həmkarlarımızla - Azərbaycanın Baş naziri, nazirlərlə, sentyabrın 1-də Kiyevdə iclas keçirən dövlətlərarası komissiyanın nümayəndələri ilə görülmüş işlərə müəyyən yekun vurduq. Lakin indi dinamika çox sürətlidir və ötən dövr ərzində məsələlər yığılıb qalmışdır. Biz keçmişdə respublikalarımız arasında, xalqlarımız arasında münasibətlərdə əsası qoyulmuş köhnə ənənələri davam etdirməyə hazırıq. Biz Heydər Əliyeviçin xatirəsini əziz tuturuq. Çox çətin bir zamanda Azərbaycanın Ukrayna xalqına göstərdiyi yardımı xatırlayırıq. Bu, lap yaxınlarda, 1999-cu ildə, yaz tarla işləri, kənd təsərrüfatında növbəti mövsüm ərəfəsində Ukraynanın dizel yanacağından, əslində, məhrum olduğu vaxtda baş vermişdir. Kənd təsərrüfatı əməkçilərimiz, kənd sakinlərimiz o dövrü çox yaxşı xatırlayırlar. Onlar Ukraynaya necə yardım göstərildiyini yaxşı xatırlayırlar.

Ukraynanın Baş naziri təkcə ticarət-iqtisadi sahədə deyil, humanitar sahədə də ikitərəfli münasibətlərin yaxşı ənənələrindən danışarkən vurğuladı ki, nəinki xalqlarımızın dostluq münasibətlərinin tarixi köklərini xatırlamaq, həm də əməkdaşlığı davam etdirmək və möhkəmlətmək lazımdır. Viktor Yanukoviç dedi: "Biz növbəti dəfə bütöv bir təkliflər paketi ilə gəlmişik və Sizdən təkliflər almağa hazırıq". O, Azərbaycan iqtisadiyyatının yüksək inkişaf sürətini qeyd etdi. Ukrayna hökumətinin başçısı bildirdi ki, "indi Azərbaycanın göstərdiyi dinamika dünyada ən yaxşı dinamikadır. İqtisadiyyatın belə sürətini saxlamaq heç də sadəcə rekord deyildir. Bu təcrübəni öyrənmək lazımdır".

Prezident İlham Əliyev vurğuladı ki, Azərbaycan və Ukrayna həmişə çox səmimi, səmərəli, konstruktiv surətdə əməkdaşlıq edirlər. Sovet İttifaqının tərkibində olduqları dövrdə də Ukrayna ilə Azərbaycan arasında çox sıx münasibətlər, mədəni mübadilə olmuşdur, dostluq, mədəniyyət günləri keçirilirdi. Dövlətimizin başçısı dedi ki, biz bundan sonra da bütün istiqamətlərdə bir-birimizə kömək edəcək və bir-birimizi dəstəkləyəcəyik.

UKRAYNA BAŞ NAZİRİNİN ŞƏRƏFİNƏ

Dekabrın 26-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin adından Ukraynanın Baş naziri Viktor Yanukoviçin şərəfinə qəbul təşkil edilmişdir. Qəbulda Ukraynanın Baş naziri Viktor Yanukoviç və Azərbaycan Prezidenti İlham Əliyev çıxış etdilər.

UKRAYNANIN BAŞ NAZİRİ VİKTOR YANUKOVİÇİN ÇIXIŞI

-Biz Sizi 45 illiyiniz günündə çox böyük həvəslə salamlamağa gəlmişik. Bilirik ki, son illər Siz öz üzərinizə olduqca böyük məsuliyyət götürməli - atanız Heydər Əliyeviçin uzun illər ərzində daşıdığı bayrağı qəbul etməli olmusunuz. Kiyev şəhərində onun xatirəsi əbədiləşdirilmişdir. Biz bunu görkəmli dövlət xadiminin, Ukraynanın böyük dostunun xidmətlərinə ehtiram əlaməti olaraq etmişik. İndi, bir neçə il keçdikdən sonra mən qətiyyən utanmadan deyirəm: İlham Heydəroviçin o bayrağı əlində saxlaya biləcəyini bütün dünyada izləyirdilər, çünki məsuliyyət çox yüksək idi. Sizin çiyinlərinizə düşən bu son dərəcə yüksək məsuliyyəti təsəvvür etmək çətindir. Görünür, bunu Sizin özünüzdən başqa, heç kim təsəvvür edə bilməz. Siz isə bunun nə dərəcədə asan olmadığını heç vaxt heç kimə deməyəcəksiniz. Bunu ancaq güman etmək olar. Mənimlə gələn nümayəndə heyətinin üzvləri həyatın qədr-qiymətini bilən insanlardır, öz üzərinə öhdəlik götürməyin, öhdəlikləri yerinə yetirməyin nə demək olduğunu başa düşürlər. Siz elə bir insansınız ki, bu gün heç kimə heç nə borclu deyilsiniz. Siz bütün dünyaya göstərdiniz ki, çox şeyə nail olmusunuz. Əməli surətdə göstərdiniz ki, Siz öz valideynlərinizə layiqsiniz. Mən bu badəni Ukrayna xalqının böyük dostu, Heydər Əliyevin oğlu İlham Əliyevin sağlığına qaldırmaq istəyirəm.

Çox şadam ki, həyatımda nə vaxtsa belə bir hadisə baş verdi - mən hələ kifayət qədər gənc bir insanla, bu gün isə Azərbaycan Prezidenti ilə görüşdüm. Mənim Ukrayna və Azərbaycan xalqlarının xeyrinə ola biləcək etibarlı münasibətlər yaratmağa imkanım var. Mən Sizin sağlığınıza, ailənizin sağlığına badə qaldırmaq istəyirəm. Tanrıdan Sizə cansağlığı, ailənizə və bütün Azərbaycan xalqına firavanlıq diləyirəm.

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ÇIXIŞI

- Viktor Fyodoroviç, sağ olun. Bu gün Sizi Azərbaycanda görməyimə çox şadam. Sizin göstərdiyiniz münasibəti və Yeni il ərəfəsində iş cədvəlinin gərgin olmasına baxmayaraq, buraya gəlməyə, ünsiyyətdə olmağa, görüşməyə və öz hisslərinizi ifadə etməyə vaxt tapmağınızı çox qiymətləndirirəm. Mən Ukrayna və Azərbaycanın ikitərəfli münasibətlərinin inkişafı üçün çox mühüm mənbə olan dostluğumuzu, səmimi münasibətlərimizi, qarşılıqlı hörmət münasibətlərini, dəstəyi qiymətləndirirəm.

Biz gün Siz Azərbaycan Prezidentinin, atam Heydər Əliyevin məzarını ziyarət etdiniz, bütün həyatını öz ölkəsinə xidmətə həsr edən və habelə Ukraynaya, Ukrayna xalqına çox böyük məhəbbət bəsləyən insanın xatirəsinə öz ehtiramınızı bildirdiniz. Mən bunu bilirəm, onun Sizin ölkənizə münasibəti həmişə çox mehriban və səmimi olmuşdur. Təbii olaraq, bu, mənə də, bütün silahdaşlarıma da keçmişdir.

Ukrayna bizim üçün dostdur, strateji tərəfdaşdır, elə bir ölkədir ki, keçmişdə bizi onunla çox əlaqələr bağlayırdı, ən başlıcası isə, gələcəkdə qarşılıqlı əməkdaşlığın çox parlaq perspektivləri var. Bu gün biz Sizinlə ikitərəfli münasibətlərin, əslində, bütün spektrini kifayət qədər geniş əhatə etdik, bütün sahələrdə əlaqələrimizin inkişafının əsas yollarını müəyyənləşdirdik və ümidvaram ki, onları uğurla həyata keçirəcəyik. İkitərəfli əlaqələrimizin inkişafında Sizin rolunuzu xüsusi qeyd etmək istəyirəm. Siz hökumətə yenidən başçılıq etdiyiniz andan biz bu münasibətlərdə yeni dinamizmi dərhal hiss etdik. Bu, çox xoşdur, çox vacibdir. Bu, bizim çox xoşumuza gəlir. Biz Sizin keçmişdəki fəaliyyətinizi də xatırlayırıq. O vaxt Sizin səyləriniz sayəsində Ukrayna iqtisadiyyatı sürətlə inkişaf etməyə başladı. Yəqin ki, Siz hökumətə birinci dəfə başçılıq etdiyiniz dövrdə inkişaf sürəti MDB-də ən yüksək idi. Sonra durğunluq oldu. İndi, Siz hökumətə yenidən başçılıq etdiyiniz vaxtda biz bu dinamikanı aydın görürük. Bu, ən başlıcasıdır və iqtisadiyyatda məhz Sizin apardığınız siyasətə və istər öz ölkənizdə, istərsə də onun hüdudlarından kənarda hörmət qazandığınıza aydın sübutdur.

Azərbaycanda Sizi böyük siyasi xadim, dövlət xadimi, Azərbaycanın dostu, ölkəmizə böyük məhəbbətlə yanaşan insan kimi tanıyırlar. Bu da çox vacibdir. Dövlətlər arasında münasibətlərin öz tarixi, öz dinamikası var. Rəhbərlər arasında münasibətlər, indiki

halda, şəxsi dostluq münasibətlərimiz ölkələrimizin münasibətlərinin inkişafının da çox mühüm amilidir. Səfərə görə Sizə bir daha təşəkkür etmək, Sizi, gözəl ailənizi, bütün qonaqlarımızı, bütün qardaş Ukrayna xalqını üzümüzə gələn Yeni il münasibətilə təbrik etmək istəyirəm. Sizə 2007-ci ildə və gələcəkdə də ancaq qələbələr, uğur və nəzərdə tutduqlarınızın hamısının həyata keçməsini arzulayıram. Sizin sağlığınıza!

2006-CI İL İYUNUN 27-DƏ BAKI ŞƏHƏRİNDƏ İMZALANMIŞ"31 OKTYABR 1996-CI İL TARİXDƏ BAKI ŞƏHƏRİNDƏ İMZALANMIŞ "AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ İLƏ TÜRKİYƏ RESPUBLİKASI HÖKUMƏTİ ARASINDA SİLAHLI QÜVVƏLƏRİN TİBB HEYƏTİNİN TƏLİMİNƏ AİD ƏMƏKDAŞLIQ HAQQINDA PROTOKOL"A DƏYİŞİKLİK EDİLMƏSİNƏ DAİR ƏLAVƏ PROTOKOL"UN TƏSDİQ EDİLMƏSİ BARƏDƏ AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

1. 2006-cı il iyunun 27-də Bakı şəhərində imzalanmış "31 oktyabr 1996-cı il tarixdə Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında Silahlı Qüvvələrin tibb heyətinin təliminə aid əməkdaşlıq haqqında Protokol"a dəyişiklik edilməsinə dair Əlavə Protokol" təsdiq edilsin.

2. Azərbaycan Respublikasının Müdafiə Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Əlavə Protokolun həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Əlavə Protokolun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Türkiyə Respublikası Hökumətini xəbərdar etsin.

İlham Əliyev

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 27 dekabr 2006-cı il

2006-CI İL SENTYABRIN 27-DƏ NYU-YORK ŞƏHƏRİNDƏ İMZALANMIŞ "AZƏRBAYCAN RESPUBLİKASI XARİCİ İŞLƏR NAZİRLİYİ VƏ QVATEMALA RESPUBLİKASI XARİCİ İŞLƏR NAZİRLİYİ ARASINDA ƏMƏKDAŞLIQ HAQQINDA PROTOKOL"UN TƏSDİQ EDİLMƏSİ BARƏDƏ AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

1. 2006-cı il sentyabrın 27-də Nyu-York şəhərində imzalanmış "Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi və Qvatemala Respublikası Xarici İşlər Nazirliyi arasında əməkdaşlıq haqqında Protokol" təsdiq edilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki:

2.1. bu Sərəncamın 1-ci bəndində göstərilən Protokolun həyata keçirilməsini təmin etsin;

2.2. bu Sərəncamın 1-ci bəndində göstərilən Protokolun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Qvatemala Respublikası tərə-

fini xəbərdar etsin.

İlham Əliyev

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 27 dekabr 2006-cı il

2006-CI İL SENTYABRIN 29-DA HAVANA ŞƏHƏRİNDƏ İMZALANMIŞ "AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ İLƏ KUBA RESPUBLİKASI HÖKUMƏTİ ARASINDA ƏMƏKDAŞLIQ HAQQINDA SAZİŞ"İN TƏSDİQ EDİLMƏSİ BARƏDƏ AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

1. 2006-cı il sentyabrın 29-da Havana şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti ilə Kuba Respublikası Hökuməti arasında əməkdaşlıq haqqında Saziş" təsdiq edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişin həyata keçirilməsi üçün lazımi tədbirlər görsün.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Kuba Respublikası Hökumətini xəbərdar etsin.

İlham Əliyev

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 27 dekabr 2006-cı il.

AZƏRBAYCAN-ÇİN HÖKUMƏTLƏRARASI TİCARƏT-İQTİSADİ ƏMƏKDAŞLIQ KOMİSSİYASININ AZƏRBAYCAN RESPUBLİKASI TƏRƏFİNDƏN TƏRKİBİ HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikasının 2005-ci il 14 iyun tarixli 930-IIQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Hökuməti ilə Çin Xalq Respublikası Hökuməti arasında ticarət-iqtisadi əməkdaşlıq haqqında Saziş"in icrasını və iki ölkə arasındakı əlaqələrin daha da genişlənməsini təmin etmək məqsədi ilə qərara alıram:

1. Azərbaycan-Çin Hökumətlərarası Ticarət-İqtisadi Əməkdaşlıq Komissiyasının Azərbaycan Respublikası tərəfindən tərkibi aşağıdakı heyətdə təsdiq edilsin:

Komissiyanın həmsədri

Abid Şərifov - Azərbaycan Respublikası Baş nazirinin müavini

Komissiyanın üzvləri:

Natiq Əliyev - Azərbaycan Respublikasının sənaye və energetika naziri

Əli Abbasov - Azərbaycan Respublikasının rabitə və informasiya texnologiyaları naziri

İlqar Fətizadə - Azərbaycan Respublikası maliyyə nazirinin birinci müavini

Xələf Xələfov - Azərbaycan Respublikası xarici işlər nazirinin müavini

Niyazi Səfərov - Azərbaycan Respublikası iqtisadi inkişaf nazirinin müavini

Teymur Mehdiyev - Azərbaycan Respublikası mədəniyyət və turizm nazirinin müavini

Sənan Kərimov - Azərbaycan Respublikası səhiyyə nazirinin müavini

Musa Pənahov - Azərbaycan Respublikası nəqliyyat nazirinin müavini

İntiqam Babayev - Azərbaycan Respublikası gənclər və idman nazirinin müavini

İlham Quliyev - Azərbaycan Respublikası kənd təsərrüfatı nazirinin müavini

Səfər Mehdiyev - Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi sədrinin birinci müavini

Rövnəq Abdullayev - Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin prezidenti

Cahangir Hacıyev - "Azərbaycan Beynəlxalq Bankı" Açıq Səhmdar Cəmiyyətinin İdarə Heyətinin sədri

Sabir İlyasov - "Azərbaycan Hava Yolları" Dövlət Konserninin baş direktorunun birinci müavini

Yaşar Əliyev - Azərbaycan Respublikasının Çin Xalq Respublikasında fövqəladə və səlahiyyətli səfiri

Ağadayı Ağayev - Azərbaycan Respublikası Nazirlər Kabineti Aparatının xarici iqtisadi əlaqələr şöbəsinin müdiri (məsul katib)

2. Bu Sərəncamın 1-ci bəndində göstərilən Komissiyanın Azərbaycan Respublikası tərəfindən tərkibinə tapşırılsın ki, Azərbaycan Respublikası və Çin Xalq Respublikası arasında iqtisadi əməkdaşlıq əlaqələrinin tənzimlənməsi və daha da genişləndirilməsi istiqamətində müvafiq tədbirləri həyata keçirsin.

3. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

İlham Əliyev

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 28 dekabr 2006-cı il

XARİCİ İŞLƏR NAZİRLİYİNİN MƏTBUAT MƏRKƏZİNİN MƏLUMATI

Sona çatmaqda olan 2006-cı ildə öz beynəlxalq nüfuzunu və regiondakı liderlik mövqeyini davamlı şəkildə möhkəmləndirən Azərbaycan Respublikasının xarici siyasət fəaliyyəti nəzərəçarpacaq dərəcədə fəallaşmışdır.

Ölkə Prezidenti İ. Əliyev 2006-cı il avqust ayının 14-də Azərbaycan Respublikasının xaricdəki Diplomatik nümayəndəlik və Konsulluqlarının rəhbərlərinin 2-ci müşavirəsindəki çıxışında diplomatik xidmət orqanlarının işinə qiymət vermiş və milli təhlükəsizliyin təmin edilməsi, ölkə vətəndaşlarının maraqlarının davamlı olaraq müdafiəsi və inkişaf etdirilməsi istiqamətində xarici siyasət orqanının gələcək məqsəd və vəzifələrini müəyyən etmişdir.

Sona çatmaqda olan il ərzində Azərbaycan XİN-inin xarici siyasət fəaliyyəti, müasir dövrün geosiyasi xüsusiyyətlərini, təhlükə və çağırışlarını nəzərə alaraq, ölkənin milli

maraqlarına əsaslanırdı. Səmərəli beynəlxalq siyasi, hərbi-siyasi və humanitar sahələrdə əməkdaşlıq, beynəlxalq iqtisadi inteqrasiya proseslərinə intensiv qoşulma, Avropa və qlobal enerji təhlükəsizliyinin təmin edilməsinə verilmiş töhfə və həmçinin regional nəqliyyat kommunikasiyalarının inkişafı xüsusi olaraq qeyd olunmalıdır. Azərbaycanın beynəlxalq münasibətlər sistemində artan təsiri dövlətimizin konseptual cəhətdən yeni roluna, davamlı islahatlara və ölkənin siyasi və iqtisadi potensialının inkişafına əsaslanır.

Ermənistan və Azərbaycan arasındakı silahlı münaqişənin Azərbaycan Respublikasının suverenliyi, ərazi bütövlüyü və beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığına hörmət əsasında nizamlanması ölkənin xarici siyasətində prioritet yer tutmaqda davam edir.

İl ərzində iki ölkənin Dövlət başçıları və "Praqa prosesi" çərçivəsində Xarici İşlər Nazirləri səviyyəsində baş tutmuş danışıqlar zamanı Azərbaycan aydın şəkildə problemin həllinə konstruktiv yanaşma nümayiş etdirmiş və irəliləyişin əldə edilməsi üçün mövcud imkanlardan maksimal dərəcədə istifadə etmişdir.

İlk növbədə, Azərbaycan ərazilərinin işğalının sona çatmasının zəruriliyi, didərgin düşmüş əhalinin öz doğma torpaqlarına qayıtması və Dağlıq Qarabağ regionunun azərbaycanlı və erməni icmalarının birgə yaşaması üçün lazımı şəraitin yaradılması, regionun kommunikasiya və sosial-iqtisadi inkişafının yenidən qurulması və sonradan onun Azərbaycan Respublikası tərkibində və Konstitusiyası əsasında hüquqi statusunun nəzərdən keçirilməsini özündə əks etdirən düşünülmüş və ölçülüb-biçilmiş strategiya davamlı olaraq həyata keçirilmişdir.

Bu istiqamətdə göstərilmiş səylərin nəticəsi beynəlxalq ictimaiyyətin Azərbaycanın strategiyası və konstruktiv yanaşmasının dəstəklənməsinə əsaslanan mövqeyinin möhkəmlənməsi olmuşdur.

Azərbaycanın işğal olunmuş ərazilərində, qanunsuz fəaliyyətin qarşısının alınması üçün tədbirlər həyata keçirilmişdir. Belə ki, Beynəlxalq ictimaiyyətin diqqəti təmas xəttinə yaxın ərazidə baş verən kütləvi yanğınlar faktına cəlb edilmişdir. Bu yanğınlar nəticəsində ətraf mühitə və Azərbaycanın bioloji müxtəlifliyinə ciddi ziyan vurulmuşdur. Azərbaycanın işğal olunmuş ərazilərində vəziyyəti nəzərdən keçirdikdən sonra BMT Baş Assambleyasının 60-cı sessiyasında Azərbaycanın sözügedən məsələ ilə bağlı təqdim etdiyi qətnamə yekdilliklə qəbul olunmuşdur. Bu sənəddə göstərilmiş ərazilərdə yanğınlarla bağlı ciddi narahatlıq ifadə olunmuş və yanğınların söndürülməsi, onların zərərli nəticələrinin aradan qaldırılması ilə bağlı ekoloji əməliyyatların keçirilməsinin vacibliyi vurğulanmışdır.

Azərbaycanın Dağlıq Qarabağ regionunda qondarma "konstitusiya referendumunun" keçirilməsinin beynəlxalq ictimaiyyət tərəfindən pislənməsi, erməni tərəfinin təsdiq olunmuş faktı sırımaq cəhdinin perspektivsizliyini bir daha təsdiqlədi. Avropa İttifaqı, Avropa Şurası, ATƏT, GUAM, dünyanın aparıcı dövlətləri, o cümlədən ATƏT-in Minsk Qrupunun həmsədrlərinin xüsusi bəyanatlarında qondarma "referendum"un qanunsuz və heç bir hüquqi qüvvəyə malik olmaması elan edilmişdir.

Noyabr ayında NATO-nun Riqada keçirilən sammitində prinsipial və birmənalı dəstək səslənmişdir. Şimali Atlantika Alyansının üzvləri Cənubi Qafqaz və Moldovadakı münaqişələrin region ölkələrinin ərazi bütövlüyü, müstəqilliyi və suverenliyi əsasında sülh

yolu ilə həlli istiqamətində səyləri davam etdirməyin vacibliyini vurğulamışlar.

Öz xarici siyasətində Azərbaycan, separatizm təhlükəsi və onunla bağlı olan terrorizm, transmilli mütəşəkkil cinayətkarlıq, narkotiklərin qanunsuz dövriyyəsi və digər qanuna zidd fəaliyyətlərin aşkar edilməsi və onlara qarşı mübarizə məsələsinə xüsusi diqqət yetirməkdə davam edir. Tərəfdaşlarla qarşılıqlı fəaliyyətin mümkün ikitərəfli, qlobal və regional formatlarından istifadə edilmiş, çoxtərəfli məlumat mübadiləsi fəal şəkildə həyata keçirilmiş, Azərbaycanın terrorizm və mütəşəkkil cinayətkarlığa qarşı beynəlxalq mübarizədə fəal iştirakına, o cümlədən müvafiq milli struktur və resursların inkişafına beynəlxalq köməklik edilməsi dəstəklənmişdir.

Əməkdaşlığın möhkəmlənməsi və Avropa İttifaqı ilə davamlı yaxınlaşma prosesi Avropa Qonşuluğu siyasəti çərçivəsində Fəaliyyət Planının qəbulu ilə ikitərəfli dialoqun keyfiyyətcə yeni səviyyəsini və həmçinin siyasi, sosial-humanitar, iqtisadi, institutsional islahatları nəzərə alan əməkdaşlıq çərçivəsində aparılması üçün əlavə impuls aldı. Prezident İ.Əliyevin Brüsselə səfəri zamanı Azərbaycan və Avropa İttifaqı arasında Avropanın enerji təhlükəsizliyinin təminatına yardım məqsədilə strateji əməkdaşlıq çərçivəsində anlaşma haqqında imzalanan memorandum və həmçinin Azərbaycanın enerji infrastrukturunun təkmilləşdirilməsi və inkişafı sahəsində də fəal xarici siyasi fəaliyyətin birbaşa nəticəsi oldu.

Prezident İ.Əliyevin NATO-nun baş qərargahına səfəri Azərbaycanın xarici siyasətində mühüm hadisə oldu, hansı ki, Azərbaycanın Alyansla əməkdaşlığını yeni mərhələyə çıxardı. Azərbaycan dövlətinin başçısı Şimali Atlantika Şurasındakı öz proqram çıxışında və NATO-nun Baş Katibi ilə görüşü zamanı Azərbaycanın xarici siyasətində Avro-Atlantik strukturlara inteqrasiyanın prioritet təşkil etdiyini və ölkəmizin Avropada vahid təhlükəsizlik, azad ticarət və demokratiya məkanına daxil olmağa yönəlmiş siyasi kursunun dəyişməz olduğunu qeyd etmişdir.

Müdafiə və təhlükəsizlik sahəsində islahatların konseptual bazasının inkişafı məqsədilə vacib addımlar atılmışdır. Keçən il XİN-in rəhbərliyi və bütün müvafiq dövlət strukturlarının iştirakı və beynəlxalq ekspertlərin dəstəyi ilə özündə təhlükəsizlik sahəsində siyasətin planlaşdırılması və onun təmin edilməsi sisteminin inkişafında Avropa və Avro-Atlantika təcrübəsini özündə cəmləşdirən milli təhlükəsizlik konsepsiyanın hazırlanması prosesi son mərhələyə qədəm qoymuşdur.

Azərbaycan İslam Konfransı Təşkilatının fəaliyyətində iştirakına böyük diqqət yetirməyə davam etmişdir. 19-21 iyun 2006-cı il tarixində Bakıda keçirilmiş İKT Xarici İşlər Nazirlərinin Konfransının 33-cü sessiyasında Azərbaycan xarici siyasət orqanının rəhbəri bir il müddətinə Konfransın sədri seçilmişdir. Bu qismdə Azərbaycan İKT-nin beynəlxalq və regional təşkilatlar çərçivəsində iştirakının fəallaşmasına yardım etmiş, mədəniyyətlər və dinlərarası dialoqun dəstəklənməsi, dözümlülük və anlaşmanın inkişafına, islamofobiyaya qarşı ən effektiv instrument kimi islam haqqında bilgilərin, onun prinsip və fəlsəfəsinin yayılmasına yönəlmiş bir sıra təşəbbüslərin müəllifi olmuşdur.

İKT Konfransında qəbul olunmuş müvafiq sənədlərdə təşkilatın Xarici İşlər Nazirləri davam edən erməni təcavüzünü pisləyərək, işğal olunmuş Azərbaycan ərazilərinin tam və qeyd-şərtsiz azad olunmasına çağıraraq, Azərbaycanla həmrəylik üzrə öz prinsipial mövqelərini bir daha təsdiqləmişlər.

Xarici iqtisadi sahədə dövlətin maraqlarının irəli aparılması qlobal və regional beynəlxalq təşkilatlar çərçivəsində fəaliyyətin prioritet istiqamətlərindən biri olaraq qalmışdır. Azərbaycanın Ümumdünya Ticarət Təşkilatına daxil olması diqqət mərkəzində olmuşdur. ÜTT-nin standartlarına uyğun olaraq qanunvericiliyin təkmilləşdirilməsi planının təsdiq edilməsi haqda ölkə prezidentinin sərəncamı bu mənada mühüm hadisədir.

Azərbaycanın İqtisadi Əməkdaşlıq Təşkilatında sədrliyi çərçivəsində Bakıda İƏT üzv ölkələrinin Xarici İşlər Nazirlərinin 9-cu zirvə toplantısı və 16-cı iclası keçirilmişdir. Azərbaycanın paytaxtı həmçinin beynəlxalq və regional təşkilatlar tərəfindən həyata keçirilən bir sıra tədbirlərin mərkəzi olmuşdur.

Azərbaycanın diplomatik xidmət orqanları müvafiq beynəlxalq formatlar çərçivəsində Azərbaycan qaçqınları və məcburi köçkünlərinin ağır vəziyyətlərinin yüngülləşdirilməsi istiqamətində lazımi səylərini davam etdirmişlər. Bununla əlaqədar olaraq BMT-nin Qaçqınlarla İş Üzrə Ali Komissarının, Beynəlxalq Qırmızı Xaç Komitəsinin Prezidentinin, BMT Ümumdünya Ərzaq Proqramının icraçı direktoru və Qadın maraqlarının inkişafı üzrə BMT fondunun icraçı direktorunun Azərbaycana səfərlərini qeyd etmək lazımdır. Yüksək rütbəli beynəlxalq məmurların məcburi köçkünlərin vəziyyəti ilə tanış olması, eləcə də ÜƏP və UNİFEM tərəfindən əhalinin aztəminatlı qruplarına köməklik göstərilməsinə və yoxsulluğun azaldılmasına dair iki illik layihələrin təsdiq edilməsi Azərbaycanda kəskin humanitar problemlərin həll edilməsində adekvat tədbirlərin görülməsinə yönəlmişdir.

Azərbaycan əsas diqqəti beynəlxalq humanitar hüququn norma və prinsiplərinin pozulması ilə bağlı məsələlərə yetirərək, BMT çərçivəsində aktiv fəaliyyətini davam etdirmişdir. Xüsusən BMT Baş Assambleyası konsensus olaraq itkin düşmüş şəxslər barədə Azərbaycan tərəfinin irəli sürdüyü qətnaməni qəbul etmişdir.

Miqrasiya və bununla bağlı miqrasiya prosseslərinin dövlət tərəfindən idarə edilməsi potensialının gücləndirilməsi məqsədi ilə beynəlxalq təşkilatlarla əməkdaşlıq məsələləri miqrasiya üzrə Beynəlxalq Təşkilatın Baş Direktorunun Azərbaycana səfərinin və bu sahədə hökumətin Beynəlxalq Miqrasiya Təşkilatı ilə birlikdə həyata keçirilən müxtəlif layihələr diqqət mərkəzində olmuşdur.

GUAM ölkələri arasında əməkdaşlığın genişləndirilməsi və dərinləşməsi xarici siyasi fəaliyyətin regional istiqamətinin əsas tərkib hissəsi olaraq qalır. Ötən il Kiyev şəhərində keçirilmiş sammitdə 4 dövlət başçısı bu birliyi "Demokratiya və iqtisadi inkişaf naminə - GUAM" adlı tamhüquqlu beynəlxalq regional təşkilata çevirmişlər. GUAM ölkələri ərazisində mövcud konfliktlərin həll olunması məsələlərinə və təhlükəsizliyə olan təhdidlərin qarşısının alınmasına GUAM ölkələrinin birgə yanaşmaların birləşməsində prioritet diqqət verilmişdir. Bu istiqamətdə tətbiq olunan əsaslı səylərin nəticəsi GUAM məkanında uzunsürən münaqişələr və onların beynəlxalq aləmə, təhlükəsizlik və inkişaf yarada biləcək çətinliklərin nəticəsi haqqında müvafiq birgə bəyanatın sammitdə qəbul olunması və BMT Baş Assambleyasının gündəliyinə salınması olmuşdur.

Azərbaycanın xarici siyasətin aparıcı xətlərindən biri də, iyundakı Almatı da keçirilən sammitin işində Azərbaycan Respublikasının Prezidenti İ.Əliyevin iştirak etdiyi, Asiyada Qarşılıqlı Əməkdaşlıq və Etimad üzrə Müşavirəsi çərçivəsində təhlükəsizliyə hədə və risklərə qarşıdurma sahəsində birgə yanaşmaların hazırlanmasında iştirak etməsidir.

Azərbaycanın Avropa ilə Asiya arasında körpü rolunun həyata keçirməsinin nəticələrindən biri Qazaxıstan neftinin Bakı-Tbilisi-Ceyhan neft kəməri vasitəsi ilə dünya bazarlarına çatdırılmasına yardım edilməsi və lazımı şəraitin yaradılması üçün Qazaxıstanla əldə edilmiş razılaşma, Bakı-Tbilisi-Ərzurum qaz kəməri layihəsinin başa çatdırılması və bizim Orta Asiyalı tərəfdaşlarımızın bu layihəyə cəlb edilməsi olmuşdur. Xəzər və Aralıq dənizlərini birləşdirən nəqliyyat dəhlizinin yaradılması kimi strateji cəhətdən vacib layihənin inkişaf etdirilməsi çərçivəsində Qars-Axalkalaki-Tbilisi-Bakı dəmir yolunun tikintisi məsələlərinin razılaşdırılması son mərhələyə qədəmləmişdir.

Növbəti uğurlar, Azərbaycanın beynəlxalq qurumlarda daha yaxşı təmsil edilməsinin təmin edilməsində əldə edilmişdir. Belə ki, Azərbaycan 2009-cu ilədək BMT Baş Assambleyasının iclası zamanı yeni yaradılmış İnsan Hüquqları Şurasına Cənubi Qafqaz regionunun üzv seçilmiş yeganə dövlət olmuşdur.

Ötən il, həmçinin ikitərəfli münasibətlərin möhkəmləndirilməsi ilə yadda qalmışdır. Prezident İ. Əliyevin xarici dövlətlərə çoxsaylı səfərləri bu prosesdə xüsusi rol oynamışdır. Dövlətimizin başçısı tərəfindən elan edilmiş Azərbaycanın dünyanın aparıcı dövlətləri ilə ikitərəfli tərəfdaşlıq münasibətlərinin inkişaf etdirilməsi və möhkəmləndirilməsi istiqamətinə uyğun olaraq, Prezident ABŞ, Rusiya, Yaponiya, Avropa ölkələrinə səfərlər etmişdir.

Xarici İşlər Nazirinin intensiv səfərləri və apardığı danışıqlar xarici siyasətin tərkib hissəsi olan ikitərəfli münasibətlərin gələcək inkişafına öz töhfəsini vermişdir. Çoxsaylı qarşılıqlı səfərlər, birgə hökumətlərarası komissiyaların və işçi qrupların iclasları və müqavilə-hüquq bazasının genişləndirilməsi ikitərəfli əməkdaşlığın dərinləşməsinə yardım etmişlər. İl ərzində Xəzər dənizinin hüquqi statusu üzrə konvensiyanın layihəsinə dair iş davam etdirilmişdir. Xəzər dənizinin ətraf mühitinin mühafizəsinə dair çərçivə konvensiyanın qüvvəyə minməsi hadisəsilə bu beynəlxalq razılaşmanın iştirakçı dövlətlərinin ilk konfransının Bakıda keçirilməsi haqqında qərar qəbul edilmişdir.

Bundan əlavə Azərbaycanın diplomatik təmsilçiliyi genişləndirilmiş və bu il Belarus, Malayziya, Mərakeş və Koreya Respublikasında səfirliklər açılmışdır. Hazırda, Azərbaycan Respublikasının xarici missiyalarının sayının daha da artırılması üzrə hazırlıq işləri aparılır.

XİN strukturunun təkmilləşdirilməsi və diplomatların peşə səviyyəsinin artırılması üzrə iş davam etdirilmişdir. Keçən il xarici siyasət qurumu Azərbaycan XİN-nin Diplomatik Akademiyasının yaradılması haqqında ölkə Prezidentinin sərəncamının icrasına başlamışdır.

Azərbaycan diplomatik xidmətinin normativ-hüquqi bazası möhkəmləndirilmişdir. Belə ki, dövlət başçısı Azərbaycan Respublikasının səfirlikləri və daimi nümayəndəlikləri haqqında və Nazirliyin Diplomatik Akademiyasının əsasnamələrini təsdiqləmişdir.

Diplomatik xidmətin dövlətin xarici siyasət kursunun əsasında duran funksiya və vəzifələrinin yerinə yetirilməsində fəaliyyəti haqqında ictimaiyyətin vaxtında və ətraflı məlumatlandırılmasına da xüsusi diqqət verilmişdir.

29 dekabr 2006-cı il

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN 2006-CI İLDƏ DÖVLƏT, RƏSMİ VƏ İŞGÜZAR SƏFƏRLƏRİNİN SİYAHISI

09.02.2006. Fransaya işgüzar səfər

07.03.2006. Yaponiyaya rəsmi səfər

25.04.2006. Amerika Birləşmiş Ştatlarına rəsmi səfəri

22.05.2006. Ukraynaya işgüzar səfər

28.05.2006. Fransaya işgüzar səfər

NATO Parlament Assambleyasının yaz sessiyasında iştirak etmək üçün

04.06.2006. Rumıniyaya işgüzar səfər

Dialoq və Tərəfdaşlıq Naminə Qara dəniz forumunda iştirak etmək üçün

16.06.2006. Qazaxıstana işgüzar səfər

"Asiyada qarşılıqlı fəaliyyətə və etimad tədbirlərinə dair müşavirə"də iştirak etmək üçün

12.07.2006. Türkiyəyə işgüzar səfər

21.07.2006. Rusiya Federasiyasına işgüzar səfər

Müstəqil Dövlətlər Birliyinin üzvü olan ölkələrin dövlət başçılarının qeyri-rəsmi görüşündə iştirak etmək üçün

27.08.2006. Sloveniya Respublikasına rəsmi səfər

03.09.2006. Türkiyəyə işgüzar səfər

Əməkdaşlıq və Dialoq Uğrunda İslam Konfransı Gənclər Forumunda iştirak etmək üçün

17.09.2006. Türkiyəyə işgüzar səfər

Türkdilli dövlətlərin və topluluqların 10-cu dostluq, qardaşlıq və əməkdaşlıq qurultayında iştirak etmək üçün

22.09.2006. Almaniyaya işgüzar səfər

Beynəlxalq Bertelsmann-2006 forumunda iştirak etmək üçün

03-05.10.2006. Latviya Respublikasına dövlət səfəri

17.10.2006. Belarus Respublikasına rəsmi səfər

06.11.2006. Belçika Krallığına işgüzar səfər

08.11.2006. Rusiya Federasiyasına işgüzar səfər

16.11.2006. Türkiyəyə işgüzar səfər

20.11.2006. Birləşmiş Ərəb Əmirliklərinə rəsmi səfər

27.11.2006. Belarus Respublikasına işgüzar səfər

MDB dövlət başçılarının Minskdə keçiriləcək zirvə görüşündə iştirak etmək üçün

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN 2006-CI İLDƏKİ GÖRÜŞLƏRİ BARƏDƏ MƏLUMAT

Fevral 2006

09 fevral 2006

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 9-da Parisdə, onun üçün ayrılmış iqamətgahda Fransanın "Total" şirkətinin prezidenti De Mareni qəbul etmişdir

10 fevral 2006

Fevralın 10-da Parisin Yelisey sarayında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Fransa Respublikasının Prezidenti Jak Şirakın təkbətək görüşü olmuşdur

10 fevral 2006

Fevralın 10-da Paris yaxınlığındakı Rambuye sarayında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Ermənistan Respublikasının Prezidenti Robert Koçaryanın ATƏT-in Minsk qrupu həmsədrlərinin iştirakı ilə görüşü olmuşdur

21 fevral 2006

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Rusiya Federasiyasının Prezidenti Vladimir Putin fevralın 21-də Heydər Əliyev adına Sarayda, ölkəmizdə Rusiya İlinin açılışı mərasimindən əvvəl təkbətək görüş keçirmişlər

22 fevral 2006

Fevralın 22-də Prezident sarayında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin təkbətək görüşü keçirilmişdir

Mart 2006

08 mart 2006

Martın 8-də Tokioda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Yaponiyanın İmperatoru Akihitonun təkbətək görüşü olmuşdur

08 mart 2006

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 8-də Tokioda, onun üçün ayrılmış iqamətgahda Yaponiya Beynəlxalq Əməkdaşlıq Agentliyinin (JİCA) prezidenti xanım Sadako Oqatanı qəbul etmişdir

08 mart 2006

Martın 8-də Yaponiya Beynəlxalq Münasibətlər İnstitutunda Azərbaycan Prezidenti İlham Əliyev ilə görüş keçirilmişdir

09 mart 2006

Azərbaycan Prezidenti İlham Əliyev martın 9-da, onun üçün ayrılmış iqamətgahda Yaponiya Xarici Əlaqələr İnstitutunun idarəedici direktoru, bu ölkənin Bakıdakı keçmiş səfiri Toşiyuki Fucivaranı və FSAS şirkətinin nümayəndələrini qəbul etmişdir

09 mart 2006

Azərbaycan Prezidenti İlham Əliyev martın 9-da Tokioda, onun üçün ayrılmış iqamətgahda Yaponiya Xarici Ticarət Təşkilatının (JETRO) sədri Osamu Vatanabeni qəbul etmişdir

09 mart 2006

Azərbaycan Prezidenti İlham Əliyev martın 9-da Tokioda, onun üçün ayrılmış iqamətgahda Yaponiyanın xarici işlər naziri Taro Asonu qəbul etmişdir

10 mart 2006

Azərbaycan Prezidenti İlham Əliyev martın 10-da, Yaponiyaya rəsmi səfəri çərçivəsində ölkənin Baş naziri Dzünitiro Koidzumi ilə görüşmüşdür

10 mart 2006

Azərbaycan Prezidenti İlham Əliyev martın 10-da Tokioda, onun üçün ayrılmış iqamətgahda "İtoçu" şirkətinin sədri Uçihiro Nivanı qəbul etmişdir

10 mart 2006

Martın 10-da Azərbaycan Prezidenti İlham Əliyev Tokioda, onun üçün ayrılmış iqamətgahda "İNPEKS" şirkətinin sədri Kunihiko Matsuonu qəbul etmişdir

10 mart 2006

Azərbaycan Prezidenti İlham Əliyev martın 10-da Tokioda, onun üçün ayrılmış iqamətgahda Yaponiya Beynəlxalq Əməkdaşlıq Bankının prezidenti Kyuozuke Şinozavanı qəbul etmişdir

Aprel 2006

04 aprel 2006

Aprelin 4-də, rəsmi qarşılanma mərasimindən sonra Prezident sarayında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Türkiyə Respublikasının Prezidenti Əhməd Necdət Sezərin təkbətək görüşü olmuşdur

26 aprel 2006

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin ABŞ-a səfəri çərçivəsində aprelin 26-da ilk görüşü Vaşinqtonda Beynəlxalq Münasibətlər Şurasında olmuşdu

26 aprel 2006

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 26-da, onun üçün ayrılmış iqamətgahda ölkəmizdə fəaliyyət göstərən ABŞ qeyri-hökumət təşkilatlarının nümayəndələri ilə görüşmüşdür

26 aprel 2006

Aprelin 26-da Azərbaycan Prezidenti ABŞ Konqresinə gəlmişdir. Prezident İlham Əliyevi burada Konqresin yüksək vəzifəli şəxsləri böyük mehribanlıqla qarşıladılar. Prezident İlham Əliyev burada bir sıra səmərəli görüşlər keçirdi

26 aprel 2006

Azərbaycan Prezidenti İlham Əliyev aprelin 26-da Konqresin binasında Nümayəndələr palatasının sədri Dennis Hastert ilə görüşmüşdür

26 aprel 2006

Azərbaycan Prezidenti İlham Əliyev aprelin 26-da, onun üçün ayrılmış iqamətgahda ABŞ-ın yəhudi təşkilatlarının nümayəndələri ilə görüşmüşdür

26 aprel 2006

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 26-da, onun üçün ayrılmış iqamətgahda ABŞ-ın keçmiş Prezidentinin milli təhlükəsizlik üzrə köməkçisi general Brent Skoukroft ilə görüşmüşdür

26 aprel 2006

Azərbaycan Prezidenti İlham Əliyev aprelin 26-da mehmanxanada ABŞ-ın ictimai-siyasi fikrini müəyyənləşdirən şəxslərlə görüşmüşdür

27 aprel 2006

Aprelin 27-də Azərbaycan Prezidenti İlham Əliyev onun üçün ayrılmış iqamətgahda ABŞ-ın ticarət naziri Karlos Qutyerres ilə görüşmüşdür

27 aprel 2006

Azərbaycan Prezidenti İlham Əliyev aprelin 27-də Vaşinqtonda, onun üçün ayrılmış iqamətgahda ABŞ-dakı Azərbaycan icmasının üzvləri ilə görüşmüşdür

27 aprel 2006

Azərbaycan Prezidenti İlham Əliyev aprelin 27-də Vaşinqtonda, onun üçün ayrılmış iqamətgahda ABŞ-ın energetika naziri Samuel Bodman ilə görüşmüşdür

27 aprel 2006

Azərbaycan Prezidenti İlham Əliyev aprelin 27-də Vaşinqtonda, onun üçün ayrılmış iqamətgahda ABŞ dövlət katibinin birinci müavini Robert Zollik və xarici siyasət idarəsinin başçısının müavini xanım Karen Hyuz ilə görüşmüşdür

28 aprel 2006

Aprelin 28-də Vaşinqtonda, Ağ evdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Amerika Birləşmiş Ştatlarının Prezidenti Corc Buşun görüşü olmuşdur

28 aprel 2006

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 28-də Vaşinqtonda ABŞ-ın müdafiə naziri Donald Ramsfeld ilə görüşmüşdür

28 aprel 2006

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Vaşinqtona səfəri çərçivəsində aprelin 28-də Amerika Birləşmiş Ştatlarının vitse-prezidenti Riçard Çeyni ilə görüşmüşdür

May 2006

04 may 2006

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 4-də Prezident sarayında İran İslam Respublikasının Prezidenti Mahmud Əhmədinejad ilə görüşmüşdür

04 may 2006

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 4-də Prezident sarayında Əfqanıstan İslam Respublikasının Prezidenti Həmid Kərzai və onu müşayiət edən nümayəndə heyəti ilə görüşmüşdür

05 may 2006

Azərbaycan Prezidenti İlham Əliyev mayın 5-də Prezident sarayında Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğan ilə görüşmüşdür

11 may 2006

Mayın 11-də, rəsmi qarşılanma mərasimindən sonra Prezident sarayında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Koreya Respublikasının Prezidenti Ro Mu Hyunun təkbətək görüşü olmuşdur

22 may 2006

Mayın 22-də Kiyevdə "Nasionalnaya" mehmanxanasında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Gürcüstan Prezidenti Mixail Saakaşvilinin görüşü olmuşdur

23 may 2006

Mayın 23-də Kiyevdə Azərbaycan Prezidenti İlham Əliyevin və Ukrayna Prezidenti Viktor Yuşşenkonun görüşü olmuşdur. Danışıqlarda siyasi, iqtisadi və digər sahələrdə ikitərəfli əlaqələrin vəziyyəti və inkişaf perspektivləri barədə fikir mübadiləsi aparılmışdır

29 may 2006

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 29-da Parisdə Fransa Müəssisələri Hərəkatının (MEDEF) üzvü olan nüfuzlu şirkətləri təmsil edən iş adamları ilə görüşmüşdür

29 may 2006

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 29-da Parisdə, onun üçün ayrılmış iqamətgahda Fransanın "Total" şirkətinin kəşfiyyat və hasilat üzrə prezidenti Kristof de Morjerini qəbul etmişdir

29 may 2006

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 29-da Parisdə, onun üçün ayrılmış iqamətgahda Fransanın "Teknip" qrupunun prezidenti Daniyel Valotu qəbul etmişdir

30 may 2006

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 30-da Parisdə, onun üçün ayrılmış iqamətgahda Fransanın "Vinci" şirkətinin prezidenti Pyer Bergeri qəbul etmişdir

30 may 2006

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 30-da Fransa Prezidenti Jak Şirakla görüşmək üçün Yelisey sarayına gəlmişdir

İyun 2006

04 iyun 2006

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 4-də Buxarestdə, onun üçün ayrılmış iqamətgahda Rumıniyanın keçmiş Prezidenti, senator İon İliyesku ilə görüşmüşdür

04 iyun 2006

İyunun 4-də Buxarestdə, Rumıniya dövlət başçısının sarayında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Rumıniya Respublikasının Prezidenti Trayan Beseskunun görüşü olmuşdur

04 iyun 2006

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 4-də Buxarestdə, onun üçün ayrılmış iqamətgahda Avropa Şurasının baş katibi Terri Devis ilə görüşmüşdür

04 iyun 2006

İyunun 4-də Buxarestdə, Polşanın Rumıniyadakı səfirliyinin binasında Azərbaycan Prezidenti İlham Əliyevin və Ermənistan Prezidenti Robert Koçaryanın görüşü keçirilmişdir

05 iyun 2006

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 5-də Buxarestdə, onun üçün ayrılmış iqamətgahda Belçikanın xarici işlər naziri, ATƏT-in hazırkı sədri Karel de Quxt ilə görüşmüşdür

05 iyun 2006

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 5-də Buxarestdə, onun üçün ayrılmış iqamətgahda Amerika Birləşmiş Ştatları Prezidentinin milli təhlükəsizlik üzrə köməkçisinin müavini Ceyms Krouçu qəbul etmişdir

08 iyun 2006

İyunun 8-də Prezident sarayında Azərbaycan Prezidenti İlham Əliyevin və Litva Prezidenti Valdas Adamkusun təkbətək görüşü olmuşdur

16 iyun 2006

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 16-da, onun üçün ayrılmış iqamətgahda - "Regent Ankara" mehmanxanasında İsrail Baş nazirinin müavini Şimon Peresi qəbul etmişdir

16 iyun 2006

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 16-da, onun üçün ayrılmış iqamətgahda - "Regent Ankara" mehmanxanasında Fələstin Azadlıq Təşkilatı İcraiyyə Komitəsinin üzvü Mühəmməd Səəd Audiyanı qəbul etmişdir

16 iyun 2006

İyunun 16-da Qazaxıstan Prezidentinin Almatıdakı sarayında Azərbaycan Prezidenti İlham Əliyevin və Qazaxıstan Prezidenti Nursultan Nazarbayevin görüşü olmuşdur

16 iyun 2006

İyunun 16-da Almatıda, "Almalı" iqamətgahında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin görüşü olmuşdur

İyul 2006

12 iyul 2006

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 12-də İstanbulun "Çırağan" sarayında Amerika Birləşmiş Ştatlarının energetika nazirinin müavini Kley Sell ilə görüşmüşdür

12 iyul 2006

İyulun 12-də İstanbulun "Çırağan" sarayında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Gürcüstan Prezidenti Mixail Saakaşvilinin görüşü olmuşdur

12 iyul 2006

İyulun 12-də İstanbulun "Çırağan" sarayında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin, Gürcüstan Prezidenti Mixail Saakaşvilinin və Türkiyə Respublikasının Baş naziri Rəcəb Tayyib Ərdoğanın üçtərəfli görüşü keçirilmişdir.

12 iyul 2006

İyulun 12-də İstanbulun "Çırağan" sarayında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğanın görüşü olmuşdur

12 iyul 2006

İyulun 12-də İstanbulun "Çırağan" sarayında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Türkiyə Respublikasının Prezidenti Əhməd Necdət Sezərin görüşü olmuşdur

13 iyul 2006

İyulun 13-də Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin təntənəli açılış mərasimi başa çatdıqdan sonra Azərbaycan Prezidenti İlham Əliyevin və Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğanın görüşü olmuşdur

21 iyul 2006

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 21-də Moskvada onun üçün ayrılmış iqamətgahda Moldova Prezidenti Vladimir Voronin ilə görüşmüşdür

22 iyul 2006

İyulun 22-də Moskvada Kreml sarayında Müstəqil Dövlətlər Birliyinin üzvü olan ölkələrin prezidentlərinin qeyri-rəsmi görüşü keçirilmişdir

Avqust 2006

23 avqust 2006

Avqustun 23-də, rəsmi qarşılanma mərasimindən sonra Prezident sarayında Azərbaycan Prezidenti İlham Əliyevin və İordaniyanın Kralı II Abdullanın təkbətək görüşü olmuşdur

27 avqust 2006

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 27-də Sloveniyanın paytaxtından Bled şəhərinə gəlmişdir

27 avqust 2006

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 27-də Bled şəhərinin "Golf" mehmanxanasında Gürcüstan Baş nazirinin müavini, Avropa və Avratlantik strukturlarına inteqrasiya məsələləri üzrə dövlət naziri Georgi Baramidzeni qəbul etmişdir

27 avqust 2006

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 27-də Bled şəhərinin "Golf" mehmanxanasında Avropa İttifaqının Cənubi Qafqaz üzrə nümayəndəsi Peter Semnebi ilə görüşmüşdür

28 avqust 2006

Avqustun 28-də Sloveniya Prezidentinin iqamətgahında - "Brdo Pri Kranyu" qəsrində Azərbaycan Prezidenti İlham Əliyevin və Sloveniya Prezidenti Yanez Drnovşekin təkbətək görüşü olmuşdur

28 avqust 2006

Avqustun 28-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev onun üçün ayrılmış iqamətgahda, "Grand Union" mehmanxanasında Avropa Yenidənqurma və İnkişaf Bankının prezidenti Jan Lemyer ilə görüşmüşdür

28 avqust 2006

Avqustun 28-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev onun üçün ayrılmış iqamətgahda, "Grand Union" mehmanxanasında ATƏT-in hazırkı sədrinin xüsusi nümayəndəsi Pyer Şevalyeni qəbul etmişdir

28 avqust 2006

Avqustun 28-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev onun üçün ayrılmış iqamətgahda, "Grand Union" mehmanxanasında ATƏT-in Minsk qrupunun amerikalı həmsədri, səfir Metyu Brayzanı qəbul etmişdir

28 avqust 2006

Avqustun 28-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Lyublyana şəhər meriyasının binasına gəlmişdir

28 avqust 2006

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 28-də Lyublyanada,

onun üçün ayrılmış iqamətgahda Slovakiyanın xarici işlər naziri Yan Kubiş ilə görüşmüşdür

Sentyabr 2006

03 sentyabr 2006

Sentyabrın 3-də İstanbulun Dolmabaxça sarayında Azərbaycan Prezidenti İlham Əliyevin Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğanla görüşü olmuşdur

07 sentyabr 2006

Sentyabrın 7-də Prezident sarayında Azərbaycan Prezidenti İlham Əliyevin və Ukrayna Prezidenti Viktor Yuşşenkonun təkbətək görüşü olmuşdur

18 sentyabr 2006

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 18-də Antalyada, "Sunqate Port Royal" mehmanxanasında Qazaxıstanın dövlət katibi Oralbay Abdıkərimovu qəbul etmişdir

18 sentyabr 2006

Sentyabrın 18-də Antalyada, "Sunqate Port Royal" mehmanxanasında Azərbaycan Prezidenti İlham Əliyevin və Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğanın görüşü olmuşdur

18 sentyabr 2006

Azərbaycan Prezidenti İlham Əliyev sentyabrın 18-də Antalyada, "Sunqate Port Royal" mehmanxanasında Şimali Kiprin Prezidenti Mehmet Əli Tələt ilə görüşmüşdür

22 sentyabr 2006

Sentyabrın 22-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Berlində ABŞ-ın keçmiş dövlət katibi Henri Kissincer ilə görüşmüşdür

22 sentyabr 2006

Sentyabrın 22-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Berlində, onun üçün ayrılmış iqamətgahda - "Adlon" mehmanxanasında Gürcüstan parlamentinin sədri Nino Burcanadze ilə görüşmüşdür

Oktyabr 2006

04 oktyabr 2006

Oktyabrın 4-də Latviya Prezidentinin iqamətgahında - "Riqa" qəsrində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Latviya Respublikasının Prezidenti Vayra Vike-Freyberqanın təkbətək görüşü olmuşdur

04 oktyabr 2006

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 4-də "Latviya İctimaiyyət Evi"nə gəldi. Burada Prezident İlham Əliyevi Latviyanın Baş naziri Ayqars Kalvitis böyük hörmət və ehtiramla qarşıladı

05 oktyabr 2006

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 5-də Riqada onun üçün ayrılmış iqamətgahda - "Radisson SAS" mehmanxanasında Latviyanın aparıcı kütləvi informasiya vasitələrinin baş redaktorları ilə birlikdə dəyirmi masa arxasında səhər yeməyində iştirak etmiş və onların suallarına cavab vermişdir

05 oktyabr 2006

Prezident İlham Əliyev oktyabrın 5-də "Radisson SAS" mehmanxanasında Latviyadakı Azərbaycan icmasının nümayəndələri ilə görüşmüşdür

11 oktyabr 2006

Oktyabrın 11-də Prezident sarayında Azərbaycan Prezidenti İlham Əliyevin və Rumıniya Prezidenti Trayan Beseskunun təkbətək görüşü olmuşdur

17 oktyabr 2006

Oktyabrın 17-də, Minskdə Belarus Prezidentinin iqamətgahında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenkonun təkbətək görüşü olmuşdur

27 oktyabr 2006

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 27-də Prezident sarayında xarici ölkələrin kütləvi informasiya vasitələrinin Rusiyada akkreditə olunmuş nümayəndələri ilə görüşmüş və onların suallarına cavab vermişdir

Noyabr 2006

07 noyabr 2006

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 7-də Belçika Senatının binasında Belçika senatinin sədri Ann-Mari Lizen ilə görüşmüşdür

07 noyabr 2006

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 7-də Brüsseldə Avropa Birliyinin iqamətgahında Avropa Birliyi Şurasinin baş katibi, Xarici Siyasət və Təhlükəsizlik Siyasəti Üzrə Ali Nümayəndəsi Xavyer Solana ilə görüşmüşdür

07 noyabr 2006

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 7-də Brüsseldə Avropa Komissiyasının sədri Joze Manuel Barrozu ilə görüşmüşdür

07 noyabr 2006

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 7-də Brüsseldə Avropa Komissiyasının enerji məsələlərinə dair məsul komissarı Andris Pyebalqs ilə görüşmüşdür

07 noyabr 2006

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 7-də Avropa Parlamentinin binasında Avropa Parlamentinin sədri Xosep Borrell Fontelles ilə görüşmüşdür

08 noyabr 2006

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 8-də Brüsseldə, onun üçün ayrılmış iqamətgahda ATƏT-in hazırkı sədri, Belçikanın xarici işlər naziri Karel de Quxt ilə görüşmüşdür

08 noyabr 2006

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 8-də Belçika parlamentinin binasında Nümayəndələr palatasının sədri Herman de Kroo ilə görüşmüşdür

08 noyabr 2006

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 8-də Brüsseldə Belçikanın Baş naziri Gi Verhofstadt ilə görüşmüşdür

09 noyabr 2006

Noyabrın 9-da Kremldə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin görüşü olmuşdur

10 noyabr 2006

Rusiya Federasiyasında səfərdə olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 10-da Moskva şəhər meriyasında Moskva şəhərinin Meri Yuri Lujkov ilə görüşmüşdür

17 noyabr 2006

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 17-də Antalyada, Türkdilli ölkələrin dövlət başçılarının VIII zirvə görüşü çərçivəsində Qazaxıstan Respublikasının Prezidenti Nursultan Nazarbayev ilə görüşmüşdür

17 noyabr 2006

Noyabrın 17-də Antalyada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Türkiyə Respublikasının Prezidenti Əhməd Necdət Sezərin görüşü olmuşdur

17 noyabr 2006

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 17-də türkdilli ölkələrin dövlət başçılarının Antalyada keçirilən VIII zirvə görüşü çərçivəsində Qırğızıstan Respublikasının Prezidenti Kurmanbek Bakiyev ilə görüşmüşdür

20 noyabr 2006

Noyabrın 20-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev onun üçün ayrılmış iqamətgahda - "Qəsrul əl-Emirat" mehmanxanasında Abu-Dabi İcraedici Şurasının üzvü, Abu-Dabi Əmirliyinin Vəliəhdi Divanının başçısı, Birləşmiş Ərəb Əmirlikləri Prezidentinin oğlu Şeyx Sultan bin Xəlifə Al Nəhyan ilə görüşmüşdür

20 noyabr 2006

Noyabrın 20-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Abu-Dabidə onun üçün ayrılmış iqamətgahda - "Qəsrul əl-Emirat" mehmanxanasında Birləşmiş Ərəb Əmirliklərinin iqtisadiyyat və planlaşdırma naziri xanım Şeyxa Lubna Al Qasimi ilə görüşmüşdür.

20 noyabr 2006

Noyabrın 20-də Abu-Dabidə, Əl-Müşrif Prezident sarayında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Xəlifə bin Zaid Al Nəhyanın təkbətək görüşü olmuşdur.

21 noyabr 2006

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 21-də Dubayda Birləşmiş Ərəb Əmirliklərinin vitse-prezidenti və Baş naziri, Dubay Əmirliyinin hökmdarı şeyx Məhəmməd bin Rəşid Al Məktum ilə görüşmüşdür

28 noyabr 2006

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev MDB dövlət başçılarının Minskdə keçirilən zirvə görüşü çərçivəsində noyabrın 28-də, Rusiya Federasiyasının Belarusdakı səfirliyinin binasında Ermənistan Prezidenti Robert Koçaryan ilə görüşmüşdür

28 noyabr 2006

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev MDB dövlət başçılarının Minskdə keçirilən zirvə görüşü çərçivəsində noyabrın 28-də, onun üçün ayrılmış iqamətgahda Gürcüstan Prezidenti Mixail Saakaşvili ilə görüşmüşdür

28 noyabr 2006

Noyabrın 28-də Minskdə, Belarus dövləti başçısının iqamətgahında Azərbaycan Prezidenti İlham Əliyevin, Belarus Prezidenti Aleksandr Lukaşenkonun və Ukrayna Prezidenti Viktor Yuşşenkonun üçtərəfli görüşü olmuşdur

28 noyabr 2006

Noyabrın 28-də Minskdə Azərbaycan Prezidenti İlham Əliyevin və Ukrayna Prezidenti Viktor Yuşşenkonun görüşü olmuşdur

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN 2006-CI İLDƏKİ QƏBULLARI BARƏDƏ MƏLUMAT

Yanvar 2006

19 yanvar 2006

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 19-da Prezident sarayında ABŞ Avropa Komandanlığının Komandan müavini general Çarlz Uoldun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir

23 yanvar 2006

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 23-də Prezident sarayında Macarıstan Xarici İşlər Nazirliyinin siyasi məsələlər üzrə dövlət katibi Andraş Barşoninin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir

24 yanvar 2006

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 24-də Prezident sarayında Rusiya Federasiyası hökuməti sədrinin müavini, müdafiə naziri Sergey İvanovun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir

25 yanvar 2006

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 25-də Prezident sarayında ATƏT-in fəaliyyətdə olan sədri, Belçika Krallığının xarici işlər naziri Karel de Quxtun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir

25 yanvar 2006

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 25-də Prezident sarayında Avstriyanın Dövlətin Qorunması və Terrorizmə Qarşı Mübarizə üzrə Federal Agentliyinin direktoru Gert-Rene Pollini qəbul etmişdir

26 yanvar 2006

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 26-da Prezident sarayında Avropa Komissiyasının ölkəmizdə yeni təyin olunmuş xüsusi elçisi Alan Uaddamsı qəbul etmişdir

26 yanvar 2006

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 26-da Prezident sarayında Avropa İttifaqının Cənubi Qafqaz üzrə nümayəndəsi Heyki Talvitiyeni qəbul etmişdir

30 yanvar 2006

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 30-da Prezident sarayında Fransanın ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Rolan Blatmanı diplomatik fəaliyyətinin başa çatması ilə əlaqədar qəbul etmişdir

30 yanvar 2006

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 30-da Prezident sarayında Çin Xalq Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Çjan Xayçjounun etimadnaməsini qəbul etmişdir

30 yanvar 2006

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 30-da Prezident sarayında Ukraynanın ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Stepan Volkovetskinin etimadnaməsini qəbul etmişdir

Fevral 2006

01 fevral 2006

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 1-də Prezident sarayında ATƏT-in Minsk qrupunun həmsədrlərini qəbul etmişdir

02 fevral 2006

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 1-də Prezident sarayında Ukraynanın Milli Təhlükəsizlik və Müdafiə Şurasının katibi Anatoli Kinaxın rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir

02 fevral 2006

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 2-də Prezident sarayında Ümumdünya Gömrük Təşkilatı Avropa regionu gömrük xidməti rəhbərlərinin Bakıda keçirilən beynəlxalq konfransının iştirakçılarını qəbul etmişdir.

02 fevral 2006

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 2-də Prezident sarayında Gürcüstan Parlamenti sədrinin müavini, Ticarət-Sənaye Palatasının prezidenti Cemal İnaişvilinin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir

13 fevral 2006

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 13-də Prezident sarayında ABŞ-ın aparıcı Yəhudi Təşkilatları Sədrləri Konfransının ölkəmizdə səfərdə olan nümayəndə heyətini qəbul etmişdir

15 fevral 2006

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 15-də Prezident sarayında Nigeriya Federativ Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri İbrahim Qanyama Abubakarın etimadnaməsini qəbul etmişdir

15 fevral 2006

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 14-də Prezident sarayında Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının Baş katibi Tedo Caparidzeni qəbul etmişdir

15 fevral 2006

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 15-də Prezident sarayında Madaqaskar Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Alfonse Maksim Dovonun etimadnaməsini qəbul etmişdir

15 fevral 2006 11:12

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 15-də Prezident sarayında

Portuqaliya Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Horge Alberto Noqueiranın etimadnaməsini qəbul etmişdir

15 fevral 2006

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 15-də Prezident sarayında Braziliya Federativ Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Çezario Melantonio Netonun etimadnaməsini qəbul etmişdir

15 fevral 2006

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 15-də Prezident sarayında Slovakiya Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Auqustin Çisarın etimadnaməsini qəbul etmişdir

15 fevral 2006

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 15-də Prezident sarayında Kanadanın ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri İv Brodeurun etimadnaməsini qəbul etmişdir

15 fevral 2006

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 15-də Prezident sarayında Qırğızıstan Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Apas Cumaqulovun etimadnaməsini qəbul etmişdir

16 fevral 2006

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 16-da Prezident sarayında Avropa Komissiyasının üzvü, Avropa Komissiyasının Xarici Əlaqələr və Avropa Qonşuluq Siyasəti üzrə komissarı xanım Benita Ferrero Valdneri qəbul etmişdir

23 fevral 2006 11:18

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 23-də Prezident sarayında İsveçrənin federal xarici işlər naziri Mişlin Kalmi-Reyin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir

23 fevral 2006

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 23-də Prezident sarayında Rusiya Federasiyasının Ulyanovsk vilayətinin qubernatoru Sergey Morozovun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir

27 fevral 2006

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 27-də Prezident sarayında Mərmərə Qrupu Strateji və Sosial Araşdırmalar Vəqfinin sədri Akkan Suveri qəbul etmişdir

28 fevral 2006

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 28-də Prezident sarayında BMT-nin İnsan Hüquqları Komissiyasının din və əqidə azadlığı üzrə xüsusi məruzəçisi xanım Asma Cahangiri qəbul etmişdir

28 fevral 2006 11:27

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 28-də Prezident sarayında İslam Konfransı Təşkilatının baş katibi Ekmələddin İhsanoğlunun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir

Mart 2006

03 mart 2006

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 3-də Prezident sarayında Ümumdünya Əqli Mülkiyyət Təşkilatının nümayəndə heyətini qəbul etmişdir

13 mart 2006

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 13-də Prezident sarayında ATƏT-in Minsk qrupunun amerikalı həmsədri Stiven Mənni qəbul etmişdir

14 mart 2006

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 14-də Prezident sarayında ABŞ dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə müavini Daniel Fridi qəbul etmişdir

14 mart 2006

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 14-də Prezident sarayında Rumıniyanın milli müdafiə naziri Teodor Atanasiunun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir

15 mart 2006

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 15-də Prezident sarayında Litva Prezidentinin müşaviri xanım Halina Kobeskayteni qəbul etmişdir

15 mart 2006

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 15-də Prezident sarayında Dünya azərbaycanlılarının II qurultayında iştirak etmək üçün ölkəmizə gələn Türkiyə nümayəndə heyətinin üzvlərindən bir qrupunu qəbul etmişdir

15 mart 2006

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 15-də Prezident sarayında Çexiya və Avropa parlamentlərinin üzvü Jan Brezinanı qəbul etmişdir

17 mart 2006

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 17-də Prezident sarayında Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Peter Semnebeyin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir

17 mart 2006

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 17-də Prezident sarayında Türkiyənin Mərmərə Qrupu Strateji və Sosial Araşdırmalar Vəqfinin sədri Akkan Suverin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir

17 mart 2006

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 17-də Prezident sarayında Latviyanın cəmiyyətin inteqrasiyası məsələlərində xüsusi tapşırıqlar üzrə naziri Aynars Latkovskisin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir

22 mart 2006

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 22-də Prezident sarayında Avropa Şurası Parlament Assambleyasının Hüquqi məsələlər və insan hüquqları komitəsi sədrinin müavini, AŞPA-nın Monitorinq komitəsinin üzvü Eduard Lintnerin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir

28 mart 2006

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 28-də Prezident sarayında Fransanın ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Bernar Amodrik dü Şafonun etimadnaməsini qəbul etmişdi

30 mart 2006

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 30-da Prezident sarayında İtaliyanın ədliyyə naziri, senator Roberto Kastellinin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir

30 mart 2006

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 30-da Prezident sarayında Litva Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Vyatautas Nauduzasın etimadnaməsini qəbul etmişdir

31 mart 2006

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 31-də Prezident sarayında Birləşmiş Ərəb Əmirliklərinin Ras əl-Xeymə Əmirliyi Hökmdarının müavini və Vəliəhdi Şeyx Səud bin Saqr əl-Qasiminin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir

Aprel 2006

03 aprel 2006

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 3-də Prezident sarayında Beynəlxalq Qırmızı Xaç Komitəsinin prezidenti Yakob Kellenbergerin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir

03 aprel 2006

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 3-də Prezident sarayında ABŞ-ın dövlət katibi yanında dövlət planlaşdırması üzrə direktor Stefen Krazneri və dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə müşaviri Metyu Brayzanı qəbul etmişdir

05 aprel 2006

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 5-də Prezident sarayında Böyük Britaniyanın Milli Audit Ofisinin baş müfəttişi və auditoru ser Con Bournun rəh-

bərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir

06 aprel 2006

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 6-da Prezident sarayında Polşanın iqtisadiyyat naziri Pyotr Voznyakın rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir

07 aprel 2006

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 7-də Prezident sarayında Avropa Komissiyasının xarici əlaqələr üzrə baş direktorunun müavini Fokion Fotiadisi qəbul etmişdir

10 aprel 2006

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 10-da Prezident sarayında Avropa Yenidənqurma və İnkişaf Bankının prezidenti Jan Lemyerin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir

10 aprel 2006

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 10-da Prezident sarayında NATO baş katibinin Cənubi Qafqaz və Orta Asiya üzrə xüsusi nümayəndəsi Robert Simmonsun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir

10 aprel 2006

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 10-da Prezident sarayında Avstriya Respublikası Ali Məhkəməsinin sədri İohann Jeşutu qəbul etmişdir

11 aprel 2006

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 11-də Prezident sarayında ATƏT-in Minsk qrupunun fransalı həmsədri Bernard Fasyeni qəbul etmişdir

11 aprel 2006

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 11-də Prezident sarayında Türkiyə Respublikası Milli Təhlükəsizlik Təşkilatının rəisi Emre Taneri qəbul etmişdir

11 aprel 2006

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 11-də Prezident sarayında MDB ölkələrinin Yəhudi İcmaları Federasiyasının prezidenti Lev Levayevin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir

19 aprel 2006

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 19-da Prezident sarayında Bakıda keçirilən "Azərbaycan: sivilizasiyalararası dialoqun keçmişi və bu günü" mövzusunda XIII beynəlxalq konfransda iştirak edən Latın Mədəniyyəti Akademiyasının nümayəndə heyətini qəbul etmişdir

19 aprel 2006

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 19-da Prezident sarayında İordaniya Haşimilər Krallığının Şahzadəsi Əl-Həsən bin Talalı qəbul etmişdir

19 aprel 2006

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 19-da Prezident sarayında Türkiyənin daxili işlər naziri Əbdülqədir Aksunun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir

20 aprel 2006

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 20-də Prezident sarayında İran İslam Respublikasının müdafiə və silahlı qüvvələrə dəstək naziri, general-mayor Mustafa Məhəmməd Nəccarın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir

21 aprel 2006

Azərbaycan Respublikasının Prezidenti Ilham Əliyev aprelin 21-də Prezident sarayında Amerika Birləşmiş Ştatlarının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Rino Harnişi diplomatik fəaliyyətinin başa çatması ilə əlaqədar qəbul etmişdir

21 aprel 2006

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 21-də Prezident sarayında Avropa İttifaqı "Üçlüyü"nün nümayəndə heyətini qəbul etmişdir

21 aprel 2006

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 21-də Prezident sarayında ATƏT-in Minsk qrupunun amerikalı həmsədri, səfir Stiven Mənni qəbul etmişdir

24 aprel 2006

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 24-də Prezident sarayında Qazaxıstan xarici işlər nazirinin müavini Nurlan Onjanovu qəbul etmişdir

25 aprel 2006

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 25-də Prezident sarayında Dünya Səhiyyə Təşkilatının baş direktoru Li Yonq Vukun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir

May 2006

02 may 2006

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 2-də Prezident sarayında Norveçin "Statoyl" neft şirkətinin prezidenti Helqe Lundun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir

02 may 2006

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 2-də Prezident sarayında Oman Sultanlığının xüsusi tapşırıqlar üzrə səfiri, sultanın şəxsi müşaviri, Omanın BMT-dəki səfiri, Böyük Britaniyadakı səfirliyinin səlahiyyətli naziri, YUNESKO-nun xoşməramlı səfiri Şeyx Qhasan Şakiri qəbul etmişdir

04 may 2006

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 4-də Prezident sarayında ABŞ Dövlət katibinin iqtisadi məsələlərə dair baş müşaviri Frenk Mermudu qəbul etmişdir

04 may 2006

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 4-də Prezident sarayında Özbəkistan Respublikası parlamentinin Qanunvericilik palatasının sədri Erkin Xəlilovu qəbul etmişdir

04 may 2006

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 4-də Prezident sarayında Tacikistan Respublikasının Baş naziri Akil Akilovu qəbul etmişdir

04 may 2006

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 4-də Prezident sarayında Pakistan İslam Respublikasının Baş naziri Şövkət Əzizi qəbul etmişdir

04 may 2006

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 4-də Prezident sarayında Qırğızıstan Baş nazirinin müavini Almanbet Matubraimovu qəbul etmişdir

05 may 2006

Azərbaycan Prezidenti İlham Əliyev mayın 5-də Prezident sarayında Avropa Şurasının İnsan Hüquqları üzrə komissarı Tomas Hammerberqi qəbul etmişdir

05 may 2006 12:49

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 5-də Prezident sarayında ATƏT-in Minsk qrupunun fransalı həmsədri Bernar Fasyeni qəbul etmişdir

05 may 2006

Azərbaycan Prezidenti İlham Əliyev mayın 5-də Prezident sarayında ATƏT-in Parlament Assambleyası sədrinin Dağlıq Qarabağ münaqişəsi üzrə xüsusi nümayəndəsi Qoran Lenmarkeri qəbul etmişdir.

05 may 2006

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 5-də Prezident sarayında Qazaxıstan Respublikasının Baş naziri Danial Axmetovu qəbul etmişdir

08 may 2006

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 8-də Prezident sarayında Norveçin dövlət katibi Kjetil Skoqrandın rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.

08 may 2006

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 8-də Prezident sarayında Rusiya Federasiyasının İnsan hüquqları üzrə müvəkkili Vladimir Lukini qəbul etmişdir

08 may 2006

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 8-də Prezident sarayında Pakistan Senatının İnsan hüquqları daimi komitəsinin sədri, senator Seyid Məhəmməd Zəfərin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir

11 may 2006

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 11-də Prezident sarayında Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Heyki Talvitiyeni qəbul etmişdir

11 may 2006

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 11-də Prezident sarayında ATƏT-in İnsan Hüquqları və Demokratik Təsisatlar Bürosunun seçkiləri müşahidə missiyasının rəhbəri Gert Arensin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir

11 may 2006

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 11-də Prezident sarayında ATƏT-in hazırkı sədrinin xüsusi elçisi Pyer Şevalyeni qəbul etmişdir

15 may 2006

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 15-də Prezident sarayında Yaponiyanın ölkəmizdəki səfiri Tadahiro Abeni qəbul etmişdir

16 may 2006

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 16-da Prezident sarayında Ukraynanın yanacaq və energetika naziri İvan Plaçkovun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir

17 may 2006

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 17-də Prezident sarayında "BP" şirkətinin icraçı vitse-prezidenti Endryu İnqlisi qəbul etmişdir

19 may 2006

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 19-da Prezident sarayında musiqi xadimi, "İpək Yolu" layihəsinin rəhbəri, ABŞ violonçelçalanı Yo Yo Manı qəbul etmişdir

22 may 2006

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 22-də Prezident sarayında Vatikanın dövlətlərlə əlaqələr üzrə dövlət katibi arxiyepiskop Covanni Layolonun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir

24 may 2006

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 24-də Prezident sarayında Rusiya xarici işlər nazirinin müavini Qriqori Karasin, ABŞ dövlət katibinin Avropa məsələləri üzrə müavini Daniel Frid, Fransa Prezidentinin beynəlxalq məsələlərə dair müşaviri Pyer Morel, ATƏT-in Minsk qrupunun həmsədrləri və ATƏT-in hazırkı sədrinin şəxsi nümayəndəsindən ibarət ATƏT-in Minsk qrupunun həmsədri olan dövlətlərin nümayəndə heyətini qəbul etmişdir

25 may 2006

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 25-də Prezident sarayında BMT-nin qadınlar üçün inkişaf fondunun icraçı direktoru xanım Noelin Heyzeri qəbul etmişdir

26 may 2006

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 26-da Prezident sarayında "Fəza qəzetçilik" Anonim Şirkəti İdarə heyətinin üzvü, Türkiyənin "Zaman" qəzetinin baş redaktoru Ekrem Dumanlının rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir

İyun 2006

01 iyun 2006

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 1-də Prezident sarayında Tacikistanın müdafiə naziri general-polkovnik Şirəli Xayrulloyevi qəbul etmişdir

01 iyun 2006

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 1-də Prezident sarayında MDB-nin İcraiyyə Komitəsinin sədri-icraçı katib Vladimir Ruşaylonu qəbul etmişdir

01 iyun 2006

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 1-də Prezident sarayında Səudiyyə Ərəbistanı Krallığı Gənclərə Qayğı Baş Sədrliyinin birinci vitse-prezidenti Şahzadə Əmir Nəvvaf bin Feysəl bin Fəhd bin Əbdüləzizi qəbul etmişdir

02 iyun 2006

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 2-də Prezident sarayında Dövlətlərarası Aviasiya Komitəsinin sədri Tatyana Anodinanı qəbul etmişdir

02 iyun 2006

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 2-də Prezident sarayında İran İslam Respublikasının sənaye və mədən naziri doktor Əlirza Təhmasebinin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir

06 iyun 2006

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 6-da Prezident sarayında ABŞ-ın Dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə müşaviri Metyu Brayzanın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir

06 iyun 2006

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 6-da Prezident sarayında BNP Paribas bankının prezidenti Mişel Peberonun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir

06 iyun 2006

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 6-da Prezident sarayında İsrailin milli infrastruktur naziri Benyamin Ben-Eliezerin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir

07 iyun 2006

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 7-də Prezident sarayında İngiltərə-Azərbaycan Cəmiyyətinin prezidenti lord Freyzerin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir

09 iyun 2006

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 9-da Prezident sarayında Rusiya Federasiyasının fövqəladə hallar naziri Sergey Şoyqunu qəbul etmişdir

09 iyun 2006

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 9-da Prezident Sarayında Rusiya Tibb Elmləri Akademiyasının həqiqi üzvləri, məşhur oftalmoloqlar Arkadi Nesterovu və Alevtina Brovkinanı qəbul etmişdir

12 iyun 2006

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 12-də Prezident sarayında Qara Dəniz Ticarət və İnkişaf Bankının prezidenti Hayrettin Kaplanın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir

12 iyun 2006

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 12-də Prezident sarayında ABŞ-ın Nyu-Hempşir ştatının keçmiş qubernatoru, Corc Buş Administrasiyası aparatının sabiq rəhbəri Con Sununu qəbul etmişdir

12 iyun 2006

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 12-də Prezident sarayında Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının (QİƏT) baş katibi Leonidas Xrizantopulosu qəbul etmişdir

13 iyun 2006

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 13-də Prezident sarayında ABŞ-ın "Hallibörtn" şirkətinin prezidenti və baş icraçı direktoru Devid Lezarı qəbul etmişdir.

13 iyun 2006

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 13-də Prezident sarayında Avropa Şurası Nazirlər Komitəsinin "Aqo" qrupunun sədri Roland Vegenerin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir

13 iyun 2006

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 13-də Prezident sarayında "BP-Azərbaycan" şirkətinin prezidenti Devid Vudvordu və "BTC Ko." şirkətinin baş icraçı direktoru Maykl Taunzendi qəbul etmişdir

19 iyun 2006

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 19-da Prezident sarayında İslam Konfransı Təşkilatının baş katibi İkmaləddin İhsanoğlunu qəbul etmişdir

19 iyun 2006

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 19-da Prezident sarayında İran İslam Respublikasının xarici işlər naziri Mənuçehr Mottəkini qəbul etmişdir

19 iyun 2006

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 19-da Prezident sarayında Tailand Krallığının xarici işlər naziri Kantathi Suphamonqkonu qəbul etmişdir

19 iyun 2006

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 19-da Prezident sarayında İraqın xarici işlər üzrə dövlət naziri Rafe əl-İssavini qəbul etmişdir

19 iyun 2006

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 19-da Prezident sarayında Türkiyə Respublikası Baş nazirinin müavini, xarici işlər naziri Abdullah Gülün başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir

19 iyun 2006

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 19-da Prezident sarayında ATƏT-in baş katibi Mark Perrən de Brişambonu qəbul etmişdir.

19 iyun 2006

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 19-da Prezident sarayında İordaniya Haşimilər Krallığının xarici işlər naziri Əbdül İlah Əl-Xətibi qəbul etmişdir

20 iyun 2006

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 20-də Prezident sarayında Beynəlxalq Miqrasiya Təşkilatının baş direktoru Brunson MakKinlini qəbul etmişdir

20 iyun 2006

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 20-də Prezident sarayında Dialoq və Əməkdaşlıq Uğrunda İslam Konfransı Gənclər Forumunun prezidenti Əli Sarıqayanı qəbul etmişdir

20 iyun 2006

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 20-də Prezident sarayında İslam Ticarət və Sənaye Palatasının prezidenti şeyx Saleh bin Abdullah Kamalı qəbul etmişdir

20 iyun 2006

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 20-də Prezident sarayında İslam Təhsil, Elm və Mədəniyyət Təşkilatının baş direktoru Əbdüləziz əl-Tuveyjrini qəbul etmişdir

21 iyun 2006

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 21-də Prezident sarayında görkəmli qazax şairi, alim və ictimai-siyasi xadim Oljas Süleymenovu qəbul etmişdir

23 iyun 2006

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 23-də Prezident sarayında "Total-Azərbaycan" şirkətinin baş meneceri Tyeri Normanın rəhbərlik etdiyi "Total" şirkətinin həvəskar futbol komandasının üzvlərini qəbul etmişdir

26 iyun 2006

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 26-da Prezident sarayında BMT-nin Ticarət və İnkişaf üzrə Konfransının baş katibi Supaçay Panitçpakdini qəbul etmişdir

27 iyun 2006

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 27-də Prezident sarayında BMT-nin Asiya və Sakit okean üçün İqtisadi və Sosial Komissiyasının icraçı katibi Kim Hak-Sunu qəbul etmişdir

27 iyun 2006

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 27-də Prezident sarayında Avropa Şurasının məsləhətçi orqanı olan Avropa Yerli və Regional Hakimiyyətlər Konqresinin sədri Halvadan Skardın rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir

27 iyun 2006

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 27-də Prezident sarayında məşhur musiqiçi Herbi Hankooku qəbul etmişdir

27 iyun 2006

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 27-də Prezident sarayında Gürcüstan Prezidentinin milli təhlükəsizlik məsələləri üzrə köməkçisi, Gürcüstanın Milli Təhlükəsizlik Şurasının katibi Konstantin Kemularinin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir

27 iyun 2006

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 27-də Prezident sarayında Almaniya Federativ Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Detlef Lingemanı diplomatik fəaliyyətinin başa çatması ilə əlaqədar qəbul etmişdir

28 iyun 2006

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 28-də Prezident sarayında Amerika Türk Assosiasiyaları Assambleyasının prezidenti Vural Cengizi qəbul etmişdir

29 iyun 2006

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 29-da Prezident sarayında "Cisco Systems" şirkətinin prezidenti Con Çembersin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir

29 iyun 2006

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 29-da Prezident sarayında Türkiyə Cümhuriyyəti Silahlı Qüvvələrinin Baş Qərargah rəisi ordu generalı Hilmi Özkökü qəbul etmişdir

30 iyun 2006

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 30-da Prezident sarayında Böyük Britaniya kral ailəsinin üzvü, York hersoqu, şahzadə Endryunu qəbul etmişdir.

İyul 2006

03 iyul 2006

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 3-də Prezident sarayında Amerika Birləşmiş Ştatlarının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri xanım Ann Dersin etimadnaməsini qəbul etmişdir

03 iyul 2006

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 3-də Prezident sarayında NATO Baş katibinin müavini Jan Furneni qəbul etmişdir

05 iyul 2006

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 5-də Prezident sarayında Gürcüstanın Baş naziri Zurab Noğaidelini qəbul etmişdir

24 iyul 2006

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 24-də Prezident sarayında "VİNCİ" qrupunun prezidenti İv-Tibo de Silqinin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir

24 iyul 2006

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 24-də Prezident sarayında Pakistan İslam Respublikasının ölkəmizdəki Fövqəladə və Səlahiyyətli səfiri Məhəmməd Hafizi diplomatik fəaliyyətinin başa çatması ilə əlaqədar qəbul etmişdir

27 iyul 2006

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 27-də Prezident sarayında Türkiyənin Dövlət naziri Mehmet Aydını qəbul etmişdir

27 iyul 2006

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 27-də Prezident sarayında BMT-nin Ümumdünya Ərzaq Proqramının icraçı direktoru Ceyms Morrisin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir

31 iyul 2006

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 31-də Prezident sarayında Dünya Bankının Avropa və Mərkəzi Asiya regionu üzrə infrastruktur sektorunun direktoru Peter Tomsonun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir

Avqust 2006

01 avqust 2006

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 1-də Prezident sarayında Tatarıstanın baş naziri Rüstəm Minnixanovun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir

01 avqust 2006

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 1-də Prezident sarayında

ATƏT-in Minsk qrupunun amerikalı həmsədri Metyu Brayzanı qəbul etmişdir

04 avqust 2006

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 4-də Prezident sarayında Rusiya Federasiyasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Vasili İstratovun etimadnaməsini qəbul etmişdir. Diplomat Vasili İstratov Prezident sarayı qarşısında fəxri qarovul dəstəsinin önündən keçmişdir

07 avqust 2006

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 7-də Prezident sarayında Buxarest şəhərinin II sektorunun meri Nekulai Ontsanunun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir

07 avqust 2006

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 7-də Prezident sarayında Almaniya Federativ Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Per Kristofer Stançinanın etimadnaməsini qəbul etmişdir

07 avqust 2006

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 7-də Prezident sarayında Belarus Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Nikolay Pastkeviçin etimadnaməsini qəbul etmişdir

07 avqust 2006

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 7-də Prezident sarayında Türkiyə Baş nazirinin müavini və Dövlət naziri Mehmet Ali Şahinin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir

10 avqust 2006

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 10-da Prezident sarayında İran İslam Respublikası Prezidentinin Xəzər məsələləri üzrə xüsusi nümayəndəsi, xarici işlər nazirinin müavini Mehdi Səfərinin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir

16 avqust 2006

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 16-da Prezident sarayında Mərakeşin kənd təsərrüfatı, kənd rayonlarının inkişafı və dəniz balıqçılığı naziri Mohand Lansarın rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir

17 avqust 2006

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 17-də Prezident sarayında BMT-nin Qaçqınlar üzrə Ali komissarı Antonio Quterreşin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir

21 avqust 2006

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 21-də Prezident sarayında ABŞ Senatının Xarici əlaqələr komitəsinin sədri senator Riçard Luqarın rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir

22 avqust 2006

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 22-də Prezident sarayında Kopenhagen Konsensus Mərkəzinin direktoru Byorn Lomborqu qəbul etmişdir

22 avqust 2006

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 22-də Prezident sarayında "BP Azərbaycan" şirkətinin prezidenti Devid Vudvordu qəbul etmişdir

24 avqust 2006

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 24-də Prezident sarayında "Global Steel Holdings Ltd." şirkətinin sədri Pramod Mittalın rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir

24 avqust 2006

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 24-də Prezident sarayında Türkiyənin İğdır bələdiyyəsinin sədri Nurettin Arasın rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir

31 avqust 2006

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 31-də Prezident sarayında Ukrayna Baş nazirinin müavini, Ukrayna-Azərbaycan Birgə İqtisadi Əməkdaşlığı üzrə Hökumətlərarası Komissiyasının Ukrayna tərəfdən sədri Andrey Klyuyevi qəbul etmişdir

Sentyabr 2006

05 sentyabr 2006

Azərbaycan Prezidenti İlham Əliyev sentyabrın 5-də Prezident sarayında Rusiyalı Həmvətənlərin Beynəlxalq Şurasının Bakıda keçirilən geniş iclası iştirakçılarının bir qrupunu qəbul etmişdir

06 sentyabr 2006

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 6-da Prezident sarayında Moldova Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri İon Robunun etimadnaməsini qəbul etmişdir

11 sentyabr 2006

Azərbaycan Prezidenti İlham Əliyev sentyabrın 11-də Prezident sarayında Pakistan İslam Respublikasının turizm naziri xanım Nilufər Bəxtiyarı qəbul etmişdir

11 sentyabr 2006

Azərbaycan Prezidenti İlham Əliyev sentyabrın 11-də Prezident sarayında Türkiyənin mədəniyyət və turizm naziri Atilla Koçu qəbul etmişdir

11 sentyabr 2006

Azərbaycan Prezidenti İlham Əliyev sentyabrın 11-də Prezident sarayında Səudiyyə Ərəbistanı Krallığının Ali Turizm Təşkilatının Baş katibi Sultan bin Salman bin Əbdüləziz Al Səudu qəbul etmişdir

11 sentyabr 2006

Azərbaycan Prezidenti İlham Əliyev sentyabrın 11-də Prezident sarayında İslam Konfransı Təşkilatının (İKT) baş katibi Ekmələddin İhsanoğlunu qəbul etmişdir

11 sentyabr 2006

Azərbaycan Prezidenti İlham Əliyev sentyabrın 11-də Prezident sarayında Ümumdünya Turizm Təşkilatının (ÜTT) baş katibi Françesko Franjiallini qəbul etmişdir

12 sentyabr 2006

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 12-də Prezident sarayında Bolqarıstan Respublikasının sabiq Prezidenti, Balkan Siyasi Klubunun prezidenti Jelyu Jelevin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir

14 sentyabr 2006

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 14-də Prezident sarayında "BP-Azərbaycan" şirkətinin prezidenti Devid Vudvordu qəbul etmişdir

14 sentyabr 2006

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 14-də Prezident sarayında Türkiyənin əmək və sosial müdafiə naziri Murat Başesgioğlunun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir

14 sentyabr 2006

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 14-də Prezident sarayında Vaşinqtonda fəaliyyət göstərən Mərkəzi Asiya-Qafqaz İnstitutunun sədri Frederik Starın rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir

15 sentyabr 2006

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 15-də Prezident sarayında Bakıda keçirilən Birinci beynəlxalq rus kitabı festivalının iştirakçılarını qəbul etmişdir

15 sentyabr 2006

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 15-də Prezident sarayında ABŞ müdafiə nazirinin Avrasiya məsələləri üzrə müşaviri Ceyms MakDuqalın rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir

20 sentyabr 2006

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 20-də Prezident sarayında ABŞ Silahlı Qüvvələrinin Avropa komandanının müavini, general Uilliam Vordu qəbul etmişdir

21 sentyabr 2006

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 21-də Prezident sarayında ABŞ dövlət katibinin rabitə və informasiya məsələləri üzrə müşaviri Devid Qrossu qəbul etmişdir

27 sentyabr 2006

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 27-də Prezident sarayında Sərhəd Məsələləri üzrə Beynəlxalq Konfransın ("Şiofok konfransı") sərhəd xidmətləri rəhbərlərinin işçi qrupunun Bakıda keçirilən iclasının nümayəndələrini qəbul etmişdir

27 sentyabr 2006

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 27-də Prezident sarayında Hindistanın səfiri Cyoti Svarup Pandeni ölkəmizdəki diplomatik fəaliyyətinin başa çatması ilə əlaqədar qəbul etmişdir

28 sentyabr 2006

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 28-də Prezident sarayında Müstəqil Dövlətlər Birliyi onkoloqları və radioloqlarının dördüncü qurultayının iştirakçılarını qəbul etmişdir

28 sentyabr 2006

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 28-də Prezident sarayında MDB-nin İcraiyyə Komitəsinin sədri - icraçı katibi Vladimir Ruşaylonu qəbul etmişdir

Oktyabr 2006

02 oktyabr 2006

Azərbaycan Prezidenti İlham Əliyev oktyabrın 2-də Prezident sarayında BMT-nin İqtisadi və Sosial İşlər Departamentinin yardım və əlaqələndirmə bölməsinin icraçı katibi Sarbuland Xanı qəbul etmişdir

02 oktyabr 2006

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 2-də Prezident sarayında Bosniya və Herseqovina Respublikasının rabitə və nəqliyyat naziri Branko Dokiçi qəbul etmişdir

02 oktyabr 2006

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 2-də Prezident sarayında Türkiyənin rabitə və nəqliyyat naziri Binəli Yıldırımın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir

02 oktyabr 2006

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 2-də Prezident sarayında ATƏT-in Minsk qrupunun həmsədrlərini qəbul etmişdir

03 oktyabr 2006

Azərbaycan Prezidenti İlham Əliyev oktyabrın 3-də Prezident sarayında ABŞ-Azərbaycan Ticarət Palatasının həmsədri Ceyms Beykerin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir

03 oktyabr 2006

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 3-də Prezident sarayında Avropa Birliyi "Üçlüyü"nün (Troyka) nümayəndə heyətini qəbul etmişdir

06 oktyabr 2006

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 6-da Prezident sarayında MDB-nin üzvü olan dövlətlərin təhlükəsizlik və xüsusi xidmət orqanlarının rəhbərlərini qəbul etmişdir

06 oktyabr 2006

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 6-da Prezident sarayında Rusiya Elmlər Akademiyasının vitse-prezidenti Aleksandr Andreyevin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir

06 oktyabr 2006

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 6-da Prezident sarayında Rusiyanın iqtisadi inkişaf və ticarət naziri Qerman Qrefi qəbul etmişdir

09 oktyabr 2006

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 9-da Prezident sarayında NATO Baş katibinin Cənubi Qafqaz və Orta Asiya üzrə xüsusi nümayəndəsi Robert Simmonsun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir

09 oktyabr 2006

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 9-da Prezident sarayında "Nobl" şirkətinin prezidenti Riçard Elmanı qəbul etmişdir

09 oktyabr 2006

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 9-da Prezident sarayında MDB ölkələri Mədəni Əməkdaşlıq Şurasının 21-ci iclası iştirakçılarını qəbul etmişdir

09 oktyabr 2006

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 9-da Prezident sarayında ATƏT-in kütləvi informasiya vasitələri azadlığı üzrə nümayəndəsi Mikloş Haraştini qəbul etmişdir

10 oktyabr 2006

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 10-da Prezident sarayında Rusiya Federasiyası Prezidentinin köməkçisi Cahan Pollıyevanı qəbul etmişdir

10 oktyabr 2006

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 10-da Prezident sarayında Böyük Britaniya parlamentinin Parlamentlərarası İttifaqdakı nümayəndə heyətini qəbul etmişdir

12 oktyabr 2006

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 12-də Prezident sara-

yında Türkiyənin Mərmərə Qrupu Strateji və Sosial Araşdırmalar Vəqfinin nümayəndə heyətini qəbul etmişdir

12 oktyabr 2006

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 12-də Prezident sarayında ABŞ dövlət katibi müavininin Yaxın Şərq məsələləri üzrə müşaviri səfir Ceyms Cefrini qəbul etmişdir

13 oktyabr 2006

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 13-də Prezident sarayında Ümumçin Xalq Nümayəndələri Məclisi Daimi Komitəsi sədrinin müavini Syu Szyalunun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir

16 oktyabr 2006

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 16-da Prezident sarayında ABŞ-ın Ümumdünya Ticarət Təşkilatı yanında səfiri Peter Allgeieri qəbul etmişdir

19 oktyabr 2006

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev müqəddəs Ramazan bayramı münasibətilə oktyabrın 19-da Prezident sarayında müsəlman ölkələrinin Bakıdakı fövqəladə və səlahiyyətli səfirlərini qəbul etmişdir

19 oktyabr 2006

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 19-da Prezident sarayında Meksikanın səhiyyə naziri Xulio Frenki qəbul etmişdir

20 oktyabr 2006

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 20-də Prezident sarayında İtaliya xarici işlər nazirinin müavini, Azərbaycan ilə İtaliya arasında iqtisadi əməkdaşlığa dair məşvərət forumunun həmsədri Famiano Kruçianellinin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.

25 oktyabr 2006

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 25-də Prezident sarayında BP-Azərbaycan şirkətinin rəhbəri Devid Vudvordu qəbul etmişdir

25 oktyabr 2006

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 25-də Prezident sarayında Dünya Səhiyyə Təşkilatının baş direktoru vəzifəsinə namizəd, türkiyəli professor Tomris Türməni qəbul etmişdir

26 oktyabr 2006

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 26-da Prezident sarayında Avropa Yenidənqurma və İnkişaf Bankının nümayəndə heyətini qəbul etmişdir

27 oktyabr 2006

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 27-də Prezident sarayında ABŞ-ın Alman Marşall Fondunun nümayəndə heyətini qəbul etmişdir

30 oktyabr 2006

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 30-da Prezident sarayında Avropa Şurası Parlament Assambleyasının Monitorinq komitəsinin Azərbaycan üzrə həmməruzəçiləri Toni Lloyd və Andres Herkeli qəbul etmişdir

30 oktyabr 2006

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 30-da Prezident sarayında İspaniyanın səhiyyə və istehlak naziri Elena Salqadonun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir

30 oktyabr 2006

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 30-da Prezident sarayında Gürcüstanın mədəniyyət, abidələrin qorunması və idman naziri Georgi Qabaşvilini qəbul etmişdir

Noyabr 2006

02 noyabr 2006

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 2-də Prezident sarayında Xəzərin karbohidrogen ehtiyatlarının işlənilməsi üzrə məsləhət şurasının üzvlərini qəbul etmişdir

02 noyabr 2006

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 2-də Prezident sarayında BP şirkətinin vitse-prezidenti Endryu İnqlisi qəbul etmişdir

02 noyabr 2006

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 2-də Prezident sarayında Türkiyə Cümhuriyyətinin təhsil naziri Hüseyin Çeliki qəbul etmişdir

03 noyabr 2006

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 3-də Prezident sarayında Latviya Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Mihail Popkovsun etimadnaməsini qəbul etmişdir

03 noyabr 2006

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 3-də Prezident sarayında Pakistan İslam Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Cavid Qureyşin etimadnaməsini qəbul etmişdir

06 noyabr 2006

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 6-da Prezident sarayında İordaniyanın Baş naziri, müdafiə naziri Məruf əl-Bəxitin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir

14 noyabr 2006

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 14-də Prezident sarayında Rusiya Xarici İşlər Nazirliyinin Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutu-

nun rektoru, professor Anatoli Torkunovu qəbul etmişdir

14 noyabr 2006

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 14-də Prezident sarayında Litva Dövlət Təhlükəsizliyi Departamentinin Baş direktoru Arvidas Potsyusu qəbul etmişdir

15 noyabr 2006

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 15-də Prezident sarayında Səudiyyə Ərəbistanı Krallığının Ali Sosial Sığorta Təşkilatının sədri Süleyman əl-Hümayydı qəbul etmişdir

15 noyabr 2006

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 15-də Prezident sarayında Almaniya Federativ Respublikasının nümayəndə heyətini qəbul etmişdir

22 noyabr 2006

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 22-də Prezident sarayında ATƏT-in Minsk qrupunun həmsədrlərini qəbul etmişdir

22 noyabr 2006

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 22-də Prezident sarayında Azərbaycan-Yaponiya Dövlət komissiyasının 4-cü iclasının iştirakçılarını qəbul etmişdir

23 noyabr 2006

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 23-də Prezident sarayında Bolqarıstan Respublikası Parlamentinin - Xalq Məclisinin sədri Georgi Pirinskinin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir

23 noyabr 2006

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 23-də Prezident sarayında ABŞ-ın ölkəmizdəki səfiri xanım Ann Dersi qəbul etmişdir

24 noyabr 2006

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 24-də Prezident sarayında İslam Ölkələri Təhsil, Elm və Mədəniyyət Təşkilatının (İSESCO) baş direktoru Əbdüləziz bin Osman əl-Tuveycrini qəbul etmişdir

27 noyabr 2006

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 27-də Prezident sarayında Ümumdünya Ticarət Təşkilatı (ÜTT) Katibliyinin "Üzv olma prosesləri" üzrə qurumunun rəhbəri Arif Hüseyni qəbul etmişdir

29 noyabr 2006

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 29-da Prezident sarayında Dubay Limanları, Gömrükxanaları və Azad Ticarət Zonası Korporasiyasının icraçı sədri Sultan Əhməd bin Süleyimi qəbul etmişdir

30 noyabr 2006

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 30-da Prezident sarayında AŞPA-nın Dağlıq Qarabağ üzrə alt komitəsinin sədri lord Rassel Constonu qəbul etmişdir

30 noyabr 2006

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 30-da Prezident sarayında Gürcüstanın Baş naziri Zurab Noğaidelini qəbul etmişdir

30 noyabr 2006

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 30-da Prezident sarayında Almaniyanın ölkəmizdəki səfiri Per Stançinanı qəbul etmişdir

Dekabr 2006

01 dekabr 2006

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 1-də Prezident sarayında Türkiyə Cümhuriyyətinin İğdır vilayətinin valisi Saim Saffet Karahisarlını qəbul etmişdir

01 dekabr 2006

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 1-də Prezident sarayında ATƏT-in Bakı ofisinin rəhbəri Maurisio Pavesini ölkəmizdə diplomatik fəaliyyətinin başa çatması ilə əlaqədar qəbul etmişdir

04 dekabr 2006

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 4-də Prezident sarayında Rusiya Federasiyası hökumətinin sədri Mixail Fradkovu və onun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir

04 dekabr 2006

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 4-də Prezident sarayında Ümumdünya Taekvondo Federasiyasının prezidenti Çanqvon Çunu qəbul etmişdir

05 dekabr 2006

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 5-də Prezident sarayında Türkiyə Jandarma Qüvvələrinin Baş komandanı İşık Koşaneri qəbul etmişdir

05 dekabr 2006

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 5-də Prezident sarayında Fransa Sahibkarlar Birliyinin (MEDEF) Qafqaz və Orta Asiya komitəsinin üzvlərindən ibarət nümayəndə heyətini qəbul etmişdir

06 dekabr 2006

Azərbaycan Prezidenti İlham Əliyev dekabrın 6-da Prezident sarayında Türkiyənin "Alarko" şirkətinin prezidenti İshaq Alatonu qəbul etmişdir

09 dekabr 2006

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 9-da Prezident sarayında Fransanın ərazinin abadlaşdırılması məsələləri naziri Kristian Estrozini qəbul etmişdir

11 dekabr 2006

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 11-də Prezident sarayında Türkiyənin Avropa Şurası Parlament Assambleyasındakı nümayəndə heyətinin rəhbəri Murat Mercanı qəbul etmişdir

11 dekabr 2006

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 11-də Prezident sarayında Gürcüstanın Avropa Şurası Parlament Assambleyasında nümayəndə heyətinin rəhbəri Giorgi Bokeriani qəbul etmişdir

11 dekabr 2006

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 11-də Prezident sarayında Avropa Şurası Parlament Assambleyasının Avropa Xalq Partiyası qrupunun sədri Luk Van den Brandeni, Avropa Demokrat qrupunun sədr müavini Devid Uilşir və Siyasi məsələlər komitəsinin üzvü Stef Qorisi qəbul etmişdir

11 dekabr 2006

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 11-də Prezident sarayında Avropa Şurası Parlament Assambleyasının Siyasi məsələlər komitəsinin sədri Əbdülqədir Ateşi qəbul etmişdir

11 dekabr 2006

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 11-də Prezident sarayında Avropa Şurası Parlament Assambleyasının Monitorinq komitəsinin sədri, Assambleyanın Siyasi məsələlər komitəsinin üzvü Eduard Lintneri qəbul etmişdir.

12 dekabr 2006

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 12-də Prezident sarayında Dağıstan Respublikası Prezidentinin müşaviri Səid Qurbanovu, Dərbənd rayon Administrasiyasının başçısı Qurban Qurbanovu və Dağıstanın Azərbaycandakı nümayəndəliyinin rəhbəri Məhəmməd Qurbanovu qəbul etmişdir

13 dekabr 2006

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 13-də Prezident sarayında Səudiyyə Ərəbistanı Krallığının mədəniyyət və informasiya naziri İyad ibn Əmin əl-Mədəninin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir

14 dekabr 2006

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 14-də Prezident sarayında Küveyt Dövlətinin ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Fəhd Saad Səid əl-Meyin etimadnaməsini qəbul etmişdir

15 dekabr 2006

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 15-də Prezident sarayında Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Peter Semnebini qəbul etmişdir

18 dekabr 2006

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 18-də Prezident sarayında Türkiyənin sənaye və ticarət naziri Əli Coşqunu qəbul etmişdir

18 dekabr 2006

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 18-də Prezident sarayında ABŞ dövlət katibinin demokratiya, insan hüquqları və əmək məsələləri üzrə müşaviri Barri Louenkronu qəbul etmişdir

22 dekabr 2006

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 22-də Prezident sarayında ATƏT-in Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosunun direktoru Kristian Ştrohalı qəbul etmişdir

22 dekabr 2006

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 22-də Prezident sarayında Rusiya Federasiyasının daxili işlər naziri Rəşid Nurqaliyevi qəbul etmişdir

22 dekabr 2006

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 22-də Prezident sarayında Rusiyanın "RİA Novosti" agentliyinin baş direktoru Svetlana Mironyuku qəbul etmişdir

25 dekabr 2006

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 25-də Prezident sarayında Gürcüstanın Baş naziri Zurab Noğaidelini qəbul etmişdir

26 dekabr 2006

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 26-da Prezident sarayında Türkiyə Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Turan Moralını Azərbaycanda diplomatik fəaliyyətinin başa çatması münasibətilə qəbul etmişdir

26 dekabr 2006

Azərbaycan Prezidenti İlham Əliyev dekabrın 26-da Prezident sarayında Ukraynanın Baş naziri Viktor Yanukoviçi qəbul etmişdir

MÜNDƏRİCAT

MÜQƏDDİMƏ 3

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN DÜNYA AZƏRBAYCANLILARININ HƏMRƏYLİYİ GÜNÜ VƏ YENİ İL MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINA TƏBRİKİ 6

XARİCİ İŞLƏR NAZİRİ ELMAR MƏMMƏDYAROV BƏHREYN KRALLIĞINDA SƏFƏRDƏDİR 9

AZƏRBAYCAN NÜMAYƏNDƏ HEYƏTİ BİRLƏŞMİŞ ƏRƏB ƏMİRLİKLƏRİNİN VİTSE-PREZİDENTİNİN DƏFN MƏRASİMİNDƏ İŞTİRAK ETMİŞDİR 10

ARTUR RASİZADƏ İRANIN XARİCİ İŞLƏR NAZİRİ İLƏ GÖRÜŞMÜŞDÜR 10

QAZAXISTANIN VƏ AZƏRBAYCANIN BAŞ NAZİRLƏRİNİN GÖRÜŞÜ OLMUŞDUR 11

XARİCİ İŞLƏR NAZİRLİYİNİN MƏTBUAT MƏRKƏZİNİN MƏLUMATI 11

XARİCİ İŞLƏR NAZİRLİYİNDƏ BRİFİNQ KEÇİRİLMİŞDİR 12

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ABŞ AVROPA KOMANDANLIĞININ KOMANDAN MÜAVİNİ GENERAL ÇARLZ UOLDUN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 16

XARİCİ İŞLƏR NAZİRİ ELMAR MƏMMƏDYAROV STRASBURQDA SƏFƏRDƏDİR 16

XARİCİ İŞLƏR NAZİRLİYİNİN MƏTBUAT MƏRKƏZİNİN MƏLUMATI 16

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV MACARISTAN XARİCİ İŞLƏR NAZİRLİYİNİN SİYASİ MƏSƏLƏLƏR ÜZRƏ DÖVLƏT KATİBİ ANDRAŞ BARŞONİNİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 18

XARİCİ İŞLƏR NAZİRLİYİNDƏ BRİFİNQ KEÇİRİLMİŞDİR 19

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV RUSİYA HÖKUMƏTİ SƏDRİNİN MÜAVİNİ, MÜDAFİƏ NAZİRİ SERGEY İVANOVUN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 19

XARİCİ İŞLƏR NAZİRİ RUSİYA FEDERASİYASI XARİCİ İŞLƏR NAZİRİNİN MÜAVİNİ QƏBUL ETMİŞDİR 20

XARİCİ İŞLƏR NAZİRLİYİNİN MƏTBUAT MƏRKƏZİNİN MƏLUMATI 21

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AVSTRİYANIN DÖVLƏTİN QORUNMASI VƏ TERRORİZMƏ QARŞI MÜBARİZƏ ÜZRƏ FEDERAL AGENTLİYİNİN DİREKTORU GERT-RENE POLLİNİ QƏBUL ETMİŞDİR 21

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ATƏT-İN FƏALİYYƏTDƏ OLAN SƏDRİ, BELÇİKA KRALLIĞININ XARİCİ İŞLƏR NAZİRİ KAREL DE QUXTUN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 22

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AVROPA İTTİFAQININ CƏNUBİ QAFQAZ ÜZRƏ NÜMAYƏNDƏSİ HEYKİ TALVİTİYENİ QƏBUL ETMİŞDİR 22

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV UKRAYNANIN MİLLİ TƏHLÜKƏSİZLİK VƏ MÜDAFİƏ ŞURASININ KATİBİ ANATOLİ KİNAXIN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 23

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ATƏT-İN MİNSK QRUPUNUN HƏMSƏDRLƏRİNİ QƏBUL ETMİŞDİR 23

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV GÜRCÜSTAN PARLAMENTİ SƏDRİNİN MÜAVİNİ, TİCARƏT-SƏNAYE PALATASININ PREZİDENTİ CEMAL İNAİŞVİLİNİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR .. 23

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ÜMUMDÜNYA GÖMRÜK TƏŞKİLATI AVROPA REGİONU GÖMRÜK XİDMƏTİ RƏHBƏRLƏRİ BEYNƏLXALQ KONFRANSININ İŞTİRAKÇILARINI QƏBUL ETMİŞDİR 24

AZƏRBAYCAN XİN-İN RƏSMİ MÖVQEYİ 25

MİLLİ MƏCLİSİN NÜMAYƏNDƏ HEYƏTİ TÜRKİYƏYƏ SƏFƏRİ 26

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN FRANSAYA SƏFƏRİ 28

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV "TOTAL" ŞİRKƏTİNİN PREZİDENTİNİ QƏBUL ETMİŞDİR 28

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ ERMƏNİSTAN PREZİDENTİ ROBERT KOÇARYANIN ATƏT-İN MİNSK QRUPU HƏMSƏDRLƏRİNİN İŞTİRAKI İLƏ GÖRÜŞÜ 28

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ FRANSA PREZİDENTİ JAK ŞİRAKIN TƏKBƏTƏK GÖRÜŞÜ 28

PREZİDENTİN MƏTBUAT XİDMƏTİNİN MƏLUMATI 29

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN FRANSAYA SƏFƏRİ BAŞA ÇATMIŞDIR 29

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ABŞ-IN APARICI YƏHUDİ TƏŞKİLATLARI SƏDRLƏRİ KONFRANSININ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 29

AZƏRBAYCAN BƏLƏDİYYƏLƏRİ AVROPA ÖLKƏLƏRİNİN BƏLƏDİYYƏLƏRİ İLƏ BİRBAŞA ƏLAQƏLƏR YARATMAQDA MARAQLIDIR 31

2005-Cİ İL NOYABRIN 10-DA QAHİRƏ ŞƏHƏRİNDƏ İMZALANMIŞ "AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ İLƏ MİSİR ƏRƏB RESPUBLİKASI HÖKUMƏTİ ARASINDA MƏDƏNİYYƏT SAHƏSİNDƏ ƏMƏKDAŞLIĞA DAİR SAZIŞ"İN TƏSDİQ EDİLMƏSİ BARƏDƏ AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI 32

2005-Cİ İL NOYABRIN 29-DA MOSKVA ŞƏHƏRİNDƏ İMZALANMIŞ "AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİ VƏ QIRĞIZ RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİ ARASINDA QIRĞIZ RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN HƏRBİ QULLUQÇULARININ AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN HƏRBİ TƏHSİL MÜƏSSİSƏLƏRİNDƏ TƏHSİL ALMASI HAQQINDA SAZİŞ"İN TƏSDİQ EDİLMƏSİ BARƏDƏ AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI 32

AZƏRBAYCAN RESPUBLİKASI İLƏ LATVİYA RESPUBLİKASI ARASINDA 2005-Cİ İL OKTYABRIN 3-DƏ BAKI ŞƏHƏRİNDƏ İMZALANMIŞ SƏNƏDLƏR HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI 33

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV QARA DƏNİZ İQTİSADİ ƏMƏKDAŞLIQ TƏŞKİLATININ BAŞ KATİBİ TEDO CAPARİDZENİ QƏBUL ETMİŞDİR 33

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV "UKRAYNA" FONDUNUN SƏDRİ LEONİD KUÇMA İLƏ GÖRÜŞMÜŞ VƏ QONAQLA BİRLİKDƏ HEYDƏR ƏLİYEV FONDUNDA OLMUŞDUR 33

VYANADA HƏRBİ DOKTRİNALAR ÜZRƏ ATƏT-İN YÜKSƏK SƏVİYYƏLİ SEMİNARI KEÇİRİLMİŞDİR 34

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AVROPA KOMİSSİYASININ ÜZVÜ, AVROPA KOMİSSİYASININ XARİCİ ƏLAQƏLƏR VƏ AVROPA QONŞULUQ SİYASƏTİ ÜZRƏ KOMİSSARI XANIM BENİTA FERRERO VALDNERİ QƏBUL ETMİŞDİR 35

AZƏRBAYCAN XİN-İN RƏSMİ MÖVQEYİ 35

RUSİYA FEDERASİYASININ PREZİDENTİ VLADİMİR PUTİNİN AZƏRBAYCANA İŞGÜZAR SƏFƏRİ 36

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ RUSİYA PREZİDENTİ VLADİMİR PUTİNİN GÖRÜŞÜ 36

RUSİYA FEDERASİYASININ PREZİDENTİNƏ ŞEYXÜLİSLAM ORDENİ TƏQDİM EDİLMİŞDİR 36

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV VƏ RUSİYA PREZİDENTİ VLADİMİR PUTİN RUSİYA MİLLİ SƏRGİSİNDƏ OLMUŞLAR 38

HEYDƏR ƏLİYEV ADINA SARAYDA AZƏRBAYCANDA RUSİYA İLİNİN TƏNTƏNƏLİ AÇILIŞ MƏRASİMİ 39

RUSİYA PREZİDENTİ VLADİMİR PUTİNİN NİTQİ 40

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ 41

RUSİYA PREZİDENTİNİN ŞƏRƏFİNƏ 43

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ 44

RUSİYA PREZİDENTİ VLADİMİR PUTİNİN NİTQİ 45

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ RUSİYA PREZİDENTİ VLADİMİR PUTİNİN TƏKBƏTƏK GÖRÜŞÜ 46

AZƏRBAYCAN VƏ RUSİYA PREZİDENTLƏRİNİN GENİŞ TƏRKİBDƏ GÖRÜŞÜ 47

AZƏRBAYCAN-RUSİYA SƏNƏDLƏRİNİN İMZALANMASI MƏRASİMİ 48

AZƏRBAYCAN VƏ RUSİYA PREZİDENTLƏRİNİN BİRGƏ MƏTBUAT KONFRANSI .. 48

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN BƏYANATI 48

RUSİYA PREZİDENTİ VLADİMİR PUTİNİN BƏYANATI 49

RUSİYA PREZİDENTİ VLADİMİR PUTİN HEYDƏR ƏLİYEV FONDUNDA OLMUŞDUR 56

SƏFƏR BAŞA ÇATDI 57

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV RUSİYA FEDERASİYASININ ULYANOVSK VİLAYƏTİNİN QUBERNATORU SERGEY MOROZOVUN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 57

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İSVEÇRƏNİN FEDERAL XARİCİ İŞLƏR NAZİRİ MİŞLİN KALMİ-REYİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 57

AZƏRBAYCAN XİN-İN RƏSMİ MÖVQEYİ 58

"DİPLOMATİYA ALƏMİ" JURNALININ XOCALI FACİƏSİNİN ON DÖRDÜNCÜ İLDÖNÜMÜNƏ HƏSR OLUNMUŞ XÜSUSİ BURAXILIŞININ TƏQDİMAT MƏRASİMİ KEÇİRİLMİŞDİR 58

XARİCİ İŞLƏR NAZİRLİYİNƏ DİPLOMATİK XİDMƏTƏ İŞƏ QƏBUL ETMƏK MƏQSƏDİLƏ NÖVBƏTİ MÜSABİQƏNİN 1-Cİ MƏRHƏLƏSİ KEÇİRİLMİŞDİR 59

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV MƏRMƏRƏ QRUPU VƏQFİNİN SƏDRİ AKKAN SUVERİ QƏBUL ETMİŞDİR 59

XARİCİ İŞLƏR NAZİRİ AVROPA ÜÇÜN LİBERALLAR VƏ DEMOKRATLAR ALYANSI QRUPUNUN RƏHBƏRİ QRAHAM VATSONUN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 59

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İSLAM KONFRANSI TƏŞKİLATININ BAŞ KATİBİ EKMƏLƏDDİN İHSANOĞLUNUN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 60

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BMT-NİN İNSAN HÜQUQLARI KOMİSSİYASININ DİN VƏ ƏQİDƏ AZADLIĞI ÜZRƏ XÜSUSİ MƏRUZƏÇİSİ XANIM ASMA CAHANGİRİ QƏBUL ETMİŞDİR 61

XARİCİ İŞLƏR NAZİRİ KÜVEYTİN İSLAM İŞLƏR VƏ VƏQFLƏR NAZİRİNİN MÜAVİNİ ADİL ƏL FƏLANI QƏBUL ETMİŞDİR 61

AZƏRBAYCAN RESPUBLİKASI XARİCİ İŞLƏR NAZİRLİYİNİN RƏSMİSİNİN BƏYANATI 62

AZƏRBAYCAN RESPUBLİKASI XARİCİ İŞLƏR NAZİRLİYİNİN BƏYANATI 62

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ÜMUMDÜNYA ƏQLİ MÜLKİYYƏT TƏŞKİLATININ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 63

AZƏRBAYCAN RESPUBLİKASI XARİCİ İŞLƏR NAZİRLİYİNİN DİPLOMATİK AKADEMİYASININ YARADILMASI HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI 63

AZƏRBAYCAN RESPUBLİKASI XARİCİ İŞLƏR NAZİRLİYİNİN RƏSMİSİ "EKSPRESS" QƏZETİNİN SUALINI CAVABLANDIRMIŞDIR 64

AVROPA QONŞULUQ SİYASƏTİ ÇƏRÇİVƏSİNDƏ FƏALİYYƏT PLANI ÜZRƏ BRÜSSELDƏ DANIŞIQLAR KEÇİRİLMİŞDİR 64

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV YAPONİYAYA RƏSMİ SƏFƏRİ 65

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AZƏRBAYCAN-YAPONİYA İQTİSADİ FORUMDA İŞTİRAK ETMİŞDİR 65

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ 66

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV YAPONİYA BEYNƏLXALQ ƏMƏKDAŞLIQ AGENTLİYİNİN PREZİDENTİNİ QƏBUL ETMİŞDİR 69

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ YAPONİYANIN İMPERATORU AKİHİTONUN TƏKBƏTƏK GÖRÜŞÜ 70

BEYNƏLXALQ MÜNASİBƏTLƏR İNSTİTUTUNDA GÖRÜŞ 71

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ÇIXIŞI 71

AZƏRBAYCAN PREZİDENTİNİN ŞƏRƏFİNƏ 82

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV YAPONİYANIN XARİCİ İŞLƏR NAZİRİ TARO ASONU QƏBUL ETMİŞDİR 82

PREZİDENT İLHAM ƏLİYEV YAPONİYA XARİCİ ƏLAQƏLƏR İNSTİTUTUNUN İDARƏEDİCİ DİREKTORU TOŞİYUKİ FUCİVARANI VƏ FSAS ŞİRKƏTİNİN NÜMAYƏNDƏLƏRİNİ QƏBUL ETMİŞDİR 83

YAPONİYA XARİCİ TİCARƏT TƏŞKİLATININ SƏDRİ OSAMU VATANABE İLƏ GÖRÜŞ 83

PREZİDENT İLHAM ƏLİYEV YAPONİYA TELEVİZİYASINA MÜSAHİBƏ VERMİŞDİR 84

AZƏRBAYCANIN YAPONİYADAKI SƏFİRLİYİ İLƏ TANIŞLIQ 92

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ YAPONİYANIN BAŞ NAZİRİ DZÜNİTİRO KOİDZUMİNİN GÖRÜŞÜ 92

SƏNƏDLƏRİN İMZALANMA MƏRASİMİ 93

YAPONİYANIN BAŞ NAZİRİ DZÜNİTİRO KOİDZUMİNİN BƏYANATI 93

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN BƏYANATI 94

PREZİDENT İLHAM ƏLİYEV "İNPEKS" ŞİRKƏTİNİN SƏDRİNİ QƏBUL ETMİŞDİR 95

"İTOÇU" ŞİRKƏTİNİN SƏDRİ İLƏ GÖRÜŞ 95

AZƏRBAYCAN PREZİDENTİNİN ŞƏRƏFİNƏ 95

SƏFƏR BAŞA ÇATDI 96

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ATƏT-İN MİNSK QRUPUNUN AMERİKALI HƏMSƏDRİ STİVEN MƏNNİ QƏBUL ETMİŞDİR 96

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ABŞ DÖVLƏT KATİBİNİN AVROPA VƏ AVRASİYA MƏSƏLƏLƏRİ ÜZRƏ MÜAVİNİ DANİEL FRİDİ QƏBUL ETMİŞDİR .. 96

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV RUMİNİYANIN MİLLİ MÜDAFİƏ NAZİRİ TEODOR ATANASİUNUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 96

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV TÜRKİYƏ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 97

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV QIRĞIZISTANIN DÖVLƏT KATİBİ DASTAN SARIQULOVU QƏBUL ETMİŞDİR 100

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ÇEXİYA VƏ AVROPA PARLAMENTLƏRİNİN ÜZVÜ JAN BREZİNANI QƏBUL ETMİŞDİR 101

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV LİTVA PREZİDENTİNİN MÜŞAVİRİ XANIM HALİNA KOBESKAYTENİ QƏBUL ETMİŞDİR 101

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ VƏ İSVEÇRƏ KONFEDERASİYASININ FEDERAL ŞURASI ARASINDA TİCARƏT VƏ İQTİSADI ƏMƏKDAŞLIQ ÜZRƏ BİRGƏ KOMİSSİYASININ İKİNCİ İCLASI KEÇİRİLMİŞDİR 101

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV LATVİYANIN CƏMİYYƏTİN İNTEQRASİYASI MƏSƏLƏLƏRİNDƏ XÜSUSİ TAPŞIRIQLAR ÜZRƏ NAZİRİ AYNARS LATKOVSKİSİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 102

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AVROPA İTTİFAQININ CƏNUBİ QAFQAZ ÜZRƏ XÜSUSİ NÜMAYƏNDƏSİ PETER SEMNEBEYİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 102

İRAN İSLAM RESPUBLİKASININ BAKIDAKI SƏFİRLİYİNİN NOTASI İLƏ BAĞLI AZƏRBAYCAN RESPUBLİKASI XARİCİ İŞLƏR NAZİRLİYİNİN RƏSMİSİNİN AÇIQLAMASI 103

AZƏRBAYCAN NÜMAYƏNDƏ HEYƏTİ NARKOTİK VASİTƏLƏR ÜZRƏ BMT KOMİSSİYASININ 49-CU SESSİYASINDA İŞTİRAK ETMİŞDİR 103

AZƏRBAYCAN RESPUBLİKASI VƏ OPEK BEYNƏLXALQ İNKİŞAF FONDU ARASINDA SAZİŞ İMZALANMIŞDIR 104

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AŞPA-NIN HÜQUQİ MƏSƏLƏLƏR VƏ İNSAN HÜQUQLARI KOMİTƏSİ SƏDRİNİN MÜAVİNİ EDUARD LİNTNERİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 105

XARİCİ İŞLƏR NAZİRLİYİNDƏ GÖRÜŞ 105

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İTALİYANIN ƏDLİYYƏ NAZİRİ, SENATOR ROBERTO KASTELLİNİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 106

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BİRLƏŞMİŞ ƏRƏB ƏMİRLİKLƏRİNİN RAS ƏL-XEYMƏ ƏMİRLİYİ HÖKMDARININ MÜAVİNİ VƏ VƏLİƏHDİ ŞEYX SƏUD BİN SAQR ƏL-QASİMİNİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 107

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ABŞ-IN DÖVLƏT KATİBİ YANINDA DÖVLƏT PLANLAŞDIRMASI ÜZRƏ DİREKTOR STEFEN KRAZNERİ VƏ DÖVLƏT KATİBİNİN AVROPA VƏ AVRASİYA MƏSƏLƏLƏRİ ÜZRƏ MÜŞAVİRİ MƏTYU BRAYZANI QƏBUL ETMİŞDİR 107

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BEYNƏLXALQ QIRMIZI XAÇ KOMİTƏSİNİN PREZİDENTİ YAKOB KELLENBERGERİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 108

TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ ƏHMƏD NECDƏT SEZƏRİN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ 108

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ TÜRKİYƏ PREZİDENTİ ƏHMƏD NECDƏT SEZƏRİN TƏKBƏTƏK GÖRÜŞÜ 108

AZƏRBAYCAN VƏ TÜRKİYƏ PREZİDENTLƏRİNİN GENİŞ TƏRKİBDƏ GÖRÜŞÜ .. 109

AZƏRBAYCAN VƏ TÜRKİYƏ PREZİDENTLƏRİNİN MƏTBUAT ÜÇÜN BƏYANATLARI 110

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN BƏYANATI 110

TÜRKİYƏ PREZİDENTİ ƏHMƏD NECDƏT SEZƏRİN BƏYANATI 111

ALİ QONAĞIN ŞƏRƏFİNƏ 112

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ 112

TÜRKİYƏ PREZİDENTİ ƏHMƏD NECDƏT SEZƏRİN NİTQİ 114

TÜRKİYƏ PREZİDENTİ ƏHMƏD NECDƏT SEZƏR HEYDƏR ƏLİYEV FONDUNDA OLMUŞDUR 115

SƏFƏR BAŞA ÇATDI 117

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BÖYÜK BRİTANİYANIN MİLLİ AUDİT OFİSİNİN BAŞ MÜFƏTTİŞİ VƏ AUDİTORU SER CON BOURNUN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 117

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV POLŞANIN İQTİSADİYYAT NAZİRİ PYOTR VOZNYAKIN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 117

BERLİNDƏ AZƏRBAYCAN VƏ ALMANİYA XARİCİ İŞLƏR NAZİRLİKLƏRİ ARASINDA SİYASİ MƏSLƏHƏTLƏŞMƏLƏR KEÇİRİLMİŞDİR 118

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AVROPA KOMİSSİYASININ XARİCİ ƏLAQƏLƏR ÜZRƏ BAŞ DİREKTORUNUN MÜAVİNİ FOKİON FOTİADİSİ QƏBUL ETMİŞDİR 118

XARİCİ İŞLƏR NAZİRİ ELMAR MƏMMƏDYAROVUN ABŞ-A İŞGÜZAR SƏFƏRİ ... 118

AZƏRBAYCAN RESPUBLİKASI İLƏ RUSİYA FEDERASİYASI ARASINDA DÖVLƏT SƏRHƏDİNİN DELİMİTASİYASI ÜZRƏ İKİ ÖLKƏNİN DÖVLƏT KOMİSSİYALARININ 11-Cİ BİRGƏ İCLASI KEÇİRİLMİŞDİR 120

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV NATO BAŞ KATİBİNİN CƏNUBİ QAFQAZ VƏ ORTA ASİYA ÜZRƏ XÜSUSİ NÜMAYƏNDƏSİ ROBERT SİMMONSUN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR .. 120

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AVROPA YENİDƏNQURMA VƏ İNKİŞAF BANKININ PREZİDENTİ JAN LEMYERİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 121

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV TÜRKİYƏ MİLLİ TƏHLÜKƏSİZLİK TƏŞKİLATININ RƏİSİ EMRE TANERİ QƏBUL ETMİŞDİR 121

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ATƏT-İN MİNSK QRUPUNUN FRANSALI HƏMSƏDRİ BERNARD FASYENİ QƏBUL ETMİŞDİR 121

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV MDB ÖLKƏLƏRİNİN YƏHUDİ İCMALARI FEDERASİYASININ PREZİDENTİ LEV LEVAYEVİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 122

XARİCİ İŞLƏR NAZİRLİYİNDƏ BRİFİNQ KEÇİRİLMİŞDİR 122

XARİCİ İŞLƏR NAZİRLİYİNDƏ GÖRÜŞ 126

XARİCİ İŞLƏR NAZİRLİYİNDƏ ABŞ KONQRESMENİ İLƏ GÖRÜŞ 126

AZƏRBAYCAN RESPUBLİKASI VƏ POLŞA RESPUBLİKASI ARASINDA İQTİSADİ ƏMƏKDAŞLIQ ÜZRƏ HÖKUMƏTLƏRARASI KOMİSSİYANIN AZƏRBAYCAN RESPUBLİKASI TƏRƏFİNDƏN TƏRKİBİ HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI 127

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV TÜRKİYƏNİN DAXİLİ İŞLƏR NAZİRİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 127

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İORDANİYA HAŞİMİLƏR KRALLIĞININ ŞAHZADƏSİNİ QƏBUL ETMİŞDİR 129
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV LATIN MƏDƏNİYYƏTİ AKADEMİYASININ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 129
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İRANIN MÜDAFİƏ VƏ SİLAHLI QÜVVƏLƏRƏ DƏSTƏK NAZİRİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 130
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ATƏT-İN MİNSK QRUPUNUN AMERİKALI HƏMSƏDRİ STİVEN MƏNNİ QƏBUL ETMİŞDİR 131
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AVROPA İTTİFAQI "ÜÇLÜYÜ "NÜN NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 131
MOSKVADA MDB XARİCİ İŞLƏR NAZİRLƏRİ ŞURASININ İCLASI OLMUŞDUR ... 131
E.MƏMMƏDYAROV: ABŞ-DA ƏMƏKDAŞLIQ MƏSƏLƏLƏRİ GENİŞ SƏPKİDƏ MÜZAKİRƏ OLUNACAQ 132
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV QAZAXISTAN XARİCİ İŞLƏR NAZİRİNİN MÜAVİNİ NURLAN ONJANOVU QƏBUL ETMİŞDİR 133
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV DÜNYA SƏHİYYƏ TƏŞKİLATININ BAŞ DİREKTORU Lİ YONQ VUKUN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 134
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ABŞ-A SƏFƏRİ 134
BEYNƏLXALQ MÜNASİBƏTLƏR ŞURASINDA GÖRÜŞ 134
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ABŞ-IN YƏHUDİ TƏŞKİLATLARININ NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞMÜŞDÜR 146
ABŞ-IN KEÇMİŞ PREZİDENTİNİN MİLLİ TƏHLÜKƏSİZLİK ÜZRƏ KÖMƏKÇİSİ GENERAL BRENT SKOUKROFT İLƏ GÖRÜŞ 146
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ABŞ-IN NÜMAYƏNDƏLƏR PALATASININ ENERGETİKA VƏ BEYNƏLXALQ ƏLAQƏLƏR KOMİTƏLƏRİNİN BİR QRUP ÜZVLƏRİ İLƏ GÖRÜŞÜ 147
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ÇIXIŞI 147
ABŞ KONQRESİ NÜMAYƏNDƏLƏR PALATASININ SƏDRİ DENNİS HASTERT İLƏ GÖRÜŞ 149
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ABŞ-IN TİCARƏT NAZİRİ KARLOS QUTYERRES İLƏ GÖRÜŞÜ 150
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ABŞ-IN ENERGETİKA NAZİRİ SAMUEL BODMAN İLƏ GÖRÜŞÜ 150
ABŞ-IN DÖVLƏT KATİBİNİN MÜAVİNLƏRİ İLƏ GÖRÜŞ 151
DÖVLƏTİMİZİN BAŞÇISI VAŞİNQTONDA "ABŞ-AZƏRBAYCAN STRATEJİ ƏLAQƏLƏRİ: SİYASİ VƏ İQTİSADİ PRİORİTETLƏR" MÖVZUSUNDA KONFRANSDA İŞTİRAK ETMİŞDİR 151
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ 153
AZƏRBAYCAN PREZİDENTİNİN ŞƏRƏFİNƏ 158

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ 158
AZƏRBAYCAN İCMASININ ÜZVLƏRİ İLƏ GÖRÜŞ 161
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ 161
PREZİDENT İLHAM ƏLİYEV "U.S. NEWS & WORLD REPORT" JURNALINA MÜSAHİBƏ VERMİŞDİR 167
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ ABŞ PREZİDENTİ CORC BUŞUN GÖRÜŞÜ 168
ABŞ PREZİDENTİ CORC BUŞUN BƏYANATI 169
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN BƏYANATI 169
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV JURNALİSTLƏRİN SUALLARINA CAVAB VERMİŞDİR 170
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AĞ EVİN FƏXRİ QONAQLAR KİTABINA ÜRƏK SÖZLƏRİNİ YAZMIŞDIR 172
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ABŞ-IN VİTSE-PREZİDENTİ RİÇARD ÇEYNİ İLƏ GÖRÜŞÜ 173
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ABŞ-IN MÜDAFİƏ NAZİRİ DONALD RAMSFELD İLƏ GÖRÜŞÜ 173
SƏFƏR BAŞA ÇATDI 173
MİLLİ MƏCLİS SƏDRİNİN BAŞÇILIĞI İLƏ PARLAMENT NÜMAYƏNDƏ HEYƏTİNİN RUSİYA FEDERASİYASINA SƏFƏRİ 174
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV NORVEÇİN "STATOYL" ŞİRKƏTİNİN PREZİDENTİ HELQE LUNDUN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 175
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV OMAN SULTANLIĞININ XÜSUSİ TAPŞIRIQLAR ÜZRƏ SƏFİRİ, SULTANIN ŞƏXSİ MÜŞAVİRİ, OMANIN BMT-DƏKİ SƏFİRİ, YUNESKO-NUN XOŞMƏRAMLI SƏFİRİ ŞEYX QHASAN ŞAKİRİ QƏBUL ETMİŞDİR 176
XARİCİ İŞLƏR NAZİRLİYİNDƏ GÖRÜŞ 176
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ABŞ DÖVLƏT KATİBİNİN İQTİSADİ MƏSƏLƏLƏRƏ DAİR BAŞ MÜŞAVİRİ FRENK MERMUDU QƏBUL ETMİŞDİR 177
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ƏFQANISTAN PREZİDENTİ HƏMİD KƏRZAİ İLƏ GÖRÜŞÜ 177
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV QIRĞIZISTAN BAŞ NAZİRİNİN MÜAVİNİ ALMANBET MATUBRAİMOVU QƏBUL ETMİŞDİR 178
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV PAKİSTANIN BAŞ NAZİRİ ŞÖVKƏT ƏZİZİ QƏBUL ETMİŞDİR 179
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN İRAN PREZİDENTİ MAHMUD ƏHMƏDİNEJAD İLƏ GÖRÜŞÜ 179
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV TACİKİSTANIN BAŞ NAZİRİ AKİL AKİLOVU QƏBUL ETMİŞDİR 179

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ÖZBƏKİSTAN PARLAMENTİNİN QANUNVERİCİLİK PALATASININ SƏDRİ ERKİN XƏLİLOVU QƏBUL ETMİŞDİR 180

DÖVLƏT VƏ HÖKUMƏT BAŞÇILARININ ŞƏRƏFİNƏ 180

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV QAZAXISTANIN BAŞ NAZİRİ DANİAL AXMETOVU QƏBUL ETMİŞDİR 180

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN TÜRKİYƏNİN BAŞ NAZİRİ RƏCƏB TAYYİB ƏRDOĞAN İLƏ GÖRÜŞÜ 181

BAKIDA İQTİSADİ ƏMƏKDAŞLIQ TƏŞKİLATININ 9-CU ZİRVƏ TOPLANTISI KEÇİRİLMİŞDİR 181

TACİKİSTANIN BAŞ NAZİRİ AKİL AKİLOVUN ÇIXIŞI 181

AZƏRBAYCAN PREZİDENTİ, İƏT-İN 9-CU ZİRVƏ TOPLANTISININ SƏDRİ İLHAM ƏLİYEVİN NİTQİ 182

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ İƏT-İN BAŞ KATİBİ ASXAT ORAZBAYIN BİRGƏ MƏTBUAT KONFRANSI 191

İQTİSADİ ƏMƏKDAŞLIQ TƏŞKİLATININ ÜZVÜ OLAN ÖLKƏLƏRİN DÖVLƏT VƏ HÖKUMƏT BAŞÇILARI HEYDƏR ƏLİYEV FONDUNDA OLMUŞDUR 194

İƏT-İN ZİRVƏ TOPLANTISI İŞTİRAKÇILARININ ŞƏRƏFİNƏ 195

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ATƏT-İN PARLAMENT ASSAMBLEYASI SƏDRİNİN DAĞLIQ QARABAĞ MÜNAQİŞƏSİ ÜZRƏ XÜSUSİ NÜMAYƏNDƏSİNİ QƏBUL ETMİŞDİR 195

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AVROPA ŞURASININ İNSAN HÜQUQLARI ÜZRƏ KOMİSSARI TOMAS HAMMERBERQİ QƏBUL ETMİŞDİR 195

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ATƏT-İN MİNSK QRUPUNUN FRANSALI HƏMSƏDRİ BERNAR FASYENİ QƏBUL ETMİŞDİR 196

AZƏRBAYCANIN BAŞ NAZİRİ VİLNÜSDƏ ZİRVƏ TOPLANTISINDA ÇIXIŞ ETMİŞDİR 196

AZƏRBAYCANIN BAŞ NAZİRİ ARTUR RASİZADƏ LİTVA RƏHBƏRLƏRİ İLƏ GÖRÜŞMÜŞDÜR 198

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV NORVEÇİN DÖVLƏT KATİBİ KJETİL SKOQRANDIN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 199

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV PAKİSTAN SENATININ İNSAN HÜQUQLARI DAİMİ KOMİTƏSİNİN SƏDRİ SEYİD MƏHƏMMƏD ZƏFƏRİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 199

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV RUSİYA FEDERASİYASININ İNSAN HÜQUQLARI ÜZRƏ MÜVƏKKİLİ VLADİMİR LUKİNİ QƏBUL ETMİŞDİR 202

XARİCİ İŞLƏR NAZİRİ ABŞ MİLLİ MÜDAFİƏ KOLLECİNİN NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞMÜŞDÜR 202

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ATƏT-İN HAZIRKI SƏDRİNİN XÜSUSİ ELÇİSİ PYER ŞEVALYENİ QƏBUL ETMİŞDİR 203

KOREYA RESPUBLİKASININ PREZİDENTİ ROH MU-HYUNUN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ 203

XARİCİ İŞLƏR NAZİRLİYİNDƏ GÖRÜŞ 203

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ KOREYA RESPUBLİKASININ PREZİDENTİ ROH MU-HYUNUN TƏKBƏTƏK GÖRÜŞÜ 204

AZƏRBAYCAN VƏ KOREYA PREZİDENTLƏRİNİN GENİŞ TƏRKİBDƏ GÖRÜŞÜ 204

SƏNƏDLƏRİN İMZALANMA MƏRASİMİ 205

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ VƏ KOREYA RESPUBLİKASI HÖKUMƏTİ ARASINDA MƏDƏNİYYƏT SAHƏSİNDƏ ƏMƏKDAŞLIQ HAQQINDA SAZİŞ 206

AZƏRBAYCAN RESPUBLİKASI VƏ KOREYA RESPUBLİKASI PREZİDENTLƏRİNİN MƏTBUAT ÜÇÜN BƏYANATLARI 208

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN BƏYANATI 208

KOREYA RESPUBLİKASININ PREZİDENTİ ROH MU-HYUNUN BƏYANATI 209

AZƏRBAYCAN-KOREYA BİZNES FORUMU 210

KOREYA RESPUBLİKASI PREZİDENTİNİN İŞ ADAMLARI İLƏ BİRGƏ NAHARI 211

SƏNGƏÇAL TERMİNALI İLƏ TANIŞLIQ 212

ALİ QONAĞIN ŞƏRƏFİNƏ 213

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ 213

KOREYA RESPUBLİKASININ PREZİDENTİ ROH MU-HYUNUN NİTQİ 214

SƏFƏR BAŞA ÇATDI 215

XARİCİ İŞLƏR NAZİRİ KÜVEYT DÖVLƏTİNİN İNFORMASİYA NAZİRİNİN MÜAVİNİ ŞEYX FEYSƏL XƏLİFƏ ƏL-MƏLİK ƏL-SABAHI QƏBUL ETMİŞDİR 216

XARİCİ İŞLƏR NAZİRİ ATƏT-İN FƏALİYYƏTDƏ OLAN SƏDRİNİN XÜSUSİ ELÇİSİ SENATOR PYER ŞEVALYENİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 216

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV UKRAYNANIN YANACAQ VƏ ENERGETİKA NAZİRİ İVAN PLAÇKOVUN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 217

AZƏRBAYCAN-İSRAİL MÜNASİBƏTLƏRİ ÖLKƏLƏRİMİZİN MİLLİ MƏNAFELƏRİNƏ XİDMƏT EDİR 217

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV "BP" ŞİRKƏTİNİN İCRAÇI VİTSE-PREZİDENTİ ENDRYU İNQLİSİ QƏBUL ETMİŞDİR 218

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İRANIN XƏZƏR MƏSƏLƏLƏRİ ÜZRƏ XÜSUSİ NÜMAYƏNDƏSİ MEHDİ SƏFƏRİNİ QƏBUL ETMİŞDİR 218

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV MUSİQİ XADİMİ, "İPƏK YOLU" LAYİHƏSİNİN RƏHBƏRİ, ABŞ VİOLONÇELÇALANI YO YO MANI QƏBUL ETMİŞDİR 219

XARİCİ İŞLƏR NAZİRİ STRASBURQA SƏFƏRƏ GƏLMİŞDİR 219

GUAM ÖLKƏLƏRİNİN XARİCİ İŞLƏR NAZİRLƏRİ STRASBURQDA GÖRÜŞMÜŞLƏR 220

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV VATİKANIN DÖVLƏTLƏRLƏ ƏLAQƏLƏR ÜZRƏ DÖVLƏT KATİBİ ARXİYEPİSKOP COVANNİ LAYOLONUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 221

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN UKRAYNAYA SƏFƏRİ 221

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN GÜRCÜSTAN PREZİDENTİ MİXAİL SAAKAŞVİLİ İLƏ GÖRÜŞÜ 221

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN UKRAYNA PREZİDENTİ VİKTOR YUŞŞENKO İLƏ GÖRÜŞÜ 222

KİYEVDƏ GUAM ÖLKƏLƏRİ DÖVLƏT BAŞÇILARININ ZİRVƏ GÖRÜŞÜ KEÇİRİLMİŞDİR 224

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ 224

SƏNƏDLƏRİN İMZALANMASI 228

DÖVLƏT BAŞÇILARININ BİRGƏ MƏTBUAT KONFRANSI 228

UKRAYNA PREZİDENTİ VİKTOR YUŞŞENKONUN BƏYANATI 228

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN BƏYANATI 230

GÜRCÜSTAN PREZİDENTİ MİXAİL SAAKAŞVİLİNİN BƏYANATI 232

MOLDOVA PREZİDENTİ VLADİMİR VORONİNİN BƏYANATI 234

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV MİNSK QRUPUNUN HƏMSƏDRİ OLAN DÖVLƏTLƏRİN NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 241

"AZƏRBAYCAN RESPUBLİKASININ SƏFİRLİYİ HAQQINDA ƏSASNAMƏ"NİN TƏSDİQ EDİLMƏSİ BARƏDƏ AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI 241

AZƏRBAYCAN RESPUBLİKASININ SƏFİRLİYİ HAQQINDA ƏSASNAMƏ 241

2006-CI İL YANVARIN 4-DƏ MANAMA ŞƏHƏRİNDƏ İMZALANMIŞ "AZƏRBAYCAN RESPUBLİKASININ XARİCİ İŞLƏR NAZİRLİYİ VƏ BƏHREYN KRALLIĞININ XARİCİ İŞLƏR NAZİRLİYİ ARASINDA ANLAŞMA MEMORANDUMU"NUN TƏSDİQ EDİLMƏSİ BARƏDƏ AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI 247

2006-CI İL FEVRALIN 22-DƏ BAKI ŞƏHƏRİNDƏ İMZALANMIŞ "AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ VƏ SVERDLOVSK VİLAYƏTİNİN (RUSİYA FEDERASİYASI) HÖKUMƏTİ ARASINDA TİCARƏT-İQTİSADİ, ELMİ-TEXNİKİ VƏ MƏDƏNİ ƏMƏKDAŞLIQ HAQQINDA SAZİŞ"İN TƏSDİQ EDİLMƏSİ BARƏDƏ AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI 248

"AZƏRBAYCAN RESPUBLİKASI XARİCİ İŞLƏR NAZİRLİYİ VƏ YAPONİYA XARİCİ İŞLƏR NAZİRLİYİ ARASINDA ƏMƏKDAŞLIQ HAQQINDA" MEMORANDUMUN TƏSDİQ EDİLMƏSİ BARƏDƏ AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI 248

AZƏRBAYCAN RESPUBLİKASI İLƏ MİSİR ƏRƏB RESPUBLİKASI ARASINDA 2005-Cİ İL DEKABRIN 26-DA QAHİRƏ ŞƏHƏRİNDƏ İMZALANMIŞ SƏNƏDLƏR HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI 249

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BMT-NİN QADINLAR ÜÇÜN İNKİŞAF FONDUNUN İCRAÇI DİREKTORU XANIM NOELİN HEYZERİ QƏBUL ETMİŞDİR 249

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV "FINANCIAL TIMES" QƏZETİNİN MƏRKƏZİ VƏ ŞƏRQİ AVROPA ÖLKƏLƏRİ ÜZRƏ REDAKTORU STEFAN VEQSTİLƏ MÜSAHİBƏ VERMİŞDİR 250

XARİCİ İŞLƏR NAZİRİ KUBANIN XARİCİ İŞLƏR NAZİRİNİN MÜAVİNİ EUMİLİO KABALYERONUN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 250

AZƏRBAYCAN RESPUBLİKASI XARİCİ İŞLƏR NAZİRLİYİNİN RƏSMİSİNİN MÖVQEYİ 251

AZƏRBAYCANIN BAŞ NAZİRİ MDB HÖKUMƏT BAŞÇILARI ŞURASININ İCLASINDA İŞTİRAK ETMƏK ÜÇÜN DÜŞƏNBƏYƏ GƏLMİŞDİR 251

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV "FƏZA QƏZETÇİLİK" ANONİM ŞİRKƏTİ İDARƏ HEYƏTİNİN ÜZVÜ, TÜRKİYƏNİN "ZAMAN" QƏZETİNİN BAŞ REDAKTORU EKREM DUMANLININ RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 252

AZƏRBAYCAN VƏ UKRAYNA XARİCİ İŞLƏR NAZİRLİKLƏRİ ARASINDA KONSULLUQ MƏSƏLƏLƏRİ ÜZRƏ NÖVBƏTİ MƏSLƏHƏTLƏŞMƏLƏR KEÇİRİLMİŞDİR 252

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV NATO PARLAMENT ASSAMBLEYASININ YAZ SESSİYASINDA İŞTİRAK ETMƏK ÜÇÜN PARİSƏ SƏFƏRİ 253

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV "EURONEWS" TELEKANALINA MÜSAHİBƏ VERMİŞDİR 253

AZƏRBAYCANIN FRANSADAKI SƏFİRLİYİNİN YENİ BİNASININ AÇILIŞ MƏRASİMİ 255

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ 255

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV FRANSANIN İŞ ADAMLARI İLƏ GÖRÜŞMÜŞDÜR 256

"PANHART JENERAL DEFANS" ŞİRKƏTİNİN BAŞ DİREKTORU KRİSTİAN MONSUN ÇIXIŞI 256

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ 257

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV "TOTAL" ŞİRKƏTİNİN KƏŞFİYYAT VƏ HASİLAT ÜZRƏ PREZİDENTİ KRİSTOF DE MORJERİNİ QƏBUL ETMİŞDİR 269

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV "TEKNİP" QRUPUNUN PREZİDENTİ DANİYEL VALOTU QƏBUL ETMİŞDİR 269

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV "VİNCİ" ŞİRKƏTİNİN PREZİDENTİ PYER BERGERİ QƏBUL ETMİŞDİR 269

SENATIN SƏDRİ KRİSTİAN PONSÖLE AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ŞƏRƏFİNƏ ZİYAFƏT VERMİŞDİR 270

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV NATO PARLAMENT ASSAMBLEYASININ YAZ SESSİYASINDA ÇIXIŞ ETMİŞDİR 270

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ÇIXIŞI 271

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ FRANSA PREZİDENTİ JAK ŞİRAKIN GÖRÜŞÜ 279

PREZİDENT İLHAM ƏLİYEV PARİSİN SƏN-KLU ŞƏHƏR QƏBİRİSTANLIĞINDA ƏLİMƏRDAN BƏY TOPÇUBAŞOVUN VƏ CEYHUN BƏY HACIBƏYLİNİN MƏZARLARINI ZİYARƏT ETMİŞDİR 279

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN "FİQARO" QƏZETİNƏ MÜSAHİBƏSİ 280

SƏFƏR BAŞA ÇATDI 281

NAZİRLƏR KABİNETİNDƏ GÖRÜŞ 281

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV MDB-NİN İCRAİYYƏ KOMİTƏSİNİN SƏDRİ - İCRAÇI KATİB VLADİMİR RUŞAYLONU QƏBUL ETMİŞDİR 282

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV TACİKİSTANIN MÜDAFİƏ NAZİRİ GENERAL-POLKOVNİK ŞİRƏLİ XAYRULLOYEVİ QƏBUL ETMİŞDİR 282

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV SƏUDİYYƏ ƏRƏBİSTANI KRALLIĞI GƏNCLƏRƏ QAYĞI BAŞ SƏDRLİYİNİN BİRİNCİ VİTSE-PREZİDENTİ ŞAHZADƏ ƏMİR NƏVVAF BİN FEYSƏL BİN FƏHD BİN ƏBDÜLƏZİZİ QƏBUL ETMİŞDİR 282

XİN RƏSMİSİNİN İNTERFAKS AZƏRBAYCAN AGENTLİYİNİN SUALINA CAVABI . 283

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV DÖVLƏTLƏRARASI AVİASİYA KOMİTƏSİNİN SƏDRİ TATYANA ANODİNANI QƏBUL ETMİŞDİR 283

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İRAN İSLAM RESPUBLİKASININ SƏNAYE VƏ MƏDƏN NAZİRİ DOKTOR ƏLİRZA TƏHMASEBİNİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 285

AZƏRBAYCAN PARLAMENT NÜMAYƏNDƏ HEYƏTİNİN ESTONİYA, FİNLANDİYA VƏ LATVİYAYA SƏFƏRİ 285

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV RUMİNİYAYA GƏLMİŞDİR 290

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV RUMİNİYANIN SABİQ PREZİDENTİ, SENATOR İON İLİYESKU İLƏ GÖRÜŞMÜŞDÜR 290

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ RUMİNİYA PREZİDENTİ TRAYAN BESESKUNUN GÖRÜŞÜ 291

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN AVROPA ŞURASININ BAŞ KATİBİ TERRİ DEVİS İLƏ GÖRÜŞÜ 291

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ ERMƏNİSTAN PREZİDENTİ ROBERT KOÇARYANIN GÖRÜŞÜ 291

BUXARESTDƏ "DİALOQ VƏ TƏRƏFDAŞLIQ NAMİNƏ" QARA DƏNİZ FORUMU İŞƏ BAŞLAMIŞDIR 291

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ 292

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BELÇİKANIN XARİCİ İŞLƏR NAZİRİ, ATƏT-İN HAZIRKI SƏDRİ KAREL DE QUXT İLƏ GÖRÜŞMÜŞDÜR 295

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ABŞ PREZİDENTİNİN MİLLİ TƏHLÜKƏSİZLİK ÜZRƏ KÖMƏKÇİSİNİN MÜAVİNİ CEYMS KROUÇU QƏBUL ETMİŞDİR 295

SƏFƏR BAŞA ÇATDI 296

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ABŞ-IN NBC TELEVİZİYASININ MÜXBİRİ PRESTON MENDENHOLLA MÜSAHİBƏ VERMİŞDİR 296

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İSRAİLİN MİLLİ İNFRASTRUKTUR NAZİRİ BENYAMİN BEN-ELİEZERİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 296

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ABŞ-IN DÖVLƏT KATİBİNİN AVROPA VƏ AVRASİYA MƏSƏLƏLƏRİ ÜZRƏ MÜŞAVİRİ MƏTYU BRAYZƏNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 297

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BNP PARİBAS BANKININ PREZİDENTİ MİŞEL PEBERONUN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 297

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İNGİLTƏRƏ-AZƏRBAYCAN CƏMİYYƏTİNİN PREZİDENTİ LORD FREYZERİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 297

LİTVA RESPUBLİKASININ PREZİDENTİ VALDAS ADAMKUSUN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ 297

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ LİTVA PREZİDENTİ VALDAS ADAMKUSUN TƏKBƏTƏK GÖRÜŞÜ 298

AZƏRBAYCAN VƏ LİTVA PREZİDENTLƏRİNİN GENİŞ TƏRKİBDƏ GÖRÜŞÜ 298

SƏNƏDLƏRİN İMZALANMA MƏRASİMİ 299

AZƏRBAYCAN VƏ LİTVA PREZİDENTLƏRİ BİRGƏ BƏYANNAMƏ İMZALAMIŞLAR 299

AZƏRBAYCAN VƏ LİTVA PREZİDENTLƏRİNİN BİRGƏ MƏTBUAT KONFRANSI .. 301

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN BƏYANATI 301

LİTVA PREZİDENTİ VALDAS ADAMKUSUN BƏYANATI 302

ALİ QONAĞIN ŞƏRƏFİNƏ 305

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ 305

LİTVA PREZİDENTİ VALDAS ADAMKUSUN NİTQİ 306

SƏNGƏÇAL TERMİNALI İLƏ TANIŞLIQ 309

LİTVA PREZİDENTİNƏ BDU-NUN FƏXRİ DOKTORU DİPLOMU TƏQDİM OLUNMUŞDUR 309

LİTVA PREZİDENTİ VƏ XANIMI HEYDƏR ƏLİYEV FONDUNDA OLMUŞLAR 310

AZƏRBAYCAN-LİTVA BİZNES FORUMU 311

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ 311

LİTVA PREZİDENTİ VALDAS ADAMKUSUN NİTQİ 313
SƏFƏR BAŞA ÇATDI 314
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV RUSİYA TİBB ELMLƏRİ AKADEMİYASININ HƏQİQİ ÜZVLƏRİ, MƏŞHUR OFTALMOLOQLAR ARKADİ NESTEROVU VƏ ALEVTİNA BROVKİNANI QƏBUL ETMİŞDİR 315
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV RUSİYANIN FÖVQƏLADƏ HALLAR NAZİRİ SERGEY ŞOYQUNU QƏBUL ETMİŞDİR 315
AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN XARİCİ DÖVLƏTLƏRDƏ VƏ BEYNƏLXALQ TƏŞKİLATLARDA NÜMAYƏNDƏLƏRİNİN TƏYİN EDİLMƏSİ VƏ ONLARIN FƏALİYYƏTİNİN TƏMİN OLUNMASI HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI 315
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV CORC BUŞ ADMİNİSTRASİYASI APARATININ KEÇMİŞ RƏHBƏRİ CON SUNUNUNU QƏBUL ETMİŞDİR 316
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV QİƏT-İN BAŞ KATİBİ LEONİDAS XRİZANTOPULOSU QƏBUL ETMİŞDİR 316
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV QARA DƏNİZ TİCARƏT VƏ İNKİŞAF BANKININ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 317
MİLLİ MƏCLİSDƏ GÖRÜŞ 317
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ABŞ-IN "HALLİBÖRTN" ŞİRKƏTİNİN PREZİDENTİ VƏ BAŞ İCRAÇI DİREKTORU DEVİD LEZARI QƏBUL ETMİŞDİR 318
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV "bp-AZƏRBAYCAN" ŞİRKƏTİNİN PREZİDENTİ DEVİD VUDVORDU VƏ "BTC Co." ŞİRKƏTİNİN BAŞ İCRAÇI DİREKTORU MAYKL TAUNZENDİ QƏBUL ETMİŞDİR 318
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AVROPA ŞURASI NAZİRLƏR KOMİTƏSİNİN "AQO" QRUPUNUN SƏDRİ ROLAND VEGENERİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 319
"MÜSTƏQİL DÖVLƏTLƏR BİRLİYİNİN İŞTİRAKÇISI OLAN DÖVLƏTLƏR ARASINDA İNSAN ALVERİNƏ, İNSAN ORQANLARI VƏ TOXUMALARININ QANUNSUZ TİCARƏTİNƏ QARŞI MÜBARİZƏ SAHƏSİNDƏ ƏMƏKDAŞLIQ HAQQINDA SAZİŞ"İN İCRASININ TƏMİN EDİLMƏSİ BARƏDƏ AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI 319
AZƏRBAYCAN İLƏ CƏNUBİ AFRİKA RESPUBLİKASI ARASINDA ƏMƏKDAŞLIQ ÜÇÜN BÖYÜK İMKANLAR VARDIR 320
AZƏRBAYCAN XARİCİ İŞLƏR NAZİRLİYİNİN NÜMAYƏNDƏ HEYƏTİ ANKARADA BİR SIRA SƏMƏRƏLİ GÖRÜŞLƏR KEÇİRMİŞDİR 321
AZƏRBAYCAN XARİCİ İŞLƏR NAZİRLİYİNİN NÜMAYƏNDƏ HEYƏTİ TÜRKİYƏNİN AVRASİYA STRATEJİ ARAŞDIRMALAR MƏRKƏZİNDƏ GÖRÜŞ KEÇİRMİŞDİR 322
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN QAZAXISTANA SƏFƏRİ 322
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ QAZAXISTAN PREZİDENTİ NURSULTAN NAZARBAYEVİN GÖRÜŞÜ 323

QAZAXISTANIN BTC-YƏ QOŞULMASI HAQQINDA MÜQAVİLƏNİN İMZALANMASI 323
QAZAXISTAN PREZİDENTİ NURSULTAN NAZARBAYEVİN BƏYANATI 323
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN BƏYANATI 324
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ RUSİYA PREZİDENTİ VLADİMİR PUTİNİN GÖRÜŞÜ 325
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İSRAİL BAŞ NAZİRİNİN MÜAVİNİ ŞİMON PERESİ QƏBUL ETMİŞDİR 326
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV FƏLƏSTİN AZADLIQ TƏŞKİLATI İCRAİYYƏ KOMİTƏSİNİN ÜZVÜ MÜHƏMMƏD SƏƏD AUDİYANI QƏBUL ETMİŞDİR 326
ALMATIDA "ASİYADA QARŞILIQLI FƏALİYYƏTƏ VƏ ETİMAD TƏDBİRLƏRİNƏ DAİR MÜŞAVİRƏ"NİN II SAMMİTİ KEÇİRİLMİŞDİR 326
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ÇIXIŞI 327
SƏFƏR BAŞA ÇATDI 330
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İRAQIN XARİCİ İŞLƏR ÜZRƏ DÖVLƏT NAZİRİNİ QƏBUL ETMİŞDİR 330
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ATƏT-İN BAŞ KATİBİNİ QƏBUL ETMİŞDİR 330
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV TAİLANDIN XARİCİ İŞLƏR NAZİRİNİ QƏBUL ETMİŞDİR 331
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İSLAM KONFRANSI TƏŞKİLATININ BAŞ KATİBİNİ QƏBUL ETMİŞDİR 331
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İRANIN XARİCİ İŞLƏR NAZİRİNİ QƏBUL ETMİŞDİR 331
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İORDANİYA KRALLIĞININ XARİCİ İŞLƏR NAZİRİNİ QƏBUL ETMİŞDİR 332
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV TÜRKİYƏ BAŞ NAZİRİNİN MÜAVİNİ, XARİCİ İŞLƏR NAZİRİ ABDULLAH GÜLÜN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 332
BAKIDA İSLAM KONFRANSI TƏŞKİLATININ ÜZVÜ OLAN ÖLKƏLƏRİN XARİCİ İŞLƏR NAZİRLƏRİ ŞURASININ 33-CÜ SESSİYASI İŞƏ BAŞLAMIŞDIR 332
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ 333
AZƏRBAYCANIN XARİCİ İŞLƏR NAZİRİ İKT ÜZVÜ OLAN ÖLKƏLƏRİN XARİCİ İŞLƏR NAZİRLƏRİ ŞURASININ 33-CÜ SESSİYASI ÇƏRÇİVƏSİNDƏ İKİTƏRƏFLİ GÖRÜŞLƏR KEÇİRMİŞDİR 337
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BEYNƏLXALQ MİQRASİYA TƏŞKİLATININ BAŞ DİREKTORUNU QƏBUL ETMİŞDİR 340
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV DİALOQ VƏ ƏMƏKDAŞLIĞIN GƏNCLƏR FORUMUNUN PREZİDENTİNİ QƏBUL ETMİŞDİR 340

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İSLAM TİCARƏT VƏ SƏNAYE PALATASININ PREZİDENTİNİ QƏBUL ETMİŞDİR 340

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İSLAM TƏHSİL, ELM VƏ MƏDƏNİYYƏT TƏŞKİLATININ BAŞ DİREKTORUNU QƏBUL ETMİŞDİR 341

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV GÖRKƏMLİ QAZAX ŞAİRİ, ALİM VƏ İCTİMAİ-SİYASİ XADİM OLJAS SÜLEYMENOVU QƏBUL ETMİŞDİR 341

AZƏRBAYCANIN XARİCİ İŞLƏR NAZİRİ 33-CÜ SESSİYA ÇƏRÇİVƏSİNDƏ İKİTƏRƏFLİ GÖRÜŞLƏR KEÇİRMİŞDİR 342

İKT XARİCİ İŞLƏR NAZİRLƏRİ ŞURASININ 33-CÜ SESSİYASI BAŞA ÇATMIŞDIR.. 343

İKT-NİN ÜZVÜ OLAN ÖLKƏLƏRİN XARİCİ İŞLƏR NAZİRLƏRİ SƏNGƏÇAL TERMİNALINDA OLMUŞLAR 344

HEYDƏR ƏLİYEV FONDU İLƏ TANIŞLIQ 345

OMAN AZƏRBAYCANIN ƏDALƏTLİ MÖVQEYİNİ DAİM DƏSTƏKLƏYƏCƏKDİR . 346

CƏNUBİ QAFQAZDAKI MÜNAQİŞƏLƏR DÖVLƏTLƏRİN SUVERENLİYİ, ƏRAZİ BÜTÖVLÜYÜ, SƏRHƏDLƏRİN TOXUNULMAZLIĞI PRİNSİPLƏRİ ƏSASINDA HƏLL EDİLMƏLİDİR..... 346

AZƏRBAYCANIN DÜNYA TİCARƏT TƏŞKİLATINA ÜZVLÜYÜ MƏSƏLƏLƏRİ İLƏ ƏLAQƏDAR MÜZAKİRƏLƏR APARILMIŞDIR..... 347

"AZƏRBAYCAN RESPUBLİKASININ BEYNƏLXALQ TƏŞKİLAT YANINDA DAİMİ NÜMAYƏNDƏLİYİ HAQQINDA ƏSASNAMƏ"NİN TƏSDİQ EDİLMƏSİ BARƏDƏ AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI 348

AZƏRBAYCAN RESPUBLİKASININ BEYNƏLXALQ TƏŞKİLAT YANINDA DAİMİ NÜMAYƏNDƏLİYİ HAQQINDA ƏSASNAMƏ 348

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BMT-NİN TİCARƏT VƏ İNKİŞAF ÜZRƏ KONFRANSININ BAŞ KATİBİ SUPAÇAY PANİTÇPAKDİNİ QƏBUL ETMİŞDİR..... 355

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BMT-NİN ASİYA VƏ SAKİT OKEANÜÇÜN İQTİSADİ VƏ SOSİAL KOMİSSİYASININ İCRAÇI KATİBİ KİM HAK-SUNU QƏBUL ETMİŞDİR..... 355

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV MƏŞHUR MUSİQİÇİ HERBİ HANKOOKU QƏBUL ETMİŞDİR..... 355

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AVROPA YERLİ VƏ REGİONAL HAKİMİYYƏTLƏR KONQRESİNİN SƏDRİ HALVADAN SKARDIN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR..... 356

AZƏRBAYCAN RESPUBLİKASI XARİCİ İŞLƏR NAZİRLİYİNİN BƏYANATI 356

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AMERİKA TÜRK ASSOSİASİYALARI ASSAMBLEYASININ PREZİDENTİ VURAL CENGİZİ QƏBUL ETMİŞDİR 357

XARİCİ İŞLƏR NAZİRLİYİNDƏ GÖRÜŞ 357

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV TÜRKİYƏ CÜMHURİYYƏTİ SİLAHLI QÜVVƏLƏRİNİN BAŞ QƏRARGAH RƏİSİ ORDU GENERALI HİLMİ ÖZKÖKÜ QƏBUL ETMİŞDİR..... 358

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV "CİSCO SYSTEMS" ŞİRKƏTİNİN PREZİDENTİ CON ÇEMBERSİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR..... 359

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV YORK HERSOQU, ŞAHZADƏ ENDRYUNU QƏBUL ETMİŞDİR..... 359

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV VƏ BÖYÜK BRİTANİYA KRAL AİLƏSİNİN ÜZVÜ, YORK HERSOQU, ŞAHZADƏ ENDRYU HEYDƏR ƏLİYEV FONDUNDA OLMUŞLAR 360

AZƏRBAYCAN VƏ MİSİR XARİCİ İŞLƏR NAZİRLİKLƏRİ ARASINDA NAZİR MÜAVİNLƏRİ SƏVİYYƏSİNDƏ SİYASİ MƏSLƏHƏTLƏŞMƏLƏR KEÇİRİLMİŞDİR . 360

XARİCİ İŞLƏR NAZİRLİYİNDƏ BRİFİNQ KEÇİRİLMİŞDİR..... 361

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV NATO BAŞ KATİBİNİN MÜAVİNİ JAN FURNENİ QƏBUL ETMİŞDİR..... 369

AZƏRBAYCAN RESPUBLİKASI İLƏ GÜRCÜSTAN ARASINDA İQTİSADİ ƏMƏKDAŞLIQ ÜZRƏ BİRGƏ HÖKUMƏTLƏRARASI KOMİSSİYANIN AZƏRBAYCAN RESPUBLİKASI TƏRƏFİNDƏN YENİ TƏRKİBİNİN TƏSDİQ EDİLMƏSİ BARƏDƏ AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI..... 369

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV TÜRKİYƏNİN "CÜMHURİYYƏT" QƏZETİNİN MÜXBİRİNƏ MÜSAHİBƏ VERMİŞDİR 370

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV GÜRCÜSTANIN BAŞ NAZİRİ ZURAB NOĞAİDELİNİ QƏBUL ETMİŞDİR..... 370

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN TÜRKİYƏYƏ SƏFƏRİ 371

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ GÜRCÜSTAN PREZİDENTİ MİXAİL SAAKAŞVİLİNİN GÖRÜŞÜ..... 371

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ TÜRKİYƏNİN BAŞ NAZİRİ RƏCƏB TAYYİB ƏRDOĞANIN GÖRÜŞÜ 371

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN, GÜRCÜSTAN PREZİDENTİ MİXAİL SAAKAŞVİLİNİN VƏ TÜRKİYƏNİN BAŞ NAZİRİ RƏCƏB TAYYİB ƏRDOĞANIN GÖRÜŞÜ 371

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ABŞ-IN ENERGETİKA NAZİRİNİN MÜAVİNİ İLƏ GÖRÜŞÜ 372

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ TÜRKİYƏ PREZİDENTİ ƏHMƏD NECDƏT SEZƏRİN GÖRÜŞÜ..... 372

İSTANBULUN SARIYER RAYONUNDA ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN ABİDƏSİNİN AÇILIŞI..... 373

SARIYER BƏLƏDİYYƏSİNİN SƏDRİ YUSİF TÜLÜNÜN ÇIXIŞI 373

İSTANBUL BÖYÜK ŞƏHƏR BƏLƏDİYYƏSİNİN SƏDRİ QƏDİR TOPBAŞIN ÇIXIŞI .. 374

TÜRKİYƏNİN DÖVLƏT NAZİRİ VƏ BAŞ NAZİRİN MÜAVİNİ MEHMET ƏLİ ŞAHİNİN ÇIXIŞI 375

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ..... 376

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVƏ TÜRKİYƏNİN NÜFUZLU "EKOVİTRİN" JURNALININ "AVRASİYADA İLİN SİYASƏT ADAMI" MÜKAFATI TƏQDİM EDİLMİŞDİR 379

"EKOVİTRİN" MEDİA QRUPUNUN RƏHBƏRİ KAMURAN ABACIOĞLUNUN ÇIXIŞI 379

"EKOVİTRİN"İN BAŞ REDAKTORU ŞƏRƏF ÖZATANIN ÇIXIŞI 380

TÜRKİYƏ BAŞ NAZİRİNİN MÜAVİNİ, XARİCİ İŞLƏR NAZİRİ ABDULLAH GÜLÜN ÇIXIŞI 380

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ 381

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV TÜRKİYƏNİN "FLASH" TELEVİZİYA KANALINA MÜSAHİBƏ VERMİŞDİR 384

TÜRKİYƏ PREZİDENTİ ADINDAN RƏSMİ ZİYAFƏT 384

HEYDƏR ƏLİYEV ADINA BAKI-TBİLİSİ-CEYHAN ƏSAS İXRAC BORU KƏMƏRİNİN İSTİFADƏYƏ VERİLMƏSİNƏ HƏSR OLUNMUŞ TƏNTƏNƏLİ MƏRASİM 385

bp ŞİRKƏTİNİN PREZİDENTİ LORD CON BRAUNUN ÇIXIŞI 385

bp-AZƏRBAYCAN ŞİRKƏTİNİN PREZİDENTİ DEVİD VUDVORDUN ÇIXIŞI 386

ABŞ-IN ENERGETİKA NAZİRİNİN MÜAVİNİ KLEY SELLİN ÇIXIŞI 387

TÜRKİYƏNİN BAŞ NAZİRİ RƏCƏB TAYYİB ƏRDOĞANIN ÇIXIŞI 388

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ 391

GÜRCÜSTAN PREZİDENTİ MİXAİL SAAKAŞVİLİNİN NİTQİ 394

TÜRKİYƏ PREZİDENTİ ƏHMƏD NECDƏT SEZƏRİN NİTQİ 396

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ TÜRKİYƏNİN BAŞ NAZİRİ RƏCƏB TAYYİB ƏRDOĞANIN GÖRÜŞÜ 398

"TÜRKİYƏ-AZƏRBAYCAN QARDAŞLIĞI PARKI"NIN TƏNTƏNƏLİ AÇILIŞI 398

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ÇIXIŞI 399

TÜRKİYƏNİN BAŞ NAZİRİ RƏCƏB TAYYİB ƏRDOĞANIN ÇIXIŞI 400

AZƏRBAYCAN İLƏ YAPONİYA ARASINDA ƏLAQƏLƏRİN İNKİŞAFI MƏSƏLƏLƏRİ MÜZAKİRƏ OLUNMUŞDUR 401

XARİCİ İŞLƏR NAZİRİ AVROPA KOMİSSİYASININ XARİCİ ƏLAQƏLƏR ÜZRƏ BAŞ DİREKTORUNUN MÜAVİNİ FOKİON FOTİADİSİ QƏBUL ETMİŞDİR ... 402

AZƏRBAYCAN-AVROPA İTTİFAQI MÜNASİBƏTLƏRİNƏ DAİR FİKİR MÜBADİLƏSİ APARILMIŞDIR 403

XARİCİ İŞLƏR NAZİRLİYİNİN MƏTBUAT MƏRKƏZİNİN MƏLUMATI 403

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN RUSİYA FEDERASİYASINA SƏFƏRİ 404

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ MOLDOVA PREZİDENTİ VLADİMİR VORONİNİN GÖRÜŞÜ 405

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV RUSİYANIN RTR TELEVİZİYA KANALINA MÜSAHİBƏ VERMİŞDİR 405

MDB ÖLKƏLƏRİ DÖVLƏT BAŞÇILARININ QEYRİ-RƏSMİ GÖRÜŞÜ 409

RUSİYA PREZİDENTİNİN MÜKAFATI UĞRUNDA ATÇAPMA YARIŞLARI KEÇİRİLMİŞDİR 410

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV "VİNCİ" QRUPUNUN PREZİDENTİ İV-TİBO DE SİLQİNİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 411

AZƏRBAYCAN RESPUBLİKASI İLƏ İRAN İSLAM RESPUBLİKASI ARASINDA İQTİSADİ, TİCARƏT VƏ HUMANİTAR SAHƏLƏRDƏ ƏMƏKDAŞLIQ ÜZRƏ DÖVLƏT KOMİSSİYASININ AZƏRBAYCAN RESPUBLİKASI TƏRƏFİNDƏN YENİ TƏRKİBİNİN TƏSDİQ EDİLMƏSİ BARƏDƏ AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI 411

AZƏRBAYCAN İLƏ KÜVEYT ARASINDA ƏLAQƏLƏRİN YÜKSƏK SƏVİYYƏDƏ OLDUĞU QEYD EDİLMİŞDİR 412

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BMT-NİN ÜMUMDÜNYA ƏRZAQ PROQRAMININ İCRAÇI DİREKTORU CEYMS MORRİSİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 413

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV TÜRKİYƏNİN DÖVLƏT NAZİRİ MEHMET AYDINI QƏBUL ETMİŞDİR 414

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV DÜNYA BANKININ AVROPA VƏ MƏRKƏZİ ASİYA REGİONU ÜZRƏ İNFRASTRUKTUR SEKTORUNUN DİREKTORU PETER TOMSONUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 414

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ATƏT-İN MİNSK QRUPUNUN AMERİKALI HƏMSƏDRİ MƏTYU BRAYZƏNİ QƏBUL ETMİŞDİR 415

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV TATARISTANIN BAŞ NAZİRİ RÜSTƏM MİNNİXANOVUN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 415

2006-CI İL MAYIN 25-DƏ BAKI ŞƏHƏRİNDƏ İMZALANMIŞ "AZƏRBAYCAN RESPUBLİKASININ XARİCİ İŞLƏR NAZİRLİYİ VƏ KUBA RESPUBLİKASININ XARİCİ İŞLƏR NAZİRLİYİ ARASINDA ƏMƏKDAŞLIQ HAQQINDA SAZİŞ"İN TƏSDİQ EDİLMƏSİ BARƏDƏ AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI 415

"AZƏRBAYCAN RESPUBLİKASININ ÜMUMDÜNYA TİCARƏT TƏŞKİLATINA ÜZV OLMASI PROSESİ İLƏ ƏLAQƏDAR QANUNVERİCİLİYİN ÜMUMDÜNYA TİCARƏT TƏŞKİLATININ TƏLƏBLƏRİNƏ UYĞUNLAŞDIRILMASI ÜZRƏ TƏDBİRLƏR PLANI"NIN TƏSDİQ EDİLMƏSİ BARƏDƏAZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI 416

AZƏRBAYCANIN BAŞ NAZİRİNİN MALAYZİYAYA SƏFƏRİ 416

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV TÜRKİYƏ BAŞ NAZİRİNİN MÜAVİNİ VƏ DÖVLƏT NAZİRİ MEHMET ALİ ŞAHİNİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 417

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BUXAREST ŞƏHƏRİNİN II SEKTORUNUN MERİ NEKULAİ ONTSANUNUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 417

AZƏRBAYCANIN XARİCİ İŞLƏR NAZİRİ İSVEÇDƏ RƏSMİ SƏFƏRDƏ OLMUŞDUR 418

XARİCİ İŞLƏR NAZİRLİYİNİN RƏSMİSİNİN MÖVQEYİ 420

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İRAN PREZİDENTİNİN XƏZƏR MƏSƏLƏLƏRİ ÜZRƏ XÜSUSİ NÜMAYƏNDƏSİ, XARİCİ İŞLƏR NAZİRİNİN MÜAVİNİ MEHDİ SƏFƏRİNİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 421

AZƏRBAYCAN RESPUBLİKASININ DİPLOMATİK XİDMƏT ORQANLARI RƏHBƏRLƏRİNİN İKİNCİ MÜŞAVİRƏSİ KEÇİRİLMİŞDİR 421

XARİCİ İŞLƏR NAZİRİ ELMAR MƏMMƏDYAROVUN ÇIXIŞI 421

PREZİDENT İLHAM ƏLİYEVİN NİTQİ 425

H.M.PAŞAYEVİN AZƏRBAYCAN RESPUBLİKASI XARİCİ İŞLƏR NAZİRİNİN MÜAVİNİ - AZƏRBAYCAN RESPUBLİKASI XARİCİ İŞLƏR NAZİRLİYİNİN DİPLOMATİK AKADEMİYASININ REKTORU TƏYİN EDİLMƏSİ HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI 434

DİPLOMATİK XİDMƏT ORQANLARI RƏHBƏRLƏRİNİN İKİNCİ MÜŞAVİRƏSİ ÖZ İŞİNİ DAVAM ETDİRMİŞDİR 434

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV MƏRAKEŞİN KƏND TƏSƏRRÜFATI, KƏND RAYONLARININ İNKİŞAFI VƏ DƏNİZ BALIQÇILIĞI NAZİRİ MOHAND LANSARIN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 435

AZƏRBAYCAN BAŞ NAZİRİNİN GÜRCÜSTANA SƏFƏRİ 435

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BMT-NİN QAÇQINLAR ÜZRƏ ALİ KOMİSSARI ANTONİO QUTERREŞİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 437

2006-CI İL İYUNUN 27-DƏ BAKI ŞƏHƏRİNDƏ İMZALANMIŞ "AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ VƏ MİQRASİYA SİYASƏTİNİN İNKİŞAFI ÜZRƏ BEYNƏLXALQ MƏRKƏZ (MSİBM) ARASINDA ƏMƏKDAŞLIQ SAZIŞI"NİN TƏSDİQ EDİLMƏSİ HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI 438

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ABŞ SENATININ XARİCİ ƏLAQƏLƏR KOMİTƏSİNİN SƏDRİ SENATOR RİÇARD LUQARIN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 438

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV "BP AZƏRBAYCAN" ŞİRKƏTİNİN PREZİDENTİ DEVİD VUDVORDU QƏBUL ETMİŞDİR 439

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV KOPENHAGEN KONSENSUS MƏRKƏZİNİN DİREKTORU BYORN LOMBORQU QƏBUL ETMİŞDİR 439

AZƏRBAYCANIN XARİCİ İŞLƏR NAZİRİ UKRAYNA ORDENİ İLƏ TƏLTİF EDİLMİŞDİR 440

İORDANİYANIN KRALI ƏLAHƏZRƏT II ABDULLA AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ 440

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ İORDANİYANIN KRALI II ABDULLANIN TƏKBƏTƏK GÖRÜŞÜ 440

DÖVLƏT BAŞÇILARININ GENİŞ TƏRKİBDƏ GÖRÜŞÜ 440

AZƏRBAYCAN PREZİDENTİ VƏ İORDANİYA KRALI SƏFƏRİN YEKUNLARINA DAİR BƏYANAT VERMİŞLƏR 441

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN BƏYANATI 441

İORDANİYANIN KRALI II ABDULLANIN BƏYANATI 442

HEYDƏR ƏLİYEV FONDU İLƏ TANIŞLIQ 443

ALİ QONAĞIN ŞƏRƏFİNƏ 443

AZƏRBAYCAN RESPUBLİKASI İLƏ İORDANİYA KRALLIĞI HÖKUMƏTLƏRİ ARASINDA İKİTƏRƏFLİ ƏMƏKDAŞLIĞA DAİR ÇƏRÇİVƏ SAZİŞİ İMZALANMIŞDIR 443

XARİCİ İŞLƏR NAZİRLİYİNDƏ GÖRÜŞ 444

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV TÜRKİYƏNİN IĞDIR BƏLƏDİYYƏSİNİN SƏDRİ NURETTİN ARASIN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 445

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV "GLOBAL STEEL HOLDİNGS LTD." ŞİRKƏTİNİN SƏDRİ PRAMOD MİTTALIN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 445

AZƏRBAYCAN RESPUBLİKASI İLƏ RUSİYA FEDERASİYASI ARASINDA İQTİSADİ ƏMƏKDAŞLIQ MƏSƏLƏLƏRİ ÜZRƏ HÖKUMƏTLƏRARASI DÖVLƏT KOMİSSİYASININ TƏRKİBİNİN TƏSDİQ EDİLMƏSİ BARƏDƏ AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI 445

AZƏRBAYCAN RESPUBLİKASI İLƏ UKRAYNA ARASINDA İQTİSADİ ƏMƏKDAŞLIQ MƏSƏLƏLƏRİ ÜZRƏ HÖKUMƏT KOMİSSİYASININ YENİ TƏRKİBİNİN TƏSDİQ EDİLMƏSİ BARƏDƏ AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI 447

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN SLOVENİYAYA RƏSMİ SƏFƏRİ 448

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV SLOVENİYANIN BAŞ NAZİRİ YANEZ YANŞA İLƏ GÖRÜŞMÜŞDÜR 448

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV GÜRCÜSTAN BAŞ NAZİRİNİN MÜAVİNİ GEORGİ BARAMİDZENİ QƏBUL ETMİŞDİR 448

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AVROPA İTTİFAQININ CƏNUBİ QAFQAZ ÜZRƏ NÜMAYƏNDƏSİ PETER SEMNEBİ İLƏ GÖRÜŞMÜŞDÜR 448

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV "CASPİAN OUTLOOK-2008" BLED STRATEJİ FORUMUNDA İŞTİRAK ETMİŞDİR 449

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ 450

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ SLOVENİYA PREZİDENTİ YANEZ DRNOVŞEKİN GENİŞ TƏRKİBDƏ GÖRÜŞÜ 453

PREZİDENTLƏRİN BİRGƏ MƏTBUAT KONFRANSI 454

SLOVENİYA PREZİDENTİ YANEZ DRNOVŞEKİN BƏYANATI 454

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN BƏYANATI 454
AZƏRBAYCAN PREZİDENTİNİN ŞƏRƏFİNƏ RƏSMİ NAHAR 457
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ATƏT-İN MİNSK QRUPUNUN AMERİKALI HƏMSƏDRİ MƏTYU BRAYZƏNİ QƏBUL ETMİŞDİR 458
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN AVROPA YENİDƏNQURMA VƏ İNKİŞAF BANKININ PREZİDENTİ JAN LEMYER İLƏ GÖRÜŞÜ 458
LYUBLYANA ŞƏHƏR MERİYASINDA GÖRÜŞ 458
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ÇIXIŞI 459
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN SLOVAKİYANIN XARİCİ İŞLƏR NAZİRİ YAN KUBİŞ İLƏ GÖRÜŞÜ 459
ALİ QONAĞIN ŞƏRƏFİNƏ 460
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV SLOVENİYA PARLAMENTİNDƏ OLMUŞDUR 460
SLOVENİYA MİLLİ TELEVİZİYASINA MÜSAHİBƏ 460
AZƏRBAYCAN PREZİDENTİNİN ŞƏRƏFİNƏ 460
SƏFƏR BAŞA ÇATDI 460
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV UKRAYNA BAŞ NAZİRİNİN MÜAVİNİ, UKRAYNA-AZƏRBAYCAN BİRGƏ İQTİSADİ ƏMƏKDAŞLIĞI ÜZRƏ HÖKUMƏTLƏRARASI KOMİSSİYASININ UKRAYNA TƏRƏFDƏN SƏDRİ ANDREY KLYUYEVİ QƏBUL ETMİŞDİR 461
XARİCİ İŞLƏR NAZİRLİYİNDƏ GÖRÜŞ 461
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN TÜRKİYƏYƏ SƏFƏRİ 461
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ TÜRKİYƏNİN BAŞ NAZİRİ RƏCƏB TAYYİB ƏRDOĞANIN GÖRÜŞÜ 462
İSLAM KONFRANSI TƏŞKİLATININ DİALOQ VƏ ƏMƏKDAŞLIQ UĞRUNDA GƏNCLƏR FORUMUNUN DAİMİ QƏRARGAHININ TƏNTƏNƏLİ AÇILIŞ MƏRASİMİ 462
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ 463
SƏFƏR BAŞA ÇATDI 466
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV RUSİYALI HƏMVƏTƏNLƏRİN BEYNƏLXALQ ŞURASININ BAKIDA KEÇİRİLƏN GENİŞ İCLASI İŞTİRAKÇILARININ BİR QRUPUNU QƏBUL ETMİŞDİR 467
İŞĞAL OLUNMUŞ ƏRAZİLƏRDƏKİ YANĞINLARLA ƏLAQƏDAR AZƏRBAYCANIN İRƏLİ SÜRDÜYÜ QƏTNAMƏ LAYİHƏSİ BMT BAŞ ASSAMBLEYASININ PLENAR İCLASINDA QƏBUL EDİLMİŞDİR 470
UKRAYNA PREZİDENTİ VİKTOR YUŞŞENKONUN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ 471
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ UKRAYNA PREZİDENTİ VİKTOR YUŞŞENKONUN TƏKBƏTƏK GÖRÜŞÜ 471
DÖVLƏT BAŞÇILARININ GENİŞ TƏRKİBDƏ GÖRÜŞÜ 471

SƏNƏDLƏRİN İMZALANMA MƏRASİMİ 472
AZƏRBAYCAN VƏ UKRAYNA PREZİDENTLƏRİNİN BİRGƏ MƏTBUAT KONFRANSI 473
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN BƏYANATI 473
UKRAYNA PREZİDENTİ VİKTOR YUŞŞENKONUN BƏYANATI 475
ALİ QONAĞIN ŞƏRƏFİNƏ 480
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ 480
UKRAYNA PREZİDENTİ VİKTOR YUŞŞENKONUN NİTQİ 481
UKRAYNA PREZİDENTİ VİKTOR YUŞŞENKOYA BAKI SLAVYAN UNİVERSİTETİNİN FƏXRİ DOKTORU DİPLOMU TƏQDİM EDİLMİŞDİR 482
SƏNGƏÇAL TERMİNALI İLƏ TANIŞLIQ UKRAYNA PREZİDENTİNDƏ XOŞ TƏƏSSÜRAT YARATMIŞDIR 486
HEYDƏR ƏLİYEV FONDU İLƏ TANIŞLIQ 487
SƏFƏR BAŞA ÇATDI 488
DÜNYA TİCARƏT TƏŞKİLATINA ÜZV OLMA MƏSƏLƏLƏRİNƏ DAİR DƏYİRMİ MASA KEÇİRİLMİŞDİR 488
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İSLAM KONFRANSI TƏŞKİLATININ BAŞ KATİBİNİ QƏBUL ETMİŞDİR 488
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ÜMUMDÜNYA TURİZM TƏŞKİLATININ BAŞ KATİBİNİ QƏBUL ETMİŞDİR 489
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV PAKİSTANIN TURİZM NAZİRİNİ QƏBUL ETMİŞDİR 489
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV TÜRKİYƏNİN MƏDƏNİYYƏT VƏ TURİZM NAZİRİNİ QƏBUL ETMİŞDİR 489
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV SƏUDİYYƏ ƏRƏBİSTANI KRALLIĞININ ALİ TURİZM TƏŞKİLATININ BAŞ KATİBİNİ QƏBUL ETMİŞDİR 490
BAKIDA İSLAM KONFRANSI TƏŞKİLATININ ÜZVÜ OLAN ÖLKƏLƏRİN TURİZM NAZİRLƏRİNİN V KONFRANSI BAŞLANMIŞDIR 490
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ 490
KONFRANS İŞTİRAKÇILARININ ŞƏRƏFİNƏ 496
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BALKAN SİYASİ KLUBUNUN PREZİDENTİ JELYU JELEVİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 496
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AVSTRİYANIN "SOCİETY" JURNALININ REDAKTORU XANIM GERTRUT TAUXAMMERƏ MÜSAHİBƏ VERMİŞDİR 497
AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV VAŞİNQTONDA FƏALİYYƏT GÖSTƏRƏN MƏRKƏZİ ASİYA-QAFQAZ İNSTİTUTUNUN SƏDRİ FREDERİK STARIN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 497

AZƏRBAYCAN-POLŞA HÖKUMƏTLƏRARASI BİRGƏ İQTİSADİ KOMİSSİYANIN 1-Cİ İCLASI KEÇİRİLMİŞDİR 497

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV TÜRKİYƏNİN ƏMƏK VƏ SOSİAL MÜDAFİƏ NAZİRİ MURAT BAŞESGİOĞLUNUN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 498

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV "bp-AZƏRBAYCAN" ŞİRKƏTİNİN PREZİDENTİ DEVİD VUDVORDU QƏBUL ETMİŞDİR 499

XARİCİ İŞLƏR NAZİRLİYİNİN DİPLOMATİK AKADEMİYASI İLK MÜHAZİRƏSİNİ TƏŞKİL ETMİŞDİR 499

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ABŞ MÜDAFİƏ NAZİRİNİN AVRASİYA MƏSƏLƏLƏRİ ÜZRƏ MÜŞAVİRİ CEYMS MAKDUQALIN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 500

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BİRİNCİ BEYNƏLXALQ RUS KİTABI FESTİVALININ İŞTİRAKÇILARINI QƏBUL ETMİŞDİR 500

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN TÜRKİYƏYƏ SƏFƏRİ 503

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ TÜRKİYƏNİN BAŞ NAZİRİ RƏCƏB TAYYİB ƏRDOĞANIN GÖRÜŞÜ 503

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV QAZAXISTANIN DÖVLƏT KATİBİ ORALBAY ABDIKƏRİMOVU QƏBUL ETMİŞDİR 504

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ŞİMALİ KİPRİN PREZİDENTİ MEHMET ƏLİ TƏLƏT İLƏ GÖRÜŞÜ 504

TÜRKDİLLİ DÖVLƏTLƏRİN VƏ TOPLULUQLARIN 10-CU DOSTLUQ, QARDAŞLIQ VƏ ƏMƏKDAŞLIQ QURULTAYI İŞƏ BAŞLAMIŞDIR 504

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ 506

QURULTAY İŞTİRAKÇILARININ ŞƏRƏFİNƏ 509

II BEYNƏLXALQ AVRASİYA KİNOFESTİVALININ TƏNTƏNƏLİ AÇILIŞ MƏRASİMİ 509

XARİCİ İŞLƏR NAZİRLİYİNDƏ BEYNƏLXALQ QIZIL XAÇ KOMİTƏSİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ OLMUŞDUR 510

SƏFƏR BAŞA ÇATDI 511

AZƏRBAYCAN RESPUBLİKASI BAŞ NAZİRİNİN BİRİNCİ MÜAVİNİ Y.EYYUBOVUN MÜSTƏQİL DÖVLƏTLƏR BİRLİYİNİN İQTİSADİ ŞURASININ ÜZVÜ TƏYİN EDİLMƏSİ HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI 511

AZƏRBAYCAN RESPUBLİKASI VƏ İTALİYA RESPUBLİKASI ARASINDA İQTİSADİ ƏMƏKDAŞLIQ ÜZRƏ HÖKUMƏTLƏRARASI KOMİSSİYANIN AZƏRBAYCAN RESPUBLİKASI TƏRƏFİNDƏN TƏRKİBİ HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI 511

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ABŞ SİLAHLI QÜVVƏLƏRİNİN AVROPA KOMANDANININ MÜAVİNİ, GENERAL UİLLİAM VORDU QƏBUL ETMİŞDİR 512

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ABŞ DÖVLƏT KATİBİNİN RABİTƏ VƏ İNFORMASİYA MƏSƏLƏLƏRİ ÜZRƏ MÜŞAVİRİ DEVİD QROSSU QƏBUL ETMİŞDİR 513

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ALMANİYAYA SƏFƏRİ 513

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ABŞ-IN KEÇMİŞ DÖVLƏT KATİBİ HENRİ KİSSİNCER İLƏ GÖRÜŞÜ 513

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN GÜRCÜSTAN PARLAMENTİNİN SƏDRİ NİNO BURCANADZE İLƏ GÖRÜŞÜ 513

BERLİNDƏ BEYNƏLXALQ BERTELSMANN-2006 FORUMUİŞƏ BAŞLAMIŞDIR 514

FORUM İŞTİRAKÇILARININ ŞƏRƏFİNƏ 519

KARL BERTELSMANN FONDUNDA "DEMOKRATİYA ÇAĞIRIŞI" MÖVZUSUNDA MÜZAKİRƏLƏR 519

ÖLKƏMİZİN ALMANİYADAKI SƏFİRLİYİNİN YENİ BİNASI İLƏ TANIŞLIQ 526

SƏFƏR BAŞA ÇATDI 526

AZƏRBAYCANIN XARİCİ İŞLƏR NAZİRİNİN ABŞ-A SƏFƏRİ 527

2006-CI İL İYULUN 5-DƏ BAKI ŞƏHƏRİNDƏ İMZALANMIŞ "AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ VƏ ÇELYABİNSK VİLAYƏTİ (RUSİYA FEDERASİYASI) HÖKUMƏTİ ARASINDA TİCARƏT-İQTİSADİ, ELMİ-TEXNİKİ VƏ MƏDƏNİ ƏMƏKDAŞLIQ HAQQINDA SAZİŞ"İN TƏSDİQ EDİLMƏSİ BARƏDƏ AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI 530

AZƏRBAYCAN RESPUBLİKASI İLƏ KOREYA RESPUBLİKASI ARASINDA 2006-CI İL MAYIN 11-DƏ BAKI ŞƏHƏRİNDƏ İMZALANMIŞ SƏNƏDLƏR HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI 530

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV SƏRHƏD MƏSƏLƏLƏRİ ÜZRƏ BEYNƏLXALQ KONFRANSIN SƏRHƏD XİDMƏTLƏRİ RƏHBƏRLƏRİNİN İŞÇİ QRUPUNUN BAKIDA KEÇİRİLƏN İCLASININ NÜMAYƏNDƏLƏRİNİ QƏBUL ETMİŞDİR 531

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV QƏTƏRİN "ƏL-CƏZİRƏ" TELEYAYIM KORPORASİYASININ ƏMƏKDAŞLARINA MÜSAHİBƏ VERMİŞDİR 532

AZƏRBAYCAN MİLLİ MƏCLİSİNİN SƏDRİ OQTAY ƏSƏDOVUN UKRAYNAYA SƏFƏRİ 539

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV MÜSTƏQİL DÖVLƏTLƏR BİRLİYİ ONKOLOQLARI VƏ RADİOLOQLARININ DÖRDÜNCÜ QURULTAYININ İŞTİRAKÇILARINI QƏBUL ETMİŞDİR 539

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV MDB-NİN İCRAİYYƏ KOMİTƏSİNİN SƏDRİ - İCRAÇI KATİBİ VLADİMİR RUŞAYLONU QƏBUL ETMİŞDİR 540

AZƏRBAYCAN-FRANSA İQTİSADİ KOMİSSİYASININ AZƏRBAYCAN RESPUBLİKASI TƏRƏFİNDƏN YENİ TƏRKİBİNİN TƏSDİQ EDİLMƏSİ BARƏDƏAZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI 540

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV TÜRKİYƏNİN RABİTƏ VƏ NƏQLİYYAT NAZİRİ BİNƏLİ YILDIRIMIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 541

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BMT-NİN İQTİSADİ VƏ SOSİAL İŞLƏR DEPARTAMENTİNİN YARDIM VƏ ƏLAQƏLƏNDİRMƏ BÖLMƏSİNİN İCRAÇI KATİBİ SARBULAND XANI QƏBUL ETMİŞDİR 542

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ATƏT-İN MİNSK QRUPUNUN HƏMSƏDRLƏRİNİ QƏBUL ETMİŞDİR 542

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BOSNİYA VƏ HERSEQOVİNANIN RABİTƏ VƏ NƏQLİYYAT NAZİRİNİ QƏBUL ETMİŞDİR 543

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AVROPA BİRLİYİ "ÜÇLÜYÜ"NÜN (TROYKA) NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 543

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ABŞ-AZƏRBAYCAN TİCARƏT PALATASININ HƏMSƏDRİ CEYMS BEYKERİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 543

AZƏRBAYCAN RESPUBLİKASI VƏ LATVİYA RESPUBLİKASI ARASINDA İQTİSADİ, ELMİ-TEXNİKİ VƏ MƏDƏNİ ƏMƏKDAŞLIQ ÜZRƏ HÖKUMƏTLƏRARASI KOMİSSİYANIN AZƏRBAYCAN RESPUBLİKASI TƏRƏFİNDƏN TƏRKİBİNİN TƏSDİQ EDİLMƏSİ BARƏDƏ AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI 544

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV LATVİYAYA DÖVLƏT SƏFƏRİ 545

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ LATVİYA PREZİDENTİ VAYRA VİKE-FREYBERQANIN TƏKBƏTƏK GÖRÜŞÜ 545

DÖVLƏT BAŞÇILARININ GENİŞ TƏRKİBDƏ GÖRÜŞÜ 545

SƏNƏDLƏRİN İMZALANMASI 546

AZƏRBAYCAN RESPUBLİKASININ SƏHİYYƏ NAZİRLİYİ VƏ LATVİYA RESPUBLİKASI SƏHİYYƏ NAZİRLİYİ ARASINDA SƏHİYYƏ VƏ TİBB ELMİ SAHƏSİNDƏ ƏMƏKDAŞLIQ HAQQINDA SAZİŞ 547

AZƏRBAYCAN RESPUBLİKASININ TƏHSİL NAZİRLİYİ VƏ LATVİYA RESPUBLİKASININ TƏHSİL NAZİRLİYİ ARASINDA TƏHSİL SAHƏSİNDƏ ƏMƏKDAŞLIQ HAQQINDA SAZİŞ 549

PREZİDENTLƏRİN BİRGƏ MƏTBUAT KONFRANSI 550

LATVİYA PREZİDENTİ VAYRA VİKE-FREYBERQANIN BƏYANATI 550

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN BƏYANATI 551

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN LATVİYANIN BAŞ NAZİRİ AYQARS KALVİTİS İLƏ GÖRÜŞÜ 555

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV LATVİYA SEYMİNDƏ OLMUŞDUR 555

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV LATVİYA UNİVERSİTETİNDƏ OLMUŞDUR 556

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ 556

AZƏRBAYCAN PREZİDENTİNİN ŞƏRƏFİNƏ 562

LATVİYA PREZİDENTİ VAYRA VİKE-FREYBERQANIN NİTQİ 562

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ 564

AZƏRBAYCAN-LATVİYA BİZNES FORUMU 565

LATVİYA PREZİDENTİ VAYRA VİKE-FREYBERQANIN NİTQİ 566

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ 568

LATVİYANIN APARICI KİV-LƏRİNİN BAŞ REDAKTORLARI İLƏ GÖRÜŞ 572

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV RİQA ŞƏHƏR MERİYASINDA OLMUŞDUR 573

RİQA MERİYA ŞURASININ SƏDRİ AYVARS AKSENOKSUN ÇIXIŞI 573

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ÇIXIŞI 574

AZƏRBAYCANIN LATVİYADAKI SƏFİRLİYİ İLƏ TANIŞLIQ 575

LATVİYADAKI AZƏRBAYCAN İCMASININ NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ 575

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ÇIXIŞI 575

SƏFƏR BAŞA ÇATDI 579

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV MDB-NİN ÜZVÜ OLAN DÖVLƏTLƏRİN TƏHLÜKƏSİZLİK VƏ XÜSUSİ XİDMƏT ORQANLARININ RƏHBƏRLƏRİNİ QƏBUL ETMİŞDİR 579

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV RUSİYA ELMLƏR AKADEMİYASININ VİTSE-PREZİDENTİ ALEKSANDR ANDREYEVİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 580

2006-CI İL SENTYABRIN 19-DA BAKI ŞƏHƏRİNDƏ İMZALANMIŞ "AZƏRBAYCAN RESPUBLİKASI GƏNCLƏR VƏ İDMAN NAZİRLİYİ VƏ BOLQARISTAN RESPUBLİKASI GƏNCLƏR VƏ İDMAN DÖVLƏT AGENTLİYİ ARASINDA GƏNCLƏR SİYASƏTİ VƏ İDMAN SAHƏSİNDƏ ƏMƏKDAŞLIQ HAQQINDA SAZİŞ"İN TƏSDİQ EDİLMƏSİ BARƏDƏ AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI 581

AZƏRBAYCANIN VƏ ERMƏNİSTANIN XARİCİ İŞLƏR NAZİRLƏRİ MOSKVADA DANIŞIQLAR APARIRLAR 581

MOSKVADA ERMƏNİSTAN-AZƏRBAYCAN, DAĞLIQ QARABAĞ MÜNAQİŞƏSİNƏ DAİR DANIŞIQLARIN NÖVBƏTİ MƏRHƏLƏSİ BAŞA ÇATMIŞDIR 581

AZƏRBAYCAN XİN-İN BAŞÇISI MOSKVA DANIŞIQLARININ YEKUNLARINDAN RAZI QALMIŞDIR 582

RUSİYA VƏ AZƏRBAYCAN İNTENSİV ƏMƏKDAŞLIĞIN DAVAM ETDİRİLMƏSİNƏ TƏRƏFDARDIR 583

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ATƏT-İN KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİ AZADLIĞI ÜZRƏ NÜMAYƏNDƏSİ MİKLOŞ HARAŞTİNİ QƏBUL ETMİŞDİR 583

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV NATO BAŞ KATİBİNİN CƏNUBİ QAFQAZ VƏ ORTA ASİYA ÜZRƏ XÜSUSİ NÜMAYƏNDƏSİ ROBERT SİMMONSUN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 584

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV "NOBL" ŞİRKƏTİNİN PREZİDENTİ RİÇARD ELMANI QƏBUL ETMİŞDİR 584

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV "ROSSİYA" TELEKANALININ "VESTİ" PROQRAMINA MÜSAHİBƏ VERMİŞDİR 584

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV RUSİYA FEDERASİYASI PREZİDENTİNİN KÖMƏKÇİSİ CAHAN POLLIYEVANI QƏBUL ETMİŞDİR 584

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BÖYÜK BRİTANİYA PARLAMENTİNİN PARLAMENTLƏRARASI İTTİFAQDAKI NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 585

AZƏRBAYCAN RESPUBLİKASININ MOSKVA ŞƏHƏRİ İLƏ ƏMƏKDAŞLIQ ÜZRƏ HÖKUMƏT KOMİSSİYASININ YENİ TƏRKİBİNİN TƏSDİQ EDİLMƏSİ BARƏDƏ AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI 585

RUMİNİYA PREZİDENTİ TRAYAN BESESKUNUN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ 586

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ RUMİNİYA PREZİDENTİ TRAYAN BESESKUNUN TƏKBƏTƏK GÖRÜŞÜ 586

DÖVLƏT BAŞÇILARININ GENİŞ TƏRKİBDƏ GÖRÜŞÜ 586

SƏNƏDLƏRİN İMZALANMA MƏRASİMİ 588

AZƏRBAYCAN RESPUBLİKASININ MƏDƏNİYYƏT VƏ TURİZM NAZİRLİYİ VƏ RUMİNİYANIN MƏDƏNİYYƏT VƏ DİNİ İŞLƏR NAZİRLİYİ ARASINDA MƏDƏNİYYƏT SAHƏSİNDƏ ƏMƏKDAŞLIQ HAQQINDA SAZİŞ 588

AZƏRBAYCAN VƏ RUMİNİYA PREZİDENTLƏRİNİN BİRGƏ MƏTBUAT KONFRANSI 590

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN BƏYANATI 590

RUMİNİYA PREZİDENTİ TRAYAN BESESKUNUN BƏYANATI 592

MƏŞHUR RUMIN BƏSTƏKARI VƏ MUSİQİÇİSİ CORCE ENESKUNUN ABİDƏSİNİN AÇILIŞI 595

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ÇIXIŞI 595

RUMİNİYA PREZİDENTİ TRAYAN BESESKUNUN ÇIXIŞI 596

ALİ QONAĞIN ŞƏRƏFİNƏ 597

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ 597

RUMİNİYA PREZİDENTİ TRAYAN BESESKUNUN NİTQİ 598

MİLLİ MƏCLİSDƏ GÖRÜŞ 599

RUMİNİYA PREZİDENTİNƏ BAKI DÖVLƏT UNİVERSİTETİNİN FƏXRİ DOKTORU DİPLOMU TƏQDİM EDİLMİŞDİR 600

RUMİNİYA PREZİDENTİ TRAYAN BESESKUNUN VƏ AZƏRBAYCANIN BAŞ NAZİRİ ARTUR RASİZADƏNİN BİRGƏ İŞGÜZAR NAHARI 601

HEYDƏR ƏLİYEV FONDU İLƏ TANIŞLIQ 602

SƏFƏR BAŞA ÇATDI 603

CƏNUBİ QAFQAZDAKI MÜNAQİŞƏLƏR REGİONUN SABİTLİYİNƏ TƏHLÜKƏDİR 603

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ABŞ DÖVLƏT KATİBİ MÜAVİNİNİN YAXIN ŞƏRQ MƏSƏLƏLƏRİ ÜZRƏ MÜŞAVİRİ SƏFİR CEYMS CEFRİNİ QƏBUL ETMİŞDİR 604

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV TÜRKİYƏNİN MƏRMƏRƏ QRUPUNUN NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 604

XİN RƏSMİSİNİN AÇIQLAMASI 606

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ÜMUMÇİN XALQ NÜMAYƏNDƏLƏRİ MƏCLİSİ DAİMİ KOMİTƏSİ SƏDRİNİN MÜAVİNİ SYU SZYALUNUN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 607

MİLLİ MƏCLİS SƏDRİNİN BAŞÇILIĞI İLƏ NÜMAYƏNDƏ HEYƏTİ GUAM PARLAMENT ASSAMBLEYASININ NÖVBƏTİ İCLASINDA İŞTİRAK ETMİŞDİR 607

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ABŞ-IN ÜMUMDÜNYA TİCARƏT TƏŞKİLATI YANINDA SƏFİRİ PETER ALLGEİERİ QƏBUL ETMİŞDİR 609

AVRATLANTİKA STRUKTURLARINA İNTEQRASİYA AZƏRBAYCANIN XARİCİ SİYASƏT KURSUNDA MÜHÜM YER TUTUR 610

AZƏRBAYCAN RESPUBLİKASI İLƏ BELARUS RESPUBLİKASI ARASINDA İQTİSADİ ƏMƏKDAŞLIQ ÜZRƏ BİRGƏ HÖKUMƏTLƏRARASI KOMİSSİYANIN AZƏRBAYCAN RESPUBLİKASI TƏRƏFİNDƏN YENİ TƏRKİBİNİN TƏSDİQ EDİLMƏSİ BARƏDƏAZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI 610

XARİCİ İŞLƏR NAZİRLİYİNİN DİPLOMATİK AKADEMİYASININ YARADILMASINDA BEYNƏLXALQ TƏCRÜBƏDƏN İSTİFADƏ OLUNUR 611

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN BELARUSA RƏSMİ SƏFƏRİ 612

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ BELARUS PREZİDENTİ ALEKSANDR LUKAŞENKONUN TƏKBƏTƏK GÖRÜŞÜ 612

DÖVLƏT BAŞÇILARININ GENİŞ TƏRKİBDƏ GÖRÜŞÜ 613

SƏNƏDLƏRİN İMZALANMASI 616

AZƏRBAYCAN RESPUBLİKASI GƏNCLƏR VƏ İDMAN NAZİRLİYİ VƏ BELARUS RESPUBLİKASI İDMAN VƏ TURİZM NAZİRLİYİ ARASINDA BƏDƏN TƏRBİYƏSİ VƏ İDMAN SAHƏSİNDƏ ƏMƏKDAŞLIQ HAQQINDA SAZİŞ 617

AZƏRBAYCAN RESPUBLİKASININ TƏHSİL NAZİRLİYİ İLƏ BELARUS RESPUBLİKASININ TƏHSİL NAZİRLİYİ ARASINDA TƏHSİL SAHƏSİNDƏ ƏMƏKDAŞLIQ HAQQINDA SAZİŞ 618

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV MİNSK AVTOMOBİL ZAVODUNDA OLMUŞDUR 621

PREZİDENT İLHAM ƏLİYEV BELARUS DÖVLƏT HƏRBİ SƏNAYE KOMİTƏSİNDƏ OLMUŞDUR 622

AZƏRBAYCAN PREZİDENTİNİN ŞƏRƏFİNƏ 622

BELARUS PREZİDENTİ ALEKSANDR LUKAŞENKONUN NİTQİ 622

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ 623

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV MİNSK TRAKTOR ZAVODUNDA OLMUŞDUR 624

BELARUS MİLLİ KİTABXANASI İLƏ TANIŞLIQ 625

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV MEKSİKANIN SƏHİYYƏ NAZİRİ XULİO FRENKİ QƏBUL ETMİŞDİR 625

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İTALİYA XARİCİ İŞLƏR NAZİRİNİN MÜAVİNİ, AZƏRBAYCAN-İTALİYA İQTİSADİ ƏMƏKDAŞLIĞINA DAİR MƏŞVƏRƏT FORUMUNUN HƏMSƏDRİ FAMİANO KRUÇİANELLİNİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 626

AZƏRBAYCAN RESPUBLİKASI KƏND TƏSƏRRÜFATI NAZİRLİYİ VƏ İTALİYA RESPUBLİKASININ KƏND TƏSƏRRÜFATI, ƏRZAQ VƏ MEŞƏÇİLİK SİYASƏTİ NAZİRLİYİ ARASINDA ƏMƏKDAŞLIQ HAQQINDA ANLAŞMA MEMORANDUMU 626

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV DÜNYA SƏHİYYƏ TƏŞKİLATININ BAŞ DİREKTORU VƏZİFƏSİNƏ NAMİZƏD PROFESSOR TOMRİS TÜRMƏNİ QƏBUL ETMİŞDİR 628

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV bp-AZƏRBAYCAN ŞİRKƏTİNİN RƏHBƏRİ DEVİD VUDVORDU QƏBUL ETMİŞDİR 628

GÖRÜŞLƏR DAVAM ETDİRİLƏCƏKDİR 629

AVROPA İTTİFAQI - AZƏRBAYCAN ƏMƏKDAŞLIQ KOMİTƏSİNİN İCLASI KEÇİRİLMİŞDİR 629

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AVROPA YENİDƏNQURMA VƏ İNKİŞAF BANKININ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 630

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ABŞ-IN ALMAN MARŞALL FONDUNUN NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 630

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV XARİCİ ÖLKƏLƏRİN KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN RUSİYADA AKKREDİTƏ OLUNMUŞ NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞMÜŞDÜR 631

AZƏRBAYCAN İLƏ İSLANDİYA ARASINDA ƏLAQƏLƏR İNKİŞAF PERSPEKTİVLƏRİ MÜZAKİRƏ OLUNMUŞDUR 642

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İSPANİYANIN SƏHİYYƏ VƏ İSTEHLAK NAZİRİ ELENA SALQADONUN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 642

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AŞPA-NIN MONİTORİNQ KOMİTƏSİNİN AZƏRBAYCAN ÜZRƏ HƏMMƏRUZƏÇİLƏRİ TONİ LLOYD VƏ ANDRES HERKELİ QƏBUL ETMİŞDİR 642

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV GÜRCÜSTANIN MƏDƏNİYYƏT, ABİDƏLƏRİN QORUNMASI VƏ İDMAN NAZİRİ GEORGİ QABAŞVİLİNİ QƏBUL ETMİŞDİR 643

GUAM ÖLKƏLƏRİ ƏRAZİSİNDƏKİ MÜNAQİŞƏLƏR ÖLKƏLƏRİN ƏRAZİ BÜTÖVLÜYÜ ÇƏRÇİVƏSİNDƏ HƏLL EDİLMƏLİDİR 643

MOSKVADA QİƏT ÖLKƏLƏRİ XARİCİ İŞLƏR NAZİRLƏRİNİN İCLASI KEÇİRİLMİŞDİR 644

XARİCİ İŞLƏR NAZİRİ İTALİYANIN ATƏT-DƏKİ DAİMİ NÜMAYƏNDƏSİ FRANÇESKO BASKONENİ QƏBUL ETMİŞDİR 645

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV TÜRKİYƏNİN TƏHSİL NAZİRİ HÜSEYİN ÇELİKİ QƏBUL ETMİŞDİR 645

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV XƏZƏRİN KARBOHİDROGEN EHTİYATLARININ İŞLƏNİLMƏSİ ÜZRƏ MƏSLƏHƏT ŞURASININ ÜZVLƏRİNİ QƏBUL ETMİŞDİR 646

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BP ŞİRKƏTİNİN VİTSE-PREZİDENTİ ENDRYU İNQLİSİ QƏBUL ETMİŞDİR 646

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İORDANİYANIN BAŞ NAZİRİ MƏRUF ƏL-BƏXİTİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 647

XARİCİ İŞLƏR NAZİRİ İORDANİYA HAŞİMİYYƏ KRALLIĞININ XARİCİ İŞLƏR NAZİRİ ABDELELAH ƏL-XATİB İLƏ GÖRÜŞMÜŞDÜR 647

AZƏRBAYCAN RESPUBLİKASININ HÖKUMƏTİ VƏ İORDANİYA HAŞİMİLƏR KRALLIĞININ HÖKUMƏTİ ARASINDA TURİZM SAHƏSİNDƏ ƏMƏKDAŞLIQ HAQQINDA SAZİŞ 648

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN BELÇİKAYA İŞGÜZAR SƏFƏRİ 650

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN BELÇİKA SENATININ SƏDRİ ANN-MARİ LİZENİLƏ GÖRÜŞÜ 650

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN AVROPA PARLAMENTİNİN SƏDRİ XOSEP BORRELL FONTELLES İLƏ GÖRÜŞÜ 650

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN AVROPA KOMİSSİYASININ ENERJİ MƏSƏLƏLƏRİNƏ DAİR MƏSUL KOMİSSARI ANDRİS PYEBALQS İLƏ GÖRÜŞÜ 650

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN AVROPA KOMİSSİYASININ SƏDRİ JOZE MANUEL BARROZU İLƏ GÖRÜŞÜ 651

AZƏRBAYCAN İLƏ AVROPA BİRLİYİ ARASINDA ANLAŞMA MEMORANDUMU İMZALANMIŞDIR 651

AVROPA KOMİSSİYASININ SƏDRİ JOZE MANUEL BARROZUNUN BƏYANATI 652

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN BƏYANATI 653

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN AVROPA BİRLİYİ ŞURASININ BAŞ KATİBİ, XARİCİ SİYASƏT VƏ TƏHLÜKƏSİZLİK SİYASƏTİ ÜZRƏ ALİ NÜMAYƏNDƏSİ XAVYER SOLANA İLƏ GÖRÜŞÜ 656

PREZİDENT İLHAM ƏLİYEVİN VƏ AVROPA İTTİFAQI ŞURASININ BAŞ KATİBİ XAVYER SOLANANIN BİRGƏ BRİFİNQİ 656

AVROPA İTTİFAQI ŞURASININ BAŞ KATİBİ XAVYER SOLANANIN BƏYANATI 657

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN BƏYANATI 657

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN BELÇİKA PARLAMENTİ NÜMAYƏNDƏLƏR PALATASININ SƏDRİ HERMAN DE KROO İLƏ GÖRÜŞÜ 659

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN BELÇİKANIN BAŞ NAZİRİ Gİ VERHOFSTADT İLƏ GÖRÜŞÜ 660

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NATO-NUN BAŞ KATİBİ YAAP DE HOOP SXEFFER İLƏ GÖRÜŞÜ 660

NATO-NUN BAŞ KATİBİ YAAP DE HOOP SXEFFERİN BƏYANATI 661

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN BƏYANATI 662

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ATƏT-İN HAZIRKI SƏDRİ, BELÇİKANIN XARİCİ İŞLƏR NAZİRİ KAREL DE QUXT İLƏ GÖRÜŞÜ 664

KRAL BEYNƏLXALQ ƏLAQƏLƏR İNSTİTUTUNDA SİYASİ BRİFİNQ 664

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ÇIXIŞI 665

SƏFƏR BAŞA ÇATDI 675

POLŞA SENATININ SƏDRİ BAKIYA RƏSMİ SƏFƏRƏ GƏLMİŞDİR 675

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN MOSKVAYA SƏFƏRİ 677

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV RUSİYA FEDERASİYASININ PREZİDENTİ VLADİMİR PUTİNLƏ GÖRÜŞMÜŞDÜR 677

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN MOSKVA ŞƏHƏRİNİN MERİ YURİ LUJKOV İLƏ GÖRÜŞÜ 678

SƏFƏR BAŞA ÇATDI 678

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV MOSKVA DÖVLƏT BEYNƏLXALQ MÜNASİBƏTLƏR İNSTİTUTUNUN REKTORU, PROFESSOR ANATOLİ TORKUNOVU QƏBUL ETMİŞDİR 678

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV LİTVA DÖVLƏT TƏHLÜKƏSİZLİYİ DEPARTAMENTİNİN BAŞ DİREKTORU ARVİDAS POTSYUSU QƏBUL ETMİŞDİR 679

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV SƏUDİYYƏ ƏRƏBİSTANININ ALİ SOSİAL SIĞORTA TƏŞKİLATININ SƏDRİNİ QƏBUL ETMİŞDİR 679

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ALMANİYA NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 680

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVƏ DÜNYADA ÇOX BÖYÜK NÜFUZA MALİK MİXAEL ZUKKOV FONDUNUN ALİ MÜKAFATI TƏQDİM OLUNMUŞDUR 681

MOSKVA DÖVLƏT BEYNƏLXALQ MÜNASİBƏTLƏR İNSTİTUTUNUN REKTORU XARİCİ İŞLƏR NAZİRLİYİ DİPLOMATİYA AKADEMİYASININ QONAĞI OLMUŞDUR 682

"AZƏRBAYCAN RESPUBLİKASI KƏND TƏSƏRRÜFATI NAZİRLİYİ VƏ İTALİYA RESPUBLİKASININ KƏND TƏSƏRRÜFATI, ƏRZAQ VƏ MEŞƏÇİLİK SİYASƏTİ NAZİRLİYİ ARASINDA ƏMƏKDAŞLIQ HAQQINDA ANLAŞMA MEMORANDUMU"NUN TƏSDİQ OLUNMASI BARƏDƏ AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI 683

MİLLİ MƏCLİSİN NÜMAYƏNDƏ HEYƏTİ MDB PARLAMENTLƏRARASI ASSAMBLEYANIN NÖVBƏTİ İCLASINDA İŞTİRAK ETMİŞDİR 683

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN TÜRKİYƏYƏ SƏFƏRİ 684

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN QAZAXISTAN PREZİDENTİ NURSULTAN NAZARBAYEVLƏ GÖRÜŞÜ 684

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN QIRĞIZISTAN PREZİDENTİ KURMANBEK BAKİYEVLƏ GÖRÜŞÜ 684

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ TÜRKİYƏ PREZİDENTİ ƏHMƏD NECDƏT SEZƏRİN GÖRÜŞÜ 685

TÜRKDİLLİ ÖLKƏLƏRİN DÖVLƏT BAŞÇILARININ VIII ZİRVƏ GÖRÜŞÜ 685

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ 686

DÖVLƏT BAŞÇILARININ ŞƏRƏFİNƏ 691

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN BİRLƏŞMİŞ ƏRƏB ƏMİRLİKLƏRİNƏ RƏSMİ SƏFƏRİ 691

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ BİRLƏŞMİŞ ƏRƏB ƏMİRLİKLƏRİNİN PREZİDENTİ ŞEYX XƏLİFƏ BİN ZAİD AL NƏHYANIN TƏKBƏTƏK GÖRÜŞÜ 692

DÖVLƏT BAŞÇILARININ GENİŞ TƏRKİBDƏ GÖRÜŞÜ 692

SƏNƏDLƏRİN İMZALANMASI 692

AZƏRBAYCAN RESPUBLİKASININ SƏHİYYƏ NAZİRLİYİ VƏ BİRLƏŞMİŞ ƏRƏB ƏMİRLİKLƏRİNİN SƏHİYYƏ NAZİRLİYİ ARASINDA SƏHİYYƏ VƏ TİBB ELMİ SAHƏSİNDƏ ƏMƏKDAŞLIQ HAQQINDA SAZİŞ 693

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ VƏ BİRLƏŞMİŞ ƏRƏB ƏMİRLİKLƏRİ HÖKUMƏTİ ARASINDA ALI TƏHSİL SAHƏSİNDƏ ƏMƏKDAŞLIQ HAQQINDA SAZİŞ 696

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN BİRLƏŞMİŞ ƏRƏB ƏMİRLİKLƏRİNİN İQTİSADİYYAT VƏ PLANLAŞDIRMA NAZİRİ ŞEYXA LUBNA AL QASİMİ İLƏ GÖRÜŞÜ 698

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN "CONSOLIDATED ENERGY RESOURCES LLC" VƏ "GHOBASH TRADING AND INVESTMENTS GROUP" ŞİRKƏTLƏRİNİN RƏHBƏRİ SEYİD ƏHMƏD QOBAŞ İLƏ GÖRÜŞÜ 699

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ABU-DABİ İCRAEDİCİ ŞURASININ ÜZVÜ, ABU-DABİ ƏMİRLİYİNİN VƏLİƏHDİ DİVANININ BAŞÇISI ŞEYX SULTAN BİN XƏLİFƏ AL NƏHYAN İLƏ GÖRÜŞÜ 699

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ABU-DABİ TELEVİZİYASINA MÜSAHİBƏSİ 699

ABU-DABİDƏ AZƏRBAYCAN-BİRLƏŞMİŞ ƏRƏB ƏMİRLİKLƏRİ BİZNES FORUMU KEÇİRİLMİŞDİR 703

BİRLƏŞMİŞ ƏRƏB ƏMİRLİKLƏRİNİN İQTİSADİYYAT VƏ PLANLAŞDIRMA NAZİRİ XANIM ŞEYXA LUBNA AL QASİMİNİN ÇIXIŞI 703

BİRLƏŞMİŞ ƏRƏB ƏMİRLİKLƏRİ TİCARƏT PALATASININ SƏDRİ SALEH BİN ÖMƏR AL ŞANHİNİN ÇIXIŞI 705

PREZİDENT İLHAM ƏLİYEVİN NİTQİ 707

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AZƏRBAYCAN-YAPONİYA DÖVLƏT KOMİSSİYASININ 4-CÜ İCLASININ İŞTİRAKÇILARINI QƏBUL ETMİŞDİR 709

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ATƏT-İN MİNSK QRUPUNUN HƏMSƏDRLƏRİNİ QƏBUL ETMİŞDİR 709

RUSİYA FEDERASİYASI ƏRAZİSİNDƏ TİCARƏTLƏ MƏŞĞUL OLAN AZƏRBAYCAN VƏTƏNDAŞLARININPROBLEMLƏRİNİN HƏLLİ HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI 710

BAKIDA QARA DƏNİZ İQTİSADİ ƏMƏKDAŞLIĞI PARLAMENT MƏCLİSİ BAŞ ASSAMBLEYASININ 28-Cİ PAYIZ SESSİYASI KEÇİRİLMİŞDİR 711

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV BOLQARISTAN RESPUBLİKASI XALQ MƏCLİSİNİN SƏDRİ GEORGİ PİRİNSKİNİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 715

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İSLAM ÖLKƏLƏRİ TƏHSİL, ELM VƏ MƏDƏNİYYƏT TƏŞKİLATININ (İSESCO) BAŞ DİREKTORU ƏBDÜLƏZİZ bin OSMAN əl-TUVEYCRİNİ QƏBUL ETMİŞDİR 716

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ÜMUMDÜNYA TİCARƏT TƏŞKİLATI KATİBLİYİNİN "ÜZV OLMA PROSESLƏRİ" ÜZRƏ QURUMUNUN RƏHBƏRİ ARİF HÜSEYNİ QƏBUL ETMİŞDİR 716

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN BELARUSA SƏFƏRİ 716

MİNSKDƏ MDB DÖVLƏT BAŞÇILARININ ZİRVƏ GÖRÜŞÜ KEÇİRİLMİŞDİR 717

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ GÜRCÜSTAN PREZİDENTİ MİXAİL SAAKAŞVİLİNİN GÖRÜŞÜ 718

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ UKRAYNA PREZİDENTİ VİKTOR YUŞŞENKONUN GÖRÜŞÜ 718

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ ERMƏNİSTAN PREZİDENTİ ROBERT KOÇARYANIN GÖRÜŞÜ 719

AZƏRBAYCAN, BELARUS VƏ UKRAYNA PREZİDENTLƏRİNİN ÜÇTƏRƏFLİ GÖRÜŞÜ 719

SƏFƏR BAŞA ÇATDI 720

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV DUBAY LİMANLARI, GÖMRÜKXANALARI VƏ AZAD TİCARƏT ZONASI KORPORASİYASININ İCRAÇI SƏDRİ SULTAN ƏHMƏD BİN SÜLEYİMİ QƏBUL ETMİŞDİR 720

2006-CI İL SENTYABRIN 1-DƏ BAKI ŞƏHƏRİNDƏ İMZALANMIŞ "AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA DÖVLƏT QULLUĞU MƏSƏLƏLƏRİ ÜZRƏ KOMİSSİYA İLƏ BİRLƏŞMİŞ MİLLƏTLƏR TƏŞKİLATININ İNKİŞAF PROQRAMI ARASINDA "DÖVLƏT QULLUĞU SİSTEMİNDƏ İSLAHATLARIN APARILMASI VASİTƏSİLƏ YAXŞI İDARƏÇİLİYİN TƏŞKİLİ: MİM 9-UN (YADİDP-NİN İLKİN VARİANTI 2006-2015) İCRASINA DAİR LAYİHƏ SƏNƏDİ"NİN TƏSDİQ EDİLMƏSİ BARƏDƏ AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI 720

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV GÜRCÜSTANIN BAŞ NAZİRİ ZURAB NOĞAİDELİNİ QƏBUL ETMİŞDİR 721

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AŞPA-NIN DAĞLIQ QARABAĞ ÜZRƏ ALT KOMİTƏSİNİN SƏDRİ LORD RASSEL CONSTONU QƏBUL ETMİŞDİR .. 721

AZƏRBAYCAN İLƏ BÖYÜK BRİTANİYA ARASINDA İKİTƏRƏFLİ MÜNASİBƏTLƏR DƏRİN TARİXİ ƏNƏNƏLƏRƏ SÖYKƏNİR 722

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV TÜRKİYƏNİN IĞDIR VİLAYƏTİNİN VALİSİ SAİM SAFFET KARAHİSARLINI QƏBUL ETMİŞDİR 722

XİN-İN NÜMAYƏNDƏ HEYƏTİ MACARISTANDA SƏFƏRDƏ OLMUŞDUR 723

AZƏRBAYCAN RESPUBLİKASI XARİCİ İŞLƏR NAZİRLİYİNİN BƏYANATI 723

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ÜMUMDÜNYA TAEKVONDO FEDERASİYASININ PREZİDENTİ ÇANQVON ÇUNU QƏBUL ETMİŞDİR 724

GUAM XARİCİ İŞLƏR NAZİRLƏRİ ŞURASININ BƏYANATI 724

RUSİYA FEDERASİYASI HÖKUMƏTİNİN SƏDRİ MİXAİL FRADKOVUN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ 725

AZƏRBAYCAN-RUSİYA HÖKUMƏTLƏRARASI DANIŞIQLARI 725

SƏNƏDLƏRİN İMZALANMASI 726

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV RUSİYA HÖKUMƏTİNİN SƏDRİ MİXAİL FRADKOVU QƏBUL ETMİŞDİR 729

OPERA VƏ BALET TEATRINDA AZƏRBAYCANDA RUSİYA İLİNİN TƏNTƏNƏLİ BAĞLANIŞ MƏRASİMİ KEÇİRİLDİ 730

RUSİYA HÖKUMƏTİ SƏDRİNİN ŞƏRƏFİNƏ 732

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV TÜRKİYƏ JANDARMA QÜVVƏLƏRİNİN BAŞ KOMANDANI IŞIK KOŞANERİ QƏBUL ETMİŞDİR 732

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV FRANSA SAHİBKARLAR BİRLİYİNİN (MEDEF) QAFQAZ VƏ ORTA ASİYA KOMİTƏSİNİN ÜZVLƏRİNDƏN İBARƏT NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 733

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV TÜRKİYƏNİN "ALARKO" ŞİRKƏTİNİN PREZİDENTİ İSHAQ ALATONU QƏBUL ETMİŞDİR 734

ATƏT-İN NAZİRLƏR ŞURASI DAĞLIQ QARABAĞA DAİR BƏYANAT QƏBUL ETMİŞDİR 735

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV FRANSANIN ƏRAZİNİN ABADLAŞDIRILMASI MƏSƏLƏLƏRİ NAZİRİ KRİSTİAN ESTROZİNİ QƏBUL ETMİŞDİR 735

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV GÜRCÜSTANIN AVROPA ŞURASI PARLAMENT ASSAMBLEYASINDA NÜMAYƏNDƏ HEYƏTİNİN RƏHBƏRİ GİORGİ BOKERİANI QƏBUL ETMİŞDİR 736

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AŞPA-NIN MONİTORİNQ KOMİTƏSİNİN SƏDRİ, ASSAMBLEYANIN SİYASİ MƏSƏLƏLƏR KOMİTƏSİNİN ÜZVÜ EDUARD LİNTNERİ QƏBUL ETMİŞDİR 736

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AŞPA-NIN AVROPA XALQ PARTİYASI QRUPUNUN SƏDRİ LUK VAN DEN BRANDENİ, AVROPA DEMOKRAT QRUPUNUN SƏDR MÜAVİNİ DEVİD UİLŞİR VƏ SİYASİ

MƏSƏLƏLƏR KOMİTƏSİNİN ÜZVÜ STEF QORİSİ QƏBUL ETMİŞDİR 737

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV TÜRKİYƏNİN AVROPA ŞURASI PARLAMENT ASSAMBLEYASINDAKI NÜMAYƏNDƏ HEYƏTİNİN RƏHBƏRİ MURAT MERCANI QƏBUL ETMİŞDİR 737

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AŞPA-NIN SİYASİ MƏSƏLƏLƏR KOMİTƏSİNİN SƏDRİ ƏBDÜLQƏDİR ATƏŞİ QƏBUL ETMİŞDİR 738

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV DAĞISTAN NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 738

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV SƏUDİYYƏ ƏRƏBİSTANININ MƏDƏNİYYƏT VƏ İNFORMASİYA NAZİRİ İYAD İBN ƏMİN ƏL-MƏDƏNİNİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR 738

XARİCİ İŞLƏR NAZİRLİYİNDƏ AZƏRBAYCAN RESPUBLİKASININ DİPLOMATİK NÜMAYƏNDƏLİKLƏRİNİN KONSULLUQ MƏSƏLƏLƏRİ ÜZRƏ MƏSUL ƏMƏKDAŞLARININ BİRİNCİ MÜŞAVİRƏSİ KEÇİRİLİR 739

AZƏRBAYCAN RESPUBLİKASI XARİCİ İŞLƏR NAZİRLİYİNİN DİPLOMATİK AKADEMİYASININ NİZAMNAMƏSİNİN TƏSDİQ EDİLMƏSİ HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI 739

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ İLƏ PAKİSTAN İSLAM RESPUBLİKASI HÖKUMƏTİ ARASINDA AZƏRBAYCAN-PAKİSTAN BİRGƏ KOMİSSİYASININ AZƏRBAYCAN RESPUBLİKASI TƏRƏFİNDƏN YENİ TƏRKİBİNİN TƏSDİQ EDİLMƏSİ BARƏDƏAZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI 740

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AVROPA İTTİFAQININ CƏNUBİ QAFQAZ ÜZRƏ XÜSUSİ NÜMAYƏNDƏSİ PETER SEMNEBİNİ QƏBUL ETMİŞDİR 741

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV TÜRKİYƏNİN SƏNAYE VƏ TİCARƏT NAZİRİ ƏLİ COŞQUNU QƏBUL ETMİŞDİR 742

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ABŞ DÖVLƏT KATİBİNİN DEMOKRATİYA, İNSAN HÜQUQLARI VƏ ƏMƏK MƏSƏLƏLƏRİ ÜZRƏ MÜŞAVİRİ BARRİ LOUENKRONU QƏBUL ETMİŞDİR 742

İXRAC NƏZARƏTİ ÜZRƏ KOMİSSİYANIN VƏ İDARƏLƏRARASI EKSPERTLƏR QRUPUNUN YARADILMASI HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI 743

MİLLİ MƏCLİSİN SƏDRİ OQTAY ƏSƏDOV RUMİNİYAYA SƏFƏRİ 744

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ATƏT-İN DEMOKRATİK TƏSİSATLAR VƏ İNSAN HÜQUQLARI BÜROSUNUN DİREKTORU KRİSTİAN ŞTROHALI QƏBUL ETMİŞDİR 746

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV RUSİYANIN DAXİLİ İŞLƏR NAZİRİ RƏŞİD NURQALİYEVİ QƏBUL ETMİŞDİR 746

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV "RİA NOVOSTİ" AGENTLİYİNİN BAŞ DİREKTORU SVETLANA MİRONYUKU QƏBUL ETMİŞDİR 747

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV "EXO MOSKVI" RADİOSUNA MÜSAHİBƏ VERMİŞDİR 748

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV GÜRCÜSTANIN BAŞ NAZİRİ ZURAB NOĞAİDELİNİ QƏBUL ETMİŞDİR 761

UKRAYNANIN BAŞ NAZİRİ VİKTOR YANUKOVİÇİN AZƏRBAYCANA İŞGÜZAR SƏFƏRİ 761

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV UKRAYNANIN BAŞ NAZİRİ VİKTOR YANUKOVİÇİ QƏBUL ETMİŞDİR 761

UKRAYNA BAŞ NAZİRİNİN ŞƏRƏFİNƏ 762

UKRAYNANIN BAŞ NAZİRİ VİKTOR YANUKOVİÇİN ÇIXIŞI 762

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ÇIXIŞI 763

2006-CI İL İYUNUN 27-DƏ BAKI ŞƏHƏRİNDƏ İMZALANMIŞ"31 OKTYABR 1996-CI İL TARİXDƏ BAKI ŞƏHƏRİNDƏ İMZALANMIŞ "AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ İLƏ TÜRKİYƏ RESPUBLİKASI HÖKUMƏTİ ARASINDA SİLAHLI QÜVVƏLƏRİN TİBB HEYƏTİNİN TƏLİMİNƏ AİD ƏMƏKDAŞLIQ HAQQINDA PROTOKOL"A DƏYİŞİKLİK EDİLMƏSİNƏ DAİR ƏLAVƏ PROTOKOL"UN TƏSDİQ EDİLMƏSİ BARƏDƏ AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI 764

2006-CI İL SENTYABRIN 27-DƏ NYU-YORK ŞƏHƏRİNDƏ İMZALANMIŞ "AZƏRBAYCAN RESPUBLİKASI XARİCİ İŞLƏR NAZİRLİYİ VƏ QVATEMALA RESPUBLİKASI XARİCİ İŞLƏR NAZİRLİYİ ARASINDA ƏMƏKDAŞLIQ HAQQINDA PROTOKOL"UN TƏSDİQ EDİLMƏSİ BARƏDƏ AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI 764

2006-CI İL SENTYABRIN 29-DA HAVANA ŞƏHƏRİNDƏ İMZALANMIŞ "AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ İLƏ KUBA RESPUBLİKASI HÖKUMƏTİ ARASINDA ƏMƏKDAŞLIQ HAQQINDA SAZİŞ"İN TƏSDİQ EDİLMƏSİ BARƏDƏ AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI 765

AZƏRBAYCAN-ÇİN HÖKUMƏTLƏRARASI TİCARƏT-İQTİSADİ ƏMƏKDAŞLIQ KOMİSSİYASININ AZƏRBAYCAN RESPUBLİKASI TƏRƏFİNDƏN TƏRKİBİ HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI 765

XARİCİ İŞLƏR NAZİRLİYİNİN MƏTBUAT MƏRKƏZİNİN MƏLUMATI 766

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN 2006-CI İLDƏ DÖVLƏT, RƏSMİ VƏ İŞGÜZAR SƏFƏRLƏRİNİN SİYAHISI 771

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN 2006-CI İLDƏKİ GÖRÜŞLƏRİ BARƏDƏ MƏLUMAT 772

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN 2006-CI İLDƏKİ QƏBULLARI BARƏDƏ MƏLUMAT 783



T.: 994 12 - 510 24 65
F.: 994 12 - 510 24 87
M.: 994 50 - 213 44 33
e/p.:garisma@mail.ru

Yığılmağa verilmişdir : 30.09.2008
Çapa imzalanmışdır : 06.10.2008
Format : 70x100 1/16
Fiziki ç.v. : 53
Rəngli şəkillər (ç.v.) : 1
Tirajı : 500